AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ

II RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 29 noyabr 2023-cü il tarixli 04 saylı qərarı ilə nəşr edilib.

NAXÇIVAN-2025

BAŞ REDAKTOR

Elbrus İsayev – *Naxçıvan Dövlət Universitetinin rektoru*

REDAKTORLAR

Elsevər Əsədov – biologiya üzrə fəlsəfə doktoru, dosent
İman Cəfərov – filologiya üzrə fəlsəfə doktoru, dosent

REDAKSİYA HEYƏTİ

İsmayıl Hacıyev – akademik
Hacıfəxrəddin Səfərli – AMEA-nın müxbir üzvü
Mahirə Hüseynova – filologiya elmləri doktoru, professor
Tariyel Talıbov – akademik
Əbülfəz Quliyev – AMEA-nın müxbir üzvü
Vəli Baxşəliyev – AMEA-nın müxbir üzvü
Əlövsət Quliyev – AMEA-nın müxbir üzvü
Sədaqət Həsənova – filologiya elmləri doktoru, professor
Hacali Necefoğlu – professor
Emin Şıxəliyev – tarix elmləri doktoru
İbrahim Bayramov – filologiya elmləri doktoru, professor
Fərrux Rüstəmov– pedaqoji elmləri doktoru, professor
Cəbi Bəhramov – tarix üzrə fəlsəfə doktoru
Yusif Səfərov – filologiya elmləri doktoru, professor
Teymur Abbasov – iqtisad elmləri doktoru, professor
İnara Məhərrəmova – sənətşünaslıq elmləri doktoru

"Qərbi Azərbaycana qayıdış" II Respublika Elmi Konfrans materialları
(21-22 iyun 2024-cü il). Naxçıvan Dövlət Universitetinin Nəşriyyatı, Naxçıvan, 2025, 620 səh.

"Qərbi Azərbaycana qayıdış" Konqresinin materiallarında Qərbi Azərbaycanın tarixi-coğrafi məkanı, etno-mədəni irsi, dil və toponimika məsələləri ilə bağlı arxiv sənədləri və tarixi mənbələr əsasında aparılmış elmi araşdırmaların nəticələri öz əksini tapmışdır. Nəşrdə regionun demoqrafik prosesləri, mədəni irsin qorunması, Qərbi Azərbaycana qayıdış ideyasının elmi, hüquqi və ictimai əsasları, eləcə də bu prosesin müasir dövrdə yaratdığı çağırışlar və perspektivlər müxtəlif elmi yanaşmalar çərçivəsində təhlil olunur. Konqres materiallarında yerli və xarici tədqiqatçıların Qərbi Azərbaycana dair tarixi həqiqətlərin elmi əsaslarla təqdiminə, mədəni yaddaşın bərpasına və qayıdış konsepsiyasının akademik müstəvidə əsaslandırılmasına dair məruzələri yer alır. Nəşr tarix, filologiya, hüquq, sosial elmlər sahəsində çalışan alimlər, tədqiqatçılar, doktorantlar və magistrantlar, eləcə də Qərbi Azərbaycan mövzusuna maraq göstərən geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

MÜNDƏRİCAT

Azərbaycan Respublikasının Elm və təhsil naziri Emin Əmrullayevin çıxışı..... 9

Naxçıvan Dövlət Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Naxçıvan MR nümayəndəsi Elbrus İsayevin çıxışı..... 11

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərlinin çıxışı..... 13

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın çıxışı. 15

İğdır Universitetinin rektoru, professor Məhmət Hakkı Almanın çıxışı..... 17

İsmayıl Hacıyev. Ermənistan dövlətinin əzəli Azərbaycan torpaqlarında yaradılması..... 19

Bəxtiyar Həsənov. XIX əsrin sonu XX əsrin əvvəllərində Zəngəzur qəzasında demoqrafik durum 26

Cəbi Bəhramov. XIX-XX əsrlərdə Rusiya imperiyası və sovet Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalı, Qərbi Azərbaycan torpaqlarında qondarma Ermənistan "dövləti"nin yaradılması və SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlər..... 30

Şəkər Məmmədova. 100 illik Naxçıvan Muxtar Respublikasında Kazım Qarabəkir paşanın rolu 40

Xəzər Hüseynov, Fəxriyyə Hüseynova. Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası tarixindən (1918-1920-ci illər) 45

Nazim Mustafa. Azərbaycanlıların Qərbi Azərbaycandan 1948-1953-cü illər deportasiyasında İ.Stalin və Eçmiədzin katolikosluğunun rolu 49

Elçin Zamanlı. İrəvan Quberniyasının türk-müsəlman əhalisinin ermənilərə qarşı uğurlu müqavimətində Məhəmməd Xan Təkinskinin rolu 54

Rimunə Hüseynova. XX əsrin ikinci yarısında Qərbi Azərbaycanda (Ermənistan SSR-də) azərbaycanlılara qarşı təzyiqlərin güclənməsi 63

Abdulla Mustafayev. XX əsrin əvvəllərində İrəvan Quberniyasında azərbaycanlıların soyqırımı faktların dili ilə 67

Samirə Məmmədova, Kəmalə Babayeva. II Dünya müharibəsindən sonra Qərbi azərbaycanlıların öz torpaqlarından deportasiyası: səbəblər və nəticələr 72

Leyla Əliyeva. Rusiya ordusunun İrəvan xanlığına üçüncü yürüşü 76

Hicran Mahmudova. Qərbi Azərbaycan arxeologiyası: qəbir abidələri mənəvi sərvətimiz kimi 80

Sabirə Bayramova. Qərbi Azərbaycanda "Qırmızı taborun" fəaliyyəti..... 84

Mehman Süleymanov. İrəvan xanlığının işğalı ərəfəsində Rusiyanın Cənubi Qafqazdakı hərbi qüvvələrinin vəziyyəti 87

Rəsul Bağırov. Osmanlı idarəçiliyi dövründə Dərələyəz əhalisinin vergi mükəlləfiyyətləri 90
Əbülfəz Quliyev, Aliyə Quliyeva. Qərbi Azərbaycanın mədəni sərvətləri XX əsr İrəvan mədəni-ədəbi mühitinə dair 94
Rahibə Əliyeva. İrəvanda Azərbaycanın tarixi-mədəni irsinin məhvi 97
Mətanət Quliyeva. Qərbi Azərbaycanın məişət və mədəniyyəti 103
Jalə Qulamova. XX əsrin I yarısında İrəvan teatrında səhnəyə qoyulmuş musiqili səhnə əsərləri 108
Əli Cabbarov. Qərbi Azərbaycanın Qarakilsə rayonunun turizm ehtiyatlarının cazibə elementləri 114
Flora Kərimova. Qərbi Azərbaycana qayıdışın Azərbaycan turizminin inkişafı və tarixi-mədəni irsinin qorunması baxımından əhəmiyyəti 117
Rövşən Bağırov, Nizami Quliyev, Mirsəlim Eminov. Qərbi Azərbaycanın Dərələyəz mahalının tarixinə baxış 120
Fəxriyyə Həvilova. Qərbi Azərbaycanın maddi və mənəvi irsi 122
Günel İsayeva. Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat və turizm infrastrukturunun Zəngəzur dəhlizi ilə inteqrasiya perspektivləri 129
Gülxarə Əhmədova. Qədim, fədakar sənət ocağı – İrəvan Dövlət Azərbaycan Dram Teatrı və çağdaş təşkilatlanma məsələsi..... 133
Sevda Axundova. Tarixi torpağımız Qərbi Azərbaycanın maddi-mənəvi irsi..... 140
Amil Əsgərov. Naxçıvan musiqi mədəniyyətində Qərbi Azərbaycan yallı areal 146
Həbibə Allahverdiyeva. Naxçıvanda yaşamış Qərbi azərbaycanlı rəssamların yaradıcılığında təbiət motivləri 150
Həbibə Məmmədova. Qərbi Azərbaycan musiqi mədəniyyəti – Aşıq sənəti 155
Sevinc Tangudur. Qərbi Azərbaycan tarixi-mədəni kontekstdə 158
Gülnarə Qənbərova. İrəvan qalasının memarlığı 162
Салина Асланханова. Историко - культурное наследие Иревана как составная часть исламской культуры 177
İbrahim Bayramov. "Kitabi-Dədə Qorqud"da Göyçə mahalının onomastikası və ya "Kitabi-Dədə Qorqud"un coğrafi mühiti haqqında 182
Bayram Apoyev. Qərbi Azərbaycanın Vedibasar mahalının Azərbaycan-türk toponimləri..... 187
Arifə Əhmədli. Göyçədə saxtalaşdırılmış toponimlər haqqında 190
Qənirə Əsgərova. Ağ Aşıq yaradıcılığının sintaktik xüsusiyyətləri 193
Arifə Zeynalova. Ağbaba şivəsi və Qərbi Azərbaycan toponimlərinin tədqiqi məsələləri..... 198
Nuray Əliyeva. Qərbi Azərbaycan və Naxçıvan şivələrinin ortaq fonetik xüsusiyyətləri..... 205

Mehriban Əsədullasoy (Quliyeva). Dərələyəzli Aşıq Cəlilin poeziyasının bədii dil xüsusiyyətləri 210
Sərdar Zeynal. Həsən Mirzəyevin yaradıcılığında Qərbi Azərbaycan toponimlərinin tədqiqi (Dərələyəz mahalının toponimləri əsasında) 214
Qalibə Hacıyeva. Qərbi Azərbaycan toponimiyasında qədim türk boylarının tarixi izləri 218
Zülfiyyə İsmayıl. Qərbi Azərbaycandakı paleotoponimlərin konseptual tədqiqi.. 236
Ələddin Eyvazov. Qərbi Azərbaycan toponimlərinə konseptual elmi baxış 239
Ülviyyə İsgəndərova. Qərbi Azərbaycanın Dərələyəz mahalının türk mənşəli toponimləri 241
Nigar Həsənova. Qərbi Azərbaycan folklorunda toponimlər 245
Almaz Bədəlova. Qərbi Azərbaycan şivələrində işlənən sözlərin Mahmud Kaşğarinin "Divani-lüğət-it türk" əsərində izləri 249
Mətanət Muradova, Məsmə Mahmudova. Orta əsr irəvanlı təbibin əsəri əlyazmalar xəzinəsində 254
Almaz Ülvi Binnətova. Göyçə mahalı – göy çiçəyim ("Göyçə mahalı Kəsəmən: bir kəndin tarixindən səhifələr: elmi-tarixi qeydlər, portretlər, publisistik düşüncələr, səcərələr" kitabı kontekstində) 255
Tahir Nəsib. Ağbaba-Şörəyel folklor təhkiyə strukturunda epik, lirik əvəzlənməsi..... 257
Xumar Məmmədova. Göyçəli Aşıq Nəcəfin yaradıcılıq yolu 260
Sədaqət Nemətova. Qərbi azərbaycanlıların folklorumuzda ürəkdağlayan yurd nisgili..... 263
Çinarə Rzayeva. Göyçə aşıq mühitinin haqq ozanı Aşıq Ələsgər şeirlərində aforizmləşmiş ifadələr 269
Sahilə Abbasova. İbtidai siniflərdə Qərbi Azərbaycan folklor materiallarının tədrisi və milli-mənəvi dəyərlərin aşılanması 273
Tahirə Məmməd. Xanlıqlar dövrü və XIX əsr İrəvan-Azərbaycan ədəbi mühiti..... 276
Yusif Səfərov. Qəhrəmanlıq dastanlarında Qərbi Azərbaycan 281
Səba Namazova. Əli Vəliyevin "Budağın xatirələri" avtobioqrafik romanında Zəngəzur..... 285
Elxan Məmmədov. Zaur Vedili yaradıcılığında yurd həsrətinin poetik ifadəsi 287
Şərəbanı Məmmədova. "İrəvani" imzası ilə tanınan Azərbaycan ziyalıları 293
Aygün Orucova. Vətən-Vedi-Xalisa dərdli Zaur Vedilinin dramaturgiyası 298
Şəlalə Məmmədova. Qərbi Azərbaycan folkloru 302
İnara Məhərrəmova. Qərbi Azərbaycan aşıqlarının poeziyası bəstəkarların yaradıcılığında 306

Solmaz Bayramova, Salatın Hacıyeva. Qərbi Azərbaycanda təhsilin və mədəniyyətin inkişafı 311
Nazlı Yaqubova. İtirilmiş tarixi Azərbaycan torpaqları: Qərbi Azərbaycan..... 315
Gülbəniz Babaxanlı. Ərtoğrol Cavid Qərbi Azərbaycan aşıqları haqqında 318
Telman Qəniyev, Afaq Qəniyeva. Qərbi Azərbaycan mədəniyyəti: Ağbaba mahalının musiqi folkloru 321
Rübabə Şirinova. Qafqazın Şeyxülislamı - Fazil İrəvani 327
Fərrux Rüstəmov. İrəvan qəza məktəbinin azərbaycanlı müəllimləri 330
Qadir Əkbərov. 1920-1930-cu illərdə Qərbi Azərbaycanda maarif işinin təşkili 333
Nailə Qardaşbəyova. Dünya elminə böyük töhfə verən Qərbi azərbaycanlı görkəmli alim 337
Sevinc Rzayeva, Tofiqə Nadirova. Qərbi Azərbaycanın bərpa olunan enerji mənbələri 341
Siyavuş Bağırov. Qərbi Azərbaycana qayıdış prizmasından "Ermənistan dövlət müstəqilliyi haqqında" bəyannamənin 4-cü maddəsinin şərhi 345
Yusif Mirzəzadə. Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri: insan haqları və hüquqi təminatlar 351
Hafiz Hüseynov, İmmi Hüseynova. Qərbi Azərbaycan ərazisinin tarixi-mədəni irsinin tanıdılması zamanın tələbi kimi 358
Hilal Qasımov, Mürsəl Seyidov, Turan Məmmədli. Qərbi Azərbaycan florasının relikt bitkiləri 361
Sahib Hacıyev, Akim Axhundov. Qərbi Azərbaycanın torpaq örtüyü 365
Gülşən Kəngərlinskaya. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm potensialının yaradılmasına dair dövlət proqramlarının icrası nəticələri 372
Sədaqət Əhmədova. Qərbi Azərbaycan: maddi-mədəni irsimiz 379
Meleyke Memmedova. Amasya ve Nahçıvan`dan Erivan`a Batı Azerbaycan kültüründe düğün ritüelleri 382
Almaz Şabanova. Qərbi Azərbaycanın toy adət-ənənələri 393
Ruhiyyə Rzayeva. Qərbi Azərbaycanın tarixi abidələri və mədəni irsinin qorunması məsələləri 398
Fəxriyyə Cəfərova. Qərbi Azərbaycan - tarixi torpaqlarımız 403
Aytəkin Qəhrəmanova. Qərbi Azərbaycanın milli mətbəxi 407
Nigar Ramazanova. İrəvan mədəni irsi 411
Zenfira Seyidova. Zəngəzurun epiqrafik abidələri 418
Bilal Hüseynov. Qərbi Azərbaycanın mental dəyərlərini yaşadan folklor örnəklərinin janr imkanları 421

Rəsmiyə Tağıyeva. Qərbi Azərbaycanın unudulmuş yeməkləri 426
Nuray Məmmədli, Sevda Ocaqquliyeva. Qərbi Azərbaycan abidələrinə qarşı törədilmiş soyqırım 430
Həbib Allahverdiyev. Qərbi Azərbaycan təsviri incəsənətin batal janrında 433
Məhsəti Əsgərova. Böyük İpək Yolunun alternativi: Zəngəzur dəhlizi 437
Ülkər Həsənzadə. Qərbi Azərbaycanın karvansaraları 441
İlqar Kəngərli. Kəngərlər Cənubi Qafqazda 445
Ələkbər Cabbarlı. Qərbi Azərbaycan: Zəngəzur xəyanəti 448
Самира Абдуллаева. Древний город Иреван – жемчужина западного Азербайджана 452
Əli Qurbanov, Nigar Bababəyli. Zəngəzur soyqırımı Xocalıda davam edib 457
Zaman Abbaslı. Vedili hərbçi Abbasqulu bəy Şadlinski Şərurda 461
Nuray Hacıyeva. Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların məcburi və zorla köçürülməsi gerçəkliyi 465
Çinarə İsmayılova. Qərbi Azərbaycanın tarixi keçmişi, toponimlərinin öyrənilməsində akademik Budaq Budaqovun tədqiqatlarının əhəmiyyəti 469
Münəvvər Süleymanova. XX əsrin 20-30-cu illərində Qərbi Azərbaycandan Naxçıvana köçlər 472
Reyhan Yunisova. İlham Əliyev və Böyük Qayıdış Konsepsiyası 475
Şəbnəm Əliyeva. Qərbi Azərbaycan qədim Azərbaycan torpağıdır 478
Afaq Əliyeva. Qərbi Azərbaycandan olan alimlərin botanika elminin inkişafında rolu 482
Vəfa İsgəndərova. Qərbi Azərbaycanın türk mənşəli toponimikasında Çəmbərək və Əmirxeyirin yeri 485
Pərviz Allahverdiyev. Qərbi Azərbaycan soydaşlarımızda hərbi vətənpərvərlik ruhu 489
Dilqəm Əhməd. İrəvan gimnaziyasının məzunu olan Türkiyə parlamentinin üzvü Rza Yalçın (İsmixanov) 492
İsmayıl Zeynalov, Bəsrət Zeynalov. Qərbi Azərbaycan mahalı – Gorus 493
Ərtegin Salamzadə. İrəvan Sərdarı sarayının memarlığı və bədii tərtibatı 496
Afət Rəfiyeva. Sabir irsi Cəfər Xəndan yaradıcılığında 497
Nurlana Əliyeva. Müstəqillik dövrü Naxçıvan ədəbi mühitində Cənubi Azərbaycan və Türkiyə mövzusu 501
Könül Səmədova. Qərbi Azərbaycanın (indiki Ermənistanın) türk mənşəli etnotoponimlərinin leksik-semantik xüsusiyyətləri 507
Əli Həşimov. Göyçə aşıq mühiti tarixi povestlərdə *(Gülhüseyn Hüseynoğlunun "Yana-yana" povesti əsasında)* 509

Ramiz Qasımov. Naxçıvanda məskunlaşan Qərbi azərbaycanlıların vətən həsrəti və qayıdış ümidlərinin poetik ifadəsi 514

İsmayıl Qəribli. Qərbi Azərbaycana qayıdış kontekstində qaçqınların repatriasiyası və reinteqrasiyasının beynəlxalq-hüquqi tənzimlənməsi 523

Elnarə Seyidova, Nailə Əliyeva, Məhəmməd Quliyev. Qərbi Azərbaycanın hidronimləri 529

Arzu Abbasova. Qədim Osmanlı qaynaqlarındakı bəzi Qərbi Azərbaycan etnotoponimləri haqqında 532

Mehriban İmanova. Qərbi Azərbaycan və İpək Yolu ticarəti 537

Aypara Behbudova. Qərbi Azərbaycan mövzusu bədii ədəbiyyatda 540

Aytən Cəfərova. Qərbi Azərbaycanın etno-mədəni mühiti xatirə və faktlarda..... 546

Bulqeyis Novruzova. Zəngəzur dəhlizinin dünya iqtisadiyyatı üçün əhəmiyyəti 552

Fəxrəddin Cəfərov, Nadir Hüseynbəyli. XX yüzillikdə Qərbi Azərbaycanda, Naxçıvan bölgələrində və Zəngəzur qəzasında erməni vəhşilikləri: sənədlərin dili ilə 556

Zamin Əliyev. XX əsrin başlanğıcında İrəvan bölgəsində mövcud durum və dəyişikliklər 561

Mehriban Sultan. Qərbi Azərbaycan icması və onun Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşdırılması istiqamətində fəaliyyəti 565

Pərvanə İbrahimova, Könül Niftəliyeva. Ağbaba-Şörəyelin Qaraçantası: tarixi, mədəni-irsi, adət-ənənələri..... 573

Əpoş Vəliyev. Qərbi Azərbaycanın adət-ənənələri..... 578

Foto qalereya...... 582

AZƏRBAYCAN RESPUBLİKASİNİN ELM VƏ TƏHSİL NAZİRİ EMİN ƏMRULLAYEVİN ÇIXIŞI

Xanımlar və cənablar, hörmətli tədbir iştirakçıları! Hər birinizi doğma Naxçıvanda, "Qərbi Azərbaycana Qayıdış" festivalında ürəkdən salamlayıram.



Çox şadam ki, builki festival Azərbaycanın ən dilbər guşələrindən biri olan Batabat yaylasında təşkil olunur. Ancaq düşünürəm ki, bu, festivalın yeganə özəlliyi deyil. Hazırda dayandığımız yerdən cəmi bir neçə kilometr uzaqda vaxtilə həmvətənlərimizin yaşadığı Qərbi Azərbaycan kəndləri yerləşir. Yəni builki festival bizi həm ruhən, həm də coğrafi olaraq Qərbi Azərbaycana daha da yaxınlaşdırır.

Hörmətli qonaqlar, biz ikinci dəfədir ki, həvəslə bu tədbirdə iştirak edirik. Tam məsuliyyətlə demək olar ki, bu mühüm tədbir artıq Qərbi Azərbaycana qayıdış mövzusuna həsr olunmuş sanballı bir ictimai-mədəni müzakirə platforması rolunu oynamaqdadır. Ötən il biz festival çərçivəsində cənab Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdışa dair strateji tezislərinin icrası ilə bağlı geniş fikir mübadiləsi apardıq. Bu məqamda istərdim ki, tədbir zamanı hamımızın həmrəy olduğu bir fikri də xatırladım: "Qərbi Azərbaycana qayıdış ümummilli məsələdir və hər birimiz bu istiqamətdə əlimizdən gələni etməliyik". Keçən il mən öz çıxışımda uşaq və gənclər arasında maarifləndirmə, təbliğat işlərinin vacibliyini qeyd etdim və təklif etmişdim ki, biz məktəblilər arasında Qərbi Azərbaycana qayıdışla bağlı bilik yarışı təşkil edək. Onun final mərhələsi və mükafatlandırma mərasimini isə Naxçıvan şəhərində qeyd edək. Ən azı düşünürəm ki, Qərbi Azərbaycanla bağlı bir arzumuza bu gün qovuşuruq və bir qədər sonra artıq siz həmin qalibləri bu səhnədə görəcəksiniz. Bu il, yəni 2024-cü ildə Elm və Təhsil Nazirliyinin Təhsil İnstitutu, Qərbi Azərbaycan İcması, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq çərçivəsində "Qərbi Azərbaycana Qayıdış" olimpiadası baş tutdu. Çox qürurvericidir ki, ölkəmizin müxtəlif bölgələrindən olan 10 mindən çox şagird bu bilik yarışında fəal iştirak etdi. Onlar Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəni irsi, toponimləri, tarixi şəxsiyyətləri ilə bağlı biliklərini nümayiş etdirdilər. Dünən Naxçıvan Dövlət Universitetində 36 şagirdin iştirakı ilə olimpiadanın final mərhələsi keçirildi. Bir azdan biz böyük məmnuniyyətlə birinci, ikinci və üçüncü yerləri tutan şagirdlərimizi birlikdə təltif edəcəyik. Əminəm ki, bu gün tədbirimizdə iştirak edən finalçı və qaliblərimiz, yəni Bakı, Göyçay, Ucar, Sumqayıt, Ağstafa, Cəbrayıl, Ağdam, Cəlilabad, Qəbələ, İsmayıllı və eyni zamanda Naxçıvandan olan məktəblilərimiz bu əlamətdar günü heç vaxt unutmayacaqlar.

Hörmətli festival iştirakçıları! Möhtərəm cənab Prezident Qərbi Azərbaycana qayıdışı bizim üçün tarixi bir missiya olaraq müəyyən edib. Çünki bu doğma evlərindən, ibadət yerlərindən, mədəniyyət abidələrindən məhrum edilmiş minlərlə həmvətənimizin insan hüquqları məsələsidir. Bu hüquqların bərpası üçün hər bir azərbaycanlı öz sahəsində və səlahiyyətləri çərçivəsində davamlı, ardıcıl, həmçinin sistemli iş aparmalıdır. Öz növbəmdə Elm və Təhsil Nazirliyi olaraq düşünürəm ki, biz həm məktəblərdə, həm də ali təhsil müəssisələrində təhsilalanlar və təhsilverənlərlə Qərbi Azərbaycan barədə daha çox danışmalı, araşdırmalı, öyrənməli və öyrətməliyik. Bu məqsədlə düşünürəm ki, bir neçə istiqamətdə hələ də görüləcək çox işlərimiz var. Xüsusilə "Qərbi Azərbaycana Qayıdış" olimpiadasının digər olimpiadalar kimi ənənəvi hal alması və digər müsabiqələr kimi özünəməxsus bir bilik yarışına çevrilməsini arzu edirəm. Eyni zamanda ali təhsil tələbələri arasında da oxşar araşdırmaların, müsabiqələrin və maarifləndirmə tədbirlərinin keçirilməsini çox uyğun hesab edirik. Yəqin ki, hamı razılaşar ki, təhsildə hər şey daha çox müəllimlərdən asılıdır. Ona görə də xüsusilə gənc müəllimlərin və Gənc Müəllimlər Assosiasiyasının Qərbi Azərbaycana qayıdış forumlarının və bu tip festivallarda ayrıca olaraq onların müvafiq müzakirələrin aparılması, düşünürəm ki, olduqca vacibdir. Qərbi Azərbaycana həsr olunmuş elmi araşdırmaları təşviq edən qrant layihələrinin verilməsini də hal-hazırda nəzərdən keçiririk.

Hörmətli tədbir iştirakçıları, biz Azərbaycan tarixinin ən qürurlu günlərini yaşayırıq. Biz cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan əsgərinin qazandığı zəfərin, eləcə də yenidən qurulan, inkişaf edən Qarabağın şahidləriyik. Biz Laçın, Zəngilan, Ağdərə, Füzuli məktəblərində keçirilən bilik günlərinin, son zəng tədbirlərinin şahidləriyik. Bu il dövlətimiz tərəfindən Qarabağda daha altı məktəb istifadəyə veriləcək,

səkkizinin isə tikintisinə başlanılacaq. Bu il Şuşa Real Məktəbinin bərpası və Zəngilan şəhəri tam orta məktəbi üçün 960 şagirdlik yeni binanın tikintisi də davam etdiriləcək. Ağdam və Zəngilanda iki uşaq bağçasının, Füzulidə isə peşə liseyinin tikintisi davam etdiriləcək. Həmçinin dörd yeni peşə təhsili müəssisəsinin tikintisinə başlanılacaq. Şuşa şəhər Kollecinin bərpasına start veriləcək. Nəhayət, növbəti tədris ilində Qarabağ Universiteti ilk tələbələrini salamlayacaq. Onlar 26 ixtisas üzrə təhsilə başlayacaqlar. Hədəfimiz odur ki, universitet tezliklə ölkəmizin və regionun ən aparıcı ali təhsil müəssisələrindən və elm mərkəzlərindən birinə çevrilsin, müasir dövrün tələblərinə uyğun mütəxəssislər hazırlasın. Ümid edirəm ki, yaxın gələcəkdə biz Qarabağ Universitetinin tələbələri arasında "Qərbi Azərbaycana Qayıdış" olimpiadasının qaliblərini də görə biləcəyik.

Əziz dostlar, bu festival bizim tarixi yaddaşımıza, mədəni irsimizə olan hörmətin, gələcəyimizə olan inamın təzahürüdür. Bu festival çıxdığımız yolun ifadəsidir. Hər birinizə bu yolda fikir aydınlığı, güc və qətiyyət arzu edirəm. Çıxışımın sonunda olimpiadanın qaliblərini qazandıqları uğur münasibətilə bir daha təbrik edir, bu möhtəşəm festivalın təşkilində əməyi olan hər kəsə dərin təşəkkürümü bildirirəm.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN REKTORU, QƏRBİ AZƏRBAYCAN İCMASININ NAXÇIVAN MR NÜMAYƏNDƏSİ ELBRUS İSAYEVİN ÇIXIŞI

Hörmətli qonaqlar, dəyərli alimlər və tədqiqatçılar, əziz tələbələr, xanımlar və cənablar!



Sizi artıq ikincisi keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresində səmimi qəlbdən salamlayır, hər birinizi bu möhtəşəm təbiət qoynunda görməkdən böyük məmnunluq duyduğumu bildirirəm. Bu gün burada toplaşmağımız təkcə bir tədbirin keçirilməsi deyil, həm də milli yaddaşımızın, tarixi şüurumuzun və mənəvi birliyimizin təntənəsidir. Təsadüfi deyil ki, bu dəfəki tədbirimiz məhz Zəngəzur Milli Parkı ərazisində, əsrarəngiz təbiəti ilə seçilən Batabat yaylağında keçirilir. Bu məkanın seçilməsi dərin rəmzi məna daşıyır. Batabat yaylağı ucalığı, saflığı və əzəməti ilə xalqımızın ruhunu xatırladır. Burada dağların vüqarı, səmanın aydınlığı, təbiətin saf nəfəsi insana həm güc, həm də inam verir. Qərbi Azərbaycana qayıdış ideyasının belə bir məkanda səsləndirilməsi həm də torpaqla bağlılığımızın, tarixə sədaqətimizin və gələcəyə inamımızın ifadəsidir.

Qərbi Azərbaycan əsrlər boyu xalqımızın mədəni, ədəbi və elmi həyatında mühüm rol oynamışdır. Bu ərazilər Azərbaycan xalqının etnik və tarixi varlığının formalaşdığı mühüm coğrafi məkanlardan biridir. Orada yaradılmış maddi-mədəni irs nümunələri, qədim yaşayış məskənləri, qəbiristanlıqlar, məscidlər, toponimlər və folklor ənənələri xalqımızın bu torpaqlardakı minillik izlərini təsdiq edir. Tarix yalnız arxiv sənədlərində deyil, həm də xalqın yaddaşında, musiqisində, ədəbiyyatında və adət-ənənələrində yaşayır.

Lakin tariximizin müəyyən mərhələlərində soydaşlarımız öz doğma yurdlarından deportasiyaya məruz qalmış, mədəni irsimiz dağıdılmış, toponimlər dəyişdirilmiş, izlər silinməyə çalışılmışdır. Bu, təkcə fiziki köç deyildi – bu, həm də mənəvi ağrı, yaddaşa vurulan zərbə idi. Ancaq xalqın tarixi yaddaşı heç vaxt silinmədi. Çünki milli kimlik torpaq qədər möhkəm, dağlar qədər əzəmətlidir.

Bu gün Azərbaycan dövləti güclü siyasi iradə ilə tarixi həqiqətlərin beynəlxalq müstəvidə tanıdılması istiqamətində ardıcıl siyasət həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Qərbi Azərbaycan məsələsinin beynəlxalq hüquq normaları çərçivəsində gündəmə gətirilməsi, soydaşlarımızın hüquqlarının müdafiəsi və onların təhlükəsiz və ləyaqətli qayıdış hüququnun vurğulanması bu istiqamətdə atılmış mühüm addımlardır. Bu siyasətin ideoloji əsasları isə Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş milli dövlətçilik konsepsiyasına dayanır. Bu gün Azərbaycan öz sözünü deyən, mövqeyini qətiyyətlə müdafiə edən güclü dövlətdir.

Bu gün "Qərbi Azərbaycana Qayıdış" konsepsiyası milli ideyamızın mühüm istiqamətlərindən biri kimi formalaşmışdır. Bu konsepsiya hər hansı ərazi iddiası deyil, beynəlxalq hüquqa əsaslanan, insan hüquq və azadlıqlarına söykənən, soydaşlarımızın öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaq hüququnun tanınmasını nəzərdə tutan ədalətli bir yanaşmadır. Qayıdış ideyası həm tarixi ədalətin bərpası, həm də insan hüquqlarının təmin olunması məsələsidir.

Qərbi Azərbaycana qayıdış ideyasının daha inamla səsləndirilməsi isə şübhəsiz ki, tarixi Zəfərimizdən sonra mümkün olmuşdur. 2020-ci ildə Azərbaycan Ordusunun qazandığı möhtəşəm Qələbə ilə ölkəmiz ərazi bütövlüyünü bərpa etdi və uzun illər davam edən işğala son qoydu. Bu Zəfər xalqımızın milli birliyinin, dövlətimizin gücünün və ordumuzun qüdrətinin göstəricisi oldu. Vətən müharibəsində qazanılmış Qələbə yalnız torpaqların azad olunması deyil, həm də milli özünəinamın, tarixi ədalətə inamın bərpası idi.

Zəfərimiz göstərdi ki, Azərbaycan dövləti milli maraqlarını təmin etmək əzmində və gücündədir. Bu Qələbə yeni mərhələnin başlanğıcı oldu – quruculuq, bərpa və strateji təşəbbüslər mərhələsi. Eyni zamanda, bu Zəfər Qərbi Azərbaycan məsələsinin də daha inamla və prinsipial şəkildə gündəmə gətirilməsinə zəmin yaratdı. Güclü dövlət, güclü ordu və milli birlik konsepsiyası Qərbi Azərbaycana qayıdış ideyasının da arxasında dayanan əsas qüvvədir.

Hörmətli tədbir iştirakçıları,

Tədbirimiz iki hissədən ibarət olacaqdır. Birinci hissədə festival proqramı təqdim olunacaqdır. Festival bölümü Qərbi Azərbaycanın zəngin mədəni irsinin nümayişinə həsr olunmuşdur. Burada ədəbi-bədii

kompozisiyalar, folklor nümunələri, musiqi təqdimatları, sərgilər və mədəni çıxışlar yer alacaqdır. Bu hissə bir daha göstərir ki, Qərbi Azərbaycan yalnız tarixi-siyasi anlayış deyil, həm də mədəniyyət, ruh və kimlik məsələsidir. Musiqimizdə, aşıq sənətimizdə, el havalarımızda, bayatılarımızda o torpaqların nəfəsi yaşayır.

Festival hissəsi gənclərimiz üçün xüsusi əhəmiyyət daşıyır. Çünki milli yaddaş yalnız kitablarla deyil, həm də sənət və emosional təcrübə vasitəsilə ötürülür. Gənc nəsil Qərbi Azərbaycan mədəniyyətini səhnədə, musiqidə, poeziyada görərək onu daha dərindən dərk edir. Bu isə vətənpərvərlik hisslərinin möhkəmlənməsinə, tarixi kimliyimizin şüurlu şəkildə mənimsənilməsinə xidmət edir.

Tədbirimizin ikinci hissəsi isə konqres formatında davam edəcəkdir. Konqres çərçivəsində alimlərimiz və tədqiqatçılarımız Qərbi Azərbaycan məsələsini tarixi, hüquqi, siyasi, demoqrafik və mədəni aspektlərdən təhlil edəcəklər. Arxiv sənədlərinə, elmi mənbələrə və faktlara əsaslanan məruzələr məsələnin obyektiv və akademik şəkildə araşdırılmasına imkan verəcəkdir. Məqsədimiz emosional ritorika deyil, elmi əsaslandırılmış mövqedir.

Universitet olaraq bizim borcumuz tarixi həqiqətləri elmi əsaslarla araşdırmaq, gənc nəslə düzgün və obyektiv şəkildə çatdırmaqdır. Ali təhsil müəssisələri yalnız bilik ocağı deyil, həm də milli şüurun formalaşdığı mərkəzdir. Burada formalaşan fikir gələcəkdə cəmiyyətin intellektual və ideoloji istiqamətini müəyyən edir. Buna görə də belə konqreslərin təşkili bizim üçün həm elmi, həm də mənəvi məsuliyyətdir.

Festival-konqresə əslən Qərbi Azərbaycandan olan vətəndaşlar, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, eyni zamanda Qərbi Azərbaycan İcmasının, Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin, Elm və Ali təhsil üzrə Dövlət Agentliyinin, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Milli Konservatoriyasının, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Bakı Mühəndislik Universitetinin, Azərbaycan Turizm və Menecment Universitetinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Dillər Universitetinin, Bakı Slavyan Universitetinin, Dövlət Gömrük Komitəsi Akademiyasının, Naxçıvan Müəllimlər İnstitutunun, AMEA Naxçıvan Bölməsinin, Aşıqlar Birliyinin, Rəssamlar Birliyinin, Vəkillər Kollegiyası Akademiyasının, Naxçıvan Muxtar Respublikasının yerli və mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də qardaş ölkə Türkiyədən İğdır Universitetinin rəhbərləri və geniş tərkibdə heyətləri təmsil olunur. Festival-konqresdə Azərbaycanın və Türkiyə Respublikasının bir sıra aparıcı universitetlərinin rektorları, millət vəkilləri, akademiklər, incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak edir.

Konqres 7 istiqamət, 24 çıxışlı panel və 5 poster təqdimatından ibarət olmaqla 29 paneldə üz-üzə və onlayn (hibrid) formada təşkil edilmişdir.

Konqresdə 44 müəssisə üzrə 301 sayda əməkdaş iştirak edir.

Batabat yaylağının bu möhtəşəm mənzərəsi fonunda keçirilən festival-konqres bizə bir daha xatırladır ki, torpaq anlayışı bizim üçün sadəcə coğrafi məkan deyil. Torpaq – tarixdir, yaddaşdır, kimlikdir. Bu dağların ucalığı bizə əyilməməyi, bu sükut bizə düşünməyi, bu genişlik bizə gələcəyə inamla baxmağı öyrədir. Qərbi Azərbaycana qayıdış ideyası da məhz bu mənəvi gücdən qaynaqlanır. Əminəm ki, bu gün burada səslənəcək fikirlər, təqdim olunacaq mədəni proqramlar və aparılacaq elmi müzakirələr hər bir iştirakçı üçün dərin təəssürat yaradacaqdır. Bu tədbir təkcə bir günün proqramı deyil, həm də gələcək fəaliyyətlər üçün ideya platforması olacaqdır. Burada formalaşan elmi nəticələr, təkliflər və təşəbbüslər gələcək araşdırmalar üçün yol xəritəsi rolunu oynayacaqdır.

Gələcəyə inamımız möhkəmdir. Çünki biz güclü dövlətə, milli birliyə və zəngin tarixi irsə malikik. Ədalətə əsaslanan mövqe gec-tez öz bəhrəsini verir. Qərbi Azərbaycan məsələsi də məhz hüquqa, tarixi həqiqətlərə və insan hüquqlarına söykənən bir məsələdir.

Sonda bu tədbirin təşkilində əməyi olan hər kəsə – alimlərimizə, müəllimlərimizə, tələbələrimizə və tərəfdaş qurumlara təşəkkürümü bildirirəm. Əminəm ki, Zəngəzurun əzəmətli dağları qoynunda keçirilən bu festival-konqres hər birimizin yaddaşında silinməz iz buraxacaq və milli ideyamızın daha da güclənməsinə töhfə verəcəkdir.

Bir daha hər birinizi salamlayır, tədbirimizin hər iki hissəsinin – həm festivalın, həm də konqresin – uğurla keçməsini arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

QƏRBİ AZƏRBAYCAN İCMASININ SƏDRİ ƏZİZ ƏLƏKBƏRLİNİN ÇIXIŞI

Hörmətli Emin müəllim, dəyərli festival iştirakçıları, əziz qonaqlar! Festival-konqresin təşkilatçılarından biri kimi mən də həm Qərbi Azərbaycan icması adından, həm də öz adımdan hər birinizi salamlayıram. Hörmətli tədbir iştirakçıları! Düz 7 ay bundan əvvəl, keçən il noyabrın 23-də və 24-də biz sizinlə bir yerdə Naxçıvanda Qərbi Azərbaycana qayıdışla bağlı ilk möhtəşəm tədbirə imza atdıq.



Ölkəmizdə və dünyada bu tarixi missiya ilə əlaqədar ilk festival-konqres keçirdik. Naxçıvana yaraşan da elə bu idi. Naxçıvan belə ilklərə dəfələrlə imza atıb.

Mən onlardan bir neçəsini xatırlatmaq istəyirəm. 1990-cı il noyabrın 17-sində Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında Ulu Öndərin təşəbbüsü ilə üçrəngli bayrağımız dövlət bayrağı kimi qəbul edildi və müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesi bu hadisə ilə məhz Naxçıvandan başladı. İkincisi, bir neçə gün bundan əvvəl bayram etdiyimiz 15 iyun - Milli Qurtuluş Günü 1993-cü ildə məhz Naxçıvandan start götürdü. Həmin tarixi gündə Ulu Öndər Naxçıvandan Bakıya qayıdaraq Azərbaycanın məhvinin, parçalanmasının, dağıdılmasının qarşısını aldı. Nəhayət, Müzəffər Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasına gələrək, burada etdiyi tarixi çıxışında elan etdiyi milli strategiya, tarixi torpağımız olan Qərbi Azərbaycana qaydış strategiyası keçən il ilk iri addımını yenə də məhz Naxçıvandan atdı. Bu addım həmin vaxtda müzəffər yürüşlə bütün universitetlərimizi, məktəblərimizi, rayonlarımızı xarici ölkələri dolaşmaqdadır.

Mən bu gün fürsətdən istifadə edərək bu işdə öncül olan qurumlardan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, universitetlərdən Naxçıvan Dövlət Universiteti ilə yanaşı, Bakı Dövlət Universitetinə və Azərbaycan Dövlət Pedaqoji Universitetinə, bu universitetlərin, bu qurumların rəhbərlərinə, kollektivlərinə Qərbi Azərbaycan İcması adından xüsusi təşəkkürümü bildirirəm. Əziz festival-konqres iştirakçıları, bu gün biz doğma Naxçıvanda Qərbi Azərbaycana qayıdışla bağlı ikinci festival-konqresə toplaşmışıq və bu tədbirin Naxçıvanda hər il keçirilməsi qərara alınmışdır. Mən bu tədbiri, eyni zamanda Qərbi Azərbaycana qayıdış konsepsiyasının həyata keçirilməsi ilə bağlı bu konsepsiyanın ideya müəllifi cənab Prezident və xalqımız qarşısında hesabatımız kimi də dəyərləndirirəm.

Ona görə də istəyirəm ki, son il yarım ərzində gördüyümüz işlər barədə qısa məlumat verim. Heç şübhəsiz, Qərbi Azərbaycan İcması bu il yarım ərzində bir çox uğurlara imza atıb. Mən, amma onlardan üçünün üstündə dayanmaq istəyirəm.

Birincisi, son 200 il ərzində ermənilər tərəfindən doğma ocaqlarından qovulmuş, artıq geriyə qayıda bilmək ümidini itirməkdə olan qaçqınlarımızı qayıdış ideyasına inandıra bildik və insanlarımızı bu ideya ətrafında çox sürətlə kənd-kənd, rayon-rayon təşkilatlandırdıq. Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalarımızı formalaşdırdıq. Azərbaycan Respublikasının 41 rayonu üzrə nümayəndəliklərimiz qərargahla təmin olundu və fəaliyyətə başladı. Mən burada bu rəqəmi ilk dəfə açıqlayıram. Sonuncu deportasiya zamanı Qərbi Azərbaycanın 24 rayonunun 277 yaşayış məntəqəsindən soydaşlarımız qovulubdur. İkincisi, biz keçən ilyarım ərzində Qərbi Azərbaycana qayıdış ideyasını ümummilli ideyaya çevirə və insanlarımıza aşılaya bildik.

Bu gün artıq Qərbi Azərbaycana qayıdış hədəfi tək Qərbi azərbaycanlıların məsələsi deyil. Heç təkcə 10 milyonluq Azərbaycan Respublikasında yaşayan soydaşlarımızın da məsələsi deyil. Bu 60 milyonluq dünya azərbaycanlılarının və bir çox məqamlarda bütün türk dünyasının məsələsidir. Üçüncüsü, biz Qərbi Azərbaycana qayıdış ideyasını bu ilyarım ərzində ilk dəfə olaraq beynəlxalq müstəviyə çıxara bildik. Demək

olar ki, dünyanın bir çox dövlət və qurumlarına, siyasətçilərinə onlarla məktub və müraciətlərimiz ünvanlandı. 225 bəyanatımız qəbul edildi.

Bu gün üçün Qərbi Azərbaycan icmasının 7 rəsmi sənədi artıq BMT-nin rəsmi sənədi kimi BMT-nin bütün rəsmi dillərində və BMT-nin üzvü olan bütün dövlətlər arasında yayılıbdır. Ötən ilin 5 dekabr - Qərbi Azərbaycanlıların Deportasiyasının Anım Günündə keçirdiyimiz beynəlxalq konfrans bu istiqamətdə irəliyə doğru atılan çox mühüm addımlardan biridir. Əziz festival-konqres iştirakçıları, Qərbi azərbaycanlıların öz ata-baba yurdlarına qayıdışı, geriyə dönüşü olmayan bir tarixi prosesdir. Başlayıb, davam edir və uğurla yekunlaşacaq. Cənab Prezident dəfələrlə çıxışlarında da qeyd edib ki, bu, o insanların beynəlxalq hüquqa söykənən haqqıdır. Bu, Ulu Öndər Heydər Əliyevin bizə vəsiyyəti, cənab Prezident İlham Əliyevin tapşırığı və atalarımız qarşısında övladlıq, övladlarımız qarşısında atalıq borcumuzdur.

QƏRBİ AZƏRBAYCAN İCMASININ İDARƏ HEYƏTİNİN ÜZVÜ, AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ PROREKTORU, FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR MAHİRƏ HÜSEYNOVANIN ÇIXIŞI

Dəyərli tədbir iştirakçıları, çox hörmətli nazirimiz Emin müəllim, çox hörmətli, çox dəyərli, çox zəhmətkeş Elbrus müəllim və dəyərli rektorlar və bizim konqresi deyib gələnlər, bizim Qərbi Azərbaycanı deyib gələnlər, hər biriniz bu möhtəşəm zal deməyəcəm, salon deməyəcəm, bu möhtəşəm diyara xoş gəlmisiniz. Baxın, Naxçıvan torpağı ilə, Naxçıvan insanları ilə həmişə xeyirxah olub, qonaqpərvər olub və zaman-zaman, 100 il yox, 230 ilə yaxın müddətdir ki, Qərbi azərbaycanlılara qucaq açıb.



Hər kəsin işi deyil, məhz Naxçıvanın və naxçıvanlıların işi idi. Demək istəyirəm ki, o görünən dağların dalında olan Dərələyəzdə, Qara Kilsədə, digər mahallarda, bir-birinə keçid olan digər mahallarda uyuyan ruhlar görəsən bu gün şaddırmı?

Bir-iki sualım var. Burada ziyalılar əyləşdiyinə görə, hörmətli Emin müəllim, hörmətli rektorlar, səlahiyyəti olanlar, görəsən, Qarabağda, Qərbi Azərbaycanda dünya "qadınlara işgəncə vermək olmaz" deyə bağırdığı halda, niyə susur? Niyə cavab vermirlər? Bəs deyirdilər, uşaqları incitmək olmaz, bəs deyirdilər, uşaqlar travma almamalıdır?

Keçən il bizim təşkil olunmuş birinci beynəlxalq konqresdə bir xanım mənə yaxınlaşdı və 5 yaşında başına gələn hadisəni danışdı. O, Axta kəndindəndir, Dərələyəzin Axta kəndindəndir. Mən keçən gün tanıdım, onu tanımırdım və o, 5 yaşında başına gələnləri gözündən yaş axıda-axıda danışdı. Gecə saat 11-də onun çəkmələri qarın içində qalmışdı, erməni güllələri aman vermirdi ki, dönüb çəkmələrini götürsün. Adama az gələ bilər, xırda gələ bilər. Amma bir uşağın beyninin məhv olmasıdır. Niyə? Nəyə görə? Səbəbi nədir? Bəs dünya humanizmdən danışır axı. Niyə yox? Niyə olmalıdır? Və mən həmin hekayəni ingilis, rus və türk dilinə çevirdim. Dünya mətbuatında yayınlanmaqdadır. Şərhləri, inşallah, gələn il ona yazılan şərhləri, əminəm ki, bu festival-konqres Emin müəllim, hörmətli Elbrus müəllim digər səlahiyyətlilərin köməyi ilə, yəqin ki, ardıcıl çap olunacaq və mən həmin şərhləri sizə oxuyacağam.

Dəyərli konqres iştirakçıları, dəyərli Emin müəllim, sizin keçən gün bizim qarşımızda qoyduğunuz bir sıra məsələlər var idi. Hörmətli Cəfər müəllim də buradadır. Bizim Pedaqoji Universitet bu tədbirlərdə Naxçıvan Dövlət Universiteti ilə tərəfdaşlıq edir. Yəni bir icma olaraq yox, bizdə Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi var, icma olaraq yox, universitet olaraq.

Məsələn, dünən bizim universitetin 4 əməkdaşının kitabının təqdimat mərasimi keçirilib. Bu da köməkdir və bunları təşkil edənlərə, xüsusən Elbrus müəllimə eşq olsun. Mən 2022-ci il 24 dekabrda cənab Ali Baş Komandanımızın iştirakı ilə olan həmin tədbirdə idim və Ali Baş Komandanımız dedi ki, biz o torpaqlara mütləq qayıdacağıq. Çünki oralar bizim dədə-baba torpaqlarımızdır. Mən prezidentimə inanıram, ona eşq olsun. 44 günə Qarabağı qaytaran 23 saata 230 illik həsrətə son qoyan prezidentimin ətrafında birləşərsək, bu dağın o üzünə getmək çox asan olacaqdır.

Dəyərli konqres iştirakçıları, Emin müəllim olimpiada haqqında danışdı. Deyildiyi kimi, olimpiada böyük miqyas aldı, böyük səs gətirdi, elm adamları arasında da hamı buna alqış etdi və uğurla da başa çatdı.

Emin müəllim, siz burada dediniz, mən də istəyirəm o fikir davam etsin. Bu, ali məktəb tələbələri arasında da keçirilsin. Çünki ali məktəb auditoriyasına daxil olub, soruşanda çoxları bilmir. Hətta bilmir ki, Qərbi Azərbaycan haradır. Niyə bilsin? Bakıda doğulub və nə bilim filan rayonda doğulub, böyüyüb və mən məcbur oldum soruşdum ki, uşaqlar, siz Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsini oxuyubsunuz? - Hə, oxumuşuq. Deyirəm ki, bizim bu Novruzəli məktubu hara aparırdı, hara göndərirdi və nəhayət, bir təhər

anlatdım ki, vaxtilə ədəbiyyatımızda, bəli, bunlar var, olubdur, amma sadəcə tədrisə fikir vermək lazımdır. Qərbi Azərbaycan mövzusunun tədrisi və təbliği çox önəmlidir. Ona görə də həmin olimpiada ali məktəblər arasında da keçirilsə, bu çox böyük nəticələr verə bilər.

İnanıram, əminəm ki, bugünkü gün mütləq tarixi bir gündür. Bunun ayrı adı yoxdur, bu tarixi gündür. Hətta biz Qərbi Azərbaycanda olanda da, bu tədbiri orada keçirəndə də bu tarixi günə mütləq nəzər salacağıq. Mütləq, çünki bu bir başlanğıcdır. Bir sıra işlərimiz var, təbliğatla məşğuluq. 18-dən çox tədbirimiz Azərbaycan Dövlət Pedaqoji Universitetində hörmətli Cəfər müəllimin dəstəyi ilə, bölgələrdə Qərbi Azərbaycan İcmasının xətti ilə keçirilib. "Ulduz" ədəbi-publisist jurnalı görülmüş işlərdən sadəcə biridir, Qulu müəllim bu işin öhdəsindən məharətlə gəlir, buradan ona təşəkkür edirəm.

Xüsusi buraxılış olaraq "Ulduz" jurnalının bir nömrəsi Qərbi Azərbaycana həsr olundu. Deyəcəksiniz, əhəmiyyəti nədir? Əhəmiyyəti ondadır ki, "Ulduz" jurnalı Qərbi Azərbaycan haqqında ziyalıların gözü ilə yeni bir baxış ortaya qoyacaqdır. Filoloji fakültədə müstəqil olaraq fəaliyyət göstərən "Filoloq" qəzetinin bir nömrəsi Qərbi Azərbaycana, Qərbi Azərbaycan ziyalılarına həsr olunmuşdur. Universitetimizin professor-müəllim heyəti orada məqalələrini çap etdirdi. Bunlar da maarifləndirmədir və bizim bu gün qarşıda duran ən vacib məsələ, təbii ki, maariflənməkdir, silahlanmaqdır. Ali Baş Komandanımızın öz çıxışında da dediyi kimi, hərblə yox, tankla, topla, tüfənglə, qan tökməklə yox, yalnız elmlə o torpaqlara qayıdacağıq. Nizami, ulu Nizami demişkən: "Qüvvət elmdədir, başqa cür heç kəs, Heç kəsə üstünlük eyləyə bilməz". Bəli, biz elmlə, təbliğatımızla, mənbələrə əsaslanmaqla, dünya ədəbiyyatına istinad etməklə, erməni mənbələrinə istinad etməklə o torpaqların bizim torpağımız olduğunu sübuta yetirəcəyik. İnşallah, növbəti dəfə mən əminəm, hətta bir az da tez ola bilər, Vətənin sizin kimi oğulları olanda niyə də olmasın?!

Hörmətli Emin müəllim, dəyərli Elbrus müəllim, dəyərli tədbir iştirakçıları, bizim gördüyümüz işlərin siyahısını uzatmaq olar, amma məndə bir qədər yaradıcılıq var. Yəni bəzən yazıram. Fikirləşirəm ki, bu gün bu təntənəni, bu möhtəşəmliyi sətirlərə çevirsəm, nə deyərdim?

Yaşıl yarpağam, Vətən,
Münbit torpağam, Vətən.
Nə qədər qoynundayam,
Ucalan dağam, Vətən!

IĞDIR UNİVERSİTETİNİN REKTORU, PROFESSOR MEHMET HAKKI ALMANIN ÇIXIŞI

Sayın rektörlerim, sayın protokol, sayın ilim adamları, sayın halkımız, hemşehrilerimiz hepiniz hoş geldiniz. Sevgi ve selamlarımla. Hayırlı günler. Özellikle Türkiye her zaman Azerbaycanı kendi kalbinde hakikaten yaşamaktadır. YÖK Başkanımız kendisi iştirak edecekti. Hepinize selamları var. Türkiye adına, üniversite adına hepinizi saygıyla selamlıyorum. Hoş geldiniz, şeref verdiniz. Özellikle biz Zengezur koridoru konusunda sizden çok düşünüyoruz ve adım-adım takip ediyoruz. Çünkü sadece lokal bir hadise değil. Geçen sene yaptığımız güzel bir sempozyum vardı. Takriben 5 iştirakçı katılmıştı Azerbaycandan büyükelçiliklerimizden Üniversitelerimizden Elbrus hocamda iştirak etmiş. Çok muazzam bir katılım oldu.



Onun üzerine ciddi bir rapor hazırladık. Tabii sempozyumun sadece üniversitemiz tahakkuk etmedi. Sanayi ve Teknoloji Bakanlığı, TÜBİTAK, özellikle SkTR, A2 bölgemiz var. Zengezurun Kars gibi, Ağrı gibi, Iğdır gibi, Van gibi beldelerinde iştirak etmişlerdi. Çok muazzam rapor çıktı. Ben az önce arkadaşlarla konuştum. Bizim Garbi Azerbaycan WhatsApp grubuna raporumuz takriben 200 sayfaya kadar tebliğ edilecek. Onu okumanızı tavsiye ederim. Çok detaylı rapor. Tabi son konuşmacının en büyük özelliği önceki konuşmaları biz tasdik ediyoruz.

Hepsi hakikattir. Fakat ben sempozyumu kısaca bir özetlemek istiyorum. Bizim yine geçen hafta bir sempozyum organize ettik. Nuh Tufanı Sempozyumu, Nuh Tufanı biliyorsunuz bu civarda Nuh aleyhisselamın kabri var. Özellikle çok muazzam verileriniz var. Chicago'dan, Hong Kong'dan, Nuh aleyhisselamın özellikle müzesini teşkil etti. Kabrine kadar. Nuh peygamberin diğer olmasa bile insanlığın başlangıcı, hatta Chicago Üniversitesinin genetik yaptığı çalışmada bütün insanların buradan kaynaklandı. Yani burası sadece Azerbaycanlıların, Türkiye'nin, anavatan ve bütün insanlığın vatanı. Dolayısıyla önemli bir yerde şu anda toplu. İnsan aleminin atasının olduğu yerde toplanıyoruz. Ben kısaca bir açıklamak istiyorum. Özellikle rapor hakkında. Zengezur koridorunun barışçıl ve kazançlı bir proje olarak uluslararası kamuoyuna ve iş dünyasına tanıtımı için neler yapılabileceğine bakmak gerekmektedir. Bu bizim sempozyumun özeti olacak. Bu anlamda koridorun tarihsel serüvenine ve önemine değinerek değerlendirmeye başlamak yerinde olacaktır. Zengezur koridoru denildiğinde genellikle 30 yıllık bir sürecin akla geldiği, fakat koridorun insanlık tarihsel boyunca bu bölgede var olan bir ticari niteliğe sahip olduğu vurgulanmalıdır. Diğer taraftan Türk tarihi açısından bakıldığında ise bu yolun kuzey, güney ve orta yolundaki en önemli lokasyonlarından biri olduğu, İslam tarihi açısından da bu bölgenin İslam uygarlığının Türk kültürüyle kesiştiği ve Avrupa'yı besleyen bir bölge olduğu aşikardır.

Yani Zengezer'in genetik olarak hem insanlığın başlangıç noktası olduğunu ve bütün Avrupa ile Asya arasında bir köprü olduğunun çok muazzam delilidir. Geçmişte bu denli öneme sahip olan bölgenin kamuoyuna ve iş dünyasının tanıtımında doğal bir sürecin ürünü olduğunu bilerek hareket etmek gerekmektedir. Doğal süreç, uygarlıklar varolduğu andan itibaren gelişmiş süreç anlamına gelmektedir. Şehirler, kasabalar, köyler doğal bir şekilde oluşmuş ve Çin'den başlayarak Türk İslam medeniyetini ve Balkanlara ulaşmış bir yoldur. Burada ekonomik, siyasi ve stratejik bir bakış açısı yerine insani bir bakış açısıyla bakmak gerekmektedir. Çünkü bahsi geçen insanların kendi yaşam biçimleriyle eğitim, ticaret ve iletişim gibi birçok unsurdan oluşan sosyolojik tavırları bulunmakta olup, bu hususlar doğal yolu oluşturmaktadır. Bahsi geçen bu büyük yol Türkmenistan'dan Anadolu'ya akan bir yoldur. Demoqrafik yapı ve yaşam biçimi süreklilik arz etmektedir. Dolayısıyla olağan olarak doğal sürecin var olup olmadığına. Devam edip etmediğine bakmak gerekmektedir. Zengezur koridoru demoqrafik yapısını ve doğal sürecini kaybetmiştir. Çünkü 1813, 1829 yıl arasında köylere ve kasabalara bakıldığı zaman Azerbaycan Türklerinin o bölgelerde öldürüldüğü ve yerlerine başka insanların

yerleştirildiği görülmektedir. İrfan geleneğini ve huzurunu bilen, çatışma kültürü olmayan, dostluk kültürü ve aile bağı olan devletleri birbirine yakınlaştıran bir yaklaşım benimsemek zorundadır.

İnsancıl projeler yerine çatışma kültürüne dayalı yaklaşım tercih edilmesi beraberinde başarısı getirecek, kalıcı barış tespit edilemeyecektir. Dolayısıyla eski doğal sürecine dönmesi gerekmektedir. Elbrus hocamın bahsettiği gibi özellikle ilim noktasında, irfan noktasında buna bakmak lazım. Çünkü maddi terakki manevî terakkiyete bağlıdır. Artık kalem ve irfan hakim olduğu döneme doğru geçiyoruz inşallah. Koridorlar değerlendirilirken sadece Türk devletleri açısından koridorun sahip olduğu önemi atıf yapılmamalıdır. Geniş bir koridor çünkü ancak bölgesel kalkınmanın hedeflendiği bir durumda Ermenistan ve İran gibi komşu ülkelerin de bu koridora dahil edilmesi gerekmekte ve lider diplomasisi yürütülmesi önem arz etmektedir. Ayrıştıran bir konu olarak görülen bir konu. Soğuk savaş döneminde Türkiye Batı bloku ülkeler arasında yer almasından dolayı Serhat illeri olarak bilinen TR2 Bölgesi bizim Kars Bölgeleri Birliği ile Sovyetler Birliği işbirliği yok denecek kadar az seyretmiştir. Soğuk Savaş'ın sonrasında Birinci Karabağ Savaşı sürecinde bu koridor kullanılarak sadece Türkiye ile Türk Dünyası ve Azerbaycan ile Türkiye arasında değil, bölge barışına da engel oluşturmuştur. Özellikle Azerbaycan toprak yüzde 20'sinin işgal edilmesi ile ilişkilere kilit vurulmuş ve bu kilidin başında da Minsk Grubu ülkeleri, Amerika Birleşik Devletleri, Fransa ve Rusiya, Azerbaycan, Türkiye'nin ve özellikle Azerbaycan Türkiye'nin de desteğiyle 44 gün süren savaşta kilidi çözmüştür.

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev "Biz sadece savaşı kazanmadık biz aynı zamanda 30 yıldır hiçbir şey yapmayan devletleri de emekli ettik" diyerek bahsi geçen durumu özetlemiştir. Dolayısıyla benzer süreçlerin tekrar yaşanmaması adına bu koridorun hızlı bir şekilde hayata geçirilmesi gerekmektedir. Zengezur koridoru çok uzun bir zincirden oluşmakta. Zincir halkaları için kaldıraç etkisi tesis edilmesi öngörülmekte ve bütünsel bir bakış açısı ile hareket etmek gerekmektedir. Sadece bir savaşın bitmesi değil, asıl iş bundan sonra yani Kemalin cemali devam etti kaziyesini tahkim etmek gerekiyor. Koridorun planlamasında bütünsel bir bakış açısı ile hareket edilmesi ve ortak uygulamalar geliştirilmesi ve maliyetlerin minimize edilmesi koridorun etkin korunması açısından önem arz etmektedir. Özellikle sempozyumun sonucunu okumuş oldum. Ben sizleri çok fazla yormadan Zengezur koridorun inşallah açılması ve ikinci kez taçlanan bu Garbi Azerbaycan fuarının festivalinin kayıt açtık, inşallah Zengezur koridorunda olmasını temenni ediyorum.

ERMƏNİSTAN DÖVLƏTİNİN ƏZƏLİ AZƏRBAYCAN TORPAQLARINDA YARADILMASI

İsmayıl HACIYEV
haciyev.i1951@gmail.com
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Məqalədə ermənilərin mənşəyi, yaşadıqları ərazilər, Balkan yarımadasından onların qovulması, ermənilərin "hay" və "ərman" adlandırılması, Arme və Hayasa əyalətlərində məskunlaşmaları, Hetlər ölkəsinə gəlmələri, Ərmən yaylasında yerləşmələri və Urartu ərazilərinə gəlib çıxmaları və buna qədər bir sıra dövlətlərin asılılığında erməni knyazlıqlarının olması tarixi faktlar və mənbələr əsasında təqdim edilir. Müəyyən edilir ki, ermənilər nəinki Cənubi Qafqazın yerli sakinləri deyillər, onlar Rusiya hüdudlarından kənarda yaşamışlar. XV əsrin ortalarında Cahan şah erməni katolikosluğunun mərkəzini Üçmüəzzinə köçürmüşdür. Bundan sonra onların Cənubi Qafqaza, Azərbaycan torpaqlarına gəlməsi artmışdır. Rusiya çarlarının ermənilərı himayə etmələri, onlara dövlət yaratmaları da tədqiqata cəlb edilmişdir. Aydın olmuşdur ki, ermənilər dövlət yaratmaq üçün Rusiya çarlarına 20-yə qədər müxtəlif layihələr təqdim etmişlər. Batum müqaviləsi və Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması da araşdırılmışdır. 1918-ci ildə Ermənistan dövlətinin yaradılması və İrəvanı paytaxt kimi onlara güzəşt edilməsi, sonrakı illərdə Azərbaycan torpaqları hesabına ərazilərinin artırılması da tədqiq edilmişdir.

Açar sözlər: *haylar, erməni, armin, Azərbaycan, İrəvan, Cənubi Qafqaz, Batum müqaviləsi, Ermənistan dövləti*

Giriş

Azərbaycan xalqı tarix boyu erməni millətçilərindən ağır zərbələr almış, lakin humanistlik göstərərək bu qeyri-insani hərəkətlərə bir çox hallarda lazımi cavab verməmişdir. Bu məsələyə başqa amillər də təsir göstərmişdir. İlk növbədə erməni məkrini, hiylə və xəyanətini lazımi səviyyədə qiymətləndirməmiş, unutqanlığımız da buna imkan vermişdir. Dünyanın bir sıra dövlətləri erməni amilindən faydalanmış, onları öz maraqlarına uyğun istiqamətləndirmiş, erməni millətçilərini qızışdırmış və onlara dəstək vermişdir. İri dövlətlərin himayəsi altında fəaliyyət göstərən ermənilər "böyük Ermənistan" yaratmaq üçün hər cür əməlləri yerinə yetirmişlər.

Ermənilər Cənubi Qafqazın yerli sakinləri olmamışlar. Onlar "tarixin atası" Heredotun (e.ə.480-424) fikrincə, Kiçik Asiyaya Avropadan (Makedoniyanın qonşuluğundan) köçüb gəlmişdir. Tədqiqatçılar ehtimal edirlər ki, ermənilərin ulu babaları friq tayfalarının ümumi dalğasında Balkan yarımadasındakı vətənlərini tərk edərək e.ə. II minilliyin sonlarında Kiçik Asiyaya, müasir Türkiyənin ərazisinə köçmüşlər [11, s.18]. Ermənilərin ulu babaları Kiçik Asiyanın da yerli əhalisi deyil və onlar Fərat çayının yuxarılarına Balkan yarımadasından köçüb gəlmişlər.

XV əsrin ortalarında Cahan şahın dəstəyi ilə erməni katolikosluğunun mərkəzi Üçkilsə (Valarşabad) kəndinə köçürülmüşdür. XIX əsrin əvvəllərində çar Rusiyası Azərbaycan torpaqlarını işğal etdi. İran və Türkiyədən ermənilər Azərbaycan ərazilərinə, xüsusilə İrəvan, Qarabağ və Naxçıvan əyalətlərinə köçürüldü. Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, daim vətən yaratmaq niyyəti ilə köçürülürdü. Ermənilərin köçürülməsindən sonra Cənubi Qafqaz qanlı qırğınlar dövrünə qədəm qoydu. Böyük dövlətlər İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində erməni dövləti yaratmaqdan ötrü onlara hər cür köməklik göstərdilər. Nəticədə 1918-ci il may ayında İrəvan xanlığının ərazisində erməni dövləti yaradıldı və Azərbaycan Xalq Cümhuriyyəti isə öz xalqının iradəsini nəzərə almadan İrəvan şəhərini və ətrafındakı torpaqları ermənilərə güzəştə getdi.

Erməni dövlətinin yaranması ilə azərbaycanlıların faciəsi başlandı. Yeni ərazi iddiaları ilə çıxış edən Ermənistan dövləti əzəli Azərbaycan torpaqlarında – Qərbi Azərbaycanda azərbaycanlıları soyqırıma məruz qoyur, kənd və şəhərləri dağıdır, azərbaycanlıları yaşadıqları ərazidən qovurdular. Bir sıra illərdə SSRİ rəhbərləri müxtəlif bəhanələrlə azərbaycanlıları deportasiya edirdilər. 1948-1953 və 1988-1992-ci illərdə azərbaycanlılar Qərbi Azərbaycandan zor gücünə çıxarıldı, 20 faiz torpaqlarımız işğal edildi.

Azərbaycan dövləti və xalqı bunlarla heç cür barışa bilmirdi. Doğma el-obasından didərgin düşmüş

soydaşlarımız Vətən həsrəti ilə qayıdacaqları günü səbirsizliklə gözləyirdi. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı bir daha göstərdi ki, Azərbaycan haqq işini sonacan davam etdirəcək.

Qeyd etməliyik ki, 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan icmasının inzibati binasında bir qrup ziyalılarla görüşü əzəli yurd yerimizə qayıtmaq əzmini daha da gücləndirdi. Əzəli və əbədi yurd yerimiz olan Qərbi Azərbaycana qayıdışımız qüdrətli Azərbaycan dövlətinin əsas hədəflərindən biridir.

Ermənilərin mənşəyi və yaşadığı ərazilər

Ermənilərin yaşadığı ərazi və onların mənşəyi məsələsi haqqında çox dolaşıq və müxtəlif mülahizələr mövcuddur. Bunları ermənilərin özləri bilərəkdən və məqsədli şəkildə irəli sürürlər. Qədim ermənilər özlərinə erməni yox, hay demişlər. Həmin ermənilər indiki ermənilər deyil [5]. Bununla əlaqədar İ.Şopen yazırdı ki, iranlılarla farslar, yunanlılarla ellinlər eyni olmadığı kimi, ermənilərlə haylar da eyni köklü xalq deyil. "Erməni" etnonimi ermənilərin özünüadlandırması olan "hay" etnonimi ilə üst-üstə düşmür. İndiki ermənilər nə hay, nə də ərman deyillər. Tədqiqatçılara görə, Balkanlardan gəlmə olan friq tayfalarının bir qolu olan indiki ermənilər Arme və Hayasa əyalətlərinə gəlib məskunlaşmışlar [17, s.200]. Heredota görə, Balkanlarda yaşayan friqlər skiflərin təzyiqi altında Kiçik Asiyaya, Hetlər ölkəsinə köçdülər. Burada hetlər onları hayasa adlandırdılar. Q.Melikişvili Hayas əyalətindən bəhs edərkən göstərir ki, hələlik anlaşılmayan hay tərkibi və - as şəkilçisi Türkiyənin Anadolu bölgəsində yaşayan hind-Avropa mənşəli Luvi dilindədir və armanlarla heç bir əlaqəsi yoxdur. Erməni tarixçisi Q.Kapansyan yazır ki, arim adlanan hind-Avropa tayfası Balkanlardan Kiçik Asiyanın Hetlər ölkəsinə yerləşdilər, sonra isə e.ə. VII-VI əsrlərdə Ərmən yaylasına köçərək ərmən adlandılar. Friqlərin bir qolunu guya "arim" adlanması və "erməni" sözünün həmin "arim" sözündən yaranması fikrini İ.Dyakonov rədd edir [17, s.226]. Deməli, haylardan xeyli əvvəl Arman yaylası var idi. "Hay" əyaləti isə ermənilərin indiki ərazilərindən xeyli uzaqda, Qərbi Fəratın yuxarı axarında idi [7, s.23].

İndi bütün dünya xalqlarında işlənən "erməni" adı mənşəcə yalnız özünü "hay" adlandıranlara şamil oluna bilən etnik ad deyil [17, s.235]. Qədimdə "Armina" və "Armini" adları həm Arme əyalətinin, həm də əyalətdə yaşayanların adlarını ifadə edirdi. Deməli, armi kökünün haylarla heç bir əlaqəsi yoxdur və bu ideya erməni tarixçilərinin uydurmasıdır. Arminlərin yaşadığı Arminiya ölkəsinin adına ilk dəfə İran şahı I Daranın kitabələrində rast gəlinir ki, bunun da bugünkü ermənilərə aidiyyəti yoxdur. Hayların əcdadları Balkanlardan qovulduqdan sonra Mesopotamiyaya gəlib çıxmış və az sonra o dövrdə tənəzzülə uğramış Urartu dövlətinin ərazisində peyda olmuşlar. E.ə.VII əsrdən başlayaraq yerli xalqların və bura gələn yeni etnik qrupların qatışması nəticəsində e.ə.III əsrdə özünə "hay" etnonimi götürmüş yeni etnos formalaşmağa başladı. Lakin yunanlar onlara yerləşdikləri Arminiya coğrafi ərazisinə uyğun ad verdilər – "ermənilər".

İ.Dyakonov yazır ki, haylar heç vaxt özlərinə "erməni" deməmişlər [17, s.226]. Ona görə ki, "erməni" adı "hay"lara bir hissəsi Arminidə, sonra Ərməniyədə yaşadıqlarına görə kənardan verilmiş ümumiləşdirici addır. Deməli, "Armin" adı "Armeniya" formasını kəsb etmiş və başqa dillərə də yayılaraq həmin dillərdə "hay" adlananlar üçün etnik ada çevrilmişdir [4, s.21].

Erməni alimləri həm yaşadıqları coğrafi ərazini, həm də mənşələrini saxtalaşdırırlar. Onlar sübut etməyə çalışırlar ki, ermənilərin mənşəyi Türkiyə və Cənubi Qafqazdır, Urartu isə qədim erməni dövlətidir. Reallığı qəbul edən tarixçilər, hətta erməni tədqiqatçılarından bəziləri bunun düzgün olmadığını göstərirlər. M.Abekyan yazır ki, ermənilərin mənşəyi kimdir, necə və harada, haradan və hansı yolla bura gəliblər, erməni olana qədər kim olublar, kimlərlə əlaqə saxlayıblar, onların əcdadlarına və dillərinə kimlər təsir edib, bəlli deyil. Bu gün bizim əlimizdə bütün bunları təsdiq edən həqiqi və dəqiq heç bir məlumat yoxdur. Başqa bir erməni tarixçisi olan Q.Kerovpyan yazır ki, XIX əsrdən bu günə qədər bütün hind-Avropa tədqiqatçıları təsdiq edir ki, hind-Avropa mənşəli köçəri ermənilər bu ərazilərə gələrək yerli xalqlarla qaynayıb qarışmışlar. B.İşxanyan göstərir ki, ermənilərin həqiqi vətəni qədim-tarixi böyük Ermənistan Kiçik Asiyadır, yəni Rusiya hüdudlarından kənardadır və ermənilər Zaqafqaziyada (başlıca olaraq İrəvan quberniyasında) bəzi xalis erməni əyalətlərindən başqa, Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlərdə məskunlaşmışlar.

Artıq bu məlumdur ki, ermənilər kimmerlər tərəfindən Balkanlardan Kiçik Asiya ərazilərinə, Dəclə və Fərat çaylarının yuxarılarına sıxışdırılmış muşk tayfalarının dili ilə yerli xalqların-akkadların, hettlərin, luviyalıların, urartların, aysorların, midiyalıların, farsların, parfiyalıların, türklərin və s. dillərinin birləşməsidir. Yəni ermənilər - xalqların konqlomeratıdır, onların dili isə kombinasiyadır. Ermənilərin tərkibində assimilyasiyaya uğramış və mənşəyi ilə fərqlənən xeyli etnik qrup mövcud olmuşdur. Elə buna görə ermənilərin 16 antropoloji tipə bölünməsi təsadüfi deyildir. Ermənilərin etnik və antropoloji baxımdan tam və inandırıcı təsnifi yoxdur. Bir sıra mənbələrdə rast gəlinən məlumatlar mənbə müxtəlifliyinin şəxsi müşahidələrinə və özlərindən əvvəl yazılmış əsərlərdən alınan məlumatlara əsaslanır. Verilən məlumatlarda

bir həqiqət və bənzərlik var: ermənіləri eyni bölgədə yaşayan digər xalqlardan ayırmaq çətindir. Bunun başlıca səbəbi bölgənin bir keçid yeri olması, bir çox xalqların buradan gəlib-getməsi və onların bir qisminin buralarda yerləşib bir-birilə qarışmasıdır. "Erməni" sözü sonradan ortaya çıxaraq müəyyən bölgəyə verilmiş coğrafi addır [13, s.22]. Bu, coğrafi bölgədə yaşayan və müxtəlif irqdən olan insanların hamısına verilmiş bir addır. Erməni dili isə bir çox xalqların, xüsusilə aysorların, iranlıların, parfiyalıların və yunanların dillərinin təsiri altında yaranmışdır.

Uydurulmuş erməni tarixi

Tarixi faktlar sübut edir ki, hazırkı Ermənistan deyilən dövlətin ərazisi əzəli Azərbaycan torpaqlarıdır. Heç bir tarixçi, obyektiv tədqiqatçı bunu inkar edə bilməz. Ermənilərin Azərbaycan ərazilərinə və bütövlükdə Cənubi Qafqaza gəlmə olduğu, çar Rusiyasının Qafqazda istilaçılıq siyasətinin genişləndiyi vaxtlarda bu ərazidə ermənilərin dövlət qurumunun olmaması tarixçilər tərəfindən dəfələrlə sübuta yetirilmişdir. Azərbaycan tarixçilərinin ortaya çıxardığı dəlillər də indiki Ermənistan ərazisinin tarixi Azərbaycan torpaqları olduğunu sübut edir.

Yuxarıda qeyd etmişik ki, ermənilər Balkan yarımadasından Kiçik Asiyaya, oradan isə Şərqi Anadoluya miqrasiya etmişlər. Son miqrasiya e.ə.VI və IV əsrlərdə baş vermişdir [18, s.11]. Ermənilər tarix boyu heç bir vaxt davamlı və müstəqil dövlətə malik olmamışlar. "Erməni krallıqları" və bəylikləri ərazidəki böyük dövlətlərdən asılı və ya yarımasılı halında yaşamışdır. 15 vilayətdən ibarət bölgələr "Böyük Ermənistan", 3 vilayətdən ibarət bölgələr isə "Kiçik Ermənistan" adı ilə tanınmışdır. Bunlar siyasi ərazi yox, coğrafi ərazi kimi məlum idi [13, s.8].

Erməni tarixi haqqında müxtəlif rəvayətlər uydurulmuş və burada Hayk sülaləsinin (e.ə.2350-e.ə.328), Parfiya dövrünün, İran idarəçilik dövrünün olduğunu əsaslandırmağa çalışmışlar. Qeyd etmək lazımdır ki, Ermənistan müstəqil dövlət kimi çox qısa müddətdə mövcud olmuşdur. Tarixdən məlumdur ki, ermənilərin əcdadları hesab edilən qəbilənin yerləşdiyi ərazi sonralar Urartu dövlətinin, Midiya və İran Əhəməni imperiyasının süqutundan sonra onların Yuxarı Fərat vadisində kiçik bir knyazlığı yaranmış və tədriclə güclənən bu knyazlıq mənşəcə parfiyalı olan II Tiqranın (e.ə. 95-55) hakimiyyətinin əvvəllərində qonşu ölkələrə işğalçı yürüşlər təşkil edərək, qısa bir müddətdə öz ərazisini genişləndirə bilmişdir. Lakin e.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey II Tiqranın hərbi qüvvələrini darmadağın etdikdən sonra, Kiçik Asiyanın şərqində mövcud olmuş erməni knyazlığı müstəqil dövlət kimi tarix səhnəsindən silinmişdir [11, s.119].

Bu ərazidə indi ermənilər kimi tanınan əhalinin yaşamasını bəyan etmək çox çətindir. Bu çarlığın ərazisində müxtəlif qeyri-erməni etnosları yaşamışlar. Bu çarlığın 30 illik mövcudluğu indiki ermənilərdə belə bir xülya yaradıb ki, onlar Tiqran tərəfindən qısa müddətə işğal olunmuş həmin ərazilərin varisləridir. S.Vims hesab edir ki, əslində heç vaxt müstəqil Ermənistan dövləti olmayıb. Tarixdə "böyük Ermənistan" adlı dövlət mövcud olmayıb. Ermənistan eramızın IV əsrinə kimi Roma tərəfindən idarə olunub. I-VI əsrlərdə dəfələrlə Roma, İran və Bizans arasında bölünüb və erməni şahları tərəfindən deyil, onlar tərəfindən idarə olunub. Bütün sonrakı əsrlərdə, ta 1918-ci ilə qədər o, digər dövlətlərdən – İran, Roma, Osmanlı, Rusiya imperiyalarından ya vassal kimi, ya da tam asılı olmuşdur.

Ermənilərin yenidən siyasi səhnəyə gəlməsi xristian dininin meydana gəlməsi və yayılması dövrünə təsadüf edir. Xristianlığı qəbul etdikdən sonra vahid xristian kilsəsindən üz döndərən ermənilər təriqətçi monofizitlərin tərəfinə keçdilər. Onlar özlərinin əlahiddə qriqoryan kilsəsini yaratdılar. Qriqoryan kilsəsi dövlətin olmadığı şəraitdə erməni icmalarının təkcə dini deyil, eyni zamanda siyasi himayəçisi funksiyasını da öz üzərinə götürdü. Ermənilər Qriqoryan kilsəsinin rəhbərliyi ilə güclü xarici qüvvəyə sığınmaq yolunu tutdular. Onlar Bizansa qarşı Ərəb xəlifələri ilə sövdələşməyə girdilər. Qriqoryan kilsəsi "böyük Ermənistan"ı dirçəltmək üçün ilk dəfə ərəb işğalları dövründə fəallaşdı. Qriqoryan kilsəsi Qafqaz Albaniyasının qərb ərazisində yaşayan alban-xristian əhali arasında qriqoryanlığı yaymağa başladı. Zaman keçdikcə qriqoryanlığı qəbul etmiş alban-Azərbaycan tayfalarının ermənіləşdirilməsinə başlandı. Nəticədə Qriqoryan kilsəsinin təsir dairəsi Cənubi Qafqaza doğru genişlənməyə başladı.

Ermənilər IX əsrdə Qars və Ərzurum ərazisində bizanslılarla onlar arasında bufer rolunu oynayacaq, paytaxtı Ani şəhəri olan yarımmüstəqil Ermənistan knyazlığı yaradırlar. IX əsrdən başlayaraq Ermənistan tədricən Bizans tərəfindən tutulur və 1045-ci ildə erməni knyazlığı ləğv edilir [7, s.40]. Bizans dövründən başlayaraq ermənilərin səpələnməsi başlayır. Cənub-qərbi Qafqazda az sayda ermənіnin peyda olmasını isə IX əsrdən başlayaraq ermənilərin müxtəlif ölkələrdə yerləşdirilməsi ilə izah etmək olar.

1080-ci ildə Bizans dövlətinin zəifləməsi Aralıq dənizinin şimal-şərq sahilində Kilikiya erməni knyazlığının yaranmasına səbəb oldu. 1375-ci ildə məmlüklər Kilikyanı öz imperiyalarına birləşdirdilər [7, s.40]. Bu vaxtdan XX əsrədək ermənilərin öz dövlətləri olmayıb və onlar müxtəlif dövlətlərin tərkibində yaşayıblar.

Beləliklə, erməni dövləti qədim dövrdə və erkən orta əsrlərdə Cənub Qafqazın ərazisində deyil, Van gölünün ətrafında, Fərat çayının şərqində, sonradan isə Aralıq dənizinin şimal-şərq sahilində mövcud olmuşdur.

Ermənilərin Cənubi Qafqaza gəlmələri

Sonrakı dövrlərdə qriqoryan kilsəsi Azərbaycan dövlətlərinə və Osmanlı imperiyasına sığındı. Zaman keçdikcə ermənilər Osmanlı imperiyasından, Ağqoyunlu və Səfəvi hökmdarlarından geniş imtiyazlar qazandılar və mövqelər ələ keçirdilər. Ermənilər XV əsrin ortalarınadək Cənubi Qafqazda, demək olar ki, yaşamırdılar. 1441-ci ildə Qaraqoyunlu türk-Azərbaycan dövlətinin hökmdarı Cahan şah erməni katolikosluğunun mərkəzini əhalisi tamamilə türklər olan İrəvan yaxınlığındakı qədim alban monastırı olmuş Üçmüəzzinə köçürdü [8, s.18-19]. XVI-XVII əsrlərdə Səfəvilərlə Osmanlı Türkiyəsi arasında uzun sürən müharibələr ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzusuna təkan verdi. 1605-ci ildə I Şah Abbasın fərmanı ilə Səfəvi dövlətinin ərazisində ermənilər üçün ərazilər ayrıldı. Ermənilər varlandığca onların dövlət yaratmaq iştahları güclənirdi. Bunun üçün onlar özlərinə himayəçi axtarırdı. Ermənilərin bir sıra Avropa ölkələrinə etdikləri müraciətlər nəticəsiz qalmışdı. XVII əsrin ortalarında rus dövlətinin öz mövqelərini möhkəmləndirməsi erməni kilsəsinin diqqətini cəlb etməyə başladı [3, s.11]. Ermənilər gələcəkdə Rusiyanın hərtərəfli himayəsini qazanmaqdan ötrü 1659-cu ildə çar Aleksey Mixayloviçə qızıldan işlənmiş taxt hədiyyə etdilər. Ermənilərin Rusiya ilə yaxınlaşması I Pyotrun dövründə daha da sistemli şəkil aldı. Rusiya regionda başlıca rəqibləri olan Osmanlı və Səfəvi imperiyalarını daxilindən zəiflətmək üçün erməni kartından istifadə etdi. İlk növbədə ermənilərı Azərbaycan ərazilərində yerləşdirmək üçün göstəriş verdi. I Yekaterina ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında 1726-cı il fevralın 22-də fərman verdi (16, s. 43). II Yekaterina Eçmiədzin katolukosu H.Argutinskinin hazırladığı "Ararat krallığı" ideya-layihəsini dəstəklədi [2]. Rus məmurları və Dunaydakı rus qoşunlarının komandanı Q.Potyomkin ilə görüşən İ.Arqutinski təkliflərinin reallaşdırılması istiqamətində fəaliyyətə keçdi, "erməni dövləti" yaratmaq üçün əməli addımlar atdı [14, s.188-201]. Lakin müxtəlif səbəblərdən Azərbaycan ərazisində "erməni dövləti" yaratmaq mümkün olmadı.

Ermənilər öz məkrli niyyətlərindən əl çəkməmiş və XIX əsr boyu öz xidmətlərini çar Rusiyasına təqdim etmişlər. Onlar Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsində fəal rol oynamışlar. Ermənilərin bu xidmətləri müqabilində Rusiya imperatoru I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "erməni vilayəti" yaratdı. Bu müstəqil dövlət qurumu olmasa da, ermənilərin gələcəkdə səfərbər olmalarına, təşkilatlanmalarına, iqtisadi-mədəni tərəqqiyə yetişmələrinə ciddi təsir etdi [8]. İkinci bir tərəfdən, çar Rusiyası işğal etdiyi Şimali Azərbaycanın strateji bölgələrində (Qarabağ, İrəvan, Naxçıvan, Zəngəzur) ermənilərı yerləşdirdi. Bununla Rusiya Qacarlar İranı və Osmanlı dövlətinin sərhədləri boyunda "Xristian kəməri" yaratdı. Nəticədə Cənubi Qafqazın irimiqyaslı ermənilərşdirilməsinə təkan verildi. N.Şavrovun məlumatına görə, XX əsrin əvvəlində Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənin 1 milyondan çoxu Rusiya tərəfindən buraya köçürülüb.

Burada bir cəhəti də qeyd etməyə bilmərik. Çar Rusiyası Cənubi Qafqazın işğalınadək bu regionda Rusiyanın himayəsində olan "erməni dövləti"nin yaradılmasında maraqlı idi. Lakin Güney Qafqazın işğalından sonra bu ərazilərdə ermənilərə ayrıca dövlət qurulmasına çar Rusiyası maraqlı deyildi. Çünki bu hal Rusiyanın imperiya və böyük dövlətçilik siyasətinə zidd idi.

Osmanlı imperiyasını bölüşdürməyə çalışan Rusiya onun ərazisində "erməni dövləti" yaratmaqda maraqlı idi. Çar II Nikolay Fransanın Rusiyadakı səfiri P.Paleoloqla 1914-cü il noyabrın 21-dəki söhbətində qeyd etmişdi ki, Anadoluda, təbii, ermənilərlə məşğul olacağam. Onları təkrar türk boyunduruğu altında qoya bilmərəm... Onlara müstəqil bir rejim quracağam. Rusiya hakim dairələri Balkanlarda və Şərqdə üstünlüyü ələ almaq üçün erməni kartından istifadə edir və Osmanlı imperiyası ərazisində "Türkiyə Ermənistanı" yaratmağı arzulamırdı.

Ermənistan dövlətinin yaradılması

Çar Rusiyasının siyasətini bolşevik Rusiyası davam etdirdi. Cənubi Qafqazın bolşevikləşdirilməsi üçün V.İ.Lenin S.Şaumyanı Qafqazın müvəqqəti fövqəladə komissarı təyin etdi. 1917-ci ilin 29 dekabrında V.İ.Lenin 20 saylı dekret imzaladı. Proletar rəhbəri "Türkiyə Ermənistanında" erməni dövlətinin yaranması üçün hər cür tədbir və yardım barədə göstəriş verdi. Bu işi görməyi erməni bolşevik S.Şaumyana həvalə etdi. Bu o zaman idi ki, ermənilər Türkiyədə çox dəhşətli qırğınlar törətmişdilər və bu davam edirdi. Həmin il martın 31-də isə S.Şaumyanın göstərişi ilə Bakıda və Azərbaycanın bir çox bölgələrində bolşevik ermənilər Bakı Kommunasının ordusu ilə birgə müsəlman əhalisinin soyqırımını törətmişdilər.

Rusiya imperiyasının dağılmasından sonra Cənubi Qafqazda üç respublika öz müstəqilliyini elan etdi. Bu dövlətlər arasında Ararat (Ermənistan) Respublikası nə ərazisi, nə də ki, paytaxtı olan respublika idi. Öz

respublikalarını "Ararat" adlandıran ermənilər vaxtilə çar Rusiyası tərəfindən köçürüldükləri türk torpaqlarına iddialarını ortaya qoymuşdular. 1918-ci il mayın 28-də ermənilər müstəqil dövlətin qurulmasını siyasi mərkəzləri olmadan bəyan etmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlərin təzyiqi altında qədim Azərbaycan şəhəri İrəvanı və ona bitişik təxminən on min kvadrat kilometr ərazini ermənilərə güzəştə getməyə məcbur oldu. AXC Nazirlər Şurasının sədri Fətəli xan Xoyski güman edirdi ki, bununla ermənilərin bütün ərazi iddiaları bitəcəkdir.

Ermənistan dövlətinin yaradılmasına Osmanlı dövlətinin münasibəti fərqli idi. "Ermənistan məsələsi" ilə bağlı Osmanlı siyasi dairələrində müəyyən fikir ayrılıqları var idi. Tələt və Ənvər paşalar "erməni məsələsi"ndə "çibanı kökündən təmizləməyi" ən xeyirli iş hesab edib, bölgədə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu mümkün olmadığı təqdirdə yaşamayacaq dərəcədə çox zəif bir Ermənistanın təşəkkül etməsini zəruri hesab etsələr də, Xəlil bəy və Vehib paşa kimi siyasilər ən azından beynəlxalq aləm qarşısında ermənilərə bir mövcudiyyət və müəyyən güzəştlər verilməsinin vacib olduğunu bildirirdilər [9, s.162].

Tələt və Ənvər paşaların erməni dövlətinin yaradılmasına imkan verməmək istəyinə Azərbaycan nümayəndələri heç də müsbət yanaşmırdılar. Azərbaycan nümayəndələri bildirirdilər ki, erməni dövləti yaradılmasa, o zaman Cənubi Qafqazda yaşayan ermənilər Azərbaycana axışacaq. Nəticədə Azərbaycana faktiki olaraq daha böyük qırğınlar, müsibətlər və dağıntılar gətirəcək. Buna yol verməmək üçün kiçik bir ərazidə ermənilərin milli dövlətlərini yaratmaq və onları ora cəm etmək lazımdır. Bununla əlaqədar Azərbaycan nümayəndələri 1918-ci il mayın 23-də Ənvər paşaya müraciət göndərdilər. Ənvər paşa bu təklifə qarşı çıxdı. O, 1918-ci il 27 may tarixində Vehib paşaya göndərdiyi teleqramda yazırdı: "Xəlil bəyin teleqramından anlaşıldığına görə, ermənilər birdən itirdikləri ərazilərə müqabil Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna müvəqqət edəcəklərmiş. Məncə, bu tamamilə yanlışdır. Əgər bu gün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan yaranarsa, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə bu hökumət milyonlarla əhaliyə sahib olacaqdır..." [9, s.166].

Ənvər paşa və Tələt paşanın mövqeyi belə idi ki, Qafqazda erməni dövlətinin yaranmasına imkan verilməməlidir. Müsəlmanların məskunlaşdığı əraziləri ermənilərdən təmizləmək lazımdır. Bu mümkün olmadığı təqdirdə, Ənvər paşa yaranacaq erməni dövlətinin yaşamayacaq dərəcədə olduqca zəif bir şəkildə təşkil edilməsini vacib sayırdı və qətiyyətlə İrəvanın ermənilərə verilməsinə qarşı çıxırdı.

Ənvər paşanın bütün xəbərdarlıqlarına baxmayaraq, Xəlil bəyin rəhbərlik etdiyi Batumdakı türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək, İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiəzdin bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi. 4 iyun 1918-ci il tarixində imzalanmış Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 10 min kv. km ərazisi olan bir dövlət oldu [21, s.388-392].

Türk heyəti kiçik bir ərazidə öz nəzarəti altında olacaq bir erməni dövləti yaratdı və Osmanlı dövləti onu de-fakto tanıyan ilk dövlət oldu. Bununla da, Osmanlı dövləti bir tərəfdən "erməni məsələsi" ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan "qınağ"ı aradan qaldırmış olur, digər tərəfdən də İngiltərə, Fransa və Rusiya kimi dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətini Cənubi Qafqazda yaratmaqla problemi bir növ özündən uzaqlaşdırmış olurdu.

Hadisələrin sonrakı inkişafı Ənvər və Tələt paşaların nə qədər haqlı olduqlarını təsdiq etdi.

1918-1920-ci il hadisələri bir daha onu göstərdi ki, ermənilər əldə etdikləri ərazi ilə kifayətlənmədilər, Azərbaycana qarşı ərazi iddiaları ilə müharibəyə başladılar və minlərlə azərbaycanlının soyqırımına səbəb oldular. 1920-ci ilin ortalarında Ararat Respublikasının adını Erməni Respublikasına dəyişən daşnaklar, bununla da, Kiçik Asiyada "vətənlərini" itirmələri ilə faktiki olaraq barışaraq Qafqazda – Azərbaycan xanlıqlarının ərazisində uydurma "qədim erməni tarixini" yazmağa başladılar. Məhz bu dövrdə ermənilərin "Qafqazın qədim yerli əhalisi" olması barədə tarixi konsepsiya uydurulmuş və bunun ardınca Ermənistandakı Azərbaycan və bir çox digər müsəlman tarixi abidələrinin kütləvi şəkildə məhvinə başlanılmışdır.

Beləliklə, 1918-ci ilin may ayında qədim Azərbaycan ərazisində erməni daşnak dövləti, 1920-ci il noyabrın 29-da isə bolşeviklərin zor-gücü ilə "Ermənistan SSR" yaradıldı. Amerika alimi Səmyuel Vimzin göstərdiyi kimi, "üç min ildən artıq bir müddətdə dövlətçiliyi olmayan, indi isə erməni reallıqlarına deyil, yalnız erməni iddialarına əsaslanaraq ermənilərin dövlət yaratmağa çalışması nəticəsində müttəfiqlərin müstəqil Ermənistan yaratmaq qərarı qəribə görünürdü" [16, s. 252].

Yaradıldığı gündən Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən Ermənistan havadarlarının köməyi ilə ərazilərini xeyli genişləndirdi. Erməni daşnakları Azərbaycan torpaqlarının hesabına ərazilərini 29,8 min kv. km-ə çatdırdı. Torpaq iştəhası, onu müntəzəm qamarlama hərisliyi ermənilərin gözlərini elə örtmüşdür ki,

daşnaklar tarixin hər bir anından bu məkrli siyasəti həyata keçirmək üçün çox hiyləgərliklə istifadə edirdilər. Belə ki, 1920-ci ildə Yeni Bəyazid qəzasının Basarkeçər mahalı, İrəvan qəzasının Vedibasar mahalı və Gəncə quberniyasının Zəngəzur qəzası Ermənistana verildi. Bununla yanaşı, 1920-ci ilin əvvəlində Qazax qəzasının cənub hissəsi də Ermənistana bağışlandı və burada Dilican qəzası yaradıldı. 1920-ci ilin dekabrında Zəngəzur Ermənistana verildi. 1920-1923-cü illərdə Qazax qəzasından 379.984 desyatin, Zəngəzur qəzasından 405 min desyatin [1, s. 19-20], Zəngəzur, Cavanşir və Qazax qəzalarının sərhədlərində olan 150 min desyatin torpaq və otlaq sahələri Ermənistana verildi [2, s. 56-57]. 1929-cu ildə Naxçıvan MSSR-in on yaşayış məntəqəsini əhatə edən 657 kv. km ərazi Ermənistan SSR-ə verildi. Yenə həmin ildə Zəngilan rayonunun üç kəndi Ermənistana verildi və burada Mehri rayonu təşkil olundu, nəticədə Naxçıvanı Azərbaycandan ayıran dəhliz yarandı. 1929-cu ildə Qazaxın 5 min hektar torpaq sahəsi, Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğud kəndləri Ermənistana verildi. Ərazi məsələlərinin birtərəfli, daşnak-bolşevik "həlli" nəticəsində "mübahisəli" ərazilər ermənilərə verildi və bundan əlavə, 11 min kv. km. ərazimiz Ermənistana bağışlandı. Buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərələyəz qəzası və Göyçə dairəsinin torpaqları daxil idi. Beləliklə, həmin illərdə Azərbaycanın 20 min kv. km. ərazisi itirildi. Sonrakı illərdə də ermənilərin torpaq iddiaları davam etmiş, Azərbaycan ərazisinə hərbi müdaxilə etmiş və torpaqlarımızın müəyyən hissəsi itirilmişdir. Erməni millətçiləri II Qarabağ müharibəsində ciddi məğlubiyyətə uğrasalar da, bu gün də belə yeni ərazi iddiaları xülyası ilə yaşayırlar.

Qədim Azərbaycan torpaqlarında dövlətlərini yaradan ermənilər bu ərazilərin köklü sakinlərini-azərbaycanlıları öz tarixi ərazilərindən çıxarmış, onları 1918-1920, 1948-1953 və 1988-1992-ci illərdə deportasiya etmişlər. Bununla belə, Azərbaycan öz ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini bərpa etmişdir.

Qərbi Azərbaycana Qayıdış istiqamətində uğurlu addımlar atılır, soydaşlarımızın həmin ərazilərə qayıdışı uzaqda deyil.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy. 1, iş 155.
2. ARDA, f. 2502, siy. 1, iş 20.
3. Arzumanlı, V., Mustafa, N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq // - Bakı: Qartal, - 1998. -279 s.
4. Budaqov, B., Qeybullayev, Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti // - Bakı: Oğuz eli, - 1998. -452 s.
5. Cəfərsoylu, İ. Haylar ermənilər deyil // -"Elm" qəz., -2008. -8 aprel.
6. Ələkbərli, Ə. Qədim türk-oğuz yurdu – "Ermənistan" // -Bakı: Sabah, -1994. -208 s.
7. Hacıyev, İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri // -Naxçıvan: Əcəmi NPB, -2012. -192 s.
8. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi // -Bakı: Azərbaycan, -2009. -574 s.
9. Qafarov, V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922) // -Bakı: Azərnəşr, -2011. -474 s.
10. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi // -"Azərbaycan" qəz., -2022. - 25 dekabr.
11. Mahmudov, Y. Real tarix və "Böyük Ermənistan" uydurması // -Bakı: Turxan NPB, -2014. -144 s.
12. Musa İ. Çar Rusiyasının "erməni siyasəti": fərqli yanaşmalar və mövqelər // -"Olaylar" qəz., -2011. -14 oktyabr.
13. M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni dövləti yaradılması cəhdləri // -Bakı: Nurlan, -2007. -248 s.
14. Nəcəfli, G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövlət yaradılması cəhdləri // -Bakı: Nurlan, -2007. -248 s.
15. Nəcəfli, G. Çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyəti // -Avtoreferat, -Bakı: 2024. -50 s.
16. Səmyuel, A.Vimz. Ermənistan – terrorçu "xristian ölkənin" gizlinləri (ermənilərin böyük firildaq seriyaları). –I cild // -Bakı: OKA, -2024. -386 s.
17. Дьяконов, И.М. Предыстория армянского народа // -Москва: -1968. -320 с.
18. Маммадов, И., Мусаев, Г. Армяно-азербайджанский конфликт: история, право, посредничество. 2-е изд. // -Баку, -2008. -195 с.

19. Собрание актов, относящихся к обозрению истории армянского народа. I часть // -Москва: -1983. -235 с.
20. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи // -СПб.: 1852. -1231 с.
21. Шюкюров, К. Азербайджан в системе международных отношений (1648-1991). Документы и материалы // Баку: Элм, -2020. -736 с.

ABSTRACT

Ismayil HAJİYEV

ESTABLISHMENT OF THE ARMENIAN STATE IN THE ANCIENT LANDS OF AZERBAIJAN

The article presents the origin of Armenians, the areas where they live, their expulsion from the Balkan Peninsula, the naming of Armenians "hay" and "erman", their settlement in the Arme and Hayasa provinces, their arrival in the country of the Hittites, their settlement in the Armen plateau and their arrival in the territories of Urartu, and the existence of Armenian principalities in the dependence of a number of states before that. on the basis of historical facts and sources. It is established that the Armenians are not only the indigenous inhabitants of the South Caucasus, they lived outside the borders of Russia. In the middle of the 15th century, Jahan Shah moved the center of Armenian Catholicism to Uchmuazzin. After that, their arrival in the South Caucasus and Azerbaijani lands increased. Russian tsars patronage of Armenians and creation of a state for them were also included in the study. It was clear that the Armenians presented to the Russian tsars about 20 different projects to create a state. The treaty of Batum and the establishment of the Armenian State on Azerbaijani lands were also investigated. The establishment of the Armenian state in 1918 and the concession of Iravan as the capital to them, as well as the increase of its territories in the following years at the expense of Azerbaijani lands were also studied.

Keywords: *hays, armenian, armin, Azerbaijan, Iravan, South Caucasus, treaty of Batum, Armenian state*

XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ZƏNGƏZUR QƏZASINDA DEMOQRAFİK DURUM

Bəxtiyar HƏSƏNOV
bosa6983@gmail.com
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu

XÜLASƏ

Məqalədə XIX əsrin sonlarından başlayaraq çar Rusiyası tərəfindən keçirilmiş siyahıyaalma nəticələrinə əsasən, XX əsrin əvvəllərində əhalinin vəziyyəti polis idarələrinin məlumatları əsasında araşdırılmış və müqayisəli təhlil nəticəsində Zəngəzur bölgəsinin demoqrafik vəziyyəti tədqiq edilmişdir. Məqalədə həmçinin XIX əsrdən etibarən çar Rusiyası tərəfindən Zəngəzur bölgəsinə köçürülmüş xristian ermənilərin sayında kütləvi artım göstərilir. Zəngəzur bölgəsində bir il ərzində doğulan uşaqlarla ölənlərin sayı müqayisə edildikdə, bölgədə təbii əhali artımının mövcud olduğu müəyyən edilir. Lakin xristian əhalinin süni artımı təbii artımdan dəfələrlə yüksək olmuşdur.

Açar sözlər: *Zəngəzur, demoqrafiya, türk-müsəlmanlar, ermənilər, xristianlar*

XIX əsrin ilk yarısında Qafqazı, o cümlədən Şimali Azərbaycan ərazilərini işğal edən Çar Rusiyası özünə dayaq yaratmaq üçün Cənubi Qafqazın bir çox ərazilərilə eyni vaxtda Zəngəzur bölgəsinə də kütləvi şəkildə xristian mənşəli erməni əhalisini köçürməyə başladı. Müstəmləkəçi imperiyanın öz siyasi maraqlarına uyğun apardığı bu siyasət haqlı olaraq ərazidə ən qədim dövrlərdən yaşayan yerli əhalinin narazılığına səbəb olurdu ki, bu da imperiyanın öz siyasi maraqlarını istədiyi şəkildə həyata keçirməyə maneçilik törədirdi. Cənubi Qafqazda, həmçinin Zəngəzur bölgəsində öz siyasətini maneəsiz həyata keçirmək istəyən imperiya birinci addım kimi yerli müsəlman əhalisini regiondan sıxışdırıb çıxarmaq və bu regiona xristian dininə mənsub olan əhalini yerləşdirməyə nail olmaq istəyirdi.

Çar Rusiyası öz siyasi maraqlarına uyğun olaraq 1828-ci il Türkmənçay, 1829-cu il Ədirnə sülh müqavilələrinin mətnlərinə əlavə etdiyi maddələrdən yararlanaraq işğal etdiyi Şimali Azərbaycan xanlıqlarının ərazisinə ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsi prosesini sürətləndirdi [2, s. 34].

Bu müqavilələri bağlamaqla, çar hökuməti Qafqaza xristian mənşəli əhalinin köçürülməsi layihəsinə start vermiş oldu. İşğal etdiyi əraziləri tezliklə xristianlaşdırmağa çalışan müstəmləkəçi imperiya ilk növbədə müqavilələr bağladığı Qacarlar dövləti və Osmanlı dövlətində yaşayan mənşəcə xristian olan hayları (indiki ermənilər) bu ərazilərə köçürməyə başladı. Bu dövrə qədər Qafqaza gələrək yaşayan ermənilər, rus və erməni müəlliflərinin yazdığı kimi, çox az idi.

Tədqiqatçı Castin Makkarti "Genosid olmuşdurmu?" kitabında verdiyi məlumatda çar Rusiyasının müstəmləkə siyasətini xarakterizə edərək yazır ki, 1828 və 1854-cü illərdə ruslar iki dəfə Şərqi Anadoluya hücum etmiş və hər iki dəfə yerli ermənilər onların tərəfini saxlamışdılar. Hər iki halda ruslar çıxıb getməli olanda özləri ilə 100 min erməni tərəfdarını Qafqaza gətirmiş, onları qovulmuş müsəlmanların evlərində yerləşdirmişlər. Professor sözünə davam edərək yazır: "...Biz dəqiq bilirik ki, 1820-ci ildən 1920-ci ilədək təxminən 600 min erməni rus imperiyasının ərazisinə köçürülmüşdür. 2 mln. müsəlman isə Rusiyadan getmişdir" [5, s. 166].

Castin Makkartinin yazdığı kimi, çar Rusiyası ermənіləri bölgəyə yerləşdirməklə bərabər, həm də bölgədə yaşayan türk-müsəlman əhalisini bölgədən təmizləmək üçün tədbirlər görürdü. Bu tədbirlərdən biri kimi Pantürkizm və Panislamizm çətiri altında XX əsrin əvvəllərində burada yaşayan Azərbaycan türklərinə qarşı yerlərə təyin edilmiş xristian məmurlar tərəfindən güclü təqiblər başlamışdır. Bununla çar hökuməti böyük nüfuza sahib olan milli düşüncə sahiblərini və din xadimlərini bölgədən sıxışdırıb çıxarmağa çalışırdı ki, sonralar buna nail ola bilmişdi.

Hələ XVIII əsrdə Qafqazda araşdırmalar aparmış rus tədqiqatçısı Zelinski İrəvanda, Qarabağda ermənilərin həm sayca, həm də yaşadıqları ərazi baxımından çox az olduğunu qeyd edirdi. O yazırdı ki, "Zəngəzurda XIX əsrə qədər cəmi üç erməni kəndi olmuşdu" [8, s. 10].

İndiki Ermənistan Respublikası ərazisində (Qərbi Azərbaycanda) erməni dövlətinin olmadığını erməni alimi B.İşxanyan da etiraf edərək yazırdı ki, "ermənilər Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlər ərzində yayılmışlar... Onlar (ermənilər-H.B) Türkiyədən və İrandan çar Rusiyası tərəfindən köçürülərək gətirilmiş ermənilərdir" [9, s. 16].

XIX-XX əsrin əvvəllərində Zəngəzur bölgəsinə köçürülən ermənilərin çox hissəsi Təbriz ermənləri idi. Onlar əsasən Qafan, Gorus ərazisinə yerləşdirilirdilər [4, s. 25].

Hələ çar Rusiyası tərəfindən Qafqaza göndərilmiş rus qafqazşünası İ.Şopen keçirdiyi siyahıyaalmada göstərirdi ki, Qacarlar və Osmanlı dövlətlərindən İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə 57266 nəfər erməni köçürülmüşdür [14, s.642].

Çar Rusiyası tərəfindən 1886-cı ildə aparılmış ailə siyahılarına görə, Zəngəzur qəzasının əhalisinin 53,3%-ni azərbaycanlılar, 46,3%-i isə ermənilər təşkil edirdilər. Qəzanın 326 kəndinin 243 kəndində türk müsəlman əhali, yalnız 81-də (24,8%) ermənilər yaşayırdılar. S.Zelinskinin tədqiqatlarına görə, 1886-cı ildə Zəngəzurda xəzinə torpaqlarına aid 161 kəndin 111-i türk-müsəlman, 49-u erməni kəndi olmuşdur. Bu kəndlərdə 38712 müsəlman, 30850 erməni yaşamışdır [1, s.13].

1897-ci ildə Birinci Ümumrusiya siyahıyaalması keçirilir. 1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının nəticələrinə görə Zəngəzur qəzasının əhalisinin ümumi sayı 137871 nəfər, kişilərin sayı 72592, qadınların sayı 65279 nəfər olmuşdur. Gorusda ümumilikdə 1450 nəfər qeydə alınmışdır ki, bunlardan da kişilərin sayı 827, qadınların sayı 623 nəfər olmuşdur [12, s.76].

1897-ci ildə Zəngəzur qəzasında 406 kənd vardı ki, bunlardan 314-də müsəlmanlar, 92 kəndində isə ermənilər yaşayırdılar. Zəngəzur qəzasında 1897-ci ildə yaşayan 137871 nəfərdən 71206-nı Azərbaycan türkləri, 63622-ni ermənilər, 1807-ni kürdlər, 1006 nəfərini isə ruslar təşkil edirdi [12, s.75].

Zəngəzur qəzasında 5762 nəfər zadəgan nəsli olmuşdur ki, bunlardan 4863 nəfərini (84,3 faizini) Azərbaycan türkləri, 834 nəfərini (14 faizini) ermənilər, 57 nəfərini (1 faizini) kürdlər, 6 nəfərini isə ruslar təşkil edirdi [12, s.75].

1904-ci ildə nəşr edilmiş "Qafqaz təqvimi"nin 1903-cü ilə aid məlumatlarında Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarda qəza polis məntəqələrinin yerləşdiyi ərazi, bu polis məntəqələrinin sahəsi və polis məntəqəsində yaşayan əhalinin sayı haqqında aşağıdakı məlumatlar verilmişdir:

Zəngəzur qəzasında beş polis məntəqəsi yaradılmışdı. Bu polis məntəqələrində: Qarakilsədə 52 kənd, Xanazıxda 75 kənd, Dondarlıda 201 kənd, Şıxauzda 98 kənd, ümumilikdə qəzada cəmi 426 kənd olmuşdur. 1903-cü ilin məlumatına görə, Zəngəzur qəzası üzrə hər kv.verstə 20,7 nəfər əhali düşürdü. Qarakilsə polis məntəqəsində 3186 ev olmuş, 20497 kişi, 19953 qadın, cəmi 40450 nəfər əhali yaşamışdır. Xanazıx polis məntəqəsində 6373 ev olmuş, 32468 kişi, 28306 qadın, cəmi 60774 nəfər əhali yaşamışdır. Dondarlı polis məntəqəsində 5606 ev olmuş, 18273 kişi, 16325 qadın, cəmi 34599 nəfər əhali yaşamışdır. Şıxauz polis məntəqəsində 5138 ev olmuş, 12714 kişi, 12479 qadın, cəmi 25193 nəfər əhali yaşamışdır. Kəvərdə (Kavarta) polis məntəqəsində 8925 kişi, 5715 qadın, cəmi 14640 nəfər əhali yaşamışdır. 1903-cü ilin məlumatına görə, qəza üzrə 92877 kişi, 82779 qadın olmaqla, cəmi 175656 nəfər əhali yaşamışdır. Qəza üzrə əhalinin sayı 1897-ci ilin siyahıyaalmasına görə 72720 kişi, 65391 qadın cəmi 138111 nəfər olmuşdur [10, s. 32-33].

Deməli, Zəngəzur qəzasında 6 il müddətinə 1897-1903-cü illərdə əhalinin sayı 37545 nəfər artmışdı.

Ümumilikdə, Zəngəzur qəzasının da daxil olduğu Azərbaycanın Qarabağ bölgəsində 1897-ci ilin siyahıyaalmasına görə, 416027 nəfər əhali yaşamışdı. 1903-cü ilə dair məlumatlara görə isə, Qarabağ bölgəsində 498218 nəfər yaşamışdır [10, s.31-33]. Yəni qısa zaman kəsiyində, cəmisi 6 ildə əhali 82 min nəfərdən çox artmışdır.

Yuxarıdakı faktlardan aydın olur ki, Qarabağ bölgəsinin dağlıq hissəsində əhalinin say artımı daha çox olmuşdur. Bu da çar Rusiyasının öz siyasətinə uyğun olaraq Qarabağın dağlıq hissəsinə xristian hayları (indiki ermənilər) xaricdən köçürüb bu ərazilərdə yerləşdirməsi ilə bağlı olmuşdu.

M.Vəliyev (Baharlı) "Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)" əsərində Azərbaycan Respublikası (1920) təqviminə istinad edərək, qeyd edir ki, "Şuşa və Zəngəzur qəzalarının dağlıq hissəsində ermənilər bütün əhalinin təxminən 50 faizini təşkil edirdilər" [6, s. 15-16]. Müəllifin verdiyi məlumatla Qafqaz təqviminin 1917-ci ilə olan məlumatını müqayisə etdikdə görürük ki, üç il müddətinə Zəngəzur qəzasında azərbaycanlı əhalinin sayında beş faizə qədər azalma olmuşdu. Çünki 1917-ci ilə qədər olan məlumata görə, Zəngəzur qəzasında azərbaycanlılar əhalinin 55 faizini təşkil etmişlər.

Türk tarixçisi K.Gürun I Dünya müharibəsi dövründə və ondan sonra Osmanlıdan, Qacarlar dövlətindən, Suriyadan, Yunanıstandan, Balkan ölkələrindən və başqa yerlərdən Qafqaza 700000 ermənin köçürüldüyünü qeyd etmişdir [7, s. 361].

XX əsrin əvvəllərində əhalinin qeydiyyatında ənənəvi üsullar – yerli hakimiyyət orqanlarının qeydiyyatı və Ümumrusiya inzibati polis hesablamalarının qalması ilə birgə müəyyən dəyişikliklər baş vermişdi. Bu dövrdə bir günlük şəhər siyahıyaalmaları keçirilməyə başlamışdı.

Bu siyahıyaalmaların nəticələri çar hökuməti tərəfindən dövrün ayrı-ayrı sənədlər və toplularında nəşr edilən məlumatlarda öz əksini tapmışdır. Düzdür, nəşr edilmiş sənədlərdəki məlumatların uyğunluğu düz

olmasa da, verilmiş məlumatlardan dəqiq nəticə çıxarmaq mümkündür.

Belə ki, Qafqaz təqviminin 1913-cü il buraxılışının məlumatına görə, "Zəngəzur qəzası üzrə – 1166 nikah bağlanmış, 2081 oğlan, 1535 qız, cəmi 3616 uşaq doğulmuş, vəfat edənlər 1168 kişi, 889 qadın, cəmi 2057 nəfər olmuşdur" [11, s.216].

Zəngəzur qəzasında doğulan uşaqlar və vəfat edən insanların sayı haqqında verilmiş məlumatlarda göstərilir ki, bir il müddətində qəzada əhalinin sayında 1559 nəfər artım olmuşdur.

1914-cü il Qafqaz təqviminin məlumatına görə, Zəngəzur qəzası üzrə əhalinin ümumi tərkibi aşağıdakı kimi olmuşdur: Zəngəzur qəzasında ruslar 1676 nəfər, polyak və almanlar 4 nəfər, gürcülər 60 nəfər, ermənilər 89906 nəfər, dağlılar 70 nəfər, yezidilər 89 nəfər, türk-müsəlmanlar 118146 nəfər, cəmi 209951 nəfər; Gorus şəhəri üzrə ruslar 186 nəfər, polyak və almanlar 4 nəfər, gürcülər 24 nəfər, ermənilər 1699 nəfər, dağlılar 49 nəfər, türk-müsəlmanlar 214 nəfər, cəmi 2176 nəfər olmuşdur [11, s.230-233].

1915-ci ilə olan "Qafqaz təqvimi"ndə göstərilmiş məlumatlara görə, Zəngəzur qəzasının ərazisi 6742,92 kvadrat vers olub. Qəzanın əhalisi aşağıdakılardan ibarət idi: pravoslav slavyanlar 336 kişi, 258 qadın, slavyan təriqətçilər 518 kişi, 564 qadın, polyak və almanlar 3 kişi, 1 qadın, gürcü pravoslavlar 42 kişi, 18 qadın, erməni qriqoryanlar 47517 kişi, 42389 qadin, Qafqaz dağlıları 42 kişi, 28 qadın, yezidilər 88 kişi, 1 qadın, şiələr 39276 kişi, 37496 qadın, sünnilər 21031 kişi, 20343 qadın. Deməli, bütün qəza üzrə cəmi 108853 kişi, 101098 qadın, yəni ümumilikdə 209951 nəfər əhali yaşamışdı [11, s. 230-233].

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırım əhalinin say tərkibinə, bölgənin demoqrafik vəziyyətinə ciddi təsir etmişdir. Belə ki, bu dövrdən başlayaraq azərbaycanlıların xüsusi çəkisi və təbii artım sürəti azalmağa doğru getmiş, 1905-1906-cı illərdəki hadisələrin təsiri bunda özünü kəskin surətdə göstərmişdir. Əhalinin bir hissəsi yaşayış yerlərini tərk etmiş, doğuş azalmış, ölüm halları isə çoxalmışdır. Bu kimi səbəblər üzündən 1905-1916-cı illərdə illik orta artım 0,7 faiz təşkil etmişdir. 1886-cı ildən 1897-ci il arasındakı müddətdə azərbaycanlı əhalinin mütləq artımı təqribən 40 min nəfər təşkil etdiyi halda, 1905-ci illə 1916-cı il arasındakı müddət ərzində mütləq artım cəmi 17 min nəfər olmuşdur. Halbuki 1905-ci ildə azərbaycanlı əhalinin sayı 1886-cı ildəkindən 61 min nəfər çox idi. Ermənilərin mütləq artımı isə 1905-ci illə 1916-cı il arasında 139 min nəfərə çatmışdır [4, s. 30].

1917-ci ilin statistik məlumatlarına görə, keçmiş İrəvan quberniyası əhalisinin 38 faizini türk-müsəlman əhali, 60 faizini isə ermənilər təşkil edirdilər. Şərur-Dərələyəz mahalında ümumi əhalinin 66,7 faizi, Sürməlidə 63,6 faizi türk-müsəlman əhali idi. İrəvan şəhərinin əhalisinin 43,4 faizi türk-müsəlmanlardan ibarət idi. Yelizavetpol quberniyası üzrə 1915-ci ildə əhalinin ən çox qarışıq olduğu Şuşada bütün sakinlərin 46 faizi türk-müsəlmanların və 54 faizi ermənilərin (çar Rusiyası tərəfindən ermənileşdirilmiş xristian albanlarla birlikdə – B.H.), Zəngəzurda 55 faizi türk-müsəlmanların və 44,3 faizi ermənilərin payına düşürdü [3, s.107].

1917-ci ilin statistik məlumatlarına görə, Zəngəzur qəzasında 99257 nəfər (44,3 faiz) erməni, 123095 nəfər (55,0 faiz) müsəlmanlar və başqa xalqlar 1492 nəfər (0,7 faiz) olmaqla, ümumilikdə 223844 nəfər; Gorus şəhərində 1625 nəfər (100,0 faiz) erməni olmaqla, ümumilikdə 1625 nəfər yaşamışdır [15, s.58].

1918-1920-ci illərdə erməni terror dəstələri Zəngəzur qəzasının kəndlərinə hücümlar edərək bir soyqırımı aktı törətdilər. Erməni terror dəstələri tərəfindən qəzanın ərazisində 3257 kişi, 2276 qadın, 2196 uşaq qətlə yetirilmiş, 1060 kişi, 794 qadın, 485 uşaq ağır yaralanmışdır. Ümumilikdə, 10068 nəfər öldürülmüş və ağır yaralanmışdır. Qalan əhali isə canlarını qurtarmaq üçün bölgəni tərk edərək ətraf ərazilərə köç etmişlər.

Erməni terror dəstələri 115 türk-müsəlman kəndini yerlə-yeksan etmiş və çox kəndi xarabalığa çevirmişlər.

Ümumiyyətlə, rəsmi məlumatlara istinadla bu qənaətə gəlmək olar ki, Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra ermənilərin Zəngəzur bölgəsinə köçürülməsi nəticəsində bölgənin demoqrafik vəziyyəti kökündən dəyişmiş, erməni əhalisinin sayı dəfələrlə artmışdır. Lakin imperiyanın mürtəce xristianlaşdırma siyasətinə baxmayaraq, XX əsrin əvvəllərində də Zəngəzur qəzasında əhalinin milli-etnik tərkibində Azərbaycan türklərinin xüsusi çəkisi hələ də 5 faiz nisbəti ilə erməniləri üstələmişdir.

ƏDƏBİYYAT

1. İsmayılov, K. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Turxan NPB, 2014, 248 s.
2. Mahmudov, Y., Şükürov, K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009, 143 s.
3. Nəsibzadə, N.L. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: Ay-ulduz, 1996, 304 s.
4. Rəhimoğlu, H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr, 1997, 257

5. Qazıyev, Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlar, 2009, 344 s.
6. Vəliyev, M.H. (Baharlı). Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.
7. Гусейнзаде, Р.А. Кавказ и армяне. Второе издание. Баку: Apostroff, 2014, 486 с.
8. Зелинский, С.П. Экономический быт государственных крестьян Зангазурского уезда Елизаветпольской губернии // Материали для изучении экономического быто государственных крестьян Загафгазского края. т. 4., Санкт-Петербург: 1886.
9. Ишханян, Б. Народности Кавказа (Статистико-экономическое исследование). Петроград: 1916, 16 с.
10. Кавказский календарь на 1905 год. Тифлис: Типография А.В.Кутателадзе, 1904, 752 с.
11. Кавказский календарь на 1915 год: (LX г.). Тифлис: Типография Канцелярии Наместника Е.И.В. Кавказ, казенный дом, 1914, 896 с.
12. Первая всеобщая перепись населения Российской империи 1897 года, Санкт-Петербург: 1905, 185 с.
13. Первая Всеобщая перепись населения Российской империи 1897 года (Губернские итоги). Т.Т. 1-89. Санкт-Петербург: 1903-1905. «Демоскоп» Институт демографии Национального исследовательского университета Высшая школа экономики, № 785 – 786, 2018.
14. Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: 1852, 1251 с.
15. Щепотьев, А.Л. О спорных кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки // Изв. АН АзССР. История, философия и право. 1990, №2, с. 42-62.

ABSTRACT

Bakhtiyar HASANOV

DEMOGRAPHIC SITUATION IN THE ZANGEZUR UYEZD IN THE LATE XIX - EARLY XX CENTURIES

In the article, starting from the end of the 19th century, with the results of the census conducted by tsarist Russia, studies were carried out on the basis of data from police stations on the population of the beginning of the 20th century and as a result of a comparative analysis, the demographic situation of the Zangezur region was researched. The article also provides a massive population growth of Christian Armenians resettled by tsarist Russia in the Zangezur region since the 19th century. The number of people who died in the Zangezur region with children born from marriages for a period of one year suggests a natural population growth in this region over the year. However, the artificial growth of the Christian population was many times higher than the natural increase.

Keywords: *Zangezur, demography, turko-muslims, armenians, christians*

XIX-XX ƏSRLƏRDƏ RUSİYA İMPERİYASI VƏ SOVET RUSİYASI TƏRƏFİNDƏN ŞİMALİ AZƏRBAYCANIN İŞĞALI, QƏRBİ AZƏRBAYCAN TORPAQLARINDA QONDARMA ERMƏNİSTAN "DÖVLƏTİ"NİN YARADILMASI VƏ SSRİ DÖVLƏTİNİN AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏTDİYİ CİNAYƏTLƏR

CƏBİ BƏHRAMOV
cebi1959@gmail.com,
djabibaxramov@mail.ru
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu

XÜLASƏ

Məqalə, adından da göründüyü kimi, XIX-XX əsrlərdə Rusiya imperiyası və sovet Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalı, Qərbi Azərbaycan torpaqlarında qondarma Ermənistan "dövləti"nin yaradılması və SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin tədqiqinə həsr edilmişdir. Müəllif son XIX-XX əslər ərzində çar Rusiyası Sovet Rusiyası və SSRİ dövləti rəhbərləri tərəfindən Azərbaycan xalqına qarşı törədilən işğal, etnik təmizləmə, deportasiya və soyqırımı cinayətlərinin törədilməsinin səbəb və nəticələrini rəsmi arxiv, dövlət sənədləri və benəlxalq hüquq prinsiplərinə istinad edərək tədqiq etmişdir. Məqalədə bütün məsələlərə obyektiv elmi analiz prinsipi baxımından yanaşılmış və hadisələr qiymətləndirilmişdir.

Təqdim olunan məqalə XIX-XX əsrlər ərzində Rusiya imperiyası, Sovet Rusiyaı və SSRİ dövləti tərəfindən Azərbaycan xalqına qarşı törədilən cinayətlərdən bəhs edilir. Məqalə çox etibarlı mənbə və rəsmi arxiv sənədlərinə istinad edilərək yazılmışdır. Burada Şimali Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən işğali, çar Rusiyası və SSRİ dövləti tərəfindən ermənilərin bu törpaqlara köçürülməsi siyasətini həyata keçirmələri və buraya köçürülən ermənilərin əli ilə Azərbaycan xalqına qarşı törədilən soyqırımı ,etnik təmizləmə və deportasiya kimi cinayətlərin törədilməsindən geniş şəkildə bəhs edilir.

Açar sözlər: *Azərbaycan əraziləri, çar Rusiyası, legitimlik hüququ, ermənilərin köçürülməsi, törədilən cinayətlər*

Giriş

Azərbaycan ərazilərinin çar Rusiyası və Qacarlar dövləti arasında 12 oktyabr 1813-cü il Gülüstan və 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqavilələrinə əsasən bütöv Azərbaycan törpaqlarının bölüşdürülməsi onun sahibi olan Azərbaycan xalqının Avropada tətbiq olunan hər bir xalqın təməl hüququnun-legitimlik hüququnun pozulması ilə nəticələndi [17, s. 423]. Yəni Azərbaycan xalqının razılığı olmadan onun özü və ərazi bütövlüyü pozulmuş oldu. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən Qacarlar dövləti və Osmanlı Türkiyəsi ərazilərindən ermənilərin Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycan ərazilərinə kütləvi şəkildə köçürülməsinə başlanıldı. 1826-1828-ci illərdə II çar Rusiyası-Qacarlar dövləti müharibəsi gedişində Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərinə 8 min 249 erməni ailəsi köçürüldü.1828-1830-cu illər ərzində isə Cənubi Qafqaza Qacarlar dövləti ərazindən 40.000, Osmanlı Türkiyəsi ərazilərindən isə 85.000 nəfər erməni köçürüldü və onlar Yelizavetpol (1868) (Gəncə) (1804-cü ilin yanvarınadək keçmiş Gəncə və Qarabağ xanlıqlarının əraziləri) və İrəvan (1849) quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200.000 desyatindən çox xəzinə torpağı ayrıldı. 1828-ci il martın 21-də çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazilərində yenə Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq ermənilər üçün qondarma "Erməni Vilayəti" yaradıldı [10]. Bu addım çar Rusiyası tərəfindən Azərbaycan xalqının legitimlik hüququnun növbəti dəfə pozulması, onun bu torpaqların sahibi kimi təhqir edilməsi və ona qarşı törədilən cinayət idi. XIX əsrin 30-cu illərindən başlayaraq Rusiya imperiyası tərəfindən Cənubi Qafqazda həyata keçirilən xristian etiqadlı xalqların, ilk növbədə xristian dinində bidətçi cərəyan sayılan qriqoryanlığı özlərinin əsas dini inancları sayan ermənilərin bu ərazilərə köçürülməsi işi getdikcə ardıcıl xarakter almağa, məqsədyönlü siyasətə çevrildi. Burada diqqəti cəlb edən bir mühüm məqamı qeyd etməyə ehtiyac vardır. Bu məqam ondan ibarətdir ki, Rusiya imperiyası Cənubi Qafqazın işğal planlarını hazırlayarkən onu reallaşdırmaq üçün uzun illər ərzində bu regionla bağlı dəqiq məlumatlar topladıqdan sonra bu regionun yerli əhalisi olmayan ermənilərdən istifadə etmək qərarına üstünlük verdi. Hərçənd ki,XVIII əsrin 80-90-cı illərində gürcü çarı II İraklinin Rusiya imperiyasının himayəsini qəbul etməsi faktını qəbul etməsi və 1801-ci ildə Şərqi Gürcüstanı işğal etməsi fatını nəzərə alınsa da, Cənubi və Şimali Qafqaz xalqlarının tam

əksəriyyəti xəyanət yolunu tutmadı. Buna görə Rusiya imperiyası Qafqazı işğal etmək üçün baladığı müharibələr 1859-cu ilədək davam etdi. Cənubi Qafqazın ən strateji regionu sayılan və Qərbi Azərbaycanın şimal ərazilərini əhatə edən İrəvan və Naxçıvan xanlıqları ərazilərinin işğalı üçün 18040cü ildən 1827-ci ilin oktyabrınadək dörd hərbi yürüş təşkil etmişdi. Bu hərbi yürüşlərin üçündə məğlub olmuş, yalnız birində ermənilərin etdiyi xəyanət nəticəsində bu ərazilərin işğalına nail ola bilmişdi. İşğalı həyata keçirən Çar Rusiyası generalları Paskevic və Velyaminov işğal olunmuş ərazilərin idarə olunması üçün yuxarıda qeyd etdiyimiz kimi I Nikolayın fərmanı ilə "Əsasnamə " hazırlanmışdılar. Diqqəti cəlb edən məqam odur ki, həmin "Əsasnamə"yə rəy verən general Velyaminov ermənilər kimliyi ilə bağlı yazır: "Bilirsiniz ki, ermənilər çox bic, sırtıq və riyakar xalqdır. Onlar müsəlmanlara qarşı öz kəsgin nifrətləri ilə seçilirlər. Onları yaradılacaq vilayətin idarəçiliyinə buraxmaq olmaz" [9, s.484]. Lakin çar Rusiyası hökuməti bütün XIX əsr ərzində özünün təyin etdiyi məmurların çoxsaylı yazılı və şifai xəbərdalıqlarına baxmayaraq Cənubi Qafqazın idarəçilik sisteminə ermənilərin cəlb edilməsinə mane olmurdu. Bu azmış kimi çar Rusiyası hökuməti XIX əsrin axırlarında xristian əhalisinin, ilk növbədə ermənilərin Cənubi Qafqaz ərazilərinə köçürmə üzrə qanunvericilik aktlarının hazırlanmasına başlamışdı. 1899-cu il aprelin 15-də II Nikolay tərəfindən "Cənubi Qafqaz da köçürməyə icazə" haqqında qanun imzalanmışdı. 1900-cü il dekabrın 22-də elan olunmuş yeni qanunda isə Qafqazda mülkü işlər üzrə baş rəisə icazə verilmişdi ki, "rus mənşəli və pravoslav dininə mənsub kəndlərin" vəsatətlərini yalnız ilkin qaydada müzakirə etməklə, onlar xəzinə torpaqlarında yerləşdirilsin. Yerli hakimiyyət orqanları çarın bu sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başladılar. 1904-cü ilin iyulunda çar Rusiyası hökuməti tərəfindən daha yeni bir qanun verilmişdi: "Kənd əhlinin və əkinçi meşşanların könüllü surətdə haqqında müvəqqəti qaydalar" qanuna görə yalnız rus mənşəli, pravoslav dininə mənsub yerli adamların və ya üç idarənin – Daxili İşlər Nazirliyinin, Hərbi İdarənin və Qafqazda Mülkü İşlər üzrə Baş rəisin mülahizəsi ilə bölücü dini sektantlarına mənsub şəxslərin imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Cənubi Qafqaz diyarına köçürülməsinə icazə verilmişdi. Çar hökuməti tərəfindən aparılan bu məqsədyönlü siyasət bütün XIX əsr ərzində davam etmiş və nəticədə Şimali Azərbaycan ərazilərinə köçürülən ermənilərin sayı çar məmuru və publisist N.Şavrovun 1911-ci ildə yazdığı kimi: "...hazırda Cənubi Qafqazda yaşayan 1 mln. 300 min ermənin 1 mln nəfəri yerli əhali olmayıb, bizim tərəfimizdən buraya köçürülənlərdir" [22, s. 78]. Burada daha bir mühüm sənədi diqqətə çatdırmağa ehtiyac vardır. Belə ki, çar məmuru və publisist N.Şavrovun qeyd etdiyi məlumatdan 4 il əvvəl, yəni 1907-ci ildə Erməni Qriqoriyan Kilsəsinin Sinoduna A.Frenkel adlı bir prokuror təyin edir və ondan ermənilərin kimliyini və Erməni Qriqoriyan Kilsəsinin fəaliyyətinin nədən ibarət olduğunu təsdiq edən arayış hazırlamaq tapşırığını verir. Prokuror A.Ffenkel II Nikolaya yazdığı arayışda yazır: "Erməni xalqının tarixi talelyi bu xalqın müstəqil dövlət, dövlət orqanizmi yaratmaq qabiliyyətinin olabilmədiyini təkzibedilməz dəqiqliklə sübut etmişdir və bu xalqın bəşər sivilizasiyanın insanlıq üçün müəyyən etdiyi ali prinsipləri dərk etmək məsələsində tamamilə uğursuz olduğunu təsdiqt etmişdir, çünki bir neçə minilliklər ərzində tarix,bu xalqın elm və sənət korifeyləri arasında bir nəfər də olsun nümayəndəsinin adını çəkməmişdir" [19, s. 52]. Çar Rusiyası imperatorlarına XIX-XX əsrin əvvəllərində ermənilərlə bağlı verilən bu rəsmi təqdimatlara rəğmən imperiya rəhbərləri və onların yüksək rütbəli məmurları onardan Azərbaycan xalqına qarşı törədilən cinayətlərdə bir canlı ölüm aləti olaraq istifadə ediblər. Bu fikri təsdiq edən çoxsaylı faktlardan biri odur ki, XX əsrin əvvəlində ermənilərin Cənubi Qafqazda ən başlıca himayədarı olan Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov 1912-ci ilin oktyabrın 12-də çar II Nikolaya məktubla müraciət edərək yazırdı: "Həmişə bizə böyük xidmətlər göstərmiş ermənilərə himayədarlıq etməklə biz etibarlı müttəfiq qazanmışıq". Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun bu mövqeyini kəskin tənqid edən çar Rusiyası Dövlət Dümasının üzvləri V.M.Purişkevic və 2-ci Marov ondan bu mövqeyini dəyişməyi tələb etmişdilər [16, s. 208-209]. Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovdan əvvəl isə başqa digər yüksək vəzifəli məmur çar Rusiyasının Ədliyyə Naziri İ.Q.Şeqlovitov Tiflisə gəlir və burada bütün məhkəmə orqanlarında çalışan məmurların, ermənilər istisna olmaqla qeri-xristian xalqların,ilk növbədə müsəlman xalqlarının nümayəndələrinin "xristian əxlaq qaydalarına" uyğun olmadıqları üçün onların istisnasız olaraq uzaqlaşdırılmazını tələb edir [16, s. 208-209]. I Dünya müharibəsi ərəfəsində ermənilərin katalikosi V Gevorq Qafqaz canişini İ.İ.Vorontsov-Daşkova müraciət edir və ermənilərin çar Rusiyası tərəfində vuruşacaqların qeyd edir. Bundan sonra İ.İ.Vorontsov-Daşkov çar Rusiyası Hərb Naziri Suxomlinsiyə Türkiyə əleyhinə vuruşacaq ermənilər üçün 25 min tüfəng və 12 milyon patron ayrılması məqsədilə müraciət edir [16, s. 208-209]. Bu silahı alan erməni quldur dəstələri İrəvan, Naxcıvan, Cənubi Azərbaycanda və o cümlədən Şərqi Anadoluda azərbaycanlı əhaliyə qarşı soyqırımı cinayətlərinin törədilməsində istfadə etdilər. Rusiya imperiyasının Cənubi Qafqazda təşkil etdiyi milli toqquşmalarla müşayiət edilən dağıdıcı müstəmləkə siyasətinin mahiyyətini I Dövlət Dumasının Yelizavetpol (Gəncə – C.B.) quberniyasından seçilmiş deputatı İsmayıl xan Ziyadxanov 12 iyun 1906-cı ildə keçirilən I

çağırış I sessiyanın 25-ci iclasında 1906-cı il mayın 27-də İrəvanda tatarlarla (azərbaycanlılarla – C.B.) ermənilər arasında baş vermiş toqquşmalar, əhalinin təhlükəsizliyinin təmin olunması tədbirləri barədə Nazirlər Şurası sədrinə verilən sorğuya dair müzakirələrdə iştirakı zamanı etdiyi çıxışında belə qiymətləndirirdi: "Biz-müsəlmanlara onlar deyirdilər ki, siz iqtisadi cəhətdən ermənilər kölə vəziyyətinə salmısınız, onlar öz çarlığını yaratmaq istəyərək güclü silahlanırlar, bir gün görəcəksiniz ki, siz artıq yoxsunuz. Ermənilərə isə deyirdilər ki, panislamizm ideyası müsəlman cəmiyyətinin bütün təbəqələrinə dərin kök salmışdır və bir gün müsəlmanlar sizi tikə-tikə doğrayacaqlar. Fitnəkarlıq bu yolla gedirdi" [14, s. 348]. İ.Ziyadxanovun Dövlət Dumasında etdiyi bu çıxışdan 119 il keçmişinə baxmayaraq, 1988-ci ildən bu günə qədər keçən dövrün hadisələrini analiz etdikdən sonra İ.Ziyadxanovun nə qədər uzaqgörən və müdrik bir insan olduğunun şahidi olursan.1917-ci ilin oktyabrın 26-da Rusiyada ABŞ və Avropa maliyyə maqnatlarının yardımı ilə bolşeviklərin həyata keçirdikləri hərbi çevriliş nəticəsində Petroqradda hakimiyyət onların əlinə keçdi. Sovet Rusiyası XKS-nın sədri V.İ.Leninin imzaladığı sənədlərə əsasən Polşa, Finlandiya və Pribaltika ölkələrinin dövlət müstəqilliyi tanınsa da, Cənubi Qafqaz ölkələri içərisində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyi tanınmadı. Bunun isə əsas səbəbi Bakı neftini əldən verməmək idi. Buna görə də hakimiyyəti silahla ələ alan bolşeviklər çarizmin Şimali Azərbaycana qarşı yeritdiyi siyasətə daha sərt xarakter verərək daşnak-kommunist ermənilərdən istifadəyə üstünlük verdilər. 1917-ci il dekabrın 16-da RSFSR XKS-nin sədri V.İ.Leninin sərəncamı ilə S.G.Şaumyan Qafqazın Fövqəladə və səlahiyyətli Komissarı təyin edildi və ona burada öz fəaliyyətini təşkil etmək üçün 500.000 rubl qızıl pul ayrıldı. Cənubi Qafqaza gələn S.G.Şaumyan Bakıda bütün anti-Azərbaycan siyasi qüvvələrlə birləşərək hakimiyyəti ələ keçirdi. Bolşevik-daşnak hakimiyyətini burada möhkəmləndirmək üçün 1918-ci ilin fevralın 13-də RSFSR XKS yeni qərar qəbul etdi. Bu qərara əsasən S.G.Şaumyanın sərəncamına 31,8 mln. rubl qızıl pul, 5 min tüfəng, 2 mln. patron, 35 pulemyot, 2 aeroplan, 2 zirehli maşın və döyüşçü dəstələri, o cümlədən Moskva Hərbi Dairəsinin 4-cü səyyar inqilabi dəstəsi göndərildi [17, s. 326]. Nəticədə 1918-ci ildə Bakı şəhəri və onun ətrafında olan ərazilərdə yaşayan azərbaycanlı əhaliyə qarşı ən ağır cinayət-soyqırımı cinayəti törədilərək ən azı 12 mindən artıq azərbaycanlı məhv edildi. 1918-ci ilin martından 1921-ci ilin avqustun 1-dək isə bütün Şimali və Cənubi Azərbaycan ərazilərində 700.000-dən çox azərbaycanlı soyqırımı cinayətlərinin qurbanı oldu. Bu cinayətlərin hansı səbəbdən törədildiyini S.G.Şaumyan RSFSR XKS-nin sədri V.İ.Leninə 13 aprel 1918-ci il tarixində ünvanladığı məktubunda yazırdı: "Əgər onlar qalib gəlsəydi, Bakı Azərbaycanın paytaxtı elan edilər və bütün qeyri-müsəlman ünsürlər tərki-silah və məhv edilərdi". S.G.Şaumyanın I Dünya müharibəsi zamanı Osmanlı Türkiyəsinə qarşı vuruşan və 1917-ci il 5 oktyabr Ərzincan müqaviləsinə görə Qafqaz Cəbhəsindən geri qayıdan daşnaklardan istifadə edərək azərbaycanlılara qarşı soyqırımı cinayətləri törətməsi və ən başlıcası, Bakı şəhərində hakimiyyəti ələ keçirməsi V.İ.Lenin tərəfindən çox böyük razılıqla qarşılanmışdı. S.G.Şaumyanın Bakı Neft Komitəsinin sədri təyin etdiyi Saak Ter-Qabrielyan 7 ədəd neftlə doldurulmuş gəmi ilə əvvəlcə Həştərxana, sonra isə Moskvaya gələrək V.İ.Leninlə görüşmüşdu. Bu görüş zamanı V.İ.Lenin S.G.Şaumyanın törətdiyi cinayətlərin miqyasından heyran qaldığını söyləyərək: "…Bakı "proletariatına" həm mənəvi, həm də maddi kömək göstərməyə hazır olduğunu" bildirmişdi. I Dünya müharibəsində iqtisadi baxımdan çökmüş ölkəni dirçəltmək üçün Sovet Rusiyasının rəhbəri V.İ.Lenin Bakı neftinin ələ keçirilməsi məsələsinə xüsusi əhəmiyyət verirdi. Buna görə də RSFSR XKS-nin 1918-ci il 22 may tarixli qərarı bu baxımdan diqqəti cəlb edir. Qəbul olunmuş qərarda deyilirdi ki, "…ən çox miqdarda neft yola salınması birinci növbədə və sözsüz təmin edilməlidir" [1, s. 97]. 1918-ci il iyunun 5-də V.İ.Lenin Saak Ter-Qabrielyana vurduğu teleqramda S.G.Şaumyanın sərəncamına əlavə olaraq 50 milyon pul ayırdığını və "nefti birinci yerə qoymaq" tapşırığını vermişdi. Lakin bununla yanaşı, 1918-ci il iyunun əvvəlində bolşevik-daşnak hakimiyyətinin məhv olacağını görən Sovet Rusiyasının rəhbəri V.İ.Lenin Bakı Sovetinə vurduğu teleqramda yazırdı: "Əgər hücum baş tutarsa, mümkündürsə siz Terə (yəni Ter-Qabrielyana – C.B.) xəbər verəsiniz ki, o Bakını tam yandırmaq üçün tədbirlər görsün və bu barədə Bakı mətbuatında elan versin" [21]. Sonralar bolşeviklərin başçısının bu göstərişi ilə əlaqədar E.Razin yazırdı: "....Bakının mədənlərini yandırmaq əmrini yalnız və yalnız İnsanlıq hissini itirmiş cinayətkar verə bilərdi". 1918-ci il mayın 26-da Gürcüstan Cənubi Qafqaz Seyminin tərkibindən çıxmaq haqqında qərar qəbul etdikdən sonra, həmin ayın 28-də Şimali Azərbaycan quberniyalarından seçilən deputatlar Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsi qəbul etdilər. Maraqlıdır ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin hansı ərazilərdə elan ediləcəyini gözləyirdilər. Onlar Azərbaycan Milli Şurasına müraciət edərək Aleksandropolun (Gümrünün – C.B.) Osmanlı Türkiyəsi Ordusu tərəfindən tutulduğunu qeyd edir və siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi olabiləcək ərazilərin məsələsini müzakirə etməyi təklif edirlər. Bu baxımdan Fətəlixan Xoyskinin Ermənistan hökuməti başçısının məktubuna verdiyi cavabla bağlı onun AXC-nin Xarici İşlər naziri M.H.Hacinskiyə 1918-ci ilin mayın 29-da göndərdiyi məktub çox maraqlıdır. Fətəlixan Xoyski məktubunda yazırdı ki: "Biz

ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatu-mumuzu qəbul edəcəklər və müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərlə güzəştə getdik" [15, s. 41]. Lakin bu məsələyə aid arxiv sənədlərinin son dərəcə dəqiqliklə öyrənilməsi və elmi təhlili qəbul edilən taleyüklü qərarın bütün beynəlxalq hüquq prinsiplərinin pozulması ilə müşayət olunduğu və Azərbaycan xalqının rəyi soruşulmadan qəbul edildiyi faktı təsdiq olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci ilin əvvəlində Ağdam rayonuna səfəri zamanı 1918-ci ildə Azərbaycan Milli Şurası tərəfindən qəbul edilən bu qərarın çox səhv və yanlış bir addım olduğunu qeyd etmişdi. Bu məsələyə əsərlər içərisində arxiv sənədlərinin zənginliyi ilə seçilən əsərlərdən biri t.e.d.dos. V.V.Qafarovun 2011-ci ildə "Azərnəşr" nəşriyyatında çap olunmuş "Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1920)" adlı monoqrafiyasıdır ki, bu əsərin V fəslində bütün Azərbaycan xalqını daima maraqlandıran ən ağır suallardan birinə – İrəvan şəhərinin ermənilərə necə verilməsi məsələsinə V.V.Qafarov tərəfindənTürkiyə Cümhuriyyəti BBA-də aşkar edilmiş sənədlərdə aydınlıq gətirilmişdir. Bu fakt da məlumdur ki, o zaman Bakı şəhəri Sovet Rusiyasının əlində idi. Bütün bunlarla yanaşı, Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Zəngəzur bölgələrində erməni quldur dəstələri yerli azərbaycanlı əhaliyə qarşı talan və quldur hücumları davam edirdi. Çıxılmaz vəziyyətə düşən Azərbaycan əhalisi öz nicat yolunu Osmanlı dövlətinə müraciət etməkdə görürdü və bunu nəzərə alan Seymdə təmsil olunan azərbaycanlı deputatlar da belə bir fikrin tərəfdarı idilər. Bakı neftinə sahib olmaq üçün Sovet Rusiyası ilə bərabər Böyük Britaniya, Fransa, ABŞ və Almaniya dövlətləri bir-biri ilə kəskin mübarizə aparırdı. Həmin dövrdə Böyük Britaniyanın baş naziri olmuş L.Corc yazırdı: "…müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatlar xeyli uzanar və onun hansı nəticələri verəcəyini qabaqcadan söyləmək olmazdı". İranda Böyük Britaniyanın Əlahiddə Korpusunun komandanı general Denstervil bu fikri təsdiq edərək yazırdı: "Bakının əhəmiyyəti böyük idi… Bizim planımız Xəzər dənizində üstünlüyü ələ almaq idi, bunu isə yalnız Bakını tutmaqla həyata keçirmək mümkün idi, yəni bu şəhəri "düşmən işğalından müdafiə etmək lazım idi". Sonralar İngiltərənin "The Times" qəzeti elə belə də yazırdı: "Biz ora getdik ki, Bakının neft mənbələrini ələ keçirək". Bu fikrin təsdiqi olaraq Uinston Cörçil 1918-ci ildə Böyük Britaniyada nəşr olunan "Nur İST" jurnalında çap etdirdiyi məqaləsində yazırdı: "Neft məsələsində Bakının tayı-bərabəri yoxdur. Bakı dünyanın ən böyük neft mərkəzidir. Əgər neft kraliçadırsa, Bakı onun tacıdır" [17, s. 85]. Regionda baş verən hadisələrlə yanaşı onun hüdudlarından kənarda da Bakı nefti ilə bağlı yeni gizli və açıq siyasi sövdələşmələr aparılırdı. Belə ki, 1918-ci il avqustun 27-də Sovet Rusiyası və Kayzer Almaniyası arasında Osmanlı Türkiyəsindən gizli şəkildə bir saziş imzalanmışdı. Razılaşmaya əsasən Bakıda neftin çıxarılması Sovet Rusiyasının iştirakı və nəzarəti altında olmalı onun dörddə biri isə Almaniyaya verilməli idi". Qeyd etmək lazımdır ki, göstərilən dövrdə Bakı neftini ələ keçirmək uğrunda mübarizə aparan dövlətlərin Cənubi Qafqaz siyasətində erməni amili, onlardan istifadə hər addımda özünü büruzə verirdi. Buna görə də bütün bu dövrdə gedən hərbi-siyasi proseslər fonunda Azərbaycan xalqı bütün ümidlərini Osmanlı Türkiyəsi dövlətinin göstərə biləcəyi yardıma ümid edirdi. 1918-ci il may ayının 24-də Tələt paşa Batum konfransındakı Osmanlı Türkiyəsi nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşəyə göndərdiyi teleqramda yazırdı: "Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən razı deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcək. İran və Amerkada olan bütün ermənilər orada toplanaraq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla birlikdə bizim əleyhimizə hərəkət edəcəklər" [11, s. 73]. 103 il bundan əvvəl çox müdrikliklə deyilən bu sözlər bu gün artıq öz ağır dəhşətləri ilə reallığa çevrilmişdir. 1918-ci il mayın 29-da keçirilən ikinci iclasda İrəvandan olan Milli Şuranın üzvləri M.H.Seyidov, M.B.Rzayev və N.Nərimanbəyov yazılı şəkildə iki dəfə Milli Şuranın İrəvanın ermənilərə güzəşt gedilməsinə səlahiyyəti olmadığı halda, onun güzəştə gedilməsinə qarşı etiraz ərizəsi ilə müraciət etsələr də, iştirak edən 20 nəfər Milli Şura üzvü məsələyə münasibət bildirmədən qəbul edilmiş qərarın qüvvədə saxlanılmasına razılıq verdilər. Burada təbii olalar sual olunur: İrəvan şəhəri ermənilərə güzəştə gedərkən şəhər əhalisinin və onları təmsil edənlərin rəyi soruşulmuşdurmu? Sənədlər təsdiq edir ki, heç bir rəy sorğusu və yaxud bu istiqamətdə hər hansı bir addım atılmamışdı. Bütün bunlar bu qərarın həm siyasi, həm də hüquqi cəhətdən nə qədər səhv və bağışlanılmaz bir siyasi addım olduğunu bir daha təsdiq edir. Bu zaman da Azərbaycan xalqının legitimlik hüququ pozulmuş oldu, çünki güzəştə gedilən ərazinin mülkiyyət hüququ ona məxsus idi. Bu hüququ çox təəssüflər olsun ki, biz özümüz pozmuş olduq. Digər tərəfdən, İrəvan şəhərinin ermənilərə verilməsi məsələsi Erməni Milli Şurası tərəfindən Azərbaycan XC Milli Şurasına müraciətindən sonra müzakirə olunmuşdu və çox təəssüflə qeyd etmək lazımdır ki, İrəvan şəhəri və onun quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 100.6 min kv.km təşkil edirdi. Qeyd etmək lazımdır ki, dövrün arxiv sənədlərində bu tarixə qədər bütün Cənubi Qafqazın ərazisi 210.000 kv.km. olmuşdur ki, onun da 61.5 min

kv.km.-i Gürcüstana, 9.000 kv.km-i güzəştə gedilən ərazi kimi ermənilərə, Brest və Batum konfranslarının qəbul etdikləri qərarlara görə 45.5 min kv.km isə Osmanlı Türkiyəsinə məxsus idi. Ermənilər onlara edilən güzəşt nəticəsində hüquqi məkan əldə etdikdən dərhal sonra Şimali Azərbaycanın Naxçıvan, Zəngəzur və Qarabağın dağlıq ərazilərinin Ermənistana birləşdirilməsini iddiası ilə çıxış etdilər, halbuki ermənilər 1918-ci ilin mayında Batum danışıqları zamanı bu ərazilərə iddia etməyəcəkləri barədə öhdəlik qəbul etmişdilər. Lakin 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci aprelin 28-də Şimali Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası hökuməti Gürcüstan və Daşnak Ermənistanı missiyaları ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən gizli aparırdı. Ən dəhşətlisi isə o idi ki, Azərbaycan SSR nümayəndə heyəti belə danışıqlara cəlb edilərkən onları ya milliyyətcə ermənilər, ya da gürcülər təmsil edirdilər. 1920-ci ilin iyunundan avqustun 10-nadək aparılan danışıqların nəticəsi olaraq İrəvan şəhərində Sovet Rusiyası ilə Daşnak Ermənistanı arasında müqavilə imzalanarkən, bir sıra diplomatik sənədlərin də sübut etdiyi kimi, burada Azərbaycan SSR-in milli-dövlət mənafelərinə ciddi qəsdlər edilərək Zəngəzur və Naxçıvanın Daşnak Ermənistana verilməsi planlaşdırılmışdı. Bu zaman Sovet Rusiya hökuməti S.Orconikidzenin belə bir iddiasından çıxış edirdi ki, "…məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər" [6]. İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtardı ki, həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi. Əslində Azərbaycanın tarixi torpaqlarının Daşnak Ermənistana verilməsi planı V.Leninin razılığı ilə İ.Stalin tərəfindən hazırlanmışdı. Çünki sonrakı illərdə bu torpaqların hissə-hissə zəbt olunması və bu ərazilərdə yaşayan əhalinin deportasiyası da İ.Stalin tərəfindən həyata keçirilmişdi. 1920-ci il noyabrın 4-də İ.Stalin, S.Orconikidze, T.Qabrielyan, Leqran, Ə.Qarayev və başqalarının iştirakı ilə keçirilən iclasda Sovet Rusiyası ilə Daşnak Ermənistanı arasındakı müqavilənin şərtlərinə toxunularkən İ.Stalinin fikri əsasında belə bir qərar qəbul edilmişdi: "Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız son halda baş tuta bilər" [7]. İclasda həmçinin Siyasi Büronun Naxçıvan və Zəngəzura aid fikrinin əsaslandırılmasını hazırlamaq N.Nərimanova həvalə olunmuş, habelə İ.Stalinin bu məsələ ilə RK(b)P MK ilə danışıqlar aparmasınadək Ermənistana təqdim edilən müqavilə barədə qəti qərar çıxarmamaq haqqında razılaşma əldə olunmuşdu. Bu qərarın özü bir daha göstərir ki, Azərbaycan torpaqları Sovet Rusiyası tərəfindən hərraca qoyulmuşdu. Həmin qərarın "B" bəndində yazılırdı: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir". Qərarın "Q" bəndində Zəngəzur və Naxçıvanın Ermənistan SSR tərkibinə verilməsi, "D" bəndində isə Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verildiyini göstərilirdi. Zəngəzurun Qərb hissəsinin ermənilərə verilməsi, sadəcə Sovet Rusiyasının təzyiqi ilə "bağışlanması" istiqamətində daha bir ciddi addım 1920-ci il dekabrın 1-də atıldı. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan torpaqlarının Ermənistan SSR-ə bağışlanmasını həyata keçirən İ.V.Stalin Bakı Sovetinin 1920-ci il dekabrın 1-də qəbul etdiyi qərara münasibətini belə bildirmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir, Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir" [8]. 1920-ci il dekabrın 2-də İ.Stalinin "Azərbaycanın fatehi" adlandırdığı S.Orconikidze V.İ.Leninə və onun özünə Bakı Sovetində qəbul edilən qərarın məzmununu çatdırmışdı. Yuxarıda qeyd edildiyi kimi, Zəngəzurun qərb hissəsinin Ermənistan SSR-ə verilməsi rəsmən elan olunsa da, qəzanın onun idarəçiliyinə keçməsi dərhal baş vermədi. Belə ki, 1921-ci il yanvarın 12-də Azərbaycan KP MK Siyasi və Təşkilat Bürolarının iclasında Zəngəzurun müsəlman əhalisi yaşayan hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar qəbul etdi. Zəngəzurun azərbaycanlı əhalisini sıxışdırmaqda davam edən ermənilər bununla kifayətlənməyərək sonralar bir sıra ərazilərin də ələ keçirilməsinə nail oldular. Belə ki, Cənubi Qafqaz MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri-Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci il 20 iyun tarixli iclasında isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edildi. Yenə də bu qanunverici hakimiyyət orqanının 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyatzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasda Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun üç kəndi: Nüvədi, Ernəzir və Tuğut-Ermənistan SSR-ə verildi [12, s. 206]. Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqların da ermənilərə "bağışlanması" və burada Mehri rayonunun təşkili ilə Azərbaycan SSR özünün tərkib hissəsi olan Naxçıvan diyarından ayrı salındı, bu bölgə ilə əlaqə çətinləşdi. Naxçıvan Muxtar Respublikasının 1921-ci il Qars müqaviləsi ilə müəyyən edilmiş sərhədlərinə gəldikdə isə, həmin müqavilədə Naxçıvan ərazilərinin qarantı kimi çıxış edən Osmanlı Türkiyəsi dövlətinin razılığı olmadan Cənubi Qafqaz Sovet MİK Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə bölgənin 657 kv.km. ərazisi Ermənistana SSR-ə verildi. Bu orqanın 1938-ci il 5 mart tarixli iclasının qərarına əsasən isə Şərurun Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər Ermənistan SSR tərkibinə

keçdi [4, s. 94]. Beləliklə, 1920-1929 və 1938-ci illər ərzində Sovet Rusiyası və SSRİ dövləti tərəfindən işğal edilmiş AXC-ti ərazisinin 20,8 min kv.km. ərazisi,o cümlədən Qərbi Zəngəzurun 4,5 min kv.km. ərazisini Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq onun tarixi ərazilərini parçalamaqla Naxçıvan diyarını respublikanın əsas ərazisindən ayırı saldı və bununla da Türk dünyasını müvəqqəti ilaraq parçalamağa nail oldu. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi SSRİ dövlətinin Azərbaycan xalqına qarşı XX əsrin I yarısında törətdiyi ən ağır cinayətlərdən biri idi. Azərbaycan xalqına qarşı törədilən cinayət prosesi XX əsrin II yarısında da davam etmişdir. Qərbi Azərbaycan (Ermənistan SSR) ərazilərindən yerli azərbaycanlı əhalidən təmizləmək məqsədilə 1947-ci il dekabrın 23-də SSRİ dövlətinin başçısı İ.Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 4083 saylı qərarını imzaladı. Bu qərarın imzalanmasına qədər mərkəzi hökumət daxilində qəribə proseslər cərəyan etməyə başlayır. İ.Stalin Ermənistan SSR rəhbəri Q.Arutinov təcili olaraq "ermənilər üçün"təxirəsalınmaz məsələlərin həlli üçün Moskvaya yanına çağırılır. 3 dekabr 1947-ci il tarixdə M.C.Bağırov azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi təklifinə razılıq verməyə məcbur edilir. Bundan sonra SSRİ Nazirlər Soveti 10 dekabr 1947-ci il tarixində ermənilərin SSRİ-yə köçürülməsi işinin davam etdirilməsi haqqında qərar qəbul edir. Ondan 4 gün sonra Azərbaycan SSR rəhbəri M.C.Bağırov 4,5 ay müddətinə "məzuniyyətə" göndərilir. Bütün bunlardan sonra yuxarıda adı çəkilən qərar qəbul edilir [20]. Lakin bu qərarın qəbul edilməsinə qədər diqqəti cəlb edən bir sıra hadisələr də baş verir. Belə ki,1948-ci ilin matın 3-də M.C.Bağırovun və Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevin Azəbaycan SSR rayon partiya komitələrinin katiblərinə və rayon İK-nin sədrlərinə vurulan teleqramlarda Ermənistan SSR-dən və ilk növbədə İrəvan şəhərindən 1947-ci ilin dekabr və 1948-ci ilin yanvar-fevral aylarında 200-ə qədər ailənin icazəsiz olalaraq Cəncə şəhəri və ətraf ərazilərə köçmüş ailələr barədə məlumatların verilməsi tələb olunur və bu işin yoxlanılması Azərbaycan SSR Nazirlər Sovrti yanında Köçürmə şöbəsinin rəisi milliyyətcə erməni olan Bakı şəhərində anadan olmuş N.A.Brutensə tapşırılır [2]. N.A.Brutensin Azəbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə tam məxvi qrifi ilə ünvanladığı məlumatda (sənəd №10) onun Cəncə (o zaman Kirovabad) şəhər Soveti sədrinin müavini Abdullayev və şəhərin Nizami rayonu İcrayyə Komitəsinin sədri Namazovla keçirdiyi görüşlər haqda bəhs edir, lakin icazəsiz köçənlərin sayının blinmədiyini göstərir. Məlumatda göstərilir ki, köçüb gələnlər Cəncə şəhəri yaxınlığında saldıqları Yeni İrəvan qəsəbəsində yaşayırlar. Köçüb gələn 200 ailədən 50 ailə Cəncə şəhərində, qalalanları isə Qazax, Akstafa, Şəmkir və Gədəbəy rayonları ərazilərində məskunlaşmışlar. Həmçinin, verilən məlumatda İrəvan şəhərindən köçən 50 ailənin hamısının Cəncə şəhərində məskunlaşması qeyd edilməklə bərabər, onların əksəriyyətinin İrəvanda Ermənistan SSR Ticarət Nazirliyi və ictimai iaşə sistemində çalışdıqları üçün burada onların çoxunun işsiz qaldiqları göstərilir [2]. Təkcə bu faktın özü 1945-1946-cı illərdə Ermənistan SSR rəhbərliyinin və Erməni-Qqriqoryan Kilsəsinin İrəvan şəhəri və ətraf rayonlarda yaşyan yerli azərbaycanlı əhali üçün dözülməz şərait yaratdıqlarını təsdiq edir. Elə bu səbəbdən də yerli azərbaycanlı əhali öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qalmışdılar. Bütün bu vəziyyətdən İ.Stalinin müfəssəl xəbəri var idi və 1948-ci il martın 10-da o SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı ikinci qərarı qəbul etdi. Bu qərarlar daşnak ruhlu Ermənistan SSR rəhbərlərinə yerli azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasətini açıq-aşkar dövlət səviyyəsində həyata keçirməsi üçün hüquqi əsas verdi. 1947-ci il 23 dekabr tarixli qərarda göstərilirdi ki, "könüllülük prinsipi" əsasında Ermənistan SSR-dən 1948-1950-ci illərdə 100 min azərbaycanlı köçürülsün. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu [2, s. 8]. Qeyd etmək lazımdır ki, Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi vəzifədən milliyyətcə erməni olan N.A.Brutens azad edilir və onun yerinə N.D.Allahverdiyev təyin edilir. N.D.Allahverdiyevin 4 iyun 1951-ci il 239 saylı Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə ünvanlandığı "Ermənistan SSR-nin dağlıq bölgələrindən köçürülmüş 215 ailənin məskunlaşma yerində iqlim şəraitinə uyğunlaşmayaraq, geri, əvvəlki yaşayış yerlərinə qayıtmaları haqqında arayış"da Ermənistan SSR Kənd Təsərrüfatı Nazirliyinin və Xalq Təsərrüfatının Qeydiyyatı İdarəsinin məlumatlarına istinadən köçürülmə prosesinin əvvəlkinədək, yəni 1948-ci ilədək Ermənistan SSR-də 25 min azərbaycanlı ailəsinin təxminən 110 000 nəfərin yaşadığı göstərilir ki, onlardan da 9000 ailə-təxminən 35 000 nəfəri düzən ərazilərdə, qalan 75 min nəfəri, yəni 16 000 ailə isə yüksək dağlıq ərazilərdə yaşayırdı [2, s. 88]. Lakin qeyd etmək lazımdır ki, bu dövrə aid rəsmi dövlət sənədlərində Ermənistan SSR-də yaşayan azərbaycanlıların ümumi sayı ilə bağlı göstərilən rəqəmlər fərqliliyi ilə diqqəti cəlb edir. Belə ki, köçürmə prosesinin əvvəlini əks etdirən iki sənəddə "Xaricdən gələcək ermənilərin torpaq və yaşayış yerləri ilə təmin edilməsi üçün 130 min azərbaycanlının Ermənistan SSR-dən Azərbaycan SSR-in az məskunlaşmış, pambıqçılıq rayonlarına köçürülməsinə icazə verilməsi barədə Azərbaycan SSR və Ermənistan SSR

RK(b)PMK birinci katibləri M.C.Bağırov və Q.A.Arutinovun 3 dekabr 1947-ci il tarixli məktubda Ermənistan SSR-də yaşayan azərbaycanlıların sayı 130 min nəfər göstərildiyi halda, həmin dövrü əks etdirən, lakin 1951-ci il 4 iyun tarixinə aid 239 saylı sənəddə isə onların sayının 110 000 nəfər olduğu göstərilmişdi [2, s. 88]. Bu qeyri-dəqiqlik belə bir fikri söyləməyə əsas verir ki, Ermənistan SSR rəhbərliyi bu respublikada yaşayan yerli azərbaycanlı əhalinin sayını qəsdən saxtalaşdırmışdı. Qeyd etmək lazımdır ki, bu qərarların qəbul edilməsi yerli azərbaycanlı əhalinin Ermənistan SSR-dən köçürülüb Azərbaycan SSR ərazisində yerləşdirilməsi probleminin bütün ağırlığı Azərbaycan SSR hökumətinin üzərinə qoyulmuşdu. Köçürülmə prosesini sürətləndirmək məqsədilə Respublika Nazirlər Sovetinin qərarı ilə Nazirlər Sovetinin köçürmə şöbəsinin Azərbaycan SSR Nazirlər sovetinin sədri T.İ.Quliyev və Azərbaycan KP MK katibi H.Ə.Seyidov M.C.Bağırova 18 mart 1948-ci il tarixdə (sənəd №1) "Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə şöbəsi"nin yenidən qurularaq, onun bazasında köçürmə İdarəsinin yaradılması və bu İdarənin Ermənistan SSR-də müvəqqəti nümayəndəliyinin təşkil edilməsi haqqında" yazılı məlumat təqdim olunur və Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə məsələləri üzrə səlahiyyətli nümayəndəsi M.N.Məmmədov təyin edilir [2, s. 95-96]. Bundan sonra isə azərbaycanlı əhalinin köçürülməyə razılıq vermələri üçün Azərbaycan SSR-dən elm, mədəniyyət və incəsənət xadimlərindən ibarət təbliğat briqadaları Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayonlara göndərilirdi. Lakin, bütün görülən tədbirlərə baxmayaraq Ermənistan SSR-in bütün rayonlarında azərbaycanlılar bu zorakı köçürülmə aksiyasına etirazlarını müxtəlif formalarda bildirmişlər. Qeyd etmək lazımdır ki, mərkəzi hökumətin bu ədalətsiz qərarına yazılı şəkildə ilk etiraz edən Zəngəzurun Mehri rayonunun Nüvədi kəndinin əhalisi olmuşdur. 1948-ci il aprelin 23-də Nüvədi kəndinin əhalisi adından ("Qırmızı sərhəd kolxozu") İ.V.Stalinə ünvanlanan məktubda bu kəndin 1920-ci ildən Azərbaycan SSR tərkibində olduğu göstərilir və qeyd olunur ki, bu kəndin ərazisi yenidən Azərbaycan SSR Zəngilan rayonu tərkibinə qaytarılsa daha ədalətli olar. Məktubun sonunda ədalətli bir qərarın qəbul ediləcəyinə ümid ifadə olunur [2, s. 153-154] (Sənəd №52). Əlində mərkəzi hökumət nümayəndələri və Ermənistan SSR rəhbərliyi heç bir müqavimətin və ya etirazın olmayacağına ümid bəsləyirdilər. Lakin, onlar yanılmamışdılar. Bu fikri təsdiq edən belə sənədlərdən daha biri Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Dövlət Arxivinin 411-ci fondunda saxlanılır. Ermənistan SSR-in Daxili İşlər Naziri, general-mayor Xoren Qriqoryanın (bu həmin Xoren Qriqoryan idi ki, 30-cu illərdə Azərbaycan SSR XDİK-nın müavini işləyərkən minlərlə azərbaycanlının günahsız yerə həbs olunmasına, sürgün edilməsinə və güllələnməsinə bais olduğunu öz anasına yazdığı məktubda etiraf etmişdi – C.B.) 1948-ci il mayın 3-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova ünvanlandığı və "tam məxfi" qrifi altında uzun müddət gizli saxlanılan 11 səhifəlik arayışda köçürülməsi nəzərdə tutulan azərbaycanlı əhalinin əhval-ruhiyyəsi öz əksini tapıb [3, fond 411, siyahı 26, iş 34, vərəq 65]. Arayışın giriş hissəsində göstərilir ki, "düşmən ünsürlər" bu köçürülməni SSRİ ilə Türkiyə Cümhuriyyəti arasında müharibə olacağı təqdirdə, azərbaycanlılara etimad göstərilməməsinin təzahürü kimi qiymətləndirirlər [3, vərəq 65]. Ancaq qeyd etmək lazımdır ki, əgər Türkiyənin NATO-ya üzv qəbul edilməsəydi və ABŞ-la strateji müttəfiqlik haqqında sənəd imzalamasaydı, SSRİ hökuməti Türkiyə dövlətinə qarşı müharibəyə başlayacaqdı. Həmin arayışın sonunda daşnak əhval-ruhiyyəli ermənilərin də fikirləri yer alıb. X.Qriqoryanın M.C.Bağırova ünvanlandığı məktubun sonunda Azərbaycan SSR və Türkiyə Cümhuriyyətinə qarşı təcavüzkar mövqe tutan ermənilərin fikirlərinin qeyd edilməsi ona işarə idi ki, Ermənistan SSR-də ermənilərlə azərbaycanlılar bir yerdə yaşaya bilməzlər, ona görə də azərbaycanlıların köçürülməsi məsləhətdir. Məsələn, arayışda Ermənistan SSR Sosial Təminat Nazirliyinin tədris kombinatının texnologiya müəllimi Minas Arakelyanın dediklərindən sitat gətirilir: "... Azərbaycanlıların Ermənistan SSR-dən köçürüləcəkləri məsələsi şübhə doğurmur. İlk növbədə Araz və Yuxarı Arpaçay çaylarının sahillərində yaşayan azərbaycanlılar köçürüləcək. Sonra İrəvan şəhərindən azərbaycanlılar köçürüləcək. İlk növbədə sərhəd rayonlarında yaşayan azərbaycanlılardan qurtulmaq tamamilə anlaşılandır, belə ki, onlar tez-tez dövlət sərhədini pozurlar. Türkiyə isə onlardan özü üçün casus yuvaları yaradır" [3, fond 411, siyahı 26, iş 34, vərəq 75]. İrəvan sakini Yervand Mesropyan öz qonşusu ilə söhbətində: "azərbaycanlıları nəinki Ermənistandan deyil, həmçinin Naxçıvandan da köçürmək, sonra isə bu ərazini Ermənistana birləşdirmək lazımdır", – demişdir [3, fond 411, siyahı 26, iş 34, vərəq 75]. Bundan sonra bu istiqamətdə real addımlar atan Ermənistan SSR rəhbərliyi 1948-ci ildə təkcə İrəvan şəhərindən və onun Spandaryan, Stalin, Kirov, Molotov rayonlarından ümumilikdə 437 təsərrüfatın köçürrülməsinə və 1886 nəfərin deptasiyasına nail olmuşdu [2, s. 244-245]. Deportasiya olunanlar içərisində Azərbaycan Pedaqoji İnstitutunun 45 nəfər üzvü və Azərbıycan Pedaqoji Məktəbinin 83 nəfər heyəti var idi. Pedaqoji İnstitut Bakı şəhərinə, Pedaqoji Məktəb isə Göygöl rayonuna köçürüldü. İrəvan şəhəri rayonlarından körürülən azəbaycanlı əhali Azəbaycan SSR-in Bakı, Cəncə, Daşkəsən, Naxçıvan şəhərlərində, Göygöl, Şəmkir, Beyləqan və Quba rayonları ərazilərində yerləşdirilmişdi [2, s. 244-245]. Fransadan gələn, vaxtilə daşnak ordusunda dəstə başçısı olmuş və Kirovakanda (1936-cı ilədək Böyük

Qarakilsə - C.B.) yaşayan Sumbat adlı erməni deyirmiş: "Vaxtilə daşnaklar Naxçıvan MSSR-in Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qoysalar da, buna nail ola bilməmişdilər. İndi isə bu məsələni qoymaq vaxtıdır, beləliklə, Ermənistanın torpaqlarını genişləndirmək olar". Aşağıda göstərilən cədvəldə isə İrəvan şəhərindən 5000 və Leninakan şəhərindən isə 250 nəfər azərbaycanlının köçülməsi nəzərdə tutulmuşdu [2, s. 241]. Qeyd etmək lazımdır ki,1949-cu ilə aid rəsmi sənədlərdə İrəvan şəhəri və rayonlarından Azərbaycan SSR-nin Göyçay, Yevlax, Saatlı və Slyan rayonlarına 8 təsərrufat və 39 şəxsin köçürüldüyü qeyd edilmişdir [2, s. 241]. Bu antiinsani siyasəti həyata keçirən Ermənistan SSR rəhbərliyi növbəti ildə azərbaycanlı əhalinin köçürülmələri ilə bağlı qərar qəbul edir. Belə ki, Ermənistan SSR Nazirlər Sovetinin "1950-ci ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsinin planı" haqqında qərarı bu fikri təsdiq edir. Qəbul edilmiş qərara əsasən 1950-ci ildə İrəvan şəhəri və onun Stalin, Kirov, Spandaryan və Mikoyan rayonlarından ümumilikdə 24 təsərrüfat və 102 nəfər şəxs Bakı şəhəri, Sabirabad, Beyləqan, və Göyçay rayonlarına köçürülmüşdür [2, s. 491]. 1951-ci ilə aid rəsmi məlumatda isə İrəvan şəhərindən Sabirabad rayonuna 9 təsərrüfat və 42 nəfərin köçürüldüyü qeyd olönmuşdur [2, s. 558]. 1952-ci ilə aid rəsmi məlumatda yenə Sabirabad rayonu ərazisinə İrəvan şəhərindən 22 təsərrüfatın və 73 şəxsin köçürüldüyü göstərilmişdir [2, s. 635]. Lakin,1953-cü ilə aid məlumatda isə İrəvan şəhərindən köçürülən 21 təsərrüfatın və 73 nəfərin köçürüldüyü qeyd olunsa da, onların Azərbaycan SSR-n hansı bölgəsində yerləşdirildiyi göstərilməmişdir [2, s. 681]. Beləliklə, 1948-1953-cü illər ərzində İrəvan şəhəri və onun raynlarından Azəbaycan SSR-nin şəhər və rayonlarına 521 təsərrüfatın və 2215 nəfər azərbaycanlının köçürüldüyü rəsmi arxiv sənədləri tərəfindən təsdiq olunur. Ümumilikdə isə azərbaycanlı əhalinin Ermənistan SSR və onun paytaxtı İrəvan şəhərindən deportasiyası prosesininin gedişatına nəzər saldıqda, məlum olur ki, 1947-ci il dekabrın 23-də və 1948-ci il martın 10-da qəbul olunmuş qərarlara əsasən Ermənistan SSR ərazisindən Azərbaycan SSR ərazisinə 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə 50 min nəfər azərbaycanlı əhalinin köçürülməsi planlaşdırılsa da, onu həyata keçirmək mümkün olmamışdır. Belə ki, 1954-cü il yanvarın 12-də Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi qərarda 1948-1953-cü illər ərzində Azərbaycan SSR ərazisinə 11914 təsərrüfat və 52956 nəfərin köçürüldüyü, o cümlədən Ermənistan SSR ərazisindən 9875 təsərrüfatın və 42 190 nəfərin köçürüldüyü qeyd olunur. Lakin, konkret olaraq Ermənistan SSR ərazisindən faktiki olaraq köçürmə planına görə 1948-ci ildə 9652, 1949-cu ildə 12835, 1950-ci ildə 17155 nəfərin, 1951-ci ildə 5598, 1952-ci ildə 4928, 1953-cü ildə isə 2794 nəfərin köçürüldüyü nəzərə alınsa, onda bu dörd ildə, yuxarıda göstərildiyi kimi, Azərbaycan SSR ərazisinə köçürülənlərin sayı 52956 nəfər olmuşdur [2, s. 683]. Erməni faşizmini açıq şəkildə müdafiə edən SSRİ dövləti Ermənistan SSR ərazisindən, öz tarixi etnik torpaqlarından – İrəvan şəhəri də daxil olmaqla 264 kənddən və 7 şəhərdən 187 min azərbaycanlı deportasiya olundu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kollektiv təsərrüfatların əmlakı talandı, 242 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi və qız-gəlinlərin namusu təhqir olundu. 15 mindən çox kürd və 3 min rus millətinə məxsus əhali Ermənistan SSR-dən çıxarıldı [5, s. 258]. 1988-1989-cu illərdə Ermənistanın hərbi-ideoloji təcavüzünün güclənməsi nəticəsində deportasiya, etnik təmizləmə və soyqırımına məruz qalan azərbaycanlı əhali Azərbaycan SSR-ə pənah gətirdi. Mərkəzi hökumətin Azərbaycan xalqına qarşı yeritdiyi etnik təmizləmə xarakteri daşıyan cinayətkar siyasəti nəticəsində genişlənən Ermənistanın hərbi təcavüzü onu milli azadlıq mübarizəsinə qaldırdı. 1990-cı il yanvarın 20-də SSRİ Prezidenti M.S.Qorbaçov ermənilərin ərazi iddialarına qarşı etiraz edən Azərbaycan xalqını cəzalandırmaq üçün Bakı şəhərinə SSRİ və Azərbaycan SSR-in Konstitusiyaları və respublikanın suveren hüquqları pozularaq qoşun yeridilməsi haqqında fərman verdi və Azərbaycan xalqına qarşı soyqırımı cinayəti törədildi. SSRİ dövlətinin bu cinayətinə qarşı öz ilk etiraz səsini qaldıran görkəmli dövlət xadimi Heydər Əliyev oldu. O, 1990-cı il yanvarın 21-də Azərbaycan SSR-in Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gələrək SSRİ dövlətinin M.S.Qorbaçovu Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı cinayətində ittiham etdi və onun bu etirazı bütün dünyada böyük əks-sədaya səbəb oldu. SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətə etiraz olaraq Heydər Əliyev 1990-cı ilin iyulunda Sov. İKP sıralarını tərk etdiyini bəyan edərək Vətəni Azərbaycana qayıtdı. Respublika rəhbərliyi Heydər Əliyevin ölkənin siyasi mərkəzi olan Bakıda qalmaması üçün hər cür təxribatlara əl atıldı və o terror aktı ilə hədələndi. Həyat üçün real təhlükənin mövcud olduğunu hiss edən Heydər Əliyev Naxçıvan MR-na getməyə məcbur oldu. O, 1990-1993-cü illərdə ağır blokada şəraitində olan Azərbaycan Respublikası Naxçıvan MR-nın yaşaması, onun sərhədlərinin qorunması üçün mümkün olmayanı mümkün etdi. Heydər Əliyev 1991-ci ilin fevralında Azərbaycan Ali Sovetinin sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox sərt məzmunda məruzə ilə çıxış etdi və o zaman Azərbaycan dövlətinin problemin həlli ilə bağlı konkret tədbirlər proqramı olmadığını söylədi. Lakin, onun irəli sürdüyü tədbirlər respublika rəhbərliyi tərəfindən qəbul edilmədiyi üçün çox qısa bir zaman ərzində

Azərbaycan xalqına düşmən tərəfindən çox ağır zərbələr vuruldu. 1991-ci il oktyabın 18-də Azərbaycan xalqı öz dövət müsəqilliyini bərpa etdi və çox qısa zaman ərzində beynəlxaq hüququn subyektinə çevrildi.

1918-1935-ci ilədək Ermənistanda 28 Azərbaycan mənşəli toponim artıq dəyişdirilmişdi. Bundan sonra Azərbaycan xalqının tarixi coğrafiyasına qarşı dövlət səviyyəsində törədilən bu cinayət prosesi geniş miqyas almağa başladı. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında 1935, 1938, 1939, 1940, 1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1968, 1969, 1977, 1978, 1980-ci illərdə respublika ərazisində Azərbaycan mənşəli butün toponimlər dəyişdirilərək ermənileşdirilmişdir. 1988-ci ilin avqust ayınadək indiki Ermənistan Respublikası ərazisində 521 Azərbaycan mənşəli yaşayış məskənlərinin adları dəyişdirilmişdir. Bu məsələr və bundan sonra bu istiqamətdə 2006-c ilədək atılan addımlar, yəni Azərbaycan mənşəli adların dəyişdirilməsi ilə qəbul edilmiş qərarlar 2008-ci ildə erməni dilində nəşr olunmuş "Ermənistan Respublikasının yaşayış məntəqələrinin lüğəti" adlı kitabda öz əksini tapmışdır. Burada söhbət bu nəşrə daxil edilən Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin "Ermənistan SSR-in inzibati-ərazi bölgüsü" nəşrlərinin (1976-cı il və 1988-ci il), o cümlədən Ermənistan Respublikası parlamentinin 3 aprel 1991-ci il, 8 avqust 1991-ci il və 4 iyul 2006-cı il tarixli fərmanlarından gedir.Bundan əlavə, belə bir faktı da qeyd etmək lazımdır ki, Ermənistan SSR-də Azərbaycan mənşəli toponimlərin dəyişdirilməsi prosesi ilə yanaşı, bir neçə kəndi bir təsərrüfatda birləşdirmək yolu ilə azərbaycanlı kəndlərinin adları Ermənistan SSR-in yaşayış məntəqələrinin siyahısından silinmişdir. Belə ki, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 5 fevral 1978-ci il fərmanı ilə Azərbaycan adlı yaşayış məntəqələrinə: Aşağı Kilsə - Quqark, Ağtala - Kamo, Zəngibasar - Masis, Basarkeçər - Vardenis kimi erməni mənşəli adlar verilmişdir. Bu yaşayış məntəqələrinin böyük əksəriyyəti Ermənistanda azərbaycanlılara qarşı 1918 - 1920-ci illər soyqırımı və 1948-1953-cü illər deportasiyasından sonra xaraba qalmışdır.1978-ci ildə 23 rayonda 60 Azərbaycan mənşəli toponim dəyişdirilmişdir.1988-1989-cu illərdə Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirildikdən sonra Ermənistan Respublikası Ali Soveti Rəyasət baycan Heyətinin 1991-ci il 9 aprel tarixli fərmanı ilə 90 yaşayış məntəqəsinin, 8 avqust 1991-ci il fərmanı ilə 16 yaşayış məntəqəsinin, Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə isə əvvəllər azərbaycanlılara məxsus olmuş 31 yaşayış məntəqəsinin adları dəyişdirilərək ermənileşdirilmişdir. Ümumiyyətlə, son dövrədək 717 Azərbaycan mənşəli inzibati-ərazi vahidinin adları dəyişdirilmişdir.7 noyabr 1995-ci ildə Ermənistan Respublikasının inzibati- ərazi bölgüsü haqqında yeni qanun qəbul edilmişdir. Ermənistanın yeni inzibati-ərazi bölgüsünə əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət (marz) yaradılmışdır. Hazırda Ermənistan ərazisində dövlət tərəfindən digər bir proses - hidronimlərin (çay, göl, bulaq və s.) və oronimlərin (dağ, dərə, aşırım, düzənlik və s.) adlarının dəyişdirilməsi prosesi gedir. Diqqəti çəkən bir məqam da ondan ibarətdir ki, müəyyən mərhələlərlə xarici ölkələrdən gəlib azərbaycanlıların yaşamış olduqları ərazilərdə məskunlaşan ermənilər indinin özündə də yer-yurd adlarını elə əvvəlki adları ilə - yəni azərbaycanlıların vaxtilə verdikləri adlarla çağırırlar. Oykonimləri, hidronimləri, oronimləri özündə əks etdirən bir sıra spesifik saytlarda yerləşdirilən xəritələrdə, xarici turizm şirkətlərinin saytlarında, yol bələdçiliyi üçün buraxılan nəşrlərdə, astronomik portallarda keçmiş adlar, əsasən, saxlanılır. Məsələn, www.astrolab.ru, www.travelpost.com, www.fallingrain.com saytlarında müasir Ermənistan Respublikasında mövcud olan, uzunluq və en dairəsini göstərən minlərlə toponim öz əksini tapmışdır ki, onların da mütləq əksəriyyəti türkmənşəli əski adlarını özündə saxlayır (Bu məlumatlar Nazim Mustafanın 2014-cü ildə AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunmuş "Vandalizm: tarixi adlara qarşı soyqırımı" adlı kitabdan götürülmüşdür) [13, s. 9-15].

Nəticə

Erməni faşizminin Azərbaycan xalqına qarşı yetirdiyi deportasiya, etnik təmizləmə, soyqırımı və işğalçı siyasət nəticəsində insan hüquqları sahəsində qəbul edilmiş çoxsaylı beynəlxalq müqavilələrdə əksini tapmış normalar, o cümlədən BMT Baş Assambleyasının 260 (III)A Qətnaməsi (179-cu plenar iclas, 9 dekabr 1948-ci il) ilə qəbul olunmuş və 1991-ci ildə qüvvəyə minmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiyasının "İnsan hüquqlarına dair Ümumdünya Bəyannaməsi"nin, "Mülki və siyasi hüquqlar üzrə Beynəlxalq Pakt"ın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq konvensiyanın, "İşgəncələr və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan münasibətlərə qarşı və ona görə cəzalandırma haqqında" konvensiyanın, "Uşaq hüquqları haqqında" konvensiyanın, o cümlədən "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa konvensiyasının (1954-cü il), "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının (1970-ci il) YUNESCO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasının (1972-ci il) və "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasının (1992-ci il) bütün müddəaları pozulmuşdur.

ƏDƏBİYYAT

1. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı, Azərbaycan Tarixçiləri İçtimai Birliyinin mətbəəsi, 2016, 408 s.
2. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013.
3. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 411, siyahı 26, iş 34, vərəq 65.
4. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920-iyun 1941). Bakı, Elm, 2008, 630 s.
5. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, Elm, 2008, 258 s.
6. ARPİİSSA, f.558, s.I, iş 22, v.1-2
7. ARPİİSSA, f.I, iş 22, v.17.
8. ARPİİSSA, f.I, iş 24, v.51-52.
9. АКАК Тифлис 1878,Том VII, стр. 484.
10. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, Elm, 2018, 616 s.
11. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011, 474 s.
12. Muradverdiyev A. Zəngəzur: tariximizin yaddaşı. Bakı, Xəzər, 2007, 1023 s.
13. Nazim Mustafa, Vandalizm: tarixi adlara qarşı soyqırımı. Bakı, 2014. 9-15 s.
14. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, OKA ofset, 2004, 348 s.
15. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı, Adiloğlu, 2006, 216 s.
16. Бахтурина А.Ю. Окраины Российской империи: государственное управление и национальная политика в годы Первой мировой войны (1914-1917 гг.). М., РОССПЭН, 1997, стр208-209.
17. История Азербайджана. Т.2. Баку, Издательство Академии Наук Азербайджанской ССР, 1954, 521 с.
18. История дипломатии. Москва, 2006, стр.423.
19. Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права, 1989, №2 стр. 59
20. Политбюро ЦК РКП(б) ВКП(б). Повестки для заседаний 1919-1952. Каталог. Т.III, 1940-1952, с.497-449.
21. РЦХИДНИ, ф.2, оп.1, д.6212, л.45
22. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., Типография Редакции периодических изданий Минстерства Финансов, 1911, 78 с.

ABSTRACT

Cabi BAHRAMOV

OCCUPATION OF NORTHERN AZERBAIJAN BY THE RUSSIAN EMPIRE AND SOVIET RUSSIA IN THE 19TH 20TH CENTURIES, CREATION OF THE SO-CALLED ARMENIAN "STATE" IN THE TERRITORY OF WESTERN AZERBAIJAN AND CRIMES COMMITTED BY THE USSR STATE AGAINST THE AZERBAIJANI PEOPLE

As the title suggests, the article is devoted to the study of the occupation of Northern Azerbaijan by the Russian Empire and Soviet Russia in the 19th-20th centuries, the creation of the so-called Armenian "state" in the territory of Western Azerbaijan, as well as the crimes committed by the USSR state against the Azerbaijani people. The author researched ethnic cleansing, deportation and genocide committed against the Azerbaijani people by the leaders of Tsarist Russia, Soviet Russia and the USSR in the 19th -20th centuries on the basis of an official archival and state documents as well as the principles of international law, examined the causes and consequences of the crimes of occupation. In the article, all issues are considered from the point of view of the principle of objective scientific analysis and a legal assessment of the events is approached.

Key words: *Territories of Azerbaijan, Tsarist Russia, rights of legitimacy, resettlement of Armenians, committed crimes*

100 İLLİK NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KAZIM QARABƏKİR PAŞANIN ROLU

Şəkər MƏMMƏDOVA
shakarmammadova1986@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

"Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünyaşöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində rolu danılmazdır".

Heydər Əliyev
Azərbaycan xalqının Ümummilli Lideri

XÜLASƏ

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı mövcud olduğu bütün tarixi dövr ərzində çox mürəkkəb və çətin bir inkişaf yolu keçmişdir. Azərbaycanın, eləcə də Qafqazın qədim türk torpağı olan Naxçıvan Oğuz məskəni olaraq ulu türk izlərini özündə mühafizə edərək yaşadır. Qərblə Şərqi birləşdirən Böyük İpək Yolunun üzərində yerləşməsi Naxçıvanın önəmli strateji əhəmiyyətli sahəyə, tarix boyu fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi və toqquşduğu ünvana çevirməsinə səbəb olub. XX əsrin əvvəllərində Naxçıvan erməni təhlükəsi, daha dəqiq desək, burada türk-müsəlman əhali soyqırım ilə qarşı-qarşıya qalmışdı. Naxçıvanın ağır zamanında – erməni işğalı təhlükəsi olduğu bir zamanda Mustafa Kamal Atatürkün göstərişi ilə Ənvər Paşa və Kazım Qarabəkir Paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil oldu. Türk ordusunun köməyi ilə erməni daşnak qüvvələri dağıdıldı, Naxçıvan erməni təcavüzündən xilas oldu. Kazım Qarabəkir Paşa Naxçıvanın tarixində iz qoymuş türk generallarından biridir. Onun təşəbbüsü ilə Naxçıvan Araz – Türk Cümhuriyyətinin qurulması, Azərbaycan xalqına olan sevgisi, həmçinin Azərbaycanın böyük şairi Hüseyn Cavidlə dostluğu onu Naxçıvana bağlayan əsas vasitələr idi. Türk ordusunun Naxçıvandan getməsi ilə əlaqədar olaraq Kazım Qarabəkir Paşa ilə vidalaşma mərasimi keçirilmiş və burada Kazım Qarabəkir Paşa Naxçıvan xatirələrini nümayiş etdirmiş, "Öyütlərim" adlı əsərinin bir əlyazmasını da Hüseyn Cavidə vermişdir. Ermənilərin Naxçıvanda törətdikləri vəhşilikləri, öldürdükləri insanların sayısını, yandırdıqları kəndlərin sayını yazdığı "Ermeni mezalimi" adlı əlyazma xatirələrini də bu mərasimdə görsətmiş, Türkiyəyə getdikdən sonra bu əlyazmanı çap etdirəcəyini və bütün dünyaya erməni vandalizmini görsədəcəyini demişdir, lakin mənbələrin yazdıqlarına görə ermənilər hər hansı bir yolla həmin əlyazmanı oğurlamışlar. Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı tarixi və coğrafi xüsusiyyətlərinə görə hər zaman diqqət mərkəzində olan Naxçıvanı Kazım Qarabəkir Paşa isə "Şərq qapısı" adlandırmışdır.

Açar sözlər: *türk, Naxçıvan, Kazım Qarabəkir Paşa, erməni vandalizmi*

Giriş

Azərbaycan ilk insan məskənlərindən biridir, Naxçıvan da Azərbaycanın əbədi və əzəli torpağı olmaqla, burada arxeoloqların apardığı araşdırmalara görə, 100 min il bundan öncə burada insan yaşadığını sübut etmişdir. Aparılan hərtərəfli araşdırmalar sayəsində Naxçıvanın qədim türk torpağı olması ilə bağlı bir çox dəlillər ortaya çıxmışdır. Miladdan öncə IV-II minilliklərdə Naxçıvan ərazisində meydana gələn iri tayfa ittifaqları Azərbaycan Türk xalqının soykökünün formalaşmasında mühüm rol oynamışdır. Naxçıvan ərazisində aşkar edilən daş və tunc dövrünün abidələri, Gəmiqaya təsvirləri və türk mədəniyyətinə aid bir çox tapıntılar bu ərazinin qədim Türk yurdu, türklərin ilkin sivilzasiya mərkəzlərindən biri olduğunu göstərməkdədir. Naxçıvan toponimlərinin təhlili belə bunu sübut edir. Belə ki, toponimlərin bir çoxunun türk toponimi olduğu ortaya çıxmışdır. Bununla da Naxçıvanın tarixən türkdilli etnosların məskəni olduğunu tam əminliklə söyləmək olar. Çünki Naxçıvanda ulu türklərin - Sak, Oğuz (quz) və Hun türklərinin adları hələ də özünü mühafizə edərək yaşayır. Ə.Eyvazlının "Naxçıvan qədim türk torpağıdır" kitabında qədim Naxçıvan torpağının toponimləri yalnız dilçilik baxımından təhlil olunmamış, eyni zamada bu ərazidə mövcud olan adların ən qədim türk adları olduğu, qədim türk etnosları ilə bağlılığı göstərilir: "Türk dilli xalqların yaşadığı ərazilərdə, hətta konkret fakt kimi Naxçıvanda, tərkibində "qara" sözü olan bəzi yer adları bunu göstərir. Məs.:

Şərurda Qaratəpə, Qarabulaq, Qazaxda Qarayazı, başqa bölgələrdə Qaraqum (səhra), Qaraboğazqol (körfəz), Qaraqanda (şəhər), Qaraqalpaq (xalq), əvvəlki siyahıya əlavə olaraq Azərbaycanda Qaradağ, Qarabağ, Qaradonlu (st.) və s. Bu misalların sayını xeyli artırmaq da mümkündür. Ümumiyyətlə, "qara" sözü ilə bağlı türk dilli xalqların deyimlərində müxtəlif obrazlar yaradılmışdır" [2, s. 40].

Bir çox tarixi hadisələrin şahidi olan Naxçıvan diyarı müxtəlif zamanlarda fərqli işğalçı ordular tərəfindən çapılıb talanmışdır. Buna baxmayaraq, öz tarixiliyini və əzəmətini qoruyub saxlaya bilmişdir. Övliya Çələbi də öz əsərində Naxçıvanı qədim türk diyarı kimi göstərmişdir: "Səyahətnamə" kitabında Naxçıvan şəhəri binasının Əfrasiyab padişah tərəfindən qoyulduğunu göstərən türk tarixçisi Övliya Çələbi bu ərazinin türklərin ən qədim yaşayış məskənlərindən biri olduğunu qeyd etmişdir. O, yazırdı: "Bu şəhər, doğrudan da, öz adına layiqdir. Biri ona Naxçıvan deyir, digəri Nəhşəvan... Hazırda bu, Azərbaycan ərazisində ayrıca xanlıqdır" [7, s. 22].

Əsas mətn

Tarix boyu coğrafi mövqeyinə görə Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm keçid və əlaqə nöqtəsi olan Naxçıvan Səlcuqlular, Atabəy Eldənizlər, Xarəzmşahlar, Elxanilər, Teymurilər, Ağqoyunlular, Qaraqoyunlular, Osmanlılar, Səfəvilər və Qacarların idarəsində qaldı. XVIII əsrdə yerli xanlar tərəfindən idarə olunan Naxçıvan XIX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən ilhaq edilib. Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı tarixi və coğrafi xüsusiyyətlərinə görə hər zaman diqqət mərkəzində olub.

XX əsrin əvvəllərində Azərbaycan sərhədlərində baş verən siyasi və hərbi məsələlər Naxçıvan Muxtar Respublikasının yaranmasına təkan vermiş, türk hərbçilərinin və dövlət adamlarının Naxçıvanın qorunması və işğal olunmaması üçün mübarizəyə başlamasına səbəb olmuşdur. 1918-1920-ci illərdə Naxçıvanın düşmən təcavüzündən müdafiəsində Türkiyənin, türk hərbçilərinin xüsusi xidmətləri olmuşdur. Belə ki, Türkiyənin naxçıvanlılara fəal hərbi-siyasi yardım göstərməsi ilə həm 1918-ci ildə genişlənən erməni təcavüzünün qarşısının alınması, həm Araz-Türk Respublikasının yaradılması, həm də 1919-cu il iyulun 18-25-də Naxçıvanda erməni idarəçiliyinin ləğv edilməsi ilə nəticələndi. 1920-ci il dekabrın 2-də Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi-siyasi sazişə əsasən, qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salınıb. Bununla da, Naxçıvanın muxtariyyət məsələsi gündəliyə gəlib.

1918-ci ilin əvvəllərində Kazım Qarabəkir qərargahını Təbrizdən Naxçıvana köçürməsi ermənilərin Qafan tərəfdən Naxçıvana hücumunun qarşısının alınması istiqamətində ciddi tədbirlər görülməsi ilə müşayiət olundu. Türk dünyasının böyük sərkərdələrindən, fikir adamlarından olan Kazım Qarabəkir paşanın Naxçıvanın tarixində böyük xidmətləri olmuşdur. Həm Naxçıvanda, həm də Qərbi Azərbaycanın böyük bir hissəsində söz sahibi olan K.Qarabəkir paşanın ordusunun daşnak ermənilərə qarşı apardığı mübarizə, onun nizami ordusunun şücaəti naxçıvanlıların dilində dastana çevrilmişdi. 30 oktyabr 1918-ci ildə I Dünya Müharibəsinin nəticələrini rəsmiləşdirən Mudros müqaviləsinə əsasən məğlub tərəf kimi Türkiyəyə qarşı da bir sıra sərt tələblər qoyulmuşdu. Türk ordusu bir həftəyə Bakını, bir aya Cənubi Qafqazı tərk etməli, müharibədən əvvəlki sərhədlərə çəkilməli idi. Bu səbəbdən Türkiyə tutduğu ərazilərdən, eləcə də Naxçıvandan geri çəkildi. Nuru paşa Azərbaycandan qoşunları çağırdığı kimi, K.Qarabəkir paşa da 1918-ci il noyabrın 1-də qərargahı ilə Naxçıvandan qatarla Qarsa yola düşdü [1, s. 106]. Türkiyəyə çağrılan K.Qarabəkir narahatlığını belə ifadə etmişdir: "Qırx illik əsarətdən altı ay öncə qurtulan və erməni zülmündən ağır yaralar alan... türk-müsəlman əhalisinin yaşadığı bu bölgələr biz 1914-cü il sərhədlərinə çəkilincə yenidən erməni-gürcü zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik" [5, s.18].

Türk ordusunun, Şərq cəbhə komandiri general Kazım Qarabəkir Paşa və ordusunun Naxçıvanda qəhrəmanlıq şücaətləri danılmazdır. Lətif Hüseynzadənin müəllifi olduğu "Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir Paşa Naxçıvanda" adlı kitabının təkrar nəşrində (2018, ADPU nəşriyyatı. Elmi redaktoru və ön sözün müəllifi akademik İsmayıl Hacıyev, rəyçi akademik İsa Həbibbəyli və redaktor professor Rüfət Hüseynzadə) gözləri ilə gördüyü, şahidi olduğu o dövrün acısını, qanlı hadisələrini qələmə alıb. O, həmçinin kitabda Kazım Qarabəkir Paşanın qəhrəmanlıq şücaətlərini, Naxçıvanın taleyində oynadığı rolu əks etdirib. Lətif Hüseynzadə öz xatirələrində yazmışdır: "1918-ci il mart ayının əvvəllərində Naxçıvan camaatı əziz Novruz bayramını şən keçirmək həvəsi ilə hazırlaşdıqları bir zamanda ermənilər şəhərin Şahab, Əlixanlı, Zaviyə məhəllələrini top atəşinə tutdular. Yaşadığımız Sarvanlar məhəlləsini və bu məhəlləyə yaxın Gomayi, Dizə, Xoşulu məhəllələrinə od vurub yandırdılar... Əgər türk ordusu, Kazım Qarabəkir Paşanın ordusu Naxçıvana köməyə gəlməsəydi bu vilayətdə bir nəfər türk-müsəlman qalmayacaqdı. Bütün bunlar mənim gözlərimin qarşısında olmuşdur".

Naxçıvanı "Şərq qapısı" adlandıran Kazım Qarabəkir Paşa onun gələcəyini daima düşünmüşdür. Onun

həm də Azərbaycanın böyük şairi Hüseyn Cavidlə dostluğu Naxçıvana olan bağlılığına da təsir etmişdir. Bir gün Naxçıvanda "Şəhidləri anma" mərasimində bunları söylədi: "Belli bir mezarın olması da insan için saadetdir. Ben de "Mezar taşı" adlı bir şiir yazdım. Və şeirini oxudu:

Yolçu: Gel bir kaç dakika yolundan kal!
Bir fatihe sun! Büyük sevap al!...
Mağrur olarak haddini aşma,
Yalandan sakın, doğrudan şaşma.
Ben sağlığımda sırf hakka tapdım.
Takatim kadar hayır yaptım.
Her bir işimde namusu andım,
Alınteriyle hayat kazandım.
Ah...Taşıyorsan girme mezara!
Ceza büyüktür zalim, gaddara.
Korkma .. Eger açıqsa alnın,
Toprağın altı, üstünden de aydın!." [6, s.51-52]

L.Hüseynzadənin "Araz şahiddir" kitabında göstərilir ki, K.Qarabəkir Naxçıvanı tərk etməzdən əvvəl Paşa ilə vida görüşü mərasimində Naxçıvandan Türkiyəyə bir şirin, bir də acı iki hədiyyə aparacağını deyir: "Paşa əl çantasını açaraq "Bakınız, şirin hediyyeler burdadır" - dedi ve çəkdiyi Möminə Xatun türbəsinin, Haça dağın, Əlincə qalasının rəsmlərini göstərdi. "Bu da yatarken bana ninnilər söyləyən Nahçıvan şelalesidir. Bunları Türkiyeye götüreceğim,"- dedi. Sonra qalın bir dəftər çıxardıb belə dedi: "Bu da benim acı hatıralarımdır". Dəftərin üstündə ərəb əlifbasıyla – Şərur, Naxçıvan, Culfa, Ordubad qəzalarında erməni vəhşiliyi" – sözləri yazırdı. Paşa dəftəri göstərərək belə dedi: "Bu defterde Nahçıvan diyarında Ermenilerin Müslümanlara – Türk kardeşlerimize mezalimi kaleme aldım. Ben bu bölgelerde yakılmış yüzlerle evi, köyleri gördüm, Camilere toplanıb yakılmış binlerce kadın, çoçuk ve yaşlıların toplu mezarlarını yürek acısı ile gördüm. Elde ettiğim ve burada yazdığım belgelere esasen Ermenilerin bu bölgelerde katlettikleri Müslümanların sayısı, uydurma Ermeni soykırımından kat kat fazladır. Ben buradaki Ermeni mezalimini bir kitap şeklinde Türkiyede yayınlayarak bütün dünyaya bildireceğim. Basıldıkdan sonra acı da olsa, bu hatıralarımı size göndereceğim" [s. 54-55]. Təəssüflər olsun ki, "Ermeni mezalimi" adlandırdığı ermənilərin Naxçıvanda törətdikləri vəhşilikləri əks etdirən bu əlyazma ermənilər tərəfindən oğurlanmış və nəticədə əsər çap oluna bilməmişdir. Bu da ermənilərin Naxçıvanda törətdikləri cinayətlərin nə qədər faciəli olduğunu bir daha sübut edir.

Kazım Qarabəkir Naxçıvanı daim diqqət mərkəzində saxlamışdır. "K.Qarabəkir paşa 1919-cu ildə Ərzurum Konqresinin sonunda Şərqi Anadoludakı diviziya komandirinə belə bir təlimat vermişdi: "Hər tərəfdən məhzur bir haldayıq, yalnız Azərbaycana açıq Naxçıvan pəncərəsi var. Onun qapanmamasını istəyirəm" [4].

Naxçıvanın statusunun beynəlxalq müqavilələrdə əks olunması istər o dövrdə, istərsə də indiki dövrdə böyük siyasi əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd kimi və Naxçıvanın taleyinin qarantı kimi gündəliyə gəlir.

K.Qarabəkir paşanın imzaları olan bu müqavilələrdə Ermənistan hökumət nümayəndələrinin də imzaları var. İmzalarına hörmət qoymayan, bağladıqları müqavilələrə, verdikləri vədlərə dönük çıxan ermənilər Azərbaycan-türk xalqına qarşı kin və ədavətlərini bu gün də sürdürməkdədirlər.

Ümummilli Liderimiz Heydər Əliyev Qars müqaviləsinin tarixi əhəmiyyəti haqqında danışarkən belə deyib: "... Qarsda Azərbaycan xalqı üçün çox əhəmiyyətli olan Qars anlaşması, müqaviləsi imzalandı. Onu Türkiyə imzaladı, Rusiya imzaladı, Azərbaycan imzaladı, Ermənistan imzaladı. Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq edildi. Burada da əsas rolu Türkiyə oynadı. Həmin o Qars müqaviləsinin altında bizim hörmətli paşamız K.Qarabəkir paşanın imzası var".

Dövlətçilik tariximizdə mühüm mərhələ olan Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. 13 oktyabr 1921-ci ildə Rusiya Federasiyası ilə Türkiyə Cümhuriyyəti arasında Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə bağlanmış Qars müqaviləsinin imzalanması ilə Naxçıvanın statusu təsbit olunmuş və tərəflər Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması məsələsində razılığa gəlmişlər.

1999-cu ilin 13 oktyabrında Naxçıvan qarşısında böyük xidmətləri olmuş Kazım Qarabəkir Paşaya minnətdarlıq əlaməti olaraq tikilən məscidin açılışında dövrün Prezidenti Heydər Əliyev, Kazım Qarabəkirin qızı Timsal Qarabəkir iştirak etmişdir.

Nəticə

Naxçıvan hazırda dinamik inkişaf edən qədim Azərbaycan torpağı, türk yurdudur. Naxçıvan Azərbaycanın ən qədim yaşayış məskənlərindən olmaqla yanaşı, eyni zamanda dünyanın mədəniyyət mərkəzlərindən biridir. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşıb.

Keçmiş dövrlərdə müxtəlif güc mərkəzlərindən zərbələr almış Türk dünyasının XXI əsrdə özünəgəlmə və dirçəliş dövrünə qədəm qoyduğunu müşahidə edirik. Məhz buna görə də XXI əsr Türk əsri adlandırılır. Bu proseslərin axarında Türkiyənin dövlət başçısının respublikamıza növbəti səfərini Naxçıvana etməsi həm də rəmzi bir məna daşıyır. Bütün Azərbaycanda çox sevilən Rəcəb Tayyib Ərdoğanın özü Azərbaycana səfərinin yekunları ilə bağlı jurnalistlərə müsahibəsində qədim diyarı "Türk dünyasına açılan qapımız" kimi səciyyələndirib. Naxçıvan bu gün sözün əsl mənasında türk dünyasına açılan qapıdır. Naxçıvan ən qədim türk torpağı olmaq, Azərbaycanı Türkiyə ilə birləşdirən quru sahə olmaqla yanaşı, çağdaş dövrdə də türk dövlətlərini birləşdirən "türk qapısı"dır. Bu ulu türk torpağı olan Naxçıvan Kazım Qarabəkir və onun kimi türk soyuna, türk torpağına sahib çıxan paşaların, qəhrəman əsgərlərimizin, siyasət meydanında hər zaman dəqiq faktlarla çıxış edən diplomatlarımızın qətiyəti sayəsində öz toxunulmazlığını qoruyub saxlaya bilmişdir. Türk Dövlətləri Təşkilatının Naxçıvanda qurulması təsadüfi hadisə deyil. Bu missiyanı elə məhz "Türk qapısı"yerinə yetirməli idi. Türk Dövlətləri Təşkilatı 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi bu qədim türk torpağın yaxın tarixinə bir daha nəzər salmağa, bu bölgənin, eləcə də bütövlükdə Azərbaycanın ən yeni tarixində qardaş Türkiyənin oynadığı tarixi rolu daha dərindən dəyərləndirməyə, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı əsasında qurulan Azərbaycan-Türkiyə birliyinin gündən-günə artan gücünü və təsirini qiymətləndirməyə imkan yaratmışdır.

"Bu baxımdan qədim türk-oğuz yurdu və tarixi Azərbaycan ərazisi olan Naxçıvan bəşər sivilizasiyasının ilkin məskənlərindən biridir. Aparılan tədqiqatlarla sübut olunmuşdur ki, Naxçıvan hələ qədim daş dövründə – paleolitdə, yəni 500-300 min il bundan əvvəl ulu əcdadlarımızın yaşayış məskəni olmuşdur" [3, s.15].

Tarixin müxtəlif dövrlərinə aid tarix və mədəniyyət abidələri ilə zəngin olan Naxçıvan Muxtar Respublikası Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin beşiyidir və bu abidələr Azərbaycan türklərinin qədim dövrdən Naxçıvanın yerli əhalisi olduğunu təsdiq edən əvəzedilməz maddi mədəniyyət nümunələridir.

Naxçıvan Muxtar Respublikası tərkibində olan bütün maddi-mənəvi abidələr bizə ulu əcdadlarımızdan miras qalmış, bu miras uğrunda bir çox canlar fəda edilmiş, Kazım Qarabəkir və onun kimi paşalar bu ulu türk torpağının düşmən əlinə keçməməsi üçün əlindən gələni etmişdir. Bizim payımıza düşən isə milli sərvəti ilə birlikdə Azərbaycanın əbədi və əzəli torpağı olan Naxçıvanı daha da inkişaf etdirmək və gələcək nəslə bütöv Azərbaycanın tərkib hissəsi, türk eli olaraq qoruyub saxlamaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixində Naxçıvan. Tarixi oçerklər. Bakı: APİ nəşriyyatı, 1996, 142 s., s.106
2. Eyvazlı, Ə. Naxçıvan qədim türk torpağıdır. Bakı: Elm, 2006, 154 s.
3. Cabbarlı, Ə. Heydər Əliyev və Naxçıvan tarixi Məsələləri. Naxçıvan: 2015, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 232 s.
4. https://xalqqazeti.az/az/siyaset/163669-turkiyenin-naxcivanda-xilaskarliq-missiyasi
5. Kırzıoğlu, F.K. Karabekir. Ankara: Kültür Bakanlığı Yayınları. 1991, 237 s.
6. Hüseynzade, L. Aras şahittir, Hatıralarım (1918-1920. yıllar) Bakü: Nurlan, 2001, 95 s.
7. Məmmədov, N.M. Qədim türk yurdu Naxçıvan. Bakı: Afpoliqraf, 2019, 256 s.

ABSTRACT

Shakar MAMMADOVA

THE ROLE OF KAZIM GARABAKIR PASHAN IN THE 100-YEAR HISTORY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The ancient land of Nakhchivan, which is an integral part of Azerbaijan, has gone through a very complex and difficult development path throughout the entire historical period of its existence. Nakhchivan, which is the ancient Turkic land of Azerbaijan and the Caucasus, preserves the traces of the great Turks as the settlement of Oghuz. The location on the Great Silk Road, which connects the West and the East, has made Nakhchivan an important strategic area, a place where the political interests of conquerors and powerful states intersect and clash throughout history. At the beginning of the 20th century, Nakhchivan was faced with the Armenian threat, or to be more precise, with the genocide of the Turkish-Muslim population here. During the difficult times of Nakhchivan - when there was a threat of Armenian invasion, the Turkish army entered Nakhchivan under the leadership of Enver Pasha and Kazim Garabekir Pasha under the instructions of Mustafa Kemal Atatürk. With the help of the Turkish army, the Armenian Dashnak forces were destroyed, and Nakhchivan was saved from Armenian aggression. Kazim Garabakir Pasha is one of the Turkish generals who left a mark in the history of Nakhchivan. The establishment of the Nakhchivan Araz-Turkish Republic on his initiative, his love for the Azerbaijani people, and his friendship with the great poet of Azerbaijan Huseyn Javid were the main means that connected him to Nakhchivan. In connection with the departure of the Turkish army from Nakhchivan, a farewell ceremony was held for Kazim Garabekir Pasha, where Kazim Garabekir Pasha showed his memories of Nakhchivan and gave Hüseyn Javid a manuscript of his work called "My Stories". At this ceremony, he also showed his handwritten memoirs called "Armenian Mezalimi", in which he wrote the atrocities committed by Armenians in Nakhchivan, the number of people they killed, and the number of villages they burned. After going to Turkey, he said that he would have this manuscript printed and show the Armenian vandalism to the whole world, but according to the sources, the Armenians would somehow they stole the manuscript. Mustafa Kemal Atatürk called Nakhchivan the "Turkish Gate" because of its historical and geographical features, and Kazim Garabakir Pasha called Nakhchivan the "Eastern Gate".

***Keywords**: Turkish, Nakhchivan, Kazim Garabakir Pasha, Armenian vandalism*

QƏRBİ AZƏRBAYCANDAN AZƏRBAYCANLILARIN DEPORTASİYASI TARİXİNDƏN (1918-1920-Cİ İLLƏR)

Xəzər HÜSEYNOV
xezerhuseynov@gmail.com
orcid.org/0009-0009-9396-1903
Naxçıvan Dövlət Universiteti

Fəxriyyə HÜSEYNOVA
Naxçıvan şəhər 10№li tam orta məktəb

XÜLASƏ

XX əsrin bütün dövrləri Azərbaycan xalqı üçün yadda qalan, tariximizin sonrakı inkişafına güclü təsir edən amil kimi həmişə xatırlanacaqdır. Məqalədə 1918-1920-ci illərdə azərbaycanlıların ata-baba yurdlarından zorla köçürülməsindən və bunun ağır nəticələrindən bəhs olunur. Rusiya imperiyasının bilavasitə himayəsi ilə qonşu sayılan, lakin bütün gedişlərdə nankorluq və xəyanət mövqeyi tutan ermənilər tərəfindən təcavüzkarlara, soyqırımlarına və ərazilərimizin işğal olunmasına şərait yaradılmışdır. XX əsrin əvvəllərində Stepan Şaumyanın və digər erməni cəlladlarının rəhbərliyi ilə təşkil olunmuş kütləvi qırğınlar, əsrin sonunda da davam etdirilmiş, Qərbi Azərbaycan torpaqları demək olar ki, tamamilə ermənilər tərəfindən zəbt olunmuşdur. Məkrli, son dərəcə hiyləgər olan erməni düşmənlərimizin işğalçılıq siyasəti, minlərlə günahsız insanların məhv edilməsinə yönəldilmiş vəhşiliklər əsrlər boyu xalqımız tərəfindən unudulmayacaqdır. Tarixi torpağımızda özlərinə sığınacaq tapmış, illər boyu Azərbaycanın zəngin və bərəkətli torpaqlarından geniş-boluna istifadə etmiş və sonunda xalqımıza qarşı xəyanət mövqeyi tutmuşlar. Ermənilər öz xəyanətlərini rus himayədarlarının köməkliyi ilə həyata keçirmişlər. Nəticədə Azərbaycanın əzəli və qədim məskənləri sayılan Qərbi Azərbaycan torpaqları zaman-zaman boşaldılmış, orada məskunlaşan oğuz türkləri məcburi köçürülmüş, terrorizm qurbanları olmuşlar.

Açar sözlər: *Azərbaycan, Zaqafqaziya Seymi, Qərbi Azərbaycan, Zəngəzur, deportasiya*

Giriş

Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalından və xüsusilə Bakı, Dərbənd, Quba, Şəki, Şirvan, Lənkəran, Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının ləğvindən sonra əzəli Azərbaycan torpaqlarına ardıcıl olaraq ermənilərin kütləvi yerləşdirilməsi və azərbaycanlıların elliklə qovulması prosesi başlandı. Bu məqsədlə erməni vilayəti deyilən xüsusi inzibati bölgə yaradılır və sonra o, İrəvan quberniyasına çevrilir. Quzey Azərbaycan xalqı isə baş quberniyalar arasında parçalanaraq əyalət müstəmləkələri çərçivəsində amansız erməni və Rus imperiyası zülmü altına düşdü.

XIX əsrin əvvəlində Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra İrandan və Türkiyədən minlərlə erməni çar Rusiyasının müstəmləkəsinə çevrilərək Qafqaza köçürüldü. Ermənilərin Cənubi Qafqaza köçürülməsinin əsas təşəbbüskarı A.S.Qriboyedov, bu işə bilavasitə rəhbərlik edən isə erməni əsilli rus polkovniki X.E.Lazarev idi (Mustafayev, 2013, s.17).

Tarixi faktlar onu göstərir ki, 1828-1829-cu illərdə indiki Ermənistan adlandırılan torpaqlara Yaxın Şərq ölkələrindən 120 min, sonrakı dövrlərdə isə 600 min erməni köçürülmüşdür. Bu yolla diyarın əhalisi 1831-ci ildə 161 min nəfərdən 1914-cü ildə bir milyon 14 min nəfərə çatdırılmışdır. Eyni zamanda həmin ərazidən üst-üstə götürüldükdə 1,5 milyon azərbaycanlı qovulmuşdur.

Azərbaycan ərazilərinə köçürülən ermənilər əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının azərbaycanlılar yaşayan torpaqlarında yerləşdirildilər. Bu köçürülmənin gələcək nəticələrini Rusiyanın İrandakı səfiri, yazıçı A.S.Qriboyedov görə bilmişdir. O, öz məlumatlarının birində çar hakimiyyət orqanlarına bildirdi ki, İrandan köçürülmüş ermənilkərin çox hissəsi azərbaycanlı mülkədarların torpaqlarında yerləşdirmişlər. O, yazırdı ki, yaz vaxtı yaylaqda qalan azərbaycanlıların öz torpaqlarına qayıdıb başqa dindən olan "gəlmələri" görərkən çox narazı qalaçaqlar. Bu isə arzu olunmaz nəticələr verə bilər.

Türkmənçay müqaviləsindən sonra X.Lazarev Rusiya içində "Ermənistan çarlığı" təşkil etmək üçün layihə hazırlayıb I Nikolaya təqdim edir. Həmin ilin martın 21-də İrəvan və Naxçıvan xanlıqları ərazisinin "Erməni vilayəti" kimi adlandırılması haqqında əmri verilir **(Əliyev, 2009, s.8)**.

Azərbaycan ərazisində köçürülmüş ermənilər özlərinə yer elədikcə azərbaycanlıları əsrlərlə yaşadıqları qədim oğuz torpaqlarından sıxışdırmağa başladılar.

Əsas hissə

1905-1907-ci və 1914-1920-ci illərdə xalqımıza qarşı qanlı toqquşmalar və qırğınlar törədilmiş, təxminən yarım milyon insan erməni terrorunun qurbanı olmuşdur. Daşnakların avanturist təmizləmə (türksüzləşdirmə) siyasəti nəticəsində 1918-ci ildə Ermənistanda yaşayan 537 min azərbaycanlı 1920-ci ildə 11 minədək azalmış, yəni onların 98 faizi qırılmış və qovulmuşdur.

Hələ 1918-ci il mart ayına qədər İrəvan qəzasında 199 kənd dağıdılmışdır. Belə ki, İrəvan qəzasının 1-ci milis sahəsində 10, 2-ci milis sahəsində 8, 3-cü milis sahəsində 13 kənd; Sürəməli qəzasının 1-ci milis sahəsində 36, 2-ci milis sahəsində 12, 3-cü milis sahəsində 19, 4-cü milis sahəsində 30 kənd; Yeni Bəyazid qəzasının 1-ci milis sahəsində 1, 2-ci milis sahəsində 6 kənd dağıdılmışdır. Bu kəndlər üzrə 53581 kişi, 47045 qadın – cəmi 100626 nəfəri təmsil edən 15.155 təsərrüfat dağıdılmışdı (Mustafayev, 2013, s.65).

1918-ci ilin iyun ayında Azərbaycan hökuməti regiondakı mübahisəli sərhəd məsələlərini siyasi yollarla həll etmək niyyəti ilə qonşu tərəflərə, o cümlədən Ermənistana danışıqlara başlamağı təklif etdi. Azərbaycan Milli Şurası müstəqilliyini elan etmiş qonşu dövlətə yardım məqsədi və gələcəkdə onunla vahid Qafqaz Konfederasiyasına daxil olmaq istəyi ilə 1918-ci il mayın 29-da İrəvan şəhərini Ermənistan Respublikasının paytaxtı kimi tanıdı. Lakin xeyirxah addım iki dövlət arasındakı münasibətlərin kəskinləşib hərbi münaqişəyə çevrilməsinin qarşısını ala bilmədi (Azərbaycan tarixi, 2008, s.442).

1918-1920-ci illərdə bütün Ermənistanda azərbaycanlıların başına müsibətlər açılmış, günahsız adamlar, qadın və uşaqlar ağlasığmaz işgəncələrlə qətlə yetirilmişdir.

Osmanlı hərbçilərinin yerli əhalinin nümayəndələri ilə birlikdə hazırladıqları 1920-ci il 27 dekabr tarixli bir matreal bu baxımdan çox dəhşətlidir. Başbakanlığın Osmanlı arxivində saxlanınan həmin materialda ermənilərin 1918-1920-ci illərdə Cənub-Qərbi Azərbaycanın Şərur, Sədərək və Dərələyəz mahallarının türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklərə dair çoxlu məlumat və faktlardan aydın olur ki, göstərilən müddətdə Şərur-Dərələyəzdə ermənilər tərəfindən 56 kənd dağıdılmış və oradakı 2286 ev talan edilərək yandırılmışdı. Bu kəndlərin əhalisindən 428 nəfər qətlə yetirilmiş, 6740 nəfər aclıq xəstəlikdən ölmüşdü (Əliyev, 2009, s.69).

1918-ci ilin ortalarından etibarən Zəngəzur qəzasında erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi soyqırım genişlənməkdə davam edirdi. Vəhşi əməlləri heç bir çərçivəyə sığmayan Andranikin dəstələri qəzanın azərbaycanlılardan təmizlənməsi və bu ərazilərin Ermənistana birləşdirilməsi üçün heçbir cinayətdən çəkinmirdilər (Azərbaycan tarixi, 2008, s.443).

1918-ci ilin mayında Zaqafqaziya Seymi dağıldıqdan sonra burada Azərbaycan, Gürcüstan və Emənistan respublikaları yaranır. Yarandığı ilk gündən təcəvüzkar siyasət yeridən Ermənistan respublikası qonşu xalqlarla qarşı ərazi iddiasına başlayır. 1918-ci ilin dekabrında o Borçalını ələ keçirmək üçün Gürcüstana müharibə elan edir. Azərbaycan Xalq Cumhuriyyəti isə öz varlığını ilk günlərdən bu üç respublika arasında mehriban qonşuluq əlaqəsi yaratmaq istəyir. 1918-ci il mayın 28-də elan edilən Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin baş naziri Fətəli xan Xoyski mayın 29-da öz hökumətinin xarici işlər naziri Məmmədhəsən Hacınskiyə yazırdı: "Biz ermənilərlə bütün mübahisələri həll etdik, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik. Sonrakı tarixi hadisələr göstərdi ki, bu "güzəştə getmək" ermənilərlə nəinki bütün mübahisələri həll etdi, əksinə, qədim İrəvan xanlığı ərazisini onlara bağışlamaqla ermənilərin böyük iştahasını daha da artırdı.

Azərbaycan Milli Şurasının İrəvan şəhərinin Ermənistan (Ararat) Respublikasının paytaxtı olması üçün ermənilərə güzəşt edilməsi haqda qərarından şirniklənən ermənilər, İstanbul konfransına təqdim etdikləri layihədə Sürməli, Naxçıvan, Axılkələk, Eçmiədzin, İrəvan, Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl və Borçalı qəzalarına ərazi iddiaları irəli sürmüşdülər (Hacıyev, 2012, s.48).

1918-ci ildə daşnaklar Bakı, Şamaxı, Quba və başqa yerlərdə on minlərlə dinc adamı qətlə yetirmişlər. Təkcə Bakı şəhərinin dağüsü parkında 18 min nəfər soyqırımı qurbanı dəfn etmişdir. 1920-ci ilin mayında ermənilərin bilavasitə köməyi ilə təcavüzkar XI Qırmızı Ordu (Qızıl Ordu) Gəncədə 12 mindən çox azərbaycanlı qırmışdır.

1918-ci ilin payızında Zəngəzurda 52 kənd məhv edilmişdi. 32 kənddə 495 ev yandırılmış, 492 ev dağıdılmış, 2254 azərbaycanlı öldürülmüş, 304 nəfər azərbaycanlı diri-diri yandırılmışdır (Azərbaycan tarixi, 2008, s.443).

Tədqiqatlar göstərir ki, XX əsrin birinci rübündə Zaqafqaziyada baş vermiş iki qırğından öldürülən, yaralanan, zorla qovulan erməni terrorundan maddi zərər çəkən azərbaycanlıların, türklərin və kürdlərin sayı iki milyona yaxındır. Dinc Azərbaycan əhalisini 1907-ci ildə 100 minlik "Zinovarlar" deyilən erməni ordusu, 1918-ci ildə Bakıdakı daşnak alayları, Qarabağda və Zəngəzurda erməni hərbi terror dəstələri, 1920-ci ildə

andronikçilərin bədnam "könüllülər korpusu" və daşnak hökumətinin 40 minlik silahlı qüvvələri qarət və təqid etmişlər.

Andranikin 1918-ci ilin iyun-iyul aylarını əhatə edən təxminən iki aylıq Naxçıvan yürüşü bölgə üçün ağır nəticələrə səbəb oldu. O, əvvəlki illərdə Şərqi Anadoluda dinc əhaliyə qarşı həyata keçirdiyi soyqırımı indi Naxçıvanda təkrarlamışdı. Təkcə Gilançay və Əlincə çayı hövzəsində yerləşən 80-dən çox kənd Andranikin silahlı dəstələri tərəfindən viral qoyulmuş, əhalisinin böyük qismi qırılaraq məhv edilmişdi. Onun dəstə başçılarından olan Nijdenin qüvvələri Culfanın Ərəzin, Camaldın, Yaycı, Dizə, Ordubad mahalının Aşağı Aza, Sabir Dizə, Baş Dizə, Düylün, Vənənd, Dəstə, Kotam və s. kəndlərini dağıdıb əhaliyə divan tutmuşdu (Naxçıvan tarixi, 2014, s.298).

Bəhs edilən illərdə erməni silahlı dəstələrinin azğınlığı getdikcə daha dəhşətli xarakter alırdı. Bu özbaşnalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayın qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı. Müvəqqəti general-qubernatorluğa fövqaladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu (Azərbaycan tarixi, 2008, s.449).

1918-ci ildən demək olar ki, faktiki ərazisi olmayan Ermənistan 1920-ci ildən, Zaqafqaziya sovetləşəndən bəri əsasən Azərbaycan torpaqları hesabına öz ərazisini addım-addım genişləndirdi.

1919-cu ildə ingilislərin fəaliyyəti nəticəsində daşnaklar Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq qondorma Ermənistan dövlətinin ərazisinə qatdılar. Bu dövrdə Azərbaycanda ermənilər tərəfindən törədilən soyqırımı nəticəsində mübahisəli adlandırılan rayonların əhalisi 10-30 faiz azalmış, bir çox kəndlər dağılmışdır (Naxçıvan tarixi, 2014, s.303).

Nəticə: 1920-ci ilin dekabrında Ermənistanda Sovet hakimiyyəti qurulduqdan iki gün sonra proletar inqilabı bayrağını uca tutan Azərbaycan oradakı bütün var-dövlətini Ermənistanın malı elan etdi. Azərbaycan qara qanının bundan sonra ermənistan damarlarına axacağını bildirdi. Üstəlik Zəngəzur qəzasını da ona bağışladı. Ermənistan isə bununla kifayətlənmək istəmirdi. Vaxt varikən Naxçıvan və Qarabağı da Azərbaycandan qoparmağa can atırdı. Azərbaycan torpaqlarını tutmaqda Ermənistan üçün çox əlverişli şərait yaranmışdır. Ermənistan-Gürcü bolşevik bloku Qafaqazda bütün hakimiyyəti öz əllərinə keçirmişdir. Stalin, Orcanikidze, Mikoyan, Mirzayan və başqaları öz iradələrini demək olar ki, bütün Qafqazda, ilk növbədə isə Azərbaycanda diktə edirdilər. Bu vaxt Azərbaycan partiya təşkilatına rəhbərlik edən S.M.Kirov da onlarla tam həmrəy idi. Azərbaycanda bu güclü bloka qarşı mübarizədə aldatılmış N.Nərimanov demək olar ki, tək qalmışdır. Bu işdə "canı özümüzdən olanlar", başa-bəla "beynəlmiləlçi" bolşeviklərimiz də düşmən dəyirmanına su çəkməkdə az rol oynamayıblar. Məhz onların köməyi ilə N.Nərimanov Azərbaycandan uzaqlaşdırıldı və Azərbaycanda sərkislər, mirzoyanlar meydan suladılar. Nəticədə 1920-ci ildə Zəngəzur kimi yağlı bir loxmaya sahib olan ermənilər bu torpaqların əsl sahiblərini öz doğma yurd yuvalarından, el-obalarından sıxışdırıb çıxardılar. Özü də bu işdə onlar hər cür üsullara, yola, aldatmağa, Moskvada hökumət dairələrindəki mövqelərindən istifadə etməyə əl atır, bütün bunlar kara gəldikdə isə dünyada car çəkdilər ki, ay aman "zavallı ermənilər vəhşi müsəlmanlardan" qorumaq üçün bizə arxa durun.

Beləliklə, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində yaşayan 575 min nəfər azərbaycanlının 565 mini qırıldı və ya doğma torpaqlarından qovuldu. Onlardan yalnız 1922-ci ildə cəmi 60 min nəfər öz doğma torpaqlarına qayıda bildi (Mustafayev, 2013, s.87).

1921-ci ildə Qarabağın Ermənistana birləşdirilməsi haqqındakı planları baş tutmayan ermənilər 1923-cü ildə ona muxtariyyat verilməsinə nail oldular. Lakin onlar öz torpaq iddialarından əl çəkmir, yavaş-yavaş Azərbaycan kəndlərini öz torpaqlarına qatır qanuniləşdirirdilər.

1929-cu il fevralın 18-də Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi və Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kv.km ərazisi - Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi (Naxçıvan tarixi, 2014, s.447).

Beləliklə tarixi torpaqlarımız zaman-zaman erməni qəspkarları tərəfindən işğal olundu.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, 7 cilddə. 5-ci cild. Bakı: 2008
2. Azərbaycan tarixi. Bakı: 2014
3. Bayramov A. Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırımı. Sumqayıt: 2015
4. Əliyev N. 1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə. Bakı: 2019
5. Hacıyev İ. Ermənilərin Azərbaycanlılara qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: 2012

6. Mustafayev A. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan. Bakı: 2013
7. Naxçıvan tarixi, 3 cilddə. 2-ci cild. Naxçıvan: 2014
8. Nəzərov B. Deportasiya. Bakı: 1998
9. Paşayev A. Köçürülmə. Bakı: 1995
10. Paşayev A. Ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər). Bakı: 2011

ABSTRACT

Khazar HUSEYNOV, Fakhriya HUSEYNOVA

ROM THE HISTORY OF THE DEPORTATION OF AZERBAIJANIS FROM WESTERN AZERBAIJAN (1918–1920)

All periods of the 20th century will always be remembered by the Azerbaijani people as significant stages that had a profound impact on the subsequent development of our history. The article discusses the forced displacement of Azerbaijanis from their ancestral lands in 1918–1920 and its severe consequences. With the direct patronage of the Russian Empire, Armenians—considered neighbors but who adopted a position of ingratitude and betrayal in all developments—created conditions for aggression, massacres, and the occupation of our territories.

Mass killings organized in the early 20th century under the leadership of Stepan Shaumyan and other Armenian executioners continued toward the end of the century, resulting in the near-complete seizure of Western Azerbaijani lands by Armenians. The insidious and extremely cunning expansionist policy of Armenian forces, along with the atrocities aimed at the destruction of thousands of innocent people, will never be forgotten by our people.

Having found refuge in our historical lands and benefited abundantly for many years from Azerbaijan's rich and fertile territories, they ultimately adopted a treacherous stance against our people. Armenians carried out these actions with the assistance of their Russian patrons. As a result, the lands of Western Azerbaijan—considered ancient and indigenous Azerbaijani settlements—were gradually depopulated; the Oghuz Turks who lived there were forcibly displaced and became victims of terrorism.

Keywords: *Azerbaijan, Transcaucasian Seim, Western Azerbaijan, Zangezur, deportation*

AZƏRBAYCANLILARIN QƏRBİ AZƏRBAYCANDAN 1948-1953-CÜ İLLƏR DEPORTASİYASINDA İ.STALİN VƏ EÇMİƏDZİN KATOLİKOSLUĞUNUN ROLU

Nazim MUSTAFA
nazimmustafa@mail.ru
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu

XÜLASƏ

XIX əsrin sonlarında Avropanın və Rusiyanın dəstəyi ilə Şərqi Anadoluda muxtariyyət əldə etmək planları puç olandan ermənilər Cənubi Qafqaza axışdılar və 1918-ci ildə keçmiş İrəvan xanlığının ərazisində tarixdə ilk erməni dövləti quruldu. 1918-1920-ci illərdə azərbaycanlı əhaliyə qarşı Ermənistanda soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirildi. 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlı əhalinin bir qismi tarixi-etnik torpaqlarına qayıda bildi. Lakin İkinci Dünya müharibəsinin sonlarında SSRİ-nin Türkiyəyə qarşı ərazi iddiası irəli sürməsi fürsətindən istifadə edən sovet Ermənistanının rəhbərliyi xaricdən 100 mindən artıq ermənin köçürülüb gətirilməsinə və eyni zamanda 100 minə yaxın azərbaycanlı əhalinin Ermənistandan deportasiya edilməsinə nail oldu. Bu məqalədə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasının reallaşmasında SSRİ hökumətinin rəhbəri İ.Stalinin və Eçmiədzin katolikosluğunun rolu araşdırılır.

Açar sözlər: *Qərbi Azərbaycan, azərbaycanlılar, deportasiya, etnik təmizləmə, soyqırımı, Cənubi Qafqaz, İrəvan xanlığı, SSRİ siyasəti, İosif Stalin, Eçmiədzin katolikosluğu*

İkinci Dünya müharibəsinin sonuna yaxın SSRİ-nin Türkiyə ilə münasibətləri həddindən artıq kəskinləşmişdi. Bu fürsətdən istifadə edən Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Qriqori Arutinov 1944-cü ilin iyununda məşhur sovet tarixçisi akademik Yevgeni Tarleni İrəvana dəvət edərək, onunla "Qərbi Ermənistan"ın (*yəni ermənilərin Türkiyənin Şərqi Anadolu vilayətlərinə iddia etdikləri ərazilər*) Sovet Ermənistanına "qovuşdurulması" aspektlərini müzakirə etmişdi. Nəticədə akademik Tarlenin Sov. İKP MK-ya təqdim etdiyi arayış SSRİ Xalq Komissarları Sovetinin sədri İosif Stalinin yanında müzakirə edilsə də, heç bir qərar qəbul edilməmişdi [11].

İkinci Dünya müharibəsinin taleyi bəlli olduqdan sonra SSRİ hökuməti Türkiyəni Almaniya ilə müttəfiqliyinə görə cəzalandırmaq istəyirdi [16, s. 192]. 1945-ci il martın 19-da SSRİ hökuməti, hələ 17 dekabr 1925-ci ildə Türkiyə ilə imzalanan və sonradan müddəti dəfələrlə uzadılan iki ölkə arasında dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada denonsasiya etmişdi [16, s. 195]. Ləğv edilən həmin müqavilədə bir-birinə hücum etməmək və neytrallığa əməl etmək barədə öhdəliklər var idi [16, s. 176]. Bu addım ona işarə idi ki, Sovet İttifaqı Türkiyəyə hücuma hazırlaşır. Sadəcə olaraq, Almaniya cəbhəsində müharibənin qurtarmasını gözləmək lazım gəlirdi. SSRİ rəhbərliyi öz hərəkətini onunla izah edirdi ki, 1942-ci ildə almanlar Şimali Qafqaza gəlib çıxanda, Türkiyə öz qoşunlarını Cənubi Qafqaz sərhədlərinə cəmləşdiribmiş və sovet qoşunlarının həmin cəbhədə məğlub olacağı təqdirdə, guya hücuma keçmək istəyirmiş. Türkiyənin 1944-cü ilin avqustunda Almaniya ilə əlaqələrini kəsməsini və 1945-ci il fevralın 23-də ona qarşı müharibə elan etməsini SSRİ rəhbərliyi gecikmiş addım kimi qiymətləndirir və Türkiyəni "cəzalandırmaq" istəyirdi [16, s. 192]. Belə bir məqamda ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin Qafqaz cəbhəsindən Türkiyəyə hücum etmək planları üst-üstə düşürdü. Sovet qoşunları Ermənistanın Türkiyə ilə sərhədi boyunca cəmləşdirilmişdi. Döyüş hazırlığı vəziyyətinə gətirilən sovet qoşunları hər an hücum əmri gözləyirdi.

Gürcülər də fürsətdən istifadə edib "Türkiyə ərazisində qalan" torpaqlara sahib çıxmaq istəyirdilər. İ.Stalin Rusiya ilə Türkiyənin 1914-cü il sərhədlərini bərpa etmək, yəni Qars və Ərdəhanı yenidən Türkiyədən qoparmaq istəyirdi. Lakin Türkiyədən qoparılması istənildiyi ərazilərin məskunlaşdırılması problemi qarşıya çıxmışdı və Sovet hökuməti həmin problemin xaricdə məskunlaşan Türkiyə əsilli ermənilərin hesabına həll

edilməsini istəyirdi. Qarşıdan isə bir müddət əvvəl ölmüş bütün ermənilərin katolikosunun yerinə yeni katolikosun seçilməsi kampaniyası gəlirdi. Bu fürsətdən istifadə edən Eçmiədzin katolikosluğunun arxiyepiskopu, Baş patriarxın müavini Gevorq Çörəkçyan 3 aprel 1945-ci ildə SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalinə ərizə ilə müraciət edərək, ondan Eçmiədzin kilsəsinin problemlərinin həll edilməsində köməklik göstərməsini xahiş edir [15].

İ.Stalin bu məqamdan istifadə edərək, Eçmiədzin kilsəsinin arxiyepiskopu Gevorq Çörəkçyanı Moskvaya çağırır. "Armyanskiy vestnik" qəzetinin yazdığına görə, görüşün təşkili əvvəlcə erməni millətindən olan SSRİ-nin xarici ticarət naziri Anastas Mikoyana tapşırılır. Lakin Gevork Çörəkçyan bu işin həmin vaxt SSRİ Daxili İşlər Nazir olan Lavrenti Beriyaya tapşırılmasını xahiş edir. Arxiyepiskop Çörəkçyanla Beriya həm köhnə tanış idilər, həm də Beriya Stalinə Mikoyandan daha yaxın idi. Stalinlə görüşdə müzakirə ediləcək məsələlərin siyahısı tutulur: Eçmiədzindəki dini Akademiyanın bərpası, bağlanmış monastır və kilsələrin açılması, Eçmiədzinin mülkünün qaytarılması, onun valyuta hesabının açılması, spyurkla (erməni diasporu) əlaqələrin genişləndirilməsi və s.

Arxiyepiskopla sonuncu görüşündə Beriya bildirir ki, hökumət onun bütün xahişlərini yerinə yetirməyə hazırdır və Stalinlə görüşməyə daha ehtiyac qalmayıb. "Armyanskiy vestnik"in yazdığına görə, nədənsə, Beriya cidd-cəhdlə arxiyepiskopla Stalinin görüşünün baş tutmamasına çalışırmış. Lakin arxiyepiskop təkid edir və istəyinə nail olur [15].

1945-ci il aprelin 19-da Gevorq Çörəkçyan SSRİ Nazirlər Sovetinin nəzdindəki Dini İşlər Şurasının sədri Polyanskinin müşayiəti ilə Stalinlə görüşür. Stalin əvvəllər Eçmiədzin kilsəsinə məxsus olmuş torpaqların qaytarılması tələbindən başqa, arxiyepiskopun bütün xahişlərinin yerinə yetiriləcəyini bildirir. Çünki həmin torpaqlar artıq kolxozlara məxsus idi və qaytarılması böyük narazılıqlar yarada bilərdi.

Görüşün sonunda Stalin deyir ki, Sovet hökuməti 1921-ci ildə Türkiyəyə verilmiş torpaqları qaytarmaq istəyir, arzu olunandır ki, həmin torpaqlarda Türkiyədən qaçmış və hazırda xaricə səpələnmiş ermənilər məskunlaşdırılsınlar. Stalin təqribən 100 min ermənin immiqrasiyasını təşkil etmək haqqında tezliklə hökumətin qərarının olacağını bildirir və Eçmiədzin kilsəsinin bu işdə köməklik göstərməsini istəyir [13]. Bunları eşidən Gevorq sevinclə kömək edəcəyini vəd edir və eyni zamanda bildirir ki, Ermənistanda iqtisadi vəziyyət ağırdır və xaricdən gələcək bu qədər ermənini mənzillə və ərzaqla təmin etmək mümkün olmayacaq. Stalin cavab verir: "Eybi yoxdur, biz hər şeyi edərik, təki repatriantlar sıxıntı çəkməsinlər" [13].

Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana köçürülməsinə və paralel olaraq, azərbaycanlıların deportasiya edilməsinə ciddi hazırlıq görülür.

1945-ci il mayın 15-də Ermənistan KP MK-nın birinci katibi Q.Arutinov məktubla İ.Stalinə müraciət edərək, xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına "qaytarılması" haqqında qərarın qəbul edilməsini xahiş edir. İyunun 6-da Stalin Kremldə Arutinovu qəbul edir. Arutinov Stalinə Türkiyə ilə 1914-cü ildəki vəziyyətə uyğun sərhədləri bərpa etmək haqqında məktubunu təqdim edir. İ.Stalin Xarici İşlər Naziri Vyaçeslav Molotova tapşırır ki, ona 1914-cü il və 1921-ci il xəritələrini təqdim etsin [11].

1945-ci il iyunun 22-də arxiyepiskop VI Gevorq bütün ermənilərin katolikosu seçilir. Katolikosun seçilməsi münasibətilə müxtəlif ölkələrdən Eçmiədzinə gələn din xadimləri fürsətdən istifadə edərək sovet hökumətinə müraciət edirlər ki, Qars və Ərdahanın Ermənistana birləşdirilməsi məsələsini həll etsin.

SSRİ süqut edənədək M.Qorbaçovun müşaviri olmuş Karen Brutens (*onun atası Nerses Brutens Azərbaycan SSR Nazirlər Sovetində şöbə müdiri işləmiş və 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilən azərbaycanlıların yerləşdirilməsi prosesinə rəhbərlik etmişdi*) "Otuz il qədim meydanda" kitabında yazır: "Yeri gəlmişkən, Stalin müharibənin ilk illərində SSRİ-yə qarşı faşist Almaniyası ilə əməkdaşlığına görə Türkiyəni cəzalandırmaqla əvvəllər yol verilmiş ədalətsizliyi bərpa etmək istəyirdi. Gələcəkdə Türkiyədəki azad ediləcək erməni torpaqlarında iki vilayət partiya komitəsinin yaradılması nəzərdə tutulmuşdu və hətta katiblər də təyin edilmişdi. Məsələn, Qars vilayət partiya komitəsinin birinci katibi vəzifəsinə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Koçinyan təsdiq edilmişdi" [9, s. 509].

23 iyul 1945-ci ildə Podstam konfransının gedişində Stalin SSRİ-nin Qars və Ərdahana olan iddiasını bir daha səsləndirmişdi. Lakin müttəfiq dövlətlərin rəhbərləri SSRİ-nin Türkiyəyə qarşı ərazi iddiasına qarşı çıxmışdılar. 18 avqust 1945-ci ildə SSRİ Xalq Xarici İşlər Komissarlığının Gürcüstanın və Ermənistanın ərazi iddiaları əsasında hazırladığı arayışında qeyd edilirdi ki, Türkiyənin "zəbt etdiyi" ümumi ərazi 26 min kv km-dir və onun da 20,5 min kv km-i ermənilərin, 5,5 min kv km-i isə gürcülərin torpağıdır [12, s. 41].

1945-ci il oktyabrın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti xaricdən sovet Ermənistanına qayıdan ermənilərə SSRİ vətəndaşlığının verilməsi qaydaları haqqında fərman verir [10].

Bundan sonra Eçmiədzin kilsəsi xaricdəki erməni din xadimlərinə, partiyalara, xeyriyyə təşkilatlarına, erməni diasporunun tanınmış nümayəndələrinə müraciətlər göndərir ki, ermənilərin "repatriasiyasını" təşkil etsinlər.

1945-ci il oktyabrın 27-də Q.Arutinov yenidən Stalinin qəbulunda olarkən Stalin ona sovet hökumətinin Türkiyəyə qarşı ərazi iddiasının gündəlikdən düşmədiyini bildirir. Arutinov isə 300 mindən artıq ermənin Sovet Ermənistanına can atdığını, lakin ilk öncə "mövcud ədalətsizliyin" aradan qaldırılmasını – yəni Dağlıq Qarabağ və Naxçıvan məsələsinin həll edilməsini xahiş edir. Arutinov görüşün sonunda Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında növbəti məktubunu Stalinə təqdim edir [11].

Artıq Qars və Ərdahanın Ermənistana birləşdiriləcəyinə əmin olan ermənilər, fürsətdən istifadə edib Dağlıq Qarabağın da Ermənistana birləşdirilməsi məsələsinin həll olunmasını istəyirlər. Bu barədə Karen Brutens yazır: "Hər 10-15 ildən bir Dağlıq Qarabağın Ermənistana biləşdirilməsi dalğası yenidən baş qaldırırdı. Təsadüfi deyildi ki, DQMV-nin Azərbaycandan "qopardılması" cəhdinə görə adamların ittiham edilməsi, xüsusilə 30-cu illərdə Baş Siyasi İdarə - NKVD-nin yerli orqanlarının ən geniş yayılmış repressiya fəaliyyəti idi. Hələ ki, təsdiqini tapmayan belə bir versiya vardır ki, Qarabağ haqqında məsələni 1946-cı ildə Ermənistan KP MK-nın birinci katibi Arutyunov qaldırmışdır. Beriya isə hansı ki, Stalin məsələdən "baş çıxarmağı" ona tapşırmışdı, Bağırovla birlikdə kombinasiya edilmiş sövdələşmə təklif etmişdi: Qarabağ Ermənistana, Dağıstan Azərbaycana, eyni zamanda isə, Soçi Gürcüstana verilsin" [9, s. 510].

Arxiv sənədləri şahidlik edir ki, həqiqətən də, Q.Arutinovun Moskvaya müraciətindən sonra 1945-ci il noyabrın 28-də G.Malenkov Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini M.C.Bağırova göndərir [4, s. 6]. 1945-ci il dekabrın 10-da M.C.Bağırov cavab verir ki, o, Arutinovun tələbi ilə o şərtlə razıdır ki, Şuşa istisna olmaqla, Ermənistanın Azərbaycanla həmsərhəd və azərbaycanlıların yaşadıqları Əzizbəyov, Vedi, Qarabağlar rayonları Azərbaycana birləşdirilsin. Üstəlik, əsasən azərbaycanlıların yaşadıqları Gürcüstanın Borçalı rayonu və Dağıstan Muxtar Respublikasının Dərbənd və Qasımkənd rayonları da Azərbaycana qaytarılsın [2, fond 1, siyahı 169, iş, 249**].** Bundan sonra həmin məsələ qapadılmış, əvəzində azərbaycanlıların Ermənistandan deportasiyası məsələsi ciddiləşmişdi.

22 fevral 1946-cı ildə Sov.İKP MK-nın Siyasi Bürosu SSRİ Xalq Komissarları Sovetinin hazırladığı "Ermənilərin xaricdən Sovet Ermənistanına köçürülməsinin praktiki tədbirləri haqqında" layihəni təsdiq etdi [7, 116-121]. Bununla da, ermənilərin xaricdən Ermənistana axınına start verilmiş oldu.

1946-cı il avqustun 7-də SSRİ-nin verdiyi notada Türkiyənin müharibə dövründə Almaniyaya göstərdiyi hərbi yardımlar xatırlanmış, gələcək hücum üçün zəmin bir növ hazırlanmışdır [16, s. 192]. Lakin həmin dövrdə Türkiyənin etdiyi diplomatik manevrlər onu müharibədən qalib çıxmış SSRİ-nin cəngindən qurtardı.

SSRİ Ali Sovetinin 19 oktyabr 1946-cı il tarixli yuxarıda qeyd edilən fərmanına əsasən xaricdən Ermənistana "repatriasiya" edilən ermənilərə Sovet İttifaqının ərazisinə daxil olduqları andan etibarən SSRİ vətəndaşı statusu verilməsi qərara alınmışdır [10]. Əslində, xaricdən köçürülüb gətirilən ermənilər "repatriant" adlandırmaq elmi nöqteyi-nəzərdən düzgün deyildi. Çünki köçürülüb gətirilən ermənilər və onların ata-babaları heç vaxt indiki Ermənistan ərazisində yaşamamışdılar və onlar "immiqrant" adlandırılmalı idilər. Eçmiədzin katolikosluğunun və xaricdə fəaliyyət göstərən "Daşnaksütyun" və "Ramkavar Azatakan" partiyalarının çağırışları nəticəsində 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni immiqrasiya edilmişdi. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir,

İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilərək Ermənistanda yerləşdirilmişdir [14, s. 366]. Ermənistan rəhbərliyi 1946-cı ilə nisbətən 1947-ci ildə xaricdən köçürülüb gətirilən ermənilərin sayının azalmasının səbəbini onunla izah edirdi ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə əsasən İrəvan və Leninakan (Gümrü) şəhərləri və onların ətraflarındakı rayonlarda məskunlaşmaq istəyirlər. Ümumiyyətlə, 1946-1949-cu illərdə xarici ölkələrdən Ermənistana 96 min erməni köçürülmüşdü ki, onların da xeyli hissəsi İrəvanda məskunlaşmışdı. Onlar əsasən şəhər ətrafındakı Nor-Areş, Zeytun, Nor Kilikiya massivlərində məskunlaşdırılmışdılar [8, s. 335-336].

1947-ci il iyulun 12-də Türkiyənin ABŞ-la imzaladığı yardım haqqında müqavilə birdəfəlik onu bütün təhlükələrdən xilas etdi [16, s. 202]. Yalnız 1953-cü il mayın 30-da SSRİ xarici işlər naziri V.Molotov ilk dəfə bəyan etdi ki, SSRİ-nin Türkiyəyə qarşı heç bir ərazi iddiası yoxdur [17, s. 16].

1947-ci il dekabrın əvvəlində Azərbaycan və Ermənistan K(b)P MK-larının birinci katiblərinin adından İ.Stalinin adına məktub göndərilir. Birgə məktubda Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlının köçürülməsi məsələsini həll etmək xahiş olunurdu. Surəti Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivində saxlanılan həmin məktubun altında imza, imzalanma tarixi və göndərilmə nömrəsi qeyd olunmamışdır [2, fond 1, siyahı 222, iş 48, vərəq 1-2].

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin sədri İ.Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" hökumətin 4083 nömrəli qərarını imzaladı [1, fond 1984, siyahı 1, iş, 13]. Həmin qərarla 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə 50 min azərbaycanlı əhalinin "könüllülük əsasında" Azərbaycana "köçürülməsi" nəzərdə tutulurdu. Beləliklə, ermənilər İkinci Dünya müharibəsinin sonlarında Sovet hökumətinin vasitəsi ilə Türkiyəyə qarşı ərazi iddialarını gerçəkləşdirə bilməsələr də, əvəzində yüz minə yaxın azərbaycanlı əhalinin Qərbi Azərbaycandakı tarixi-etnik torpaqlarından deportasiya edilməsinə nail oldular.

Məqalədə gətirilən faktlar göstərir ki, azərbaycanlı əhalinin 1948-1953-cü illərdə Ermənistandakı tarixi-etnik torpaqlarından deportasiya olunmasında Eçmiədzin katolikosluğu və İ.Stalin böyük rol oynamışlar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 1984, siyahı 1, iş, 13.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), fond 1, siyahı 169, iş, 249.
3. ARPİİSSA, fond 1, siyahı 222, iş 48.
4. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası: 1948-1953-cü illər: sənədlər toplusu = Депортация Азербайджанцев из Армянской ССР: 1948-1953 гг.: сборник документов. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Bakı: Zərdabi LTD MMC, 2013, 784 s.
5. Arzumanlı, V., Mustafa, N. Tarixin qara səhifələri, Bakı: Qartal, 1998, 279 s.
6. Uras, Esat. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: 1976, s. LXXV.
7. Аблажей, Н. Н. Репатриация и депортация армян во второй половине 1940-х годов // Вестник НГУ. Серия: История, филология. 2011, Т. 10, Выпуск 1, 116-121 с.
8. Акопян Тадевос. Очерк истории Еревана. Ереван: 1977, 492 с.
9. Брутенц Карен. Тридцать лет на Старой площади. Москва: Международные отношения, 1998, 565 с.
10. Ведомости Верховного Совета СССР. Москва:1946, № 39.
11. Газ. "Ноев Ковчег", № 3 (138), март, 2009.
12. Гасанлы Джамиль. Советские претензии к Турции и республики Южного Кавказа на заре холодной войны. // İRS - Nasledie. 2008, № 5, с. 38-43.
13. Геворгян Паргев. В борьбе за существование. Газ. «Армянский вестник», Москва: сентябрь, 1993.
14. История армянского народа: с древнейших времен до наших дней. Ереван: Изд-во Ереванского университета, 1980, 458 с.
15. Жур. "Отечественные Архивы», 1995, № 3.
16. Новичев Арон. Турция: краткая история. Москва: Наука, 1965, 270 с. Поцхверия Борис. Внешняя политика Турции после второй мировой войны. Москва: Наука, 1976, 305 с.

ABSTRACT

Nazim MUSTAFA

THE ROLE OF J. STALIN AND THE ECHMIADZIN CATHOLICOSATE IN THE DEPORTATION OF AZERBAIJANIS FROM WESTERN AZERBAIJAN IN 1948–1953

At the end of the 19th century, after the failure of plans to gain autonomy in Eastern Anatolia with the support of Europe and Russia, Armenians migrated to the South Caucasus, and in 1918, the first Armenian state in history was established on the territory of the former Iravan Khanate. In 1918–1920, a policy of genocide and ethnic cleansing was carried out against the Azerbaijani population in Armenia. After the establishment of Soviet power in Armenia in 1920, a part of the Azerbaijani population was able to return to their historical-ethnic lands. However, at the end of World War II, taking advantage of the USSR's territorial claims against Turkey, the leadership of Soviet Armenia managed to resettle more than 100,000 Armenians from abroad and at the same time deport nearly 100,000 Azerbaijanis from Armenia.

This article examines the role of the head of the Soviet government, J. Stalin, and the Echmiadzin Catholicosate in the implementation of the deportation of Azerbaijanis from Western Azerbaijan.

Keywords: *Western Azerbaijan, Azerbaijanis, deportation, ethnic cleansing, genocide, South Caucasus, Iravan Khanate, USSR policies, Joseph Stalin, Echmiadzin Catholicosate*

İRƏVAN QUBERNİYASININ TÜRK-MÜSƏLMAN ƏHALİSİNİN ERMƏNİLƏRƏ QARŞI UĞURLU MÜQAVİMƏTİNDƏ MƏHƏMMƏD XAN TƏKİNSKİNİN ROLU

Elçin ZAMANLI
elcinzamanli70@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Transqafqazda ərazi problemlərinin dinc siyasi vasitələrlə həllinə daim əngəl törədən Ermənistan Respublikası Gürcüstan-Azərbaycan yaxınlaşmasından əndişə duyaraq iyulun əvvəllərində İrəvan quberniyasının müsəlman qəzalarına qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladı. Azərbaycan hökuməti bütün vasitələrlə İrəvan quberniyasının müsəlman qəzalarının istiqlaliyyət uğrunda mübarizəsini müdafiə edirdi. Ermənilər bu regionu özlərinə tabe edə bilməmələrini, guya burada türk əsgərlərinin olması ilə əlaqələndirir və buna ingilisləri və amerikanları qıcıqlandırmaq üçün bir vasitə kimi baxırdılar. İrəvan quberniyasının müsəlman əhalisinin ermənilərə qarşı uğurlu müqavimətində Azərbaycan Cümhuriyyətinin Ermənistandakı diplomatik nümayəndəsi Məhəmməd xan Təkinski böyük rol oynamışdı. Azərbaycan hökumətinin davamlı olaraq ərazi problemlərini arbitraj komissiyası vasitəsi ilə həlli təkliflərinə baxmayaraq, erməni hökuməti iyulun 4-də bir daha Qərbi Azərbaycan torpaqlarına - Böyük Vedi, Çinyankənd, Gelevan, Qaşlı və b. ərazilərə qarşı yürüşə başladı M.X.Təkinski bildirir ki, ümumi magistral yolu ilə deyil, Ağ-Dağ tərəfdən peyda olan Sasun polku ilə Böyük Vedi və Vedibasar rayonlarının əhalisi tərəfindən danışıqlara göndərilən iki nümayəndənin, kəndxuda Zeynalabdin Şıxəli oğlu və Nəsirulla bəy Bəşirbəy oğlunun öldürülməsi Azərbaycan tarixində Böyük Vedi üsyanının başlanmasına səbəb oldu. Bu böyük üsyan və Azərbaycan türklərinin tarixi qəhrəmanlığı Ararat daşnak hökumətini və Amerika diplomatik missiyasını elə qorxutdu ki, sonradan onlar ümumxalq həyəcanının bir daha qalxmasından ehtiyat edir və əhalini sakitləşdirmək üçün diplomatik vasitələrə əl atırdılar.

Açar sözlər: *Qərbi Azərbaycan, Məhəmməd Xan Təkinski, İrəvan, türk-müsəlman, Böyük Vedi*

Giriş

Azərbaycan Cümhuriyyəti hökumətinin Ermənistan XİN-ə M.Cəfərov vasitəsilə göndərdiyi mühüm bir notasında İrəvan qəzasında müsəlmanların erməni silahlı qüvvələri tərəfindən saysız-hesabsız zorakı təqiblərə, qırğına məruz qalmaları və zorla özlərinə tabe etdirilmələri halları qeydə alınır. Azərbaycan tərəfinin təqdim etdiyi notada (25 dekabr 1918-ci il) daha sonra qeyd olunurdu ki, ''…müsəlmanlar ermənilərin bu basqınlarından xilas olmaq üçün bizdən kömək istəyirlər. Ermənilər tərəfindən təqib olunan bir qrup müsəlmandan yalnız Araz çayını keçərkən batanların sayı 300 nəfərə çatır. Son vaxtlar Qazax yaxınlığındakı erməni kəndlərində onların hərbi dəstələrinin ardıcıl olaraq toplanması müşahidə olunur. Biz bunu da Azərbaycanın suverenliyinin pozulması cəhdi kimi qiymətləndirə bilərik. AXC hökuməti yuxarıda göstərilənləri Ermənistan rəhbərliyinin nəzərinə çatdıraraq bunları diqqətə yetirirdi. Birincisi, İrəvan qəzasının müsəlmanları üzərində erməni qoşunlarının törətdikləri zorakılıqlara qarşı etiraz edilir; ikincisi, respublikaların münasibətlərini korlaya biləcək zorakılıq hallarının qarşısının alınması üçün müvafiq sərəncamların veriləcəyinə inanır" ["Azərbaycan" qəz., 1919].

Naxçıvan arxivindən əldə etdiyimiz bu qiymətli sənəd Azərbaycan-Ermənistan münasibətlərinin mövcud durumunu açıqlayır və AXC hökumətinin həmin bölgələrlə bağlı qəti diplomatik addımlar atdığını aydın şəkildə göstərir. Araşdırmaya cəlb etdiyimiz bir mühüm sənəd də vardır. Bu da Azərbaycanın çoxsaylı notalarına qarşı Ermənistan tərəfinin verdiyi cavablardan biridir. Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi T.Bekzadyanın təqdim etdiyi cavab məktubunda AXC hökumətinin tələbləri Ermənistan tərəfindən qeyri-qanuni və qəbuledilməz sayılırdı. Məktubda hətta həmin bölgələrdə cərəyan edən proseslərin günahkarlarının müsəlman-türklər olduğu və konfliktlərin ilk əvvəl onlar tərəfindən başlandığı qeyd olunur.

Cavab məktubunda yazılır ki, guya Azərbaycan bu hadisələr haqqında düzgün məlumatlandırılmayıb və həmin proseslər Ermənistanın mübahisəsiz ərazilərində baş vermişdir. Ermənistan hökuməti həyasızcasına bunu Azərbaycan tərəfinin onun daxili işlərinə qarışması kimi qiymətləndirirdi. Məktubda daha sonra bildirilirdi ki, Böyük Vedi, Dəvəli camaatı naməlum qaynaqlardan silahlanaraq erməni hökumətinə qarşı üsyan

etmişdir. Bu da Ermənistan dövlətinin əsaslarının sistemli olaraq sarsıdılması kimi qiymətləndirilirdi.

Sənəddən göründüyü kimi, Ermənistan hökuməti adı çəkilən ərazilərdə onun tərəfindən baş vermiş cinayətlərin məsuliyyətini öz üzərindən atmışdı. İndi olduğu kimi, o dövrdə də, ermənilər beynəlxalq hüququn bütün normalarını pozaraq dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər və vandalizm törətmişdilər.

Son dövrlərdə üzə çıxarılmış ingilis arxiv sənədləri də təsdiq edir ki, 1918-ci il dekabrın 18-də və 1919-cu il yanvarın 10-da Türkiyə hökuməti ingilis Ali Komissarlığına göndərdiyi raportda Andranik və Dronun başçılıq etdiyi erməni dəstələrinin Ordubad, İrəvan, Gökçegöl, Naxçıvan, Dərələyəz, Qəmərli, Qurbanlı, Şahtaxtı və Novo Səlim ətrafında müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırım və etnik təmizləmə aktlarını Müttəfiqlərin nəzərinə çatdırsa da, ingilislər ermənilərin bu vəhşi aksiyalarına, eləcə də türk hökumətinin bu müsəlman qətliamlarının qarşısını almaq üçün ingilis zabitlərinin rəhbərliyi altında gürcü, erməni və türk nümayəndələrindən ibarət bir jandarma dəstəsinin yaradılması təklifinə biganə qalmışlar [Başak, 2010: s, 45-46]. Əslində ingilislər bu dövrdə yeni dünya nizamının qurulacağı ərəfəsində erməni amilindən öz geopolitik məqsədləri üçün yararlanmağa çalışmışlar. O dövrdəki İngiltərə Xarici İşlər Nazirliyi Ortadoğu şöbəsinin uzmanı Mark Sayksın "Panislamizmə qarşı azad Ərəbistan resepti yazıldığı kimi, Panturanizm xəstəliyinin real dərmanı da erməni məsələsidir" deyimi əslində erməni-ingilis münasibətlərini ifadə etmişdir. Bolşevik inqilabından sonra İngiltərə hər cürə maddi və hərbi yardım göstərdiyi ermənilərdən Transqafqaza və Ortadoğuya gələcək irəliləyişinin qarşısında baryer kimi istifadə etmişlər. Elə məhz bu dəstək ermənilərin Transqafqazda türk-müsəlmanlara qarşı şiddətli baskılarını və qətliamlarını da öz bərabərində gətirmişdir. Transqafqazın İngiltərə acısından Hindistanın təhlükəsizliyi, bölgədəki qeyri-stabilliyin Ortadoğuya transfer ehtimalına nəzarətin tətbiqi, neft ixracatı üçün Batum limanının və Bakı neftinin önəmini böyük diplomat Corc Kerzon da vurğulamışdır [Jane, 2020: s, 129].

İrəvan quberniyası türk-müsəlmanlarının qurtuluşu üçün diplomatik səylər. Məhz güclü hərbi təminata hələ ki, malik olmayan Azərbaycan tərəfi diplomatik mübarizə vasitələrilə yerli türk-müsəlman əhalini xilas etmək üçün Cənubi Qafqaz üzərində hakim durumda olan ingilislərin az da olsa, daşnak Ermənistanına təsir göstərməsinə çalışırdı.

Azərbaycanın istər Ermənistan, istərsə də Gürcüstandakı diplomatik nümayəndəliklərinin çoxsaylı diplomatik gedişləri və fəaliyyətləri çox zaman öz nəticəsini göstərirdi. Belə ki, M.X.Təkinskinin yuxarıdakı etirazlarının nəticəsi idi ki, o, iyulun 2-də Xarici İşlər Nazirliyinə bildirirdi: "İngilis missiyasının ciddi müdaxiləsi sayəsində, artıq ikinci gündür ki, müsəlmanlar üzərində zorakılıq halları yoxdur. Mən Gürcüstan konsulundan xahiş etdim ki, müsəlmanlara qarşı olan zorakılıqları Xatisiyana bildirsin. İngilis missiyası komendantdan qəti tələb etmişdir ki, qadınların öldürülməsi məsələsini araşdırsın. Ermənilər bu qətldə müsəlmanları günahkar çıxarmağa çalışırdılar" [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s. 38].

Əslində ingilislərin hərdən proseslərə obyektiv yanaşmaları heç də səbəbsiz deyildi. Bunu ingilislərin siyasi planlarının sonrakı koordinatlarında aramaq lazımdır. Onlar müəyyən mənada ermənipərəst mövqe tutmaqlarına baxmayaraq, özlərini Qafqazda müvəqqəti görmədiklərindən Transqafqazda ümumi qanunpərəst imiclərini də qorumağa çalışırdılar. Transqafqaz ingilislərin uzunmüddətli Şərq planlarının tərkib hissəsi idi. Bunu hələ 1919-cu il sentyabrın 12-də İngiltərə nümayəndələri Foster, Nolan və Çerçillin Türkiyə nümayəndəsi Damad Fəridpaşa ilə bağladıqları gizli sazişin mahiyyətindən və məqsədlərindən də bilmək olar ["İrs" jur., 2000: s. 24]. İngiltərə Transqafqazda Azərbaycanın nə qədər önəmli və strateji cəhətdən əlverişli olduğunu çox gözəl bilirdi.

İngilislər Bakıya daxil olduqdan sonra Gəncəyə, Şuşaya, Naxçıvana da öz qoşun dəstələrini göndərmiş, neft sənayesini və nəqliyyatı öz nəzarəti altına almışdılar. Bu məqsədlə komandanlıq Britaniya Neft müdriyyəti və Dəniz Nəqliyyatı İdarəsi adlı xüsusi təsisat yaratmışdı. Təkcə 1919-cu ilin avqustunadək, ingilislər Bakıdan azı 113,5 milyon manat dəyərində 30 milyon pud neft aparmışdılar ["Kommunist" qəz., 1990].

Azərbaycan-Gürcüstan hərbi-müdafiə paktının 10-cu bəndinə əsasən iki həftə ərzində Ermənistanın ona qoşulması hüququ saxlanılırdı. Lakin erməni hökuməti nəinki bu pakta qoşulmadı, əksinə Denikinlə gizli müqavilə imzalayıb, öz qoşunlarını Qarabağ və Dilican səmtində toplamağa başladı ["Güney" qəz., 1993]. Tezliklə Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi M.X.Təkinski Ermənistan hökuməti ilə Denikinin arasında bağlanmış müqavilə barədə AXC hökumətini məlumatlandırdı [Naxçıvan, 1999: s. 99-103].

Nüfuzlu daşnak liderlərindən biri, 1919-cu ilin yayında İrəvanda Denikinin nümayəndəsi ilə söhbət zamanı açıqcasına bildirmişdi ki, "Ermənistan hökumətinin ordusu Azərbaycanla müharibədə "Könüllü ordu"nun 7-ci korpusu olacaqdır". AXC-nin İrəvandakı diplomatik nümayəndəliyi də könüllü ordunun polkovniki Zinkeviçin daşnak silahlı qüvvələrinin təşkilində və hərbi sursatla təchizat işində yaxından iştirakına dair xəbərlər çatdırmışdır. Ermənistanla və onun Zəngəzurdakı hərbi hissələri ilə Denikin arasında

sıx əlaqələrə aid bəzi faktlar Qafqaz konfransında - 1919-cu il mayın 29 və 30-da keçirilən müşavirələrdə də aşkarlanmışdır [Musayev, 1996: s.130].

Cənubi Qafqazda Ermənistan dövlətinin siyasi xarakteri artıq formalaşmışdı. Yəni bu dövlət daim tərəfdaşlıqdan və bütün mübahisəli ərazi problemlərinin qarşılıqlı anlaşma yolu ilə həllindən boyun qaçırır və xaricdə özünə havadarlar axtarırdı.

Gürcüstan xarici işlər naziri Gegeçkorinin Ermənistanın baş naziri Xatisyanla görüşündə siyasi mövqelər bir daha aydınlaşmışdı. 1919-cu il iyulun 26-da bu barədə məlumat verən diplomatik nümayəndəmiz Vəkilov, Gegeçkorinin könüllü ordu ilə bağlı birgə bəyənat vermək təklifinə Xatisyanın qeyri-konstruktiv mövqedən yanaşdığını və Ermənistan rəhbərlərinin Qafqaz respublikalarından təcrid olunma cəhdlərinin labüd olduğunu bildirirdi. Bu görüşdə Xatisyan bəyan etmişdir ki, artıq Paris Sülh konfransında Qafqaz məsələləri ilə bağlı ayrıca komissiya yaradılmış və ermənilərin Qarabağda məskunlaşmasına dair materiallar tələb olunmuşdur. Xatisyanın mövqeyi belə idi ki, Qafqazın sonrakı taleyi Avropada təsdiq olunan siyasi rəylərdən asılı olacaq və Transqafqaz cümhuriyyətləri ali rəhbərlərinin bütün cəhdləri etinasız qarşılanacaqdır [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s. 40).

Gürcüstan ilə Azərbaycanın əlaqələri isə müsbət istiqamətdə inkişaf edirdi. Hələ Gürcüstan-Azərbaycan müqaviləsinin Azərbaycan parlamentində ratifikasiyası ərəfəsində, diplomatik nümayəndəliyin sədr əvəzi F.Vəkilovun bildirdiyinə görə, iyunun 21-də Gürcüstanın Azərbaycandakı nümayəndəliyinin başçısı Alşibaya ilə birlikdə Əkinçilik naziri Xameriki və Yollar naziri Karçivadzedən ibarət böyük bir nümayəndə heyəti Bakıya gəlmişdi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.39].

Arxiv materiallarında öz əksini tapan bu məlumatlardan görünür ki, Transqafqazın ən başlıca dövlətləri olan Azərbaycan və Gürcüstan üçün istiqlalı qoruyub saxlamaq hər şeydən önəmli idi. M.Ə.Rəsulzadə (85) yazırdı: "İstiqlalçılıq inadı olmasaydı, Azərbaycan türklüyü qurtara biləcəkdimi? İstanbul mütarikəsi ilə Qafqaziyayı tərk edib gedən Türkiyə ordusu ilə bərabər, Azərbaycanın hürriyyəti də məhv olub gedəcək, burada bu günkü Azərbaycan yerində yellər əsəcək və bugünkü milli ordu əvəzinə ya Denikin, ya bolşevik dəstələri gəzəcəkdi" ["Elm" qəz., 1990, 199].

Azərbaycan-Gürcüstan münasibətlərinin yaxşılaşması türklərin Gürcüstan vasitəsi ilə Azərbaycana sərbəst gediş-gəlişinə şərait yaratmışdı ki, bunun da həmin dövrdə Azərbaycan üçün böyük həyati əhəmiyyəti var idi.

Arxiv materiallarından məlum olur ki, türk zabitləri gəlib Azərbaycan ordusunda xidmət etmək məqsədi ilə Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinə buraxılış sənədləri almaq üçün müraciət edirdilər [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.54]. Azərbaycan diplomatik missiyası isə tacir libasında gedən bu milliyyətçi qüvvələrə AXC hökumətinin tapşırığı ilə hər cür yardım göstərirdi (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s. 55).

Transqafqazda ərazi problemlərinin dinc siyasi vasitələrlə həllinə daim əngəl törədən Ermənistan Respublikası, Gürcüstan-Azərbaycan yaxınlaşmasından əndişə duyaraq iyulun əvvəllərində İrəvan quberniyasının müsəlman qəzalarına qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladı. Azərbaycan hökuməti bütün vasitələrlə İrəvan quberniyasının müsəlman qəzalarının istiqlaliyyət uğrunda mübarizəsini müdafiə edirdi. Ermənilər bu regionu özlərinə tabe edə bilməmələrini, guya burada türk əsgərlərinin olması ilə əlaqələndirir və buna ingilisləri və amerikanları qıcıqlandırmaq üçün bir vasitə kimi baxırdılar. İrəvan quberniyasının müsəlman əhalisinin ermənilərə qarşı uğurlu müqavimətində Azərbaycan Cümhuriyyətinin Ermənistandakı diplomatik nümayəndəsi Məhəmməd xan Təkinski böyük rol oynamışdı. Azərbaycan hökumətinin davamlı olaraq ərazi problemlərini arbitraj komissiyası vasitəsi ilə həlli təkliflərinə baxmayaraq, erməni hökuməti iyulun 4-də bir daha Qərbi Azərbaycan torpaqlarına - Böyük Vedi, Çinyankənd, Gelevan, Qaşlı və b. ərazilərə qarşı yürüşə başladı (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.48-49). M.X.Təkinski bildirir ki, ümumi magistral yolu ilə deyil, Ağ-Dağ tərəfdən peyda olan Sasun polku ilə Böyük Vedi və Vedibasar rayonlarının əhalisi tərəfindən danışıqlara göndərilən iki nümayəndənin, kəndxuda Zeynalabdin Şıxəli oğlu və Nəsirulla bəy Bəşirbəy oğlunun öldürülməsi Azərbaycan tarixində Böyük Vedi üsyanının başlanmasına səbəb oldu. Bu böyük üsyan və Azərbaycan türklərinin tarixi qəhrəmanlığı Ararat daşnak hökumətini və Amerika diplomatik missiyasını elə qorxutdu ki, sonradan onlar ümumxalq həyəcanının bir daha qalxmasından ehtiyat edir və əhalini sakitləşdirmək üçün diplomatik vasitələrə əl atırdılar. Amerikalıların Transqafqazdakı nümayəndəsi neytral zonanın müsəlman əhalisinə vəd edirdi ki, onların hüquqları Paris Sülh konfransında nəzərə alınacaqdır [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi , s. 49].

Yuxarıda adları çəkilən nümayəndələrin qətlindən sonra, bir tərəfdən Sasun polku, Qəmərli tərəfdən isə Van polku Böyük Vedini tanklardan və pulemyotlardan aramsız olaraq atəşə tutmuş və bir neçə saat davam edən atışmadan sonra hər iki polk hücuma keçmişdi, lakin hücumun qarşısı müsəlmanlar tərəfindən alınmışdı.

İkinci hücumdan sonra geri çəkilən Van polkunu əvəz edən Sasun polku iyulun 4-ü axşam saat 9-da fasiləsiz hücumlardan sonra zabit heyəti ilə birlikdə bütün tərkibini itirmişdi. M.Təkinskinin bildirdiyinə görə, müsəlmanlar bu qələbə nəticəsində ermənilərdən bütün polk dəftərxanası ilə bərabər, çoxlu silah-sursat (1 top, 6 pulemyot, 2 kəl, 2 at, 2 araba, dəmir çarpayı, bir neçə səyyar oturacaq) ələ keçirmişdilər. Erməni polklarının əla döyüş mövqeləri seçmələrinə, müəyyən texniki və kəmiyyət üstünlüklərinə baxmayaraq, onların bütün hücumlarının qarşısı müsəlmanlar tərəfindən alınmışdı. Döyüşdən 11 ölü və 7 yaralı olaraq çıxan Böyük Vedinin müsəlman kəndlərinin əhalisi əmin idilər ki, təslim olacaqları təqdirdə ermənilərin Şahablı, Dəhnaz, Qadılı, Qarabağlar və b. kəndlərin əhalisinə qarşı törətdikləri vəhşi əməlləri onlara qarşı da tətbiq edəcəklər. (Təkrar edək ki, ermənilər bu kəndləri dağıtmış, gözəl qadınları yığıb aparmışdılar). Buna görə də kəndin hətta qocaları da dəyənək və balta ilə döyüşürmüşlər [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi , s.82].

M.X.Təkinskinin məlumatlarına əsasən 1919-cu ilin iyulun 7-də İrəvan şəhərində ara-sıra top səsləri eşidilirmiş, iyulun 8-də isə ermənilər yenə məğlubiyyətə uğrayaraq iki top itirmişdilər. Ermənilər ingilis missiyasını yalandan inandırmışdılar ki, guya müsəlmanlar Sasun polkunu kəndlərə buraxmağa və müsəlman liderlərini tutub təhvil verməyə razılaşandan sonra kəndlərə daxil olan erməni hərbçiləri silahı yerə qoyaraq, evlərdən və bağlardan ərik toplayarkən müsəlmanlar türk əsgər və zabitlərinin başçılığı ilə xaincəsinə hücuma keçərək 150 erməni əsgər və zabitini öldürmüşlər. M.Təkinski XİN rəhbərliyinə göndərdiyi məktubda ermənilərin yalan informasiya verdiklərini kəndlərin özündə heç bir erməni meyidinin olmaması və meyidlərin yalnız kəndlərin ətrafında tapılması ilə əsaslandırır. Diplomatik nümayəndənin məktubundakı böyük tarixi həqiqətləri həyəcansız oxumaq olmur: "Başda Araratın hərbi naziri və onun da köməkçisi Dro olmaqla ermənilər davamlı olaraq ingilis missiyasına yalan informasiya ötürdüklərindən məndə belə bir təəssürat yaranmışdır ki, erməni qoşunlarının komandanı elə ingilis polkovnikidir. İngilis missiyasının başçısı düşünürmüş ki, ermənilər kəndləri tutacaqlar, belə olmadıqda iyulun 7-də mənə nota göndərdi. Mən hesab edirəm ki, Bakı və Tiflis qəzetlərində ingilis missiyasının rolu barədə yazılar dərc etmək və ingilis missiyasının kobud erməni təəssübkeşliyinə qarşı İngiltərə, Fransa və İtaliya komandanlıqlarına etiraz notası göndərmək lazımdır. İngiltərə missiyasının İrəvandakı fəaliyyəti dözülməzdir. Qeyd etməliyəm ki, İngilətərə missiyası "rəşadətli" erməni ordusunun Böyük-Vedini ala bilməyəcəyinə tam əmin olduqdan sonra iyulun 8-də öz nümayəndəsini "münaqişəni yoluna qoymaq" adı ilə, əslində əhalinin ermənilərə tabe olması üçün ora göndərmişdir.

Şəhərdə belə bir şayiə gəzir ki, missiyanın kuryeri Əli xan Makinski Vedi məsələsi ilə əlaqədar çox mühüm sənəd aparır, ona görə də Ermənistan stansiyalarının birində ona qarşı qəfil hücum düzənlənir. Mühüm məlumatları teleqramlarla göndərəcəyəm'' [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.83-84].

Azərbaycan xarici işlər naziri M.Y.Cəfərov iyulun 8-də Naxçıvan nümayəndəsi Əli Səbri Qasımovun verdiyi məlumatları (Şərur-Naxçıvan qəzalarında kütləvi həbslərin başlandığını, yerli öncüllər Mirzəli bəy Bektaşov, Hüseyn ağa Novruzov, Cəfər bəy İrəvanski və Teymur Həsən Kazımovun günahsız olaraq ermənilər tərəfdən Aleksandropola aparıldığını) yerindəcə yoxlayıb Ermənistan hökuməti qarşısında tələblər qoymaq üçün M.X.Təkinskiyə göndərdi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.44].

Böyük Vedi üsyanı Azərbaycan türklərinin qəhrəmanlıq tarixində ən şanlı səhifələrdən biridir. Bu üsyanın sonunda Qərbi Azərbaycan türkləri ermənilərı İrəvana qədər qovmuşdular.

Azərbaycan hökuməti iyulun 12-də Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəliyinə etiraz notası təqdim etdi və notanın surətlərini Bakıdakı Britaniya komandanlığına, Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərimizə göndərdi. Bu nota ilə Azərbaycan tərəfi Ermənistan hökumətinə Böyük-Vedi, Çinyan kənd, Gelevan, Qaşlı və b. kəndlərdə baş verən hadisələrdən təəssüfləndiyini və iki qonşu xalq arasında münaqişənin, xüsusilə mübahisəli ərazi problemlərinin həllində dostluq və xalqların öz müqəddaratını təyin etmək prinsiprərinə daim əsaslandığını bildirirdi. Azərbaycan hökuməti dəfələrlə olduğu kimi, bu dəfə də humanizm prinsiplərinə sadiq qaldığını nümayiş etdirərək, ərazi hüdudlarının müəyyən olunmasını arbitraj və ya sülh konfransı vasitəsilə gündəmə gətirməyi ən optimal yol hesab edirdi. Bunun üçün də Ermənistan hökumətindən Vedibasar-Millistan rayonlarının əhalisinə qarşı təcavüzkar hərəkətlərə son qoymağı tələb edirdi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.60].

Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyanın iyulun 15-də təqdim etdiyi cavab notasında Ermənistan dövlətinin o dövrün heç bir beynəlxalq hüquqi-siyasi normalarına əməl etmədiyi məlum olur. Ermənistan hökuməti bu nota ilə böyük siyasi əxlaqsızlıq nümayiş etdirərək, hadisələr haqda guya Azərbaycanın səhv məlumatlandırıldığını, insidentin mübahisəsiz Ermənistan ərazisində öz vətəndaşları ilə bağlı olduğunu və Azərbaycanın etiraz notası göndərməklə Ermənistanın daxili işlərinə qarışdığını bildirirdi Bekzadyanın yanlış interpretasiyasına görə, iyulun 1-də Böyük Vedi və Dəvəlinin yerli müsəlmanları tərəfindən 9 əsgər və 12 xristian ermənisinin öldürülməsi insidentin başlanmasına səbəb olmuş, bu hadisədən

sonra Ermənistan hökuməti günahkarların tapılması və öldürülən hərbçilərdən götürülmüş silahların geri qaytarılması məqsədilə oraya hərbi qüvvə göndərmişdi. Lakin göndərdiyi hərbi hissə kəndlilərlə danışıqlara başlamaq istəyərkən tüfənglərdən və pulemyotlardan qəfil atəşə tutulmuş və bu zaman ermənilərin 30 əsgər və 5 zabiti öldürülmüş, 7 zabit, 120 əsgəri isə yaralanmışdır və yalnız bundan sonra hökumət oraya cəza dəstələri göndərməyi qərara almışdı [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.61].

Ermənistan diplomatik nümayəndəsinin yuxarıdakı uydurma məlumatlarından başqa, Ermənistanın baş naziri Xatisyan iyulun 16-da M.X.Təkinski ilə görüşündə Böyük Vedi əməliyyatının Ermənistanın daxili işi olduğunu, Azərbaycanın da ərazisində eyni insidentin baş verəcəyi təqdirdə hökumətin oxşar addımı ata biləcəyini və Azərbaycanın Böyük-Vedi rayonuna heç vaxt ərazi iddiası irəli sürmədiyini bildirmişdi. Xatisyan bildirirdi ki, iki-üç kəndin öz müqəddəratının təyinindən söhbət belə gedə bilməz və vedililərin Azərbaycana köçürülməsi məsələsini Nazirlər Şurasına çıxara bilər.

M.X.Təkinski isə ondan iki-üç gün hərbi əməliyyatları dayandırmağı tələb etmiş və bu məsələni Azərbaycan hökumətinin nəzərinə çatdıracağını bildirmişdi. Xatisyan isə öz növbəsində hərbi əməliyyatları iki-üç günlüyə dayandırmağın hərbi nazirliyin strateji planlarına xələl gəlməyəcəyi təqdirdə mümkün ola biləcəyini qeyd etmişdir [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.71].

İyulun 19-da Azərbaycan Xarici İşlər nazirliyi M.X.Təkinskidən Böyük Vedi hadisələri ilə bağlı daha ətraflı məlumatlar tələb etmiş, imkan olsa, öz gizli müvəkkilini göndərməsinin zəruri olduğunu səfirin nəzərinə çatdırmışdı [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.1].

Bekzadyanın 12 iyul tarixli notası ilə bağlı baş nazir Xatisyana sorğu göndərən və onunla danışıqları davam etdirən M.X.Təkinski Ermənistanda sürətli səfərbərliyin başlandığını, ingilis polkovniki Plautonun və Amerika missiyasının ermənilərin əməllərini təqdir etdiyi üçün Xatisyanın da özlərinə haqq qazandırdığını yazır, bununla da ingilislərin və amerikanların açıq erməni təəssübkeşliyinin müsəlmanları qıcıqlandırdığını bildirirdi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.70-72].

M.X.Təkinski Böyük-Vedi üsyanını və Ermənistan dövlətinin siyasi tərz hərəkətini xarakterizə edərkən bildirirdi ki, Azərbaycandakı Ermənistan diplomatik nümayəndəsinin cavab notası bir sıra anlaşılmazlıqlar yaratmışdır, ona görə ki, əgər Bekzadyanın dediyi kimi, hadisələr Ermənistanın mübahisəsiz ərazisində öz vətəndaşları ilə olan insidentdirsə, onda Ermənistan hökuməti indiyə qədər bu ərazidə öz hakimiyyətinin heç olmasa ən kiçik əlamətlərini bərpa etməli idi. M.X.Təkinski bildirirdi ki, əgər Ermənistan hökumətinin qəti istəyi müsəlman və ermənilər arasına mehriban münasibət yaratmaq, müsəlmanların Ermənistanda hüquqi toxunulmazlığını təmin etmək və qatil və talançıları üzə çıxarmaqdırsa, onda Azərbaycan, Ermənistan və müttəfiq dövlətlərin nümayəndələrindən ibarət bitərəf komissiya yaradılsın [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s. 97].

Bu dövrdə Ermənistan hökumətinin Azərbaycan torpaqlarını davamlı olaraq ilhaq etmək təşəbbüsləri ilə yanaşı, Gürcüstan-Azərbaycan sərhədlərində də müəyyən anlaşılmazlıqlar davam edirdi. İyulun 28-də Gürcüstandakı Müsəlman Milli Şurası buradakı müsəlmanların gələcək taleyindən narahatlıq simptomları duyulan məktubunu Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinə göndərdi. Müsəlman Milli Şurası etibarlı qaynaqlardan aldığı məlumatı, Gürcüstan-Azərbaycan sərhəddində yaşayan Azərbaycan vətəndaşlarının tez-tez sərhəddi pozaraq Gürcüstan ərazisində məskunlaşmış gürcü və müsəlmanların iri və xırdabuynuzlu mal-qarasını yağmalayıb aparmalarını həyəcan dolu məktubla diplomatik nümayəndəyə bildirir və qəti tədbir görməsini xahiş edirdi. Milli Şura haqlı olaraq bəyan edirdi ki, əgər bu cinayətkar elementlərin qarşısı alınmazsa, Gürcüstan müsəlmanlarının asayişi pozulacaq və onlar gürcü tərəfinin ağır ittihamlarına məruz qalacaqlar [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.9].

Müsəlman Milli Şurasının ehtimalları doğru çıxdı və eyni hadisələr əks tərəfdən Azərbaycan kəndlərinə qarşı reallaşdı. AXC XİN-in gürcü diplomatik nümayəndəsinə göndərdiyi teleqramda bildirilir:" Xarici işlər nazirliyinin məlumatlarına görə, gürcülər Azərbaycandan olan cinayətkar elementlərin əməllərinin qarşılığı olaraq, öz içərilərində yaşayan müsəlmanların mal-qarasını qarət etməyə və onları təqib edib incitməyə başlamışlar. Şübhəsiz ki, bu durum Gürcüstan Respublikasının vətəndaşları olan müsəlmanların sakit yaşayış tərzlərini alt-üst etmişdir. Buna görə də xahiş edirəm, öz hökumətiniz qarşısında məsələ qaldırıb, gürcü və müsəlmanlar arasında antoqonizmin dərinləşməsinə səbəb olacaq bu talanların qarşısını alasınız. Bununla bağlı bildirirəm ki, Azərbaycan hökumətinin Daxili İşlər nazirliyi Gürcüstanın sərhəd rayonlarında yaşayan əhaliyə qarşı Azərbaycan tərəfdən baş verən quldur basqınlarının qarşısını almaq üçün tədbirlər görməyə başlamışdır" [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.12].

Gürcüstan tərəfi, eyni zamanda Qazax qəzasının Şıxlı və Salahlı kəndlərinin əhalisindən Qarayazı meşələrini qırdıqlarına görə 3 illik cərimə tələb edirdi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.21]. 1919-cu ilin oktyabrın 10-da AXC-nin Gürcüstandakı diplomatik nümayəndəliyi bu haqda XİN-ə məlumat

vermiş və Transqafqaz konfransında bu meşələrdən istifadə ilə bağlı dəqiq göstərişin olmadığını Gürcüstan hökumətinin nəzər diqqətinə çatdırmağın lazım olub-olmadığını soruşmuşdu [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.11].

Bu problemlər iki respublika arasında Zaqatala quberniyası və Tiflis quberniyasının Sığnax qəzaları arasında müvəqqəti sərhədlərin müəyyən olunması ilə balı müzakirələrin başlanmasına mane ola bilmədi. Sərhəd problemi ilə bağlı yaradılan müştərək komissiyada Gürcüstanı Daxili İşlər nazirliyinin dəftərxana müdiri Y.Apakidze, Əkinçilik nazirliyinin köçürmə şöbəsinin məsul işçisi Y.Maruşvili, Azərbaycanı isə, Zaqatala qubernatoru M.Şahmalıyev və Əkinçilik nazirliyinin şura üzvü F.Şimanovski təmsil edirdilər. Komissiyanın oktyabrın 28-də keçirilən ilkin yığıncağı sədr seçkisinə və müzakirəyə təqdim olunacaq məsələlərin ardıcıl olaraq aydınlaşdırılmasına həsr olundu. Komissiya sədrinin qalan üzvlərlə eyni səs hüququna malik olması şərti ilə Məhəmmədağa Şahmalıyev sədr seçildi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.49-54].

Komissiyanın işi ilə bağlı Əkinçilik naziri A.Qardaşovun Xarici İşlər nazirliyinə göndərdiyi 11 noyabr tarixli teleqramında bildirilirdi ki, komissiyanın oktyabrın 28-i və 29-unda keçirilən iclaslarında zaqatalalıların Şirakdakı otlaqlarından çəkilən müvəqqəti sərhədlər və sərhəd postlarının götürülməsi insidenti ilə bağlı məsələlər müzakirə olunmuş və Şirak məsələsi azərbaycanlıların xeyrinə həll olunsa da, sonda gürcü nümayəndələri qəti mövqe bildirməyərək, öz hökumətlərinin rəyini öyrənmək üçün Laqodexə getmişdilər [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.55].

Gürcü nümayəndələrinin dəqiq mövqeyinin olmadığı ucbatından komissiyanın noyabrın 2-də keçirilən iclasında da müvəqqəti sərhədlərin çəkilməsi məsələsində razılıq əldə olunmadı [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.102-103].

Azərbaycan dövləti işdə demokratik dəyərlərə daim sadiq qaldığını sübut edirdi. Bu Qarabağ problemi ilə bağlı baş verən münaqişənin gedişində də aydın görünürdü.

Transqafqazda davam edən anarxiyanın lap başlanğıcında Qarabağ ermənіləri heç bir aktivlik nümayiş etdirməyərək, hadisələrin axarından kənarda qalmışdılar. Lakin Qafqaz cümhuriyyətlərinin elanından sonra Qarabağ ermənіləri bu respublikaların heç birini tanımadıqlarını bəyan edərək, "Qarabağ Respublikası" adlı qanunsuz siyasi qurum yaratdılar və Qarabağın Azərbaycandan ayrılması uğrunda mübarizəyə başladılar [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.279-280]. Bundan sonra erməni-Azərbaycan münaqişəsinin ən qaynar nöqtəsi Qarabağ oldu. Lakin ermənilərin separatçılıq cəhdləri bir nəticə verмədi və bu dövrdə Azərbaycan dövlətinin həqiqi demokratikliyi və loyallığı özünü daha qabarıq göstərdi. Belə ki, Lənkəran avantürasının qansız və dinc vasitələrlə ləğvindən sonra daha mühüm məsələ olan Qarabağ məsələsinin həllində qarşılıqlı güzəşt yolu ilə razılıq əldə olundu.

1919-cu ilin avqust ayının ortalarında Şuşikənddə səkkiz gün davam edən VII erməni qurultayının təyin etdiyi xüsusi nümayəndənin Qarabağ general qubernatoru X.Sultanovun yanına gələrək qurultayın Qarabağda Azərbaycanın hakimiyyətini qəbul etməsini bildirməsi Azərbaycan Cümhuriyyətinin qələbəsi idi. Xüsusi nümayəndə ilə gələn erməni ruhanilərinin də iştirak etdiyi iki günlük danışıqların nəticəsində əldə olunan razılaşmanın mahiyyəti aşağıdakı kimi idi: Qarabağ məsələsinin Sülh konfransında həllinə qədər ermənilər və müsəlmanlar birgə yaşayacaqlar və erməni qurultayının avqustun 15-də qəbul etdiyi qərarla AXC hökumətilə əldə olunan müvəqqəti müqaviləyə əməl edcəklər. Müqavilənin şərtləri belə idi: bu məsələnin sülh konfransında hər iki tərəf üçün də məqbul olacaq həllinə qədər müvəqqəti müqavilənin şərtləri qüvvədə olacaq; Qarabağın dağlıq hissəsinin, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının erməni əhalisi özlərini Azərbaycan ərazilərində müvəqqəti hesab edəcəklər; Qarabağ general-qubernatorluğu yanında tərkibi 6 nəfərdən - üç erməni və üç müsəlmandan ibarət şura yaradılır; millətlərarası xarakterə malik bütün məsələlər şurada ilkin müzakirədən keçmədən tətbiq olunmayacaq; Qarabağ ermənіləri mədəni muxtariyyət hüququndan yararlanacaq; Azərbaycan hökuməti erməni milli şurasının fəaliyyətinə xüsusi səlahiyyətli nümayəndə vasitəsilə nəzarət edəcək; öz siyasi baxışlarına görə heç kim hüquqi və inzibati mühakiməyə məruz qalmayacaq; Azərbaycan hökuməti Qarabağın erməni və müsəlman kəndlərinin bərpasına maddi və mənəvi dəstək verəcək; millətlərarası münaqişələrdə iştirak edənlər heç bir təqibə məruz qalmayacaq; bu müqavilə yeddinci erməni qurultayında ratifikasiya olunan andan qüvvəyə minəcək; bu müqavilə bütün hallarda, müharibə və hərbi vəziyyətlərdə belə qüvvədə olacaq.

Müqavilənin şərtləri 19 avqustda Şuşada davam edən erməni qurultayında yekdilliklə qəbul olunmuşdu [Азербайджанская Республика, 1998: s. 305-306]. Bu anlaşma Qarabağ probleminin həllində ən uğurlu tarixi mərhələlərdən biri idi.

Bu dövrdə Transqafqaz dövlətləri arasında yaranan münasibətlər Paris sülh konfransında gedən diplomatik proseslərin xarakterindən asılı idi. İngilislər Qafqaz üzərində mandatın italyanlara verilməsinin

tərəfdarı idilər. Hətta may ayında prins Savoyski başda olmaqla İtaliya nümayəndələrinin Azərbaycana "kəşfiyyat" xarakterli səfəri də olmuşdu. Lakin italyanlar Qafqaza münasibətdə tərəddüd edirdilər. İyulun 7-də Ə.Topçubaşovla görüşündə İtaliyanın Parisdəki attaşesi Sadino öz hökumətinin Qafqaza münasibətini izah edib bildirdi ki, İtaliya Qafqazda siyasi deyil, yalnız iqtisadi məqsədlər güdür, Qafqazın idarə olunması üçün Millətlər Cəmiyyətinin mandatını İtaliya Qafqaz ölkələrinin razılığı ilə almaq fikrindədir, onlar Qafqazda 3-5 ildən artıq qalmayacaqlar və bu müddət ərzində Qafqaz respublikalarının konfederasiyası yaradılacaq, onlar özləri öz talelərini həll edəcəklər. İtaliya Denikinlə və qeyrisi ilə vuruşmayacaqdır, Qafqazın öz ordusu olmalıdır və İtaliya həmin orduya kömək etmək fikrindədir. İtaliyanların fikrincə, Qafqazda ordu saxlamaq çox baha başa gəldiyindən bu onlar üçün sərfəli deyildir. Avqust ayında polkovnik N.Qabba başda olmaqla Azərbaycana məhdud sayda İtaliya hərbi missiyası gəldi. İqtisadi əlaqələrə aid bir sıra İtaliya-Azərbaycan razılıqları əldə olundu [Азербайджанская Республика, 1998: s.305].

1919-cu ilin payızında siyasi, iqtisadi vəziyyəti, millətlərarası münasibətləri öyrənmək üçün prezident Vilsonun təklifi ilə general Harbord başda olmaqla Amerika missiyası Transqafqaza göndərildi. Sentyabr ayı ərzində Harbord missiyası Diyarbəkir, Xarput, Sivas, Ərzurum, Qars, İrəvan və Tiflisdə oldu. Oktyabrın 5-də 18 nəfərdən ibarət Amerika missiyası Bakıya gəldi. Missiyanın üzvləri ölkənin siyasi, iqtisadi, mədəni, coğrafi, ekoloji, dini, mənəvi və s. həyatı ilə bağlı prezident Vilsona təqdim etmək üçün 101 suala cavab hazırlamalı idilər. General Harbordu hökumət başçısı N.Yusifbəyli, Xarici İşlər nazirliyinin başçısı M.Y.Cəfərov, yollar naziri X.Məlikaslanov qəbul etmiş, Azərbaycanın siyasi, iqtisadi vəziyyəti, dövlət quruluşu, ərazi məsələləri haqqqına danışıqlar aparılmışdı.

Azərbaycan hökuməti hətta erməni-müsəlman münaqişəsini araşdırmaq üçün gələn beynəlxalq Avropa komissiyasına dövlət xəzinəsindən beş milyon manat məbləğində pul da buraxmışdı [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.14].

1919-cu ilin son aylarında Avropadan müxtəlif məqsədli komissiyaların, nümayəndəliklərin Transqafqaza tez-tez gəlişi ilə bağlı gürcülər və ermənilər Tiflisdəki mətbuat orqanları vasitəsilə geniş təbliğat kampaniyasına başlamışdılar. Xüsusilə ermənilər bunu həmin günlərə təsadüf edən və Bakıda keçirilən Ermənistan-Azərbaycan konfransının gedişində daha da gücləndirmişdilər.

Bu zaman Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi F.Vəkilov Tiflisdə çıxan "Vozrojdenie" qəzetini maliyyələşdirib azərbaycançılıq təbliğatını bu qəzet vasitəsilə aparmağı təklif edirdi. F.Vəkilov zamanın diqtə etdiyi şərtlər daxilində bu kampaniyanı başlamağın zəruri olduğunu dönə-dönə vurğulayır, iqtisadi böhran keçirən və Tiflis müsəlmanları üçün ən sərfəli orqan olan "Vozrojdenie" qəzetinin ayda 30 min manat vəsait müqabilində bu işi can-başla yerinə yetirəcəyini bildirirdi. Diplomatik nümayəndə bildirirdi ki, əks təqdirdə Azərbaycan güclü erməni təbliğatı ilə axırıncı mübarizə silahından da məhrum olacaqdır və ona görə də hökumətin deyilən məbləği təcili təxsis etməsi olduqca zəruridir [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.57-58].

Transqafqazda cərəyan edən mühüm tarixi proseslərin gedişində F.Vəkilovun Gürcüstan xarici işlər naziri Gegeçkori ilə apardığı danışıqlarla əlaqədar XİN-ə göndərdiyi 18 dekabr tarixli məktubdan məlum olur ki, həmin dövrdə Qafqazda daha çox Amerika və Fransa dövlətləri fəallaşmağa başlamışdılar. Vəkilovun bu məktubu müttəfiqlərin o zamankı Qafqaz və ümumiyyətlə, Şərq siyasətinin müəyyən aparıcı istiqamətlərini anlamaq baxımından çox əlamətdardır.

Gegeçkorinin bildirdiyi kimi, amerikalıların son zamanlarda Qafqazdakı fəaliyyətinin ikili standartlı xarakteri daha çox özünü büruzə verirdi. Belə ki, Amerika bu dövrdə Qafqaz və xüsusilə Azərbaycan üçün ən böyük təhlükə olan rus məsələsi ilə bağlı aydın mövqe bildirmirdi. İngiltərə isə Denikinə yardım etsə də, sözdə nə bolşeviklərin, nə də birincinin tərəfini saxlamırdılar. Gegeçkori bildirirdi ki, Denikinin hərbi üstünlüyü açıq seziləcəyi təqdirdə ingilislər ona yardımı dayandıracaq və ona bolşevikləri tam darmadağın etmək şansını verməyəcəklər. İngilis siyasətinin əsl mahiyyəti burada açıqlanır: iki tərəfi bir-birinin üzərinə salışdırıb, sonunda hər iki tərəfi zəif salmaq. Bu zaman Fransanın da siyasi dəsti-xəttində bu məsələlərlə bağlı ciddi və qəti dəyişmələrin baş verdiyi görünməkdə idi. Yaranmış siyasi şəraitlə bağlı fransız admiralı de - Bonun Transqafqaza gəlişi sırf nümayişkəranə xarakter daşıyırdı. Fransa siyasətinin ən görkəmli fiqurlarından biri olan admiral de - Bonun gürcü hökumətilə görüşləri və Tiflisdə Azərbaycan və Ermənistan diplomatik missiyalarını ziyarət etməsi, Fransa siyasi kursunun qəti dəyişməsindən xəbər verirdi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.56].

Nəticə

Bu dövrdə Transqafqazın siyasi gündəmində duran ən başlıca məsələ Ermənistan-Azərbaycan münasibətləri idi. Ermənistanın ilkin dönəmlərdə Naxçıvan, Şərur-Dərələgöz, Böyük Vedi, Qarabağ və

Zəngəzur müsəlmanlarına qarşı yürütdüyü hərbi və barışmaz xarakterli siyasi kursu uzunmüddətli diplomatik münasibətlərdən, İngiltərə və Amerikanın işə qarışmasından sonra nisbətən mülayimləşdi [Azərbaycan, 1990: s.169].

23 noyabr 1919-cu ildə Tiflisdə Azərbaycanla Ermənistan arasında saziş bağlandı. Bu sazişə görə hər iki respublika silahlı toqquşmalara son qoymağı və mübahisəli məsələləri dinc danışıqlar yolu ilə həll etməyi öhdəsinə götürdü. Sazişə əsasən Ermənistan Zəngəzurdan öz hərbi dəstələrini çıxarmağı öhdəyə aldı. Tərəflər ən yaxın vaxtda Azərbaycan-Ermənistan konfransı çağırmaq haqqında da ümumi razılığa gəldilər [Çıraqzadə, 1992: s.59].

14 dekabr 1919-cu ildə Bakıda, Xarici İşlər nazirliyinin binasında Azərbaycan-Ermənistan konfransı açıldı. Konfransı giriş sözü ilə Azərbaycan Respublikasının xarici işlər naziri M.Y.Cəfərov açaraq qeyd etdi ki, "Zaqafqaziya Federasiyasının parçalanmasından sonra müstəqil respublikalar - Ermənistan, Azərbaycan, Gürcüstan respublikaları əmələ gələndə çox təəssüf ki, bir çox həll edilməmiş, mübahisəli məsələlər qaldı". Belə məsələlərə əsas etibarilə respublikalar arasındakı qarşılıqlı münasibətlərin əsasını təşkil edən ərazi məsələlərinin tam həll edilməməsi daxil idi [Çıraqzadə, 1992: s.58-58].

Konfransın gedişində AXC-nin xarici işlər naziri F.Xoyski Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinə və Transqafqaz Cümhuriyyətlərinin başçılarına konfederasiya ideyasını reallaşdırmaq məqsədilə aşağıdakı məzmunda bir teleqram göndərmişdi: "Azərbaycan nümayəndələrinin təşəbbüsü ilə Bakıda çağrılan Azərbaycan-Ermənistan konfransı müstəqil Zaqafqaziya Cümhuriyyətlərinin konfederasiyası prinsipinin məqsədəuyğun və faydalı olduğunu nəzərə alıb, bu məsələni Qafqaz hökumətlərinin müzakirəsinə təqdim etməyi qərara almışdır. Zaqafqaziya xalqlarının sıx və sarsılmaz ittifaqı onların siyasi və iqtisadi rifahının ən mühüm faktorlarından biri olduğundan, Azərbaycan hökuməti bu ideyaya tam rəğbətlə yanaşdığını bildirir. Xahiş edirik, ideyanı bəyənəcəyiniz təqdirdə, konfederasiyanın konkret formasının tərtib olunması ilə bağlı çağırılacaq Zaqafqaziya respublikaları konfransının yeri və vaxtı ilə bağlı fikirlərinizi bildirəsiniz" [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.16].

Təəssüf ki, Fətəli xan Xoyskinin bu uzaqgörən çağırışına Transqafqaz dövlətləri cavab vermədilər. İlk dəfə Azərbaycan milli liderlərinin gündəmə gətirdiyi konfederasiya ideyası baş tutsa idi, bəlkə də Transqafqazın milli dövlətləri bolşevik istilasından qurtula, bütün mübahisəli ərazi problemləri qarşılıqlı anlaşma yolu ilə həll edə və bu da davamlı milli inkişaf yolunun başlanğıcı ola bilərdi.

ƏDƏBİYYAT

1. Başak, T.(2010). Doğu Anadolu ve Kafkasya'da Ermeniler Tarafından Türklere Karşı Yapılan Etnik Temizlik Hareketlerinin İngiliz Belgelerine Yansıyan Yüzü (1918-1919). Atatürk Üniversitesi. Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi Journal of Social Sciences CiltVolume10, Sayı Number 45, Aralık December, 29-65.
2. Jane, M. (2020). Rusya Federasyonunun Trans-Kafkasya politikasının analizi: süreklilikmi dönüşmmü?. Bursa: Dora, 512 s.
3. Musayev, Ý. M. (1996). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı: Bakı Universiteti nəşriyyatı, 328 s.
4. "Azərbaycan" qəzeti, (Azərb. dilində), Bakı, 1919, 1991
5. "İrs" jurnalı, Bakı, 2000, № 3, s. 26
6. "Kommunist" qəzeti (Azərbaycan dilində), Bakı, 1990
7. "Güney" qəzeti (Azərbaycan dilində), Bakı, 1993
8. "Naxçıvan MR-də iqtisadiyyat, elm, maarif, ədəbiyyat və mədəniyyətin inkişafı problemləri". Bakı: Yurd, 1996, s. 99-103
9. Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. (1998). Баку: Элм, 616 с.
10. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı: Elm, 1990, 381 s.
11. Çıraqzadə V.A. İstiqlal yollarında. Bakı: Azərnəşr, 1992, 81 s.

Arxiv sənədləri

1. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 54
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 20
3. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 36
4. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 54
5. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 111

6. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 62
7. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 15
8. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 103
9. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 21
10. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 190
11. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 894, siy. 1, iş 12
12. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 59
13. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 83
14. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 20
15. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy. 1, iş 111

ABSTRACT

Elchin ZAMANLI

THE ROLE OF MOHAMMAD KHAN TAKINSKIN IN THE SUCCESSFUL RESISTANCE OF THE TURKISH-MUSLIM POPULATION OF THE IRAVAN GOVERNORATE AGAINST THE ARMENIANS

The Republic of Armenia, consistently obstructing peaceful political resolutions to territorial disputes in the Transcaucasus, initiated large-scale military operations against the Muslim districts of Iravan governorate in early July, partly due to concerns over the growing Georgia-Azerbaijan alliance. The Azerbaijani government supported the independence struggle of these Muslim districts by all means. Armenians attributed their failure to subdue the region to the alleged presence of Turkish soldiers, using this as a pretext to provoke British and American intervention. Mohammad Khan Takinski, Azerbaijan's diplomatic representative in Armenia, played a crucial role in the successful resistance of the Muslim population of Iravan province against Armenian forces. Ignoring continuous Azerbaijani proposals to resolve territorial issues through arbitration, the Armenian government launched a campaign on July 4 against the Western Azerbaijan territories of Beyuk Vedi, Chinyankend, Gelevan, Gaşli, and others. M. Khan Takinski reported that the killing of two representatives, Zeynalabdin Shikhali oghlu and Nasirulla Bey Bashirbey, sent by the people of Beyuk Vedi and Vedibasar regions to negotiate with the Sasun regiment, led to the onset of the Great Vedi rebellion. This significant uprising and the historical heroism of Azerbaijani Turks frightened the Ararat Dashnak government and the American diplomatic mission to the extent that they later turned to diplomatic measures to calm the population and prevent further unrest.

Keywords: *West Azerbaijan, Mohammad Khan Takinski, Iravan, turkish-muslim, Great Vedi*

XX ƏSRİN İKİNCİ YARISINDA QƏRBİ AZƏRBAYCANDA (ERMƏNİSTAN SSR-DƏ) AZƏRBAYCANLILARA QARŞI TƏZYİQLƏRİN GÜCLƏNMƏSİ

Rimunə HÜSEYNOVA
rumina.huseyn@mail.ru
Gəncə Dövlət Universiteti

XÜLASƏ

Sovet hakimiyyəti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng imperiya tərəfindən deportasiyası köçürmə adı ilə həyata keçirilmişdir. Burada yaşayan azərbaycanlılar 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə zaman-zaman tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə isə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan – indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır. Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə hüquqi-siyasi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Azərbaycan SSR, Ermənistan SSR, deportasiya, sürgün, köçürmə, müqavilə*

1988-1991-ci illərdə isə sovet hakimiyyətinin və yaxud mərkəzi hakimiyyətin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan – indiki Ermənistan ərazisindən 300 minə yaxın azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 3 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırıma, deportasiyaya məruz qalmışdır.

Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olarkən bu tarixi ədalətsizliyə, faciəyə hüquqi-siyasi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixdə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda deyilir: "Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrində soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəz olunma prosesi baş verir". Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək, süni surətdə Ermənistanı monoetnik dövlətə çevirmək ermənilərin yeritdiyi siyasətin tərkib hissəsini təşkil edir. 1935-1991-ci illərdə Ermənistanda hətta yer adlarına qarşı qərəzli siyasət tətbiq edilmiş və minlərlə Azərbaycan toponimi xəritələrdən silinmiş, mənəvi soyqırıma məruz qalmışdır [1, s.333-371].

Təəssüflə onu da qeyd edək ki, "Zəngin və şaxəli mədəniyyətimizin bir qatının qidalandığı bu qaynaqların çağlayan səsini, söykəndiyi dayaqların məğrur nəğməsini biz xalqımızın yaşayan və yaşadan müasirləşmiş keçmişinə aid dərsliklər və əsərlərdən deyil, natanış aləmə açılmış pəncərədən təsadüfən boylanan yadelli səyyah və tədqiqatçıların (fransız J.B.Taverniyen, J.Şarden, italyan Cemelli, İranda İngiltərə səfirliyinin katibi olmuş Moriyen, ingilis Ker-Perter, Dübüo de Monpero, P.Kameron, F.B.Linç, M.Vaqner, İ.Şopen, L.S.Berq, Q.Abix, E.Q.Veydenbaum, alman H.Hübşman - İ.B.) bilib-bilmədikləri, istəyib-istəmədikləri kimi qələmə aldıqları yol

qeydlərindən, ehtimalları və etiraflarından, təsvir və təəssüratlarından eşidirik. Eşidir, eşitdikcə də mədəniyyətimizin, maddi abidələrimizin bu günədək gəlib çatan və çatmayan nümunələrdən heyranlıqla söhbət açdıqlarına görə onların zəhməti və səylərini, bu böyük xidmətlərini minnətdarliqla qiymətləndiririk... Lakin inkaredilməz acı bir həqiqət də var: əsrlər boyu burada (Qərbi Azərbaycanda - İ.B.) yaşayıb-yaratmış sənətkar babalarımızın ucaltdıqları abidələr, mədəniyyət fondumuzu bəzəyən, tarixi keçmişimizin bu mühüm bir qaynağı lazımınca öyrənilməmişdir. Bəlkə, elə bunun bir səbəbi də odur ki, səyyah və tədqiqatçıların çoxu bu abidələri ucaldanların hansı xalqa mənsub olduğuna, kimliyinə həmişə etinasızlıq göstərmiş, adlarını danmış, fərqinə varmadan onları gah farslar, gah da sadəcə olaraq müsəlmanlar kimi qələmə vermişlər" [2, s.ll].

İndi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisinin köklü sakinlərinin azərbaycanlılar, yaşayış məntəqələrinin adlarının Azərbaycan (türk) mənşəli olduğunu, ermənilərin bu ərazilərə İrandan, Türkiyədən, eləcə də digər xarici ölkələrdən köçürüldüyünü əks etdirən cədvəldə aydın görmək olur.

XX əsrin 80-ci illərindən başlayaraq indi Ermənistan adlanan Qərbi Azərbaycanın köklü sakinlərinə – azərbaycanlılara qarşı Ermənistan dövləti açıq-açığına ayrı-seçkilik siyasəti yeritməyə başlamış, onların tarixi-etnik torpaqlarından deportasiyası ilk növbədə mənəvi genosid siyasəti ilə həyata keçirilmişdir. Belə ki, azərbaycanlıların yaşadığı kəndlərdə sosial mədəni inkişafına dövlət fikir vermir və bilərəkdən onların yaşayış şəraitini, sosial mədəni inkişafının qayğısına qalmırdı. Belə vəziyyət nə azərbaycanlıların yaşadığı rayon rəhbərlərini, nə də respublika rəhbərlərini narahat edirdi. Bu ayrı-seçkilik siyasəti haqqında Çəmbərək (indiki Krasnoselo) rayonunun və bu rayonun Toxluca kəndinin nümunəsində fikir söyləyəcəyik. Rayonun ermənilər yaşayan Ttucur, Martuni, Orconikidze, Gedik, Çəmbərək kəndlərinin 1-ci siniflərində vur-tut 5-10 şagird oxuduğuna baxmayaraq, onlar üçün hər cür tələblərə cavab verən müasir tipli məktəblər inşa edilmişdir. Halbuki həmin kəndlərdən 10 dəfə böyük və şagirdləri də çox olan Yanıqpəyə, Qaraqaya, Ardanış, Şorca, Çaykənd, Gölkənd, Cil kəndlərində olan məktəb XX əsrin 30-cu illərində inşa edilmiş binalarda yerləşirdi. Maraqlı bir fakt da budur ki, azərbaycanlıların yaşadıqları kəndlərdə yeni məktəb binaları (keyfiyyəti nəzərə alınmadan) o vaxt inşa edilirdi ki, ermənilər tam təmin olunub qurtarırdılar. Məsələn, 500 evi, 3.000-dən çox əhalisi, 1.000 nəfərə yaxın şagirdi olan Toxluca kəndində məktəb üçün xüsusi bina yalnız 1980-ci ildə tikildi. Halbuki erməni məktəbləri artıq köhnəlirdi. XX əsrin 80-ci illərində Ermənistan SSR Səhiyyə Nazirliyi bilərəkdən xəstəxanaları mərkəzləşdirmək siyasəti yürütməyə başladı və bu yolla azərbaycanlıların yaşadıqları kəndlərdəki xəstəxanaları, həkim məntəqələrini belə bağladı. Ona görə bilərəkdən yazırıq ki, demoqrafik dəyişiklik azərbaycanlıların xeyrinə idi və bu tədbir də artımın qarşısını almaq məqsədi güdürdü. Və bu "problem"i də xəstəxanaları mərkəzləşdirməklə aradan qaldırırdılar.

Krasnoselo rayonunun Toxluca, Çaykənd, Gölkənd, Şorca kəndlərində xəstəxanalar bu adla bağlandı. Lakin erməni kəndi olan Başkənd (Ardzvaşen) xəstəxanasında (bağlanan xəstəxanaların hesabına) əlavə şöbələr yaradıldı, çarpayıların sayı artırıldı.

İldə 100-dən çox uşaq doğulan Toxluca kəndində xəstəxana bağlandıqdan sonra kənd camaatı müxtəlif instansiyalara şikayət etdilər. Kənd sovetinin sessiyasında qərar çıxarıldı ki, kəndə hava, su kimi xəstəxana və doğum evi də lazımdır. Ermənistan KP MK-nın keçmiş birinci katibi K.S.Dəmirçiyan kənddə olarkən kəndin ziyalıları, Qəhrəman analar, Böyük Vətən müharibəsinin iştirakçıları ona böyük ümidlə müraciət etdilər. Lakin heç bir nəticəsi olmadı. Kənddə xəstəxananın bağlanması nəticəsində aşağıdakı mənzərə alındı:

1981-ci ildə doğulan 114 uşaqdan 30-u bir yaşına çatmamış, 34-ü bir yaşında ölmüşdü. 1982-ci ildə 91 uşaqdan müvafiq surətdə 39 (24)-u, 1983-cü ildə 107 uşaqdan 29 (25)-u, 1984-cü ildə 94 uşaqdan 31 (32)-i, 1985-ci ildə 105 uşaqdan 34 (3 l)-ü, 1986-cı ildə 104 uşaqdan 31 (3 l)-i, 1987-ci ildə 78 uşaqdan 38 (21)-i ölmüşdür. Buranın xəstəxanasının və doğum evinin olmaması üzündən vaxtsız və ölü doğulan uşaqları da əlavə etsək, dəhşətli mənzərə yaranar.

Çəmbərək (Krasnoselo) rayonunun əhalisinin 70-80 faizinin azərbaycanlıların təşkil etməsinə baxmayaraq, partiya və sovet orqanlarında yalnız ermənilər işləyə bilərdi. Bəhanələri də bu idi ki, azərbaycanlılar ermənicə bilmir. Halbuki azərbaycanlılann əksəriyyəti erməni dilində sərbəst danışa bilirdi. Daha bir fakt: 1979-cu ildə Krasnoselo rayonunda 26.861 nəfər əhali yaşayıb ki, onun 13.071-i azərbaycanlı, 9.329-u erməni, qalanı rus, kürd olub.

1986-87-ci illərdə rayon sovetinə seçilən 79 deputatın isə 31-i azərbaycanlı, 40-ı erməni, 8-i isə rus və kürd idi. Rəyasət Heyətinin 12 üzvündən yalnız 2-si azərbaycanlı idi. Rayonun 1.540 kommunistindən 581-i azərbaycanlı, 837-si erməni olub. Bax, bu yolla azərbaycanlılar sıxışdırılırdı.

1988-ci ilin fevral ayından isə indiki Ermənistan dövləti azərbaycanlılara qarşı açıq mübarizəyə keçdi və onları tarixi-etnik torpaqlarından deportasiya etməyə başladı. Hətta azərbaycanlılara qarşı dəhşətli faciələr həyata keçirildi. Belə ki, 1988-1989-cu illərdə 205 nəfər azərbaycanlı qətlə yetirilmişdir [3, s.62-71]. İlk qırğınlar, talanlar 1988-ci ilin fevral ayında Zəngəzurun Qafan bölgəsində baş verdi. 1988-ci il fevralın 22-də Qafan rayonunun Pürülü, Geypəşin, Pəyhan, Acıbac, Hacəti, Kurut, Siznək, Müsəllim, Cayzəmi azərbaycanlı

kəndlərinə ermənilər basqın edərək evləri yandırdılar, talan etdilər və bu kəndlərin əhalisini ata-baba torpaqlarından qovdular. 1988-ci ilin may ayında Amasiya rayonunda azərbaycanlıların başına ermənilər tərəfindən gətirilən dəhşətli hadisələri K.Qaraçanta belə təsvir edir: "20 minədək azərbaycanlını birləşdirən 24 kənd (Amasiya rayonundakı kəndlər nəzərdə tutulur - İ.B.) ayağa qalxmışdı. Heç bir kimsənin gözünə heç nə görünmürdü. Hamı azdan-çoxdan pal-paltar götürüb qaçmağa can atırdı. 3-4 ailənin köçü, üstəlik uşaqlar da bir yük maşınında qaçırılırdı. Köç maşınları Qukasyan və Kalinino rayonlarının ərazilərindən keçdiyindən adamlar tez-tez erməni müqavimətinə rast gəlir, köçlər qarət olunur və yaxud yerlərindəcə yandırılırdı. Gözlərinə heç nə görünməyən soydaşlarımız ailələrini güclə Gürcüstan torpağına çatdırırdılar. Dağ, dərə, xəlvəti yollar maşınların, adamların ayağı altında idi. Heç kəsin ağlına gəlməzdi ki, 500 ailəni birləşdirən Amasiya, 600 ailəni birləşdirən Güllübulaq, 300, 350, 400, 450 ailəni birləşdirən ən böyük yaşayış məntəqələrimiz – Magarcıq, Əzizbəyov, Yeniyol, Oxçoğlu kəndləri 5-10 gün ərzində xarabalığa çevriləcək, yurd-yuva, müqəddəs məbədlər qəddar düşmənlərin tapdağı altında qalacaq" [4].

1988-ci ilin mart-may aylarında Ermənistanda vəziyyət daha da gərginləşdi. "1988-ci ilin ikinci yarısında Ermənistanın özgə xalqlardan olanlardan, ilk növbədə azərbaycanlılardan təmizlənməsinin son mərhələsi başlandı. Azərbaycanlıların və müsəlman kürdlərin kəndləri mühasirəyə alınmış və əməli olaraq hər gün atəşə tutulmuşdu. Mühasirədəkilər (azərbaycanlılar –İ.B.) özlərini müdafiə etmək məqsədilə müşahidə postları yaratmış, tək-tək adamlarda olan ov tüfənglərindən, baltalardan, yabalardan, bellərdən və basqını dəf etmək üçün yarayan digər vasitələrdən istifadə etmişlər. Noyabrın 27-dən demək olar ki, eyni vaxtda Ermənistanın bütün ərazisində mühasirə edilmiş kəndlərə basqın edilmişdir [5].

1988-1989-cu illərdə Spitak, Quqark, Masis (Zəngibasar), Vedi, Vardenis (Basarkeçər) və s. rayonlarda azərbaycanlılar bəşər tarixində görünməyən erməni millətçilərinin zülmünə düçar olmuşlar. Vedi rayonunun Şirazlı, Şidli, Xalisa kəndlərinə ermənilər hücumlar etmiş, evləri talan etmiş və yandırmışlar.

1988-ci ilin noyabr ayının 22-27-də Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Zod, Ağkilsə, Nərimanlı, Böyük Məzrə, Qoşabulaq, Qaraqoyunlu, İnəkdağı, Sarıyaqub kəndlərinə ermənilər basqınlar edərək kəndin köklü sakinləri olan azərbaycanlıları qırğınlara məruz qoymuşlar. Spitak rayonunda rayon rəhbərlərinin bilavasitə iştirakı ilə 5 yaşından 12 yaşınadək olan azərbaycanlı uşaqları diametri 1,5, uzunluğu 27 metr olan dəmir boruya dolduraraq borunun hər iki tərəfini qaynaqla bağlamış və vəhşicəsinə öldürmüşlər.

1988-ci ilin oktyabr-noyabr aylarında Qursalı, Saral, Qızılörən kəndləri talana məruz qalmışdır. Bu azərbaycanlı kəndlərinə ermənilər basqınlar edərək xalqın var-dövlətini talan etmişlər. Kirovakanın Vartana kəndində 1988-ci ilin dekabr ayında növbəti faciəni törətmişlər. "Vartanada adamlar köməkçiz, işgəncə ilə öldürdü. Ölənlərin meyidi açıq havada qalıb donur, dava-dərmansız yaralıların qanı axırdı. Canilər rəhbərlik tərəfindən mükafatlandırılırdı" [6].

Vartana kəndinin sakinləri – Abdulla Əliyev, Süleyman Məmmədov, Leyli Həsənova, Məhəmməd Məhəmmədov, Mehralı İsgəndərov, Xanım İsgəndərova, 17 yaşlı Alim İsgəndərov və neçə-neçə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir. Erməni vəhşiliyi Arcut, Kuybışev kəndlərindən də yan keçməmişdir. "Həmin günlər (1988-ci ilin noyabr ayı nəzərdə tutulur – İ.B.) Arcut kəndindən Əhməd Məsimov 360 qoyunla birlikdə yoxa çıxdı. Çoxuşaqlı ana Bəsti Mustafayevanı noyabrın 30-da gündüz saat ikidə yeddi erməni gizləndiyi yerdən çıxardı. 20 min manat pulunu, qızıl əşyalarını əlindən aldılar, sonra da üstünə neft töküb yandırdılar. Kuybışev kəndindən Təmraz İsgəndərovu, Gilas Xəlilovanı, oğlu Şərif Xəlilovu kəndirlə asdılar, sonra evlərini taladılar" [6, s. 108-109].

Zəngəzur Azərbaycanın qədim və tarixi ərazilərindəndir. 1930-ci ildə Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra Zəngəzurun Qafan, Sisyan və Mehri bölgələri yenicə yaradılan Ermənistana verilir. Müxtəlif zamanlarda olduğu kimi, 1988-ci ildə də Zəngəzurun Qafan, Sisyan və Mehri rayonlarında yaşayan azərbaycanlılar qanlı fəlakətlərlə deportasiya olunmuşlar. 1988-ci il noyabrın 28-də Qafan rayonunun 26 azərbaycanlı kəndinə – Qovşuq, Pürülü, Kığı, Pəyhan, Çaykənd, Keypəşin, Acıbac, Hacəti, Kurut, Xələc, Oxtar, Şabadin, Şəhərcik, Gomaran, Kirs, Gödəldi və s. kəndlərə ermənilər hücum edərək kəndin sakinlərini – azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişlər. Sisyan rayonunun Şəki, Ağudı, Vağudi, Qızılcıq, Urud kəndlərinin sakinləri də soyqırıma məruz qalmışlar. 1988-ci ildə baş verən hadisələr Dərələyəz mahalına təsir etdi. Şərur düzündə yerləşən Dərələyəz mahalı Əzizbəyov (indiki Vayk) və Keşişkənd (Yexeqnadzor) rayonlarını əhatə edir. İ.Vəlizadə və B.Muradov qeyd edirlər ki, Dərələyəzdə on dörd azərbaycanlı kəndi vardı. Ələyəz, Qovuşuq, Qabaqlı kəndlərindən başqa digər kəndlərin hər birində 35-40 ailə yaşayırdı. Bu mahalın sakinlərinin xeyli hissəsi 1918-20-ci illərdə daşnak hücumlarına tablaşıb dözə bilmədilər. Köçüb (əslində deportasiya olunub – İ.B.) İrana, Türkiyəyə getdilər. O vaxt boşalmış kəndlərə ermənilər gəlib doldular. Bir də 1948-50-ci illərdə siyasi köçkünlük vaxtı milli tərkib dəyişdi. Azərbaycanlılar Mil, Muğan torpaqlarına köçürüldülər. Ermənileri xaricdən gətirib onların kəndlərində yerləşdirdilər. Əvvəllər

erməni iyi gəlməyən torpaqlarda indi onlar çoxluq təşkil edirdilər [6, s.124]. 1988-ci ilin iyul ayından başlayaraq Dərələyəz mahalının köklü sakinləri olan azərbaycanlılara qarşı təzyiqlər artdı. 1988-ci ilin noyabrın 20-dən təzyiqlər dahada artdı və ermənilər kəndlərə müntəzəm hücumlar etməyə başladı. Bilavasitə rayon rəhbərlərinin dəstəyi və iştirakı ilə azərbaycanlıların yaşadığı kəndlərə basqınlar edilir, evləri odlara qalanır, onların var-yoxları talan edilirdi. Dərələyəzin Qovuşuq, Qabaqlı, Gülüdüzü, Əmağu, Hors, Saili, Ağkənd, Civə, Gomur və b. kəndləri talan edilmiş, azərbaycanlılar isə qırğınlarla tarixi-etnik torpaqlanndan deportasiya olunmuşlar. 1988-ci ildə Dərələyəzdə baş verən dəhşətli hadisələri iki kəndin nümunəsində aşağıdakı faktlardan aydın görmək olar.

Qabaqlı kəndində 1800 nəfərə qədər azərbaycanlı yaşayırdı. Bu kəndə də ermənilər Qovuşuq, Dərələyəz kəndləri ilə bir vaxtda hücum etdilər. Buraya doluşanlar qovuşuqdakılardan fərqli olaraq, talan edir, soyğunçuluqla məşğul olurdular. Evlərə soxulub yorğan-döşəyi, kilim-gəbəni, qab-qacağı daşıyıb maşınlara doldururdular. Tövlələrdən mal-qaranı aparırdılar. Adamlar su içmək üçün bir stəkan da götürə bilmədilər.

Noyabrın 30-da (1988-ci il noyabrın 30-da – İ.B.) ermənilər Gomur kəndinə basqın edib azərbaycanlıları döyə-döyə evlərindən çölə atdılar. Kənd kiçik, evlər aralı idi. Bir-birlərindən xəbərləri olmurdu. Sağ qalan, erməninin əlindən qurtarıb qaçan xilasını gecənin qaranlığında tapırdı. Gomurlular qarlı dağ-dərə yolunu gecəykən keçib Şahbuz rayonunun ərazisinə, Qanlı gölə gəlib çıxdılar [9, s.166, 128]. "Türksüz Ermənistan" uğrunda mübarizə aparan Ermənistan dövləti, ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci il avqustun 8-də başa çatdırdılar. Həmin gün Mehri rayonunun ən böyük azərbaycanlı kəndlərindən biri – Nüvədi kəndi soyqırıma məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olundular. Beləliklə, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmadı.

ƏDƏBİYYAT

1. Bayramov, İ.M. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2005, 432 s.
2. Cəlilov, F.A. Qədim türk etnonimləri (2 Qamər "kimmer") / Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı: APİ, 1987, s.81-83.
3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə). Bakı: Gənclik, 1995, 464 s.
4. Qaraçanta, K. Ölümlə üzləşdi xalq, "Vətən səsi" qəzeti, 27.11.1992.
5. Yunusov, A. 1988-1989-cu illərdə Ermənistandakı qırğınlar. "Vətən səsi" qəzeti, 24.04.1991
6. Vəlizadə, İ., Muradov, B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı: Gənclik, 1996, 172 s.
7. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2012, 166 s.

ABSTRACT

Rimuna HUSEYNOVA

INTENSIFICATION OF OPPRESSION AGAINST AZERBAIJANIS IN WESTERNAZERBAIJAN (IN THE ARMENIAN SSR) IN THE SECOND HALF OF THE 20TH CENTURY

During the Soviet rule, the deportation of Azerbaijanis from Armenia at the state level, and by the USSR, was carried out under the name of relocation. Azerbaijanis living here were deported from their historical-ethnic lands from time to time in 1905-1906, 1918-1920, 1948-1953 and 1988-1991. In 1988-1991, under the auspices of the USSR state, the Armenian state deported more than 250,000 Azerbaijanis from their ancestral lands from Western Azerbaijan - the current territory of Armenia. In general, more than 2 million Azerbaijanis were subjected to genocide in Armenia in the 20th century. These historical tragedies were not given legal and political evaluation in time. Only National Leader Heydar Aliyev gave a legal and political evaluation in time. Only National Leader Heydar Aliyev gave a legal and political assessment to this historical injustice and tragedies, and in this regard, on December 18, 1997, "On the mass deportation of Azerbaijanis from their historical and ethnic lands in the territory of Armenia in 1948-1953", 1998 On March 26, 2001, he signed the decrees "Genocide of Azerbaijanis" and on August 22, 2001, "On solving the settlement problems of Azerbaijanis displaced from their historical lands in Armenia as a result of ethnic cleansing carried out by Armenian nationalists".

Keywords: *Western Azerbaijan, Azerbaijan SSR, Armenian SSR, deportation, exile, transfer, contract*

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN QUBERNİYASINDA AZƏRBAYCANLILARIN SOYQIRIMI FAKTLARIN DİLİ İLƏ

Abdulla MUSTAFAYEV
mustafayevabdulla78@gmail.com
ORCID iD: 0009-0009-2104-8533
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə göstərilir ki, XX əsrin əvvəllərindən başlayaraq artıq bütün hərbi, siyasi, təşkilati strukturlara malik olan ermənilər yaranmış tarixi şəraitdən istifadə edərək çar Rusiyası tərəfindən torpaqlarında yerləşdirildikləri yerli əhaliyə – Azərbaycan türklərinə qarşı təcavüzkar hərəkətlərə başladılar. Bakı şəhərində başlayan iğtişaşlar tez bir zaman ərzində Azərbaycanın, o cümlədən İrəvan quberniyasının bütün ərazisinə yayıldı. Xüsusilə də vurğulanır ki, Naxçıvanda uğradıqları məğlubiyyətin əvəzini çıxmaq üçün ermənilər İrəvanda, Zəngəzurda və başqa Azərbaycan torpaqlarında yerli əhaliyə qarşı qırğınlar törətdilər. Həmin dövrdə ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən qırğınlar barədə bir neçə qəzet, arxiv materialından və M.S.Ordubadinin "Qanlı illər" adlı əsərindən başqa əlimizdə materialın olmaması təəssüf hissi ilə məqalədə qeyd olunur. Məqalədə M.S.Ordubadinin qeyd olunan əsərinə istinad edilməklə baş verən hadisələrin başlıca səbəbləri izah edilmişdir. Məqalədə göstərilmişdir ki, Naxçıvanla müqayisədə İrəvanda ermənilər bir sıra üstünlüklərə – say, silah-sursat və mütəşəkkillik baxımından üstünlüklərə malik idilər. Məhz bu üstünlüklərindən istifadə edən ermənilər azərbaycanlılara qarşı qırğınlar törətdilər. Həmin dövrdə İrəvan və ətrafında baş verən hadisələr "Baku", "Kaspi", "Tiflisskiy listok" qəzetlərində öz əksini tapmışdır.

Açar sözlər: *Qafqaz, arxiv sənədləri, general-qubernator, erməni-müsəlman münaqişəsi, "Daşnaksütyun" partiyası, "İrəvan hadisələri", "Baku" qəzeti, "Kaspi" qəzeti*

Ermənilərin müsəlman əhalisinə qarşı təcavüzkar hərəkətləri barədə Qafqazın müxtəlif qəzalarından çar hakimiyyət orqanlarına çoxsaylı məlumatlar gəlsə də, sonuncular öz imperiya siyasətinə sadiq qalaraq ermənilərin hərəkətlərinin qarşısını almaq üçün heç bir tədbir görmək istəmirdilər. Vorontsov-Daşkov bu mövqeyi onunla əsaslandırırdı ki, Qafqazda bütün mətbuat ermənilərin əlindədir və daşnakların özlərinin də dedikləri kimi, ona nəzarət edən hökumət orqanlarının verdiyi azadlıqlardan və göstərdikləri himayədən istifadə edirlər [1, s.8. iş 265, v-60].

Arxiv sənədləri də təsdiq edir ki, çar hakimiyyəti ermənilərin hazırlıqları haqqında kifayət qədər informasiyaya malik idilər. Bu sənədlərdən birində deyilirdi ki, qəzalarda ermənilər arasında müsəlmanlara qarşı güclü hərəkat və düşmən əhvali-ruhiyyəsi hiss olunur, ancaq müsəlmanların onlarınkı kimi ciddi təlim görmüş qoşunları, hətta silahı belə yoxdur. Ermənilərin buraxdıqları şayiələr yerli hakimiyyət orqanlarına – prokurora və qubernatora, sonra da canişinə çatdırılırdı, eyni zamanda erməni ehtiyat qüvvələri tərəfindən gənclərə hərbi təlimlərin keçirilməsi, ümumiyyətlə, yaxşı silahlanmış və təlim görmüş erməni bandalarının müsəlmanlara hücum etməyə hazırlaşdıqları barədə müsəlmanlar məlumatlar verir, canişinə teleqramlar göndərərək hərbi vəziyyət elan olunması və general-qubernator təyin edilməsi xahiş edilirdi [1, s.8, iş. 463, v.10-12]. Göründüyü kimi, rəsmi dairələr ermənilərin fəaliyyətinə göz yummaqla hesab edirdilər ki, erməni-müsəlman münaqişəsi başlansaydı, "Daşnaksütun" partiyasının inqilab zamanı hansı rol oynayacağı məlum olmayacaqdı [1, s.8, iş 259, v.98].

Beləliklə, çar hakimiyyət orqanlarının hadisələrə laqeyd yanaşması ilə yanaşı, hətta iki xalq arasında düşmənçiliyin qızışmasında maraqlı olmasından istifadə edən ermənilər 1905-ci ilin ilk günlərindən öz əsas məqsədlərini, yəni azərbaycanlıları öz torpaqlarından qovub çıxarmağı gerçəkləşdirməyə başladılar. Ermənilərin yığcam yaşadıqları ərazilərdə – Bakıda, İrəvanda, Qarsda, Şuşada, Naxçıvanda, Zəngəzurda azərbaycanlıların kütləvi döyülməsi və qırğını baş verdi.

1905-ci ilin qanlı faciələrinin əsası fevralın 2-də daşnaklar tərəfindən Bakı şəhərində Ağarza adlı bir azərbaycanlının öldürülməsi ilə başlansa da, lakin M.S.Ordubadinin qeyd etdiyi kimi, müsəlman başçılarından intiqam üçün hökm verilmədi [2, s.12].

Fevralın 6-da azğınlaşan ermənilər mühafizə altında istintaqa aparılan Babayevi düz küçənin ortasında qətlə yetirdilər. Və beləliklə də, "süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsir müddətindən yanıb yaxıldı" [2, s.13].

Bakı hadisələrindən sonra Zaqafqaziyanın bütün ərazisində ermənilərlə azərbaycanlılar arasında münasibətlər daha da kəskinləşdi. Bakıda uğradıqları məğlubiyyətin əvəzini çıxmaq üçün ermənilər Naxçıvanda və İrəvan quberniyasının digər yerlərində azərbaycanlılara qarşı təcavüzkar hərəkətlərə başladılar. Çox təəssüf ki, ermənilərin adı çəkilən ərazilərdə törətdikləri qanlı hadisələr haqqında bir-iki qəzet məqaləsi və arxiv sənədi istisna edilməklə çox az material mövcuddur. Bu gün bizim əlimizdə 1905-07-ci illərdə baş vermiş hadisələrin tarixi haqqında ən obyektiv və ümumiləşdirilmiş mənbə görkəmli yazıçı M.S.Ordubadinin "Qanlı illər" adlı sənədli kitabıdır. Bu əsər hadisələrin qızğın çağında, çoxsaylı şahid ifadələri və 245 müxbir məktubları əsasında, "hər cür şəxsi və milli qərəzdən uzaq olub hər nöqtədə üz vermiş faciə və hadisələr olduğu kimi" yazılmışdır [2, s.6]. Kitab 1912-ci ildə nəşr edilsə də, sonralar sovet dövründə bir daha işıq üzü görməmiş, hətta belə bir kitabın mövcudluğunu yaddan çıxartmağa çalışmışlar. Çünki erməni millətçilərinin və onların havadarlarının iç üzünü ifşa edən faktlar rəsmi sovet ideologiyasının qanunlarına, "erməni və azərbaycanlıların çoxəsrlik dostluğu" haqqında cəfəng konsepsiyaya uyğun gəlmirdi. Kitab yalnız 80 ildən sonra, 1991-ci ildə yenidən nəşr edilmişdir.

Hadisələrin baş verməsinin əsas səbəbləri barədə Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatında bir-birinə zidd, təzadlı fikirlərin olduğunu göstərən M.S.Ordubadi milli münaqişələrin və qan tökülməsinin dörd əsas səbəbini göstərir: Birinci, "Daşnaksütyun partiyasının müstəbid bir idarə üsulunu təşkil etməklə Qafqazda bir sıra qanlı teatrların oynanılmasıdır". İkinci, "Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə, mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar". Hətta ermənilərin terrorları qorxusundan bir tərəfdən əldə saxlayıb, digər tərəfdən növbənöv vicdansızlıqlar etməkdə idilər. Üçüncü səbəb isə müsəlmanların elmsizliyi, silahsız olması və müasir işlərdən xəbərsizliyidir. Nəhayət, faciənin dördüncü səbəbi ermənilərin avtonomiya – idarə muxtariyyəti kimi əsassız xəyallarıdır. Erməni başbilənləri və onların havadarları müsəlmanları təzyiq ilə baba yurdlarından qovmaq, erməni və müsəlmanı müharibə səbəbinə bir-birindən ayırmaq niyyəti ilə Bakı quberniyasının və Gəncə quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasının, Gəncə quberniyasının yaylaq və dağbasar ölkələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib, erməni səltənəti təşkil etmək idi [2, s.8-11].

İstər Naxçıvan hadisələri, istərsə də Cənubi Qafqazın bir sıra başqa yerlərində baş vermiş bütün digər münaqişələr ermənilərin bais olduqları Bakı hadisələrinin bilavasitə nəticəsi idi. Mayevskinin qeyd etdiyi kimi, "bu hadisələr qeyri-tipik hadisə idi və sübut etdi ki, çox hallarda heç bir günahı olmayan kənd əhalisi zərər çəkmişdir. Naxçıvan hadisələri başqa heç nəyi sübut edə də bilməz" [3, s.41-35].

Naxçıvanda uğradıqları acı məğlubiyyətdən qəzəblənən ermənilər bu məğlubiyyətin əvəzini İrəvan şəhərində və onun ətrafında yaşayan Azərbaycan türklərindən çıxmaq üçün dərhal təcavüzkar hərəkətlərə başladılar. Düzdür, hələ Naxçıvan hadisələrindən əvvəl də İrəvanda müsəlmanlarla ermənilər arasında münasibətlər gərgin idi. Xüsusən də Bakı hadisələrinin təsiri nəticəsində 1905-ci il 20-22 fevral tarixlərində İrəvan şəhərində iki millət arasında baş vermiş toqquşmalar nəticəsində hər iki tərəfdən ölən və yaralananlar olmuşdu. Lakin hər iki millətin ziyalılarının, din xadimlərinin birgə səyləri nəticəsində müvəqqəti sakitlik yaranmışdı. Həmin günlərin xronikası bütün detalları ilə Eynəli Sultanovun "Kaspi" qəzetində çap etdirdiyi "İrəvan hadisələri" adlı yazıda öz əksini tapmışdı [4, 1905-ci il, I, 2, 3 mart].

Naxçıvanla müqayisədə İrəvan qəzasında ermənilər həm say, həm silah-sursat, həm də mütəşəkkillik cəhətdən daha çox üstünlüyə malik idilər. 1905-ci ildə İrəvan quberniyasında 860 müsəlman-türk kəndi var idi. Bu isə "Türksüz Ermənistan" yaratmaq məqsədləri güdən erməni millətçilərini rahat buraxmır, bu əraziləri ermənləşdirmək üçün onlar ən qatı murdarlıqlardan, vəhşiliklərdən istifadə etməkdən belə çəkinmirdilər [5, s.290-292]. M.S.Ordubadinin qeyd etdiyi kimi, İrəvan müsəlmanları Naxçıvan qələbəsini özlərinin qələbəsi sayıb xəyalsız dolanmaqda ikən, ermənilər müharibə etmək üçün bütün tədarüklərini görüb hadisənin başlanmasını gözləyirdilər.

1905-ci il mayın 23-də ermənilərin Qarsaçay bağçasında üç azərbaycanlını döyməsi vəziyyəti yenidən gərginləşdirmiş, şəhər bazarında atışma başlanmışdı. Gecə sakit keçsə də, ertəsi gün saat 9-da ermənilər bazar-dükanı açmağa gələn müsəlmanlara atəş açaraq yenidən aranı qızışdırmağa nail oldular. Lakin bu atəş müsəlmanlara deyil, ermənilərə dəyib, onları yaraladı. Əsgərlər ermənləri sakitləşdirə bilsələr də, saat 2 radələrində ermənilər yenidən atəş açmağa başladılar. Hadisələrin belə gedişinə əsla hazır olmayan azərbaycanlıların əlində cəmi bir neçə köhnə ov tüfəngi var idi ki, bununla ermənilərin qabağını almaq əsla mümkün deyildi. Əsgərlərin mühafizəsi altında şəhərin erməni hissəsində yaşayan azərbaycanlı ailələrin müsəlman hissəsinə köçürmək mümkün olsa da, atışma nəticəsində köçə bilməyən müsəlmanlardan 4 qadın, 2 uşaq və 5 kişi həlak oldu. Belə olduqda müsəlman könüllüləri silah götürərək ermənilərin üstünə yürüş

etdilər. Hökumət qoşununun köməyi ilə onlar erməni hissəsində qalmış 30-40 müsəlman ailəsini də oradan çıxarmağa müvəffəq oldular.

İğtişaşın beşinci günündən tərəflər arasında başlanan mövqe döyüşlərində ermənilər daha çox tələfat verdilər. Baxmayaraq ki, ermənilərin əksəriyyəti təlim görmüş, müasir silahlarla silahlanmışdı, onlar "bal mumundan qayrılmış müqəvva kimi olub püf edən kimi məhv olurdular". M.S.Ordubadi bunun səbəbini erməni əsgərlərinin spirtli içkilər içməklə lovğalıq edərək, ara-sıra bir güllə atıb "bir islam vurdum" deyib, bir rumka konyak tələb etməkdə görürdü: "Bu səbəbə ermənilərin güllələri büsbütün boşa gedib ermənilər tamaşaçı millətlər yanında bir məsxərə nümunəsi qayırdılar ki, indi də dillərdə İrəvan müharibəsi deyilir" [2, s.23-27].

Həmin gün ermənilər müsəlmanlar yaşayan evə iki bomba ataraq 10 nəfəri qətlə yetirdilər. Şəhərdə bütün hökumət idarələri, mağazalar bağlanmış, müsəlman əhali şəhəri tərk edərək kəndlərdə gizlənməyə məcbur olmuşdu. Qubernatorun əmri ilə şəhərdə hərbi vəziyyət elan olunmuş, qayda-qanun yaratmaq üçün general Şvedov əlavə qüvvələr gətirməyə əmr vermişdi [4, 1905, 28-29 may, № 99-98]. Mayın 25-də öz evlərində gizlənən müsəlmanlara atılan bomba nəticəsində 8 nəfər həlak olmuşdu. Rəsmi xəbərlərə görə üç gün ərzində – 23, 24, 25 mayda İrəvanda 31 nəfər həlak olmuş, onun 9-u erməni, 21-i azərbaycanlı, 1 nəfəri isə aysor idi [4, 1905, 3 iyun №103].

"Baku" qəzetinin 1905-ci il 3 iyun tarixli (№ 103) nömərsində İrəvanda həmin gün baş vermiş hadisələr tamamilə ermənipərəst mövqedən işıqlandırılsa da, həlak olanların çoxunun məhz azərbaycanlılar olduğu təsdiq olunurdu (həlak olmuş 15 nəfərin 13-ü azərbaycanlı, 1-i erməni, 1-i aysor olduğu göstərilirdi – M.A.).

Ermənilərin rəsmi orqanları İrəvanda baş vermiş toqquşmaların əsas səbəbini azərbaycanlıların üstünə atsalar da, bu hadisələrə çoxdan hazırlaşdıqlarını gizlətmirdilər.

M.Tsenatsi (Kitayets) adlı müəllifin "Qnçak" qəzetində getmiş məlumatında (Qnçak, 1906, № 6) etiraf olunur ki, "ermənilər toqquşmanın birinci günündə gözlədikləri silahı əldə etdilər, sanki hərəkətə keçmək üçün məqam gözləyirdilər. Ən çətin mövqelər bizim (ermənilərin-M.A.) adamlar tərəfindən tutulmuş və bütün şəhər görürdü ki, qnçakçılar dəstəsi necə şəhəri qoruyurdu və türkləri necə yaxşı qırırdılar. Mənzərə kədərli olsa da, biz erməni cəmiyyəti qarşısında təmiz vicdanla durduq. Silahlarla birgə aldığımız 192 müxtəlif növ tapançaları xalqa payladıq" [4, 1905, 3 iyun №103].

İğtişaşlar şəhər də daxil olmaqla qəzanın bütün kəndlərinə yayılmış, dəmiryolunda hərəkət tamamilə pozulmuşdu. May ayının 26 və 27-də əlavə qüvvələr hesabına güclənən ermənilər azərbaycanlılar üzərinə yenidən hücuma keçmişdilər. "Tifliskiy listok" qəzetinə göndərilmiş və mayın 26-da baş vermiş hadisələrdən bəhs edən məlumatda deyilirdi ki, hər tərəfdən qəbiristanlığa meyidlər, əsasən də tatarların meyidləri gətirilir. Ölənlər və yaralananlar çoxdur… Bombalarla partladılmış tatar evində 24-ə yaxın insan ölmüş və yaralanmışdır" [4, 1905, 1 sentyabr №168].

Tatarların yaşadığı Təpəbaş rayonunda evlər bombalarla dağıdılmış, çoxlu insan qırılmışdır. Zəngi dərəsində də az itki olmamışdır. Axşam çağı bəzi ermənilər küçələrə çıxsalar da, tatarlar çıxmağa cürət etmirdilər.

Qubernatorun yanında qırğınların qarşısını almaq məqsədilə hər iki millətin nümayəndələrindən ibarət qarışıq komissiya yaradılmış, tədbirlər müəyyənləşdirilmişdi [4, 1905, 1 sentyabr, №168]. Hökumət dairələri tərəfindən şəhərə dəvət edilən Qafqaz şeyxülislamı, İrəvan qazisi və yepiskopu (onlar Naxçıvanda idilər – M.A.) iyunun 1-də camaata moizə və nəsihətlə müraciət etdilər.

Maraqlıdır ki, şeyxülislam öz çıxışında hər iki milləti barışığa çağırsa da, arximandrit Karapet Azərbaycan dilində çıxış edərək iğtişaşları başlamaqda azərbaycanlıları günahlandırmış və onları qorxudaraq qeyd etmişdi ki, əgər siz barışmaq istəyirsinizsə, gedin sakitcə öz işinizlə məşğul olun və öz sülhsevərliyinizlə bizi inandırın ki, bir daha qırğın və ictimaiyyətə bəhanə verməyəcəksiniz. Onda əmin olun ki, bir ermənilər sizə toxunmayacaq, əks təqdirdə ermənilər bütün üsullarla özlərini müdafiə etməli olacaqlar [4, 1905, 5 iyun, № 105].

Şeyxülislam İrəvan müsəlmanları adından Sultan-Krım-Gireyə teleqram göndərərək İrəvan quberniyasında hərbi vəziyyət elan etmək barədə canişin qarşısında məsələ qaldırmağı xahiş etmişdi. Teleqramı İrəvan qazisi axund Qazızadə, quberniya məclisinin üzvü Ə.Qaziyev, İsmayılbəy Qaziyev, Ələkbər İsmayılov, Hacıbəylinski, Mirsadıqov, Hacı İsmayıl Mirzəbirbəyov Kəngərlinski imzalamışdılar [4, 1905, 8 iyun №106].

Tezliklə buna cavab olaraq İrəvan quberniyasında hərbi vəziyyət elan edilmiş, general-mayor Lüdovik Napaleon general-qubernator təyin edilmişdi [4, 1905, 9 iyun, № 107]. Lakin bu tədbirlər də ermənilərin azğın hərəkətlərinin qarşısını ala bilmədi. Əksinə, İrəvanda müvəqqəti sülhün bərpa olunmasından istifadə edən daşnaklar müsəlman kəndlərinə hücum etmək üçün fürsət əldə etdilər. Qarabulaq sahəsinin və ona qonşu olan kəndlərin

ermənіləri ətrafdakı on müsəlman kəndinə silahlı hücum edərək yandırmış və talan etmiş, əhalini qırmışdılar. Sağ qalan müsəlman əhali isə açıq səma altında acından ölmək təhlükəsi ilə yaşamağa məcbur olmuşdu [4, 1905, 3 iyun №103]. Bu zaman İrəvanın müsəlman əhalisinin başbilənləri camaatı dairələrə ayırıb, hakimiyyəti bölməklə məşğul idilər. "Öz canlarını, malını vətənindən üstün tutan" bəzi imkanlı adamlar mümkün qədər tez aradan çıxmağa çalışarkən ətraf kəndlərdə günahsız insanların qanı sel kimi axırdı [2, s.28-29].

Qarabulaq mahalında sayca üstünlük təşkil etmələrindən istifadə edən ermənilər buradakı müsəlman kəndlərinə divan tutmaq üçün ayın sonlarından başlayaraq fəal hərəkətə girişdilər. Qonşu Tirtabat kəndindən hücum edən ermənilər Gözəcik kəndinin əhalisini öz doğma yurdlarını tərk edib Mənkus kəndinə pənah aparmağa məcbur etdilər. Ermənilər bu kəndi də mühasirəyə aldıqda azərbaycanlılar yenidən qaçmağa çalışırlar. Kənd ağsaqqalı Novruz Kazım oğlu onların qabağına keçərək ermənilərə qarşı mübarizəyə çağırsa da, lakin bunun xeyri olmur. Təkbaşına ermənilərlə döyüşə atılan Novruz kişini ermənilər əsir götürərək başını kəsmiş, "onun başı min beş yüz müsəlman sərkərdəsinin başıdır", - deyə əvvəlcə Aleksandropol, sonra isə Bakı şəhərinə göndərmişdilər [2, s.303]. İyunun 2-də ermənilərin 10 minlik qoşunu kəndi ələ keçirdikdən sonra, onun əhalisi Təzəkəndə qaçmalı oldu. Bu kənddə dağıdılmış 12 müsəlman kəndinin əhalisi də toplanmışdı. Bir gün sonra ermənilər Güllücə kəndinə hücum etdilər. Silahsız azərbaycanlılar kəndi tərk edərək qonşu Tutya, Damagirməz, Kamal kəndlərinə sığınmalı oldular. Lakin bu kəndlər də erməni hücumuna məruz qaldığından, onların camaatı da Təzəkəndə pənah aparırlar. Ələ keçirdikləri kəndlərdə ermənilər heç kimə, qocalara, uşaqlara, qadınlara aman verməmiş, hər şeyi talayıb apardıqdan sonra kəndlərə od vurub yandırmışdılar. "Mişak" müxbiri də təsdiq edirdi ki, İrəvan qəzasının Şərq hissəsində yerləşən müsəlman kəndlərindən olan Güzəncədə 20 ev, Güllücədə 50 ev, Mənkusda 50 ev, Kamalda 50 ev, Tutyada 60 ev talan edilərək yandırılmışdı [4, 1905, 5 iyun, № 105].

Eçmiədzin (Üçkilsə) qəzasında da ermənilər xüsusi qəddarlıqlar törətmişdilər. İyunun 3-də Şoragöl, Pəmbək, Aleksandropol ermənіləri birləşərək Uşu adlı azərbaycanlılar yaşayan kəndə hücuma keçdilər. 8 saatlıq döyüşdən sonra ermənilər çoxlu tələfat verib qaçmağa məcbur oldular. Kənd hər tərəfdən mühasirəyə alınmışdı. İyunun 5-də ermənilərin beşaçılan tüfənglərdən istifadə edərək kəndə hücum etmələri də bir nəticə verməmədi. Yalnız üç gündən sonra, yəni müsəlmanların silah-sursatı qurtardıqdan sonra ermənilər kəndə yaxınlaşa bildilər. Qüvvələr qeyri-bərabər olsa da, azərbaycanlılar 180 nəfər ermənini öldürmüş, bir o qədər də yaralamışdılar. Lakin bu müharibədə "tüfənglə vuruşan ermənilərə qarşı xəncərlə vuruşan azərbaycanlılar" kəndi boşaltmağa məcbur oldular. Pərsi, Nəzrəvan, Kurukənd, Kötüklü, Qoşabulaq, İrku, Əngircək kəndləri də ermənilər tərəfindən ələ keçirilərək yandırıldı. İyunun 9-da Təkyə kəndini ələ keçirmiş erməni quldurları müsəlmanların müqəddəs kitablarını yandırmış, kənd məscidini gülləbaran etmişdilər. İyun ayının 19-da ermənilər daha 9 kəndi dağıtmış, hökumət isə azərbaycanlı əhalinin müdafiəsi üçün heç bir tədbir görməmişdi [2, s.33-35].

Ermənilərin azğınlığı o dərəcəyə çatmışdı ki, onların hərbi dəstələri hətta hökumət qoşunları ilə münaqişəyə girməkdən çəkinmirdilər. Məsələn, iyunun 6-da Eçmiədzin qəzasının ikinci sahəsində kazaklar 150 nəfərlik erməni quldur dəstəsi ilə qarşılaşmış, atışmada 4 erməni öldürülmüş, 31-i əsir alınmışdı [4, 1905, 14 iyul, № 19].

Sentyabrın 19-da İrəvan şəhərində ermənilər barışığı yenidən pozaraq atəş açmış, nəticədə 8 azərbaycanlı öldürülmüş, 3-ü isə yaralanmışdı [4, 24 sentyabr, 1905, № 186]. Həmin günlərdə kazakların gözü qarşısında ermənilər daha 13 azərbaycanlını qətlə yetirmişdilər [4, 22 sentyabr, №184].

Nəhayət, 1906-cı il fevralın 14-ü İrəvan şəhərində qubernator Tizenqauzenin iştirakı ilə azərbaycanlılarla ermənilər arasında münaqişənin aradan qaldırılması barədə 9 bənddən ibarət müqavilə imzaladılar. Müqaviləni azərbaycanlılar adından Pənahxan Makinski, K.Məmmədəliyev, Ağaxan İrəvanski, Mirabbas Mirbabayev, Ələkbər İsmayılov, Abbasqulubəy Hacıbəyov imzalamışdılar [4, 1906, 19 fevral, № 39].

Münaqişəli məsələlərin həlli üçün hər iki tərəfin nümayəndələrindən ibarət komissiyanın yaradılması nəzərdə tutulmuşdu. Bir neçə gündən sonra, fevralın 20-də Tiflisdə öz işinə başlanan erməni-müsəlman qurultayında İrəvan azərbaycanlılarını İrəvanski, A.Hacıbəyov, Şahqulu Mirzə, Naxçıvanlı Eynəlibəy Sultanov, Məmmədağa Şahtaxtinski, Sürməli qəzasını Əliağa Akimov, Zəngəzur qəzasını Cəlilbəy Sultanov təmsil etdilər [4, 1906, 23 fevral, № 42].

Lakin bu tədbirlər də ermənilərin azğınlığının qarşısını ala bilmədi. 1906-cı ilin mayın sonu - iyunun əvvəllərində İrəvanda, Sürməlidə ermənilər azərbaycanlılara hücum edərək qətl və qarətlər törətdilər [4, 1906, 9 iyun, №123, 18 iyun №131].

Erməni azğınlığına məruz qalan kəndlər arasında Şərur-Dərələyəz qəzasının Hors kəndinin taleyi daha faciəli oldu. Eçmiədzin qəza rəisinin 30 oktyabr 1906-cı ildə verdiyi məlumata əsasən, 800 nəfərlik erməni quldur dəstəsi kəndə hücum edərək onu dağıtmışdı. Hücum nəticəsində 53 adam öldürülmüş, 27-si yaralanmış,

255 ev yandırılmış, bütün mal-qara, əmlak talan edilmişdi. Bəzi mənbələrə görə isə bu kənddə 400 azərbaycanlı öldürülmüşdü [4, 6 noyabr 1906, №156].

Bu dövrdə baş verən hadisələr əhalinin etnik tərkibində də dəyişikliklərə səbə olmuşdu. Belə ki, 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlıların sayı 313.176 nəfər olduğu halda, 10 ildən sonra, yəni 1907-ci ildə bu rəqəm 302.965 təşkil etmişdi. Hətta on il ərzində əhalinin təbii artımını nəzərə almasaq belə, azərbaycanlıların sayının 10 min nəfərdən çox azaldığını görərik. İrəvanda nəşr olunmuş "Erməni-türk münasibətləri" adlı kitabda da erməni müəllifləri İrəvan quberniyasında 1301 kənddən 959-nun azərbaycanlılara məxsus olduğunu göstərir. Bu dövrdə 252 kəndin dağıldığı, 10 min azərbaycanlının öldürüldüyü qeyd edilirdi [6, s. 471].

İrəvan quberniyasında öz məqsədlərinə nail olan ermənilər Qarabağda, Gəncə ətrafında və başqa yerlərdə də qırğınlar törətməyə başladılar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (AR PİİSSA), f. 276
2. Ordubadi, M.S. Qanlı illər. 1905-1907-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: QXYK, 1991, 144 s.
3. Маевский, В. Армяно-татарское смута на Кавказе как один из фазисов армянского вопроса. Тифлис: 1915, 61 с.
4. К событиям в Эрванской губении. Газ. "Каспий", 4 июня 1905 г. № 104.
5. Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: "Adiloğlu" nəşriyyatı, 2003, 700 s.
6. Вейденбаум, Н. Путеводитель по Кавказу. Тифлис: 1888, с. 434

ABSTRACT

Abdulla MUSTAFAYEV

THE LANGUAGE OF FACTS OF THE GENOCIDE OF AZERBAIJANIS IN THE IRAVAN GOVERNORATE IN THE EARLY 20TH CENTURY

The article shows that since the beginning of the 20th century, the Armenians, who already had all the military, political, and organizational structures, started aggressive actions against the local population, the Azerbaijani Turks, who were settled in their lands by Tsarist Russia, using the created historical conditions. The riots that started in the city of Baku quickly spread to the entire territory of Azerbaijan, including the Iravan governorate. It is especially emphasized that in order to compensate for the defeat they suffered in Nakhchivan, Armenians committed massacres against the local population in Iravan, Zangezur and other Azerbaijani lands. The article regrettably mentions the lack of material in our hands about the massacres carried out by Armenians against our people in that period, except for a few newspapers, archival material and M.S.Ordubadi's work called "Bloody Years". The article explains the main causes of the events with reference to the mentioned work of M. S. Ordubadi. It is shown in the article that compared to Nakhchivan, the Armenians in Yerevan had a number of advantages in terms of numbers, weapons, and organization. It was Armenians who took advantage of these advantages and committed massacres against Azerbaijanis. In that period, the events that took place in and around Yerevan were reflected in the newspapers "Baku", "Kaspi", "Tiflisskiy listok".

Keywords: *Caucasus, Archive documents, Governor-General, Armenian-Muslim conflict, "Dashnaksutyun" party, "Iravan events", "Baku" newspaper, "Kaspi" newspaper*

II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA QƏRBİ AZƏRBAYCANLILARIN ÖZ TORPAQLARINDAN DEPORTASİYASI: SƏBƏBLƏR VƏ NƏTİCƏLƏR

Samirə MƏMMƏDOVA
samire.mammadova@sdu.edu.az
ORCID iD: 0000-0003-0675-9248

Kəmalə BABAYEVA
Sumqayıt Dövlət Universiteti

XÜLASƏ

Məqalənin məqsədi II Dünya müharibəsindən sonra Qərbi azərbaycanlıların öz torpaqlarından deportasiyasını tədqiq etməkdir. 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək keçirilmiş Tehran konfransı zamanı ermənilər SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdilər. V.Molotov İ.Stalinin razılığını aldıqdan sonra İranda yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə icazə vermişdi. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi haqqında qərar qəbul etdi. Lakin Molotovun təklifi Ermənistan rəhbərliyinin Stalinin razılığa gəlməsindən sonra xeyli dəyişdirildi. Qərara alındı ki, köçürüləcək ermənilər Ermənistanda yerləşdirilsinlər, əvəzində isə burada yaşayan azərbaycanlılar Azərbaycana köçürülsünlər. Bununla da Mərkəzin rəhbərliyi və xeyir-duası ilə azərbaycanlıların Ermənistan SSR ərazisindəki ata-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. Köçürülmənin həyata keçirilməsi 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qəbul etdiyi 4083 saylı qərarla rəsmiləşdirildi. Daha sonra bu prosesin həyata keçirilməsini sürətləndirmək üçün həmin qərara əlavə edilən konkret tədbirlər planı hazırlandı. Bu qərara görə, 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər olmaqla 100 min azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Qərarın on birinci maddəsində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlıların köçürülməsi ilə bağlı onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xarici ölkələrdən Ermənistan SSR ərazisinə köçürülən ermənilər yerləşdirmək üçün istifadə etsinlər.

Açar sözlər: *II Dünya müharibəsi, köçürmə, Qərbi Azərbaycan, deportasiya*

Giriş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev İli" elan etməsi bütün Azərbaycan vətəndaşlarını, hansı dövlətə mənsub olmasından asılı olmayaraq, özünü azərbaycanlı sayan hər bir kəsi sevindirmişdir. Heydər Əliyev o nadir şəxslərdəndir ki, adı təkcə yubileydən-yubileyə, əlamətdar hadisələrlə bağlı yad edilmir. Bu adı hər kəs daim minnətdarlıq hissi ilə xatırlayır, müstəqil bir dövlətin vətəndaşı olduğu üçün qürur hissi keçirdiyinə görə özünü ona borclu sayır. Bununla belə, bu da təkzibedilməz faktdır ki, əgər Heydər Əliyev dağılmaq, yox olmaq təhlükəsi ilə üz-üzə dayanmış Azərbaycanı hissə-hissə yığaraq yoxdan bir dövlət yaratdısa, onun siyasi varisi olan İlham Əliyev bu Azərbaycanı hər bir azərbaycanlının fəxr etdiyi, dünyanın iri güclərinin hesablaşdığı, Avropanın təhlükəsizliyində əhəmiyyətli söz sahibi olan, regionun ən qüdrətli bir dövlətinə çevirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son dövr fəaliyyəti, xüsusən onun 44 günlük Vətən müharibəsindən sonrakı çıxışları, xarici və yerli mətbuata müsahibələri zamanı Qərbi Azərbaycan torpaqlarının azərbaycanlıların qədim və tarixi yurd yeri olması və onların mütləq öz tarixi vətənlərinə qayıdacağı barədə bəyanatları [1] bu gün o qədər də dərindən öyrənilməmiş bir məsələni də aktuallaşdırır. Bu, Heydər Əliyevin azərbaycanlıların öz tarixi vətənlərindən deportasiyası haqqında olan ideyaları, çıxışları, müraciətləri və onların məntiqi nəticəsi olan 1997-ci il dekabr ayının 19-da imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" [3] fərmanıdır.

Metodlar: Təhlil, müqayisə metodlarından istifadə edilmişdir.

Əsas hissə

Bütün tarixi mənbələrdən məlumdur ki, indiki ərazilərdə tarixən Ermənistan adlı dövlət mövcud olmamışdır. Bununla belə, əsrlər boyu işğal etdiyi xalqların təbii sərvətlərini, elmi-intellektual potensialını və mədəni nailiyyətlərini istismar edərək onların hesabına dünya xalqları və dövlətləri içərisində "mən də varam",

- deyərək yaşayan imperiya Rusiyası üçün erməni dövlətinin yaranması həyati zərurət idi. Heç zaman zülmə baş əyməmiş, azadlığını hər şeydən üstün qiymətləndirən Qafqaz xalqlarını öz tabeliyində saxlamaq, eləcə də Avropanın qərbindən Uzaq Şərqə qədər böyük bir ərazidə özünü inamlı hiss edən, başçıları və adları, idarəetmə sistemləri dəyişsə də, mahiyyəti sabit qalan türk dövlətlərini zəiflədərək öz təhlükəsizliyini təmin etmək məqsədi güdən Rusiya üçün erməni kartı bu mənada əvəzolunmaz vasitə idi.

Çar Rusiyasının həmin dövrdə xarici işlər naziri olmuş qraf K.V.Nesselroda yazdığı məktubların birində yenə həmin məsələyə toxunaraq A.Qriboyedov yazırdı: "Bəzən sizin vəzifəli bir rus məmuru ilə yerli bəylərdən birinə bir xələt göndərməyinizin təsiri qoşun göndərilməsindən, ciddi cəzalardan, and içdirilməsindən və digər məcburiyyətlərdən çox olur" [3, 583]. Bu məktub rus hökumətinin Qafqazda yürütdüyü müstəmləkəçilik siyasətini həmin siyasətin müəlliflərindən və icraçılarından birinin dili ilə ifşa etdiyi üçün xüsusilə əhəmiyyətlidir. Məktubda səfir yerli azərbaycanlı əhalini ələ almaq üçün hökumətin bir neçə nəfərə vəzifə verərək maaş təyin etməsini təklif edir və incə siyasətçi kimi imperiyanın əsas dayaqları olan "bəy və xanların hakimiyyətinin əlindən alınıb əvəzində xalqa yad qanunların dolaşıqlığının verilməsini" tənqid edir. "Bizə inanıb öz vətəninə arxa çevirənlərə kömək etməməyimiz adamların bizə inamının itməsinə səbəb olur" [3, s.578]. Göründüyü kimi, dövr dəyişsə də, siyasət və münasibətlər dəyişilməyib.

Moskvadakı havadarlarının köməyi ilə mərkəzdəki və xarici ölkələrdəki erməni və ermənipərəst lobbilərinə arxalanan daşnaklar müharibədən sonrakı illərdə də vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki öz tarixi etnik ərazilərindən sıxışdırılıb çıxarılması, ilk növbədə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərin ortalarında mərkəzin, bilavasitə Moskvadakı erməni lobbisinin lideri və rəhbəri A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda kommunistlərin fəal iştirakı ilə gizli "Qarabağ hərəkatı" və "Qarabağ komitəsi" yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi partiya elitasının köməyi ilə növbəti dəfə mərkəzi partiya rəhbərliyi qarşısında Azərbaycan torpaqlarının bir hissəsinin Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdı. Ermənistan K(b)P MK və XKS Stalinə müraciət edərək heç bir elmi, tarixi əsası olmadan bildirdilər ki, Dağlıq Qarabağ ərazisi guya iqtsadi cəhətdən daha çox Azərbaycanla deyil, Ermənistanla bağlıdır. Mərkəzdə bu məsələyə dərhal münasibət bildirildi. Belə ki, Moskvanın nümayəndəsi ÜİK(b)P MK katibi ermənipərəst K.M.Malenkov 28 noyabr 1945-ci ildə Azərbaycan K(b) MK-nın 1-ci katibi Mircəfər Bağırova məktub yazaraq bu məsələ haqqında ermənilərin istəyi ilə bağlı məlumat verir və onun rəyini bilmək istəyir.

Cavab məktubunda Azərbaycan rəhbərliyi bu iddiaların heç bir elmi, tarixi əsası olmadığını və Dağlıq Qarabağın Azərbaycanın qədim torpağı olduğunu sanballı faktlarla sübut edirdi. M.Bağırov bildirirdi ki, əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Şuşadan başqa, Yuxarı Qarabağ ərazisi o halda Ermənistana verilə bilər ki, Zəngəzur bölgəsi bütövlüklə Azərbaycana qaytarılsın. Buna isə nə Moskva, nə də Ermənistan razı olmadı, çünki Türkiyə ilə Azərbaycan hesabına yaradılmış "erməni ərazisi" bununla ləğv edilərdi. Beləcə, M.Bağırov itirilmiş tarixi Azərbaycan torpaqları problemini önə gətirir. O, K.M.Malenkova cavab məktubunda bildirir ki, Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi halda müxtəlif zaman kəsiyində Ermənistana, Gürcüstana və Rusiyaya verilmiş bir çox tarixi Azərbaycan torpaqlarının onun özünə qaytarılması zərurəti meydana çıxacaq.

M.Bağırov yaxşı bilirdi ki, ermənilər buna razı olmayacaq və ermənilərin planı pozulacaq. Moskva problemin nə qədər təhlükəli olduğunu anlayaraq ermənilərin iddialarını rədd etdi. Bununla yanaşı, Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək üçün işə başladı. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək keçirilmiş Tehran konfransı zamanı ermənilər SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdilər. V.Molotov İ.Stalinin razılığını aldıqdan sonra İranda yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə icazə verilmişdi. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi haqqında qərar qəbul etdi.

Lakin Molotovun təklifi Ermənistan rəhbərliyinin Stalinin razılığa gəlməsindən sonra xeyli dəyişdirildi. Qərara alındı ki, köçürüləcək ermənilər Ermənistanda yerləşdirilsinlər, əvəzində isə burada yaşayan azərbaycanlılar Azərbaycana köçürülsünlər. Bununla da Mərkəzin rəhbərliyi və xeyir-duası ilə azərbaycanlıların Ermənistan SSR ərazisindəki ata-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. Köçürülmənin həyata keçirilməsi 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qəbul etdiyi 4083 saylı qərarla rəsmiləşdirildi. Daha sonra bu prosesin həyata keçirilməsini sürətləndirmək üçün həmin qərara əlavə edilən konkret tədbirlər planı hazırlandı. Bu qərara görə, 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər olmaqla 100 min azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Qərarın on birinci maddəsində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlıların köçürülməsi ilə bağlı onların

boşaltdıqları tikililərdən, yaşayış evlərindən xarici ölkələrdən Ermənistan SSR ərazisinə köçürülən erməniləri yerləşdirmək üçün istifadə etsinlər.

Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də və aprelin 14-də köçürməni qısa müddətdə başa çatdırmaq üçün xüsusi qərarlar qəbul etmiş, xüsusi köçkünlər komissiyası yaradılmışdı. Komissiya üzvlərinə göstəriş verilmişdi ki, camaat arasında izahat işi aparsınlar və bu siyasi kampaniya tezliklə başa çatdırılsın. Komissiyanın tərkibinə Ermənistanda yaşayan və rəhbər vəzifələr tutan azərbaycanlılar da daxil idilər. Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında (respublika əhalisinin rəyi nəzərə alınmadan) əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15713 nəfər və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etməyərək Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40000 nəfər azərbaycanlının dərhal köçürülməsini tələb etdi. Azərbaycan hökuməti isə bunun bir dəfəyə mümkünsüz olduğunu bildirirdi. Müraciətdə həm də 1949-1950-ci illər üçün əvvəllər müəyyənləşdirilmiş köçürülmə planlarına yenidən baxılması və "Ermənistan SSR-dən olan azərbaycanlı kolxozçuların və digər əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi" xahiş edildi.

Ermənistan SSR-dən köçürülən azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığında və digər rayonlarda yerləşdirilirdilər. Bütün bunlar az imiş kimi, deportasiya edilmiş azərbaycanlılar Kür-Araz ovalığında yaşayan ermənilər tərəfindən də sıxışdırılaraq təqib olunurdular. Bu cür böhtanlar nəticəsində ermənilər Azərbaycan SSR Şamxor (Şəmkir) rayonuna deportasiya edilmiş 150 nəfər azərbaycanlının öz təsərrüfatları ilə birlikdə rayondan sürgün edilməsinə nail olmuşdular. Ermənilərin Azərbaycanda özbaşınalığına respublika rəhbərinin gözü qarşısında şərait yaradanlar respublikanın güc nazirliklərində, partiya və sovet orqanlarında rəhbər vəzifə sahibi olan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları idi. Onlar deportasiya olunan azərbaycanlıların ermənilərin sıx yaşadıqları Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində və onun ətrafındakı rayonlarda yerləşdirilməsinə imkan vermiş M.Bağırova saxta, böhtan xarakterli arayışlar təqdim edərək deportasiya olunan azərbaycanlıların ermənilər tərəfindən sıxışdırılmaları barədə kollektiv imza ilə göndərdikləri məktub və ərizələri "millətçilik", "siyasi təxribat" kimi xarakterizə edir, respublika rəhbərini buna inandırırdılar.

Beləliklə, 1949-cu ildə Ermənistan SSR ərazisindən, yəni qədim Qərbi Azərbaycan torpaqlarından 15276 nəfər adam Azərbaycan SSR-yə deportasiya edildi. Deportasiya olunanlar Şimali Azərbaycanın Saatlı, Mirbəşir (Tərtər), Göyçay, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Bərdə, Gədəbəy rayonlarında yerləşdirildi. Ən çətini, dözülməzi ondan ibarət idi ki, dağlıq və dağətəyi ərazilərdə dünyaya göz açıb yaşayan bu əhali indi birdən-birə çox isti olan Kür-Araz ovalığına köçürülürdü. Sonrakı ildə 1950-ci il martın 14-də və avqustun 25-də daha 3419 təsərrüfatın və 14361 nəfər azərbaycanlının Ermənistan SSR-dən Azərbaycana köçürülməsi haqqında Azərbaycan və Ermənistan respublikalarının hökumətləri birgə qərar qəbul etdilər.

Köçürülənlərin sosial və məişət problemlərinə vaxtında diqqət yetirilmirdi. Nəticədə 1950-ci ildən başlayaraq Kür-Araz ovalığından əhalinin bir hissəsi Ermənistana – öz keçmiş ata-baba yerlərinə qayıtmağa başlamışdı. Deportasiya olunanların digər bir qismi isə Azərbaycan hökumətinə və mərkəzə şikayət məktubları göndərir və onlara olan diqqətsizlikdən, qeyri-insani münasibətdən söz açırdı. Lakin onların şikayət və tələblərinə cavab verən tapılmırdı. Əksinə, 1950-ci ilin payızında Ermənistandan Azərbaycana yeni 2907 təsərrüfat və 12332 nəfər adam köçürülmüşdü. Bütün bunlara baxmayaraq, erməni millətçiləri, onların himayədarları SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarlarının icra olunması vəziyyətindən narazılıq edirdilər. Nəticədə onların təkidi ilə 28 fevral 1951-ci ildə SSRİ Nazirlər Soveti "1951-ci ildə köçürülmə planı haqqında" 605 saylı tam məxfi olan yeni qərar qəbul etməli olmuşdu. Qərarda köçürülmənin sürətləndirilməsi və qısa müddətdə başa çatdırılması tələbləri öz əksini tapmışdı.

Beləliklə, 1948-1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan 150 min nəfər azərbaycanlı öz doğma torpaqlarından zorla köçürüldü. Bu, mərkəzin və Ermənistan hökumətinin qeyri-insani fəaliyyətindən, qatı millətçilikdən, sovinist münasibətdən başqa bir şey deyildi. Bu, adi insan hüquqlarının kobudcasına pozulması, anti-demokratik hərəkət idi. Köçürülmə sonrakı illərdə də davam etdi. 1954-1956-cı illərdə 1316 təsərrüfat, 5876 nəfər azərbaycanlı Ermənistandan deportasiya olunmuş, etnik təmizləmənin növbəti mərhələsi keçirilmişdi. Onu da təəssüflə qeyd edək ki, deportasiya olunanların hər üç nəfərindən biri yeni şəraitə, isti və quru iqlimə, adi məişət təminatsızlığına dözə bilməyib, aclıq və xəstəlikdən ölürdü.

1948-1953-cü illərdə Stalin-Beriya-Mikoyan üçlüyünün məkrli, anti-Azərbaycan siyasəti və Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi nəticəsində Ermənistan SSR-də azərbaycanlıların sayı xeyli azaldı. Vaxtilə Vedi, Keşişkənd rayonlarının əhalisinin etnik tərkibinin 72 faizini azərbaycanlılar təşkil etdiyi halda, deportasiyadan sonra orada cəmi 15-17 faiz azərbaycanlı qalmışdı. Azərbaycanda isə əksinə, ermənilərin sayı artırdı.

Azərbaycanın əsas iri şəhərlərində Bakıda, Sumqayıtda, Gəncədə, Əli-Bayramlıda, Mingəçevirdə, Daşkəsəndə və s. şəhərlərdə ermənilərin sayının artması ilə yanaşı, erməni gizli təşkilatları da yaranırdı [1, s.6]. 80-ci illərin sonunda isə soydaşlarımız Ermənistan SSR-dən sonuncu nəfərinədək zorla qovuldu.

Beləliklə, get-gedə Ermənistan ərazisində azərbaycanlıların sayı azaldı. Nəhayət, ermənilər 1988-ci ildə Ermənistan-Azərbaycan münaqişəsinə başlayaraq, dərhal azərbaycanlıları Ermənistan ərazisindən tamamilə çıxartdılar. Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır, öz ədalətli tələblərini qəbul etdirmək gücündədir. Qərbi Azərbaycan İcması Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla, indiki Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin olunmasına çalışır. Qərbi Azərbaycan İcması tərəfindən 26 yanvar 2023-cü ildə Qayıdış Konsepsiyası qəbul edilmişdir [2]. Bu məqsədlə həm Ermənistan hökumətinə, həm də beynəlxalq təşkilatlara müraciətlər qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının katibliyi Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yaymışdır.

Bir halda ki, multikultural Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisi kompakt ərazidə yaşayır və Azərbaycan dövləti öz vətəndaşları kimi onların da hüquqlarının qorunmasına və sosial-mədəni inkişafına təminat verir, onda Ermənistan dövləti də öz tarixi-etnik torpaqlarından deportasiya edilmiş azərbaycanlıların kompakt şəkildə öz yer-yurdlarına qayıtmalarına və təhlükəsiz şəkildə yaşamalarına təminat verməlidir. Bu zaman tarix ədalətsizlik aradan qaldırıla, beynəlxalq humanitar hüquq öz təsdiqini tapa bilər.

ƏDƏBİYYAT

1. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2011, 288 s.
2. Qərbi Azərbaycan: tarixi-siyasi aspketlər (məqalələr toplusu). Bakı: Elm və təhsil, 360 s.
3. "Respublika" qəzeti. 17 mart, 2023, №56
4. Əliyev, İ. İnkişaf məqsədimizdir. 120-124-cü kitab, Bakı: Azərnəşr, 2022.

ABSTRACT

Samira MAMMADOVA, Kamala BABAYEVA

DEPORTATION OF WESTERN AZERBAIJANIS FROM THEIR HOMELANDS AFTER WORLD WAR II: CAUSES AND CONSEQUENCES

The purpose of the article is to study the deportation of West Azerbaijanis from their lands after World War II. During the Tehran conference held from November 28 to December 1, 1943, Armenians appealed to the USSR Foreign Minister V.Molotov and requested the transfer of Armenians living in Iran to the USSR. After V.Molotov received the consent of I. Stalin, Armenians living in Iran were allowed to be transferred to the Armenian SSR. On October 19, 1946, the Presidium of the Supreme Soviet of the USSR adopted a decision on the transfer of Armenians living in foreign countries to the territory of the Armenian SSR. However, Molotov's proposal was significantly changed after the Armenian leadership agreed with Stalin. It was decided that Armenians to be resettled should be resettled in Armenia, and Azerbaijanis living here should be resettled in Azerbaijan instead. Thus, with the guidance and blessing of the Center, the next stage of expulsion of Azerbaijanis from their ancestral lands in the territory of the Armenian SSR began. The implementation of the resettlement was formalized on December 23, 1947 by the decision of the Council of Ministers of the USSR No. 4083 "On the resettlement of collective farmers and other Azerbaijani population from the Armenian SSR to the Kur-Araz plain of the Azerbaijan SSR". Later, a concrete action plan was prepared, which was added to that decision, to speed up the implementation of this process. According to this decision, 100,000 Azerbaijanis, including 10,000 in 1948, 40,000 in 1949, and 50,000 in 1950, were to be relocated to Azerbaijan in 1948-1950 "based on the voluntary principle". The eleventh article of the decision stated that the Council of Ministers of the Armenian SSR should be allowed to use the buildings and residential houses vacated by them in connection with the resettlement of Azerbaijanis to house the Armenians who were transferred from foreign countries to the territory of the Armenian SSR.

Keywords: *World War the second, transfer, Western Azerbaijan, deportation*

RUSİYA ORDUSUNUN İRƏVAN XANLIĞINA ÜÇÜNCÜ YÜRÜŞÜ

Leyla ƏLİYEVA
leyla_848484@list.ru
ORCID iD: 0000-0002-8195-6092
Sumqayıt Dövlət Universiteti

XÜLASƏ

Müasir Azərbaycan milli tarixşünaslığında tədqiqinə böyük ehtiyac olan problemlərdən biri müvəqqəti olaraq itirilmiş torpaqların tarixinin öyrənilməsi məsələsidir. Bu problemlər içərisində qədim Azərbaycan şəhəri İrəvana çar Rusiyası qoşunlarının işğalçı yürüşləri, 1827-ci ildə işğaldan sonra burada aparılan müstəmləkə siyasəti nəticəsində şəhərin və onun yerləşdiyi regionun etnik mənzərəsinin dəyişdirilməsi, 1918-ci ildə bu şəhərin ermənilərə güzəştə gedilməsi, onun adının dəyişdirilməsi və bütöv azərbaycanlı əhalinin İrəvandan və bütün Ermənistan SSR ərazilərindən deportasiya olunması məsələləri xüsusi yer tutur. Sovet dövründə mövcud ideologiya ilə bağlı olaraq tarix elmində bəzi məsələlər təhrif olunmuş, obyektiv araşdırılmamış, bəzilərinin isə üzərindən sükutla keçilmişdir. Rusiyanın Qafqaza gəlişi ilə onun yerli xanlar üzərindəki təsiri getdikcə artmağa başlamışdı. Gəncənin süqutundan sonra Gürcüstandan şərqdə yerləşən bütün müsəlman xanları bir-birinin ardınca Rusiyanın təbəəliyinə keçməyə başlayır. XIX əsrin əvvəllərində rusların tarixi Azərbaycan torpağı olan İrəvan bölgəsinə dörd işğalçı yürüşü olmuşdur və qala müdafiəçiləri bu yürüşlərə qarşı uzunmüddətli müqavimət göstərmişdilər.

***Açar sözlər**: İrəvan, yürüş, Rusiya ordusu, işğalçı, dağıntı*

Giriş

1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini gördükdə, "erməni kartını" işə salmış və azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşması barədə göstəriş vermişdir. I Pyotrun xələflərinə ünvanlandığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarı ilə bolşevik repressiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etdi. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman verdi. 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərdi: "Ermənilərdən nəyin bahasına olursa-olsun, Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır" [1].

1776-cı ilin noyabrında çariça II Yekaterinanın ölümü rus qoşunlarının Zaqafqaziyadakı fəaliyyət planlarında da dəyişiklik yaratdı və İrəvan xanlığı üzərinə hücum təxirə salındı. Yeni çar I Pavelin göstərişi ilə rus qoşunları Zaqafqaziyadan geri çağrıldı.

Metodlar: Təhlil, tənqid və müqayisə metodlarından istifadə edilmişdir.

Əsas hissə

XVIII əsrin sonlarından Cənubi Qafqazda yaranmış siyasi vəziyyətdən, ayrı-ayrı feodal hakimliklər arasında gedən siyasi mübarizədən istifadə edərək özünün çoxdan planlaşdırdığı işğalçı niyyətlərini gerçəkləşdirməyə çalışan Rusiyanın bu istiqamətdə fəallaşması tarixşünaslığımızda ciddi tədqiqata ehtiyacı olan problemlərdəndir. Belə ki, Azərbaycanın qərb bölgəsinin tarixi İrəvan xanlığı ərazisinin, eləcə də buranın ən qədim, avtoxton əhalisi olan Azərbaycan türklərinin tarixi sovet tarixşünaslığında birtərəfli qaydada araşdırılmışdır. Çünki Ermənistan ərazisində azərbaycanlıların ulu əcdadları hələ eradan əvvəl VIII-VII əsrlərdə yaşayırdı. O zaman ermənilər hələ Kiçik Asiyada məskun idilər. Ermənilər indiki Ermənistan ərazisinə gəlmə olduqlarına görə erməni dilində Ermənistanda qədim toponimlər yoxdur. Halbuki qabaqkı əsrlər o yana dursun, hətta keçən əsrdə əhalisi bütünlüklə ermənilərdən ibarət olan kəndlərin və ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları bir sıra kəndlərin adları da azərbaycanca idi. Bu onu göstərir ki, ermənilər həmin kəndlərdə sonralar yaşamağa başlamışlar, çünki göstərilən kəndlərin ermənicə adları yox idi [5].

"İrəvan xanlığının ərazisi tarixən azərbaycanlıların doğma, baba yurdudur. Ermənilər nə qədər İrəvanı "Erebuni"yə döndərməyə, öz adlarına çıxmağa çalışsa da, tarixi faktlar həqiqəti deyir. Bu şəhəri 1504-cü ildə Rəvanqulu xan Şah İsmayılın təklifi ilə tikdirib. İrəvanın sonuncu hökmdarı da Hüseynqulu xan (1828) olub". 1683-cü ildə İrəvanda olmuş fransız səyyahı Jan Şardenin on cildliyinin birinci cildində göstərilir ki, İrəvan

qalasını kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Burada yaşayanlar yalnız türklərdir [4].

Müzakirələr

Erməni tarixçisi V.Parsamyan yazır: "Bu bir inkaredilməz faktdır ki, Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirildiyi dövrə kimi ermənilər bu ərazidə cəm halda yaşamamışlar".

1800-cü ilin əvvəllərindən etibarən çar Rusiyası Cənubi Qafqazla bağlı çoxdan bəri planlaşdırdığı ekspansionist siyasətinin reallaşdırılması üçün əməli fəaliyyətə keçməsi ilə bu diyarın hərbi cəhətdən istila yoluna qədəm qoyur. XIX əsrin əvvəllərində Şərqi Gürcüstanın Rusiya tərəfindən ilhaqı ilə tarixən İrəvan xanlığının ərazisi olmuş Pəmbəyin də çar Rusiyasının tabeçiliyinə keçməsi İrəvan xanının ciddi narahatlığına səbəb olur və o, rusların Pəmbəkdən qovulması məqsədilə hərəkətə başlayır. İrəvan xanının bu istiqamətdəki fəallığı Rusiyanın Qafqazdakı ordularının komandanlığının İrəvan xanlığına münasibətdə təcavüzkar siyasətinin daha da kəskinləşməsinə səbəb olur. İrəvan xanlığının üzərinə hücum üçün isə bəhanə lazım idi. Belə bir bəhanə İrəvan xanının guya ki, ermənilərin dini işlərinə qarışması erməni kilsəsinin patriarxlığına Davidi gətirməsi, Üçmüəzzin monastırının bütün əmlakını ələ keçirməsi hadisəsi olur. Rusiya ordusunun İrəvan xanlığına dörd yürüşü olmuşdu. Birinci və ikinci yürüş qəhrəman və rəşadətli qala müdafiəçilərinin rus hissələri üzərindəki parlaq qələbəsi idi.

1808-ci il yürüşündən sonra İrəvan qalasının Qacarlarla aparılan müharibədə hər iki tərəf üçün strateji mövqeyi daha da artdı. Bundan sonra irəvanlı Hüseynqulu xanın ruslar üzərinə həmlələrinin getdikcə daha da artması müşahidə olunur. Çünki o çox gözəl anlayırdı ki, bu müharibədə rusların qələbəsinin İrəvanın da taleyinə ciddi təsiri ola bilər [5].

Digər tərəfdən həmin dövr arxiv sənədlərinin verdiyi məlumatlardan Qafqazdakı rus komandanlığının ermənilərə himayə siyasətini artırması bəlli olur. Həmin vaxtı xüsusilə erməni ruhani rəhbərliyinin fəallaşması müşahidə olunur ki, arxiyepiskop Nersesin, İohannesin və digər erməni ruhanilərinin rus komandanlığına, qraf Qudoviçə məktublarında erməni ruhani idarəsinin yaradılmasını tələb etməyə başlamışdılar. Erməni ruhaniləri idarənin təşkili üçün müsəlmanlara məxsus, guya ki, boş qalmış əraziləri tələb edirdilər. Ermənilərin bu cür fəallaşması səbəbsiz olmayıb, himayədarlarının fitvası ilə idi ki, bu da nəyin bahasına olursa-olsun, İrəvan xanlığını işğal etmək məqsədini qarşısına qoymuş Rusiyanın bu xanlığa münasibətdəki siyasətinə təsir edir və bu siyasətin daha da təcavüzkar şəkil almasına səbəb olurdu.

Əsas hissə. 1810-cu ilin aprelində Qacar hökmdarı Fətəli şahın təklifiylə Qarabağda Rusiya ilə Qacar arasında sülh danışıqları başlandı. Danışıqlarda Rusiya tərəfi Naxçıvan və İrəvanı, Qacarlar isə Lənkəranı tələb edirdilər. Razılığa gələ bilməyən tərəflər danışıqların getdiyi Əsgəran qalasını əliboş tərk etməli oldular. Ona görə də sonrakı hadisələrin məhz bu bölgələrdə, o cümlədən İrəvan ətrafında baş verəcəyi şübhəsiz idi [8].

Vəziyyətin ciddiliyini nəzərə alan İrəvan xanı Hüseyn xanı 1810-cu ilin mayında Osmanlı dövlətinin şərq sərkərdəsinə göndərdiyi bir məktubunda ruslara qarşı bir ittifaqın təşkil olmasının vacibliyini ifadə edirdi. Hətta xan Ahısqa ətraflarına qədər gələn Rusiya ordusunun törətdiyi təhlükəni nəzərə alaraq, bu ittifaqın dərhal qurulmasını tələb edirdi.

1811-ci ildə Qafqazdakı rus ordularının komandanı general Tormasovun geri çağırılmasından sonra Qafqaz diyarının idarəçiliyində edilən dəyişikliyə görə Cənubi Qafqaz general-leytenant markiz F.O.Pauluççiyə, Astraxan quberniyası ilə birlikdə Qafqaz xəttinə kimi ərazilər general-leytenant N.F.Rtişşevə tabe edilir. Məhz Pauluççinin zamanında rusların İrəvan üzərinə növbəti, sayca üçüncü hücumu baş verir. Belə ki, Qacarların Qarabağ, Şəki və Şirvana hazırlanan irimiqyaslı hücumu və bunun üçün Muğana ordu hissələrinin cəmləməsi barədə xəbər alan rus komandanlığı bunun qarşısının alınması məqsədilə İrəvana yürüşə başlamaq qərarına gəlir. Pauluççinin hərbi nazirə məktubundan bəlli olur ki, rusları həmin vaxtı İrəvana yürüşə başlamağa vadar edən əsas səbəb bununla Qacarların diqqətini nəzərdə tutulan əyalətlərə hücumdan yayındırmaqla onları İrəvanın müdafiəsi ilə məşğul olmağa vadar etməklə bərabər, həm də həmin vaxtı İrəvanda Qacar ordularının sayının çox az olması idi [10].

Fikrimizcə, bu yürüşün əsas səbəblərindən biri də İrəvanın ruslar üçün daşıdığı strateji önəmi və Hüseynqulu xanın Qacarlarla müharibə zamanı xüsusi fəallığı və onun müxtəlif vaxtlarda ruslara vurduğu ağır zərbələrlə bağlı idi. Məhz markiz Pauluççinin imperiyanın hərbi nazirinə məktubunda da "çoxsaylı rus əsgərinin həyatını itirdiyi, avropalı mütəxəssislərin məsləhətləri əsasında möhkəmləndirilmiş İrəvan qalasının" xüsusi əhəmiyyəti qeyd olunurdu [11].

Nəticədə 1811-ci ilin oktyabrında İrəvana yürüş üçün general-mayor Lisaneviçin başçılığı altında İrəvan xanlığının sərhəddində mövqe tutmuş hissələrdən 2 batalyon, Pəmbəkdəki rus hissələrindən 2 batalyon və yerlərdən toplanmış 200 nəfərlik süvaridən ibarət qüvvə hazırlanır. Rus qoşunlarının İrəvana olan bu son dərəcə məxfi şəkildə hazırlanmış yürüşə başçılıq etmək general-mayor Lisaneviçə həvalə olunur. Ona verilən

əmrdə qəfil İrəvan xanlığına hərəkət etməklə qarşılarına çıxan kəndləri talamaq tapşırılmışdı. Bununla məqsəd qaladakı nizami hissələri oradan çıxmağa məcbur etmək və onlara düzən ərazidə döyüşdə zərbə vurmaq idi.

Lisaneviçin başçılığı altındakı hissələr 10 gün ərzində İrəvan xanlığının ərazisindəki dinc kəndləri talan etməklə məşğul olur. Abarana gəlib çatan rus hissələri ilə İrəvan qoşunu arasında Qarasu çayı sahilində baş vermiş döyüşdən sonra irəvanlılar qalaya çəkilməyə məcbur olur. Rus hissələrinin bu talançılığından əhalinin bir hissəsi Arazın o tayına keçir, bir hissəsi də Naxçıvandan Abbas Mirzənin ruslara qarşı hərəkət edənə kimi möhkəmləndirilmiş yerlərdə daldalanmaq məcburiyyətində qalır.

İrəvana yürüşə başlamış Lisaneviçdən uzun müddət xəbər ala bilməyən general-leytenant markiz F.O.Pauluççi şəxsi yaveri Qusar alayının poruçiki, knyaz Çavçavadzeni İrəvan əyalətinə göndərir. O, Lisaneviçə göndərdiyi 27 oktyabr 1811-ci il tarixli göstərişdə bir tərəfdən irəvanlılara "yadda qalacaq dərs vermək", onlardan bacardıqca çox ailə əsir almaq, 4 min baş iribuynuzlu mal-qara ələ keçirmək, əhali arasında talanlar edərək irəvanlılardan pul təzminatı almaq tələb olunur, digər tərəfdən də İrəvan qalasında rus qarnizonunun yerləşdirilməsi şərtilə Hüseynqulu xanın bütün hüquqları və gəlirinin saxlanılması şərti ilə Rusiya təbəəliyinə keçməyə razı salmaq əmr olunurdu. Bu barədə Pauluççi yazırdı: "...İmkan daxilində daha çox dağıntı törətməklə əhali arasında dəhşətli qorxu yaratmağa cəhd edin ki, bu irəvanlıların yaddaşında uzun müddət qalsın... Mümkün olduqca çox ailə əsir götürmək və səyyar ərzaq anbarı yaratmaq üçün lazım olan heç olmasa 4 min mal-qara ələ keçirməyə çalışın. Bundan başqa, irəvanlılardan pul təzminatı almağı yaddan çıxartmayın" [14].

Markiz Pauluççi həmin ilin noyabrın 3-də yazdığı məktubunda da Lisaneviçdən nəyin bahasına olursa-olsun, hətta İrəvan əyalətinin yerlə yeksan ediləcəyi kimi hədə qorxularla da olsa, Hüseynqulu xanı Rusiya himayəsinə girməyə razı salmağa çalışmaq göstərişini verir və "imperatora göstərəcəyi bu xidmətin müqabilində layiqincə mükafatlandırılacağını" bildirirdi. Baş komandanın bu ciddi cəhdləri onların İrəvanın tutulmasında necə israrlı olmasından xəbər verirdi.

Rusların bu yürüşü zamanı şah qoşunlarının yaxınlaşmasını gözləyən Hüseynqulu xan onlara qarşı hərəkət etməyərək bir növ gözləmə mövqeyi tutmuşdu. Buna görə də o, vaxt qazanmaq və xanlığı rus qoşunlarının qarətindən xilas etmək üçün general-mayor Lisaneviçin yanına sülh xahişi ilə nümayəndəsini göndərmişdi. Lakin onun bu təklifinə ruslar əvvəlki təcrübədən çıxış edərək ehtiyatlı yanaşmışdılar. Çünki rus komandanlığı bu addımın da yaranmış vəziyyətdə İrəvan xanının vaxt qazanmaq məqsədilə atdığı addım olduğu qənaətində idi.

1813-cü ilin martında polkovnik Pestel İrəvan qalasına yeni hərbi qüvvə ilə yürüş etdi. Baş komandanın bu yürüşlərdəki "şücaətinə" görə Pesteli ikinci dərəcəli "Anna" ordeninə təqdim edildi [8].

Əvvəlki yürüş zamanı olduğu kimi, bu dəfə də irəvanlıların güclü müqaviməti ilə qarşılaşan rus qoşunları qışın yaxınlaşması, qarın yağacağı təqdirdə yollarda hərəkətin çətinləşəcəyi bəhanəsi ilə yürüşü yarımçıq qoyub geri qayıtmağa məcbur olur. Rus mənbələrinin verdiyi məlumata görə, bu yürüş zamanı İrəvan qoşunundan xeyli adam ölmüş və 17 nəfər isə əsir götürülmüşdü. Rus hissələrinin İrəvan əyalətindəki 10 günlük talanları nəticəsində yerli əhalinin minə qədər iri və xırda buynuzlu mal-qarası qarət olunmuşdu. Bundan əlavə, rus qoşunu tərəfindən kəndlilərdən çoxlu pambıq parça, duz, düyü və digər şeylər də qarət olunmuşdu. Rus mənbələrində yürüş zamanı rus hissələrinin də itki verdiyi göstəilir [10].

Beləliklə, nəticə olaraq qeyd etmək lazımdır ki, rusların birinci yürüşündən sonra keçən müddətdə İrəvan xanlığında hakimiyyət dəyişikliyinin baş verməsinə baxmayaraq, bu, xanlığın qonşuları ilə münasibətləri, onun öz müstəqilliyini nəyin bahasına olursa-olsun istər Qacarlardan, istərsə də ruslardan qorumaq məsələlərində sələfinin siyasətinə sadiq qaldığını göstərdi. Eyni zamanda rusların İrəvana 1808-ci ildə olmuş ikinci və 1811-ci ildə olmuş üçüncü yürüşlərinin də nəticəsiz bitməsi keçən müddətdə xanlığın müdaxilənin qarşısını almağa ciddi şəkildə hazırlaşdığını əyani şəkildə təsdiqləyir. Bu dəfəki məğlubiyyətin acısı müəyyən qədər sarsıdıcı olur.

İranla müharibə vəziyyətində olan Rusiya üçün, eyni zamanda Osmanlı Türkiyəsi ilə savaşmaq çox ağır idi. Odur ki, Rusiya hökuməti ilk növbədə İranla saziş bağlamağı qərara aldı. Danışıqların Əsgəran qalasında aparılması müəyyən edildi. Danışıqlarda Rusiya tərəfindən Tormosov, İran tərəfindən şahzadə Abbas Mirzənin vəziri Mirzə Bozorq iştirak etdilər. Bir neçə gün davam edən danışıqlar heç bir nəticə vermir [6].

Nəticə

Nəticədə 1813-cü il sentyabrın 27-də Qarabağda – Zeyvə çayı sahilindəki Gülüstan kəndində rus dövləti ilə şahın nümayəndəsi arasında sülh danışıqları başladı. Qacarları Mirzə Əbülhəsən Şirazi, rus tərəfini isə Rusiyanın Qafqazdakı baş komandanı Nikolay Rtişşev təmsil edirdi. Nəhayət, oktyabrın 12-də (yeni üslubla 23-də) 11 maddəlik sülh müqaviləsi bağlandı. İran heç bir hüquqi əsasa malik olmadığı halda Azərbaycanın Arazdan şimaldakı müstəqil xanlıqlarının (İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla) ərazilərini Rusiyaya

güzəştə getdi. Beləliklə, Azərbaycan xalqının iradəsi nəzərə alınmadan və razılığı olmadan onun torpaqları iki işğalçı imperiya arasında bölüşdürüldü. Bu, Azərbaycan torpaqlarının Qacarlar İranı ilə Rusiya arasında birinci dəfə bölüşdürülməsi idi. Gülüstan müqaviləsi zamanı Rusiyanın İrəvan və Naxçıvan xanlıqlarını ələ keçirə bilməməsinin əsas səbəbi bu xanlıqların yerli əhalisi olan Azərbaycan vətənpərvərlərinin işğalçılara qarşı apardığı qəhrəmanlıq mübarizəsi idi [8].

Nəticədə rusların toparlanması və İrəvana növbəti yürüş üçün onlara düz 17 ilə yaxın zaman lazım olur.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 3 cilddə, II c., Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1961.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), fond 24, siyahı 1, iş 53.
3. ARDTA, fond 73, siyahı 1, iş 5.
4. Ələkbərli, Ə. Qədim Türk-Oğuz yurdu- "Ermənistan". Bakı: Sabah, 1994.
5. Leyla, Ə. İrəvanın xarici işğalçılara qarşı mübarizə tarixindən (XIX yüzilliyin ilk sülhü) Bakı: 2024.
6. Əliyev, F., Həsənov, U. İrəvan xanlığı. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007, s. 131.
7. Həsənov, H. XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən. Bakı: 2023.
8. Mahmudov, Y. İrəvan xanlığı - Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, 2010.
9. Акты собранные Кавказской Археографической Комиссией (АКАК). Т.V, Тифлис: Типография Главного Управление Наместника, 1873, 1187 с.
10. Отношение маркиза Паулуччи к военному министру, 7 ноября 1811 года, АКАК, т. V, Тифлис: 1873, док. 172, с. 121-12.
11. Отношение маркиза Паулуччи к военному министру, от 30 декабря 1811 года, АКАК, т. V, Тифлис: 1873, док. 173, с. 122-12.
12. Писъмо ген. Тормасова к Петру Степановичу Котляревскому, от 24 мая 1811 года, АКАК, т. IV, Тифлис: 1870, док. 170, с. 12.
13. Предписание маркиза Паулуччи ген-л. Лисаневичу, от 3 ноября 1811 года, АКАК, т. V, Тифлис: 1869, док. 171, с. 120-121.
14. https://iravan.preslib.az/irevan_qalasi.html

ABSTRACT

Leyla ALİYEVA

THE THIRD CAMPAIGN OF THE RUSSIAN ARMY TO THE KHANATE OF IRAVAN

One of the problems that needs to be studied in modern Azerbaijani national historiography is the issue of studying the history of temporarily lost historical lands. Among these problems are the invasion marches of the troops of Tsarist Russia to the ancient Azerbaijani city of Iravan, the changing of the ethnic landscape of the city and the region in which it is located as a result of the colonial policy conducted here after the occupation in 1827, the concession of this city to the Armenians in 1918, the changing of its name and the entire Azerbaijani population. Issues of deportation from Iravan and all territories of the Armenian SSR occupy a special place. In connection with the existing ideology in the Soviet era, some issues in the science of history were distorted, not objectively investigated, and some were passed over in silence. With the arrival of Russia in the Caucasus, its influence on the local khans began to increase. After the fall of Ganja, all the Muslim khans located east of Georgia began to become subjects of Russia one after another. At the beginning of the 19th century, there were four invasion marches of the Russians into the Iravan region, the historical land of Azerbaijan, and the fortress defenders resisted these marches for a long time.

Keywords: *Iravan, to march, Russian army, invader, destruction*

QƏRBİ AZƏRBAYCAN ARXEOLOGİYASI: QƏBİR ABİDƏLƏRİ MƏNƏVİ SƏRVƏTİMİZ KİMİ

Hicran MAHMUDOVA
hicranmahmudova@mail.ru
hicranmahmudova@bsu.edu.az
ORCID iD: 0000-0003-0959-8419
Bakı Dövlət Universiteti

XÜLASƏ

Arxeoloji abidələr vaxtilə onu yaradan insanların, toplumun pasportu, kimliyinin mühüm göstəricisidir. Məlumdur ki, mədəni-mənəvi irsin ən yaxşı saxlanc yeri məhz torpaqdır, qədim qəbirlərdir. Minilliklər ərzində artefaktların dəyişilməz qalmasına imkan verən və qapalı kompleks hesab olunan qəbir abidələri Qərbi Azərbaycanın da tarixi keçmişini dəqiq araşdırmağa, faktları üzə çıxarmağa imkan verən arxeoloji abidələrdəndir. Həm abidələrin quruluşu, həm də tapılan maddi mədəniyyət nümunələri xalqımızın tarixən yaşadığı bütün ərazilərdə zəngin irsimizin bariz göstəricisi kimi eyni xüsusiyyətli olmuşdur. Qərbi Azərbaycanın bütün mahallarında torpaq və daş qutu qəbirlər, müxtəlif meqalitlər, kurqanlar arxeoloji tədqiqata cəlb olunmuşdur. Sovetlər dövründə bu bölgədə əsas qazıntılar ermənilər tərəfindən həyata keçirildiyindən, əldə olunan materialların mexaniki təsviri verilmiş, ən yaxşı halda xronologiyası müəyyənləşdirilmişdir. Artefaktların tam analizi, əldə olunan insan qalıqlarının antropoloji tədqiqi isə onların və hakim ideoloji aparatın mənafeyinə uyğun olmadığı üçün diqqətdən kənarda saxlanılmışdır. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında mənəvi irsimizə sahib çıxılmanın vacibliyi bölgə arxeologiyasının hərtərəfli öyrənilməsini aktual edir. Məhz arxeoloji materiallar danılmaz fakt olub, qədim türklərin ənənələrinin bu günümüzə qədər gəlib çatan varisliyini, bununla da qərb torpaqlarımızın tarixən mövcud olduğumuz coğrafiyaya daxil olduğunu göstərə bilir.

***Açar sözlər**: Qərbi Azərbaycan, arxeologiya, qazıntı, abidə, qəbir, artefakt*

Giriş

Bildiyimiz kimi, II Dünya müharibəsinin bitməsindən bir qədər sonra Azərbaycan ərazilərinə erməni iddiaları güclənmiş, hətta bunu rəsmiləşdirmək məqsədilə xüsusi tədbirlər hazırlamışdılar. 1945-ci ilin dekabrında Ermənistan SSR KP MK I katibi Q.Arutinovun məktununa cavab olaraq, M.C.Bağırovun "Əzizbəyov, Vedi və Qarabağların" Azərbaycana qaytarılması tələbindən sonra ermənilər təkcə deportasiya ilə kifayətlənməyib, tarixi köklərimizi sübut edə biləcək abidələrə müdaxilələr etməyə başladılar. Odur ki, XX əsrin 50-ci illərindən bütün Qərbi Azərbaycan istiqamətində qeydə alınan arxeoloji abidələrdə qazıntılara start verilmişdi. Bölgədə intensiv qazıntılar başlanmış, iri nekropollar tədqiq olunmuşdur. Burada e.ə. III-I minillikləri əhatə edən qəbirlərdən müasir Azərbaycan coğrafiyasında aşkar olunan materiallarla oxşarlıq təşkil edən nümunələr qeydə alınsa da, onlar elmi dövriyyədə işıqlandırılmamışdı.

Əsas mətn

1951-1952-ci ildə Ermənistan SSR-də Tarix Muzeyinin təşkil etdiyi arxeoloji ekspedisiya təkcə e.ə X-VIII əsrlərə aid 4 qəbir, e.ə VI-V əsrlərə aid 14 qəbir açmış [8, s.186], 1956-cı ildə I Argiştinin abidəsinin təxminən 400 m. yaxınlığında kurqan və kromlexlərdən ibarət antik nekropol aşkar edilmişdir. Ekspedisiya tərəfindən məzarlığın cənubunda 14 kromlex, 3 kiçik kurqan və 2 böyük kurqan qazılmışdır [9, s.146]. Təkcə Ördəklidə tunc dövrünə aid 454 qəbir öyrənilmişdi. P.V.Çarkovski Göyçə gölünün cənubunda Zolakar kəndi yaxınlığındakı dördü torpaq qəbir olmaqla, iyirmi iki qəbir abidəsi qazmışdır. M.Zaxaryants arxeoloji qazıntılar zamanı 17 qəbir qazmışdır və həmin qəbirləri 2 tipə ayırmışdır: daş plitələrlə örtülü qəbirlər və torpaq qəbirlər (3, 4, 9 və 15 saylı qəbirlər) [5, s.142]. Tsamakaberd kəndi yaxınlığında, Göyçə gölünün qurudulmuş zolağında 1952 və 1954-cü illərdə A.O. Mnatsakanyan 30 qəbir qazmışdır [7, s.109].

Qeyd etmək lazımdır ki, həmin dövrdə Elmlər Akademiyasının xətti ilə yaşayış yerləri və qəbir abidələri ermənilərin mənafeyinə müvafiq "öyrənildi": startiqrafik ardıcıllıq məqsədli şəkildə dağıdıldı, eyni zamanda əhalisi deportasiya olunmuş yerlərdən tapılan insan qalıqları antropoloji cəhətdən öyrənilmədi, onlar Azərbaycan türklərinin kranioloji, morfoloji xüsusiyyətlərini daşıdığından, tədqiqatların heç birinin nəticələri hesabat

şəklində dərc olunub ictimailəşmədi. XX əsrin 80-ci illərində Ördəklidən tunc dövrünə aid tapılan kromlexdən 3 insan skeleti (biri qadın, ikisi uşaq) ilə yanaşı, çoxsaylı qəbir avadanlığı, metal alətlər, saxsı qalıqları aşkar olunmuşdu. Bütün artefaktlar, o cümlədən insan qalıqları Metsamor muzeyinə aparılsa da, yaşlı qadına məxsus qalıqların sonradan itdiyi bildirilmişdi. Uşaq sümükləri isə genetik analizinin bölgənin tunc dövrünün digər insanları ilə eyni populyasiyadan olduqları bildirilmişdi. Maraqlı burasıdır ki, avadanlıqlardan saxsı məmulatlarının salamat qaldığı qəbirlərdə insan skeletlərinin yaxşı vəziyyətdə olmaması və ya heç rast gəlinməməsi göstərilirdi və bu demək olar ki, bütün məlumatlarda təkrarlanırdı. Məsələn, Təzəkənd ərazisində aşkar edilən düzbucaqlı formalı torpaq qəbirlərin skeletlərinin yaxşı qorunmadığını əsaslandırmaq üçün bildirilmişdir ki, daş plitələrin zaman keçdikcə skeletin üzərinə düşmüş və skelet əzilmişdir. Haqlı olaraq hesab edirik ki, qazıntılar zamanı məqsədli şəkildə skelet yararsız hala salınmışdır, çünki braxikefal hay (erməni) kəlləsi ilə dolixokefal azərbaycanlı arasında fərq aydın görünürmüş. 1955-də A.O.Mnatsakanyan tərəfindən qazılan Ördəkli qəbirlərinin birində çoxlu sayda qəbir avadanlıqlarına rast gəlinmişdir. Verilən məlumata əsasən, aşkar olunmuş nümunələr içərisində 22 gil qab, dağılmış vəziyyətdə bir qoç skeleti tapılsa da, insana aid skeletə rast gəlinməmişdir [7, s.108]. Eyni zamanda bəzi qəbirlərdə skelet olduğu sadəcə mexaniki şəkildə vurğulanır, digər tapıntıların fonunda əlavə təsvir verilmirdi. Məsələn, Basarkeçər istiqamətində aşkar olunan qəbirlərdə dəfn olunmuş insan haqda məlumat verilərkən, onun dəfn prosesi zamanı hansı böyrü üstə qoyulması, əl və ayaqlarının qatlanmış olması, oturmuş və ya uzadılmış vəziyyətdə dəfn olunması haqda məlumatla kifayətlənilmişdi. Təzəkənd nekropolunda orta tunc dövrünə aid 1 saylı kurqan qəbirindən qadın skeletinin tapıldığı bildirilsə də, diqqət onun yanına qoyulmuş qara şirli qabın təsvirinə yönəldilməklə, əsas hədəfdən diqqət yayındırılmışdır. 2 saylı kurqanda isə biri uşaq olmaqla on iki nəfərin qalıqları aşkar olunsa da, müəllif onların yerləşməsinin təsviri ilə kifayətlənmişdir [9, s.151]. Belə kollektiv dəfn Qarabağ kurqanlarında da qeydə alınmışdır [11, s.65].

Burada 2, 13, 14, 24 saylı kurqanlarda qayda üzrə skeletin yaxşı mühafizə olunmadığı bildirilir [5, s.140-142]. Ördəklidə diametri 18 m., hündürlüyü 1 m. olan tayfa başçısına aid zəngin kurqanda insan kəlləsinə təsadüf olunsa da diqqət qəbir avadanlıqlarına, dəfn arabasına yönəldilmişdir [9, s.151]. Göyçə gölünün cənub-qərb sahilində Adıyaman kəndi yaxınlığındakı kurqanda dəfn arabası ilə yanaşı, tayfa başçısını müşayiət edəcək 13 skelet qeydə alınmşıdır. Belə kollektiv dəfn Qarabağ kurqanlarında da müşahidə olunmuşdur [11, s.59]. Qərbi Azərbaycan ərazisində, xüsusilə Ördəkli kurqanlarında aparılan arxeoloji qazıntılar zamanı çox sayda dördtəkərli və iki təkərli arabalar aşkar edilmişdir. Onlardan bir qayda olaraq, cənazə arabası kimi istifadə olunmuşdur [9, s.148]. Qeyd edə bilərik ki, qədim istik tayfaları da öz tayfa başçılarını dəfn öncəsi xüsusi arabada tabe tayfaların ərazisindən keçirərək, sonra dəfn edirdilər.

Nəinki qəbirlərin quruluşu, eyni zamanda əsas avadanlıqlar da Azərbaycanın digər bölgələrindən seçilmirdi. Ördəkli kurqanlarından kobud şəkildə naxışlanmış darboğaz, aşağı hissədən genişlənən gövdəyə sahib olan kiçik küplər və üzəri nöqtəli şəkildə (həndəsi təsvirlərlə) bəzədilmiş iri küplər A.A.İvanovski tərəfindən Göyçə gölünün hövzəsində Qəzəldərə kəndinin 74 və 76 saylı qəbirlərində, eləcə də Gədəbəy, Qara Bulaq və Qalakənd kəndlərində 30-dan çox qəbirdə və s. yerlərdə aşkar edilmişdir [7, 109-111]. Qabların analoqlarına Gəncəçay, Şəmkir və s. ərazilərdə çox rast gəlinmişdir [4, s.11-13]. Əyrivəng ərazisində yerləşən ikinci qəbirdən əldə olunan qara boyalı vaza parçalarına Qərbi Azərbaycanın müxtəlif komplekslərində rast gəlinir. Bu tip vazalar son tunc və erkən dəmir dövrünə aid edilir [12, s.99-101].

Göyçə mahalı xammal mənbəyi ilə zəngin olduğundan, metaldan müxtəlif formalı xəncərlər, qılınclar, zoomorf fiqurlar, muncuqlar, düymələr hazırlaya bilirdilər. Arxeoloji qazıntılar zamanı ox və nizə ucluqları, qılınclar, xəncərlər və xəncər qınları da əldə olunmuşdur. Qərbi Azərbaycanda və Cənubi Qafqazda yayılmış qılınc tipi ədəbiyyatlarda "Transqafqaz tipi" qılınc kimi tanınır.

Ördəkli ərazisindən tapılan xəncər nümunələri II Kültəpə yaşayış yerinin XI qatından əldə edilən tiyəsi yarpaqşəkilli, qısa və yastı xəncər parçası ilə eyniyyət təşkil edir [2, 111]. Karmir-berd xəncərlərinə bənzər xəncərlər Gədəbəy rayonunda yerləşən Cənnət qalası 45 saylı daş qutu qəbirindən tapılmışdır. Xəncərin yuxarı hissəsi yarımşar formalı olub, başlığın ətrafları üçbucaqlarla şəbəkə edilmişdir. Xəncər tipləri Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir [1, s.49]. Xocalı-Gədəbəy mədəniyyətinə aid xəncərlərin böyük bir hissəsi Göyçə mahalı ərazisindən tapılan xəncərlərlə eyniyyət təşkil edir. Qərbi Azərbaycan abidələri üçün xarakterik olan silah növlərindən biri də təbərzin baltalardır. 1 saylı Ördəkli kurqanında arabanın ön hissəsində qoyulmuş mis qazanın içərisində Cənubi Qafqaz tipli təbərzin balta və kəsici alət tapılmışdır [9, s.148].

Ərazisində aparılan arxeoloji qazıntılar zamanı qəbirlərdən çox sayda bəzək əşyaları tapılmışdır. Onlar baş, boyun, əl və qol bəzəklərindən ibarətdir. Əldə olunan baş bəzəklərinə saç boruları, gicgah halqası, sırğalar, diademalar, muncuqlar, bilərziklər, üzüklər və s. aiddir. Tsamakaberddə 3 saylı kurqanda skeletin yanında iki saç bəzəyi kimi istifadə olunan tunc boru tapılmışdır [6, s.196].

Saç borusu bir-birindən ancaq ölçülərinə görə fərqlənir, onların uzunluğu 2,5x12, diametri isə 1-2 sm-dir.

Bəzən qəbirlərdə bir neçə ədəd saç borularına təsadüf olunur. Azərbaycanda Mingəçevirin 107 saylı torpaq qəbirlərindən 8 ədəd, Çovdar yaxınlığındakı daş qutu qəbirdən 7 ədəd saç borusu əldə edilmişdir. Saç boruları tunc lövhələrdən kəsilərək boru şəklinə salınmışdır [1, s.30].

5 saylı qəbirdə insana aid kəllə sümüyünün altında, sol qulağının yaxınlığında uzun, dalğalı, ucları bükülmüş bir ədəd gicgah halqası tapılmışdır. Halqanın üzərində aşılanmış parçalar vardır [8, 196]. Naxçıvanın Plovdağ abidələrində Xocalı-Gədəbəy mədəniyyətinin son mərhələsinə aid olan irihəcmli, ortasında ilana bənzər bəzəyi olan asma-sırğalar tapılmışdır. Bu bəzəklər tapılan gicgah halqası ilə yaxın analogiya təşkil edir [3, s. 91].

Basarkeçər qəbirlərində qırxa yaxın üzük və bilərzik tapılmışdır, onların çoxu incə tunc məftildən hazırlanmışdır. Onların arasında tökmə və burma üsulu ilə hazırlanmış bilərziklərə də rast gəlinir. Bilərziklərin bəzilərinin üzərinə bəzək tətbiq edilmişdir. Bu tip bilərziklərə Azərbaycanın Gədəbəyin 10 saylı, Qalakəndin 12 saylı və Cənnət qalasının 60 saylı daş qutu qəbirlərində rast gəlinir [1, s. 22].

1 saylı Ördəkli kurqanında araba təkərinin üzərində bir ədəd qaşıqvarı asma aşkar edilmişdir [9,148]. Qaşıqvarı asmalar Azərbaycanın Çovdar, Xaçbulaq abidələri üçün xarakerikdir [4,28]. Belə quş fiqurlu asmalar Ördəkli kurqanından tapılan quş fiqurlu asmalarla yaxın analogiya təşkil edir. Cənnət qalası kurqanının (3 və 20 saylı) daş qutu qəbirlərində, Yelenin kəndində və Mingəçevirdə quş fiqurlarından ibarət tunc asmalara rast gəlinir [1, s. 21].

Qərbi Azərbaycanda kurqan tipli qəbirlərlə yanaşı, çoxsaylı meqalitik abidələr də qeydə alınmışdır. Dünya xalqlarının mədəni irsində meqalitlər mövcud olsa da, türklərə məxsus abidələr özünəməxsusluğu ilə seçilir və qəbul olunur. Təbii ki, ermənilər onları da özününküləşdirməyə cəhdlər ediblər. Məlumdur ki, meqalitik abidələrdən olan kromlexlər, menhirlər iri qaya parçalarından hazırlanırdı və onların diqqəti daha çox cəlb edə biləcəyindən ehtiyat edərək, hələ XX əsrin ortalarından "əjdaha daşları" adı altında onları "tədqiq" edib, əldə olunan materialları Metsamor tarixi-arxeoloji qoruq muzeyinə göndərirdilər. Antropomorf menhirlər olan daş balballar əsasən dağlıq, dağətəyi bölgələrimizdə, xüsusən Qarabağ, Gədəbəy, eyni zamanda Qərbi Azərbaycan ərazisində də qeydə alınmışdır. Qərbi Azərbaycanda Ələyəz dağı yaylaqları ilə Göyçə gölü həvzəsində balıq formasında uzunluğu təxminən 3-5 metr olan onlarla menhir tapılmışdır. e.ə. II minilin sonlarına aid edilən abidələrin Kür-Araz mədəniyyəti ilə bağlı olduğu bildirilir. Sibir-Altay istiqamətində iskitlərdə "maral daşı" adlandırılan menhirlər, Urmu nəzəriyyəsinə görə, buradan şimali Qafqaza və Monqolustana miqrasiya edən prototürk boyları tərəfindən yayılmışıdr. Menhir-daşbalıq ənənəsinin türklərə məxsusluğu şübhə doğurmur, onlar sonradan bölgəyə gəldiklərindən, bu irsi başa düşmür, böyük daşlardan yonulmuş bu abidələri "əjdaha" anlamında farsların "vişap" sözü ilə "vişapakar (draqon stone)" adlandırsalar da, ilk vaxtlar hətta yerli insanların, rəhbərlərin başdaşısı hesab etdiklərindən, onu "oğuz basırığı" (oğuz qəbri) adlandırmışdılar.

Bundan başqa, Qərbi Azərbaycanda indiki Ermənistanın cənubunda, Sisyan şəhərindən 3 km şimalda, dəniz səviyyəsindən 1770 metr yüksəklikdə dağ yaylasında 10 ha. sahədə yerləşmiş Dik-dik karer (Azərbaycan türkcəsində: dik daşlar) - Zorats-Karer (daş ordu) və ya Qarahunç (oxuyan daşlar) yerləşən qədim meqalit kompleksi də xüsusi diqqət mərkəzindədir. E.ə. VIII minilliyə aid edilən kromlexi əmələ gətirən daşların hündürlüyü 2,8 metr, ağırlığı 5,5 tondur [13]. XX əsrin 90-cı illərinin sonlarından məşhur Stounheçlə bənzərlik üçün Qarahunç adı verilmişdir. Şərti olaraq Qarahunc bir neçə: mərkəzi ellips, iki qol, şimal və cənub, şimal-şərq xiyabanı, mərkəzi ellipsi keçən daş silsiləsi və ayrıca duran daşlardan ibarət hissəyə bölünür. İndiyə qədər onun təyinatı ilə bağlı mübahisələr var.

Müasir fikirlərdən biri abidənin nəhəng qəbir olması, burada hərçilərin dəfn olunması ilə bağlıdır. Bunu daxili dairənin ortasındakı daş qutu təsdiq edir. Başqa bir fikrə görə, daşlar mal-qara üçün nəzərdə tutlmuşdu. 1984-cü ildə Elma Parsamyan abidənin rəsədxana olması fikrini irəli sürmüşdü. 2010-cu ilin sentyabrında Oksford Universiteti Böyük Britaniya Kral Coğrafiya Cəmiyyəti ilə birlikdə Qarahunçda tədqiqat aparıb. Ekspedisiyanın rəhbəri Mihran Vardanyan bildirmişdir ki, Qarahunç dünyanın ən qədim rəsədxanalarından biridir, sadəcə bu müəllif bir erməni xislətinə müvafiq olaraq, həmin ərazinin tarixi Azərbaycan torpaqları olduğunu deməmişdir [13]. Digər meqalitlərdə olduğu kimi, buradakı bəzi daşları elektromaqnit sahəsinə malikdir. Hesablamalara görə, hər il meqaliti təşkil edən nəhəng daşlar sanki yer oxunun yerdəyişməsi istiqamətində qərbə doğru 2-3 millimetr hərəkət edir. 2014-cü ildə abidədə yenidən tədqiqat işləri aparılmışdır. Bu gün menhirlərin bir qismi Dövlət Diyarşünaslıq Muzeyinə və Ermənistanın "Sərdarapat" Milli Azadlıq Hərəkatına, eləcə də İrəvanın bəzi parklarına köçürülüb [13]. Təbii ki, onların pərakəndə yerləşdirilməsi də sistemin pozulmasına, hər hansı araşdırma aparılacağı təqdirdə əldə oluna biləcək informasiya boşluğunun yaradılmasına xidmət edir.

Nəticə

Göründüyü kimi, çox qısa məlumatla, hətta cüzi müqayisələrlə, Qərbi Azərbaycanın arxeoloji

abidələrinin müasir Azərbaycan Respublikası abidələrindən fərqlənmədiyi, artefaktların eyniliyi aydın görünür. Bu isə bir daha təsdiq edir ki, böyük coğrafiyada tarixi Azərbaycan ərazilərində eyni etnik kökə malik tayfalar yaşamış, öz mədəni nümunələri də varislik prinsipi üzrə sonrakı nəsillərə ötürərərək, qədim türklərin zəngin mənəvi dünyasını yaşatmağa nail olmuşdular.

ƏDƏBİYYAT

1. Avşarova, İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə XIV-VII əsrlər), Bakı: Nurlan, 2007, 192 s.
2. Baxşəliyev, V. Azərbaycan arxeologiyası. I cild, Bakı: 2006, 238 s.
3. İbrahimli, B., Əliyev, E. Son Tuncdan Erkən Dəmirə keçid dövrünün kurqanları haqqında (Plovdağ nekrapollarının materialları əsasında). Azərbaycan arxeologiyası, № 1, 2021, 87-100 s.
4. Гусейнова, М.А., Алиев, И.Н. Отчет о полевых исследованиях Шамхорского отряда Гянджа-Казахской экспедиции в 1989 году, 1-17 с.
5. Кушнарева, К.Х. Тазакендский могильник в Армении. Советская Археология. №1. 1960. 137-145 с.
6. Мартиросян, А.А. Армении в епоху бронзы и раннего железа. Ереван: 1964, 312 с.
7. Мнацаканян Арутюн. О двухцетной керамике Лчашена. Известия Академия Наук Армянской ССР № 5, 1957, 107-116 с.
8. Мнацаканян, А.О. Археологические раскопки на осушенной территории озера Севан. Советская Археология, XXIII, 1955, 186-200 с.
9. Мнацаканян, А.О. Раскопки курганов на побережье оз. Севан в 1956 г. Советская Археология, №2. 1957. 146-153 с.
10. Мнацаканян, А.О. Древние повозки из курганов бронзового века на побережьеоз. Севан. Советская Археология №2. 1960. 139-152 с.
11. Пиотровский б.б. Археология закавказья с древнейших времен до i тысячелетия дон.э. Ленинград, 1949, 136 с.
12. Хачатрян, Т. Раскорки в Айриванке. Известия Академия Наук Армянской ССР. № 12. 1957. 193-101 с.
13. Мегалитический комплекс Зорац Карер/ barevarmenia.ru › things_to_do › zorac-karer

ABSTRACT

Hicran MAHMUDOVA

RCHAEOLOGY OF WESTERN AZERBAIJAN: GRAVE MONUMENTS AS OUR SPIRITUAL HERITAGE

Archaeological monuments are a kind of passport of the people and societies who once created them, serving as an important indicator of their identity. It is well known that the best repository of cultural and spiritual heritage is the soil itself, particularly ancient graves. Grave monuments, considered closed complexes that allow artifacts to remain unchanged for millennia, are among the archaeological sites that enable an accurate study of the historical past of Western Azerbaijan and the uncovering of facts.

Both the structure of these monuments and the material cultural samples discovered demonstrate similar characteristics across all territories historically inhabited by our people, serving as clear indicators of our rich heritage. In all regions of Western Azerbaijan, earth graves, stone cist graves, various megaliths, and kurgans have been involved in archaeological research.

During the Soviet period, since most excavations in this region were carried out by Armenians, the obtained materials were described mechanically and, at best, their chronology was determined. A full analysis of artifacts and anthropological study of the human remains found were largely neglected, as they did not align with their interests or those of the dominant ideological apparatus.

The emphasis on preserving our spiritual heritage in the "Concept of Return to Western Azerbaijan" makes the comprehensive study of the region's archaeology highly relevant. Archaeological materials serve as undeniable evidence, demonstrating the continuity of ancient Turkic traditions to the present day and showing that our western lands have historically been part of the geography in which we have existed.

Keywords: *Western Azerbaijan, archaeology, excavation, monument, grave, artifact*

QƏRBİ AZƏRBAYCANDA "QIRMIZI TABORUN" FƏALİYYƏTİ

Sabirə BAYRAMOVA
Gəncə Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Abbasqulu bəy Şadlinski tərəfindən Qərbi Azərbaycanda yaradılmış "Qırmızı alay" qrupunun fəaliyyəti haqqında bəhs olunur. Göstərilir ki, 1918-ci ildə ermənilər Qərbi Azərbaycanda azərbaycanlılara tez-tez hücumlar edirdilər. Onlar vəhşiliklər törədərək qadın və uşaqları qətlə yetirirdilər. Əhali ümidsiz vəziyyətdə idi. Azərbaycanlıları bu amansız hücumlardan qorumaq üçün "Qırmızı tabor" yaradıldı. Onlar Vedibasar, Zəngibasar, Dərələyəz və Naxçıvanda erməni daşnaklarına qarşı mübarizə aparmış, 1920-ci ildə isə uğurlu fəaliyyətlərinə görə Nəriman Nərimanov tərəfindən "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşlar.

Açar sözlər: *Qərbi Azərbaycan, Vedibasar, Abbasqulu ağa Şadlinski, Qırmızı Alay, erməni vəhşiliyi, soyqırımı*

Qərbi Azərbaycanın tarixinin öyrənilməsi bu gün qarşımızda vacib məsələ kimi diqqəti cəlb edir. Qərbi Azərbaycanın tarixində böyük rolu olmuş Abbasqulu bəy Şadlinskinin həyatı və millətinin, xalqının rifahı naminə fəaliyyətinin öyrənilməsi hesab edirik ki, böyük aktuallıq tələb edir. Onun yaratdığı "Qırmızı tabor" burada erməni daşnaklarına qarşı mübarizə aparmış və azərbaycanlıları qorumaq məqsədi ilə xeyli iş görmüşdür.

"Qırmızı tabor" adlanan diviziya 1918-ci ildə yaradılmışdır. Onun yaradılmasında əsas məqsəd yerli azərbaycanılıları azğın ermənilərdən qorumaqdan ibarət idi. 1918-ci il "Azərbaycan" qəzeti yazır: "Müntəzəm dövlətlər və siyasi qüvvələr müharibə edirlər, fəqət müsəlləh [silahlı] əsgəri qüvvənin müsadiməsi [toqquşması; döyüşmə si] heç dinç əhalinin biri-birini, xüsusən arvad-uşağı qırmalarını tələb etmir. Halbuki bu iş həman hərəkətə təvəssül etmiş [ə l atmış, girişmiş] və etməkdə olan şəxslər üzərində silinməz bir ləkədir ki, qalır və əgər bütün cahana "Hədsiz cəbhələrdə qan tökmək bəsdir daha" demək vaxtı gəlmiş isə milli ədavət və insan qanından gözü tutulmuşların əlində ölən dinc əhalinin, xüsusən günahsız arvad-uşağın qanı axıdılması müqabilinə etiraz etmək vaxtı çoxdan yetişmişdir" [1, s. 8].

Artıq bu dövrdə azərbaycanlılarla ermənilər arasında olan ədavət kəskinləşmişdi. İrəvan mahalında və yaxın ərazilərdə yaşayan azərbaycanlıların qorunması vacib məsələ idi. Dövrün ziyalıları və hörmətli adamları bu işdə əlbir olub çalışırdılar. Məhz bu niyyətlə "Qırmızı tabor" yaradılır.

Erməni silahlı dəstələrinin İrəvan quberniyasında azərbaycanlılara qarşı törətdikləri qırğınların birinci mərhələsi 1918-ci ilin əvvəllərindən başlanmışdır. 1918-ci ilin martına qədər təkcə İrəvan quberniyasının qəzalarında 198 kənd tamamilə dağıdılmışdır. Bu rayonlarda yaşayan soydaşlarımıza qarşı 135 mindən çox soyqırımı törədilib.

1918-ci ilin mart ayında baş vermiş soyqırımı hadisəsindən sonra hər iki millət arasında konflikt daha da dərinləşmişdi. İrəvan quberniyasında yaşayan müsəlmanların vəziyyəti acınacaqlı hal almışdı. Buraya yerləşdirilən Osmanlı ordusu yerli azərbaycanlıları qoruyurdu və onlar özlərini müdafiə olunmuş hiss edirdilər. Lakin elə həmin ilin noyabrında çar Rusiyası Osmanlı dəstələrinin İrəvandan çıxarılması tələbini qoyur və onlar İrəvanı tərk etməyə başlayırlar. "Azərbaycan" qəzetinin 1918-ci il 5 noyabr 31 saylı nəşrində qeyd olunur ki, "Şimdi isə şu yerlərdən Osmanlı ordusunun çıxması məsələsi ilə əlaqədar olaraq, bədbəxt müsəlman əhalisini vüquu möhtəməl olan hadisat qarşısında dəhşət və vəhşət qaplayır. Onlar kəndilərini Azərbaycan Cümhuriyyətinin bir cüzü sanaraq, onların hər bir təərrüz [hücum] və təcavüzlərdən mə sun qalmalarını təmin etmək barəsində istidada [xahişdə] bulunmağı kəndilərinin vətəndaşlıq vəzifəsi ədd [hesab] etdilər. Və illa [yoxsa; elə olmazsa] büsbütün tələf olacaqları mühəqqəqdir [qaçılmazdır]. Bundan naşi [bu sə bə bdə n] nümayəndələr Azərbaycan hökumətindən Ermənistanla İrəvan müsəlman əhalisinin yerlərinə qaytarılması barəsində müzakiratda bulunmasını istida etmişlər. Erməni-müsəlman məsələsinin sabiqki tərzi qurbanı olan İrəvan müsəlman əhalisinin səsi bütün Azərbaycan türkləri tərəfindən eşidilməlidir" [1, s.77].

Andronikin törətdiyi vəhşiliklər artırdı. O, rəsmi mətbuatda da azərbaycanlılarla bağlı bəyanat verir, əksər hallarda onlar vahiməli olurdu, bu isə güclü psixoloji təsir gücünə malik idi. 1919-cu ilin aprelinə qədər Andranikin qoşunları Ərzurumdan Zəngəzura gedən yolda yerləşən 500-dən çox türk-müsəlman yaşayış

məntəqəsini dağıdıblar. Andranik Zəngəzuru ələ keçirməklə Qərb dövlətlərinin Türkiyənin türkdilli dövlətlərlə əlaqələrini kəsmək niyyətlərini həyata keçirdi. Sovet Rusiyası isə Zəngəzurun Ermənistana verilməsini rəsmiləşdirdi və bununla da, Naxçıvan Azərbaycandan qoparıldı. Əhali böyük təşvişdə idi. Azərbaycanlılar əvvəlcə Azərbaycandan, sonra isə bütün dünyadan kömək istəyirdilər.

1918-ci ilin noyabrın 2-də erməni əsgərləri Göyçəyə də hücum çəkmiş və azərbaycanlılara qarşı haqsızlıq etmişlər. "Təşrini-saninin [noyabrın] 2-sində erməni əsgərləri Azərbaycan sərhədini keçib, silah gücünə Göyçə müsəlmanlarının təslim olmalarını tələb etmişlərdir. Hal-hazırda erməni əsgərləri əhalini qarət edib, irz-namusa əl atmaqdadırlar. Müsəlmanların irz-namusunun, həyat və əmvalının [mallarının] vəhşilər əlindən xilası üçün tədbirlər görülməsini 60 min müsəlman namından [adından] rica eyləriz. Gəncə uyezdinin 9-cu hissəsi: Sultanov" [1, s.166].

Bu vaxt Abbasqulu bəy Şadlinski "Qırmızı tabor" adlı dəstə yaradır. Həmin dəstə Vedibasardan başlayaraq erməni daşnaqlarına qarşı vuruşmağa başlayır. Tarixi mənbələr göstərir ki, dəstə 1918- ildə ermənilərin növbəti talançılığı haqqında məlumat alan kimi bu istiqamətə gəlib ermənləri mühasirəyə alırlar. Ermənilər ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olurlar. Yerli sakinlərdən eşitdiyimizə görə, ermənilər Abbasqulu bəydən çox qorxurdular. Onun azərbaycanlılar arasındaki nüfuzu, qəhrəmanlığı ermənləri qorxuya salırdı. Lakin Şadlinskiyə və onun dəstəsinə qalib gələ bilmirdilər.

Qeyd edilir ki, "1918-ci il may ayının son günlərində Ağdağın Böyük Vedi istiqamətində erməni əsgərləri özlərinə hərbi-döyüş istehkamları düzəldəndə vedibasarlıların narahatlığı daha da artdı. Buna görə Abbasqulu bəy təcili əks tədbirlər gördü, hücum gözləniləcəyi güman edilən ərazilərdə silahlı dəstələr yerləşdirdi, "Daşlı" və "Gavurqala" istiqamətlərində güclü müdafiə istehkamları yaratdı" [2].

Məğlubiyyəti qəbul edə bilməyən ermənilər təkrarən Vediyə hücum çəkirlər. Onlar Böyük Vedini üç tərəfdən mühasirəyə alırlar. "Qırmızı tabor" əks hücuma başlayır. Onlara Kərbəlayi İsmayılın dəstəsi də köməyə gəlir. Ermənilərə əsl "toy" tuturlar. Abbasqulu bəy dağ Vedibasara, Millidərəyə və aran Vedibasara hücum edən daşnakların törətdikləri vəhşiliklərə görə və bu kəndlərdə onlara qoşulub nankorluq edən erməni ailələrinin burada yaşamasını mümkünsüz hesab edir, onları qonşu ərazilərdəki istədikləri erməni kəndlərinə, onların da evinə müsəlman ailələrini köçürür, kəndlərdə könüllülərdən ibarət özünümüdafiə bölükləri yaradır, kəndə keşikçilər təyin edir. Daşnakların Vedibasardan Naxçıvana gedən dəmir yolunu ələ keçirmək barədə irimiqyaslı işğalçılıq planları "Mübariz dəstə" tərəfindən alt-üst edilir [2].

"Qırmızı tabor" Azərbaycanda sövet hakimiyyəti qurulduqdan sonra da fəaliyyətini davam etdirmişdir. Onlar bütövlükdə fəaliyyət göstərdikləri müddətdə xalqını, millətini ermənilərdən qorumuş və çox böyük fədakarlıq göstərmişlər. Qəribədir ki, Ermənistan hakimiyyəti sovet hakimiyyətinin qurulmasına maneçilik törədən ermənilərə qarşı mübarizədə Abbasqulu bəy Şadlinskiyə müraciət etmiş və ondan kömək istəmişlər.

Onlar cəllad Dronun daşnak qüvvələrini darmadağın edərək, Naxçıvanda sovet hakimiyyətini qurmuş, burada ingilis-daşnak işğalına son qoymuşdur. Abbasqulu bəy Şadlinski bu xidmətləri müqabilində Nəriman Nərimanov tərəfindən "Qızıl Ulduz" medalı ilə təltif edilmişdir. Bundan başqa, A.Şadlinski başda olmaqla "Qırmızı tabor"un 19 üzvü daşnaklara qarşı döyüşlərdə göstərdikləri şücaətə görə Ermənistan SSR-in "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu. "Qırmızı tabor" hissələri Zəngəzurun daşnaklardan təmizlənməsində də böyük qəhrəmanlıq göstərmişdilər. Ermənistanda və Zəngəzurda sovet hakimiyyəti bərqərar olduqdan sonra "Qırmızı tabor" Naxçıvanda saxlanılmış və onun sərhədlərinin qorunmasında fəal iştirak etmişdir [3].

Göründüyü kimi, "Qırmızı tabor" diviziyası əsrin əvvəllərində Azərbaycanın ərazisini, millətinin xalqının nümayəndələrini qorumaqda əvəzsiz xidmət göstərmişlər. Fəxrlə bildirmək istəyirəm ki, mənim babam Orucov Bayram Həbib oğu da bu dəstənin üzvü olub və torpaqlarımızın, soydaşlarımızın qorunmasında iştirak edibdir.

ƏDƏBİYYAT

1. 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin tam külliyyatı. II cild. Bakı: ADA Universitetinin nəşri. 652 s.
2. Rəhman Almanlı. Ermənilərin törətdikləri Vedibasar qırğınları. "Azərbaycan" qəzeti 18.04.2015
3. https://az.wikipedia.org/wiki/ Qırmızı _tabor

ABSTRACT

Sabira BAYRAMOVA

THE ACTIVITY OF THE "RED REGIMENT" IN WESTERN AZERBAIJAN

The article talks about the activities of the "Red Regiment" group created by Abbasgulu bey Shadlinsiki in Western Azerbaijan. It is shown that in 1918, Armenians often attacked Azerbaijanis in Western Azerbaijan. They committed atrocities and killed women and children. The population was in a desperate situation. "Red Tabor" is created to protect Azerbaijanis from these merciless attacks. They fought against the Armenian Dashnaks in Vedibasar, Zangibasar, Darelayaz and Nakhchivan, and in 1920 they were awarded the "Red Banner" order by Nariman Narimanov for their successful activities.

Keywords: *Western Azerbaijan, Vedibasar, Abbasgulu Agha Shadlinski, Red Regiment, Armenian brutality, genocide*

İRƏVAN XANLIĞININ İŞĞALI ƏRƏFƏSİNDƏ RUSİYANIN CƏNUBİ QAFQAZDAKI HƏRBİ QÜVVƏLƏRİNİN VƏZİYYƏTİ

Mehman SÜLEYMANOV
smehman@mail.ru
Milli Müdafiə Universiteti

XÜLASƏ

Məqalədə İrəvan xanlığının işğalı ərəfəsində Rusiyanın Cənubi Qafqazdakı hərbi qüvvələrinin vəziyyəti və yerləşdirilməsi təhlil olunur. 1813-cü il Gülüstan müqaviləsindən sonra bölgədə hərbi-siyasi gərginliyin davam etdiyi, Rusiyanın isə Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək və sərhədlərini Araz çayına qədər genişləndirmək məqsədilə Naxçıvan və İrəvan xanlıqlarını işğal etməyə çalışdığı göstərilir. 1826-cı ildə yenidən başlanan müharibə ərəfəsində Rusiyanın hərbi hazırlığının tam olmadığı, lakin regiondakı qoşunların gücləndirilməsi üçün müəyyən tədbirlərin görüldüyü qeyd edilir. Məqalədə rus qoşunlarının say tərkibi, dislokasiyası, əsas hərbi hissələrin yerləşdirilməsi, komandanlıq strukturu və müdafiə strategiyası geniş şəkildə araşdırılır. Eyni zamanda, Qarabağ, Lənkəran və İrəvan istiqamətlərində mümkün hücum marşrutları və bu ərazilərdəki hərbi vəziyyət təhlil olunur. Nəticə etibarilə göstərilir ki, say baxımından üstünlük olmasa da, Rusiyanın hərbi-texniki təminat, döyüş hazırlığı və təşkilati təcrübə baxımından üstünlüyü onun regionda uğur qazanmasına şərait yaratmışdır.

Açar sözlər: *İrəvan xanlığı, Gülüstan, müqavilə, 1826–1828, müharibə, Yermolov, Qacar, strategiya*

1813-cü il oktyabrın 12-də Rusiya ilə Qacar sarayı arasında Gülüstan müqaviləsinin imzalanması XIX əsrin əvvəllərində Cənubi Qafqaz ətrafında, xüsusən də Azərbaycan xanlıqları ətrafında cərəyan edən ciddi hərbi-siyasi proseslərə heç də son qoymadı. Çünkü bu proseslərin subyektləri olan tərəflərin heç biri ortada olan nəticələrlə razı deyildilər və qarşılarına qoyduqları niyyətlərinə çatmaq üçün münasib fürsət gözləyirdilər. Hətta ilk baxışdan müharibənin qalibi olmuş Rusiya da Gülüstan müqaviləsinin şərtləri ilə tamamilə razı deyildi. Bunun da öz səbəbi var idi. Rusiya sarayına görə, yalnız Arazdan şimaldakı Azərbaycan xanlıqlarının işğalının başa çatdırılması, dövlətin cənub sərhədlərinin Araz çayından keçməsinin təmin edilməsi ilə Cənubi Qafqazın işğalını tamamlanmış hesab etmək olardı. Buna nail olunması üçün isə Naxçıvan və İrəvan xanlıqlarının işğalına ehtiyac var idi. Bu xanlıqların işğal edilməsi ilə Rusiya dövləti öz sərhədini cənuba tərəf kifayət qədər genişləndirmiş olardı və bununla qarşıya qoyulmuş siyasi niyyətlər də əldə edilmiş olardı.

1826-cı ildə Cənubi Qafqazda yenidən alovlanan müharibəyə tərəflər müxtəlif inkişaf səviyyəsində qoşuldular. Qacarlar İranından fərqli olaraq, Rusiya sürətlə inkişaf edən, hərbi qüdrəti günü-gündən daha da artan, beynəlxalq aləmdə öz yerini daha da möhkəmləndirən bir dövlət idi.

Bununla belə, qeyd edilməlidir ki, yeni müharibənin başlanmasına Rusiya bütünlüklə hazır deyildi. Rusiya sarayı Qacar sarayı ilə münasibətində sülh şəraitinin qorunub saxlanmasına üstünlük verirdi və Rusiyanın Cənubi Qafqazdakı qoşunlarının baş komandanı general Yermolovdan da tələb olunurdu ki, bu şəraiti qoruyub saxlamaq üçün müvafiq tədbirləri həyata keçirsin.

Lakin yaranmış hərbi-siyasi şəraitdə Rusiya sarayı tərəfindən Cənubi Qafqazdakı hərbi qüvvələrin təkmilləşdirilməsi üçün bir sıra qərarlar qəbul etdi. Rusiya imperatorunun müvafiq təlimatına əsasən Qafqaz korpusunun tərkibinə daxil olan 6 alay Rusiyanın içərilərinə aparıldı. Əvvəlki alaylardan Qafqazda 7-ci karabiner, gürcü qrenadyor, Tiflis piyada və Kabardin piyada alayları qaldılar. Rusiyanın içərilərinə aparılan alayların əvəzinə yeni alaylar gətirildi. Bu alayların bəziləri Qafqazdakı coğrafi adlarla adlandırıldılar. Məsələn, Şirvan piyada alayı belə alaylardan biri idi [1, s.73].

İrəvan xanlığının işğalına başlanması ərəfəsində general Yermolov bir daha Qafqaza əlavə hərbi qüvvələrin göndərilməsi barəsində Rusiya Hərbi Nazirliyi qarşısında məsələ qaldırdı. General Yermolov Cənubi Qafqazdakı rus işğalının qorunması üçün 24 taborun əlavə göndərilməsini lazım bilirdi. Hərbi Nazirlik tərəfindən onun xahişi qismən icra olundu. Qərara alındı ki, general Yermolovun sərəncamına 20-ci diviziyanın alayları göndərilsin. Bu alaylar 2 taborlu tərkibdə göndərilməli idi ki, bu taborların da ümumi sayı 12 idi. Alayların 3-cü taborları Rusiyanın daxilində qarovul vəzifələrinin icrasına cəlb edilmişdirlər. Hərbi Nazirlik Qacar qoşunlarının hücumunun qarşısının alınması üçün əlavə qüvvələrin göndərilməsi zəruriliyini qəbul edirdi. Lakin həmin qüvvələr təxirlə göndərilməli idi. İrəvan xanlığının işğalı ərəfəsindən Qafqazda 30

min nəfərlik hərbi qüvvə cəmlənməli idi. Onlardan da 15 min nəfəri Tiflis ətrafında olmalı idi. Mərkəzin tapşırığına əsasən, bu qüvvədən 2 min nəfərlik dəstə Tiflisin mühafizəsi üçün saxlanmalı, 13 min nəfərlik dəstə isə İrəvan xanlığı istiqamətinə göndərilməli idi [2, s. 648-649].

Mövcud məlumatlara görə, İrəvan xanlığının işğalı ərəfəsində Cənubi Qafqazdakı rus hərbi qüvvələri 33 piyada taborundan, 1 nizami süvari alayından, 9 Don kazak alayından, Lənkərandakı dəniz taborundan, 8-ci istehkam taborundan və Bakı qarnizon taborundan ibarət idi. İrəvan xanlığı sərhədində rus hərbi qüvvələrindən Tiflis alayının 9 piyada bölüyü, Qarabağda 42-ci yeger alayının 9 bölüyü, Gəncədə 41-ci yeger alayının 2 bölüyü, Nuxada 42-ci yeger alayının 1 bölüyü, Şamaxıda isə 42-ci yeger alayının 2 bölüyü dayanmışdı. Məlumata görə, İrəvan xanlığı sərhədində və Azərbaycan xanlıqları ərazisində olan hərbi qüvvələrin ümumi sayı 7 min nəfər idi [3, s. 98].

Gürcüstanın İrəvan xanlığı ilə sərhədində aşağıdakı silahlı qüvvələr yerləşdirilmişdi: 500 atlıdan ibarət kazak alayı, polkovnik Sevarsamidzenin rəhbərlik etdiyi Tiflis piyada alayının 2 taboru və müvəqqəti olaraq bölgəyə gətirilmiş 2 karabiner bölüyü, Qafqaz qrenadyor top briqadasının 3-cü bölüyü. Bu bölüyün sərəncamında 12 ədəd yüngül top var idi [4, c. 32]. Konkret olaraq bu bölmələr aşağıdakı mövqelərdə yerləşdirilmişdilər: 2 bölük yeger 2 ədəd topla birlikdə Bezabdal keçidində yerləşdi, Gərgərə bir topçu taqımı ilə birlikdə 2 bölük göndərildi. Bundan başqa, Cəlaloğluda 2 bölük piyada, 2 ədəd top və kazaklar dəstəsi, Bezabdalın arxasında 3 bölük piyada, 3 ədəd top, Böyük Qarakilsədə isə 6 bölük, 7 ədəd top, kazak bölüyü və erməni könüllülərindən ibarət dəstə var idi [5].

İrəvan xanlığı sərhədindəki rus qüvvələrinə ümumi komandanlıq knyaz polkovnik Leonti Yakovleviç Sevarsamidzeyə həvalə olunmuşdu. Güman edilirdi ki, onun böyük hərbi təcrübəsi və bölgəni tanıması İrəvan xanlığının qüvvələrinə qarşı mübarizənin təşkilində daha faydalı ola bilər. Polkovnik Sevarsamidzə general Qudoviçin rəhbərliyi altında İrəvan qalası üzərinə təşkil edilmiş hücumda iştirak etmişdi. O həm də yerli dillərə bələd idi. Buna görə o, yerli əhali arasında da müəyyən əlaqələr qura bilmişdi [4, s. 32-33].

İrəvan xanlığının Gürcüstanla sərhəd xətti Qacar qoşunlarının hücum marşrutlarından biri sayılırdı. Rus generalları şübhə etmirdilər ki, Qacar qoşunlarının digər hücum marşrutu Qarabağ xanlığı ərazisindən keçəcəkdir. Rus generalları mümkün imkanlar daxilində bu istiqaməti də xüsusi diqqət altında saxlayırdılar. Qarabağda dayanan qüvvələrin əsasını polkovnik İosif Antonoviç Reutun rəhbərliyi altında olan 42-ci yeger alayı təşkil edirdi. Polkovnik Reut da təcrübəli zabitlərdən sayılırdı və onun da xidmət yolu Qafqazdan keçmişdi. Qacar qoşunlarının hücumunun qarşısının daha yaxşı alınması üçün polkovnik Reut Qarabağdakı hərbi qüvvələri aşağıdakı kimi qruplaşdırmışdı: Çanaxçıda 5 yeger bölüyü, 4 ədəd top v. podpolkovnik Molçanovun Don kazak alayının 256 atlısı, Şuşada bir bölük yeger, Gorus və ətrafında 3 bölük yeger, 2 ədəd top və Molçanovun kazak alayının 96 atlısı [5].

Yuxarıdakı məlumatlardan aydın olduğu kimi, 42-ci yeger alayının 2 bölüyü Şamaxıda və bir bölüyü də Nuxada dayanmışdı. Onların kənarda olması sözsüz ki, alayın döyüş qabiliyyətini zəiflədirdi. Qarabağ xanlığı üzərinə Qacar qoşunlarının irimiqyaslı hücumu baş verəcəyi halda Şamaxıda dayanan 2 bölüyün geri çağırılacağı gözlənilirdi [4, s.68].

Talış (Lənkəran) xanlığı da Qacar qoşunlarının birbaşa təmas xəttində yerləşirdi və müharibənin başlanacağı təqdirdə Qacar qoşunlarının bir dəstəsinin də bu istiqamətdə irəliləyəcəyi istisna deyildi. Lənkəran xanlığını əldə etməklə Qacar qüvvələri Şamaxıya və Salyandan keçməklə Bakıya çıxış əldə etmiş olardılar. Qeyd etmək lazımdır ki, bu xanlıq müharibənin başlanması ərəfəsində tərəflərin sərhəd müzakirələrinin əsas obyektlərindən biri idi və məlumdur ki, yeni Rusiya imperatoru I Nikolay da Qacar sarayının Lənkəran xanlığına olan iddialarının qismən təmin edilməsini mükün sayırdı. Dinc yolla Lənkəran xanlığına olan iddialarının həll edilmədiyi halda Rusiya işğalının qorunması 778 nəfərdən ibarət Xəzər dəniz taboru öz üzərinə götürmüşdü. Tarixi ədəbiyyatda Lənkərandakı Xəzər dəniz taborunun şəxsi heyətinin sayının 660 nəfər olduğu göstərilir [2, s. 615]. Rus generallarının fikrincə, göstərilən rəqəmlərin heç biri Qacar qoşunlarının Lənkəran xanlığına hücumunun qarşısının alınması üçün yetərli deyildi. Lənkərandakı döyüş mövqelərinin tamamlanmaması buradakı vəziyyəti bir qədər də çətinləşdirirdi. Qarnizon daxilində kifayət qədər ərzaq və içməli su da çatışmırdı. Bundan başqa, xanlığın daxilində gərgin bir durum mövcud idi. Yeni müharibənin başlanması ərəfəsində Lənkəran xanı Mir Həsən xan rusların təzyiqlərinə dözməyərək Qacar sarayına pənah aparmışdı. Lənkəran xanlığı əhalisi belə bir vəziyyətdən narazı idi və ona görə yeni müharibənin başlanması ərəfəsində xanlığın əhalisi arasındakı gərginlik şiddətlənməkdə idi. Müharibə başlanacağı təqdirdə bu qüvvələrin də İrəvan xanlığı üzərinə hücuma cəlb ediləcəyi istisna deyildi.

Xəzər dəniz taboruna mayor İlinski rəhbərlik edirdi. Lənkəranın qorunmasını təmin etmək üçün mayor İlinski xanlıq ərazisinə səpələnmiş postların Lənkərana toplanmasına göstəriş verdi. Amma ətrafa səpələnmiş hərbçilərin hamısını toplamaq mümkün olmadı. Çünki onların müəyən hissəsi rastlaşdıqları silahlı

qarşıdurmada canlarını itirdilər. Mayor İlinski Lənkəran xanlığının qorunması üçün Şamaxıdakı rus zabitlərindən kömək istədi. Bu müraciətdən sonra Lənkərana 98 nəfər hərbçi göndərildi [6, s.57].

Yeni müharibə rus qoşunlarının döyüş gücünün artırılması üçün general Yermolov yerli imkanlardan da istifadə etməyə çalışırdı. Cənubi Qafqazdakı bütün piyada və kazak hissələrinin şəxsi heyətlə komplektləşdirilməsi Rusiyanın daxili ehtiyatları hesabına aparılırdı. Doğrudur, azərbaycanlılar, gürcülər və ermənilər arasından da könüllülər toplanır və onlar bir qayda olaraq, qeyri-nizami bölmələr kimi ayrılıqda hərbi vəzifələrin icrasına cəlb edilirdilər. Lakin onların sayı çox deyildi. Erməni əhalisinin elə də böyük canlı ehtiyatı yox idi ki, onlardan böyük dəstələr təşkil etmək mümkün olsun. Yerli ermənilər ruslar tərəfindən daha çox casusluq işlərində istifadə olunurdu. Azərbaycanlılar arasından könüllü şəkildə rus qoşunlarına qoşulmaq meyli kütləvi deyildi. Azərbaycan xanlıqlarının tarixindən də yaxşı məlumdur ki, azərbaycanlı könüllülər bir qayda olaraq, rus generallarının tələbi əsasında xanlar tərəfindən toplanırdı və toplananlar da bir çox hallarda lazımi tələblərə cavab vermirdilər və döyüş tapşırıqlarının icrasına da ciddi yanaşmırdılar. Çünki xalq arasından çıxmış "könüllülər"in Rusiya işğalına qarşı münasibəti birmənalı deyildi.

İrəvan xanlığının işğalı ərəfəsindən şəxsi heyətin sayı baxımından Cənubi Qafqazdakı rus hərbi qüvvələri üstünlüyə malik olmasalar da, hərbi-texniki təchizat, hərbi təcrübə, döyüş hazırlığı, döyüşün təşkili təcrübəsi baxımından üstünlüyə malik idilər ki, bunlar da tədricən hərbi nəticələrdə özünü göstərməyə başladı.

ƏDƏBİYYAT

1. Боевая хроника полков 21-й пехотной дивизии. Тифлис: 1888, с. I
2. Дубровин, Н. История войны и владычества русских ра Кавказе. Т. VI, С – Петербург: 1888
3. Ибрагимбейли, Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва: 1969, с.98 (elektron variant).
4. Потто, В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Т. III, Санкт-Петербург: 1888
5. Захаревич, А.В. Донские казаки и Армянские население. History. kubsu.ru/pdf/ar_sas.pdf
6. Karname-ye siyasi-ye qayemməqam Fərahani. Tehran: 1385

ABSTRACT

Mehman SULEYMANOV

THE STATE OF RUSSIAN MILITARY FORCES IN THE SOUTH CAUCASUS ON THE EVE OF THE OCCUPATION OF THE ERIVAN KHANATE

The article analyzes the condition and deployment of Russian military forces in the South Caucasus on the eve of the occupation of the Erivan Khanate. It is noted that after the Treaty of Gulistan in 1813, military-political tensions in the region continued, and Russia sought to strengthen its positions in the South Caucasus and expand its borders to the Araz River by occupying the Nakhchivan and Erivan khanates. On the eve of the renewed war in 1826, Russia was not fully prepared militarily; however, certain measures were taken to reinforce its troops in the region.

The article provides a comprehensive examination of the numerical composition of Russian forces, their deployment, the positioning of main military units, the command structure, and defense strategies. At the same time, possible routes of attack in the directions of Karabakh, Lankaran, and Erivan, as well as the military situation in these areas, are analyzed. It is concluded that although Russia did not possess numerical superiority, its advantages in military-technical supply, combat training, and organizational experience enabled it to achieve success in the region.

Keywords: *Erivan Khanate, Gulistan Treaty, 1826–1828 war, Yermolov, Qajar state, strategy*

OSMANLI İDARƏÇİLİYİ DÖVRÜNDƏ DƏRƏLƏYƏZ ƏHALİSİNİN VERGİ MÜKƏLLƏFİYYƏTLƏRİ

Rəsul BAĞIROV
bagirovresul11@gmail.com
ORCID İD: 0009-0001-0812-6682
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalənin yazılmasında əsas məqsəd Osmanlı idarəçiliyi dövründə Dərələyəz mahalında əhalidən alınan vergi və mükəlləfiyyətləri ətraflı şəkildə əsaslandırmaqdır. Azərbaycanda vəziyyətin kəskinləşməsi xristian əhalisinin müqaviməti əhalinin işğalçılarının zülmündən həmişəlik yaxa qurtarmaq məqsədi ilə bölgənin əhalisi Osmanlılara müraciət edərək kömək istəyirdilər. İstanbul müqaviləsindən sonra Azərbaycanın böyük bir hissəsi osmanlıların idarəçiliyinə keçdi. Osmanlı hakim dairələri bu ərazilərdə yeni idarə üsulu yaratmışdılar. Səfəvilər dövründə olan inzibati ərazi bölgüsü qismən saxlanılmışdır. Hərbi inzibati vahidlərə - vilayətlərə və bəylərbəyliklərə bölünmüşdü. Vilayətlər sancaqlardan ibarət idi. Sancaqların ərazisi mahalların ərazisinə uyğun gəlirdi. Sancaqlar mahal və nahiyələrə bölünürdü. Hərbi-inzibati maliyyə işləri sərəsgərin əlində cəmləşmişdi. Yerli feodallar kiçik bölgələrdə sancaqbəylər, naiblər təyin olunurdular. Osmanlı dövləti Cənubi Qafqazda, o cümlədən Dərələyəzdə əhalinin müharibədən zərər çəkdiyini nəzərə alaraq qismən yumşaq vergi siyasəti yeridirdi. Gömrükxanalarda gömrük və rəhdari, rəsmi kapan adlanan vergilər alınırdı. Osmanlı hakim dairələri vergilərin və gömrük xərclərinin toplanması müqatiəyə (iltizama) verirdi. Bu və digər maliyyə məsələləri "Naxçıvan dəftəri" adlanan sənəddə öz əksini tapmışdır. Eyni zamanda bu ərazilərdə Səfəvi və Osmanlı ölçü, çəki və pul vahidlərindən istifadə olunurdu. Maliyə sənədlərindən məlum olur ki, Osmanlılar qadınları, uşaqları, qocaları, şikəstləri, xəstələri, habelə zehni əməklə məşğul olanları vergilərdən azad etmişdir. Sonda belə bir nəticəyə gəlinmişdir ki, 1590-cı ildə tərtib edilmiş İrəvan vilayətinin müfəssəl dəftərində mövcud olan maliyyə-iqtisadi və vergi sistemi geniş yer almışdır. Müfəssəl dəftərin qanunnaməsində rəiyyətin ödəyəcəyi vergilərin növləri və miqdarı, hüquq və məsuliyyətlər geniş şəkildə təsvir edilmişdir.

Açar sözlər: *sancaq, nahiyə, sərəsgər, rəhdari, müqatiyə, rəsmi kapan, ağça, tiyul, binaçı, peşkəş*

Giriş

Dərələyəzin siyasi tarixinə gəlincə, buranın Göyçə və Zəngəzur mahalları ilə birlikdə ilk orta əsrlərdə Azərbaycan Albaniyasının Sünik vilayətini təşkil etdiyi haqqındakı mülahizələri doğru qəbul etmək məcburiyyətindəyik. Bu ərazinin Ərəb xilafəti dövründən başlayan tarixi də az-çox məlumdur. Dərələyəz mahalının da qonşu ərazilər kimi əvvəlcə xilafətin, sonra səlcuqların, monqolların, Qaraqoyunluların, Ağqoyunluların, Səfəvilərin, 1747-1828-ci illərdə Naxçıvan xanlığının, 1828-ci ildən isə Rusiya imperiyasının tərkibində olduğu da məlumdur. 1588-ci və 1724-cü illərdə bu ərazi qısamüddətli olsa da, osmanlılar tərəfindən işğal edilmiş, amma 1603-cü ildə I Şah Abbas, 1735-ci ildə isə Nadir şah (1735-ci ildə Nadir hələ şah deyildi, II Təhmasibin sərkərdəsi olaraq Təhmasibqulu xan adlanırdı, 1736-cı ildə özünü şah elan edəndən sonra əvvəlki Nadir adını özünə qaytarıb, Nadir şah olaraq 1747-ci ildə sui-qəsd nəticəsində öldürülənə qədər dövləti idarə etdi) tərəfindən osmanlılardan geri alınmışdır [Dərələyəz mahalının kameral təsviri. 1831-1942-ci illər, 2017, s.6].

Dərələyəzin adına inzibati-ərazi vahidi kimi ilk dəfə Sərəf xan Bidlisinin "Şərəfnamə" əsərində rast gəlirik. İrəvan əyalətinin 1590-cı ilə aid müfəssəl dəftərini tədqiq etmiş tarixçi alim H.Məmmadov-Qaramanlıya görə, XVI əsrin sonlarında Dərələyəz inzibati-ərazi vahidi kimi mövcud olmamışdır [Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: 2001, s.287].

İstər 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"i, istərsə də 1728-ci ilə aid olan "İrəvan əyalətinin - icmal dəftəri"nə görə Dərələyəz mahalı Naxçıvan sancağının həm ərazi, həm də məskunlaşmış yaşayış məntəqələrinin sayına görə ən böyük mahalı idi. 1727-ci ildə burada 99 kənd və 5 məzrəə qeydə alınmış və bu kəndlərin 68-də yaşayış var idi. Naxçıvan əyalətlərini osmanlılardan geri aldıqdan sonra (1735) bu ərazilər uzun müddət boş qalmışdır.

Dərələyəz mahalı Qərbi Azərbaycanda min illər boyu türklərin yaşadıqları ərazilərdəndir. Şərur-Dərələyəz tarixi vilayətinin dağlıq hissəsini təşkil edir. Dərələyəz coğrafi baxımdan elə yerləşmişdir ki, buranı

təbii qala adlandırmaq olar. Bölgə şimalda Basarkeçər yaylası, şərqdə Zəngəzur dağ silsiləsi, Cənubda Ələyəz dağları, qərbdə Səlimin gədiyi yerləşən hündür dağlarla əhatə olunmuşdur. Dərələyəz toponimi Azərbaycan dilində "İri dağ və ya təpə arasında çuxur" mənasında işlənən dərə sözü ilə alagöz türk etnonimi əsasında yaranmışdır. Tarixi mənbələrə əsaslanıb demək olar ki, bu bölgə əski çağlardan Naxçıvanla bağlı olmuşdur. Tarixi qaynaqlarda Naxçıvanın, eyni zamanda Qərbi Azərbaycanın türk etnoslarının vətəni olduğu göstərilmişdir. Görkəmli türk tarixçisi M.F.Kırzıoğlu bölgədə türk etnoslarının Miladdan çox öncə formalaşdığını göstərir [M.F.Kırzıoğlu, 1992, s.207]. Müəllif sonrakı dövrdə Qars Arpaçay, Ələyəz hövzələrində Kuman-Kıpçaq-Peçeneq türklərinin güclü hakimiyyətə malik olmaqla ətraf əraziləri də özlərinə tabe etdiklərini xəbər verir.

Toplanmış çöl materiallardan və qaynaqlardan aydın olur ki, yuxarıda adı çəkilən bölgəyə aid olan Dərələyəzdə də, xüsusən Arpaçayın yuxarı və orta hövzəsində daha çox Kəngərlilər məskunlaşmışdır. Hətta VIII yüzilliyinin sonlarına yaxın Əlincə qalasının Qıpçaq türklərinin əlində olmasına dair məlumatlar vardır [H.Q.Qədirzadə, 1999, s.91]. Ən qədim dövrlərdə Azərbaycanlılar yaşadığı bir ərazidə V əsrdən yaşayış məskəni olmuşdur. Arxeoloji qazıntılardan əldə olunmuş maddi-mədəniyyət qalıqları yaşayış məskənləri bunu sübut edir. Dərələyəzdə tədqiqat nəticəsində zəngin qəbirüstü abidələrə (daş, qoç, səndugələrə) rast gəlinir.

Osmanlılar 1724-cü ildə Naxçıvan sancağını ələ keçirərkən bəzi kəndlərin əhalisi şiə olduqları üçün qaçmışlar. Bu məsələ ilə bağlı, adətən, belə yazılır. "Bu Məzrə əvvəllər kənd imiş (kəndin əhalisi pis əməlli qızılbaş-şiə olduğu üçün qaçıb getmişdilər və bir daha qayıtmayacaqlarına görə, dəftərdə bu kənd Məzrə olaraq qeydə alınmışdır [Naxçıvan sancağının müfəssəl dəftəri, s. 290-291].

Şərqi Dərələyəzin yaşayış məskənlərindən biri də Cul kəndidir. Cul kəndinə tarixi mənbələrdə XIII əsrdə rast gəlinir. Cul kəndi Arpaçayın Gog qolu olan Culçayinin sahilində yerləşir. "İrəvan əyalətinin icmal dəftərində, Qafqazın 5 verslik xəritəsində qeyd edilmişdir. Toponim cul türk etnonimi əsasında yaranmışdır. Naxçıvan sancağının müfəssəl dəftərində Dərələyəz nahiyəsinin kəndlərində alınan gəlir vergilərin siyahısında Cul kəndinin adı çəkilir. Cul kəndinin əhalisindən 3988 axca gəlir vergisi alınmışdır.

Müzakirə

1590-cı ildə tərtib edilmiş İrəvan vilayatinin müfəssəl dəftərində Şərur nahiyəsində mövcud olan maliyyə-iqtisadi və vergi sistemi də geniş yer almışdır. Haqqında söhbət gedən müfəssəl dəftərin Qanunnaməsində rəiyyətin ödəyəcəyi vergilərin növləri və miqdarı, hüquq və məsuliyyətlər geniş şəkildə təsvir edilmişdir.

Həmin vaxt Osmanlı dövlətində əkinçilikdə "çiftlik" deyilən ərazi vahidindən istifadə edilirdi. Rəiyyətə verilən torpaq "çiftlik" deyilən parçalara ayrılırdı. Çiftliyin sahəsi torpağın keyfiyyətindən asılı olaraq, dəyişirdi. Kəndlərdə neçə çiftlik və ya yarımçiftlik olduğu müəyyən edilir və onlara görə vergi alınırdı. Çiftlik və yarımçiftliklə bərabər, qeydə alınan "dönüm vergisi" ifadəsi göstərir ki, bəzi sakinlərin əkdiyi torpaqlar yarım çiftdən də az, yəni dönümlərlə qiymətləndirilən miqdarda olmuşdur. Yarım çiftdən az torpağı olan rəiyyət "bennak" adlanırdı. 1590-cı il tarixli təhrir dəftərinin qanunnaməsinə görə vergilər 3 qrupa ayrılırdı:

1. Şəri vergilər (üşr, baş vergisi və s.);
2. Örfi vergilər (çift, yarımçift, bennak vergiləri və s.);
3. Ərazi vergiləri (taxıl vergisi, dəyirman vergisi, heyvan vergisi, gömrük rüsumları və s.) [Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, 2024. s.61].

Məhsuldan alınacaq vergilər onun pul ekvivalenti ilə alınır və hər bir məhsul növünün qiyməti paytaxtda, Sultanın hüzurunda müəyyən edilirdi. 1590-cı ilin qiymətlərində Osmanlı imperatorluğundakı 1585-ci ildəki devalvasiya nəzərə alınmışdı. Uşr, "onda bir" mənasını versə də, 1/8, bəzən 1/6, 1/5 və daha çox - məhsulun yarısı qədər olurdu. Haqqında söhbət gedən təhrir dəftərinin qanunnaməsində 1/5 vergi alınan şəxslərdən "salariyə" adlanan verginin alınmayacağı göstərilirdi (l ağça idi) və örüş yerlərinin əkilməsi qadağan idi. Vergi kimi alınan üşrün dəyəri pulla alınırdı. Məhsulların qiyməti isə 1 kile buğda, mərcimək və noxud üçün 8, arpa və dari üçünsə 6 ağçadan hesablanırdı. 1590-cı ildə dövriyyədə olan ağçanın təxmini kursunu başa düşmək üçün l qoyunun qiymətinin 30-35 ağça olduğu nəzərə alınmalıdır. Beləliklə, təxminən 10 manat olduğu aydınlaşır. 1 manat pambığın qiyməti isə 96 ağça idi. Bal üşrü məhsuldar arı ailəsi üçün 2, zəif arı ailəsi üçünsə 1 ağça idi. Onu həm pulla, həm də məhsulla ödəmək olurdu. Osmanlı imperatorluğunda evli olmayan adama çiftlik verilmirdi. 50 ağça olan çift vergisi mart ayında alınırdı. Dəftərdə qeydiyyatda olan şəxs müsəlman idisə, ondan subay vergisi alınmır, evləndikdə isə caba vergisi alınırdı. Məhsuldar torpaqlar da hər 2 dönüm, az məhsuldar torpaqlarda isə hər 3 dönüm üçün 1 ağça vergi alınırdı.

Dəyirmanın işlədiyi hər aya görə 5 ağça vergi alınırdı. Osmanlı idarəçiliyi dövründə əkin sahələrinin qorunması üçün dəştibanı adlanan ciddi bir vergi növü də vardı. Əgər bu vergini ödəyən şəxsin əkininə kiminsə

mal-qarası girərdisə, heyvan sahibinə 5 dəyənək vurulur və əkinə girmiş hər qoyun üçün 5 ağça cərimə alnaraq əkin sahibinə verilirdi. 1590-ci il tarixli təhrir dəftərində osmanlıların tətbiq etdiyi bir sıra digər vergilər də ətraflı təsvir edilmişdir [Şərur-Dərələyəz qəzasının kameral təsviri, 1873-cü il. 2024. s.63].

Ərə gedən bakirə qıza görə 60, dul qadına görə 30 ağça vergi alınırdı. Alqı-satqı əməliyyatlarına görə də rüsumlar mövcud idi. Məsələn, əsiri satandan da, alandan da 4, atı alandan da, satandan da 2 ağça atbahası adlanan rüsum, qatır, camış, qaramala görə də satandan və alandan 2 ağça alınırdı. Qəssabxanada hər camışa görə 4, qaramala görə 2, qoyuna görə l ağça rüsum alınırdı. Şəhərə gətirilib satılan kənd təsərrüfatı məhsullarına görə də rüsum alınırdı. l mid üçün yarım kile, 3 kile un üçün 1 ağça rüsum alınırdı.

Osmanlılar 1724-cü ildə Azərbaycan ərazilərini, o cümlədən Şərur və Dərələyəz bölgələrini işğal etdikdən sonra müvafiq müfəssəl və icmal dəftərləri tərtib edilmişdir. Şərur nahiyəsi İrəvan livasının, Dərələyəz mahalı isə Naxçıvan qəzasının tərkibində təhrir edilmişdir. Bu müfəssəl dəftərlər strukturuna görə oxşar idi, əhalidən üşr kimi alınan natural vergilərin qiyməti müəyyən edilir və məhsulun pulla ekvivalenti alınırdı. Amma burada ciddi bir fərq vardı. 1590-cı ildə 1 kilesi 8 ağça olan buğdanın həmin çəkisi 30, 1590-ci ildə 6 ağça olan arpanın qiyməti 20 ağça idi, yəni Osmanlı dövlətinin pul vahidi ağça xeyli ucuzlaşmış, devalvasiya etmişdi. Təxminən dəyərini 3,5 dəfə itirmişdi. Buna görə də 1328-ci ildən Osmanlı dövlətində dövriyyədə olan gümüş ağça artıq l686-cı ildə dövriyyədən çıxmış, 120 ağçaya bərabər olan yeni pul vahidi - quruş dövriyyəyə buraxılmışdı. Amma ağça terminindən malların qiyməti və toplanan vergilərin miqdarını hesablamaq üçün istifadə edilirdi [Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il. 2024. s.68].

Torpaq idarəçiliyinin aşağıdakı formaları var idi. Məmurlara maaş əvəzinə mülk verilirdi. Həmin adam mülkədar adlanırdı. Mülkədar kəndin, torpağın və ya əhalinin sahibi deyil, mülkün gəlirindən pay alan şəxs idi.

Mülkiyyətin başqa bir növü isə tiyul idi. Tiyul xəzinəyə çatan vergi payı idi, yəni ümumi verginin xəzinəyə çatan hissəsi tiyul sahibinə çatırdı. Tiyul istisnasız olaraq xidmətə görə ömürlük bağışlanır və tiyuldar öldükdən sonra xəzinəyə qayıdırdı. Tiyul o halda atadan oğula keçirdi ki, atasının tutduğu vəzifəni oğlu da daşısın.

İrəvan xanlığında "binaçı" adlanan təsərrüfat subyekti vergi vahidi kimi tətbiq edilirdi. Becərdikləri torpağın vəziyyətindən, suyun olub-olmamasından, yola yaxınlığından və s. asılı olaraq, bir binaçıya neçə ailənin aid olunması haqqında qərar verilirdi. Bəzən yoxsul bir kənd bütövlükdə l binaçı hesab edildiyi kimi, zəngin bir ailədə l binaçı sayıla bilirdi.

1727-ci ildə Dərələyəz mahalının 6 çift, 6 yarımçift, 18 bennakin, cəmi 30 ailənin yaşadığı Yaycı kəndində vergi olaraq 21 kile arpa, 11 kile darı, 15 kile pərinc və 2.000 ağça çəltik üşrü (1727-ci ildə çəltiyin 1 kilesinin qiymətinin 60 ağça olduğunu nəzərə alsaq, təxminən 30 kile) ödənilmişdir [Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il. 2024. s.71].

6 nəfər bennakın yaşadığı Məlikşah kəndində 11 kile buğda, 13 kile arpa, 2 kile darı, 5 kile pərinc vergi ödənilmiş, 77 kile buğda, 91 kile arpa, 14 kile darı, 35 kile pərinc, cəmi 217 kile dənli bitki - ailə başına 36,17 kile və ya 800 kq dənli bitki əldə edilmişdir ki, bu da Məlikşah kəndi əhalisinin həyat səviyyəsinin Yaycı kəndi əhalisinin həyat səviyyəsinin Yaycı kəndi ilə müqayisədə xeyli yaxşı olduğunu göstərir.

3 ailənin yaşadığı Gabud kəndinin əhalisi 2 kile buğda, 4 kile arpa, 2 kile kərdiyar, 3 kile pərinc, 2 kile mərcimək, 2 çile kərəsnə, 120 ağça bal üşrü, 110 ağça meyvə üşrü, 100 ağça qoyun vergisi, ümumilikdə 2.887 ağça vergi ödəmişdir.

ƏDƏBİYYAT

1. Kırzıoğlu, F. Yuxarı-Kür və Çoruq boylarında kıpçaklar. Ankara: 1992
2. Yenə onun "Milli dastanlarımızda Dədə Qorqud oğuznamələrinin tarix bəlgəsi baxımından dəyərləri", Armeniya (Yuxarı-Əllər tarixinin içüzü. Bülleten, Ayrı Basım, Ankara: 1987
3. Kitabi-Dədə Qorqud. Bakı: 1988, Uşun qoca oğlu Səkrək boyu, s.110
4. Qədirzadə, H.Q. Naxçıvan tarixi Türk Diyar Dərələyəz. Elmi əsərlər. NDU, Naxçıvan: 1999
5. Naxçıvan sancağının müfəssəl dəftəri. 9 məhərrəm II 40 (27 avqust 1727), giriş və tərcümə müəllifləri akad. Ziya Bünyadov və t.e.n. Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı: 1997 5.
6. Ələkbərli, Ə. Qədim-türk oğuz yurdu – "Ermənistan", Bakı: 1994, s.186
7. Naxçıvan MR. Mərkəzi Dövlət Arxivi. Fond 314, qeyd 5.a, iş 73, s.186
8. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər). (tərcümə edən, çapa hazırlayan və ön sözün müəllifi. Nazir Əhmədli). Bakı: Elm və təhsil, 2017

9. Григорйев, В.Н. Статистическое описание Нахичеванской превинтсии. Спр 1833. с.167. ст. 161-176
10. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il (tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi. Nazir Əhmədli). Bakı: Elm və təhsil, 2024, 536 s.

ABSTRACT

Rasul BAGHİROV

TAX OBLIGATIONS OF THE POPULATION OF DARELAYAZ DURING THE OTTOMAN ADMINISTRATION PERIOD

The main purpose of writing the article is to justify in detail the taxes and fees collected from the population in Darelayaz district during the Ottoman rule. The worsening of the situation in Azerbaijan, the resistance of the Christian population, the people of the region turned to the Ottomans and asked for help in order to get rid of the oppression of the invaders forever. After the Treaty of Istanbul, a large part of Azerbaijan came under the control of the Ottomans. The Ottoman ruling circles created a new management method in these areas. The division of the administrative territory during the Safavid period has been partially preserved. It was divided into military administrative units, provinces and beylarbeyliks. Provinces consisted of pins. The territory of the pinnacles corresponded to the territory of the counties. Sanjaks were divided into districts and regions. Military-administrative financial affairs were concentrated in the hands of the wanderer. Local feudal lords were appointed sanjagbeys and viceroys in small regions. The Ottoman state implemented a partially lenient tax policy, taking into account the fact that the population in the South Caucasus, including Deraleaz, suffered from the war. Customs and traffic taxes, called official taxes, were collected at the customs offices. The Ottoman ruling circles gave muqatiya (discipline) the collection of taxes and customs fees. These and other financial issues are reflected in the art called "Nakhchivan notebook". At the same time, Safavid and Ottoman units of measurement, weight and money were used in these areas. It was divided into military administrative units-provinces and beylarbeyliks. Provinces consisted of pins. In the end, it was concluded that the existing financial-economic and tax system was widely included in the detailed book of Iravan province compiled in 1590. In the law of the detailed book, the types and amount of taxes, rights and responsibilities to be paid by the subject are described in detail.

***Keywords**: sanjak, nahiyya, sarasgar, rehdari, muqatiya, official kapan, agcha, tiyul, builder, peskesh*

QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ SƏRVƏTLƏRİ XX ƏSR İRƏVAN MƏDƏNİ-ƏDƏBİ MÜHİTİNƏ DAİR

Əbülfəz QULİYEV
ebulfezamanoglu@gmail.com
ORCID iD: 0000-0001-8733-3833

Aliyə QULİYEVA
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

İrəvan qədim Azərbaycan şəhəridir. Tarixdə bu torpağı təmsil edən onlarla İrəvani təxəllüsü ilə tanınmış mütəfəkkir şəxsiyyətlər olmuşdur. Təkcə XX əsrdə ermənilər və onların havadarları xalqımızın başına fəlakətlər gətirmişlər, beynəlmiləlçilik bayrağı altında məkrli münasibətlərini həyata keçirmiş, bunun nəticəsində İrəvanda, o cümlədən Qərbi Azərbaycanda ədəbi-mədəni mühit həmişə təqib, təzyiq altında saxlanılmışdır. 1918-1920-ci illərdə İrəvan şəhəri tarixinin ən gərgin və acınacaqlı dövrlərindən birini yaşamışdır. Erməni daşnakları hakimiyyətə gələn zaman İrəvan şəhəri əhalisinin 75 faizi azərbaycanlılardan ibarət idi. Daşnakların törətdikləri kütləvi qırğın aksiyaları nəticəsində İrəvan şəhərində 1918-1920-ci illərdə 14.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. Soydaşlarımız ölümün cəngindən xilas olmaq üçün İrana, Türkiyəyə, Azərbaycana və digər ölkələrə üz tutaraq sığınacaq axtarmağa məcbur olmuşlar. Bununla da İrəvanda soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni həyatı tənəzzülə uğramış, onun görkəmli nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmış, öz doğma ocaqlarını tərk etməyə məcbur olmuşlar. Sonralar Azərbaycanda elm və mədəniyyətin inkişafında böyük rol oynamış görkəmli şəxsiyyətlərin ailələri də bu Ermənistanda sovet hakimiyyəti qurulduğu gündən xaricdən ermənilərin gətirilib İrəvana yerləşdirilməsi, bu vasitə ilə azərbaycanlıların sıxışdırılması siyasəti rəhbər orqanların gündəlik fəaliyyət planını təşkil etmişdir. Bütün bu maneələrə baxmayaraq, İrəvan azərbaycanlıları ədəbiyyat, mədəniyyət, mətbuat, maarif sahələrində müəyyən nailiyyətlər əldə edə bilmişlər. Məqalədə bu mövzular ətraflı şəkildə təhlil və tədqiq olunmuşdur.

***Açar sözlər**: İrəvan, erməni vandalizmi, ədəbi-mədəni mühit, teatr, maarif*

Ümummilli Liderimiz Heydər Əliyevin 18 dekabr 1997-ci il, 26 mart 1998-ci il tarixli sərəncamları xalqımızın milli-mənəvi dəyərlərini, İrəvan mədəni-ədəbi mühitini tədqiq etməyi günün ən aktual problemi kimi qarşıya qoyur.

İrəvanda Azərbaycan mədəni-ədəbi mühitinin araşdırılması milli mədəniyyətimizin indiyədək öyrənilməmiş, qaranlıq səhifələrinin üzə çıxarılmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, İrəvan qədim Azərbaycan şəhəridir, tarixdə bu torpağı təmsil edən onlarla İrəvani təxəllüsü ilə tanınmış mütəfəkkir şəxsiyyətlər olmuşdur.

İrəvanın tarixindən qısa şəkildə bəhs edərkən qeyd etməliyik ki, 1828-ci ildə Türkmənçay müqaviləsi imzalanandan sonra çar Rusiyası ermənilərı İrandan köçürüb kütləvi surətdə İrəvan və Naxçıvana yerləşdirməyə başladı. Çar I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları əsasında "Erməni vilayəti" yaradıldı. 1840-cı ildə erməni vilayətinin yaradılması tarixi Azərbaycan torpaqlarının zəbt olunmasına şərait yaratmışdır [1, s.119-123].

Təkcə XX əsrdə ermənilər və onların havadarları xalqımızın başına fəlakətlər gətirmişlər, beynəlmiləlçilik bayrağı altında məkrli münasibətlərini həyata keçirmiş, bunun nəticəsində İrəvanda, o cümlədən Qərbi Azərbaycanda ədəbi-mədəni mühit həmişə təqib, təzyiq altında saxlanılmışdır.

1918-20-ci illərdə İrəvan şəhəri tarixinin ən gərgin və acınacaqlı dövrlərindən birini yaşamışdır. Məlum olduğu kimi, I Dünya müharibəsi zamanı ermənilərin bir qismi Anadoludan gələrək Qafqaza, xüsusən İrəvan ətrafına yerləşmişdi. Bundan əlavə, Azərbaycan Milli şurasının 29 may 1918-ci il qərarı ilə İrəvan şəhəri siyasi-inzibati mərkəz kimi ermənilərə verildikdən sonra burada yaşayan azərbaycanlıların sıxışdırılaraq şəhərdən qovulması prosesi daha da genişləndi.

Erməni daşnakları hakimiyyətə gələn zaman İrəvan şəhəri əhalisinin 75 faizi azərbaycanlılardan ibarət idi. Daşnakların törətdikləri kütləvi qırğın aksiyaları nəticəsində İrəvan şəhərində 1918-20-ci illərdə 14.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir [2]. Soydaşlarımız ölümün cəngindən xilas olmaq üçün İrana, Türkiyəyə, Azərbaycana və digər ölkələrə üz tutaraq sığınacaq tapmağa məcbur olmuşlar. Bununla da İrəvanda soydaşlarımızın ictimai-siyasi, ədəbi- mədəni həyatı tənəzzülə uğramış, onun görkəmli nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar. Sonralar Azərbaycanda elm və mədəniyyətin inkişafında böyük

rol oynamış Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Əhməd Rəcəbli, Əhməd Cəmil, Cəfər Xəndan, Heydər Hüseynov, Səid Rüstəmov, Bəhmən Axundov və başqa görkəmli şəxsiyyətlərin ailələri də bu dövrdə öz doğma ocaqlarını tərk etməyə məcbur olmuşlar.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra erməni kommunistləri 1918-1920-ci illərdə daşnakların azərbaycanlılara qarşı apardıqları siyasəti davam etdirdilər. Ancaq daha incə üsullara əl ataraq, maskalanmış, ardıcıl və düşünülmüş şəkildə öz məkrli planlarını həyata keçirməyə başladılar. "Erməni kommunist-bolşeviklər fürsət düşəndə daşnaklardan daha dəhşətli rəzalətlər törətmişlər. Daşnaklar Azərbaycan türklərini öz əzəli topraqlarından tam təmizləyə bilmədikləri halda, kommunistlər bunu çox incə metodlarla həyata keçirə bildilər. Ermənistanda sovet hakimiyyəti bərqərar olsa da, Ermənistan rəhbərliyinin riyakar iş üslubunda, millətçi idarəetmə metodunda heç bir yenilik baş verm ədi. Dırnaqarası "Beynəlmiləlçilik", "qardaşlıq" ideyaları köhnə iyrənc məqsədləri həyata keçirmək üçün son dərəcə rahat və əlverişli pərdə oldu" [3, s.33, 37].

Erməni-Azərbaycan münasibətlərinin yenidən kəskinləşəcəyindən ehtiyat edən Moskva Ermənistan KP MK nəzdində 1922-ci ildə azsaylı xalqlar şöbəsi yaratdı.Bir müddət sonra bu şöbənin rəhbərliyinə Bala Əfəndiyev təyin edildi. Bala Əfəndiyev İrəvan şəhərinin ictimai-siyasi həyatında fəal iştirak etmiş, Azərbaycanda başlanan latın əlifbası hərəkatının İrəvanda rəhbəri olmuş, 1926-cı ildə Bakıda keçirilən Birinci türkoloji qurultayda Ermənistan nümayəndə heyətinin başçısı kimi iştirak etmişdir.

Ermənistanın şovinist hakimiyyəti İrəvandakı Ermənistan Yazıçılar İttifaqının Azərbaycan bölməsinin fəaliyyətinin canlanmasına həmişə var gücü ilə mane olmuşdur. Buna baxmayaraq, İrəvandakı azərbaycanlı yazıçılar bölməsi ən ucqar bölgələrdə belə ədəbiyyat dərnəklərinin yaradılması, şair və yazıçıların əsərlərinin çap olunması, çap olunmuş əsərlərin müzakirələrinin keçirilməsini təşkil etmişdir.

Sovet hakimiyyəti illərində İrəvandakı Azərbaycan dilində bədii əsərlərin nəşr olunması işinə Ermənistan rəhbərliyi həmişə maneçilik törətmişdir. Belə ki, 1920-1931 və 1936-1947-ci illər arasında Ermənistanda bizim dilimizdə bir dənə də olsun bədii əsər, kitab nəşr olunmamışdır. Hətta nəşrə hazırlanmış bir sıra kitabların nəşri dayandırılmış və onların sonrakı taleyi isə gizli qalmışdır.

Ermənilərin azərbaycanlılara qarşı dövlət səviyyəsində apardığı soyqırım siyasəti, deportasiya aksiyası İrəvanda azərbaycanlı ictimai-siyasi, ədəbi-mədəni mühitə də böyük zərbə vurmuşdur. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarının Azərbaycan, o cümlədən İrəvan mədəniyyətinə nə qədər zərbə vurduğunu xüsusilə vurğulamaq lazımdır. Bu fakt Azərbaycan xalqına qarşı qərəzli siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Ədəbi-mədəni mühitin aparıcı nümayəndələri olan Mehdi Kazımov, Mirəli Seyidov, Əbülfət Rəhimov, Əsgər Əsgərzadə, Yusif Kazımov, Bəhlul Yusifov, Bülbül Kazımova, Həbib Məhəmmədzadə, Fərhad Fərhadov, İsmayıl Şükürzadə, Ələşrəf Bayramov, Zaman Vəliyev və b. 1948-ci il deportasiyasına məruz qalmışlar.

Bütün maneələrə baxmayaraq, İrəvan azərbaycanlıları tək ədəbi mühitdə deyil, maarif, mətbuat, teatr həyatında da müəyyən irəliləyişə nail ola bilmişdilər.

İrəvanda maarifin inkişafında Pedaqoji texnikumun (1924-1949) böyük rolu olmuşdur. Azərbaycanın görkəmli elm xadimləri akad. Budaq Budaqov, akad. Məmmədtağı Cəfərov, müxbir üzv Zərifə Budaqova, prof. Fərhad Fərhadov, prof. Əli Fərəcov, prof. Həmid Əliyev, prof. Süleyman Məmmədov və b. bu texnikumun məzunu olmuşlar. Görkəmli kimyaçı alim Y.Məmmədəliyev məhz bu texnikumda əmək fəaliyyətinə başlamışdır [C.Allahverdiyev. İrəvan ədəbi mühiti. Bakı: 2010, s.60]. 1949-cu ildən sonra Ermənistanda bu texnikumun fəaliyyətinə icazə verilmədiyi üçün o zamankı Xanlar rayonuna köçürülmüşdür. Daha bir fakt: Erməni şovinizminin nəticəsi olaraq 1960-cı illərdə Ermənistan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi bir müddət Bakıda APİ-nin tərkibində fəaliyyət göstərməyə məcbur olmuşdur.

Azərbaycan mətbuatının nəşrinə də Ermənistanın hökumət dairələri hər vasitə ilə süni əngəllər yaratmağa çalışırdı. Belə ki, 1922-ci ildə İrəvanda "Kommunist" qəzetinin nəşrinə böyük çətinliklə icazə alınmışdır. Ancaq az keçmədən qəzetin nəşrinə etiraz edən daşnaklar redaksiyaya od vurub yandırmışdılar. Daha sonra nəşr olunan "Rəncbər","Qızıl şəfəq" qəzetlərinin də ömrü qısa olmuşdur. 1939-cu ildə nəşrə başlayan "Sovet Ermənistanı" qəzeti böyük çətinliklər bahasına 1988-ci ilə qədər nəşr oluna bilmişdi.

Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın mədəni inkişafında, maariflənməsində İrəvan Azərbaycan teatrının özünəməxsus xidmətləri olmuşdur. Bu teatrın qədim tarixi var idi. Teatrın əsası 1882-ci ildə qoyulmuşdu. Bu teatrın inkişafında Naxçıvan ziyalıları da, xüsusilə Eynəli bəy Sultanov (1892-1905) və C.Məmmədquluzadə (1898-1903) fəal iştirak etmişlər. 1949-cu ildə fəaliyyətini dayandıran teatr 1967-ci ildə yenidən fəaliyyətə başlamışdır. Bu teatrın inkişafında Azərbaycan teatr xadimlərindən Kazım Ziya (1935-1938), İsmayıl Dağıstanlı (1935-38), Əli Zeynalov (1935-46), Baxşı Qələndərli (1935-1949) kimi səhnə

ustaları böyük xidmət göstərmişlər.

Qeyd etmək lazımdır ki, ermənilərin azərbaycanlılara qarşı apardığı məkrli siyasət Stalinin ölümündən sonra bir qədər zəiflədi, amma yaddan çıxmadı. N.Xruşşovun hakimiyyətə gəlməsi Ermənistanda milli ayrı-seçkilik ovqatını daha da gücləndirdi. Ermənistanda yaşayan azərbaycanlıların köçürülmə prosesi bundan sonra da mərhələ-mərhələ davam etdirilirdi. Mərhələli köçürülmə prosesləri ermənilərin uzun illərdən bəri "Türksüz Ermənistan" yaratmaq ideyasına zəmin yaradırdı. Ermənilərin məkrli ideyaları, nəhayət, Ulu Öndər Heydər Əliyev Siyasi Büronun üzvlüyündən istefa verəndən sonra, 1988-ci ildə reallaşaraq, monoetnik Ermənistan dövləti yaradılması ilə sonuclandı.

II Qarabağ zəfərindən sonra Qərbi Azərbaycan köçkünlərinin probleminin beynəlxalq təşkilatlar qarşısında qaldırmağın məqamı yetişdi. Qərbi Azərbaycan icması rəsmi status aldı, dövlət tərəfindən bu icma üçün ayrıca bina təsis edildi. 24 dekabr 2022-ci il tarixdə ölkə prezidenti həmin binanın açılışında Qərbi Azərbaycan icmasının nümayəndələri ilə görüşdəki nitqində bu insanların öz doğma el-obasına qayıtmağının vaxtı gəldiyini, bunun üçün qayıdış konsepsiyası hazırlamağın zəruriliyini qeyd edərkən göstərmişdir ki, erməni vəhşiləri qədim Azərbaycan torpağındakı bütün maddi-mənəvi irsi məhv etmişlər. Ölkə prezidenti İrəvanın mədəni irsinin yer üzündən silinməsinə toxunaraq demişdir: "Bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb. Yəni bütün bunlar göstərilməlidir. Yəni siyasi və hüquqi tərəfdən başqa, istənilən məsələdə bunun tarixi mahiyyəti də əhəmiyyət kəsb edir. Ona görə bizim işimiz bu tarix üzərində qurulmalıdır" (president.az).

İnanırıq ki, soydaşlarımızın haqq işi qalib gələcək, bu insanlar öz dədə-baba yurdlarına qayıdacaq, firavan həyat sürəcəklər.

ƏDƏBİYYAT

1. Hacıyev, İ. Uydurma "Erməni vilayəti" və İrəvan // "İrəvan necə varsa", Bakı: 2022, Aspoliqraf, s.119-123
2. Nazim Mustafa. Ermənistanda azərbaycanlıların repressiyası (1920-1930), Xalq qəzeti, 22 aprel 2001
3. Allahverdiyev, C. İrəvan ədəbi mühiti, Bakı: 2010, Elm, 250 s.

ABSTRACT

Abulfaz GULİYEV, Aliya GULİYEVA

CULTURAL TREASURES OF WESTERN AZERBAIJAN: ON THE CULTURAL-LITERARY ENVIRONMENT OF IRAVAN IN THE 20TH CENTURY

Yerevan is an ancient city of Azerbaijan. In history, there have been tens of thinkers known by the Iravani pseudonym who represented this land. Only in the 20th century, Armenians and their patrons brought disasters to our people, carried out their insidious relations under the banner of internationalism, as a result of which the literary and cultural environment in Yerevan, including in Western Azerbaijan, was always under persecution and pressure. In 1918-20, the city of Yerevan experienced one of the most intense and sad periods in its history. When the Armenian Dashnaks came to power, 75 percent of the population of Yerevan was Azerbaijanis. More than 14,000 Azerbaijanis were killed in the city of Yerevan in 1918-20 as a result of the mass killings committed by the Dashnaks. Our compatriots were forced to seek refuge in Iran, Turkey, Azerbaijan and other countries in order to escape the war of death. With this, the socio-political, literary and cultural life of our compatriots in Yerevan declined, its prominent representatives were subjected to genocide and deportation, and were forced to leave their native places. Since the establishment of Soviet power in Armenia, the policy of bringing Armenians from abroad and settling them in Yerevan, and suppressing Azerbaijanis by this means, has been the daily action plan of the governing bodies. Despite all these obstacles, the Azerbaijanis of Yerevan have achieved certain achievements in the fields of literature, culture, press, and education. The article discusses, analyzes and studies these topics in detail.

Keywords: *Yerevan, Armenian vandalism, literary and cultural environment, theater, education*

İRƏVANDA AZƏRBAYCANIN TARİXİ-MƏDƏNİ İRSİNİN MƏHVİ

Rahibə ƏLİYEVA
rahibe.aliyeva59@gmail.com
ORCID iD: 0009-0004-8166-4972
AMEA Memarlıq və İncəsənət İnstitutu

XÜLASƏ

Məqalədə İrəvan şəhərində Azərbaycan xalqına məxsus tarixi-mədəni irsin, xüsusilə Təpəbaşı məhəlləsinin məhv edilməsi prosesi araşdırılır. Tarixi mənbələrə əsaslanaraq göstərilir ki, Təpəbaşı məhəlləsi XVIII–XIX əsrlərdə İrəvanın əsas və azərbaycanlıların sıx məskunlaşdığı yaşayış sahələrindən biri olmuş, burada məscidlər, hamamlar, yaşayış evləri və digər memarlıq nümunələri mövcud olmuşdur. Məqalədə bu ərazinin etnik və mədəni kimliyini təsdiqləyən faktlar, o cümlədən 1831-ci il kameral təsvirləri, memarlıq abidələri və toponimlər təhlil edilir. Eyni zamanda, Göy məscid və Əmir Səəd məqbərəsi kimi abidələrin tarixi, memarlıq xüsusiyyətləri və onların mənşəyinin saxtalaşdırılması məsələlərinə toxunulur. Müəllif qeyd edir ki, İrəvanda Azərbaycan irsinə qarşı məqsədyönlü dağıdıcı siyasət həyata keçirilmiş, abidələr məhv edilmiş və ya başqa xalqlara aid kimi təqdim olunmuşdur. Nəticədə vurğulanır ki, bu irsin qorunması və bərpası beynəlxalq təşkilatların diqqətində saxlanılmalı və müvafiq tədbirlər görülməlidir.

Açar sözlər: *İrəvan, Təpəbaşı məhəlləsi, tarixi-mədəni irs, Azərbaycan memarlığı, Göy məscid, Əmir Səəd məqbərəsi, mədəni soyqırım, abidələrin dağıdılması, saxtalaşdırma, UNESCO*

Giriş

Qədim İrəvan şəhərində Azərbaycanın milli-mədəni, tarixi irsinin sonuncu qalığı, onun əsas məhəllələrindən olan Təpəbaşı məhəlləsinin taleyi Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi kimi qiymətləndirilə bilər. Şəhərin Təpəbaşı məhəlləsində yerləşən Azərbaycan xalqının milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırım prosesi ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun baş direktoru Odre Azuleyə müraciət ünvanlanmışdır. Müraciəti imzalayan 102 nəfər tanınmış elm və ictimaiyyət xadimi UNESCO-nu xalqımızın zəngin tarixi-mədəni irsinin ermənilər tərəfindən məhv edilməsinin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırmışdır. Müraciəti ünvanlayanlardan biri də məhz məqalənin müəllifi olmuşdur.

1728-ci ildə Osmanlı dövlət məmurları tərəfindən tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə, bu dövrdə İrəvan şəhəri 4 məhəllədən – Köhnə şəhər, Dəmirbulaq, Dərəkənd və Təpəbaşı məhəllələrindən ibarət olmuşdur. "Təpəbaşı" məhəlləsi şəhərin qərb hissəsində yerləşirdi. Şəhri məhəlləsi ilə Təpəbaşını çoxlu bağlar ayırıb. Ümumiyyətlə, XVIII-XIX əsrin əvvəllərində – xanlıqlar dövründə İrəvan yaşıllıqlara qərq olmuş bir şəhər olmuşdur. Həm də burada – Təpəbaşı məhəlləsində İrəvan xanı Hüseynqulu xana məxsus Xan bağı da yerləşib [1, s.141]. Təpəbaşı məhəlləsinin Azərbaycan xalqına məxsusluğuna dair tarixi faktlar Təpəbaşı məhəlləsindəki məscidlər, hamamlar, islam memarlıq nümunələri sübut edir. Təpəbaşı məhəlləsi İrəvanın qərb hissəsini əhatə edirdi. Sahəsi 19 kv.m olan məhəllə özü də 6 coğrafi səciyyəli ərazilərə bölünmüşdür:

1) Kənəkir yolundan solda yerləşən Abihəyat məhəlləsi;
2) Zəngi çayının solunda, Kənəkir kəndindən aşağıda yerləşən Qızılqala məhəlləsi;
3) Zənginin həmin tərəfində, Qızılqala məhəlləsindən aşağıda yerləşən Dərəbağ məhəlləsi;
4) Körpüdən yuxarıda, həmin yerdə yerləşən Dərəkənd məhəlləsi;
5) Zənginin digər tərəfində, Dərəbağla üz-üzə yerləşən Dəlmə məhəlləsi;
6) Noraguğ məhəlləsi.

Təpəbaşı məhəlləsinin ümumi görünüşü





1831-ci ildə İrəvan şəhərinin Təpəbaşı hissəsində Azərbaycan türklərindən ibarət 594 ailə, 1333 kişi, 1264 qadın, cəmi 2537 nəfər qeydə alınmışdı. Kameral təsvirdə 1831-ci ildə Təpəbaşı məhəlləsində Hüseynəli xan məscidi və Hacı İmamverdi məscidi göstərilib. Bu məscidlərdən başqa, bir neçə də uçmuş məscidlər var ki, onlar burada qeyd olunmayıb. Təpəbaşı məhəlləsində 1831-ci ildə 5 hamam olmuşdur:


1) Hacı Bəyim hamamı;
2) Hacı Əli hamamı;
3) Qafar və Hacı Fətəli hamamı;
4) Kərim bəy hamamı;
5) Şeyxülislam hamamı.




İrəvanda qədim türk hamamı.
XX əsrin 30-cu illəri




Sərdar (Abbas Mirzə) məscidi. 1896. Foto Lord Kerzon



Qırxlar məscidi. 1938







Göy məscid. XIX əsrin sonu

XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar. Hazırda Ermənistan milli arxivində saxlanılan kameral təsvirlər həmin küçə və məhəllələrin 190 il öncə inventarlaşdırılmasını və etnik tərkibini göstərən sübutlardır. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edirdi. Bu məhəllədə sadə insanlarla yanaşı, şəhərin adlı-sanlı şəxsləri, sənətkarları və tacirləri yaşayıblar. Onların təkcə torpaqları yox, həm də mülkləri olub. Bu gün Təpəbaşı məhəlləsi milli koloritini qoruyub saxlamaq əvəzinə, ermənilər tərəfindən xarabalığa çevrilib. Dünya buna səssiz qalmamalıdır. Bu məsələ diqqətdə saxlanılmalıdır.

Dini tikililərdən Göy məscid bu gün İrəvanda salamat qalan yeganə məsciddir. Bu məscid də Təpəbaşının ərazisindədir. Göy məscid Hüseynəli xan tərəfindən inşa edilib. Son araşdırmalarda Hüseynəli xanın, məhz Göy məsciddə dəfn olunduğu barədə məlumatlara da rast gəlinir. Göy məscidin həyətindəki 1790-cı ilə aid daş kitabə xanın ailəsindən olan qadınlardan birinə aiddir.

Çar dövründə İrəvanda azərbaycanlıların dini ibadətlərini etdikləri 8 məsciddən biri idi. Məscid 28 hücrə, kitabxana, ibadətgah və iç həyətdən ibarətdir. Ümumilikdə 7.000 kvadrat metrlik ərazidə yerləşir. İkinci Dünya müharibəsindən sonra Sovet hökumətinin radikal dünyəvi siyasətinə uyğun olaraq hündürlüyü 24 metr olan 4 minarədən 3-ü söküldü və 1952-də məscidin bir hissəsi planetariyə, bir hissəsi isə məktəbə döndərilmişdir.

Məscid XX yüzildə ermənilər tərəfindən iki dəfə yandırılmışdır. İlk dəfə 1918-ci ildə, 1955-ci ilin martında Azərbaycan din xadimi Mahmud Aruzoğlu, həyat yoldaşı və 22 nəfər türk alimi məsciddə ibadət edərkən ikinci dəfə yandırılmışdır.

Göy məscidlə bağlı bütün sənədlər Azərbaycan arxivindədir. Ermənilər Azərbaycanın izini bu yerlərdən silmək məqsədilə Göy məscidi fars məscidi kimi dünyaya təbliğ edir. İran tərəfindən Göy məscidin İran məscidi adlandırılması qəbuledilməzdir. Ermənistan dövləti Təpəbaşıda yerləşən Hacı İmamverdi məscidinin tarixini saxtalaşdıraraq fars məscidi kimi dövlət qeydiyyatına alsa da, abidənin qorunması ilə bağlı heç bir tədbir görülmür və onun uçulub dağılmasına şərait yaradılır.





İrəvanda Göy məscid (fasad və interyer)



Təpəbaşı məhəllə Cami. 1687



Təpəbaşı məhəlləsində dağıdılmış məscidlər

İrəvanda Göy məscid fars məscidləri kimi qələmə verilərək İran İslam Respublikası mütəxəssislərinə, Naxçıvan memarlıq məktəbinin bariz nümunəsi olan İrəvan ərazisində inşa olunmuş Əmir Səəd türbəsi isə türkmən türbəsi kimi Türkmənistan Respublikası tərəfindən bərpa olunmuşdur. Bununla onlar özlərini "tolerant" ölkə kimi Dünyaya təqdim edirlər. İrəvan şəhəri və onun ətrafında mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrindən yeganə salamat qalanı şəhərin yaxınlığında, İrəvan-Eçmiədzin yolunun üstündə yerləşən Cəfərabad kəndindəki Əmir Səəd məqbərəsidir. Cəfərabad kəndi ona bitişik olan qədim Göykümbət kəndindən sonradan ayrılmışdır. Əmir Səəd məqbərəsi yeni yaranan Cəfərabad kəndinin ərazisinə düşmüşdür. Göykümbət kəndində Qaraqoyunlu tayfa birliklərinə daxil olan Səədli tayfasının başçılarının qəbiristanlığı olmuşdur. Həmin qəbiristanlıqda bir neçə türbə olmuşdur ki, onlardan da yalnız biri – Əmir Səəd məqbərəsi günümüzə qədər gəlib çatmışdır.

Əmir Səəd məqbərəsi Qaraqoyunlu əmirlərindən olan Əmir Səədin oğlu Pir Hüseyn tərəfindən 1413-cü ildə inşa etdirilmişdir. Hələ Əmir Səədin sağlığında onun hakimiyyəti altında olan ərazilər Çuxur Səəd, yəni Səədin çuxuru adlandırılırdı. Azərbaycan memarlıq tarixinin görkəmli tədqiqatçısı professor Leonid Bretaniski 1939-cu ildə Q.Yelkin, L.Mamikonov və D.Motislə birgə Əmir Səəd məqbərəsində ölçmə işləri aparmışlar. L.Bretaniski Əmir Səəd məqbərəsini Mömünə Xatun məqbərəsinin kərpic memarlığı formasından daş memarlığa "keçidin" özünəməxsus forması adlandırmışdır.

Naxçıvan memarlıq məktəbinə aid edilən düzgün onikiüzlü Əmir Səəd məqbərəsinin hündürlüyü günbəzi nəzərə alınmamaqla 12 metr, yerin səthindən yuxarıda, qalan hissəsində içəridən diametri 5 metrdir. Kürsülükdən 12 daş yuxarıdan içəriyə işıq düşməsi üçün biri şimal, digəri isə cənub tərəfə iki balaca deşik qoyulmuşdur. Məqbərənin tağlı qapısı cənuba baxır və oyma naxışla haşiyələnmişdir.

Məqbərənin karnizinin altında 50 sm enində, 22 metr uzunluğunda friz üzərində nəsx xətti, süls elementləri ilə Qurandan ayələr həkk olunmuş və məqbərənin kim tərəfindən inşa etdirildiyi qeyd edilmişdir. Məqbərənin ərəb dilində olan kitabəsindəki yazının birinci hissəsi rəhmli Allahın adı ilə və bir çox sərdabələrdə rast gəlinən "Quran-i Kərim"in 2-ci surəsinin 255-ci ayəsi ilə başlayır. Sonra isə Azərbaycan Qaraqoyunlu dövlətinin bir sıra tarixi şəxsiyyətlərinin adları çəkilir. Kitabədə yazılır: "Bu müqəddəs qübbəli sərdabə ən


böyük, ən gözəl, ən nəcib, xoş xasiyyətli padşahların və sultanların dayağı, fəqirlərin, səfillərin arxası, aqillərin və biliklər üçün susamışların himayəçisi, yoxsullara və iztirab çəkənlərə əl tutan, dövlətinə eşq olmuş Əmir Səədin oğlu Pir Hüseynin buyruğu ilə ucaldılmışdır. Qoy onun ədalətli, idarə üsulu var olsun. Qoy mərhəmətli, mərhum, mərhəmətlilərin ağuşuna atılmış Əmir Səədin torpağı pak olsun. Qoy Allah böyük padşahın hökmranlığı dövründə, alicənab xaqan, Şərqin və Qərbin şahlar şahı, dövlətin və dinin dayağı Pir Budaq xan və Yusif noyənin hakimiyyətini əbədi etsin, 816 hicri, rəcəb ayının 15-i". Bu tarix miladi təqvimi ilə 11 oktyabr 1413-cü ilə təsadüf edir.

Əmir Səəd məqbərəsi. Cəfərabad kəndi.



Nəticə

İrəvan şəhərində azərbaycanlılara məxsus tikililər, məhəllələr dağıdılmış, son Təpəbaşı məhəlləsinin dağıdılması sahəsində işlər planlaşdırılır. İndi ərazisinin 16 hektarı qalan Təpəbaşındakı abidələrin qalıqları da buranın Azərbaycan xalqının tarixi-mədəni irsinin bir parçası olduğunu sübut edir [4].






Sərdar Sarayı

Təpəbaşı məhəlləsində Azərbaycan türklərinə məxsus yaşayış evləri.







Ümidvarıq ki, UNESCO-nun rəhbərliyi ona ünvanlanan müraciətə etinasız qalmayacaq və tarixi, memarlıq və hüquqi aspektlərdə Azərbaycan xalqına məxsus Təpəbaşı məhəlləsinin bərpasına, erməni vandalizmindən xilas olmasına öz köməyini göstərəcək.

ƏDƏBİYYAT

1. Hüseynov, S. İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi: Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi. Albom 141s.
2. https://www.azerbaijan-news.az/az/posts/detail/ermenistan-terefinden-irevan-seherinin-sonuncu-tarixi-numunesi-de-mehv-edilmekdedir-1657142349
3. https://azertag.az/xeber/Irevanin_Tepebasi_mehellesi_Umumdunya_irsi_kimi_qorunmalidir-2245190
4. Гусейнов Р.Н.Исторический центр Еревана. Хронология уничтожения и присвоения. Научные доклады. –Баку: 2017

ABSTRACT

Rahiba ALİYEVA

DESTRUCTION OF THE HISTORICAL AND CULTURAL HERITAGE OF AZERBAIJAN IN IRAVAN

The article provides information about the neighborhoods and architectural monuments of Tepebashi, one of the historical geographical areas of Irevan, which are in danger today, and the aggressive intentions of Armenia are revealed. For this purpose, information is given about the appeal addressed to UNESCO by some intellectuals of Azerbaijan.

Keywords: *Iravan city, Tepebashi, mekhelle, architectural monuments, cultural heritage*

QƏRBİ AZƏRBAYCANIN MƏİŞƏT VƏ MƏDƏNİYYƏTİ

Mətanət QULİYEVA
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Ümumiyyətlə, Qərbi Azərbaycan, o cümlədən İrəvan bölgəsi mövsüm və məişət mərasimləri ilə çox zəngin folklor regionudur. Bu mərasimlər bölgə insanının minillər boyunca təbiət və zamanla iç-içə yaşam modelləridir. Bu cəhətdən regionun mərasim nəğmələri, əslində, bölgə insanının etnoregional yaddaş salnamələridir. Məqalədə Qərbi Azərbaycanın məişəti və mədəniyyəti haqqında ətraflı şəkildə söhbət aparılmış və işıqlandırılmışdır. Qərbi Azərbaycanın ayrı-ayrı mahal və bölgələrində elat-tərəkəmə, adət-ənənə və vərdişlərinin davamlılığı yaylaq-qışlaq həyat tərzinə uyğun bir sıra inam və sınamaların, mövsüm-mərasim nəğmələrinin ortaya çıxmasını şərtləndirmişdir. Bu hal Azərbaycanın elat mədəniyyətinin yayğın olduğu bütün bölgələri üçün xarakterikdir.

***Açar sözlər**: İrəvan məişəti, mədəniyyət, mərasim, mahal, həyat tərzi*

İrəvan və çevrəsi qədim türk milli adət-ənənələrinin uzun müddət konservativ şəkildə qorunduğu, kənar təsirlərə az uğramış olması ilə də seçilir. Novruz bayramı günlərində keçirilən kəl döyüşləri, pəhləvanların yarışı və s. kimi adətlər ("kəl döyüşdürmək" - Kitabi-Dədə Qorqudda rastlanan, Bayandır xanın ildə bir kərə keçirdiyi heyvan döyüşdürmək ritualının lokal, sırf əyləncə xarakteri almış şəkli təsiri bağışlayır) bu bölgənin özünəməxsus ənənələrindən sayıla bilər [1, s.35].

Qəbul olunmuş təsnifata əsasən, mərasimlər, iki qismə bölünür:

1. Mövsüm mərasimləri;
2. Məişət mərasimləri.

Mərasimlərin tədqiqinin ilk növbədə inam və sınamalar əsasında aparılması daha uyğun hesab edilir. İnam və sınamalar hər bir etnosun təbiətlə empirik təmasının məhsulları olan düşüncə və davranış formullarıdır. Bunlar biri-birilə sıx bağlıdır. İnamlar - sınamaların düşüncə forması, sınamalar isə - inamların hərəkətli formasıdır. Yəni biri düşüncədə olan, ikincisi davranışda təsdiq olunan eynilikdir. Mərasimlər isə etnosun kütləvi (total) sabit davranış sistemi kimi bütövlükdə inam və sınamalara əsaslanır. Yəni mərasimlər öz ideoloji-mifik bazası etibarilə, həm də inam və sınamaların üzərində durur.

Azərbaycan xalqının bir çox mənəvi dəyərlərini özündə toplayıb, günümüzə qədər daşıyan ən böyük mədəniyyət atributlarından biri də, heç şübhəsiz, Novruz bayramıdır.

Novruz ərəfəsi və Novruz bayramı ölkəmizin digər bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda geniş qeyd olunurdu. Əhalinin bu el şənliyinə elliklə qatılması olduqca maraqlı folklor nümunələrinin formalaşmasına gətirib çıxarmışdır. İrəvan çuxurunda bu bayrama əvvəldən xüsusi hazırlaşar və təntənə ilə keçirərdilər. Bayrama hazırlıq mərhələsində, xüsusilə çillələr mühüm yer tuturdu.

Azərbaycan folklorşünaslığının patriarxlarından olan görkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasib Novruza qədərki mərhələ kimi çillələr üzərində xüsusi dayanaraq yazırdı: "Qış çillələrə bölünür. Bunlardan birincisi, qışın girməsi ilə başlanan böyük çillədir ki, qırx gün davam edir. İkincisi, kiçik çillə adlanır və böyüyün yarısı qədər, yəni iyirmi gün davam edir. Nəhayət, qışın son ayı gəlir ki, bu da hər biri yeddi gündən ibarət olan dörd balaca çilləyə bölünür".

Qərbi Azərbaycanda Novruza hazırlıq çillələrin qurtarmasından dərhal sonra başlayardı. Professor M.Təhmasibin "hər biri yeddi gündən ibarət olan dörd balaca çillə" dediyi və kiçik çillədən Novruza qədərki bir ayı əhatə edən həmin "üçüncü çillə" Qərbi Azərbaycanda boz ay, "dörd balaca çillə" isə "cəmlə"adlanırdı. Kiçik çillənin son gecəsi "cəmlə torpağa düşür", - deyərdilər. Yəni yer nəfəs almağa başlayır. Bundan sonra cəmlə suya, oda, havaya düşərdi. Bu müddətdə, yəni bayrama qədər həyət-baca təmizlənər, ev-eşik səliqə-sahmana salınardı. Bayramqabağı bütün evlərdə "evtökmə" və ya "paltartökmə" mərasimi icra olunardı. Yəni bütün ailələr evin paltar-palazını, yorğan-döşəyini günə atar, ev-eşiyi, qapı-pəncərələri yuyar, təmizləyər, bir sözlə, bunu bayramı qarşılamağın ilk şərti hesab edərdilər. Bayramqabağı dörd çərşənbə axşamının hər birində küçələrdə iri tonqallar yandırılardı.

İlin son çərşənbə axşamına İrəvan çuxurunda İlaxır çərşənbə deyər və həmin bayramı xüsusi təntənə ilə qeyd edərdilər. İlaxır çərşənbə günü "bütün kənd "qəbirüstü" deyilən mərasimə çıxar, hamı köhnə-təzə bütün mərhumlarının məzarlarını ziyarət edərdi. Əvvəl hamı qəbiristanlığa axışıb, ölüləri ziyarət edər, mollalar yasin

oxuyar, əhd edənlər orada adamlara şirniyyat paylayardı. Qəbirüstündən qayıtdıqdan sonra kənddə ili çıxmamış, rəhmətə gedənlərin evlərinə gedib, başsağlığı verilər, ehsanı yeyilər və ya şərbəti içilərdi. Həmin axşam küçələrdə yenə tonqallar çatılar, adamlar "Atıl-batıl çərşənbə, bəxtim açıl çərşənbə", "Ağırlığım-uğurluğum bu odun üstünə" deyib tonqalların üstündən tullanardılar. Uşaqlar isə neçə gündən bəri hazırladıqları lopalara (əski parçaları bürülüb-bükülər, sora məftillə möhkəm sarınıb, həmin məftildən ona uzun qol qoyular və lopa adlanan bu məşəl bir neçə gün qabaqdan ağ neftin içinə salınardı ki, nefti canına yaxşı çəksin) od vurub, var gücləri ilə fırladıb göyə uçurardılar. Göy üzü işığa qərq olardı".

Novruz bayramı Azərbaycanın hər bir bölgəsində xalqın yaşadığı məhəlli mühitin özünəməxsusluqlarını əks etdirir. Bu cəhətlər bayramın ən müxtəlif elementlərində (mətbəxində, oyunlarında, adət-ənənələrində və s.) özünü göstərir. Qərbi Azərbaycanda keçirilən Novruz mərasimi də bütün göstəriciləri ilə etnoregional hadisədir, yəni mühitin özünəməxsusluğunu əks etdirir. İrəvan çuxuru bölgəsində kiçik çillənin son gecəsi "cəmlə torpağa düşür" deyilməsi region üçün xarakterik haldır. Azərbaycanın bütün bölgələrində cəmlə anlayışı yoxdur.

"Cəmlə", yaxud başqa adı ilə "cəmrə" məhəlli həyatın xüsusi göstəricisidir. Cəmrə//cəmlə təbiətlə onda yaşayan insanın təmasını yaradan obrazdır. "Novruz Bayramı Ensiklopediyası'nda bu anlayış barəsində belə bir məlumat verilmişdir: "Cəmlə - Novruz bayramı ərəfəsində - Boz ayda icra olunan ilin son dörd çərşənbəsinə el arasında verilən adlardan biri. Ərəb mənşəli "cəmrə" (köz, isti) kəlməsinin fonetik dəyişikliyə uğramış şəkli olub, "isti, ilıq nəfəs" anlamına uyğun gəlir. Xalq arasında "havaya cəmlə dəydi", "suya cəmlə dəydi", "yerə cəmlə dəydi", "torpağa cəmlə düşdü" kimi spesifik ifadələrin işlədilməsi, yaxud çərşənbələrin sırasının "birinci cəmlə", "ikinci cəmlə", "üçüncü cəmlə", "dördüncü cəmlə" şəklində düzümlənməsi Boz ay ərzində havanın dəyişib mülayimləşməsində onun "isti, ilıq nəfəs" kimi qəbul edildiyini göstərir".

Qeyd edək ki, cəmlələrin ardıcıllığı xalq ənənəsində bölgələr üzrə dəyişə bilir. Türk alimi Mustafa Kafalı göstərir ki, cəmrələr əvvəlcə torpağa, sonra suya, sonra oda və ən sonda havaya düşür.

Novruz bayramı və onun xüsusi semantikaya malik olan cəmrə//cəmlə elementi etnoregional yaddaş baxımından mühüm obrazdır. Onda Qərbi Azərbaycan regionu insanlarının təbiətlə təmasının bütün temporal (zaman) dinamikası ifadə olunmuşdur. Qərbi Azərbaycan insanları təbiətlə iç-içə yaşayan, öz həyat və təsərrüfat ritmlərini təbiətin ritminə əsasən, quran toplumdur. Bu cəhətdən Qərbi Azərbaycanda keçirilən Novruz mərasimi və onun mühüm tərkib hissəsi olan cəmlə//cəmrə qışdan yaza keçidin məhz bu torpağa məxsus zaman ritmini inikas edir. Bu da öz növbəsində Qərbi azərbaycanlıların regionda minillərin təcrübəsinə əsaslanan tarixini bir daha təsdiq edir.

İrəvan bölgəsində axır çərşənbə gecəsi "adamlar, xüsusilə qızlar niyyət tutub qapıpusduya çıxar, belə güman edərdilər ki, eşitdikləri ilk söz onların qismətindən xəbər verir. Buna görə də həmin axşam evdə hamıya tapşırardılar ki, ancaq xoş sözlər deyin, birdən qapıpusduya çıxan olar. Uşaqlar da zarafatla tez-tez bərkdən "Allah muradınızı versin!", - deyərdilər.

Həmin axşam evlərdə hər adama bayram payı bölünərdi: qoz-fındıq-şimi-alma-narıngi və s. Bu, daha çox rəmzi səciyyə daşıyırdı. Kim istəməsə, öz payını başqasına verə bilərdi. Evdə nə qədər bolluq olsa da, uşaqlar üçün pay hamısından şirin olardı. Həmin axşam evlərdə, əsasən, plov bişirilərdi.

Bayram axşamı (ona Kiçih bayram və ya Baca-baca da deyirdilər) valideyn evindən övlad evinə pay göndərmək, belə paynan qoca ata-ananı yad etmək adət idi. Cavan oğlanların ikibir, üçbir olub evlərə dəsmal, şal və ya papaq atması da gözəl adət idi. Bayram axşamının "Baca-baca" adı da buradan - keşmişdə evin bacasınnan şal sallamaxdan götürülmüşdü. Çox vax sevgilisi olan oğlannar da istədiyi qızın evinə dəsmal atardı. Dəsmala bayram yemişi bağlasaydılar, bu, ona işarə idi ki, qızı oğlana verməyə razıdılar. Nişannı oğlannara qız evinnən rəhli yumurtalar göndərərdilər ki, öz taytuşdarına paylasın" [1, s.31].

Keçmişdə il təhvil olan gün çaydan xırda balıq tutub gətirər, ləyənə salıb, ətrafına səməni, şam düzər, diqqətlə balıqların hərəkətini izləyərdilər. Balıq şiddətlə çabalayanda, yaxud sudan atılanda alqış qopardı kı, il təhvil oldu. Hamı bir-birini təbrik edər, bundan sonra bütün kənddə bayramlaşma mərasimi başlayardı. Hər kəs öz ağsaqqal və ağbirçəyinin bayramını təbrik etməyi özünə borc bilərdi. Həmin gün küsülüləri də barışdırardılar.

Böyük bayramda isə adamlar bir-biri ilə bayramlaşmağa gedər, öz yaxınını, qohumunu bayram Payı ilə yad edərdilər. Bu pay bayram şirniyyatından və hər hansı bir "xələt"dən ibarət olardı. Bayramda qırmızı yumurta boyamaq, onu döyüşdürmək, udmaq-uduzmaq Novruz bayramının əsas adətlərindən idi.

Keçmişdə bayram şənliklərində xoruz, yumurta, kəl döyüşdürmək, nəhayət, pəhləvanların güləşməsi bir adət idi. Bayrama hələ bir ay qalmış pəhləvanlar üçün sıra qonaqlığı düzəldərdilər. Başqa sözlə, bayramqabağı onları yedirdib-içirdərdilər ki, qüvvə toplasınlar. Hətta kəndin qalib pəhlivanı başmın dəstəsi ilə qonşu kəndlərə güləşməyə gedərdi. Qaliblərə nəmər verərdilər.

"Yumurta boyamax, yumurta döyüşdürməh də Novruz bayramının əsas adətdərinnən idi. Bayrama bir neçə gün qalmış hər evdə yumurta boyanardı. Yumurtanı, adətən, qırmızı soğan qabığıynan boyuyurdular. Yəni yumurtaların bişdiyi qazana bir qədər soğan qabığı tökülər, bişmiş yumurtaları qazannan çıxaranda artıx onnar qıpqırmızı olardı" [1, s.27].

Yumurtanı çox vax təh-təh döyüşdürərdilər. Əvvəl tərəflər bir-birinin yumurtasını dadar, yəni sol əlinin içi ilə sol qulağını tutub, sağ əlindəki yumurtanı qabax dişdərinə dönə-dönə taqqıldadıb, bərhliyini-boşduğunu yoxluyardılar. Tərəflər razılaşanda yumurtanı dəyişdirə də bilərdilər. Tərəflər yumurtanı toqquşdurardılar, kimin yumurtasının başı da, künəsi də sınsaydı, uduzmuş olurdu və yumurtasını qarşı tərəfə verirdi.

Yumurtaları qataman da döyüşdürərdilər. Yəni 15-20 yumurtanı dişdərinə vurmadan yerə düzər, başqa söznən, qatar qoyardılar. Yumurtaları döyüşdürmə prosesi başdıyardı, əvvəl biri tutar, o biri vurardı, sonra əksinə. Kimin yumurtası sınsaydı, onu başqasıynan əvəz edərdi. Axıra kimin salamat yumurtası qalsaydı, yumurtaların hamısı ona çatardı. Yumurtaların xərcini isə uduzan tərəf çəkərdi. Yumurtaları qatara qoymağa uşaxlar girişə bilməz, bunu, adətən, böyüh uşaxlar, gənşdər edərdilər.

Bayramlarda nişannı qızdarın və təzə gəlinnərin görüşünə getməh xüsusi mərasim kimi icra olunar, oğlan tərəfin yaxın qohum qadınnan, qızlan çoxlu hədiyyə, xonça və s. ilə qız və ya gəlin evinə gedərdilər [1, s.32].

Novruz bayramı ilə bağlı insanlar arasında zaman-zaman çoxlu inanclar, inamlar və sınamalar da yaranmışdı. Qaraqoyunlu mahalında İlaxır çərşənbə ilə bağlı aşağıdakı inamlar qeydə alınmışdır:

"İlin axır çərşənbəsində ürəyində niyyət tutub, hava qaralannan sonra xəlvətcə gedərsən qonum-qonşunun qapısına. Qapı dalında duruf, ayağıyın altına açar atıf içəriyə qulaq asırsan: eşitdiyin ilk kəlmə niyyətiyin yerinə yetif-yetmədiyinə nişan verir. İlk kəlmə xoş mətləbə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyətin baş tutacaq. Əgər içəridən pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə eşidirsənsə, onda istəyinə çatmaq çətin olajax".

"Axır çərşənbə gejəsinin səhəri sübh tezdən duruf axar su üstünə getmək, suya salam verif üstünnən üç dəfə atdanmaq, sonra da həmən sudan bir qab gətirif həyət-bacaya, evin dörd bucağına səpmək gərəkdi. Deyirlər kin, belə edəndə ilin xoş gələr, ağrı-acı gönnəzsən".

"Axır çərşənbə gejəsində un çuvalının ağzını açıx qoyarlar ki, bərəkət paylananda bağlı qalmasın".

"İlin axır çərşənbəsində axar suyun qabağını kəsmək olmaz, onda sənə sədəmə toxunar, işlərin dolaşar".

"Axır çərşənbə axşamında yandırılan tonqalın üstünnən adamlar atdanıf qurtarannan sonra mal-qaranı, qoyun-quzunu da addadırlar ki, çillədə qalmasınnar. Çillə köhnə ilin ağrı-acısı, qada-balasıdı, ojaxdan addayanda hamısı tökülüf odla yanır. Addıyıf keçəndə olur anadangəlmə.

"Axır çərşənbə axşanunda ov tüfənginə giliz qoyuf boşuna atallar kı, çillədən çıxsın. Əgər həmin məqamda tüfəngi dolduruf atmasan, çilləyə düşüf il boyu müdam düz vunnaz, ovdan, quşdan yayınarsan" .

Azərbaycanın hər bir bölgəsində olduğu kimi, Qərbi Azərbaycanda keçirilən Novruz mərasimi də etnoregional həyatın mühüm tərkib hissəsidir. Bu mərasim Qərbi azərbaycanlıların bütün tarixi-mədəni yaşam təcrübəsini həm yaddaş hadisəsinə, həm də davranış formuluna çevirmişdir. Yəni Novruz bayramı bir tərəfdən etnik-mədəni yaddaş potensiyası, o biri tərəfdən etnik-mədəni davranış modelidir. Bu iki element Qərbi Azərbaycan Novruzunun aparıcı mahiyyətini təşkil edir.

İrəvan çuxurunda xüsusi önəm verilən mərasimlərdən biri də Qurbankəsmə mərasimi idi. Ümumiyyətlə, Qərbi Azərbaycanda dini mərasimlərin (Orucluq, Məhərrəmlik və s.) keçirilməsinə çox diqqətlə və bir az da mühafizəkarcasına yanaşardılar. Qurbankəsmə mərasimlərində də bu ayinin icrasında dədə-baba adətlərə xüsusi dəqiqliklə əməl etməyə çalışardılar. Belə bir inam vardı ki, buna dəqiqliklə əməl edilməsə, qurbanlıq qəbul olunmaz. Əslində, bu, düşmən əhatəsində yaşayan bir etnosun həm də öz varlığını, öz milli-mənəvi dəyərlərini, mövcudluq forma və üsullarını qoruma vasitəsi idi [3, s.42].

Öz qədimliyi ilə islamiyyətdən çox-çox əvvəllərlə səsləşən Qurban bayramı da Qərbi Azərbaycanda həmişə böyük təntənə ilə və regional özünəməxsusluqlarla keçirilirdi. Ən qədim mərasimlərdən olan Xıdır Nəbini insanlar bu yaxınlara qədər qoruyub saxlamışdılar, yağışlı havalarda cavanlar qodu-qodu gəzdirirdilər.

Azərbaycanın xalq mahnı və janrlarına daxil olan tırınqı və nanayların musiqi forma xüsusiyyətlərinin öyrənilməsi ən aktual məsələlərdən biri kimi gündəmdə durur. Onların məzmunu incəsənət janrının bütün növlərində olduğu kimi, forma xüsusiyyətlərində də öz əksini tapır. İstər toylarda, istərsə də yığnaqlarda oxunan tırnıqların ana xəttini yurd həsrəti, ayrılıq motivləri təşkil etdiyindən tırınqılar xüsusi yanğı ilə oxunurdu.

İrəvan çuxurunun Vedibasar bölgəsində Qurbankəsmə mərasiminin bir sıra özəllikləri vardı. Onlardan qədim Gəmibasar mahalının Bayburt kəndinin keçmiş sakinlərindən yazıya alınmış, Millidərə bölgəsi üçün səciyyəvi olan üç qurbanlıq - Bişmə qurban, Sacarası və Niyaz haqqında xüsusi bəhs etməyi vacib hesab edirik [5, s.2].

Bişmə qurban. Müəyyən niyyət üçün xüsusi bəslənmiş qoç kəsilərmiş. Bu mərasim kəndin ən böyük evində keçirilər, burada kəndin bütün əhalisi iştirak edərmiş. Mərasimə kəndin ən mötəbər ağsaqqalı və ya seyid övladı rəhbərlik edərmiş. Qurban kəsiləndə onun əti doğranmazmış, yalnız oynaxlardan ayrılar, sora qazanlara doldurulub bişirilərmiş. Ət sümükdən ayrılana qədər bişirilər, sonra əti sümükdən ayırıb, didib, iri teşdərə yığarmışlar. Bundan sonra həmin əti lavaş çörəyin arasına qoyub kəndin bütün əhalisinə paylıyarmışlar. Mərasim başlanandan qutarana qədər dualar oxunarmış. Ətin qazanda qalan suyuna yarma töküb bişirər, camahata paylıyamuşdar. Sümühləri isə qoçun dərisinə büküb əlçatmaz yerdə torpağa dərin basdırarmışdar ki, heş vəhşi heyvannar da tapa bilməsin.

Sacarası. Xəmiri yağla, südlə yoğurar, sora ocağın üsdünə sac qoyub, o sacın içinə yoğrulmuş xəmiri çörəh kimi yayar, üsdünü də digər sacnan örtərmişdər. Sacarası bişdihdən sora onu götürüb, hissə-hissə doğruyub, kənd camahatına paylıyarmışdar. Bişmə qurban kəsməh imkanı olmuyannar üç Sacarası bişirsə idi, o, bir Bişmə qurbana əvəz sayılarmış.

Niyaz. Niyazı da xəmirdən bişirərmişdər. O, həcmcə Sacarasınnan kiçih olar, xəmiri südnən yoğmlar, bir az da şəkər ya da bal qatılamuş. Onu sacda, ya təndirdə bişirər, hissələrə bölüb camahata paylıyarmışdar. Onu çox vax Sacarası ilə eyni vaxda bişirib paylıyarmışdar.

Sacarasıyla Niyazı paylıyan onu iki əlinin arasında tutub verər, payı alan da, həmçinin iki əlinin arasında alıb, payı öpər, "Allah qəbul etsin" deyərmiş. Bu payları yeyərkən gərəh elə edəydin ki, bir qırığı da yerə düşmüyəydi, çünki günah sayılırdı. Yerə düşərsə, götürüb, öpüb, göz üsdə qoyub, sora əl-ayax çatmıyan yerə qoyarmışdar".

Göründüyü kimi, Qurban bayramı Qərbi Azərbaycan regionları üzrə etnoqrafik özünəməxsusluqlara malikdir. Bu bayram bütün Qərbi Azərbaycanda təntənə ilə keçirilirdi.

Ən qədim mərasimlərdən olan Xıdır Nəbini də Qərbi Azərbaycanın müxtəlif bölgələrində bu yaxınlara qədər qoruyub saxlamışdılar. Xıdır Nəbi yazın gəlişi ilə bağlı bayramdır. Xıdır yazın gəlişini simvollaşdırır. Xalq, əslində bu mərasimi keçirməklə qışın gedişini və yazın gəlişini təmin edir. Başqa sözlə, təbiətin ritmi, fəsillərin bir-birini əvəzləməsi insan faktorunun iştirakı ilə baş verir. İnsan təbiətə təsir edir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da geniş yayılmış xalq oyun və tamaşalarından biri də "Qodu-qodu" oyunudur. Bu vaxt əllərdə gəzdirilən kukla (gəlincik) - müqəvvadan istifadə edilirdi.

İrəvanın toy adətləri isə ümumilikdə Qərbi Azərbaycanın digər bölgələrindəki və ümumilikdə Azərbaycanın fərqli bölgələrindəki toy mərasimlərindən az şeylə fərqlənsə də, regiona xas spesifik xüsusiyyətlərdən də xali deyildi.

Xüsusilə keçən əsrin 60-cı illərindən 1988-ci il deportasiyasına qədər toy adətlərində xeyli dəyişikliklər olmuşdu. Küçələrdə böyük çadır qurular, toy şənliyi axşamdan gecə yarısına qədər çəkərdi. Məclisdə əvvəllər aşıqlar, sonralar isə daha çox müğənnilər iştirak edərdilər. Toylarda məclisi hörmətli ağsaqqallar idarə edərdilər.

Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrində toy adətlərində müəyyən fərqlilik özünü göstərirdi. "Vedidə keçmişdə ən azı yeddi gün, yeddi gecə toy olardı. 1950-ci illərdə bu, üç gün, üç gecəyə qədər qısaldılmışdı. 1970-80-ci illərdə isə hər toy ancaq iki gün (adətən, həftənin şənbə və bazar günləri) çalınardı. Həm də toyu oğlan evi edərdi, ayrıca qız toyu olmazdı.

Toydan əvvəl oğlan evinin ağsaqqalları ilə qız evinin ağsaqqalları oturub, xərc-xörək deyilən bir sövdələşmə edərdilər. Qız atasına çatacaq başlıq (süd pulu), qız evinin toy xərci (kəbin çörəyi üçün) və s. müəyyənləşdirilərdi.

Keçmişdə gəlini üzüörtülü, atın üstündə, qayınata və ya qayınata əvəzi olan adam atın yüyənindən tutmaqla apararmışlar.

Şənbə günü gündüz oğlan evindən qız evinə parça biçiminə gedirlər, orada məclis qurular, kəbin çörəyi verilərdi. Bu, qız toyunu əvəz edər və orada ancaq qadınlar iştirak edərdilər. Qız evinin məclis xərcini oğlan evi öz üzərinə götürərdi. Gecə isə oğlan evindən qız evinə xına aparılardı. Bazar günü gəlini gətirməyə getməzdən əvvəl oğlan evinin mağarında bəyi tərif edər, çalğıçılar bəyin yaxın adamlarından nəmər yığardılar.

Bir çox bölgələrdə nişanlı qızlar və təzə gəlinlər toya ancaq musiqi ilə dəvət olunardılar. Belə ki, çalğıçılar qapı-qapı gəzib həmin qız-gəlinlərin olduğu həyətdə dayanıb bir qədər çalar, onları toya çağırardılar. Yalnız bundan sonra həmin qız və ya gəlin o axşam toya təşrif buyurardı".

Nəticə

Beləliklə, Qərbi Azərbaycan bölgəsinin adət-ənənələri, mərasimləri zəngin etnoregional spesifikaya malikdir. Bu özünəməxsusluq avtoxton həyatla müəyyənləşir. Başqa sözlə, Qərbi Azərbaycan mərasimləri

bütün struktur elementləri ilə bölgəyə bağlıdır: bölgənin təbiəti, relyef spesifikası, havası, suyu bu mərasimlərin quruluşunu, tərkib elementlərini, regional koloritini şərtləndinmişdir. Bu da öz növbəsində Qərbi Azərbaycan folklor mühitində mərasimləri etnoregional özünüifadə və davranışın fonnulları kimi səciyyələndirməyə imkan verir.

ƏDƏBİYYAT

1. Əmiraslanov, T., Əmiraslanova, A. Novruz süfrəsi, Bakı: 2000
2. Azərbaycan Respublikası Dövlət Arxivi, siyahı 10
3. Azərbaycan Milli Elmlər Akademiyası. Qərbi Azərbaycan toponimlərinin həqiqətləri. 2024
4. Paşayev, A. Köçürülmə (1948-1953). Bakı: Azərnəşr, 1995.
5. "Vedibasar" qəzeti. N 07(122), 01-15 aprel, 2008

ABSTRACT

Matanat GULİYEVA

HOUSEHOLD AND CULTURE OF WESTERN AZERBAIJAN

In general, Western Azerbaijan, including the Iravan region, is a very rich folklore region with seasonal and household ceremonies. These ceremonies are the patterns of living together with nature and time for thousands of years. In this respect, the ceremonial songs of the region are, in fact, ethnoregional memory chronicles of the people of the region. In the article, the lifestyle and culture of Western Azerbaijan were discussed and illuminated in detail. The continuity of customs, traditions and habits of people in different districts and regions of Western Azerbaijan has determined the emergence of a number of beliefs and trials, seasonal and ceremonial songs suitable for the rural lifestyle. This situation is typical for all regions of Azerbaijan where the elat culture is widespread.

Keywords: *Yerevan household, culture, ceremony, county, lifestyle*

XX ƏSRİN I YARISINDA İRƏVAN TEATRINDA SƏHNƏYƏ QOYULMUŞ MUSİQİLİ SƏHNƏ ƏSƏRLƏRİ

Jalə QULAMOVA
jale.gulamova03@gmail.com
ORCID iD: 0009-0003-4136-9672
Azərbaycan Milli Konservatoriyası

XÜLASƏ

Təqdim edilən məqalədə XX əsrin I yarısında İrəvan teatrında musiqili səhnə əsərlərinin səhnəyə qoyulması məsələsinə toxunulmuş və köklü tarixə malik olan bu teatrın Azərbaycanın mədəni-bədii irsində mühüm yer tutması qeyd olunmuşdur. Vaxtilə eyniadlı Azərbaycan xanlığının mərkəzi olmuş İrəvan şəhəri XIX əsrdə azərbaycanlıların iri mədəniyyət mərkəzlərindən biri idi. 1882-ci ilin əvvəllərində İrəvanda peşəkar Azərbaycan teatrının təməli qoyulmuşdur. Bu sənət ocağı İrəvanda yaradılan Azərbaycan dilində ilk teatr idi. Görkəmli maarifpərvər, pedaqoq Firidun bəy Köçərli 1885-ci ildə İrəvana gəlmiş, 1886-cı ildən teatra rəhbərlik etmişdir. Onun rəhbərliyi və rejissorluğu ilə bir çox əsərlərin səhnəyə qoyulması İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. 1895-ci ildən 1945-ci ilə kimi isə Yunis Nuri teatra rəhbərlik etmiş və onun bu illərdəki xidmətləri teatrın unudulmaz səhifələrindəndir. İrəvan teatrında bu illər ərzində bir çox məşhur tamaşalar səhnələşdirilib, teatr bir çox istedadlı sənətkarları qəbul edib. İrəvan teatrının formalaşmasında, tərəqqisində musiqili səhnə əsərlərinin tamaşaya qoyulması xüsusi əhəmiyyət kəsb edib. Bir çox musiqili komediyalar, eləcə də Azərbaycanın bir sıra bəstəkarlarının əsərləri İrəvan teatrında tez-tez səhnələşdirilib. 1912-ci ildə isə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvan teatrında "Evli ikən subay", "Xor-xor", "Əlli yaşında cavan", "Kərbəlayi Şükür xalça satan" və s. musiqili komediyaları oynanılıb. 1916-cı ildə isə dahi bəstəkar Üzeyir bəyin "Leyli və Məcnun", "Əsli və Kərəm" kimi operaları, "Ər və arvad", "O olmasın, bu olsun" kimi musiqili komediyaları uğurla tamaşaya qoyulmuş və İrəvanda musiqi sənətinin inkişafına geniş şərait yaratmışdır. Yaxın Şərqin qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrının da İrəvan teatrı ilə böyük əlaqələri olmuşdur. Beləliklə, belə bir qənaətə gəlmək olur ki, musiqili əsərlərin İrəvan teatrında tamaşaya qoyulması bu qədim diyarda musiqi sənətinə olan estetik tələbatı gücləndirmiş və səhnəyə olan marağı və istəyi xeyli artırmışdır.

Açar sözlər: *İrəvan teatrı, aktyor, musiqili əsərlər, mədəniyyət mərkəzi*

Teatr milli mədəniyyətin ayrılmaz bir hissəsidir. Bu bir həqiqətdir ki, incəsənətin mürəkkəb, sintetik və ən əsası canlı növü olan teatr mədəniyyətin inkişafında böyük rol oynadığı kimi, insanların estetik dünyagörüşünün formalaşmasında da əhəmiyyətli yerə malikdir. Teatr sənəti haqqında araşdırma apararkən onun xalq yaradıcılığı ilə bağlılığı, milli üslub xüsusiyyətləri, janr, üslub və forma elementləri öyrənilməli və onların peşəkar teatrın formalaşmasına necə təsir göstərdiyi açıqlanmalıdır. İrəvan teatrının təşəkkülündə, inkişafında musiqinin böyük rolu olduğunu göstərmək isə bizim əsas qayə və məramımızdır.

Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyev bütün həyatı boyu mədəniyyətə, incəsənətə böyük diqqət və qayğı ilə yanaşmışdır. Teatra olan sevgisi isə tam başqa idi. Bu janra olan məhəbbətini o belə ifadə etmişdir: "*Milli mədəniyyətimizin mühüm sahəsini təşkil edən teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşayacaqdır*" (Əliyev, 1997, s.112).

Köklü tarixə malik olan C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycanın mədəni-bədii irsində mühüm yer tutur. "XX əsrin I yarısında İrəvan teatrında səhnəyə qoyulmuş musiqili səhnə əsərləri" adlanan bu məqalədə İrəvan teatrının əsas məziyyətləri araşdırılmış, bu teatrın təşəkkül və inkişaf tarixinə, əsas yaradıcılıq mərhələlərinə ətraflı nəzər yetirilmiş, Naxçıvan teatrı ilə yaradıcılıq əlaqələrindən bəhs edilmiş, Azərbaycan bəstəkarlarının musiqili əsərlərinin bu teatrda səhnəyə qoyulmasından, XX əsrin I yarısında İrəvan teatrında oynanılan dram tamaşalarının musiqisi, eləcə də bu teatrda hazırlanmış muğam operaları və musiqili komediyalar tədqiq edilmişdir.

İrəvan teatrı milli səhnə sənətimizin tarixi salnaməsində xüsusi yer tutur. Bu sənət ocağının fəaliyyətini iki yerə bölmək olar:

1. Həvəskar və peşəkar bəstəkar və aktyorların fəaliyyəti;
2. Dövlət Azərbaycan Dram Teatrı kimi fəaliyyəti.

Vaxtilə eyniadlı Azərbaycan xanlığının mərkəzi olmuş İrəvan şəhəri XIX əsrdə azərbaycanlıların iri

mədəniyyət mərkəzlərindən biri idi. "İrəvan şəhəri Çuxur-Səəd bəylərbəyliyinin, İrəvan əyalətinin, XVIII əsrdə İrəvan xanlığının, XIX əsrdə İrəvan quberniyasının mərkəzi olmuş və indi Ermənistan adlanan respublikanın paytaxtıdır. Bu şəhər Ağrı vadisinin şimal-şərqində Zəngi çayının sahilində yerləşir" (Bayramov, 2023, s.6).

Məlumdur ki, İrəvan 1827-ci ildə Rusiya tərəfindən işğala məruz qalmışdır. "1828-ci il Türkmənçay müqaviləsinə əsasən, İrəvan şəhəri Azərbaycanın tərkibində Rusiyaya birləşdirildi. Çox təəssüflə qeyd etməliyik ki, türklərin tarixən məskunlaşdığı bu qədim şəhər XX əsrin əvvəllərində ermənilərə verilmişdir. Belə ki, 1918-ci il mayın 28-də elan edilən Azərbaycan Cümhuriyyəti hökumətinin Baş naziri Fətəli Xan Xoyski mayın 29-da öz hökumətinin Xarici işlər naziri Məhəmmədhəsən Hacınskiyə bu haqda yazmışdır: "*Biz ermənilərlə bütün mübahisələri həll etdik, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik*" (Paşayev, 1995, s.6).

Qeyd etməliyik ki, XIX əsrin sonlarında, daha dəqiq desək, 1870-ci illərdə İrəvanda türk-rus dillərində məktəblər açılmışdı, vaxtaşırı musiqi məclisləri, şeir-sənət axşamları keçirilirdi. Bəzi bayramlarda – Novruz, Qurban və Orucluq bayramlarında müxtəlif "Kosa-kosa", "Qaravəlli" kimi meydan tamaşaları və mərasimlə bağlı oyunlar göstərilirdi. Əlbəttə ki, məhz bunlar İrəvanda teatrın meydana gəlməsinə çox böyük təsir göstərmişdir.

İrəvan peşəkar teatrının təməli 1882-ci ildə qoyulmuşdur. Tanınmış maarifpərvər Məşədi İsmayıl şagirdləri ilə Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" pyesi səhnəyə qoyularaq ilk teatr tamaşası kimi qəbul olunmuşdur (Mustafa Nazim. 2020, s.92).

İrəvan Dövlət Azərbaycan Dram Teatrı – İrəvanda yaradılan Azərbaycan dilində ilk teatrdır. Tarixçi-alim İsrafil Məmmədov (1927-2019) İrəvanda Azərbaycan teatrının tarixinin ən azı 1880-81-ci illərdən başladığını bildirir. Tarixçi alim İsrafil Məmmədovun üzə çıxardığı bir məqalə isə İrəvanda Azərbaycan dilində oynanılan ilk tamaşanın səhnələşdirmə tarixini üzə çıxarmağa imkan verir. İrəvanda erməni dilində nəşr edilən "Psaq" ("Çələng") qəzetində 10 aprel 1882-ci il tarixində "Xryusi" imzası ilə dərc edilən "Fars teatrı" başlıqlı məqalədən bəlli olur ki, 1882-ci il aprelin 2-də İrəvanda Müqəddəs Qayane məktəbinin salonunda İrəvanın kasıb müsəlman tələbələrinə kömək məqsədilə, Azərbaycan türkcəsində "Tamahkarlıq düşmən qazanır" pyesi ikinci dəfə tamaşaya qoyulmuşdur (Тадевос Хачатурович Акопян, 1977, стр.132). Adı çəkilən məqalədə göstərilir ki, pyesin məzmununu İrəvan şəhər məktəbinin müəllimi Məşədi İsmayıl söyləmiş, "Qırt-qırt" pyesinin müəllifi Vasak Mədətov onu komediya şəklinə salmışdır. Məşədi İsmayılın söyləməsinin əsasında qələmə alınan həmin əhvalat orta əsrlərdə Təbriz şəhərində baş vermişdir. Burada həm də qeyd edilmişdir ki, Azərbaycanda olmuş fransız səyyahı Jan Şardenin (1643-1711) Çuxursəd bəylərbəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən burada ona üç hissəli bir tamaşa göstərilmişdir. Səyyah tamaşanı qərbin operasına bənzətmiş və onu "Şərqin operası" adlandırmışdır (Nazim Mustafa, 2020, s.178). Görkəmli maarifpərvər, pedaqoq Firidun bəy Köçərli 1885-ci ildə İrəvana gəlmiş, 1886-cı ildən isə İrəvan teatrına rəhbərlik etmişdir. Onun rəhbərliyi və rejissorluğu ilə bir çox əsərlər səhnələşdirilmişdir. Bunlardan – Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (21 mart 1888), "Müsyö Jordan və dərviş Məstəli şah" (4 aprel 1890), "Hacı Qara" (20 dekabr 1894), Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı", Aslan Rzayevin "Könülsüz nigah" (17 fevral 1890), Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" (10 may 1892), "Qırt-qırt" (30 noyabr 1893), Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı" (7 mart 1895) və s. pyesləri tamaşaya hazırlanmışdır.

F.Köçərli 1895-ci ildə İrəvanı tərk etmiş, ondan sonra teatra 18 yaşlı Yunis Nuri rəhbərlik etmişdir. Yunis Nuri 50 il – 1895-ci ildən 1945-ci ilə kimi bu teatrda işləmiş və teatrın işini yüksək səviyyəyə qaldırmışdır. Bu işdə İrəvanın ziyalıları da ona çox böyük dəstək olmuşlar. Onlardan Təkinskilər, Qazıyevlər, İrəvanskilər, Pənah xan Makinski tetrın tərəqqisi naminə həm maddi, həm də mənəvi dəstək göstərmişlər. İrəvan teatrında bu illər ərzində bir çox məşhur tamaşalar səhnələşdirilib, bir çox istedadlı sənətkarlar çalışmışdır. Akademik İsa Həbibbəyli öz kitabında qeyd edir ki, "*1898-1903-cü illərdə Cəlil Məmmədquluzadə müəyyən fasilələrlə İrəvanda yaşayıb. İrəvan quberniyasının Uluxanlı kəndində dərs deyib. İrəvan qəza polis idarəsində üçüncü dərəcəli dəftərxana xidmətçisi, ədliyyə orqanlarında dava vəkili vəzifələrində çalışıb. Onun buraya gəlməsi teatr sənətinin inkişafına yeni təkan verib*" (Həbibbəyli, 1997, s.132).

1900-1917-ci illərdə İrəvanda Azərbaycan teatrı aktyor ifaları, rejissor işləri və repertuar tərtibi baxımından ciddi nailiyyətlər qazanmışdır. Bu illərdə Bakının müxtəlif teatr truppalarının üzvləri Qafqazın ayrı-ayrı şəhərlərinə, o cümlədən İrəvana qastrol səfərlərinə gedirdilər. Hüseyn Ərəblinskinin, Əbülfət Vəlinin, Cəlil Bağdadbəyovun, Sidqi Ruhullanın, Mirzağa Əliyevin, bəstəkar Zülfüqar Hacıbəyovun İrəvandakı qastrolları yerli həvəskarların daha şövqlə çalışmalarına, yeni-yeni peşəkarlıq səciyyələrinə yiyələnmələrinə təkan verirdi.

İrəvan teatrında musiqili əsərlərin rolu çox böyükdür. Məlumdur ki, musiqi teatr tamaşasının ab-havasını yaratmaq, emosional dərinliyi artırmaq və tamaşaçı təcrübəsini zənginləşdirmək üçün güclü vasitədir. Musiqi səhnələşdirmə prosesinin hər mərhələsində istifadə edilə bilər. Musiqili teatr əsərində musiqi səhnənin əsas elementlərindən birinə çevrilir. Musiqi personajların emosional vəziyyətlərini, rəvan səhnə keçidlərini vurğulamaq və hadisələrin inkişafını sürətləndirmək üçün istifadə edilir. Üstəlik, rəqslər, mahnılar və digər musiqi elementləri ilə birlikdə tamaşaçıların teatr təcrübəsini daha da cəlbedici edə bilir.

İrəvanda teatr tamaşalarının musiqi tərtibatının inkişaf tarixinin və onun mərhələlərinin elmi cəhətdən başa düşülməsi, eləcə də tamaşaların musiqi tərtibatının nəzərdən keçirilməsi Azərbaycan Dram Teatrında ədəbi-səhnə və musiqi tərtibatı arasında qarşılıqlı əlaqə haqqında bəzi müddəaların konkretləşdirilməsinə gətirib çıxartmışdır. Bu da dram tamaşalarının tərtibatı ilə digər janrların – opera, operetta və musiqili komediyanın inkişafında bir əlaqə yaradır. Bu məqamda İrəvan teatrında tamaşaların musiqi mənbələrinin araşdırılmasına ehtiyac duyulur.

İrəvan teatrında musiqi tez-tez teatr tamaşalarında canlı ifa olunurdu və tamaşaçılara daha təsirli bir təcrübə təqdim edirdi. İrəvan teatrının formalaşmasında, tərəqqisində təbii ki, musiqili səhnə əsərlərinin tamaşaya qoyulması xüsusi əhəmiyyət kəsb edib. Bir çox musiqili komediyalar, eləcə də Azərbaycanın bir sıra bəstəkarlarının əsərləri İrəvan teatrında tez-tez səhnələşdirilib.

1912-ci ildə isə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvan teatrında "Evli ikən subay", "Xor-xor", "O olmasın, bu olsun", "Əlli yaşında cavan", "Kərbəlayi Şükür xalça satan" və s. musiqili komediyaları teatrın həvəskarları tərəfindən oynanılıb.

"Erivanski vestnik" qəzeti 1911-ci il tarixli sayında xəbər verir ki, Tiflisdən gəlmiş Mirzə Ağa Əliyevin truppası yekun tamaşa kimi Üzeyir bəyin "O olmasın, bu olsun" operettasını oynamışdır. Qastrol ərzində Zülfüqar Hacıbəyovun "50 yaşlı cavan" operettası da göstərilmişdir ["Erivanski vestnik" qəzeti, 1911, s.3]. Dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" kimi operaları, "Ər və arvad", "O olmasın, bu olsun" kimi musiqili komediyaları hər zaman burada uğurla tamaşaya qoyulmuş və İrəvanda musiqi sənətinin inkişafına geniş şərait yaratmışdır.

Bu haqda "İqbal" qəzeti yazırdı: "1912-ci il noyabrın 25-də Canpoladov teatrında Tiflisdən gəlmiş artistlərin və yerli həvəskarların iştirakı ilə "Leyli və Məcnun" operası oynanıldı. Zalda 380 stuldan bir boş yer görünməzdi. Altmışa qədər adam ayaq üstə tamaşa edirdilər. Rus, erməni xanımları və kişiləri də vardı" (Bağırov, 1912).

1913-cü ilin yanvar ayının 31-də Canpoladov klubunda "İrəvan islam dram şirkəti"nin ifasında "Məşədi İbad" operettası oynanılıb. Tamaşaçılar zalda nalayiq hərəkətlərə yol veriblər. Mətbuat bu halı ciddi tənqid edib. "*Bizlər həqiqətdə teatrın bir ayineyi-ibrət olduğunu düşünsəydik, Üzeyir bəy Hacıbəyov kimi əsər sahiblərinin əsərlərini artist və həvəskarlarımızın əziyyət və məşəqqətlərini puç və hədər edib, o qədər teatrlarda biizamhq edib, gülünc olmazdıq*", - deyə fikirlər bildirilib (Tağıbəyzadə, 1913). l914-cü ildə "İrəvan islam dram şirkəti"ndə Yunis Nuri rejissorluq və aktyorluq fəaliyyətini bir qədər də səfərbərlik və coşqunluqla davam etdirib. Onun rejissorluğu ilə Canpoladov klubunda Jan Batist Molyerin "Zorən təbib" (24 yanvar), Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (31 yanvar. Məşədi İbad – Məmmədağa, Sərvər – Mirabbas), Rza Quluzadənin "Pul, yoxsa Allah?" (16 mart) tamaşaları göstərilib (Rəhimli, 2007, s.13). Daha bir mənbədə göstərilir ki, 1914-cü il sentyabrın 4-də və 8-də Üzeyir bəyin "Məşədi İbad" tamaşası Əli xanın evində qadınlar üçün göstərilib. Buradan əldə olunmuş pul isə Birinci Dünya müharibəsində yaralanan insanlara qayğı göstərən "Qırmızı xaç" cəmiyyətinə verilib ("Sədayi-həqq", 1914).

Ümumiyyətlə, İrəvandakı azərbaycanlı teatr həvəskarları humanizm tədbirlərinin həyata keçirilməsində həmişə öndə olublar. İrəvan teatrı 1915-ci ildə, demək olar ki, repertuarına təzə tamaşa əlavə etməyib. 1916-cı ildə İrəvana qastrol səfərinə gələnlər arasında görkəmli sənətkarlarımız Bülbül və Məşədi Cəmil Əmirov da olub. Onlar, burada Üzeyir bəyin "Əsli və Kərəm" operasında və "Arşın mal alan" operettasında oynayıblar.

1916-cı ildə Məmmədəli Şahtaxtlı (Şahtaxtinski), qadın rollarını oynayan Ayaqçı Sadıq Məşədi Hüseynoğlu, gimnaziyanın son sinif şagirdi Mirzə Bağırbəyov "Şirkət"in truppasında aktyorluq ediblər. İl ərzində ən çox göstərilən tamaşa "Arşın mal alan" olub.

1918-ci ilin mart ayında daşnak ermənilər Bakıda və İrəvan şəhərində kütləvi qırğınlar törətməyə başlayıblar. Bu kütləvi qırğınlarla bağlı İrəvanın həvəskar aktyorlarının böyük bir qismi, başda Yunis Nuri olmaqla İranın Xoy şəhərinə mühacirət ediblər. Həmin truppa üç ilə qədər orada qalıb. Truppanın üzvləri çörəkpulu üçün müxtəlif işlərdə çalışsalar da, hərdən teatr tamaşaları da göstəriblər (Rəhimli, 2007, s.15).

İllər ötdükcə İrəvan teatrının yaradıcı heyəti yaradıcı gənclərin hesabına genişlənir, daha da inkişaf edir. Hətta qadınlar da səhnəyə böyük maraq göstərirlər. Maraqlısı odur ki, ilk dəfə İrəvan teatrında səhnəyə çıxan

qadın qəssab Əsədin qızı Tamara olmuşdur. Tamara ilk dəfə olaraq 1916-cı ildə İrəvan teatrında göstərilən Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Gülçöhrə rolunu ifa edib. O dövrdə bu hərəkət çox böyük cəsarət tələb edirdi.

O da məlumdur ki, İrəvanda qadın rolunu oynayan Tiflisdən teatr trupası ilə qastrola gələn Göyərçin xanım (Gövhər Qazıyeva) olub. 1911-ci il 15 iyun tarixində "Тифлисский листок" qəzetində yazılan məqaləyə əsasən, "*1911-ci ilin iyun ayında Hüseynqulu Sarabski Bakıdan və Göyərçin xanım Tiflisdən gələrək yerli aktyorlarla birlikdə "Leyli və Məcnun" operasını göstəriblər. Əsas rolları Sarabski (Məcnun) və Göyərçin xanım (Leyli) oynayıblar və digər rollarda İrəvan aktyorları çıxış ediblər* ["Тифлисский листок", 1911].

1918-1927-ci illər də İrəvan teatrının fəaliyyətində ayrıca dövr kimi çox mühüm mərhələdir. Məhz bu illərdə İrəvanda Azərbaycan teatrı aktyor ifaları, rejissor işləri və repertuar tərtibi baxımından ciddi nailiyyətlər qazanmışdır.

Bu illərdə SSRİ Xalq artisti, Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi, Əməkdar artisti fəxri adlarına layiq görülmüş İsmayıl Dağıstanlı, Kazım Ziya, Əli Zeynalov, Əşrəf Yusifzadə, Əyyub Haqverdiyev, Əşrəf Quliyev, Ətayə Əliyeva, Qafar Həqqi, İbrahim Hüseynov (Şünasi), Həsən Ağayev, İmamverdi Bağırov, həmçinin tanınmış aktyorlar Məmmədsadıq Nuriyev, Kamal Qubuşov, Zakir Şalıbazov İrəvan teatrında aktyor işləyiblər. Teatrda tamaşaların bədii tərtibatını rəssam Rəhim Məmmədov, musiqi tərtibatını isə, əsasən, orkestrin rəhbəri Eyvaz Eyvazov veriblər.

1922-ci ildə Yunis Nurinin başçılığı ilə teatr dəstəsi yenidən İrəvan şəhərində fəaliyyətə başlamışdır. Bu cəhd nə qədər çətin olsa da, əsl qeyrət və cəsarət tələb edirdi və nə yaxşı ki, səhnə fədailəri bunu vicdanla həyata keçirdilər. "Rencber" qəzetində bu haqda yazılır: "Tezliklə dəstənin yaradıcılıq potensialı artdı. Truppaya Bala Əfəndiyev, Azad Axundov, Əkbər Rzayev, Mirzə Rzayev, Yusif Ziya daxil idilər. Hökumət işində çalışan rəhbər işçilərin arvadları Fatma Əfəndiyeva və Firəngiz Rzayeva, dəri zavodunun fəhləsi Gövhər xanım truppanın tamaşalarında çıxış edirdilər. Gövhər xanım "Arşın mal alan" operettasında Gülçöhrənin ariyasını məharətlə ifa edib. Noyabr ayında İrəvan şəhərində fəhlə və kəndli qırmızı ordusu ali şurasının beşinci qurultayı keçirilib. Bu münasibətlə şəhərin teatr truppası Nəriman Nərimanovun "Şamdan bəy" ("Dilin bəlası") pyesini tamaşaya hazırlayıb ["Rencber", 1922].

İrəvan teatrında tamaşaçılar hər zaman Üzeyir bəy Hacıbəylinin opera və operettalarının tamaşalarına daha çox maraq göstəriblər. Əlbəttə, operaların ifasında müəyyən çətinliklər yaşanırdı. Bu da truppadakı aktyorların səs imkanlarının o qədər də güclü olmamasında idi. Bir az səsi olanlar isə opera oxumaq qaydalarını düzgün bilmirdilər. Bu səbəbdən də musiqili komediyalar tez-tez və müxtəlif quruluşlarda tamaşaçılara təqdim edilirdi. 1925-ci ilin fevral ayında Üzeyir bəyin "Ər və arvad" musiqili komediyası Yunis Nurinin rejissorluğu ilə oynanılıb. Hökumət teatrının binasında tamaşaya qoyulan əsərdə baş rolu – Kəblə Qubadı rejissor özü ifa edib. Həmin il Yunis Nurinin quruluşunda Üzeyir bəyin "Məşədi İbad", "Arşın mal alan", Zülfüqar Hacıbəyovun "Evliykən subay" musiqili komediyaları tez-tez səhnəyə qoyulmuşdur.

İrəvan teatrının tarixini tədqiq edib araşdırdıqda onun Yaxın Şərqin qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı ilə əlaqələrini də xüsusi qeyd etmək lazımdır. XX əsrin birinci yarısında Naxçıvan teatrının güclü truppası tez-tez İrəvan teatrında tamaşalar verirdi.

Eynalıbəy Sultanovun rəhbərliyi ilə mütərəqqi Naxçıvan ziyalılarının yaratdığı "Müsəlman incəsənəti və dram cəmiyyəti" tərəfindən ilk dəfə 1883-cü ildə Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərinin Hacı Nəcəf Zeynalovun evində tamaşaya qoyulması ilə Naxçıvan teatrının əsası qoyulmuşdur. Bu teatr yarandığı gündən sağlam məfkurə, yüksək peşəkarlıq baxımından fərqlənən repertuar uğrunda mübarizə aparmışdır. Burada M.F.Axundovun, N.Nərimanovun, C.Məmmədquluzadənin, C.Cabbarlının, S.S.Axundovun, habelə Şeksprin, Şillerin, Qoqolun, Çexovun, Qorkinin və eləcə də çağdaş Azərbaycan yazarlarının əsərləri tamaşaya qoyulmuş və bu sənət ocağı sağlam prinsiplər əsasında pərvəriş tapmış, inkişaf etmiş və formalaşmışdır [Qulamova. 2011, s.50].

Eləcə də musiqili əsərlərin tamaşaya qoyulması bu teatrı bütün bölgələrdən fərqləndirirdi. Bu əsərlər milli şüurun sürətlə inkişafına təkan verirdi. Bu baxımdan dahi Üzeyir Hacıbəylinin, bir qədər sonra Zülfüqar Hacıbəyovun opera və operettalarının Naxçıvan teatrında tamaşaya qoyulması xüsusi əhəmiyyət kəsb edirdi. Teatrın həm drammatik yönü, həm də musiqi yönü vəhdət təşkil edərək, gözəl bir sintez yaradırdı. Azərbaycan teatr mədəniyyətində gənc bəstəkarlardan Səid Rüstəmov və Niyazi də dram tamaşalarına musiqi bəstələməyə başlamışlar. Bəstəkar Zülfüqar Hacıbəyovun Naxçıvan teatrı ilə əlaqəsi oraya yeni bir ab-hava gətirmişdir. 1910-cu ildən Naxçıvanda yaşayan bəstəkar 1912-ci ildə İrəvana gedərək buradakı teatrın musiqili repertuarının genişlənməsinə səbəb olmuşdur. 1928-ci ildə İrəvan teatr dövlət statusu almış, 1935-ci ildən isə bu teatr görkəmli dramaturq Cəfər Cabbarlının adını daşıyır.

1948-ci ildən başlayaraq İrəvan və onun ətraf rayonlarında yaşayan türk əhalisi məcburi olaraq Azərbaycana köçürülməyə başlamışdır. Və bu teatrın inkişafına da öz mənfi təsirini göstərmişdir. Belə ki, 1949-cu ildə teatr Göyçə mahalının Basarkeçər rayonuna köçürülmüşdür. Maliyyə problemləri ortaya çıxdığına görə teatr öz işini dayandırmaq məcburiyyətində qalmışdır. Bir il müddətində – 1948-1949-cu illərdə burada Yunis Nuri, Məmmədbağır Qaraxanov, Əli Şahsabahlı, Cəmil Əliyev, Abbasqulu Tağıyev, Şövkət Əliyeva, Əziz Süleymanov, Qəzənfər Məlikov, Naibə Əliyeva, Roza Hüseynova, Züleyxa Babayeva, Məmmədrza Qənizadə, Xədicə İsmayılova, Hüseyn Ərəboğlu, Asəf Əlixanov, Əsgər Rəhimov, Gülzar Rəhimova, Midhəd Rəsulzadə, İsfəndiyar Hüseynov, Nübar Əlixanova kimi peşəkar, müəyyən sənət uğurları qazanmış aktyorlar və aktrisalar fəaliyyət göstəriblər.

Qeyd etdiyimiz kimi, bir ildən sonra teatr işini dayandırmış və əvəzində həmin bazada xalq teatrı təşkil olunmuşdur. "*1967-ci ildə cəmi Ermənistan əhalisinin, o cümlədən bütün ziyalıların, Basarkeçər rayon partiya komitəsinin birinci katibi Yunis Rzayevin və Azərbaycan KP MK-nın katibi Şıxəli Qurbanovun ciddi, birgə səyləri nəticəsində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı hökumətin qərarı ilə yenidən yaradıldı və paytaxt İrəvan şəhərinə köçürüldü*" [16].

Məhz həmin ildə – 1967-ci ilin fevral ayında Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinin tələbələri sənət müəllimləri Nəsir Sadıqzadə ilə birlikdə teatrın bərpası üçün İrəvana göndərildilər. Fədakar gənclər Cəfər Cabbarlının "Sevil" dramının qızğın məşqlərinə başladılar. Yerli teatr həvəskarlarının təcrübəli sənətkarları Cəmil Əliyev, Abbasqulu Tağıyev, istedadlı gənclərdən Elmira İsmayılova, Raya Qafarova, Səməd Abbasov truppaya qəbul edildilər. Naxçıvan teatrından Tariyel Qasımov, Aydın Şahsuvarov, Gəncə teatrından Zemfira Əliyeva, Nisə Əliyeva, Bakıdan Zərnişan Fətəliyeva, Tamilla Abdullayeva, Zemfira Sadıqova İrəvan teatrına çağırıldılar. Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrı 1967-ci il aprel ayının 28-də "Sevil" tamaşası ilə öz pərdələrini açdı. Bərpa olunan sənət ocağının ikinci həyatı başlandı. "Sevil" tamaşasının quruluşunu Nəsir Sadıqzadə vermişdi. Əsas rolları Zərnişan Fətəliyeva (Sevil), Tariyel Qasımov (Balaş), Zemfira Əliyeva (Gülüş) oynadılar. Teatrın açılışından bir qədər sonra Nəsir Sadıqzadə Bakıya qayıtdı. Teatrın baş rejissor kürsüsünü Azərbaycan Dövlət Teatr İnstitutunu yenicə bitirmiş Tofiq Ağayev tutdu [17].

İrəvan Dövlət Azərbaycan Dram Teatrı bərpa olunandan sonra onun yaradıcılığı iki mərhələyə bölündü: adını daşıdığı şəhərdəki fəaliyyəti (1967-1988); ermənilərin azəri türklərinə qarşı törətdikləri vəhşi soyqırımından sonra teatrın İrəvanı tərk edərək Bakı şəhərindəki yeni yaradıcılıq dövrü (1989-cu ildən bu günə qədər).

Məlum 1988-ci il hadisələrində erməni quldurları İrəvanda teatrı da yandırmışdılar. Bundan sonra İrəvan teatrı Azərbaycan Akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyət göstərməyə başlamış və Abşeron mədəniyyət sarayında yerləşdirilmişdir. Lakin 1995-ci ildə mədəniyyətimizin hamisi, Ulu Öndər Heydər Əliyevin qayğı və diqqəti ilə teatra yenidən dövlət statusu verilmişdir. Bu addım teatrın tarixi keçmişinin qorunması, ənənələrinin davam etdirilməsi, Qərbi Azərbaycanı özündə təcəssüm etdirən bir sənət məbədi kimi yaşaması istiqamətində atılan çox vacib bir addım idi. İrəvan teatrı bu gün də həm repertuar planı, həm də fəaliyyət dairəsi ilə tamaşaçıları olan bir teatr kimi fəaliyyət göstərir.

Beləliklə, belə bir qənaətə gəlmək olur ki, musiqili əsərlərin İrəvan teatrında tamaşaya qoyulması bu qədim diyarda musiqi sənətinə olan estetik tələbatı gücləndirmiş və səhnəyə olan marağı və istəyi xeyli artırmışdır. Eləcə də İrəvan Teatrı mədəniyyət mərkəzi kimi həm teatr, həm də musiqi sənətinin inkişafına böyük təsir göstərmişdir. Sonda bir daha vurğulamaq istərdik ki, bu teatr təkcə bir sənət ocağı, sənət məbədi kimi məhdudlaşmır, bu teatr həm də Qərbi Azərbaycanı – İrəvanı özündə tərənnüm və ifadə edir. Bu teatr Qərbi Azərbaycanı dünyada təmsil edə biləcək, orada qalmış torpaqlarımızı hər zaman yaşada biləcək və dünyaya çıxara biləcək mədəni-mənəvi bir sərvətimizdir.

Bu gün "Qərbi Azərbaycan İcması"na göstərilən dövlət qayğısı azərbaycançılıq ideyasının yaşadılması deməkdir. Biz də bu yolda bir yumruq kimi birləşərək öz həmrəyliyimiz və birliyimiz uğrunda əzmlə mübarizə aparmaqdan çəkinməyəcəyik! Çünki bu yol haqq yoludur.

ƏDƏBİYYAT

1. Bağırov, M., İrəvani, Ə. İrəvandan məktub. "İqbal" qəzeti, 30 noyabr 1912.
2. Bayramov, İ. Qədim Azərbaycan şəhəri İrəvan. Ankara: 2023, 210 s.
3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyənatlar, məktublar, müşavirələr. Bakı: Azərnəşr, 1997.
4. "Erivanski vestnik" qəzeti, 9 oktyabr, 1911-ci il
5. Həbibbəyli, İ.Ə. Cəlil Məmmədquluzadə (mühiti və müasirləri). Bakı: Azərnəşr, 1997, 424 s.

6. Qulamova, J.E. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarında musiqinin rolu və əhəmiyyəti. Bakı: Mars-Print, 2011, 200 s.
7. Mustafa, N. İrəvan şəhəri. Bakı: "Red N Line" MMC, 2020, 292 s.
8. Paşayev, A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, 31 s.
9. "Rencber" qəzeti, 10 noyabr 1922
10. Rəhimli, İ.Ə. İrəvan Dövlət Azərbaycan Dram Teatrı. Bakı: "E.L.MMC", 2007, 328 s.
11. Rəhimli, İ.Ə. Azərbaycan teatr tarixi. Dərslik. Bakı: Çaşıoğlu, 2005. 864 s.
12. "Sədayi-həqq" qəzeti, 12 sentyabr, 1914
13. Tağıbəyzadə, Ə. Bizde teatro. "Sədayi-həqq" qəzeti, 10 fevral 1913
14. "Тифлисский листок", 15 июня, 1911
15. Тадевос Хачатурович Акопян. Изд-во Ереванского университета, 1977, 492 с.
16. https://www.facebook.com/IrevandaTurkler/posts/2611778872231560:0
17. https://news.milli.az/society/105850.html – İki əsrlik tarixi yaşadan fədakar teatr

ABSTRACT

Jala GULAMOVA

MUSICAL STAGE WORKS PERFORMED IN THE IRAVAN THEATER IN THE FIRST HALF OF THE 20TH CENTURY

In the presented article, the issue of staging musical works in the Iravan theater in the middle of the 20th century was touched upon, and the important place of this theater, which has a deep history, in the cultural and artistic heritage of Azerbaijan is noted. The city of Iravan, once the center of the Azerbaijani Khanate of the same name, was one of the major cultural centers of Azerbaijanis in the 19th century. At the beginning of 1882, a high-level Azerbaijani theater was established in Iravan. This art center was the first theater in the Azerbaijani language created in Iravan. The outstanding educator and enlightener Firudin Bey Kocherli came to Iravan in 1885 and built a theater in 1886. With his structure and direction, the staging of many works became a big financial event with Yerevan. Yunis Nuri built the theater from 1895 to 1945, and his services to this financial institution are among the unforgettable pages of the theater. Many famous plays have been staged in the Yerevan theater over the years, and the theater has hosted many talented artists. In the formation and progress of the Yerevan theater, staging of musical stage works was of particular importance. Many musical comedies, as well as the works of a number of Azerbaijani composers, were often staged in the Iravan theater. In 1912, under the leadership of Zulfugar Hajibeyov, "Unmarried While Married", "Khor-Khor", "Fifty-Year-Old Young", "Karbalayi Shukur – the carpet seller " etc. musical comedies were played. In 1916, genious Uzeyir Bey's operas such as "Leyli and Majnun", "Asli and Karam", musical comedies such as "Husband and Wife", "O olasin, bu olsun" were successfully staged and created wide conditions for the development of musical art in Iravan. The Nakhchivan theater, which is one of the oldest centers of art in the Middle East, had great relations with the Iravan theater. To sum up, it can be concluded that the performance of musical works in the Iravan theater strengthened the aesthetic demand for musical art in this ancient land and greatly increased the interest and desire for the stage.

***Keywords**: Iravan theater, actor, musical works, cultural center*

QƏRBİ AZƏRBAYCANIN QARAKİLSƏ RAYONUNUN TURİZM EHTİYATLARININ CAZİBƏ ELEMENTLƏRİ

Əli CABBAROV
alijabbarov@ndu.edu.az
ORCID iD:0000-0001-9777-3664
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Turizmin humanitar funksiyalarından biri xalqlar arasında davamlı sülhün yaradılması və turizm ehtiyatlarından ümumbəşəri sərvətlər kimi istifadə olunmasıdır [2]. Bu baxımdan uzunmüddətli münaqişələr sonrası xalqları və onların dövlətlərini bir-birinə yaxınlaşdıran turizm, idman və mədəniyyətin gücündən istifadə bir çox hallarda siyasi yaxınlaşmadan da əvvəl gələrək mühüm tarixi proseslərə təkan verə bilir [1]. Bu məqalədə Ermənistanın məğlubiyyəti ilə bitən Qarabağ münaqişəsi sonrası Qərbi Azərbaycana qayıdış kontektsində Zəngəzurun turizm marağı baxımından tədqiqi Qərbi Zəngəzurun Qarakilsə rayonunun turizm ehtiyatları timsalında öyrənilmişdir.

Açar sözlər: *turizm, Qərbi Azərbaycan, Zəngəzur, Qarakilsə rayonu*

Turizm mədəniyyətlərarası dialoqun və qlobal sülhün yaranmasında mühüm vasitələrdən biridir. Harada yerləşməsindən asılı olmayaraq, turizm ehtiyatlarının öyrənilməsi və onların turizm məqsədilə istifadə olunması onun bu funksiyasından faydalanmağa kömək edir. Bu mənada tarixi Qərbi Azərbaycanda, indiki Ermənistan adlı ərazidə mövcud olan türk mənşəli yaşayış məntəqələri, qədim mədəniyyət nümunələri və təbii turizm ehtiyatları də bizim diqqətimizi cəlb edir.

Zəngəzur tarixi Azərbaycan torpaqlarıdır və ermənilərin Cənubi Qafqaza köçürülməsindən sonra gedən proseslərdə burada da yerli əhalinin sıxışdırılması nəticəsində regionun etnik tərkibi dəyişdirilmiş, yüz il əvvəl burada əksəriyyət təşkil etmiş azərbaycanlılardan hazırda bir nəfər də olsun qalmamışdır. Halbuki yaxın tarixdəki hadisələr, bu dövrə aid olan sənədlər Qərbi Zəngəzurun Mehri, Gorus, Qafan və Qarakilsə (Sisian) rayonlarında yaşamış azərbaycanlılar haqqında geniş məlumatlar verir [6]. Bu torpaqlarda yaşamış azərbaycanlıların xatirələri, əslən Qərbi Zəngəzurdan olan elm adamlarının əsərləri Zəngəzur və bütövlükdə Qərbi Azərbaycanın 11 mahalındakı azərbaycanlı yurd yerləri haqqında ciddi məlumatlar verir. Bunlara baxdıqda Qarakilsə rayonu haqqında da təsəvvür əldə etmək olar.

Ümumi ərazisi 4505 kvadratkilometr olan Zəngəzurun üçdə bir hissəsindən çoxu Qarakilsə rayonunun payına düşür. Rayon, eyni zamanda ərazisinə görə Qərbi Azərbaycanın da ən böyük rayonudur [4]. Cənub-şərqdən Gorus, cənubdan Qafan rayonu, şimal-qərbdən Dərələyəzin ən yüksək zirvəsi olan Şahbuz rayonunun Kükü dağı ilə həmsərhəd olub, dörd tərəfdən Zəngəzur və Bərgüşad silsilələri ilə əhatə olunub. Zəngəzurun ən bolsulu çayı olan Bazarçay bu rayonun ərazisindən keçir. Bazarçay axarı boyunca dar dərələrdən keçərək müxtəlif yerlərdə gözəl şəlalələr əmələ gətirir. Cənubi Qafqazdakı ən gözəl şəlalələrdən biri, 18 metr hündürlükdən tökülən Bazarçayın üzərində Şəki şəlaləsi də Qarakilsədədir.

Ermənilər Qarakilsəyə "Sisian" desələr də əslində, "Sisian" adı ilkin yazılı mənbələrin əksəriyyətində "Sisakan" kimi qeyd olunur. Bu ad ərəb, fars mənbələrində "Sisəcan", "Sisiyan", "Sisakan" şəklində çəkilmişdir [8]. Sisiyanda rast gəlinən, eradan əvvəl II-III minilliyə gedib çıxan qayaüstü rəsmlərin Krım və Qazaxıstan kurqanlarında tapılan rəsmlərə, Qobustan və Gəmiqaya abidələrinə oxşaması bu ərazilərin aborigen əhalisinin məhz türkdilli tayfalar, o cümlədən saklar olduğunu göstərir.

Saklar isə ən böyük türk tayfalarından olub, eradan öncə IV-III minilliklərdən başlayaraq Çinin şimalından, Tibetdən Qazaxıstana, Krıma, Qara dəniz sahillərinə, eradan öncə I minillikdə isə Qafqaza qədər yayılmışlar. Başqa sözlə, tarixi mənbələrə əsasən, X əsrə qədər Zəngəzurda bir nəfər də erməni olmamışdır [6].

Qarakilsə erkən orta əsrlərdən başlayaraq müxtəlif müharibələrin mərkəzində olmuşdur. Ərəblərə qarşı Babəkin son döyüşlərinin aparıldığı Urud qalası və Babəkin tutularaq xilafətə təhvil verildiyi Şəki qalası da Qarakilsə rayonunun ərazisindədir. Qala Bazarçayın sahilində, Darvaztəpə dağının zirvəsində yerləşir. Şəki qalası Azərbaycanda eramızdan əvvəl VII-V əsrlərdə məskunlaşan Saka adlı türk tayfasının adını qoruyub saxlayıb. Şəki qalası həm də Qızıl Arslanla Nizami Gəncəvinin görüş yeridir.

1828-30-cu illərdə buraya da xeyli sayda erməni ailələri köçürülüb, Qarakilsənin müxtəlif kəndlərinə

yerləşdirilib. Ancaq bununla yanaşı, rayondakı 58 yaşayış məntəqəsinin 53-də azərbaycanlılar yaşamışdır. 1918-ci ildə Andronikin terror dəstəsi burada yaşayan 12 min azərbaycanlıdan 5 minə yaxınını qətlə yetirmiş, sonrakı dövrlərdə də soydaşlarımız burada təzyiqlərə məruz qalmışdır. Nəticədə 1988-ci ilə qədər Qarakilsənin yalnız 11 yaşayış məntəqəsində azərbaycanlılar yaşayırdı. Qızılcıq, Sofulu, Murğuz, Şıxlar, Ağüdü, Bağüdü, Urud, Ərəfsə, Comərdli, Dəstəgird, Şəki burada min illər boyu yaşamış azərbaycanlıların son yurd yerləri olub. 1988-ci ilin sonlarında bu kəndlərin sakinləri də zorla köçürülüblər. Halbuki bu kəndlərin əhalisi bir zamanlar Qarakilsədə mədəni həyat sürüb, təsərrüfatla məşğul olublar. Belə ki, təkcə 2 min nəfərin yaşadığı Ağüdü kəndində 1988-ci ilə qədər 300 yerlik müasir mədəniyyət evi, 700 şagirdin təhsil aldığı məktəb olub [6].

Comərdli Qarakilsənin azərbaycanlılar yaşamış dağ kəndlərindən biridir. Kənddən keçən Xırda çayı Qarakilsənin Ərəfsə kəndindən keçən Dəli çaya qovuşur və Bazar çaya tökülür. "Comərdli" kəlməsi kəndin əsasını qoymuş Comərd adlı kişinin adı ilə bağlıdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ata yurdu olan Comərdli kəndində rəsmi statistikaya görə, 1988-ci ilə qədər 800 nəfərdən çox sakin yaşamışdır. 1918-ci ilin yayında Andronikin daşnak qoşunu Comərdli kəndinə də hücum etmiş, lakin sakinlərin sərt müqaviməti ilə rastlaşmışdır. Sovet dövründə Comərdlidə yaşayan azərbaycanlılar buradakı Şırran bulaq, Əli bulağı, Sarı bulaq, Xırda çay, Təknə göl, Laləli bulağı, Sandıq daş, Qoyun dağılan, Çala yurd, Dəvə boynu, Ərzurum, Gamışuçan, Vənlidərə, Sallıq, Qaravışdaşı, Əhmədyoxuşu, Səlimgədiyi kimi türk mənşəli adları qoruyub saxlamışlar. 1988-ci ilin dekabr ayında çox sayda tanınmış elm və ictimai xadimlərin vətəni olmuş Comərdli kəndini də ermənilər işğal və talan etdilər [6].

"Qarakilsənin Şəki kəndi Zəngəzurun ən qədim və ən böyük azərbaycanlı kəndlərindən biridir. Kənd özünün bulaqları ilə çox tanınır. Kəndin iki min ildən çox yaşı olduğu güman edilir. Kənddə Sovet hökuməti qurulana qədər böyük ruhani məktəbi olub. 1988-ci ildə bu kəndin 1700 nəfərə yaxın sakini də təzyiqlərə məruz qalıb, həmin ilin noyabrın 24-dən 25-nə keçən gecə Şəki camaatı bir gecədə öz doğma yurdlarından çıxarılıblar. Eyni faciəvi hadisələr rayonun Urud, Dəstəgird və digər kəndlərində də baş verib" [6].

Turizm baxımından Qarakilsədə mövcud olan ən mühüm tanışlıq obyekti buradakı Qoşundaş abidəsidir. Neolit dövrünə aid olduğu ehtimal edilən abidə dik dayanmış 200-dən artıq nəhəng daşlardan ibarətdir. Dairəvi formada düzülmüş daşların hündürlüyü təxminən 1,5-2,2 metr, eni 60-80 santimetrdir. Daşlarının bəzilərinin ağırlığı 10 tona qədər olan bu unikal abidəyə ermənilər sonralar iyrənc ad yapışdıraraq onu turistlərə tanıdır, külli miqdarda qazanc əldə edirlər. Ümumilikdə Qarakilsədə qayaüstü rəsmlər və daş qoç abidələr də geniş yayılıb ki, bunlar rayonun digər kəndlərində sıx rast gəlinməkdədir [7].

Uzun müddətdə öz ata-baba yurdlarından uzaq düşmüş insanların öz yaxınlarını və ya onların məzarlarını ziyarət etmək baxımından Zəngəzur və eləcə də bütün Qərbi Azərbaycan torpaqları buraları bir daha görmək istəyən azərbaycanlı turistləri özünə cəlb edəcək. Etnik baxımdan təəssüf ki, azərbaycanlıların burada yaşayan yaxınları daha qalmasa da, əvəzində hər kənddə, hər şəhərdə onlara doğma olan insanların məzarları vardır. Gələcəkdə Qərbi Zəngəzurun turizm ehtiyatları özünün bənzərsiz cazibədarlığı ilə hər bir azərbaycanlı səyahət sevərin diqqətində olacaq. Bu marşrut üzrə turistlər üçün maraqlı olan turizm növlərindən biri, şübhəsiz, etnik turizm olacaq. Kifayət qədər uzun müddətdə öz ata-baba yurdlarından uzaq düşmüş azərbaycanlıların öz yaxınlarını və ya onların məzarlarını ziyarət etmək üçün çıxdıqları səyahət növü olan etnik turizm bu mənada Zəngəzur və eləcə də bütün Qərbi Azərbaycan torpaqlarını bir daha görmək istəyən turistləri özünə cəlb edəcək. Etnik baxımdan təəssüf ki, azərbaycanlıların burada yaşayan yaxınları daha qalmasa da, əvəzində hər kənddə, hər şəhərdə onlara doğma olan insanların məzarları vardır.

Qərbi Azərbaycan ərazilərinin öyrənilməsinin xüsusi nəzəri və praktiki əhəmiyyəti vardır. Buradakı türk mənşəli toponimlər yerli xalqın - Azərbaycan türklərinin tarixini, türk tayfalarının adını (quqark, gorus, sak, aynın, qıpçaq, qaraqoyunlu, şirak, peçenek, axta, kəvər və s.) əks etdirir.

Tarixi mənbələrə əsasən, indi Ermənistan adlanan tarixi Qərbi Azərbaycanın torpaqları Azərbaycan türklərinin ərazileridir. Buna görə də xalqımızın Qərbi Azərbaycana olan marağı hər bir azərbaycanlının min illər ərzində formalaşmış Vətən sevgisinin məhsulu kimi dəyərləndirilməli və bütün dünya da bunu belə qəbul etməlidir. Bununla yanaşı, qeyd edək ki, təəssüf ki, buradakı təbii və tarixi-mədəni turizm ehtiyatları hazırda Ermənistan tərəfində istismar olunub, bu ölkə iqtisadiyyatına külli miqdarda gəlir qazandırır. Çünki təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953,1988-1991) azərbaycanlılar indiki Ermənistan ərazisindən – tarixi-etnik torpaqlarından zorla deportasiya olunmuş, soyqırımına məruz qalmışlar. "Türksüz Ermənistan" uğrunda mübarizə aparan ermənilər və onların ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci il avqustun 8-də Nüvədinin də boşaldılması ilə başa çatdıraraq monoetnik Ermənistana nail olmuşlar. Həmin vaxtdan da ermənilər yer adlarımızı dəyişdirərək erməni mənşəli adlarla əvəz etmiş, Azərbaycan türklərinin bu ərazidəki izlərini tarixdən silməyə çalışmışlar.

ƏDƏBİYYAT

1. Jabbarov, A. Zulfugarov Z. (2015) Tourism in XXI Century: The Powerful Peacemaker Against "Great Nation" Threat. J Tourism Hospit 4: 169. doi:10.4172/21670269.1000169 https://www.longdom.org/open-access-pdfs/tourism-in-xxi-century-the-powerful peacemakeragainst-greatnation-threat-2167-0269-1000169.pdf
2. MANILA DECLARATION ON WORLD TOURISM https://www.univeur.org/cuebc/downloads/PDF%20carte/65.%20Manila.PDF
3. Qərbi Azərbaycan icması. Qayıdış konsepsiyası. Bakı: 2023 https://azertag.az/store/files/2023/yanvar/26.01.23/QA%C4%B0-AZ.pdf
4. Cabbarov, Ə. Zəngəzurun turizm potensialı. "Respublika" qəzeti. 22 yanvar, 2023. https://respublika-news.az/news/1674374077-zengezurun-turizm-potensiali
5. Budaqova, S. Zəngəzurun tarixi coğrafiyası və bu günü. Zəngəzurun tarixi və coğrafiyası. Beynəlxalq elmi konfrans. Bakı: 2023. https://aem.az/uploads/files/2023 08/1691780479_zengezur.pdf
6. Budaqov, B. Историческая география Западного Азербайджана. Изд-во Азербайджан. Баку: 1998. 560 стр https://history.az/pdf.php?item_id=20091230062721005&ext=pdf
7. Cabbarov, Ə. Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu (I hissə). Bura Naxçıvandır. Publisistik məqalələr toplusu. 425 s. "Əcəmi" 2021. https://kitabxana.net/files/books/file/1643816279.pdf
8. Nərimanoğlu Hacı. Zəngəzur: 100 sual, 100 cavab. Bakı: 2019. https://zengezur.com/KITABLAR/Zengezur-kitab-1.pdf

ABSTRACT

Ali JABBAROV

ATTRACTION ELEMENTS OF TOURISM RESOURCES OF GARAKILSA REGION OF WESTERN AZERBAIJAN

One of the humanitarian functions of tourism is the creation of sustainable peace between nations and the use of tourism resources as universal resources. In this regard, using the power of tourism, sports and culture, which brings peoples and their states closer to each other after long-term conflicts, can in many cases come before political rapprochement and give impetus to important historical processes. In this article, in the context of the return to Western Azerbaijan after the Karabakh conflict, which ended with the defeat of Armenia, the study of Zangezur from the point of view of tourism interest is studied on the example of the tourism resources of Garakilsa district of Western Zangezur.

Keywords: *tourism, Western Azerbaijan, Zangezur, Karakilsa district*

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞIN AZƏRBAYCAN TURİZMİNİN İNKİŞAFI VƏ TARİXİ-MƏDƏNİ İRSİNİN QORUNMASI BAXIMINDAN ƏHƏMİYYƏTİ

Flora KƏRİMOVA
florakerimova@ndu.edu.az
ORCID iD:0009-0005-2884-025X
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycana qayıdış Azərbaycan turizmi və onun zəngin tarixi və mədəni irsinin qorunub saxlanması üçün mühüm əhəmiyyət kəsb edir. Müxtəlif mənzərələri, tarixi yerləri və mədəni əhəmiyyəti ilə tanınan bu region Azərbaycanın turizm sektorunu inkişaf etdirmək üçün böyük potensiala malikdir. Qərbi Azərbaycanı geri qaytarmaqla Azərbaycan tarixi əhəmiyyəti və memarlıq gözəlliyi ilə tanınan əlamətdar yerlərə çıxış əldə edir. Bu yerlərin bərpası və təbliği yerli və beynəlxalq turistləri cəlb etməklə yanaşı, həm də dövlətin mədəni kimliyinin qorunub saxlanmasına töhfə verir. Bundan başqa, geri qaytarma Azərbaycanın irsinin ayrılmaz hissəsi olan mədəniyyət nümunələrinin və abidələrin mühafizəsini təmin edir. Bu məqalədə Qərbi Azərbaycanın bərpasının turizmin inkişafına və mədəni irsin qorunub saxlanmasına çoxşaxəli təsirləri araşdırılır, onun ölkənin mədəni povesti və iqtisadi inkişafı üçün əhəmiyyəti vurğulanır.

Açar sözlər: *Qərbi Azərbaycan, tarixi və mədəni irs, iqtisadi təsir, turist infrastrukturu, nəqliyyat şəbəkələri, beynəlxalq əlaqələr*

Giriş

Qərbi Azərbaycana qayıdış Azərbaycan tarixində mühüm məqamdır, həm onun turizm sənayesi, həm də zəngin mədəni və tarixi irsinin qorunub saxlanması üçün dərin təsirləri var. Onilliklər boyu davam edən köçkünlük və münaqişələrdən sonra bu regionun bərpası təkcə ərazi bütövlüyünün bərpası demək deyil, həm də turizm vasitəsilə mədəni canlanma və iqtisadi artım üçün yeni qapılar açır. Tarixən Azərbaycanın ayrılmaz hissəsi olan bu regionda çoxdan əlçatmaz olan mədəni abidələr, arxeoloji abidələr və təbiət möcüzələri var [3].

Yaşıl vadilərdən tutmuş sıldırımlı dağlara qədər müxtəlif mənzərələri ilə tanınan Qərbi Azərbaycan əsrlər boyu tarixi və mədəni abidələrə malikdir. Bunlara Azərbaycanın canlı keçmişindən və sivilizasiyaların kəsişməsindəki mövqeyindən danışan qədim şəhərlər, arxeoloji sərvətlər və memarlıq möcüzələri daxildir. Bu bölgənin geri qaytarılması təkcə bu ərazilərin fiziki olaraq qorunub saxlanmasına imkan vermir, həm də onları dünyaya nümayiş etdirmək imkanı verir, Şərq və Qərb təsirlərinin unikal qarışığını araşdırmaq istəyən turistləri cəlb edir [7].

Bundan əlavə, Qərbi Azərbaycanda turizm infrastrukturunun inkişafı yerli iqtisadiyyatları stimullaşdırmağa, iş yerlərinin yaradılmasına və davamlı artıma təkan verəcək. Azərbaycan qonaqpərvərlik, nəqliyyat və xidmət sahələrinə sərmayə qoymaqla ziyarətçilərə rahat və zənginləşdirici təcrübə təklif edə, eyni zamanda yerli icmaların artan iqtisadi fəallıqdan faydalanmasını təmin edə bilər.

Əslində Qərbi Azərbaycana qayıdış ərazi dəyişikliyindən daha çox şey deməkdir; o, mədəni irsin qorunması, iqtisadi inkişafı təşviq etmək və turizm vasitəsilə beynəlxalq anlaşmanı təşviq etmək öhdəliyini təcəssüm etdirir.

Qərbi Azərbaycana qayıdış Azərbaycanın tarixi və mədəni irsi üçün, xüsusilə turizm kontekstində mühüm əhəmiyyət kəsb edir. Bu vacibliyi vurğulayan bir neçə əsas məqam var:

1. Mədəni və tarixi əhəmiyyəti:

– Qərbi Azərbaycan Azərbaycanın mədəni və tarixi kimliyi ilə sıx bağlıdır. Burada Azərbaycan tarixinin çoxəsrlik tarixini əhatə edən çoxsaylı mədəniyyət obyektləri, tarixi abidələr və memarlıq sərvətləri var [5].

– Azərbaycan musiqisinin, incəsənətinin və ədəbiyyatının mərkəzi kimi böyük mədəni dəyərə malik olan şəhərlər regionun mədəni povestinin ayrılmaz hissəsidir.

2. Turizm potensialı:

– Qərbi Azərbaycanın Azərbaycanın nəzarətinə qaytarılması regionda turizmin inkişafı üçün yeni imkanlar açmaqla, münaqişə zamanı məhv olmuş, zədələnmiş və ya əlçatmaz olan zəngin mədəni irsin bərpasına və tarixi yerlərin nümayişinə şərait yaradacaqdır.

– Turistlər zəngin mədəni və tarixi əhəmiyyətə malik olan istiqamətlərə cəlb oluna, unikal təcrübə və yerli adət-ənənələr, incəsənət haqqında maraqlı və tarixi məlumatlar əldə edə biləcəklər [1].

3. Qoruma və bərpa:

– Yenilənmiş nəzarətlə münaqişə dövründə baxımsız və ya zədələnmiş ola biləcək mədəniyyət obyektlərini və abidələri qorumaq və bərpa etmək imkanı var. Bu bərpa nəinki həmin obyektlərin cəlbediciliyini artırır, həm də onların gələcək nəsillər üçün uzunömürlü olmasını təmin edir.

– Mədəni qorunma səylərinə konservasiya layihələri, muzeylərin inkişafı və ənənəvi sənət və sənətkarlığın canlandırılması təşəbbüsləri daxil ola bilər [4].

4. Mədəni diplomatiyanın təşviqi:

– Mədəni irs diplomatiya və beynəlxalq münasibətlərdə həlledici rol oynayır. Qərbi Azərbaycanın mədəni zənginliyini təbliğ etməklə Azərbaycan qlobal səhnədə yumşaq gücünü və mədəni diplomatiya səylərini gücləndirə bilər [9].

– Turizm mədəniyyətlər arasında körpü rolunu oynayır, müxtəlif mənşəli ziyarətçilər arasında anlaşma və qiymətləndirməni gücləndirir.

5. İqtisadi faydalar:

– Qərbi Azərbaycanda turizmin inkişafı iş yerləri yaratmaq, yerli biznesi dəstəkləmək və turist xərcləri hesabına gəlir əldə etməklə iqtisadi artımı stimullaşdıra bilər [2].

– Nəqliyyat şəbəkələri və qonaqpərvərlik xidmətləri kimi infrastrukturun inkişafı regionda iqtisadi fəallığı daha da artıra bilər [8].

Yekun olaraq qeyd edək ki, Qərbi Azərbaycana qayıdış Azərbaycanın turizm sektoru üçün böyük əhəmiyyət kəsb edir və onun zəngin mədəni və tarixi irsini dünyaya nümayiş etdirmək imkanları yaradır. Bu sərvətləri qorumaq, bərpa etmək və təbliğ etməklə Azərbaycan nəinki turistləri cəlb edə, həm də öz mədəni kimliyini və beynəlxalq nüfuzunu gücləndirə bilər.

Nəticə

Qərbi Azərbaycana qayıdış təkcə Azərbaycan turizmi üçün deyil, həm də onun zəngin tarixi və mədəni irsinin qorunub saxlanması baxımından mühüm məqamdır. Bu region özünün dərin tarixi əhəmiyyəti və müxtəlif mədəni qobelenləri ilə Azərbaycanın parlaq keçmişinə və perspektivli gələcəyinə sübutdur. Turizm nöqteyi-nəzərindən Qərbi Azərbaycan münaqişələr səbəbindən çoxdan əlçatmaz olan attraksionlar xəzinəsini təklif edir. Çoxəsrlik memarlığı və mədəniyyət mərkəzi statusuna malik qədim Şuşa şəhəri indi səyahətçiləri onun mərtəbəli küçələrini və görməli yerlərini kəşf etməyə həvəs göstərir. Təbii gözəllikləri və tarixi yerləri ilə ətraf bölgə macəra və kəşflər üçün geniş imkanlar yaradır və dünyanın hər yerindən ziyarətçiləri cəlb edir [6].

Üstəlik Qərbi Azərbaycana qayıdış iqtisadi imkanlardan daha çox şey deməkdir; bu, Azərbaycanın irsinin qorunması öhdəliyini ifadə edir. Tarixi yerləri canlandırmaq və mədəni turizmi təşviq etməklə Azərbaycan gələcək nəsillərin öz kökləri ilə əlaqə saxlamaq və əcdadlarının əbədi irsini qiymətləndirmək şansına malik olmasını təmin edə bilər [10].

Yekun olaraq, Qərbi Azərbaycana qayıdış Azərbaycan üçün yeni yüksəliş və mədəni dirçəliş dövrünü müjdələyir. Azərbaycan öz tarixi və mədəni sərvətlərinin potensialından istifadə etməklə təkcə turizm sənayesini zənginləşdirməklə kifayətlənmir, həm də irsinin gələcək nəsillər üçün qorunub saxlanmasına sadiqliyini bir daha təsdiqləyir. Bu əlamətdar qayıdış mədəni davamlılığın təntənəsi deməkdir və keçmişin əziz tutulduğu və qeyd olunduğu bir gələcək vəd edir.

ƏDƏBİYYAT

1. https://respublika-news.az/news/1674374077-zengezurun-turizm-potensiali
2. https://sia.az/az/news/karabakh/976701.html
3. https://www.geostrategiya.az/news.php?id=187
4. https://zengezur.com/KITABLAR/Sherqi-Zengezur-A5.pdf
5. https://files.preslib.az/projects/zangazur/az/e2.pdf
6. https://serqqapisi.gov.az/xeberler/qerbi-azerbaycana-qayidisin-yol-xeritesi-tarixe-baxis
7. https://stm.az/az/news/1264/qerbi-azerbaycana-qayidis-tarixi-torpaqlarda-maddi-medeni-irsimiz-kitabinin-ii-cild-teqdimat-tedbiri-kecirilib
8. https://xalqqazeti.az/az/siyaset/176298-qerbi-azerbaycana-qayidis-tarixi-zeruretdir
9. http://anl.az/el/emb/Qerbi_Azerbaycan/Konsepsiya.htm
10. https://ndu.edu.az/public/wp-content/uploads/Yeni%20Fikir/yereniii9%20aprel.pdf

ABSTRACT

Flora KARİMOVA

THE SIGNIFICANCE OF THE RETURN TO WEST AZERBAIJAN IN TERMS OF THE DEVELOPMENT OF AZERBAIJANI TOURISM AND THE PRESERVATION OF HISTORICAL-CULTURAL HERITAGE

The return to Western Azerbaijan is an important moment for Azerbaijan tourism and the preservation of its rich historical and cultural heritage. Known for its diverse landscapes, historical places and cultural importance, this region has great potential to develop the tourism sector of Azerbaijan. By returning Western Azerbaijan, Azerbaijan gets access to significant places known for their historical importance and architectural beauty. The restoration and promotion of these places not only attracts local and international tourists, but also contributes to the preservation of Azerbaijan's cultural identity. In addition, restitution ensures the protection of cultural examples and monuments that are an integral part of Azerbaijan's heritage. This article examines the multifaceted effects of the restoration of Western Azerbaijan on the development of tourism and the preservation of cultural heritage, emphasizing its importance for the country's cultural narrative and economic development.

Keywords: *Western Azerbaijan, historical and cultural heritage, economic impact, tourist infrastructure, transport networks, international relations*

QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALININ TARİXİNƏ BAXIŞ

Rövşən BAĞIROV[1]

Nizami QULİYEV[1]

Mirsəlim EMİNOV[2]

[1] *Naxçıvan Dövət Universiteti*
[2] *AMEA Naxçıvan Bölməsi*

XÜLASƏ

Qədimdən bəri türklərin yurdu, Qərbi Azərbaycanın dilbər guşələrindən olan Dərələyəz mahalının tarixi, toponimi barəsində bir neçə fikir var. Bu mahalın 200 illik tarixində baş vermiş ərazi dəyişikliyi, köçürülmə, soyqırım hadisələrinə diqqət yetirilmişdir. Dərələyəz toponimi ilə bağlı mövcud fikirlər nəzərdən keçirilərək daha dəqiqi müəyyənləşdirilmişdir. Məqalədə Dərələyəz mahalının tarixi həqiqətləri, toponimi və ermənilərin saxta faktları da göstərilib. Bu diyarın qədimliyinə, həqiqətlərinə, ermənilərin bura köçürülməsinə şahidlik edənlərdən biri də Rövşən Bağırov olmuşdur.

Açar sözlər: *Qərbi Azərbaycan, Dərələyəz, Moz şəhəri, Şərur, toponim*

Əzəli Azərbaycan torpağı və xain düşmənlərimiz ermənilər üçün üzərində dövlət yaradılmış böyük bir mahalın sərhəd nöqtələri aşağıdakılardır: Şərqdə Zəngəzur, qərbdə Vedibasar, şimalda Göyçə, cənubda Naxçıvan ilə həmsərhəd olan Dərələyəz. Dərələyəz mahalının ərazisi 2308 kvadrat kilometrdir. XVIII, XIX və XX əsrin əvvəllərinə qədər həmin ərazilərdə ermənilər yaşamamışdır. Dərələyəzin qədim Azərbaycan torpağı olması çox da uzaq olmayan keçmişdə tarixi sənədlərdən, toponimlərindən, arxeoloji, mədəni, dini abidələrindən məlumdur. Bu mahal təbiəti, coğrafi quruluşu, havası, suyu, təbii nemətləri ilə Naxçıvanla Göyçə arasında sanki cənnətin bir guşəsinə bənzəyir. Cənubi Qafqazı tamamilə gəzən, milliyyətcə fransız olan rus etnoqrafı, dünyaşöhrətli İvan Şopen bu mahalın dağlarını, dərin dərələrini, dağ çaylarını, güllü-çiçəkli çəmənlərini gördükdən sonra Dərələyəzi "Qafqazın İsveçrəsi" adlandırmışdı.

Dərələyəzin dağlarında bitən və geniş yayılmış "Ələyəz" adlı bir bitki var, sakinlər ondan ərzaq məhsulu kimi istifadə edirlər. Dərələyəz mahalında Ələyəz dərəsində Ələyəz adında kənd də vardır. Yalnız bu mahala məxsus "Ələyəz mehi və yeli" deyimindən ata-babalarımız çox işlədərdi. Ələyəz bitkisi sakinlərin məişətində ciddi yer tutub. Ona görə də "Dərələyəz" toponiminin "Ələyəz bitkisinin bol olduğu dərə" anlamını verməsi fikri olsa da, bütün tədqiqatçılar tərəfindən qəbul edilən deyil [1].

Dərələyəz adı ilk dəfə Şərəf xan Bitlisinin 1596-ci il qələmə aldığı "Şərəfnamə" əsərində "Dərəyi əl kis" şəkildə qeydə alınıb. Daha sonra Osmanlı dövlətinin 1590-cı ildə qeydə aldığı müfəssəl dəftərində inzibati ərazi kimi göstərilib [4]. Osmanlı imperiyası dövründə Dərələyəz kəndlərin adı ilə bərabər, kənd sakinlərindən alınan vergilərə aid sənədlər bu gün də Türkiyə arxivlərində qalmaqdadır [4].

Dərələyəz sözü ilə bağlı digər fikir isə toponimin "iki dağ və ya təpə arasında, çuxur" mənasında işlənən dərə sözü ilə alagöz türk etnonimi əsasında yaranmasıdır. Oykonimini isə alagöz tayfa adını əks etdirən etnotoponim kimi izah edir. XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Teymurxanşura dairəsində Alagöz, Naxçıvan qəzasında Alagöz-Məzrə, Şərur-Dərələyəz qəzasında Alagöz kənd xarabalığı, Qars əyalətinin Kaqızman dairəsində Alagöz kənd xarabalığı, Şərur-Dərələyəz qəzasında Alagöz çayı, Qars əyalətinin Ərdəhan dairəsində Alagöz adları ilə mənşəcə eynidir. Adın birinci komponenti olan ala sözü türk dillərində "geniş, böyük, uca" mənasında işlənir [2].

Başqa fikir isə bu toponimin Dərə və Ələyəz sözləri birləşərkən "ə" saitinin birinin düşməsi ilə formalaşmasıdır. Türk dillərində ala//ələ sözü uca, yüksək mənasını ifadə edir. "Dərələyəz" sözü uca, yüksək, böyük dərələrdə olan kaslar, xəzlər, ğuzlar, oğuzlar, azlar, uzlar mənasında işlənir [2].

Tədqiqatçı Nazir Əhmədli öz tədqiqatlarında Dərələyəz adının tarixini və izahını daha geniş tədqiq etmişdir. O qeyd edir ki, Dərələyəzdə Keşkənd ərazisində Moz adlı bir şəhər olub, tarixi məlumatlarda bu şəhərdə 10 minə yaxın insan yaşadığı göstərilir. 735-ci ildə baş vermiş güclü zəlzələdə şəhər tamamilə dağılmış, insanları isə ölmüşdür. Mən də xatırlayıram ki, İrəvana gedən yolun üstündəki vulkanik qayalı, daşlı yerə babalarımız "Mozun qalıqlarıdı", -deyərdi [R.B]. Bu faciəvi zəlzələ hadisəsindən sonra insanlar bu dərəni vay dərəsi adlandırıb. Oğru xislətli ermənilər isə "vaydərəsi" ifadəsini oğurlayıb tərcümə edərək vayotdzor adlandırıb. Tədqiqatçı Nazir Əhmədli Moisey Xorenatsi (Xorenli) əsərlərində saxta "vayotdzor" ifadəsinin

işlətməsinə və Moiseyin yaşadığı dövrə aydınlıq gətirib. Moisey Xorenatsi "vayotdzor" ifadəsini işlədirsə və zəlzələ 735-ci ildə baş veribsə, Moiseyin Xorenatsinin yaşadığı dövr 8-ci əsrdən əvvəl ola bilməz [4]. Halbuki ermənilər onun V-VI-VII əsrdə yaşadığını iddia edirlər.

Dərələyəzin Azərbaycandan qoparılıb ermənilərə verilməsi çirkin planın uzun illər davam etməsi nəticəsində baş verib. Bu planın reallaşması üçün Dərələyəzdə yaşayan əhalinin soykökünün dəyişdirilməsi, başqa bölgələrə köçürülməsi, zor tətbiq edilməsi, hətta qırğın törədilməsi kimi insanlığa sığmayan yollara əl atılmışdır. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra ermənilər minilliklər ərzində azərbaycanlıların yaşadığı Qərbi Azərbaycan ərazisinə, o cümlədən Dərələyəz mahalına kütləvi surətdə köçürülməyə başlanılmış, çar Rusiyası imperiyasının dəstəyi ilə azərbaycanlılar öz dədə-baba torpaqlarından tədricən sıxışdırılıb çıxarılmış, beləliklə də, orada yaşayan azərbaycanlılar dəfələrlə deportasiyaya məruz qalmışlar.

Qeyd edək ki, ermənilərin sayını artırmaq üçün təkcə ermənləri bu yerlərə köçürməklə deyil, eyni zamanda azərbaycanlıları da müxtəlif yollarla öz yurdlarından didərgin salırdılar. Nümunə kimi 1980-ci illərdə Keşişkənd rayonu ərazisində olan Qalaser və Gədikvəng kəndlərinin sürüşməsi adı ilə tamamilə köçürülməsini göstərə bilərik. Qərbi Azərbaycanda erməni dövlətinin yaradılması və Naxçıvanın da buraya daxil edilməsi üçün Azərbaycanla Naxçıvanın əlaqəsini kəsmək lazım idi. XIX əsrin 20-ci illərində Dərələyəzin ermənilərə verilməsi Zəngəzurdan əvvəl başlamış bir planın ilk addımlarından biri idi.

1728-ci ildə Osmanlı tərəfindən tərtib edilən "İrəvan əyalətinin icmal dəftəri"nə görə Dərələyəz və Şərur nahiyə, Şörəyel (Şürəgəl) və Naxçıvan isə sancaq kimi göstərilib. XIX əsrdə sonuncu olaraq Naxçıvan və İrəvan xanlıqlarının süqutundan sonra 1875-ci ildə isə Şərur və Dərələyəz nahiyələri birləşdirilərək Şərur-Dərələyəz qəzası yaradılır [3]. Qeyd edək ki, Şərurdan başlanan tarixi karvan yolunun bu mahaldan keçərək Kəlbəcər ərazisində sona çatması tarixi bir həqiqətdir. Dərələyəz mahalının özünü də tədqiqatçılar "Şərqi Dərələyəz və Qərbi Dərələyəz", - deyə adlandırırlar. Şərqi Dərələyəz Ermənistanın tərkibində qalsa da, bu gün Qərbi Dərələyəzin Aşağı və Yuxarı Yaycı, Axura, Havuş, Danzik, Gümüşlü və s. kəndləri Şərur rayonunun tərkibindədir. Əvvəllər Dərələyəz mahalının 106 kəndi olmuşdur. Lakin XIX əsrin 30-cu illərində isə bu kəndlərin bəziləri ermənilərə verilərək sayı azaldılmışdır.

Bəzi tarixi mənbələrə görə və dünya görmüş ağsaqqalların bizə çatdırdığı məlumata əsaslanaraq qeyd edə bilərik ki, hətta Keşkənd ərazisində o zaman Teymurləng ordusunun məskunlaşdığı yerdə Məlikşah adlı kənd yaradılıb. Zaman keçdikcə ermənilər kəndin adını "Məlişgə" adlandırıblar.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, bu günə qədər Dərələyəz mahalını tədqiq edən alimlərin yekdilliklə fikirləri odur ki, Dərələyəz coğrafi ərazisinə görə tarixən azərbaycanlıların yurdu olmuş, toponim adlarına görə isə yaranmasında Azərbaycan mənşəli sözlərin birləşməsindən əmələ gəlib. Dərələyəzlə bağlı tədqiqatlar aparılsa da, daha öyrənməli çox məlumat vardır.

ƏDƏBİYYAT

1. https://ikisahil.az/post/432658-qedim-dogma-yurdumuz-dereleyez
2. https://axar.az/news/layiheler/581696.html
3. https://westaz.org/az/qerbi-azerbaycan/tarix
4. Əhmədli, N. Dərələyəz mahalının kameral təsviri. Bakı: Elm və təhsil, 2017, 299 s.

ABSTRACT

Rovshan BAGHİROV, Nizami GULİYEV,
Mirsalim EMİNOV

OVERVIEW TO THE HISTORY OF DARALAYAZ DISTRICT OF WESTERN AZERBAIJAN

There are several ideas about the history and toponymy of Daraleyaz district, one of the charming corners of Western Azerbaijan, home of the Turks since ancient times. Territorial change, resettlement, and genocide events that occurred in the 200 year history of this district are highlighted. The existing ideas about the toponym of Deraleaz have been reviewed and defined more precisely. In the article, the historical truths, toponyms and false facts of the Armenians of Deraleyaz district are also shown. The author himself witnessed the antiquity of this land, its truths, and the resettlement of Armenians here.

Keywords: *West Azerbaijan, Deraleaz, Moz city, Sharur, toponym*

QƏRBİ AZƏRBAYCANIN MADDİ VƏ MƏNƏVİ İRSİ

Fəxriyyə HƏVİLOVA
fexriyyehavilova@mail.ru
fakhriyyahavilova@bsu.edu.az
ORCID iD: 0000-0003-1774-7461
Bakı Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın maddi və mənəvi irsi, onun tarixi kökləri və Azərbaycan xalqının etnogenezi ilə bağlılığı geniş şəkildə araşdırılır. Müəllif qeyd edir ki, Ermənistan ərazisində azərbaycanlılara məxsus minlərlə tarixi-mədəni abidə, məscid, qəbiristanlıq və yaşayış məskənləri dağıdılmış, bir çox toponimlər dəyişdirilmişdir. Təpəbaşı məhəlləsi, Şinuayr (Gülab), Əldərə kimi qədim yaşayış məntəqələrinin məhv edilməsi mədəni vandalizmin nümunəsi kimi təqdim olunur. Məqalədə antropoloji, arxeoloji və etnoqrafik faktlar əsasında Qərbi Azərbaycanın qədimdən Azərbaycan türklərinin yaşadığı ərazi olduğu vurğulanır. Araşdırmada yaşayış məskənləri, ev tipləri, geyimlər, yeməklər, təsərrüfat həyatı və xalq məişəti kimi maddi mədəniyyət nümunələri geniş təsvir edilir. Qaradam, daxal, alaçıq kimi ənənəvi ev tipləri, milli geyimlər və Azərbaycan mətbəxinə aid xəngəl, dolma, lavaş kimi yeməklər bölgənin qədim türk-mədəni irsinin tərkib hissəsi kimi təqdim olunur. Həmçinin aşıq yaradıcılığı, xüsusilə Göyçə aşıq məktəbinin Azərbaycan mənəvi mədəniyyətində mühüm rolu qeyd edilir. Məqalənin nəticəsində vurğulanır ki, Qərbi Azərbaycanın maddi və mənəvi irsi ümum-Azərbaycan və ümumtürk mədəniyyətinin ayrılmaz hissəsidir.

Açar sözlər: *Qərbi Azərbaycan, maddi-mənəvi irs, Azərbaycan mədəniyyəti, etnoqrafiya, mədəni vandalizm, milli geyimlər, Azərbaycan mətbəxi, aşıq sənəti, Göyçə aşıq məktəbi, toponimlər.*

Giriş

Məlum olduğu kimi, hər bir xalqın mədəni irsi özündə onun maddi və mənəvi dəyərlərini əks etdirir. Mədəni irs elə bir sərvətdir ki, onun mühafizəsi, qorunması və təbliği beynəlxalq birlik qarşısında müvafiq öhdəliklər götürmüş hər bir dövlətin vəzifəsidir. Milli mədəni irsimiz Azərbaycan dövlətinin prioritetləri arasında xüsusi yer tutur. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması ilə bağlı verilən göstəriş və konsepsiyanın hazırlanması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətin tərkib hissəsidir. Sözügedən konsepsiyanın "Mədəni irsin bərpası və qorunması" adlı maddəsində bildirilir ki, *"Qərbi Azərbaycan İcması BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsin vəziyyətinin dəyərləndirilməsinə, o cümlədən zərər vurulmuş və yer üzündən silinmiş mədəni irs nümunələrinin siyahısının hazırlanmasına və Ermənistan hökumətinin onları bərpa etmək və qorumaq öhdəliyini icra etməsinə nail olmaq üçün səy göstərəcək"* [6].

Qərbi Azərbaycanın maddi və mənəvi irsinin qorunması

Bildiyimiz kimi, təcavüzkar Ermənistan ötən əsrin 90-cı illərində milli-mədəni irsimizin dağıdılması, tarixi torpaqlarımızdan Azərbaycan izinin silinməsi məqsədilə hər növ çirkin əmələ əl atıb. İndiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsinin, 500 qəbiristanlıq, 391 məscidin tamamilə dağıdılması bu vandallıq aktının bariz göstəricisidir.

Bu gün arxiv sənədlərinin araşdırılması, Qərbi Azərbaycan torpaqlarında xalqımıza məxsus milli-mədəni, tarixi irs haqqında tədqiqatların aparılması, aidiyyəti nəşrlərin çap etdirilməsi və beynəlxalq aləmdə təbliği istiqamətində mühüm işlər görülür. Qeyd etmək yerinə düşər ki, əzəli torpaqlarımız olan İrəvan, Zəngəzur və digər ərazilərdə Azərbaycana məxsus tarixi-mədəniyyət abidələrinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırımı ilə əlaqədar olaraq, Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndəsi UNESCO-ya müraciət ünvanlayıb.

Ermənistan rəhbərliyinin göstərişi ilə Zəngəzurun Qafan, Mehri, Xot, Şinuayr, Əlidərə inzibati yaşayış məntəqələrində yüzlərlə viran qoyulmuş tarix və mədəniyyət abidəsinin xarabalıqları bu gün də qalmaqdadır. Sözügedən ərazilərin Azərbaycanın mədəni irs nümunələrindən təmizlənərək kütləvi vandalizmə məruz qalmasını əldə olunmuş dəlillər tam təsdiqləyir.

Qədim Azərbaycan şəhəri İrəvanın Təpəbaşı məhəlləsi də bu cinayət əməllərinin qurbanı olmuş,

ərazidəki bütün infrastruktur və abidələr erməni vandalları tərəfindən məhv edilmişdir. "Şəhər içində şəhər" adlandırılan, İrəvan şəhərinin mərkəzi hesab edilən Təpəbaşı Şərq üslubunda tikilmiş, bu gün heç birindən əsər-əlamət qalmamış məscidi, 300-dən çox yaşayış evi, xanlara, bəylərə məxsus imarətləri ilə məşhur olmuşdur. Xüsusi qeyd edilməlidir ki, İrəvanın digər yaşayış massivlərində olduğu kimi, Təpəbaşının etnik tərkibində də azərbaycanlılar həmişə üstünlük təşkil etmişlər.

Azərbaycan ərazisi olduğu halda 1930-cu ildə əsassız bir şəkildə Ermənistana bağışlanan Şinuayr kəndinin (əsl adı Gülab) də bütün dövrlərdə etnik tərkibi Azərbaycan türklərindən ibarət olmuşdur. İctimai binası, məscidi və 300-dən çox yaşayış evi olmuş kəndin XVII əsrdə salındığı iddia olunsa da, ərazisindən tapılan və eramızdan əvvəl I-II minilliyə aid edilən Azərbaycan mədəniyyətinə məxsus bədii daş nümunələr, at-qoç fiqurlar, eləcə də alban dövrü daş sənduqə və kitabələr onun tarixinin daha qədim olduğundan xəbər verir.

Ermənilər qədim Azərbaycan torpağında – Qərbi Zəngəzur ərazisində yerləşən Əldərə qalasını və bu qalanın yerləşdiyi kənddəki bütün digər abidələri də deformasiyaya uğradaraq özününküləşdirməyə çalışmışlar. Əldərə kəndinin abidələri, məscid, karvansara, 200-dən çox yaşayış evi və digər tikililəri erməni vandalizminə məruz qalmış, kənd xarabalığa çevrilmişdir.

Sadalananlarla yanaşı, qəbiristanlıqlar və qəbirüstü abidələr də istismar edilərək xarabazarlığa çevrilmişdir. Azərbaycan aşıq yaradıcılığının əsas siması sayılan Aşıq Ələsgərin Ağkilsə kəndindəki qəbirüstü abidəsi də 1988-1989-cu illərin deportasiyasından sonra erməni istismarçılarının dağıdıcı əməllərinin hədəfi olmuşdur.

Tarixi məskənlərimizin adlarının təhrif edilərək saxtalaşdırılması da Ermənistanın soyqırımı siyasətinin tərkib hissəsi olmuş, Sisyan rayonunun ən qədim azərbaycanlı kəndlərindən olan Ağudi kəndinin adı Aqitu, Cəfərabad kəndinin adı Arqavand, Güllübulaq kəndinin adı Bürakn, Ağkilsə kəndinin adı Azat, Güllübulaq kəndinin adı isə Bürakn kimi dəyişdirilmişdir. Göründüyü kimi, təcavüzkar Ermənistan tarixi-mədəni irsimizin bir qismini yer üzündən silmiş, bir qismini xarabazara çevirmiş, başqa bir qismini isə dünya ictimaiyyətinə öz mədəniyyəti kimi "sırımağa" çalışmışdır.

Çoxsaylı faktlar sübut edir ki, bu ərazilərdəki ayrı-ayrı inzibati vahidlərin adları, toponimlər, əhalinin etnik tərkibi, say dinamikası və s. kimi məsələlər bilavasitə Azərbaycan türkləri ilə bağlıdır.

Məlum olduğu kimi, Azərbaycan xalqının etnogenezinin müəyyənləşdirilməsində "Kitabi-Dədə Qorqud" dastanının rolu əvəzsizdir. Dastan Azərbaycan türklərinin maddi və mənəvi dünyasını geniş əhatə və ehtiva edən universal bir topludur. Hazırda Ermənistan adlandırılan Qərbi Azərbaycan ərazisindəki türk mənşəli toponimlərin bir qrupu məhz Dədə Qorqud dastanındakı şəxs adları əsasında formalaşmışdır. Bu onu göstərir ki, dastanda yer alan antroponimlər, həmçinin türkün etnik-coğrafi koordinatlarını əks etdirir.

"Kitabi-Dədə Qorqud" dastanında rast gəlinən yer-yurd adlarının izini Göyçə mahalı və Göyçə gölü boyunca hər tərəfdə tapmaq olar. Bu eposda Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Gökcə dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin izləridir. Hazırda Azərbaycan Respublikası ilə sərhəd təşkil edən Zəngəzur (Sisyan, Gorus, Qafan və Meğri), Dərələyəz və Göyçə zonaları Azərbaycan xalqının tarixən formalaşdığı areallardandır.

Bu əyalətlər yalnız e.ə. II-I əsrlərdə ilk dəfə işğal edilərək Ermənistana qatılmış və sonrakı əsrlərdə tədricən Kiçik Asiyadan ermənilər köçüb, oralarda məskunlaşmışlar. Həmin zonalarda ermənilərin kütləvi şəkildə yerləşdirilməsi isə XIX əsrin əvvəllərindən başlanmışdır [4, s.13]. Buradan belə nəticəyə gəlmək olar ki, e.ə II əsrə qədər həmin ərazilərin yerli sakinləri indiki Azərbaycan ərazəsinin qədim əhalisi ilə eyniyyət təşkil etmişdir.

Antropoloji dəlillər də sadaladığımız tarixi faktları təsdiq edir. *"Belə ki, Qafqazın eneolit dövrü əhalisinin morfoloji quruluşunun müəyyənləşdirilməsində Kültəpə (Azərbaycan), Samtavro (Gürcüstan), Şenqavit və Cararat (indiki Ermənistan), Çimkənd (indiki Dağıstan) ərazisindən tapılan antropoloji qalıqlar - insan kəllələri xüsusi rol oynayır"* [5, s.179]. Kültəpədən tapılan kəllənin uzunbaşlılığı və ensiz sifətliliyi onu Oğuz (Kaspi) tipinin qədim forması kimi müəyyənləşdirir. Bu morfoloji quruluşlu insan qalıqları indiki Ermənistan ərazisindəki Şenqavit və Göyçə gölünün cənub-qərbindəki Cararat düşərgələrində aşkar edilmişdir. Eyni dövrə aid edilən Samtavro kəllələrinin 2-sinin ensiz sifətli, uzunbaşlı, 1-nin isə enlisifətli, girdəbaşlı olması müəyyənləşdirilmişdir. Nümunələrdən də göründüyü kimi, qeyd olunan ərazilərdən aşkar edilmiş baş quruluşlarının əksəriyyəti dolixokefaldır. Halbuki antropoloji tədqiqatlardan bəllidir ki, ermənilər, əsasən, braxikefal baş quruluşuna malikdirlər.

Xronoloji araşdırmalar sübut edir ki, uydurma "armenoid irqi" və ermənilər nəinki Cənubi Qafqazın aborigen-yerli əhalisi deyil, ümumiyyətlə, Ön Asiyaya da sonradan gəlmişlər. Arxeoloji qazıntılar zamanı indiki Ermənistan Respublikası ərazisindən tapılan, Eneolit və Erkən tunc dövrünə aid edilən, Berkaber və

Göyçə gölü sahillərindəki ərazilərdən tapılan qədim insan qalıqları da bunu aydın sübut edir. Göstərilən qədim insan qalıqlarının morfoloji quruluşu ilə sonradan həmin ərazilərdə məskunlaşan ermənilər arasında heç bir bağlılıq yoxdur. Eyni fikri Son tunc və Dəmir dövrünə aid tapıntılar da təsdiq edir.

Arxeoloji-antropoloji faktları etnoqrafik dəlillərlə davam etdirmək mümkündür. Qərbi Azərbaycanın maddi mədəniyyətinin araşdırılması Azərbaycan etnoqrafiyası elmi qarşısında duran aktual problemlərdən biridir. Maddi-mədəniyyət bəşər tarixinin ayrılmaz tərkib hissəsi olub, əsrlər boyu təkamül və inkişaf yolu keçmişdir. Əvvəla maddi həyat – yaşayış evləri, geyimlər, qida məhsulları, məişət əşyaları, istehsal alətləri, dekorativ-tətbiqi incəsənət insanların həyatında birinci dərəcəli rol oynayır. Digər tərəfdən o, ictimai-iqtisadi inkişafın göstəricisi olmaqla, həm də xalqın etnik tarixi və etnik sərhədləri probleminin həlli üçün ən etibarlı mənbə sayılır.

Maddi mədəniyyət sahələrindən biri olan yaşayış məskənlərinin tarixi çox qədimdir. İbtidai icma quruluşunun dağıldığı və sinifli cəmiyyətin yarandığı dövrdən etibarən kənd tipli yaşayış məskənləri daha geniş inkişaf tapmışdır. Buraya tarixən yaranmış oba, şənlik, yurd, qışlaq, yaylaq, yataq, binə və başqa yaşayış məskəni tiplərini daxil etmək olar.

Azərbaycanda geniş yayılmış yaşayış məskənlərinin xarakterik tarixi tiplərindən başlıcası kənd olmuşdur. Kənd oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni, dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbiristanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış məskəndir. XIX əsrdə təkcə Şərur-Dərələyəz qəzasındakı yaşayış məskənlərinin 85 faizi məhz bu tipdə idi.

Vadi kəndləri də Azərbaycan yaşayış məskənlərinin relyef təsnifatında xüsusi yer tutur. Əsasən, dağ yamaclarının və çaylarının olduğu mülayim iqlimli ərazilərdə salınan vadi kəndləri Qərbi Azərbaycan torpaqlarının həm dağlıq, həm də düzənlik hissələrində mövcud olmuşdur.

XIX-XX əsrin əvvəllərində Qərbi Azərbaycanın yaşayış məskənləri daimi (yəni kənd, şəhər) və müvəqqəti (oba, binə, yurd, yaylaq) olmaqla iki mühüm qrupa bölünür. Qərbi Azərbaycan əhalisinin maddi mədəniyyətinin tarixi-mədəni köklərinin əsasında da bu cür spesifik əlamətlər və təsnifat durur. Konkret olaraq Göyçə mahalında çox az qarışıq tərkibli kəndlər mövcud olmuşdur. Məhz XIX əsrdən etibarən çoxsaylı ermənilərin bura məqsədyönlü şəkildə köçürülməsi, həmçinin müxtəlif tarixi səbəblərə görə ölkədaxili miqrasiya və deportasiyaların həyata keçirilməsi əhalinin say tərkibinin süni şəkildə dəyişdirilməsində əsaslı rol oynamışdır.

Qərbi Azərbaycanda müşahidə olunmuş ənənəvi ev tiplərindən bir neçəsinə nəzər yetirək**:** *"Yer səthinə olan mövqeyinə görə, Azərbaycan evləri qazma-qabartma, 1 mərtəbəli, kürsülü, 2 və ya 3 mərtəbəli evlərə ayrılırdılar"[3, s.122].*

Adları çəkilən ev tipləri içərisində qazma evlər Azərbaycan ərazisindəki arxaik ev tiplərinə aid edilir. Qazma evlərin yayılma arealı çox geniş olmuşdur. Qazma və daxal tipli evlər, əsasən, dağətəyi kəndlərdə, Bağdadi və kərtmə evlər meşə materialı bol olan ərazilərdə geniş yayılmışdır. Qaradamlar süni mağaraların və qazmaların inkişaf etmiş forması kimi Qərbi Azərbaycan ərazisində də mövcud olmuşdur.

"Qaradam" sözünün etimologiyasına gəlincə bir neçə versiyadan danışmaq mümkündür. Birinci fikrə görə, o geniş patriarxal ailəyə məxsus böyükhəcmli ev tipidir. Dilimizdə "qara" sözünün, eyni zamanda nəhəng, böyük anlayışlarını ehtiva etdiyi məlumdur. Məsələn, qaramal, qaraağac, qarakotan, Qarayazı (böyük çöl) mürəkkəb sözlərinin tərkibindəki "qara" sözü məhz bu qəbildəndir. İkinci fikir bu sözün mənşəyini qaradamda yanan ocağın tüstüsü, başqa bir fikir isə yaşamaq üçün seçilmiş, qaralanmış hər hansı bir yer haqqında deyilən "ev tikmək üçün buranı qaralamışam" ifadəsi ilə əlaqələndirir.

Patriarxal ailələrin bölünməsi qaradam tipli yaşayış evlərinin yeni ev tipləri ilə əvəzlənməsinə səbəb oldu. Məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar patriarxal ailələrin tərkibindən ayrılan fərdi monoqam ailələr daxal, çovustan, bağdadi adlanan evlərdə məskunlaşırdılar. Tikintisi tez və nisbətən asan başa gəldiyindən əhali aran və düzənlik ərazilərdə əsasən bu tipli evlərdə yaşayırdı. "Qom ev", "qarğı ev", "qamış ev", "tapan ev" adları ilə tanınan çovustanlar, eləcə də daxallar qarğı, qamış hörüklərindən və bu kimi digər materiallardan inşa edilirdi.

Elat evləri alaçıq, kühül, daxal, koma və s. adlanırdı. Dairəvi və ya uzunsov plan quruluşuna malik dəyə, coma, qarakeçə, alaçıq, muxru və bu kimi alaçıq növləri də geniş yayılmışdı. "Dəyə" sözü tarixən müxtəlif mənalarda işlədilmişdir. Azərbaycanın qərb bölgələrində dəyə alaçığın bir növü hesab edilirdi. Bir çox türkdilli xalqlar arasında da geniş yayılan bu termin, əsasən, yaşayış yeri mənasında istifadə olunur. Belə tipli evlərin ən xüsusi cəhəti köç edərkən əlverişli olması, yəni asanlıqla sökülüb qurula bilməsi idi.

Qərb bölgəsi əhalisinin təsərrüfat məşğuliyyətinin əsasında maldarlıq xüsusi yer tutduğundan hər bir kəndli ailəsi müəyyən miqdar sağmal və iş heyvanları saxlayırdı. Bu cür heyvanların saxlanması üçün müxtəlif

təsərrüfat tikintilərinə ehtiyac duyulurdu. Xırda və iribuynuzlu heyvanların bəslənməsi üçün bir qayda olaraq, tövlə, pəyə, küz, ağıl, yataq tikirdilər. Lakin bu bölgədə sonradan məskunlaşmış ermənilər azərbaycanlılardan fərqli olaraq, özləri üçün daimi yaşayış yerləri və dayanıqlı təsərrüfat tikililəri inşa etməmişlər. Onlar Azərbaycan torpaqlarında yad və müvəqqəti olduqlarını dərk etmiş, ona görə də həmişə xidmət sahələrində – bənna, dərzi, pinəçi, rəngsaz və digər yerlərdə işləməklə vaxt keçirmişlər.

Qərbi Azərbaycan əhalisini tarixi köklərimizlə bağlayan digər maddi mədəniyyət nümunələri içərisində geyimlər, yemək və içkilər də xüsusi əhəmiyyət kəsb edir. Xalq geyimləri insanların həyat şəraitləri ilə birbaşa bağlı olan maddi mədəniyyət nümunələrindəndir. Xalqın tarixini də əks etdirən geyimlər onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən hesab olunur. Etnogenez məsələlərini aydınlaşdırmaq, xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsiri müəyyənləşdirmək işində yardımçı rol oynayan geyimlər həm təsərrüfat sahələrinin səviyyəsindən, həm də coğrafi şəraitdən asılı olaraq, inkişaf etmişdir.

Xalq geyimlərimizin adlarında və tiplərində müşahidə olunan variantlılıq onların etnoqrafik zonalar daxilində müxtəlif mədəni təsərrüfat keyfiyyətlərini ehtiva etməsi ilə bağlıdır. Müxtəlifliklərə baxmayaraq, bütün geyim tipləri Azərbaycan milli geyim fondunu təşkil edir ki, bu da xalqımızın qədim vahid tarixi birliyə malik olduğunu təsdiq edir.

Qadın geyimlərinin milli mədəniyyətin arxaik xüsusiyyətlərini də özündə əks etdirdiyi məlumdur. Bu baxımdan mədəni-tarixi əlaqələrdən, etnogenez problemindən danışarkən mühafizəkar qadın geyim tiplərinə müraciət etmək vacibdir. Milli qadın geyimi kompleksinə üst və can köynəkləri, cüt tuman, tay balaq, dar balaq, zıbını, çəpgən, çərkəzi, ləbbadə, nimtənə, küləcə, katıbı, kürdü, çalma, arxalıq, cutqu, ləçək, örpək, kəlağayı, başmaq, çust, corab, eləcə də müxtəlif kəmər və bəzək növləri daxildir və onların hər biri Azərbaycanın milli xüsusiyyətlərini əks etdirir. Qadın üst geyimləri və bəzək əşyaları isə daha çox məhəlli cəhətlərlərlə xarakterikdir. Qərbi Azərbaycan əhalisinin geyim mədəniyyəti də inkişafdan geri qalmamış, yerli əhali gəlmə millətlərin, o cümlədən erməni və rusların təsiri altına düşməyərək bu mədəniyyəti XX əsrin ortalarına qədər qoruyub saxlamışdı. Yerli əhalinin iş üçün başqa yerlərə miqrasiya etməməsi bunun əsas səbəblərindən idi. Milli geyim nümunələrindən mezər (önlük), sırtoy, qadın baş örtüklərindən - yaylıq, təsək, araxçın, qaysafa, dingə və s. gündəlik istifadə olunurdu. Etnoqrafik təhlillər göstərir ki, Qərbi Azərbaycan əhalisinin geyimləri Azərbaycanın digər bölgələrinin geyim nümunələrindən istifadə edilən parçaların nisbətən qalın olması istisna olmaqla, demək olar ki, fərqlənmir. Qalın parçalardan istifadənin başlıca səbəbi iqlim şəraiti ilə bağlı idi. Burada ipək, kətan, pambıq, yun, dəri, gön, keçə kimi çoxçeşidli parçaların mövcudluğu xalq geyim tiplərinin tipoloji müxtəlifliyinə, növ və çeşid zənginliyinə səbəb olmuşdur.

XIX-XX əsrlərin əvvəllərində Azərbaycanın ənənəvi qadın geyimləri rəng müxtəlifliyi, biçim-tikiliş və tip mürəkkəbliyi ilə fərqlənirdi. Qadın milli geyimləri alt və üst paltarları olmaqla iki formada mövcud olmuşdur. *"İrəvanda geyinilən alt tumanı "şəltə" adı ilə bəlli olmuşdur. Lakin burada geyinilən "şəltə" Naxçıvan şəltəsinə nisbətən xeyli uzun olmuşdur. Burada şəltə, bir qayda olaraq, üst tumanından dörd barmaq enində qısa tikilərmiş"* [7].

Zıvın (zıbın) və ya zıvını adlanan qadın üst geyimindən Azərbaycanın qərb bölgəsi və Gəncəbasar hüdudlarında geniş istifadə edilirdi. Mövsümi səciyyə daşıyan bu geyim qış paltarı sayılır, köynəyin üstündən çiyinə geyilirdi.

Köynəyin üstündən geyinilmiş digər üst geyim tiplərindən biri də çəpkəndir. Astarlı tikilən, yüngül sırınan çəpkən Azərbaycanın ayrı-ayrı ərazilərində işlək olan nümunələrindən, əsasən, qol quruluşuna görə fərqlənirdi.

Qadın can (alt) köynəyinin ətəyi Naxçıvan və İrəvan ərazilərində bir qədər uzun hazırlanır, İrəvan qadınlarının can köynəyi dizdən yuxarı olmaqla qolu uzun, düz və "xışdax"lı ("xişdək"li) tikilirdi. Xişdək qol altından başlayıb ətəyədək uzanırdısa, bu, köynəyin gövdəsini genişləndirirdi. İrəvan qadınlarının alt köynəyi çox zaman ağdan, bəzən isə çit və ya kətandan hazırlanırdı. Yaxasına bir qarış enində ikinci qatın qoyulması davamlılığını artırmaq üçün idi.

Arxalıq – Azərbaycanda geniş istifadə edilmiş üst geyim növlərindəndir.

"Varlılarda tirmə, tafta, atlas, xara, zərxara, məxmər, darayı, qanovuz və b. parçalardan, kasıblarda isə sətin, lastik və digər ucuz parçalardan tikilən arxalıq Azərbaycanın qərb bölgələrində "küləcə" adı ilə tanınırdı. Qadın arxalığının digər bir variantı olan "əlcəkli arxalıq" da məhz Azərbaycanın qərb bölgələrinə aid edilir" [2, s.125].

Küləcə qadın üst geyimi çəpkənlə tipoloji bənzərlik təşkil etsə də, qol biçiminə və ətək uzunluğuna görə ondan fərqlənirdi. Belə qədər düz ətəyi olan küləcə Azərbaycanın Gəncəbasar, Borçalı, Naxçıvan, Şirvan, İrəvanda boğçalıq (bayramlıq) geyim dəstinin komponenti sayılırdı.

Qadın bəzək məmulatlarını baş, boyun, qulaq, döş, bilək, barmaq bəzəkləri və geyimlərə bənd edilən

bəzəklər kimi qruplaşdırmaq olar.

Qadın geyimlərinin tərkib hissələrindən biri də toqqa və kəmərlər olmuş, kişi toqqalarından fərqli olaraq, onlardan, əsasən, bəzək məqsədilə istifadə edilmişdir. Etnoqrafik materiallardan məlum olur ki, qayışdan hazırlanan qadın kəmərlərinin üzərinə 3 cərgə qızıl və gümüş pullar düzülürdü. Eyni zamanda bütövlükdə qızıl və gümüşdən hazırlanmış kəmərlərə də rast gəlinirdi.

Kişi üst geyimlərinə gəlincə üst köynəyi, arxalıq, zıbını, çuxa və şalvarı nümunə göstərmək olar. Onun ətəyi dizə, qolları biləyə qədər uzanırdı. İsti olsun deyə Qərb bölgəsində bəzi arxalıqların gövdəsinə pambıq və ya yun içlik əlavə edilirdi. Onları, əsasən, yaşlı kişilər geyinirdilər.

Azərbaycan elatları içərisində kürk və yapıncılardan geniş istifadə edilirdi.

Kişi baş geyimləri xüsusi önəm daşımış, müxtəlif biçimli dəri papaqlar - buxara, çərkəzi, çobanların şələ papağı və s. olduqca geniş yayılmışdı. Başı açıq gəzmək, demək olar ki, olmazdı. Yaşlı kişilər papağın altından ağ bezdən sırınmış təsək taxırdılar.

Xalq geyimlərinin bu növləri xırda fərqliliklərlə bütün Azərbaycan ərazisi üçün xarakterik olmuşdur.

Məlumdur ki, öz zənginliyi ilə hər zaman seçilən Azərbaycan milli yemək və içkilərinin növləri, hazırlanma qaydaları və s. bir sıra mühüm amillərlə - əhalinin təsərrüfat fəaliyyəti, sosial-iqtisadi vəziyyəti, eləcə də coğrafi şərait və etnik ənənələri ilə birbaşa bağlı olmuşdur.

Qərb bölgəsinə məxsus ərzaq məhsullarını iki bölgü üzrə sistemləşdirmək olar:

1) Bitki mənşəli məhsullar;

2) Heyvan mənşəli məhsullar.

Birinci qrupa çörək və meyvə-tərəvəz məhsulları, ikinci qrupa ət xörəkləri və süd məhsulları aid edilə bilər. Bitki mənşəli məhsullar içərisində xüsusi yer tutan üyüdülmüş taxıldan, əsasən, çörək, fətir, lavaş, yuxa, fəsəli və müxtəlif un xörəklərinin hazırlanmasında istifadə olunurdu. Buğdadan qovurğa, qovut, hədik bişirilirdi.

Gündəlik qida rasionumuzda geniş istifadə olunan lavaşla bağlı erməni iddiaları UNESCO səviyyəsinədək gedib çıxmışdır. Onlar lavaşı ənənəvi erməni çörəyi kimi UNESCO-nun Qeyri-maddi mənəvi irs üzrə Reprezentativ Siyahısına daxil etdirməyə çalışmışlar. Sual olunur, əgər lavaş ermənilərə məxsus qida növüdürsə, niyə 1698-ci ildən 1908-ci iləd̆ək nəşr olunmuş 17 erməni dili lüğətinin heç birində "lavaş çörəyi" ifadəsinə rast gəlinmir? Axı hər hansı bir dilin lüğət tərkibi onun həm də tarixi və mədəni-etnoqrafik ənənələrini özündə ehtiva etdirən bir mənbədir. Araşdırmalar göstərir ki, ermənilər lavaşı Azərbaycan çörəkxanalarına sifariş verirdilər. Buna sübut kimi onların dilində işlək olan qafiyəli bir deyimi misal göstərmək olar ki, təxminən belə bir məna verir: "erməni koxasını (oğlan uşağını) Türk yuxası (lavaşı) ilə bəslə".

Undan hazırlanan xəmir xörəklərindən danışarkən xəngəl, xəşil, umac, quymaq, əriştə, əriştə aşı, əriştə istisi, həsi (qındı) və s.-nin adlarını çəkə bilərik. Onları daha çox qışın soyuq vaxtlarında yeyirdilər. Bitki mənşəli xörəklərə isə əvəlikli isti, kətə, cincilim qovurması, cincilim kətəsi, pencər qovurması və s. nümunə göstərmək olar.

"Əvəlikli isti" adlanan yeməyi soyuqlamış adamlara müalicə məqsədilə bişirirdilər.

Sulu və quru olmaqla iki növdə hazırlanan xəngəl un xörəkləri içərisində xüsusi çəkiyə malik idi. Xəngəli mis sinilərə çəkib, üzərinə ətdən və ya çolpadan hazırlanmış yağlı xuruş əlavə edirdilər. Xəngəl, adətən, qatıqdan hazırlanan "qurut"la yeyilirdi.

Əkinçiliklə yanaşı, maldarlığın da yerli əhalinin təsərrüfat məişətində mühüm yer tutması Azərbaycan mətbəxində maldarlıq məhsullarının çoxçeşidli istifadəsinə gətirib çıxartmışdı. Digər yeməklərlə yanaşı, süfrənin əsas yavanlığı kimi yağ, süd, qatıq, qaymaq, şor, ayran, pendir və s. ağartı məhsullarından geniş şəkildə istifadə olunurdu.

Əkinçiliklə yanaşı, maldarlığın da yerli əhalinin təsərrüfat məişətində mühüm yer tutması Azərbaycan mətbəxində maldarlıq məhsullarının çoxçeşidli istifadəsinə gətirib çıxartmışdı. Digər yeməklərlə yanaşı, süfrənin əsas yavanlığı kimi yağ, süd, qatıq, qaymaq, şor, ayran, pendir və s. ağartı məhsullarından geniş şəkildə istifadə olunurdu.

"*Yeni doğulmuş heyvanın birinci südü "ağız" adlanırdı. Onu bişirdikdə çox dadlı yemək növü əldə edilirdi. Şahsevənlər arasında buna "kətəməz", Quba zonasında "kələkə", ayrım zonasında "ağız bulaması", Naxçıvanda "kələkey" [3, s.171],* qərb bölgəsində isə "ağız" deyilirdi.

"Koramaz" adlanan yemək təzə çalınmış qatığa bişməmiş südün qatılması üsulu ilə hazırlanır və əsasən, isti havalarda sərinləşdirici qida növü kimi daha çox yeyilirdi. *"Kətəməz" isə yeni bala vermiş heyvanın südünə qatıq və ya yumurta əlavə etməklə hazırlanan yemək növü hesab olunurdu. Kətəməz hazırlamaq üçün agız südünü qazana töküb ocağın üstündə qaynayana qədər bulayırlar, bəzi yerlərdə buna bir qədər duz da*

atırdılar. Ağız dələmə sayağı bərkiyərkən qazanı ocağın üstündən götürüb yerə qoyurlar. Kətəməzi bıçaqla xırda hissələrə doğrayıb, çörəklə yeyirlər. Döl kompaniyası zamanı çoxlu kətəməz bişirib şirinlik əlaməti olaraq onun bir hissəsini qohum-qonşulara da pay verirlər" [*3, s.171*].

"Ağsulaq" hazırlamaq üçün sarımsaq-qatıq düzəldilir, üstünə əridilmiş təzə nehrə yağı qatılırdı. "Qovud" isə kirkirədə döyülmüş buğda ununa şərbət, bal, süd və ya doşabın əlavə edilməsi ilə hazırlanırdı.

Qərb bölgəsi əhalisinin əsas məşğuliyyəti maldarlıq olduğundan əksər xörəkləri bu gün bir çox türk xalqlarının mətbəxində də qorunub saxlanıldığı kimi sarımsaq-qatıqla yeyirdilər. Bu daha çox xəmir xörəklərinə şamil edilirdi. *"Uzun qış aylarında, heyvanların südü azaldıqda ağartının yerini "qurut" deyilən iri, girdə formalı ağ rəngli yaylaqda nehrə çalxalanarkən artıq qalan qatıqdan hazırlanan xüsusi "konservant" əvəz edir"* [1, s.208].

Azərbaycan mətbəxinə məxsus ləziz yeməklərdən biri də dolmadır. 30-dan artıq növü olan dolmanı Qərbi Azərbaycanda da hazırlayırdılar. "Dolma" sözünün etimologiyasına dair iki əsas yanaşma mövcuddur. Birinci yanaşma hazırlanma qaydası ilə üst-üstə düşən "dolmaq", "doldurmaq" feilləri ilə bağlıdır. İkinci yanaşmaya görə, yeməyin adı yarpağı içliyə dolamaq mənasında işlədilən "dolamaq" feilindən götürülmüşdür. Qeyd etmək yerinə düşər ki, məhz Azərbaycan dolması UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bildiyimiz kimi, mənəvi irsin öyrənilməsi hər bir xalqın tarixi yaddaşının bariz göstəricisidir. Onlardan biri də mənəvi mədəniyyətdə özünəməxsus yer tutan aşıq yaradıcılığıdır. Aşıq yaradıcılığı özündə etnik-estetik, mədəni-kulturoloji və etnopsixoloji dəyərləri əks etdirir. Müasir dövrümüzdə dünya miqyasında baş verən qloballaşma və inteqrasiya prosesində milli dəyərlərimizin mühafizə edilməsində aşıq yaradıcılığının müstəsna rolu danılmazdır. Məhz bu səbəbdən aşıq yaradıcılığının milli-mənəvi dəyərlər, xüsusilə azərbaycançılıq ənənələri ilə güclü bağlılıq əsasında araşdırılıb öyrədilməsi, dünya miqyasında tanıdılması olduqca zəruridir. Bildiyimiz kimi, UNESCO-nun Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına "Azərbaycan aşıq sənəti" də daxil edilmişdir.

Tarixə nəzər salsaq, görərik ki, Qərbi Azərbaycanda aşıq yaradıcılığı özünün ən parlaq təcəssümünü tapmış, sənət məktəbi formalaşdıraraq bütün Azərbaycanda bu istiqamətin inkişafına böyük töhfələr vermişdir. Belə ki, aşıq mühitləri içərisində Göyçə aşıq mühiti xüsusilə fərqlənir. Göyçə aşıq məktəbi Qərbi Azərbaycan ərazisində meydana gəlmiş, İrəvan, Dərələyəz, Zəngəzur və Gəncəbasar tarixi-coğrafi rayonlarını əhatə etmişdir. Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əsəd, Sarı Aşıq və bir çoxları Göyçə aşıq məktəbinin qüdrətli nümayəndələri hesab olunur.

Nəticə olaraq qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanın mənəvi mədəniyyətinin bütün aspektləri - adət-ənənələr, mərasimlər, inanclar Azərbaycanın digər bölgələrinin mənəvi mədəniyyətindən heç nə ilə fərqlənmir.

Nəticə

Deyilənlər bir daha təsdiq edir ki, tarixən Azərbaycan torpaqları olan, indi Ermənistan adlandırılan ərazilərdə vaxtilə yaşayan azərbaycanlıların soykökü tamamilə Azərbaycan xalqının etnogenezi ilə bağlıdır. Qərbi Azərbaycan torpaqları tarixən Azərbaycan türklərinin yaşadığı, böyük mədəniyyət və tarix yaratdığı ərazilərdəndir.

Bölgənin maddi və mənəvi mədəniyyətini əks etdirən faktaloji materialların elmi arxeoloji və etnoqrafik təhlilindən belə nəticəyə gəlmək mümkündür ki, göstərilən nümunələrin hər biri ümum-Azərbaycan tipindədir və ümumtürk mədəniyyətinin tərkib hissəsini təşkil edir.

İnanırıq ki, biz tezliklə öz doğma yurdumuza qayıdacaq, oradakı maddi-mənəvi və mədəni dəyərlərimizə - irsimizə sahib çıxacağıq!

ƏDƏBİYYAT

1. Ağayeva, X.A. Qərbi Azərbaycan əhalisinin maddi mədəniyyətinin tarixi-mədəni kökləri. (Qaraqoyunlu dərəsi və Göyçə mahalının misalında). // Tarix və onun problemləri. Bakı: 2010, №4, s. 208
2. Azərbaycan etnoqrafiyası. II c., Bakı: 2007, Şərq-Qərb, 384 s.
3. Həvilov, H.A. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.
4. Qeybullayev, Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
5. Məmmədov, K.H. Antropologiyanın əsasları. Bakı: Qanun, 2022, 192 s.

6. https://azertag.az/xeber/azerbaycanlilara_mexsus_yer_uzunden_silinmis_medeni_irs_numunelerinin_siyahisi_hazirlanacaq-2461253
7. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_milli_geyiml%C9%99ri

ABSTRACT

FAKHRIYYA HAVILOVA, BAKU STATE UNIVERSITY

MATERIAL AND SPIRITUAL HERITAGE OF WESTERN AZERBAIJAN

The article examines the material and spiritual heritage of Western Azerbaijan and its historical connection with the ethnogenesis of the Azerbaijani people. The author emphasizes that thousands of Azerbaijani historical and cultural monuments, mosques, cemeteries, and settlements located in present-day Armenia were destroyed, while many Azerbaijani toponyms were deliberately changed. The destruction of historical sites such as Tepebashi district, Shinuhayr (Gulab), and Aldara is presented as evidence of cultural vandalism. Based on anthropological, archaeological, and ethnographic evidence, the study argues that Western Azerbaijan has historically been inhabited by Azerbaijani Turks. The article also describes various elements of material culture, including settlements, traditional houses, clothing, cuisine, and economic life. Traditional dwelling types such as qaradam, daxal, and alachig, along with national dishes like khangal, dolma, and lavash, are identified as integral parts of ancient Turkic-Azerbaijani culture. In addition, the importance of ashug art, especially the Goycha ashug school, in preserving Azerbaijani spiritual values is highlighted. The conclusion states that the material and spiritual heritage of Western Azerbaijan forms an inseparable part of the common Azerbaijani and Turkic cultural heritage.

Keywords: *Western Azerbaijan, material and spiritual heritage, Azerbaijani culture, ethnography, cultural vandalism, national costumes, Azerbaijani cuisine, ashug art, Goycha ashug school, toponyms.*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN NƏQLİYYAT VƏ TURİZM İNFRASTRUKTURUNUN ZƏNGƏZUR DƏHLİZİ İLƏ İNTEQRASİYA PERSPEKTİVLƏRİ

Günel İSAYEVA
isayeva_g2007@yahoo.com
ORCID iD:009-0004-3321-0714
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

XXI əsrdə dünyada qlobal ticarətin genişlənməsi ilə Çin-Qərbi Avropa ticarət dövriyyəsinin artması Avrasiya məkanında etibarlı nəqliyyat-logistika sisteminin qurulmasını gündəmə gətirərək yeni alternativ dəhlizlərin yaranmasını zəruri edir. SSRİ-nin dağılması ilə və Ərəb baharı sonrası baş verən müxtəlif regional münaqişələr bu dəhlizlərin perspektivlərini, burada mövcud olan inteqrasiya problemlərinin araşdırılmasını tələb edir. Çinin təşəbbüskarı və əsas investoru olduğu "Bir kəmər, bir yol" layihəsi üzərindəki Orta dəhlizin perspektivləri onun Cənubi Qafqazdan keçən hissəsinin əhəmiyyətini artırır [1, s.2]. Bu marşrut üzərində Qarabağ münaqişəsi sonrası Zəngəzur dəhlizinin açılması və bu zaman yaranan inteqrasiya problemləri turizm, nəqliyyat və logistika baxımından maraq kəsb edir. Bu məqalədə Qarabağ münaqişəsi sonrası Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat və turizm infrastrukturunun Zəngəzur dəhlizinə və buradan da Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyəyə inteqrasiya məsələləri araşdırılmışdır.

Açar sözlər: *turizm, logistika, Qarabağ, Zəngəzur dəhlizi*

Dünya ticarətinin tarixində mühüm əhəmiyyətə malik olan nəqliyyat sistemi əsrlər boyu təkamül yolu keçmiş, Qədim İpək Yolunun yaranması və genişlənməsi ilə malların daşınması, komforluluq və təhlükəsizliyin təmin edilməsi kimi məsələlər ön planda olmaqla yanaşı, müasir logistika və nəqliyyat şəbəkələrinin yaradılmasını, yeni dayanıqlı dəhlizlərin açılması tələbini də ortaya qoymuşdur. Avropa və Asiya mədəniyyətinin kəsişdiyi, əlverişli bir coğrafi məkanda yerləşən Azərbaycan hələ qədim dövrlərdən Avropa və Yaxın Şərq ölkələrinin həyatında mühüm strateji, siyasi və iqtisadi önəm daşıması ilə yanaşı, müasir dövrdə Çin-Avropa, Orta Asiya-Cənubi Qafqaz-Avropa enerji koridorları boyunca və yeni yaradılacaq Zəngəzur dəhlizi boyunca da öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

2013-cü ildə Çinin başlatmış olduğu, 4,4 milyard insanın yaşadığı, Dünya Ümumi Daxili Məhsulunun təxminən 40 faizini, dünyanın 65 ölkəsini əhatə edən "Bir kəmər, bir yol" layihəsində mühüm yer tutan Orta dəhliz üzərindəki Zəngəzur dəhlizinin də açılması və buradakı inteqrasiya problemləri bu gün II Qarabağ müharibəsindən sonra aktual məsələlərdən biridir [3]. 26 oktyabr 2021-ci ildə Türkiyənin dövlət başçısının da qatıldığı təməlqoyma mərasimi ilə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolu ilə təkcə bu bölgədə nəqliyyat-logistika və turizm imkanlarının deyil, həm də geosiyasi sabitliyə xidmət edən iqtisadi layihələrə start verilmişdir [4].

II Qarabağ müharibəsindən sonra təkcə Azərbaycanı deyil, bütün Cənubi Qafqazı maraqlandıran məsələlərdən biri də bölgənin tranzit potensialına mühüm yeniliklər gətirəcək olan Zəngəzur dəhlizinin yenidən açılmasıdır.

Pekin-London ticarət xəttində baş verən hadisələr – "Ever Given" konteyner daşıyan gəmisinin Süveyş kanalında ilişib qalmasından [5] tutmuş Qırmızı dənizdə ticarət gəmilərinə edilən vaxtaşırı hücumlar və hazırda davam edən Rusiya-Ukrayna müharibəsi bu istiqamətdə Orta dəhlizin və dolayısı ilə də onun açar mövqeyi olan 42 kilometrlik Zəngəzur dəhlizinin əhəmiyyətini bir daha artırır. Ermənistanın təslim olması ilə Qarabağın azad edilməsi Cənubi Qafqazda reallıqları dəyişdirdiyi kimi, 30 ilə yaxın bir müddətdə istifadəsiz qalmış, dağıdılmış və ya yararsız hala düşmüş yol-nəqliyyat infrastrukturunun yenidən bərpa edilməsi üçün əlverişli imkanlar yaratmışdır. Həmçinin tarixi Azərbaycan torpağı olan Zəngəzurdan keçəcək yeni kommunikasiya xətləri regionda yeni layihələr, o cümlədən beynəlxalq turizm marşrutlarının yaradılmasında, Azərbaycanın turizm imkanlarının, turizm ehtiyatlarının dünyaya tanıdılmasında yeni imkanlar açacağını qaçılmaz edir. Bütün bunları ümumiləşdirərək belə bir fikrə gəlmək mümkündür ki, təkcə Çin-Qərbi Avropa marşrutu üzərində deyil, həmçinin Türkiyə-Azərbaycan-Orta Asiya türkdilli ölkələrin də birbaşa, heç bir tranzit əlaqəsi də olmadan iqtisadi-mədəni əlaqələrinin qurulması Zəngəzur dəhlizi üzərindəki inteqrasiyanın gələcəyindən çox asılıdır. Burada, fikrimizcə, bölgə ölkələrinin maraqlarından irəli gələn siyasi iradə ilə yanaşı, bölgədə mövcud olmuş tarixi təcrübə, təbii-coğrafi şərait, əhali məskunlaşması, müasir rəqəmsal logistika imkanları,

həmçinin turizm potensialı da təhlil oluna bilər.

Qarabağ və Şərqi Zəngəzur özünün coğrafi-mövqeyi, təbiəti, tarixi mədəniyyəti ilə Azərbaycanın ən yüksək turizm potensialına malik ərazilərindəndir. Hələ işğaldan əvvəldə bu bölgədə yüksək turizm potensialı mövcud idi və mədəni-tanışlıq, ekoturizm, müalicə-sağlamlıq kimi turizm növlərinin inkişaf etdiyi bir region kimi tanınırdı. 1987-ci ildə, keçmiş SSRİ dönəmində Azərbaycan Respublikasında turizmin çatdığı ən yüksək səviyyədə o zaman respublikamıza səfər etmiş 50 min xarici, 250 min yerli turistin təxminən yarısı bu regiona səyahət etmişdir [6]. Şuşa, Laçın, Kəlbəcər, Ağdamdakı unikal təbiət və tarixi zənginliklər, Zəngilanda tarixi və dini abidələr, Cənubi tarixi Xudafərin körpüsü, ilk insan məskənlərindən olan Azıx mağarası, Füzulidə Şeyx Baba türbəsi, Karvansaray, Kəlbəcərdə "Tanrı məbədi" (Xudavəng) monastr kompleksi, Alagöl, Qaragöl, Zalxagöl, Dəlidağ, Qamışdağ kimi zirvələri, Laçında İlıqsu, Şuşada Turşsu, İsa bulağı, Cıdır düzü, Şuşa qalası, Pənahəli xan sarayı, Xurşudbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı və aşağı Gövhər ağa məscidləri kimi çoxlu sayda ehtiyatlar o zamanlar da olduğu kimi, indi də turistləri cəlb edir. Ayrıca olaraq, II Qarabağ müharibəsindən sonra qazandığımız böyük zəfər bizə erməni vandalları tərəfindən dağıdılmış bu tarixi abidələrin bərpası, eləcə də zəngin maddi-mədəniyyət abidələrimizin dünyaya tanıdılması kimi yeni çağırışlar və yeni vəzifələr də yaratmışdır. Belə ki, həmin ərazilərdə ağıllı yaşayış məntəqələrinin yaradılması (Zəngilan rayonunda), yaşıl enerji (Kəlbəcər və Laçın rayonlarında külək, Zəngilan və Cəbrayılda günəş) ekoloji təmiz məhsulların istehsalı yeni layihələrin həyata keçirilməsi ilə yanaşı, yeni idarəetmə modellərinin də tətbiqində ölkəmizə təcrübələr qazandıracaq. Qeyd edək ki, Qarabağda 4 regional mərkəz – Cəbrayılda logistika, ticarət mərkəzi, Şuşada mədəniyyət, turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi, Ağdamda sənaye mərkəzi təşkil olunacaq [7].

Hər hansı bir turizm ehtiyatından istifadə etmək üçün ən vacib şərt komfortlu və təhlükəsiz nəqliyyat sisteminin olmasıdır. Yəni Qarabağ və Şərqi Zəngəzur bölgəsinin nə qədər turizm ehtiyatları ilə zəngin olmasına baxmayaraq, buraya səyahət edilən zaman istifadə olunan nəqliyyat qovşaqları da bir o qədər əhəmiyyətlidir. Bu baxımdan, Qarabağın 30 illik erməni işğalından azad edilməsindən sonrakı dövrdə Azərbaycan dövləti bütün bölgənin gələcək iqtisadi və mədəni həyatında mühüm rol oynayan sürətli və komfortlu, həmçinin təhlükəsiz nəqliyyat-kommunikasiya şəbəkəsinin yaradılmasını əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Qısa müddətdə inşa olunub, istifadəyə verilən Füzuli və Zəngilan beynəlxalq hava limanları və 2023-cü il 19 sentyabrdan dövlətimizin nəzarəti altına keçən Xocalı hava limanı – Qarabağda yaradılan üç böyük hava qapısının olması buna sübutdur. Füzulinin Əhmədbəyli kəndindən Şuşaya qədər gedən 105 kilometrlik Zəfər yolunu cəmi on ayda tikib qurtaran Azərbaycan dövlətinin bir-birinin ardınca həyata keçirdiyi infrastruktur layihələri təkcə bu regionu inkişafı üçün deyil, həmçinin yeni regional layihələrin yaradımasına da təkan verir.

Qarabağ və Şərqi Zəngəzurda yeni yaradılan Əhmədbəyli – Füzuli – Şuşa, Kəlbəcər – Laçın, Xudafərin – Qubadlı – Laçın – Bakı və digər nəqliyyat yolları regionun iqtisadi-mədəni inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin Zəngəzurun dəhlizinin gələcəkdəki əhəmiyyətini artıracaq, uzunluğu 123,8 kilometr olan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu İğdırdan Bakıya gedən birbaşa ən əhəmiyyətli ticarət və turizm yolu olacaq. Zəngəzur dəhlizi və Naxçıvan Muxtar Respublikası vasitəsilə Şərqdən-Qərbə açılacaq yeni kommunikasiya xətləri Azərbaycanın bir hissəsi olan Qarabağ və Şərqi Zəngəzur regionun inkişafı, regionun tanıdılması, yüklərin daha əlverişli yolla daşınması kimi yeni reallıqların olacağını da ortaya qoyur.

Bütün bunların həyata keçirildiyi və daha böyük layihələrin perspektivləri müzakirə olunduğu bir dövrdə Şərqi Zəngəzur və Qarabağın Zəngəzur dəhlizi ilə inteqrasiyası problemləri həm bölgə, həm də qlobal güclərin marağındadır. İlk olaraq, Ermənistanın Mehridən keçəcək yolun istifadəsinə tələsmədiyini, ancaq gələcəkdə bu yolun xidmətlərindən mütləq istifadə edəcəyini göstərmək olar. Belə ki, hələ sovet dövründə bu ölkəyə gələn yüklərin 85 faizi məhz Bakı-Mincivan-Naxçıvan üzərindən keçirdi [8]. Üzərindən 100 il keçəndən sonra Zəngəzurun yenidən geostrateji əhəmiyyət daşıması bunu şərtləndirən amillərdəndir. Belə ki, bu ərazi tarixən Azərbaycan torpağı olsa da, müasir dövrdə buraya dinc yollarla qayıdış məqsədi qoyulub.

Türkiyə ilə Ermənistan münasibətlərinin normala dönməsi ilə 1993-cü ildən bağlı tutulan Qars-Gümrü yolunun da açıla biləcəyini, 2008-2009-cu illərdəki "Futbol diplomatiyasını" [9], İcevan-Qazax, Naxçıvan-Gorus-Laçın-Yevlax marşrutlarının perspektivlərini, həmçinin Ermənistanın uzun illərdən sonra hava məkanını Azərbaycan təyyarələri üçün açmasını, Qarsdan Naxçıvana çəkiləcək qaz xəttinin, eləcə də Qarabağ və Şərqi Zəngəzurdan Avropaya nəql olunacaq yaşıl enerjinin yaradacağı iqtisadi potensialı bu əlaqələri gücləndirəcək amillərdən hesab etmək olar. Ayrıca olaraq, Zəngəzur dəhlizi ilə Türk dünyasının birləşdirilməsi, Türkiyənin Xəzər dənizinə və Orta Asiyaya birbaşa çıxışının olması və burada Rusiyanın mövcud sanksiyalar şəraitindəki iqtisadi və siyasi maraqlarının formalaşdırdığı yeni şəraiti də burada xüsusilə qeyd etmək olar.

Zəngəzur dəhlizi vasitəsilə gələcəkdə yaranacaq inteqasiya məsələlərini iqtisadi, mədəni əlaqələr, həmçinin turizm səfərlərinin təşkili və davamlı sülhün yaradılması ilə siyasi müstəvidəki inkişafla əlaqələndirmək mümkündür. Ermənistanın xarici qüvvələrin və daxildəki revanşistlərin təzyiqi ilə buradakı maraqlarını görə bilməməsi nə qədər uzun çəksə də, bölgədən keçəcək yüz milyard dollarlıq yük tranziti qarşısında bu inteqrasiyaya mütləq qoşulacağı bəllidir. Burada, Çindən Qərbi Avropaya yüklərin daşınması, Orta Asiya və Azərbaycanın Avropaya təbii qaz və yaşıl enerji formasında enerji transferi, Azərbaycanın Avropaya yaşıl enerji transferi, Çinin bütün dünyaya yayılan texnologiya transferindən hər bir ölkəyə düşəcək pay iqtisadi faktorlar kimi cazibədar olacaq.

Zəngəzur dəhlizi, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələrin təhsil-mədəni əlaqələrində mühüm vasitəçi olacaq. Belə ki, qardaş Türkiyə Respublikasının təhsil sahəsində əldə etdiyi yüksək nəticələr türkdilli ölkələrdə tətbiq olunmaq üçün olduqca cazibədar olacaq. Həmçinin Türkiyə investisiyalarının bu sahədə yayılması, tələbə və akademik heyət mübadiləsi, bölgənin gələcəyi barədə təşkil olunacaq beynəlxalq elmi konfranslar zəminində də Zəngəzur dəhlizinin perspektivləri vardır.

Zəngəzur dəhlizi vasitəsilə turizm əlaqələri, sülh müqaviləsindən sonra etnik azərbaycanlıların tarixi Qərbi Azərbaycan bölgələrinə, eləcə də indiki Ermənistan ərazisindəki Qərbi Zəngəzura birbaşa və ya dolayı yolla səyahətləri, həmçinin dəhliz vasitəsilə Naxçıvandan keçməklə Azərbaycanın əsas hissəsindən Türkiyə və Avropaya tranzit səyahət keçidləri ilə sıx bağlı olacaq. Qarabağ, Şərqi Zəngəzur, Qərbi Zəngəzur və Naxçıvanda yaradılacaq turizm marşrutları bu mənada, bölgənin inteqrasiyasında katalizator funksiyasını həyata keçirəcək.

Tarixi təcrübə göstərir ki, istənilən regional, hətta irimiqyaslı konfliktlərin həllində möhkəm diplomatik bacarıq və liderlik mövqeyi həlledici rola malikdir. Bu baxımdan, Zəngəzur dəhlizi vasitəsilə bölgə ölkələrinin yaradacağı iqtisadi-mədəni inteqrasiya həm Cənubi Qafqaz ölkələri, həm regionla qonşu olan ölkələr, həm də Çin-Avropa əlaqələrindən fayda qazanan hər bir ölkənin dövlət başçılarının uğurlu diplomalik gedişləri üçün tezislər hazırlayacaq. Davamlı sülhün yaradılması, regional münaqişələrin regional əməkdaşlıqla əvəz olunması üçün turizm diplomatiyasının tətbiqi bu baxımdan maraqlı ideyadır. XX əsrdə müxtəlif dövrlərdə Ermənistandan deportasiya olunmuş azərbaycanlıların öz torpaqlarına sülh yolu ilə qayıdışının həlli üçün yaradıla biləcək hər cür inteqrasiya bu fikirləri qüvvətləndirir.

Nəticə

Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunması ilə yaranmış yeni geostrateji vəziyyət bölgə ölkələri arasında aşağıdakı inteqrasiya perspektivlərini yaradır:

– Qarabağ və Şərqi Zəngəzurun erməni işğalı öncəsi nəqliyyat - tranzit imkanları səviyyəsinə çatması və bunu ötüb keçməsi ilə bölgə iri investisiya mərkəzi halına gələcək;

– Bölgənin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan Muxtar Respublikası və Türkiyəyə çıxış yolu qazanması Çin-Qərbi Avropa marşrutunda daha yeni dəhliz yaradacaq;

– Dəhlizin açılması Naxçıvan Muxtar Respublikasını blokadadan çıxarmaqla yanaşı, Ermənistanın da iqtisadi imkanlarını artıracaq;

– Zəngəzur dəhlizi vasitəsilə qurulacaq inteqrasiya əlaqələri Orta dəhlizin yaratdığı bütün növ əlaqələrdən faydalanmaq imkanı yaradacaq;

– Turizm, təhsil, rəqəmsal logistika kimi fəaliyyətlər bölgədə davamlı sülhün yaradılmasına təkan verəcək.

ƏDƏBİYYAT

1. Abdirakhimova, M. The place of South Caucasus as a part of international corridors. "Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində" beynəlxalq konfransının materialları.
2. İsmayılova, G. Cənubi Qafqazda sülh üçün regional inteqrasiya. Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində beynəlxalq konfransının materialları. Azərbaycan Universiteti. 3 may 2024-cü il ilhttps://www.au.edu.az/userfiles/uploads/1d7b4d5b58bbafea68c4cb6039273afd.pdf
3. Orta Koridor, istikrar ve yeni işbirliği olanakları: Ermenistan, Türkiye'nin uzattığı eli tutmalı https://fikirturu.com/jeo-politika/orta-koridor-istikrar-ve-yeni-isbirligi-olanaklari-ermenistan-turkiyenin-uzattigi-eli-tutmali/
4. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilanın Ağalı kəndində rəsmi qarşılanma mərasimi https://president.az/az/articles/view/53741

5. How One of the World's Biggest Ships Jammed the Suez Canal. https://www.nytimes.com/2021/07/17/world/middleeast/suez-canal-stuck-ship-ever-given.html
6. Cabbarov, Ə.X. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı: 2015. ADPU-nəşriyyatı. 267 s. https://referat.ilkaddimlar.com/r/referatlar/turizm/pdf-6272.pdf
7. Manaflı, Ə. X. "Müasir dövrdə işğaldan azad edilmiş rayonlarda regional iqtisadi siyasətin prioritetləri" mövzusunda magistr dissertasiyası. Bakı: 2022
8. Jabbarov, A., Abbasova, S., Tanrıverdi, H. Erməni işğalı sonrası Qarabağda turizmin inkişafi məsələləri. Uluslararası Turizm, İşletme, Ekonomi. Dergisi International Journal of Tourism, Economic and Business Sciences. E-ISSN: 2602-4411, 4(2): 33-44, 2020 http://www.ijtebs.org/index.php/ijtebs/article/view/486/413
9. Futboldan "Zəlzələ diplomatiyası"na Ankara İrəvanla barışır? Təhlil. https://modern.az/analitika/396148/zelzele-diplomatiyasi-turkiye-ermenistan-munasibetleri normallasacaqmi/

ABSTRACT

Gunel ISAYEVA

INTEGRATION PERSPECTIVES OF THE TRANSPORTATION AND TOURISM INFRASTRUCTURE OF KARABAKH AND EASTERN ZANGAZUR VIA THE ZANGAZUR CORRIDOR

In the 21st century, with the expansion of global trade in the world, the increase in China—Western Europe trade circulation brings to the agenda the establishment of a reliable transport-logistics system in the Eurasian geography, making it necessary to create new alternative corridors. The various regional conflicts that occurred with the collapse of the USSR and after the Arab Spring require an examination of the perspectives of these corridors and the integration problems that exist here. The prospects of the Middle Corridor on the "One Belt One Road" project, initiated and the main investor of China, increase the importance of its part passing through the South Caucasus. The opening of the Zangezur Corridor after the Karabakh conflict on this route and the integration problems arising at that time are of interest from the point of view of tourism, transport and logistics. In this article, after the Karabakh conflict, the integration issues of the transport and tourism infrastructure of Karabakh and Eastern Zangezur to the Zangezur corridor and from there to Türkiye through the Nakhchivan Autonomous Republic have been studied.

Keywords: *tourism, logistics, Karabakh, Zangezur corridor*

QƏDİM, FƏDAKAR SƏNƏT OCAĞI – İRƏVAN DÖVLƏT AZƏRBAYCAN DRAM TEATRI VƏ ÇAĞDAŞ TƏŞKİLATLANMA MƏSƏLƏSİ

Gülxarə ƏHMƏDOVA
gulhareehmedova1966@gmail.com
ORCID iD: 0009-0007-7069-4836
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycan teatr tarixinin ən qədim və zəngin ənənələrə malik sənət müəssisələrindən biri olmaqla yanaşı, Qərbi Azərbaycandakı milli-mədəni irsin qorunmasında mühüm rol oynayan mədəniyyət ocağıdır. Teatrın fəaliyyəti XIX əsrin sonlarından etibarən Azərbaycan xalqının maariflənməsi, milli özünüdərkin formalaşması və mədəni dəyərlərinin yaşadılması prosesləri ilə sıx bağlı olmuşdur. Müxtəlif tarixi-siyasi hadisələr, xüsusilə XX əsrdə azərbaycanlı əhalinin deportasiyası və məcburi köçkünlük şəraiti teatrın fəaliyyətinə ciddi təsir göstərsə də, kollektiv öz yaradıcılıq missiyasını qoruyub saxlamağa nail olmuşdur.

Məqalədə İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi inkişaf mərhələləri, milli mədəniyyətin qorunmasındakı rolu və müasir dövrdə qarşılaşdığı təşkilati problemlər araşdırılmışdır. Tədqiqat zamanı tarixi-müqayisəli təhlil, sənəd araşdırması və sistemli yanaşma metodlarından istifadə edilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, teatr yalnız səhnə sənəti nümunələri təqdim edən yaradıcılıq müəssisəsi deyil, həm də milli yaddaşın, tarixi həqiqətlərin və mədəni kimliyin qorunmasına xidmət edən sosial-mədəni institutdur.

Tədqiqat göstərir ki, müasir dövrdə teatrın inkişafı üçün repertuar siyasətinin yenilənməsi, gənc tamaşaçı auditoriyasının formalaşdırılması, rəqəmsal texnologiyaların tətbiqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və peşəkar kadr hazırlığının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Nəticə etibarilə, İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi irsinin qorunması və çağdaş idarəetmə prinsiplərinin tətbiqi onun gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirir və Azərbaycan mədəniyyətinin davamlı inkişafına mühüm töhfə verir.

Açar sözlər: *İrəvan teatrı, Azərbaycan teatrı, mədəni irs, teatr idarəçiliyi, repertuar siyasəti, təşkilatlanma.*

Giriş

Azərbaycan milli teatr sənəti Şərqdə peşəkar teatr ənənələrinin formalaşdığı mühüm mədəni məkanlardan biri hesab olunur. XIX əsrin ikinci yarısından etibarən Azərbaycan cəmiyyətində baş verən ictimai-siyasi və mədəni dəyişikliklər milli teatrın meydana gəlməsinə və inkişafına əlverişli şərait yaratmışdır. Maarifçilik hərəkatının güclənməsi, milli özünüdərk prosesinin sürətlənməsi və yeni mədəni institutların yaranması teatrın cəmiyyət həyatında əhəmiyyətli mövqe qazanmasına səbəb olmuşdur. Teatr yalnız estetik yaradıcılıq sahəsi deyil, həm də ictimai fikir formalaşdıran, milli ideyaların yayılmasına xidmət edən mühüm sosial institut kimi çıxış etmişdir (Cəfərov, 2009).

Azərbaycan teatr tarixində xüsusi yeri olan sənət ocaqlarından biri İrəvan Dövlət Azərbaycan Dram Teatrıdır. Bu teatr Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların mədəni həyatının ayrılmaz hissəsi olmaqla yanaşı, bölgədə milli teatr ənənələrinin inkişafına mühüm töhfələr vermişdir. XIX əsrin sonlarından etibarən İrəvan şəhərində fəaliyyət göstərən həvəskar teatr kollektivləri sonradan peşəkar teatr mühitinin formalaşmasına zəmin yaratmışdır. Həmin dövrdə Azərbaycan dilində tamaşaların hazırlanması və nümayiş etdirilməsi milli mədəniyyətin qorunması baxımından mühüm əhəmiyyət kəsb etmişdir (Kərimov, 2011).

İrəvan teatr mühitinin inkişafı Azərbaycan maarifçilik hərəkatının tanınmış nümayəndələrinin fəaliyyəti ilə sıx bağlı olmuşdur. Teatrın repertuarında milli dramaturgiyanın görkəmli nümayəndələri

olan Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və Cəlil Məmmədquluzadənin əsərləri mühüm yer tutmuşdur. Bu əsərlər vasitəsilə cəmiyyətin sosial problemləri, milli-mənəvi dəyərləri və maarifçilik ideyaları geniş auditoriyaya çatdırılmışdır. Azərbaycan teatrının inkişaf tarixini araşdıran tədqiqatçılar qeyd edirlər ki, milli dramaturgiyanın yayılması və teatr sənətinin inkişafı xalqın mədəni şüurunun formalaşmasına əhəmiyyətli təsir göstərmişdir (Əlizadə, 2015).

XX əsr ərzində İrəvan Dövlət Azərbaycan Dram Teatrı müxtəlif tarixi mərhələlərdən keçmişdir. Sovet dövründə teatr peşəkar sənət müəssisəsi kimi fəaliyyət göstərmiş, Azərbaycan dramaturgiyasının və səhnə sənətinin inkişafında mühüm rol oynamışdır. Lakin bölgədə baş verən etnik-siyasi proseslər teatrın fəaliyyətinə ciddi təsir göstərmişdir. Xüsusilə 1948–1953-cü illər deportasiyaları və 1988-ci ildən etibarən Ermənistanda yaşayan azərbaycanlıların kütləvi şəkildə öz tarixi torpaqlarından çıxarılması teatr kollektivinin fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olmuşdur. Buna baxmayaraq, teatr öz fəaliyyətini dayandırmamış, Azərbaycanda yenidən təşkilatlanaraq milli sənət missiyasını davam etdirmişdir (Həbibbəyli, 2022).

Mədəniyyət sosiologiyası və performans nəzəriyyələri baxımından teatrın fəaliyyətinin yalnız səhnə sənəti ilə məhdudlaşmadığı qeyd olunur. Carlsona görə, teatr kollektiv yaddaşın qorunması və ictimai identikliyin formalaşdırılması üçün mühüm vasitədir (Carlson, 2014). Bu baxımdan İrəvan Dövlət Azərbaycan Dram Teatrı təkcə yaradıcılıq qurumu deyil, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş insanların tarixi yaddaşını yaşadan və milli kimliyi qoruyan mədəni institut kimi qiymətləndirilə bilər.

Müasir dövrdə qloballaşma prosesləri, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və mədəni istehlak formalarının dəyişməsi teatrların fəaliyyətinə yeni tələblər irəli sürür. Ənənəvi teatr modeli artıq rəqəmsal media, sosial şəbəkələr və virtual mədəniyyət platformaları ilə rəqabət aparmaq məcburiyyətindədir. Bennett qeyd edir ki, XXI əsrdə teatrın əsas vəzifələrindən biri yeni tamaşaçı auditoriyasını formalaşdırmaq və dəyişən ictimai tələblərə uyğun fəaliyyət strategiyaları hazırlamaqdır (Bennett, 1997). Bu tendensiyalar İrəvan Dövlət Azərbaycan Dram Teatrının da təşkilati strukturuna, repertuar siyasətinə və idarəetmə modelinə təsir göstərir.

Müasir teatr menecmenti sahəsində aparılan tədqiqatlar göstərir ki, teatrların davamlı inkişafı üçün yalnız yaradıcılıq fəaliyyəti kifayət etmir. Effektiv idarəetmə, marketinq strategiyaları, auditoriya inkişafı proqramları, beynəlxalq əməkdaşlıq və rəqəmsallaşma prosesləri teatr fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir (Məmmədov, 2018). Bu baxımdan İrəvan Dövlət Azərbaycan Dram Teatrının qarşısında duran əsas vəzifələrdən biri tarixi-mədəni missiyasını qorumaqla yanaşı, müasir təşkilatlanma prinsiplərini tətbiq etməkdir.

Beynəlxalq təcrübə göstərir ki, milli teatrlar yalnız mədəni irsin qorunmasına deyil, həm də cəmiyyətin sosial inteqrasiyasına, mədəni diplomatiyanın inkişafına və dövlətin beynəlxalq imicinin formalaşdırılmasına xidmət edir. UNESCO-nun mədəniyyət və dayanıqlı inkişaf sahəsində qəbul etdiyi yanaşmalara əsasən, mədəni institutların qorunması və inkişaf etdirilməsi davamlı inkişaf strategiyalarının mühüm elementlərindən biridir (UNESCO, 2022). Bu kontekstdə İrəvan Dövlət Azərbaycan Dram Teatrının fəaliyyəti Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması və Qərbi Azərbaycan irsinin təbliği baxımından xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, İrəvan Dövlət Azərbaycan Dram Teatrı həm tarixi keçmişi, həm də müasir inkişaf potensialı ilə Azərbaycan teatr sənətinin mühüm tərkib hissəsidir. Teatrın çağdaş təşkilatlanma problemlərinin araşdırılması onun gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, milli mədəni irsin qorunması və müasir teatr idarəçiliyi modellərinin tətbiqi baxımından aktual elmi və praktiki əhəmiyyət daşıyır. Bu məqalənin əsas məqsədi İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi inkişaf yolunu, müasir fəaliyyət xüsusiyyətlərini və çağdaş təşkilatlanma məsələlərini elmi baxımdan təhlil etməkdən ibarətdir.

Qərbi Azərbaycan elm, mədəniyyət, ədəbiyyat və incəsənət sahələrində mühüm töhfələr vermiş görkəmli ictimai xadimlər və ziyalılar yetişdirməklə Azərbaycan elminə əhəmiyyətli töhfələr vermişdir. Azərbaycan haqqında danışarkən adətən Şimali Azərbaycan və Cənubi Azərbaycan

nəzərdə tutulur. Son dövrlərdə isə "Qərbi Azərbaycan" anlayışı coğrafi termin kimi formalaşmışdır. Azərbaycanlıların 1988-ci ildə öz ata-baba yurdlarından zorla çıxarılmasından sonra "Qərbi Azərbaycan" termini daha geniş istifadə olunmağa başlanmışdır. Bu anlayış Azərbaycanşünaslıq elminə ilk dəfə tarixçi-professor Süleyman Əliyerov tərəfindən gətirilmişdir. Gənc nəslə Heydər Əliyevin milli dövlətçilik ideyalarını aşılamağı, ümumbəşəri mədəniyyətin və sülhün inkişafına dəstək verməyi qarşısına məqsəd qoyan Heydər Əliyev Fondu fəaliyyətə başladığı gündən etibarən qaçqın və məcburi köçkünlərin üzləşdiyi problemlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına və bu problemlərin həllinə xüsusi diqqət yetirmişdir.

Məlumdur ki, Qərbi Azərbaycanda fəaliyyət göstərmiş İrəvan Dövlət Azərbaycan Dram Teatrı da bu istiqamətdə zəngin və şərəfli fəaliyyət tarixinə malikdir.

Tarixçi İsrafil Məmmədovun araşdırmalarına görə, teatrın tarixi müxtəlif mənbələr əsasında 1882-ci ildən başlayır. Alimin fikrincə, İrəvanda Azərbaycan teatrının yaranma tarixi ən azı 1880–1881-ci illərə gedib çıxır. İrəvanda nəşr olunan "Psak" ("Çələng") qəzetinin 10 aprel 1882-ci il tarixli sayında "Fars Teatrı" adlı geniş məqalə dərc edilmişdir. Məqalədə qeyd olunur ki, İrəvan türklərindən ibarət həvəskar aktyorlar Vasak Madatov Nazminin "Tamah düşmən qazanar" pyesini yoxsul tələbələrə yardım məqsədilə iki dəfə səhnələşdirmişlər: ilk dəfə 1881-ci ilin ikinci yarısında, ikinci dəfə isə 2 aprel 1882-ci ildə.

XIX əsrin ikinci yarısında peşəkar fəaliyyətə başlayan Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı bu qədim ənənənin layiqli davamçısıdır.

Azərbaycan teatr sənətinin öncüllərindən biri olan bu sənət ocağı 1988-ci ildə başlayan Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində 1989-cu ildə öz doğma yurdundan didərgin salınmışdır. Lakin sürgün şəraitində yaşayıb fəaliyyət göstərməsinə baxmayaraq, teatr öz ənənələrini qoruyub saxlamış və yeni sənət nümunələrinin yaradılmasında mühüm rol oynamağa davam etmişdir. Müasir Azərbaycan teatrının inkişafına töhfə verən İrəvan Teatrı 1882-ci ildən etibarən son dərəcə çətin şəraitdə tamaşalar təqdim etmiş, müxtəlif janrlı repertuarı ilə bütün Qafqazda tamaşaçı rəğbəti qazanmışdır. Milli dramaturqların əsərləri ilə yanaşı, Şekspir, Şiller, Molyer, Çexov, Qoqol və digər dünya ədəbiyyatı klassiklərinin əsərləri də repertuarda yer almış, bu isə teatrın dünyaya açılmasına, nüfuzunun və beynəlxalq əlaqələrinin genişlənməsinə xidmət etmişdir.

1918-ci ilin mart ayında daşnak erməni silahlı dəstələrinin Bakı və İrəvanda törətdiyi kütləvi qırğınlar İrəvan Azərbaycan Teatrının taleyinə ağır zərbə vurmuşdur. Nəticədə teatr 1918-ci ildə ilk dəfə olaraq öz doğma məkanını tərk etməyə məcbur olmuşdur.

Metodologiya

Tədqiqatda tarixi-müqayisəli, sistemli təhlil və sənəd araşdırması metodlarından istifadə edilmişdir.

İlk mərhələdə Azərbaycan teatr tarixini əks etdirən elmi mənbələr, monoqrafiyalar və arxiv materialları öyrənilmişdir. Teatrın yaranması, inkişaf mərhələləri və fəaliyyət istiqamətləri tarixi ardıcıllıqla təhlil edilmişdir.

İkinci mərhələdə müasir teatr idarəçiliyi sahəsində mövcud nəzəri yanaşmalar araşdırılmışdır. Dövlət teatrlarının təşkilatlanma modelləri, repertuar siyasəti, marketinq fəaliyyəti və tamaşaçı auditoriyasının formalaşdırılması məsələləri müqayisəli şəkildə qiymətləndirilmişdir.

Üçüncü mərhələdə İrəvan Dövlət Azərbaycan Dram Teatrının mövcud fəaliyyət istiqamətləri, yaradıcılıq imkanları və təşkilati problemləri sistemli təhlil olunmuşdur. Təhlil zamanı mədəniyyət siyasəti və teatr menecmenti sahəsində qəbul edilmiş müasir yanaşmalar əsas götürülmüşdür.

Nəticələr və Müzakirə

Aparılmış araşdırmalar göstərir ki, İrəvan Dövlət Azərbaycan Dram Teatrı təkcə Azərbaycan teatr tarixinin mühüm bir hissəsi deyil, həm də Qərbi Azərbaycanda formalaşmış milli-mədəni irsin mühafizəsi və gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyan sənət müəssisəsidir. Teatrın fəaliyyət tarixi müxtəlif siyasi və sosial çətinliklər fonunda inkişaf etmiş,

xüsusilə XX əsrin sonlarında azərbaycanlı əhalinin Ermənistandan deportasiyası nəticəsində kollektiv öz doğma mühitindən uzaq düşməsinə baxmayaraq fəaliyyətini davam etdirmişdir. Bu xüsusiyyət onu Azərbaycan teatr tarixində unikal fenomenə çevirmişdir (Cəfərov, 2009).

Tədqiqat nəticələri göstərir ki, teatrın əsas üstünlüklərindən biri onun tarixi yaddaşı qoruma funksiyası ilə bağlıdır. Müasir teatrşünaslıqda teatr yalnız estetik hadisə kimi deyil, həm də kollektiv yaddaşın formalaşdırılması və milli identikliyin möhkəmləndirilməsi vasitəsi kimi qiymətləndirilir. M. Carlson qeyd edir ki, teatr keçmiş hadisələri və mədəni kodları yenidən təqdim etməklə cəmiyyətin özünüidentifikasiya prosesinə təsir göstərir (Carlson, 2014). İrəvan Dövlət Azərbaycan Dram Teatrının repertuarında tarixi və milli mövzuların üstünlük təşkil etməsi bu funksiyanın həyata keçirilməsinə xidmət edir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, teatrın repertuar siyasəti onun ideoloji və mədəni missiyasının reallaşdırılmasında mühüm rol oynayır. Klassik Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, müasir müəlliflərin əsərlərinin səhnələşdirilməsi teatrın müxtəlif tamaşaçı qruplarına müraciət etməsinə şərait yaradır. Bununla belə, repertuarda Qərbi Azərbaycan mövzularının daha sistemli şəkildə yer alması tarixi yaddaşın qorunması baxımından əhəmiyyətli hesab edilə bilər. Həbibbəylinin fikrincə, Qərbi Azərbaycan irsinin müxtəlif mədəni platformalarda təbliği milli-mədəni siyasətin mühüm istiqamətlərindən biridir (Həbibbəyli, 2022).

Tədqiqat nəticələri teatrın təşkilati fəaliyyətində bir sıra çağırışların mövcud olduğunu da göstərmişdir. Müasir dövrdə teatrlar tamaşaçı auditoriyasının dəyişən maraqları ilə üzləşirlər. İnternet, sosial media və rəqəmsal əyləncə vasitələrinin geniş yayılması ənənəvi teatr auditoriyasının azalmasına səbəb olmuşdur. S. Bennett teatr auditoriyasının davranışlarını təhlil edərək qeyd edir ki, müasir tamaşaçı yalnız passiv izləyici deyil, həm də mədəni proseslərin fəal iştirakçısı olmaq istəyir (Bennett, 1997). Bu baxımdan İrəvan Dövlət Azərbaycan Dram Teatrının yeni tamaşaçı qruplarını cəlb etmək üçün interaktiv layihələrə və müasir kommunikasiya vasitələrinə daha çox müraciət etməsi məqsədəuyğun görünür.

Araşdırma zamanı gənclərin teatr proseslərinə cəlb edilməsinin zəruriliyi də müəyyən edilmişdir. Müasir teatr menecmentində auditoriyanın davamlılığı əsas göstəricilərdən biri hesab olunur. Teatrın məktəblər və universitetlərlə əməkdaşlıq proqramlarının genişləndirilməsi, gənclər üçün ustad dərslərinin təşkili və teatr studiyalarının yaradılması uzunmüddətli inkişaf strategiyasının vacib komponentləri kimi qiymətləndirilə bilər. Kərimovun qeyd etdiyi kimi, Azərbaycan teatrının gələcəyi peşəkar kadr hazırlığının və gənc nəslin sənətə marağının artırılmasından bilavasitə asılıdır (Kərimov, 2011).

Nəticələr göstərir ki, teatrın fəaliyyətində rəqəmsallaşma istiqamətinin gücləndirilməsi də mühüm əhəmiyyət daşıyır. Dünyanın bir çox teatrlarında rəqəmsal platformalar vasitəsilə tamaşaların yayımlanması, elektron arxivlərin yaradılması və virtual sərgilərin təşkili uğurla tətbiq edilir. UNESCO-nun mədəniyyət və dayanıqlı inkişaf üzrə hesabatında qeyd edilir ki, rəqəmsal texnologiyalar mədəni irsin qorunması və auditoriyanın genişləndirilməsi üçün yeni imkanlar yaradır (UNESCO, 2022). Bu baxımdan İrəvan Dövlət Azərbaycan Dram Teatrının öz tarixi irsinin rəqəmsallaşdırılması istiqamətində fəaliyyətini genişləndirməsi məqsədəuyğun hesab olunur.

Araşdırma nəticələri beynəlxalq əməkdaşlığın da teatrın inkişaf perspektivlərinə müsbət təsir göstərə biləcəyini göstərmişdir. Xarici teatr festivallarında iştirak, ortaq tamaşa layihələrinin hazırlanması və beynəlxalq yaradıcılıq mübadilələrinin həyata keçirilməsi kollektivin peşəkar potensialının artırılmasına kömək edə bilər. P. Pavis beynəlxalq teatr əlaqələrinin müxtəlif mədəni təcrübələrin inteqrasiyasına şərait yaratdığını və teatr sənətinin inkişafını sürətləndirdiyini vurğulayır (Pavis, 1998).

Müzakirələr göstərir ki, İrəvan Dövlət Azərbaycan Dram Teatrının gələcək inkişaf modeli iki əsas istiqamətin uzlaşdırılması üzərində qurulmalıdır. Bir tərəfdən teatr özünün tarixi missiyasını, milli-mədəni yaddaşın qorunması funksiyasını davam etdirməli, digər tərəfdən isə müasir teatr menecmentinin tələblərinə uyğun olaraq innovativ idarəetmə mexanizmlərini tətbiq etməlidir.

Schechner-in performans nəzəriyyəsinə görə, müasir teatr ənənə ilə yeniliyin qarşılıqlı əlaqəsi nəticəsində inkişaf edir və yalnız bu halda cəmiyyətlə dinamik münasibət qura bilir (Schechner, 2020).

Beləliklə, aparılmış təhlil göstərir ki, İrəvan Dövlət Azərbaycan Dram Teatrı zəngin tarixi irsə malik olmaqla yanaşı, müasir mədəni mühitdə rəqabət qabiliyyətli sənət müəssisəsi kimi inkişaf etmək potensialına da sahibdir. Bunun üçün repertuar siyasətinin yenilənməsi, gənc auditoriyanın cəlb edilməsi, rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi və peşəkar kadr hazırlığının gücləndirilməsi əsas prioritet istiqamətlər kimi çıxış etməlidir. Bu tədbirlər teatrın həm milli mədəniyyətin qoruyucusu, həm də çağdaş yaradıcılıq mərkəzi kimi fəaliyyətini daha da gücləndirə bilər.

Mənbələr teatrın tarixini belə səciyyələndirir: "Qafqazda milli ruhun oyandığı və mədəni mühitin intibah dövrünü yaşadığı bir zamanda Qərbi Azərbaycanın paytaxtı İrəvanda yaradılmış bu teatr ilk gündən maarifçiliyin, mədəniyyətin, elmin, təhsilin, bədii yaradıcılığın, folklorun və milli özünüdərkin inkişafına xidmət etmişdir. Fəaliyyəti boyunca həm teatr sənətinə, həm də ümumilikdə Azərbaycan teatr mədəniyyətinin inkişafına böyük töhfələr vermişdir." Tarixi mənbələr İrəvanda teatr ənənələrinin daha qədim köklərə malik olduğunu da göstərir. Bu mənbələrə görə, 1673-cü ildə İrəvan xanlığının Sərdar sarayında nümayiş etdirilən bir tamaşa Qafqaza səfəri zamanı fransız səyyahı Jan Şardenin diqqətini cəlb etmişdir.

Qeyd edilməlidir ki, 1880–1882-ci illərdə, teatrın ilk dövründə tamaşalar İrəvanda həvəskar aktyorlar tərəfindən təqdim olunurdu.

1886-cı ildə iyirmi üç yaşlı gimnaziya müəllimi Firidun bəy Köçərli şəhərdə teatr tamaşası təşkil etmişdir. Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının səhnələşdirilməsi İrəvan əhalisinin mədəni həyatında mühüm hadisəyə çevrilmişdir. Lakin Köçərli 1895-ci ildə İrəvandan ayrıldıqdan sonra teatrın rəhbərliyi on səkkiz yaşlı Yunis Nuriyə keçmişdir.

1918-ci ildə daşnak hücumları nəticəsində teatr rəhbərliyi və bir qrup aktyor İranın Xoy şəhərinə köçməyə məcbur olmuşdur.

1922-ci ildə Sovet hakimiyyəti qurulduqdan sonra onlar geri qayıdaraq fəaliyyətlərini böyük əzmlə bərpa etmişlər. Teatrın dirçəlişi və inkişafı Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Zakir Şahbazov, Əşrəf Yusifzadə, Kazım Ziya, Nəsib Əfəndiyev və digər fədakar mədəniyyət xadimlərinin adları ilə sıx bağlıdır. Bala Əfəndiyevin həyat yoldaşı Fatma Əfəndiyeva teatrın ilk qadın aktrisası olmuş və Azərbaycan qadınları üçün nümunəyə çevrilmişdir. O, eyni zamanda İrəvan Türk Qadınlar Klubunun ilk rəhbəri olmuşdur. Daha sonra Əkbər Rzayev də həyat yoldaşı Firəngiz xanımı Fatma xanımla birlikdə səhnəyə gətirmişdir. Bala Əfəndiyev 1921–1928-ci illərdə İrəvanda partiya orqanlarında məsul vəzifələrdə çalışmışdır. Siyasi və ideoloji səbəblərdən repertuara bədii və tarixi dəyəri zəif olan bəzi əsərlər daxil edilmiş, bu isə teatrın mənəvi mühitinə müəyyən mənfi təsir göstərmişdir. Nəticədə teatr "İnci" və digər oxşar ideoloji yönümlü əsərləri səhnələşdirməyə məcbur olmuşdur.

Nəticə

İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycan xalqının zəngin mədəni irsini yaşadan, mürəkkəb tarixi şəraitdə fəaliyyətini qoruyub saxlayan nadir sənət ocaqlarından biridir. Teatrın keçdiyi yol onun yalnız yaradıcılıq müəssisəsi deyil, həm də milli yaddaşın, mənəvi dəyərlərin və tarixi həqiqətlərin qoruyucusu olduğunu göstərir.

Aparılmış araşdırma göstərir ki, teatrın müasir inkişafı üçün ənənə ilə yeniliyin vəhdəti vacib şərtdir. Tarixi mövzuların səhnələşdirilməsi, Qərbi Azərbaycan irsinin təbliği və milli dramaturgiyanın inkişafı teatrın əsas missiyası olaraq qalmalıdır. Bununla yanaşı, müasir tamaşaçı tələblərinə uyğun repertuarın formalaşdırılması, rəqəmsal texnologiyaların tətbiqi və marketinq fəaliyyətinin gücləndirilməsi zəruridir.

Teatrın gələcək inkişaf strategiyasında gənc nəslin sənətə marağının artırılması xüsusi yer tutmalıdır. Təhsil müəssisələri ilə əməkdaşlıq proqramları, gənclər üçün teatr studiyalarının

yaradılması və interaktiv layihələrin həyata keçirilməsi yeni auditoriyanın formalaşmasına kömək edə bilər.

Bundan əlavə, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, xarici festivallarda iştirak və ortaq teatr layihələrinin təşkili teatrın yaradıcılıq imkanlarını artıracaqdır. Müasir təşkilatlanma prinsiplərinin tətbiqi kollektivin fəaliyyət səmərəliliyini yüksəldərək onun regional və beynəlxalq mədəni məkanda mövqeyini gücləndirə bilər.

Nəticə etibarilə, İrəvan Dövlət Azərbaycan Dram Teatrının qorunması və inkişaf etdirilməsi təkcə bir teatrın deyil, bütövlükdə Azərbaycan xalqının tarixi-mədəni irsinin yaşadılması baxımından strateji əhəmiyyət daşıyır. Bu teatr keçmişlə gələcək arasında mənəvi körpü rolunu oynayaraq milli mədəniyyətin inkişafında mühüm missiyasını davam etdirmək potensialına malikdir.

Təşkilati inkişaf baxımından İrəvan Teatrı yeniliklərə ən sürətlə uyğunlaşan mədəniyyət müəssisələrindən biri olmuşdur. Bunun nümunəsi kimi teatrın fəaliyyətinə daim yeni təşəbbüslərin tətbiq olunmasını göstərmək olar. Son illərdə Azərbaycanda teatr kollektivlərinin yenidən təşkili və strukturlaşdırılması, teatr fəaliyyətinin inkişafına yönəlmiş tədbirlərin həyata keçirilməsi, rejissorlar üçün əməkhaqqı sisteminin yaradılması, müqavilə münasibətlərinin tətbiqi, repertuar siyasətinin yeni strateji məqsədlərə uyğunlaşdırılması, müəlliflərlə əməkdaşlıq, dramaturji ədəbiyyatın inkişafı və digər ölkələrlə qarşılıqlı qastrol mübadilələrinin təşkili teatr gündəliyinin mühüm məsələlərinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Auslander, P. (2008). Liveness: Performance in a Mediatized Culture (2nd ed.). London: Routledge.
2. Azərbaycan Milli Elmlər Akademiyası. (2019). Azərbaycan Teatr Ensiklopediyası. Bakı: Şərq-Qərb Nəşriyyatı.
3. Balme, C. B. (2014). The Cambridge Introduction to Theatre Studies. Cambridge: Cambridge University Press.
4. Bennett, S. (1997). Theatre Audiences: A Theory of Production and Reception (2nd ed.). London: Routledge.
5. Brook, P. (1996). The Empty Space. New York: Simon & Schuster.
6. Carlson, M. (2014). Theatre: A Very Short Introduction. Oxford: Oxford University Press.
7. Cəfərov, C. (2009). Azərbaycan Teatrı. Bakı: Elm Nəşriyyatı.
8. Əliyev, R. (2017). Azərbaycan Mədəniyyətinin Tarixi İnkişaf Mərhələləri. Bakı: Elm.
9. Əlizadə, M. (2015). Milli Teatr və Mədəni Kimlik. Bakı: Təhsil Nəşriyyatı.
10. Fischer-Lichte, E. (2008). The Transformative Power of Performance: A New Aesthetics. London: Routledge.
11. Həbibbəyli, İ. (2022). Qərbi Azərbaycan: Tarix, Şəxsiyyətlər və Mədəni İrs. Bakı: Elm və Təhsil.
12. Həbibbəyli, İ. (2023). Qərbi Azərbaycan İrsi və Mədəni Yaddaş. Bakı: Elm və Təhsil.
13. Kərimov, İ. (2011). Azərbaycan Teatr Tarixi. Bakı: Maarif Nəşriyyatı.
14. Lehmann, H.-T. (2006). Postdramatic Theatre. London: Routledge.
15. Məmmədov, A. (2018). Teatr Menecmenti və Mədəniyyət Siyasəti. Bakı: Mütərcim Nəşriyyatı.
16. Pavis, P. (1998). Dictionary of the Theatre: Terms, Concepts and Analysis. Toronto: University of Toronto Press.
17. Schechner, R. (2020). Performance Studies: An Introduction (4th ed.). New York: Routledge.
18. UNESCO. (2021). Re|Shaping Policies for Creativity: Addressing Culture as a Global 19. Public Good. Paris: UNESCO Publishing.
19. UNESCO. (2022). Culture and Sustainable Development Report 2022. Paris: UNESCO Publishing.
20. United Nations. (2015). Transforming Our World: The 2030 Agenda for Sustainable Development. New York: United Nations.

ABSTRACT

Gülxarə ƏHMƏDOVA

ANCIENT, SACRED ARTISTIC CENTER – ERIVAN STATE AZERBAIJANI DRAMA THEATRE AND THE ISSUE OF CONTEMPORARY ORGANIZATION

The Erivan State Azerbaijani Drama Theatre is one of the oldest and most historically rich artistic institutions in Azerbaijani theatre history, playing a significant role in preserving the national-cultural heritage of Western Azerbaijan. Since the late 19th century, the theatre's activities have been closely linked to the enlightenment of the Azerbaijani people, the formation of national self-awareness, and the preservation of cultural values. Although various historical and political events, especially the deportation and forced displacement of Azerbaijani populations in the 20th century, had a serious impact on the theatre's work, the collective was able to maintain its creative mission.

This article investigates the historical development stages of the Erivan State Azerbaijani Drama Theatre, its role in the preservation of national culture, and the organizational challenges faced in the modern era. The research employs methods such as historical-comparative analysis, document examination, and a systematic approach. The findings reveal that the theatre is not only a creative institution presenting stage art but also a socio-cultural institution serving the preservation of national memory, historical truths, and cultural identity.

The study indicates that for the development of the theatre today, it is crucial to renew the repertoire policy, foster a young audience, apply digital technologies, expand international cooperation, and strengthen professional staff training. Ultimately, preserving the historical heritage of the Erivan State Azerbaijani Drama Theatre and applying modern management principles define the main directions for its future development and make a significant contribution to the continuous development of Azerbaijani culture.

Keywords: *Erivan theatre, Azerbaijani theatre, cultural heritage, theatre management, repertoire policy, organization.*

TARİXİ TORPAĞIMIZ QƏRBİ AZƏRBAYCANIN MADDİ-MƏNƏVİ İRSİ

Sevda AXUNDOVA
Bakı Slavyan Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın Azərbaycan xalqına məxsus tarixi-mədəni irsi, xüsusilə İrəvan şəhərində mövcud olmuş dini-memarlıq abidələri geniş şəkildə araşdırılır. Müəllif XIX əsrdən başlayaraq ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi siyasətini, azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasını və bölgədə həyata keçirilən etnik təmizləmə siyasətini tarixi faktlar əsasında təhlil edir. Məqalədə İrəvan şəhərində yerləşən Göy məscid, Sərdar məscidi, Zal xan məscidi, Təpəbaşı məscidi və digər dini-tarixi abidələrin memarlıq xüsusiyyətləri, tarixi əhəmiyyəti və sonrakı taleyi barədə məlumat verilir. Eyni zamanda, Ermənistan ərazisində Azərbaycan xalqına məxsus maddi-mədəni irsin məqsədli şəkildə dağıdılması, mənimsənilməsi və saxtalaşdırılması faktları elmi mənbələrə əsasən təqdim olunur. Tədqiqatda Qərbi Azərbaycana qayıdış ideyasının milli yaddaş və tarixi ədalətin bərpası baxımından əhəmiyyəti vurğulanır.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, mədəni irs, Göy məscid, deportasiya, vandalizm*

II Qarabağ müharibəsində tarixi qələbə, xalqımız üçün tarixi inkişafın yeni mərhələsi zəminində yeni üfüqlər açdı. Qazanılan qələbə və milli özünüdərk, habelə milli dirçəliş və milli intibah tarixşünaslığımızda çoxdan kök salmış böyük bir boşluğu aradan qaldırmağa təsirli təkan verdi. Qələbə nəticəsində Qərbi Azərbaycan kimi tarixi məsələnin tədqiq və təbliğ edilməsi, həmçinin də əhalinin tarixi torpaqlara sülh yolu ilə qayıdış ideologiyasının hədəf və strategiyaya çevrilməsi istiqamətində tarixi zərurət yarandı. Cənab Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə nitqində vurğuladı ki, "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır" [1].

Tariximizə nəzər salaraq görürük ki, 1800-cü illərdən başlayaraq siyasi maraqları olan böyük dövlətlərin dəstəyi ilə Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay (1805) müqaviləsi, Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan (1813), Türkmənçay (1828) müqaviləsi, daha sonra isə Türkiyə və Rusiya arasında bağlanan Ədirnə (1829) müqaviləsindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi siyasəti həyata keçirilib. Regionun ermənileşdirilməsi siyasətini həyata keçirmək məqsədilə İrəvan, Göyçə, Zəngəzur və Zəngibasar bölgəsində yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına başlandı. 1918-ci il mayın 28-də daşnaklar tərəfindən qədim Azərbaycan ərazisi olan keçmiş İrəvan xanlığı ərazisində "Ararat Respublikası" yaradıldı. Zəngəzur qəzasının bir hissəsi Ermənistana verilməklə Naxçıvan Azərbaycandan ayrı salınıb. Məsələn, rus tarixçisi, şair və publisisti V.L.Veliçko hələ 19-cu əsrdə "Кавказ. Русское дело и межплеменные вопросы" kitabında bildirir: "Bütün qafqazlılar bilirlər ki, ermənilər burada köklü xalq kimi olmamış, İran və Türkiyədən qaçqınlar kimi 19-cu yüzilliyin birinci yarısında buraya köçürülmüşlər" [3].

1831-ci ildə İrəvan şəhərinin əhalisinin əksəriyyəti (18766 nəfərdən 15922 nəfəri), 1866-cı ildə isə 27246 nəfərdən 23626 nəfəri azərbaycanlılar olub. Erməni dili hibrid, yəni calaq dil olub. Erməni soyadlarının yalnız 28 faizi erməni dilində yaranan soyadlarıdır. Erməni dilində 4200-dən çox türk sözü var. Türk, fars, ərəb, assur-babil, yunan, gürcü və digər dillərdən çoxsaylı sözlər götürülüb. Ermənistanda olan kəndlərin mütləq əksəriyyətində azərbaycanlılar yaşayırdılar.

Hər hansı xalqın müəyyən ərazidə varlığını təsdiqləyən əlamətlərdən biri onlara məxsus dini-tarixi tikililərin mövcud olmasıdır. Keçmiş İrəvan xanlığı, indiki Ermənistan ərazisində islam dini VII əsrdən etibarən yayıldığı üçün həmin ərazidə yüzlərlə məscid və digər dini ibadət yerləri mövcud olmuşdur. İrəvan xanlığının, o cümlədən də İrəvan şəhərinin ərazisində mövcud olmuş məscidlərin hər biri memarlıq nümunəsi idi. Şah İsmayılın əmri ilə 1510-cu ildə onun sərkərdəsi Rəvanqulu xan İrəvan qalasını tikdirərkən həm də

orada məscid inşa etdirmişdi. "Şah İsmayıl məscidi" adlandırılan həmin məscid sonradan zəlzələ nəticəsində dağılaraq yer üzündən silinmişdir. 1583-cü ildə Osmanlı sərkərdəsi Fərhad paşanın komandanlığında Osmanlı ordusu İrəvanı ələ keçirdikdən sonra ovalşəkilli iç və bayır qala divarlarını inşa etdirməklə yanaşı, yeni məscid də tikdirmişdi.

Məşhur fransız səyyahı Jan Şarden 1673-cü ildə İrəvanda olmuş və şəhər bazarı ilə üzbəüz kərpicdən tikilən və həmin vaxt uçulub-dağılmış vəziyyətdə olan məscid haqqında məlumat vermişdir. O, bu məscidin onun əsasını qoyan şəxsin şərəfinə Div Sultan (1515-ci ildən İrəvan bəylərbəyi olan Div Sultan Rumlu nəzərdə tutulur) məscidi adlandırıldığını yazır.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə verilən məlumata görə, XVIII əsrin 30-cu illərində İrəvan bəylərbəyi İbrahim paşa İrəvan qalasında sultan I Mahmudun (1730-1756) şərəfinə came inşa etdirmişdir.

1833-cü ildə fransız Fredrik Dyubua de Monpere Qafqaza və Krıma etdiyi səyahətinin nəticəsi olaraq 1839-1843-cü illərdə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət" 6 cildlik əsərində İrəvan qalasını və Göy məscidi ətraflı təsvir etmişdir. Onun Sərdar məscidinin əsas girişi tərəfdən çəkdiyi rəsm və Göy məscidin rəsmi hər iki məscidin möhtəşəmliyini və memarlıq nöqteyi-nəzərindən mükəmməl sənət əsəri olduqlarını əyani nümayiş etdirir. Həmin rəsmlər müəllifin adı çəkilən əsərinə əlavə olaraq 1840-cı ildə çap edilən atlasın üçüncü hissəsində yer almışdır. Erkül Nikole Dyubua de Monperenin çəkdiyi rəsmlərin qravürlarını hazırlamışdır.

Sərdar məscidi. Ayrı-ayrı dövrlərdə səyyahların əsərlərində, tədqiqatçıların araşdırmalarında İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən "Sərdar", "Abbas Mirzə", "Şah Abbas" kimi məscidlərin adları çəkilir. Ayrı-ayrı adlar altında təqdim edilməsinə baxmayaraq, əslində söhbət son dövr tədqiqat əsərlərində və rəsmi sənədlərdə adı Sərdar məscidi kimi qeyd olunan dövrün nadir memarlıq abidəsindən gedir. Yəni bir məscid müxtəlif dövrlərdə müxtəlif cür adlandırılmışdır. İrəvan qalasının çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərdə bu məscidin adı Abbas Mirzə məscidi kimi hallandırılır. Görünür, həmin məscid XIX əsrin əvvəlində vəliəhd Abbas Mirzə tərəfindən yenidən qurulduğu üçün məhz onun adı ilə adlandırılmışdır. Alman tədqiqatçısı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və Qalada olan iki məsciddən birinin (Rəcəb paşa məscidinin) rus-yunan kilsəsinə, digərinin - Sərdar məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir.

Tanınmış rus arxeoloqu qrafinya Praskofya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlər boyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasının ürək ağrısı ilə təsvir etmişdir. Erməni müəllifi Yervand Şahəzizin 1931-ci ildə İrəvanda çap edilən "Qədim İrəvan" əsərində P.Uvarovadan sitat gətirərək, onun Xan sarayının yaxınlığında yerləşən Sərdar məscidini Vereşşaginin fırçasından çıxan tabloya bənzətdiyini yazır. P.Uvarovaya istinadən Y.Şahəziz yazır ki, Sərdar məscidinin əsas günbəzi, xarici divarları, sütunları, iç divarları, çoxsaylı digər günbəzləri rəngli kaşılarla və gözəl təsvirlərlə bəzədilmişdir. P.Uvarova Sərdar məscidinin tünd-mavi rəngli günbəzinin açıq səma ilə bütöv bir ahəng təşkil etdiyini, onun portalındakı tünd-mavi lövhə üzərində ərəb əlifbası ilə ağ rənglə mətn həkk olunduğunu, divar sütunları üzərində ucalan minarələrinin üzərinin kvadratşəkilli tünd-mavi və açıq-mavi kaşılarla bəzədildiyini qeyd etmişdir. P.Uvarovanın dili ilə Y.Şahəziz yazır ki, Sərdar məscidinin önündə Şərq ənənəsinə uyğun, hər iki tərəfində hücrələrinin izləri hələ də qalan geniş həyətdə daha bir kiçik yay məscidi yerləşir. Hansı ki, adətən, bu tip yay məscidləri Şərqdə əsas tikilinin qarşısında, üzü şimala doğru tikilir. Bundan əlavə, P.Uvarova həmin həyətin ortasında müsəlmanların yuyunması üçün tikilən hovuzdan 1870-ci ilədək istifadə edildiyini qeyd etmişdir" [4].

İmperator Arxeoloji Komissiyasının qərarına əsasən, 1911-ci ildə professor Nikolay Man İrəvan xan sarayına baxış keçirmiş və saray kompleksinə daxil olan Abbas Mirzə məscidinin də vəziyyətini təsvir etmişdir. N.Marr İmperator Arxeoloji Komissiyasının 17 may 1912-ci il tarixli iclasında etdiyi məruzəsində yazırdı: "Məscid indi də yaxşı vəziyyətdədir, lakin onun qorunması üçün heç bir tədbir görülmür və hər şey Sərdar sarayının vəziyyətinə düşməsinə xidmət edir. Bununla belə, o, yerli müsəlman mədəniyyətinin qiymətli irsidir: günbəzin içərisində çevrəsi boyunca ərəb hərfləri ilə kitabə mövcuddur; mehrab üzərindəki naxışlar xalçaya bənzəyir və yüksək dərəcədə üslubludur. Günbəzi çat vermişdir və onu çoxdan təmir etmək olardı. Azərbaycan arxeoloqu və epiqrafçısı İsa Əzimbəyov 1926-cı ildə İrəvanda ekspedisiyada olmuşdur. Ekspedisiyanın nəticələrinə dair İ.Əzimbəyovun Tiflis, İrəvan və Naxçıvanın müsəlman kitabələrinə dair məqaləsində göstərilir ki, Qalanın içərisində, Sərdar sarayının yaxınlığında yerləşən Şah Abbasın adına inşa edilən məscid (Sərdar məscidi) yanuçuq vəziyyətdədir və onun həyətində bir neçə erməni qaçqın ailəsi məskunlaşmışdır. O, həmin məscidin böyük həyətinin olduğunu, həyətin ortasında hovuz inşa edildiyini yazır. 1864-cü ildə İrəvan qalasından rus qoşunlarının hərbi-istehkam məqsədilə istifadəsinə son qoyulduqdan sonra qaladakı tarixi-memarlıq abidələri, o cümlədən Sərdar, yaxud Abbas Mirzə məscidi ciddi dağıntılara məruz qalmışdır. XX əsrin əvvəllərində Sərdar məscidində Türkiyədən gələn erməni qaçqınları məskunlaşdırılmışdı. Sovet Ermənistanı dövründə isə Sərdar məscidi hissə-hissə sökülərək, onun yerində yaşayış evləri tikilmişdir.

Rəcəb paşa məscidi. 1724-cü ildə Osmanlı qoşunları yenidən İrəvanı ələ keçirdikdən sonra türk sərkərdəsi Rəcəb paşa şəhərin inkişafı üçün bir sıra tədbirlər həyata keçirmişdi. Onun tapşırığı ilə 1725-ci ildə Qalanın içərisində yeni bir məscid inşa edilmişdi ki, həmin məscid onu inşa etdirənin şərəfinə Rəcəb paşa məscidi adlandırılırdı. Bu məscid düzgün paralelepiped formasında və sferik günbəzli idi, həmçinin Şərq üslubunda həndəsi ornamentlərlə bəzədilmişdi. İrəvan qalasının 1827-ci il oktyabrın 1-də qoşunlar tərəfindən işğalından bir gün sonra Rəcəb Paşa məscidinin günbəzindəki ay-ulduzu çıxarıb, yerində xaç və kilsə zəngi asaraq onu rus pravoslav kilsəsinə çevirmişdilər. 1839-cu ildə onun xarici quruluşunda dəyişiklik edilmiş, fasadına silindrik sütunlar əlavə edilmiş, damına örtük vurulmuş, xristian kilsəsi formasına salınmışdı. Rəssam Frans Rubonun İrəvan qalasının alınmasına həsr etdiyi rəsmdə öndə Rəcəb paşa məscidi və onun minarəsi, arxa planda isə Xan sarayının yaxınlığında Sərdar məscidinin təsviri verilmişdir. 1930-cu illərdə aparılan "Allahsızlar" kampaniyası çərçivəsində Rus pravoslav kilsəsi də yer üzündən silinmişdir.

İrəvan şəhərinin Rusiya işgalından sonra kameral təsvir keçirən İvan Şopenin verdiyi məlumata görə, şəhərdə 8 məscid mövcud olmuşdur ki, yuxarıda qeyd edildiyi kimi, onlardan 2-si Qalada, 6-sı isə şəhərdə yerləşmişdir. Şopen qaladakı məscidlərdən birinin silah anbarma, digərinin isə mağazaya çevrildiyini yazır. Sərdar məscidinin silah anbarına çevrildiyini yuxarıda qeyd etmişdik. Mağazaya çevrilən ikinci məscid isə, görünür, Sərdar məscidinin yaxınlığında yerləşən yay məscidi olmuşdur. İ.Şopen qalan 6 məscidin adlarını belə sadalayır: Zal xan, Novruzəli bəy, Sərtib xan, Hüseynəli xan, Hacı İmamverdi və Hacı Cəfər bəy məscidləri. Bunlardan əlavə, İ.Şopen şəhərdə yarıdağılmış vəziyyətdə bir neçə məscidin də olduğunu bildirir.

1906-1911-ci illərdə İrəvan şəhərinin texniki B.Mehrabov şəhərin planını və orada olan memarlıq abidələrinin siyahısını tərtib etmişdir. Mehrabov şəhərdə 8 məscid qeydə almışdır. Həmin məscidlər belə adlanırdı: Təpəbaşı, Şəhər (Zal xan), Sərtib xan, Göy məscid (Hüseynəli xan), Hacı Novruzəli bəy, Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Dəmirbulaq və Hacı Cəfər bəy məscidi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan şəhərində mövcud olmuş məscidlərdən Göy məscid, Hacı Hüseyn və Şəhər (Zal xan) məscidləri Könhə şəhər (Şəhri) massivində, Təpəbaşı məscidi eyniadlı massivdə, Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidləri isə Dəmirbulaq massivində yerləşmişdir.

1918-1920-ci illərdə tarixi Azərbaycan ərazisində qurulan erməni daşnak hökuməti zamanı və Sovet Ermənistanının ilk illərində Sərdar, Təpəbaşı, Sərtib xan, Hacı Novruzəli bəy məscidlərində Türkiyədən qaçıb gələn erməni qaçqınları məskunlaşdırılmışdılar.

1924-cü ildə İrəvan şəhərinin baş planının təsdiq edilməsindən sonra ilk növbədə şəhərin mərkəzində yerləşən azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin, o cümlədən məscidlərin sökülməsinə və onların yerində yaşayış kvartallarının, meydanlarının və parkların salınmasına başlanıldı.

Göy məscid. İsa Əzimbəyov yuxarıda adı çəkilən məqaləsində Göy məsciddə gördüklərini ətraflı təsvir etmişdir. O, məscidin iki ayrı korpusdan - qış və yay korpuslarından ibarət olduğunu, qış korpusunun kompleksin cənubunda, yay korpusunun isə şimalda inşa edildiyini, onların yaxınlığında isə binanın olduğunu yazır. İ.Əzimbəyov məscidin çox böyük həyətinin olduğunu, orada çinar və qovaq ağaclarının ucaldığını qeyd edir. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 1949-cu ilə aid bir arxiv sənədində Ermənistan SSR ərazisində qeydə alınan azərbaycanlılara məxsus 15 memarlıq abidəsi haqqında məlumatlar öz əksini tapmışdır. Həmin siyahıda nə zaman inşa edildiyi, nə məqsədlə istifadə edildiyi göstərilməklə, İrəvan şəhərində 4 məscidin mövcudluğu qeyd edilmişdir. Həmin sənəddə Zal xan məscidinin 1649-1685-ci illərdə, Göy məscidin 1776-cı ildə, Sərdar məscidinin 1807-1817-ci illərdə, Hacı Cəfər bəy məscidinin isə XVIII əsrdə inşa edildiyi göstərilmişdir.

İrəvan şəhərini təsvir edən bütün səyyahların və tədqiqatçıların əsərlərində həm ölçülərinin miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi Göy məscidin adı birinci çəkilir. Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidin inşasına 1760-cı ildə başlanılmış, Hüseynəli xanın hakimiyyəti dövründə 1765-ci ildə başa çatdırılmışdı.

Məscidin adı onun günbəzinin göy rəngli kaşı ilə üzlənməsi ilə bağlı idi. Məscidin həyətində fontanlı daş hovuz tikilmiş, ətrafına sıx kölgəli ağaclar əkilmişdi.

Təkcə Göy məsciddə deyil, İrəvandakı bütün məscidlərdə ibadət üçün ayrıca qadın və kişi zalları olmuşdur ki, onlar da bir-biri ilə ya dəhliz, ya da pərdə ilə ayrılırdı. İbadət zallarının tavanı və divarları, adətən, gül rəsmləri ilə bəzədilirdi. Məscidlərin divarlardan və sütunlardan kişmir parçadan güllər düzəldilib asılırdı.

Erməni tarixçisi Tadevos Hakopyan "İrəvanın tarixi (1500-1800) əsərində Eçmiədzin kilsəsinin yepiskopu Hovhanes Şahxatunyansa istinadən yazır: Məscidin minarəsinin və günbəzinin bir hissəsi mavi saxsılarla üzlənmişdir. Əsas tikililər məscidin ərazisinin cənub və şimal tərəflərində idi. Yan tərəflərdə isə yardımçı tikililər və hücrələr yerləşirdi. Məscidin həyətində ətrafına sal daşlar döşənmiş və ağaclar əkilmiş bir balaca hovuz inşa edilmişdi. Məscidin iç qapısı olmuşdur. İki kiçik qapı şimal və şərq istiqamətinə, böyük giriş

qapısı isə cənuba baxırdı. Məscid binası cənub səmtində yerləşirdi. Bina bir-biri ilə bağlı üç zaldan ibarət idi. Məscidin günbəzi digər iki kiçik zaldan hündür olan böyük zalın üzərində idi. Sadə görkəmli zalların yalnız həyətə baxan pəncərələri şəbəkə üslubunda işlənilmiş və rəngli şüşələrlə bəzədilmişdi. Həyətin şimal hissəsində kiçik bir ibadətxana da var idi. Məscidin minarəsi çox gözəl idi və İrəvanın tikililəri arasında ən hündür olduğundan şəhərin hər yerindən görünürdü. Azançı onun başına çıxaraq hər gün müsəlmanları ibadətə çağırırdı. Məscidin cənub portalının üzərindəki kitabədə Hüseynəli xanın adı və tikilmə tarixi həkk olunmuşdu.

1893-1894-cü illərdə və 1898-ci ildə İrəvanda səfərdə olmuş Henri Linç səfərləri haqqında 1901-ci ildə Londonda çap etdirdiyi kitabında şəhərin tatar (azərbaycanlı) məhəlləsindəki Göy caminin, Hacı Nəsrullah (bu məscidin adı digər mənbələrdə Hacı Novruzəli bəy məscidi kimi çəkilir) bəy məscidinin və Şəhər camisinin adlarını çəkir. Göy məscid haqqında ətraflı məlumat verən Linç, onun minarələrinin, həyətindəki hovuzun və fasadının fotoşəkillərini kitaba daxil etmişdir.

1936-cı ildən Göy məscidin binasında İrəvan Şəhər Tarix Muzeyi yerləşdirilmişdi. İkinci Dünya müharibəsi başladıqdan sonra Göy məsciddən bir müddət, eyni zamanda hərbi sursat anbarı kimi istifadə edilmişdi. Müharibədən sonra Göy məsciddə, həmçinin Təbiət muzeyi və 1952-ci ildən etibarən isə məscidin kiçik ibadət zalında astronomiya həvəskarları üçün Planetariya fəaliyyət göstərmişdir. 1991-ci ildə Ermənistan müstəqilliyini əldə etdikdən və müsəlman ölkələri ilə diplomatik münasibətlər qurulduqdan sonra Göy məscidin yenidən məscid kimi fəaliyyət göstərməsi zərurəti meydana çıxmışdı. Əvvəlcə 1991-ci ildəTəbiət muzeyi, 1994-cü ildə isə Tarix muzeyi məscid kompleksindən çıxarıldı. 1995-ci ildə İranla Ermənistan arasında imzalanan müqaviləyə əsasən, İran hökuməti Göy məscidin yenidən qurulması xərclərini öz üzərinə götürdü. Rekonstruksiya işləri İranın "Bünyad-e Müstəzəfan və Canbazan" ("Müharibə veteranlan və şəhidlər") xeyriyyə fonduna həvalə edildi. Məsciddə tamamlama işləri 2006-cı ildə başa çatdırılmışdır. Rekonstruksiya işləri məscid kompleksinin yalnız cənub-qərb və şimal hissəsində aparılmışdır. Göy məscidin 24 metrlik minarəsi, 28 köşkü (hücrə), kitabxanası, böyük zalı, günbəzi və həyəti rekonstruksiya edilmişdir. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi" kimi təqdim edirlər.

Zal xan məscidi. İrəvanın Qala ilə Təpəbaşı massivləri arasında yerləşən Köhnə şəhər adlanan hissəsindəki məscidlərdən biri Şəhər və yaxud Zal xan məscidi adlanırdı. Şəhər məscidi həcmcə Göy məsciddən nisbətən kiçik olsa da, çox gözəl olmuşdur. H.Linçin verdiyi məlumata görə, Şəhər camisinin üzərində ərəb əlifbası ilə türk dilində məscidin hicri tarixi ilə 1098-ci ildə tikildiyi, yəni miladi təqvimi ilə 1687-ci ildə inşa edildiyi yazılmışdır. Belə anlaşılır ki, Şəhər məscidi 1679-cu il zəlzələsindən sonra inşa edilmişdir. Həmin dövrdə İrəvan bəylərbəyliyinin hakimi olan Zal xan şəhərdəki tikililərin bərpası üçün xeyli əmək sərf etmişdi. Onun dövründə inşa edilən məscidlərdən birini əhali Zal xan məscidi, yaxud Şəhər məscidi adlandırmışdır. Xarici görünüşünə görə Göy məscidə bənzəyən Zal xan məscidinin də dincəlmək üçün həyəti, sərin bağçası olmuşdur. Tədqiqatçıların verdikləri məlumata görə, Zal xan, yaxud Şəhər məscidi İrəvan şəhərinin mərkəzindəki hazırda Respublika meydanı adlanan ərazidə olmuşdur. 1928-ci ildə Şəhər məscidinin böyük zalı söküləsək onun yerində "Yerevan" hoteli inşa edilmişdir. 1999-cu ildə rekonstruksiya edildikdən sonra həmin hotel hazırda "Golden Tulip Hotel Yerevan" adlanır. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 1949-cu ilə aid bir arxiv sənədində Zal xan məscidinin sərgi zalı kimi istifadə edildiyi göstərilmişdir. İkimərtəbəli binası və çoxlu hücrələri olan Zal xan məscidinin mədrəsəsinin təyinatı İkinci Dünya müharibəsindən sonra dəyişdirilmişdir. Hazırda həmin binada Rəssamlar evinin sərgi salonu yerləşir.

Təpəbaşı məscidi. Təpəbaşı yaşayış massivində yerləşən məscidin minarəsi 1960-cı illərdə uçmuşdur. Divarlarının qalınlığı təqribən 1,5 metr olan məscidin içərisindəki imamın otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin ətrafında bir çayxana da var idi ki, müsəlmanlar yıgışıb çay içərdilər. İndi həmin çayxana da yoxdur. Məscidin həyətində və ətrafında ermənilər gecəqondular inşa etmişlər. Bəzi məlumatlara görə, həmin məscidi İrəvan şəhər idarəsinin (upravasınm) üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Hazırda dağıdılmış vəziyyətdə olan Abbasqulu xanın evini hələ də ermənilər "Xanın evi" adlandırırlar.

Dəmirbulaq məscidi. Vaxtilə sırf azərbaycanlıların yaşadığı Dəmirbulaq massivində XX əsrin əvvəlində üç məscid qeydə alınmışdır. Həmin məscidlər bunlardır: Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidi. Dəmirbulaq məscidi Gedər çayının üzərindəki körpünün yaxınlığında yerləşdiyi üçün onu Körpüqulağı məscidi də adlandırmışlar. Bunlardan ikisi - Hacı Novruzəli bəy və Körpüqulağı məscidləri 1930-cu illərdə İrəvan şəhərinin baş planının qurbanı olmuşlar. İrəvan şəhərində 1988-ci ilədək fəaliyyət göstərən yeganə məscid Hacı Cəfər bəyin tikdirdiyi Çətirli məscid və yaxud yerləşdiyi ərazinin adına uyğun olaraq adlandırılan Dəmirbulaq məscidi olmuşdur. Üzərindəki kitabədə məscidin hicri təqvimi ilə 1327-ci ildə, yəni miladi təqvimi ilə 1909-cu ildə inşa edildiyi göstərilmişdi. Məscidin minarəsi yox idi. Əvəzində məscid

binasının damında açıq havada 1,5-2 metr hündürlüyündə kvadrat şəkilli meydança inşa edilmiş, onun üzərində dəmir barmaqlıqlarla əhatələnmiş məhəccər quraşdırılmışdı. Dörd yanı açıq olan məhəccərin üstü dəmir təbəqə ilə örtüldüyündən bu məscid Çətirli məscid adlanırdı. Arxitektura baxımından belə məscidlər, adətən, "Güldəstə" məscidləri tipinə aid edilir. Sonralar yerləşdiyi məkanın adına uyğun olaraq, həmin məscid rəsmi sənədlərdə Dəmirbulaq məscidi adlandırılmışdır. 1988-ci ilin fevralında Dağlıq Qarabağda erməni separatizminin baş qaldırmasından sonra İrəvanda fasiləsiz mitinqlər keçirilirdi. Fevralın 23-də erməni quldurları İrəvan şəhərindəki Dəmirbulaq məscidini və M.F.Axundov adına azərbaycanlı orta məktəbin binasını yandırmışdılar. Sonradan xarici jurnalistlərə ermənilərin azərbaycanlılara qarşı xoşməramlı münasibət göstərdiklərini nümayiş etdirmək məqsədilə Dəmirbulaq məscidinin yanmış divarlarını rəngləmişdilər ki, yanğının izləri ört-basdır edilmiş olsun. ABŞ tədqiqatçısı Robert Kullen İrəvana etdiyi səfər haqqında "The New Yorker" qəzetində 15 aprel 1991-ci il tarixli yazısında İrəvanda fəaliyyət göstərən və Qnuni küçəsindəki Dəmirbulaq məscidinin azərbaycanlıların şəhərdən qovulması zamanı qonşuluqda yaşayan ermənilər tərəfindən buldozerlə yerlə bir etdiklərini yazmışdır. Tomas de Vaal 2000-ci ildə İrəvanda səfərdə olarkən Robert Kullenin məqaləsində təsvir etdiyi yerə getmişdir. Tomas de Vaal yazır ki, ermənilər İrəvandakı ibadətə açıq olan yeganə azərbaycanlı məscidini sökmək üçün mitinqlərin birində şayiə yaymışlar ki, guya azərbaycanlılar Bakıda erməni kilsəsini sökmüşlər. Bakıda söküldüyü söylənilən erməni kilsəsinin əvəzini çıxmaq üçün mitinq iştirakçılarını qızışdıraraq Dəmirbulaq məscidini sökməyə göndərmişlər. Üç gün ərzində erməni vandalları Allahın ibadət yerini yerlə yeksan etmişdilər. Halbuki Bakıdakı erməni kilsəsi dövlət tərəfindən qorunur. İrəvan şəhərini 1988-ci ildə tərk edən sakinlərin ifadələrinə görə, hazırda Nar-Dos küçəsindəki fransız məktəbinin yaxınlığında köklü irəvanlıların "Həzrət Abbas ocağı" adlandırdıqları pir mövcud olmuşdur. Çəpərə alınmış həmin ocağın içində qara daş var idi. Nəinki azərbaycanlılar, hətta işi müşkülə düşən ermənilər belə həmin ocağa gələr, niyyət tutar, nəzir-niyazlarını ocağın içinə qoyub gedərdilər. Nar-Dos məktəbi inşa edilərkən şəhər rəhbərliyi həmin ocağı sökmək qərarına gəlir. Ekskavatorla söküntü aparan sürücünün başına qəfildən daş düşüb ölməsindən sonra sökmə işləri dayandırılmış və onun ətrafına sonradan çəpər çəkilmişdi. Həmin ocaqdan da indi əsər-əlamət yoxdur.

İrəvan şəhərində azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrindən biri də əvvəllər Əzizbəyov meydanı, hazırda Saxarov meydanı adlandırılan meydanın arxasındakı Tumanyan küçəsində yerləşən mədrəsədir. Görünür, vaxtilə həmin yerdə mövcud olmuş məscid sökülsə də, onun mədrəsəsindən bu gün də yaşayış evi kimi istifadə edilir. Lakin nədənsə, həmin mədrəsə İrəvan şəhərinin tarixi-memarlıq abidələrinin siyahısına daxil edilməmişdir.

1902-ci ildə İrəvan quberniyasının statistika komitəsinin İrəvandakı "Edelson" mətbəəsində "İrəvan quberniyasmın 1902-ci il iiçün yaddaş kitabçası" çap edilmişdir. Həmin kitabında göstərilir ki, İrəvan quberniyasında 310 məscid mövcuddur ki, onlardan 7-si İrəvan şəhərindədir. Ermənistan hökuməti 2007-ci ildə ölkə ərazisində dini və milli azlıqlara məxsus olan və Ermənistan hökuməti tərəfindən qorunan məbədlərin və tarixi abidələrin siyahısım Avropa Şurasına təqdim etmişdir. Həmin siyahıya Mesrop Maştos küçəsi-12 ünvanında yerləşən Göy məscidin və Xorhrdarani küçəsi-40 ünvanında yerləşən məscidlərin adları daxil edilmişdir. Qeyd edilən siyahıda Göy məscid İran məscidi kimi təqdim edilmiş, Abbas Mirzə məscidinin isə qəfəsinin (skeletinin) qorunduğu qeyd edilmişdir. Həmin ərazidə "Qlendale Hills" tikinti şirkəti 14 mərtəbəli 18 bloklu yaşayış kompleksi inşa etmişdir.

XIX əsr Avropa səyyahlarının və tədqiqatçılarının möhtəşəm və nadir memarlıq nümunəsi adlandırdıqları İrəvan qalasındakı Sərdar məscid-kompleksindən bir ovuc xarabalığın qalması belə, "mədəni" ermənilər çox narahat edirdi. 2014-cü ilin payızında erməni vandalları bir gecənin içində Sərdar məscidinin qalıqlanm da yox etmişlər. Bütün bunlar həmin ərazinin əzəli sakinləri olan azərbaycanlıların mədəni irsinə olan düşmən münasibətinin əyani təzahürü, erməni vandalizminin bariz nümunəsidir.

Ermənistan hökumətinin 2015-ci il dekabrın 10-da keçirilən iclasında Mesrop Maştos-12 ünvanında yerləşən Göy məscid haqqında Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihə müzakirə edilmişdir. Qərara alınmışdır ki, Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verilsin.

Yuxarıda sadalanan faktlar sübut edir ki, təkcə İrəvan şəhərində deyil, bütövlükdə Ermənistan adlanan və özünü dünyanın sivil ölkəsi kimi beynəlxalq aləmə təqdim etməyə çalışan bir dövlətin ərazisində azərbaycanlılara məxsus dini-tarixi tikililərə, onların maddi irsinə qarşı, sözün həqiqi mənasında, vandalizm aktları həyata keçirilməsi bu gün də davam etdirilir.

Prezidentimiz İlham Əliyev Qarabağdan sonra dövlətimizin yeni milli hədəflərindən olan Qərbi Azərbaycana sülhlə qayıdışa yönəlmək, onun ideoloji-siyasi konseptini və elmi əsaslarını formalaşdırmaq çağırışına cavab olaraq alimlərin, elmi-tədqiqat mərkəzlərin araşdırmalarını qeyd etmək vacibdir. Məsələn,

Əfqan Vəliyevin müəllifliyində institusional bir əsər olan 244 abidənin yer aldığı "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" kitabının I cildini və Sosial Tədqiqatlar Mərkəzi bu istiqamətdəki fəaliyyətini davam etdirərək "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" elmi-tədqiqat əsərinin davamı, II cildi olan 144 maddi-mədəni abidədən ibarət "Qərbi Azərbaycana qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz" adlı əsəri ərsəyə gətirdi.

"Qərbi Azərbaycana qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz" kitabının II cildində tarixi Azərbaycan torpaqlarında azərbaycanlıların maddi-mədəni irsinin dəyərli nümunələri olan 144 müxtəlif mənşəli abidəyə yer verilib. Kitabda 144 abidənin tarixi hərtərəfli araşdırılıb və düzgün elmi təsnifata uyğun onların reyestri verilib. Kitabda 22 məbəd, 20 qala, 18 qayaüstü təsvirlər/qədim yaşayış məskənləri, 11 pir/ocaq/ziyarətgah, 11 qəbirüstü abidə, 10 türbə, 9 daşüstü kitabə, 8 məscid, 6 karvansara, 6 körpü, 5 arxeoloji abidə, 4 qəbirüstü heykəl, 4 dini məktəb, 3 günbəz, 3 mədrəsə, 1 məhəllə haqqında məlumat verilib. Ermənilər tərəfindən bu abidələrin 76-sı mənimsənilib, 44-ü xaraba qalıb, 24-ü isə tamamilə dağıdılıb [2].

1905-1907, 1918-1920, 1948-1953, 1988-1991-ci illərdə "monoetnik Ermənistan" dövləti yaratmaq məqsədi ilə həmin ərazilərdən azərbaycanlıların etnik təmizlənməsi siyasəti həyata keçirilib. 1988-1991-ci illərdə baş verən son deportasiya zamanı 22 rayondan (172 sırf azərbaycanlı, 89 ermənilərlə qarışıq yaşayış məntəqələrindən 40.928 ailə) 300.000-dən çox azərbaycanlı ata-baba yurdlarından zorla çıxarılıb. 1987-1991-ci illərdəki deportasiya zamanı azərbaycanlıların tərk etmək məcburiyyətində qaldıqları ərazilərdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilərin əlinə keçib. 1918-ci ildən başlayaraq 223 qəbiristanlıq, 300-dən çox məscid və alban məbədi, minlərlə maddi-mədəniyyət abidəsi ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv edilib, mənimsənilib, bütün toponimlər ermənilşdirilib.

ƏDƏBİYYAT

1. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi 24 dekabr 2022. https://president.az/az/articles/view/58470
2. Vəliyev, Ə. Qərbi Azərbaycana qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz. Bakı: 2023.
3. Veliçko, V.L. Кавказ. Русское дело и межплеменные вопросы. 1903.
4. https://anl.az/el/emb/Qerbi_Azerbaycan/abideler.htm
5. Ələkbərli, Ə. Y. Qərbi Azərbaycan abidələri. Bakı: 2006, 227 s.

ABSTRACT

Sevda AKHUNDOVA

THE MATERIAL AND SPIRITUAL HERITAGE OF WESTERN AZERBAIJAN, OUR HISTORICAL LAND

The article extensively examines the historical and cultural heritage of Western Azerbaijan belonging to the Azerbaijani people, particularly the religious and architectural monuments that once existed in the city of Yerevan. The author analyzes, on the basis of historical facts, the policy of resettlement of Armenians to Azerbaijani territories since the nineteenth century, the deportation of Azerbaijanis from their ancestral lands, and the ethnic cleansing policy implemented in the region. The article provides information about the architectural features, historical significance, and subsequent fate of the Blue Mosque, Sardar Mosque, Zal Khan Mosque, Tapabashi Mosque, and other religious-historical monuments located in Yerevan. At the same time, the deliberate destruction, appropriation, and falsification of the material and cultural heritage belonging to the Azerbaijani people in the territory of present-day Armenia are presented on the basis of scholarly sources. The study emphasizes the importance of the idea of return to Western Azerbaijan in terms of restoring national memory and historical justice.

Keywords: *Western Azerbaijan, Yerevan, cultural heritage, Blue Mosque, deportation, vandalism*

NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİNDƏ QƏRBİ AZƏRBAYCAN YALLI AREALI

Amil ƏSGƏROV
amilesgerov075@gmail.com
ORCID iD: 0000-0001-9286-5017
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Naxçıvan mədəniyyəti Azərbaycanın tərkib hissəsi kimi qədim dövrlərdən bizim günlərə kimi bütün tarixi dövrlərdə özünəməxsus keyfiyyətlərilə diqqəti cəlb etmiş, Naxçıvanda yaranmış maddi-mənəvi sərvətlər Azərbaycanın mədəni irsini zənginləşdirmişdir. Azərbaycan mədəniyyət tarixinin mərhələlərindən danışarkən, burada Naxçıvanın rolunu da xüsusi qeyd etməliyik. Tarixin inkişaf mərhələlərində qədim və orta əsrlər mədəniyyətinin xüsusi rolunu qeyd edərək deməliyik ki, tədqiqat baxımından hər bir mərhələ inkişaf keyfiyyətləri və özünəməxsus maddi-mənəvi sərvətləri ilə fərqlənir. Azərbaycan tarixinin dövrləşməsi vacib şərtdir. Hər bir dövr mədəniyyətin inkişafında müəyyən bir mərhələ olmuşdur. İbtidai dövr Naxçıvan ərazisində qədim insan məskənlərinin meydana gəlməsi ilə bağlıdır. Naxçıvanda tarixi kökləri orta əsrlər Şərq mədəniyyəti ilə bağlı olan bədii, memarlıq, maddi-mədəniyyət abidələri dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Azərbaycanın siyasi-iqtisadi və mədəni inkişafı kontekstində Naxçıvan Muxtar Respublikasının əhəmiyyətli rolunun öyrənilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə üzvi surətdə bağlı olmuşdur. XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Naxçıvanın bütün sahələr üzrə inkişafında, qədim mədəniyyətin qorunmasında və Naxçıvanın musiqi həyatının yenidən qurulmasında görkəmli dövlət xadimi, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin mühüm rolu olmuşdur. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlərdə Heydər Əliyevin tövsiyələri və ənənələri öz bariz əksini tapır. Naxçıvanın musiqi-ifaçılığı ənənələrinin bir qolu musiqi folkloru ilə bağlıdır. Özünəməxsus regional lokal ənənələrə məxsus olan Naxçıvan musiqi folkloru janr xüsusiyyətlərinə, ifadə vasitələrinə və ifaçılıq keyfiyyətlərinə görə diqqəti cəlb edir. Bu baxımdan Naxçıvan folklor ifaçılıq ənənəsində geniş yayılmış "Haxışta", "Gülümey" kimi nümunələrin özünəməxsus janr xüsusiyyətlərinin daha dərin araşdırılması zəruri məsələ kimi qarşıda durur. Naxçıvan folklorunda xüsusi yeri olan rəqlsərinin tədqiqi etnomusiqişünaslığın qarşısında duran mühüm məsələlərdəndir. Yallıların tarixi kökləri Azərbaycanın mərasim mədəniyyəti ilə bağlı olub, müxtəlif istiqamətlərdə - mifologiya, dünyagörüşü, etnomədəni sistem, musiqi təfəkkürü və ifaçılıq baxımından dərin tədqiqatlara yol açır. Xüsusilə yallıların ifaçılıq aspekti onların musiqi məzmunu ilə qarşılıqlı əlaqədə kompleks yanaşma və araşdırma tələb edir.

Açar sözlər: *Azərbaycan, Naxçıvan, yallı, folklor, musiqi*

Yallı rəqsləri Naxçıvan musiqi mədəniyyətində olduqca böyük yer tutur. Yallı mərasim mədəniyyətinin tərkib hissəsi olmaqla, qədim dövrlərdən rəngarəng məzmunlu yallıların ifaçılıq ənənələri yaranmışdır. Azərbaycan xalq rəqs sənətinin mühüm janrlarından biri olan yallıların yaranma tarixi, yayılma arealı, türkdilli xalqların musiqi mədəniyyətində yeri, təsnifatı, əsas xüsusiyyətləri kimi məsələlərin öyrənilməsi etnomusiqişünaslıqda vacib məsələlər hesab olunur.

Bizim qənaətimizə görə, yallı rəqsləri özünün musiqi dili, xoreoqrafik işarələri, icra-ifa ənənələri ilə birlikdə etnosun bədii-estetik tələbatını da təmin etmişdir.

"Naxçıvan yallıları" mövzusu Azərbaycan musiqişünaslığında böyük maraq doğurur, musiqişünaslıq tədqiqatlarının obyektinə çevrilir. Onu da müşahidə edirik ki, "Azərbaycan yallı sənəti", "Azərbaycan yallıları", "Azərbaycan yallı rəqsləri" və yallı mədəniyyəti ilə bağlı olan digər bu kimi ifadə və anlayışlarda məhz Naxçıvan yallıları nəzərdə tutulur. Bu müşahidəmiz ona əsaslanır ki, Azərbaycan musiqi folkloruna, Azərbaycan rəqs sənətinə həsr olunan araşdırmalarda yallılardan bəhs olunarkən, tədqiqata məhz Naxçıvan bölgəsinin yallı nümunələri cəlb olunur.

Bu tendensiya nə qədər obyektiv və maraqlı olsa da, onun zərərli məqamları da vardır. Belə ki, Azərbaycan xalq musiqisində yallı nümunələrinin öyrənilməsinin yalnız Naxçıvan bölgəsi əsasında aparılması tendensiyası yaxın gələcəkdə bu qədim rəqs janrının Azərbaycandakı yayım arealı haqqında təsəvvürləri məhdudlaşdıra bilər.

Musiqi folklorşünaslığının toplama təcrübəsi göstərir ki, Azərbaycanın yallı mədəniyyəti təkcə bir

bölgəni – Naxçıvanı əhatə etmir. Əksinə, yallı rəqs janrının təşəkkülü, yayılması və yaşaması Azərbaycanın tarixi coğrafiyasının bir çox etno-mədəni areallarında baş vermişdir. Deməli, yallı – Azərbaycan musiqi mədəniyyətində lokal-regional areallara və bu xüsusda lokal musiqi dialektologiyasına malikdir.

Azərbaycan yallı areallarına aşağıdakı regionlar daxildir:

- Naxçıvan yallı arealı.
- Qarabağ yallı arealı.
- Qərbi Azərbaycan yallı arealları.
- Zəngilan yallı arealı.
- Qazax yallı arealı.
- Salyan-Şirvan yallı arealı.
- Şəki yallı arealı.

Yallılar xalq rəqslərinin qədim janrlarından olub, ifaçılıq və ifadə vasitələri baxımdan fərqlənir. Naxçıvan əsrlər boyu "yallıların vətəni", "yallıların məskəni" kimi tanınmışdır. Yallılar musiqi mədəniyyətinin ən qədim musiqi inciləri olaraq, qədim mərasimlərlə bağlı olmuşdur.

Naxçıvan yallıları regionun tarixi, etnoqrafik xüsusiyyətləri, mifoloji təsəvvürləri, mərasimləri, adət-ənənələri, ifaçılıq mədəniyyəti ilə üzvi surətdə bağlı olub, böyük bir inkişaf yolu keçmişdir. Müasir dövrdə Naxçıvanda yallı rəqsləri yaşadılaraq, musiqi mədəniyyətində əsas yer tutur. Naxçıvan bölgələrinə məxsus yallı nümunələrinin elmi-məqsədyönlü şəkildə toplanılması və nota yazılması işində Bayram Hüseynlinin böyük rolu olmuşdur. 1965-ci ildə B.Hüseynlinin "Azərbaycan xalq rəqs melodiyaları" adlı iki dəftərdən ibarət toplusu nəşr olunmuşdur və hələ indiyə qədər öz aktuallığını itirməyərək, yallı nümunələrinin təhlilində istifadə olunan əsas not mənbəyidir.

B.Hüseynlinin bu not toplusunun I dəftəri Naxçıvan bölgələrinin yallı nümunələrindən ibarətdir [Hüseynli, B.X.1965]. Buraya 25 nümunə daxildir. Toplunun bir əhəmiyyəti də nümunələrin müəllif tərəfindən təhlil olunmasıdır. Belə ki, "Yallı" məfhumuna, adlarına, variantlılığa münasibət bildirən B.Hüseynli, hər bir nümunənin melodiyası, məqamı, forma xüsusiyyətlərini də təhlil etmişdir. Bayram Hüseylinin nota yazdığı yallılar bunlardır: *"1. Dönə yallı; 2. Haxışta; 3. Üçayaq yallı (Ordubad variantı); 4. Leninakanı; 5. Siyaqutu; 6. El yallısı (Ağdam variantı); 7. Köçəri; 8. Çınq-çınq; 9. İrəvanı; 10. İkiayaq yallı; 11. Üçayaq yallı (Noraşen variantı); 12. Qaladan qalaya; 13. Tənzərə (Ordubad variantı); 14. Tənzərə (Noraşen variantı); 15. Gopu; 16. Ürfanı; 17. Qaleyi; 18. Ləyli xanı; 19. Hoynare; 20. Güleynare; 21. Nənüke; 22. Qaz-qazı (Oyun-yallı); 23. Kürdün ağırı; 24.Çöp-çöpü; 25. Ciran-ciran"* [Hüseynli, B.X.1965].

Bunların əksəriyyəti bilavasitə Naxçıvan ərazisində geniş yayılmış yallılardır. "Üçayaq yallı" və "Tənzərə" yallılarının Noraşen variantları Şərur rayonu ilə bağlıdır. Xatırladaq ki, Şərur rayonu 1930–1964-cü illərdə Noraşen, 1965–1991-ci illərdə İliç rayonu adlandırılmışdır. "Leninakanı" və "Yerevanı" kimi yallı nümunələri tarixən Azərbaycan torpaqlarında yerləşən və sovet dövründə Ermənistan ərazisinə keçən və adı dəyişdirilmiş Gümrü və İrəvan yer adları ilə bağlıdır. Buna görə də həmin illərə aid not yazılarında sovet adları göstərilir.

Yallı adlarını bir neçə cəhətdən əsaslandırmaq olar:

- Şəxs adları ilə bağlı yallılar.
- Yer adları ilə bağlı yallılar.
- Qəbilə-tayfa adları ilə bağlı yallılar.
- Mifik təsəvvürlərlə bağlı yallı adları.
- Hərəkətlərlə və xitablarlarla bağlı yallı adları.

Şəxs adları ilə bağlı yallılara: "Arzumanı", "Zülfanı", "Xəlfəli", "Əfsəri" və s. yallılarını aid etmək olar Ehtimal etmək olar ki, bu şəxslər mahir yallı ifaçıları olmuş və bu qədim rəqsə müəyyən yeni cəhətlər və hərəkətlər gətirmişlər ki, bununla da xalq onların adlarını yallı növlərində əbədiləşdirmişdir.

Naxçıvan ərazisində geniş yayılmış yer adları ilə bağlı yallılar sırasında "Qarakilsə", "Hərilli", "Göyçəməni", "Şərili", "Şərili köçərisi", "Sərsəvan", "Hoynəri", "Dalan", "Dağ gülü", "Sareyi", "Şirhan", "Asta Qarabağı", "Gilani", "İrəvanı" və s. bu kimi yallı rəqslərini qeyd etmək olar.

Bir sıra tədqiqatlarda yallı adlarının sözaçımı da diqqəti cəlb edir. Tədqiqatçı Firudin Rzayevin fikrincə, "Hoynərə" Xoy – Xok nəri, igidi yallı adıdır [Rzayev F.]. Kamal Həsənov "Hoynərə" yallısının adının mənasını açıqlayaraq yazır: *"Nər – erkək dəvə, hoy – çarvadarın dəvəni hoylayarkən dediyi sözdür. Sallağı oturma və qalxma hərəkətləri etmək lazımdır. Doğrudan da bunlar hərəkətdə olan dəvəni xatırladır"*

[Həsənov, K.N.1988, s. 58].

Azərbaycanın qədim tayfa adları ilə bağlı "Türkan", "Tello", "Qaleyi", "Əfsəri", "Gilani", "Hazıravicin", "Osmanlı", "Qızılbaş" kimi yallı adları da Naxçıvan ərazisində rast gəlinir.

Bəzi yallı adları qədim inanclarla bağlıdır. Tədqiqatlarda bu kimi yozumlara yer verilir. Yallı adlarında rast gəlinən inanclarla əlaqəli "ay" sözü ilə bağlı olaraq Mirəli Seyidov yazır: *"Bir çox xalqlarda soy, qəbilə, xalq, ilahi, tanrı insan, ulu ata-ana adlarındakı (insana bu ad sonra verilmişdir) "ay" tərkibi göstərir ki, o, ümumtürk dilli sözdür və çox-çox əskilərdə belə işlənmişdir. Çoxanlamlı "ay" sözünün "ilahi", "yaradıcı", "tanrı" anlamları da vardır"* [Seyidov, M.M.2018, s. 23]. Eyni zamanda F.Rzayevin tədqiqatlarında yallı adlarını belə şərh edir: *"Tusay" – "Ay Tanrısı Tuslarının yallısı", "Qaleyi" – "Yaradanın Kol tayfa yallısı", "Çaleyi" – "Yaradanın Çul tayfa yallısı"* [Rzayev F.] və s. Göründüyü kimi, yallı adları qədim mifik köklərlə əlaqələndirilir.

Yallı rəqsi sinkretik bir sənət növü olduğuna görə, aparılan tədqiqatlarda musiqi, ritm, söz, çalğı alətləri, rəqs hərəkətləri ilə qarşılıqlı əlaqədə çıxış edir, demək olar ki, yallılar musiqi folklorunun mahnı və rəqs janrlarını özündə birləşdirdiyinə görə, onun vokal-instrumental xüsusiyyətləri ilə yanaşı, xoreoqrafik təsviri də vacibdir və bütün bu cəhətlərin kompleks şəkildə tədqiq olunması vacibdir.

Azərbaycanın bölgələrində yallı rəqslərinin ad müxtəlifliyi, melodik məzmunun rəngarəngliyi, ifaçılıq variantları özünü göstərir. Yallıların əsas xüsusiyyətlərindən biri olan variantlılıq onların yaşamasını təmin edir. Digər tərəfdən, yallı rəqslərinin variantlılığı Naxçıvanın etnomusiqi xəritəsinin hazırlanmasında və yallıların dialekt növlərinin üzə çıxarılmasında mühüm əhəmiyyətə malikdir.

Yallı rəqslərinin toplanması, nota yazılması, nəşr olunması və tədqiqi istiqamətlərində XX əsrin II yarısından XXI əsrin ilk onillikləri əhatə olunmaqla, yəni bizim günlərə kimi böyük işlər görülmüşdür. Bura Naxçıvan yallı ansambllarının çıxışları əsasında çəkilmiş video-klipləri, sənədli filmləri, konsertlərin çəkilişlərini də əlavə etsək, deyə bilərik ki, Naxçıvan yallılarının toplanması, yazıya alınması və öyrənilməsi istiqamətində mühüm işlər görülmüşdür. Lakin bir cəhəti qeyd etməliyik ki, yallıların yaşadılması, gələcək nəsillərə ötürülməsi və beynəlxalq miqyasda təbliği məqsədilə bu işlər daha da genişlənməlidir.

Azərbaycanın mərasim mədəniyyətində böyük rolu olan yallı rəqsində musiqi, söz və hərəkətin qarşılıqlı təsirini və əlaqəsini nəzərə alaraq, hər bir yallının təsviri, xoreoqrafik quruluşu, söz mətni, musiqisi partitura şəklində bir-birilə əlaqəli şəkildə yazıya alınmalı (audio-video və not yazısı paralel olaraq), tarixi və nəzəri baxımdan öyrənilməlidir. Bunun üçün Naxçıvanın ərazisini və Azərbaycanın rayonlarını, türkdilli ölkələri – bütün yallı areallarını əhatə edən irimiqyaslı ekspedisiyaların təşkili, mütəxəssislərin birgə əməkdaşlığı vacibdir. Yalnız bu cür geniş tədqqiqat və təbliğat nəticəsində yallıların audio-video, not və tədqiqat materialları ilə təchiz olunmuş ensiklopedik nəşrinin hazırlanması Azərbaycan musiqi mədəniyyətində, eləcə də azərbaycançılıq, türkçülük təfəkkürünün formalaşmasında ən qədim mərasim mədəniyyətinin təzahürü olan yallı rəqslərinin rolunu və əhəmiyyətini nümayiş etdirər.

ƏDƏBİYYAT

1. Həsənov, K.N. Azərbaycan qədim folklor rəqsləri. Bakı: İşıq, 1988.130 s.
2. Seyidov, M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Elm və təhsil 2018.s.
3. Hüseynli, B.X. Azərbaycan xalq rəqs melodiyaları [Notlar]: [2 dəftərdə]. Bakı: Azərnəşr. I dəftər. Yallı. – 1965. – 42 s.
4. Rzayev, F. Yallı adlarında dilimiz və tariximiz [Elektron resurs] / AQRA Elmin İnkişafına Dəstək Birliyi. URL: http://www.aqra.az/az/yalli-adlarinda-q%C9%99dim-dilimiz-v%C9%99-tariximiz

ABSTRACT

Amil ASGAROV

THE WESTERN AZERBAIJAN TURKISH FOLK DANCE "YALLI" AREA IN THE MUSICAL CULTURE OF NAKCHIVAN

The culture of Nakhchivan, as a part of Azerbaijan, has attracted attention with its unique qualities from ancient times to our days, and the material and spiritual wealth created in Nakhchivan has enriched the cultural heritage of Azerbaijan. When talking about the stages of the cultural history of Azerbaijan, we should also mention the role of Nakhchivan here. Noting the special role of ancient and medieval culture in the development stages of history, we must say that from the point of view of research, each stage is distinguished by its development qualities and its own material and spiritual wealth. Periodization of Azerbaijan's history is an important condition. Each period was a certain stage in the development of culture: the primitive period is associated with the formation of ancient human settlements in the territory of Nakhchivan. The artistic, architectural, material and cultural monuments of Nakhchivan, whose historical roots are related to medieval Eastern culture, have made valuable contributions to world civilization. The study of the important role of the Nakhchivan Autonomous Republic in the context of the political, economic and cultural development of Azerbaijan was organized in the name of the great leader Heydar Aliyev. In the second half of the 20th century and the beginning of the 21st century, Heydar Aliyev, an outstanding statesman and the founder of modern Azerbaijan, played an important role in the development of Nakhchivan in all areas, the preservation of ancient culture and the reconstruction of the musical life of Nakhchivan. The recommendations and traditions of Heydar Aliyev are clearly reflected in the events carried out in the Nakhchivan Autonomous Republic. One branch of Nakhchivan's music-performance traditions is related to musical folklore. The musical folklore of Nakhchivan, which belongs to unique regional local traditions, attracts attention due to its genre characteristics, means of expression and performance qualities. From this point of view, a more in-depth investigation of the unique genre characteristics of such examples as "Kakhishta" and "Gulümey", which are widespread in the tradition of Nakhchivan folklore performance, is a necessary issue. The study of raqlsari, which has a special place in Nakhchivan folklore, is one of the important issues facing ethnomusicology. The historical roots of Yalli are related to the ceremonial culture of Azerbaijan, which opens the way for deep research in various directions – mythology, worldview, ethno-cultural system, musical thinking and performance. Especially the performance aspect of yalli requires complex approach and research in interaction with their musical content.

***Keywords**: Azerbaijan, Nakhchivan, yalli, folklore, music*

NAXÇIVANDA YAŞAMIŞ QƏRBİ AZƏRBAYCANLI RƏSSAMLARIN YARADICILIĞINDA TƏBİƏT MOTİVLƏRİ

Həbibə ALLAHVERDİYEVA
habibaAllahverdiyeva@nmi.edu.az
habiba.allahverdiyeva@mail.ru
ORCID iD: 0000-0003-4056-9173
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

Məqalədə müxtəlif dövrlərdə Qərbi Azərbaycandan köçüb Naxçıvanda yaşamış rəssamların yaradıcılığı tədqiq olunmuş, onların yaradıcılığının səciyyəvi cəhətləri, yaradıcılıqlarında tez-tez rast gəlinən təbiət motivləri araşdırılmışdır. Müxtəlif dövrlərdə erməni qəsbkarları və onlara havadarlıq edən ölkələr tərəfindən təcavüzə, deportasiyaya məruz qalmış, öz ata-baba torpaqlarının tərk etməyə məcbur edilmiş azərbaycanlılar içərisində rəssamlar da olmuşdur. Onlardan Qərbi Azərbaycanda doğulmuş Şamil Qazıyev, Arif Qazıyev, Hüseyn Əliyev, Əyyub Fətullayev, Mahir Xəlilovun adını qeyd etmək olar. Onların yaradıcılığında doğma yurdun təsviri, Qərbi Azərbaycan, eləcə də Naxçıvan mənzərələri əsas yer tutur. Şamil Qazıyevin "Qızlar bulağı", "Köhnə İmamzadə", "Şəlalə", "Köhnə Naxçıvan", "Köhnə həyət", "Naxçıvan XIX əsrin əvvəllərində" və s. mənzərə əsərləri vardır. Rəssamın yaradıcılığında məişət və tarixi janrda çəkdiyi əsərlərdə də təbiət motivləri geniş yer almışdır. Hüseyn Əliyevin yaradıcılığında təbiət təsvirləri Azərbaycanın digər bölgələri ilə yanaşı, Qərbi Azərbaycan, Naxçıvan mövzusu ilə də öz əksini tapır. Onun "Zəngəzur dağlarında", "Naxçıvanın dağları", "Qızılqaya Zəngəzur", "Şəfəq", "Zəngəzur mənzərəsi", "İlanlı dağ", "Sülhsevər torpaq" və s. əsərləri buna nümunə ola bilər. Əyyub Fətullayev teatr rəssamı kimi fəaliyyət göstərsə də, onun bədii tərtibatlarında təbiət motivlərinin realist, estetik ifadəsinə geniş yer verilmişdir. Naxçıvanda yaşamış rəssam, pedaqoq Mahir Xəlilov yaradıcılığında təbiət təsvirlərinə üstünlük vermişdir. Onun yaradıcılığında Naxçıvan dağlarının soyuq rəng tonları ilə təsviri səciyyəvi cəhətlərdəndir.


Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, təbiət motivləri, memarlıq abidələri, Naxçıvan təbiəti, Zəngəzur, rəsm əsərləri, rəngkarlıq və qrafika*

Tarixən Azərbaycan xalqı müxtəlif dövrlərdə erməni qəsbkarları və onlara havadarlıq edən ölkələr tərəfindən təcavüzə, deportasiyaya məruz qalmış, öz ata-baba torpaqlarının tərk etməyə məcbur edilmişdir. Azərbaycanlıların öz yurd-yuvalarından – Qərbi Azərbaycandan deportasiyasının XVIII əsrdən başlanıldığı məlumdur. Bu siyasət mərhələli şəkildə aparılmışdır ki, bunun ilk mərhələsi 1905-1920-ci illərə, sonrakı mərhələ 1948–1953-ci illərə, üçüncü mərhələsi isə 1988-1992-ci illərə aiddir. "Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və yandırıb, qoca, uşaq və qadınların da daxil olduğu 140 min insanı vəhşicəsinə qətlə yetirib, 750 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb". 1988-ci ildəki deportasiyada 220 mindən çox azərbaycanlı erməni vəhşiliyinə dözə bilməyib, öz yurdunu tərk etməyə məcbur olub. Ermənilər Qərbi Azərbaycandan öz xülyalarına, öz xislətlərinə uyğun olaraq, Azərbaycan "izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi mədəni abidələrini, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın edib" [6].

Həmin dövrlərdə Qərbi Azərbaycandan qovulan azərbaycanlılar Naxçıvan torpağına pənah gətirmiş, burada yaşamış və fəaliyyət göstərmişdir. Müxtəlif dövrlərdə deportasiya olunmuş, Naxçıvanda yurd-yuva salmış azərbaycanlılar içərisində müxtəlif sənət sahibləri, ziyalılar vardır ki, onlardan bir neçəsi Azərbaycan təsviri incəsənətində öz yaradıcılığı ilə mühim yeri olan rəssamlardır. Naxçıvanda yaşamış Qərbi azərbaycanlı rəssamlardan Şamil Həsən oğlu Qazıyevin, Hüseyn Əlirza oğlu Əliyevin, Arif Şamil oğlu Qazıyevin, Əyyub Cəfər oğlu Fətəliyevin, Mahir Xanlar oğlu Xəlilovun adını çəkmək olar.

Şamil Həsən oğlu Qazıyev (1908-1980)1908-ci il mart ayının 30-da Azərbaycanın qədim şəhərlərindən olan İrəvanda anadan olmuşdur. İrəvan Quberniyası və Naxçıvan qəzasında maarif və mədəniyyətin inkişafında Ş.Qazıyevin atası Həsən Xəlil oğlu Qazıyevin böyük xidmətləri olmuşdur. "O, Naxçıvan qəzasının müxtəlif kəndlərində, o cümlədən şəhərin özündə müəllimlik etmiş, sonralar ermənilərin təzyiqi nəticəsində işdən azad edilmişdir. İşsiz qalmış Həsən Qazıyev 1921-ci ildə ailəsi ilə birlikdə Naxçıvan şəhərinə köçmüşdür. O, Naxçıvanın maarif sahəsinin mühüm tədbirlərinin həyata keçirilməsində fəallıq göstərmiş, pedaqoji kadrların hazırlanmasına böyük əmək sərf etmişdir" [1, s.42]. Belə bir ziyalı ailədə doğulan Şamil

Qazıyevin hələ uşaq yaşlarından rəssamlığa böyük marağı olmuşdur. Onun yazılı xatirələrindən məlum olur ki, Bəhruz bəy Kəngərli ilə yaxından tanış idi.



Şəkil 1. Şamil Qazıyev. İnqilabaqədərki Naxçıvan

B.Kəngərlinin o zaman Naxçıvan qız məktəbində, rəssama məxsus otaqda fərdi sərgisini təşkil etmiş rəssam xatirələrində bunu xüsusi qeyd etmişdir. Onun məhz bu sənəti seçməsinə də B.Kəngərli səbəb olmuşdur. Bakı Rəssamlıq Məktəbinin teatr tərtibatı şöbəsinə daxil olmuş Şamil Qazıyev 1929-cu ildə təhsilini başa vurmuşdur. Ş.Qazıyev tətil günlərində Naxçıvanda olur, teatr tamaşalarına baxır, burada müəyyən təcrübələr keçirdi. Naxçıvan teatrının görkəmli xadimlərindən olan Əli Xəlilov və Səməd Mövləvi ilə əməkdaşlıq edən rəssam öz xatirələrində yazır ki, "bir dəfə teatrın direktoru Əli Xəlilovun tapşırığı ilə (söhbət 1927-ci ildən gedir) böyük pərdə üzərində dənizi əks etdirdim. Mənim bu işim Əli Xəlilovun və Səməd Mövləvinin çox xoşuna gəldi" [5, s.3].

Təhsilini bitirdikdən sonra Naxçıvana qayıdan Qazıyev əvvəlcə Naxçıvan Pedaqoji Texnikumunda rəsm müəllimi işləyir. Sonralar, 1932-ci ildə Şamil Qazıyev Ə.Əzimzadənin məsləhəti ilə Bakıda, "Kommunist" qəzetində rəssam kimi fəaliyyət göstərir. O, 1934-cü ildə yenidən Naxçıvana qayıdır və "Şərq qapısı" qəzetində, eyni zamanda Naxçıvan Dövlət Dram Teatrında baş rəssam vəzifəsində çalışır. O həm də 1940-1941-ci illərdə Naxçıvanda fəaliyyət göstərən Rəssamlıq Məktəbinin direktoru olmuşdur. 1940-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvü olan sənətkarın yaradıcılığının böyük hissəsini teatr rəssamlığı təşkil etsə də o, portret, mənzərə, natürmort, məişət janrlarında da çoxlu sayda maraqlı əsərlər yaratmışdır. Şamil Qazıyev Naxçıvanın təbiətini, tarixini, əhalisinin etnik xüsusiyyətlərini, adət-ənənələrini əks etdirən əsərlər yaratmaqla yanaşı, 1930-cu ildən başlayaraq Naxçıvan teatrında səhnələşdirilən əsərlərin bədii tərtibatını da vermişdir. Görkəmli sənətkar Sidqi Ruhullahın dəvəti ilə teatra gələn Ş.Qazıyev orada fəaliyyət göstərən yaradıcı insanlarla birgə işləyir, müxtəlif rejissorlarla çoxlu sayda tamaşalara bədii tərtibat verirdi. O, "Şeyx Sənan", "Ər və arvad", "Leyli və Məcnun", "1905-ci ildə", "Almaz", "Həyat" "Od gəlini", "Yaşar" əsərinə, "Nərgiz", "Ölülər", "Üzləşdirmə", "Qohumlar", "Sevil", "Toy", "Vaqif", "Vətən namusu", "Vaqif", "Od gəlini", "Bahar", "Qaçaq Nəbi", "Pəri cadu", "Babək", "Vətən", "Arşın mal alan", "Xosrov və Şirin" "Aydın", "Qaçaq Nəbi", "Bahar", "Babək", "Əsli və Kərəm", "Müsibəti-Fəxrəddin", "Şöhrət", "Toy kimindir", "Beş manatlıq gəlin" əsərlərinə mükəmməl səhnə tərtibatı hazırlayıb tamaşaçılara təqdim etmişdir.

Rəssamın müxtəlif illərdə tamaşalara verdiyi bədii tərtibatlarda təbiət motivləri üstünlük təşkil etmişdir. Onun yaradıcılığında teatr-dekorasiya rəngkarlığı, məişət janrı üstünlük təşkil etsə də bu sahədə də yaratdığı əsərlərində təbiət motivləri öz əksini tapmışdır. Onun məişət janrında yaratdığı əsərlərində məsələn, "Biçinçilər", "Xırman", "Gəc dəyirmanı" və s. kimi tematik kompozisiyalarında təbiət təsvirlərinin realist boyalarla əks olunmuşdur. Məişət janrında olduğu kimi, onun tarixi janrda çəkdiyi əsərlərdə təbiət motivləri geniş yer almışdır. O, Azərbaycan tarixində baş verən 1918-1920-ci soyqırım illərində öz ata-baba torpaqlarından deportasiya olunmuş azərbaycanlıların taleyini canlandıran "Qaçqınlar" əsərində də fon olaraq Naxçıvan təbiətini, abidələrini təsvir etmişdir. Bu əsər Qərbi Azərbaycandan qovularaq çıxarılan soydaşlarımızın Naxçıvana üz tutması, onların əzab-əziyyəti realist boyalarla əks olunmuşdur.

Naxçıvan Əməkdar incəsənət xadimi Şamil Qazıyevin Naxçıvanın təbiətini əks etdirən müstəqil janr kimi çıxış edən mənzərələri də az deyil. Onun "Şəlalə", "Aylı gecə", "Qızlar bulağı", "Köhnə İmamzadə", "Şəlalə" "Köhnə Naxçıvan", "Köhnə həyət", "Naxçıvan XIX əsrin əvvəllərində", "Köhnə qala" və s. kimi

əsərləri diqqətəlayiqdir. Rəssamın yaratdığı təbiət təsvirlərində rəssamın vətənə məhəbbəti, torpağa bağlılığı, təbiət gözəlliklərinə olan dərin sevgisi özünü qabarıq sürətdə əks etdirir.

Rəssamın oğlu Qazıyev Arif Şamil oğlu (1937-2021) 02 yanvar 1937-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Azərbaycanın xalq rəssamı, heykəltaraş Arif Qazıyev Azərbaycan təsviri incəsənətində öz yaradıcılığı ilə mühim izi olan məharətli tişə ustası olmuşdur.

Qərbi Azərbaycandan Naxçıvana köçmüş rəssalardan biri də Hüseyn Əlirza oğlu Əliyevdir (1911-1991). Bir-birindən gözəl sulu boya mənzərələri ilə təsviri incəsənətimizə yeni nəfəs gətirmiş Əliyev Hüseyn Əlirza oğlu 1911-ci il aprelin 22-də anadan olmuşdur. Hələ 12 yaşında ilk təbiət mənzərəsini çəkən rəssam 1927-1932-ci illərdə Bakıda Rəssamlıq Texnikumunda, daha sonra (1932-1935) Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır.



Şəkil 2. Hüseyn Əliyev. Mənzərə

1922-1931-ci illərdə "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmiş, onun bir sıra karikaturaları jurnalın səhifələrində çap olunmuşdur. Onun yaradıcılığının böyük bir hissəsini mənzərə janrı tutur. Rəssamın özünəməxsus akvarel texnikası ilə işlədiyi mənzərələrdən "Qürüb şağı", "Zəngəzur mənzərəsi", "Şəki şəlaləsi", "Payız", "İlanlı dağ", "Zəngəzur dağları" və s. kimi əsərlərinin misal göstərmək olar. "Hüseyn Əliyev öz sələfi Bəhruz bəy Kəngərli kimi İlanlı dağın orijinal, təkrarsız gözəlliyinin vurğunu olmuş və tez-tez onu təsvir etmişdir. Hər bir təsvir İlanlıdağı tamaşaçı qarşısında gah əzəmətli dərəcədə sərt, gah da şairanə lirik obrazda canlandırır" [3, s.63].



Şəkil 3. Hüseyn Əliyev. Sülhsevər torpaq (Triptix)

Yurda bağlılığını əsərlərində tez-tez əks etdirən Xalq rəssamı 1977-ci ildə "Sülhsevər torpaq" adlı triptix işləmişdir. Triptixin mərkəzi hissəsini iri planda verilmiş çoban və keçi fiquru təşkil edir.

Rəssam bu hissəni "Sülhsevər torpaq" adlandırmaqla insan və heyvanlar aləminin sülh və dostluq şəraitində keçdiyini vurğulamağa çalışmışdır. Buna zidd olaraq rəssam həyatın, təbiətin amansız üzünün də olduğunu "Zəhmli torpaq" adlı digər hissədə göstərmişdir Triptixin bu hissəsində ilanla mübarizə aparan qoca təsvir olunmuşdur. Əsərdə rəng koloriti, dinamiklik, bitkin kompozisiya diqqəti cəlb edir. "Triptixin süjeti

insanlarla təbiətin başqa canlı üzvləri olan heyvanların münasibətinə həsr olunub. Əsərin ideyasına görə insan və heyvanlar nə qədər sülh şəraitində yaşasalar da, bəzən sağ qalmaq uğrunda mübarizədə öldürmək zərurəti də qaçılmazdır" [3, s.31]. Belə mübarizə səhnələrinin baş verdiyi yer açıq səma altında təbiətin özü idi. Uzaqdan görünən İlanlıdağ bu quraq çöllükdə baş verən hadisənin Naxçıvanda cərəyan etdiyinə işarə edir.

Triptixin son üçüncü hissəsində yenə də sakit və gündəlik həyat tərzi hökm sürür. "Nəğməli torpaq" adlanan bu hissədə mal-qaranı otlağa aparmış gənc çoban təsvir edilmişdir. Heyvanlar çoban tütəyinin sədaları altında bir yerə toplanmışlar. Uzaqdan bir-birinin ardında yerləşən dağlar, təpələr və düzənliklər vasitəsilə əsərin kompozisiyasını müstəvi üzərində qurmağa nail olan Hüseyn Əliyev bir-birinə uyumlu yumşaq rəng çalarlarından istifadə etməklə tamaşaçının əhvali-ruhiyyəsinə sakitlik gətirən bu əsərin xoş təsir gücünü daha da artırmışdır. Əslində əsər böyük bir fəlsəfi düşüncəni özündə əks etdirir. Bu əsərdə Naxçıvanın təbiətinin timsalında Azərbaycanın necə sülhsevər, eləcə də eyni təbiəti paylaşdığı və ilana bənzəyən düşmənlərin yeri gəldikdə məhv etməyi bacaran "Nəğməli torpağa" malik olduğunu çatdırmaq istəmişdi.

Hüseyn Əliyevin yaradıcılığında təbiət təsvirləri Azərbaycanın digər bölgələri ilə yanaşı, Qərbi Azərbaycan, Naxçıvan mövzusu ilə də öz əksini tapır. Onun "Zəngəzur dağlarında", "Naxçıvanın dağları", "Qızılqaya Zəngəzur", "Şəfəq", "Zəngəzur mənzərəsi", "İlanlı dağ", "Sülhsevər torpaq və s. əsərləri buna nümunə ola bilər.

İrəvandan doğulan Naxçıvanda yaşayan rəssamlardan söhbət gedirsə Əyyub Cəfər oğlu Fətullayevin (1925-2000) adını çəkməyə bilmərik. O, 7 noyabr 1925-ci ildə "Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində anadan olmuş Naxçıvan şəhərində yaşamışdır" [4, s.51]. O da Şamil Qazıyev kimi fəaliyyətini teatra həsr etmiş, teatr rəssamı kimi fəaliyyət göstərmişdir. "İlk təhsilini 1944-cü ildə bitirdiyi Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində almışdır. Bir müddət işlədikdən sonra ali rəssamlıq təhsili almaq üçün Moskva şəhərinə getmiş və burada Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna qəbul edilmişdir" [7].

"Ə.Fətəliyevin bədii tərtibatını və quruluşunu hazırladığı opera tamaşalarına Cahangir Cahangirovun "Azad" (1957), "Xanəndənin taleyi" (1979), Fikirət Əmirovun "Sevil" (1959), Üzeyir Hacıbəyovun "Koroğlu" (1959, 1975, Xalq rəssamı Tahir Salahovla birgə), Süleyman Ələsgərovun "Bahadur və Sona" (1961), Cüzeppe Verdinin "Aida" (1961), "Traviata" (1964), "Otello" (1982), Aleksandr Borodinin "Knyaz İqor" (1964, 1975), Modest Musorqskinin "Boris Qodunov" (1966), Vasif Adıgözəlovun "Ölülər" (1967), Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" (1968), Qara Qarayevin və Cahangir Hacıyevin "Vətən" (1973), Zakir Bağırovun "Aygün" (1973) və başqalarını qeyd etmək olar" [2]. Onun adları da qeyd olunan tamaşalara verdiyi tərtibatlarda müxtəlif səhnələr üçün hazırladığı pərdələrdə təbiət motivlərinə rast gəlinir.



Şəkil 4. Mahir Xəlilov. Naxçıvan mənzərəsi

Naxçıvanda yaşayan, burada fəaliyyət göstərən rəssamlardan biri də Xəlilov Mahir Xanlar oğlu (1960-2024) olmuşdur. O, 1960-cı ildə Qərbi Azərbaycanın Göyçə mahalının, Basarkeçər rayonunun Kərkibaş kəndində anadan olmuşdur. 1982-1987-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Bədii qrafika" fakültəsində təhsil almışdır. Təhsilini bitirdiyi ildə Təhsil Nazirliyinin təyinatı ilə Y.H.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna müəllim göndərilmişdir. 2006-cı ildə təsviri sənətin tədrisilə bağlı dissertasiya müdafiə etmiş, pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. 2010-cu ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunmuşdur. 2024-cü ilədək Naxçıvan Dövlət Universitetinin "Təsviri

incəsənət" kafedrasının dosenti və Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi olmuşdur. Yaradıcılığında təbiət mövzusu əsas yer tutur. O, Naxçıvan təbiətinin, Naxçıvan dağlarının vurğunu idi. Çəkdiyi təbiət təsvirləri isə daha çox qış fəslinə aid olmuşdur. Yəqin ki, burada rəssam Naxçıvanda qışın sərtliyinin, onun dağlarının əzəməti və sərtliyi ilə uyğunluğunu verməyə çalışmışdır. O, Naxçıvan dağlarından daha çox müraciət etdiyi Əshabi-Kəhf dağını soyuq rəng tonları ilə ifadə etmişdir.

İncəsənəti, tarixi, mədəniyyəti ilə seçilən Azərbaycan elə tarixi-coğrafi mövqedə yerləşib ki, tarixin bütün dövrlərində düşmən nəzərini cəlb edib, xarici qəsbkarların hücumuna, deportasiyaya məruz qalıb. Azərbaycan torpaqları dağıdılmış, soydaşlarımız ata-baba yurd yerlərindən didərgin salınmış, onların yerinə ermənilər köçürülmüş, mədəniyyət abidələrimiz isə ermənilər tərəfindən zaman-zaman məhv edilmişdir. Lakin buna baxmayaraq, Azərbaycan tarixin hər dövründə öz ərazisini, milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilmiş, ona sahib çıxmışdır. Qərbi Azərbaycandan köçürülüb Naxçıvana gəlmiş, burada yaşamış, fəaliyyət göstərmiş rəssamların yaradıcılığında Vətən məhəbbəti, yurd-yuva həsrəti torpağa bağlılıq, təbiətə sevgi fərqli texnikalarla, fərqli üslublarla müxtəlif janrlarda özünü qabarıq surətdə göstərmişdir. Onlar deportasiyaya məruz qalsalar da, öz yaradıcılıqlarında, istər doğulduğu Qərbi Azərbaycanın gözəl təbiətini, tarixi və mədəniyyətini, istərsə də məruz qaldıqları erməni vəhşiliyini realist tərzdə ifadə etmişdilər.

ƏDƏBİYYAT

1. Allahverdiyeva, H. Naxçıvan teatrının səhnəqrafiyası. Naxçıvan: Əcəmi, 2022, 167 s.
2. Quliyev, Ə. Teatr rəssamlığımızda silinməz imza – Əyyub Fətəliyev. "525-ci qəzet. 22.12.2015.
3. Sadıxova, S**.** Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığı:/ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı: 2018 – 138 s.
4. Naxçıvan rəssamlarının ensiklopediyası. Red. hey. sədri İ.Hacıyev. Naxçıvan: Əcəmi, 2022, 157 s.
5. Qazıyev, Ş. Naxçıvan: Əcəmi, 2010, 63 s.
6. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n_Erm%C9%99nistandan_deportasiyas%C4%B1
7. https://az.wikipedia.org/wiki/%C6%8Fyyub_F%C9%99t%C9%99liyev

ABSTRACT

Habiba ALLAHVERDİYEVA

NATURE MOTIVES IN THE WORKS BY WESTERN AZERBAIJAN ARTISTS WHO LIVED IN NAKHCHIVAN

In the article, the creativity of the artists who moved from Western Azerbaijan and lived in Nakhchivan at different times was studied, the characteristic aspect of their creativity and the nature motifs used in their creativity were investigated. There were also artists among the Azerbaijanis who were subjected to aggression and deportation by the Armenian usurpers and the countries that patronized them at different times and were forced to leave their ancestral lands. Among them, the names of Shamil Gaziyev, Arif Gaziyev, Huseyn Aliyev, Ayyub Fatullayev, Mahir Khalilov, who were born in West Azerbaijan, can be mentioned. In their work, the description of their homeland, the landscapes of Western Azerbaijan and Nakhchivan occupy the main place. Shamil Gaziyev's "Spring of Girls", "Old Imamzade", "Waterfall", "Old Nakhchivan", "Old Yard", "Nakhchivan at the beginning of the 19th century", etc. There are landscape works. In the artist's creativity, nature motifs have taken a large place in the works he painted in the domestic and historical genre. In Huseyn Aliyev's work, nature images are reflected in the theme of West Azerbaijan, Nakhchivan, as well as other regions of Azerbaijan. His "Zangezur mountains", "Nakhchivan's mountains", "Kyzılgaya Zangezur", "Shafaq", "Zangezur landscape", "Snake mountain", "Peaceful land" etc. his works can be an example of this. Even though Ayyub Fatullayev worked as a theater artist, he gave ample space to the realistic and aesthetic expression of nature motifs in his artistic compositions. Mahir Khalilov, an artist and pedagogue who lived in Nakhchivan, preferred the depiction of nature. The description of the Nakhchivan mountains with cold color tones is one of the characteristic aspects of his work.

Keywords: *West Azerbaijan, Iravan, natural motifs, architectural monuments, nature of Nakhchivan, Zangezur, paintings, colorful and graphics*

QƏRBİ AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ - AŞIQ SƏNƏTİ

Həbibə MƏMMƏDOVA
bxa.elmikatiblik@gmail.com
ORCID iD: 0000-0001-9050-2845
Bakı Xoreoqrafiya Akademiyası

XÜLASƏ

Qərbi Azərbaycan musiqi mədəniyyətinin əsas xüsusiyyətləri. *Təqdim olunan məqalədə Qərbi Azərbaycan musiqi mədəniyyətinin əsas xüsusiyyətlərindən bəhs olunur. Məqalədə Qərbi azərbaycanlıların yaşadıqları qədim torpaqlardan deportasiyası və onların zəngin musiqi mədəniyyətinə malik olmaları qeyd olunur. Qərbi Azərbaycanda musiqinin inkişafı şifahi xalq yaradıcılığı və Avropa ənənələrinə əsaslanan professional bəstəkar yaradıcılığı əsasında inkişaf etmişdir. Şifahi xalq yaradıcılığı əsasən aşıq sənətini əhatə edir. Azərbaycan aşıq məktəbinin əsas qollarından birini məhz Qərbi Azərbaycan torpaqlarında yetişən görkəmli aşıqlar təşkil edir. Nəzərə çatdırılır ki, Qərbi Azərbaycanda xalq yaradıcılığı, aşıq sənəti əsas yer tutur. Həmçinin məqalədə Qərbi Azərbaycanın tanınmış aşıqları və bölgəyə məxsus aşıq sənətinin əsas xüsusiyyətləri nəzərə çatdırılır. Ümumiyyətlə, Qərbi və Şərqi Azərbaycanın aşıq musiqi əsasları bir-birindən çox fərqlənməsə də, bir çox cəhətləri, xüsusilə də ifaçılıq üsulları seçilir. Belə ki, Qərbi Azərbaycan aşıqları sazda ifa edərkən, balaban və qaval alətinin müşayiəti olmadan tək şəkildə musiqini ifa edirlər. Belə ifaya Qərbi Azərbaycan aşıqları daha çox üstünlük verirlər. Ümumiyyətlə, Qərbi Azərbaycan musiqi mədəniyyətinin kökləri qədim dövrlərə gedib çıxmaqla yanaşı, həm də Azərbaycan xalq yaradıcılığı mədəniyyətinin ən zəngin və dolğun musiqi irsinə malik istiqamətini təşkil edir. Qərbi Azərbaycan musiqi mədəniyyəti yalnız aşıq mühitini deyil, xalq və bəstəkar yaradıcılığını, ifaçılıq sənətini və digər mühüm sahələri özündə birləşdirir.*

Açar sözlər: *Qərbi Azərbaycan, musiqi mədəniyyəti, aşıq yaradıcılığı, milli musiqi alətləri*

Qərbi Azərbaycan xalqımızın qədim yaşayış məskənlərindən biri olub, əsasən tayfa birliklərinin sıx məskunlaşdığı ərazilərdən hesab olunur. Əsrlərin sınağından keçən uzun illər boyu Qərbi azərbaycanlılar varlıqlarını qorumaqla yanaşı, müxtəlif sahələrdə bir-birinə qarşılıqlı şəkildə nüfuz edən mədəni dəyərlərin formalaşmasına bilavasitə öz təsirlərini göstərmişlər. Bu baxımdan uzun illərdir ki, güc yolu ilə doğma torpaqlarından, qədim yaşayış məskənlərindən uzaqlaşdırılmalarına baxmayaraq, Qərbi azərbaycanlılar mədəni dəyərlərini, xalq yaradıcılıq sənətlərini, musiqi irsini qoruyub saxlamağa müvəffəq olmuşlar. Bu da təbiidir. Çünki Qərbi azərbaycanlıların malik olduqları musiqi irsi qədim və zəngin qaynaqlara söykənir.

Məlumdur ki, Qərbi azərbaycanlılar Ermənistan dövlətinin məcburi köçürülmə və etnik təmizləmə siyasətinin aparılması nəticəsində Azərbaycanda məskunlaşmışlar. Tarixçilərin və tədqiqatçıların fikrinə görə, azərbaycanlıların indiki Ermənistandan etnik təmizlənməsi və deportasiyalarının əsas səbəbi regionun və ölkənin milli tərkibinin dəyişdirilməsi idi. XX əsrdə dörd mərhələ üzrə azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından deportasiyası aparılmışdır:

1. Birinci mərhələ – 1905-1920-ci illər;
2. İkinci mərhələ – 1918-1920-ci illər;
3. Üçüncü mərhələ – 1948-1953-cü illər;
4. Dördüncü mərhələ – 1988-1992-ci illər [7, s. 42].

Bu mərhələlərin hər birində çoxsaylı Azərbaycan ziyalıları, o cümlədən tanınmış mədəniyyət və incəsənət xadimləri ölkəmizdə məskunlaşmışlar. Tarixə nəzər saldıqda, Qərbi Azərbaycan torpaqlarının həmişə sazlı-sözlü bir məkan olduğunu müşahidə etmək mümkündür.

Qərbi Azərbaycanda musiqinin inkişafı şifahi xalq yaradıcılığı və Avropa ənənələrinə əsaslanan professional bəstəkar yaradıcılığı əsasında inkişaf etmişdir. Şifahi xalq yaradıcılığı əsasən aşıq sənətini əhatə edir. Azərbaycan aşıq məktəbinin əsas qollarından birini məhz Qərbi Azərbaycan torpaqlarında yetişən görkəmli aşıqlar təşkil edir.

Qərbi Azərbaycan torpaqlarında ən geniş yayılmış musiqi sahəsi aşıq yaradıcılığıdır. Xüsusilə XIX-XX əsrlərdə Qərbi Azərbaycanın Göyçə mahalında aşıq mühiti geniş şəkildə inkişaf etmişdir. Ağ Aşıq, Aşıq Alı qədim Göyçə mahalının tanınmış sənətkarlarıdır. Qərbi Azərbaycanın aşıq musiqisində Azərbaycanın şərq bölgələri ilə yaxınlıq özünü göstərsə də, Türkiyə dövləti ilə sərhəddə olması da bilavasitə öz təsirini göstərmişdir. Belə ki, Türkiyənin şərq bölgələrinə yaxın olduğu üçün Qərbi Azərbaycanın aşıq sənətində

müəyyən xüsusiyyətlərdə yaxınlıq nəzərə çarpır. Bu yaxınlıq saz alətinin quruluşunda və köklənməsində, melodiyalarda və ifa olunan aşıq havalarının məzmununda daha çox diqqəti cəlb edir.

XIX-XX əsrlərdə Qərbi Azərbaycanın Göyçə mahalında aşıq mühiti geniş şəkildə inkişaf etmişdir. Bu mühitin formalaşmasına Miskin Abdalın məktəbi kimi tanınan ustadlıq məktəbindən çıxan dərviş-aşıqların mühüm rolu olmuşdur. Qeyd edək ki, Miskin Abdal adı ilə tarixə düşən Seyid Hüseyn Məhəmməd oğlu Göyçə mahalında doğularaq, XV əsrdə Sarıyaqub (sonralar Zərgərli adlanan) kəndində anadan olmuşdur. Göyçə mahalının aşıq məktəbinin formalaşmasında Miskin Abdalın misilsiz xidmətləri olmuşdur. Onu da qeyd edək ki, Miskin Abdalın atasının Ərdəbil şeyxlərindən biri olması onun fikirlərində sufi təriqəti ideyalarının yaranmasına səbəb olmuşdur. Belə ki, Miskin Abdal Qərbi Azərbaycan aşıq mühitində aşıq-sufi ədəbiyyatının əsasını qoyaraq, aşıq sənətinə şəffaflıq və müqəddəslik gətirməyə nail olmuşdur [9].

Göyçə mahalının ilk el aşığı kimi Ağ Aşıq (Aşıq Allahverdi) tanınmışdır. Ağ Aşığın sənətinə Göyçədə həmişə hörmət edilmiş, digər aşıqlar onun sənətkarlığından bəhrələnmişlər. Onun şeirlərinə nəzirə yazılmasına Göyçədən başqa, Tovuz, Kəlbəcər və Borçalıda da rast gəlinir [4]. Ağ Aşıqla yanaşı, Göyçə mahalında bir sıra tanınmış aşıq adlarına rast gəlinir. Aşıq olmaqla yanaşı, həm də el şairləri kimi tanınan Almməməd və Məmmədhüseyn, Aşıq Məhərrəm, Aşıq Musa, Molla Tağı oğlu Məhəmməd, Mirzə Bəylər, Şair Aydın, Aşıq Əziz, Şair Məhəmməd, Usta Abdulla Göyçə mahalında aşıq sənətinin inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb etmişlər. Eyni zamanda Aşıq Alı, Aşıq Ələsgər Göyçə mahalına xas olan aşıq məktəbinin tanınmış nümayəndələri olmaqla yanaşı, bu sənətin yaşadılmasında, özünəməxsus cəhətlərinin təbliğində öz istedad və bacarıqlarını əsirgəməmişlər.

Göyçə aşıq məktəbinin nümayəndələri tərəfindən ifa olunan məşhur saz havaları əsasən "Göyçə gözəlləməsi", "Köhnə Göyçə", "Göyçəgülü", "Göyçə Qaragözü", "Heydəri", "Nəcəfi", "Ağır Şərili", "Şahsevəni", "Məmmədsöyünü"dür.

Qərbi Azərbaycanın aşıq yaradıcılığının tanınmış nümayəndələrindən biri olan Aşıq Alı həm də Aşıq Qızılvəngli adı ilə tanınmışdır. Qızılvəngin Yeni Bəyazid qəzasında anadan olan Aşıq Alı XIX əsər aşıq şeirinin parlaq nümayəndələrindən biridir [5]. Aşıq Alı və ya Aşıq Qızılvəngli XIX əsr aşıq şeirinin parlaq nümayəndələrindən biri kimi tanınmışdır. Aşıq Alı Azərbaycan aşıq şeiri tarixində Aşıq Ələsgərin ustadı kimi tanınsa da, onun özü də çox azman ruhlu, coşqun təbli sənət fədaisi imiş. Ustadı Aşıq Allahverdi onu bütün şagirdlərindən daha artıq, öz oğlu kimi sevirmiş.

Aşıq Ələsgər kimi tanınan Ələsgər Almməməd oğlu Göyçə mahalının Ağkilsə kəndində, Yeni Bəyazid qəzasında anadan olmuşdur. Göyçə mahalının tanınmış aşıqlarından biri olan Aşıq Ələsgər XIX əsrdə Qərbi Azərbaycan aşıq məktəbinin əsas ağırlığını öz üzərinə götürmüşdür [6, s. 62]. Aşıq Alı xalq şeirinin ən böyük nümayəndələrindən və bu şeirin ən uca zirvələrini fəth edən ustad sənətkarlardandır. Aşıq poeziyasını bol həyati müşahidələrlə zənginləşdirmiş, həm məzmun, həm forma rəngarəngliyi, həm də saf, duru xalq dilindən istifadə baxımından Aşıq Ələsgər Azərbaycan, ümumən türk şeirinə misilsiz xidmətlər göstərmişdir. Aşıq Ələsgərin şöhrət gətirən şeirləri arasında biri xüsusilə fərqlənir:

"Çərşənbə günündə, çeşmə başında
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun keçdi sinəmdən,
Cadu qəmzələri qanıma düşdü" [8].

Aşıq Alı bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir. Demək olar ki, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan aşıq şeiri ədəbiyyatında dərin iz qoymuşdur. Dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və bu kimi şeir növləri Aşıq Ələsgər yaradıcılığında ən çox istifadə olunmaqla özünün ən dərin keyfiyyətlərini göstərmişdir.

Aşıq Ələsgərin səsi, ifa tərzi, mənəvi-əxlaqi zənginliyi ilə seçilən havaları onun zahiri görkəmi ilə uyğunluq təşkil etmişdir. Maraqlısı budur ki, Aşıq Ələsgər sazı sol əli ilə çalmış, sağ əlini pərdələr üzərində gəzdirərək, zil nazik səsi ilə çox şirin və məlahətli bir şəkildə aşıq havalarını ifa etmişdir. Bir aşıq kimi özünəməxsus keyfiyyətlərə malik olması Aşıq Ələsgəri Azərbaycanın hər yerində şöhrətləndirmiş, ustad sənətkar kimi məşhurlaşmışdır. Elə bu səbəb də onun ətrafında çoxlu şəyirdlərin toplanmasına səbəb olmuşdur. Aşıq Ələsgər onlara aşıqlıq sənətinin sirlərini öyrətməklə yanaşı, onların daxildə olan bütün bacarıqlarının üzə çıxarılmasında mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, bu aşıqların əksər hissəsi sonralar görkəmli sənətkar kimi tanınıb məşhurlaşmışlar. Qərbi və Şərqi Azərbaycanın aşıq musiqi əsasları bir-birindən çox fərqlənməsə də, bir çox cəhətləri, xüsusilə də ifaçılıq üsulları seçilir. Belə ki, Qərbi Azərbaycan aşıqları sazda ifa edərkən, balaban və qaval alətinin müşayiəti olmadan tək şəkildə musiqini ifa edirlər. Belə ifaya Qərbi Azərbaycan aşıqları daha çox üstünlük verirlər. Onlar hesab edirlər ki, bu zaman aşıq malik olduğu bacarıqları,

xüsusilə saz ifaçılıq üsullarını daha rahat və sərbəst şəkildə göstərir və öz ustalığını nümayiş etdirir. Qərbi Azərbaycanın aşıq ənənəsində rəvayət söyləmə, dastan danışma, daha dəqiq ifadə etsək, nağılçılıq daha çox qorunub saxlanır. Qərbi Azərbaycanın musiqi alətləri də zənginliyi ilə seçilir. Saz ilə yanaşı, zurna, balaban, bağlama, kamança kimi alətlər xüsusilə tanınır.

Hazırda Qərbi Azərbaycanda doğulan musiqiçilər Ermənistan dövlətinin məcburi köçürülmə və etnik təmizləmə siyasətinin aparılması nəticəsində Azərbaycanda məskunlaşmışlar. Burada professional təhsil almış Qərbi Azərbaycandan olan musiqiçilər XX əsr mədəniyyətinə mühüm təsir göstərmişlər.

Azərbaycan xalqının görkəmli mahnı ustası, bəstəkar, dirijor, müəllim, folklorşünas, operetta və instrumental əsərlərin müəllifi, ictimai xadim Səid Rüstəmov, müasir Azərbaycan ifaçılıq sənətinin dəyərli nümayəndəsi olan Xalq artisti Mübariz Tağıyev Qərbi Azərbaycan torpaqlarının nümayəndələridir. Onların Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuş, musiqi xəzinəmizə dəyərli töhfələri bəxş etmişlər. Ümumiyyətlə, Qərbi Azərbaycan musiqi mədəniyyətinin kökləri qədim dövrlərə gedib çıxmaqla yanaşı, həm də Azərbaycan xalq yaradıcılığı mədəniyyətinin ən zəngin və dolğun musiqi irsinə malik istiqamətini təşkil edir. Qərbi Azərbaycan musiqi mədəniyyəti yalnız aşıq mühitini deyil, xalq və bəstəkar yaradıcılığını, ifaçılıq sənətini və digər mühüm sahələri özündə birləşdirir. Bu baxımdan vətən həsrətli Qərbi Azərbaycan musiqi mədəniyyətinin öyrənilməli və araşdırmalı bir çox sahələri mövcuddur.

ƏDƏBİYYAT

1. Abdullazadə, G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Şərq və Qərb kontekstində / G.A.Abdullazadə. – Bakı: Şərq-Qərb, – 2009. – 272 s.
2. Ağ Aşıq [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/ A%C4%9F_A%C5%9F%C4% B1q_Allahverdi
3. Aşıq Alı [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_Al%C4%B1
4. Aşıq Ələsgər [Elektron resurs] /URL: https://az.wikipedia.org/wiki/A%C5%9F%C4% B1q_Al% C4%B1
5. Azərbaycanlıların Ermənistandan deportasiyası [Elektron resurs] / URL: RL: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n_Erm%C9%99nistandan_deportasiyas%C4%B1
6. Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Məqalələr toplusu. / Bakı: Elm və həyat, c.2. 1996. 77 s.
7. Azərbaycan musiqi tarixi (qədim dövrdən XX əsrə qədər) / tərt. ed. Z.Y.Səfərova. Bakı: Şərq-Qərb, c.1. 2012. 591 s.
8. Çərşənbə günündə, çeşmə başında [Elektron resurs] / URL: https://az.wikisource. Org /wiki/% C3%87%C9%99r%C5%9F%C9%99nb%C9%99_g%C3%BCn%C3%BCnd%C9%99,_%C3%A7e%C5%9Fm%C9%99_ba%C5%9F%C4%B1nda
9. Miskin Abdal [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/Miskin_Abdal

ABSTRACT

Habiba MAMMADOVA

THE MUSICAL CULTURE OF WESTERN AZERBAIJAN - ASHUG ART

The main features of the musical culture of Western Azerbaijan are discussed in the presented article. The article mentions the deportation of West Azerbaijanis from their ancient lands and their rich musical culture. The development of music in Western Azerbaijan developed on the basis of oral folk creativity and professional composer creativity based on European traditions. Oral folk art mainly includes love art. One of the main branches of the Azerbaijan ashiq school is made up of prominent ashikhs who grew up in the lands of Western Azerbaijan. It should be noted that in Western Azerbaijan, folk creativity and ashiq art occupy the main place. Also, the well-known lovers of Western Azerbaijan and their main characteristics are brought into consideration in the article. In general, although the musical foundations of Western and Eastern Azerbaijan do not differ much from each other, many aspects, especially the performance methods, stand out. So, when the West Azerbaijani ashiks play the saz, they play the music alone without the accompaniment of the balaban and gaval instruments. Western Azerbaijani lovers prefer this kind of performance. In general, the roots of Western Azerbaijani musical culture go back to ancient times, and it is also the direction of the Azerbaijani folk creative culture with the richest and most complete musical heritage. Western Azerbaijani musical culture combines not only the atmosphere of love, but also folk and composer creativity, performing arts and other important fields.

***Keywords**: Western Azerbaijan, musical culture, creativity of ashugs, national musical instruments*

QƏRBİ AZƏRBAYCAN TARİXİ-MƏDƏNİ KONTEKSTDƏ

Sevinc TANGUDUR
sevinc@tangudur.com.tr
sevinc.tangudur.mii@gmail.com
ORCID iD: 0009-0008-2549-2749
AMEA Memarlıq və İncəsənət İnstitutu

XÜLASƏ

Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın XX əsrdə mərhələlərlə davam etmiş deportasiyası bu ərazidəki tarixi abidələrimizin mənimsənilməsi, mümkün olmadıqda isə dağıdılması, yer adlarının isə dəyişdirilməsi ilə müşayiət olunmuşdur. 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, xalqımızın Ermənistan ərazisindəki etnik nişanələri də bütünlüklə mədəni irs soyqırımına məruz qalmışdır. Millətçi, təcavüzkar Ermənistanda – tarixən Qərbi Azərbaycan ərazisi sayılmış bu coğrafiyada min illər boyu yaşamış soydaşlarımızın etnik mövcudluğuna son qoyulması və onların mədəni irsinin məhv edilməsi son bir əsrdə dövlət siyasəti səviyyəsində gerçəkləşdirilmişdir. Nəticədə azərbaycanlıların bu ərazilərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izləri yox etmək üçün məqsədyönlü şəkildə, kütləvi vandallıq aktları törədilmişdir. 1988-ci ildən başlanan sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri də ermənilər tərəfindən qarət edilmiş, mənimsənilmişdir. Belə zərərçəkmiş mədəni irsimizin nümunələrindən biri də Azərbaycan mədəniyyət tarixinin salnaməsinə şərəflə adı yazılan, Qədim Türk yurdu Qərbi Azərbaycanda fəaliyyətə başlayan, tamaşa binaları kontekstsində xüsusi yer tutan İrəvan Dövlət Azərbaycan Dram Teatrıdır.


Açar sözlər: *Azərbaycan, Qərbi Azərbaycan, tarixi-mədəni, mədəniyyət, memarlıq, teatr, tamaşa*

XIX əsrin ikinci yarısında Azərbaycanda baş verən ictimai-siyasi və sosial-iqtisadi hadisələr sayəsində ortaya çıxan yeni reallıqlar ölkənin ədəbi-mədəni həyatında dəyişikliklərə səbəb oldu, incəsənətin bütün sahələri inkişaf etməyə başladı. Həmən dövrdə, Azərbaycan üçün ictimai-administrativ binaların tikilməsi məsələsi qaldırılmamışdı. Bu məqsəd üçün mövcud binalardan, dəqiq desək, xan saraylarından (Bakı, Gəncə, Nuxa, Quba) istifadə edilirdi. Yeni sosial-iqtisadi şərtlər, memarlıq və funksional cəhətdən daha da düzgün tamaşa binalarının tikilməsini tələb edirdi [4, s.157].

Azərbaycanda ilk teatr tamaşası 1848-ci ildə teatr binası tələblərinə cavab verməyən xüsusi evdə yerləşdirilmiş Şuşa teatrında ilk dəfə olaraq səhnəyə qoyuldu və bu ənənə sonralar Şamaxıda davam etdirildi. Peşəkar teatrın xeyli sonralar yaranmasına baxmayaraq, açılışı 17 aprel 1858-ci ildə təntənəli şəkildə qeyd olunan Şamaxı teatrı Azərbaycanda ilk tamaşa binası olmuşdur. Şamaxı teatrı 1859-cu ilin mayında baş verən zəlzələdə varlığına son qoyanadək xeyli müddət mədəni mərkəz kimi çıxış etmişdir [3, s.59].

Azərbaycanın digər bölgələrində də teatr memarlığına maraq hissi sürətlə artmağa başladı.

Azərbaycan milli teatr tarixində parlaq səhifələr açmış İrəvan teatrının yaranması mədəniyyət tarixi-mizdə mühüm hadisələrdən olmaqla özünəməxsus yer tutur. Azərbaycanlıların tarixən köklü yaşadığı mühüm elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi tanınan İrəvan mahalında 1882-ci ildən etibarən fəaliyyətə başlayan İrəvan Teatrı sonrakı dövrlər ərzində özünün zəngin repertuarında milli ədəbi-bədii fikrin nailiy-yətlərinə daim xüsusi yer verərək tamaşaçıların rəğbətini qazanmış və mədəniyyət salnaməmizə yaddaqalan səhifələr yazmışdır (Şəkil 1). Azərbaycanın görkəmli səhnə ustalarından bir çoxunun yaradıcılıq taleyi peşəkar milli teatrımızın ayrılmaz tərkib hissəsinə çevrilən bu qocaman sənət ocağı ilə sıx bağlıdır (Şəkil 3) [2].



Şəkil 1. Pənah xan Makinskinin evi. İrəvan teatrının bir çox tamaşaları burada oynanılmışdır.

İrəvan ziyalıları içərisində öz bilik və bacarığına və təşkilatçılığına görə seçilən şəhər gimnaziyasının müəllimi, tanınmış maarifpərvər Məşədi İsmayıl özünün şagirdləri ilə 1882-ci ildə Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" pyesini tamaşaya hazırlamışdır. Bu ilk tamaşa ilə İrəvanda peşəkar Azərbaycan teatrının əsası qoyuldu. 1886-cı ildən teatra görkəmli maarifpərvər, pedaqoq Firidun bəy Köçərli rəhbərlik etmişdir [1, s.3].

Onun rəhbərliyi və rejissorluğu ilə böyük mütəfəkkir və Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", "Müsyö Jordan və dərviş Məstəli şah", "Hacı Qara", Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı" və sair pyesləri teatrın səhnəsində tamaşaya qoyuldu [2].

1895-1945-ci illər arasında isə teatra Yunis Nuri rəhbərlik etmişdir (Şəkil 3). XX əsrin əvvəllərində İrəvanda Azərbaycan teatrı aktyor ifaları, rejissor işləri və repertuar tərtibi baxımından ciddi nailiyyətlər qazanmışdır.

Keşməkeşli yol keçmiş və dəfələrlə erməni vandalizminə məruz qalmış teatrın salnaməsi əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçasıdır. 1918–1920-ci illərdə ermənilər İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppası mühacirətə üz tutan teatr öz fəaliyyətini 1922-ci ildə bərpa etmiş, Azərbaycan ziyalılarının fədakarlığı sayəsində 1928-ci ildə müvafiq qərarla dövlət teatrı statusunu almış, 1935-ci ildən isə Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının adını daşımışdır.


Мусйо жордан вə
дəрвиш мəстəли шаһ

Şəkil 2."Müsyo Jordan və dərviş Məstəli şah" İrəvan teatrında oynanılmasının 50 illiyi



Şəkil 3. İrəvan teatrı. 1939-cu il Orta cərgədə soldan 4-cü teatrın direktoruYunis Nuri


Арм. ССР
ГОС. АЗЕРБАЙДЖАНСКИЙ ДРАМАТИЧЕСКИЙ ТЕАТР
им. Джафара Джабарлы
1929—1939
15 марта
Торжественное заседание
Концерт.
16 марта
Дж. Джабарлы
1905 год.
Постановка Заслуженного деятеля искусств Б. Календарли
Художник В. Вартанян
Композитор А. Сатин
Ассистент А. Сулейманов
Зав. пост. части И. Гусейнов
Джафар Джабарлы

Şəkil 4. Teatr afişası. 1939-cu il

948-ci ildən başlayaraq İrəvan və onun ətraf rayonlarında yaşayan türk əhalisinin məcburi olaraq Azərbaycana köçürülmə prosesi teatra da öz acı təsirini göstərmiş və 1949-cu ildə teatr Göyçə mahalının Basarkeçər rayonuna köçürülmüşdür [1, s 344-345].

Oradakı bir illik fəaliyyətindən sonra isə teatrın işi dayandırılmış və əvəzində həmin bazada xalq teatrı təşkil olunmuşdur. Nəhayət, 1967-ci ildə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı hökumətin qərarı ilə yenidən bərpa olunmuş və İrəvan şəhərinə köçürülmüşdür.

1968-ci ilin iyul ayında Hidayət Xuduş oğlu Orucov C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin olunmuş və fasiləsiz olaraq on altı il Azərbaycanın bu qədim sənət ocağına başçılıq etmişdir. Ədəbi mühitdə Hidayət adı ilə təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həmin dövrdə təkcə İrəvanın deyil, indi Ermənistan adlandırılan Oğuz ellərinin milli ədəbi-mədəni mühitində canlanma yaranmış, Qərbi Azərbaycanda onlarla şair və nasirlərin kitabları İrəvanda işıq üzü görmüş, "Ədəbi Ermənistan" məcmuəsi nəşr olunmuşdur [1, s. 359].

Azərbaycanın Dağlıq Qarabağ ərazisinə qarşı iddia irəli sürən erməni quldurları 1988-ci ildə teatrın ləvazimatlarını yandırmışlar. Teatr deportasiya olunduqdan sonra, 1989-cu ildən bəri teatr truppası Bakıda Akademik Milli Dram Teatrının nəzdində teatr–studiya kimi fəaliyyətini davam etdirməyə başladı və Abşeron mədəniyyət sarayında yerləşdirildi, lakin 1995-ci ildə teatra yenidən dövlət statusu verildi. İndiki H.Sarabski adına Mədəniyyət Sarayında məskunlaşdırıldı [2].

2000-ci ildən teatra tanınmış aktyor İftixar Piriyev rəhbərlik edir. 16 oktyabr 2007-ci ildə prezidentin sərəncamı ilə teatrın yubileyi Bakıdakı Azərbaycan Dövlət Musiqili Komediya Teatrında qeyd olundu. 2008-ci il fevral ayının 8-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə paytaxtın Binəqədi rayonunda yerləşən Məhəmməd Əmin Rəsulzadə adına Mədəniyyət Sarayı C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının balansına verildi [1, s.363].

Bununla da, ilk dəfə İrəvan teatrının ilk daimi binası oldu. İrəvan Dövlət Azərbaycan Dram Teatrı son illərdə Türkiyədə, İranda, Gürcüstanda, Rusiya Federasiyasının Dağıstan vilayətində uğurlu qastrol səfərlərində olmuşdur.

2022-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi qeyd olundu.

Müstəqillik dövrümüzdə istər Ulu Öndər Heydər Əliyev tərəfindən, istərsə də İlham Əliyev tərəfindən Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi istiqamətində bir çox sərəncamlar verilmişdir. Azərbaycan teatrları Heydər Əliyevin bu istiqamətdə işini uğurla davam etdirən İlham Əliyevin imzaladığı sərəncamlarla geniş miqyaslı inkişaf mərhələsinə qədəm qoydu. Demək olar ki, bütün teatr binaları yüksək səviyyədə təmir olundu. Texniki avadanlıqlar yeniləndi, dünya teatrlarına inteqrasiya istiqamətində addımlar atıldı [1].





Şəkil 5. Pənah xan Makinskinin evi. İrəvan teatrının bir çox tamaşaları burada oynanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 fevral tarixli qərarı ilə Bakı şəhərinin Binəqədi rayonunda C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı binasının əsaslı təmiri və yenidən qurulması işlərinin aparılmasına başlanıldı (Şəkil 5) [1].

Ümidvarıq ki, teatr 1882-ci ildən 2024-cü ilin sonuna qədər yaradıcılıq yolundakı fəaliyyətini tezliklə öz binasında və daha sonralar da yarandığı doğma məkanında davam etdirəcək.

ƏDƏBİYYAT

1. Piriyev, İ. İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi. Bakı: 2023, 640 s.
2. Rəhimli, İ. İrəvan Dövlət Azərbaycan Dram Teatrı. Bakı: "E.L", 2007, 328 s.
3. Tangudur, S. XIX-XX əsrin əvvəlləri Azərbaycanın teatr memarlığı. Dissertasiya işi. Bakı: 2004. 129 s.
4. Фатуллаев, Ш.С., Градостроительство и архитектура Азербайджана XIX - начало XX века. 1986. 492 с.
5. "Xalq qəzeti" Qərbi Azərbaycanda mədəni irs soyqırımı. 13.01.2023.

ABSTRACT

Sevinj TANGUDUR

WESTERN AZERBAIJAN IN THE HISTORICAL-CULTURAL CONTEXT

The deportation of our compatriots living in Western Azerbaijan, which continued in stages in the 20th century, was accompanied by the appropriation and, if not possible, the destruction of our historical monuments in this region, and the changing of place names. During the 30-year occupation period, as in Karabakh and Eastern Zangezur, the ethnic symbols of our people in the territory of Armenia were completely subjected to cultural heritage genocide. The creation of the Irevantheater, which opened bright pages in the history of the national theater of Azerbaijan, occupies a unique place as one of the important events in our cultural history. The Irevan Theater, which has been operating since 1882 in the Irevan district, which is known as one of the important scientific, educational and cultural centers where Azerbaijanis have historically lived, won the audience's sympathy and wrote memorable pages in our cultural annals.

Keywords: *Azerbaijan, Western Azerbaijan, historical-cultural, culture, architecture, theater, performance*

İRƏVAN QALASININ MEMARLIĞI

Gülnarə QƏNBƏROVA
qenberovagulnare65@gmail.com
ORCID iD: 0009-0009-4491-4625
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

İrəvan əyaləti XVI əsrdən XVIII əsrin I rübü də daxil olmaqla, sabit sərhədlərə malik olmuşdur. Azərbaycan Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Çuxur Səəd bəylərbəyliyi Arazın hər iki sahilindəki düzənlikləri əhatə edirdisə, İrəvan əyalətinin daha çox hissəsi Arazın sol sahilində yerləşirdi. 1590-cı il tarixli müfəssəl dəftərə əsasən Çuxur Səəd bəylərbəyliyinin ərazisi İrəvan və Naxçıvan livalarına bölünmüşdü. İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Körpü, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərabxana. 1728-ci il tarixli müfəssəl dəftərə görə İrəvan əyalətinə İrəvan şəhərindən başqa, Qırxbulaq, Körpü, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Dərələyəz, Mərəzə, Sürməli, İqdır, Aralık, Şərur nahiyələri daxil idi. İrəvan qalası 1504-cü ildə Səfəvi hökmdarı I Şah İsmayılın tapşırığı ilə vəziri Rəvanqulu xan tərəfindən Zəngiçayın sahilində, indiki İrəvan şəhərinin yerində 7 ilə inşa edilmişdir. Səfəvilər dövlətinin sərhədlərini xarici basqınlardan qorumalı olan qala onu tikdirənin adı ilə Rəvan qalası, sonralar isə İrəvan qalası adlandırılmışdır. Orta əsrlər və rus işğalı dövrlərinə aid mənbələrdə Qərbi Azərbaycan ərazisində hərbi-istehkam xarakterli İrəvan qalası ilə yanaşı, Keçi qala, Sərdarabad, Talın, Gümrü və Şorayel qalaları haqqında məlumat verilir. Adları sadalanan qalaların hamısı İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra tədricən dağıdılaraq yer üzündən silinmişdi. Bu qalalar arasında ən əzəmətlisi və tədqiqatlarda tez-tez adı çəkilən İrəvan qalasıdır. Öz dövrünün yüksək memarlıq, bədii sənətkarlıq nümunəsi olan qalanın 50-60 bürcü, qala içindəki sarayı, güzgülü salonu, bəzəkli qoşa məscidləri, iki-üçmərtəbəli binaları, yüksək zövqlə tikilmiş kişi və qadın hamamları, böyük mərmər hovuzu, bəzəkli "Təbriz qapısı" olmuşdu. Ornament motivləri, gül-çiçək rəsmləri, portret təsvirləri, orijinal memarlıq quruluşu və tərtibat zənginliyi ilə Avropa və rus səyyahlarını valeh edən bu tikililər zaman-zaman erməni vandalları tərəfindən dağıdılaraq məhv edilmişdir. 1728-ci ildə İrəvan şəhərində 4 məhəllə - Köhnə şəhər, Dəmirbulaq, Dərəkəndi və Təpəbaşı adlı məhəllələr olmuşdur. XVIII əsrə qədər xanlığın paytaxtı İrəvanda səkkiz məscid var idi. İkisi qalanın içərisində, qalan altısı isə - Zal xan, Novruzəli xan, Sərtib xan, Hüseynəli xan, Hacı İmamverdi və Hacı Cəfər bəyin məscidləri İrəvanın şəhərətrafı kəndlərində yerləşirdi. Məscidlərdən müəyyən məsafədə, İslam ənənələrinə uyğun olaraq, səkkiz hamam: qadın və kişilərin yuyunması üçün tikilmişdi. Hər hamam binası şərq üslubunda hündür günbəzlərlə tamamlanırdı. Memarlığı və gözəlliyi ilə bənzərsiz olan bu hamamlar: Şəhri, Şeyxülislam hamamı, Mehdi bəy hamamı, Hacı Bəyim hamamı, Təpəbaşı hamamı, Hacı Əli hamamı, Hacı Fətəli hamamı və Kərim bəy hamamı adlandırılırdı. İrəvan xanlığının ümumi ərazisi 13.114 kv. verst, Pəmbək və Şörəyil istisna olmaqla, əhalisi 17 min ailədən ibarət olmuşdur. Şopenin məlumatlarına əsasən İran və Türkiyədən köçürülən erməni əhalinin sayı təxminən 115.155 nəfərdən ibarət olmuşdur. Dubrovin göstərir ki, "erməni vilayəti"ndə ermənilərin sayı 1827-ci il və 1829-cu il müharibələrindən sonra İran və Türkiyədən köçürülənlərin hesabına artmışdı. Məqalədə Qərbi Azərbaycan torpaqları və İrəvan qalasının memarlığı haqqında məlumat veriləcək. İrəvan qalasının ruslar tərəfindən alınması, ərazidə ermənilərin yerləşdirilməsi və zamanla da Azərbaycan torpaqlarından azərbaycanlıların köçürülməsi, tarixi abidələrimizə qarşı aparılan vandalizmdən bəhs ediləcək.

Açar sözlər: *Qərbi Azərbaycan, tarixi abidələr, İrəvan qalası, məhəllə, saray, məscid, hamam*

Giriş

İrəvan qalası haqqında məlumatlara artıq tarixi mənbələrdə və dövrünün rəssamları tərəfindən çəkilmiş əsərlərdə rast gəlirik. Qala erməni arxeoloq, tarixçi və memarların araşdırmalarında birtərəfli tədqiq edilsə də, arxiv materiallarında və tarixi mənbələrdə qalanın nə məqsədlə, nə zaman tikilməsi haqqında çoxlu məlumatlar mövcuddur. İrəvan qalası çar Rusiyası qoşunları tərəfindən alındıqdan sonra, zamanla xarici ölkələrdən ermənilər köçürülərək əraziyə yerləşdirilmişdir. Sovetlər dövrü ərazidə "Ermənistan Respublikası" yaradılmış və ermənilərlə havadarlarının dəstəyi ilə Azərbaycan torpaqları hissə-hissə zəbt edilərək, ərazidə ermənilər yerləşdirilmiş, yerli sakinlər olan azərbaycanlılar (1905-1906; 1918-1920; 1948-1953; 1988-1991) öz torpaqlarından deportasiya edilmişdir.






İrəvan xanlığı. 1747-1827.

1. Qırxbulaq mahalı; 2. Zəngibasar mahalı; 3. Gərnibasar mahalı; 4. Vedibasar mahalı; 5. Şərur mahalı; 6. Sürməli mahalı; 7. Dərəkənd mahalı; 8. Saatlı mahalı; 9. Talın mahalı; 10. Seyidli-axsaxlı mahalı; 11. Sərdarabad mahalı; 12. Kərpibasar mahalı; 13. Abaran mahalı; 14. Dərəçiçək mahalı; 15. Göyçə mahalı.

XVI əsrdən XVIII əsrin I rübü də daxil olmaqla, İrəvan əyaləti sabit sərhədlərə malik olmuşdur. Azərbaycan Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Çuxur Səəd bəylərbəyliyi Arazın hər iki sahilindəki düzənlikləri əhatə edirdisə [15, s.78], İrəvan əyalətinin daha çox hissəsi Arazın sol sahilində yerləşirdi [5, s.42]. 1590-cı il tarixli müfəssəl dəftərə əsasən Çuxur Səəd bəylərbəyliyinin ərazisi İrəvan və Naxçıvan livalarına bölünmüşdü. İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Körpü, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərabxana [5, s.41]. 1728-ci il tarixli müfəssəl dəftərə görə, İrəvan əyalətinə İrəvan şəhərindən başqa, Qırxbulaq, Körpü, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Dərələyəz, Mərəzə, Sürməli, İqdır, Aralık, Şərur nahiyələri daxil idi [7, s.35-74].

İ.Şopenin 1829-1832-ci illərdə İrəvan xanlığının təsvirini tərtib edərkən yazdığı rəqəmlərə əsasən, İrəvan şəhərində 5.338 nəfər müsəlman, 6.125 nəfər isə erməni qeydə alınmışdı. Təbii ki, bu dövrdə İrəvan şəhərində ermənilərin sayının çox olması onların Ədirnə müqaviləsindən sonra buraya köçürülməsi ilə bağlı olmuşdur. Əgər hər ailədə orta hesabla 5 nəfərin olduğunu götürsək, onda İrəvan şəhərində 8680 nəfərin [18, c.468] olduğunu güman etmiş olarıq ki, bu da Şopenin yuxarıda göstərdiyimiz rəqəmləri ilə ziddiyyət təşkil edir. İrəvan xanlığında 521 kəndin [18, c.509] olduğunu yazan İ.Şopen azərbaycanlıların yaşadığı 153 kəndi qeydə almamışdır [5, s.77]. İrəvan xanlığının ümumi ərazisi 13.114 kv.verst [13, c.22], Pəmbək və Şörəyil istisna olmaqla, əhalisi 17 min ailədən ibarət olmuşdur. Şopenin yuxarıda göstərdiyimiz məlumatlarına [18, c.636-638] əsasən, İran və Türkiyədən köçürülən erməni əhalinin sayı təxminən 115.155 nəfərdən ibarət olmuşdur [9, s.13-14]. Nazim Mustafanın araşdırmalarında isə XVIII əsrdə İrəvan xanlığının ərazisi 23,8 min kv.km olmuşdur [11, s.6].

Tarixin səhifələrini vərəqləsək, əslində ermənilərin İrəvan xanlığı ərazisinə köçürülməsi və burada sayların süni şəkildə artırılması tarixi bir qədər də əvvəllərə gedib çıxır. Belə ki, Azərbaycanın bu bölgəsində ermənilərin varid alması hələ 1441-ci ilə aid edilir. Həmin ildə erməni katolikosluğu ermənilərin Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə - Üçkilsəyə köçürülməsini həyata keçirmişdir [5, s.71]. Erməni katolikosluğu XVI-XVII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri dövründə də Azərbaycan türklərinin öz doğma torpaqlarını tərk etməsindən məharətlə istifadə edərək, burada ermənilərin sayını artırmaq üçün əllərindən gələni edirdi [5, s.74]. 1763-1782-ci illərdə Eçmiədzin katolikosu olmuş Simeon Erevansi "Cambr" əsərində katolikosluğun Kilikiyanın Sis şəhərindən Üçkilsəyə (Eçmiədzinə) köçürülməsi prosesini ətraflı təsvir etmişdir [11, s.17].





İrəvan qalasının 1827-ci ildə işlənmiş xəritəsi və təsviri

1647-ci ildə Azərbaycanda olmuş Övliya Çələbi "Səyahətnamə"sində İrəvanda 2060 ev, 1673-cü ildə İrəvan əyalətinin ərazisindən keçən J.Şarden isə bu illərdə İrəvan qalasında təxminən səkkiz yüz ev – təqribən 4000 nəfərin olduğunu və sakinlərin hamısının "təmizqanlı səfəvilər" olduğunu yazırdılar [7, s.14]. 1813-cü ildə İrəvanda olmuş ingilis diplomatı Ceyms Moryer İrəvan xanlığının əhalisinin 100 min nəfər olduğunu və bunların 25 min nəfərinin yaylaq-qışlaq təssərüfatı ilə məşğul olduğunu qeyd edir [5, s.75]. Məhəmmədhəsən Vəlili xanlıqda 115000 nəfər əhalinin yaşadığını yazırdı ki, bu da Şopenin verdiyi statistik məlumata, yəni Türkiyə və İrandan köçürülən ermənilərin sayına yaxındır [19, s.23]. Şopenin digər məlumatına görə, "İrəvan xanlığında yaşayış olan 521 kəndən 310-u dağıdılmışdı" [5, s.77]. Bu kəndlər dağıdılarkən azərbaycanlılardan olan əhali çarizmin etnik təmizləmə siyasəti nəticəsində kəndləri tərk etmişdi. İrəvan xanlığının sərhəd kəndlərində əhalinin əsas hissəsini müsəlmanlar təşkil edirdi [13, s.22]. Dubrovin göstərir ki, "erməni vilayəti"ndə ermənilərin sayı 1827-ci il və 1829-cu il müharibələrindən sonra İran və Türkiyədən köçürülənlərin hesabına artmışdı [18, c.636-638].






İrəvan şəhəri. Rəssam J.Şarden. 1673-cü il

İrəvan şəhəri. 1673-cü il. Rəssam J.Şarden.

İrəvan qalasının ruslar tərəfindən alınması və ermənilərin İran və Türkiyədən İrəvan xanlığına köçürülməsi siyasəti və qalanın tikililəri dövrünün rəssamları – F.Rubo (1827), rəssam V.Moşkov (1828, İrəvan qalası, Sərdar məscidi, ticarət mərkəzi-bazar), rəssam Dübua de Monpere (1843, Sərdar məscidi (Abbas Mirzə məscidi)), rəssam J.Tavernya (1655, İrəvan şəhəri), rəssam Qriqori Qriqoryeviç Qaqarinin (1840-1850, İrəvan sərdarının sarayında güzgülü zal), rəssam Vander Burx, qravüraçı Devillires (1838, İrəvanda məqbərə), fotoqraf Lord Kerzon (1896, Sərdar məscidi, foto) və b. əsərlərində yer alır.



İrəvan qalasının alınması. 1827. Rəssam F.Rubo



İrəvanın alınması. Rəssam V.Moşkov






Rəssamlar tərəfindən çəkilmiş "İrəvan qalası"nın alınması səhnələri. İrandan köçürülmüş 40.000 ermənin ruslar tərəfindən (İrəvan, Naxçıvan və Qarabağa) ərazidə yerləşdirilməsi təsvirləri.

İrəvan qalasının ruslar tərəfindən alınmasında vaxtilə qala ərazisində yerləşmiş ermənilərin böyük rolu olmuşdur. Bir sıra erməni tarixçiləri kimi Mersisyan da İrəvan xanlığının işğalını "Şərqi Ermənistan"ın azadlığı kimi dəyərləndirir [12, c.67]. Paskeviçin əmri ilə 1827-ci il oktyabrın 2-də İrəvan qalasının işğalı ilə bağlı rus qoşunlarının "qələbə" paradı keçirildi. Parad zamanı İrəvan qalasının qala divarlarının bir hissəsi uçaraq çoxlu sayda rus əsgəri məhv oldu.

V.Potto hadisənin şahidi olan bir nəfərin dediklərini olduğu kimi yazırdı: "Mən qalanın cənub-şərq küncünə çatarkən divar və bürclərin dağıntısına təəccübləndim. Mənə elə gəldi ki, mühasirə artilleriyasının dörd gündə etdiyini çərxi-fələk dörd əsirdə belə edə bilməmişdi" [14, c. 516-517]. Beləliklə, müharibəyə hazırlaşan Rusiya İrəvan qalasını ələ keçirmək üçün bütün vasitələrdən istifadə etdi. Kiçik bir xanlıq böyük bir imperiyaya qarşı savaşda tək qaldı və dövrünə görə müasir silahlarla təhciz olunmuş imperiya ordusuna məğlub oldu. Amma bu məğlubiyyətin mühüm səbəblərindən biri də qalada və ətrafda yeni məskunlaşmış ermənilərin xəyanəti idi. Çar Rusiyası Cənubi Qafqazda özünə etnik dayaq yaratmaq üçün qonşu ölkələrdən ermənilər işğal etdiyi Azərbaycan torpaqlarına-İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürülməsi ilə Qafqazın etnosiyasi xəritəsi dəyişir və ermənilər əsas faktora çevrilir [14, c.519].

1828-ci il fevralın 10 (22)-da Cənubi Azərbaycanda, Təbriz yaxınlığında Türkmənçay kəndində Rusiya ilə İran müharibələrinin sonu olaraq sülh müqaviləsi imzalandı. Bu müqavilənin bağlanması ilə həmin dövlətlər arasında 1813-cü il 12 oktyabr tarixli Gülüstan müqaviləsi qüvvədən düşmüş hesab olundu. Üçüncü maddədə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya ilhaqı təsdiqləndi. I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının əsasında "Erməni vilayəti" yaradıldı [4, c.86]. İrəvan vilayəti 1828-ci ilə qədər 80 faiz müsəlmanlardan ibarət olmuşdur. Paskeviç hələ o dövrdə yazmışdır ki, İrəvan vilayətində 10 min müsəlman ailəsi, 3 min erməni ailəsi yaşayır [17, s.134]. 1827-ci il ərzində İrəvan xanlığını tərk edən müsəlmanların sayı 8700 ailə olmuş, əvəzində 10708 erməni ailəsi İran və Türkiyədən İrəvan əyalətinə köçürülmüşdü. Ermənilərin rusiyanın işğal etdiyi torpaqlara köçürülməsində və İranda onların maraqlarının müdafiəsində A.Qriboyedov əsas rol oynamışdı [9, s.24-25].



Ermənilərin Türkiyə və İran ərazisindən Azərbaycan torpaqlarına köçürülüb gətirilmə istiqamətləri.

Rusların ermənіləri İrəvan əyalətinə köçürülməsi ilə müsəlman əhalinin öz dədə-baba torpaqlarından deportasiya olunması da genişləndi. 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhali 313, 176 nəfər olduğu halda, 10 ildən sonra, yəni 1907-ci ildə 302,965 nəfər qalmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə İrəvan quberniyasında əhalinin 10 illik təbii atrımından 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdi. Ermənilər İrəvan əyalətilə yanaşı, Azərbaycanın Gəncə şəhərində, Naxçıvan bölgəsində, Cəbrayıl-Qaryakin bölgəsində, Şuşada, Cavanşir və Qazax qəzalarında, Tiflis, Bakı şəhərlərində də dinc əhaliyə hücum edərək qırğınlar törətmişlər. Erməni müəllifi S.Zavaryanın verdiyi məlumata görə, həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmi 75 kənd) müsəlman kəndi dağıdılmışdır [21, s.61].

1896-cı ildə Cənub Qafqazda 900 min erməni yaşadığı halda, 1908-ci ildə 1301 min erməni yaşamışdır. 1914-1916-cı illərdə Cənubi Qafqaza daha 350 min erməni Türkiyədən gəlib yerləşmişdi ki, onlarında bir qismi İrəvanda məskunlaşdıqdan sonra azərbaycanlıların vəziyyəti daha da ağırlaşmışdı. 1918-1920-ci illərdə daşnak hökumətinin hakimiyyəti dövründə İrəvan şəhərində azərbaycanlılara qarşı əsl soyqırım törədilmişdi. Şəhərdə tək-tük azərbaycanlı qalmışdı [11, s.36].

Ermənistanda (Qərbi Azərbaycan) sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlıların az bir qismi öz evlərinə qayıda bilmişdi. 1922-ci ildə İrəvanda cəmisi 5124 azərbaycanlı yaşadığı halda, ermənilərin sayı 40396 nəfərə çatmışdı. İrəvan şəhərində 1926-cı ildə 4968 nəfər azərbaycanlı, 57.295 nəfər erməni, 1931-ci ildə 5620 nəfər azərbaycanlı, 80327 nəfər erməni yaşayırdı [11, s.36].

1936-cı ildə əhalinin sayı 200 min nəfərə çatan İrəvanda azərbaycanlılar 3,3 faiz (6569 nəfər) təşkil edirdi. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi Haqqında" qərarı kənd yerlərində yaşayan əhaliyə şamil olmasına baxmayaraq, Ermənistan rəhbərliyi İrəvan şəhərində yaşayan azərbaycanlıların da əksəriyyətinin deportasiya edilməsinə nail olmuşdular. 1959-cu ildə siyahıyaalma zamanı təqribən yarım milyon əhalisi olan İrəvanda cəmisi 3413 nəfər (0,7%) azərbaycanlı qeydə alınmışdı. Halbuki 1939-cu ildən ötən 20 il ərzində təbii artımla İrəvanda yaşayan azərbaycanlıların sayı 10 min nəfəri ötməli idi. 1970-ci il statistikasına görə, İrəvan şəhərində 775028 nəfər yaşamışdır ki, onlardan 2721 nəfərini azərbaycanlılar (0,4 %), 738045 nəfərini ermənilər (95, 2%), 21 802 nəfərini ruslar (2,8%) təşkil etmişdir. Şəhərdə siyahıya alınan 2721 nəfər azərbaycanlının 1662 nəfərinin kişi, 1059 nəfərinin qadın olduğu göstərilib. Kişilərlə qadınlar arasında təqribən 36% fərq olması sıyahıyaalınmanın düzgün keçirilmədiyini göstərir [11, s.38].

1979-cu ildə keçirilən siyahıyaalma zamanı əhalinin sayı 1017289 nəfər olan İrəvan şəhərində azərbaycanlılar 2341 nəfər (0,2%), ermənilər 974176 nəfər (95 %), ruslar 26. 141 nəfər (2,6 %) təşkil etmişdi [11, s.38]

İllər üzrə siyahıya almaya diqqət yetirsək Qərbi Azərbaycanda, eləcə də İrəvan şəhərində azərbaycanlıların sayının azaldığını görürük. Bununla kifayətlənməyən ermənilər 1920-ci ildə sovet hakimiyyətinin qurulmasından sonra Azərbaycanın paytaxtı Bakı şəhərinə və bölgələrinə axını sürətlənmiş, 1970-ci ildə 207.5 min nəfərə, 1979-cu ildə 215.8 min nəfərə çatmışdır. 1914-cü ildəki 9281 nəfər daimi yaşayanlara nisbətən müvafiq surətdə 22, 3 dəfə və 23,3 dəfə artım olmuşdu. Bakıda yaşayan ermənilər

1914-cü ildəki 6.7 faizdən artaraq, 1979-cu ildə 14, 1 faizə çatmışdı [11, s.39].

Erməni vandalları iki əsr bir müddətdə dinc əhalini qətlə yetirməklə kifayətlənməmiş, müsəlmanların yaşadıqları kənd və şəhərləri, məhəllələri, tarixi abidələri dağıdaraq yer üzündən silməyə çalışmışlar. Şəhərin yalnız dövrünün rəssam və fotoqrafları tərəfindən çəkilmiş rəsmləri və fotoları qalmışdır. Vaxtilə Qərbi Azərbaycanın mərkəzi şəhəri olan İrəvan öz memarlığı ilə buraya gələn səyyahları heyran qoymuşdu. İrəvan qalası, onun divarları və bir sıra tikililəri rus əsgərlərinin hücümları zamanı dağıdılmış, qalanın qalıqları və ərazisində yerləşən məhəllələr, məhəllə evləri şəhərsalma planlaşması adı altında zamanla ermənilər tərəfindən sökülərək, burada yerləşən monumental binalar-saray kompleksi, Sərdar məscidi, karvansaralar, hamamlar tamamilə yox edilmişdir.


İrəvan qalasının memarlığı. Qaraqoyunluların (1410-1467) və Ağqoyunluların (1467-1503) hökmranlığı dövründə İrəvan coğrafi mövqeyinə və yerli şəraitinə görə Çuxur Səəd bəylərbəyliyinin inzibati mərkəzi olub. Evliya Çələbi İrəvanı yaşayış məntəqəsi kimi, XV əsrin əvvəllərinə aid edir. Onun yazdığına görə, hicri təqvimi ilə 810-cu ildə (1407-1408) Əmir Teymurun tacirlərindən Xacə xan Ləhicani adlı tacir çox münbit Rəvan torpağına qədəm qoymuş, öz ailə üzvləri ilə burda sakin olmuş və düyü əkini hesabına gündən-günə varlanaraq bu böyük kəndin əsasını qoymuşdur. Evliya Çələbi daha sonra əlavə edir ki, Səfəvilər dövlətinin başçısı şah İsmayıl hicri 915-ci ildə (1509-1510) qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş vermiş, o da öz növbəsində 7 ilə qalanı tikdirərək adını "Rəvan" qoymuşdur [11, s.22].

1503-cü ildə I Şah İsmayıl Almaqulağı döyüşündə Ağqoyunluları məğlub edəndən sonra Səfəvilər dövlətinin torpaqları Şərqdə Şeybani xanın Özbək dövləti ilə, Qərbdə isə Osmanlı Türkiyəsi ilə həmsərhəd olmaqla Amu-Dəryadan Fərat çayına qədər böyük bir ərazini əhatə etmişdi [22, s.5]. Səfəvilər dövləti Şərqdə və Qərbdə öz torpaqlarını qorumaq, möhkəmləndirmək məqsədilə bir sıra tədbirlər görməyə başladı. Bu tədbirlərdən biri də İrəvan qalasını möhkəmləndirmək idi. Evliya Çələbinin də yazdığı kimi, İrəvan qalası Səfəvi hökmdarı I Şah İsmayılın tapşırığı ilə, vəziri Rəvanqulu xan tərəfindən Zəngiçayın sahilində, indiki İrəvan şəhərinin yerində inşa edilmişdir. Səfəvilər dövlətinin sərhədlərini xarici basqınlardan qorumalı olan qala onu tikdirənin adı ilə Rəvan qalası adlandırılmışdır. Tarixi mənbələrə görə isə burada yalnız azərbaycanlı türkləri yaşayıb.

Osmanlıların 1575-1580-ci illərdə bölgəyə gəldikləri illərdə salnaməçilər Rəvandan (İrəvandan) qəsəbə kimi bəhs edirlər. Görünür, XV əsrin əvvəllərində hələ İrəvan şəhər kimi formalaşmamışdı [11, s.22].

Abbasqulu ağa Bakıxanov yazır ki, Şah İsmayıl yerli hakimləri gücləndirmək məqsədilə Bayat tayfasını İraqdan köçürərək bir hissəsini İrəvanda, bir hissəsini də Dərbənd və Şabranda yerləşdirmişdi [11, s.23]. Bəzi tədqiqatçılar İrəvan şəhərinin və qalasının salınması tarixçəsi ilə bağlı Evliyə Çələbinin fikirləri ilə razılaşsa da, bəzi tədqiqatçılar İrəvan şəhərinin tarixinin daha qədim olduğunu bildirirlər.

1. 

2. 


1. İrəvan şəhəri. Rəssam J.Tavernya. 1655-ci il.
2. Zəngi çayı sahilində salınmış Xan bağındakı Yay köşkü. İrəvan. 1578-ci il.

İrəvan Qaraqoyunlu və Ağqoyunlular dövründə Çuxur Səəd vilayətinin inzibati mərkəzi olarkən burada vilayət hakimləri üçün saray mövcud olması haqqında çox geniş məlumat olmasa da, belə iqamətgahlar haqqında ilk məlumat II Şah İsmayılın qardaşı kor Məhəmməd Xudabəndənin dövrünə (1578-1587) təsadüf edir. Onun dövründə şəhər torpaqlarını suvarmaq üçün iri bir gölün, "Toxmaq" gölü"nün yaradılması (indi S.Şaumyanın adını daşıyır), yeni arxların çəkilməsi ilə yanaşı, 1578-ci ildə İrəvanda gözəl bir bağın salınması, xan imarətinin tikilməsi haqqında bir sıra mənbələrdə məlumat verilir [22, s.6].

Xudabəndənin oğlu I Şah Abbas dövründə İrəvan hakimi Əmirqunə xan Qacar (1605-1625) tərəfindən

xan imarəti yenidən ucaldılır, şəhər qalası daha da genişləndirilir, yenidən qurulub möhkəmləndirilir.

İrəvan qalası öz memarlığı ilə orta əsr Azərbaycan qalalarının oxşarıdır, – desək, yanılmarıq. Strateji cəhətdən yerləşdiyi ərazinin landşaft quruluşuna və tikinti materialına görə eynilik təşkil edir. Öz dövrünün yüksək memarlıq, bədii sənətkarlıq nümunəsi olan qalanın 50-60 bürcü, qala içindəki sarayı, güzgülü salonu, qoşa məscidləri, iki-üçmərtəbəli binaları, yüksək zövqlə tikilmiş kişi və qadın hamamları, böyük mərmər hovuzu, bəzəkli "Təbriz qapısı" olmuşdur. Sarayın ornament motivləri, gül-çiçək rəsmləri, portret təsvirləri, orijinal memarlıq quruluşu və tərtibat zənginliyi Avropa və rus səyyahlarını valeh edirmiş. N.Əhmədli də İrəvan şəhərinin tarixindən bəhs edərkən digər materiallarada istinad edərək yazır ki, İrəvan şəhəri iki hissəyə İçərişəhər (qala) və bayır şəhər hissəsinə bölünmüşdür. Zəngi çayının sol sahilində salınmış qala sıldırımda tikilmiş iki hündür divarla əhatə olunmuşdu. Qalanın iki qapısı vardı: şimalda məşhur Şirvan qapısı, cənubda isə Təbriz qapısı. Mühasirə zamanı sudan istifadə etmək üçün qaladan Zəngi çayına çıxış da var idi [6, s.9]. Lakin 1679-cu ildə zəlzələ İrəvan şəhərində böyük dağıntılar törədir. İrəvanın yeni hakimi təyin olunmuş Zal xanı təbrik etmək üçün zəlzələdən bir qədər əvvəl buraya gəlmiş Əylisli Zəkəriyyə həmin hadisəni belə qələmə almışdır: "...Məscidlər, karvansaralar, qala yerlə-yeksan oldu, körpülər yatdı, sular batdı, ölən qalandan çox oldu. Ətrafda it-pişik də gözə dəymirdi. Abbasqulu xanın kürəkəni Zal xan çapar göndərib bu sitəm haqqında dörd yana xəbər yaydı. Gəncədən 800 adam gəldi. Məhəmməd xan Naxçıvandan böyük bir dəstə gətirdi. Bərdədən, Zəyəmdən, Makudan, Təbrizdən, qonşu xanlıqlar və sultanlıqlardan o qədər adam gəlmişdi ki, qala ətrafında tərpənməyə yer yox idi. Azərbaycan vəziri Mirzə İbrahim Təbrizdən gəlib İrəvanda əyləşdi. Qala yenidən ucaldı, daha möhkəm oldu, arxlar çəkildi, körpülər salındı, məscidləri, karvansaraları yenidən tikdilər. Şəhər dirçəldi, əhali bərpa olunmuş evlərə qayıtmağa başladı" [22, s.4].



İrəvan qalasının Zəngi çayı tərəfdən görünüşü. Zəngi çayın sahilində yerləşən dəyirmanlar (1891-ci il)

XVII əsrin 50-ci illərinin ortalarında İrəvanda olmuş fransız səyyahı Jean-Bartiste Tavarnier İrəvan şəhərini təsvir edərkən yazırdı: "İçərişəhərdə yalnız xan özü, ordu başçıları və hərbçilər yaşayırdılar. Xanın imarəti çaya baxır. Xan çox güclüdür və onun hər zaman sərhədi qorumağa qadir ordusu vardır. Şimal-qərb hissəsində yerləşən bayır şəhərdə yaşayış İçərişəhərdən 20 dəfə çoxdur" [24, s. 2].

1728-ci ildə Osmanlı dövlət məmurları tərəfindən tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə, bu dövrdə İrəvan şəhəri 4 məhəllədən-Köhnə şəhər, Dəmirbulaq, Dərəkənd və Təpəbaşı məhəllələrindən ibarət idi [7, s.19-20]. XVIII əsrin II yarısında keçmiş Çuxur Səəd bəylərbəyliyinin ərazisində yaranmış Azərbaycan dövlətlərindən birinin-İrəvan xanlığının paytaxtı İrəvan şəhəri idi. Müstəqil xanlığın mərkəzi olduqdan sonra İrəvan şəhəri daha da inkişaf etmiş, böyük ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdi [22, s.13].

Müxtəlif dövrlərdə İrəvan şəhərində olmuş səyyahlar onun haqqında maraqlı məlumatlar vermişlər. XVII əsrdə fransız səyyahı J.Şarden İrəvan qalasını təsvir edərkən onun divarının uzunluğunun 4000 addım olduğunu, qalada 800 evin olduğunu qeyd etmişdir. Səyyahın dediyinə görə, qalanın əhalisi yalnız azərbaycanlılardan ibarət olub, ermənilər bura yalnız iş məqsədilə gəlirmiş. İrəvan qalasında bir neçə erməni dükanı olub. Ermənilər gündüzlər şəhərdə ticarətlə məşğul olaraq axşamlar isə çıxıb gedirmiş [11, s.8-9]. Qaladakı tikililər şərq şəhərsalma üslubu üçün xarakterik idi: həyət və evlər baxışı mümkünsüz olan hündür dar divarların kəsişdiyi dar küçələrə açılırdı. Həyətlərin qapıları çox dar və kiçik idi. Digər mənbələrin birində

isə şəhər belə təsvir edilir: "Şəhərin böyük hissəsi bağlardan və üzümlüklərdən ibarətdir. Qala, hər tərəfdən dağlarla əhatə edilmiş düzənlikdə yerləşir. Şimal-qərb tərəfdən Zəngi, cənub-qərb tərəfdən isə Qırxbulaq çayları axır. Orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar. Qalanın müdafiəsi üçün iki min əsgər ayrılıb. Hakimin sarayı qalanın içərisindədir. Şəhərdə və qalada çoxlu hamam və karvansaralar var" [24, s.6].



Qalanın qərb divarı strateji cəhətdən əlverişli yerdə yerləşərək Zəngiçay çayının sağ sahilində sıldırım qayaya söykənirdi. İrəvan qalası çayın hündür sahili boyunca uzanan qərb divarının tağlı forması istisna olmaqla, demək olar ki, dördbucaqlı formaya malik idi. Divarlar daş və çiy kərpicdən hörülmüşdü. Xarici divar təxminən 12 arşın hündürlüyündə idi. Bəzi mənbələrə görə qalanın 17 qülləsi olub. Xarici divardan 50-60 metr aralı olan daxili divar daha hündür olub, yarımdairəvi formaya malik bir neçə bürcdən ibarət idi. Düşmən xarici divarı aşmaq istəyərkən iki cərgə divar arasında dar boşluğa düşürdülərki, bu da onların manevr etmələrini çətinləşdirdi. Qalanın iki əsas qapısı var idi: cənub tərəf Təbriz və şimal Şirvan. Üçüncü gizli qapı isə Zəngiçaya və körpüyə aparırdı ki, bu qapıda Körpü adlanırdı. Darvazalar qalın dirəklərdən düzəldilərək dəmir təbəqələrlə üzlənmişdi. Qala qapıları çöl divarda xüsusi otaqlarda yerləşən mühafizəçilər tərəfindən qorunurdu. Hər üç darvazanın yaxınlığında qalanın xarici və daxili divarları ara divarlarla birləşirdi. Qeyd etmək lazımdır ki, İrəvan qalasının divarları çox güclü idi və top mərmilərinin zərbələrinə tab gətirə bilirdi. Qalanın gizli su ehtiyatı var idi ki, bu da döyüşçülərin uzun mühasirəyə tab gətirməsinə imkan verirdi. Növbəti hücumların biri zamanı rus qoşunları su anbarını aşkar edərək onu məhv etmişlər. İrəvan qalasının ətrafında düşmən hücumlarını ciddi şəkildə çətinləşdirən iki gölməçə qazılmışdı. Qalanın şimal qapılarının yaxınlığında Yuxarı gölməçə adlanan göl var idi ki, bura su Qırxbulaq çayından gilli axar vasitəsilə verilirdi. Artıq su digər gil axarla aşağı gölməçəyə axırdı. Yuxarı gölməçə torpağa basdırılmış iti uclu ağac dirəklərlə əhatələnərək hasara alınmışdı [24, s.6].

Qala daxilindəki tarixi-memarlıq abidələri Şərq memarlıq üslubunda inşa edilmişdi. Səyyahlar və səlnaməçilər öz əsərlərində İrəvanı tipik müsəlman şəhəri kimi təsvir etmişlər. İrəvan qalasında və şəhərdə nadir memarlıq inciləri hesab edilən məscidlər, karvansaralar, hamamlar, istirahət yerləri inşa edilmişdi. Şəhərə Qırxbulaq yaylasından içməli su çəkilmiş, yeni suvarma kanalları sayəsində İrəvan bağlar diyarına çevrilmişdir. İrəvan şəhəri 4 massivdən ibarət olmuşdur: Qala (İçərişəhər), Şəhri (yaxud Köhnə şəhər), Təpəbaşı (hazırda Kond adlanır) və Dəmirbulaq (hazırda Karamki Tağ adlanır) massivləri. Qala ilə digər yaşayış massivləri arasında Bazar meydanı yerləşirdi. Şəhri məhəlləsi Qırxbulaq çayının sağ sahili ilə İrəvan qalasına kimi uzanırdı. Şəhərin mərkəzi bazarı və bütün meydanları, bir çox karvansaraları və hamamları bu hissədə yerləşirdi. Təpəbaşı məhəlləsi Zəngi çayı ilə Şəhri məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi. Təpəbaşı məhəlləsini Şəhri məhəlləsindən İrəvanın adlı-sanlı adamlarının çoxsaylı bağları ayırırdı. Hüseynqulu xana məxsus məşhur Xan bağı və yay köşkü Zəngi çayının sağ sahilində yerləşirdi. Dəmirbulaq məhəlləsi Şəhri məhəlləsindən cənub-şərqdə, İrəvan qalasının şərqində yerləşirdi. Cəfər bəy məscidi və hamamı, Həsənəli hamamı və Susuz karvansarası da burada yerləşirdi [11, s.26]. Şəhərin mərkəzi hissəsində Böyük Meydan adlanan 400x400 metr ölçüdə meydan yerləşirdi. Digər meydanlar Xan bağı, Zal xan, Hüseynəli xan, Fəhlə bazarı meydanı adlanırdı. Pənah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək Pənah xan meydanı və yaxud Pənah xan bulvarı adlanırdı. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim (sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı), Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. Hazırda İrəvanın mərkəzindəki "Respublika" meydanının yerləşdiyi yerdə vaxtilə mövcud olan Zal xan hamam kompleksində yeraltı çayxana ilə yanaşı, musiqili məclislərin keçirilməsi üçün xüsusi otaqlar ayrılmışdı. XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. [16, c.286-288]. Bağlar diyarı İrəvanda və onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, onlardan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbasdərəsi, Abuhəyat, Keşağlı, Qızqala, Dərə bağı, Səvzikəri, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan, Kərpicxana bağlarının adsanı İrəvandan çox-çox uzaqlara yayılmışdı. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş şəkildə Avropaya ixrac edilirdi. Şəhərdə və onun ətrafında 45 dəyirman mövcud idi. Azərbaycanlılara məxsus Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan, Doqquz dəyirmanlar şəhərin ən böyük dəyirmanları olmuşdur. Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin adı çəkilir. Göy məscid (yaxud Hüseynəli xan), Təpəbaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib xan, Hacı İmam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi. Bu məscidlərin içərisində ən əzəmətlisi isə Hüseynəli xan və Göy məscid idi. Məscidlərdən müəyyən məsafədə, İslam ənənələrinə uyğun olaraq, səkkiz hamam:-qadın və

kişilərin yuyunması üçün tikilmişdi. Hər hamam binası şərq üslubunda hündür günbəzlərlə tamamlanırdı. Memarlığı və gözəlliyi ilə bənzərsiz olan bu hamamlar: Şəhri, Şeyxülislam hamamı, Mehdi bəy hamamı, Hacı Bəyim hamamı, Təpəbaşı hamamı, Hacı Əli hamamı, Qacar və Hacı Fətəli hamamı və Kərim bəy hamamı adlandırılırdı [22, s.13].

Orta əsrlərdən etibarən İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanlarıda salınmışdı. Daşdan inşa edilmiş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən olmuşdur. XIX əsrin əvvəllərində İrəvanda 7 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Avşar, Tahir, Sulu, Susuz, Hacı Əli karvansaralarıda üst-üstə 851 köşk mövcud olmuşdur [22, s.13]. Azərbaycanlılara məxsus bu karvansaraların hamısı yer üzündən silinmişdir.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Cənubi Qafqazın ən böyük məscidi olan Göy məsciddə İrəvan şəhərinin Tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidinin mədrəsəsi rəssamların sərgi salonuna çevrilmişdi. Yalnız Dəmirbulaq məscidi və Göy məscid 1988-ci ilədək qalmışdır. Hazırda Dəmirbulaq məscidi yer üzündən silinərək, yerində hündürmərtəbəli binalar ucaldılmış, Hüseynəli xan tərəfindən XVIII əsrin ikinci yarısında tikilmiş Göy məscid İran mütəxəssisləri tərəfindən bərpa edildikdən sonra "Fars məscidi" kimi təbliğ edilir [10, s.3].

1  2. 

1. İrəvanda karvansara. Rəssam Q.Qaqarin. *2. İrəvanda Bazar meydanı. 1914-cü il.*

İrəvanın dövrümüzədək gəlib çatmayan memarlıq və təsviri sənət örnəkləri haqqında məlumatların çoxu zəlzələdən sonrakı illərə aiddir. 1679-cu il zəlzələsindən sonra tamamilə dağılan İrəvan qalası və o cümlədən, Xan sarayı Zal xan (1679-1688) tərəfindən yenidən bərpa edilmişdir. İrəvan qalasının Osmanlı hakimiyyəti altına keçdiyi dövrdə Rəcəb paşa (1725-1728) tərəfindən İrəvan qalasındakı saray kompleksində xeyli quruculuq və abadlıq işləri həyata keçirilmişdir. Hüseynəli xanın və oğlu Məhəmməd xanın (1784-1805) hakimiyyəti dövrləri İrəvan şəhərinin və qalasının çiçəklənmə dövrü hesab edilir. Hüseynəli xan yeni iqamətgah inşa etdirmək üçün dövrün məşhur memarı Mirzə Cəfər Xoylunu İrəvana dəvət etmişdir. XX əsrin əvvəllərinədək İrəvan qalasında mövcudluğunu saxlayan Xan sarayı Mirzə Cəfər Xoylunun rəhbərliyi altında yenidən qurulmuşdur. 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan Qacar Güzgülü salonu və Sərdar bağındakı Yay imarətini inşa etdirmiş, bununla da bu möhtəşəm tikili memarlıq baxımından monumental saray kompleksi kimi tamamlanmışdır. Saray kompleksi 1810-cu ildə Hüseynqulu xanın hakimiyyəti dövründə əsaslı təmir edilmiş və ona bir sıra tikililər əlavə edilmişdir [11, s.22]. Sarayın son bəzək işləri məşhur Azərbaycanlı rəssam Mirzə Qədim İrəvani tərəfindən 1850-ci ildə işlənmişdir [22, s.13]



1.Sərdar sarayı.



2.Güzgülü salon. Rəssam Qriqori Qriqoryeviç Qaqarin




Xan sarayının Güzgülü salonun divarı. 4-5.Güzgülü Rüstəm salonda və Hüseynqulu xan Qacarın portretləri. Rəssam Mirzə Qədim İrəvani. Tiflis İncəsənət muzeyi.

Tanınmış Rusiya yazıçısı və diplomatı Aleksandır Sergeyeviç Qriboyedov Hüseynqulu xanın qonaqları qəbul etdiyi Güzgülü salonu ətraflı təsvir edərək yazır: "Salon döşəməsi bahalı, naxışlı xalçalarla döşənib, tavan və salonun divarları yapon naxışları ilə bəzədilib, bütöv divar boyu yerləşdirilən pəncərə çərçivəsi şəbəkə üslubunda işlənib və onlar rəngli şüşələrlə pərçimlənib, salonun girişi ilə üzbəüz buxarı yerləşdirilib. Qabarıq şəkilli tavan kiçik güzgü parçaları ilə örtülüb və bütün divarlar iki cərgə şəkillərlə bəzədilib" [11, s.22].



Xan sarayının interyeri. Foto H. Linç.




Xan sarayının hərəmxanasının həyəti.
Rəssam Düyuba de Monpere. 1840-cı il





Xan sarayından dövrümüzə qalan daxili divar bəzəkləri. (Foto internet saytından götürülüb)






Göy məscid. İrəvan qalası, 1764-1768-ci il

İrəvan məscidlərinin ən böyüyü sayılan və mərkəzi məscid kimi inşa edilən Göy məscid (1764-1768-ci il) 28 hücrə, kitabxana, ibadətgah və daxili həyətdən ibarətdir. Sovet hakimiyyəti dövründə məscidin 4 minarəsindən 3-ü sökülmüş, bir hissəsi isə məktəb olaraq istifadəyə verilmişdir. Məscid müəyyən dövrlərdə ermənilər tərəfindən yandırılmışdır. 2010-cu ildə məscid binasında yenidən bərpa işləri aparılmışdır. Göy məscidin 24 metrlik minarəsi, 28 köşkü (hücrə), kitabxanası, böyük salonu, günbəzi və həyəti rekonstruksiya edilmişdir. Kompleksdə aparılan bərpa zamanı məscidin xarici görkəminə xeyli müdaxilələr olub. Tikili hazırda "Fars məscidi" kimi təbliğ edilir. Məscidin daxili və xarici divarlarında islam memarlığına xas olan rənglərdən və naxışlardan istifadə edilib, pəncərələri şəbəkə üsulu ilə qurulub.



İrəvan qalasındakı Sərdar (Abbas Mirzə) məscidi. Rəssam Dübua de Monpere. 1843



Sərdar məscidi (Abbas Mirzə məscidi) XVI əsr.

Göy məscidlə yanaşı, vaxtilə öz memarlığı ilə ayrı-ayrı dövrlərdə səyyahların əsərlərində yer alan və Sərdar sarayının yaxınlığında yerləşən Sərdar məscidi (Abbas Mirzə məscidi) İrəvan qalasında yerləşən məscidlərdən biridir. İrəvan qalasının çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərində bu məscidin adı Abbas Mirzə kimi hallandırılır. 1864-cü ildə İrəvan qalasından rus qoşunlarının hərbi-istehkam məqsədilə istifadəsinə son qoyulduqdan sonra qaladakı tarixi memarlıq abidələri, o cümlədən Sərdar, yaxud Abbas Mirzə məscidi ciddi dağıntılara məruz qalmışdır. XX əsrin əvvəllərində Türkiyədən gələn erməni qaçqınları məskunlaşdırılmışdır. Sovet Ermənistanı dövründə isə Sərdar məscidi hissə-hissə sökülmüşdür. Son vaxtlaradək Sərdar məscidinin 2-3 metr hündürlüyündə bir divarının qalığı qalmışdır. Ermənistan hökuməti məscidin qalığını "qorunan tarixi abidələr" siyahısında 2007-ci ildə Avropa Şurasına təqdim etmişdir. Lakin erməni vandalları Sərdar məscidinin "qorunan" divar qalığını da 2014-cü ilin noyabr ayının ortalarında yer üzündən silmişdir [24, s.2].

İrəvan qalasında Sərdar saray kompleksi və Sərdar məscidilə yanaşı, qala ərazisində yerləşən və memarlığı ilə bir çox tədqiqatçıların əsərlərində yer alan Təpəbaşı məhəlləsində Göy məsciddən başqa Hacı İmamverdi məscidi, Qantar bazarı, Hacı Əli karvansaraları, Kərim bəy Murad bəyin oğlunun, Hacı bəyin, Axund Şeyxülislam, Hacı Əli hamamları, Molla Əli Nağı Molla Məhəmməd oğlunun Xan evi kimi tarixi memarlıq abidələri Təpəbaşı məhəlləsinin müsəlman memarlıq obrazı kimi formalaşmasında əhəmiyyətli rola malikdir.

Yuxarıdakı təsvirlərdən aydın olur ki, İrəvan qalası, şəhərin memarlıq-planlaşma həlli, eləcə də tarixi abidələri Azərbaycan memarlığının orta əsrlərə aid ən nadir tikililərindən olmuşdur.

Nəticə

İrəvan xanlığı (Çuxur-Səəd) XVIII əsrin ortalarında Nadir şah imperiyasının süqutundan sonra yaranmış Azərbaycan xanlıqlarından biri idi. İrəvan xanlığının ərazisi 23.8 kv km., əhalisi 17 min ailədən ibarət olmuşdu. XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən işğal olunana qədər İrəvan xanlığının əhalisinin əksəriyyəti Azərbaycan türkləri təşkil edirdi. 1441-ci ildə erməni katolikos mərkəzi İrəvan bölgəsinə (Çuxur Səəd) köçürülənə qədər bu ərazidə ermənilərə məxsus heç bir kənd və ya torpaq sahəsi olmayıb. Şopenin məlumatlarına əsasən, İrəvan xanlığına İran və Türkiyədən köçürülən erməni əhalinin sayı təxminən 115.155 nəfərdən ibarət olmuşdur. Dubrovin göstərir ki, "erməni vilayəti"ndə ermənilərin sayı 1827-ci il və 1829-cu il müharibələrindən sonra da İran və Türkiyədən köçürülənlərin hesabına artmışdı.

1918-ci il mayın 28-də tarixi Azərbaycan torpaqları olan İrəvan xanlığının ərazisində Ermənistan adlı dövlətin yaranmasından sonra orada yaşayan azərbaycanlılar zaman-zaman öz tarixi torpaqlarından deportasiya olunublar. Atalarımızın müxtəlif dövrlərdə bu ərazilərdə inşa etdikləri tikililər, habelə İrəvan şəhərinin əsasını təşkil edən türk-müsəlman evləri, tarixi abidələr də zamanla erməni vandalizminin qurbanına çevrilib. Ermənistanda daşnakların hakimiyyəti dövründən başlamış türk mənşəli adların ermənilşdirilməsi prosesi 1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra da davam etdirilmişdir. 1921-ci il avqustun 30-da Sovet Ermənistanı Xalq Komissarları Sovetinin qərarı ilə İrəvan şəhərində böyük əksəriyyəti Azərbaycan türkcəsində olan 32 küçənin adları dəyişdirilmişdir. İrəvan şəhərinin adı isə indiyədək iki dəfə dəyişdirilmişdir. Birinci dəfə rusların işğalından sonra 1828-ci ildə Erivan, ikinci dəfə isə 12 iyun 1936-cı ildə dəyişdirilərək Yerevan adlandırılmışdır. Bütövlükdə isə indiki ermənistan ərazisində azərbaycanlılara məxsus 702 inzibati vahidin adları dəyişdirilmişdir. Çox acı reallıqdır ki, vaxtilə aborigen əhalisi tamamilə azərbaycanlılardan ibarət olan İrəvan şəhəri, hazırda monoetnik erməni şəhərinə çevrilmişdir [11, s.52-53].

1924-cü ildə İrəvanın baş planı hazırlanaraq tədricən həyata keçirilməyə başlanıldı. Erməni şovinist millətçiləri İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən

sildilər ki, gələcəkdə İrəvanı erməni şəhəri kimi təqdim edə bilsinlər.

XX əsrin 30-40-cı illərində İrəvan şəhərinin mərkəzindəki azərbaycanlı məhəllələri mövcudluğunu qoruyub saxlayırdı. Ermənilər İrəvanda XIX əsrin əvvəllərindən etibarən məskunlaşdıqları üçün erməni məhəllələri azərbaycanlı məhəllələrini üzük qaşı kimi əhatələmişdi. 50-60-cı illərdə azərbaycanlıların kompakt yaşadıqları məhəllələri, onların qədim qəbiristanlıqlarını yeni tikililər inşa etmək adı altında yerlə yeksan etdilər.

Azərbaycanlılara qarşı törədilən 1905-1906-cı illər kütləvi qırğınları, 1918-1920-ci illər soyqırımı 1948-1953-cü illər və 1988-1989-cu illər deportasiyaları İrəvan şəhərinin müsəlman şəhəri simasını ermənilərin xeyrinə tamamilə dəyişdi. Ermənilər İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izlərini silərək və azərbaycanlı etnik kimliyini yox edərək monoetnik erməni şəhəri yaratmağa nail oldular.

Sovet hakimiyyəti illərində də azərbaycanlıların Qərbi Azərbaycandan, eləcə də İrəvan şəhərindən deportasiyası rəsmi Ermənistan siyasətinin tərkib hissəsi olmuşdur. 1924-cü ildə Aleksandr Tamanyanın layihəsi əsasında həyata keçirilən İrəvan şəhərinin rekonstruksiyası, əslində azərbaycanlıların izini silməyə xidmət edirdi. Göy məsciddə İrəvan şəhər Tarix Muzeyi yerləşdirilmiş, Zal xan (Şəhər) məscidi, Sərdar sarayı, İrəvan qalasının divarları sökülərək daşlarından Sahil bulvarının salınmasında istifadə edilmişdi. Köhnə şəhər massivində azərbaycanlılar yaşayan məhəllələr sökülərək yerində parklar, kinoteatırlar, meydanlar salınmışdı [1, c.269-273].

Xalqımıza qarşı soyqırım siyasəti həyata keçirən təcavüzkar Ermənistan ötən əsrin 90-cı illərində milli-mədəni və tarixi irsimizin dağıdılması, bu torpaqlardan Azərbaycan izinin silinməsi üçün ən çirkin vasitələrə əl ataraq, sonuncu olaraq Qədim Azərbaycan şəhəri olan İrəvanın Təpəbaşı məhəlləsini də məhv etməyə nail oldular. Bütün bunlar "İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi: Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi" üzrə aparılmış araşdırmanın və onun nəticələrini əks etdirən kitabda öz əksini tapıb. Araşdırmanın müəllifi, tədqiqatçı, tarixçi Səbuhi Hüseynov materialların hazırlanmasında Azərbaycan Respublikasının Milli Arxivində, Amerika birləşmiş Ştatları Konqres Kitabxanasının Nadir Əlyazmalar Kolleksiyasında, Türkiyə Respublikasındakı Osmanlı Arxivində, Rusiya Federasiyasının Dövlət Arxivində saxlanılan sənədlərdən istifadə olunduğunu və üçüncü dövlətin arxivində saxlanılan Ermənistan arxivindən götürülmüş mikrofilmlərin tədqiqata cəlb edildiyini bildirib. Araşdırma çərçivəsində İrəvan şəhərinin, o cümlədən Təpəbaşı hissəsinin tarixi, şəhərdə Azərbaycan irsinin yüz il əvvəl başlanmış və hələ də davam edən sistemli dağılması prosesi, Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə mühüm məlumatlar toplanıb.

İrəvan şəhərinin digər yaşayış massivləri və bu massivlərdə yerləşən tarixə çevrilmiş tikililəri kimi Təpəbaşı məhəlləsi və burada vaxtilə yerləşən tikililər də azərbaycanlılara məxsus olmuşdur. Tarixi mənbələrdə bu tikililərin əksəriyyəti azərbaycanlı xeyriyyəçilər tərəfindən inşa edilmiş: məsələn, Zal xan, Novruzəli xan, Sərtib xan, Hüseynəli xan, Hacı İmamverdi və Hacı Cəfər bəyin məscidləri, Hacı Əli karvansaraları, Kərim bəy Murad bəyin oğlunun, Hacı bəyin, Axund Şeyxülislam, Hacı Əli hamamları, Molla Əli Nağı Molla Məhəmməd oğlunun Xan evi və b. İrəvan şəhərinin mövcud vəziyyəti yalnız Təpəbaşı məhəlləsində qalmışdır. Burada vaxtilə 300-dən çox yaşayış evi mövcud olmuşdur. Mütəxəssislərin də fikrincə, köhnə şəhər mühiti, paytaxtın dəyişdirilməmiş siması məhz Təpəbaşı məhəlləsində qalıb. Eyni zamanda hazırda bir çox tikinti şirkətləri Təpəbaşı ərazisində inşaat aparmaqdadır. Mütəxəssislərin dediyinə görə, Təpəbaşı məhəlləsinin özünəməxsus obrazı keçmişdə burada yaşayan yerli azərbaycanlı sakinlər tərəfindən yaradılıb. Təpəbaşının sabiq sakini, "Elmi araşdırmalar" İctimai Birliyinin sədri Telman Qasımov bildirib ki, Təpəbaşının özünəməxsus koloriti olub: "Çünki Təpəbaşı Şərq üslubunda tikilmiş məhəllə olub. Çoxları bu məhəlləni "Şəhər içində şəhər" adlandırır, bəziləri İrəvan şəhərinin mərkəzi hesab edirlər. Çünki Təpəbaşı şəhərin digər məhəllələrindən fərqli olub. Buranın öz məscidi, məhəllədə xanların, bəylərin evləri olub. Bütün bu infrastruktur, eləcə də abidələr ermənilər tərəfindən məhv edilib".

Təpəbaşı məhəlləsində 1831-ci ildə 5 hamam olub. Hacı Bəyim hamamı; Hacı Əli hamamı; Qafar və Hacı Fətəli hamamı; Kərim bəy hamamı; Şeyxülislam hamamı. 1831-ci il kameral təsvirinə görə İrəvan əyalətinin şeyxülislamı şəhərin Təpəbaşı hissəsində yaşayırdı: "Şeyxülislam Axund Molla Məhəmməd Axund Molla Məmmədhüseyn oğlu 60 yaş". Təpəbaşı məhəlləsinin kameral təsvirində 1831-ci ildə Hüseynəli xan məscidi və Hacı İmamverdi məscidi göstərilib. Bu məscidlərdən başqa, bir neçəsi də uçmuş məscidlər olub ki, bu məscidlər də qeydə alınmayıb [23, s.2].

Tarixçi-alimlər öz araşdırmalarında vaxtilə azərbaycanlılardan ibarət olan bu məhəllənin etnik tərkibi tarixin üç mərhələsində (1918-1920-ci, 1948-1953-cü, 1988-ci illər) süni şəkildə dəyişdirilib və bu gün ermənilərdən ibarət monoetnik məhəlləyə çevrilib. Burada yaşayan insanlar özlərini yerli İrəvanlı adlandırsalar

da, onların çox kiçik bir qismi daha öncədən bu ərazidə yaşadığına dair sübutlar gətirə bilir. Lakin burda yaşayanların böyük bir hissəsi 1920-ci illərdə hələ İrəvan adlandırılan şəhərə qonşu dövlətlərdən köçürülən ermənilərdən ibarətdir. Ermənistan, eləcə də Azərbaycan arxivlərində bunu sübut edən minlərlə sənəd saxlanılmaqdadır. Hazırda İrəvan şəhərində xaricdən gələn qonaqlara və tədqiqatçılara yaşı 250 ildən yuxarı bircə dənə də olsun tarixi-memarlıq abidəsini göstərmək mümkün deyil.

1988-1989-cu illərdə Ermənistandan 250 minə yaxın azərbaycanlı deportasiya edilib. Bununla da tarixi Azərbaycan torpaqlarında monoetnik erməni əsası qoyuldu. Məhz bundan sonra Ermənistan qanunverici orqanının qərarı ilə azərbaycanlılara məxsus yaşayış məntəqələrinin, eyni zamanda çayların, göllərin, təpələrin adları dəyişdirilib, tarixi, maddi-mədəni irs tamamilə silindi və ermənileşdirildi. Vaxtilə azərbaycanlıların yaşadıqları bölgələrdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilərin əlinə keçdi. Azərbaycanlılara məxsus 223 qəbiristanlıq, 49 məscid, 68 tarixi, 7 memarlıq abidəsi zamanla erməni vandalları tərəfindən dağıdıldı.

Hazırda qonşu dövlətlərdə olan arxiv sənədlərinin araşdırılması, əzəli torpaqlarımız olan İrəvanda və Zəngəzurda, digər ərazilərdə Azərbaycana aid tarix-mədəniyyət abidələri haqqında tədqiqatın həyata keçirilməsi, bunun nəticəsində nəşrlərin çap edilməsi və beynəlxalq səviyyədə təbliği istiqamətində vacib addımlar atılır. Bu günlərdə bütövlükdə İrəvanda, o cümlədən şəhərin Təpəbaşı məhəlləsində xalqımızın milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırım ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun baş direktoru Odre Azuleyə müraciət ünvanlanıb.

ƏDƏBİYYAT

1. Акопян Тадевос. Очерк истории Еревана. Ереван: 1977, с. 269-273.
2. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Bakı: Azərnəşr, 1992, 92 s.
3. Evliya Çələbi. Səyahətnaməsində Azərbaycan. Bakı: 2012, s. 41.
4. Ениколопов, И.К. Грибоедов и восток. Ереван: 1954, с. 86.
5. Əliyev, F., Həsənov, U. İrəvan xanlığı. Bakı: 1997; Əliyev, F., Həsənov, U. İrəvan xanlığı. Bakı: 2007, 144 s.
6. Əhmədli, N. İrəvan əyalətinin kamerial təsviri, I c. Bakı: Tərxan NPB, 2018. 328 s.
7. İrəvan əyalətinin ictimai dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələr müəllifləri akademik Z.Bünyadov, t.e.n. H.Məmmədov (Qaramanlı), Bakı: 1996, s. 35-74.
8. Jan Şarden. Səyahətnamə (Fransız dilindən tərcümə edən V.Aslanov). Bakı: 1994, s. 21.
9. Mustafayev, Ş.R. İrəvan xanlığının Osmanlı İmperiyası ilə əlaqələri. Avtoreferat. Bakı: 2017, 29s./ s. 13-14.
10. Mirmehdi Ağaoğlu. (APA) Milli məclisin deputatı, AMEA Folklor İnstitutunun Dədə Qorqud şöbəsinin aparıcı elmi işçisi, filolofiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan qaçqınlar Cəmiyyətinin və Qərbi Azərbaycan İcmasının sədri ilə apardığı müsahibə.17.03.2021.
11. Mustafa, N. İrəvan şəhəri Ankara: Berikan yayınevi, 2015, 269 s.
12. Нерсисян, М.Г. Из истории русско-армянских отношений.Кн.вторая. Ереван: 1961, с. 67.
13. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях, (составил Лекгобытов), ч. I. Санкт-Петербург: 1836, с. 22.
14. Потто, В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.III, с. Санкт-Петербург: 1888, с.516-517.
15. Piriyev, V.Z. Azərbaycan tarixi coğrafiyası. Bakı: 2002, s.78.
16. Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов.1801-1917гг. Ереван: 1978, с. 286-288.
17. Şükürov, K.K. Türkmənçay 1828. Tarixi xronika. Bakı: 2006, s. 134.
18. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: 1852, с. 468.
19. Vəlili, M.H. Azərbaycan. Coğrafi-təbii, etnik və iqtisadi mülahizat. Bakı: 1993, s.23.
20. Yervand Şahəziz. Qədim İrəvan. Yerevan: 1931, p.34.
21. Заварян, С. Экономические условия Карабаха и голод 1906–1907 г. Перевод с армянского, S.

Peterburq: 1907, s.61
22. www.google.com .Qaliboğlu Elçin. "İrəvan əyalətinin kamerial təsviri" kitabında qədim Azərbaycan şəhəri İrəvan tam inventarlaşdırılıb. Xalq Cəbhəsi, 2020, 4-5 fevral, s.13
23. www.google.com. İrəvandakı Təpəbaşı məhəlləsi Azərbaycan xalqına aid memarlıq irsidir. AZƏRTAC, Bakı: 07 iyul, 2022.
24. www.google.com. Zahid Rza İrəvanın "Şəhər içində şəhər"i. İki sahil, 22 fevral 2023, s.6.

ABSTRACT

Gulnara GANBAROVA

THE ARCHITECTURE OF IRAVAN CASTLE

From the sixteenth century until the first part of the eighteenth century, the boundaries of the province of Iravan were stable. ChukhursadBeylary ruled over the plains on both banks of the Araz River under the Safavid dynasty in Azerbaijan, with the majority of Iravan province situated on the left bank of the river. According to the detailed book dated 1590, the territory of Chukhursadbeylarbey was divided into Iravan and Nakhchivanlivas. Ten districts made up Iravanliva: Abnik, Abaran, Sharabkhana, Aralik, Talin, Vedi, Garni, Garni, and Iravan. The detailed book from 1728 states that the districts of Kirkhbulag, Körpu, Maku, Khinzirak, Garni, Vedi, Derachichek, Abaran, Goyche, Darelaez, Meraza, Surmeli, Igdir, Araliq, and Sharur were included in the Iravan province in addition to the capital of Iravan. Iravan Castle was built in 1504 by the order of the Safavid ruler Shah Ismayil I, by his vizier Ravangulu Khan, on the banks of Zangichay, on the location of the modern city of Iravan. The fortress, which was supposed to protect the borders of the Safavid state from foreign raids, was named Ravan fortress after its builder, and later Iravan fortress. The fortresses of Kechi-gala, Sardarabad, Talin, Gyumru, and Shorayel, as well as the military-fortified Iravan citadel in Western Azerbaijan, are mentioned in records from the Middle Ages and the Russian occupation era. Following Russia's invasion of the Iravan Khanate, every fortress on the list was progressively demolished and vanished from the face of the earth. The Iravan Castle is the most magnificent of these castles and is frequently noted in research.The castle, which was an example of high architecture and artistic craftsmanship of its time, had 50-60 constellations, a palace inside the castle, a hall with mirrors, decorated double mosques, two- and three-story buildings, tastefully built men's and women's baths, a large marble pool, and a decorated "Tabriz Gate". These buildings, which fascinated European and Russian travelers with their ornament motifs, flower paintings, portrait images, original architectural structure and richness of design, were destroyed by Armenian vandals from time to time.In 1728, there were 4 neighborhoods in the city of Iravan - Old City, Demirbulag, Derakandi and Tepebaşı. Until the 18th century, there were eight mosques in Iravan, the capital of the khanate. Two of them were inside the fortress, and the remaining six mosques - Zal Khan, Novruzali Khan, Sartib Khan, Huseynali Khan, Haji Imamverdi and Haji Jafarbey mosques were located in the suburban villages of Iravan. At a certain distance from the mosques, according to Islamic traditions, eight baths were built: for bathing women and men. Each bath building was completed with high domes in the oriental style. These baths, which are unique in their architecture and beauty, were called: Shahri, Sheikhulislam bath, Mehdi bey bath, Haji Beyim bath, Tepebashi bath, Haji Ali bath, Haji Fatali bath and Karim bey bath. The Iravan Khanate covers 13,114 square meters in total. Except for Pambek and Shorayil, the population consisted of 17 thousand families. Based on the data provided by Shopen, an estimated 115,155 Armenians were resettled from Iran and Turkey. Dubrovin demonstrates how, during the wars of 1827 and 1829, the population of Armenians in the "Armenian province" grew at the expense of people who were resettled from Iran and Turkey.

The article will provide information about the lands of West Azerbaijan and the architecture of the Iravan castle. The invasion of the Iravan castle by the Russians, the placement of Armenians in the area and the relocation of Azerbaijanis from the lands of Azerbaijan, and the vandalism of our historical monuments will be discussed.

Keywords: *Western Azerbaijan, Iravan Castle, historical monuments, neighbourhoods, palace, mosque, bath*

ИСТОРИКО - КУЛЬТУРНОЕ НАСЛЕДИЕ ИРЕВАНА КАК СОСТАВНАЯ ЧАСТЬ ИСЛАМСКОЙ КУЛЬТУРЫ

Салина АСЛАНХАНОВА
salina.mamedguseynova@rambler.ru
НАНА, Институт Архитектуры и Искусства

РЕЗЮМЕ

Историческая территория Азербайджана - Иреван является неотъемлемой частью истории азербайджанского народа, его богатейшей духовной и материальной культуры, созданной на протяжении тысячелетий. Здесь находилось множество крепостей, многочисленные населенные пункты – селения и города, созданы тысячи памятников культуры – крепости, мечети, минареты, караван-сараи, бани. Несмотря на то, что в старом Иреване, где исламские ценности были нормой жизни, существовали десятки мечетей, в результате непрерывных войн и частых землетрясений многие из них были полностью стерты с лица земли. Получить сведения о мечетях Иревана можно из сочинений и описаний путешественников, посетивших город в разные времена, а также из произведений авторов, написавших о городе Иреван после завоевания его Россией.

***Ключевые слова**: бывший Иреван, произведения путешественников, город, мечеть, духовные ценности*

Иреванское ханство было одним из Азербайджанских государств, возникших в середине XVIII века, которое управлялось ханами из знаменитой тюркской династии Гаджаров. Вплоть до российского завоевания начала XIX века подавляющее большинство населения Иреванского ханства составляли азербайджанские тюрки.

Путешественники об Иреване. Сведения путешественников побывавших в Иреване касаются в основном географического положения города, его величественных строений, жилых и общественных зданий, занятий населения и т.д. Историко-культурные памятники Иревана были построены в восточном архитектурном стиле. Путешественники и летописцы описывали Иреван в своих произведениях как типичный мусульманский город.

Французский путешественник Жан-Батист Тавернье, побывавший в Иреване в 50-е годы XVII века, сообщает, что город состоял из двух частей – внутреннего города и наружного города. Вовнутреннем городе проживали лишь сам хан, военачальники и военные. Жилая часть в наружном городе в 20 раз больше, чем во внутреннем.

А французский путешественник Жан Шарден, побывавший здесь в начале 70-х годов XVII века даетсведения о построенной из кирпича мечети, расположенной напротив городского базара и на то время находящейся в разрушенном состоянии. Он сообщал, что эта мечеть была названа в честь ее основателя, Див Султана (имеется в виду Див Султан Румлу, в 1515 г. являвшийся беглярбеком Иревана).

Караван –сараи, бани. Поскольку город Иреван находился на пересечении караванных путей, здесь было построено много караван-сараев и торговых площадей. Караван-сараи, выложенные камнем с квадратными площадками и бассейнами посередине, считались одними из красивейших построений Иревана. В начале XIX века в Иреване существовало 8 караван-сараев. В караван-сараях Афшар, Джульфа, Гюрджи, Зарраби хан (Саррафхана), Тахир, Сулу, Сусуз, Гаджи Али функционировала 851 лавка.

В Иреване существовало 8 бань, построенных в восточном стиле. В некогда существовавшем банном комплексе Зал хан помимо подземной чайханы была отдельная комната для проведения мугамных меджлисов.

Сведения о мечетях разных периодов. С момента основания города в 1509 году и вплоть до 1918 года в Иреване было 12 мечетей. После завоевания Российской империей Иревана были выпущены монеты, на которых были отражены минареты этих мечетей. Однако в 1906-1911 гг. городским техником Б.Я. Мегрaбовым был составлен план города Иреван и список архитектурных памятников города. Б.Я. Мегрaбов зарегистрировал в городе 8 мечетей, и привел их названия: Мечеть Тепебашинская,мечеть Шахарская (Залхана), Мечеть Сартиб, Гёй мечеть (Голубая мечеть), Мечеть

Гаджи-Гусейн Али-хана, Мечеть Гаджи-Новруз-Али-бека, Мечеть крепостная, Мечеть Демирбулагская и Мечеть Гаджи Джафара.

В 1510 году по приказу Шах Исмаила его полководец Ревангулу хан, возведя Иреванскую крепость, построил в ней мечеть. Эта мечеть, названная «Шах Исмаил», впоследствии была полностью разрушена землетрясением и стерта с лица земли.

В 1583 году после завоевания Иревана османскими войсками под командованием полководца Фархада-паши, одновременно с возведением овальовидных внутренних и внешних стен крепости, также была построена мечеть.

В 1833 году французский геолог, археолог и натуралист Фредерик Дюбуа де Монперэ в своем шести томном труде«Путешествие вокруг Кавказа», подробно описал Иреванскую крепость и Гёй-мечеть.

В трудах путешественников и исследователей нередко упоминались расположенные в Иреванской крепости, около Сардарского дворца, мечети: «Сардар», «Аббас-Мирза» и «Шах Аббас».




Рис.1 Мечеть Сардара и руины мечети в 1925 году

Изучениеофициальных документов и исследований последних лет указывают на то, что несмотря на упоминание в источниках разных названий, речь идет об одном и том же редком архитектурном памятнике того времени – мечети «Сардар», которая в разное время называлась по-разному. В некоторых документах, относящихся к периоду завоевания Иреванской крепости Россией, эта мечеть упоминалась как мечеть Аббас-Мирзы. По-видимому, то, что в начале XIX века наследный принц Аббас-Мирза перестроил эту мечеть, и послужило причиной того, что мечеть стала называться его именем.

Немецкий исследователь Август Гагстгаузен, в 1843 году посетивший город Иреван, сообщал, что одна из крепостных мечетей была превращена в греко-русскую церковь (мечеть Раджаб паши), а другая – мечеть «Сардар» – в арсенал.

В 1928 году азербайджанский археолог и эпиграфист Иса Азимбеков совершил экспедицию в Иреван. По итогам экспедиции он написал статью «Мусульманские надписи Тифлиса, Иревана и Нахчыванской ССР», в которой автор сообщает, что находящаяся в крепости недалеко от дворца Сардара мечеть (т.е. мечеть Сардара), построенная от имени Шах Аббаса, находится в полуразрушенном состоянии, во дворе ее живут несколько семейств армянских беженцев.

Мечеть «Раджаб паша»После того, как османские войска в 1724 году вновь завоевали Иреван, турецкий полководец Раджаб паша осуществил ряд мер, направленных на развитие города. По его приказу в 1725 году в крепости была возведена новая мечеть, названная в его честь. Эта мечеть имела форму правильного параллелепипеда и сферический купол, она была украшена геометрическим орнаментом в восточном стиле. После захвата в 1827 году русскими войсками Иревана, с купола мечети «Раджаб паша» на следующий же день были сняты полумесяц со звездой, а на их место был водружен крест. Был также установлен церковный колокол, и, таким образом, мечеть превратилась в православную церковь. Впоследствии в ее внешнем виде были произведены изменения: к фасаду были добавлены цилиндрические столбы, кровля была покрыта, и, таким образом, мечеть приобрела вид христианского храма. На картине художника Франца Рубо, посвященной взятию Иреванской крепости, на переднем плане изображена мечеть «Раджаб паша» с минаретом.



Рис.2 Мечеть «Раджаб паша»

Гёй(Голубая) мечеть. Многие путешественники и исследователи, описывающие в своих трудах Иреван, в первую очередь, упоминали Гёй мечеть, которая как по своим масштабам, так и по красоте являлась самым величественным архитектурным памятником города. Строительство мечети началось в 1760 году, а завершилось в 1765 году, в период правления Гусейнали хана.Минарет и одна часть купола мечети были выложены голубым фаянсом. Основные постройки находились в южной и северной частях территории мечети. С 1936 года в здании мечети располагался музей истории города. После войны здесь расположился музей природы, а с 1952 года, для любителей астрономии, в малом молебном зале стал функционировать Планетарий. Вначале, в 1991 году из мечети переехал музей природы, а в 1994 году из комплекса мечети переехал музей истории. В 1995 году был подписан договор между Ираном и Арменией, по которому правительство Ирана взяло на себя все затраты по реконструкции Гёй мечети. Реконструкционные работы были завершены в 2006-м году. В настоящее время, официальные лица Армении представляют зарубежным гостям Гёй мечеть как «фарсидскую мечеть».

Мечеть Залхана находилась в квартале Иревана под названием Старый город. На фасаде мечети арабским алфавитом, на турецком языке, была вырезана дата завершения строительства – 1098 год хиджры, т.е 1687 год по христианскому летоисчислению. Таким образом, становится ясно, что Шахарская мечеть была построена после землетрясения 1679 года. В 1928 году большой зал Шахарской мечети была снесен, и на его месте был построен отель «Ереван». Назначение медресе мечети Залхан, которое состояло из двухэтажного здания и многочисленных келий, после Второй мировой войны было изменено. В настоящее время в его здании расположен выставочный зал Дома художников [1].



Рис.3 Мечеть Залхана



Рис.4 Мечеть Тепебашинская

Мечеть Тепебашинская Минарет мечети, расположенной в населенном квартале Тепебаши, в 1960 году разрушился. В настоящее время в мечети, толщина стен которых составляет 1,5 метра армяне понастроили самостроек. По некоторым сведениям, эту мечеть построил член Иреванской городской управы, потомок ханского рода, Аббасгулу хан Иреванский. Его дом также находился в этом квартале. Несмотря на то, что в настоящее время дом Аббасгулу хана почти разрушен, армяне все еще называют его «Домом хана» [2].

Мечеть Демирбулагская В начале XX века в Демирбулагском квартале, где проживали исключительно азербайджанцы, были зарегистрированы три мечети: мечеть Гаджи-Новруз-Али-бека, мечеть Гаджи Джафара и мечеть Демирбулагская. Две из этих мечетей стали жертвами репрессий 1930-х годов и генерального плана города Иреван. До 1988 года единственной действующей мечетью в Иреване оставалась, построенная Гаджи Музаффар агой мечеть, известная как Чатирли. Минарет у мечети отсутствовал. Вместо него на крыше мечети была сооружена квадратная площадка, высотой 1,5-2 м, на которой построена открытая беседка, окаймленная железными решетками. После того как в феврале 1988 года в Нагорном Карабахе поднял голову армянский сепаратизм, в Иреване начались беспрерывные митинги. В 1988 году армянские бандиты подожгли в Иреване Демирбулагскую мечеть [1]. Впоследствии, чтобы скрыть следы пожара, стены мечети были закрашены. Это было сделано с целью демонстрации зарубежным журналистам добрых намерений армян по отношению к азербайджанцам.Американский исследователь Роберт Куллен в своей статье, опубликованной в газете «The New Yorker» от 15 апреля 1991 года, посвященной его поездке в Иреван, рассказал о единственной действующей в городе азербайджанской мечети – Демирбулагской.




Рис.5 Демирбулагскую мечеть

В своих выступлениях Президент Азербайджанской Республики Ильхам Алиев неоднократно заявлял, что «Западный Азербайджан - наша историческая земля. Это подтверждают многочисленные исторические документы, исторические карты, наша история. Но, к сожалению, армяне сровняли с

землей и уничтожили все наши исторические и религиозные памятники в Западном Азербайджане, так же как они это сделали в Карабахе. Они хотели стереть историческое наследие азербайджанцев, но не смогли добиться этого. Азербайджанский народ на протяжении всей истории проживал на территории нынешней Армении. Сейчас наша главная задача заключается в том, чтобы донести эти сведения до мировой общественности» [3].

И действительно, не только на территории Иревана, но и в целом на территории государства, называемого Арменией, стремящегося представить себя международной общественности цивилизованным государством, все историко-архитектурные памятники, свидетельствующие о многовековом проживании там азербайджанцев, были стерты с лица земли, а кладбища разрушены. Если в начале XX в. в Армении было зарегистрировано более 300 мечетей, то в настоящее время частично невредимой осталась лишь Гёй (Голубая мечеть), которую в результате изменения оригинальных особенностей иностранным гостям преподносят как «персидскую» [4].

ЛИТЕРАТУРА

1. https://iravan.preslib.az/ru/meschidler.html
2. https://azertag.az/ru/xeber/irevan___neotemlemaya_chast_istorii_azerbaidzhanskoi_gosudarstvennosti-2764429
3. https://www.anl.az/down/meqale/bakrabochiy/2022/iyul/806490.htm
4. https://www.virtualkarabakh.az/ru/post-item/3/30/arhitektura-irevana.html
5. https://dzen.ru/a/YbUB-jjS2g9jbUD-

XÜLASƏ

Salina ASLANXANOVA

İRƏVANIN TARİXİ-MƏDƏNİ İRSİ İSLAM MƏDƏNİYYƏTİNİN KOMPONENTİ KİMİ

Azərbaycanın tarixi ərazisi olan İrəvan Azərbaycan xalqının tarixinin, onun min illər boyu yaradılmış zəngin mənəvi və maddi mədəniyyətinin tərkib hissəsidir. İslam dəyərlərinin hökm sürdüyü köhnə İrəvanda onlarla məscid olmasına baxmayaraq, davamlı müharibələr və tez-tez baş verən zəlzələlər nəticəsində onların bir çoxu yer üzündən tamamilə silinib. İrəvan məscidləri haqqında məlumatı müxtəlif vaxtlarda şəhərə səfər etmiş səyyahların yazılarından və təsvirlərindən, habelə İrəvan şəhəri Rusiya tərəfindən işğal edildikdən sonra onun haqqında yazan müəlliflərin əsərlərindən əldə etmək olar.

Açar sözlər: *keçmiş İrəvan, səyyahların əsərləri, şəhər, məscid, mənəvi dəyərlər*

ABSTRACT

Salina ASLANKHANOVA

THE HISTORICAL - CULTURAL HERITAGE OF IREVAN AS AN COMPONENT PART OF ISLAMIC CULTURE

The historical territory of Azerbaijan - Irevan is an integral part of the history of the Azerbaijani people, its rich spiritual and material culture, created over thousands of years.Despite the fact that in old Irevan, where Islamic values were the norm of life, there were dozens of mosques, as a result of continuous wars and frequent earthquakes, many of them were completely wiped off the face of the earth. Information about the mosques ofIrevan can be obtained from the writings and descriptions of travelers who visited the city at different times, as well as from the works of authors who wrote about the city of Irevan after its conquest by Russia.

Keywords: *former Iravan, works of travelers, city, mosque, spiritual values*

"KİTABİ-DƏDƏ QORQUD"DA GÖYÇƏ MAHALININ ONOMASTİKASI VƏ YA "KİTABİ-DƏDƏ QORQUD"UN COĞRAFİ MÜHİTİ HAQQINDA

İbrahim BAYRAMOV
ibrahim_toxluca@rambler.ru
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Məqalədə "Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti və xüsusilə Göyçə mahalının onomastikası araşdırılır. Müəllif dastanda adı çəkilən coğrafi məkanların böyük hissəsinin tarixi Qərbi Azərbaycan, xüsusən də Göyçə mahalı ilə bağlı olduğunu göstərir. Tədqiqatın əsas diqqət mərkəzində "Altuntaxt" toponimi dayanır. Müxtəlif alimlərin fikirləri müqayisə edilir, tarixi mənbələr, xəritələr və arxiv sənədləri əsasında Altuntaxtın yaylaq deyil, Göyçə mahalında yerləşən qədim Azərbaycan kəndi olduğu sübut edilir. Məqalədə "Dədə Qorqud" dilində işlənən bir sıra sözlərin Göyçə şivəsində də yaşaması dastanın bu mühitlə bağlılığının mühüm sübutu kimi təqdim olunur. Müəllif həmçinin Göyçə gölünün qədim türk mənşəli ad olduğunu, sonradan "Sevan" adı ilə əvəz edildiyini qeyd edir. Araşdırma nəticəsində "Kitabi-Dədə Qorqud"un Göyçə mühitində formalaşdığı və oğuzların əsas yaşayış məkanlarından birinin bu ərazi olduğu qənaətinə gəlinir.

Açar sözlər: *"Kitabi-Dədə Qorqud", Göyçə mahalı, Altuntaxt, onomastika, toponimika, Qərbi Azərbaycan, oğuzlar, tarixi coğrafiya, Göyçə gölü, Azərbaycan dialektləri.*

Azərbaycan tarixi coğrafiyasının öyrənilməsində "Dədə Qorqud kitabı" bir mənbə kimi xüsusi əhəmiyyətə malikdir. Dastanda baş verən hadisələrin məkanı qorqudşünaslıqda hələ də mübahisəli mövzulardan biridir. Bu da dastanın coğrafiyasının təkmil formada öyrənilməməsi ilə bağlıdır. XX əsrin 70-ci illərində M.Cahangirov yazırdı ki, "Dədə Qorqud kitabı"nda adı çəkilən Altuntaxt coğrafi anlayış kimi təsdiq olunarsa və həmin mülahizə (Altuntaxtı toponim kimi dəyərləndirən Ş.Cəmşidovun fikri nəzərdə tutulur – İ.B.) əlahiddə tutarlı dəlillərlə sübuta yetirilərsə və bu istiqamətdə tədqiqat genişləndirilərək məqsədəuyğun nəticələr çıxarılarsa, biz (M.Cahangirov –İ.B.) "İç Oğuzun coğrafi mühiti" haqqında da lazımi məlumat əldə edə bilərik [6, s.73]. Müəllifin belə bir qənaətə gəlməsi "Dədə Qorqud kitabı"nın tədqiqatçısı Ş.Cəmşidovun dastanın qəhrəmanlarının əsas yaşayış məskənlərindən birinin də indi Ermənistan adlanan Qərbi Azərbaycanın Göyçə mahalında yerləşən Altuntaxt olması ilə bağlı söylədiyi elmi fikir idi. Ş.Cəmşidov yazır: "Bu yaylaq (Altuntaxt-İ.B.) yerlərinin geniş mərkəzi sahəsini aydınlaşdırmaq üçün "Salur Qazanın evinin yağmalanması" boyuna diqqət etmək lazımdır. Bu boyda aşkar görünür ki, qəhrəmanlar yaylaqda - Göyçə (qədim Gögem) gölünün şimali-qərbində yerləşən məşhur Altuntaxt yaylağında yaşayırlar [7, s.37]. Göründüyü kimi, Göyçə mahalı oğuzların tarixi vətənidir və "Dədə Qorqud kitabı" Göyçə mühitində yaranmışdır. Bu baxımdan folklorçu alim H.İsmayılovun fikri maraqlıdır: "Göyçəni ədəbi-mədəni mühit kimi səciyyələndirən başlıca göstərici qədim türk xalq ənənələrinə maksimum bağlılıq, sadiqlik və türk özgürlüyüdür. Türkün öz kökündən qopmadığı, bütün mədəni institutlar üzrə öz kökü üstə bitdiyi və ucaldığı, milli dəyərlər sisteminin optimal elementlərlə zənginləşdirdiyi ən mükəmməl mühit də Göyçədir. Əfsanəvi Oğuz xan da, tanrıçı ata (peyğəmbər) *Qorqud da (kursiv* mənimdir- İ.B.) öz ruhi-mənəvi ömrünü daha çox bu yurdda yaşayıb"– [10, s.6].

Azərbaycan dilinin qərb dialekt və şivələrinə daxil olan Göyçə şivəsində işlənən sözlərin dastanın dilində əksini tapması fikrimizi təsdiqləməkdədir. Belə ki, dastanın dilində işlənən *ağırlamaq, arı, vaqiə (vaya formasında), qarı, qaxmaq* (başına qaxmaq frazeoloji vahidin tərkibində), *dolamac (dolanbac formasında), yalın, kirimək, gərdərk, oğrun, sağdış, sərpmək, suç, təpəl, toylamaq (aldatmaq), ismarış, ismarlamaq, iraq, cilasın, muştuluq, göyek* (indi göy- yeznə mənasında) və s. sözlər eyni fonetik formada və ya kiçik fonetik dəyişikliyə uğramaqla Göyçə şivələrində də işlənmişdir.

"Dədə Qorqud kitabı"nın coğrafiyası da maraq doğurur. Belə ki, dastanda baş verən hadisələr, oğuzların məkanı, əsasən, indi Ermənistan adlanan Qərbi Azərbaycanla bağlıdır. Bunu dastandakı coğrafi adlar aydın şəkildə təsdiqləyir.

Altuntaxt. Bu, Göyçə mahalında kənd olmuşdur. Bu toponimə "Dədə Qorqud kitabı"nın "Salur Qazanın evi yağmalandığı boyu bəyan edər" boyunda rast gəlinir [14, s. 344].

Əvvəlcə onu qeyd edək ki, "Dədə Qorqud kitabı"nı Azərbaycanda kiril əlifbası ilə H.Araslı, F.Zeynalov və S.Əlizadə tərtib etmişdir. Hər iki nəşrdə Altuntaxt toponim kimi götürülmür. H.Araslının tərtib etdiyi "Dədə

Qorqud kitabı"nda oxuyuruq: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini tikdi" [14, s. 44]. Kitabın "Yer adları" hissəsində Altuntaxt coğrafi ad kimi göstərilmir [14, s. 181-183]. Deməli, H.Araslıya görə, Altuntaxt coğrafi ad yox, söz birləşməsidir.

F.Zeynalov və S.Əlizadənin tərtib etdiyi "Dədə Qorqud kitabı"nda oxuyuruq: "Qazan bəg ordusını, oğlanını-uşağını, xəzinəsini aldı, gerü döndi altun təxtində. Yenə evini dikdi" [15, s.50].

Altuntaxt haqqında kitabın "Nüsxə fərqləri və şərhlər" hissəsində belə bir qayda verilir: Cümlə "altun təxtində" birləşməsi ilə (kursiv bizimdir-İ.B.) bitir. H.Araslı və Erkinin nəşrlərində isə həmin ifadə növbəti cümlənin əvvəlinə köçürülüb [15, s. 235].

F.Zeynalov və S.Əlizadə "Altuntaxt"ı birləşmə kimi götürdükləri üçün dastanı müasir şəklə uyğunlaşdırarkən onu aşağıdakı kimi vermişlər: "*Qazan bəy öz ordusunu, arvad-uşağını, xəzinəsini geri aldı, qızıl taxtında* (kursiv bizimdir – İ.B.) geri döndü. Yenə evlərini tikdirdi [15, s.149].

Məhərrəm Erkin həmin cümləni aşağıdakı kimi veriri: "Big ordusini, oğlanini, uşağini, hazinesini aldı giri döndi. Altun tahtında yine evini dikdi" [16, s. 115].

M.Erkin də "Kitabın "Giriş"inin "Dədə-Qorqudun coğrafiyası" hissəsində Altuntaxtı coğrafi ad kimi götürmür [16, s. 51-54].

M.Fəxrəddin Çelik "Dede-Korkut kitabındakı coğrafi isimlər" məqaləsində dastandakı coğrafi adları 7 qrupa bölür. M.Fəxrəddin Çelik də "Altuntaxt"ı toponim hesab etmir və buna görə də dastanda adı çəkilən yerlərin siyahısında Altuntaxt toponimini vermir [17, s. 451].

F.Kırzıoğlu Altuntaxtı toponim hesab edir və onun Divində (Vedi rayonunda-İ.B.) yerləşdiyini göstərir: "Altun Takht"ın (Dibin (Divinde) yine evini dikdi. Karaçuk Çobanı imrakhor eylədi" [13, s. 182].

Qorqudşünas Ş.Cəmşidov "Dədə Qorqud kitabı"nda "Altuntaxt"ı coğrafi obyekt hesab edir və Qazan xanın yaylaq yeri olduğunu göstərir: Bu boyda (Salur Qazanın evinin yağmalanması boyu – İ.B.) aşkar görünür ki, qəhrəmanlar yaylaqda – Göyçə (qədim Goqem) gölünün şimal-qərbində yerləşmiş məşhur Altuntaxt yaylağında yaşayırlar. Şöklü Məlik Qazanın məhz bu yurdda tikilmiş evini qarət edib aparmışdır. Burada (adı çəkilən boyda – İ.B.) "Altuntaxtda yenə evini tikdi" cümləsindən aydın olur ki, Altuntaxt Qazanın doğma yurdudur. Qədim Göyçə mahalında hazırki Göyçə gölünün şimalında yerləşən Altuntaxt və ona qonşu olan Həmzəçəmən, Maymaq, Ulaşın, Xalxallı və s. dağlar lap bu yaxın keçmişə qədər Azərbaycanın Qazax-Şıxlı camaatının yay düşərgələri idi [6, s.49-50; 7, s.31].

Tədqiqatçının "Altuntaxt"ı yaylaq hesab etməsi XIX əsrin Azərbaycan şairi Kazımağa Salikin "Şıxlı yaylaqlarının mədhi" şeirinə istinadı ilə bağlıdır:

Afərin zehninə, səd afərin, ey Koroğlu,
Ki, tapubsan belə yer, çıxmaz ora heç həşəm.
Yüz min altuna dəyər səbzəsi Altuntaxtın,
Salika dut o yeri, istəmə dünarü-dirəm [7, s. 31].

Onu əlavə edək ki, Altuntaxt Qarakilsənin yox, Kəvər (Kamo) rayonunun inzibati ərazisinə daxil idi. XVIII-XIX əsrlərdə kənd olsa da, XIX əsrin sonunda dağılaraq kənd kimi ləğv edilmiş, azərbaycanlıların yaylaq yeri olmuşdur.

P.Xəlilov "Altuntaxt"ı toponim hesab edir və onun Göyçə dağlarında yerləşən yaylaq olduğunu qeyd edir [8, s.23]. Müəllif fikrini dastanın ("Salur Qazanın evinin yağmalanması" boyunu nəzərdə tutur – İ.B.) finalından gətirdiyi sitatlarla əsaslandırır. P.Xəlilov boyun sonundan gətirdiyi sitatı aşağıdakı imlada verir: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü, Altuntaxtında yenə evini tikdi" [8, s. 23].

Həmin sitatı H.Araslının 1978-ci ildə nəşr etdirdiyi "Dədə Qorqud kitabı"nın 44-cü səhifəsindən götürdüyünü göstərir. Lakin dastanın 44-cü səhifəsində cümlə belədir: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini tikdi" [14, s.44].

Mənbədən fərqli olaraq, P.Xəlilov "geri döndü"dən sonra vergül qoymuş, "Altuntaxt"ı bitişik yazmışdır. Ümumiyyətlə, P.Xəlilovun Altuntaxtı toponim hesab etməsi doğrudur. Lakin hansı mənbəyə istinadən belə bir qənaətə gəlməsi qaranlıq qalır. Onun- "Altıntaxt"ın yaylaq olub-olmamasından isə irəlidə bəhs ediləcəkdir.

O.Şaiq "Altuntaxt"ı toponim hesab edir, lakin onun harada yerləşdiyini göstərmir [11, s.166]. Müəllifin belə bir tərəddüdlü fikir söyləməsi indi Ermənistan adlanan Qərbi Azərbaycan toponimlərinin sistemli və geniş şəkildə öyrənilməməsi ilə bağlıdır və "Dədə Qorqud kitabı" qəhrəmanlarının yaşayış məskənlərinin Göyçə gölü ətrafının olduğunu cəsarətlə söyləyə bilməməyimizdir. Dastanda baş verən hadisələr, dil faktları, dastan qəhrəmanlarının adları ilə bağlı yaşayış məskənlərinin Göyçə mahalında olması bizə belə bir qənaətə gəlməyə imkan verir ki, "Dədə Qorqud kitabı" Göyçə mühiti ilə bağlıdır və Göyçə Salur Qazanın və oğuz qəhrəmanlarının vətəni olmuşdur.

H.Məmmədov Altuntaxtı toponim hesab edərək yazır ki, Ermənistan ərazisində Altuntəpə adlı yer də vardır. Çox güman bura qədim Altuntaxtın xarəbəsidir [12, s. 166]. H.Məmmədov Altuntaxtın "Ermənistan ərazisində" olduğunu söyləməklə dəqiqi yerini göstərmir və Altuntəpənin Altuntaxt olduğunu güman edir. Eyni zamanda onu yaylaq hesab edir.

S.Babayev "Dədə Qorqud kitabı"nda qeyd olunan Altuntaxt oykoniminin Naxçıvanın Babək rayonu ərazisi ilə lakolizə edir: "Babək rayonunun Çalxanqala kəndini, Qırcan yoxuşunu, Qız-gəlin qayasını, Anabad gədiyini, Bağırsaq dərəsini keçdikdən sonra Buğaçeşməyə çatmamış "Altuntaxt" adlanan qədim yaşayış yeri, sonradan yurd yeri kimi istifadə edilən yaylaq yerləşir" [3, s. 88].

Müəllif "Dədə Qarqud kitabı"ndakı "Altuntaxt"ı toponim hesab etməklə həmin yaşayış məntəqəsinin harada – Naxçıvanda və ya Qərbi Azərbaycanda yerləşməsi ilə bağlı konkret fikir söyləmir. Qərbi Azərbaycanda, Göyçə gölünün qərb hissəsindəki Göyəm dağlıq sahəsində Yeni Bayazid rayonu (1959-cu ildən Kamo rayonu, indi Qavar adlanır) ərazisində iki qədim Altuntaxt kəndinin olduğunu yazaraq belə bir qənaətə gəlir ki, "Dədə Qorqud kitabı"nın ikinci boyunda ("Salur Qazanın evinin yağmalanması boyu" – İ.B,) cərəyan edən hadisələrin bu regionda (Göyçə gölü ətrafında – İ.B.) baş verməsini də güman etmək olar" [3, s.89].

Altuntaxt toponimi ilə bağlı tarixi mənbələrdə kifayət qədər məlumat vardır və onun yaşayış məntəqəsi olduğu qeyd edilir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Altuntaxt Altunküşni kəndi adı altında qeyd edilir [9, s.181]. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Göyçə nahiyəsinə daxil olan kəndlərin siyahısına Altuntaxt kəndinin də adı qeyd edilir və göstərilir ki, kəndin gəliri 4210 ağça olmuşdur [9, s.55].

XVIII əsrdə yaşamış 1763-1780-ci illərdə erməni kilsəsinin başçısı olmuş Simeon İrəvanlının "Cambr" əsərində Geğarkuni vilayətinə (Göyçə mahalı) daxil olan kəndlərin sırasında Altuntaxt kəndinin də adı çəkilir [18, s.361].

Qafqazın 5 verstlik xəritəsində Altuntaxt İrəvan quberniyasının Yeni Bıyazid qəzasını daxil olan "ətraf mühitdən fərqlənən sahə, yer" (урочище) kimi göstərilir [20, s.14].

Erməni mənbələrində İrəvan xanlığının Göyçə mahalında tarixən Altuntaxt adında iki kəndin olduğu qeyd edilir: Aşağı Altuntaxt, Yuxarı Altuntaxt [22, s.79]. XIX əsrin əvvəllərində hər iki kənd xarabalığa çevrilmişdir. İ.Şopen Göyçə mahalında xarabalığa çevrilən 27 kəndin siyahısını vermişdir. Xarabalığa çevrilən 27 kəndin sırasında Aşağı Altuntaxt və Yuxarı Altuntaxt kəndlərinin də adları çəkilir [21, s.515-517]. A.Bayramov isə yazır ki, azərbaycanlılar yaşayan hər iki kənd (Aşağı Altuntaxt və Yuxarı Altuntaxt – İ.B.) 1914-1918-ci illərdə xarabalığa çevrilmişdir [4, s.25]. Müəllifin bu fikri bizcə, doğru deyil. Belə ki, həm Aşağı Altuntaxt, həm də Yuxarı Altuntaxt kəndinin adı XIX əsrin əvvəllərindən heç bir mənbədə çəkilmir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində İrəvan quberniyasının Novo Bayazid qəzasında Altundağ və Altuntaxt kəndlərinin olduğu qeyd edilir və hər biri ayrıca izah edilir [5, s.120-121]. Lakin əslində Göyçə mahalı ərazisində yerləşən İrəvan quberniyasını Yeni Bayazid qəzasında Alruntaxt və Altundağ adlı ayrı-ayrı kəndlər olmamışdır. Altintaxt və Altundağ eyni kəndin müxtəlif fonetik formada yazılışdır. Erməni mənbələrində də Altuntaxt kəndi iki fonetik formada – Altuntaxt və Altundağ formasında qeyd edilir [22, s.79].

Digər tərəfdən B.Budaqov və Q.Qeybullayev İ.Şopenə istinad edib İrəvan xanlığının Dərəçiçək mahalında Altuntaxt adlı dağ və yaylaq olduğunu göstərirlər və "Dədə Qorqud kitabı"ndakı Altuntaxtla onu eyniləşdirirlər [5, s. 121]. Aydınlıq naminə qeyd edək ki, İ.Şopenin əsərində yalnız Altundağ oronominin adı çəkilir [21, s.361-362].

"Altundağ adlı yayla" qeydinə İ.Şopenin əsərində rats gəlmədik. Onu da əlavə edək ki, Altundağ Göyçə mahalında, Ağmanqan dağının yanında yerləşir [22, s.79; 21, s.361-362]. Ağmanqan dağı isə indiki Ermənistanın Kəvər (Kamo) rayonu ərazisindədir. Deməli, Altundağ dağı Dərəçiçək mahalında yox, Göyçə mahalındadır. "Dədə Qorqud kitabı"nda adı çəkilən Altuntaxt oykonimi Göyçə mahalında, Ağmanqan dağının yanında yerləşən Üçtəpə dağının yaxınlığında, Altundağ dağının ətəyində, Kəvər (Kamo) – Sevan yolunun üstündə idi. Altuntaxt kəndində 1828-1830-cu illərə qədər yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra kəndin sakinləri qovulmuş və kənd xarabalığa çevrilmişdir.

İndi də "Altuntaxt"ın yaylaq və ya kənd olması barədə. Yaylaq sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri deməkdir [1, s.477], kənd təsərrüfatı ilə məşğul olan yaşayış məntəqəsi deməkdir [2, s.49]. Qorqudşünaslardan Ş.Cəmşidov, P.Xəlilov, M.Cahangirov, H.Məmmədov "Altuntaxt"ı yaylaq hesab edir. Lakin Altuntaxt yaylaq yox, kənddir. Birincisi, "İrəvan əyalətinin icmal dəftəri"ndə aydınca göstərilir ki, Göyçə mahalında Altuntaxt yaylağı yox, Altuntaxt kəndi olmuşdur və gəliri də 4.210 ağça təşkil edirdi [9, s.18]. İkincisi, "Salur Qazanın evinin yağmalanması" boyunda göstərildiyi kimi, Salur Qazan qələbə ilə geri dönür və *Altuntaxtda* (kursiv bizimdir-İ.B.) yenə evini tikir [14, s.44].

Əvvəla, Altuntaxt yaylaq olsa idi, Salur Qazan qələbədən sonra yaylağa istirahətə yox, öz doğma elinə-obasına dönməli idi. İkincisi, Altuntaxt yaylaq olsa idi, vuruşdan sonra geri dönən Salur Qazan yenə evini tikməzdi, alaçığını qurardı. Bütün bunlar aydın şəkildə sübut edir ki, Altuntaxt yaylaq yox, kənddir və bura oğuzların, o cümlədən Salur Qazanın daimi yaşayış məskəni olmuşdur.

B.Budaqov və Q.Qeybullayev Altundağ toponimi ilə Altuntaxt toponiminin leksik-semantik xüsusiyyətlərini ayrı-ayrılıqda izah etmişlər. Müəlliflərin fikrincə, Altuntağ toponimi monqolların tərkibində gələn oltin tayfasının adına türk dilindəki tağ (dağ) sözünün birləşməsindən, Altuntaxt toponimi qızıl mənasında işlənən altun sözü ilə ərəb dilində yüksəklik mənasında işlənən taxt sözünün birləşməsi əsasında əmələ gəlmişdir [5,Budaqov, Qeybullayev, 1998, s.120-121]. Hər iki toponim müxtəlif fonetik tərkibə malik olmaqla, eyni kökdən nəşət tapmışdır və ümumiyyətlə, "Altuntaxt"dakı "taxt" sözünü ərəb dili ilə bağlamaq doğru deyildir.

Altun tərkibli toponimlərə türklərin yaşadığı bütün ərazilərdə təsadüf edilir. Türkiyənin Ərzurum bölgəsində Altun, Altundaş, Qars bölgəsində Altunbulaq, XIX əsrdə Tiflis quberniyasının Axalkələk qəzasında Altunbulaq, Azərbaycanın Zəngilan rayonunda Altuncu, Laçın rayonunda Altuntaxt dağı, Qarabağda (Şuşa qəzasında) Altuntaxt aşırımı vardır [5, s.121].

Altuntaxt toponimi vulkan mənşəli qaya adlarında qırmızı mənasında işlənən altun sözü ilə "hündürlükdə, dağda yerləşən düzənlik" mənasını bildirən taxt sözünün [19, s.547] birləşməsindən əmələ gəlmişdir. "Taxt" termini Azərbaycan oronomiyasında həm də "taxta" fonetik formasında "dağlıq yerdə hamar sahə", "İki dərə arasında düz yer", "hündür ərazidə düzənlik" mənalarında işlənir [12, s.121]. Kənd qırmızı süxurlardan ibarət olan düzənlik ərazidə yerləşdiyi üçün Altuntaxt adlandırılmışdır.

Göyçə gölü - İrəvan xanlığının Göyçə mahalında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Geğarkunik vilayəti ərazisində göl. Erməni mənbələrində gölün adı Göyçə dərya, Göyçə dəngiz, Göyçay, Göyçə dəniz kimi də qeyd edilir [22, s.894, 899].

Göyçə gölünün adı "Kitabi-Dədə Qorqud"da çəkilir: "Ondan Şərukun ucundan Göyçə dənizinə təki el çarpdı" [14, s.134]. Ümumiyyətlə, müxtəlif illərdə çap olunan "Kitabi-Dədə Qorqud" dastanlarında Göycə gölünün adı Göycə dəŋ iz [14, s.134], Gökcə dəniz [15, s.110], Gökçe Deŋ iz [16, s.225] formalarında qeyd edilmişdir. Göyçə gölü indiki Ermənistanın keçmiş Kəvər (Kamo), Sevan, Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Çəmbərək (Krasnoselo) rayonlarının, indiki Geğarkunik vilayəti ərazisində ərazisində yerləşir. Sahəsi 1200 km^2, orta dərinliyi 28,5 m, maksimal dərinliyi 83 m.-dir. Göyçə gölü dağarası çökəklikdə, təqribən 1900 m hündürlükdədir. Qafqazın ən iri və uca dağ gölüdür. Şimal-qərbdən Pəmbək, cənubdan Basarkeçər, qərbdən Keğam silsilələri ilə əhatə olunur. Gölə 28 çay tökülür. Göldən isə Zəngi (adı dəyişdirili Razdan qoyulub) çayı axır. Hidronim Göyçay sözünün Göyçə formasına düşməsi əsasında əmələ gəlmişdir. Göyçə Göyçay deməkdir. Gölünün suyunun rəngi göy (təmiz, duru mənasında) olduğu üçün Göyçay (>Göycə >Göyçə) adlandırılmışdır. XIX əsrdə indiki Ermənistan ərazisi çar Rusiyası tərəfindən işğal edildikdən sonra ermənilər öz məkrli niyyətlərini həyata keçirmiş, Göyçə gölünün adı dəyişdirilib albanlar tərəfindən qara daşdan tikilmiş Sevvank (Qarakilsə) kilsəsinə uyğun olaraq Sevan qoyulmuşdur.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. II c., Bakı: Elm, 1980, 576 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. III c., Bakı: Elm, 1983, 555 s.
3. Babayev, S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı: Yeni Nəşrlər Evi, 1999, 224 s. (şəkilli).
4. Bayramov, A. Kitabi-Dədə Qorqud və Qafqaz. Bakı: 2001, 123 s.
5. Budaqov, B.Ə., Qeybullayev, Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: "Natta Press", 1998,452 s.
6. Cəmşidov, Ş. "Kitabi-Dədə Qorqud". Bakı: Gənclik, 1977, s.73
7. Cəmşidov, Ş. "Kitabi-Dədə Qorqud". (tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni). Bakı: Elm, 1999, 680 s.
8. Xəlilov, P. "Kitabi-Dədə Qorqud" - İntibah abidəsi. Bakı: Gənclik, 1993, 176 s.
9. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
10. İsmayılov, H. Göyçə aşıq mühiti : təşəkkülü və inkişaf yolları: monoqrafiya. Bakı: Elm, 2002, 404 s.
11. Məmmədli, H. Dədəm Qorqud gəzən yerdi bu yerlər. Bakı: Elm, 1999, 330 s.
12. Məmmədov, N.G. Azərbaycan Respublikasının oronimləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 302 s.

13. Kirzıoğlu, M. Fahrettin. Dede Korkut oğuznameleri, I kitab, İstanbul: Burhanettin Erenler Matbaası, 1952, 132 s.
14. Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı). Bakı: Gənclik, 1977, 183 s.
15. "Kitabi-Dədə Qorqud" (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə). Bakı: Yazıçı, 1988, 265 s.
16. Muharrem Ergin. Dede Korkut kitabı, I cilt, Ankara: 1989.
17. Fahreddin Çelik M. Dede Korkut kitabındakı coğrafi isimlər. Ülkü, temmuz, 1941, s.449-456.
18. Ереванци, С. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестых моностырей, М.: Изд.во вост.литер., 1958, 400 стр.
19. Мурзаев, Э.М. Словарь народных географических терминов. М.: Мысль, 1984, 653 стр.
20. Пагирев, Д.Д. Алфавитный указатель к пятиверстной карт Кавказского края. Тифлис: Типография К.П.Казловского, 1913,530 стр.
21. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. СПб: Типография императорский Академии Наук, 1852, 1231 стр.
22. Թադ և ոս Հ ակ ոբ յ ան , Ստե փան Մե լ իք –Բախշ յ ան , Հ ով հ ան ն ե ս Բար ս ե ղ յ ան , Հ այ աս տան ի և հ ար ակ ի ց շ ր ջ ան ն ե ր ի տե ղ ան ո ւ ն ն ե ր ի բ առ ար ան , հ ատ. 1, Եր և ան , 1986, 992 է ջ : (Hakopyan T. X., Melik Baxşyan St.T., Barseğyan O.X. Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti, I c., AD, İrəvan, "İrəvan Universiteti", 1986, 992 s.)

ABSTRACT

Ibrahim BAYRAMOV

ONOMASTICS OF THE GOYCHA REGION IN THE "KITABI-DEDE GORGUD" OR ON THE GEOGRAPHICAL ENVIRONMENT OF THE "KITABI-DEDE GORGUD"

The article examines the onomastics of the Goycha region and the geographical environment of the epic Kitabi-Dede Gorgud. The author argues that many of the geographical locations mentioned in the epic are connected with Western Azerbaijan, particularly the Goycha region. Special attention is paid to the toponym "Altuntakht." By comparing the opinions of different scholars and analyzing historical documents, maps, and archival records, the study concludes that Altuntakht was not a summer pasture but an ancient Azerbaijani village located in Goycha. The article also highlights that many words used in the language of the epic are preserved in the Goycha dialect, which is presented as evidence of the epic's connection to this region. Furthermore, the author discusses the historical name of Lake Goycha and notes that it was later renamed "Sevan." The research concludes that the geographical and cultural environment of the Kitabi-Dede Gorgud is closely related to the Goycha region, which was one of the main homelands of the Oghuz Turks.

Keywords: *Kitabi-Dede Gorgud, Goycha region, Altuntakht, onomastics, toponymy, Western Azerbaijan, Oghuz Turks, historical geography, Lake Goycha, Azerbaijani dialects.*

QƏRBİ AZƏRBAYCANIN VEDİBASAR MAHALININ AZƏRBAYCAN-TÜRK TOPONİMLƏRİ

Bayram APOYEV
bayram.apoyev@mail.ru
ORCID iD: 0009-0007-2053-5634
Gəncə Dövlət Universiteti

XÜLASƏ

Məqalə Qərbi Azərbaycanın sahəsinə görə ən böyük, məskunlaşma tarixinə görə ən qədim mahallarından biri olan Vedibasarın Azərbaycan-türk mənşəli toponimlərinin tədqiqi və təhlilinə həsr olunub. Müəllifin hələ iyirminci yüzilliyin 70-ci illərində apardığı tədqiqat nəticəsində müəyyən edilmişdir ki, bu mahalın ərazisindəki toponimlərin 90%-dən çoxu Azərbaycan xalqına və Azərbaycan dilinə aiddir. Buradakı Şidli, Avşar, Kolanlı, Qaraqoyunlu və s. etnooykonimlər, Sarıbaba, İlanlıdağ, Asnı dağı, Ağrıdağ vadisi və s. oronimlər, eləcə də Gur bulaq, Həcər bulağı, Ağsu çayı və s. kimi çoxsaylı hidronimlər sübut edir ki, Vedibasar ərazisi ən qədim zamanlardan Azərbaycan türkləri tərəfindən məskunlaşmış və bu yerli xalq buradakı yer-yurd adlarına, saldıqları yaşayış məntəqələrinə öz dilində ad vermişdir. Lakin hazırda Qərbi Azərbaycanın digər mahallarında olduğu kimi, Vedibasarda da Azərbaycan-türk mənşəli bütün toponimlər ermənilər tərəfindən dəyişdirilmişdir ki, bu da erməni xislətinin, erməni terrorizminin parlaq nümunələrindən biridir.

Açar sözlər: *Vedibasar, Şidli, Avşar, Kolanı, Sarıbaba*

Yer kürəsinin dili olan coğrafi adlar – toponimlər ən etibarlı və uzunömürlü elmi mənbə hesab olunur. Görkəmli coğrafiyaşünas alim Budaq Budaqov toponimləri çox haqlı olaraq söz – "mədəniyyət abidələri" adlandırmış, dəyərinə və uzunömürlüyünə görə bu abidələri "bəşəriyyətin zaman və məkan daxilində yer üzünə səpdiyi almaz dənələridir" kimi qiymətləndirmişdir [Budaqov, 2004, s.232].

Ən qədim zamanlardan Oğuz tayfaları ilə məskunlaşan Vedibasar mahalı ərazisindəki toponimlərin "mədəniyyət abidələri" və "almaz dənələri"nin demək olar ki, hamısı Azərbaycan xalqına, Azərbaycan dilinə mənsubdur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, XX yüzilliyin əvvəllərinədək Vedibasar ərazisindəki oykonimlərin (kənd, qəsəbə, şəhər adlarının) 90%-dən çoxu Azərbaycan dilinə mənsub olmuşdur. Həmin dövrədək burada mövcud olan 152 kəndin 143-də ancaq azərbaycanlılar yaşamışdır. Həmin kəndlərin məskunlaşması tarixi, əhalisinin sayı, adlarının mənşəyi, ermənilər tərəfindən necə və nə vaxt dəyişdirilməsi barədə istedadlı filoloq alim, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərlinin irihəcmli (736 s.) "Vedibasar, mahalı (Vedi və Qarabağlar rayonları)" adlı elmi-publisistik kitabında [Ələkbərli, 2003], geniş məlumat verildiyini və məqaləmin həcmini nəzərə alaraq, burada bin neçə etnooykonimin üzərində xüsusi dayanmaqla kifayətlənməyi məqsədəuyğun hesab edirik. Öncə onu qeyd edək ki, mahalın toponimik landşaftında etnooykonimlər xüsusi yer tutur və onların demək olar ki, hamısı Azərbaycan xalqının etnogenezində fəal iştirak etmiş Türk tayfalarının adı ilə bağlıdır. Belə etnooykonimlərdən Şiddi (Şidli), Avsar, Kolanı, Qaraqoyunlu və s. misal göstərmək olar. Mahalın ən qədim yaşayış məntəqələrindən olan **Siddi** (Sidli) kəndinin adının Şəddadilər sülaləsinin adı ilə bağlı olması barədə fikri əslən Vedibasarlı olan görkəmli yazıçı Fərman Kərimzadə hələ keçən əsrin 80-ci illərində irəli sürmüşdür. Dilçi alim Firudin Cəlilov (3) və digər tədqiqatçılar, o cümlədən Ə.Ələkbərli kəndin adının Xəzər türklərindən olan Şadlı tayfasının adı ilə bağlı yaranması, Şəddadilər dövlətinin banisi Məhəmməd ibn Şəddadın da bu kənddən olduğu üçün "Şadlı kəndinin yetirməsi" mənasında belə adlanması fikrini irəli sürmüşdür [Ələkbərli, 2003, s. 550]. Ə.Ələkbərli qeyd edir ki, "Saddad" sözü ərəbcədir, **Şədd**-Şadlı, **at** isə alınma sözlərə artırılan cəm şəkilçisidir, başqa sözlə, **Şəddat**, yəni **Şadlılar** (yenə orada). Bizim fikrimizə görə, Şad/Şəd/Siddi/Şidli sözü qədim türk dilinə aiddir və "güclu, qüvvətli, bərk" mənalarında işlədilmişdir. Şad sözünün Xəzər Xaqanlığında Xaqandan sonra ikinci şəxsə (silahlı qüvvələrin başçısına) verilən titul bildirməsi, hal-hazırda da Azərbaycan dilindəki "şiddət" formasın işlədilməsi fikrimizin doğruluğuna dəlalət edən faktlardır.

Türk mənşəli tayfaların Vedibasar ərazisində qədim zamanlardan yaşamasını sübut edən etno-toponimlərdən biri **Avşar** oykonimidir. Avşar kəndi Azərbaycan xalqının tarixində xüsusi rol oynamış Əfşarların çoxsaylı yadigarlarından biridir. Bəzi tədqiqatçılar yanlış olaraq belə hesab edirlər ki, Avşar kəndinin əsası Nadir Şah Əfşarın hakimiyyəti illərində (1736-1747) bu tayfanın nümayəndələri tərəfindən qoyulmuşdur. Kəndin tarixini daha dərindən araşdırarkən Əziz Ələkbərli çox haqlı olaraq bu fikri "kökündən

səhv" adlandırır və qeyd edir ki; "Hələ 1590-cı ildə burada Avşar adında kəndin mövcudluğu bu qədim türk tayfasının Vedibasar ərazisində çox-çox əvvəllərdən məskunlaşdığına ciddi faktdır" [Ələkbərli, 2023, s.194]. Maraqlıdır ki, Vedi rayonu ərazisində bu tayfanın adını daşıyan ikinci kənd Əfşarlı adlanır. Tədqiqatçıların böyük əksəriyyətinin yekdil fikri belədir ki, Əfşarlar 24 Oğuz boylarından biridir və onlar da digər tayfalarla birlikdə "XI əsrin ortalarında Orta Asiyadan çıxmış Səlcuq oğuzlarının" tərkibində Ön Asiyaya və Azərbaycana gəlmişlər [Qeybullayev, 1992. s.126-127]. Lakin Qərbi Azərbaycan və Türkiyə ərazisində Oğuz türklərinin, o cümlədən əfşarların adını daşıyan çoxsaylı etnooykonimlərin mövcudluğu prof. F.Cəlilovun qədim türk tayfalarının ana vətənlərinin Orta Asiya yox, Azərbaycan və Anadolu olması fikrinin doğruluğuna dəlalət edən faktlardan biridir [Cəlilov, 2014].

Vedibasarın maraqlı etnotoponimlərindən biri də Kolanlı kəndinin adıdır. Kəndin adı Azərbaycanda çox geniş ərazidə məskunlaşmış məşhur Kolanı tayfası ilə bağlıdır. Tarixçilərə görə, kolanılar Qərbi Azərbaycan ərazilərinə XVII əsrin birinci yarısında Nadir Şah Əfşar hakimiyyəti dövründə Güney Azərbaycandan köçürülmüş, Naxçıvan, Qarabağ, Şirvan, Mil-Muğan bölgələrində məskunlaşmışlar. Bir fikir də var ki, tayfanın adı əski türklərdə "böyük" mənası verən Kol (Kul, Kül) sözündən yaranmışdır. 1967-ci ildən bəri Suriya ilə İsrail arasında müharibə meydanına çevrilən məşhur Colan (Kolan) təpələrinin də bu qədim türk tayfasının adı ilə bağlı olması fikrində olanlar da var [Hacıheydərli, 2018, s.7]. Onu da qeyd etmək lazımdır ki, bu qədim türk tayfasının izlərinə Azərbaycandan kənarda da (Anadoluda, İraq, Əfqanıstan, Orta Asiya, Sibir, Almaniya və s.) rast gəlinir.

Vedibasar ərazisindəki digər toponimlər: – Sarıbaba, Asnı dağı, Ağrı dağ vadisi, İlanlı dağı, Allahu-Əkbər (Ələkbər dağı), Əyricə yaylağı, Ağyal, Ağ yarğan, Ayı dərəsi, Camışbasan dağı, Dəvəboynu aşırımı, Haçadağ, Həsən qayası, Xanım yurdu, Qaraqaya Qızılqaya, Qaraquzey dağı, Səngər dağı, Milli dərəsi, Zarıncı dağı və s. kimi çoxsaylı oronimlər; Ağbulaq, Ağsu çayı, Həcər bulağı, Əyricə çayı, Böyük çay, Kolanı çayı, Gurbulaq, Dəvəgözü çayı, Daşlı bulağa, Qanlı göl, Cümşüd bulağı, Kəhriz bulağı, Çanaxçı çayı və s. kimi saysız-hesabsız hidronimlər də Azərbaycan xalqına, Azərbaycan dilinə mənsubdur. Nümunə üçün Ağrıdağ vadisi və Sarıbaba oronimlərinin mənşəyi və mənasına diqqət yetirək. Qonşu Türkiyə və Azərbaycan ərazilərinə tarix böyu göz tikən saxtakar və işğalçı haylar Türkiyə ərazisindəki Ağrı dağını özlərininki hesab edərək şəklini dövlət gerbinin mərkəzinə daxil etmiş, adını dəyişərək Ararat qoymuşlar. Vedibasar mahalının bütün düzənlik hissəsinin yerləşdiyi Ağrıdağ vadisinin adını da dəyişərək Ararat düzənliyi adlandırmışlar. Eləcə də burada yerləşən Dəvəli kəndinin, bu kəndin yaxınlığında tikilən Sement zavodunun ətrafında yaranan qəsəbənin (sonralar şəhərə çevrilmişdir) adlarını dəyişərək Ararat qoymuşlar. Təkcə elmi mənbələr deyil, eyni zamanda Ağrıdağın ətəyində və Ağrıdağ vadisində qədim zamanlardan yaşayan əhalinin etnik tərkibi (Azərbaycan və Anadolu türkləri), eləcə də bu dağ haqqında çox saylı folklor nümunələri sübut edir ki, Ağrı dağı və Ağrıdağ vadisinin haylara heç bir aidiyyəti yoxdur! Əslində Ararat Urartu sözünün ibrani və yunan dilində yazılış formasıdır [Freymer, 2008]. Ermənilərin bu dağa verdikləri ikinci ad isə Masisdir ki, bu söz də əski fars dilində olub, "böyük" mənasındadır.

Sarıbaba – Vedi rayonunun (indi Ararat rayonu) Dəvəli Xalisa və Avşar kəndləri arasında yerləşən və sarı rəngli dağ süxurlarından yaranmış, hündürlüyü çox olmayan dağın adıdır. Bu ad açıq-aydın göstərir ki, Vedibasar ərazisində ən qədim zamanlarda (insanın dağa "baba" deyə müraciət etdikləri mifik təfəkkür çağlarından!) Azərbaycan türkləri yaşamış və özlərinin doğma yer-yurdlarına öz dillərində ad vermişlər.

Beləliklə, məqalədə sadalanan faktlar əsasında belə nəticəyə gəlirik ki:

- Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi, Vedibasar Mahalında da ən qədim zamanlardan 20-ci yüzilliyin əvvəllərinədək Azərbaycan türkləri – qədim Oğuz tayfaları yaşamış və burada yerli əhalinin mütləq əksəriyyətini təşkil etmişlər;

- XIX əsrin axırlarınadək Vedibasar ərazisindəki bütün toponimlərin (həm oykonim, həm oronim, həm də hidronimlərin) 90%-i Azərbaycan xalqına və Azərbaycan dilinə mənsub olmuşdur;

-Təkcə 20-ci yüzillikdə Vedibasarın azərbaycanlı əhalisinə qarşı dörd dəfə deportasiya, sürgün və soyqırım siyasətini həyata keçirmiş işğalçı və özlərinə saxta tarix quraşdıran haylar buradakı maddi-mənəvi sərvətləri dağıdıb talan etmiş, Azərbaycanlıların qədim zamanlardan yaşadığı dağ kəndlərinin hamısını yerlə-yeksan etmiş, Azərbaycan-türk mənşəli toponimlərin hamısını dəyişdirərək ermənileşdirmişlər.

ƏDƏBİYYAT

4. Budaqov, B.Ə. Türk uluslarının yer yaddaşı. Bakı: Elm, 1994, 272 s.
5. Ələkbərli, Ə. Qərbi Azərbaycan. I cild. Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları). İkinci nəşri. Bakı: Ağrıdağ, 2003, 736 s.
6. Cəlilov, F. Azər xalqı. II nəşri. Bakı: 2006, s. 66
7. Qeybullayev, Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992 – 140 s.
8. Cəlilov, F. Azərbaycan türklərinin islama qədərki tarixi. Doqquz Bitik: Tarixi coğrafiya. II Bitik. Bakı: Ağrıdağ, 2014, s. 280
9. Hacıheydərli, N. Əski türk soylarından biri – Kolanlılar //Türküstan, 28-29 yanvar 2018, s.7
10. Freymer, Tıkva S.; Sperlinq. S. Davıdov (2008), "Ararat, Armenia". Encyclopedia Judaica (2. bas.).

ABSTRACT

Bayram APOYEV

AZERBAIJANI-TURKISH TOPONYMS OF VEDIBASAR PROVINSE OF WESTERN AZERBAIJAN

The article is devoted to the study and analysis of toponyms of Azerbaijani-Turkish origin of Vedibasar, which is the largest district in Western Azerbaijan by area and one of the oldest districts in terms of settlement history. As a result of the author's research conducted in the 70s of the twentieth century, it was determined that more than 90% of the toponyms in the territory of this district belong to the Azerbaijani people and the Azerbaijani language. Shidli, Avshar, Kolanli, Garagoyunlu, etc. ethno-oykonyms, Sarıbaba, Ilanlidag, Asnı mountain, Ağrıdag valley, etc. oronyms, as well as Gur bulag, Hajar spring, Agsu river, etc. numerous hydronyms prove that the territory of Vedibasar has been inhabited by Azerbaijani Turks since ancient times, and this local people have given names of places and settlements here in their own language. However, as in other districts of Western Azerbaijan, all toponyms of Azerbaijani-Turkish origin in Vedibasar have been changed by Armenians, which is one of the bright examples of Armenian character and Armenian terrorism.

Keywords: *Vedibasar, Shidli, Avshar, Kolani, Saribaba*

GÖYÇƏDƏ SAXTALAŞDIRILMIŞ TOPONİMLƏR HAQQINDA

Arifə ƏHMƏDLİ
axmedova-68@mail.ru
ORCID iD: 0009-0009-5386-6901
Gəncə Dövlət Universiteti

XÜLASƏ

Məqalədə göstərilir ki, Göyçə qədim oğuz yurdudur. Göyçənin tarixən bir çox çətinliklərlə üzləşmiş, əraziləri işğal edilmişdir. Xüsusilə Azərbaycan torpaqlarına XIX əsrdən sonra əraziyə köçürülən ermənilər sonradan bu ərazilərdə torpaq iddia edirdilər. Onlar havadarlarına arxalanaraq zaman-zaman Göyçədə yer adlarını dəyişdirərək erməni mifi yaratmağa çalışırdılar. Müasir dövrdə düşmən tərəfindən işğal olunmuş qədim və ilkin toponimlərimizin öyrənilməsi, təhlili və bərpası mütəxəssislərin əsas vəzifələrindən birinə çevrilməlidir. 1988-ci ildən sonrakı dövrdə Azərbaycan əhalisinə qarşı təcavüz, məcburi deportasiyalar Azərbaycan millətini və gənclərini çox qəzəbləndirdi. 44 günlük Vətən müharibəsi ermənilərin Azərbaycan coğrafiyasındakı ermənileşdirmə arzularını gözündə qoydu. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qərbi Azərbaycanın da erməni işğalından azad edilməsi ümidini artırıb. Qərbi Azərbaycan coğrafiyasında olan əzəli torpaqlarımızda ermənilər azərbaycanlılara məxsus toponimləri məqsədli şəkildə dəyişdirirlər. Müasir dövrdə düşmən tərəfindən işğal olunmuş qədim və ilkin toponimlərimizin öyrənilməsi, təhlili və bərpası bütün elm insanlarının əsas vəzifələrindən birinə çevrilməlidir.

***Açar sözlər**: toponim, etnotoponim, məskən, etimologiya, tələffüz*

Qədim Oğuz yurdu Göyçə tarixlər boyu bir çox sınaqlarla üzləşmişdir. Bu gün də tale Göyçəni sınaqlar qarşısında qoymuşdur. Lakin Azərbaycan xalqının nikbin ruhu onu deməyə əsas verir ki, Göyçə bu sınaqlardan da üzüaçıq çıxacaq, öz xalqına əzəli mənsubluğunu əbədi olaraq qoruyub saxlayacaqdır.

Biz buna əminik. Əminik ona görə ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi cəmi 44 günlük döyüşdə Azərbaycan xalqına rəşadətli bir qələbə qazandırdı. Ölkə Prezidentinin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə 2021-ci il avqustun 16-da Kəlbəcərə səfəri zamanı Göyçə mahalı və Basarkeçərlə bağlı söylədiyi "…bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məskənləri əsl adları ilə də çağırılmalıdır" [7] sözləri xalqımızın məkrli düşmən üzərində daha möhtəşəm qələbələr əldə edəcəyinin parlaq müjdəsinə çevrilmişdir.

Erməni özü də yaxşı bilir ki, üzərində yaşadığı torpaq onunku deyildir. Ancaq həmişə cürbəcür hiylələrlə, fitnə-fəsadlarla, özlərinə xas olan həyasızlıqla burada saxta tarix, qondarma dövlət yaratmaq iddialarında olmuşlar. Ermənilərin Azərbaycan torpaqlarında oturuşmasının tarixi elə də qədim deyildir. Mənbələrdə göstərilir ki, ermənilərin Şimali Azərbaycana köçürülməsi prosesinə çar Rusiyası tərəfindən XIX əsrin əvvəllərindən, xüsusilə 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələri əsasında başlanmışdır.

Tədqiqatçı Sitarə Mirmahmudova 1995-ci ildə çap olunmuş "Ermənistanda türk mənşəli yer adları" kitabında yazır ki, 1935-1970-ci illər arasında 345 türk mənşəli yer adı dəyişdirilmişdir" [6, 4]. İbrahim Bayramovun 2002-ci ildə nəşr olunmuş "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" adlı kitabında isə dəyişikliyə məruz qalmış adlarla birlikdə 2000-ə yaxın yer adı barədə bəhs olunur [4].

Ancaq Ulu Göyçə elinin zəngin tarixi qarşısında həmin təxribatlar qaranlıqdakı işartıdan başqa bir şeyə bənzəmir. *Göyçə* adı qədim türklərin Tanrıçılıq inamından qaynaqlanan bir söz kimi əcdadlarımızdan bu günə qədər yaşayır və xalqın mənəvi düşüncəsində əbədi olaraq qalacaqdır.

Tanrıçılıq inamı nə qədər qədimdirsə, *Göyçə* adı da o qədər uludur. Tanrıçılıq inamının əsasını *Göy tanrı* təşkil edir. *Göyçə* adının lüğəvi mənası da *Göy tanrıya* təşbeh olaraq yaradılmış və *Göy qədər, Göy kimi əzəmətli, Göy Tanrıya bərabər* anlayışlarını bildirir. Təsadüfi deyildir ki, *Göyçə* adı Ermənistan adlanan ərazidə yaşamış bütün türk mənşəli əhalinin məskun olduğu ərazilərə şamil edilmişdir. Göyçənin adı "Kitabi-Dədə Qorqud"un "Uşun Qoca oğlu Səgərək" boyunda "Göyçə dənizə təkin el çarpdı" [5, s.145] sözlərində də xatırlanır. Qədim *Göyçə* adındakı *Göy* tərkibi əhalinin təsəvvüründə Göy *tanrıya* nisbət yaratdığından hətta həmin ərazidəki bir çox yer adlarında da (Göyabbas, Göydağ, Göyyoxuş, Göykümbət, Göykilsə, Göygöl, Göytala, Göytəpə, Göysu, Göyçal, Göyçay, Göyçəgölü, Göykənd və s.) əks olunmuşdur.

Göyçə mahalı ta qədimdən azərbaycanlı əhalinin daimi yaşayış məskəni kimi tanınmışdır. Mənbələrdə göstərildiyinə görə 1747-1828-ci illər ərzində Göyçə mahalı İrəvan xanlığının ərazisinə daxil olub. 1828-ci ildən sonra da ərazi quberniyalara bölünüb və Göyçə İrəvan quberniyasının tərkibinə daxilində qalıb. Sovet

hakimiyyəti illərində Ermənistan respublika kimi formalaşdırılmış və Göyçə mahalı beş inzibati rayon arasında bölüşdürülüb. Həmin inzibati ərazi rayonlaşdırıldıqdan sonra isə ərazinin əvvəlki adları dəyişdirilmişdir. Məqsəd isə tarixi gerçəkliklərin və keçmişin unutdurulmasından ibarət olmuşdur. Həmin adlar bunlardır: *Kəvər* (Kamo), *Qaranlıq* (Martuni), *Basarkeçər* (Vardenis), *Çəmbərək* (Krasnoselo), Yelenovka.

Onu da xatırlatmaq lazımdır ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldığı vaxtda Göyçə mahalı Cümhuriyyətin tərkibində olmuşdur. 1920-ci ildə bolşeviklərin müdaxiləsi ilə qədimdən azərbaycanlı əhalinin yaşayış məskəni olan Göyçə mahalı və onunla birlikdə Dərələyəz mahalı və Dilican ərazisi qanunsuz şəkildə Ermənistana verilmişdir. Bu da Sovet imperiyasının həmin ərazilərdə qədimdən məskun olan azərbaycanlı əhali ilə oraya yerləşdirilmiş ermənilər arasında daimi münaqişə ocağı yaradılması məqsədindən ibarət olmuşdur. Göyçə süni şəkildə ermənilərə təslim edilməsinə baxmayaraq, oranın hər bir qarışında qədim türk-oğuz izləri yaşamaqda davam edir. Göyçənin dilbər guşələrindən sayılan *Basarkeçər* adı da türk mənşəli etnotoponim kimi özünün yaranmasına görə çox-çox qədim zamanlarla səsləşir. *Basarkeçər* adı mənbələrdə göstərildiyinə görə 1392-ci ilə dair sənədlərdə də yaşayış məskəni adı kimi qeydə alınmışdır. Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılmışdır. 1969-cu il iyunun 11-nə kimi *Basarkeçər*, həmin tarixdən sonra isə *Vardenis* adlandırılmışdır. Buna baxmayaraq, indi də əhali tərəfindən həmin ad *Basarkeçər* deyə işlədilir.

Bəzi mənbələrdə *Basarkeçər* sözü tərkibində qeyri-qəti zaman şəkilçisi işlənmiş mürəkkəb söz kimi mənalandırılır. Bu izaha görə *Basarkeçər* adının etnotoponim anlayışı sadələşdirilir və adi bir mürəkkəb sözə çevrilir. Bu da həmin adın bəsit şəkildə "basıb keçmək" anlayışı üzrə məhdudlaşdırılmasına səbəb olur. Əslində isə mürəkkəb tərkibli *Basarkeçər* adı etnik səciyyəli bir söz kimi formalaşmışdır ki, hər iki tərkibdə bir-birini tamamlayan oxşar məna bildirilir. Urartu mənbələrində *Basarkeçər* bölgəsinin qədim sakinlərinin türk mənşəli kumanlardan ibarət olduğu göstərilir. Onlar həmin ərazidə eradan əvvəlki VII-VI əsrlərdə məskun olmuşlar. Basarkeçər adının hər iki tərkibində *-ar* (-ər) şəkilçi elementi vardır. Bu o deməkdir ki, həmin tərkiblər düzəltmədir. Birində *bas-*, digərində isə *keç-* tərkibi düzəltmədir. Buradan belə qərara gəlmək olur ki, hər iki etnonim adı xalqın mütəşəkkil olduğu və öz ictimai təfəkküründə etnik özünəməxsusluğunu əks etdirən bir mərhələdə formalaşmışdır. Odur ki, mənbələrdə də *bas-* tərkibli etnik adlarla yanaşı, *keç-*/qaç-/qac-) əsaslı adlar barədə də bəhs edilir.

Türk mənşəli etnosların məskun olduğu ərazilərdə *bas-* tərkibi etnonimin *baz-* şəklindəki variantlarına da təsadüf edilir. *Bas-*, *baz-* tərkibli etnonimlərlə bağlı aparılan tədqiqatlarda göstərilir ki, Qafqazda *baz-* variantı əsasında formalaşmış 15 *bazar* etnonimi mövcuddur. Bunlardan Yuxarı Qarabağın Xaçın nahiyəsindəki *Bazar*, Tiflis quberniyasının Siqnaxi ərazisindəki *Bazarxevi*, həmçinin Gürcüstandakı *Bazarı* yaşayış məntəqələrinin adlarını göstərmək olar. Mənbələrdə verilən məlumatlara görə qırğızlarda *Bazar, Bazar Kurqan* qaraqalpaq və kalmıklarda *Basar* tayfaları mövcuddur. *Basar* sözünün *bazar* variantına, eyni zamanda Qafqaz ərazisindəki çoxlu dağ, çay və kənd adlarına da rast gəlmək olur. Bunlardan *Bazarçay, Bazaryurd*, Şimali Qafqazın Qaranoqay dairəsindəki *Bazarnur*, Zaqataladakı *Bazarqobu*, Baş Qafqaz silsiləsində Azərbaycan Respublikası ilə Dağıstan sərhəddindəki *Bazardüzü* dağ adlarını misal göstərmək olar [1].

Basarkeçər adının ikinci tərkib hissəsindəki *keçər* sözü də etnonim xarakterlidir. Odur ki, bu tərkibi sadəcə olaraq *keçmək* kimi xarakterizə etmək düzgün deyildir. Adın birinci tərkibində olduğu kimi, bu hissəsində də zaman-zaman diləyatımlılıq qaydasında dəyişmə baş verməsi ehtimal olunur. Belə ki, sözün ilkin variantının *qaç-, qoç-* şəklində olduğunu onun ümumi anlayışı üzrə təyin etmək mümkündür. Güman etmək olar ki, mənbələrdə qeydə alınan türk mənşəli *Koçar, Kuçar Qacar* etnonimləri məzmunca *keçər* tərkibinin bir variantından ibarətdir. Tədqiqatçı Qiyasəddin Qeybullayevin qeydlərinə görə, Orta əsrlərdə Karluq-uyğurların məskunlaşdığı ərazilərdə *Koçar/Kuçar* kimi adlandırılan yaşayış məskənləri də olmuşdur. Şimali Qafqazda, həmçinin, *Kuçarli* və *Kuçorli* çaylarının mövcudluğu da həmin adların eyni mənşəyə aid olduğunu göstərir. *Keç-koç-kaç-* tərkibləri ilə bağlı olan etnonimlər içərisində *Qacar* variantının daha geniş yayıldığı müşahidə edilir. Mənbələrdə göstərildiyinə görə *qacarlar* Hun tayfa birliyi içərisində mühüm yer tutan türk mənşəli etnoslar olmuşlar. Ad barədə verilən şərhdə isə onun "əyilməz", "inadkar", "yenilməz" mənası daşıması bildirilir. *Basar* və *keçər* adlarının quruluşca tərkibinə gəlincə onu demək lazımdır ki, buradakı *-ar, -ər* elementləri etnik adlarda *insan, şəxs, el, tayfa* anlayışı bildirən hissələrdən ibarət olmuşdur. Təsadüfi deyildir ki, həmin tərkiblər əsasında, həmçinin *Suvar, Avar, Qamər, Xəzər, Bulqar, Kəngər, Tatar, Dondar, Balkar, Avşar, Qarqar, Dügər, Tərtər* kimi etnik adlar da yaranmışdır. *Baçarkeçər* adının tərkib hissələrinə gəlincə demək lazımdır ki, *Basar* etnoniminin *bas-* tərkibi lüğəti mənada *müzəffər olmaq, basmaq, məğlub etmək, qalib gəlmək, qələbə çalmaq* anlayışını bildirir. Sözün *–ar* tərkibi isə insan, tayfa, el, xalq anlayışını səciyyələndirir. Nəzərə alsaq ki, sözün ikinci tərkibi olan *keç-* hissəsi *qaç-, qoç-* variantları ilə bağlıdır, onda məlum olur ki, *keçər* etnonimində də *qoç-* (qoçu) sözündə olduğu kimi *qoçaq, igid, qalib, əyilməz, mərd* anlayışı mövcuddur. Beləliklə, iki qoşatərkibli etnik addan ibarət olan *Basarkeçər* sözü *müzəffər, igid, yenilməz, qalib qoçaq el, tayfa, cəmiyyət, xalq* anlayışları üzrə formalaşmışdır.

Basarkeçərdən danışarkən onun məşhur kəndlərindən biri olan *Zod* kəndinin adını unutmaq olmaz. *Zod* kəndinin adı bir neçə dəfə dəyişdirilmişdir. Ərazidə çala çökək yerlər olduğundan onun ilk adını *Başkalafa* adlandırmışlar. *Kalafa* sözü indi də Göyçə mahalından olan əhali arasında çala-çökəklik mənasında işlədilir. *Başkalafa* adı III-V əsrlərdən XIV əsrin sonlarına (1387-1388) XV əsrin əvvəllərinə kimi davam etmişdir. Bundan sonra həmin ərazidəki yaşayış məskəni Vəliağa adlı nüfuzlu bir şəxs tərəfindən abadlaşdırılmışdır. Ona görə kəndin adı *Vəliağa* olmuşdur. 1813-1814-cü illərə kimi də bu ad davam etmişdir. Həmin vaxtdan Göyçəyə köçürülən ermənilər tərəfindən kəndin adı dəyişdirilmiş və *Zod* kimi deyilmişdir. 1995-ci ilə qədər ad *Zod* şəklində işlədilmişdir [3]. Erməni mənbələrində iddia edilir ki, *Zod* sözü guya qədim erməni dili adlandırılan Qrabardan gəlir. Guya nə zamansa burada yaşamış Sünik erməni vilayətinə məxsus bu ad *sotk* şəklində olmuş, sonradan isə *sot* şəklinə düşmüş, buradan da *zod* tələffüzü baş vermişdir. Əslində isə həmin ərazidə heç bir sünik erməni knyazlığı mövcud olmamışdır. *Sünik* sözü isə qədim türk hun etnoslarının Çin dili tələffüzündəki *sünni* variantından ibarətdir. Bu addakı toponim hətta yaxın müddətlərdə Samux rayonunun kəndlərinin birinə aid olmuşdur. Səhvən ad islamin sünnü təriqətinə məxsus toponim kimi başa düşüldüyündən Füzuli adı ilə dəyişdirilmişdir. *Zodla* bağlı bir çox araşdırmalarda hər vəchlə bu adın türk mənşəli olduğuna cəhd göstərilir. Lakin bu yanmış yoldur. Çünki ermənilər özləri qəsdən özlərini ərazinin qədim sakinləri kimi tanıtmaq məqsədi ilə adın Qrabar dedikləri yalançı qədim erməni dilinə məxsus güclü külək mənasındakı *Sotk* sözündən törədiyini isbat etməyə çalışmışlar. Əslində isə Qrabarın ermənilərə heç bir aidiyyəti yoxdur. Bu addakı dil olsa-olsa, orta fars dili sayılan Pəhləvi dilinə məxsusdur. Zodda daim baş verən güclü küləyə görə ermənilər düşünüb belə bir uydurma ad düzəldiblər. Uydurulmuş *Sotk* (Sot) adı əslində mənşəcə Sami dillərə məxsusdur. Sözün mənşəyi ərəb dilindəki *şiddət* sözünün *şid* kökü ilə bağlıdır. Bu söz ərəb dilindən fars dilinə keçmiş və güclü külək anlayışı bildirən *bad şədid* ifadəsi tərkibində işlədilir. Ermənilər *şəd* kökündən uydurma *sot* variantı düzəltmiş və izi itirmək üçün hətta buraya bir *k* elementi də əlavə edib *Sotk* adı əmələ gətirmişlər. Lakin oğurluğun əvvəli yalan olduğu kimi, axırı da rüsvayçılıqdır. Erməni məkrinə xas olan belə uydurmalar bir deyil, iki deyil. Odur ki, əsarətdə olan qədim yer-yurd adlarımız öyrənilməli, həqiqət aşkar olunmalı və beynəlxalq ictimaiyyətə bəyan edilməlidir.

Ulu Göyçəmizdə etimoloji cəhətdən araşdırılmalı olan çoxlu adlar vardır ki, erməni təcavüzünə məruz qalmış həmin sözləri milli düşüncəmizin təməlində araşdırmaq Azərbaycan Prezidenti İlham Əliyevin Göyçə və onun dilbər guşəsi olan *Basarkeçərlə* bağlı səsləndirdiyi çağırışına cavab kimi mütəxəssislərimizin ümdə bir vətənpərvərlik vəzifəsinə çevrilməlidir.

ƏDƏBİYYAT

1. az.wikipedia.org/wiki/Bazar (Xaçın kənd) 18 noyabr, 2020
2. az.wikipedia.org/wiki/ İrəvan xanlığı. 19 sentyabr, 2021
3. az.wikipedia.org/wiki/Zod. 14 noyabr, 2021
4. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 346 s.
5. Kitabi-Dədə Qorqud. Bakı: Öndər, 2004, 376 s.
6. Mirmahmudova, S. Ermənistanda türk mənşəli yer adları. Bakı: Yazıçı, 1995, 72 s.
7. Prezident. Az/articles/52742 16 oktyabr, 2021

ABSTRACT

Arifa AHMADLI

ABOUT TOPONYMS FORGED IN THE GOYCHE REGION

The article shows that Goyche is an ancient Oguz homeland. Historically, Goyceni has faced many difficulties and its territories have been occupied. In particular, the Armenians, who were resettled in the territory of Azerbaijan after the 19th century, later claimed land in these territories. Relying on their patrons, they tried to create an Armenian myth by changing the names of places in Goycha from time to time. In modern times, the study, analysis and restoration of our ancient and original toponyms occupied by the enemy should become one of the main tasks of specialists. In the period after 1988, aggression against the population of Azerbaijan, forced deportations greatly angered the Azerbaijani nation and its people. The 44-day Patriotic War left Armenians' dreams of Armenianization in the Azerbaijan geography in their eyes. After the liberation of our lands from the occupation, the hope of liberation of Western Azerbaijan from the Armenian occupation has increased. Armenians purposely change toponyms belonging to Azerbaijanis in our ancestral lands in the geography of Western Azerbaijan. In modern times, the study, analysis and recovery of our ancient and original toponyms occupied by the enemy should become one of the main tasks of all scientists.

***Keywords**: toponym, ethnotoponym, place of residence, etymology, pronunciation*

AĞ AŞIQ YARADICILIĞININ SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

Qənirə ƏSGƏROVA
esgerovaqenire@ndu.edu az
ORCID iD: 0009-0005-7756-8029
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Göyçə aşıq məktəbinin nümayəndəsi Ağ Aşıq Allahverdinin yaradıcılığının sintaktik xüsusiyyətləri incələnmişdir. Bu məqsədlə sintaktik vahidlərin, xüsusilə də sual cümlələrinin linqvistik cəhətləri ön plana çəkilir, sual cümlələri müxtəlif üslub keyfiyyətlərinə görə elmi-nəzəri təhlilə cəlb edilir. Belə ki, Azərbaycan dilində sual cümlələrinin həm qrammatik, həm də üslub cəhətlərinə görə qruplaşması baxımından həmin sintaktik vahidlər seçilir və dilçilik elmi mövqeyindən tədqiq edilir. Məqalədə Aş Aşığın Azərbaycan dilinə dərindən bələdliyini təsdiq edən faktor kimi sual cümlələrinin işləndiyi məqamlara diqqət edilir. Belə ki, Ağ Aşığın istifadə etdiyi sual cümlələrinin bir qrupu başqalarının diqqətini sözügedən məsələyə çəkmək məqsədi daşıyır, başqa bir qismi müəllifin özü tərəfindən cavablanır, bir qədəri təəccüb doğurmağa xidmət edir. Nitqdə bu məqamların açılması ilə bağlı belə bir nəticə əldə edilir ki, Ağ Aşığın dilindəki sual cümlələrinin içərisində elə maraqlı örnəklər var ki, onlar nə qrammatik, nə də ritorik cümlə növlərinə daxildir. Həmin sintaktik vahidlər suala cavab tələb etmədiyinə görə ritorik xarakter daşıyır, bədiilikdən kənar olduğu üçün isə qrammatik xüsusiyyətə malikdir. Bədii dil üzərində aparılan araşdırmalar göstərir ki, sintaksis dilçiliyin digər bölmələri ilə müqayisədə daha çox üslub dəqiqliyinə malikdir. Belə ki, bütün sintaktik vasitələr bədii dildə dinamikliyi və rəngarəng üslub çalarları ilə diqqəti çəkə bilir. Ümumiyyətlə, müəllifin subyektiv emosional münasibətlərinin, hiss və duyğularının ifadəsində sintaksisin rolu böyükdür. Bu baxımdan digər cümlə növləri də kənarda qalmır. Ağ Aşığın yaradıcılığında adi intonasiyalı nəqli cümlələrdən ibarət şeir mətnində işlənən xitabın qüvvətli deyilişi sözlərin səslənməsinə ahəng verərək fikirlərin aydın çatdırılmasına təkan verir. Bu baxımdan "Dünya" şeiri diqqəti çəkir. Heç bir sintaktik əlaqə ilə cümlə üzvlərinə bağlanmayan xitab intonasiya və məntiq baxımından onlara yaxınlaşır. Aşığın yaradıcılığında qeyri-təyini söz birləşməsinin cümlə üzvünün əlavəsi kimi işlənməsi bədii əsərlərin dilini zənginləşdirən və poetikliyi qüvvətləndirən sintaktik vasitələrdən biri kimi istifadə edilmişdir. Müəyyənləşdirilmişdir ki, Ağ Aşığın dilində bəzən cümlənin quruluşu ilə həcmi uyğun gəlmir. Belə ki, mürəkkəb strukturlu cümlə həcmcə kiçik ola bilər, lakin onun məna və intonasiya dolğunluğu, fikir sıxlığı yüksəkdə dayanır. Şairin "Kəklik" şeirində ilk iki misra bir sadə cümləni, üçüncü misra isə şərt budaq cümləli tabeli mürəkkəb cümləni təşkil edir, yaranan qarışıq tipli mürəkkəb cümlə şeirə bir emosionallıq gətirir. Ağ Aşığın yaradıcılığı bir daha təsdiq edir ki, Azərbaycan bədii dili tarixən sürətlə inkişaf edən və bu prosesdə maraqlı xüsusiyyətlər əldə edən qiymətli mənbədir.

Açar sözlər: *Ağ Aşıq, sual cümləsi, xitab, üslubi xüsusiyyətlər, "Kəklik" şeiri*

Giriş

Bədii dildə cəmiyyət hadisələri, həyatın rəngarəngliyi, müxtəlif münasibət və davranışlar, fikir və düşüncələr obrazlı deyim tərzi ilə özünü göstərir. Ona görə də hər hansı bir ədəbi mənbədən bəhs edildikdə dilin aparıcı mövqeyi ön plana çəkilir. Belə ki, dil ədəbiyyatın əsasını təşkil edir. Dil ədəbi simaların yaradıcılığına, əsərlərin ideya-məzmun keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edən göstəricidir. Azərbaycan aşıq sənətinin ulu və doğma ocağı sayılan Göyçə aşıq mühitində yaranan əsərlər bu fikri təsdiq edir. Banisi Miskin Abdal hesab olunan bu ədəbi mühitin Ağ Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman, Aşıq Nəcəf kimi onlarla nümayəndələri Azərbaycan aşıq yaradıcılığına qiymətli incilər bəxş etmişlər. Onların içərisində Ağ Aşığın adını xüsusi qeyd etmək olar. Saz-söz sənəti ilə məclisləri şənləndirən, el məclislərinin bəzəyinə çevrilən aşığın şöhrəti Azərbaycanın sərhədlərini aşmışdır. "Ağ Aşığın gəzib-dolaşdığı, çalıb-çağırdığı coğrafi çevrə olduqca geniş olmuş, Misirdən Şərqi Türküstana kimi gəzib dolaşmışdır" [Vahid, 2011, s.12].

Material və metod

Ağ Aşığın yaradıcılığı maraqlı və orijinal sintaktik xüsusiyyətlərə malikdir. Məlumdur ki, heç bir dil vahidi cümlə qədər fikir bitkinliyinə malik deyil. Aşığın dilində cümlənin semantik və struktur xüsusiyyətləri əsasında ifadə olunan fikirlər müxtəlif istiqamətlərə yönəlir. "Sintaktik vahidlərin rəngarəng üslubi məqamları arasında məqsədə və intonasiyaya görə cümlə növlərinin üslubi imkanları daha genişdir" [Əkbərov, 2016,

s.282]. Bunlardan ən yadda qalanı nəsihətli fikirlərinin çoxluğu ilə seçilən sual cümlələridir:

Nadan məclisində, naşı yanında,
Ləl xırdala, gövhəri seç, nə bilər?
Bir damlanı sel anlayan qanmaza
Gir ümmana, dəryanı keç, nə bilər? [AƏA.2, 180]

Buradakı "nə bilər?" sual-xəbər, əslində, "bilməz" inkar felinin sinonimi kimi işlənib. Həmin sintaktik vahidin sual formasında təqdimi poetikliyi artıran vasitə kimi diqqəti cəlb edir:

Axtarsan da göyün yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını.
Namərdə bağışla köhlən atını,
Ya yolunda zəhəri iç, nə bilər? [AƏA s. 180].

Bədii sintaksisin əsas göstəricilərindən biri olan sual cümləsi əsərin ümumi məzmunu və hissələri haqqında geniş təsəvvür yaratmaqla yanaşı, müəllifin obrazını açа bilir. Bundan başqa, sual cümlələri deyilişdə gözəllik yaratmağa xidmət edir. Onlar məlumat versələr də, cavab istəmir. "Təsdiq və ya inkarda deyilməli fikir ritorik sual cümlələri vasitəsilə daha təsirli və qəti şəkildə ifadə olunur. Bu nitq formasının ifadə gücü, emosional təsir qüvvəsi də məhz bundadır. Ritorik sual cümlələrinin cavabı danışana qabaqcadan məlum olur" [Bəylərova, 2008, s.31]

Nə veribsən, alammırsan,
Suçum nədi görən, dünya?
Gündə min cür üz göstərib,
Min bir dona girən dünya [http:/www.goyce.az]

Belə bədii sualların kimə və ya nəyəsə müraciət etməsi və bu prosesdə yalnız ekspressiv funksiya yerinə yetirməsi bəllidir. Ritorik sual cümlələrin intonasiyası digər sual cümlələrin intonasiyasından fərqli olur. Belə cümlələrdə emosional intonasiya hakim olur. Fikrin təsir gücünü artırmaq, ekspressivlik vermək məqsədilə işlədilir. Belə cümlələrin normal sual cümləsi ilə versək və ya nəqli cümlə şəklində ifadə etsək, fikrin ekspressivliyi yox ola bilər. Mütəxəssislər bu sintaktik vahidlərin müraciət etdiyi ünvana təsir etmək məqsədi daşıdığını qeyd edirlər. Hansı məqsədlə deyilirsə-deyilsin, hər halda, sual cümlələrinin bədiiliyi gücləndirməsi gerçəklikdir:

El-obadan cida saldın,
Neyləmişdim, oda saldın?
Ev-eşiyə qada saldın,
Dərd üstdən dərd verən dünya [http:/www.goyce.az]

Sual cümlələri yüksələn intonasiyaya malik olduğundan bədiiliyə təsir edir. "İfadə məqsədinə görə üslub keyfiyyəti baxımından sual cümləsinin böyük əhəmiyyəti var. Belə cümlələrdən həm bədii, həm elmi, həm də ictimai-siyasi üslubda istifadə olunur. Təsadüfi deyil ki, üslubiyyat elmində sual cümləsi "insan təfəkkürünü genişləndirən forma" kimi qiymətləndirilir" [Həsənova, 2005, s.77].

Bədii dil üzərində aparılan araşdırmalar göstərir ki, sintaksis dilçiliyin digər bölmələri ilə müqayisədə daha çox üslub dəqiqliyinə malikdir. Belə ki, bütün sintaktik vasitələr bədii dildə dinamikliyi və rəngarəng üslub çalarları ilə diqqəti çəkə bilir. Ümumiyyətlə, müəllifin subyektiv emosional münasibətlərinin, hiss və duyğularının ifadəsində sintaksisin rolu böyükdür. Bu baxımdan, digər cümlə növləri də kənarda qalmır. Məsələn, aşağıdakı misralar adi intonasiyalı nəqli cümlələrdən ibarətdir. Lakin şeir mətnində işlənən "dünya" xitabının qüvvətli deyilişi sözlərin səslənməsinə ahəng verərək fikirlərin aydın çatdırılmasına təkan verir. Heç bir sintaktik əlaqə ilə cümlə üzvlərinə bağlanmayan xitab intonasiya və məntiq baxımından onlara yaxınlaşır:

Ağ Aşığam, taleyi kəm,
Görməmişdim belə sitəm.
Qolubağlı rəiyyətəm,
Az gücünə güvən, dünya (http:/www.goyce.az).

Burada "taleyi kəm" qeyri-təyini ismi birləşmə diqqətə layiqdir. Əgər o, "Ağ Aşığam" xəbərindən əvvəl gəlsəydi, epitet vəzifəsini yerinə yetirmiş olardı. Lakin şeirin dilində o, əlavə kimi işlənmişdir. Dildə bütün vahidlərin əhəmiyyəti vardır. Maraqlıdır ki, əlavədən bədii əsərlərin dilini zənginləşdirən və poetikliyi qüvvətləndirən sintaktik vasitələrdən biri kimi istifadə etmək mümkündür. Ağ Aşığın dilindəki əlavələr

aşağıdakı funksiyalara malikdir:

1. Əlavəli misralarda fikirlər aydın başa düşülür.
2. Əlavə qarşıya qoyulan məqsədin dəqiq bilinməsinə kömək edir.
3. Əlavəli sintaktik vahidlərlə şeirin mənası ətraflı nəzərə çatdırılır.

Əlavə aid olduğu cümlə üzvünün məzmununu aydınlaşdırdığı üçün ifadənin təsirini gücləndirə bilir.

Dilin ən çevik və zəngin qatı olan sintaksis bədii informasiyanın mürəkkəbliyini daha çox ifadə edən və geniş məcazi mənalar yaradan mənbədir. Poetik fəallıq sintaksisin daxili keyfiyyəti – daha sistemli, ümumi və özlüyündə semantik dil səviyyəsi olması ilə bağlıdır. Semantik məna baxımından bədii dildə həmcins üzvlərin də əhəmiyyəti çoxdur. Sadalama intonasiyası diqqəti bu üzvlərin ifadə etdiyi mənalara yönəldir:

Özünü böyüdüb dağ edənlərə,
Şorunu ərimiş yağ edənlərə,
Ağ Aşığın sözün ağ edənlərə,
Xəznədar ol, xəzinə aç, nə bilər [AƏA,180]

Lirik şeirlərdə formal sintaksisin imkanları məhdud olsa da, semantik sintaksis bu cəhətdən irəli gedir.

Ağ Aşığın dilində bəzən cümlənin quruluşu ilə həcmi uyğun gəlmir. Belə ki, mürəkkəb strukturlu cümlə həcmcə kiçik ola bilər, lakin onun məna və intonasiya
dolğunluğu, fikir sıxlığı yüksəkdə dayanır:

Baharın gülşən çağında,
Uçar daşdan-daşa kəklik.
Ovçu görsə səkər asta,
Sinər daşdan-daşa kəklik [AƏA,170]

Burada ilk iki misra bir sadə cümləni təşkil edir, üçüncü misra isə şərt budaq cümləli tabeli mürəkkəb cümlədir. "Mürəkkəb cümlənin bu xüsusiyyətinin, yəni eyni bir fikrin müxtəlif quruluşlu cümlə formasında ifadə edilməsinin üslubi əhəmiyyəti böyükdür. Bu üslubi imkanların araşdırılması, aydınlaşdırılması vacib məsələdir, çünki mürəkkəb cümlənin belə üslubi xüsusiyyətlərinin müəyyən edilməsi fikrin müxtəlif şəkildə, lakin dinləyicinin başa düşə biləcəyi formada ifadə etməyə imkan verir. Bu isə nitqin dəqiqliyini, aydınlığını, üslubi üstünlüyünü təmin edir" [Əkbərov, 2016, s.280]

Dedim könül, bacar yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz.
Çox da bel bağlama vara, dövlətə,
Mala, mülkə, ömrə etibar olmaz [http:/www.goyce.az]

XVIII əsrdən başlayaraq sürətlə yayılan, inkişaf prosesində yeniliklər qazanan folklor XIX yüzillikdə bədii dilin xüsusi bir qoluna çevrilmiş və bu sahədə aşıq poeziyası mühüm rol oynamışdır. Ağ Aşıq Allahverdinin poeziyası canlı danışıq dilinə əsaslandığına görə rəğbətlə qarşılanır, tez əzbərlənir və axıcılığı ilə yaddaşlarda qalırdı. Dil materialları baxımından Ağ Aşığın yaradıcılığı dövrünün ədəbi-bədii dil mənzərəsini ortaya qoya bilir. Aşığın dil emosionallığı, sərrast fikirləri, əsərlərindəki məntiqi bağlılıq, aydınlıq və rəvanlıq kimi məziyyətlər sənətkarlıq keyfiyyətərini göstərir.

Söz deməyin qaydalarını bilən Ağ Aşığın canlı dili bütün əsərlərinin mayasını təşkil edir:

Ey nazənin, sən geydiyin nə aldır?
Yenə baxışında hansı sualdır.
Birisi büdrəsə qolundan qaldır
Hər zaman dost dosta səbəbkar olmaz [http:/www.goyce.az]

Ağ Aşığın şeir dili göstərir ki, sintaktik xüsusiyyətlər sözlərin poetik birliyinə səbəb olur. Sənətkarın əhvali-ruhiyyəsini bildirən, şəxsiyyətini tanıdan əsərlərin mükəmməl dili aşıq yaradıcılığının inkişaf xüsusiyyətləri ilə bağlıdır.

Aşiq oldun, gərək dərdə dözəsən,
Sinən üstə odlu közlər düzəsən.
Gündoğanla günbatanı gəzəsən
Allahverdi kimi xiridar olmaz [http:/www.goyce.az]

Ağ Aşığın dilində sintaktik təkrarlara da müəyyən qədər yer verilmişdir. Belə ki, cümləni təşkil edən vahidlərin icra etdiyi funksiyanın eyni cümlədə təkrarlanması bədii ovqatın yüksəlməsinə səbəb olur. "Təkrar bir füqur kimi həm leksik, həm də sintaktik vahidlərlə ifadə olunur. Aşıq və el şairlərinin lirik nümunələrində hər hansı fikrin, mənanın gücləndirilməsi ekspressivliyin çatdırılması üçün istifadə olunur, həmçinin hərəkətin sürəkliliyini göstərmək, onu təfsilatı ilə çatdırmaq, yönəltmək, diqqəti daha çox mətnin (poetik mətnin) əsas ideya və məzmununa yönəltmək üçün istifadə olunur [Hüseynova 2017, s.13] Ümumiyyətlə, aşıq şeirində təkrarın intensivlik dərəcəsi yüksəkdir:

Gərdan mina, sürah boyun,
Al-Osmanda yoxdur tayın.
Tutacağam özün toyun,
Ay qız, bil sənin, bil sənin [http:/www.goyce.az]

Ağ Aşığın dilində cümlə üzvlərin sırasının pozulmasına təsadüf edirik. Ağ Aşıq şeirlərində söz sırasının pozulmasında istifadə edərək, onun sintaktik-semantik funksiyasının əksinə onun üslubi funksiyasından istrifadə edərək ahəngdarlığı artırmış, oxucuya xüsusi, bədii zövq vermişdir.

Əlqərəz, ruzumuz oldu üç batman,
Çatınca nobatım sındı dəyirman.
Yerdə qalanını apardı siçan,
Güldü Ağ Aşığa Göyçə mahalı [Namazov, 213, s.271]

Doğma yurdunda aşığın həyatı çox ağır keçmiş, incidilmiş, təhqir edilmiş, digər tərəfdən oğlu İsmayılın vaxtsız ölümü də aşığa bir dərd olmuşdur. Bütün bunları aşıq "Çəkirlər" rədifli qoşmasında inversiyadan istifadə edərək çox aydın ifadə etmişdir:

Sığındım Göyçəyə, bu mahala mən,
Dərdim Sarı Nərdən nərgiz, lala mən.
İtirmişəm İsmayıltək bala mən,
Sinəmə çalın-çarpaz yara çəkirlər [Namazov, 213, s. 271]

Məqalədə təsviri metoddan və müqayisəli metoddan istifadə olunmuşdur.

Müzakirə

Qərbi Azərbaycandan olan aşıqlar, el şairləri, ədiblər öz əsərləri ilə istər Azərbaycan dilinə, istərsə də ədəbiyyatımıza öz dəsti-xətlərini, imzalarını ataraq filologiyamıza əhəmiyyətli töhfələr vermişlər. Saz-söz ustalarımız dilimizi xalqımızın ruhunu, yaşam tərzini, folklor zənginliklərini əsərlərində yaşadaraq bu günə gətirmişlər. Onların əsərlərinin poetik dili, qüvvətli emosionallıq və ekspressivlik keyfiyyətlərinə malik olan və bədii əsərlərin estetik səviyyəsinin qaldırılmasında xidmət edən üslubi xüsusiyyətlər, bədii ifadələr Azərbaycan dilini zənginləşdirmişdir. Qərbi Azərbaycan, o cümlədən Göyçə mahalının aşıqları, el şairlərinin əsərləri müxtəlif yöndən incələnmişdir, amma Ağ Aşıq Allahverdinin yaradıcılığının sintaktik xüsusiyyətləri ilk dəfə tədqiqata cəlb edilmişdir.

Müəyyənləşdirilmişdir ki, Ağ Aşığın subyektiv emosional münasibətlərinin, hiss və duyğularının ifadəsində sintaksisdən faydalanması diqqəti çəkir. Bu baxımdan, ritorik sual cümlələrindən istifadə etmiş, emosionallığı, bədii ovqatın yüksəldilməsi məqsədilə təkrarlara, xitablara müraciət etmişdir. Aşığın yaradıcılığında qeyri-təyini söz birləşməsinin cümlə üzvünün əlavəsi kimi işlənməsi bədii əsərlərin dilini zənginləşdirən və poetikliyi qüvvətləndirən sintaktik vasitələrdən biri kimi istifadə edilmişdir.

Ağ Aşığın yaradıcılığı bir daha təsdiq edir ki, Azərbaycan bədii dili tarixən sürətlə inkişaf edən və bu prosesdə maraqlı xüsusiyyətlər əldə edən qiymətli mənbədir.

ƏDƏBİYYAT

1. Ağ Aşıq Allahverdinin şeirləri. http://www.goyce.az
2. Aşıq ədəbiyyatı antologiyası. Bakı: XalqBank, 2017, s. 179-181.
3. Bəylərova, A. Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 2008, 212 s.
4. Əkbərov, Ə. Müasir Azərbaycan dilinin üslubiyyatı. Bakı: ADPU, 2016, 359 s.
5. Həsənova, S. Nitq mədəniyyəti və üslubiyyat. Bakı: ADPU, 2005, 126 s.

6. Hüseynova, M. Aşıq və el şairlərinin üslubi sintaksisi. Bakı: ASP poliqrAF, 2017, 128 s.
7. Namazov, Q. Ozan-aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480 s.
8. Vahid, T. Ağ Aşığın bəyaz dünyası. Mədəniyyət, 6 may 2011, s. 12.
9. İxtisar: AƏA-Aşıq ədəbiyyatı antologiyası. Bakı: XalqBank, 2017, s. 179-181

ABSTRACT

Ganira ASGAROVA

SYNTACTIC FEATURES IN THE WORKS BY AGH ASHUG

The article analyses the syntactic features of the work of Agh Ashug Allahverdi, the representative of the Goycha school. For this purpose, the linguistic aspects of syntactic units, especially interrogative sentences, are brought to the fore, and interrogative sentences are involved in scientific-theoretical analysis due to various stylistic qualities. Thus, from the point of view of grouping interrogative sentences in the Azerbaijani language both in grammatical and stylistic aspects, these syntactic units are distinguished and studied from the standpoint of linguistic science. The article focuses on the moments when interrogative sentences are used as a factor confirming Agh Ashug's deep knowledge of the Azerbaijani language. So, one group of interrogative sentences, which is used by Agh Ashug, aimed to attract the attention to the issue under consideration, the another group is answered by the author himself, cause to great surprise. Regarding the disclosure of these nuances in the speech, it is concluded that there are such interesting patterns inside interrogative sentences in the language of Agh Ashug that they do not relate to either grammatical or rhetorical types of sentences. These syntactic units are rhetorical because they do not require an answer to the question, and grammatical because they are not artistic. Studies of artistic language show that syntax has greater accuracy of style compared to other branches of linguistics. Thus, all syntactic means are able to attract attention with their dynamism and colorful stylistic shades in the artistic language. In general, the role of syntax in expressing the subjective emotional attitudes, feelings and emotions of the author is great. In this regard, other types of sentences are not excluded. The powerful pronunciation of his address, developed in a poetic text consisting of the usual intonation banners of sentences in Agh Ashug 's work, gives harmony to the sound of words and contributes to the clear transmission of ideas. In this regard, the poem "The world" stands out. The address, which is not connected to the sentence members by any syntactic relation, comes close to them in terms of intonation and logic. In the creativity of Agh Ashug, the processing of undetermined word combination as an addition to the sentence structure has been used as one of the syntactic means that enriches the language of his works and strengthens the poetics. It is known that in the language of the Agh Ashug, sometimes the structure and volume of the sentence do not match. Thus, the sentence structure may be small in volume, but its meaning and intonation fullness and frequency of thought are high. In the poet's poem "Partridge" the first two lines form a simple sentence, and the third line forms a complex sentence with a few knotted sentences, and the resulting complex sentence brings an emotionality to the poem. The works of Agh Ashug once again confirms that the Azerbaijani artistic language is a valuable historically rapidly developing resource, acquiring interesting features in this process.

Keywords: *Agh Ashug, interrogative sentence, appeal, stylistic features, poem "Partridge"*

AĞBABA ŞİVƏSİ VƏ QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

Arifə ZEYNALOVA
arifezeynalova9@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Azərbaycan dialekt və şivələrinin öyrənilməsi dilçiliyin aktual problemlərindəndir. Dialekt və şivələrin lüğət tərkibinin tədqiqi xalqımızın tarixi, adət və ənənələri ilə bağlı dil faktlarının aşkar olunmasında xüsusi əhəmiyyət daşıyır. Dialektologiya ilə məşğul olan alimlərimiz Qərbi Azərbaycanın bir sıra ərazilərinin dialekt və şivələrini araşdırsalar da, onları konkret bir ləhcəyə daxil etməmiş və ya daxil edə bilməmişlər. Qərbi Azərbaycan şivələrinin leksikası zənginliyi, qədimliyi ilə seçilir və diqqəti cəlb edir. Bu şivələrdə tarixin qədim qatları ilə səsləşən sözlər dilimizin tarixi üçün əhəmiyyət daşıyır. Qərbi Azərbaycan şivələrində Orxon-Yenisey abidələri, "Kitabi-Dədə Qorqud" dastanı, M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri ilə səsləşən kifayət qədər sözlər qorunub saxlanmışdır. Azərbaycan haqqında (həmçinin Cənubi Qafqaz) qədim yunan tarixçisi Herodot (b.e.ə. V əsr), coğrafiyaşünas, tarixçi Strabon (b.e.ə. I əsr, b.e-nın I əsri), XVII əsrdə yaşamış səyyahlardan: alman səyyahı Adam Oleari, Osmanlı səyyahı Övliya Çələbi, fransız səyyahı C.Şarden, rus tədqiqatçısı İ.N.Şavrov və s. öz əsərlərində tarixi əhəmiyyəti olan məlumatlar verirlər. İrəvan ərazisinə ermənilərin gəlmə xalq olduqları barədə tarixçi-etnoqraf, tanınmış toponimist Q.Ə.Qeybullayev "Qədim türklər və Ermənistan" adlı kitabında belə yazırdı: "Ermənistan ərazisində azərbaycanlıların ulu əcdadları hələ eradan əvvəl VIII-VII əsrlərdə yaşayırdılar. O zaman ermənilər Kiçik Asiyada məskun idilər. Ermənilər indiki Ermənistan ərazisinə gəlmə olduqlarına görə erməni dilində Ermənistanda qədim toponimlər yoxdur. Ağbaba mahalı tarixən Şərqi Anadoluya aid olub. Bu torpaqlar Qars vilayətinin tərkib hissəsi kimi, 1877-1878-ci illərdə Çar Rusiyası tərəfindən işğal edilərək Tiflis quberniyasının Qars qəzasının Ağbaba nahiyəsi şəklində Rusiyanın tərkibinə qatılıb". Ağbaba şivəsinin lüğət tərkibini keçmiş ictimai quruluşu, qohumluq münasibətlərini, həyat və məişət şəraitini, təsərrüfat məşğuliyyətini: əkinçilik, qoyunçuluq, maldarlıq, quşçuluq və arıçılığı əks etdirən sözlər əhatə edir. Bununla belə, etnoqrafik və onomastik leksikaya aid olan sözlər də çoxdur. Xüsusilə ərazinin relyefi ilə bağlı olaraq danışıqda çoxlu coğrafi terminlər nəzərə çarpır. Ağbaba kəndlərində yaşayanların danışığında Borçalı, Pəmbək, Qaraqoyunlu, Qazax, Tovuz, Gədəbəy və digər qərb bölgəsi kəndlərində yaşayan azərbaycanlıların danışığında rast gəlinən sözlər çoxdur. Elə sözlər də vardır ki, o Ağbaba şivəsi üçün xarakterikdir. Məqalədə bütün bu məsələlər, əsasən Ağbaba şivə və toponimləri araşdırılmış, tədqiqata cəlb edilmiş, onların leksik-semantik xüsusiyyətləri təhlilə cəlb olunmuşdur.

Açar sözlər: *Qərbi Azərbaycan, şivə, toponimlər, dialektlər, Ağbaba, deyimlər, frazeologizmlər, qədim türklər, İrəvan, oykonim, oronim, hidronim, onomastika, toponimlər*

Çoxəsrlik tarixə, zəngin mədəniyyətə malik yerli sakinləri - Azərbaycan türkləri olan, orta əsrlərdə inşa edilmiş əzəmətli memarlıq abidələri ilə şöhrət qazanan Azərbaycan qədim və orta əsrlər dövründə şərəfli bir tarixi yol keçmişdir. Azərbaycan haqqında (həmçinin Cənubi Qafqaz) qədim yunan tarixçisi Herodot (b.e.ə. V əsr), coğrafiyaşünas, tarixçi Strabon (b.e.ə. I əsr, b.e-nın I əsri), XVII əsrdə yaşamış səyyahlardan: alman səyyahı Adam Oleari, Osmanlı səyyahı Övliya Çələbi, fransız səyyahı C.Şarden, rus tədqiqatçısı İ.N.Şavrov və s. öz əsərlərində tarixi əhəmiyyəti olan məlumatlar verirlər. İrəvan ərazisinə ermənilərin gəlmə xalq olduqları barədə tarixçi-etnoqraf, tanınmış toponimist Q.Ə.Qeybullayev "Qədim türklər və Ermənistan" adlı kitabında belə yazırdı: "…Ermənistan ərazisində azərbaycanlıların ulu əcdadları hələ eradan əvvəl VIII-VII əsrlərdə yaşayırdılar. O zaman ermənilər Kiçik Asiyada məskun idilər. Ermənilər indiki Ermənistan ərazisinə gəlmə olduqlarına görə erməni dilində Ermənistanda qədim toponimlər yoxdur. Buna görə də XIX əsrdə bütün əhalisi ermənilərdən ibarət olan kəndlərin və ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları kəndlərin adları da azərbaycanca idi. Onlardan bir neçəsinin adlarına diqqət edək: Babakişi, Karvansaray (Qarnıyarıq), Tayçarıq, Yaycı, Ağadək, Paşali, Ağamzal, Vərməzyar, Cənnətli, Zöhrablı, İmamşalı, Qulaməli, Təzəkənd, Tamamlı, Şirabad, Birəli (Pirəli), Şahab, Ağcaqala, Əlibəyli, Armudlu, Hacıqara, Köçərli, Cəfərabad, Zeyvə, Korpəli, Molla Bəyazid, Molla Dursun, Sərdarabad, Təpədibi, Uzunoba, Xatunarx, Çubuxçu, (Kamalabad), Böyük Şəhriyar, Kiçik Şəhriyar, Böyük Körpü, Hacı Bağır, Gözlü, Güllücə, Dədəli, İlançalan, Gülablı, Molla

Qasım, Saçlı, Damcılı, Ələtli, Əlican, Əli-Qızıl, Daşburun, Qazıqışlaq, Nəcəfli, Xəlfəli, Abasgöl, Molla Kəmər, Ağbulaq, Əlixan, Arıq Vəli, Bəndovan, Baş-Göy, Boz-Abdal, Bazıkənd, Boz-Yoxuş, Güllü-bulaq, Dərbənd, Dərəgöy, Qaraqışlaq, Qanlıca, Qaçaqlı, Göygülü, Düzkənd, Qurdlubulaq, Mahmudcuq, Nalbənd, Palıdlı, Təknəli, Təpədolaq, Toy-Xaraba, Hacıqar, Hacınazqulu, Şiştəpə və b.". Qeyd olunan yer adları onu göstərir ki, ermənilər həmin kəndlərdə sonralar yaşamağa başlamışlar, çünki göstərilən kəndlərin ermənicə adları yox idi. Ümumiyyətlə, Ermənistan ərazisində qədim türk mənşəli toponimlər ilk dəfə b.e.ə. VIII-VII əsrlərə aid Urartu mənbələrində qeyd olunmuşdu. Ağbaba mahalı tarixən Şərqi Anadoluya aid olub. Bu torpaqlar Qars vilayətinin tərkib hissəsi kimi 1877-1878-ci illərdə Çar Rusiyası tərəfindən işğal edilərək, Tiflis quberniyasının Qars qəzasının Ağbaba nahiyəsi şəklində Rusiyanın tərkibinə qatılıb". SSRİ dövründə 1930-cu ilə qədər Gümrü qəzasının Ağbaba nahiyəsi adlanmış, Ermənistan SSR rayonlaşdırılan zaman burada Amasiya inzibati rayonu yaradılmışdır. Ağbaba mahalının bir hissəsi də Qızıl Qoç rayonu ərazisinə düşür. 1920-ci ildən SSRİ-Türkiyə sərhədləri dəqiqləşdirilərkən Ağbaba mahalının Köhnə İbiş və Bəzirkan kəndləri Türkiyə ərazisində qalmışdır. Mahal Qaraxaç silsiləsi, Bazum, Şirək və Qızıl Qoç dağ silsilələri ilə əhatələnmişdir.

1914-1918-ci illərdə Qars vilayətində ermənilərin törətdikləri qırğınların ən qaynar bölgəsindən olan Ağbaba nahiyəsinin əksər və Şörəyel nahiyəsinin bir hissəsi 1921-ci il Qars müqaviləsinə əsasən Ermənistan ərazisinə qatılmışdır.

1930-cu illərdə Vedibasarın, Zəngibasarın, Qəmərli, Dərələyəzin, Ağbabanın və digər bölgələrin əlli mindən artıq türk əhalisi ailəliklə Qazaxıstan çöllərinə sürgün edilmişdilər. Sərt iqlim və bərbad mənzil şəraitinə uyğunlaşa bilməyən əhalinin xeyli hissəsi tələf olmuşdu. Amasiya rayonu dədə-babadan iki mahaldan - Ağbaba və Şörəyeldən ibarət olmuşdur. Ağbaba mahalının 1988-ci ilin sonuna Qoncalı, İbiş, Düzkənd, Çaybasar, Təpəkənd (Təpəköy) Şurabad (Sultanabad), Göllü, Yeniyol (Qaranamaz), Balıqlı, Xançallı, Öksüz, Güllücə, Ellərkənd (Elləryoğun), Quzukənd, Qarabulaq, Çivinli kəndləri vardır. Şörəyelin azərbaycanlı kəndləri isə - Oxçoğlu, Güllübulaq, Çaxmaq, Mağaracıx, Əzizbəyov (Qaraçantey), Daşkörpü olmuşdur.

1988-ci ildən erməni zorakılığı ilə son dəfə qaçqınlığa məruz qalmış ağbabalılar Gəncə, Göygöl, Şamaxı, Mingəçevir, Xırdalan, Bakı, Sumqayıt və digər şəhər və kəndlərdə məskunlaşmışlar. Yüzlərlərlə ailə Rusiyanın Saratov, Krasnodar, Stavropol vilayətində, Tatarıstan, Ukrayna və digər yerlərdə qaçqınlıq həyatı keçirirlər. Bununla belə, Suraxanı, Bayıl (Bakı), Mehtabad, Ceyranbatan, Saray, Xırdalan (Abşeron), Quşçu (Daşkəsən), Yeni Zod, Çaykənd (Göygöl), Yeni Yaşma, Xələc, Məşədi Həsən (Xızı), Qızmeydan (Şamaxı) və digər kəndlərdə toplu halda yaşamaqdadırlar. Əhalinin məşğuliyyəti çətin qış şəraiti, məişət durumu, qoyunçuluq, maldarlıq, arıçılıq, toxuculuq, əkinçiliyin inkişafı, ərazinin zəngin bitki örtüyü, heyvanat aləmi və s. Azərbaycan dilinin digər dialekt və şivələrindən fərqlənən termin səciyyəli sözlər, dərin mənalı frazeoloji birləşmələr, xalq deyimləri və folklor örnəkləri yaratmışdır [Hüseynova, 2015, s.51].

Ağbabıya ged aman,
Çiçəyi cana dərman.
Məktub gəlib köç ilə
Yarı dərd, yarı dərman.

Ağbaba şivəsinin lüğət tərkibini keçmiş ictimai quruluşu, qohumluq münasibətlərini, həyat və məişət şəraitini, təsərrüfat məşğuliyyətini - əkinçilik, qoyunçuluq, maldarlıq, quşçuluq və arıçılığı əks etdirən sözlər əhatə edir. Bununla belə etnoqrafik və onomastik leksikaya aid olan sözlər də çoxdur. Xüsusilə ərazinin relyefi ilə bağlı olaraq danışıqda çoxlu coğrafi terminlər nəzərə çarpır.

Ağbaba kəndlərində yaşayanların danışığında Borçalı, Pəmbək, Qaraqoyunlu, Qazax, Tovuz, Gədəbəy və digər qərb bölgəsi kəndlərində yaşayan azərbaycanlıların danışığında rast gəlinən sözlər çoxdur (Qeybullayev, 1994, s.85). Elə sözlər də vardır ki, o Ağbaba şivəsi üçün xarakterikdir. Məsələn, avar (evin üstünə tökülən ot), sələ (çubuqdan hörülmüş aşsüzən), çiyinnik (hər iki başında çəngəl olan və vedrə ilə su daşımaq üçün işlədilən alət), havlı (koridor), çınqır (vedrə), düngür (iki qohum) - bu söz hazırda bəzi dialekt və şivələrimizdə dünür kimi işlənir, dirgan (yaba) somun (kürədə bişirilən kvadrat çörək), həmçinin Naxçıvan dialektində yabanı bitkinin adı, çəkməcə (təndirin içində bişirilən yemək), fırın (çörək bişirilən soba), çisir (tikanlı məftil), xap etmək (süd dəyişmək), çeçil (kələf pendir), daşdıx (pötənə), pınar (bulaq), qöcük (ətəksiz paltar), çənbər (dairə), təpimək (qurumaq) və s.

Ağbaba şivəsində işlənən sözlər uzun əsrlərin məhsulu olmaqla bərabər, zənginliyi ilə də seçilir. Dialekt leksikasının əsas əlamətləri onların məhdud dairədə işlənməsidir. Burada dilimizin ən qədim dövrləri ilə səsləşən və ədəbi dildə olmayan çoxlu sözlər işlənilir. Ümumiyyətlə, Ağbaba kəndlərində yaşayan Azərbaycan türkləri oğuz, həm də qıpçaq kökənlidirlər. Kəndlərdə yaşayanların danışığından oğuz və qıpçaq elementlərini

çox müşahidə etmək olur. Balıqlı, Quzukənd, Göllü, Sultanabad və Ellərkənd kəndlərində qarapapaqların əsil soyları yaşayırdılar. Ona görə də həmin kəndlərdə yaşayanların danışığında qıpçaq elementlərini də görmək mümkündür. Ağbaba şivəsinin dialekt leksikasında işlənən sözlərin çoxu ona söykək olan Qars, Cıldır, Ərdahan bölgələrinin kəndlərində bu gün də işlənir [Mirzə, 2022, s.46]. Bu təbiidir. Dediyimiz kimi, 1920-ci il Gümrü müqaviləsinədək həm Ağbaba kəndləri, həm də Qars, Cıldır, Axsqa, Axırkələk, Qocabəy eyni coğrafiyada və siyasi quruluşda bir toplum halında əsrlərlə yaşamışlar. Xüsusilə Axırkələk, Əsmincə, Qocabəy, Axısqada yaşayan türklərlə də yaxın qohumluq əlaqələri olmuşdur. Nə yazıq ki, 1944-cü ildə Axsqa türklərini də Orta Asiyaya deportasiya etdilər. Hələ də onlar öz tarixi yerlərinə qayıda bilmir və mücadilə edirlər. Ağbaba şivəsinin lüğət tərkibini keçmiş ictimai quruluşu, qohumluq münasibətlərini, həyat və məişət şəraitini, təsərrüfat məşğuliyyəti - əkinçilik, qoyunçuluq, maldarlıq, quşçuluq və arıçılığı əks etdirən sözlər əhatə edir. Ağbaba ərazisindəki kəndlər Arpagölü ətrafında və Arpa çayın sağ və sol hövzəsində, Gümrü şəhərinə qədər olan ərazilərdə yerləşirdi. Gümrü şəhərindən sonra Arpaçay Türkiyə-Ermənistan sərhədi sayılır. Ta Arazadək bu sərhəd uzanır. Sardarabadın Hacı Bayram kəndində öz mənbəyini Arpa göldən alan və 220 km uzunluğu olan Arpa çayı Araza qovuşur. Bundan sonra isə Araz çayı İran-Azərbaycan sərhəddini davam etdirir. Bunları nəzərə alaraq, Ağbaba və ona yaxın olan ərazilərdə işlənmiş dialekt leksikasını - şivə sözləri, ləqəblər (ayamalar), deyimlər, frazeologizmlər, kəndlərin və kəndlərdə yaşamış tayfaların adları (etnonimlər), təsərrüfatın və əhalinin sayı, etnik tərkibi, tarixi mənbələrdə əks olunan inzibati-ərazi bölgüsü və s. maraq doğurur.

Ağbaba şivəsinin müxtəlif, fonetik, leksik və qrammatik xüsusiyyətləri vardır. Ahəng qanununun möhkəmliyi: qalın və incə saitlərin sıralanmasında daha çox özünü göstərir: ılğım, gəlməx', kəpənək, qurulu, burux, əvəlix' və s.

Bəzi kəndlərdə dodaq ahənginin möhkəm olması: ölöm, quror, görmüyüf, uçuf, gözdüyür, oxloy, göör, düror və s. Av, öv səs birləşmələrinin oy, o, öy, ö şəkillərində və ya üy birləşməsinin diftonq kimi işlənməsi: doyşan //doşan //douşan,buzov//buzoy, kövşən//köyşən//köşən, touq, soux və s.

Bir çox sözlərdə ı, i, ü səslərinin qısalması vardır: kişi, pişi, pilov, piçax, putün və s.

Sözün birinci hecasında a, o, ö, e, səslərinin daha aktiv işlədilməsi: etmax, elex', erdex', aavmax, gehmax və s.

Qərbi Azərbaycan şivələrinin leksikası zənginliyi, qədimliyi ilə seçilir və diqqəti cəlb edir. Bu şivələrdə tarixin qədim qatları ilə səsləşən sözlər dilimizin tarixi üçün əhəmiyyət daşıyır. Qərbi Azərbaycan şivələrində Orxon-Yenisey abidələri, "Kitabi-Dədə Qorqud" dastanı, M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri ilə səsləşən kifayət qədər sözlər qorunub saxlanmışdır. Ağız (ağuz) sözü Çəmbərək, Karvansaray şivələrində "yenicə doğmuş inək, camış və qoyunun ilk südü" mənasında işlənir. Ağız Şəki, Zaqatala, Qax şivələrində "qaramalın doğandan sonra ilk südü", Ağdaş, Qax, Zərdab və Şəki şivələrində həm də "yeni doğan qaramalın ilk südündən bişirilən yemək" (pendir kimi olur) mənalarını ifadə edir. Ağız sözü M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində ağuc fonetik formasında işlənmişdir və lüğətdə göstərilir ki, ağuc "ağız südü", "inək və ya qoyun doğandan sonra sağılan ilk süd" mənasını bildirir. Anarı sözünə "o tərəf" mənasında Ağbaba şivəsində anari, Çəmbərək şivəsində anarı, anqarı fonetik formalarında rast gəlinir. Anarı Gəncə, Qazax, Şəmkir, Tovuz şivələrində "o tərəf, o yan", "o biri tərəf", "kənar" mənalarında işlənir. Anarı "Kitabi-Dədə Qorqud" dastanında da "o tərəf" mənasında işlənmişdir. Arı sözü Qərbi Azərbaycanın Çəmbərək, Dərələyəz şivələrində "təmiz, saf, pak" mənasını bildirir. Arı sözünün Qazax, Quba, Füzuli, Ağdam, Şahbuz, Şəmkir, Tovuz şivələrində də eyni mənada işləndiyinə rast gəlirik. Bu söz Bakı, Xaçmaz şivələrində ari fonetik formasında işlənir. Arı sözünə "Kitabi-Dədə Qorqud" dastanında "təmiz" mənasında həm an, həm də aru fonetik formalarında rast gəlinir. Qədim leksik vahid kimi arı M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində eyni mənada arığ formasında işlənmişdir. Arı Qərbi Azərbaycan Ağbaba, Qarakilsə (Sisyan), Çəmbərək, eləcə də Azərbaycanın Qazax, Şəki şivələrində "təmizləmək" mənasında işlənən arıtdamax, müasir Azərbaycan ədəbi dilində işlənən arıqlamaq sözündə də arı öz izini qoruyub saxlamışdır. Qərbi Azərbaycan şivələrində işlənən qədim sözlərdən bir də aş sözüdür. Aş Qərbi Azərbaycanın Çəmbərək, Zəngibasar şivələrində "plov", Basarkeçər şivəsində plovla yanaşı, "ərişdə" mənasını bildirir. Aş "Kitabi - Dədə Qorqud" dastanında "xörək", "yemək", "bişmiş", M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində "yemək", "aş" mənasında işlənmişdir. Qərbi Azərbaycanın Çəmbərək, Vedibasar, Zəngibasar şivələrində bağır sözü "bağır, qucaq, sinə, ürək" mənalarını bildirir. Bu sözə "ürək, qəlb" mənasında Quba, Şəki, Ağdam, Cəlilabad, Füzuli şivələrində rast gəlinir. Bağır "Kitabi-Dədə Qorqud" dastanında "ürək, qəlb" mənasında işlənmişdir. Qərbi Azərbaycanın Ağbaba, Hamamlı, Vedi, Zəngibasar şivələrində öynə "dəfə, bir dəfə, bir oturun", Çəmbərək şivəsində "günorta yeməyi", Dərələyəz şivəsində vaxt, mal-qaranın sağıldığı vaxt, heyvanlara ot-ələf verilən vaxt mənalarını bildirir. Eşik sözü Qərbi Azərbaycanın Ağbaba, Böyük Qarakilsə, Calaloğlu, Çəmbərək, Kəvər, Vedi, Zəngibasar şivələrində "həyət, bayır", "qapı-baca" mənalarını bildirir. Eşik eyni mənada "Kitabi-Dədə Qorqud"da işlənmişdir. Eşik Naxçıvan, Oğuz, Tovuz, Zaqatala şivələrində "həyət" mənasında işlənir.

Azərbaycanın ərazisi və orada əzəldən yaşamış qədim tayfalar haqqında ilk və geniş məlumat "Tarixin atası" adlanan qədim Yunan tarixçisi Herodotun "Tarix" əsərində verilmişdir (Heredot, I-V kitab, s.71). Mənbələrdə ən qədim türk tayfalarının Azərbaycanda b.e.ə. III-I minilliklərdə yaşadıqları göstərilməklə yanaşı, Azərbaycanın əzəli və yerli sakinlərinin türk tayfalarından ibarət olduğu təsdiq olunmuşdur. Təsadüfi deyil ki, Əməvilər sülaləsinin (661-750) 1-ci nümayəndəsi xəlifə Müaviyyə (661-680) türklərin Azərbaycanla əlaqəsini soruşanda, ona vəziri belə cavab vermişdir: "Azərbaycan qədimdən türk tayfaları tərəfindən məskunlaşmış ölkədir". Tarixdən məlumdur ki, Azərbaycanın, həmçinin Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinləri Azərbaycan türkləri olduğu halda, ermənilər isə bu ərazilərə Çar Rusiyasının təşəbbüsü ilə tarixin müəyyən mərhələlərində xarici ölkələrdən köçürülərək gəlmə bir xalqdır. İrəvan ərazisinə, o cümlədən Azərbaycanın dilbər güşəsi olan Qarabağa və digər ərazilərə XIX-XX əsrlərdə Rus imperiyası tərəfindən İrandan və Türkiyədən, həmçinin XX əsrdə Yunanıstan, Suriya, Fransa və s. ərazilərdən köçürülərək yerləşdirilmişdir. Bu barədə rus tədqiqatçısı İ.N.Şavrov yazırdı: "1828-ci ildən 1830-cu iləd̆k biz Zaqafqaziyaya 40 mindən çox İran və 84600 Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol (Gəncə) (Qarabağ ərazisi bu quberniyaya daxil idi) və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirdik. "…1896-cı ildən 1908-ci ilə kimi Zaqafqaziyaya, o cümlədən Qarabağa 400-min erməni köçürülmüşdür". İrəvan ərazisinə ermənilərin gəlmə xalq olduqları barədə tarixçi-etnoqraf, tanınmış toponimist Q.Ə.Qeybullayev "Qədim türklər və Ermənistan" adlı kitabında belə yazırdı: "…Ermənistan ərazisində azərbaycanlıların ulu əcdadları hələ eradan əvvəl VIII-VII əsrlərdə yaşayırdılar. O zaman ermənilər Kiçik Asiyada məskun idilər. Ermənilər indiki Ermənistan ərazisinə gəlmə olduqlarına görə erməni dilində Ermənistanda qədim toponimlər yoxdur. Buna görə də XIX əsrdə bütün əhalisi ermənilərdən ibarət olan kəndlərin və ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları kəndlərin adları da azərbaycanca idi. Onlardan bir neçəsinin adlarına diqqət edək: Babakişi, Karvansaray (Qarnıyarıq), Tayçarıq, Yaycı, Ağadək, Paşali, Ağamzal, Vərməzyar, Cənnətli, Zöhrablı, İmamşalı, Qulaməli, Təzəkənd, Tamamlı, Şirabad, Birəli (Pirəli), Şahab, Ağcaqala, Əlibəyli, Armudlu, Hacıqara, Köçərli, Cəfərabad, Zeyvə, Korpəli, Molla Bəyazid, Molla Dursun, Sərdarabad, Təpədibi, Uzunoba, Xatunarx, Çubuxçu, (Kamalabad), Böyük Şəhriyar, Kiçik Şəhriyar, Böyük Körpü, Hacı Bağır, Gözlü, Güllücə, Dədəli, İlançalan, Gülablı, Molla Qasım, Saçlı, Damcılı, Ələtli, Əlican, Əli-Qızıl, Daşburun, Qazıqışlaq, Nəcəfli, Xəlfəli, Abasgöl, Molla Kəmər, Ağbulaq, Əlixan, Arıq Vəli, Bəndovan, Baş-Göy, Boz-Abdal, Bazıkənd, Boz-Yoxuş, Güllü-bulaq, Dərbənd, Dərəgöy, Qaraqışlaq, Qanlıca, Qaçaqlı, Göygülü, Düzkənd, Qurdlubulaq, Mahmudcuq, Nalbənd, Palıdlı, Təknəli, Təpədolaq, Toy-Xaraba, Hacıqar, Hacınazqulu, Şiştəpə və b." [Qeybullayev, 1992, s. 65]. Qeyd olunan yer adları onu göstərir ki, ermənilər həmin kəndlərdə sonralar yaşamağa başlamışlar, çünki göstərilən kəndlərin ermənicə adları yox idi.

Tarixi abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi Azərbaycanla bağlıdır. Dastanda adı çəkilən Şirökuvən, Altuntaxt, Göyçə gölü oğuz qəhrəmanlarının doğma yurdları olub və bu ərazilər indi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi daxilində yerləşir. Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olub, ermənilər isə xaricdən bu ərazilərərə köçürülmüşdür. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərindən 90 faizdən çoxunu türk mənşəli sözlər təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək ermənileşdirilib.

Qərbi Azərbaycanın İrəvan əyalətində qədim dövrdə, erkən və orta əsrlərdə mövcud olmuş türk mənşəli toponimlərin Azərbaycan türkcəsində olması bir daha Azərbaycan türklərinin Qərbi Azərbaycan ərazisinin qədim və yerli sakinləri olduğunu və orada əzəldən yaşadıqlarını sübut edir. Araşdırma nəticəsində aydın olur ki, ermənilər Qərbi Azərbaycanın İrəvan əyalətinə və b. ərazilərə gəlmə olduğundan, eyni zamanda orada yaşayan yerli əhalinin Azərbaycan türkləri olduğundan oradakı (İrəvan) qədim yer adları ermənicə deyil, məhz Azərbaycan türkcəsindədir. Bundan başqa, Qərbi Azərbaycanın yerli sakinlərinin Azərbaycan türklərindən ibarət olmasını təsdiqləyən digər tarixi faktlardan biri də İrəvanda orta əsrlərdə inşa edilmiş Azərbaycan-türk memarlıq abidələrinin olmasıdır. Qərbi Azərbaycan ərazisində inşa edilmiş orta əsr Azərbaycan-türk memarlıq abidələri İrəvanın tarixində əhəmiyyətli bir yer tutmaqdadır.

1828-ci ildən, Türkmənçay sülh müqaviləsi imzalandıqdan sonra müqavilənin şərtlərindən biri kimi, İrandan imperiya sərhədlərinə qatılmış ərazilərdəki demoqrafik vəziyyəti dəyişmək üçün İrəvan və Qarabağ xanlıqlarının mövcud sərhədləri içinə köçürülən ermənilər XIX əsrin 60-70-ci illərindən başlayaraq azərbaycanlılara qarşı analoji siyasətin əsasını qoydular. Uzun müddət ərzində tətbiq edilən həmin siyasətə dövlət müstəqilliyimizin bərpasından sonra ikinci dəfə hakimiyyətə gələn xalqımızın Ümummilli Lideri Heydər Əliyevin iradəsi ilə hüquqi-siyasi qiymət verildi. Ulu Öndər 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci avqustun 22-də "Erməni millətçilərinin

apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanları imzaladı. Bu fərmanlardan irəli gələn müddəalar bir sıra elm adamları qarşısında yeni vəzifələr qoydu, bu mövzuda yeni-yeni təqdqiqatların aparılmasına stimul verdi.

Tarixdə saxtakarlıq və sünilik sahəsində birinci olan ermənilər 200 ilə yaxındır Qərbi Azərbaycanda bizim tariximizi saxtalaşdırmaqla, türk mənşəli toponimləri dəyişdirib ermənileşdirməklə məşğul olur. Daşnak ermənilərin planında türklərə aid torpaqları ələ keçirmək, onları öz yurdlarından qovmaq əsas məsələ olub. Ermənilər bu işə əvvəlcə mənəvi təxribatdan başlayıb. Yer-yurd adlarımızın, toponimlərimizin adlarının ermənileşdirilməsi bu məkrli siyasətin tərkib hissəsidir. Ermənilər indiyə qədər minlərlə türk mənşəli toponimin dəyişdirilməsini həyata keçirib. Onlar kənd, rayon adlarını ermənileşdirməklə işlərini bitmiş hesab etmir, dağ, meşə, bulaq və s. adlarını da saxtalaşdırır. Toponimlərimizi ermənileşdirən ermənilərin saxtakarlığını ifşa edən arxiv materialları çoxdur. 1903-cü ilə aid olan coğrafi xəritə erməni iddialarını alt-üst edib. Söhbət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2012-ci il tarixli Sərəncamına əsasən o vaxtkı Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən çap olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsindən gedir. Üç dildə - Azərbaycan, rus və ingilis dillərində nəşr olunan xəritələrin nüsxə sayı hər bir dildə 25 min ədəddir. Xatırladaq ki, "Karta Kavkazskoqo Voennoqo Okruqa 1903-qo qoda" xəritəsi ümumilikdə bütün Qafqazı əhatə edir. 1903-cü il xəritəsi Qafqaz Hərbi Dairəsinin litoqrafiya və hərbi topoqrafiya şöbəsində tərtib olunub. Xəritə XX əsrin lap başlanğıcında nəşr edildiyi üçün bədnam qonşularımızın əsassız iddialarına cavab vermək məsələsində mühüm əhəmiyyətə malikdir. Xəritəyə baxan hər kəs görür ki, indiki Ermənistanın bütün toponimləri Azərbaycan-türk mənşəlidir. Tarixi sənədlərə nəzər salsaq, görərik ki, onlar İrəvanın lap yaxınlığında yerləşən Molla Dursun, Kərpicli, Yeni Bəyazit, Qaraqola, Qızıldağ, Ahdağ və sair toponimlərimizi dəyişdirib. Bunlar Prezidentimizin Sərəncamı ilə nəşr olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsində də yer alan toponimlərdir. O xəritəni indiki Ermənistan ərazisilə müqayisə etdikdə görürük ki, burada erməni mənşəli tək-tük yaşayış məntəqələrinə rast gəlinir. Dağ, çay, çöl, meşə, düzəngah, el-oba adlarının 99 faizi tamamilə türk mənşəlidir. Məlumdur ki, dağ, çay adları yaşayış məntəqələrindən daha əvvəl yaranıb. Bu da bu ərazilərdə bizim babalarımızın daha erkən dövrlərdə yurd saldığını, ocaq qaladığını sübut edən faktdır. Xəritədən də aydın görsənir ki, bura azərbaycanlılara mənsub bir ərazidir.

Qeyd edək ki, Qaraqoyunlu dövləti zamanında bir yaşayış məskəni olan və bu dövlətin qurulmasında onun sakinlərinin əməyi az olmayan tayfalardan biri baranalılar olub. Çox əski türk qolu olan baranalılar Qərbi Azərbaycanda yaşayıb. Bir zamanlar Barana tayfasının adı ilə böyük bir rayon mövcud olub. Belə ki, Barana rayonu Qərbi Azərbaycanda çox məşhur olan bir rayon idi. Sonra onun adı dəyişdirilərək Noyemberyan rayonu adlandırılıb. Türk mənşəli toponim olan Barana o vaxt Gəncə quberniyasının Qazax qəzasının nəzdində olub. Ermənilər bu rayonun adını saxtalaşdırmaqla özlərini ifşa ediblər. Barana adını yaddaşlardan silmək onlara nəsib olmayıb. Sonra bu rayonun Əskipara kəndinin adı dəyişdirilərək əvvəlcə Sarxan, sonra isə Voskipar qoyulub. Əskipara toponiminin mənası qiymətli, qızıl pul, bahalı yer deməkdir. Aşağı Körpülü kəndinin adı isə Axtanaq edilib. Rayonun Calakənd toponimi ermənileşdirilərək Mikçnazor, God Şavar-Şavan, Qalaça Bertavan, türk kökənli Lənbəli toponimi isə Baqrataşenə çevrilib. Baqrataşen sözünün son şəkilçisi də türk mənalıdır. Şen sözü türkcə şenlik-kənd, oba, işıq gələn yer, xoşbəxtlik, abadlıq sözünün qısaldılan sinonimidir. Barananın bir addımlığında yerləşən Allahverdi rayonu isə türk-islam mənşəli toponim olmasına baxmayaraq, ermənilər tərəfindən Tumanyan adlandırılıb.

Azərbaycan tarixində misilsiz yeri olan Göyçə mahalı Göyçə gölünün sahilləri boyu geniş bir ərazini əhatə edən dədə yurdlarımızdandır. Bu ərazi Rusiya çarlığına müharibə yolu ilə birləşdirilənə qədər İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti zamanında Göyçə mahalı süni şəkildə beş inzibati rayona bölünüb. Onlar Çəmbərək, Basarkeçər, Aşağı Qaranlıq, Kəvər və Yelenovka rayonlarıdır. Basarkeçər adının sonradan Vardenisə çevrilməsi türk mənşəli bir toponimin üzərinə edilən növbəti erməni təcavüzüdür. Göyçə mahalı Azərbaycan folklorunun, aşıq sənətinin vətənlərindən biri kimi məşhurdur. Bu mahal türk mənşəli toponimlərlə zəngindir. Həmin toponimlərin əksəriyyəti dəyişdirilsə də, onların adları bədii ədəbiyyatımızda, yaddaşlarda yaşamışdır.

Yeri gəlmişkən bir məsələni də qeyd etməliyik ki, istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan toponimlərinin, tarixi keçmişinin araşdırılmasına böyük əmək sərf edən dəyərli alimlərimiz olub. Belə alimlərimizdən biri də filologiya elmlər doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan dilçilik məktəbində daha çox feilşünas-alim kimi tanınan Həsən Mirzəyev idi. Onun 540 səhifəlik "Azərbaycan toponimləri və şivə sözləri" kitabının 250-dən çox səhifəsi Dərələyəz mahalının toponimlərinə həsr olunub ki, bu da bölgənin toponimiyasını bütövlükdə əhatə edir və ərazinin oykonimiyası, etnonimiyası, oronimiyası, hidronimiyası ilə bağlı oxucuda tam və aydın, dolğun təsəvvür yaradır.

Qərbi Azərbaycan tariximizin unudulmaz bir parçasıdır. Ürək ağrıdan, qəlb göynədən parçası. Bu torpaqlarda Dədə Qorqud qopuz çalıb, söz qoşub, igidlərə ad verib, Koroğlu qarı düşmənə gücünü göstərib, Aşıq Ələsgər dağlarımızı, buz bulaqlarımızı, güllü-çiçəkli torpağımızı vəsf edib. Qərbi Azərbaycan torpağı Azərbaycan elminə görkəmli şəxslər - ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü, öz yeri olan şəxslər bəxş edib.

Tarixi yaddaşımızın bərpasına və qorunaraq gələcək nəsillərə çatdırılmasına hər zaman böyük önəm verən Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən deyib: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

Ölkə başçısının Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə dediyi: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar" sözlərinin hər birimizdə yaratdığı böyük inama güvənərək bir daha qeyd etmək istəyirik ki, Azərbaycan torpaqlarının yaddaşı olan, pasportuna çevrilən yer-yurd adları yenidən vətəndaşlıq hüquq qazanmaqdadır. Dövlət başçımız, Ali Baş Komandanımız İlham Əliyevin güclü siyasi ideyası, ordumuzun əzmi, xalqın birliyi sayəsində torpaqlarımızın düşmən tapdağından azad edilməsi bizi buna tam inandırır.

ƏDƏBİYYAT

1. Kitabi-Dədə Qorqud: əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004.
2. Bədəlova, A. Qərbi Azərbaycan şivələri lüğəti. Ankara: 2023
3. Budaqov, B., Qeybullayev, Q. Qarabağın etnik məskunlaşma tarixi və toponimləri. Bakı: 2023
4. Ələkbərli, Ə. Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz. Bakı: Elm və təhsil, 2020
5. Mirzə, H. Azərbaycan toponimləri və şivə sözləri. Bakı: 2022
6. Heredot. Tarix əsəri / https://kitabxana.net/files/books/file/1331842212.pdf
7. Bayramov, İ. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti. Bakı: Elm, 2000
8. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqiətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2012
9. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: 2002
10. Hüseynova, M. Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığında dialektizmlərin öyrədilməsinə dair (Dərələyəz mahalı üzrə), (metodik vəsait). Bakı:
11. "Vətən" nəşriyyatı, 2015
12. Hüseynova, M. XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası (Dərələyəz mahalı üzrə). ADPU-nun nəşriyyatı, 2015.
13. Kaşğari, M. Divani-lüğət-it-türk. Bakı: Ozan, 2006, 400 s.
14. Qeybullayev, Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: 1994
15. Qeybullayev, Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992

ABSTRACT

Arifa ZEYNALOVA

AGBABA DIALECT AND RESEARCH ISSUES OF WESTERN AZERBAIJAN TOPONYMS

The study of Azerbaijani dialects and accents is one of the actual problems of linguistics. The study of the vocabulary compopsition of dialects and accents is of special importance in revealing linguistic facts related to the history, customs and traditions of our people. Although our scholars dealing with dialectology studied the dialects and accents of a number of areas of Western Azerbaijan, they did not or could not include them in a specific dialect. The lexicon of Western Azerbaijani accents stands out for its richness and antiquity and attracts attention. The words in these dialects that resonate with ancient layers of history are important for the history of our language. In Western Azerbaijani accents, enough words have been preserved that resonate with the Orkhon-Yenisei monuments, the "Kitabi-Dade Gorgud" epic, and the work "Divani-lugat-it-turk" by M. Kashgari. About Azerbaijan (as well as South Caucasus) ancient Greek historian Herodotus (5th century BC), geographer, historian Strabo (1st century BC, 1st century BC), travelers who lived in the 17th century: German traveler Adam Oleari, Ottoman traveler Evliya Chalabi, French traveler J. Chardin, Russian researcher I.N. Shavrov, etc. provide information of historical importance in their works. Speaking about the fact that the Armenians are foreign people to the Yerevan territory, the historian-ethnographer and well-known toponymist G. A. Geibullayev in his book, "Ancient Turks and Armenia", wrote as follows:"... the great ancestors of the Azerbaijanis lived in the territory of Armenia in the VIII-VII centuries BC. At that time, Armenians lived in Asia Minor. As Armenians are people from other territories to the current territory of Armenia, there are no ancient toponyms in the Armenian language. Aghbaba district historically belonged to Eastern Anatolia. As a part of Kars province, these lands were occupied by Tsarist Russia in 1877-1878 and joined Russia in the form of Agbaba district of Kars district of Tbilisi province. The vocabulary composition of Agbaba accent includes words that reflect the past social structure, kinship relations, life and household conditions, economic occupation - farming, sheep farming, livestock, poultry and beekeeping. However, there are also many words belonging to the ethnographic and onomastic lexicon in that same accent. Many geographical terms are noticeable in conversation, especially in connection with the relief of the area. Many words used in the speech of Azerbaijanis living in Borchali, Pambak, Garagoyunlu, Gazakh, Tovuz, Gadabay and other villages of the western region are also found in the speech of people living in Aghbaba villages. There are also words that are distinctive to the Agbaba dialect. In the article, all these issues, mainly Agbaba dialects and toponyms were investigated and included in the research as well as their lexical-semantic features were analyzed.

Keywords: *Western Azerbaijan, dialect, toponyms, dialects, Agbaba district, phraseologisms, ancient Turks, Iravan, oikonym, oronym, hydronym, onomastics, toponyms*

QƏRBİ AZƏRBAYCAN VƏ NAXÇIVAN ŞİVƏLƏRİNİN ORTAQ FONETİK XÜSUSİYYƏTLƏRİ

Nuray ƏLİYEVA
naliyeva22@mail.ru
Orcid iD: 0000-0003-0223-5199
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycan və Naxçıvan şivələri fonetik cəhətdən müqayisəli araşdırılaraq göstərilir ki, bu şivələrin bir çox ortaq xüsusiyyətləri var. Qərbi Azərbaycan və Naxçıvan coğrafi baxımdan da bir-birinə yaxın olduğuna, Qərbi Azərbaycan Naxçıvanla Azərbaycanın digər bölgələri arasında keçid ərazidə yerləşdiyinə görə bu şivələrdə dilin müxtəlif səviyyələri üzrə bir çox paralellər aşkarlanır ki, bunların da böyük bir hissəsi fonetik bənzərliklərdir. Bu bənzərliklər səslərin variantlarında, səs əvəzlənmələrində, səs artımı və səs düşümü, assimilyasiya, dissimilyasiya hadisələrində daha çox müşahidə olunur. Məlumdur ki, Azərbaycan dili şivələrində sait səslərin uzun, qısa, burun variantları mövcuddur. Həm Qərbi Azərbaycan, həm də Naxçıvan şivələrində bütün saitlərin uzun variantı var. Səs əvəzlənmələri baxımından da Qərbi Azərbaycan və Naxçıvan şivələrində bir çox ortaq xüsusiyyətlər müşahidə olunur. a>e, ö>ə, u>i, a>o, i>ü, o>u, i>ə, ə>e, b>f əvəzlənmələrində paralellər daha çox özünü göstərir. Bəzən burada hadisə ilə yanaşı, onun baş verdiyi leksik vahidlər də ortaq ola bilir. Qərbi Azərbaycan və Naxçıvan şivələrinin ortaq xüsusiyyətləri təkcə səs əvəzlənmələri ilə məhdudlaşmır. Burada digər fonetik hadisələrin, xüsusən səs artımı hadisəsinin təzahüründə üst-üstə düşən məqamlar çoxdur. Belə ki, hər iki şivə qrupunda sözün əvvəlinə y, h samitlərinin artımı geniş şəkildə var. Qərbi Azərbaycanın deportasiyaya məruz qalmış əhalisinin bir qismi Naxçıvanda məskunlaşmış, nəticədə onların məskunlaşdığı ərazilərdə şivə xüsusiyyətləri də qaynayıb-qarışmışdır. Bölgə əhalisinin bu cür dağınıq halda məskunlaşması onların şivələrinin öyrənilməsi işini çətinləşdirsə də, bu bölgənin dil xüsusiyyətlərinin toplanması, öyrənilməsi günümüzdə olduqca aktualdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Naxçıvan, şivə, fonetika, paralellik*

Giriş

Azərbaycan dili şivələrinin fonetikası özünəməxsusluğu ilə seçilir. Burada ədəbi dildən fərqli bir sıra fonetik xüsusiyyətlər özünü göstərir. Şivələrin fonetikasının hərtərəfli tədqiqi göstərir ki, ədəbi dillə şivələr arasında olan fərqlər özünü daha çox fonetikada göstərir. Şivələrimiz fonetik cəhətdən dilimizin qədim mənzərəsinin yaşadılması baxımından ən önəmli mənbə hesab oluna bilər. Burada qədim yazılı abidələrimizdə, ilk anadilli ədəbiyyat nümunələrimizdə, dastanlarımızda rast gəldiyimiz, türk dilləri üçün xarakterik sayılan bir çox fonetik xüsusiyyətlər mühafizə olunur ki, onları bu gün ədəbi dilimizdə görə bilmirik. Eyni zamanda şivələrimizin fonetikası ədəbi dildən fərqli olaraq, türk dilləri və onların dialekt, şivələri ilə bir çox ortaq xüsusiyyətləri də özündə yaşadır. Fonetikada özünü göstərən məhəlli xüsusiyyətlər sözün mənasına təsir göstərmir. Lakin bu fərqlər hər hansı bir şivənin tarixən necə formalaşması, onun dil əlaqələri baxımından çox böyük əhəmiyyət kəsb edir.

Qərbi Azərbaycan və Naxçıvan şivələri Azərbaycan dilinin dialektoloji təsnifində eyni şivə qrupuna – cənub qrupuna daxil edilir. Cənub qrupu şivələri bənzər xüsusiyyətlərinə əsasən təsnif edilsə də, onlarda müəyyən fərqli cəhətlər də özünü göstərir. Lakin bu qrupa daxil olan şivələr ərazi baxımından da bir-birinə yaxın olduğu üçün burada bir çox ortaq xüsusiyyətlər vardır. Bu ortaqlıqlar dilin müxtəlif səviyyələrində təzahür edir. Bunların içərisində ən çox diqqəti cəlb edən fonetik və leksik bənzərliklərdir.

Material və metodlar

Məqalədə ayrı-ayrı müəlliflər tərəfindən toplanmış və tədqiq olunmuş Qərbi Azərbaycan şivələrinə aid dialektoloji materiallar və tərəfimizdən toplanmış Naxçıvan şivələrinə aid materiallar müqayisəli şəkildə araşdırılmışdır. Araşdırma zamanı müqayisəli, təsviri, müqayisəli-qarşılaşdırma metodlarından istifadə olunmuşdur.

Uzun saitlər. Qərbi Azərbaycan və Naxçıvan şivələrinin fonetikası bir çox cəhətdən ortaq xüsusiyyətlərə malikdir. Bu bənzərliklər səslərin variantlarında, səs əvəzlənmələrində, səs artımı və səs düşümü, assimilyasiya,

dissimilyasiya hadisələrində daha çox müşahidə olunur. Məlumdur ki, Azərbaycan dili şivələrində sait səslərin uzun, qısa, burun variantları mövcuddur. Həm Qərbi Azərbaycan, həm də Naxçıvan şivələrində bütün saitlərin uzun variantı var. Bu variantların hər biri müxtəlif amillərin təsiri ilə meydana gəlir. Bu amillər də hər iki şivədə bəzi hallarda eyni olur. Məsələn, uzun i səsi Azərbaycan dilinin əksər şivə qruplarında qeydə alınmışdır. Qərbi Azərbaycan şivələrində saitlə bitən feillərə -ib, -əcək zaman şəkilçiləri artırıldıqda da bitişdirici y samiti düşür və i səsi uzanır: gəlmi:f "gəlməyib", bilmi:f "bilməyib", gətiräji:x' "gətirəcəyik", biläji:x' "biləcəyik" və s. [İ.Bayramov, 2016, s.23]. Naxçıvan şivələrində də uzun i səsi eyni fonetik şəraitdə yaranır. Qeyd edək ki, dilimizin digər şivələrində i səsinin uzanması Naxçıvandakına nisbətən daha çox müşahidə olunur. Bunun isə əsas səbəbi, fikrimizcə, yerli əhalinin tələffüzündə i səslərinin daha çox ı səsi kimi, ı məxrəcində ifadə olunması ilə bağlıdır. Çünki Naxçıvanın əksər rayon və kəndlərində, xüsusən Ordubad şivələrində i səsinin ı səsi ilə əvəzlənməsi özünü geniş şəkildə göstərir. Bu zaman isə əslində i ilə olan sözlər ı ilə deyilir və ı səsi uzanmış olur: ətı:n "ətinin", əvı:n "evinin", yedı:vı "yediyini", geyimı: "geyimini".

Səs əvəzlənmələri. Səs əvəzlənmələri baxımından Qərbi Azərbaycan və Naxçıvan şivələrində bir çox ortaq xüsusiyyətlər müşahidə olunur. a saitinin e saiti ilə əvəz olunmasına Qərbi Azərbaycanın Meğri şivələrində daha çox sözün birinci hecasında y samitindən əvvəl təsadüf olunur: qeyiş, qeyin, qeyməx, yeyləx, ağcaqeyin, Yediyar, Azırbeycan [Ə.Əliyev, 2003, s.73]. Bu hadisə zamanı y səsinin təsiri altında arxasıra saitinin önsıra saitinə keçməsi ilə səs əvəzlənməsi baş verir. Naxçıvan şivələrində də a>e hadisəsi, demək olar ki, Meğri şivələri ilə eynidir. Burada səs əvəzlənməsinin baş verdiyi leksik vahidlər də təxminən eynidir. Belə ki, Şahbuzun Kolanı, Sələsüz, Güney Qışlaq kənd şivələrində yeylax "yaylaq" sözündə, Biçənək, Yuxarı Qışlaq, Ağbulaq, Gömür, Nursu, Türkeş və Keçili kəndlərində isə ceydax sözündə, əksər kəndlərdə isə qəleyçi sözündə bu əvəzlənmə müşahidə olunur. Tədqiqatçılar Culfa və Ordubad şivələrində əzreil, əceib, arxeyin, qeymax [L.Səfərova, 2019, s.29] sözlərində bu hadisəni müşahidə etmişdir. Kəngərli rayonunun Çalxanqala kənd şivəsində müşahidə etdiyimiz Yedyar, Nehrəm kənd şivəsində Azırbeycan sözlərində də bu əvəzlənmə Meğri şivələri ilə paralellik təşkil edir. Çalxanqala kəndinin əsas etibarilə Qərbi Azərbaycandan deportasiya olunmuş sakinlərdən ibarət olduğunu nəzərə alsaq, bu halı da həmin bölgənin dil xüsusiyyəti kimi qeyd etmək olar.

ö>ə. ö saitinin ə saiti ilə əvəzlənməsi hadisəsi cənub ləhcəsinə məxsus olan fonetik hadisələrdəndir. Qərbi Azərbaycan şivələrində: əmir "ömür", əvlad, bədləvin, gəvrex' [Ə.Əliyev, 2003, s.90] sözlərində bu hadisəyə rast gəlirik. Dilimizin digər şivə qruplarında, xüsusən şimal-şərq ləhcəsində də bu əvəzlənmə tez-tez müşahidə olunur. Naxçıvanda daha çox Ordubad rayonu şivələrində müşahidə olunan ö>ə əvəzlənməsi digər rayon və kəndlərdə də özünü göstərir. Bu fonetik hadisə Naxçıvan şivələrində əsasən Qərbi Azərbaycan şivələri ilə eyni fonetik mövqedə daha çox sözün ilk hecasında və v samitindən əvvəl qeydə alınır: əvlat, kəfşən//kəvşən, dəvlət, məviz, gəvşəməx', həfsələ//həvsələ, bənəvşə, dəvri-qədim, həfgələməx', gəvşəx', əvnə. Naxçıvan şivələrində bəzən sözün son hecasında da ö>ə hadisəsi baş verir: kösəv, bitəv, biləv (Ordubad, Şahbuz). ö saitinin ə saiti ilə əvəzlənməsinə Azərbaycan dilinin digər şivələrində də təxminən eyni sözlərdə təsadüf edilir.

u>i. Qalın dodaqlanan u saitinin incə, dodaqlanmayan i saiti ilə əvəzlənməsi hadisəsi dilimizin Meğri şivələrində nisbətən geniş şəkildə biləmax "bulamaq", piçə çıxmax "puça çıxmaq" [Ə.Əliyev, 2003, s.89] kimi dil vahidlərində özünü göstərir. Naxçıvan şivələri üçün isə söz köklərində bu əvəzlənmə o qədər də xarakterik deyildir. Aparılan müşahidələr zamanı u>i əvəzlənməsinə bir neçə sözdə təsadüf etdik: bizov "buzov", Temir (Şahbuz) "Teymur", məlimat "məlumat", mənsil "məhsul". A.Hüseynov yazır: "u>i hadisəsi şərq ləhcəsinə xasdır. Məsələn: biğ, ildiz, bilvar, bi:l, biyecə "bu gecə", bizoğ, işağ. Qeyd edək ki, bu cür əvəzlənmə məhduddur, bir çox hallarda saitlərin reqressiv assimilyasiyası təsirindən doğur (biyecə, işağ sözlərində olduğu kimi), lakin sözün sonunda şərq ləhcəsi üçün qanun qüvvəsindədir. Məsələn: quri, quti, yumri, yuxi, qo:şi" [A.Hüseynov, 1979, s.14]. Qərbi Azərbaycan və Naxçıvan şivələrində isə bu hadisə köklərdə söz sonunda müşahidə olunmur, əsasən söz ortasında özünü göstərir. Sözün sonunda isə daha çox şəkilçilərdə - zaman və xəbərlik şəkilçilərində Ordubad rayonunun şivələrində bu səs əvəzlənməsi baş verir: oxuyupdi "oxuyubdu", vırışdilər "vuruşdular", oğri "oğru", quyi "quyu", qurutdi "qurutdu", dolupdi "dolubdur". Bu mövqedə u saitinin i saiti ilə əvəzlənməsi Qərbi Azərbaycanın Nüvədi şivələrində də qeydə alınmışdır: Tubi, Tuti, quyin, quşin, yuxiş, çaviş, duriş, vuriş, qaviş(max), saviş(max), tutiş(max), buğiş(max) [A.Həsənov, 1959, s.22]. Nümunələrdən görünür ki, Nüvədi şivəsində ahəng qanununun zəif olması nəticəsində bəzi sözlərin axırıncı səsi kimi işlənərkən feildən isim düzəldən və ya feilin qarşılıq-müştərək növünü əmələ gətirən -uş şəkilçisinin tərkibindəki u səsi qapalı, dodaqlanmayan, incə i saitinə keçir. Ordubad şivələrində də bəzən bu hal müşahidə olunur.

a>o. Əsasən dilimizin şərq ləhcəsi üçün xarakterik olan a saitinin o saiti ilə əvəzlənməsi Qərbi Azərbaycan şivələrində də geniş şəkildə yayılmışdır: bobat, lovaş, nomaz, ombar, boyatı, hovla, ovam, homı,

yovan, oman "aman", tomaşa, popax, nomis, nozlı, xom, soba "sabah", boğ "bağ", kovran, yop, qopı, Moral, Tomara, hora "haraya", boba, mohıt, obır, dom-daş, Sovalan, Zoman (Meğri) [Ə.Əliyev, 2003, s.92]. Naxçıvan şivələrində az təsadüf edilən fonetik hadisələrdən biridir. Bu hadisəyə əksər şivələrdə çərşov, boyat, boyatı sözlərində, Şahbuz rayonunun Biçənək və Yuxarı Qışlaq şivələrində təfout sözlərində rast gəlirik. L.Səfərova Culfa rayonunun Qızılca kənd şivəsində boğarsax "bağırsaq" sözündə də bu hadisəni müşahidə etdyini qeyd edir [L.Səfərova, 2019, s.39]. Eyni zamanda Culfa şivələrində noxoş//noşox sözündə də a>o əvəzlənməsi baş verir. Lakin Naxçıvanın bir çox rayonlarının şivələrində tam olaraq a>o hadisəsi olmasa da, biz a səsinin o məxrəcində tələffüzünü geniş şəkildə müşahidə edirik ki, bu məqamda hadisə Qərbi Azərbaycan şivələri ilə tam paralellik təşkil edir. Buraya Şərur rayonunun Xanlıqlar, İbadulla, Culfa rayonunun Milax, Bənəniyar, Babək rayonunun Vayxır, Yuxarı Uzunoba şivələrini aid edə bilərik. Bu şivələr üçün sözün ilk hecalarında a səsinin əsasən o məxrəcində daha qalın və dodaqlanan formada tələffüzü xarakterikdir: mort "mart", mol "mal", oxda:r "axtarır", bocı "bacı", soman "saman".

i>ü. Həm Qərbi Azərbaycan, həm də Naxçıvan şivələri, o cümlədən dilimizin digər şivələri üçün o qədər də xarakterik olmayan i>ü fonetik hadisəsi Meğri şivələrində: pülləkan, müşar, dülap, bürə, bübar [Ə.Əliyev, 2003, s.93] sözlərində qeydə alınmışdır. Naxçıvanda isə bu səs əvəzlənməsi Ordubad rayonu şivələrində nisbətən geniş yayılmışdır. Ümumiyyətlə, dilimizin cənub ləhcəsində müşahidə olunan bu əvəzlənmə daha çox söz köklərində sözlərin ortasında müşahidə edilir: müxəx' "mixək", kəküş//çəküş "çəkic", Pürzə//Fürzə "Firuzə" (əksər şivələrdə), çərçüvə "çərçivə", süfdə "siftə" (Şahbuz), Mükayıl "Mikayıl", büldür "bildir" (Ordubad).

o>u. Dilimizin daha çox şimal-şərq ləhcəsi, xüsusən Quba rayonu şivələri və Dərbənd şivələri üçün xarakterik olan o səsinin u səsi ilə əvəzlənməsindən bəhs edən akademik M.Şirəliyev yazır: "o səsinin u səsi ilə əvəzlənməsi hadisəsini qıpçaq tipli türk dillərini özündə daha aydın əks etdirən dialekt və şivələrimizdə (Quba, Zaqatala, Qax və bir qədər Bakı, Nuxa (Şəki), Ordubad, Muğan) görə bilirik" [M.Şirəliyev, 2008, s.51]. Lakin cənub şivələrimizdə də, o cümlədən Qərbi Azərbaycan şivələrində: uqıl, utız//utuz, çux, yux, quç, buz "boz", şur, yul, tur, buş "boş", ut, ux, uğri, qutır, quyın, quşin, duli, nuxıt, xurız, buyin, qultıx, un "on", udun//udın, utumax, qunax, nuğul, Uruş, quham, mulla, urman [Ə.Əliyev, 2003, s.74] sözlərində bu hadisə qeydə alınır.

Naxçıvan şivələrində də bu səs əvəzlənməsi aşağıdakı məqamlarda özünü göstərir: balqun "balkon", delfun//telfun "telefon", baldun "palto", buxca "boxça", doxdur "doktor", tıraxdur "traktor", direxdur "direktor". Daha çox alınma sözlərdə özünü göstərən bu hadisə Naxçıvanın Culfa rayonu şivələri üçün xarakterik xüsusiyyətlərdən biri hesab oluna bilər. Burada yuxarıda qeyd etdiyimiz məqamlarla yanaşı, əsasən, sözün əvvəlində un "on", u "o", unun "onun", ura "ora", unda "onda", umbeş "on beş", unnar "onlar" kimi sözlərdə o>u hadisəsi geniş şəkildə qeydə alınır. Bu hal Qərbi Azərbaycan, Ordubad şivələrində və Şərur rayonunun Yuxarı Yaycı kənd şivəsində də müşahidə olunur.

i>ə. Söz köklərində i saitinin ə saiti ilə əvəzlənməsi hadisəsi Azərbaycan dilinin şivələrində az təsadüf edilən fonetik xüsusiyyətlərdəndir. Bu hadisə tədqiqatçılar tərəfindən dilimizin Meğri şivələrində: əyanə "ianə", ənnab "innab", həmən "həmin" [Ə.Əliyev, 2003, s.98] sözlərində, Naxçıvan şivələrində isə yalnız bir neçə sözdə: həməşə "həmişə", bənəmiyə "bənimiyə", həmən "həmin", əyə "yiyə" təsadüf edilmişdir.

ə>e. Daha çox dilimizin şimal-şərq ləhcəsi üçün xarakterik olan ə saitinin e saiti ilə əvəzlənməsi hadisəsi dilimizin Dərbənd, Meğri, Şəki şivələrində geniş yayılmışdır və bu şivələrin özünəməxsusluğunu səciyyələndirən xüsusiyyətlərdəndir. Meğri şivələrində: pencərə, bərekət, dərdecər, təmbeki, belgə, məjmeyi, sefeh, əlcex', döşex' [Ə.Əliyev, 2003, s.95] sözlərində rast gəlinən bu səs hadisəsi Naxçıvan şivələrində o qədər də geniş yayılmamışdır. Tədqiqatçılar bu hadisəyə sözün birinci hecasında Şahbuz rayonu şivələrində serçə, pencə, Babək şivələrində yekiz, Ordubad şivələrində demiyə, mejmehi [Naxçıvan MSSR-in dialekt və şivələri, 1962, s.28] sözlərində təsadüf etmişlər. Bölgə şivələrinin tədqiqi göstərir ki, bir sıra başqa dil vahidlərində də bu əvəzlənmə baş verir: eleykimsalam "əleykimsalam", qepex' "qəpik", pencərə "pəncərə", şennix'li "şənlikli", demyə "dəmyə", çepər "çəpər", sefeh "səfeh" (əksər şivələrdə).

b>f. Qərb ləhcəsindən başqa dilimizin digər şivə qrupları üçün o qədər də səciyyəvi olmayan b səsinin f səsi ilə əvəzlənməsinə Naxçıvan şivələrində də az-az hallarda və sözlərin ortasında rast gəlirik. Bu hadisə Şahbuz rayonunun Kükü, Şahbuzkənd, Kolanı kənd şivələrində iftida "ibtida", Naxçıvan şəhərində və Babək rayonunda kəflətin "kəlbətin" sözlərində müşahidə olunmuşdur.

Azərbaycan dilinin qərb ləhcəsinin əsas xüsusiyyəti sayılan b>f əvəzlənməsi burada Naxçıvan şivələrindən tamamilə fərqli fonetik mövqedə baş verir. Belə ki, qərb ləhcəsində sözlərin və şəkilçilərin sonunda b səsi həmişə f səsinə çevrilir: coraf, boşqaf, cavaf, Zeynaf, tutuf [Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, 1967, s.38].

Dilimizin Meğri şivələrində də bu hadisə həm Naxçıvan şivələrində olduğu kimi sözün ortasında, həm də söz sonunda qeydə alınmışdır: kəlfətin, Aftalıp, cavaf [Ə.Əliyev, 2003, s.130].

Qərbi Azərbaycan və Naxçıvan şivələrinin ortaq xüsusiyyətləri təkcə səs əvəzlənmələri ilə məhdudlaşmır. Burada digər fonetik hadisələrin, xüsusən səs artımı hadisəsinin təzahüründə üst-üstə düşən məqamlar çoxdur.

Səs artımı. Y samitinin söz önünə artırılması daha çox Azərbaycan dilinin qərb ləhcəsinə aid xüsusiyyət olmasına baxmayaraq, Azərbaycan dilinin digər şivələrində də müşahidə olunur. Qərbi Azərbaycanın Meğri şivələrində: yeniş, yesir, yəlov, yürək, yəmməx′ [Ə.Əliyev, 2003, s.77]; Nüvədi şivələrində: ya:lov "alov", yüyit(max) "üyüt(mək)", yud(max) "ud(maq)" [A.Həsənov, 1959, s.26] sözlərində bu fonetik hadisə müşahidə edilmişdir. Naxçıvan şivələrində də söz önünə y samitinin əlavəsi Yelmar "Elmar", yendirim "endirim", yallatdım "aldatdım", yeniş "eniş", yenməx′ "enmək", yendirmir "bəyənmir, saymır sözlərində baş verir. "Ümumiyyətlə, Azərbaycan dilinin şivələrində sözlərin əvvəlində y səsinin olmasının dilimizin tarixi ilə bağlı yazılı abidələrdə də mövcudluğu bu səs hadisəsinin qədimliyini göstərir. "Divani-lüğət-it-türk"dəki yıldız, yılan, yıl kimi sözlər buna əyani misaldır" [L.Səfərova, 2019, s.77].

Qərbi Azərbaycan şivələrində baş verən səs artımı hadisələri içərisində sözün əvvəlinə h samitinin əlavəsi də diqqəti cəlb edir. Bu hadisə Meğri şivələrində: həylə "elə", hayla, hasat, həlbət "əlbət", həyləncı, həgər//həgə [Ə.Əliyev, 2003, s.77] şəklində baş verir. Naxçıvan şivələrində də h səsinin söz önünə əlavəsi müxtəlif məqamlarda özünü göstərir: həlbətdə "əlbəttə", həylə "elə", helim "elm", hasant "asan", haçar "açar", halla-halla "Allah-Allah", həfkəməx' "ovmax", həlləm-qəlləm, haraba (Sədərək). "Bu hadisəyə az və ya çox dərəcədə bütün dialekt və şivələrdə rast gəlmək mümkündür. Lakin sözün əvvəlində h səsinin əlavəsi daha çox Nuxa və Zaqatala-Qax şivələri üçün xarakterikdir: honda, hunu, hunda, haçar, hama, hordan [M.İslamov, 1968, s.52].

Türk dillərində h samitinin formalaşması barədə müxtəlif fikirlər var. Akademik M.Şirəliyev yazır: "M.Kaşğari öz məlum əsərində türk tayfa dillərinin fonetikasından danışarkən XI əsrdə bu dillərdə boğaz səslərindən h və Ɛ səslərinin olmamasını göstərir. Bəzi tayfa dillərində əgər söz əvvəlində h səsinə təsadüf edilirsə, bunu da o, başqa dilin, xüsusən hind dillərinin təsiri ilə izah etməyə çalışır. M.Kaşğariyə görə xotanlarda, kəncaklarda söz əvvəlində h (hata<ata, hana<ana) səsinin olması başqa dilin (hind dili) təsirindən başqa bir şey deyildir [M.Şirəliyev, 2008, s.96]. M.Şirəliyev bu fikri qətiliklə təsdiq etmir və bu fikrə münasibətini belə ifadə edir: "Əlbəttə, M.Kaşğarinin bu fikrində müəyyən dərəcədə həqiqət vardır".

h səsinin söz əvvəlində formalaşması barədə M.Şirəliyevin yekun fikri belədir: "Həqiqətən h-laşma hadisəsi ərəb dili təsirinə məruz qalan və Qafqaz-iber dilləri əhatəsində olan türk dillərində özünü göstərdiyindən, ola bilsin ki, bu, həmin dillərin təsiridir" [M.Şirəliyev, 2008, s.96].

E.Əzizov h samiti barədə Kaşğarinin qeydlərini qiymətli hesab etsə də, belə düşünür ki, bu, türkologiyada son söz sayıla bilməz. Məsələ burasındadır ki, M.Kaşğarı heç də bütün türk dialektlərini eyni səviyyədə öyrənməmiş, əsas etibarilə qıpçaq, çigil, arğu və yağma dialektlərini tədqiq etmişdir. O hətta qərbi qıpçaqlara səyahət etməmiş, uyğurlar arasında olmamışdı [E.Əzizov, 1999; s.106]. Azərbaycan dilinin digər şivələrində də söz əvvəlinə h samitinin əlavəsi hadisəsi qeydə alınmışdır.

Nəticə

Qərbi Azərbaycan və Naxçıvan şivələrinin fonetik özünəməxsusluqları içərisində bənzər xüsusiyyətlər, paralelliklər olduqca çoxdur. Ona görə də onların hamısını bir məqalədə əhatə etmək olduqca çətindir. Biz bəzi önə çıxan məqamları vurğulamaqla kifayətlənsək də, bu mövzu, əslində, böyük bir tədqiqatın mövzusudur. Apardığımız araşdırmanın nəticəsi olaraq deyə bilərik ki, Qərbi Azərbaycan və Naxçıvan şivələri bir çox ortaq cəhətlərə malikdir ki, bunların da ən əsası fonetik səviyyədə özünü göstərir. Burada baş verən səs əvəzlənmələri, assimilyasiya, dissimilyasiya, səslərin yerdəyişməsi, səs artımı, səs düşümü hadisələrində bir çox paralellər aşkarlanır ki, bu da şivələrin ərazi baxımından da yaxınlığı ilə izah oluna bilər.

Müzakirə

Qərbi Azərbaycan və Naxçıvan şivələri arasındakı yuxarıda qeyd etdiyimiz paralellər ayrı-ayrılıqda bölgə şivələrini tədqiq edən digər müəlliflər tərəfindən də qeyd olunmuş, şivələrin ortaq fonetik xüsusiyyətləri göstərilmişdir. Gəlinən ümumi nəticələrdə də bundan ibarətdir ki, hər iki bölgənin şivələrinin fonetikasında bir çox ortaq xüsusiyyətlər var. Qərbi Azərbaycanın deportasiyaya məruz qalmış əhalisinin bir qismi də Naxçıvanda məskunlaşmış, nəticədə onların məskunlaşdığı ərazilərdə şivə xüsusiyyətləri də qaynayıb-qarışmışdır. Bölgə əhalisinin bu cür dağınıq halda məskunlaşması onların şivələrinin öyrənilməsi işini çətinləşdirsə də, bu bölgənin dil xüsusiyyətlərinin toplanması, öyrənilməsi günümüzdə olduqca aktualdır.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. R.Rüstəmov və M.Şirəliyevin redaktəsi ilə. Bakı: Qızıl Şərq, 1967, 281 s.
2. Bayramov, İ.M. Azərbaycan dili şivələrinin fonetikası. Bakı: Elm və təhsil, 2016, 252 s.
3. Əliyev, Ə.İ. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 580 s.
4. Əzizov, E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 354 s.
5. Həsənov, A. Azərbaycan dilinin Nüvədi (Zəngəzur) şivəsinin fonetik xüsusiyyətləri // ADU-nun "Elmi əsərləri", 1959, № 3, s.17-31.
6. Hüseynov, A. Azərbaycan dialektologiyası: Dərs vəsaiti. Bakı: APİ nəşri, 1979, 90 s.
7. İslamov, M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968, 276 s.
8. Naxçıvan MSSR-in dialekt və şivələri. M.Ş.Şirəliyevin redaktorluğu ilə. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1962, 325 s.
9. Səfərova, L.A. Azərbaycan dilinin Culfa şivələrinin fonetikası. Bakı: Elm və təhsil, 2019, 116 s.
10. Şirəliyev, M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.

ABSTRACT

Nuray ALİYEVA

COMMON PHONETIC CHARACTERISTICS OF WESTERN AZERBAIJAN AND NAKHCHIVAN DIALECTS

In the article, West Azerbaijan and Nakhchivan dialects are compared phonetically and it is shown that these dialects have many common features. Since West Azerbaijan and Nakhchivan are geographically close to each other, and West Azerbaijan is located in the transitional area between Nakhchivan and other regions of Azerbaijan, many parallels can be found in these dialects at different levels of the language that most of which are phonetic similarities. These similarities are observed more often in the variants of sounds, sound substitutions, sound rise and fall, assimilation, dissimilation. It is known that there are long, short, and nasal variants of vowel sounds in Azerbaijani dialects. Both West Azerbaijan and Nakhchivan dialects have a long version of all vowels. In terms of sound substitutions, West Azerbaijan and Nakhchivan dialects have many common features. Parallels are more evident in substitutions a>e, ö>ə, u>i, a>o, i>ü, o>u, i>ə, ə>e, b>f. Sometimes, along with the event, the lexical units in which it occurs can also be shared here. The common features of the West Azerbaijani and Nakhchivan dialects are not limited only to sound substitutions. Here there are many overlapping points in the manifestation of other phonetic phenomena, especially the phenomenon of voice increase. Thus, in both dialect groups, there is a wide increase of consonants y and h at the beginning of the word. A part of the deported population of Western Azerbaijan also settled in Nakhchivan, as a result of which dialect characteristics were mixed in the areas where they settled. Although the settlement of the population of the region in such a scattered manner complicates the study of their dialects, the collection and study of the language features of this region is very relevant today.

Keywords: *Western Azerbaijan, Nakhchivan, dialect, phonetics, parallelism*

DƏRƏLƏYƏZLİ AŞIQ CƏLİLİN POEZİYASININ BƏDİİ DİL XÜSUSİYYƏTLƏRİ

Mehriban ƏSƏDULLASOY (QULİYEVA)
quliyeva.mehriban@list
ORCID iD: 0000-0002-2640-5220
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Dərələyəz aşıq mühitinin yetirməsi olan Aşıq Cəlilin poeziyasının bədii dil xüsusiyyətləri araşdırılmışdır. Eyni zamanda poetik dilin əsas xüsusiyyətlərini göstərən dil-üslub faktları üzə çıxarılmış, aşıq poeziyasının dili elmi-nəzəri təhlilə cəlb edilmişdir. Aşıq Cəlilin poeziya dilinin poetik nüfuzunu hiss etdikcə, onun bədii qüdrətinə əsaslı şəkildə nüfuz etdikcə söz sərrafının fərdi dəsti-xəttinə heyran qalmamaq mümkün deyil. Aşıq Cəlilin şeir dili aydın, sadə və səmimidir. Aşıq şifahi xalq ədəbiyyatı nümunələrindəki bədii gözəllik elementlərini, ahəngdarlığı, frazeoloji birləşmələri dərindən öyrənmiş, yeri gəldikcə öz əsərlərində bir ədəbi üsul kimi istifadə etmişdir. Aşıq poetik yaradıcılığında frazeoloji vahidləri çox ustalıqla işlətmişdir. Bütövlükdə aşıq şeiri dilinin inkişafındakı sənətkarlıq axtarışlarındakı xidmətləri Aşıq Cəlilin yaradıcılığının bədii dil xüsusiyyətərinin tədqiqata cəlb olunmasına şərait yaradır. Aşıq dili ənənələrindən gələn bədii rəngarənglik aşığın poeziyasının yeniliyi, poetik dil axtarışlarının nəticəsi kimi meydana çıxır.

Açar sözlər: *aşıq, şeir dili, bədii dil, dil və üslub, poeziya dili*

Giriş

Azərbaycan poeziyasının mütərəqqi qolunu təşkil edən aşıq sənəti nümayəndələri qoşma, gəraylı, müxəmməs və s. şeir növlərini inkişaf etdirir, tənqidi realizmə istiqamətlənərək dövr və zəmanədə baş verən haqsızlıqları, zülm və ədalətsizlikləri ifşa edir, ərəb-fars təsirlərindən xilas olmağa, şeirdə canlı danışıq dilini qoruyub saxlamağa diqqət göstərirdilər. XX əsrin əvvəlləri Azərbaycan poeziyasının əsas xüsusiyyətlərinə xalqa dərin köklərlə bağlılıq, şifahi xalq poeziyasına sadiqlik, yeni ədəbi prosesdə bu ənənələri davam və inkişaf etdirməkdir. Nizami Xəlilov şifahi xalq ədəbiyyatı üzərində formalaşan aşıq ədəbiyyatının spesifik xüsusiyyətləri haqqında bəhs edərək yazır: "Şifahi xalq ədəbiyyatının mövzularından öz əsərlərində bəhrələnən şairlərimiz istər-istəməz gen və qan yaddaşından irəli gələn aşıq poeziyasının poetik ənənələrinə də biganə qala bilməmiş, zəngin poetik irsə malik el aşıq-şairlərimizin yaradıcılıq təcrübəsindən də məharətlə istifadə etmişlər" [Xəlilov, 2014, s.11].

Dərələyəz aşıq mühitinin tanınmış aşıqlarından Aşıq Cəlil aşıqlar yurdu sayılan Sallı kəndində 1850-ci ildə dünyaya göz açmışdır. Aşığın günümüzədək üç qoşması, iki təcnisi gəlib çatmışdır. Eyni zamanda on iki aşıq havasının müəllifi olan Aşıq Cəlil bəstəçi aşıq kimi də tanınmışdır. Erməni vəhşilikləri, repressiyalar, soyqırım, deportasiyalar Qərbi Azərbaycandan olan insanlara, o cümlədən görkəmli şəxsiyyətlərə, sənətkarlara amansız zərbə vurmuşdur. Didərginlik, köçkünlük, yurdsuzluq sənət adamlarına dərd və bəla gətirməklə yanaşı, Qərbi Azərbaycan ədəbi mühiti nümayəndələrinin yaradıcılığının vaxtında toplanıb yazıya köçürülməsinə də imkan verməyib. Qaçqınlıq həyatı yaşayanlardan biri də erməni zülmündən baş götürüb Naxçıvana pənah gətirən Aşıq Cəlil olmuşdur. XIX əsr və XX əsrin əvvəlləri Dərələyəz aşıq mühitini təmsil edən el sənətkarları öz fəaliyyətlərinin böyük qismini Naxçıvan aşıq mühitinin tərkibində davam etdirmişdilər. "Milli-siyasi təzyiqin güclü olduğu tarixi mərhələlərdə, xüsusən də 1915-1918-ci illərdə və əsrin ortalarında (1948-1950-ci illər) Dərələyəz mahalını tərk etməyə məcbur olan aşıqların böyük əksəriyyəti Naxçıvana gedərək orada məskunlaşmışlar" [Qasımlı, 2011, s.192].

Tədqiqat

Xalq dilinin zənginliklərinə köklənən, sözə yüksək qiymət verən Aşıq Cəlilin ümumxalq dilindən qidalanan poeziyası dil zənginliyi, qrammatik ifadə vasitələrinin çevikliyi ilə diqqəti cəlb edir. Aşığın poeziyasının poetik dili sadəliyi, xəlqiliyi, ahəngdarlığı ilə seçilir. Böyük tərbiyəvi əhəmiyyətə malik aforistik misralar, dərin semantik yükü olan xalq dilindən gələn ifadələr şeir dilində üslubi – məna faktoru kimi özünü göstərmiş, Dərələyəz elinin mədəni səviyyəsini, mənəviyyatını əks etdirməyə xidmət etmişdir. Sözlərin məna çalarlarının alt qatlarında olan dərin xəzinəni Aşıq Cəlil el ağsaqqalı kimi elə cilalamışdır ki, poeziyasında yer alan nəsihətamiz fikirləri hər dövr üçün gərəkli sözə çevrilə bilir. Aşıq Cəlil dərdini, hicranla dolu həyatını bayatılarımıza xas olan bir dildə qələmə almış, təxəllüslü şeirində özünə təsəlli vermiş, dərdini, nisgilini kövrək misralarına tökmüşdür:

Yaran var, ay Cəlil, gözlə yaraynan,
Yaranmısan, yararlı tək yaraynan [Əhmədli, 2018, s.40].

Aşıq Cəlil bayatı üslubunda yazdığı şeirdə poetik ifadə vasitəsi kimi səs təkriri yaratmış, *yara* sözü vasitəsilə emosional təsiri artırmaq üçün poetik mətləbin intensiv qavranılmasına nail olmuşdur. Qafiyə üçün seçilmiş sözlərdən də bacarıqla istifadə edərək onlara cinas xarakterli şəkil vermiş, qafiyələr düzəltmişdir:

Aşıq deyər, yaraynan,
Sal bıçağı yar aynan.
Fərhad kimi külüng çal,
Sərt qayanı yar aynan [Qasımlı və b., 2023, s.40].

Aşığın əməyə məhəbbət, məqsədə doğru yorulmadan irəliləmək kimi hissləri tərənnüm etdiyi şeir parçasında birinci misrada yer alan *yaraynan* sözünə qafiyə yaratdığı digər misralarda ayrı-ayrı mənaları ifadə edən şivə tələffüzündə *yar aynan* birləşməsini *tərəf*, digər misrada isə *ilin ayları* mənasında ifadə etmişdir. Mehriban Əsədullasoy "XIX əsr Naxçıvan ədəbi mühiti nümayəndələrinin dil və üslub xüsusiyyətləri" adlı məqaləsində milli ədəbi dəyərlərin ümumbəşəri məzmununu üzə çıxarmaq, ötən əsrlərin bədii irsinə qayğı ilə yanaşmaq, yeni filoloji baxışı formalaşdırmaq üçün klassik irsə müraciətin hər zaman aktual olduğunu, ümumxalq dilinin aşıq şeiri tərzində yazılan əsərlərdə daha qabarıq şəkildə özünü göstərdiyini vurğulamış, dilin əhəmiyyəti haqqında fikirlərini qısa bir cümlə ilə ifadə etmişdir: "Dil ümumxalq dilinin mənzərəsini qüsursuz şəkildə özündə əks etdirən güzgüdür" [Əsədullasoy, 2021, s.108].

Aşıq şeirlərinin birində Allahın əmri olmadan insanın dünyasını dəyişməsinin mümkün olmadığını mənalandıraraq hisslərini poeziyasına aşağıdakı şəkildə ötürmüşdür:

Vaxt deyilsə, insan ölməz yaraynan,
İstər yara dərin ola, üz ola [Qasımlı və b., 2023, s.40].

Xalq müdrikliyini sözündə, şeirində yaşadan el sənətkarları sonrakı fəaliyyətərini məskunlaşdıqları torpaqlarda böyük səylə davam etdirmişdirlər. Aşıq Cəlilin poeziyasının az bir qismi əlimizə gəlib çatsa da, ictimai-tarixi hadisələrin əks etdirilməsi baxımdan "Hardasan" şeiri demək olar ki, Qərbi Azərbaycana uzanan düşmən əllərini, elində- obasında, yurdunda törədilən erməni vəhşiliklərini əks etdirən tarixi faktlarla dolu əsər kimi qiymətləndirilir:

Kəsdilər yağılar bərəni, bəndi,
Odlara qalandı Amağu kəndi.
Bütün Dərələyəz ağlayır indi,
Bu dərdə mən necə dözüm, hardasan? [Əhmədli, 2018, s.50]

Dilçi alim Mehriban Quliyeva aşıq və el şairlərinin poeziyasında xalq danışıq dili elementlərinə geniş yer verildiyini, dilin bütün üslubi laylarından bacarıqla istifadənin dilin söz xəzinəsi, semantikası ilə sıx şəkildə bağlı olduğunu diqqətə çəkərək yazır: "Bu yüzilliklərin söz sənətkarları sözdən, onun semantikasının dərinliklərində gizlənən məna boyaları və rənglərindən böyük məharətlə istifadə edərək, onları üzə çıxarmış, poetik örnəklərin dilini çeşidli, müxtəlif ruhlu edə bilmişlər [Quliyeva, 2017, s.335].

Aşıq Cəlilin dili, söz ehtiyatı zəngindir. Aşıq leksik vahidlərlə zəngin olan söz ehtiyatının gücünə arxalanaraq şahidi olduğu ictimai – siyasi hadisələri yaradıcılığında yaşatmış, yaşadıqlarının şair həssaslığı ilə şeirlərində bədii dildə mənalandırılmış, ömür yoluna nəzər salaraq sanki özünü sual – cavab atəşinə tutmuşdur. Aşığın bədii dilinin canlılığını təmin edən vasitələrdən biri də xalq danışıq dilindən gələn söz və ifadələrə geniş şəkildə yer verməsidir. Deyişmə üzərində qurulan "Dedim - dedi" şəklində yazdığı şeirdə ustad aşıq özünün həyata baxışlarını ifadə etmişdir:

Dedilər çatginən şana-şöhrətə,
Dedim çatmamışam, çata bilmərəm.
Dedilər ləzzət var arsız ömürdə,
Dedim görməmişəm, görə bilmərəm [Əhmədli, 2018, s. 45].

Aşığın sorğu – cavab formasında qələmə aldığı şeirdə nəsihət və tövsiyə boyaları olduqca təbii və inandırıcı dildə təqdim olunmuşdur.

Sanma məni dilacıyam, gəl məni gör qəlbidə,
Naşı deyil, anlayıram dürüstü də, qəlpi də.
Ala qarğa, kor yapalaq uça bilməz qəlbidə,
*O qartalın layiqidir, uçar, gözə görünməz [*Əhmədli, 2018, *s.46].*

Aşıq poeziyasının heca vəznindən məharətlə istifadə edən Aşıq Cəlil *on beş hecadan ibarət* şeirdə *qəlb sözünü birinci misrada ürək, ikinci misrada saxta, üçüncü misrada isə hündür mənasında* fikrin, hissin ifadəsi üçün ən təsirli vasitə kimi *işlədərək hikmətli fikirlərini tamamlamışdır. Sual cümlələri ilə başlayan şeiri növbəti iki misralarda cavablandıran şair əsas fikri həyat həqiqətinə uyğun formada təqdim etmişdir:*

Xəstə sağalarmı ağı olmasa?
İgid seçilərmi yağı olmasa?
Sinəndə qohumun dağı olmasa,
Qaçarda ceyrannan ötüşmək olar [Əhmədli, 2018, s.47].

Aşıq Cəlil emosional-estetik təsiri, poetizmi, dinamikliyi artırmaq üçün qafiyələrə üz tutmuş *ağı,* yəni ilan zəhəri vasitəsilə müalicəni diqqətə çəkmiş, adi intonasiya ilə *yağı / düşmən, dağ / yandırıb yaxmaq* mənasında həmqafiyə olan isim və feillərlə şeirin ritmini nizamlamışdır. Məhərrəm Hüseynov "Dil və poeziya" kitabında şeir daxilində ritm, ahəng və aydın intonasiyanın bir-birinə uyğunlaşdırılmasına diqqəti çəkərək yazır: "Eyni fonetik kütləli sözlərlə qurulan şeirdə fikir qabarıqlığını yaradan amil, nümunədən göründüyü kimi, müxtəlif leksik – semantik məna sahələrinə aid olan sözlərin üslubi – poetik vəhdətidir" [Hüseynov, 2008, s.145].

Vətən qan ağlayır, millət qan qusur,
Tapdaqlar altında arım-namusum.
Sinəmdə saz ağlar, mən necə susum?
Tutub kəssələr də dilimi mənim [Əhmədli, 2018, s.52].

Aşıq Cəlil sazını sinəsinə basaraq eyni hava, eyni kök, eyni şeir şəkli və eyni rədif üstündə rəqiblərinə meydan oxumuş, mübaliğəli söz və ifadələrlə özünün söz - sənət gücünü öyüb tərifləmişdir. Yaşadığı yerə sonsuz məhəbbətini, heyranlığını ifadə edən aşıq əmin – amanlıq, qurub-yaratmaq tərədarı olduğunu şeirlərində əks etdirmiş, arabir onunla deyişmə meydanına çıxmağa cəsarət edən digər aşıqları üstüörtülü şəkildə müxtəlif poetik təzyiq vasitələri ilə psixoloji sarsıntıya məruz qoymuşdur:

Daim yansın gur işığı,
Pozulmasın yaraşığı.
Aşıq Cəlildir aşığı
Bizim Yeniyol kəndinin [Əhmədli, 2018, s.4].

M.Hüseynov "Aşıq Ələsgərin söz ümmanı" kitabında XIX əsr və XX əsrin əvvəllərində aşıq poeziya dilində özünü göstərən ümumi cəhətlərin mənzərəsini aşağıdakı şəkildə canlandırmışdır: "Aşıq şeirinin müxtəlif meyillərindən ibarət çox zəngin və mürəkkəb mənzərəsində nəzərə çarpan oxşarlıqlar, ümumi xüsusiyyətlər vardır. Bir sıra hallarda ümumi düşüncə tərzindən, ədəbi ənənələrdən, bədii mətləblərdən, mövzu və məzmundan, yaradıcılıq üslubundan və ovqatından qaynaqlanan oxşarlıqlar belə bir qənaəti şərtləndirir ki, müəyyən bir yaradıcılıq istiqaməti, poetik janr əlamətləri kimi bu tipoloji yaxınlıq təbiidir" [Hüseynov, 2017, s.31].

Astar kimi doğulanlar qoy bilsin,
Gözləməsin gəlib ondan üz olar [Mirzəyev, 2004, s. 515].

Qədim və zəngin milli sərvətimiz olan aşıq yaradıcılığında ədəbi dili səciyyələndirən əsas cəhətlərdən biri ümumxalq danışıq dilində formalaşmış əxlaqi - didaktik mövzuların atalar sözləri, zərb-məsəllər, hikmətli nəsihətlər, aforizmlər vasitəsilə şərhinə üstünlük verilməsidir:

Mənə göstər dərdsiz adam haqq sözdü,
Ləğviyyətə deməzlər ha haqq sözdü [Əhmədli, 2018, s.43].

Aşıq Cəlil qüvvətləndirici *ha* ədat vasitəsilə nəsihətamiz fikrini qüvvətləndirmiş, bədii təsirini, emosionallığını artırmış, cümlənin tərkibində işlənən boş işlər, boş söz danışanlar mənasında olan *ləğviyyət* ifadəsini mətndəki digər cümlələrdən fərqləndirmiş, mənasını qabartmış, cümlədə ifadə olunan fikrin daha tez nəzərə çarpmasına şərait yaratmışdır. Qərbi Azərbaycanın təbiətini tərənnüm edən aşıq şeirlərində ana vətənin coğrafi mənzərəsinin təsvir edilməsində onomastik vahidlərə, onların bütün növlərinə müraciət etmiş, üslubi məqamlarda - poetik tabloların təsviri zamanı fəal leksik vahidlər kimi istifadə etmişdir:

Çivə, Sallı, Ərgəz oda qalandı,
Leyliqaçan, Bülbülölən talandı.
Arpa qan ağladı, sular bulandı,

Açılmaz baharım, yazım, hardasan? [Əhmədli, 2018, s.50].

Dosent Mehriban Quliyeva "XIX əsr və XX əsrin əvvəllərində Naxçıvan aşıqlarının dil və üslubu" adlı məqaləsində aşıq yaradıcılığını yüksək qiymətləndirərək yazır: "Özünü xalqın bədii təfəkküründün ifadəçisi kimi təsdiq edən aşıq, həm də şifahi xalq sənətinin çoxəsrlik inkişaf yolunda cilalanaraq yüksək kamillik səviyyəsinə çatmış, dil sərvətinin qoruyucusu və daşıyıcısı olmuşdur" [Quliyeva, 2017, s.336]. Xalq aşıq şeiri tərzində yazan aşıqların sənətkarlıq xüsusiyyətlərindən bəhs etmək, bu üslubda yazıb-yaradanların bədii sənətkarlıq xüsusiyyətlərinə yenidən müraciət etmək böyük əhəmiyyət daşıyır. Çünki bu ədəbi məktəbin davamçılarının ayrı-ayrılıqda yaradıcılıqları xüsusi keyfiyyətlərə malikdir.

Nəticə

Beləliklə, aşıq poeziyası dil-üslub cəhətdən zənginliyi ilə seçilmişdir. Xalq dilinin söz- ifadə potensialından, zəngin dil materialından məharətlə istifadə edən Aşıq Cəlil aşıq sənətində saz-söz meydanında öz yeri, öz dəsti-xətti olan sənətkar kimi özünəməxsus yer tutmuşdur. Aşıq Cəlilin poeziyası həyat müşahidələri əsasında qurulmuş, məzmun, forma cəhətdən rəngarəngdir. Aşığın poeziyasında söz sənətkarının canlı müşahidələrinə istinadlar, başına gələn hadisələr şairanə hiss və duyğular ilə əlaqələndirilmiş, bədii ümumiləşdirmələrlə bəşəri mənalara daşınmışdır. Və buna görədir ki, bu bənzərsiz poeziya nümunələrində əsas mənbə və məxəz aşığın qəlbən yaşadığı həyatın özüdür. Aşığın qələmə aldığı mövzularda folklor ədəbiyyatının əbədi mövzuları ilə yanaşı, müasiri olduğu zamanların, demək olar ki, bütün sosial, hətta siyasi tərəflərini görmək mümkündür. Aşığın doğma ana dilində poeziyasında işlətdiyi hər bir söz məqamına uyğun məharətlə sənət dilinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Əhmədli, N. Dərələyəzli ustad Aşıq Cəlil. AMEA, Bakı: 2018, 109 s.
2. Əsədullasoy, M. XIX əsr Naxçıvan ədəbi mühiti nümayəndələrinin dil və üslub xüsusiyyətləri. *Uluslararası 21. Yüzyılda Türk Dünyasında Dil, Edebiyat, Kültür Sempozyumu*" 4-*5 Aralık 2021,* Kaynak Yayınları, *Türkiyə, s.104-114*
3. Hüseynov, M. Aşıq Ələsgərin söz ümmanı. Elm və təhsil, Bakı: 2017, 313 s.
4. Hüseynov, M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.
5. Xəlilov, N. Heca vəzni və aşıq sənətinin yaranma tarixi. Bakı: 2014, 120 s.
6. Qasımlı, M., Allahmanlı, M., Nəbioğlu, M., Məmmədli, A. Qərbi Azərbaycan aşıqları. Zərdabi, Bakı: 2023, 512 s.
7. Quliyeva, M. XIX əsr və XX əsrin əvvəllərində Naxçıvan aşıqlarının dil və üslubu. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları, Bakı: Elm və təhsil, 2017, s.337-338.
8. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı: Elm, 2004, 858 s.

ABSTRACT

Mehriban ASADULLASOY (Guliyeva)

THE ARTISTIC LANGUAGE FEATURES OF THE POETRY BY ASHIQ JALIL DARALAYAZLI

The article examines the artistic language features of Ashuq Jalil's poetry, a member of the Daralayaz ashiq milieu. At the same time, the linguistic and stylistic facts showing the main features of the poetic language were revealed, and the language of Ashiq poetry was involved in the scientific-theoretical analysis. As you feel the poetic penetration of Ashuq Jalil's poetic language, and penetrate his artistic power, it is impossible not to admire the individual set of words. Ashiq Jalil's poetic language is clear, simple and sincere. Ashik deeply studied the elements of artistic beauty, harmony, and phraseological combinations in the examples of oral folk literature, and used them as a literary method in his works whenever possible. As a whole, his services in the pursuit of artistry in the development of the language of Ashuq poetry create conditions for the artistic language features of Ashuq Jalil's creativity to be involved in research. The artistic diversity of Ashiq language traditions emerges as a result of the novelty of Ashiq's poetry, the search for a poetic language.

Keywords: *ashuk, language of poetry, language of art, language and style, language of poetry*

HƏSƏN MİRZƏYEVİN YARADICILIĞINDA QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİNİN TƏDQİQİ (DƏRƏLƏYƏZ MAHALININ TOPONİMLƏRİ ƏSASINDA)

Sərdar ZEYNAL
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Məqalədə görkəmli dilçi-türkoloq Həsən Mirzəyevin "Dərələyəz mahalının toponimləri və şivə sözləri" əsəri əsasında Qərbi Azərbaycanın qədim türk mənşəli toponimlərinin tarixi, dilçilik və etnoqrafik xüsusiyyətləri araşdırılır. Qeyd edilir ki, qədim Azərbaycan torpaqları olan İrəvan, Göyçə, Dərələyəz və digər bölgələrdə əsrlər boyu formalaşmış yer adları həmin ərazilərin türk-oğuz mənşəyini təsdiq edən əsas tarixi göstəricilərdən biridir. Məqalədə ermənilərin XIX əsrdən etibarən bu torpaqlara köçürülməsi, sonrakı dövrlərdə isə türk mənşəli toponimlərin dəyişdirilərək ermənileşdirilməsi siyasəti geniş şəkildə şərh olunur. Araşdırmada professor Həsən Mirzəyevin Dərələyəz mahalının yaşayış məntəqələri, dağları, dərələri, yaylaqları, bulaqları və digər coğrafi obyektləri ilə bağlı topladığı zəngin materialların elmi əhəmiyyəti xüsusi vurğulanır. Əsərdə oykonimlər, oronimlər, hidronimlər və mikrooykonimlər leksik-semantik və sintaktik xüsusiyyətlərinə görə təsnif edilir, onların türk tayfa adları, şəxs adları və qədim dil vahidləri ilə bağlılığı göstərilir. Məqalə nəticə etibarilə Dərələyəz mahalının qədim türk yurdu olduğunu və bu ərazinin tarixi yaddaşının toponimlər vasitəsilə qorunub saxlandığını elmi faktlarla əsaslandırır.

Açar sözlər: *Dərələyəz, torpaq, yurd, mahal, toponim, onomastik vahid, oykonim, mikrooykonim, oronim, hidronim*

Hər bir torpağın, mahalın, ölkənin dünya yarananda hansı xalqa, hansı millətə, hansı qəbilə və tayfaya aid olması həmin torpaqlara: şəhərlərə, kəndlərə, elə, obaya verilən adlarla müəyyən olunur. İşğallar, hücumlar, müharibələr nəticəsində – ölkələr, şəhərlər, torpaqlar əldən-ələ keçsə də, adları dəyişdirilsə də, bəzən diqqətdən qaçan, fikri özünə cəlb etməyən bəzi yer-yurd adları öz "kimliyini" qoruyub saxlayır və hansı xalqa aid olduğunu öz məzmunlarında əbədiləşdirirlər.

Qədim Azərbaycan torpaqlarına, o cümlədən İrəvana, Göyçəyə, Dərələyəz mahalına və adlarını sadalamadığımız digər qədim torpaqlarımıza XIX əsrin əvvəllərindən başlayaraq köçürülən, bu torpaqlarda özlərinə yurd-yuva quran ermənilər də minillik tarixi olan Azərbaycan torpaqlarına köçəndən sonra bu qədim torpaqların əksəriyyətinin adlarını dəyişdirərək onlara öz dillərinə uyğun olan adlar vermiş və özəlləşdirməyə çalışmışlar. Lakin nə qədər canfəşanlıq etsələr də, qədim Azərbaycan torpaqlarının hamısının adlarını tamamilə dəyişdirə bilməmiş, son dövrlərə qədər, yəni əzəli Azərbaycan torpaqları olan və sonradan Ermənistan adlandırılan bu torpaqlar yetərincə olmasa da, öz adlarını qoruyub saxlaya bilmişdir.

Bu qədim Azərbaycan torpaqlarının adlarının kütləvi surətdə dəyişdirilməsi məsələsi səksəninci illərin sonlarından başlayaraq kütləvi hal almışdır. Bu cür gedişin son nəticəsini əvvəlcədən düşünən Qərbi Azərbaycanın görkəmli şəxsiyyətləri bunun alternativləri kimi durmadan çalışaraq öz doğma yurdlarının – mahallarının toponimlərinin tarixdən silinməsinin qarşısını almaq, gələcək nəsillərə ötürmək üçün onların hər birini öz kitablarına daxil etmiş və işıqlandırmışlar. Bunlardan ən öndə gedəni 1927-ci ildə Şərur-Dərələyəz qəzasının Qovuşuq kəndində anadan olan filologiya elmləri doktoru, dilçi-türkoloq, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor, Azərbaycan Aşıqlar Birliyinin üzvü Həsən İbrahim oğlu Mirzəyev olmuşdur. Professor qədim Azərbaycan torpaqlarının uzun müddət erməni işğalı altında qalacağından, orada olan toponimlərin yaddan çıxaraq unudulacağından qorxaraq bütün yaradıcılığı boyu öz əsərlərində doğulub boya-başa çatdığı qədim türk torpaqlarının adlarını öz əsərlərində əbədiləşdirmiş, hər bir məqaləsindən tutmuş, böyük irihəcmli əsərlərinə qədər bunların hər birində Qərbi Azərbaycan məsələsini həmişə öz yaradıcılığının əsas mövzusuna çevirmişdir. Tək-tək məqalələrlə kifayətlənməyən görkəmli dilçi bu sahəyə ayrıca olaraq iki samballı əsər – "Dərələyəz mahalının toponimləri və şivə sözləri" və "Qərbi Azərbaycanın Dərələyəz mahalı" əsərlərini həsr etmişdir.

Görkəmli dilçinin bu sahə ilə bağlı yazıb nəşr etdirdiyi "Dərələyəz mahalının toponimləri və şivə sözləri" əsəri "Müəllifdən" adlanan giriş, 5 fəsil və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. "Müəllifdən" adlanan girişdə müəllif yazır: "Məlum olduğu kimi, son bir neçə əsrdə qədim türk, oğuz yurdu olan indiki Ermənistanda, o cümlədən Dərələyəzdən azərbaycanlılar dəfələrlə deportasiya olunmuş, oradakı

yer-yurd adları dəyişdirilmiş və bunlar erməni tarixi abidəsi kimi qələmə verilmişdir. Bütün bunları nəzərə alıb torpağını-daşını qarış-qarış gəzdim, maddi mədəniyyət abidələrinə dərindən bələd olduğum, yarım əsr müddətində dönə-dönə yaşlı adamları ilə həmsöhbət olduğum Dərələyəz onomastik vahidlərini qələmə almağı zəruri hesab etdim. Məncə, gələcək tədqiqatçılar, vətən övladları, öz doğma yurduna qayıtmaq istəyən azərbaycanlılar bu tarixi həqiqətlərdən faydalana biləcəklər" [1, s. 3].

Müəllifin yığcam giriş sözündən sonra Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası" haqqında Fərmanı, 7-ci səhifədə isə "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı verilmişdir.

Kitabın birinci fəsli "Dərələyəz mahalı haqqında qısa məlumat" [1, s. 11] adlanır. Bu fəsildə qədim oğuz-türk yurdu olan Dərələyəz mahalının Yeğeqnadzor və Əzizbəyov rayonlarından ibarət olduğu qeyd olunur. O da qeyd olunur ki, Dərələyəz mahalı uzun müddət Şərur ilə birlikdə bir inzibati bölgüyə aid edilmiş, gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının "Şərur – Dərələyəz" qəzası adlandırılmışdır. Bu qəzanın mərkəzi isə Şərurun Baş Noraşen (Cəlilkənd) kəndi olmuşdur.

Dərələyəz ərazisinin oradan azərbaycanlılar deportasiya olunan zaman 2308 kvadrat km olduğu qeyd olunur. Dərələyəz bölgəsində yerləşən iki rayonun – Keşişkənd və Paşalı rayonlarının sonradan adlarının dəyişdirildiyi qeyd olunur. Keşkənd rayonunu 1931-ci ildən 1935-ci ilə qədər Keşişkənd (ermənilər öz milli ornamentlərinə uyğunlaşdıraraq – S.Z.) 1935-ci ildən 1956-cı ilə kimi Mikoyan, 1956-cı il sentyabrın 12-dən Əzizbəyov, 1957-ci ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırmışlar.

Dərələyəzin tarixi keçmişindən bəhs edən H.Mirzəyev onu da yazır ki, "tarixin bütün dövrlərində türk-oğuz yurdu olan Dərələyəz 1920-ci ilə qədər Azərbaycanın tərkibində olmuşdur. 1920-ci il noyabrın 29-da rus şovinistlərinin və erməni daşnaklarının, xüsusən türkün düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları ilə birlikdə Dərələyəz də qeyri-qanuni şəkildə Azərbaycandan alınıb Ermənistana verildi" [1, s.11-12].

Birinci fəsildə Dərələyəz mahalının tarixi qədimliyini qeyd etməklə yanaşı, bu mahalın monqolların və mərkəzi hökuməti dağıdıldıqdan sonra Teymurilərin və onun davamçılarının tabeliyində, sonradan isə Qaraqoyunlu və Ağqoyunluların tabeliyində olduğu qeyd olunur və nəhayət, 1504-cü ildə Şah İsmayıl Xətai tərəfindən tutulduğu göstərilir.

Bu fəsildə, eyni zamanda 1828-ci il Türkmənçay müqaviləsindən sonra İranın müxtəlif şəhərlərindən Dərələyəzə köçürülən yüzlərlə erməni ailəsinin sayı haqqında da məlumat verilir. Müəllif bu mahalda olan bütün yaşayış məskənlərinin, dağların, dərələrin, oylaqların əsl türk yurdu olduğunu nəzərə çatdırmaq üçün yazır: "Qeyd etmək lazımdır ki, Dərələyəz mahalı ən qədim dövrlərdən türk tayfalarının məskəni olmuşdur. Buradakı kənd, dağ və yaylaq adlarının çoxu türk tayfalarının adından götürülmüşdür" [1, s.13].

Professor Həsən Mirzəyev Dərələyəz mahalında olan yüzlərlə tarixi abidələrin, o cümlədən daş və qoç heykəllərinin əksəriyyətinin ermənilər tərəfindən dağıdıldığını, yaxud da tarixi yazıları pozaraq öz adlarına çıxardıqlarını da qeyd etmişdir. Bu kitabda Dərələyəz mahalının əhalisinin 1828-ci ildən başlayaraq 1988-ci ilə qədər təqribən 160 ildə ən azı 5 dəfə: 1828-1833, 1905-1907, 1918-1919, 1948-1953 və 1988-ci illərdə öz torpaqlarında zor gücü ilə deportasiya olunduqları da qeyd olunmuşdur.

Kitabın II fəsli [1, s.38-60] "Onomastik vahidlər haqqında" adlanır. Fəslə daxil olan yeganə bölmə "Dərələyəz mahalında olan onomastik vahidlər" [1, s.43] 5 yarımbölməyə ayrılır. Birinci yarımbölmə "Dərələyəz mahalındakı toponimlər və onların xüsusiyyətləri" adlanır. Bu yarımbölmənin əvvəlində yazılır: "Dərələyəz tarixən Naxçıvanla daha yaxından bağlı olmuşdur. Onun sahəsi 2972,3 km^2 imiş. Çar hökumətini 1870-ci ildəki inzibati ərazi islahatı ilə Şərur-Dərələyəz mahalı İrəvan quberniyasının tərkibinə qatılmışdır" [1, s.43].

Müəllifin Dərələyəz adlanan əsl Azərbaycan torpağında olan və Azərbaycan türkləri tərəfindən salınan körpülərin, tikilən tarixi abidələrin, yer üzündən silinmiş, yalnız xarabalıqları qalmış şəhər və kəndlər haqqında elmi məlumatlar əldə etmək üçün "Kafkazskiy kalendar"dan (1881-1916-cı illərdəki nəşrləri), "Naxçıvan sancağının müfəssəl dəftəri" və s. kimi onlarla vacib məxəzlərə müraciət etmiş, tarixi həqiqətləri üzə çıxarmağa çalışmışdır. Professor Həsən Mirzəyevin tarixi sənədlərə əsaslanmaqla apardığı tədqiqat nəticəsində iki rayona - Əzizbəyov və Keşkənd rayonlarına bölünən Dərələyəz mahalından 1905-ci ildən 1988-ci ilə qədər Əzizbəyov ərazisindən 44, Keşkənd rayonu ərazisindən isə 62 azərbaycanlı yaşayan kəndlərdən əhali zorla köçürülmüş və həmin yaşayış məntəqələrinin əksəriyyəti xaraba qalmışdır.

Kitabın II fəslinin geniş bir bölməsi "Dərələyəz mahalında olan toponimlərin növləri" [1, s.47] adlanır. Adı yuxarıda qeyd olunan bölmənin ilk yarımbölməsi "Oykonimlər (yaşayış məntəqəsi adları)" adlanır. Bu bölmədə "oykonim" sözünün yunanca "oyks" – yurd, məkan, "onuma" – ad sözlərinin birləşməsindən əmələ

gəlmiş, yaşayış məntəqəsi məzmunu daşıdığı qeyd edilir və Dərələyəz mahalında olan oykonimləri leksik-semantik mənalarına görə altı qrupa bölür: 1. Şəxs adları, müxtəlif təxəllüs, ayama və titullardan tutmuş oykonimlər antroponimik oykonimlər (Bəyzadə, Seyid Məmiş, Məşədi Abbas); 2. Xalqımızın soy-kökündə iştirak etmiş tayfa adlarından yaranan toponimlər – etnooykonimlər (Kömürlü, Çıraxlı); 3. Nəsil, tirə, sülalə adlarına çevrilmiş şəxs adlarından törənən etnonimlər (Şəkərbəyli, Məşədilər, Xan arxı); 4. Oronim və zoonim səciyyəli sözlərdən törənən toponimlər (Daylaxlı); 5. Feili birləşmə modelində olan toponimlər (Bülölən, İtqıran). Hidronimik terminləri əks etdirən toponimlər (İstisu, Çaykənd) və s. [1, s.47, 48].

Dərələyəz toponimlərinin ikinci yarımbölməsi "b) mikrooykonimlər" adlanır. Burada mikrooykonimləri bir növü kimi təqdim edilir və göstərir ki, bir çox şəhər-qəsəbə adları da bir vaxtlar qohum kimi təşəkkül tapmışdır [1, s.50].

Dərələyəz kəndlərindəki məhəllə və tayfa adlarını – mikrooykonimləri müəllif sözlərə qoşulan şəkilçiləri müxtəlifliyinə görə 6 yerə bölmüşdür:

1. -çı -lar [4] şəkilçiləri vasitəsilə tayfa, nəsil və şəxs adlarından düzəlmiş nəsil və tayfa adları: Qalayçılar, Təkəçilər və s.
2. -lı[4] şəkilçiləri vasitəsilə tayfa və nəsil adlarından düzəlmiş nəsil və tayfa adları: Təhməzli, Alıbəyli, Hətəmli və s.
3. -lı -lar[4] şəkilçiləri vasitəsilə tayfa, nəsil və şəxs adlarından törənmiş məhəllə və tayfa adları: Sonqululer, Gündüzlülər və s. Bunların ardınca isə -lar, -lər şəkilçiləri (Məmmədovlar, İmamqululer), uşağı, törəməsi, evi sözlərini artırmaqla düzələn (Mirzə uşağı, Cabbar törəməsi) tayfa və məhəllə adları qeyd olunmuşdur.

II fəslin ikinci bölməsi Dərələyəz mahalındakı oronimlər (relyef adları) və bunların xüsusiyyətləri adlanır [1, s.52]. Relyef sözünün yunanca "oro" – relyef, "onima" ad sözlərinin birləşməsindən əmələ gəldiyi qeyd edilir.

Müəllif Dərələyəzdəki yer-yurd adlarını (dağ, dərə, düz, yoxuş) – oronimləri aşağıdakı kimi qruplaşdırmışdır:

1. Oronomik terminlərlə ifadə olunan relyef adları: Gen dərə, Göydağ, Daş arxac və s.
2. Mikrooronimlər: Xırman yeri, Ballı qaya, Soyuq bulaq və s. Həmin fəslin üçüncü bölməsi "Dərələyəz mahalındakı hidronimlər və onların xüsusiyyətləri" [1, s.55] adlanır.

Bu bölmədə adı qeyd olunan mahalda müəllif öz ata-baba yurduna tam bələd olan bir adam kimi suyundan içdiyi bulaqların, keçdiyi dərə və çayların, kənarında oturub dincəldiyi arx və göllərin adlarını qeyd edir. Su obyekti bildirən hidronimlər bu bölmədə qruplaşdırılaraq ayrı-ayrılıqda bulaq, su, göl, arx, çeyil adları altında verilmişdir. Burada adları qeyd olunan hidronimlərin hamısı bütün Azərbaycan türkləri tərəfindən eyni dərəcədə başa düşülsə də, "çeyil" sözü bunlardan fərqlənir. (Ceyil sözü "Azerbaycan Türkçəsinden Türkiye Türkcesine Büyük Sözlük" [İstanbul, 1999] lüğətində 1.cilt, 2.çitadan duvar kimi qeyd olunur – S.Z). Dərələyəzdə isə suyu qurumuş göl, bataqlıq mənasında işlədilir).

II fəslin IV bölməsi "Dərələyəz mahalındakı metaforik terminlər və bunların xüsusiyyətləri" [1, s.56], V bölməsi isə "Dərələyəz mahalındakı toponimlərin sintaktik xüsusiyyətləri" [1, s.57] adlanır. Bunlardan IV yarımbölmədə insanın bədən üzvlərinin adı ilə digər coğrafi adların birləşməsindən əmələ gələn metaforik terminlər izah edilir. Məsələn: *qaş – daşın qaşı, burun – sarı burun, döş – dağın döşü, qol – çayın qolu* və s.

Professor Həsən Mirzəyev V bölmədə Dərələyəz mahalındakı toponimlərin sintaktik xüsusiyyətlərindən bəhs edir və Dərələyəz kəndlərindəki yer-yurd adlarındakı onomastik vahidləri sintaktik xüsusiyyətlərinə görə 4 yerə bölür:

1. I növ ismi birləşmə modelində olan toponimlər: Ortakənd, Qırxbulaq;
2. II növ ismi birləşmə modelində olan toponimlər: Daşaltı;
3. III növ ismi birləşmə modelində olan toponimlər: müəllif bu modeldə kənd adının olmadığını qeyd edir, lakin Nəsirin yeri, Abbasəlinin biçənəyi, Hacının bulağı kimi adların da olduğunu təsdiqləyir;
4. Son model isə feili birləşmə modelində olan toponimlərdir. Burada da əvvəlki bölmələrdə olduğu kimi, feili birləşmə modelində olan kənd, bulaq və relyef adlarını qeyd edir və aşağıdakı toponimləri nümunədə göstərir. Məsələn: Təkədonduran (dağ), Dəvədən yol, Orucölən yaylaq.

Kitabın III fəsli "Dərələyəz mahalındakı kəndlər və bu kəndlərdən bəzilərinin ərazisində olan xüsusi adların qısa xülasəsi" (1, 60-302) adlanır.

Bölmənin əvvəlində əvvəlcə Abana, sonra Ağdərə kəndi və Ağkənd haqqında digər kənd adlarından fərqli olaraq, müəyyən dərəcə geniş şəkildə məlumat verilir, onların ərazisinin hansı kəndlərə yaxın olduğu, əhalinin sayı və məşğuliyyəti haqqında müəyyən qədər olsa da, məlumat verilir. Məsələn: Abana kəndi haqqında yazılır: "Abana Dərələyəz mahalında Yeğeqnadzor (Keşkənd II Keşişkənd) ərazisində azərbaycanlılara məxsus kəndin adıdır. Arpa çayının hövzəsində, Aynəzir kəndindən 14 km Şərqdə yerləşən

bu kənd hal-hazırda xarabadır" [1, s.60]. Bu 3 kənd haqqında geniş məlumat verdikdən sonra müəllif ardıcıl olaraq məhəllə adları altında 5, yurd adları adı altında 6, yol, cığır adı altında 3, karvansara adı altında 6, biçənək adları altında 2, qala və səngər adları altında 1, sahə, örüş, kövşən adları altında 51, dərə adları altında 5 və arxac adları adı altında 1 məntəqənin adını qeyd etmiş, bunlar haqqında heç bir əlavə məlumat verməmişdir.

Bu ardıcıllıq və yanaşma kitabın ən geniş [1, s.60-302] fəsli olan III fəslində sonacan davam etdirilmiş, tək-tək adlar haqqında müəyyən qədər məlumat verdikdən sonra digər qrup yer-yurd adlarını yalnız əlifba sırasına əməl etməklə sıralanmışlar.

Kitabda Dərələyəz mahalında olan hər bir kənd haqqında ayrı-ayrılıqda məlumat verilmiş, həmin kəndin ən kiçik detalları belə – kənddə olan məhəllə adları, həmin kəndin yol, yurd, biçənək, karvansara, qala, səngər, kövşən, dərə, arxac, bir sözlə, hər bir anlayışla bağlı bəzən geniş, bəzən də yığcam məlumat verilmişdir.

Professor Həsən Mirzəyevin heç bir yaradıcılıq nümunəsi olmasaydı belə, o Azərbaycan türklərinin qədim yaşayış məskəni olan Dərələyəz mahalı ilə bağlı yazdığı "Dərələyəz mahalının toponimləri və şivə sözləri" [2003-cü il, 360 s.] kitabı ilə tarix boyu öz yurdunu sevən şəxsiyyətlərin adları sıralananda ilkin yerlərdən birində yazılacaq.

Bu kitabın araya-ərsəyə gəlməsi təkcə bir dilçinin üzərinə düşən məsuliyyət deyil. Bu əsəri yazan dilçi olmaqla yanaşı, həm də tarixçi, coğrafiyaçı, riyaziyyatçı olmalıdır ki, bu məsuliyyətli işin öhdəsindən gəlməyi bacara bilsin.

Əgər bu kitab olmasaydı, biz, bizdən sonra gələnlər bu qədim türk torpağı olan Dərələyəzlə bağlı belə bir geniş məlumat əldə edə bilərdimi? Bu kitab Dərələyəz torpaqlarının tarixən ilk dövrlərindən türklərə aid olduğunu təsdiq edən qabalası – şəhadətnaməsi, pasportudur ki, bundan sonra gələn heç bir tarixçi, arxeoloq, coğrafiyaşünas, dilçi bu məsələni professor Həsən Mirzəyev kimi əks etdirib, kiçik detalları ilə bərabər yazıya ala bilməz. Biz bu kitabı görkəmli dilçinin şah əsəri, eyni zamanda bu gün ermənilər tərəfindən zəbt edilmiş qədim Azərbaycan torpağı olan "Dərələyəzin ensiklopediyası" adlandırsaq, elə bilirəm ki, yanılmarıq.

ƏDƏBİYYAT

1. Mirzəyev, H. Dərələyəz mahalının toponim və şivə sözləri. Bakı: Ağrıdağ, 2003.
2. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı: Elm, 2004.
3. Bayramov, İ. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2002.
4. Əliyev, H. Azərbaycan antroponimikasının inkişaf mərhələləri. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2004.

ABSTRACT

Sardar ZEYNAL

THE STUDY OF WESTERN AZERBAIJAN TOPONYMS IN THE WORKS BY HASAN MIRZAYEV (BASED ON THE TOPONYMS OF THE DARALAYAZ DISTRICT)

The article examines the historical, linguistic, and ethnographic characteristics of the ancient Turkic-origin toponyms of Western Azerbaijan based on the work "Toponyms and Dialect Words of the Daralayaz Region" by the prominent linguist and Turkologist Hasan Mirzayev. It is noted that the place names formed over centuries in ancient Azerbaijani lands such as Iravan, Goycha, Daralayaz, and other regions are among the principal historical indicators confirming the Turkic-Oghuz origin of these territories. The article broadly discusses the resettlement of Armenians to these lands beginning in the nineteenth century and the subsequent policy of replacing Turkic-origin toponyms with Armenian names. The study particularly emphasizes the scientific significance of the rich materials collected by Professor Hasan Mirzayev concerning the settlements, mountains, valleys, pastures, springs, and other geographical objects of the Daralayaz region. In the work, oikonyms, oronyms, hydronyms, and micro-oikonyms are classified according to their lexical-semantic and syntactic features, and their connections with Turkic tribal names, personal names, and ancient linguistic units are demonstrated. As a result, the article scientifically substantiates that the Daralayaz region is an ancient Turkic homeland and that the historical memory of this territory has been preserved through its toponyms.

Keywords: *Daralayaz, land, homeland, region, toponym, onomastic unit, oikonym, micro-oikonym, oronym, hydronym.*

QƏRBİ AZƏRBAYCAN TOPONİMİYASINDA QƏDİM TÜRK BOYLARININ TARİXİ İZLƏRİ

Qalibə HACIYEVA
oguz.haciyev@gmail.com
ORCID iD: 0000-0001-2345-6789
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Azərbaycanın tarixi-ərazi bütövlüyü Azərbaycan xalqının milli və mənəvi sərvəti, qədim tarixi keçmişinin öyrənilməsində çox qiymətli mənbə olan qədim toponimlər vasitəsi ilə bilavasitə təsbit olunur. Tarixən Azərbaycana məxsus itirilmiş ərazilərdəki mövcud toponimlərin tədqiqi ən qədim dövrlərdən hun, bulqar, kimmer, oğuz, qıpçaq, suvar, xalac, əfşar, yıva, dümbüllü kimi müxtəlif türk boylarının bu ərazilərdə məskunlaşdığını təsdiq edir. Məhz bunu nəzərə alaraq, məqalədə Azərbaycanın ən qədim bölgəsi İrəvan xanlığı, indiki Ermənistan ərazisində yaşayan və tarix boyu Azərbaycan türklərinin etnogenezinin təşəkkülündə mühüm rol oynamış qədim türk boylarının şəcərələri etnoloji aspektdən tədqiq olunur. Quzey Azərbaycanın Qərb bölgəsi İrəvan xanlığı, indiki Ermənistan ərazisində yaşamış qədim türk tayfaları və onların adını əks etdirən tarixi etnotoponimlərin tarixi-linqvistik müstəvidə tədqiqata cəlb edilməsi mövzu çərçivəsində İrəvan quberniyasının türk-müsəlman əhalisi ilə yanaşı, Çar Rusiyası tərəfindən ermənilərin Güney Qafqaza yerləşdirilməsi və onların vasitəsi ilə siyasi məqsədlərlə dəyişdirilmiş və terrora məruz qalmış bir çox qədim türk mənşəli etnotoponimlərin tarixi-etimoloji təhlilləri əsasında Azərbaycanın ərazi bütövlüyü təsbit olunur. Məqalədə Qərbi Azərbaycanda qədim türk boylarının adını əks etdirən və ermənilər tərəfindən müxtəlif dövrlərdə dəyişikliyə uğramış etnotoponimlər qədim və orta əsr məxəzlərində əks olunan tarixi faktlar əsasında tədqiqata cəlb olunaraq tarixi etimoloji təhlil əsasında qədim adlar yenidən bərpa edilmişdir.

Açar sözlər: *Azərbaycan, toponim, etnotoponim, İrəvan xanlığı, Qafqaz, Ermənistan*

Giriş

Türk tarixinin ən qədim layları haqqında məlumat verən mənbələrdən biri də toponimlərdir. Bu toponimlərin arasında etnotoponimlər daha böyük əhəmiyyət kəsb edir. Qədim dövrün toponimlərini öyrənmək üçün bir çox tarixi mənbələr, coğrafiyaşünasların yol qeydləri, səyyahların səyahətnamələri, dövlət arxiv sənədləri böyük əhəmiyyət kəsb edir. Bu mənbələrdə qeyd olunan toponimlərin bir qismi müasir türk xalqlarının etnogenezində yaxından iştirak edən tayfaların dilinə məxsus müxtəlif söz və terminlərdən, bir qismi isə tarixi proseslər nəticəsində digər etnoslarla birləşərək tarix səhnəsini tərk edən tayfaların və xalqların adlarını əks etdirən coğrafi adlardan ibarətdir.

Tarix boyu müxtəlif ərazilərdə ilkin məskunlaşan və tarixi proseslər nəticəsində bir çox coğrafi obyektlərin ünvanına çevrilmiş qədim türk tayfalarının adlarını əks etdirən, müxtəlif təsirlərin nəticəsində ciddi dəyişikliklərə məruz qalmış belə toponimlərin mənbəyini müəyyənləşdirmək və izah etmək bir az çətin olsa da, onların əksəriyyətini qədim mənbələr əsasında müqayisəli üsulla tədqiq etməklə tarixi faktları üzə çıxarmaq mümkündür. Bu baxımdan müxtəlif dövrün tarixi mənbələri üzrə onomastik tədqiqatların aparılması böyük əhəmiyyət kəsb edir. Belə tarixi mənbələr arasında Osmanlı dövrünün "Təhrir dəftərləri" və digər arxiv sənədləri mühüm əhəmiyyət kəsb edir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, istər Güney Azərbaycan və Gürcüstan, istər İraq və Gənə-Qarabağ, istərsə də Azərbaycanın itirilmiş qədim ərazisi olan İrəvan xanlığı, indiki Ermənistan – Qərbi Azərbaycan, eləcə də Azərbaycan türklərinin məskunlaşdıqları digər bölgələr üzrə aparılan müasir toponimik tədqiqatlar nəzərə alınmazsa, Osmanlı mənbələri bu toponimik araşdırmadan kənarda qalmışdır.

Araşdırmalar göstərir ki, qədim Osmanlı mənbələri müxtəlif bölgələrdə, xüsusən də Azərbaycana məxsus itirilmiş tarixi ərazilərdə ilk dəfə məskunlaşan qədim tayfa və tayfa birliklərinin tarixini, adlarını əks etdirən coğrafi adları öyrənmək üçün çox dəyərli məlumatlar verir. Osmanlı qaynaqları əsasında aparılan araşdırmalar İrəvan xanlığı, indiki Qərbi Azərbaycan ərazisində afşar, bayat, çepni, çinçavat, qaraqoyunlu, quşçu, quzugüdənli, yıva, dümbülü, sinli, bozçalu, haçumlu, mesinli, muğanlu, kəngərli, keçili, qəmərli, reyhanlı, tatarlı, saq kimi tayfaların yaşadığı haqqında daha dəqiq məlumat əldə etmək imkanı yaradır və bu etnosların böyük bir qrupunun sonradan tarixi proseslərin nəticəsi olaraq bölgə toponimlərinin yaranmasında iştirak etdiyini göstərir. Ümumiyyətlə, qədim dövr Osmanlı mənbələri Qərbi Azərbaycan ərazisində etnonimlərlə bağlı toponimlərin daha çox üstünlüyə malik olduğunu göstərir. Osmanlı dövrünün "İrəvan əyalətinin icmal təftəri"ndə indiki Qərbi

Azərbaycan ərazisində qeyd olunan Bəydilli, Xalac, Yıva, Ərsaq məzrəsi, Çinçavat, Qaraqoyunlu, Dəllər, Quşçu, Muğan, Muğancıq-Senli, Kolanı, Əskəmor və başqa bu kimi yüzlərlə etnotoponimin mənşəyi araşdırıldıqda Azərbaycan xalqının soy - kökündə duran qəbilə birləşmələrinin tarixən keçib gəldiyi yol aydınlaşır [İƏİD, 1996: s. 29, 31, 37, 48].

Osmanlı qaynaqları üzrə araşdırmaya cəlb edilən bu kimi etnotoponimlərin tədqiqi Azərbaycan xalqının etnogenizi ilə bağlı bəzi problemlərin açıqlanmasına, eləcə də qədim tariximizin bəzi mübahisəli məsələlərinə aydınlıq gətirilməsinə imkan yaratmaqla Sovet dövründə yaradılmış müasir Ermənistanın ərazilərinin tarixən Azərbaycan türklərinə mənsub olduğunu təsdiq edir və müasir dövrdə ermənilərin Azərbaycandan torpaq iddialarının tamamilə əsassız olduğunu göstərir. Antik dövrün mənbələri, eləcə də Osmanlı dövlətinin arxiv sənədləri əsasında aparılan araşdırmalar göstərir ki, Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində mövcud olan etnotoponimlərin tarixi Roma və Bizans dövrlərindən çox əvvəllər, yəni e.ə. min illiklər boyu formalaşmış türk mənşəli toponimlərdir.

1590 və 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərlərindən və bu dövrlərdə Gelibolulu Ali əfəndinin "Künhül-əxbar" və "Nəsihətnamə"si, əslən Urmiyalı olan Sultan II Muradın şahnaməçisi və sirr katibi olan Seyyid Loğmanın "Zübdət ət-təvarix"i, İbrahim Rəhimzadənin "Zəfərnaməyi-sultan Muradxan", Kəmani Mustafa ağanın "Rəvan fəthnaməsi" kimi Osmanlı tarixi xronikalarında əyalətin etnik tərkibi haqqında verilən məlumatlardan aydın olur ki, İrəvan əyalətinin əhalisi əsasən türk-müsəlmanlardan və türk-xristianlardan (qıpçaqlardan-kursiv Q.H.) ibarət olmuşdur. XVI-XVIII əsrlərdə İrəvan əyalətinin etnik tərkibi haqqında məlumatı Osmanlı dövlətinin bu əyalət üzrə tərtib etdiyi dəftərə adı qeyd olunmuş şəxslərin statistik göstəriciləri əsasında müəyyənləşdirmək mümkündür. 1728-ci ildə İrəvan əyaləti üzrə tərtib olunmuş dəftərdə adı çəkilən 30 əşirətin 72 tayfası ayrı-ayrı yaşayış məskənlərinin sakinləri kimi, Karbi, Xınzirək, Aralıq, Sisyan, Sürməli nahiyələrində və Şürəkəl livası ərazisində qeydə alınmışdır. Bu camaat və əşirətlərdən 17-si bir topluluqdan, yerdə qalanları isə bir neçə tayfadan ibarət olmuşlar [İƏİD. 1996: s.23].

"İrəvan əyalətinin icmal dəftəri"ndə bir topluluqdan ibarət olan türk əşirətlərdən Zəngənə, Qəmərli (Xınzirək nahiyəsi), Türkmanlı, Yuva, Mesinli, Alabatanlı, Sər, (Karbi nahiyəsi), Hacılı (Vedi nahiyəsi), İrəmli, Hacumlu (Şürəkəl livası), Pirili (Sürməli nahiyəsi), Kürdlər, Qarahacılı (İğdır nahiyəsi) Şamdangələn Quzuçu, Mürsəlli (Aralıq nahiyəsi) və Kəngərlilərin (Sisyan nahiyəsi) adları ilə yanaşı, bir neçə tayfadan ibarət olan camaat və əşirətlərdən Dünbüli, Quzugüdənli, Reyhanlı, Saqiabad, Muğanlı, Bayat, Şeyikli, Sinli, Nəcli, Qaraçalar, Əylənli, Daşanların da adını qeyd etmək olar. Dəftərdə verilən məlumata görə, Dünbülilərin Maku, Xınzirək, Nəcli, Maku və Şərur nahiyələrində,Quzugüdənlilərin Karbi və Aralıq nahiyələrində, Reyhanlıların Xınzirək, İğdır və Aralıq nahiyələrində, Sadiqabadlıların Karni və Xınzirək nahiyələrində, Muğanlıların Şürəkəl livasında, Bayatların Karbi və Şərur nahiyələrində, Şeyiklilərin Aralıq nahiyəsində, Sinlilərin Karbi və Xınzirək nahiyələrində, Nəclilərin Qırxbulaq nahiyəsində, hərəsi iki tayfa olan Kürdvəlilər, Qaraçalar, Əylənlilərin Karbi nahiyəsində, Daşanlıların isə Aralıq nahiyəsində və Şürəkəl livasında yaşadığı göstərilir [İƏİD, 1996: s.23].

Onu da qeyd etmək lazımdır ki, icmal dəftərində bəzi kəndlərin əhalisinin etnik tərkibi haqqında məlumata rast gəlinmir. Adı icmal dəftərində qeyd olunan Bayandırlı, Biçənək, Bəydilli, Bozçalı, Qaraqoyunlu, Qarxın, Qıpçaq, Əfşar, Oğuzdaş, Təkə, Təkəciq, Tərəkəmələlər, Cəlayirli kimi əksər yaşayış məntəqələrinin əhalisinin etnik tərkibi haqqında məlumat verilməsə də, qədim türk etnoslarının adından yaranmış bu toponimlər həmin yaşayış məntəqələrinin milli etnik mənsubiyyəti haqqında tam təsəvvür yaradır.

Osmanlı dövlətinin "Təhrir dəftərləri"ndə qeydə alınan Qərbi Azərbaycan toponimlərinin böyük bir qrupunu əks etdirən As//Az, Kimmer//Gemerli, Uz, Tırkeş, Qaraqoyunlu, Maq, Çepni, Celayirli, Qıpçak, Tatar, Bayat , Bayandur, Halac, Kınık, Alpaut, Cağatay, Oğuz, Türkman, Kengerli, Sak, Çol//Çul//Sul, Qarapapaq, Suvarbənd kimi etnotoponimlər haqqında IX-XV əsrlərə aid bir çox ərəb dilli mənbələrdə verilən məlumatlar əsasında bu qədim türk mənşəli etnotoponimlərin etimoloji izahı ümumtürk tarixinin bu günə qədər öyrənilməmiş bir çox problemlərinin həllinə imkan yaradır və Qərbi Azərbaycanın (indiki Ermənistanın) qədim türklərin ilkin məskunlaşdığı tarixi ərazilər olduğunu sübuta yetirir.

Osmanlı dövrünün tarixi mənbələrinə əsaslanan toponimik tədqiqatlar göstərir ki, Qərbi Azərbaycandakı mövcud qədim türk mənşəli etnotoponimlərin bir çoxu Sovet dövründə yeni yaradılan Ermənistan dövlətinin rəsmi qərarları əsasında dəyişdirilmişdir. Xüsusilə də ermənilərin bu əraziyə tarixi köçləri nəticəsində buradakı yer adlarının ermənilşdirilməsi tarixi faktor kimi diqqət cəlb edir. Tarixi mənbələr üzərində aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, vaxtilə Qərbi Azərbaycanda mövcud olan Çaxırlı – Sovetakert, Maqauz – Kaxnut, Muğan – Hovtaşen, Hacı Muğan – Dzovard, Çorlu – Lernantsk, Qəmərli – Artaşat, Qəmərli – Metsamor, Qazançı – Meğraşen, Qıpçaq – Ariç, Çul – Artavan, Quşçu – Keçid, Səfolar – Cermuk kimi qədim türk mənşəli etnotoponimlər müxtəlif yollarla dəyişdirilərək ermənilşdirilmişdir [Ələkbərli, 1994: s.56; 86; 92; 111-112; 140; 155; 165]. Odur ki, Qərbi Azərbaycan, indiki Ermənistan ərazisində qədim türk tarixinin

bu günə qədər üzə çıxmayan qatlarını aydınlaşdırmaq üçün XVI əsrin sonu, XVII əsrin əvvəllərində və XVIII əsrin 20-30-cu illərində dəfələrlə Osmanlı imperiyasının sərhədlərinə daxil olan, Osmanlı mənbələrində Rəvan (İrəvan) bəylərbəyi kimi qeyd olunan Qərbi Azərbaycan bölgəsindəki mövcud etnotoponimlərin araşdırılmasına xüsusi diqqət yetirilməlidir.

Son illər aparılan araşdırmalarda verilən məlumatlardan aydın olur ki, XVI-XVIII əsrlərdə Osmanlı dövləti tərəfindən İrəvan əyaləti üçün iki müfəssəl, dörd icmal, iki sicil dəftəri tərtib olunmuş və bu dəftərlərdən 1603-cü il tarixli "Dəftəri-siçili-livayi-Rəvan" dəftəri Sofiyada, Kiril və Mefodi kitabxanasında, 1590 və 1728-ci il iki müfəssəl və 1595 və 1728-ci il iki icmal dəftəri isə İsatanbulda Başbakanlık arxivində saxlanılmaqdadır [İƏİD, 1996: s.6]. Bu dəftərlərdə azərbaycanlıların etnogenezində fəal rol oynamış qədim türk etnoslarının adını yaşadan Alban, Alpaut, Əfşaryeli, Bayat, Bayandur, Biçənək, Kimmer//Qəmərli, Uz, Tırkeş, Qaraxanlı, Qaraqoyunlu, Muğan, Maqovuz, Çepni, Çol//Çul, Çaxırlı, Reyhanlı, Cağatay, Qacar, Qıpçaq, Quşçu, Xalac, Tatar, Xors, Hörüslü, Kınık, Qayı, Qarxun, Qarapapaq, Oğuz, Türkman, Təkə, Kəngərli, Kolanı, Bədəlli//Bəydilli, Kənzək, Keçili, Suvarbənd, Yıva kimi etnotoponimlərin, eyni zamanda bu tayfaların dilinə mənsub qədim türk sözləri ilə ifadə olunan Almalı, Ağcaqala, Ağnadərə, Dərəbəy, Dərəçiçək, Çaltəpə, Çayırbəyli, Çətən, İlanlı, Xanəhməd, Xatunbulağı, Güneykənd, Qışlaq, Qaraultəpə kimi toponimlərin qeydə alınması Ermənistan SSR toponimik fondunun böyük bir qisminin Türk köklü adlar olduğunu təsdiq edir.

XVII əsrdə Yerevan şəhərinin mədəni etnik tərkibinin dörddə üç hissəsini Azərbaycan türklərinin təşkil etməsinin bu toponimlərin yaranmasının başlıca mənbəyi olduğunu qeyd edən A.Qurbanov Qərbi Azərbaycanda qeydə alınmış külli miqdarda mikrotoponimlərin (dağ, dərə, məhəllə, körpü, təpə, qaya) də Azərbaycan türk dilinə məxsus adlar olduğunu göstərir [Qurbanov, 1988: s.344].

Qədim mənbələrdə və tarixi tədqiqatlarda verilən məlumatlar bir daha təsdiq edir ki, azərbaycanlıların etnogenezində fəal rol oynamış bu qədim türk etnosların adlarının Qərbi Azərbaycandakı coğrafi adlarda belə geniş yer tutması faktı təsadüfi sayıla bilməz. İlk növbədə tarix e.ə. gedib çıxan qədim türk tayfalarının adından yaranmış bu adlar indiki Ermənistanın Azərbaycanın qədim əraziləri olduğunu sübuta yetirir, eyni zamanda ermənilərin Azərbaycana qarşı yürüdülmüş torpaq iddialarına tutarlı cavab olaraq bu yerlərin qədim Azərbaycan – Türk əraziləri olduğunu təsdiqləyir.

BAYAT – XVI–XVIII əsrlər Osmanlı qaynaqlarında Rəvan bəylərbəyliyində adı həm etnonim, həm də toponim kimi qeyd olunan, azərbaycanlıların etnogenezində mühüm rol oynamış qədim Türk tayfalarından biri də bayatlardır. XVIII əsr Osmanlı dövrünün tarixi rəsmi sənədi "İrəvan əyalətinin icmal dəftəri"ndə yerli əhalinin türk-müsəlman toplulukları içərisində bir neçə tayfadan ibarət bayatların adının qeyd olunduğunu görürük: "Dəftərdə adı çəkilən 30 camaat və əşirətin 72 tayfası ayrı-ayrı məskənlərinin sakinləri kimi Karbi, Xınzirək, Aralıq, Maku, İğdır, Şərur, Qırxbulaq, Vedi, Sisiyan, Sürməli nahiyələrində və Şürəgəl livası ərazisində qeydə alınmışdılar. Bu 30 camaat və əşirətdən 17-si bir topluluqdan, yerdə qalanları isə bir neçə tayfadan ibarət olmuşdular. Bir neçə tayfadan ibarət olan camaat və əşirətlər arasında Dümbüli, Quzugüdənli, Reyhanlı, Saqiabad, Muğanlı, Bayat, Geyikli, Sinli, Nəcli, Kürdvəli, Qaraçılar, Əylənli və Daşanlıları qeyd etmək olar" [İƏİD, 1996: s. 23]. "İrəvan əyalətinin icmal dəftəri"ndə Muğanlı kəndinin əşirətinin əsasən bayatlardan ibarət olduğu haqqında da ayrıca məlumat verilir [İƏİD, 1996: s.69].

Toponimik tədqiqatlar göstərir ki, Qərbi Azərbaycanda bayatların adını daşıyan Bayat dağı, Bayat bulaq, Bayatlar – qışlaq adlı [Budaqov, Qeybullayev, 1998: s.145], [Bayramov, 2002: s.114] etnotoponimlərin paralellərinin türk xalqlarının yaşadığı digər bölgələrdə mövcud olması faktı, onların yayılıb məskunlaşdığı ərazilərin çox böyük bir coğrafi arealı əhatə etdiyini göstərir. A.Ə.Bayramovun tədqiqatlarından aydın olur ki, erməni xəyanəti nəticəsində Pəmək bölgəsində adı keçən Bayatlar qışlaq adı 1940-cı ildə Ermənistan dövlətinin xüsusi fərmanı ilə ləğv edilmişdir [Bayramov, 1996: s. 157]. M.H.Vəlilinin verdiyi məlumata görə, Türküstan səhrasında yaşayan bayatlar əvvəlcə Kiçik Asiyada məskunlaşmış və burada səlcuqlara qarışmış, sonralar Teymur tərəfindən Diyarbəkirə və buradan da Bağdada köçürülmüşlər. XIII yüzillikdə Səfəvilər bayatların bir hissəsini Qırxbaşlar adı ilə Mazandarana, Tehran və Xorasana köçürsə də, bayatların bir hissəsi Anadoluda qalmış və buradan müxtəlif vaxtlarda Azərbaycana köç etmişlər [Vəlili, 1993: s.44].

Osmanlı dövrünün "Təhrir dəftərləri"ndə verilən məlumatlar göstərir ki, bayatların böyük bir qismi Osmanlı və Səfəvi dövlətlərinin yaranmasından öncə indiki İraq ərazisində yaşamışlar. Günümüzdə Azərbaycan türklərinin bir parçası olan, İraq-Kərkük Türkmanları kimi tanıdılan xalqın yaşadığı Kərkük, Tuzxurmatı, Dakuk bölgələrində də bayatların adını yaşadan Bayatarkı, Bayatçamı, Bayatdərəsi, Bayatlık//Bayat yeri kimi bir neçə etnotoponim qeydə alınması bu faktı təsdiq edir [Kevseroğlu, 2012: s.70]. "Kitabi Dədə Qorqud" dastanlarının "Rəsul Əlehissəlam zamanında yaqın Bayat boyından Qorqut ata diyərlər, bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, – nə diyərsə olurdı" ilk cümləsində Oğuzların bayat boyu haqqında verilən məlumat, onların müasir azərbaycanlıların etnogenezində oynadığı mühüm rolu aydın şəkildə

göstərir [KDQ, 1988: s.31]. M.Kaşğarlının "Divanü lüğət – it türk" əsərində bayatların 22 oğuz boyundan doqquzuncusunun adı kimi qeyd olunması ilə yanaşı, həm də Arqu ləhcəsində uca Tanrının adı kimi müqəddəs sayılması haqqında məlumat verilir [Kaşgarlı, 2018: s.27; 419].

"Qərbi Azərbaycanın tarixi coğrafiyası"nda da bayatlar və onların adlarını daşıyan etnotoponimlər haqqında verilən məlumatlar onların bu ərazilərdə məskunlaşdığını göstərir. Kitabda 1831-ci ildə İrəvan quberniyasının Qəmərli (indiki Artaşat) rayonunda dəniz səviyyəsindən 922 metr yüksəklikdə yerləşən Bayat (sonradan adı Şenqavit olaraq dəyişdirilən kənd) və Bayatlar kəndlərində yaşayan Azərbaycan əhalisinin buradan çıxarılaraq kəndlərin dağıdıldığı və sonradan ermənilərin bu kəndlərin ərazilərinə yerləşdirildiyi göstərilir [ИГЭА, 1998: s.153; 201].

BAYINDIR//BAYANDUR — Azərbaycan türklərinin etnogenezində mühüm rolu olan qədim türk boylarından biri də Bayandurlardır. M.Kaşğarlının "Divan"ında Oğuzların üçüncü boyu kimi qeyd olunan bayandurların adı ümumtürk toponimiyasında bir çox coğrafi adlarda tarixin izlərini yaşatmaqdadır [Kaşğarlı, 2018: s.26]. 1728-ci il "İrəvan əyalətinin icmal dəftəri"ndə Maku nahiyəsində [İƏİD, 1996: s.33] qeydə alınmış Bayındır etnotoponimi Oğuzların eyniadlı boyunun adını əks etdirir. Akademik B.Budaqovun tədqiqatlarında Sovet Ermənistanında Bayandur adlı üç etnotoponim [Budaqov, 1998: s.145], İ.Bayramovun tədqiqatlarında isə Bayandur adlı dörd etnotoponim və Bayandur bulağı adlı bir hidronim qeydə alınmış və bu adların hər biri haqqında müfəssəl məlumat verilmişdir [Bayramov, 2002: s.111-112]. Ə.Ələkbərli isə Ermənistanın 1970-ci ildə Düzkənd (Axuryan) rayonunda qeydə alınmış 17 kənd sovetindən birinin adının Bayandur olduğunu qeyd edərək göstərir ki, bu əraziyə rayon mərkəzindən 20 km. məsafədə yerləşən Bayandur kəndi və ondan 1 km. məsafədə yerləşən Bayandur stansiya qəsəbəsi, 2 km. məsafədəki Aralıq (Yerazqavors) kəndlərini birləşdirir [Ələkbərli, 1994: s.100].

B.Ə. Bayramov Qədim Oğuz ellərinin Ağbaba, Şərəyəl və Pəmək bölgələrinin yer-yurd adlarından söz açarkən,1728-ci ildə İrəvan əyalətinin Şuragəl nahiyəsində qeyd olunmuş Bayandur kənd adından bəhs edərək, Bayandur tayfasının adını əks etdirən bu kəndin əhalisinin 1918-ci ildə qovulması və ermənilər tərəfindən bu kəndin vəhşiliklə dağıdılması haqqında məlumat vermişdir [Bayramov, 1996]. 1886-cı ilə aid mənbələrin verdiyi məlumatlara görə, Yelizavetpol quberniyasının Zəngəzur rayonunda (indiki Ermənistanın Sisyan rayonunda), Maku nahiyəsində I Bayandur və II Bayandur adlı iki kənd olmuşdur. 1897-ci ildə kəndin 210 nəfərdən ibarət olan əhalisinin ancaq Azərbaycan türklərindən olduğu bu kəndlər sonradan erməni terrorçuları tərəfindən darmadağın edilərək, bu kəndlərin türk əhalisi buradan tamamilə çıxarıldıqdan sonra, buraya ermənilər yerləşdirilmiş və kəndin əhalisi tamamilə ermənilərdən ibarət olmuşdur [ИГЭА., 1998: s.117-118].

Mənbələrdə qeyd olunan tarixi faktlar göstərir ki, XV əsrin əvvəllərində Qarabağ və Göyçə gölü ətrafında yaşamış ağqoyunlu tayfalarından biri olan bayandurlar Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamışlar. Hazırda türk xalqlarının yaşadığı müxtəlif bölgələrdə Bayandur adı ilə bağlı yaranmış toponimlər tarixən onların çox geniş ərazidə yayıldığını göstərir. V.V.Bartold, İ.M.Artamonov XI-XII əsrlərdə qədim rus dövlətinin daxili həyatında mühüm rol oynamış benderləri bayandurlarla eyniləşdirirlər. R.Eyvazovanın tədqiqatlarında Bayandur etnosunun adı ilə bağlı yaranmış toponimlərin yayılma arealı haqqında maraqlı məlumata rast gəlinir: "Bayandurlu – Mirbəşir, Bərdə, Bəyandur – Əfqanıstanın Herat mahalında, Bayandur çay – Azərbaycanın Xanlar rayonunda, Laçında, Bayandır kəndi – Ermənistanda, Bayandurlu – Gorusda, Bayandır – Türkiyədə [Eyvazova, 1995: s. 155]. Bundan başqa, Türkmənistanın toponimiyasında türk etnosu Bayandır adına rast gəlinir [Yusifov, Kərimov, 1987: s.146]. Cənubi Azərbaycanın Sərab şəhəri tərkibinə aid olan kəndlərdən biri də Bayandur etnosunun adını əks etdirən Bəyandur toponimidir [Hacıyeva, 2008: s.95].

Araşdırmalardan aydın olur ki, sonradan türk dilindən rus dilinə "baqatır" ("богатыр") şəklində keçən "bahadır" sözü bayandırlarla əlaqədar olub, türk dilində olduğu kimi, rus dilində də heç bir semantik dəyişikliyə uğramadan eyni mənanı ifadə edir. Azərbaycan-Türk dilində "igid, qəhrəman" mənasını ifadə edən "bahadır" sözü sonradan ilə [b< v] səs dəyişikliyi ilə erməni dilinə keçərək "vağatur" şəklində türk dilində olduğu kimi öz tarixi semantik mənasını qoruyub saxlamışdır [Budaqov, Qeybullayev, 1998: s.145], [Ələkbərli, 1994: s.100], [İƏİD, 1996: s.114].

Tarixi sənədlərə əsasən verilən məlumatlardan aydın olur ki, 1728-ci ildə İrəvan əyalətinin Şuragel yarımadasındakı Bayandur kəndində yaşayan türklər sonuncu dəfə 1918-ci ildə bu kənddən qovulduqdan sonra bu kənd də digər türk kəndləri kimi ermənilər tərəfindən tamamilə dağılmışdır [İƏİD, 1996: s.145]. Çağdaş toponimik tədqiqatlar Bayandır etnosunun adı ilə bağlı coğrafi adların Türk xalqlarının yaşadığı çox geniş bir coğrafiyada yayğın olduğunu göstərir: Əfqanıstanın Herat mahalında Bəyandur çöl [Eyvazova, 1995: s.126], Şimali Azərbaycanın Laçın rayonunda axan Bayandur çay, Tərtər rayonunda Bayandur, Bayandurlu kəndləri [ATEL, 2007: s.85], Türkiyədə Ərzurumun İspir bölgəsində Bayandır kəndi [Cemalmaz, 1995: s.49], Güney Azərbaycanın Sərab şəhərinə yaxın Bəyandur kəndi [Hacıyeva, 2008: s.95].

ÇAPNI//ÇEPNİ – haqqında ilkin məlumata Mahmud Kaşğarlının "Divanü luğati't-Türk" əsərində rast gəlinir. O, Çapni//Çepniləri Oğuzların 21-ci boyu olaraq göstərir [Kaşğarlı, 2018: s.28]. R.Eyvazova Əfqanıstanın Huristan bölgəsində Çapi, Qəndəhar ərazisindəki Çupan etnotoponimlərinin də Çepnilərin adı ilə bağlı olduğunu qeyd edərək, bu etnosun adı ilə Şimali Azərbaycanın Şamaxı bölgəsində çapnilərin adını əks etdirən Cabani, Göyçaydakı Çapni, Quba qəzasının Şabran mahalında Çepni etnotoponimləri əsasında bu tayfanın Azərbaycanda yayılma arealını göstərmişdir [Eyvazova, 1995: s.204-205].

Azərbaycanın orta əsrlər tarixi mərhələsində müstəsna rol oynamış etnoslardan olan çepnilər XVI – XVIII əsr Osmanlı imperiyası dövründə indiki Türkiyə, Azərbaycan, İran və Ermənistan ərazisində yayqın bir şəkildə böyük coğrafi areala sahib olmuşlar. Bir çox tarixi qaynaqlarda çepnilər haqqında verilən məlumatlar onların məskunlaşdığı ərazilərdə eyniadlı toponimlərin mövcud olduğunu göstərir. B.Budaqovun verdiyi bilgiyə görə, Türkiyə Respublikasında çepnilərin adını yaşadan 43 kənd var [Budaqov, Qeybullayev, 1998: s. 421].

XVI – XVIII əsr Osmanlı dövrünə aid qaynaqlarda Çepnilər haqqında istənilən qədər məlumat almaq mümkündür. İspan səyyahı Klavixo çepnilər adı ilə tanıdığı "Çapanilər"in Trabzon ətrafı bölgələrdə yaşadıqlarını qeyd edir. Tarixi araşdırmalar göstərir ki, 24 oğuz boylarından biri olan "çepnilər"in yaşadığı coğrafiya daha geniş bir ərazini əhatə etmişdir. Mənbələrdə Səfəvilər dövründə Çepnilərin Qaradəniz sahillərindən – Trabzondan Erzincana, Antepə, Suriyadan – Hələbdən İraqa və İrana – Güney Azərbaycana qədər böyük bir ərazidə yaşadığı haqda məlumata rast gəlinir [Sümer, 2017: s. 398-403]. Ə.Hüseynzadə isə çepniləri Orta əsrlərdə Anadoluda yaşayan Ulu – Göytürk tayfa ittifaqının bir qolu hesab edir [Hüseynzadə, 1974, № 8, s.186].

İndiki Ermənistan ərazisindəki çepni tayfasının adını əks etdirən bu toponimlərin də onların adı ilə yarandığını Z.Qorqotyan XVI əsr Qızılbaş tayfalarının bir qolu sayır [Qorqotyan, 1932: s.14]. Çepnilər haqqında daha ətraflı məlumata F.Kırzıoğlunun tədqiqatlarında rast gəlirik:

"Sürmene kazasının sağ taraftarında (batı) Çepni tabir olunur bölükbaşlılar hala mevcüd olduğu gibi yüz bir nüfuz kadar Trabzon'un cihet qaribiyyesinde vaki Trebolu ve Gorele ve Vakfıkebir (Akcaabat) taraflarında iskan edilmişdir. İkinci Mehmet Han Trabuzon tigresini ülkesine kattıktan sonra, ovadan yüzbin Çepni türkü geldi, Tırabuzon, tigresine yerleşti... Çepniler ilk önce Türkeli'nden (Türkistan'dan) İran toprağına göçmüş Kızılbaşlığı öğrenmiş. Bunlar İran'da tek durmamış, o uslu oturmamış. Bundan ötrü İran hanları bunları kendi elinde istememiş. Bunlar da Anadoluya geçmiş. Anadoluya geçen Çepniler'den yüzbin kişi – daha çoğu Giresun Tirebolu, Görele, Büyükliman'da bulunmak üzere – Tırabuzon tiqresine yerleşmiş birtakımı da batıya doğru yürümüş; İzmit, Balıkesir, İzmir yanlarına yayılmış. İzmit tekiler yerli Türklere karışmış Çepnilikten çıkmış! Ancak Balıkesir, İzmir tiqresindeki Çepniler, çepnileklerini korumuş..." [Kırzıoğlu, 1993: s. 96].

Qaynaqlardan göründüyü kimi, tarixi mərhələlərdə çepnilərin müxtəlif bölgələrə miqrasiyası və fəaliyyəti sonradan eyniadlı coğrafi adların yaranmasında da böyük rol oynamış bir çox toponimlərdə tarixin izlərini yaşatmışdır: (Çepni – 1590-cı ildə Rəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [İƏMD., 1996: s.47], Çəpni - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (İndiki Ermənistanın Qafan rayonunda) kənd adı [Пагирев, 1913: s.280]. Çepni etnosunun adı 1728-ci ildə Rəvan əyalətinin Sürməli nahiyəsində də kənd adı kimi qeydə alınmışdır [İƏMD., 1996: s.63].

Tarixi tədqiqatlar göstərir ki, Çepnilərin yayıldığı coğrafiya Qərbi Azərbaycanın sərhədlərini aşaraq, daha geniş bir arealı əhatə etməkdədir. Qaradəniz sahillərində Çepnilərin Sinopdan şərqə doğru yayılmaları haqqında Trabzon Rum dövlətinin tarixçilərinin əsərlərində daha geniş məlumat verilməkdədir. Bu qaynaqlardakı mövcud tarixi faktlara görə, XIII əsrdə Sinop və Samsundan irəliləməyə başlayan Çepnilər XIV əsrdə Harşit dərəsi vadisini ələ keçirmişlər.Trabzonlu kilsə tarixçisi Panaretos II Joannes dövründə (1280-1297) Kalbia bölgəsinin Çepni Türkmənlərinin əlinə keçdiyini yazır [Winfield, 1962: s.172]. Çepnilərin Sinop sahillərinə yerləşmələrini Anadoludakı moğol nüfuzunun (əhalisinin) artması ilə əlaqələndirən İbrahim Tellioğlu tarixi mənbələrə əsaslanaraq Çepnilərin Qaradəniz bölgəsində böyük nüfuza malik olduqlarını göstərir [Tellioğlu, 2004: 117], [Anthony Bryer, 1974: s.125].

XIII-XIV əsr ərəb müəllifi Əbu Həyyanın "Kitab əl-idrak li-lisan əl-ətrak" əsərində verilən məlumat göstərir ki, orta əsrlərdə Şərqdə böyük nüfuza malik olan türk boylarından biri də Çapnı türk qəbiləsi olmuşdur [Əbu Həyyan, 1992: s.32].

DƏLİLƏR – XVI – XVIII əsr Osmanlı qaynaqlarında qeydə alınmış mənşəyi maraq doğuran toponimlərdən biri də dəllər etnonimi əsasında yaranmış toponimlərdir. Çindən başlayaraq bütün Şərq, o cümlədən İranın sərhədləri daxil olmaqla, eləcə də Bizans imperiyasının cənub-qərbinə qədər çox böyük bir coğrafiyada məskunlaşmış bu etnos Azərbaycan-türk toponimiyasında Dəliçay (Şamaxı və Xaçmaz rayonlarında çay), Dəlidağ, Dəlidağsu (Kəlbəcər), Dəliqarlıtəpə, Dəliqobu (Xaçmazda çay), Dəliquşçu kəndi (Zərdab rayonunda), Dəliməmmədli şəhəri (Goranboyda) adları ilə öz tarixi varlığını qoruyub saxlamışdır [ATEL, 2007: s.157]. Toponimik araşdırmalar bu etnosun adını daşıyan coğrafi adların böyük bir qisminin də

Azərbaycanın itirilmiş tarixi ərazilərində, xüsusilə Qərbi Azərbaycan bölgəsində qeydə alındığını göstərir.

1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Karni nahiyəsində Dəlilər kimi qeyd olunan [İƏİD, 1996: s.37] bu etnonimin adının erməni mənbələrində də eyni fonetik tərkibdə, Dəlilər şəklində yazıldığını qeyd edən İ.Bayramovun verdiyi məlumatlardan aydın olur ki, bu etnosun adı İrəvan quberniyasının Yeni Bəyazid qəzasında Dəliqardaş (indiki Kəvər, Kamo rayonunda), Dəllər (Axta rayonunda kənd), Dəllər (Axta rayonunda çay) adlı etnotoponimlərlə yanaşı, eyni zamanda Dəlidağ adlı iki oronimdən biri Gəncə quberniyasının Qazax qəzasında, indiki Dilicanda, digəri isə Tiflis quberniyasının Lori-Pəmbək qəzasında yerləşir [Bayramov, 2002: s.267-269].

Ə.Ələkbərli Qəmərli (Artaşat) rayon mərkəzindən 5 km. məsafədə yerləşən, bu etnonimin adını daşıyan Dəlilər kəndinin adının Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3.01.1935-ci il tarixli qərarı ilə kiçik fonetik dəyişikliklə Dəllər formasına salındığı haqqında məlumat verir (Ələkbərli, 1994: s.92). Mənbələrdə verilən məlumatlardan aydın olur ki, əvvəlcə bütün əhalisi Azərbaycan türklərindən ibarət olan bu kəndə1828-1829-cu illərdə ermənilərin kütləvi köçündən sonra, 1918-ci ildə erməni daşnaklarının törətdiyi qanlı toqquşmalarda kəndin 200-dən çox azərbaycanlı əhalisi kənddən birdəfəlik qovulmuşdur [ИГЗА., 1998: s.154]. Osmanlı qaynaqlarında bu etnosun adı ilə bağlı etnotoponimlər "İrəvan əyalətinin icmal dəftəri"ndə Ağcaqala nahiyəsində qeydə alınmış Dəlilər [İƏİD, 1996: s.132], digəri isə "1727-ci il tarixli Rəvan livasının müfəssəl təhrir dəftəri"ndə Qırxbulaq nahiyəsində Ərzqanın yaxınlığındakı Dəlili, digəri isə Köhnə Dəlili kəndidir [RLMTD, 2021: s.125].

Toponimik araşdırmalar göstərir ki, mənbələrdə dəli//tele kimi fonovariantlarda qeyd olunan bu tayfa Qafqazda geniş bir əraziyə yayılmışdır. Bu faktı indiki Azərbaycan və Ermənistan Respublikaları ərazisindəki eyniadlı toponimlərlə yanaşı, Gürcüstanda da qeydə alınmış tarixi-coğrafi adlar da təsdiq etməkdədir. Hazırda Gürcüstanın qədim Borçalı mahalında Dəllər adında iki kənd var. Bu kəndlərdən birinin adı Başkeçid rayonunda müasir dövrədək tarixi adını qoruyub saxlayan Dağ Dəlləri kəndi, digəri isə gürcülər tərəfindən adı dəyişdirilərək Muşevani adlandırılan Aran Dəlləri kəndidir. Bəzi mənbələrdə 1931-ci ildən bu kənddə Azərbaycan məktəbi fəaliyyət göstərdiyi haqqında məlumatlara da rast gəlinir (http://zim.az/bolnisi/1364-dllr-knd.html).

Ş.Məmmədlinin araşdırmalarından məlum olur ki, rayon mərkəzindən 14 km. cənub-qərbdə Maşaver çayının sağ sahilində, dəniz səviyyəsindən 750 m. yüksəklikdə yerləşən Aran Dəllər kəndində 1870-ci ildə 7 ailədə 47 nəfər; 1918-ci ildə 198 nəfər; 1926-cı ildə 53 ailədə 314 nəfər; 2002-ci ildə 290 ailədə 1194 nəfər (607 kişi, 587 qadın), 2006-cı ildə 246 ailədə 1200 nəfər yaşayıb. Hazırda bu kənddə 1250 nəfərdən çox soydaşımız yaşayır [Məmmədli, 2002, s.14].

Qərbi Azərbaycanda dəli//tele etnosunun adı ilə qeydə alınmış toponimlərdən biri Böyük Dəllər kəndi rayon mərkəzindən 2 km. şimal-qərbdə düz yolun üstündə yerləşir. Kəndin erməni əhalisi 1828-1829-cu illərdə İranın Xoy şəhərindən buraya köçürülmüşdür. 1918-ci ildə qanlı toqquşmalarda kənddən 200-dən çox azərbaycanlı birdəfəlik qovulmuş, kəndin əhalisi tamamilə ermənləşdirilmişdir.

Azərbaycan toponimiyasında əsas komponenti "Dəli" etnonimi əsasında düzələn və "çay, su, dağ, qobu, quşçu, daş, təpə" kimi müxtəlif yardımçı topoformantlara qoşularaq tarixi varlığını coğrafi adlarda yaşadan bu etnosun adı tarixi proseslərdə "dəli", "tali", "tele" kimi inkişaf yolu keçərək müəyyən fonetik deformasiyalarla müşahidə olunmaqdadır.

Tele tayfalarının hunların bir bir tirəsi olduğunu qeyd edən R.Eyvazova Əfqanıstandakı Taliqan toponiminin də mənşəyinin bu etnosla bağlı olduğunu göstərir və Hindistanın paytaxtı Dehli şəhərinin adının mənbələrdə Delhi kimi qeyd edildiyini diqqətə alaraq, bu toponimin də tele tayfasının adından yaranması mülahizəsini irəli sürür. Tarixi mənbələrə istinad edən tədqiqatçı telelərin//dəlilərin qədim zamanlarda Balxaş gölü ətrafında yaşadığı və burada hunların tərkibinə daxil olduqları və VI əsrin ortalarıda Dağıstana qədər uzanan Qərbi Türk xaqanlığının tərkibinə daxil olmaları və Xəzər dənizi sahillərində məskən salmaları və VI-VII əsrlərdən Azərbaycanda oturaq həyat keçirmələri haqqında məlumat verir [Eyvazova, 1995: s.91-92].

Araşdırmalarında tele tayfasının izlərinin Dileli-Muskenli, Dəli-Kuşçu, Dəli-Məmmədli, Dəli-Çoban kimi toponimlərdə qaldığını qeyd edən Q.Qeybullayev bu etnosun ümumtürk coğrafiyasında qolos (karakalpak və tatarlarda), teeles (qırğızlarda), tilev (qazaxlarda), tele (noqylarda), Tolos, Teleut, Telenqut və Teles (müasir Altay adları) kimi fonvariantlarının da tele//dəli etnosunun adı ilə bağlı olduğunu göstərir. Altay dağlarında yaşayan telengit//telenqut//teleut tayfasının bir hissəsinin hazırda Tolos adlandığını qeyd edən, Q.Qeybullayevin fikrincə, Qədim türk tayfası qolos e.ə. III əsrdə Ordosun qərbində yaşamış Azərbaycan oykonimi Tulus (Cəbrayıl rayonu) ilə bağlıdır. Müəllif, bu tayfanın Qərbi Türk Xaqanlığının tərkibində olduğu və türk abidələrində teles şəklində qeydə alındığı mülahizəsini irəli sürərək tele tayfasının qədim zamanlarda Azərbaycanda çoxlu toponimlər qoyub getmiş qıpçaqlarla əlaqəsindən də bəhs etmişdir [Гейбуллаев, 1986: s.34-35].

1918-1920-ci ildə Azərbaycan Demokratik Respublikasının tərkibində olmuş, hazırda Ermənistanın

kurortlar şəhəri kimi tanıdılan, 1951-ci ildən respublika tabeli şəhər statusuna malik olan və İrəvandan 106 km. məsafədə yerləşən Dilican etnotoponimi türk mənşəli "dəli" və "can" komponentləri əsasında yaranmış dəli//tele tayfalarının izini yaşadır. 1918-ci ildə ermənilərin təcavüzünə məruz qalan azərbaycanlılar bu ərazidən çıxarılaraq deportasiya olunmuşlar.

Tədqiqatları ilə Altayın qədim türk torpaqları olduğunu təsdiq edən Aristovun tədqiqatlarına istinad edən Patapov Aristovun burada yaşayan türk xalqlarının etnik mənşəyinə çox az diqqət etdiyini vurğulayaraq, cənubi altayda yaşayanların qədim qaoyuy tayfalarının davamçıları olduğunu və onların adının qədim Çin mənbələrində "tele" kimi qeyd olunduğundan bəhs edərək, Radlovun bu etnosun qədim Yenisey ketlərinin qalıqları olaraq türkləşmiş kumandin və çelikanların davamçıları olaraq qədim tukyuy türklərindən ibarət olması fikrinə də diqqət yetirir (Потапов, 1969: s. 15).

Hazırda Türkiyə Respublikasının ərazisində həm toponimlərdə, həm də antroponimlərdə dəli//deli etnosunun tarixin izlərini görmək mümkündür. Ankaraya yaxın məsafədə yerləşən Kırıkkale bölgəsində Elmalı, Büyükavşar, Kocabaş, İmirli, Meşeyayla (Cingeyli), Çatallı, Şahcalı, Bozköy, Küçükavşar, Şahlı adlı 10 kənddən ibarət Delice rayonu vardır ki, Deliceyə aid olan bu kəndlər bu kəndlər Türkiyədə "Kırıkkale Delice Alevi Köyleri" adı ilə tanınmaqdadır.

Müasir türk dillərində "dəli" sözü "ağlını itirmiş – rusca "сумасшедший", ingiliscə "crazy" sözünün semantik mənasını ifadə etsə də, ümumtürk folklorunda bu söz "böyük gücə malik olan şəxs, igid, qoçaq, cəsur" mənalarında işlənmişdir. "Koroğlu dastanlarında" dastanın baş qəhrəmanı Koroğlunun "hoydu, dəlilərim, hoydu" ifadəsində, eyni zamanda Dəli Həsən antroponiminin timsalında bu fakt öz təsdiqini tapır.

MUĞAN – Qərbi Azərbaycan ərazisində toponimlərdə və müxtəlif dillərdə olan tarixi mənbələrdə adını mar//mad//maq//mağ//max//mah//muq//muk//muq//muγ kimi fonovariantlarda qoruyub saxlayan, Azərbaycan xalqının tarixində və etnogenezində mühüm rola malik tayfalardan biri də maqlardır. Qərbi Avropanın bir çox tədqiqatçıları maqların türk olması faktını qeyd etsələr də, təəssüflə qeyd etmək lazımdır ki, bəzi rus və Azərbaycan tarixçiləri bu faktı inkar edərək maqları fars mənşəli hesab etməyə çalışmışlar. İstər müasir Azərbaycan Respublikasının, istərsə də bu dövlətin zaman-zaman itirilmiş tarixi ərazilərində, mar//mad//maq//mağ//max//mah//muq //muk//muğ//muγ komponenti və [-an] şəkilçisinin birləşməsi ilə müxtəlif fonovariantlarda paralel işlənən çox sayda toponim qeydə alınmış bu toponimlərin digər türk xalqlarının məskunşalşdığı coğrafiyalarda da geniş bir arealda yayılması və tarixi etimoloji araşdırmalar bu etnotoponimlərin türk mənşəli olduğunu təsdiq edir.

Müasir mərhələdə Güney və Quzey Azərbaycan, həmçinin İrəvan xanlığı, indiki Ermənistan ərazisində daha çox Muğan//Muğanlı//Moğan şəklində qeydə alınmış bu etnooykonimin birinci komponenti muğ//moğ//maq//max ilə bağlı Q.Qeybullayevin, A.Rəhimovun, Q.Məşədiyevin, Ə.Fərzəlinin, İran tarixçilərindən R.Rəisniya, S.Nəfisi və B.Xamaçının, həmçinin Herodotun "Tarix"ində istənilən qədər elmi, tarixi faktlar mövcuddur. Tarixi etimoloji araşdırmalar maqların qədim türk tayfalarından olduğunu və onların Azərbaycanın itirilmiş tarixi ərazilərində, Güney Azərbaycan, Gürcüstan, Ermənistan, hətta Dərbənddə yaşadığını göstərir. Mağ//Muğ etnonimi ilə bağlı bu ərazilərdə yaranmış toponimlər fikrimizi təsdiq edir.

"İndiki Muğan toponiminin qədim adı fars mənbələrində 293-cü ildən çəkilir. Digər Muğan Kürdən şimalda Albaniyanın şimal-qərbində gürcü mənbələrində Movakan, IX əsr ərəb coğrafiyaçısı Məsudinin əsərində Muğan adı ilə məlumdur. Şəki rayonunun Göynük kəndində Mühlər məhəlləsi, Maq dağı, Quba rayonunun Qaley-Muq dağı, Dərbənd rayonunda Muqartı (qədim türk dillərində art "dağlıq ərazi" deməkdir) və Muğ-Aran (kənd sözü əlavə olunmaqla bu toponim indi "Məhərrəmkənd" formasındadır), Dağıstanda Muğan (Ullu çayın ağzında yer adı). Şimali Qafqazda Muğalqaya, Mukal dağı, Mukal çayı və başqa toponimlər də vardır" [Qeybullayev, 1994: s. 118]. Q.Məşədiyev muğ komponenti ilə yaranmış Muğan etnoniminə [-lı] şəkilçisi artırmaqla Şimali Azərbaycan ərazisində 13 kəndin Muğanlı adlandığını qeyd edir [Məşədiyev, 1990: s. 62].

Azərbaycan paleotoponimiyasında maq etnoniminin işlənmə dairəsindən geniş söhbət açan A.Rəhimov isə fikrini belə açıqlayır: "Qədim yazılı qaynaqlarda midiyalılar mənasında, əsasən mata//mada və mar sözləri işlədilmişdir. Tədqiqatçıların fikrincə, mata //mada adı həm etnonim, həm də toponimdir. Akad. N.Y.Marr, İ.Əliyev, Ə.Dəmiçizadə sübut etmişlər ki, antik müəlliflərin "Midiya" formasına saldıqları toponimin orijinalı olan Mada//Madape adı daha qədim Maktape//Mağday adından törənmişdir və mənası da "maq yerləri", "mağ ölkəsi" deməkdir. Adətən, Muğan adını "muğ//mük" və [–an] (İran mənşəli şəkilçi) komponentlərinə ayırırlar. Laklin iranlıların gəlişindən çox-çox əvvəllərə aid Makan//Maqan//Mukan//Muğan toponimlərində İran mənşəli şəkilçi ola bilməz. Ona görə də, fikrimizcə, bu eyni mənşəli adlarmmaq etnoniminin maka//muğa variantına elam – kassit – lulubəy toponimiyası üçün xarakterik –n topoformantı artırmaqla yaranmışdır" [Rəhimov, 1986: s. 83-85].

A.Fazili İran tarixçilərinin əsərlərinə istinad edərək buranın qədim etnosları, həmçinin maqlar haqqında

məlumat verərək yazır: "Parfiya dövründə göstərilən rütbələrdən başqa adları aşağıda qeyd olunan Sipəbod, Ərkbod, Möbədane möbəd və hibordane hirbodlar da olmuşlar". "Möbədləri həmişə Midiyanın mağ tayfasından seçərdilər. Qrupun ad adı bu tayfanın adı ilə əlaqədar olaraq meydana çıxmışdır. Belə ki, möbəd əslində moğbəd olub məgupət sözündən əmələ gəlmişdir. Mənası isə "mağların başçısı" deməkdir" [Fazili, 1970: s. 77].

Burada bir məsələni qeyd etmək lazımdır ki, toponimlərin tərkibindəki "bod//bad//bəd//bed// bet//pat" sözləri "yer, məkan"anlamında işlənir (Məsələn, Arbat//Ərbat, Aqbat, Ordubad və s.). A.Fazilinin tədqiqatlarında rast gəldiyimiz "möbəd//moğbəd//məgupət" sözləri həm də "mağların məskunlaşdığı yer, məkan" deməkdir. Türk xalqlarının ərazilərin müasir toponimiyasında qədim türk tayfaları mağ//maqların adını yaşadan coğrafi adları həm də qədim tarixi qaynaqlarda qeyd olunur.

XVII-XVIII əsr osmanlı dövrünün qaynaqlarında Naxçıvan sancağına tabe olan Sair Məvazi, Dərəşahbuz, Sisyan, Azadciran nahiyələrində "mor//muğ//mah//meq" fonovariantında Moranşah, Muğan, Meqri, Mahrus kəndlərinin adına rast gəlinir [NSMD, 2001: s.27-33]. Həm Osmanlı dövrünün təhrir dəftərlərində, həm də müasir dövrdə Naxçıvan MR Şərur rayonu ərazisində qeydə alınmış Muğanlı, Müslüm-Muğancıq, Muğancıq-Mehrab, Maxta kimi toponimlər də bu qədim türk etnosunun adını yaşadan coğrafi adlardır.

Gürcüstanın Bolnisi rayonunda Muğanlı (Baba Muğanlı), Marneuli rayonunda Baş Muğanlı, Kaş Muğanlı//Qaş Muğanlı, Kireç Muğanlı, Başkeçid rayonunda Muğanlı (Dağ Muğanlı - 1990-cı ildə Azərbaycan türkləri buradan qovulmuş kənd gürcüləşdirilmişdir), Sakareco rayonunda Yor Muğanlı, Qarayazı rayonunda Sartçala Muğanlı adlı kəndlər vardır [Albayrak, 2004: s. 62].

Bu elmi-tarixi faktlara əsasən, qətiyyətlə deyə bilərik ki, istər Şimali Azərbaycanda, istərsə də türklərin məskunlaşdığı digər bölgələrdə (Mağosa – Quzey Kiprdə, Muğqala – Səmərqənddə, Mağara, Mağlavita, Marka, Mağula –Trabzonda, Muğartı – Dərbənddə, Muğancıq – Mehrib, Muğancıq – Müslüm, Muğanlı, Maxta – Naxçıvanın Şərur rayonunda, Mağırlı//Muğanlı – Gürcüstanda, Miqtalu//Miqtalı, Moğol//Muğul – Qərbi Azərbaycan ostanının Quşçu Ənzəli rayonunda, Mehri//Meqri//Mığrı – Qərbi Azərbaycanın (indiki Ermənistanın) Zəngəzur rayonunda, Muğancıq - Ermənistanın Gorus rayonunda, Muğanlar – Kastamonun İğdır, Muğan – Sinopun Ayanuk bölgəsində, istərsə də Cənubi Azərbaycanın Şərqi Azərbaycan bölgəsində olan Muğan və Moğlu oykonimləri qədim türk tayfaları olan maqların adını əks etdirərək bu etnosun adı ilə yaranmış toponimlərdə tarixin izlərini yaşatmaqdadır.

Müasir dövrdə türk xalqlarının yaşadığı fərqli coğrafiyalarda da mar//mad//maq//mağ// max//mah//moq//muq//muk//muq//muγ kimi müxtəlif fonovariantlarda qeydə alınmış toponimlərin bir hissəsi də hazırda Özbəkistanda (Margzor, Magzon, Muglon Kasbi kəndi, Mugul Kitob, Magora, Mogultog – Buxara və Daşkənddə, Muğqala – Səmərqənddə) [Nafasov, Nafasova 2007: s.33-34; 36] və İraq Türkmənlərinin yaşadığı bölgələrdə qeydə alınmışdır: Mağmar təpəsi (Tuzxurmatıda), Mahmur (Erbildə), Mahmur təpəsi (Amirlidə), Mehe təpəsi (Kifridə) Muğazaçiyə (Bağdadda), Mükbil təpə (Dakukda) [Kevseroğlu, 2012: s.343-344; 358].

Ümumtürk coğrafiyasında bu qədər tarixi toponimlərdə qədim türk tarixinin izlərini yaşadan bu qədim türk tayfasının adı ilə yaranmış toponimlərin bu qədər yayğın olmasına bağmayaraq, təəssüf ki, bəzi qaynaqlarda maq//mar//muq//muğ tayfalarının, xüsusilə "muğan" sözünün mənşəyi ilə bağlı yaranmış yanlış fikirlərə də rast gəlirik. Ç.H.Mirzəzadə Firuzabadinin əsərlərində "muq" sözünün "axmaq","səfeh" anlamında işləndiyini [Мирзазаде, 1988: s.91], Kevseroğlu isə Mahmur sözünün semantikasını "sərxoş" mənasında açıqlayır [Kevseroğlu, 2012: s.344]. Əl-Müqəddəsiyə görə bu sözün ilkin forması "muqakan" fars sözü olub "muq" və "-an" cəm şəkilçisindən ibarətdir. Mirzəzadə bu sözün ilkin formasının ərəb mənbələrində markan//marqan//maqan formasında olduğunu, sonralar "r" səsdüşümü nəticəsində bu sözün muqan//maqan şəklinə düşdüyünü qeyd edərək, M.Kazımbəyin fikrinə istinadən isə bu sözün "ilanlar məskəni" mənası verdiyini yazır [Мирзазаде, 1988: s. 91].

Muğ tayfalarının adı və mənşəyi haqqında müəlliflərin söylədiyi bu ziddiyyətli fikirlərin heç biri bu sözün etimologoiyasını dəqiqləşdirmir. Fikrimizcə, bu sözün ilkin forması çox asanlıqla həmin sözün mənşəyinin dəqiqləşdirilməsinə əsas verir və göstərir ki, markan//marqan//maqan "mar//maq"(qədim tayfa adı), "kan"(şəhər, yer, məskən) tərkiblərindən ibarət "maqların məskunlaşdığı yer" mənasındadır.

T.Ə.İbrahimov hazırda Güney Azərbaycanda Qaşqay eli tərkibində şahsevənlərə mənsub muğanlı tayfasının yaşadığını və onların məskunlaşdığı ərazilər haqqında məlumat verərək yazır: "Ərdəbil və Meşkin vilayətlərinin hər birində köçəri şahsevənlər sırasında bir muğanlı tayfası var. Ərdəbildə 96 kəndi əhatə edən Muğanlı rayonu, Gülmuğan, Muğvan və Muğan kəndləri, Kələybərdə Aşağı və Yuxarı Hurmuğan kəndləri, Xoy və Marağada Muğancıq, Makuda Muğanlı, Zəncanın Qızılkeçili və Əfşar rayonlarında Muğanlı və Muğənək adlı 4 kənd var" [İbrahimov, 1988: s.92].

Qərbi Azərbaycan toponimiyasında qədim türk etnosu muğların adını əks etdirən bir neçə etnotoponim

Osmanlıların tərtib etdiyi icmal dəftərlərində, xüsusilə "İrəvan əyalətinin icmal dəftəri"ndə, Dərəşahbuz nahiyəsində Muğaral kəndi, Xınzrek mahalında Muğanlı kəndi və Dərələyəz mahalında Muğanlı kəndi kimi qeydə alınmışdır [İƏİD, 1996: s.36; 45; 130]. Osmanlı dövrünün "Müfəssəl" və "İcmal dəftərləri"ndə muğ etnosunun adı ilə İrəvan əyalətinin Karbi nahiyəsində Muğanlı kəndi, Ərmus nahiyəsində Muğanlı məzrəsi, Dərəşahbuz nahiyəsində Muğaral kəndi [İƏİD, 1996: s.126; 130] və "Naxçıvan sancağının icmal dəftəri"ndə Dərəşahbuz və Dərələyəz nahiyələrində Muğan və Muğanlı kənləri qeydə alınmışdır [NSMD, 2001: s.27]. Qədim tarixi sənədlərdə qeydə alınan Muğan, Muğanlı adı müasir dövrdə Quzey Azərbaycan toponimiyasında 18 etnotoponimdə öz tarixi adını qoruduğu kimi [Məlumat toplusu, 2013: s.328], Güney Azərbaycanın Ərdəbil bölgəsində 96 kəndi əhatə edən Muğanlı rayonu, Gülmuğan, Muğvan ve Muğan kəndləri, Kələybərdə Aşağı ve Yuxarı Hurmuğan, Xoy və Marağada Muğancıq, Makuda Muğanlı, Zəncanın Gızılkeçili və Əfşar rayonlarında Muğanlı və Muğanək adlı 4 kənd qeydə alınmışdır [İbrahimov, 1988: s.92].

Osmanlı dövrünün sənədlərində İrəvan Xanlığı və Naxçıvan sancağında qeyd edilən Muğan və Muğanlı kimi etnotoponimlər hazırda Quzey və Güney Azərbaycanın toponimiyasında öz tarixi izlərini qorumuş olsa da, indiki Ermənistandakı Muğan və Muğanlı kimi tanınmış kəndlərdən Türk əhalisinin sürgün edilməsindən sonra, bu kənd adlarının bir hissəsi burada məskunlaşan ermənilər tərəfindən dəyişdirilmiş və talan edilərək dağıdılmışdır. 1728-ci ildə İrəvan əyalətinin Karbi və Qəmərli nahiyələrində, indiki Ermənistanın Artaşat rayonunun kəndlərindən olan, sonradan ermənilər tərəfindən Hovtaşen adlandırılan Muğan kəndinin Türk əhalisi 1918-ci ildə kənddən tamamilə çıxarılmış və Türkiyədən gətirilmiş ermənilər bu kəndə yerleşdirilmişdir. Buradan çıxarılmış Azərbaycan Türklərinin bir qismi 1922-ci ildə yenidən geri dönərək buraya köçürülmüş ermənilərlə birlikdə yaşamışlar. Sonradan XX əsrin 30-cu illərində burada yaşayan Azərbaycan Türkləri yenidən məcburi şəkildə bu ərazidən tamamilə çıxarılmışdır [Budaqov, Qeybullayev, 1998: s.342].

Muğan//Muğanlı – 1728-ci ildə İrəvan əyalətinin Xınzırək nahiyəsində qeydə alınmış bu kəndin adı 25.01.1978-ci ildə ermənilər tərəfindən dəyişdirilərək Hovtaşen adlandırılmışdır [İƏİD, 1996: s.36], [Ələkbərli, 1994: s. 92].

Muğanlu – 1590-cı ildə Revan əyalətinin Ermus nahiyəsində məzrə adı [İƏİD, 1996: s.139], [Ələkbərli, 1994: s.165].

Muğanlı kəndi – 1728-ci il "İrəvan əyalətinin icmal dəftərində" verilən məlumata görə bu kəndin əhalisi qədim Oğuzların Bayat tayfasındandır [İƏİD, 1996: s.69].

Muğancıq – Yelizavetpol quberniyasının Zəngəzur qəzasında mövcud Muğancıq kəndində yaşayan Türk əhali XIX əsrin 70-ci illərində kənddən çıxarılmış və ermənilər kütləvi şəkildə bu kəndə yerləşdirilmişdir.1886-cı ildən əhalisi tamamilə ermənileşdirilmiş "Kiçük Muğanlı" anlamını ifadə edən bu kəndin adı ermənicə Haykadzor adlandırılmışdır [Ələkbərli, 1994: s.143].

Muğan (Hovdameç) – İrəvan əyalətinin icmal dəftərində qeydə alınmış Ermənistanın Üçkilse (Eçmiədzin) rayonundakı Muğan kəndinin adı Ermənistanın dövlət qərarı ilə 25.01.1978 tarixində adı dəyişdirilərək Hovdameç adlandırılmışdır [Ələkbərli, 1994: s.165].

Muğancıq Mirzə Müslüm – İrəvan Xanlığının Sərdarabad mahalında kənd.1828-1832-ci illərdə Türklər bu kənddən çıxarıldıqdan sonra kənd tamamilə dağıdılmış və yandırılmışdır [Шавров, 1911: s.342].

Hacı Muğan – Ermənistanın Kəvər (Kamo) rayonu ərazisində qeydə alınmış bu toponimin adı 25.011978-ci ildə dəyişdirilmişdir [Ələkbərli, 1994: s.140].

Maqauz – Ermənistanın Qafan rayonu ərazisində yerləşən bu bu etnotoponimin adı Ermənistanın dövlət qərarı ilə 29.06.1949-cu ildə dəyişdirilərək Kaxnut adlandırılımışdır.

Maqda – Ermənistanın Əştərək (Aştarak) rayonunda yerləşən bu kəndin də adı 1.12.1949-cu ildə dəyişdirilərək Leranort adlandırılmışdır.

Morut (Aşağı Ağdan) – Ermənistanın Karvansaray (İcevan) rayonunda yerləşən bu kəndin də adı 11.11.1970-ci ildə dəyişdirilərək Haknaxpyur adlandırılmışdır.

Muqub – Ermənistanın indiki Abovyan (əski adı Ellər) rayonunda yerləşən bu kəndin də adı 26.12.1968-ci ildə dəyişdirilərək Balahovit adlandırılmışdır [Ələkbərli, 1994: s.86, 106, 116, 130].

Osmanlı dövrünün qaynaqlarında, xüsusilə Ermənistanın arxiv sənədlərində qorunub saxlanan, günümüzdə Qərbi Azərbaycan – İrəvan xanlığı, o cümlədən Quzey və Güney Azərbaycan toponimiyasında müxtəlif dillərin təsiri ilə fərqli fonovariantlarda tarixi varlığını qorurayn mar//maq//max//muğ tayfasının adını daşıyan etnotoponimlərin dünyanın böyük bir coğrafiyaya sahib olan digər Türk xalqlarının da yaşadığı bölgələrdə (Mağosa – Qüzey Kıprdə, Muğqala – Səmərqənddə, Mağlavita, Muğala – Trabzonda, Mığrılı//Muğanlı – Gürcüstanda, Muğan – Sinopun Ayanuk bölgəsində, Muğancıq – Ermənistanın Gorus rayonunda, Muğan//Moğan, Moğlu – Güney Azərbaycanın Şərqi Azərbaycan ostanında [Hacıyeva, 2008: s.88] qeydə alınması bir daha təsdiq edir ki, bu tayfa haqqında irəli sürülən və heç bir tarixi-linqvistik fakta əsaslanmayan yanlış mülahizələr, bu etnosun türk kimliyindən uzaqlaşdırılmasına xidmət edən saxta

konsepsiyalardan başqa bir şey deyildir.

UZ –Tədqiqatlar göstərir ki, hələ eradan əvvəl VII əsrdə Azərbaycanda, eləcə də türk xalqlarının yaşadığı digər bölgələrdə məskunlaşmış qədim tayfalardan biri də uzlar olmuşdur. Tarixən azərbaycanlıların etnogenezində fəal rol oynamış qədim oğuz boylarından biri olan uz etnosunun adını yaşadan coğrafi adların Azərbaycanda, eləcə də türk xalqlarının yaşadığı müxtəlif bölgələrdə qeydə alınması bu faktı təsdiq edir. XVI – XVIII əsrlər Osmanlı qaynaqlarında verilən məlumatlardan aydın olur ki, uzların bir qismi də Azərbaycanın tarix boyu itirilmiş ərazilərində, xüsusilə İrəvan xanlığı, indiki Ermənistan – Qərbi Azərbaycan və Güney Azərbaycanda yaşamışdır. İstər Güney Azərbaycan, istərsə də Qərbi Azərbaycan toponimiyasında, bu tayfanın adını əks etdirən Uz kəndi, Uzərli//Üzərli (Urmudan Səlmasa gedən yol üstə yerləşir), Usalu (Quşçu Ənzəli rayonunda), Kamuş (qam+us, Mənqur rayonunda), Uzbeygi kəndi (Kermanşahda), hazırda İranda Fars körfəzi yaxınlığında yerləşən Bəndərabbasda Uziha bazarı adlanan bazar var [Hacıyeva, 2008: s.110].

Qərbi Azərbaycan toponimiyasında uz boyunun adı Uz (Yelizavetapol quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd) (Bayramov, 2002: s.561), Murxuz [Bayramov, 2023: s.192] toponimlərində öz əksini tapmışdır. İ.Bayramovun tədqiqatlarında verilən məlumatlar göstərir ki, Qərbi Azərbaycanda qədim türk boyu uzların tarixi izlərini yaşadan Uz etnotoponimi də ermənilərin təcavüzünə məruz qalaraq Uyts şəklində dəyişdirilmişdir [Bayramov, 2023: s. 219].

Erməni dilində olan mənbələrə istinad edən İ.Bayramov Qərbi Azərbaycanda qədim türk boyları uzların adını əks etdirən Uşakan, Uşi, (Karbi nahiyəsində) Üzənli, Ustup, Tulus kimi etnotoponimlərin Ermənistanın dövlət arxiv sənədlərində qeyd olunduğu haqqında da məlumat verir [Bayramov, 2005: s. 63-64; 69; 75], [Bayramov, 2002: s.557].

1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə uz boyunun adı Sisiyan nahiyəsində qeydə alınmış Uz və Muxris (mux//muğ və is<us<uz), Azadciran nahiyəsində (indi Ordubad) Ustupi (us+təpə) və Unus (on+uz) (İƏİD, 1996: s.113-14) və "1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri"ndə isə Kərpiyə bağlı Uşni kimi kənd adlarında qeydə alınmışdır [RLMTD, 2021: s.185].

Uz tayfalarının adını əks etdirən mənşəyi maraq doğuran etnotoponimlərdən biri də Cənubi Azərbaycanın Şərqi Azərbaycan ostanında Savalan dağı ətəklərində yerləşən Arus toponimidir. Hər iki komponenti "ar" və "us//uz" kimi türk sözlərindən ilə yaranmış bu sözün etimoloji təhlili göstərir ki, eyniadlı etnotoponimlər çağdaş türk xalqlarının yaşadığı ərazilərdə, o cümlədən Azərbaycanda da geniş yayılıb.

A.A.Abdurraxmanov Qazaxıstan ərazisində olan toponimlərin etimologiyasından bəhs edərkən Çin mənbələrinə əsaslanaraq tədqiqat aparan Bernştamın fikirlərini təsdiq edərək "ar//ər" komponentlərinin türk mənşəli olduğunu təsdiq etmiş, bu ərazidə lan Arıs, Takır toponimlərini də bu sözlə əlaqələndirmişdir. "Kitabi-Dədə Qorqud" dastanında da Aruz və Uruzun adına rast gəlinir [KDQ, 1988: s.43; 125]. Türk dillərində [z] səsinin [s], [u] səsinn [ı] ilə əvəzlənməsini nəzərə alsaq, onda qətiyyətlə deyə bilərik ki, ARUS//ARUZ//ARIS sözləri bir-birinin fonetik variantıdır. Bunlarla yanaşı, M.Seyidov "ar" komponentinin türk dillərində bir çox qəbilə və insan adlarında iştirak etdiyini qeyd edir. (Qacar, Xızır, Suvar, Avar). uz//us//ız//iz komponentlərinin isə türk dillərindəki mövcud fonetik variantlarını göstərərək [z], [ş], [s] əvəzlənmələri ilə "iş – ıq", "iş – ıl – tı", "is – ti", "iş – ar – tı" kimi sözlərdəki "iş//is" kökü də vaxtı ilə müstəqil şəkildə işığı, odu istini bildirdiyini qeyd edir [Seyidov, 1989: s.45]. V.V.Radlov və bir çox lüğətçi alimlər də "is" – "issi" sözünün "isti" mənasında olduğunu qeyd edirlər.

Araşdırmalardan göründüyü kimi, qədim türk xalqlarının mifik təfəkküründə qırmızı günəşin rəmzi kimi anılır və əski qaynaqlarda günəş, od müqəddəs sayılır. Beləliklə, Arus sözünün etimoloji təhlilini verərkən belə bir nəticəyə gəlirik ki, "ar" – igid, "uz//us" isə dünyaya işıq gətirən uz tayfalarının adını əks etdirir. İşığın istiliyin uz//us-larla bağlı olması heç də təsadüf deyil. Belə ki, Azərbaycan türklərinin mifik təfəkkürü ilə bağlı tarixi faktları əks etdirən "Boz qurd" əfsanəsində qeyd olunur ki, ilk dəfə qaranlıq dünyadan işığa çıxan qədim türk OĞUZ-UZ tayfaları olmuşlar. Göründüyü kimi, uz tayfaları Boz qurdla birgə dünyaya işıq verən, işıq gətirən, dünyanı işıqlandıranlardır.

Toponimik tədqiqatlar nəticəsində istər Azərbaycanın, istərsə də qədim türk xalqlarının yaşadığı ərazilərdə uz tayfalarının adı ilə bağlı yaranmış xeyli toponimə rast gəlinir. Q.Qeybullayevin tədqiqatlarında Hadrut rayonu ərazisində Çıraq-uz, Maqov-uz etnotoponimlərinin olduğu qeyd edilir. R.Eyvazova isə Azərbaycan ərazisindəki Arus oykonimini urus etnonimi ilə bağlayaraq, bunun digər rayonlarda və bölgələrdə mövcud olan Orus//Urus toponimlərinin fonetik variantları olduğunu qeyd edir. Albaniya hökmdarlarından birinin adının Oryoz//Oris olduğunu söyləyən müəllif Urıs//Urus//Orıs kimi etnonotoponimlərin özbək, qazax, qaraqalpaqların toponimiyasında da işləndiyini göstərərək ehtimal edir ki, uraz//uras "xoşbəxtlik, xoş əlamət" sözü ilə əlaqələndirir [Eyvazova, 1995: s. 149-150].

Müasir türk xalqlarının dilində bu etnonim sonradan antroponimə keçid alaraq işlənməkdədir. Müasir türkmənlərdə bu ad Oraz Azərbaycan türklərində Əruz, Türkiyədə Uraz//Uras şəklində mövcuddur.

Araşdırmalardan aydın olur ki, uz//us sözü qədim türk tayfalarından birinin adını bildirməklə həm etnik varlıq, həm də "işıq, isti" anlamını ifadə edən leksik vahid kimi bir mənşədən törəyərək dilimizin, tariximizin daha qədim dövrlərə aid olduğunu göstərir. Uz tayfalarının adını əks etdirən mənşəyi haqqında mübahisəli fikirlər söylənən etnotoponimlərdən biri də adına qədim qaynaqlarda rast gəldiyimiz Təbriz şəhəri yaxınlığında yerləşən Üskü şəhəridir.

Üskü Təbrizin cənub-qərbinin 25 km.-də, Səhənd dağlarının şimal-qərbində yerləşir. Şimaldan Şəbüstərə, cənubdan Marağaya, şərqdən Bostanavaya, qərbdən Azərşəhrə bağlıdır. Farslaşdırma siyasəti nəticəsində Güney Azərbaycanda formaca dəyişdirilmiş coğrafi adların bir çoxu ilə yanaşı, bəzən formaca sabit qalıb semantik mənası təhrif edilən toponimlər sırasında Üskü şəhərinin də adına rast gəlirik. Belə ki, bəzi şəxslər tərəfindən Üskü sözünün mənşəyi yanlış olaraq Sekuh (farsca se – üç, kuh – dağ deməkdir) və ya Sekuhan, Esku (esi – İsmayıl, ku – harada) kimi açıqlanır. İxtisasca tarixçi olmayan həvəskarlar xalq etimologiyasına əsaslanaraq Üsku etnotoponimi haqqında bu fikri irəli sürməyə cəhd edirlər. Əfsanəyə görə, Nəsrəddin şahın İsmayıl adlı oğlu itir. Arayıb-axtaranda hamı onu "Esi" deyə səsləyir, axtaranlar bir-biri ilə qarşılaşarkən "Esi ku" (Esi hanı) soruşurlar. Buna görə də, həmin yerin adı Esku, ya Eskü, ya da Osku qalıbdır. Bəzən buna Üçkuh (Üçdağ) da deyirlər [پور کاویان احمد, 1378].

Göründüyü kimi, Üskülü Mehdinin açıqlamalarında Güney Azərbaycandakı (İranda) "Üskü" toponimi farslaşdırılmaq üçün müxtəlif fonovariantlara salınaraq semantik mənası açıq-aşkar təhrif edilmişdir. Üskülü Mehdi Urartu kitabələrinə istinad edərək yazır: "Bir yazıda Argişti belə deyir: Xaldi tanrısı Manna torpaqlarına qalib gəldi. Mən Biştu torpaqlarına keçdim. "Askaya" (Uşkaya – indiki Üskü – Ü.M.) valisini tutdum. 714-cü il miladdan öncə "II Sarqon öz kitbəsində Üsküdən (Uşkaya olaraq) bəhs edir və Arus dağının döşündə düşmən ordularını darmadağın edib Urartu torpağında oturduğunu yazır". Daha sonra müəllif Üskü sözünün Uşkaya – Üçkaya – Üçqala, Uskaya və ya Usqala kimi fonovariantlarından da bəhs edərək bu sözün semantik mənasını "üslük və ya üstlük" (üstlük, ucalıq, hündürlük) şəklində şərh edərək, bu yerin başqa yerlərə nisbətən üstünlükdə, yəni hündürlükdə, ucalıqda yerləşdiyini əsas götürüb öz fikrini Üstkaya, yəni "ucalıqda olan yer" semantik mənası ilə əsaslandırmağa çalışır [Üskülü, 1996: s.1-2]. Lakin tədqiqatlar göstərir ki, Üskü sözünün semantik mənasının "üçqaya", nə də "üstlük" sözləri ilə müəyyən dərəcədə əlaqələndirməsi mümkün olsa da, bu etnotoponim qədim uz//us tayfalarının adını əks etdirir. Bununla yanaşı, istər Güney və Quzey Azərbaycan toponimiyasında (Uşdeli, Uşkaya – Şərqi Azərbaycanda, Uşnəviyyə, Uşnuzəng – Qərbi Azərbaycanda, Uziha bazarı – İsfahanda, Üstüpü, Unus, Urmus, Nüsnüs – Naxçıvanın Ordubad rayonunda, Külüs – Şahbuz rayonunda, Əbrəqunus – Culfa rayonunda və s.), istərsə də türklərin yaşadığı digər bölgələrdə (Üsküdar – Türkiyədə, Üsküp – Makedoniyada) rast gəldiyimiz us//uş//üs//üç tərkibli coğrafi adlar həmin yerlərdə məskunlaşmış uz tayfalarının adından ad almışdır.

Osmanlı dövlətinin indiki İraq ərazisində hakimiyyəti dövründə İraq türkmanlarının yaşadığı bölgələr üzrə tərtib etdiyi təhrir dəftərlərindən aydın olur ki, bu ərazilrdə də qədim uz tayfalarının adını əks etdirən toponimlər mövcuddur. N.Bayatlının bu dəftərlər əsasında verdiyi məlumatlardan görünür ki, bu dəftərlərdə "Bays Uskuf Tel Uskuf" adlı toponimlər qeydə alınmışdır [Bayatlı, 1999: s.391]. Qədim Türk boyları uzların adına sadəcə Azərbaycan toponimiyasında deyil, eyni zamanda türk xalqlarının yaşadığı digər bölgələrdə də rast gəlinir. İstər Avropa, istərsə də Şərq ölkələrində uz tayfasının adını əks etdirən toponimlərin bir qisminin adı tarixi mənbələrdə, bir qisminin adı isə müasir toponimiyada tarixin izlərini yaşadır. Bu gün Avropada, Quzey Makedoniyanın paytaxtı və ən böyük şəhərlərindən biri olan Üsküp də Avropada qədim uz boyunun tarixi izlərini yaşadan türk mənşəli etnotoponimlərdən biridir. Tarixi mənbələrdə e.ə. ən az 4000 ildən bəri insanların məskunlaşdığı tarixi bölgədə neolit dövrünə aid qalıntıların X əsrdə 972-992-ci illərdə Üsküpün birinci Bulqar dövlətinin paytaxtı olduğu haqqında verilən məlumatlar uzların qədim türk boylarından biri olaraq adını coğrafi adlara verdiyini təsdiq edir
[https://tr.wikipedia.org/wiki/Üsküp].

Uz tayfalarının adının Qaradəniz sahillərinin toponimiyasında da qorunub saxlandığını görmək mümkündür. Qaradənizin şimalında, Kırım yarmadasında uz//us boylarının adını yaşadan toponimlərdən biri də 1945-ci ildə əhalisi Ruslar tərəfindən sürgün edilərək boş qalan, Aluştaya yaxın Kırım tatar kəndi Uskutdur. Tədqiqatlar göstərir ki, uz boylarının adı Kırımda, həmçinin Azərbaycanda əski adı Uzen olan Ayan-Dərə çayı (Kırım Yarımadasının Qaradənizə axan bir çayı), Qaradənizin qədim adı Karan – Uzen [Янко, 1998: s.29; 167], eyni zamanda Balkan coğrafyasında Üsküp, Quzey Azərbaycanın Ordubad rayonunda Üstüpü (Üs+tepe – вершина+холм), Unus (on+uz), Yardımlı ərazisində Osnəkəran kimi etnotoponimlərdə qorunub saxlanmaqdadır.

Uz etnosunun adını Özbəkistanın toponimiyasında da Ulus (Nurabadda kənd), Ustyurt Qaraqalpaqstanda hündürlük, Ustiyassı dağ silsiləsi kimi coğrafi adlarda mühafizə olunması uzların tarixən geniş bir coğrafiyaya yayıldığını göstərməkdədir [Nafasov, Nafasova, 2007: s.66].

TIRKEŞ — 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Dərəşahbuz nahiyəsində qeydə alınmış qədim türk mənşəli etnotoponimlərdən biri də Tirkəşidir [İƏİD, 1996: s.111]. Müasir dövrdə Şahbuz rayonunda qeydə alınmış Tırkeş, Kəlbəcərdə Tirkeşbənd, Ermənistanın Vartaşen rayonunda Terkeş oykonimlərinin mənşəyi araşdırıldıqda aydın olur ki, bu oykonimlər qədim Türkeş tayfalarının adı ilə sıx bağlıdır. Mənbələrdə VI əsrdə abar və mükri tayfa birləşməsindən təşəkkül tapdığı qeyd edilən Qərbi türk xaqanlığının tərkibinə daxil olan Tırkeşlər Cenquri və Cenqusuda (Yedusu-Semireçye) yaşamışlar. 704-cü ildə xaqanlığa (Qərbi Türk xaqanlığına) son qoyulmuş və öz dövlətlərini yaratmışlar. 776–cı ildə uyğur və qarluqlara məğlub olan tırkeşlərin bir qismi sonralar oğuz və qıpçaqların tərkibində Azərbaycana gəlmişlər. Azərbaycanda Tırkeş (Şahbuz rayonunda – yeni adı Türkeş), Tərkeş (Vartaşen rayonu), Tərkeşəvənd (Kəlbəcərdə) kənd adları tırkeşlərlə əlaqədardır. Tırkeş//Türkeş etnonimi müasir başqırd və tatarlar arasında Türkeş, özbəklərdə isə Tırkeş kimi yaşamaqdadır. Bu etnonim tuvlalar və altaylar arasında da Türkeş//Tirqeş formasında indi də qalmaqdadır [Потапов, 1986: s.186]. K.Ş.Şaniyazovun fikrincə tırkeşlər qərbi türk tayfa birliyinə daxildirlər [Шаниязов, 1974: s.10]. Qradzinin verdiyi məlumata görə tırkeşlər iki tirəyə ayrılmışlar: onlardan biri tuxsilər, digəri isə azlardır [Бартольд,1964: c.2, s. 585]. Toponimik araşdırmalar göstərir ki, türksoylu tırkeş tayfalarının adı Şimali Qafqazdan tutmuş Orta Asiya, Altaylara qədər yayılmışdır. Bir çox mənbələrdə həm etnonim (türkeş), həm də toponim (Tirqeş) kimi qeyd olunan tırkeşlərin tirləri hazırda Altay-Tuva bölgəsində yaşamaqdadır [Баскаков, 1972: s.21, 31]. Hazırda Türkiyədə də Tırkeşlərin adını daşıyan toponimlərə rast gəlirik. Manisadan 31 km., Saruhanlıdan 17 km., Ağhisardan 27 km. və İzmir-Bursa yüksək sürətli yolundan 2 km. məsafədə yerləşən bir məhəllə Tırkeş adlanır. Bəzi mənbələrdə XVII srdə qurulduğu təxmin edilən Tırkeşin Xorasandan gələn Afşar türkləri tərəfindən qurulmuş Türkmən məhəlləsi olduğu qeyd edilir. Tırkeş tayfasının Torun Afşarlarından olduğu Bəzi sənədlərdə Tirkeşin//Tirkesinli//Türkeşinli və Türkeş-Oğulları kimi qeyd olunur. Kəndin də adını döyüşçü xüsusiyyətləri ilə tanınan bu tayfadan aldığı qeyd olunur.

KOLANI — Azərbaycanlıların etnogenezində mühüm yeri olan Kolanı etnosunun adını əks etdirən tarixi toponimlərə Osmanlı qaynaqlarında da rast gəlinir. Kolanların adını daşıyan etnotoponimlərdən biri də 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Göyçə və Qışlağat nahiyələrində qeydə alınmışdır [İƏİD, 1996: s.40; 112]. 1827-ci ildə kolanıların bir qismi bu kənddən Qarabağa köçərək Xaçın çayı kənarında yerləşmişlər [Kərimzadə,1998: s.107]. Hazırda kolanılar etnoniminin adı ilə bağlı Kolanı kəndi Naxçıvan MR-in Şahbuz rayonunda yerləşir.

Oğuz boyuna mənsub olan kolanılar haqqında bir çox qaynaqlarda maraqlı məlumatlara rast gəlinir. Vaxtilə Daşburunda, Vedibasarda Çığın dərəsi boyunca yerləşən kolanı qəbiləsinin adı Azərbaycan toponimiyasında geniş şəkildə əks olunur. Hazırda Quzey Azərbaycanda, Naxçıvan MR Şahbuz rayonunda, Hacıqabul, Salyan, Siyəzən, Bərdə, Samux rayonlarında Kolanı adlı bir neçə etnotoponim mövcuddur [ATEL, 2007: s.284-285]. Bəzi mənbələrin verdiyi məlumata görə, kolanıları XVIII əsrin birinci yarısında Nadir şah Əfşar Xorasandan köçürmüşdür. Lakin mənbələrdə adı kolan//colan şəklində qeyd olunan bu tayfalar haqqında aparılan tarixi tədqiqatlar göstərir ki, əsasən maldarlıq və qoyunçuluqla məşğul olan kolanlar sadəcə Quzey Azərbaycanın sərhədləri daxilində, Qarabağ, Naxçıvan və Şirvanda yaşamamış, indiki Azərbaycanın sərhədlərindən kənarda, Azərbaycanın itirilmiş tarixi ərazilərində, Suriya, İsrail və Əfqanıstan ərazisində də geniş yayılmış qədim türk boylarından biridir. Bu fakt isə ən qədim türk boylarından olan kolanların XVIII əsrin birinci yarısında Nadir şah Əfşar tərəfindən bu əraziyə köçürülməsi fikrinin yanlış olduğunu göstərir.

Bəzi mənbələrdə Azərbaycanın Şahbuz, Sabirabad, Salyan və Dəvəçi rayonlarındakı Kolanı kəndlərinin və xanlıqlar dövründə Qarabağ xanlığının tərkibinə daxil olan Kolanı mahalının adını daşıyan bu etnonim tuyək tayfalarından olan və sasanilərlə müharibə aparan collarla bağlı olduğu haqqında informasiyaya rast gəlinir. Bu mənbələrdə kolanların adının V-VII əsrlərdə Alban dövlətinin mərkəzi sahələrində, Xaçın dərəsində (Ağdam rayonu) məskun olan və sasanilərə qarşı müharibələr aparan qədim türk tayfası "çol//çul"un adı ilə bağlı olduğu göstərilir. İndi də Xaçın çayın sağ sahilində əzəmətli "Koroğlu qalası" bu igid tayfanın qədim istehkamlarından biri olmuşdur. Bəzi müəlliflərin fikrincə isə kolanıların xəzərlərin bir tayfası olan qara qurların tirlərindən biridir [Qeybullayev, 1976: s.28].

N.Çetinkaya kolanıların ana qolunun əsasən Azərbaycanda yaşadığını qeyd edir (Çetinkaya, 1996: s.321). M.Adıgözəl isə kolanıların Qarabağın Uşacıq kəndindən Göygölün sahilinə qədər, Tərtər çayı boyunca yerləşdiyi ərazilər olduğunu göstərmişdir. M.C.Karabağlı də xanlıqlar dövründə kolanıların Qarabağın böyük tayfalarından biri hesab olunduğunu göstərmişdir [Karabağlı, 1990: s.35]. Lakin Əli Şamilin tədqiqatlarında müxtəlif qaynaqlarda Colan, Golan, Kolan fonovariantlarında qeyd olunan Orta Doğunun strateji cəhətdən ən mühüm ərazilərinin kolanların ilkin məskunlaşdığı ərazilərdən biri olduğunu görürük. Kolanların adını daşıyan qədim toponimlər vasitəsi ilə onların məskunlaşdığı ərazilərin xəritəsini çəkən Əli Şamil yazır: "Ərəblərin Hadbetül-Gülan, İbranilərin Ramat Ha Golan adlandırdıqları təpəliklərin sahəsi 2 min kvadrat km.-ə yaxındır.

Suriyanın Güney-Batısında, İsrailin Quzey-Doğusunda yerləşmiş Colan təpələrinin bir ucu da, Livan (Lübnan) və İordaniyaya (Urdinə) çatır. Buradan həm Dəməşq (Şam) şəhəri, həm də Ağ dəniz görünür. 1967-ci ildə İsrail Colan təpələrini işğal edənədək buradakı 15 kənddə bizimlə eyni dildə danışan, eyni dinə inanan soydaşlarımız toplu halda yaşayırdılar. İsraillə Suriya arasındakı "Altı günlük savaş"da soydaşlarımız canlarını qurtarmaq üçün mal-mülklərini qoyub Suriyanın içlərinə doğru qaçdılar. Beləcə, Colan təpələrinin 1158 kvadrat km. sahəsi İsrailin işğal dairəsində qaldı" [Əli Şamil, 2014: s.5].

Osmanlı qaynaqlarında Rakka əyaləti və Nevşəhərdə kolanlı türkmən tayfası ilə Əmirdağ qəzasında Kolanşam adlı türkmən tayfası qeyd edilmişdir [Türkay Cevdet, 1979: s.533]. Hazırda Türkiyə Respublikasında kolanıların adını daşıyan 11 kənd qeydə alınıb [TMYK, 1946: s.720]. Azərbaycanda – Abşeron və Goranboyda Kolanlıdağ adlı iki oronim, Goranboyun Tap – Qaraqoyunlu kəndində Kolanı dərəsi, Naxçıvanın Aşağı Qışlaq kəndində Kolanı kahası, Tərtərin Dəmirçilər kəndi ilə Aldərənin Umudlu kəndlərində Kolanı yatağı adlı yer vardır [Məmmədov, 1993: s.148]. Müasir dövrdə Türkiyə toponimiyasında Kolanlı adlı on bir kənd qeydə alınmışdır [TMYK, 1946: s.720]. Osmanlı qaynaqlarında İrəvan əyalətinin Göyçə nahiyəsində (Kolanı kəndi), eyni zamanda Türkiyənin Rakka əyaləti və Nevşəhrdə Kolanlı türkmən tayfası və Əmirdağ qəzasında Kolanşam adlı türkmən tayfası qeydə alınmışdır. Tarixi qaynaqlardan aydınlaşır ki, qədim Türk boylarından olan kolanlıların əsas ana qolu əsasən Azərbaycanda yaşamaqdadır. Mirzə Adıgözəl Qarabağdakı Umacıq kəndindən Göygöl sahillərinə qədər və Tərtər çayı boyunca kolanlıların məskunlaşdığı yerlər olduğunu göstərir. Mirzə Cavanşir Qarabağlı da Kolanlıları Qarabağın böyük qəbilələrindən biri kimi xanlıqlar dövründə "dövlət, əzəmət güc və mülk sahibi" olaraq müstəqil olduqlarını göstərir [Karabağlı, 1990: s.35].

QARAQOYUNLU — XVI-XVIII əsrlər Osmanlı qaynaqlarında Qərbi Azərbaycanda adı həm etnonim, həm antroponim, həm də toponim kimi qeyd olunan qədim türk boylarından biri də qaraqoyunlulardır. Tarixi araşdırmalar göstərir ki, Şərq tarixində mühüm rol oynayan və onomastik vahidlərdə böyük iz qoyan qaraqoyunluların ilkin məskunlaşdığı əsas bölgələrdən biri də Qərbi Azərbaycan ərazisi olmuşdur. Bu faktı Osmanlıların İrəvan//Rəvan bölgəsi üzrə tərtib etdiyi icmal və müfəssəl dəftərlərində verilən məlumatlar da təsdiq edir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə İrəvan nahiyəsində qeydə alınmış Qaraqoyunlu kəndi [İƏİD, 1996: s.124] ilə yanaşı, B.Budaqov və Q.Qeybullayevin tədqiqatlarında indiki Ermənistan ərazisində qeydə alınmış etnotoponimlər də təsdiq etməkdədir:

Qara qoyun – İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd adı.

Qaraqoyunlu – 1728-ci ildə İrəvan quberniyasının Aralıq nahiyəsində kənd.

Qaraqoyunlu – 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində qeydə alınmış bu kəndin digər adı Yükkəsəb çaydır.

Qaraqoyunlu – 1728-ci ilə aid mənbələrdə İrəvan quberniyasının Sürməli qəzasında qeyd olunan bu kəndin əhalisi 1918-ci ildə qovulmuş, kənd isə dağıdılmışdır.

Qaraqoyunlu – İrəvan quberniyasının Novobəyazid qəzasındakı (Basarkeçər rayonunda) bu kəndin əhalisi 1988-ci ildə qovularaq Azərbaycana yerləşdirilmişdir. XIX əsrin ortalarında kəndin maldarlarının Çalmalı dağında "Qatar" adlı yerdə yaylaq yurdu vardı [Правицкий, 1886: s.34].

Qaraqoyunlu – İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında yerləşən bu kəndin əhalisi 1828-1832-ci illərdə qovulmuş, kənd isə dağıdılmışdır.

Qaraqoyunlu –Eçmiadzin rayonunda yerləşən bu kəndin adı 1590-cı ilə aid mənbədə Müzəffər qışlağı adlandığı və 1978-ci ildə isə kəndin Ferik adlandığı haqqında məlumat verilir [Budaqov, Qeybullayev, 1998: s.182-183].

Qaraqoyunlu – İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. B.Budaqov və Q.Qeybullayevin tədqiqatlarında bu kəndin digər adının Çığın Qaraqoyunlu olduğu və 1918-ci ildə kəndin əhalisinin buradan qovulduğu və Türkiyədən gətirilən ermənilər burada yerləşdirildikdən sonra, 1922-ci ildə yenidən bu kəndə qayıtmış azərbaycanlıların 1949-cu ildə kənddən tamamilə çıxarılaraq Azərbaycana köçürüldükləri haqqında məlumat verilir [Budaqov, Qeybullayev, 1998: s.183]. "1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri"ndə Aralığa tabe olan Qaraqoyunlu kəndinin adı qeyd olunmuşdur [RLMTD, 2021: s.424].

N.Çetinqayanın tədqiqatlarında qaraqoyunluların tarixi haqqında verilən məlumatlardan görünür ki, qaraqoyunlular miladdan sonra III əsrin ortalarında Doğu Türküstanda, XIV əsrin ikinci yarısında Ercişdə öz bəyliklərini qurmuşlar [Çetinkaya, 1996: s.211]. Z.V.Toğanın tədqiqatlarında qaraqoyunlular haqqında verilən məlumatlarda Elxanilərin islamı qəbul etməsindən sonra qədim oğuzlardan gələn türkmanların Daş Oğuz (Qaraqoyunlu) və İç Oğuz (Ağqoyunlu) qollarına ayrılaraq müsəlmanlığı qəbul etdikləri və 1468-ci ildən sonra yenidən Ağqoyunlularla qaynayıb qarışan Qaraqoyunlu tayfalarının əsasən Quzey və Güney Azərbaycan, həmçinin indiki Ermənistan ərazisində məskunlaşdığı göstərilir. Bununla yanaşı, XIX əsrdə Zaqafqaziyada, əsasən, Azərbaycanda Qaraqoyunlu adlı çox sayda toponimin qeydə alındığı da bildirilir [Velidi, 1989: s.57].

Toponimik tədqiqatlardan aydın olur ki, qaraqoyunlar sadəcə Naxçıvan və onun ətraf bölgələrində deyil,

tarixən daha geniş ərazilərə yayılaraq öz adlarını coğrafi adlarda qorumağa nail olmuşlar. Tarixi qaynaqlarda verilən məlumatlara görə qaraqoyunlular XIV - XV əsrlərdə Türkiyənin Antalya bölgəsinin Qarahisar yaxınlığına köç edərək burada da yerləşmiş və qaraqoyunlu adını məskunlaşdıqları yerlərə vermişlər [Karabağlı, 1990: s.141]. 1591-ci il dəftərində Ağcaqala nahiyəsində Qaraqoyunlu kəndi, İğdır – Aralıq nahiyəsində Yuxarı və Aşağı Qaraqoyunlu kəndləri, müasir Tuzluca mərkəz nahiyəsində Qaraqoyunlu, İğdırın mərkəz və Cəngətabad nahiyələrində Qaraqoyunlu adlı kəndlər qeydə alınmaqdadır.

Osmanlı qaynaqlarında Qaraqoyunlu tayfası, Qarahisar və Qızılqaya qəzaları, Teke sancağı, Canik Sancağı, Musul, Malatya, Hama, Hums, Maraş, Bozox, Nicdə, Qayseriyə, Kırşəhər, Ankara, Karaman, Şam sancakları, İzmir qəzası, Cuşaabad nahiyəsi, Diyarbəkir əyalətinin əhalisi kimi qeyd olunur [TMYK, 1946: s.478]. Müasir dövrdə Türkiyənin Anadolu yörəsində Qaraqoyunlu adı ilə xeyli toponim qeydə alınıb. Qaraqoyun kəndi (Muğla, Milas, Sinop – Kirzə, Urfa – Siberek), Qaraqoyunlu kəndi (Antalya – Almalı, Anlatya – Serik, Qayseri – Pınarbaşı, Ordu – Fatsa), Qaraqoyunlu məhəlləsi (Çankırı – Çerkeş – Pürçükörən kəndi, Qaziantəp – Kilis – Dölək kəndi, Adana – Osmaniyə) [TMYK, 1946, s. 615]. Quzey Azərbaycanın Göyçay, Zəngəzur, Nuxa, Quba, Naftalan və Ağsu bölgələrində də Qaraqoyunlu adlı kəndlər qeydə alınıb. Cənubi Azərbaycanın Maku və Xoy yörəsində Qaraqoyunlu və Ağqoyunlu topluluqları bərabər yaşamaqdadır. Cənubi Azərbaycanda qaraqoyunluların ana icması əsasən Qaradağ ilə Araz çayı ətrafında Arasbaranda yaşamaqdadır. Cənubi Azərbaycanın Maku və Urmiyə yörəsində Qaraqoyunlu adlı kəndlər vardır. Ermənistanın Vardanis şəhərinə bağlı Qaraqoyun adlı türk kəndi 1935-ci ildə erməni dövlətinin qərarı ilə Əzizli olaraq dəyişdirilmişdir [Makas, 1993: s.230].

QUŞÇU — Azərbaycan-türk tarixində mühüm yer tutan qədim türk boylarından biri də quş-çu//quşanlardır. Türk xalqlarının yaşadığı müxtəlif coğrafyalarda Quş//Quşçu adını əks etdirən toponimlərin geniş yayılması faktı fikrimizi təsdiq edir. İ.Bayramovun tədqiqatlarında Qərbi Azərbaycan ərazisində 7 etnotoponim: Quşdoğan çay, Quşçu adlı iki kənd, Quşçu köprüsü, Quşçu dərəsi, Quşçulu, Quşçaqaya [Bayramov, 2002: s.252-255], B.Budaqov və Q.Qeybullayevin tədqiqatlarında isə 10 etnotoponim: Quşi (Quşçu) adlı 3 kənd, Quşidərəsi, Quşioğlu məzrəsi, Quşçu adlı 3 kənd, Quşçu Məzrəsi, Quşcaqaya qeydə alınmışdır [Budaqov, Qeybullayev, 1998: 224-225].

Tarixi mənbələrdə qeyd olunan faktlar göstərir ki, türklərin məskunlaşdığı ərazilərdə quş və quşçu kimi qeydə alınmış coğrafi adlar çox yayğın bir şəkildə işlənməkdədir. İstər müasir, istərsə də qədim tarixi qaynaqlarda quş, quşçu kimi qeydə alınmış toponimlər bu faktı təsdiq edir. XVI-XVIII əsrlər Osmanlı qaynaqlarında da Qərbi Azərbaycan quş və ya quşçu etnosunun adı ilə bağlı onlarla etnotoponimlər yad edilməkdədir: Quşçu (İrəvan əyalətinin Karni nahiyəsində), Böyük quşçu (İrəvan ərazisinin Maku nahiyəsində), Quşçu (Şərur nahiyəsində), Qaraquş (Mulki Arslan nahiyəsində) [İƏİD, 1996: s. 53; 111; 131; 134]. Toponimik tədqiqatlar türk xalqlarının yaşadığı ərazilərdə – Quzey və Güney Azərbaycanda, İraqda, Gürcüstanda, Türkiyədə, Orta Asiyada bu etnosun adını daşıyan coğrafi adların geniş yayıldığını göstərir. Hazırda İraqda Türkmənlərin yaşadığı bölgələrdə quşçu etnosunun adını daşıyan Kuşaçapan (Kifridə hidronim), Kuşcuyə (Bağdadda məhəllə adı), Kuşçu (Kərkükdə kənd), Kuşdərə (Kərkükün quzeyində yerləşən ova), Kuşkaya (Altunkörpüdə kənd), Kuşne, Kuştəpə adlı 2 məntəqə (Erbildə kənd, tarixi yer və bir bucaq mərkəzi), Kuştan (Dakukda kənd), Kuştəpə (Tuzxurmatuda yer adı) [Kevseroğlu, 2012: s.325-327].

S.Sadıqova mənbələrə istinad edərək, hələ XIX əsrdə Qafqazın beş verstlik xəritəsi tərtib olunarkən, orada quş, quşi və quşçu komponentli 38 toponimin qeyd olunması haqqında məlumat verir [Sadıqova, 2017: s.6], [Пагирев, 1913: s.152]. Daha sonra müəllif Ə.Hüseynzadənin tədqiqatlarında türk xalqlarının yaşadığı ərazilərdə mövcud olan Quşçu toponiminin etimologiyası ilə bağlı faktlara dayanaraq, qazaxlarda kuşsi, başqırdlarda kuşçi və koşsi, türkmənlərdə kuşçi, noqaylarda kuşsi, qırğızlarda kuşçu və b. fonetik variantlarda rast gəlindiyini və bu etnonimin kökündə türk və Azərbaycan dillərindəki kuş (quş) sözü dayandığını və bu etnonimin "ovlayan quşla məşğul olan" mənasını verdiyini qeyd edir [Гусейнзаде, 1971: s.89-95], [Sadıqova, 2017: s.9].

M.H.Vəlili türklərin 5 müqəddəs heyvanından birinin yəni "quş" sözünü ifadə edən "quşan" adından olduğunu və quşanların Azərbaycan ərazisində bir çox toponimlərdə öz izlərini qoyduğunu qeyd edir [Vəlili, 1993: s.35].

Toponimik tədqiqatlar göstərir ki, tarixən türklərin məskunlaşdığı ərazilərdə quş və quşçu kimi adlar çox yayğın bir şəkildə işlənməkdədir. Istər müasir türk toponimiyasında, istərsə də qədim tarixi qaynaqlarda quş, quşçu kimi qeydə alınmış çoxsaylı toponimlər deyilənləri təsdiq edir. Bartold bir çox Avropa tədqiqatçılarının əsərlərində yuşei transkripsiyasında işlənən bu etnosun adının xalq arasında təkdə kuş, kuşi, cəmdə isə kuşan şəklində işləndiyini qeyd edərək, bəzən bu etnosun toxar adlandırıldığını və Çin mənbələrində tuxolo şəklində qeyd olnduğunu və Amu Dərya çayının yuxarı hissəsinin Toxaristan adlandırılması toxar adı ilə bağlı olduğunu yazır. İran tayfalarından olan kuşanların dilinin Kuçi dili adlandırıldığını və xalq arasında

toxar adının daha çox etnoqrafik və kuşan adının isə daha çox siyasi olaraq tanındığını qeyd edir [Бартольд 1963: s.175].

XVI -XVIII əsrlər Osmanlı qaynaqlarında İrəvan əyalətinin müxtəlif nahiyələrində quş və quşçu adı ilə bağlı etnotoponimlər yad edilməkdədir: digər adı Böyük Ayasalı olan Quşçu kəndi (Karbi nahiyəsində), Böyük Quşçu (Maku nahiyəsində), Quşçu (Şərur nahiyəsində), Qaraquş (Mulki Arslan nahiyəsində), Quşçu məzrəsi, Quşoğlu məzrəsi (Abaran nahiyəsində) [İƏİD, 1996: s.37; 53; 131; 134; 137-138]. Osmanlı dövrünün digər mənbələrini izlədikcə aydın olur ki, quş//kuş//kus etnosunun adını əks etdirən toponimlər həm Anadoluda, həm də XVI-XVIII əsrlərdə Osmanlıların fəth etdiyi digər ərazilərdə də çox geniş bir arealı əhatə etməkdədir: Kus (Qūş) (Misirdə), Kusayr (XVI əsrdə Habeş əyalətində Sancak), Kusayr (Suriyada), Kûsiye (Al Qūşīyah) (Misirdə) Kuşadası (Anadolunun Aydın bölgəsində), Kuşburnu, Kuşcuceridi (Maraş Adana eyâleti), Kuşçukuru (Kelhok), Kuşkayası (Akpınar), Kuşlu aşireti (Kengırı, Bozok əyalətində), Kuşluğan (Tahmanis), Kuşlat (Rumeli və Bosna eyâleti), Kuşsarayı (Malatya, Harputda, Diyarbakırda, Elazığda), Kuştaş (Üçtaş, Tokat, Sivas, Rum eyâleti (Zile'nin İğdır bucağı bölgəsində) Kuştemur (Tarsusda, Halepdə, Adanada), Kuştepe (Revandiz, Şehrizor, Bağdad vilâyeti) [Tahir Sezen, 2017: s.497-499].

Qədim Türk onomastikasında Kuş (Qara quş), Kuşuy (Quliyev, 2007: s.115) etnotoponimlərində mühafizə olunan bu etnosun adına Kırım toponimiyasında da Kuşçu və Kara-Kuşçu şəklində rast gəlinir [Doğru, 1987, s.90-85]. Yalnız Osmanlı dövrünün tarixi sənədlərində deyil, müasir Türkiyə toponimiyasında da quş//kuş//kuşanların adını əks etdirən çoxsaylı etnotoponimlər mövcuddur: Kuşadası (İzmirdə), Kuşçu (Yozgat vilayətinin Mərkəzi rayonuna bağlı bir kənd), Kuşçu (Elazığ vilayətinin Karakoçan bölgəsinə bağlı kənd) Zara Kuşçu (Sivasda), Ali Kuşçu kəndi (Aydın bölgəsində), Kuşçular (Urla-İzmir), Kuşçular (Çamlıdere), Kuşçular (Tarsus), Kuşçular (Tunceli), Kuşçular (Bafra-Samsun), Kuşçu tətil kəndi (Kocasinan bələdiyəsi), Pınarbaşı Kuşçular kəndi (kayseri), Kuşbayır (Elazığ-Karakoçan bölgəsində). Kuşçu adlı kəndlərdən biri də Ankaranın cənub-qərnbində yerləşən Polatlı rayonunda yerləşir [Gürsoy, Taner, 2012: s.57].

N.Çetinkayanın tədqiqatlarında hunların kuşan (kuş-an) adı ilə xatırlandığını Azərbaycan və Anadoluya gəlib yerləşdikləri və buradakı toponimlərin də onların adını əks etditdiyini qeyd edir haqqında məlumat verərək, Ziya Göyalpın kuşan adını qədim türklərin müqəddəs hesab etdikləri quş adlı heyvanla bağlı olduğunu "quş" və "an" komponentləri əsasında yarandığı fikrinə əsaslanaraq qeyd edir ki, kuşan adının hunlara farslar tərəfindən verilmiş ad olduğu göstərilir [Çetinkaya, 1996: s.230]. Kuşanların Azərbaycan və Anadolu yörəsində məskunlaşdığını göstərən tarixi toponimlər bu faktı bir daha təsdiq etmiş olur. Azərbaycanın Tovuz, Gəncə bölgəsində Quşçu adlı iki kənd, Qubada Köhnə Quşçu, Yuxarı və Aşağı Quşçu, Laçında və Şamaxıda Quşçu kəndləri, Zərdabda Dəli Quşçu, Ağdaş və Cəbrayılda Quşlar, Zəngəzurda Quşçu, Quşçu Bilək və Quşçu Təzəkənd, Şuşada Quşlar, Aşağı Quşçular və Quşçu oba, Dəvəçidə Çöl – Quşçu adlı kəndlər mövcuddur [Qeybullayev, 1992: s.39]. Cənubi Azərbaycanın Zəncan bölgəsində də əhalisi tamamən türklərdən ibarət Quşçu adlı bir kənd vardır. Quş, Quşçu adıylayüzdən çox kənd Türkiyənin Anadolu bölgəsində qeydə alınmışdır [TMYK,1946: s.762 – 765]. Osmanlı dövründə də quş adıyla bağlı bir çox yeradları qeydə alınmışdır [TMYK, 1946: s.555 – 556].

Tarixi toponimik tədqiqatlardan aydın olur ki, quş adı yalnız Azərbaycan və Anadoluda yaşayan türklərin deyil, XV – XVIII əsrlərdən Özbək, Türkmən, Qırğız türklərinin də etnogenezində mühüm rol oynamaqla, Türküstan toponimiyasında da öz tarixi izlərini qoruyub saxlamışdır.

Q.Qeybullayevin tədqiqatlarından aydın olur ki, XIX əsrdə Qafqazda "quş, quşlar, quşçu" komponentləri ilə 38 toponim qeydə alınmışdır. Quşçu etnonimi əsasında yaranmış toponimlərin (qazaxlarda – quşsi, başkırdlarda - quşçi, kaşsı, türkmənlərdə – kutçi, noqaylarda - kuşsi, qırğızlarda – quşçu) arealı Şimali Qafqaz, Orta Asiya, İran və Türkiyənin də ərazilərini əhatə etməkdədir. İ.Bayramov da Quşçu toponiminin qədim quşçu türk etnonimi əsasında yarandığını və İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində və İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Pasalı [Əzizbəyov, Vayk] rayonunda Quşçu adlı kəndin olduğunu tədqiqatlarında qeyd edir [Bayramov, 2002: s.252-253]. Tarixi toponimik tədqiqatlardan aydın olur ki, quş adı yalnız Azərbaycan və Anadolu toponimiyasında deyil, bütövlükdə türk xalqlarının yaşadığı müxtəlif coğrafiyalarda da tarixi toponimlərdə iz qoymuşdur.

Nəticə

Tədqiqatdan göründüyü kimi, istər qədim, istərsə də müasir dövrdə Qərbi Azərbaycanda ilkin məskunşan bir sıra qədim türk soylu tayfaların adları bu bölgənin toponimiyasında öz əksini tapmışdır. Tarix boyu Qərbi Azərbaycan toponimiyasında Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış qədim tayfaların adlarını əks etdirən coğrafi adların tarixi-linqvistik müstəvidə qədim türk abidələri, qohum türk dillərinin materialları, eyni zamanda tarixi arxiv sənədləri əsasında tədqiqi və onların yayıldığı tarixi coğrafiyanın müəyyənləşdirilməsi Azərbaycanın, əsasən də, Qərbi Azərbaycan bölgəsinin ilkin sakinləri olan

qədim türk tboylarının bu ərazilərdə hələ eradan əvvəlki dövrlərdən məskunlaşdığını təsdiq edir.

Azərbaycan xalqının qədim tarixini, iqtisadi-siyasi, mədəni həyatını, etnoqrafiyasını, mistik dünyasını özündə əks etdirən Qərbi Azərbaycan toponimlərinin bir çoxunun paralellərinin türk xalqlarının yaşadığı digər ərazilərdə: Türküstan – Orta Asiya, Balkan ölkələri, Qaradəniz sahilləri, Qafqaz, İran, Türkiyə, Volqaboyu, Çin, İraq kimi fərqli coğrafiyalarda yayılması faktı vaxtilə azərbaycanlıların etnogenezində yaxından iştirak etmiş və Azərbaycan tarixində mühüm rol oynamış bu qədim türk boylarının keçdiyi tarixi inkişaf yolu, məşğuliyyəti və mədəniyyəti ilə bağlı tarixi informasiya daşıyıcısı olub, bir çox tarixi problematik məsələlərin həlli üçün imkan yaradır. Qərbi Azərbaycan toponimlərinin böyük bir qisminin etnonimlərdən ibarət olması faktı bu ərazinin ilkin sakinlərinin türklər olduğunu sübuta yetirir.

ƏDƏBİYYAT

1. Albayrak, R. Toponim teknikleri ve Kafkasya-Borçalı yer adları. Maltepe – Ankara: 2004.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Bakı: Şərq-Qərb, 2007.
3. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü. Məlumat toplusu. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2013.
4. Бартольд, В.В. Сочинения.Том II Часть 1. Москва: Восточная литература 1963.
5. Баскаков, Н.А. Северные диалекты алтайского языка. Диалект кумандинцев (куманды-кижи). М.: Наука, 1972, 279 с.
6. Bayatlı, N. XVI. Yüzyılda Musul Eyaleti. Ankara: Türk Tarih Kurumu Basımevi 1999.
7. Бартольд, В.В. Сочинение, т.2, ч.1. Москва: Изд.-во вост. лит., 1964.
8. Bayramov, A.Ə. Qədim Oğuz ellərinin Ağbaba-Şərəyəl və Pəmək bölgələrinin yer-yurd adları. Sumqayıt: 1996.
9. Bayramov, A.Ə. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996.
10. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002.
11. Bayramov, İ.M. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2005.
12. Bayramov, İ.M. Tarixi Azərbaycan torpağı Zəngəzur. Ankara: İksad, 2005.
13. Budaqov, B., Qeybullayev, Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998.
14. Bryer, A. Greeks and Turkmens. The Pontic Exception. The Decline of Byzantine Civilization in Asia Minor, Eleventh-Fifteenth Century,' held at Dumbarton Oaks in May 1974, pp.116-148.
15. Cemalmaz, Efrasiyap. Erzurum İli Ağızları. c.1. Ankara: TDKY, 1995.
16. Çetinkaya, N. Iğdır Tarihi. İstanbul: TDAV, 1996.
17. Doğru, A. Kırım ve Maykopun Yer Adları. İstanbul: TDAV, Sayı 48, Haziran 1987.
18. Eyvazova, R.H. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı: Elm, 1995.
19. Əbu Həyyan. Kitab əl-idrak li-lisan əl-ətrak. Bakı: Elm, 1992.
20. احمد کاویان پور. تاریخ ارومیه. ارومیه. 1378.
21. Ələkbərli, Ə. Qədim Türk-Oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 1994.
22. Əli Şamil. Colan Türkmanları. Bakı: Elm və təhsil, 2014, 142 s.
23. Faruk Sumer. Oğuzlar. Naxçıvan: Əcəmi, 2017.
24. Fazili, A. Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında. Bakı: 1970.
25. Gürsoy, M., Taner G., Kuşçu ve Macun Köyleri Arası Paleojen Mollusk Faunası ve Biyostratigrafisi. Türkiye Jeoloji Bülteni Geological Bulletin cilt 55, Sayı 2, Nisan 2012.
26. Hacıyeva, Q. Cənubi Azərbaycan toponimləri. Bakı: Elm, 2008.
27. Hüseynzadə, Ə. Şəki coğrafi adının mənşəyi. S.M.Kirov adına ADU-nun "Elmi əsərlər"i, 1974, № 8.
28. İbrahimov, T. Qaşqaylar. Bakı: Elm, 1988.
29. Историческая география Западного Азербайджана. (Дополненное, переработанное издание на русском языке). Баку: Азербайджан, 1998.
30. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996.
31. Karabağlı Mirza Cavanşır. Karabağ tarihi. Ankara: Kök Yayınları, 1990.
32. Kâşğarlı, Mahmud. "Dîvânü Lüğâti't Türk". Ahmet B.Ercilasun – Ziyat Akkoyunlu, 3. Baskı. Ankara: TDKY, 2018.
33. Kevseroğlu, N. Irak'ta Türkçe Yer Adları Klavuzu. İrak-Kerkük: Fuzuli Matbaası, 2012.
34. Kərimzadə, F. Vedinin yanı dağlar. "Azərbaycan" jurnalı, № 9, Bakı: 1998.

35. Kırzıoglu Fahrettin M. Osmanlılar'ın Kafkas-Elleri'ni Fethi (1451-1590). Ankara TTKB, 1993.
36. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
37. Гейбуллаев, Г. Топонимия Азербайджана. Баку: Елм, 1986.
38. Qeybullayev, Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994.
39. Qeybullayev, Q. Ermənistan azərbaycanlılarının etnik tarixinə dair. Bakı: Azərnəşr, 1994.
40. Qeybullayev, Q. Xəzər dənizi və xəzərlər. "Elm və həyat" jurnalı, № 9, Bakı: 1976.
41. Qorqotyan, Z. Sovet Ermənistanının əhalisi 1831–1931-ci illərdə. Yerevan, 1932. (ermənicə) (Գ ո ր գ ո տ յ ան Զ Խ ո ր հ ր դ այ ի ն Հ այ աս տան ի բ ն ակ չ ո ւ թ յ ո ւ ն ը 1831–931 թ թ. Ե ր ե ւ ան , 1932).
42. Quliyev, Ə. Qədim türk onomastikası. Bakı: ADPU, 2007.
43. Qurbanov, A.M. Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988.
44. Гусейнзаде, А. К этимологии топонима Кушчу. СТ, 1971, № 6, с.89-95
45. Makas, Z. Ermenistan'da Adları Değiştirilen Bazı Türk Yerleri Üzerine. TDAD, Sayı: 83, Nisan 1993.
46. Məmmədli, Ş. Gürcüstan azərbaycanlıları. Tiblisi: 2002.
47. Məmmədov, N. Azərbaycanın yer adları. Bakı: Azərnəşr, 1993.
48. Məşədiyev, Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 1990.
49. Mirza Cavanşir Karabağlı. Karabağ tarihi. Ankara: 1990.
50. Мирзазаде, С.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках. Баку: Элм, 1988.
51. 1727-ci il tarixli Rəvan livasının müfəssəl təhrir dəftəri. Bakı: AMEA, 2021.
52. Nafasov, T., Nafasova, V. 0'zbek tılı toponımlarınıng o'quv ızohlı lug'atı. Toshkent: "Yangi asr avlodi", 2007.
53. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Elm, 2001.
54. Пагирев, Д.Д. Алфавитный указатель к 5-ти верстной карте Кавказского края. Тифлис, 1913.
55. Потапов, Л. П. Этнический состав и происхождение алтайцев (историко-этнографический очерк). Ленинград Наука, 1969 г.
56. Правицкий, А.В. Экономический быт государственных крастьян северо-восточной части Новобеязтеского уезда Ереванской губернии. Материалы для изучения экономического быта государственных крастьян Закавказского края. Том 4. Тифлис: 1886 г.
57. жителей села северо-востока Новобеязидского уезда Ереванской губернии
58. экономическое положение государственных крестьян
59. Rəhimov, A. Azərbaycan paleotoponimiyasında maq etnonimi. AOP-a həsr olunmuş konfrans materialları. Bakı: APİ, 1986.
60. Sadıqova, S. Müasir Azərbaycan dili: Onomalogiya məsələləri (dərs vəsaiti). Bakı: ADPU, 2017, 267 s.
61. Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989.
62. Шаниязов, К.К. Этнический состав узбекского народа. Ташкент: Фан, 1974.
63. Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье : Предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург : 1911.
64. Tellioğlu, I. Osmanlı Hakimiyetine Kadar Doğu Karadeniz'de Türkler. Trabzon: Serander, 2004.
65. Toğan, Z.V. Azerbaycan mad. İslam Ansiklopedisi. Türkiye: İSAM, 1989.
66. Türkay Cevdet. Başbakanlık Arşiv Belgelerine Göre Osmanlı İmperatorluğunda Oymak, Aşiret ve Cetmaatlar. Tercüman Kaynak Eserler Dizisi, c.1, İstanbul: 1979.
67. Türkiyede Meskun Yerler Klavuzu. c.2. Ankara: T.C. İçişleri Bakanlığı Yayını. 1946.
68. Vəlili, M.H. Azərbaycan. Coğrafi – təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı: Azərnəşr, 1993.
69. Winfield, D. A note on the Stous-Esteren Borders of the Empire of Trebizond in the Thirteenth Century. Anatolian Studies Vol. 12 (1962), pp. 163-172 (10 pages) Published By: British Institute at Ankara https://doi.org/10.2307/3642522.
70. Янко, М. Т. Топонімічний словник України: словник-довідник. Київ: Знання, 1998.
71. http://zim.az/bolnisi/1364-dllr-knd.html
72. https://tr.wikipedia.org/wiki/Üsküp

İxtisarlar

1. ARİƏB – Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü
2. ATEL – Azərbaycan toponimlərinin ensiklopedik lüğəti
3. İƏİD – İrəvan əyalətinin icmal dəftəri

4. ИГЗА – Историческая география Западного Азербайджана
5. NSMD – Naxçıvan sancağının müfəssəl dəftəri
6. TMYK – Türkiye'de Meskun Yerler Klavuzu
7. RLMTD – Rəvan livası müfəssəl təhrir dəftəri

ABSTRACT

Qaliba HAJİYEVA

HISTORICAL TRACES OF ANCIENT TURKISH TRIBES IN THE TOPONYMY OF WESTERN AZERBAIJAN

With this in mind, in the article, the genealogies of the ancient Turkic clans living in the oldest region of Azerbaijan, the Iravan Khanate, in the territory of present-day Armenia, and who played an important role in the formation of the ethnogenesis of the Azerbaijani Turks throughout history, are studied from an ethnological point of view. The Iravan Khanate of the Western region of Northern Azerbaijan, the ancient Turkic tribes that lived in the territory of present-day Armenia and the historical ethnotoponyms reflecting their names are involved in the research at the historical-linguistic level. The territorial integrity of Azerbaijan is determined based on the historical and etymological analyzes of many ancient ethnotoponyms of Turkish origin, which were changed for political purposes and subjected to terrorism. In the article, ethnotoponyms reflecting the names of ancient Turkic clans in Western Azerbaijan, which were changed by Armenians in different periods, were involved in research based on historical facts reflected in ancient and medieval sources, and ancient names were restored based on historical etymological analysis. The historical-territorial integrity of Azerbaijan is determined directly by means of ancient toponyms, which are a very valuable source in the study of the national and spiritual wealth of the Azerbaijani people, the ancient historical past. The study of existing toponyms in the historically lost territories belonging to Azerbaijan confirms that various Turkic clans such as Huns, Bulgars, Kimmerians, Oghuz, Kipchaks, Suvars, Khalajs, Afshars, Yivas, Dumbullu, who originally settled in this area from the earliest times, settled in these areas.

Keywords: *Azerbaijan, toponym, ethnotoponym, Iravan Khanate, Caucasus, Armenia*

QƏRBİ AZƏRBAYCANDAKI PALEOTOPONİMLƏRİN KONSEPTUAL TƏDQİQİ

Zülfiyyə İSMAYIL
ismayilzulfiyye@yahoo.com
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Məlum həqiqətdir ki, ermənilər paleotoponimləri, urbonimləri ötən iki yüz il ərzində mənəvi soyqırıma məruz qoysalar da, tarixi faktları yer üzündən silmək mümkün olmamışdır. Qərbi Azərbaycan ərazisində mövcud olmuş paleotoponimlərin bərpası təxirəsalınmaz və aktual problemlərdən birini təşkil edir. Dərələyəz mahalına məxsus ölü kənd adlarının demək olar ki, hamısı başdan-başa səs komplekslərinə, fonetik quruluşuna, semantik yükünə görə türk-Azərbaycan advermə ənənələri əsasında təşəkkül tapıb formalaşmış, tarixi sənədlərdə daşlaşmışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, paleotoponim, Dərələyəz, ermənilər*

Qərbi Azərbaycan məsələsi milli siyasətimizin ən mühüm hədəfini təşkil edir. Yeni dövrün reallıqları bu ümummilli mənafedə dövlətimizin qarşıya qoyduğu yeni məqsədlərin həyata keçməsində hər bir azərbaycanlının öhdəsinə yeni-yeni vəzifələr qoyur. Müzəffər Ali Baş Komandanımızın tarixi ədaləti bərpa etmək uğrunda mücadiləsi azərbaycanlıların vaxtilə mənfur düşmənlər tərəfindən didərgin salındıqları öz doğma yurd-yuvalarına qayıdışına nail olunmasına imkan yaratmışdır. Fəaliyyətə başlamış Qərbi Azərbaycan İcması da bu sahədə uğurla fəaliyyət göstərir. Qərbi Azərbaycana qayıdış missiyasının aktuallıq qazanması ilə vətəndaşlarımızın da qarşısında yeni fəaliyyət istiqamətləri və vəzifələri müəyyənləşmiş, Qərbi Azərbaycan mövzusu elmi tədqiqatların baş mövzusuna çevrilmişdir. Hazırda bu sahədə ciddi nailiyyətlər, aktuallığı ilə seçilən maraqlı əsərlər ortaya qoyulmaqdadır.

Filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın "XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları" (Qərbi Azərbaycanın Dərələyəz mahalında mövcud olmuş kənd adlarının tarixi-etimoloji təhlili) adlı kitabı da bu sahədəki olduqca əhəmiyyətli əsərlərdən biridir [5].

Fikrimizcə, bu əsər M.Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" adlı fundamental, irihəcmli monoqrafiyasının mövzu və məndəricə baxımından məntiqi davamıdır.

"XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları" əsəri filologiya elmləri doktoru, professor, ictimai-siyasi xadim Həsən Mirzəyevin və bütün bədii yaradıcılığının nüvəsində, fövqündə dayanan, şeir kitablarının bir çoxunun adında müşahidə etdiyimiz əzəmətli ANA obrazına - Nazlı xanımın əziz xatirəsinə ithaf olunub. Kitabın ilk səhifələrində qarşımıza çıxan Həsən Mirzənin dillər əzbəri olan "Hanı o səndəki el, Dərələyəz?!" şeiri tərtibatı ilə gözoxşayan olduqca ciddi əsərin ümumi məzmununa poetik ruh verməklə yanaşı, ağsaqqal xeyir-duası kimi səslənir.

Əsər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi surətdə deportasiyası haqqında" Fərmanı ilə başlayır, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə söylədiyi ciddi məzmun və vəzifələr ehtiva edən nitqi ilə davam edir. Dövlət başçımız Azərbaycan xalqının ümummilli düşüncəsini ifadə etdiyi tarixi çıxışında vurğulamışdır: "Qərbi Azərbaycan bizim torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir... Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir...".

Əsər "Ön söz", 20-yə yaxın paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Əsərin "Ön söz"ü bütövlükdə açar rolunu oynayır. Kitabda tədqiqata cəlb edilən məsələlərlə yanaşı, əsərin ümummilli mahiyyətini ortaya qoyur.

Məlumdur ki, sarsılmaz özülə malik olan milli dəyərlər sistemimizdə toponimlərin, ələlxüsus da, urbonimləri xüsusi yeri vardır. Çünki bir torpağın aborigen sakini olmağın əsas sübutu: dialekt və şivə faktları və onomastik vahidlərdir. Bütövlükdə toponimlər torpağın köksünə vurulmuş möhürdür. Bəlkə də, mənfur qonşularımız havadarlarının dəstəyi ilə hər hansı tarixi sənədi və ya xəritələri saxtalaşdırmağa "nail oldular", amma dil faktların tarixin daş yaddaşında, xalqın hafizəsindən, tale kitabından silməyə heç bir qüvvənin gücü

yetməz.

Kitabın "Dərələyəz mahalında mövcud olmuş kəndlər – coğrafi adlarımız əbədiyyət tariximizdir", "Dərələyəz mahalında kəndlər ölü olsalar da, toponimlər dil açıb danışır", "Toponimlər tariximizin şahidləridir", "Toponimlər tarixin aynasıdır", "Toponimlər xalqımızın qan yaddaşıdır", "Toponimlər tarixin ünvanıdır" və s. kimi paraqraflarda, əsasən Qərbi Azərbaycanın (indiki Ermənistan) ərazisində mövcud olmuş yaşayış məntəqə adlarının elmi-nəzəri əsasları, ayrı-ayrı coğrafi ərazilərdə yayılma arealları, leksik-semantik xüsusiyyətləri araşdırılmış və 2 əsirlik zaman kəsiyində erməni faşistləri tərəfindən Dərələyəz mahalında xarabalığa çevrilmiş kənd adlarının tarixi etimoloji təhlili öz əksini tapmışdır.

Müəllif urbonimləri xalqın ilkin yaranmış dövrlərindən onun dilinə, tarixinə, coğrafiyasına işıq tutan ən möhtəşəm mədəniyyət abidəsi kimi dəyərləndirir. Həqiqətən də, bu böyük abidələrimizin kökündə xalqımızın ilkin təfəkkür, mədəniyyət tərzi, adət-ənənələri, etnik tərkibi, qədim tarixi və coğrafiyası, məşğuliyyət sahələrinin ən önəmli cəhətləri yaşamaqdadır. İndiki Ermənistan ərazisində mövcud olmuş yer-yurd adları Azərbaycan dilinin, ümumilikdə türk dillərinin ən dəyərli və etibarlı tarixi mədəniyyət xəzinəsi kimi sözdə yaşayan və əbədiləşən ulu mənəvi sərvətidir.

"Dərələyəz toponimləri vahid və monolit mədəniyyətin ayrılmaz komponentləri kimi", "Toponimlər xalqımızın uzaq tarixinin ədəbi-mədəni abidələri kimi", "Dərələyəz toponimləri Azərbaycan xalqının etnik coğrafiyasının adlandırma sistemi kimi", "Dərələyəz toponimləri etnomənəvi amillər kimi", "Qədim türk-Azərbaycan ruhunu özündə yaşadan Dərələyəz toponimləri", "Dərələyəz toponimləri qədim türkün milli mənlik şüurunun etnolinqvistik göstəricisi kimi", "Söz və toponimin bir-birilə qarşılıqlı semantik münasibəti" və s. paraqraflarda M.Hüseynova haqlı olaraq qeyd edir ki, qədim Oğuz yurdu olan indiki Ermənistanın hər bir guşəsində Qorqud Dədəmizin izləri görünməkdədir, toponimlər isə xalqımızın tarixi güzgüsüdür. Professor Mahirə Hüseynova Dərələyəz urbonimlərini tədqiq edərkən tarixi-müqayisəli və qarşılaşdırma metodlarında istifadə edərək əsrlər, minilliklər ərzində fonetik və morfoloji dəyişikliyə məruz qalan coğrafi adların tarixi-linqvistik təhlil yolu bərpasına nail olmağa çalışmışdır. Həmçinin əsas problem kimi dilin müxtəlif səviyyələrində restavrasiya olunmuş formaları və bu formalar arasında qarşılıqlı əlaqələri düzgün müəyyənləşdirməkdən ibarətdir ki, o, təhlil prosesində bu cəhətlərə xüsusi əhəmiyyət verilmişdir.

Əsərin ən maraqlı və diqqəti özünə cəlb edən paraqraflarından biri "Erməni-hay qaraçılarının etnopsixologiyası və onların Dərələyəz mahalında dağıtdıqları yaşayış məntəqələrinin adları tarixi cədvəllərin dili ilə" adlanır. Həqiqətən də, dünyanı gözü qarşısında dədə-baba ocağımız, qədim yer-yurdlarımız, yaşayış məntəqələrimiz alt-üst edilib, xarabalığa çevrilmiş, bir sözlə ekoloji terror siyasəti həyata keçirilmişdir.

Müəllif yazır ki, erməni faşistləri Qərbi Azərbaycanda, o cümlədən Dərələyəz mahalında təkcə soydaşlarımıza məxsus yaşayış məntəqələrini darmadağın etməklə, əhalini soyqırıma məruz qoymaqla məşğul olmamış, kənd adlarının dəyişdirilməsini də hiyləgərcəsinə yerinə yetirmişlər. M.Hüseynova bunların bir qismini də cədvəl əsasında sistemləşdirib vermişdir (5, s.173) məsələn: Ağkənd / Ağçadzor, Aynəzər / Axavnadzor, Başkənd / Vernaşen, Yengicə / Qondzak, Kotanlı / Karmiraşel, Paşalı / Zaritop və s. onlarla, yüzlərlə dəyişimə məruz qalan coğrafi adlarımız müəllif tərəfindən araşdırılmış dəyişdirildiyi tarix dəqiqliklə göstərilmişdir.

"Azərbaycanda erməni-hay terrorunun uzaq və yaxın tarixi", "Erməni-daşnak faşistlərinin Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasəti", "Tarixi həqiqətlər sənədlərin dili ilə" adlanan paraqraflarda müəllif xüsusi vurğulayır ki, iki əsrdən artıq zaman kəsiyində ermənilər havadarlarının himayəsi və xüsusi qayğısı ilə Qərbi Azərbaycanın bütün bölgələrində olduğu kimi Dərələyəz mahalında da bütün milli irsimizə qənim kəsildilər, misli görünməmiş tarixi cinayətlər törətmişlər. Ermənilər təkcə soydaşlarımıza qarşı deyil, eyni zamanda tarixi yer-yurd adlarımıza qarşı da total şəkildə urbisid vandalizm aktları həyata keçirmişlər. Təkcə 1918-1920-ci illərdə Qərbi Azərbaycanda erməni şovinistləri tərəfindən 300-dən artıq azərbaycanlı kəndi yerlə yeksan edilmişdir.

Müəllifin etimoloji təhlilləri göstərir ki, Dərələyəz mahalına məxsus ölü kənd adlarının demək olar ki, hamısı başdan-başa səs komplekslərinə, fonetik quruluşuna, semantik yükünə görə türk-Azərbaycan advermə ənənələri əsasında təşəkkül tapıb formalaşmış, tarixi sənədlərdə daşlaşmışdır. Hal-hazırda Dərələyəz mahalında 14 kənd istisna olmaqla bütün yaşayış məntəqələri yer üzündən silinmişdir. Amma kəndləri dağıtmaqla coğrafi adları tarixi sənədlərdən silmək, arxiv materiallarından çıxarmaq mümkün deyil. Mahirə xanım qeyd edir ki, genetik təsnifləndirmə cəhətində də Dərələyəz bölgəsində erməni sözü əsasında tarixən formalaşmış yer-yurd adları yoxdur, toponimlərin hər biri türk-Azərbaycan dilinin fonetik, leksik-semantik, morfoloji linqvistik ehtiyatları fonunda yaranmışdır.

Məlum həqiqətdir ki, ermənilər paleotoponimləri, urbonimləri ötən iki yüz il ərzində mənəvi soyqırıma məruz qoysalar da, tarixi faktları yer üzündən silmək mümkün olmamışdır. Qərbi Azərbaycan ərazisində

mövcud olmuş paleotoponimlərin bərpası təxirəsalınmaz və aktual problemlərdən birini təşkil edir. Tarixin daş yaddaşını vərəqləyib faktların dili ilə danışan bu əsər mənfur qonşuların ərazi iddialarına qarşı ən tutarlı cavab kimi razılıq və minnətdarlıq doğurur.

Nəticə olaraq qeyd edək ki, ata-baba ocaqları Qərbi Azərbaycanda qalan, qəlbi hər zaman yurd həsrətilə döyünən, öz nisgilini poetik misralarda tez-tez dilə gətirən nəğməkar şairə Mahirə Nağıqızı öz poeziyasında ürəyinin hayqırtısını oxucusu ilə bölüşürdüsə, tədqiqatçı-alim Mahirə Hüseynova Qərbi Azərbaycanın mədəni irsinin, ələlxüsus da, aşıq və el şairlərinin linqvopoetikasının müxtəlif istiqamətlərinin monoqrafik tədqiqi ilə sistemli şəkildə məşğul olmuş və neçə-neçə sanballı əsərlərin müəllifi kimi vətənpərvər ziyalı mövqeyini ortaya qoymuşdur. İnanırıq ki, dəyərli alimin bu əsərdə ortaya qoyduğu konsepsiya, irəli sürdüyü elmi arqumentlər tezliklə reallığa qovuşacaq. Dərələyəz mahallarında ermənilər tərəfindən məqsədyönlü şəkildə adları dəyişdirilmiş yurd yerlərimizə verilən üzdəniraq adların əvəzinə özlərinin qədimi adlarının verilməsi təmin olunacaq, ermənilərin məkrli siyasətinə birdəfəlik son qoyulacaq və Qərbi azərbaycanlılar dədə-baba ocaqlarına qayıdacaq. Qəribsəmiş yurdumuz öz insanının nəfəsilə isinəcək, düşmən tapdağında qalan yurd yerlərimiz də işğaldan azad olan torpaqlarımız kimi abadlaşacaq. Bizim olanın qədrini bizdən başqa heç kim dərk edə bilməz... Vaxtilə Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin mənfur düşmənlərə və onların havadarlarına qətiyyətlə səslənərək ifadə etdiyi kimi: *"Biz o torpaqlara mütləq qayıdacağıq!"* Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı məqsədyönlü siyasət və əldə olunan ciddi nailiyyətlər bizi addım-addım qədim və doğma yurd yerlərimizə doğru aparır!

ƏDƏBİYYAT

1. Aşıq Kamil Teymuroğlu. Vətənə baxıram həsrət gözüylə. – Bakı: Poliqraf AF, – 2015, – 128 s.
2. Bayramov, İ.M. Qərbi Azərbaycan şivələrinni leksikası. – Bakı: Elm və təhsil, – 2011, – 440 s.
3. Cəfərova, A.C. Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar. – Naxçıvan: Əcəmi, – 2023, – 176 s.
4. Ələkbərli, Ə.Y. Qədim türk-oğuz yurdu "Ermənistan". – Bakı: Sabah, – 1994, – 218 s.
5. Hüseynova, M.N. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları. Bakı: ADPU-nun nəşri, 2024
6. Hüseynova, M.N. Aşıq və el şairlərinin poetikası (Dərələyəz mahalı üzrə). – Bakı: ADPU-nun nəşri, – 2017, – 171 s.
7. Mirzəyev, H.İ. Qərbi Azərbaycanın Dərələyəz mahalı. – Bakı: Elm, – 2004, – 855 s.

ABSTRACT

Zulfiyya ISMAYIL

THE CONCEPTUAL STUDY OF PALEOTOPONYMS IN WESTERN AZERBAIJAN

It is a well-known fact that although Armenians subjected paleotoponyms and urbanonyms to spiritual genocide during the past two hundred years, it was not possible to erase historical facts from the face of the earth. Restoration of paleotoponyms that existed in the territory of Western Azerbaijan is one of the urgent and urgent problems. Almost all of the names of the dead villages belonging to Darelayaz district were formed based on Turkish-Azerbaijani adverman traditions due to their sound complexes, phonetic structure, and semantic load, and were fossilized in historical documents.

Keywords: *West Azerbaijan, paleotoponymy, Deraleaz, Armenians*

QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİNƏ KONSEPTUAL ELMİ BAXIŞ

(Professor Mahirə Nağı qızı Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" kitabı (2023) haqqında)

Ələddin EYVAZOV
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Ələddin Eyvazovun "Qərbi Azərbaycan toponimlərinə konseptual elmi baxış" məqaləsində professor Mahirə Nağı qızı Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" kitabı təhlil süzgəcindən keçirilməklə göstərilir ki, monoqrafiya çox vaxtında yazılmış və bu sahədəki boşluğu dolduran bir əsərdir. Əsər təkcə dilçilik baxımından yox, həm də siyasi-ideoloji və tarixi ədalət baxımından qiymətlidir. Müəllif haqlı olaraq öz tədqiqatını ən qədim toponimlərin tədqiqinə həsr etməklə sübut edir ki, bu ərazilərdə qədimdən bu yana heç bir erməni izi yoxdur. Bu torpaqlar yalnız Azərbaycan türklərinin məskəni olmuşdur.

Açar sözlər: *paleotoponim,"art", "van", kut//quti etnonimləri, "Qəmərli", "Əkərək"*

Giriş

İki yüz ildən artıq bir zamanda Azərbaycan torpaqlarının parçalanması, nəhayətdə, bu torpaqların böyük bir hissəsində saxta erməni dövlətinin yaradılması onunla nəticələndi ki, azərbaycanlı əhali zaman-zanan deportasiya olundu, qədim yer-yurd adlarımız məhv edilərək qondarma erməni adları ilə əvəz olundu və bu proses davam etməkdədir. Bununla da ermənilər və onların havadarları Azərbaycan türkünün izini bu torpaqdan silməyə cəhd etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çox ciddi və kəskin şəkildə həmin iyrənc adların geri qaytarılmasını vacib bildi. Erməni iştahı o qədər yüksək idi ki, onlar həyasızcasına ərazi genişləndirmək, yeni-yeni torpaqlar əldə etmək iddiasında idilər. Son müzəffər qalibiyyətimiz bütün bu iddiaları alt-üst etdi. Professor Mahirə Nağı qızı Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" kitabı [1] çox vaxtında yazılmış və bu sahədəki boşluğu dolduran bir əsərdir. Əsər təkcə dilçilik baxımından yox, həm də siyasi-ideoloji və tarixi ədalət baxımından qiymətlidir.

Material və metodlar

Professor M.Hüseynova çox dəqiq və obrazlı şəkildə ermənilərin Azərbaycan toponimlərinə dövlət səviyyəsində "səlib yürüşü" kompaniyasını göstərərək 1935-1991-ci illərdə bunu həyata keçirdiklərini faktlarla sübut edir. Qədim Türk Abidələrində, konkret olaraq "Orxon-Yenisey" abidələrində işlənən "Gökman" oroniminin ermənilər tərəfindən "koğan" şəklində işlədilərək özününküləşdirmələrini sübut edir. Bu sözün türk abidəlkəri olan "Orxon-Yenisey" daş kitabələrində olduğu kimi, Dərələyəz mahalında da "Gokman" formasında olduğunu, - "Gok" komponentinin "göy" formasında "göylük yal" anlamını, "man" komponentinin bu günkü dilimizdə olan "qocaman", "azman" sözlərində işlənməsini müəllif haqlı olaraq sübut kimi göstərir.

Ermənilər saxta tarix uydurараq antik dövrün türk-azərbaycan mənşəli toponimlərə daha çox təcavüz etmiş, onları tanınmaz hala salmışlar [1, s. 29]. Müəllif xəstə və yaramaz ermənilərin özləri haqda olan yüksək fikirlərini dəfələrlə böyük yanğı ilə qeyd edir: "Ermənilər harada oldu iddia edirlər ki, guya Qafqaz, Kiçik Asiya, Orta Asiya, Qazaxıstan, Altay, hind-Avropa, Çin, Türküstan da onların vətəni olub. Bu erməni xəstəliyi antik dövrlərdən as/sak mədəniyyətini türk xalqlarından qoparmağa xidmətin nəticəsi kimi meydana çıxmışdır" [1, s. 30]. Göstərmək lazım gəlir ki, digər tədqiqat əsərlərində də ermənilərin bu həyasız addımları qeyd olunmuşdur: "Sak" etnosunun türk mənşəli olduğunu hər zaman təsdiq edən dünya türkoloqlarına məhəl qoymayan bu mənfur qurum car çəkir ki, Qarabağın qədim adı Artsaxdır. ("Ərsaq" sözü-nün içərisinə bir "t" səsi əlavə edərək). Bəs, deyən yoxdur ki, ay işğalçı, "Ər-saq" kimin sözüdür?!" [2, s. 9].

Professor M.Nağı qızı çox qiymətli bir məsələyə toxunaraq yazır ki, ermənilər bir çox sözlərin etimoloji mənbəyini anlamadıqları üçün onları olduğu kimi saxlamışlar. Həmin sözləri – "Ararat", "Artaşat" sözlərini misal çəkərək göstərir ki, "Urartu" sözündəki "art" komponenti də qədim türkcədir. "Art" vahidinin

Azərbaycan ərazilərində yer-yurd adlarında qalması bunu sübut edir. Məslən, Salvartı (Şahbuz), Arta (Lənkəran), Artaba (Astara) sözlərinə rast gəlmək mümkündür. Müəllif bu məsələdə T.Əhmədovun tədqiqatına istinad edir [Əhmədov T. –Azərbaycan toponimikasının əsasları. Bakı Universiteti Nəşriyyatı, 1991]. Kitabda qeyd edilir ki, "art" sözü müasir tuvin, şor, qırğız, kumık, Altay və s. dillərində "keçid", "dağ keçidi", "aşırım", "dağ aşırımı" mənalarında işlənir [№ 1.s 51]. Bu komponentin türk mənşəli olmasını E.V. Sevortyan da təsdiq etmişdir [1, s. 51].

Azərbaycanın görkəmli toponimistlərindən H.Mirzəyev, Q.Qeybullayev, B.Budaqov, Ə.Ələkbərli, İ. Bayramov, S.Sadiqova, C.Cəfərov və digərləri məqalə və kitablarında dönə-dönə qeyd etmişlər ki, Qərbi Azərbaycan ərazisində (İndiki Ermənistan) mövcud olan toponimlərin 90 faizi türk mənşəlidir və 200 il bundan əvvəl bu regionda bir dənə də olsun erməni coğrafi adına təsadüf edilmir [1, s. 34].

Metod: Müqayisəli-tarixi metod

Əldə olunan nəticələr

Monoqrafiyada da qeyd edildiyi kimi, "Qərbi Azərbaycan ərazisində mövcud olmuş paleotoponimlərin tarixi, coğrafi, linqvistik istiqamətlərdəki təhlili göstərir ki, indiki Ermənistan Azərbaycan türklərinin ta qədimdən yaşadıqları, özlərinə əbədi məskən seçdikləri yurd yerlərindən biri olmuşdur".

Müzakirə: Bu monoqrafiyadakı elmi nəticələr dilçilərlə yanaşı, ədəbiyyatşünaslar, tarixçilər, coğrafiyaşünaslar, mədəniyyət xadimlərinin maraq və müzakirə dairəsinə daxildir.

ƏDƏBİYYAT

1. Hüseynova, M. Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili. 2023, 256 s.
2. Eyvazov, Ə. Naxçıvan qədim türk torpağıdır. Bakı: Elm, 2006.
3. Əliyev V. Zəngəzurda qalan izimiz. Bakı: 2004, 272 s.

ABSTRACT

Aladdin EYVAZOV

THE CONCEPTUAL SCIENTIFIC REVIEW TO WESTERN AZERBAIJAN TOPONYMS
(About The Book Tıtled 'Lınguıstıc And Etymologıcal Analysıs
Of The Paleo-Toponyms Of Western Azerbaıjan' (2023) By Professor Mahıra Naghı)

*The article entitled the "**Conceptual scientific review to Western Azerbaijani toponyms**" by Aladdin Eyvazov deals with the book named Linguistic and Etymological Analysis of Paleotoponyms of Western Azerbaijan by professor Mahira Naghi Huseynova. The author of the article has proved that the monograph was written in a very timely manner and this is a work that fills the gap in the field. The work is not only in terms of linguistics, but also is also valuable in terms of political-ideological and historical justice. The author rightly devoted his research to the study of the oldest toponyms proves that there are no traces of Armenians in these areas since ancient times. These lands were inhabited only by Azerbaijani Turks.*

Keywords: *paleotoponym, "art", "van", kut/guti ethnonyms, "Gamarli", "Akarak"*

QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALININ TÜRK MƏNŞƏLİ TOPONİMLƏRİ

Ülviyyə İSGƏNDƏROVA
isgenderova.86@mail.ru
ORCID iD: 0000-0001-9875-1176
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ


Məqalədə Qərbi Azərbaycanın Dərələyəz mahalının türk mənşəli toponimləri araşdırılmışdır. Mahalın hidronim, oronim və oykonimlərini təhlil etməklə bir daha qədim oğuz yurdu olması təsdiqlənmişdir. Toponimlər xalqın qədim yaşayış məskənlərini müəyyənləşdirmək, bu ərazilərdə baş vermiş hadisələri qiymətləndirmək üçün tarixin ən qiymətli yadigarıdır. Belə ki, mənfur ermənilər soydaşlarımızı soyqırıma məruz qoyduqları kimi, indiki Ermənistan ərazisində yerləşən oğuz mənşəli toponimləri də erməni mənşəli adlarla əvəz etməklə saxtalaşdıraraq mənəvi soyqırımı davam etdirmiş, Azərbaycan türklərinin izlərini silməyə çalışmışlar. Azərbaycanın tarixi torpaqlarında yer, yurd adlarının araşdırılması, təhlil olunması çox mühüm əhəmiyyət kəsb edir. Dərələyəzdə hər bir ərazinin: kənd, dağ, çay, yaylaq, qala və s. adları xalqın çoxəsirlik tarixindən xəbər verir. Buradakı toponimlərin formalaşmasında sözlər və coğrafi nomenlər mühüm mənbə rolunu oynayır. Buna görə də Dərələyəz bölgəsinin yer-yurd adlarının leksik-semantik xüsusiyyətləri təhlil edilmiş və nəticəyə gəlinmişdir ki, Dərələyəz mahalının toponimlərinin 90 faizdən çoxu türk mənşəlidir.

Açar sözlər: *Qərbi Azərbaycan, Dərələyəz mahalı, toponim, hidronim, oykonim*

Giriş

Toponimlər el obanın tarixinin araşdırılmasında əvəzedilməz canlı sənəddir. Xalqın tarixinə dair bütün faktları özündə saxlayan toponimlər yer-yurd adlarını mühafizə edərək gələcək nəslə ötürür. Bu baxımdan toponimlərin tədqiqi ən vacib problemlərdən olub, aktualdır. Təəssüf ki, zaman-zaman türk mənşəli adlarımızı azğın ermənilər dəyişərək yer-yurdla heç bir etnik-tarixi bağlılığı olmayan uydurma adlar vermişlər.

Qədim türk-oğuz məskəni olan Dərələyəz mahalına hal-hazırda Şərur rayonunun Axura, Həmzəli, Həmzəli-Dizə, Cağazir, Danzik, Havuş, Günnüt kəndləri, Ermənistanın Vedi rayonunun Çanaxçı, Hortun, Baxçacıq, Cəfərli, Qaşqa, Keşiş viranı və bəzi digər kəndləri daxil idi [5, s.589]. Şərur-Dərələyəz qəzası İrəvan quberniyasına daxil edildikdən sonra bu kəndlər Şərur və Vedi rayonu ərazisinə qatıldı.



Dərələyəz mahalı 1920-ci ilə qədər Azərbaycanın tərkibində olmuşdur. Uzun müddət Dərələyəz mahalı ilə Şərur bir inzibati bölgüyə aid olmuş, gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının "Şərur-Dərələyəz" qəzası adlandırılmışdır. Onun sahəsi 2972,3 km^2 imiş. Qəzanın mərkəzi isə Şərurun Baş Noraşen (Cəlilkənd) kəndi olmuşdur. 1920-ci il noyabrın 29-da Ermənistan Sovet Respublikası yaranan zaman rus şovinistləri və erməni daşnaklarının, xüsusən türk düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və

təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları ilə birlikdə Dərələyəz mahalı da Azərbaycandan alınıb, Ermənistana verildi.

Dərələyəz mahalı 9 rayonun - Şərur, Sədərək, Babək, Şahbuz, Kəlbəcər, Vedi (Ararat), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Qarakilsə (Sisyan) rayonunun əhatəsində yerləşir. Yüksək dağ silsilələri ilə əhatə olunan Dərələyəz mahalında yüzlərlə oğuz türklərinə məxsus dağlar, yaylaqlar, aşırımlar, yollar vardır.

Material və metod

Məqalə tarixi mənbələr və ədəbiyyat materiallarının təhlilinə əsaslanaraq tarixi metoddan istifadə etməklə hazırlanmışdır [1], [2], [3], [4], [5], [6], [7], [8]. Professor H.İ.Mirzəyevin Dərələyəz mahalının 1828-ci ildən sonrakı dövrlərə aid tərtib etdiyi xəritəsindən də istifadə edilmişdir.

Təhlil və müzakirə

Böyük ərazini əhatə edən Dərələyəz mahalında xalqımıza məxsus saysız-hesabsız toponimlər vardır. Bu toponimlər 3 növə: oykonim, oronim və hidronimlərə bölünür. Oykonimlər müxtəlif tipli yaşayış məntəqələridir. Dərələyəz bölgəsinin oykonimləri leksik-semantik mənalarına görə müxtəlif cür qruplaşdırılır. Şəxs adları, müxtəlif təxəllüs, ayama və ya titullardan törəmiş oykonimlər antroponimik oykonimlər adlanır. Bəyzadə, Namazlı, Seyid Məmiş, Sultan bəy, Qurd Əmir, Vay Hüseyn, Qoçu bəy və s. kimi kənd adları antroponimik toponimlərdir [5, s.473].

Xalqımızın soy-kökündə iştirak etmiş tayfa adlarından törəyən toponimlər isə etnooykonimlər adlanır. Kömürlü, Kotanlı, Dəmirçilər, Çanaxçı, Qılıclı, Çıraxlı, Cığatay kimi kənd adları, Xalaçlar yurdu, Qazaxlar yurdu, Çərəli yerləri kimi toponimlər etnooykonimlərdir.

Nəsil, sülalə adlarına çevrilmiş şəxs adlarından törənən Şəkərbəyli, Cəfərli, Veysəlli, Pirəli, Həsənli, Dədəli kimi kənd adları və Bağıruşağının yeri, Sultan yerləri, Seyidlərin yerləri, Paşa bağı, Xan arxı kimi biçənək, bulaq, otlaq və s. yer-yurd adları kimi işlənən etnotoponimlərdir.

Feili birləşmə modelində olan toponimlərə Bülbülölən, Leyliqaçan-Leyliköçən, İtqıran, Qurbankəsilən, Qıraqgəzər, Soyulan toponimləri aiddir.

Hidronimik terminləri əks etdirən toponimlərə İstisu, Novlar, Novlu, Çaykənd, Kəhrizlər, Bulaqlar, Qoşabulaq kimi kənd adları, Soyuqbulaq, Alagöllər kimi yaylaq adları daxildir. Soyuq bulaq, Gümüş bulaq, Daşbulaq, Turşsu, Turşbulaq, Kurbulaq, Qırxbulaq, Üçbulaq, Yastı bulaq, Kora bulaq, Süddü bulaq, Dambulaq, Qıjılı bulaq, Güngörməz bulaq kimi bulaq adları da hidronimik terminləri əks etdirən toponimlərdir. Qeyd etməliyik ki, kənd adlarını əks etdirən hidronimik oykonimlər ilk zamanlar su obyektlərinin adlarını bildirsə də sonralar həmin bulaq, çay və ya kəhrizin yanında yaşayış məntəqəsi salındıqdan sonra hidronimlər toponimləşərək oykonimə çevrilmişdir. Eyni zamanda relyef bildirən toponimlər yaşayış məntəqəsi salındıqdan sonra relyeflə yanaşı, yaşayış məntəqələrinin də adını ifadə etmişdir. Məsələn: ilk vaxtlar Gen dərə, Maral düz, Pəyə dərə, Ağ dərə, Daş xırman kimi relyefi-düzü, dərəni, xırmanı və s. bildirən toponimlər yaşayış məntəqələri salındıqdan sonra qəsəbə, kənd, oba və s. bildirmişdir.

Dərələyəz bölgəsində elə elə yaşayış məntəqələri vardır ki, onların mənşəyi dilçilik ədəbiyyatında hələ tam aydınlaşdırılmamışdır. Bunun isə əsas səbəbi tarixən türklərlə birlikdə albanların da burada yaşamasıdır. Alban məbəd və qəbirlərinin varlığı bunu təsdiq edir. Lakin vaxtında tədqiqatlar aparılmadığından hər faktı saxtalaşdıran ermənilər alban kilsə və abidələrinin işarə və yazılarını da qazıyaraq öz adlarına çıxarmış və çıxarmaqdadırlar.

Azərbaycan dilində çox aktiv işlənən -ca, -cə, -lar, -lər, -lı, -li, -lu, -lü, -ıq,-ik, -uq, -ük kimi şəkilçilər Dərələyəz bölgəsinin toponimiyasında əks olunmuşdur. Məsələn: Qozluca, Almalı, Siçanlı, Nəbilər, Qovuşuq, Novlar, Daylaxlı və s. kimi kənd adlarında qeyd edilən şəkilçilərdən istifadə olunmuşdur.

Dərələyəzdəki oykonimlərin bir çoxuna türklərin yayıldığı başqa ərazilərdə də rast gəlinir. Buna Dədəli oykoniminin Krım, Bolqarıstan, Türkiyə, İran, Orta Asiya, Bolqarıstan və s. yerlərdə olması sübutdur.

Mikrotoponimlərin bir növü də Dərələyəz kəndlərindəki məhəllə və tayfa adlarını bildirən mikrooykonimlərdir. Onlar aşağıdakı kimi qruplaşdırılır [5, s. 476]:

a) -çı-lar, -çü-lər, -çu-lar, -çi-lər tərkibli şəkilçilərlə düzələn mikrooykonimlər: Qalayçılar, Təkəçilər, Yayçılar və s.;

b) -lı, -li, -lu, -lü şəkilçiləri ilə nəsil və tayfa adlarından düzələn məhəllə və tayfa adları: Ayrımlı, Hətəmli, Çıldırlı, Bayramlı, Kəngərli, Hacısamlı və s.;

c) -lı-lar, -lü-lər, -lu-lar, -li-lər tipli şəkilçilər vasitəsilə tayfa, nəsil, şəxs adlarından törənmiş məhəllə və tayfa adlarına Şahnazarlılar, Nurməmmədlilər, Gülməmmədlilər, Sonqululer, Alhüseynlilər, Küdüklülər və s.;

ç) -lar, -lər şəkilçili şəxs, nəsil və tayfa adlarından törəmiş tayfa və məhəllə adları: Allahverdilər,

Həsənlər, Şahbazlar, Məmmədalılar, Qacarlar, Zərgərlər, Tatarlar, Boydarlar, Seyidlər və s.;

d) Birləşmənin ikinci tərəfinə "uşağı", "törəməsi", "öyü"//"əvi"//"evi" artırmaqla əmələ gəlmiş tayfa və məhəllə adları: Əmir uşağı, Cabbar uşağı, Şahbaz törəməsi, Əli öyü//evi//əvi və s.;

e) Birinci tərəfi dini titul, ayama, dini rütbə ilə, ikinci tərəfi çəm şəkilçilərindən ibarət məhəllə və tayfa adları: Məşədi Hüseynalılar, Kərbəlayı Piralılar, Hacı Namazlılar, Çəhrəbaşlılar və s. Qeyd olunmalıdır ki, bəzən kənddə məhəllələrə relyefə görə də ad verilmişdir. Məsələn: Çuxur məhlə, Aşağı məhlə, Dərə məhlə, Orta məhlə, Yuxarı məhlə, Çökək məhlə və s.

Müxtəlif relyefə malik olan Dərələyəzdə çoxlu relyef adları vardır. Elmi ədəbiyyatda relyef adlarına oronimlər də deyilir. Dərələyəz bölgəsində oronimik terminlərlə ifadə olunan relyef adlarını aşağıdakı kimi qruplaşdırmaq olar [7]:

Dərə: Gen dərə, Arpa dərəsi, Pəyə dərə, Cinli dərə, Cəvizli dərə, Zəylik dərəsi, Səmədin dərəsi, Şirinin dərəsi, Daş dərə, Sürüşkən dərə və s.

Dağ: Göydağ, Keçəl dağ, Allahaman dağı, Lül dağ və s.

Daş: Top daş, Dəlik daş, Qara daş, Güllədəyən daş, Adam daş və s.

Səngər: Aşağı səngər, Daş səngər, Şiş səngər və s.

Qaya: Salqaya, Sarı qaya, Boz qaya, Göyqaya, Qızıl qaya, Qaçaq qayası, Qara qaya və s.

Ağıl: At ağılı, Daşlı ağıl, Güney ağıl və s.

Arxac: Daş arxac, İlanlı arxac, Binə arxac, Qoşa arxac, Qısqanclı arxac və s.

Tala: Safonun talası, Bəşir talası, Əyri tala, Böyük tala, Kiçik tala və s.

Yal: Göy yal, Baş yal, İsa yalı, Sallı yal, Böyük yal, Kiçik yal və s.

Yol: Ağdərə yolu, Selimin yolu, Arpa yolu, Göyçə yolu, Arazdəyən yolu, Quzu yolu və s.

Yer: Kollu yer, Xırman yeri, Sarı yer, Ağ yer, Tikanlı yer, Söyüdlü yer. Xınalı yer və s.

Yarğan: Ağ yarğan, Dal yarğan, Daş yarğan, Qırmızı yarğan, Sarı yarğan və s.

Gədik: Güllü gədik, Dal gədik, Daşlı gədik, Soyuqbulaq gədiyi və s.

Yoxuş: Ağ yoxuş, Sarı yoxuş, Əyri yoxuş, Daşdı yoxuş və s.

Düz: Paşa düzü, Ərikli düz, Daşlı düz, Güllü düz, Aynəzir düzü və s.

Burun: Yoğun burun, Sarı burun, Təkədonduranın burnu və s.

Su: Yoğun su, Qarasu, Turşsu, İstisu və s.

Kaha: Keçi kahası, Güngörməz kaha, Nəbilərin kahası və s.

Zağa: Mahının zağası, Quzeyin zağası və s.

Bağ: Zalxanın bağı, Paşa bağı, Əlinin bağı, Həsən kişinin bağı, Şirinin bağı və s.

Yastana: Boz yastana, Baldırğannı yastana və s.

Meşə: Böyük meşə, Dağ meşəsi, Qara meşə, Hava meşəsi, Göydağın meşəsi və s.

Çınqıl: Yanığın çınqılı, Yastana çınqıl, Göyərçin çınqılı, Ayı çınqılı və s.

Biçənək: Abbasəlinin biçənəyi, Çuxur biçənək, Mirzəlinin biçənəyi: Quzey biçənək və s.

Tap: Duzdağın tapı, Nağdalının tapı, Taxtaların tapı, Böyük tap, Kiçik tap və s.

Demi: Qəmbərin demi, Noxud demi, Böyük dem, Şəmilin demi, Qatarın demi və s.

Kəfşən: Qabaq kəfşən, Ərəb kəfşəni, Güneyvəng kəfşəni və s.

Dəlik: Tülküdəliyi, Qurddəliyi, Təpəsidəlik və s.

Taxta: Calalın taxtaları, Ayısəsi taxtaları, Taxta yurd və s.

Yurd: Taxtayurd, Payızyurdu, Murtuzayurdu,Səlimin yurdu, Qısxanclıyurd və s.

Qəcəl: Göy qəcəl (Göy qəjəl).

Sal: Yekə sal.

Şam: Böyük şam, Cəlilin şamı.

Bərə: Təhməzin bərəsi, Cəlilin bərəsi və s.

Dərələyəz toponimiyasında istiqamət və cəhət bildirən "alt", "üst", "dal", "quzey", "güney" terminləri də öz əksini tapmışdır. Məsələn: Qəbistanlığın üstü, Daşlı güney, Nəsibin qüzeyi, Təpənin altı və s. Bundan başqa, dini mərkəz, pir, ocaq, vəng, məscid adlarını əks etdirən Oğuz qəbirləri, Dəmrov piri, Ərkəz piri, Palıd piri, Güneyvəng, Qaravəng kimi toponimlər də vardır.

Dərələyəz bölgəsində Arpa çayı hövzəsində yerləşən kəndlərdə bulaq, çay, göl və digər su obyektləri çox olduğu üçün burada hidronimlərin müxtəlif növləri yayılmışdır. Buradakı su obyekti adları-hidronimlər türk dilinin qayda-qanunları əsasında formalaşmışdır. Dərələyəz bölgəsinin terminlərini aşağıdakı kimi qruplaş-dırmaq olar [5, s.479]:

Bulaq: Pir bulaq, Soyuq bulaq, Bol bulaq, Şor bulaq, Yastı bulaq, Otay bulaq və s.

Su: Qara su, Turş su, Qotur su, İsti su, Heşin suyu və s.

Çay: Arpa çayı, Qabaqlı çayı, Sallı çayı, Almalı çayı, Qara qaya çayı və s.

Gözə: Daşlı gözə, Dədəli gözəsi, Çınqılın gözəsi və s.

Göl: Təndir göl, Çala göl, Lal göl, Pristav gölü, Ördək gölü və s.

Arx Qalaser arxı, Köhnəkənd arxı, Qaraşum arxı, Nəbilər arxı, Çay arxı, Dəyirman arxı, Ayığlən arxı, Köhnəkənd arxı, Ələyəz arxı və s.

Çeyil: Əmrahın çeyili, Kərimin çeyili, Əbdüləlinin çeyili və s.

Qeyd etmək lazımdır ki, Balkan bölgəsindən Çinə qədər göl, su, çay sözləri müxtəlif fonetik variantlarda türklər yaşayan ərazilərdə hidroqrafik termin kimi işlədilir.

Nəticə

Aparılmış tədqiqatların nəticələri göstərir ki, Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimlərinin 90 faizdən çoxu türk mənşəlidir. Bu toponimlər hidronim (su obyektləri), oronim (relyef adları) və oykonimlər (yaşayış məntəqələri) kimi qruplaşdırılır. Azərbaycan tədqiqatçılarının araşdırmaları nəticəsində Ermənistanda "məhkum" olunmuş coğrafi adlar həyata gətirilmiş, onların dəyişdirilmə tarixi araşdırılmış, köhnə adlar bərpa edilmiş, uydurma toponimlərin adları çıxarılmışdır. Bir daha sübut edilmişdir ki, azərbaycanlılar indiki Ermənistan ərazisində gəlmə deyil, aborigen olmuşlar.

ƏDƏBİYYAT

1. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 346 s.
2. Bayramov, İ. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: 2005, 432 s.
3. Ələkbərli, Ə. Qərbi Azərbaycan, Vedibasar. I cild, Bakı: 2000, s.589
4. Ələkbərli, Ə. Qərbi Azərbaycanda soyqırıma məruz qalmış toponimlərimiz. Bakı: Elm və təhsil, 2020, 96 s.
5. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı: Elm, 2004, 855 s.
6. Mirzəyev, H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı: 1997, 352 s.
7. Mirzəyev, H. Dərələyəz mahalının oronimləri və hidronimləri. Filologiya məsələlərinə dair tematik toplu, №1-2 (20-21), Bakı: 2002, s.137-143
8. Səmədova, K. Qərbi Azərbaycan etnotoponimlərinin arealları. Bakı: Nurlan, 2008, 152 s.

ABSTRACT

Ulviyya ISGANDAROVA

TURKIC – ORIGIN TOPONYMS OF THE DARALAYAZ DISTRICT IN WESTERN AZERBAIJAN

The article examines the toponyms of Turkic origin of Daralayaz District of Western Azerbaijan. By analyzing the hydronyms, oronyms and oikonyms of the district, it was once again confirmed that it was the ancient land of Oguz. Toponyms are the most valuable relic of the history to identify the ancient settlements of the people, to estimate the events that took place in these territories. As the disgusting Armenians exposed our compatriots to genocide, they continued the moral genocide by falsifying the toponyms of Oghuz origin located in the territory of Armenia with the names of the Armenian origin, and tried to erase the traces of Azerbaijani Turks. It is very important to study and analyze the names of places and the areas in the historical lands of Azerbaijan. In Daralayaz, the names of every area - village, mountain, river, meadow, castle, indicate the history of many centuries –old of the people. The words and geographical names play important source in the formation of the toponyms here. Therefore, the lexico-semantical characteristics of the names of the places in Daralayaz region were analyzed and it was concluded that more than 90 percent of the toponyms in Daralayaz district are of Turkish origin.

***Keywords**: Western Azerbaijan, Daralayaz district, toponym, hydronym, oikonym*

QƏRBİ AZƏRBAYCAN FOLKLORUNDA TOPONİMLƏR

Nigar HƏSƏNOVA
AMEA Folklor İnstitutu

XÜLASƏ

Qərbi Azərbaycan ərazisində yerli camaatın, türkdilli əhalinin mərhələ-mərhələ qədim yurd yerlərimizdən deportasiyası, soyqırıma məruz qalması ardıcıl həyata keçirilmişdir. 44 günlük savaşın, haqq-ədalət davamızın qələbə ilə sonlanması, tarixi ədalətin bərpası xalqımızda ruh yüksəkliyi, Qərbi Azərbaycana qayıdacağımız günə inam yaratmışdır. Xalqımız əzəli-əbədi torpaqlarına qayıdacağı günü səbirsizliklə gözləyir. Toponimlərin araşdırılması tarixi həqiqətlərin sübutu üçün tutarlı faktdır. Qərbi Azərbaycan ərazisindəki toponimləri Budaq Budaqov, Qiyasəddin Qeybullayev, Afad Qurbanov, Həsən Mirzəyev, İbrahim Bayramov və digər alimlərimiz müxtəlif aspektdə araşdırmışlar. Biz də məqalədə folklorumuzun, bu gün üçün ən aktual məsələlərdən olan Qərbi Azərbaycan folklorunun öyrənilməsinə istiqamətlənməyi vacib bildik. Bunun üçün həmin bölgənin insanları ilə söhbət zamanı topladığımız lent yazılarına, institutumuz tərəfindən Qərbi Azərbaycan insanlarından toplanaraq çap edilmiş "Qərbi Azərbaycan folkloru" kitabına müraciət etdik. Bu baxımdan yaşlı insanların söylədikləri folklor mətnlərində qeydə alınmış saysız-hesabsız qədim yer-yurd adlarımızdan bəzilərini bir daha diqqətə çatdırmağa, onların bir neçəsini etimoloji baxımdan araşdırmağa çalışdıq. Nəticə olaraq deyək ki, Qərbi Azərbaycan toponimlərini dərindən araşdırmalı, dünya ictimaiyyətinə çatdırmalı, dədə-baba torpaqlarımızın qədim adlarına yönəldilən soyqırımın qarşısını almalıyıq.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, folklor, dilçilik, toponimika, etnonimlər*

Folklor milli-mənəvi kimliyimizdir. "Folklor bir işıqdır... Millətin keçdiyi tarixi və keçəcəyi gələcək yolu aydınladan işıq... Folklor bir nurdur... Milli-mənəvi yaddaşı nurlandıran, milli ruhu diri tutan nur... Folklor bir enerji qaynağıdır... Folklor bir tarix kitabıdır... Xalqımızın etnik varlıq kimi meydana çıxmasından millət kimi formalaşmasına qədər keçdiyi tələtümlü yolun izlərini əks edən bir kitab...

Folklor həm də o yolun özüdür... Milli ruhumuzun, etnik kimliyimizin, mənəvi-əxlaqi dəyərlərimizin yaşadılmasını, nəsilbənəsil ötürülməsini təmin edən yol... Bu yolun yolçularının varlığı, onlardan əldə edilən informasiyaların yazılı mətnə çevrilərək yenidən paylaşılması, kitablaşaraq gələcək üçün qorunması həmin yolun bitməzliyi deməkdir... [9, s. 11].

Biz də məqalədə folklorumuzun, bu gün üçün ən aktual məsələlərdən olan Qərbi Azərbaycan folklorunun öyrənilməsinə istiqamətlənməyi vacib bildik. Bunun üçün həmin bölgənin insanları ilə söhbət zamanı topladığımız lent yazılarına, institutumuz tərəfindən Qərbi Azərbaycan insanlarından toplanaraq çap edilmiş "Qərbi Azərbaycan folkloru" [I cild, Bakı: 2023] kitabına müraciət etdik. Bu baxımdan yaşlı insanların söylədikləri folklor mətnlərində qeydə alınmış saysız-hesabsız qədim yer-yurd adlarımızdan bəzilərini bir daha diqqətə çatdırmağa, onların bir neçəsini etimoloji baxımdan araşdırmağa çalışdıq.

Qərbi Azərbaycan ərazisində yerli camaatın, türkdilli əhalinin mərhələ-mərhələ qədim yurd yerlərimizdən deportasiyası, soyqırıma məruz qalması ardıcıl həyata keçirilmişdir. 44 günlük savaşın, haqq-ədalət davamızın qələbə ilə sonlanması, tarixi ədalətin bərpası xalqımızda ruh yüksəkliyi, Qərbi Azərbaycana qayıdacağımız günə inam yaratmışdır. Xalqımız əzəli-əbədi torpaqlarına qayıdacağı günü səbirsizliklə gözləyir. Toponimlərin araşdırılması tarixi həqiqətlərin sübutu üçün tutarlı faktdır. Qərbi Azərbaycan ərazisindəki toponimləri Budaq Budaqov, Qiyasəddin Qeybullayev, Afad Qurbanov, Həsən Mirzəyev, İbrahim Bayramov və digər alimlərimiz müxtəlif aspektdə araşdırmışlar. Qiyasəddin Qeybullayevin "Qədim Türklər və Ermənistan", "Azərbaycan türklərinin təşəkkül tarixindən", İbrahim Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri", "Qərbi Azərbaycanın toponimlər sistemi", Əziz Ələkbərlinin "Qədim türk-oğuz yurdu - Ermənistan", "Qərbi Azərbaycanda soyqırıma məruz qalmış toponimlərimiz", Həsən Mirzəyevin "Dərələyəz toponimləri və şivə sözləri" və digər əsərlər bu gün faydalandığımız dəyərli kitablar sırasındadır.

Qərbi Azərbaycan ərazisində mövcud olan yer-yurd adlarının öyrənilməsi bütövlükdə Azərbaycan onomastikası üçün əhəmiyyətli işlər aparılmasına səbəb olacaqdır. Onomastik vahidlər içərisində öz yeri olan toponimlər xalqımızın milli sərvətidir. Xalqımızın uzaq keçmişini özündə yaşadan toponimlər milli adlarımızın təsdiqidir. Akademik Budaq Budaqov qeyd edirdi ki, "Toponimika dilçilik elmindən kənar – lal, tarixsiz – köksüz, coğrafiyasız – məkansız olardı" [3, s.101].

Toponimlərin etimoloji cəhətdən araşdırılması daim aktual olmuşdur. Qərbi Azərbaycan ərazisindəki

toponimlərin araşdırılması nəticəsində sübuta yetirilir ki, bura qədim türklərin yaşayış məskəni olmuşdur. Ermənilər isə əzəli-əbədi torpaqlarımızın adlarını daim düşmən mövqedə dayanaraq qərəzli şəkildə saxtalaşdırmağa çalışmışlar. Bu da o məqsədə xidmət edir ki, qədim yurd yerlərimizin onlara məxsus olduğunu dünyaya sübut edə bilsinlər. Bu, tamamilə kökündən yanlış fikirdir, boş xülyadır.

Bəllidir ki, folklor da bir tarixdir. Buna görə də bayatılarımızda, xalq mahnılarımızda, əfsanə və rəvayətlərimizdə və digər folklor mətnlərində işlənən qədim yurd adımız İrəvan sözünə diqqət edək:

*Onnan sora bibimgil **İrəvan**da qalıbdı. Sonradan 48-dəmi, 49-damı ordan göndəriblər. 48-də bir dəhmərriyiblər, 62-də bir dəhmərriyiblər. 62-də gəldilər. Onnar öz xoşuna gəliblər? Onnarın çoxdannan planı vardı ki, **İrəvan**ı təmizdiyəy... Bu ermənilər sonradan gəlmədi ora. Oralar hamısı bizim yer-yurt oluf [6, s.212].*

Atam 1901-ci ildə anadan olandı. 1905-ci il yadına gəlirdi. 1988-dəki hamımızın yadındadı. Bizim azərbaycannıları ermənilər öz vətənimizdən, öz İrəvanımızdan, öz ölkəmizdən – Dərələyəzdən, Vedidən, Göyçədən qıra-qıra, qavalıya-qavalıya çıxartdılar [6, s.257].

İrəvan toponimi Azərbaycan dilinin qayda-qanunlarına tabe olan, bu qaydalarla əhatələnmiş sözdür. İrəvan toponimi qədim Azərbaycan torpaqlarında formalaşaraq inkişaf etmişdir. Şəhərin adı 1936-cı ilə qədər Erivan // İrəvan, sonradan isə Erevan // Yerevan adlandırılmışdır. Qədim türk torpaqları olan indiki Ermənistanın əhalisi azərbaycanlılardan ibarət olmuşdur. İrəvanın 9 minlik əhalisinin 7 mindən çoxu azərbaycanlı olmuşdur. Bu səbəbdən də ərazinin toponimləri türk mənşəli toponimlərdən ibarətdir. Ermənilər isə daim bu toponimləri saxtalaşdırmağa çalışmışlar. Bu toponimlərin öyrənilməsi hadisə və prosesləri ardıcıl izləməyə imkan yaradır. Bu toponim barəsində Budaq Budaqov, Qiyasəddin Qeybullayev, Vilayət Əliyev, İbrahim Bayramov və digər alimlərimiz fikirlər yürütmüşlər. Budaq Budaqov və Qiyasəddin Qeybullayev İrəvan toponimi haqqında yazmışlar: "İrəvan – Ermənistanın indiki paytaxtının adı. VI-VII əsrlərdən məlumdur. Onun guya Urartu mənbələrində adı çəkilən Yerebuni qalasının adından ibarət olması uydurmadır. Toponim türk dillərində *ir, er* "dağın gündüşən tərəfi", "dalğavarı dağ zirvəsi", farsca *van* "yer" sözlərindən ibarətdir. Adın Yerevan forması İrəvan adının ermənicə yazılışıdır. İrəvan adı ermənicə Erivan kimi tələffüz olunduğuna və qədim erməni dilində "e" səsindən əvvəl "y" səsinin əlavəsi və bu səsin "ye" kimi oxunması qaydasına görə oxunmasına görə toponim Yerevan formasındadır. V.Aslanov bu toponimin "ir" və "van" hissələrindən təşkil olunduğunu göstərir və yazır ki, ir, ur // or sözlərinin fonetik variantıdır. Oravan –"yolların birləşdiyi yer", "şəhər" yaxud "icma mərkəzi", daha dəqiq desək, yol tanrısına tapınan icmaların mərkəzi, (şəhər). Yerevan (İrəvan) toponimi Oravan sözünün fonetik variantı olduğundan türk mənşəlidir [1, s.89].

Qərbi Azərbaycanda bir sıra toponimlər haqqında və bu toponim haqqında İbrahim Bayramovun geniş elmi araşdırmaları da maraq doğurur. İbrahim Bayramov yazır ki, ermənilərin uydurduqları, əsl həqiqətdən çox-çox uzaq olan bu fikirlərlə razılaşmaq olmaz. Çünki bunlar tarixi həqiqətlərə kölgə salmaqla yanaşı, onu saxtalaşdırır [2, s.140].

Vilayət Əliyev İrəvan toponiminin Erebuni sözündən olduğunu qeyd edir [4, 35]. İsmayıl Kazımov isə bu toponimin quruluşca "ir" "er" sözü və *van* yer, məkan anlamında apelyativdən ibarət olduğunu, "ərlər, igidlər ölkəsi" mənasını bildirdiyini yazır. Alim qeyd edir ki, "İrəvan" toponiminin türk mənşəli olmasını şəhər ətrafı yaşayış məntəqələrinin, su hövzələrinin adları da təsdiqləyir. "İrəvan" toponimi mənsub olduğu xalqın və dilin – Azərbaycan dilinin tarixi fonetik qanunlarına uyğun formalaşmışdır [5, s.80-87]. Bəlli olduğu kimi, İrəvan ərazisində Qıpçaq kəndi mövcud olmuşdur. Kəndin yaxınlığında Qıpçaq dağı, Qıpçaq düzü, Qıpçaq qalası var idi. Bu onomastik vahidlər "Dədə Qorqud" dastanında olan Qıpçaq Məlik antroponimi ilə səsləşir. Qıpçaq sözü Mahmud Kaşğarinin lüğətində qeydə alınmışdır, Orxon-Yenisey abidələrində, oğuznamələrdə də müşahidə edilir. Bir sözlə, qıpçaqlar Azərbaycan, eləcə də digər türk xalqlarının – qazax, qırğız, özbək və digərlərinin etnogenezində əhəmiyyət kəsb edir.

İrəvan ərazisində Qaraman kalafası kəndi mövcud olmuşdur. Kənd yıxılsa, kalafasından məlum olar – atalar sözü işlənir ki, kalafa sözünün "dağıntı" anlamını verdiyi aydın olur. Qaraman etnonimi qədim türk tayfalarından birinin qoludur. Bu gün Yevlax rayonu ərazisində də Qaramanlı kəndi vardır. Eləcə də digər rayonlarımızda bu toponimin işləndiyi yer adlarına rast gəlmək mümkündür.

İrəvan toponimi haqqında bir sıra alimlər, səyyahlar məlumat vermişlər. Aydın olur ki, ermənilər bu toponimləri daim saxtalaşdırmağa çalışmışlar. Əslində burada eramızdan əvvəl qədim türk tayfaları yaşamışlar və bu yerin əzəli sakinləri olmuşlar. O səbəbdən burada mövcud toponimlərin çoxu etnotoponimlərdir və türk mənşəli sözlərdən ibarətdir. Etnotoponimləri tədqiq etməklə türk tayfalarının etnogenezini öyrənmək mümkündür. Toponimlərin yaranmasında etnos adları əksəriyyət təşkil edir və böyük rol oynayır. Bu istiqamətdə araşdırmalar apararkən həm tarixçilərin, həm coğrafiyaşünasların, həm dilçilərin tədqiqatlarını nəzərdən keçirərək ümumi nəticə çıxarmaq gərəkdir. Qara Məşədiyev yazır ki, "etnogenez problemi o qədər mürəkkəb və coxcəhətlidir ki, onun həllində təkcə müəyyən elm sahəsinə mənsub mənbələrə istinad etmək

mümkün deyil, bəzi hallarda hətta çətindir. Lakin burası aydındır ki, ayrı-ayrı tayfalar və tayfa birləşmələri xalqların yaranmasında çox böyük rol oynamışdır. Həm də xalq heç də tayfaların sadəcə yekcins birləşməsi deyil, müxtəlif etnik tərkibli tayfaların tarix boyu qaynayıb qarışmasından ibarətdir. Əlbəttə, qonşu xalqlar və xüsusilə tarix boyu mövcud olmuş müxtəlif etnik tərkibli tayfa birləşmələri ilə hərtərəfli etnogenetik və tarixi-mədəni əlaqələrini nəzərə almadan azərbaycanlıların və xüsusilə Azərbaycan dilinin mənşəyi məsələsini həll etmək olmaz. Bu əlaqələr isə müəyyən qədər məhz toponimik tədqiqat nəticəsində aydınlaşdırıla bilər. Çünki toponimik vahidlər bu prosesi özündə əks etdirir [7, s.22].

Bu gün Qərbi Azərbaycan ərazisində azərbaycanlıların yaşamadığı səbəbindən toponimlərin işlədilməsi də passivdir. Buna görə də xalq yaddaşında olan folklor nümunələri gecikdirilmədən yazıya alınmalı, dil faktları – dilin xarakterik xüsusiyyətlərini daşıyan toponimlər gələcək nəsillərə ötürülməlidir. Çap edilmiş "Qərbi Azərbaycan folkloru" kitabında qeydə alınmış yer-yurd adlarına diqqət edək:

Elə güjdü ziyarət imiş, bibimin qaynatasının – Ağbal ağanın ziyarəti. Ağır seyid idi. ***Şiraz***dılı idi (6, s.90); ***Göyçə***də ən yaxşı gün dördüncü gün idi. Şəkidə onun əksidi. 4-cü günü burda yas mərasimi eliyillər [6, s.111]; Yuxularda ***Göyçə***də dağa çıxıram. Dağa çıxmax yaxşıdı dana [6, s.146]; ***Cəyirli*** kəndində atamnan Adəm bir yerdə işdiyirdilər. Adəm Cəyirli kəndində havalanmışdı. Gecə yatan kimi deyir, gördüm toy qapıya gəldi. Çalırlar bir nəfər də qız. Deyir, mən bu qıza vurulmuşam, özü də erməni qızıdı. Ounuya-Oynuya gedirəm. Bir vaxt ayılıram ki, ***Çayqaraqoyunnu***nun qəbiristənniyindəyəm [6, s.174]; ***Abaran*** deyilən yerdə böyüy əriy bağları olub. ***Əşdərəy***in qozu adnan olubdu [6, s.180]; 45 ildi burdayıq. Valla, ***Dərələyəz***də aş dəmliyirdiy bayramlarda! Əyirdəy bişirirdiy o vaxdı. Xəmir yoğururdular, sacdarı qoyurdular ocağın üsdünə, yağı da tökürdülər. O xəmirdən kəsib, darağ varıydı, yun darıyan darağ, onnan forma verirdilər. Orda, qızardırdılar xəmirrəri. Əyirdəy balaca olurdu [6, s.181]; Kinoda var e, Rəsul – nənəmizin qardaşı olub. Ata nənəmizin. ***Vedi*** rayonunun ***Avşar*** kəndindəndi o [6, s.197]; ***Göyçə***nin taxılını Naxçıvana, ***Dərələyəz***ə daşıyırdılar [6, 198]; Bizim camahatı ordan qovublar – ***Təpəbaşı***nnan. Nənəm deyirdi ki, ***Ələyəz*** tərəfdə, orda yeylağa çıxırmışdar ***Ağrı dağı***na. İndi Ararat deyillər, ama Arğıdı adı. Ələyəz dağında biz yeylağa çıxırdıx [6, s.199]; ***Çınqıllıx*** adında yer oluf. Lətif dayı deyirdi, rəhmətdiy. Ora çınqıllıxdı, hündür yerdi. Gələni qırıflar bunnar (ermənilər – N.H.) [6, s.200]; Orda ***Qızılölən*** kəndi var. Qızılölənnəndi o Səfərgil. Onnar köhnə qaşqındılar, 1915-də gələnnərdi. Orda Uşunun ətrafında kənddər olub. ***Tarp***ıdı, nə bilim, ***Quldərviş***di, ***Əştərəy***di, Əştərəy rayonumuzun adıdı. ***Üşkilsə***yə də yaxın olub [6, s.200]; Mənim babam olub, babamın dayısı, onun ləqəbi ***ibiş***li Yekəbaş Söyünmüş. Nənəm deyirdi ki, 17 havaya oynuyurdu, ən yaxşı oynadığı "Sarı gəlin"iydi [6, s.213]; Bizim rayon oluf ***Dərəçiçəy*** rayonu, kəndimizin adı oluf ***Qızılgül*** kəndi. Göyçə gölünə yaxın yeriydi. Yadımda belə qalıf. Atam danışıf [6, s.223]; 42 bulax var idi kənddə. ***Kəvşən***də yüz cürə ot yeməli ot var idi. Böyün aparalar, böyün gedərəm o uçux evə [6, s.225]; Bizim kənd, 3 kənd, 1 sovetliy idi: ***Yarpızdı, Qızılvəng, Yuxarı Zağalı.*** İdarə ortada – Qızılvıngdə idi [6, s.228]; Axşam maşın tutub getmişiy ***Basarkeçər***ə. Düz evə da. Veşimiz qalıb axı [6, s.228]; Bizim tayfanın adı ***Tapannı*** oluf. Əkən-piçən oluflar [6, s.257] və s.

Bəlli olduğu kimi, "kiçik bir qrup insanlara məlum olan mikrotoponimlərdə dilimizin bir çox qatlarındakı leksik vahidlər, şivə xüsusiyyətləri, yerli coğrafi terminlər və müəyyən tarixi hadisələr öz ilkin formasını qoruyub saxlayır. Strateji əhəmiyyəti çox böyük olan hərbi-topoqrafik xəritələrdə bu ünvanlar öz dəqiqliyini, qədimliyini daha daha yaxşı mühafizə edib saxlayır. Bunun başlıca səbəbi müharibə zamanı hər daşın, hər yolun, hər dağın böyük əhəmiyyəti ilə bağlıdır. Mikrotoponimlərdə işlənən coğrafi terminlər həmişə öz həqiqi mənalarında işlənir və relyefi düzgün əks etdirir. Xırman yeri, Ballı qaya, Şiş qaya, Çuxur yer, Pirin dalı və s." [8, s.53].

Yer-yurd adlarının bir hissəsini antroponimlərdən yaranan mikrotoponimlər təşkil edir. Yurd sözü "Dədə Qorqud" dastanında da işlənmişdir: Gördilər kim uçarda quzğun qalmış, tazı tolaşmış, yurtda qalmış; Oğuz genə əyyamda gəlüb, yurdına qondı; Qaraca Çoban zərb eylədi, qaba ağacı yerilə-yurdilə qapardı, arxasına aldı, Qazanın ardına düşdi.

Folklor nümunələrimizdə çox müşahidə etdiyimiz yer adlarından olan Ələyəz sözünə diqqəti yönəldək:

Ələyəzin ucunnan,
Bir nar götdüm xurcunnan.
Qardaş məni yad etdi,
Bir arvadın ucunnan [6, s.345].
Ələyəz, Ələyəz budumu?
Arxı dolu sudumu?
Ələyəzə gözəl deyiblər,
Qız-gəlini budumu? [6, s.345]

Ələyəz kənd adıdır. Dərələyəzin ən qədim yurd yerlərindən biridir. Həsən Mirzəyev Ələyəz dağının ətəklərində 5-6 yaşayış məntəqəsinin, çayın olmasını da göstərir ki, bu tayfa adıdır. Alim daha sonra bildirir ki, Ələyəz sözündə "ala" sözü "ələ" dormasına düşmüşdür. Məlum olduğu kimi, Cənub dialektində, o cümlədən İrəvan quberniyasında "a" səsi çox vaxt "ə" formasında işlənir. Qara-qərə, qardaş-qərdəş. Görünür, bu faktor da "a" səsinin"ə" kimi tələffüz edilməsinə təsir etmişdir.

"Ələyəz" sözünün birinci hissəsindəki Ələ-Ala sözü yüksək mənasını bildirir, ikinci hissəsi isə yəz, qəz, ğuz, uz, kas, xəz formalarına düşən Alaqaz-Alağaz-Ələyəz-Ələquz-Ələoğuz tayfa adıdır [8, s.536].

Göründüyü kimi, "faktlar göstərir ki, ayrı-ayrı bölgələr və bu bölgələrə məxsus dialekt və şivələr onomastik vahidlər üçün tükənməz xəzinədir. Burada qəbilə, tayfa, sülalə, xalq, yer, şəxs (tarixi və mifoloji), abidə və sairəyə verilən adlar çox yaxşı mühafizi olunub saxlanılır, nəsildən-nəslə ötürülür. Bu onomastik vahidlərin köməyi ilə yaddaşlardan silinən, köhnəlib işləklikdən düşən, forma və quruluşunu dəyişən sözləri yada salmaq, sirri açılmayan bir çox xüsusi adların sirrini açmaq, Azərbaycan xalqının tarixən hansı ərazilərdə yaşamasına, hansı xalq və ölkələrdə siyasi-iqtisadi əlaqədə olmasına dair çoxlu faktları üzə çıxarmaq mümkündür [8, s.40].

Bu gün Qərbi Azərbaycan torpaqlarında nankor qonşular ucbatından azərbaycanlılar yaşamadığı üçün bir sıra toponimlər, xüsusən də mikrotoponimlər aktiv işlədilmir. Onların işləkliyinə çalışmaq, toplamaq, yazıya almaq, etimologiyasını araşdırmaq nəinki alimlərin, ziyalıların, hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Qərbi Azərbaycan toponimlərini dərindən araşdırmalı, dünya ictimaiyyətinə çatdırmalı, dədə-baba torpaqlarımızın qədim adlarına yönəldilən soyqırımın qarşısını almalıyıq.

ƏDƏBİYYAT

1. Aslanov, V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər. I, Bakı: 2002.
2. Bayramov, İ. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2005. İsmayıloğlu, C. Yerevan sözünün etimologiyası. Ədəbiyyat və İncəsənət, 22 iyun 1990.
3. Budaqov, B. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı: APİ nəşri, 1986.
4. Əliyev, V. Azərbaycan toponimiyası (dərs vəsaiti). Bakı: ADPU, 1999.
5. Kazımov, İ. İrəvan toponiminin etimologiyası. Qərbi Azərbaycan toponimlərinin leksik-semantik xüsusiyyətləri. Bakı: Optimist, 2023, 212 s.
6. Qərbi Azərbaycan folkloru. I cild. Bakı: 2023.
7. Məşədiyev, Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 1990.
8. Mirzəyev, H. Azərbaycan toponimləri və şivə sözləri. 3-cü kitab. Bakı: Elm, 2006, 536 s.
9. Zəngəzur folklor örnəkləri. II cild. Bakı: Elm və təhsil, 2022, 432 s.

ABSTRACT

Nigar HASANOVA

TOPONYMS IN WESTERN AZERBAIJANI FOLKLORE

On the territory of Western Azerbaijan, the local community, the Turkic-speaking population, were consistently deported from our ancient homeland and subjected to genocide. The end of the 44- day war, the victory of our struggle for justice, the restoration of historical justice created high spirits and confidence in our people on the day when we return to Western Azerbaijan. Our people are looking forward to the day when they will return to their eternal land. The study of toponyms is a significant fact for proving historical truths. Budag Budagov, Giyasaddin Geybullayev, Afad Gurbanov, Hasan Mirzaev, Ibrahim Bayramov and other scientists studied place names in Western Azerbaijan in various aspects. In the article, we considered it important to focus on the study of our folklore, the folklore of Western Azerbaijan, which is one of the most pressing issues today. To do this, we turned to the tapes we collected during conversations with residents of this region, and to the book "Folklore of Western Azerbaijan" published by our Institute, collected from residents of Western Azerbaijan. From this point of view, we have tried to once again take a look at some of our countless ancient place names recorded in folklore texts spoken by ancient people and study some of them from an etymological point of view. In conclusion, we will say that we must deeply study the toponyms of Western Azerbaijan, bring them to the world community, and prevent genocide directed against the ancient names of the lands of our ancestors.

Keywords: *Western Azerbaijan, Iravan, folklore, linguistics, toponymy, ethnonym*

QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN SÖZLƏRİN MAHMUD KAŞĞARİNİN "DİVANİ-LÜĞƏT-İT-TÜRK" ƏSƏRİNDƏ İZLƏRİ

Almaz BƏDƏLOVA
Azərbaycan Dillər Universiteti

XÜLASƏ

Məqalədə Mahmud al-Kashgari tərəfindən qələmə alınmış Divanü Lügati't-Türk əsərində Qərbi Azərbaycan şivələrində işlənən sözlərin izləri araşdırılır. Müəllif qeyd edir ki, "Divan" yalnız ilk türk dilləri lüğəti deyil, həm də türk xalqlarının dili, tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında zəngin məlumat verən mühüm ensiklopedik mənbədir. Tədqiqatda Qərbi Azərbaycan şivələrinin qədim türk leksikasını qoruyub saxladığı vurğulanır və bu baxımdan dialekt materiallarının tarixi dilçilik üçün xüsusi əhəmiyyət daşıdığı göstərilir. Məqalədə "anarı", "ayama", "böyür", "çalma", "çanax" kimi sözlərin semantik və fonetik xüsusiyyətləri müqayisəli şəkildə təhlil olunur, onların qədim türk yazılı abidələri, xüsusilə "Divanü Lüğət-it-Türk", "Kitabi-Dədə Qorqud" və Orxon-Yenisey abidələri ilə əlaqələri müəyyənləşdirilir. Araşdırma nəticəsində məlum olur ki, Qərbi Azərbaycan şivələrində qorunan bir sıra leksik vahidlər qədim türk dillərinin davamı kimi bu günə qədər yaşamaqdadır. Məqalə Qərbi Azərbaycan şivələrinin türk dillərinin tarixi inkişafının və etnik-mədəni yaddaşının öyrənilməsində mühüm mənbə olduğunu elmi əsaslarla təqdim edir.

Açar sözlər: *Qərbi Azərbaycan şivələri, Mahmud Kaşğari, Divani-Lüğət-it-Türk, dialektologiya, qədim türk leksikası, Azərbaycan dialektləri*

Orta əsr türkdilli yazılı abidələrdən biri olan "Divani-lüğət-it-türk" əsəri dahi türk dilçisi və ensiklopedisti M.Kaşğarlının bizə miras qoyduğu dəyərli ensiklopedik mənbədir. Ərəblərə türkcə öyrətmək, türk dilinin yayılmasını təmin etmək üçün yazılmış əsər türk dillərinin ilk lüğəti hesab edilir. Lüğət, həmçinin dünya dilçilik elminin ən qədim nümunəsidir. Belə ki, dilçiliyin elə bir sahəsi yoxdur ki, tədqiqatçılar "Divan"ı araşdırmasın, ona əsaslanıb, ondan yararlanmasın. M.Kaşğarlı "Lüğət"də türk xalqlarının məskunlaşdığı ərazini, adətlərini, milli-mənəvi dəyərlərini, etnik xüsusiyyətlərini təsvir etmiş, bu xalqların leksikasının zənginliyini xüsusi vurğulamışdır. Bu barədə əsərin Azərbaycan türkcəsinə tərcümə edilməsinə təşəbbüs edən, onun ərsəyə gəlməsində böyük zəhməti və əziyyəti olan tanınmış türkoloq Ramiz Əskər yazır ki, "DLT universal bir əsər kimi bütün qrup, dil və ləhcələrin fövqündə dayanan, onların arasında heç bir fərq qoymadan təxminən hamısını əhatə edən və özündə cəmləşdirən son dərəcə zəngin xəzinədir. Əsərdə min il bundan əvvəlki türklüyün bütün xüsusiyyətləri–başda dili və ədəbiyyatı olmaqla türkün tarixi, coğrafiyası, mədəniyyəti, iqtisadiyyatı, mənəvi-milli dəyərləri, psixologiyası, dünyagörüşü, həyat tərzi, adət və ənənələri, ailə, qohumluq, qonşuluq və ümumən, sosial münasibətləri, geyimi, silahları, mətbəxi, oyunları, əyləncəsi, bir sözlə, hər şeyi ideal şəkildə öz əksini tapmışdır. Mükəmməl məlumat və biliklər toplusu yaratmaq sahəsində Mahmud Kaşğari Qərbin Didro, Monteskyö, Volter və Russo kimi maarifçi-ensiklopedistlərini 7 əsr qabaqlamışdır. "Divan"ın digər ən mühüm özəlliyi dünya dilçiliyi tarixində müqayisəli metodun əsasını qoyması, türk dillərinin müqayisəli qrammatikasını yaratması və zəngin türk dilini köklü ərəb dili ilə qarşılaşdırmaq surətilə bu iki dilin müqayisəsini aparmasıdır" [1, s.3-4]. Bu da onu deməyə əsas verir ki, "Divan" türk tayfalarının dil-ləhcə fərqlərini, yayılma areallarını, həyat tərzini, tarixini, mifologiyasını, folklorunu, mədəniyyətini öyrənməyə imkan verir. Hətta dahi türk dilçisi M.Kaşğari özü bu barədə yazır: "Mahmud ibn əl Hüseyn ibn Məhəmməd" deyir: Allah-təala dövlət günəşini türklərin burclarında parlatdı; hökmranlıqları ilə fələklərin çarxını dolandırdı, onları türk adlandırdı, ölkə hakimliyini onlara tapşırdı, zəmanə padşahlarını onlardan yetirdi, dünya xalqlarının idarəsini onların əllərinə tapşırdı, onları hamıya ağa etdi və doğruluqda möhkəmləşdirdi. Onlarla yaxın olanları, onlarla birgə çalışanları əziz tutdu, bunlar onların sayəsində bütün arzularına çatdılar və pis adamların şərrindən qorundular. Buna görə də onların oxlarından salamat qalmaq üçün ağıllı adamlar onlara tabe olmalıdır. Bunun üçün ən yaxşı vasitə, onların öz dillərilə danışmaqdır, çünki onlar, öz dilləri ilə danışan adama diqqətlə qulaq asırlar və ona qarşı rəhmdil olurlar. Əgər biri onlara sığınarsa, onu öz tayfalarından sayıb onu öz tayfalarının təhlükəsindən qoruyarlar; bununla birgə gələnlər də qoruna bilir" [2, s.55].

A.N.Kononov Mahmud Kaşğarinin "Divan"ını müxtəlif türk xalqlarının tarixi, etnoqrafiyası, etnik tərkibi, dili, dini mənsubiyyəti, folkloru, coğrafiyası haqqında zəngin məlumat verən bir xəzinə adlandırmışdır [3, s.17]. Bu lüğət dialektoloji tədqiqatlar üçün qiymətli mənbədir. M.Şirəliyev haqlı olaraq, M.Kaşğarlını dialektoloq adlandıraraq bu əsəri də türk dillərinin dialektoloji lüğəti adlandırır [4, s.29]. Böyük türkoloq türk

dilərinin dialekt və şivə məsələrinə də əsaslı şəkildə toxunur. Belə ki, onun "Uyğurların dili saf türkcədir, lakin öz aralarında danışdıqlan zaman istədikləri bir ləhcələri də var" [5, s.103; 6, s.29] və "Comul boyunun çöl xalqı ayrı dilə sahibdir. Türkcəni yaxşı bilirlər. Kay, yabaku, tatar, basmıl boyları da belədir. Hər boyun fərqli ləhcəsi vardır; bununla yanaşı, türkcə də yaxşı danışırlar" [6. s. 29-30]- deməsi bu dillərin müxtəlif dialekt və şivə xüsusiyyətləri olduğunu göstərir [7, s.56].

"Divan"da 9000 minə yazın sözün etimoloji izahının verilməsi həm müasir Azərbaycan dili, həm də dialekt arealı üçün səciyyəvi olan leksikasının müəyyənləməsinə öz töhfəsini verir. Bu gün Azərbaycan dilçiliyində dialekt və şivələrin istər ümumi, istərsə də regional aspektdə araşdırılması Azərbaycan dilinin tarixi leksikasının linqvistik aspekdən öyrənilməsində olduqca əhəmiyyətlidir. Dil tarixi baxımından aktual və zəngin material olan dialekt və şivələrin əsaslı şəkildə tədqiqi bir sıra dil məsələlərin dərin qatlarının aydınlanmasında, etnik kimliyin ortaya çıxmasında olduqca vacib məsələlərdəndir. Baxmayaraq ki, dilin sürətli inkişaf mərhələsi dialekt və şivələrin arxaik fona keçməsinə zəmin yaradır, ancaq tarixi və linqvistik aspektdən aparılan araşdırma dialekt və şivələrdə yatan gizli məqamları aşkara çıxartmaqda xüsusi dərəcədə əhəmiyyətlidir. E.Əzizov yazır: "Azərbaycan dilinin dialekt leksikasının mühüm bir hissəsini arxaik sözlər təşkil edir. Dialekt leksikasında arxaik sözlər deyərkən biz vaxtilə Azərbaycan yazılı abidələrində işlənmiş, sonradan isə ədəbi dilimiz üçün arxaikləşmiş, lakin şivələrin lüğət tərkibində saxlanmış sözləri nəzərdə tuturuq. Məlumdur ki, arxaizm adlandırılan bu və ya digər sözün konkret bir dilin əvvəlki dövrlərinə aid yazılı mənbələrində işlənməsi əsas şərtdir. Müəyyən bir sözün yazılı abidələrdə işlənməsi həmin sözün qədimliyinə, müasir şivələrdə işlənməsi isə bu sözün tarixən Azərbaycan dilinə mənsubluğuna dəlalət edir " [8, s.222-223].

Tarix və linqvistika elmi vasitəsilə biz şivələrin yaranma yollarını, əsas xüsusiyyətlərini (fonetikasını, leksikasını, morfologiyasını, sintaksisini), areallarını, paralellərini, mənsub oduğu etnosun məşğuliyyətini, adət-ənənələrini müəyyənləşdirib tarixin dərin qatlarına enə bilərik. Məhz Azərbaycan dilinin dialekt və şivələrinin leksikasından məlum olur ki, qədim türk sözləri ədəbi dillə yanaşı, dialektlərdə də çoxluq təşkil edir və yaşayır. Dialekt leksikasının zənginləşməsinə xidmət edən bu sözlərin araşdırılması ərazinin etnik mənsubiyyətinin müəyyənləşdirilməsinə də xidmət edir. Bu baxımdan Qərbi Azərbaycan şivələrinin leksikasının tarixi linqvistik xüsusiyyətlərinin araşdırılması olduqca aktual olub tarixi faktlarla zəngindir.

Bildiyimiz kimi, Qərbi Azərbaycan şivələrində zəngin türk qatı mühafizə olunur. Məhz ərazinin leksikasının tədqiqi, türk xalqlarının mədəniyyəti və sosial həyatı, türk dillərinin tarixi inkişafı, leksik vahidlərin fonetik, leksik, morfoloji, sintaktik xüsusiyyətləri haqqında dəyərli məlumatlar əldə etməyə imkan verir. Erkən dövr mətnlərindən olan "Divanü Lüğat-it-Türk" əsəri də Qərbi Azərbaycan şivələrində qədim türk sözlərinin mənası və istifadəsi haqqında ətraflı məlumat əldə etmək üçün qədim və əvəzsiz mənbədir.

Ə.Tanrıverdi vurğulayır ki, "Divan"dakı sözlərin xeyli hissəsi fonetik, semantik dəyişiklikliyə uğramadan müasir Azərbaycan ədəbi dilinə, bir hissəsi Azərbaycan dilinin qərb şivələrində ilkin forma və semantikasına uyğun formada işlənir [9, s.40-41]. Bu da onu deməyə əsas verir ki, Qərbi Azərbaycan şivələri də qərb qrup ləhçəsinə aid olduğuna görə qədim mənbədə Qərbi Azərbaycan şivələrinin izlərini araşdırmaq dilin dərin köklərini öyrənməyə imkan yaradacaq. Bu haqda M.Hüseynova qeyd edir ki, lüğətdə fonetik, morfoloji, leksik-semantik resurslar üzrə söz qatlarına rast gəlmək mümkündür. Hətta bu dialektizmlərin bəziləri Azərbaycan dilinin bir sıra şivələrində hazırda özlərini qoruyub saxlamışdır [18, s.115].

M.Kaşğarlının "Divanü Lüğat-it-Türk" əsərində Qərbi Azərbaycan şivələrinin izlərini müəyyən etmək üçün, əsərin dil və leksik xüsusiyyətlərinə diqqət yetirmək lazımdır. Aşağıda "Divanü-lüğəti-it-türk" əsərində də qeydə alınan bir neçə Qərbi Azərbaycan şivələri nümunəsini tədqiqata cəlb etmişik.

Anarı. Bu söz "o tərəf, o yan" mənasını bildirir [13, s. 28]. M.Kaşğarlıda bu sözü "anqar" kimi qeyd edilib və mənası "ona" deməkdir [12, s.35]. Onu da qeyd edək ki, "Orxon Yenisey" abidələrində "aŋar, aŋaru" sözlərinə rast gəlinir ki, onun da mənası "ona doğru"dur [14, s.123]. Leksik vahidin izlərinə "Kitabi-Dədə Qorqud"da təsadüf edilir. Bu barədə Ə.Tanriverdi göstərir ki, "o tərəfə" anlamlı "Aŋaru" sözü "Dastan"da az işlənən vahidlərdəndir (urur, yönin aŋaru sağrısın ərinə döndürür). K.Ramazanov göstərir ki, şivələrimizin əksəriyyəti üçün səciyyəvi olan o tərəf, o yan anlamlı, "aŋrı" sözü qərb ləhcəsində aŋrı//aŋara//aŋırı fonetik variantlarında işlənməkdədir. Qərb ləhcəsində "anrı" sözünün tərəf sözü ilə yanaşı, işlənməsinə də təsadüf edilir. Məsələn, "Aŋrı tərəflər bizimdi". Şivələrimizdəki "aŋrı" sözü barədə R.Rüstəmov yazır: "Qərb qrupu dialekt və şivələrində aŋrı işarə əvəzliyi daha çox işlənir ki, bu da o (bu) mənasını ifadə edir". Göründüyü kimi, müəllif daha çox qərb ləhcəsi üçün səciyyəvi olan "aŋrı" sözünü işarə əvəzliyi hesab edir. "Kitabi-Dədə Qorqud"un "İzahlı lüğəti"ndə də "aŋaru" sözü əvəzlik kimi verilmişdir [15, s.230-231]. Qədim türk sözləri lüğətində də "aŋaru" leksik vahidi "ol" əvəzliyi formasında öz əksini tapmışdır [16, s.46]. Bildiyimiz kimi, qədim yazılı abidələrdə "ol" formasında işlənən işarə əvəzliyi müasir ədəbi dildə "o" şəklində işlənir. Nəticə

etibarilə, düşünürük ki, "anqar, aŋar, aŋaru, aŋrı" vahidləri anarı sözünün başqa fonetik varintıdır. Qərbi Azərbaycanın Ağbaba şivəsində "anarı", Cəmbərək şivəsində "aŋarı, aŋqrı" (velyar n səsi ilə) formasında işlənir [10, s.44-45]. Ədəbi dil üçün arxaikləşmiş "anarı" leksik vahidi Azərbaycanın Gəncə, Tovuz, Qazax, Şəmkir rayonları şivələrində də "aŋarı, aŋrı" şəklində rast gəlinərək "o yan, o tərəf, o biri tərəf, kənar" mənalarını ifadə edir [11,s.24]. Tədqiqat zamanı bu söz "aŋarı-bəri, aŋqrı-bəri" kimi sözlərdə də mühafizə olunur və "o tərəf-bu tərəf, ora-bura" mənasını bildirir [13,s.28; 10, 44-45]. Lakin bu leksem Gəncə, Tovuz şivələrində "aŋarı-bəri, aŋrı-bəri" sözlərində işlənərək "xırda-xuruş, şey-şüy" mənasındadır: "Uşaqlara bir az aŋrı-bəri almışam" [11, s.24]. Yanız Gəncə şivəsində "aŋarı-bəri danışmaq" ifadəsi işlənir ki, o da "hərzə-hərzə danışmaq" deməkdir [11, s.24].

Ayama. "DLT"-də rast gəlinən vahidlərdən biridir. Bu söz lüğətdə "ayağ", "ayamaq" formalarında rast gəlinir. Mənası "ləqəb, taxma ad, ləqəb vermək, qorumaq" deməkdir [18]. "Kitabi-Dədə Qorqud" dastanında "ayama" sözünün istifadə edilməsinə dair nümunələrə təsadüf edilir. Məsələn, dastanda belə bir ifadəyə rast gələ bilərik: "Qazan Beg ayama Qazan xan deyü aygır ərən" [17]. "Ayama" sözü, qədim türk dilində və "Kitabi-Dədə Qorqud" dastanında, adətən, şəxslərə verilən xüsusi adlar, ləqəblər və ya titullar üçün istifadə edilən bir ifadədir. Bu, bir şəxsin xüsusiyyətlərini və ya onun göstərdiyi qəhrəmanlıqları ifadə etmək üçün verilən ad ola bilər. Qədim türk cəmiyyətlərində insanlara verilən adlar və ləqəblər onların cəmiyyət içindəki mövqeyini, şəxsiyyətini və ya göstərdikləri qəhrəmanlıqları əks etdirirdi. "Ayama" sözü də bu cür ləqəb və adların ifadəsi üçün istifadə edilən bir söz olaraq diqqət çəkir. Bu söz Oğuz türklərinin dilində və mədəniyyətində şəxslərə verilən xüsusi adların və ləqəblərin əhəmiyyətini və funksiyasını vurğulayır. Dastanda bu cür sözlərin istifadəsi, qədim türk dillərinin və mədəniyyətinin dərinliklərini başa düşmək üçün əhəmiyyətlidir.

Qərbi Azərbaycanın Dərələyəz mahalı şivəsində işlənir. Eyni zamanda Azərbaycanın Culfa, Naxçıvan, Culfa, Ordubad, Şahbuz, Şərur rayonlarının şivələrində istifadə edildiyini də qeyd etmək olar [11, s.29]. "Ayama" sözü Qərbi Azərbaycanın Çəmbərək, İrəvan şivələrində "ayama-qaxı" vahidinin birinci komponenti olaraq kobud söz, söyüş, şər, böhtan mənasını ifadə edir [13, s.36]. "Ayama" sözü göründüyü kimi, qərb qrupu dialekt və şivələri üçün xarakterik vahiddir.

Böyür. Bu söz "Divan"da "bögür" formasında rast gəlinir və mənası "böyrək" deməkdir [12, s.104]. "Kitabi-Dədə Qorqud" dastanında da qeydə alınmışdır [17, s.318]. Qədim türk sözləri lüğətində də eyni səslənmədə və mənada təsadüf edilir [16, s.116]. "Bögür" sözü, insan bədəninin yan tərəfləri və ya böyrəkləri ifadə etmək üçün istifadə olunur. Bu Oğuz türklərinin fiziki təsvirlərində və bədən hissələrinin təsvirində istifadə edilən bir sözdür. Döyüş və savaş təsvirlərində, qəhrəmanların yaralanmaları və ya zədələnmələri təsvir edilərkən "bögür" sözü işlədilir. Məsələn, ox və ya qılınc yarası alan bir qəhrəmanın yan tərəfinin təsviri zamanı bu söz istifadə oluna bilər. "Bögür" sözü qədim türk dilinin fonetik xüsusiyyətlərini əks etdirir. Sözün tərkibindəki sait və samit səslər, qədim türk dilindəki səslərin müasir türk dillərindəki formaları ilə müqayisə edilə bilər. "Bögür" sözünün etimologiyası, türk dillərində və dialektlərindəki oxşar sözlərin mənşəyi ilə bağlı tədqiqatlar aparmağa imkan verir. Müxtəlif türk dillərindəki bənzər formalar, bu sözün qədim türk dilində geniş istifadə olunduğunu göstərir. İnsanın və heyvanın daxili orqanlarından biri "böyrək" adlanır. Bu leksik vahid Azərbaycan ədəbi dilində "böyrək", özbək dilində isə "büyräk" fonetik tərkiblərində işlənir. Özbək dilində işlənən sözün fonetik variantı Azərbaycan dilinin Şimal qrupu dialekt və şivələri üçün səciyyəvidir [19, s.69].

Qərbi Azərbaycanın Çəmbərək, Qəmərli, Zəngibasar şivələrində işlənən "böyür" sözü "kənar, yan, yaxın, yan tərəf, bədənin böyrək olan tərəfi" mənalarını bildirir [10, s.74]. Araşdırma zamanı aydın olur ki, bu vahid qərb şivələri üçün xarakterikdir.

Çalma. "Divan"da qeydə alınan sözlərdən biridir. "Təzək, gərmə, quru təzək" deməkdir [12, s.128]. Qərbi Azərbaycanın Kalinino rayonu ərazisində işlənərək "yaylıq, baş örtüsü" mənasını bildirir [13, s.83]. Bu söz Azərbaycanın Kəlbəcər, Füzuli, Ağdam, Xocalı, Qazax, Ağdaş, Gədəbəy, Goranmboy, Şəki, Quba, Ordubad rayonlarının şivələrində eyni fonetik səslənmədə rast gəlinsə də, omonimlik xüsusiyyətini daşıyaraq müxtəlif mənaları ifadə edirlər. Belə ki, "çalma" leksemi "suqabı, dəryaz, xəşil, nar, heyva və s. çubuqlarından hazırlanmış böyük süpürgə, baş yaylığı" mənasında işlənir [11, s. 88]. Nəticədə onu deyə bilərik ki, "çalma" vahidi işləkliyi etibarilə geniş dialekt arealına sahibdir.

Çanax. "Divan"da çanak şəklində qeydə alınıb, qab-qacaq (oğuzca); çanax; duzqabı; ağacdan oyulmuş qab" [12, s.129], "kəkələyən, qorxaq, laqeyd" mənalarını ifadə edir [18]. Göründüyü kimi, "çanax" sözü omonimlik xüsusiyyəti daşıyır. Qədim türk sözləri lüğətində "çanaq" şəklində rast gəlinir [16, s.138]. "Çanaq"

sözü Oğuz türklərinin mədəniyyətində yer tutan yemək və içki mədəniyyətini əks etdirir. Qədim dövrlərdə insanlar üçün qab-qacaq əşyaları mühüm əhəmiyyət daşıyırdı, çünki bu əşyalar yalnız qida qəbulunu deyil, həm də sosial və dini mərasimləri əks etdirirdi.

Qərbi Azərbaycanın İrəvan, Vedi, Zəngibasar, Basarkeçər, Kalinino, Dərələyəz, Çəmbərək şivələrində də omonimliyini qoruyub saxlayır. Geniş areallığa sahib olan vahid "qab (pendir düzəltmək üçün istifadə olunan əşya), ölçü qabı, musiqi aləti sazın dairəvi hissəsi" mənalarını bildirir [13, s. 84]. Bu sözə Azərbaycanın Ağdam, Gədəbəy, Laçın, Naxçıvan, Xanlar, Şəki, Zəngilan rayonlarının şivələrində rast gəlinir [10, s.89]. Bu da çanax sözünün geniş areallıq xüsusiyyətinə sahib olduğunu göstərir.

Nəticədə onu qeyd etmək istərdik ki, Qərbi Azərbaycan qədim türk diyarı olub Azərbaycanın ayrılmaz hissədir və Azərbaycan dilinin dialekt və şivələrində xüsusi yeri vardır. Qərbi Azərbaycan şivələri cənub, qərb və qismən şərq ləhcələrinin xüsusiyyətlərini daşıyır. Məhz ərazinin dialektoloji mənzərəsinin kiçik bir hissənin tədqiqata cəlb edilməsi bizə onu deməyə əsas verir ki, qədim yazılı mənbələrdə, xüsusilə də Mahmud Kaşğarlının "Divan"da zəngin leksik qat mövcuddur. Bu qədim türk leksik qatının öyrənilməsi dil tarixi üçün olduqca əhəmiyyətlidir. Çünki dil tarixi bir dilin zamanla necə dəyişdiyini, inkişaf etdiyini və yayıldığını araşdıran bir elm sahəsidir. Eyni zamanda dilin müxtəlif dövrlərdəki vəziyyətini və bu dövrlər arasında necə dəyişikliklər keçirdiyini incələyir. Bu sahə fonetik, morfoloji, sintaktik və leksik dəyişiklikləri öyrənməklə yanaşı, dilin sosial və mədəni kontekstdə necə inkişaf etdiyini də araşdırır. Bu mənada "Divani-lüğət it-türk" əsəri türk dillərinin tarixini və müxtəlif bölgələrdəki şivələrinin xüsusiyyətlərini öyrənmək üçün dəyərli bir qaynaqdır. Qərbi Azərbaycan şivələrində əksini tapan bu tipdən olan leksik vahidlərin izləri, türk dillərinin geniş coğrafiyada yayılmasının və tarixi inkişafının göstəricisidir.

ƏDƏBİYYAT

1. Ramiz Əskər. Dahi türk dilçisi Mahmud Kaşğari. Bakı: Füyüzat, 2020, 176 s.
2. Mahmud Kaşğari. "Divanü lüğat-it-türk"ün Xalid Səid tərcüməsində. 4 cilddə, I cild, Bakı: Elm və təhsil, 2024, s.55.
3. Кононов, А. Н. Изучение, ДйвануЛугйт ит-Турк" Махмуда Кашгарского в СССР // Советская тюркология. 1972.№ 1. с.17.
4. Ширалиев, М.Ш. Махмуд Кашгари как диалектолог//Советская тюркология. №1, Баку: 1972, с.24-30.
5. Mahmud Kaşğari. Divanü lüğat-it-Türk (Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər). I cild. Bakı: Ozan, 2006, 512 s.
6. Divanü Lüğat-it-Türk" Tercümesi (Çeviren Besim Atalav), I cild. Ankara: 1985, 530 s.
7. Quliyeva, Y. Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk əsərində türk dillərinin ümumi mənzərəsi // Dövlət və din, № 10(39) oktyabr, Bakı: 2015, s.54-62.
8. Əzizov, E. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşkili və inkişafı (dərs vəsaiti), Bakı: Bakı Universiteti, 1999, 354 s.
9. Tanrıverdi, Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2017, 538 s.
10. Bayramov, İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı: Elm və təhsil, 2011, 440 s.
11. Azərbaycan dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
12. Mahmud Kaşğari. "Divanü lüğat-it-türk". Dörd cilddə. IV cild (indeks), Bakı: Ozan, 2006, 752 s.
13. Bədəlova, A. Qərbi Azərbaycan şivələri lüğəti. Bakı: ADPU, 2022, 431 s.
14. Rəcəbli, Ə. Qədim türk yazısı abidələrinin dili. I hissə. Bakı: Nurlan, 2006, 648 s.
15. Tanrıverdi, Ə. "Kitabi-Dədə Qorqud"un söz dünyası". Bakı: 2006, 471 s.
16. Древнетюркский словарь. Л., Наука, 1969, 676 стр.
17. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
18. Divan-i Luqat-i it-Türk Dizini ديزينى الترك لغات ديوان Hazırlayan: Türk Dil Kurumu PDFləşdirən: Mehran Bahari – 2003
19. Hüseynova, M. Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri. Bakı: 2022, 241 s.

ABSTRACT

Almaz BƏDƏLOVA

TRACES OF WORDS USED IN WESTERN AZERBAIJANI DIALECTS IN MAHMUD AL-KASHGARI'S "DIVANU LUGHAT-IT-TURK"

The article investigates the traces of words used in Western Azerbaijani dialects in Divanü Lügati't-Türk written by Mahmud al-Kashgari. The author emphasizes that the "Divan" is not only the first dictionary of Turkic languages but also an important encyclopedic source containing extensive information about the language, history, culture, and ethnography of Turkic peoples. The study highlights that Western Azerbaijani dialects preserve a rich layer of ancient Turkic vocabulary, making dialect materials highly valuable for historical linguistics. The lexical items such as "anarı," "ayama," "böyür," "çalma," and "çanax" are comparatively analyzed in terms of their phonetic and semantic features, and their connections with ancient Turkic written monuments, especially Divanü Lügati't-Türk, Book of Dede Korkut, and the Orkhon-Yenisey inscriptions are examined. The research demonstrates that many lexical units preserved in Western Azerbaijani dialects have survived as continuations of ancient Turkic vocabulary. The article concludes that Western Azerbaijani dialects constitute an important linguistic source for studying the historical development of Turkic languages and the preservation of ethnic and cultural memory.

Keywords: *Western Azerbaijani dialects, Mahmud al-Kashgari, Divanü Lügati't-Türk, dialectology, ancient Turkic vocabulary, Azerbaijani dialects*

ORTA ƏSR İRƏVANLI TƏBİBİN ƏSƏRİ ƏLYAZMALAR XƏZİNƏSİNDƏ

Mətanət MURADOVA **Məsmə MAHMUDOVA**
metanet20102010@mail.ru *mahmudova.mesme@mail.ru*
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

XÜLASƏ

Zəngin əlyazma kitabları xəzinələrindən sayılan Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmin müxtəlif sahələrini əhatə edən – tibb və astronomiya, riyaziyyat və minerologiya, poetika və fəlsəfə, teologiya və hüquqşünaslıq, qrammatika, tarix və coğrafiya, bədii nəsr və poeziyaya aid Azərbaycan, türk, ərəb, fars və başqa dillərdə zəngin və nadir əlyazma kolleksiyasına malikdir.

Bundan əlavə, həmin institutda XIX-XX əsrlərdə yaşamış Azərbaycanın görkəmli elm və ədəbiyyat xadimlərinin şəxsi sənədləri, tarixi sənədlər və fraqmentlər, əski çap kitabları, əvvəlki dövrlərin qəzet və jurnalları, mikrofilm və fotosurətlər mühafizə edilməkdədir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan 12 minə qədər əlyazmanın 453-ü tibbə aiddir. Həmin əlyazmaların 60-ı türk, 73-ü ərəb və 320-si fars dilində yazılmışdır.

Onların arasında həm orta əsr Azərbaycan alimlərinin əsərləri, həm də vaxtı ilə Azərbaycanda geniş şöhrətə malik olmuş əcnəbi müəlliflərinin kitabları vardır.

2005-ci ilin payızında Əlyazmalar İnstitutunda mühafizə olunan üç nadir orta əsr tibb əlyazması YUNESKO tərəfindən, rəsmi olaraq, "Dünya Yaddaşı" Proqramının Reyestrinə daxil edilmişdir. Həmin siyahıya dünyanın ən unikal və əvəzolunmaz yazılı abidələri daxildir. Qərarı təsdiqləyən sertifikat Əlyazmalar İnstitutunda YUNESKO-nun baş katibi Koişiro Matsuura tərəfindən təqdim edilmişdir.

XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimi Hacı Süleyman Qacar İrəvani 600-dən artıq dərman bitkisi növünü təsvir etmişdir. O, Azərbaycanın siyasi və mədəni tarixində mühüm rol oynayan və İrəvan xanlığını idarə edən Qacar nəslinin nümayəndəsidir.

Hacı Süleyman Qacar İrəvani Azərbaycanın məşhur mədəniyyət mərkəzi olmuş İrəvan xanlığının paytaxtı İrəvan şəhərində anadan olmuşdur.

Onun fars dilində yazdığı "Fəvaidül-hikmət" ("Hikmətin faydası") əsəri nəinki Azərbaycanda, eləcə də Orta Asiya və İranda böyük şöhrət qazanmışdı. Bu kitab orta əsr əczaçılıq ensiklopediyasıdır və minlərcə dərman bitkisinin, heyvan və mineralın müalicəvi keyfiyyətlərindən bəhs edir. "Fəvaidül-hikmət" əsərinin nadir əlyazma nüsxələri AMEA Əlyazmalar İnstitutunda və eləcə də İran və Misirdə saxlanılır.

Bəzi kataloqlarda onun adı "Kitabül-hikmət" ("Hikmət kitabı") kimi də göstərilir. Kitab iki hissədən ibarətdir. Birinci hissədə dərman xassələrinin əlifba sırası ilə siyahısı verilib. İkinci hissə isə orta əsr farmakoloji terminlərin izahlı lüğətidir. Burada bitki, heyvan və minerallarının Azərbaycan, türk, ərəb, fars, yunan, çin, hind və başqa dillərdə adları verilmişdir.

Hacı Süleyman Qacar İrəvaninin AMEA Əlyazmalar İnstitutunda "Fəvaidül-hikmət" əsərinin iki əlyazma nüsxəsi saxlanılır. B-39 şifri altında mühafizə olunan əlyazması h.1249/m. 1833-cü ildə köçürülmüşdür, müxtəlif xəstəliklərin törənmə səbəbləri, əlamətləri, onların müalicə üsulları haqqındadır. Əlyazmada tibbi terminlər lüğəti vardır. Əsər Şərq istehsallı, təbii rəngli vərəqlərə köçürülmüşdür. Mətn qara, sərlövhələr qırmızı mürəkkəblə yazılmışdır. Səhifələnmə Şərq üsulu ilə aparılmışdır.

Əsər ...هنر است از موری پای تلخی sözləri ilə başlayıb, بسم الله الرحمان الرحیم...مفردات عظیم الخواص حمد بیغایت... یس سلمان بردن sözləri ilə bitir.

Əlyazmanın ölçüsü 16,5x21sm, həcmi isə 155 vərəqdir.

Hacı Süleyman Qacar İrəvaninin "Fəvaidül-hikmət" əsərinin ikinci nüsxəsi D-182 şifri altında mühafizə olunur. Həmin nüsxə Əlyazmalar İnstitutunun əməkdaşı Kələmə Abbasova tərəfindən fars dilindən tərcümə edilərək çap olunmuşdur.

GÖYÇƏ MAHALI – GÖY ÇİÇƏYİM

("Göyçə mahalı Kəsəmən: bir kəndin tarixindən səhifələr: elmi-tarixi qeydlər, portretlər, publisistik düşüncələr, səcərələr" kitabı kontekstində)

Almaz Ülvi BİNNƏTOVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər Paradında Ali Baş Komandan İlham Əliyevin çıxışından: "Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpağımızdır. Biz qayıdacağıq! ... Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq. Üçtərəfli 10 noyabr Bəyanatında göstərilir: Bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə..."

10 dekabr 2020, 13:30.

XÜLASƏ

Kiçik Qafqaz sıra dağlarının və Şahdağın ətəklərində yerləşən Göyçənin tarixi soraqları Dədə Qorqud dastanlarından gəlir. Göyçənin etnoqrafiyası bir daha adamı inandırır ki, ilk türk yurdunun binəsi Göyçədən başlayıb.

Folklor Göyçədən başlayır - ifadəsi Göyçə haqqında sözün riyazi dəqiqliklə biçilmiş düsturudur. Üç kəlməlik bu möcüzəvi gerçəklik akademik Yaşar Qarayevin apardığı tədqiqatlara, izlədiyi elmi mənbələrə, rastlaşdığı və mütaliə etdiyi folklor nümunələrinə istinadən Göyçə barəsində yazdığı elmi məqaləsindən götürülmüşdür.

Göyçə yaranışı, təbiəti, adət-ənənəsi ilə bütövlükdə milli folklor nümunəmiz idi. Yaraşıqlı dağlar əhatəsində olan Göyçə mahalına Göyçə gölü bir ayrı gözəllik verirdi. Elə bil bir cüt sona idilər – Göy yamaclı dağlar-düzlər və Göy dəniz. İkisi də gömgöy, Göyçə idi. Bu yurdun sazı təsdiq edir ki, yaşı bilinməz, zirvəsi görünməz tarixi var.

Göyçə gölü sahilləri boyunca geniş bir ərazini əhatə edən Göyçə mahalı–Kəvər, Qaranlıq, Basarkeçər rayonları və Çəmbərək (Toxluca, Ağbulaq, Şorca, Ardanış, Cil) rayonundan isə 5 kəndindən ibarət idi.

Basarkeçər - bu ərazilərin ən böyüyü idi. 1150 kv. km sahəsi əhatə edən Basarkeçər rayonu Gədəbəy və Kəlbəcərlə dağ qonşuları - həmsərhəddir. Rayonun bütün əhalisini türklər təşkil etsələr də, çar hökumətinin 1828-ci ildə İran ilə bağladığı Türkmənçay və 1829-cu ildə Türkiyə ilə bağladığı Ədirnə sülh müqaviləsinə əsasən həmin ölkələrin ermənilərinin xeyli qismi Göyçə gölü ətrafında yerləşdirilmişdi ki, bununla da Göyçəyə murdar erməni nüsxələri atılmışdı.

Ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq iddiaları ilə Göyçə həmin vaxtdan deportasiyalara məruz qalıbdır. Bir neçə dəfə çar imperiyası azərbaycanlıları öz köçürülmə siyasətləri ilə yer-yurdlarından didərgin etdilər. 1918-1919-cu illərdə qəddar Andronikin açıq terroru göyçəlilərin yaddaşından tarix ötsə də silinməmişdi. Həmin terrorla Göyçə əhli yurdundan pələsəng olmuşdu. Rus imperiyası çar şinelini çıxarıb sovet Şinelini geydi. Ermənistanda sovet hakimiyyəti qurulanda suveren respublika ərazisi yaratmaq üçün Göyçə, Zəngəzur, Zəngibasar mahalları və s… torpaqlarımız qeyd-şərtsiz erməni ərazisinə çevrildi. Onda 1921-ci il idi. Ancaq bununla kifayətlənməyən imperiya sovet siyasəti ilə 1948-53-cü illərdə Zəngibasardan (Masis rayonu ərazisindən) o cümlədən Göyçədən Azərbaycan türklərini yenidən köçürməyə başladılar. Bu köçürülmə siyasəti tarixdə "ağ genosid" adlanır.

1985-ci ilin "yenidənqurma"sı növbəti köçürülmə siyasətinə başladı. Ermənistanda, o cümlədən Göyçədə bir nəfər də türk qalmadı. Rus-erməni silahlı birləşməsi ilə 1988-ci ildə əhali bütünlüklə məcburi olaraq yurdundan çıxarıldı. Nəhayət, 1988-ci il dekabrın 10-da Ermənistanı "türklərsiz respublika" elan etdilər. Basarkeçər rayonu – Göyçə bütünlüklə ermənıyə qaldı.

Erməninin xəyanətkar xislətlərindən biri də vaxtaşırı toponimləri məhv etmək, qədim adların izini itirmək, yeni süni tarix yaratmaq olubdur.

Axırıncı illərin məlumatına görə, Basarkeçərdə 34 kənd var idi. 24 türk, 7 erməni, 3 qarışıq, 60 min nəfər əhalinin 40 mini türklər idi. bu erməni statistikası idi. Basarkeçərin Babacan, Pəmbək, Dərə, Satanağac (Hacıqərib, Güney), Şişqaya, Göysu, Kəsəmən, Qaraiman, İnəkdağı, Canəhməd, Ağyoxuş, Subatan, Zod, Ağkilsə, Sərzibil (Zərkənd), Nərimanlı, Qayabaşı, Qoşabulaq, Daşkənd, Aşağı Zağalı, Yuxarı Zağalı, Aşağı Şorca, Yuxarı Şorca, Kiçik Məzrə, Böyük Məzrə, Qanlı, Çaxırlı, Tüstülü, Kərkibaş, Torf, Gödəkbulaq, Qırxbulaq, Yarpızlı, Qızılvəng – bu kəndlərin hamısı türk toponimləri və əhalisi də türkdür. Ona görə də bu

statistika düzgün deyil, süni şəkildə ermənilərin sayını artırıblar.

Erməni Şahdağı silsiləsindəki – Kəsəməndəki qayaların, çəmənlərin, otların, çiçəklərin, dərələrin adlarını bilmir. İnanıram ki, biz o dağlar-daşlar üçün darıxdığımız kimi, o cansız-dilsiz, amma ruhu olan dağlar daşlar, qayalıqlar da bizim üçün darıxırlar. Adları çəkilmədikcə həsrət-həsrət əriyirlər. Biz gedib çıxmasaq dərddən dağlar iki yerə bölünəcək - hər şey torpağa gömüləcək. Bax, onda Göyçənin qiyamət günü olacaqdır. Hələ ki, səbr edib bizi gözləyirlər.

Vaxtilə bizim Ülvi –1990-cı ilin 20 yanvar gecəsində imperiyanın vəhşi soldatlarının qurbanı olan şəhid-şair Ülvi Bünyadzadə "Hələ səbr edirəm" adlı şeirində yazıb:

Göyçənin keçmişi müdhiş olubdu.
Əgər araşdırsan qoca tarixi.
Köhnə daşları var, üstü yazılı,
Gah alban hərfi, gah da ki, mixi.
Hələ oxunmayıb onların biri,
Bəlkə də oxunub, sonra gizlənib.
Amma yaddaşlarda qalan tarixdən,
Görürəm həmişə Göyçə gizlənib.
Hələ ulu Göyçə bir vaxt gələcək,
Cavab istəyəcək tutub yaxandan.
Haraya qaçsan da məzar olacaq,
Qarabağ sənə də "hinger Poqosyan".
Bax, onda gedəcəm Göyçə elinə,
Qanlı tarixini yazacam bir-bir.
Yəqin çatacağam o xoşbəxt günə,
Hələ səbr edirəm, mən hələ səbr.

Göy çiçəkli göyçək Göyçəm, gözlə, biz bir məqam axtarır, fürsət gözləyirik.

Bir də gördün budu haa… dağına-daşına səpələnmişik, qucaq-qucaq gülündən-çiçəyindən dəririk. Sənə türk oğlu - türk qızı yaraşır, Od yurdum.

Haqqında bəhs etdiyim kitabda bir kəndin əsrlər arxasında qalan tarixindən -etnoqrafiyasından, milli adət-ənənəsindən, qaçqınlıq-qırğınlıq taleyindən, relyefindən, inzibati ərazisindən, tanınmış ziyalılarından, ictimai-siyasi həyatından, nəhayət, yeddi arxadönən deyilən nəsil-səcərəsindən bəhs edilir. Elə isə bu kənd harada, hansı bölgədə yerləşir? Bax, beləcə tanışlıq məqsədi ilə və həmin ərazilərin türk tarixində xüsusi önəm daşıdığını nəzərə alıb, bir az əhatəli məlumat verməyi özümüzə borc bildik. Bir çox elmi kitablara, məqalələrə, araşdırmalara nəzər salmağa çalışdıq, nə oxuduqsa, onları sizə də təqdim etmək istədik, gəlin, oxuduğumuz həmin səhifələri – Göyçə mahalı və Göyçə gölü, Basarkeçər və Kəsəmən adlı sətirləri birlikdə yenidən vərəqləyək və tədqiq edək.

AĞBABA-ŞÖRƏYEL FOLKLOR TƏHKİYƏ STRUKTURUNDA EPİK, LİRİK ƏVƏZLƏNMƏSİ

Tahir NƏSİB
tahirnesibli@yahoo.com
AMEA Folklor İnstitutu

XÜLASƏ

Dünya folklorşünaslığında türk epik yaradıcılığının və söyləyicilik mədəniyyətinin müxtəlif xalqların folkloruna, xüsusən dastançılığa təsiri əhəmiyyətli yer tutur. Məqalədə epik və lirik əvəzlənmə, şifahi yaradıcılıqda birgə nəğmə oxuma, "seq-daralqa" və nəqarət ənənələri kimi türk epik folklorunun unikal xüsusiyyətləri tədqiq olunur. Ağbaba-Şörəyel regionunda toy və mərasimlərdə epik və lirik təzahürlərin birləşməsi, şamanizm təsirləri, qurd mifi və "tenqeri duudax" çağırışlarının roluna diqqət yetirilir. Məqalə göstərir ki, epik folklor yalnız qəhrəmanlıq və tarixi motivləri ötürməklə qalmır, həm də cəmiyyətin sosial-mədəni və dini inancları ilə sıx əlaqəlidir.

Açar sözlər: *türk epik folkloru, söyləyicilik mədəniyyəti, dastan, lirik əvəzlənmə, seq-daralqa, nəqarət, Ağbaba, şamanizm*

Dünya folklorşünaslığında türk epik yaradıcılığının, söyləyicilik mədəniyyətinin fərqli dil ailələrinə daxil olan xalqların folkloruna, xüsusən də dastançılığına güclü təsir etməsi haqda elmi qənaətlər əhəmiyyətli yer tutur. Şifahi yaradıcılıq ənənəsinə, söyləyicilik mədəniyyətinə aid olan təkrarsız xüsusiyyətlər sırasında, epik folklor janr mətnlərində və söyləyicilərin çıxışlarında (repertuarında) nəsr-nəzm əvəzlənməsi də xarakterik cəhət kimi formalaşmışdır. Bu cəhəti epik, lirik əvəzlənməsi də adlandırmaq olar. Bu xüsusiyyətə qədim türk yazılı daş abidələrində də rastlanır. Tədqiqatçılar həmin abidələrin mətnlərini forma və məzmun əlamətlərinə görə nəsr, nəzm, eləcə də nəsr-nəzm əvəzlənməsinə aid nümunələr kimi qəbul edirlər. Epik ənənədə lirik parçaların xorla ifası halları da geniş yer alıb.

Türk xalqlarının söyləyicilik mədəniyyətinə aid ifaçılıq tərzlərində birgə (kollektiv) nəğmə oxuma ənənəsinin mənşəyi qədim şamançılıq ayinlərinin icrası zamanı şamanla birlikdə kütlənin də qoşulması ilə əlaqəlidir. Bu cəhət monqol epik ənənəsində, ifaçılıq tərzlərində "seq-daralqa" xüsusiyyəti kimi qorunub. "Seq-daralqa" fasiləsi zamanı xurçilər (söyləyicilər) dinlənirlər, dinləyicilər isə ona kömək üçün birlikdə xüsusi nəqarətlər oxuyur, nidalar səsləndirirlər.

"Dədə Qorqud", "Manas", "Alpamış", "Maaday Qara" və s. dastanların məzmunundan açıqca bəlli etmək olar ki, qədim dövrdə xalq şölənlərində, ziyafətlərində cəmiyyətin üzvləri, iştirakçılar nüfuzlarına, cinsiyyətinə, yaşına görə bölünərək özlərinə aid edilmiş tərəfdə şənlənirdilər.

Atilla haqda tarixi məlumatlarda siyasi-hərbi qələbələrə həsr olunmuş hun toplanışlarında ozanların çıxışları zaman kütləvi surətdə nəğmə oxumaq ənənəsinə rastlanmır. Belə təntənəli yığıncaqlarda ancaq xalq arasında tanınmış söyləyicilər qəhrəman əcdadlar, müasirləri olan xaqanlar, xanlar haqda mədhiyyələr demək hüququna malik olurdular. Kütlə isə ozanların həyəcanlarına, coşmalarına uyğun olaraq alqışlar, nidalar deyirdilər. Kütlənin ozanlara kortəbii surətdə tabe olmasının əsas səbəbi onların da xalq arasında şamanlarla, dəmirçilərlə, dastan qəhrəmanları ilə birlikdə eyni dəyərdə (statusda) tutulmasından irəli gəlirdi.

Ural-altayların qanunlarına, törələrinə görə, qadınlar ailədə, cəmiyyətdə yüksək yerdə dururdular, öz doğmalarına aid olan mühitdə tam sərbəst idilər. Ancaq bütün bunlarla yanaşı, yad kişilərin olduğu məclislərdə iştirak edə bilməzdilər. Türk xalqlarının epik ənənə, söyləyicilik mədəniyyəti tarixində qadın mənşəli söyləyicilər haqda məlumata rastlanmadığına, həm də onlara kişi məclisləri qadağan edildiyinə görə düşünmək olar ki, müasir dövrdə yaranmış xüsusiyyət – hər iki cinsdən olan fərdlərin birlikdə nəğmə oxuma adəti sonrakı siyasi-mədəni hadisələrlə əlaqəlidir.

Ağbaba-Şörəyel mahalında xalq adət-ənənələri, toy, nişan mərasimləri özünəməxsus qaydalarla icra olunur və proses əsasən epik məcrada davam edir, lakin epik davamlılıq zamanı lirik məqamlara da yer verilir. Bu daha çox yallı və ya tədbirin bir məqamında səsləndirilən mahnı və nəğmələrdə özünü göstərir. Onların özünəməxsus adları da var; tırınqılar, nanaylar. Tırınqı və nanaylara aşağıdakı nümunələri misal göstərə bilərik:

Ağbaba
Seçkin oldum qohum-qardaş içinnən,
Yola düşdüm, gəldim oba köçünnən.

İrəvan
Bir quşa dönəydim uçaydım geri,
Bir də dolanaydım o doğma yeri.

Yurd həsrəti od tək keçdi içimnən, İrəvan deyilən bəridir, bəri
O dağlardan bu dağlara gəlmişəm. Tanrı, özün yetir o yurda məni.
Seçkin oldum vətənimnən, elimnən, Bir quşa dönəydim, ötəydim ora,
Qonum-qonşu, köyüm çıxdı əlimnən. Bəlkə bitişərdi sinəmdə yara.
Danışanda nalə qopur dilimnən, Burda qəriblikdə düşmüşəm dara,
O dağlardan bu dağlara gəlmişəm. Tanrı, özün yetir o yurda məni [1,17].

Epik təhkiyədə yer alan bu lirik parçaları monqol uligerlərindəki lirik parçaların yerinə yetirdiyi funksiya ilə əlaqələndirə bilərik. Əsas mətnin təhkiyə sonluğunda "uligerey udeşelqe" – uligerin yola salınması hissəsi gəlir. Mərasimlərin bitişi də çox vaxt gəlin tərifi və "xoşgəldin" lirik əvəzlənməsi ilə tamamlanır. Uligerlərdə əsas hissələrdən başqa "seq daralqa" – nəğmə şəklində ifa olunan 4-8 misradan ibarət xüsusi şeir növü də istifadə olunur. "Seq daralqa" daha çox "Qeser"in buryat mətnləri söylənəndə işlədilir [3, 34]. "Seq daralqa" çorçiyə kömək məqsədi üçün ifa olunur. Çorçi söyləmə zamanı yorulduqda, nəfəs alıb dincəlməsi və onu ruhlandırmaq üçün dinləyicilər birlikdə (xorla) "seq-daralqa" oxuyurlar. "Seq daralqa" həm də xüsusi fikir-ideya yükü daşıyır. Bununla dinləyicilər uligerin əvvəlini başlayır, sonunu bitirirlər. "Seq daralqa" ilə dinləyicilər uligerçinin söylədiklərinə öz münasibətlərini bildirirlər. Dastan qəhrəmanına uzaq səyahətlərdə xoş arzularını çatdırırlar [3, 34]. Uliger bitənə kimi "seq-daralqa"dan bir-neçə dəfə istifadə olunur. Misal üçün, "Qeser"in ifası zamanı 13 dəfə "seq-daralqa" oxunur. Hər bir "seq-daralqa"dan sonra "Ay-duun-eey!" nəqarəti oxunur. Tədqiqatçılar bunun mənasını açıqlaya bilmirlər. Oxşar nida sözünün nəqarətin "Aoy" şəklində fransızların "Roland haqda nəğmə"sində də işlənməsi qeyd olunur [3, 35]. Lakin bənzəri nəqarətin türk folklorunda da işlədilməsi yeni əsaslı fikirlər yaradır. Ağbaba – Şörəyeldə (Şirak-El) XX əsrin 60-cı illərində (yəqin ki, çox əvvəllər də məlum imiş) toy-düyündə zurna-davulla yallı oynanan zaman yaşlılar tərəfindən birdən yallı dayandırılır və xorla oxuyurdular:

Ay duy-duy, can duy-duy!
Gedim anama deyim gəlim,
Bir şiş kabab yeyim gəlim,
Ay duy-duy, can duy-duy! [4, 129]

Bu nəqarətlə bir-neçə bənd mahnı (nanay) oxunduqdan sonra təkrar zurna-davulla yallı davam etdirilirdi. Yallı bitənə kimi bu hal bir-neçə dəfə təkrarlanırdı.

Q.D.Sanjeyev monqol-buryat mifologiyasında göy kultunu (tək tanrı) və şamançılığın yuxarıda yerləşən hami ruhlarını dini mahiyyətli, əsaslı məzmunda işlənmiş inanc sisteminin ayrımaz hissəsi kimi qəbul edir. Bu cəhətdən də "göyün çağrılması" (müraciət, sitayiş) mənası verən "tenqeri duudax" mərasimini (ayin) həmin kultla əlaqələndirir [2]. "Seq daralqa"da da, qeyd edildiyi kimi, dinləyicilər çorçiyə, uligerin özünün ruhuna, qəhrəmanın savaşlarda qalib gəlməsinə xoş niyyətlər ifadə edir, istəklər diləyirdilər. Şübhəsiz ki, bu məqsəd üçün ancaq yüksək ruh halıyla uca göyə, tanrıya dua edib güvənmək olardı. Buradan da "tenqeri duudax", göyü (tanrını) çağırmaq ayini ilə "ay-duun-ey!" "seq daralqa" nəqarətinin eyni ruh halını bildirməsi aydınlaşır. Həmin qədim yüksək ruh halı özünü zamanın təsiri ilə zəifləmiş səviyyədə, adi həyati məzmunda "Ay duy-duy, can duy-duy" nanay nəqarətində də qoruyub saxlayıb.

Zirvəsi daima qarla örtülü Ağbaba dağının (3142 m) təpəsində Ağbaba ziyarətgahının yerləşməsinin həm müqəddəs dağ kultu, həm şamançılıq inanclarında əcdadların ruhunun ağ işıq olub dağın zirvəsində, göydə süd gölü yaratması təsəvvürü, həm də "tenqeri duudax" anlayışı ilə birbaşa inanc, ruh əlaqəsi var. Ağbaba adı da şaman inanclarında xeyirxah ruhların göydə təbəqələşməsində 6-cı qatda oturan kişi mənşəli Apa Akın (Ak Ata, Ak Apa Ağbaba) təsirindən yaranıb.

"Seq daralqa"da dinləyicilər dastan qəhrəmanlarını hərbi yürüşlərə yola salanda "ureer!" nidası səsləndirirlər [3, 34]. Buradan da türklərdə və onların təsirinə düşmüş slavyanlarda döyüşçülərin ruhlandırılması üçün işlədilən "ura!.." nida sözünün mənşəyi aydınlaşır. Çox yəqin ki, "Ay-duueey!", "tenqeri duudax" çağırışlarındakı "duu...", "uu..." hissəsi şenadan (börü) törəmə əcdad əfsanəsinə görə hami, xeyirxah ruh sayılan boz qurdun ulaması və onun çağrılması təsəvvürü ilə yaradılıb. Qurdun gəlişi təhkiyənin hadisə nəqletmə hissəsində yer alırsa, onun çağrışı ilə əlaqədar mətnlər lirik notları və parçaları formalaşdırır. Xeyirxah xilaskar boz qurda ural-altaylarda həm də tanrıya yaxın keyfiyyətlər aşılanmışdı. Şaman inanclarında totem, onqon qəbul edilən heyvanların, quşların səslərinin, hərəkətlərinin təqlid və təbliğ edilməsi ayinlərin əsas elementlərindən olmaqla həm də təhkiyədə lirik parçaların invariantlarından qəbul edilə bilər.

Epik folklorda hadisələrin davamı zamanı təhkiyədə lirik parçaların yer alması qəhrəmanlara ruh yüksəkliyi gətirir və onların gücünü Tanrı qüdrəti, əcdad ruhu ilə əlaqələndirir. Mərasimlərdə, evlilikdə, yeni başlanğıclarda isə lirik parçalar müqəddəs ruhların, tanrının qutunu, xeyir-duasını sosial mühitlə uzlaşdırır. Qərbi Azərbaycanın istənilən bölgəsinin adət-ənənəsini, folklorunu araşdırdıqda qarşımıza çıxan faktlar buranın qədim oğuz yurdu olması və ural-altay mədəniyyəti ilə sıx əlaqədə yaranıb inkişaf etməsi fikrini əsaslandırmağa yardım edir.

ƏDƏBİYYAT

1. Qurbanov, T. Ağbaba aşıq mühiti. Bakı: Elm və təhsil, 2014, 196 s.
2. Дугаров, Б.С. Сакральный мир бурятской Гесериады. Небесный пантеон и генезис героя. 2005 Улан-Уде. Dissercathttp://www.dissercat.com /content/ sakralnyi-mir-buryatskoi – qeseriady – nebesnyi – panteon – i – qenezis – qeroya # ixzz 2 iqa2№4k. 27.
3. Героический эпос о Гэсэре. Иркутск. Издат. Гос. Университета. 1969. 348 стр.
4. Nəsib, T. Türk epik ənənəsi və "Qeser" dastanı. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, AMEA Folklor İnstitutu, Bakı: 2015, 165 s.

ABSTRACT

Tahir NƏSİB

EPIC AND LYRIC ALTERNATION IN THE FOLKLORE NARRATIVE STRUCTURE OF AĞBABA-ŞÖRƏYEL

In world folklore studies, the influence of Turkish epic creativity and oral performance culture on the folklore, particularly epic traditions, of various peoples is of significant importance. This article examines unique features of Turkish epic folklore, including the alternation of epic and lyrical elements, collective singing traditions, the "seq-daralqa," and refrain practices. The study highlights the integration of epic and lyrical elements in weddings and ceremonies in the Ağbaba-Şörəyel region, as well as the influence of shamanism, wolf myths, and the "tengeri duudax" invocation. The research demonstrates that epic folklore not only conveys heroic and historical narratives but is also closely linked with the social, cultural, and religious beliefs of the community.

Keywords: *Turkish epic folklore, oral performance culture, epic narrative, lyrical alternation, seq-daralqa, refrain, Ağbaba, shamanism*

GÖYÇƏLİ AŞIQ NƏCƏFİN YARADICILIQ YOLU

Xumar MƏMMƏDOVA
Naxçıvan Dövlət Universiteti
orcid.org/0009-0000-0824-1480
xrmemmedova@mail.ru

XÜLASƏ

Məqalədə Aşıq Ələsgər məktəbinin davamçısı olan Aşıq Nəcəfin həyat və yaradıcılıq yoluna nəzər salınır. Qeyd olunur ki, Aşıq Nəcəfin yaradıcılığı forma baxımından öz müxtəlifliyi ilə fərqlənir. O, demək olar ki, aşıq şeirinin bütün şəkillərindən istifadə etmişdir. Aşıq Nəcəf yaradıcılığı dil və üslub baxımından zənginliyi özündə ehtiva edən qoşmalar, təcnislər, gəraylılar, divanilər, müxəmməslər, deyişmələr və qəzəlləri özündə əks etdirir. Aşığın müxtəlif məzmunu özündə əks etdirən qoşmalarına nəzər saldıqda onun sevgiyə, dostluğa, zəmanəyə olan münasibətini açıq-aydın şəkildə görmək olar. Ümumiyyətlə, Aşıq Nəcəfin bütün şeirləri orijinal səciyyə daşıyır.

Açar sözlər: *aşıq yaradıcılığı, poeziya, qoşma, təcnis, gəraylı*

Aşıq ədəbiyyatının görkəmli nümayəndələrindən biri Aşıq Ələsgər ocağının yetirməsi olan Göyçəli Aşıq Nəcəfdir. Aşıq Nəcəf Aşıq Ələsgərin qardaşı Xəlilin oğludur. İstedadlı aşıq ilk təhsilini mollaxanada almış, bununla yanaşı, saz sənətinə böyük maraq göstərmişdir. Qonşu olduqlarından tez-tez əmisinin evinə gedən Nəcəf aşıq sənətinin bütün sirlərini məhz əmisindən öyrənmişdir. Məhz gələcəkdə görkəmli bir aşıq kimi yetişməsində təbii ki, bu mühitin böyük rolu olmuşdur. On yeddi yaşında ikən atasının vəfat etməsi ailənin bütün qayğılarının Nəcəfin üzərinə düşməsinə səbəb oldu. Azğınlaşmış erməni quldurlarının torpaq iddiaları, yaşatdıqları qan donduran cinayətlər nəticəsində Aşıq Nəcəf və ailəsi öz doğma ata-baba yurdlarını tərk etmək məcburiyyətində qaldılar. Aşıq iki bacısı, ana və qardaşını əmisi şair Məhəmmədin himayəsində Kəlbəcərə köçürdü və 1921-ci ilədək orada yaşadılar. Keçmiş Sovetlər Birliyinin təşəkkülündən sonra Aşıq Nəcəf yenidən ailəsi ilə birlikdə doğma yurduna qayıtmış, təsərrüfatla məşğul olmuş, bununla yanaşı, aşıqlıq sənətinə də yenidən maraq göstərmişdir. Aşıq Ələsgər sənətinin hərarətindən bəhrələnərək şan-şöhrət qazanan Aşıq Nəcəf öz istedadı ilə qısa zamanda hər kəs tərəfindən sevilmişdir. Qeyd edək ki, Aşıq Nəcəf yaradıcı fəaliyyətə 1925-ci ildən başlamışdır. Əsasən, doğma eli olan Göyçədə, Gəncəətrafı rayonlarda, Qarabağda və Azərbaycanın digər ərazilərində təşkil olunan el şənliklərində sazı-sözü ilə insanların hörmət və ehtiramını qazanmışdır.

1941-1945-ci illər II Dünya müharibəsi zamanı Aşıq Nəcəf də ordu sıralarında hərbi xidmətə çağırılmış, ancaq xəstələnməsi ilə əlaqədar 1942-ci ildə ordu sıralarından təxris etdilər. Vəziyyəti yaxşılaşdıqdan sonra Aşıq Nəcəf öz yaşadığı kəndə kolxoz sədri təyin edilmişdir. 1945-ci ilədək bu vəzifəni icra etmişdir. Müharibə bitdikdən sonra isə Aşıq Nəcəf yenə də öz sözünü sazı ilə demiş, xalqın dərin məhəbbət və rəğbətini qazanmışdır. O, el arasında öz dərin biliyi və istedadı ilə tanınmış, təvazökarlığı, mehribanlığı, aşıqlıq ədəb-ərkanı ilə insanların qəlbində taxt qurmuşdur.

Aşıq Nəcəf 1968-ci ildə, ömrünün 68-ci baharında dünyasını dəyişmişdir. O, Ağkilsə kəndi qəbiristanlığında dəfn olunmuşdur. Qeyd edək ki, Aşıq Nəcəf zəngin ədəbi irsə malikdir. O, saz götürdüyü zamandan şeir yaradıcılığı ilə məşğul olmuş, aşıq şeirinin ən gözəl nümunələrini yaratmışdır. Aşıq Nəcəfin əsərləri 1950-ci ildən başlayaraq toplanmışdır. Onun əsərlərinin toplanıb nizama salınmasında bacısı oğlu Aşıq Haqverdi və qardaşı oğlu İlhamın böyük əməyi olmuşdur.

Aşıq Nəcəfin yaradıcılığı forma baxımından öz müxtəlifliyi ilə fərqlənir. O, demək olar ki, Aşıq şeirinin bütün şəkillərindən istifadə etmişdir. Aşıq Nəcəf, həmçinin qəzəl yaradıcılığı sahəsində də öz qələmini sınamış, bu sahədə də böyük uğur əldə etmişdir. Onun əsərlərinin böyük bir qismi filologiya elmləri namizədi, ələsgərşünas alim İslam Ələsgər tərəfindən toplanaraq "Ələsgər ocağı" (1991) və "Sazlı-sözlü Göyçə" (1999) adlı kitablarda özünə yer tapmışdır. Qeyd edək ki, Aşıq Nəcəfin ədəbi irsindən dörd yüz iyirmiyə qədər şeiri məlumdur. Aşığın anadan olmasının 100 illiyi münasibətilə İslam Ələsgərin tərtibatçılığı ilə "Göyçəli Aşıq Nəcəf" kitabı işıq üzü görmüşdür. Kitaba aşığın beş min misradan artıq olan üç yüz əlli şeiri daxil edilmişdir.

Aşıq Nəcəf yaradıcılığı dil və üslub baxımından zənginliyi özündə ehtiva edən qoşmalar, təcnislər, gəraylılar, divanilər, müxəmməslər, deyişmələr, qəzəlləri özündə əks etdirir. Aşığın müxtəlif məzmunu özündə əks etdirən qoşmalarına nəzər saldıqda onun sevgiyə, dostluğa, zəmanəyə olan münasibətini açıq-aydın şəkildə

görmək olar. Onun "Ağlama" qoşmasına baxaq:

Asanlıqla müşgül işlər düzələr,
Ala gözlü nazlı yarım, ağlama!
Xəstələr sağalar, gedənlər gələr,
Canda qalmaz dərd-azarım, ağlama!
Ağlayanda, din imanım alırsan!
Tökürsən, bədəndən qanım alırsan,
Nəcəfəm, cəsəddən canım alırsan,
Tuti dilli işvəkarım ağlama! [1, s.13].

Aşıq Nəcəf bu qoşmasında yarı üçün ağlayan, onun ağlamasına dözə bilməyən, ağladıqca cəsəddən ruhunun çıxacağını vurğulayan bir aşiq obrazı yaratmışdır. Məhz bu qoşma sevgi hisslərinin sarsılmaz tellərlə aşiqlə məşuq arasında olan bağlılığını ifadə edir.

"Ağrı dağı" qoşmasında əzəmətli Ağrı dağına olan heyranlığın vəsfi öz ifadəsini tapmışdır:

Xilqətin Kərəmi gələndə cuşa,
Xəlq eyləyib səni bir, Ağrı dağı!
Baxdıqca köysünə, çoxdu tamaşa,
Daş-toprağın gövhər-dürr Ağrı dağı! [1, s.14].

Bu misralar şairin Ağrı dağa olan valehliyinin aydın təcəssümüdür.

Aşıq Nəcəf, eyni zamanda təcnis müəllifi kimi də şöhrət qazanmışdır. Onun təcnisləri müxtəlif səpkidə qələmə alınmış, Azərbaycan aşıq poeziyasının inciləri sırasına düzülmüşdür.

Səhər-səhər canan çıxıb seyrana,
Bəzənib yaşıla al-ala gördüm.
Dəstə-dəstə dərib tutub dəstində,
Sancıbdı buxaqa, a lala gördüm [1, s.131].

Bu misralarda aşıq sevgilisinin gözəlliyinin vəsfini təsvir edərək ona olan həsrətini, nisgilini ifadə edib. Ümumiyyətlə, Aşıq Nəcəf öz yaradıcılığında bədii təsvir, bədii ifadə vasitələrindən yerli-yerində istifadə etmiş, aşıq şeirinin inkişafına öz töhfələrini vermişdir. Aşığın gəraylıları da bu baxımdan diqqəti cəlb edir. "Bir gün" adlı gəraylıda oxuyuruq:

Aldanma qurğu-büsata,
Eyləyərsən hazar bir gün.
Çox güvənmə köhlən ata,
Yıxar səni əzər bir gün.

Çatırıbsan xoş muraza,
Bir bu qədər gəlmə naza.
Yəqin bil ki, qəhri-qəza
Tapar səni, gəzər, bir gün [1, s.148].

Yuxarıdakı misralardan göründüyü kimi, aşıq insanları lovğalanmamağa çağırır, güvəndiyi "köhlən at"ın bir gün onu "əzəcəyini" işarə edir. Təqdim edilən gəraylıda əsas ideya insanların haqq yoluna dəvət edilməsi, onların heç zaman sadəlik və mərhəmət hisslərini əldən verməməsi mövzusunda özünü göstərmişdir.

Aşıq Nəcəfin divaniləri də onun yaradıcılığında mühüm yer tutur. "Gəl" divanisi bu baxımdan təqdirəlayiqdir. Aşıq yazır:

Əgər mərdsən, bu meydana
Saz götür, mərdana gəl.
Həqiqətdən kəlmə kəsək,
Danış, xoş zəbana gəl!
Mərifətlə məclis apar,
Görənlər əhsən desin;
Hərcayıyla aşna olma,
Sirr vermə nadana, gəl [1, s.169].

Aşıq burada mərdliyi, cəsarəti, mərifətli olmağı tərənnüm edərək insanları ikiüzlü, riyakar olmamağa

səsləyir, onları mərd və əzmkar olmağa çağırır.

Aşığın müxəmməsləri də üslub baxımından orijinal səciyyə daşıyır. Onun "Gəlinə" müxəmməsi bu baxımdan maraqlıdır.

Canımı qurban eylərəm,
Gözləri göyçək gəlinə;
Boy uca, gərdan mina,
Top qarabirək gəlinə;
Başında tirmə şalı,
Əynində ipək gəlinə;
Yaranmışdı yoxdu tayı,
Yer üzündə tək gəlinə [1, s.178].

Bu misralar aşığın gəlinə, qadına olan hörmət, sevgi və məhəbbətinin ən gözəl nümunəsidir. Aşıq Nəcəf, eyni zamanda qəzəl müəllifi kimi də tanınmışdır. Onun "Dedim, ey dost, məni sən dərdə düçar eyləmisən" qəzəlində məşuqun əlindən usanan aşiq obrazının şahidi oluruq:

Dedim, ey dost, məni sən dərdə düçar eyləmisən,
Artırıb dərdi qəmim, canda həza eyləmisən.
Göstərib gül camalı sən məni candan eyləyib,
Yandırıb atəşinə, cismimi nar eyləmisən.
Aşıqə bircə busə vermək üçün canın alıb,
Əl tutub, sövdə vurub, böylə bazar eyləmisən [1, s.200].

Aşıq həsrətini ifadə edərkən qəzəlin emosional təsir gücünü artırmaq baxımından yerli-yerində bədii təsvir və ifadə vasitələrindən istifadə etmişdir.

Ümumiyyətlə, Aşıq Nəcəf Göyçə mahalının görkəmli aşıqlarından biri kimi şöhrət qazanmış, onun yaradıcılığında, müraciət etdiyi bütün aşıq şeir şəkillərində Dədə Ələsgərin ruhu, nəfəsi hiss edilməkdədir.

ƏDƏBİYYAT

1. Göyçəli Aşıq Nəcəf. Bakı: Səda, 2000, 202 s.
2. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_a%C5%9F%C4%B1q_s%C9%99n%C9%99ti
3. https://edebiyyatqazeti.az/news/diger/95-asiq-edebiyyatinin-milli-ve-tarixi-ozelliyi
4. https://goyce.az/news.php?id=57

ABSTRACT

Khumar MAMMADOVA

CREATIVE WRITING BY GOYCHALI ASHIG NAJAF

In the article it deals with the life and creative path of Ashiq Najaf, a follower of the Ashiq Alasgar school. It is noted that Ashiq Najaf's creativity is distinguished by its diversity in terms of form. He used almost all the images of his love poem. The creativity of Ashiq Najaf includes couplets, tajnis, garaylis, divanis, mukhammas, dialogues, ghazals, which contain richness in terms of language and style. If you look at Ashikh's couplets, which contain different contents, you can clearly see his attitude towards love, friendship, and time. In general, all of Ashiq Najaf's poems are original.

Keywords: *ashiq creativity, poetry, couplets, tachnis, gerayli*

QƏRBİ AZƏRBAYCANLILARIN FOLKLORUNDA ÜRƏKDAĞLAYAN YURD NİSGİLİ

Sədaqət NEMƏTOVA
sedaqetnemet@gmail.com
ORCID iD: 0009-0001-5682-1639
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycandan köç edənlərin çəkdiyi məşəqqətlər lirik poeziya misralarında öz təsirli ifadəsini tapır. Bu poetik kompozisiyalar köç edənlərin mübarizələrinin dərin emosional və təcrübi aspektlərini çatdırmaq, onların səyahətlərinin, yerdəyişmələrinin və yeni şəraitə uyğunlaşmaqda üzləşdikləri çətinliklərin mahiyyətini əks etdirən vasitə rolunu oynayır.

Qərbi Azərbaycandan köç edənlərin üzləşdiyi çətinliklər lirik şeir, bayatı, ağı misraları vasitəsi ilə təsirli ifadəsini tapmışdır. Bu misralarda köç edənlərin məşəqqətlərinin emosional və təcrübi ölçüləri qabarıq şəkildə əks etdirilərək, oxucularla dərin səviyyədə rezonans doğuran güclü bir hekayə yaradır. Üstəlik, lirik poeziya köç edənlərin öz daxili hisslərini ifadə etmək və köçkün emosional relyefi ilə hərəkət etmək üçün kataral çıxış imkanı yaradır. Diqqətlə seçilmiş sözlər və təlqinedici obrazlar vasitəsilə şairlər tanışlıq həsrətini, ayrılıq ağrısını, çətinliklər qarşısında yaranan möhkəmliyi çatdırırlar. Bu misralar dərin transformasiyaya uğramış bir cəmiyyətin paylaşılan təcrübələrini ifadə edən kollektiv səsə çevrilir. Mahiyyət etibarı ilə lirik poeziya misraları Qərbi Azərbaycandan olan köç edənlərin məşəqqətlərinin güclü və davamlı sübutu kimi xidmət edir, onların təcrübələrini əbədiləşdirir və insan hekayələrinin daha geniş qobeleninə töhfə verir

Məqalədə qaçqın həyatı yaşamaq, köçərilik məsələləri, vətənə baxışlar xüsusi təsvir edilmiş, Azərbaycan folkloru Azərbaycan türk taleyinin poetik tərcüməçisi kimi dəyərləndirilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, Göyçə, qaçqın, köçkünlük, Vətən, el-oba*

Giriş

Böyük türk şairi Yavuz Büləndi Bakilər "Bizim türkümüz" adlı şeirində yazır:

Bizim türkümüzdə qürbət var artıq,
Həsrət var, ürək var, torpaq var, balam. [12, s. 179]

Taleyin hökmü ilə dünyanın dörd bir tərəfinə səpələnmiş türk ellərinin bayatılarında, ağılarında, xoyrat ve manilərində, eləcə də şairlərinin şeirlərində qürbət ağrısı, qürbət acısı yaşamaqdadır.

"Türklərin tarix və mədəniyyətinə bir baxış" adlı kitabında Cavad Heyət yazır: "Bu gün türkdilli ellər Balkanlardan Sakit okeana qədər, Quzeydə Şimal dənizindən Güneydə Tibetə qədər geniş bir məntəqədə yaşayırlar. Xalqın əksəriyyətini təşkil edən türklər Türkiyə, Qərbi və Şərqi Türküstan, Azərbaycan, Başqırdıstan, Çuvaşıstan, Yakutistan və Altay dağları - Baykal dəryaçası arasındakı Altay, Xakes ve Tuva əyalətlərində və xalqın daha azını təşkil etmək üzrə Yuqoslaviyada, Polşada, Ruminyada, Bolqarıstanda, İraqda, Suriyada, Əfqanıstanda, Kıbrısda və İranın müxtəlif əyalətlərində toplu halda yaşayırlar" [3, s. 9].

Torpaqlarımız nə qədər böyük, ucsuz-bucaqsızdırsa, dərdlərimiz, ağrı-acılarımız, həsrətlərimiz də bir o qədər böyükdür. Qədim dövrlərdən bu günə zamanın sərt rüzgarları türk ellərinin başı üstündən əsib, torpaqlarımız yağmalanıb, qız-gəlinlərimiz əsir-yesir olub, eldən-elə, diyardan-diyara sürüklənərək qaçqın, köçkün taleyi yaşamışıq. Tarix yazmaqdan çox tarix yaradan ulu babalarımız, ulu nənələrimiz dərdlərini sözə, ağıya, bayatıya çevirərək yaddaşlara yazıblar. Hər bayatı, hər ağı öz məna yükünə görə böyük-böyük kitablardan, dastanlardan daha artıq xalqın taleyi haqda gələcək nəsillərə məlumat verib.

Dərd, qəm şələlərinin ağırlığına mərdliklə sinə gələn babalarımız, nənələrimiz sözlə öz dərdlərini yüngülləşdirməyə çalışıblar:

Lələ mənəm, Lələ mən,
Yük altdayam hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən. [1, s.98]

Tarix boyu xalqımız çox məşəqqətlərə sinə gərib. Qaçqın, köçkün, sürgünlük taleyi yaşayıb. Təbiidir ki, bütün bu proseslər xalqın həm şifahi, həm də yazılı ədəbiyyatında izsiz qalmayıb. Filologiya elmləri doktoru Bəhlul Abdullanın dili ilə desək:

"Tarixi hadisələri özündə yaşatmaq baxımından dastanlara sığmayan bir həsrət, bir yanğı hissi ifadə edən bayatılar xüsusi səciyyə daşıyır". Burada istismarçılara nifrət, qürbət diyara düşənlərin vətən həsrəti, dostluq, sədaqət, sevgi motivləri azad, xoşbəxt həyat uğrunda mübarizə, qəhrəmanlıq hissləri və s. ilə birlikdə tarixdə doğrudan-doğruya baş vermiş hadisələr də bədii biçimdə əks olunur. Bayatıların qorunub saxlanması ərəblərin, monqolların Azərbaycanda törətdiklərinə bədii də olsa, sənəd tək şahidlik edir:

Apardı tatar məni,
Qul kimi satar məni.
Yarım vəfalı olsa,
Axtarıb tapar məni.

Apardı batı məni,
Qul edib satı məni.
Yollar uzun, mən yorğun
Doğrayır çatı məni [1, s.4]

Misal gətirdiyimiz bayatıların hər üçündə bir elin dərdi, nisgili, arzusu yaşayır. Uzun yolların yorğun yolçularına çevrilən, bağlı qollarını çatılar doğrayan, qul kimi bazarlara çıxarılan, var-dövləti talan olan ulu yurddaşlarımızın, nənə-babalarımızın ürək ağrıları, qəlb göynərtiləri bu gün də ürəyimizi sızım-sızım sızıldadır:

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi.
Gedin anama deyin
Yaxşı tutsun yasımı [1, s. 96]

Göründüyü kimi, bu ağı-bayatıda da ərəb işğalı, ərəb zülmü köz kimi ürəyi yandırır.

Qürbət ağrı-acısı bayatılarımızda daha çox işlənib. Çəkilən Vətən dərdi elə bayatıların, ağıların yaranmasına səbəb olur ki, bu yazılarda da müəyyən bir tarixi dövr, zaman yaşayır.

Aşıq itkin diyara,
Xalın itkindir yara.
Səni məndən edəni
Düşsün itkin diyara [1, s. 95]

Sürgünə göndərilən, əsir aparılan, qaçqına, köçkünə çevrilən, könülsüz olaraq başqa yerlərə ərə verilən qızların qəlb ağrıları, könül fəryadları şeirlərə, bayatılara, ağılara çevrilib.

XVII əsrdə beş Azərbaycan qızını tatar xanına əsir aparıblar. Onların içərisində Gülşad adlı bir şairə də olub. Bu barədə Əzizə Cəfərzadə belə yazır: "Bu beş qəlbin əzabları - üç əsrin sarsıntıları, qeylü-qalı arasında çoxdan itib, əriyib, unudulub. İtib? Əriyib? Unudulub? Yox, bu beş "yesir qızın" biri - Gülşad – şairə imiş, özünün və rəfiqələrinin qüssələrini qələmə alıb və beş qəlbin harayı itməyib. Didilib tökülmüş cüng səhifələrindən gül ləçəyi kimi bir "ah", bir giley, bir həsrət nəğməsi üç əsrin başı üstdən gəlib bu günə çatıb".

Beş qız idik bir aranda, bir yerdə,
Ya ilahi, dərman elə bu dərdə.
Canım durna, hər vətəndə, hər eldə,
Bizdən salam olsun əcəm elinə.

XVII əsrdən, İstanbul şəhərindən gələn bu qəmli səsdaya XIX əsrin əvvəllərində Tehrandan başqa bir şairənin yanıqlı səsi səs verir:

Mən aşiqəm, qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Bu şeir Ağabəyim ağanındır. İbrahim Xəlil xanın qızı, İran hökmdarı Fətəli şaha ərə verilmiş Azərbaycan qızının "qızıl qəfəsdə" yazdığı şeir" [2, s.11].

Zaman yel qanadlı atlarını çapıb keçir. İllər, əsrlər dəyişir. Ancaq yenə də öz elinden, obasından ayrı düşənlər, qaçqın, köçkün həyatı yaşayanlar olur. Bu ağrı-acılar isə yenə yeni- yeni şeirlərin, bayatıların yaranmasına səbəb olur.

XX əsrdə Azərbaycan xalqı dəfələrlə öz doğma yurdundan qaçqın, köçkün olub. 1905-1907-ci illər, 1918-1920-ci illərdə erməni daşnakları Azərbaycan ellərini xarabazara çevrilib. 1948-1953-cü illərdə yüz minlərlə soydaşımız ata-baba yurdları olan Qərbi Azərbaycandan qovulub. Soydaşlarımızın son köçləri də 1988-ci ildə başlandı. 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıları öz dədə-baba torpaqlarından qovdular. Sonra isə Dağlıq Qarabağda yaşayan soydaşlarımız doğma ev-eşiklərindən didərgin düşdülər. Min bir əzaba, dərdə düçar olan soydaşlarımız Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Qubadlı və s. rayonlarımızın, şəhərlərimizin, kəndlərimizin itkisi ilə üz-üzə dayandı. Bu ağrı-acılar Azərbaycan ədəbiyyatında, folklorunda öz bədii əksini tapdığı kimi Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan şairlərin yaradıcılığında da izsiz qalmadı. Eyni zamanda yaranan folklor nümunələrimizdə də biz bu ağrı-acılarla üz-üzə gəldik:

Gülləri solan dağlar,
Oxlanıb duran dağlar.
O sərin yaylaqların
Olubdur viran dağlar [7, s. 32]

Əsir, əsir ağlaram,
Çox kəm, kəsir ağlaram.
Düşdüm qürbət ellərə
Oldum yesir ağlaram [7, s. 35]

Elindən, obasından ayrı düşən insanların yurd, Vətən sevgisi son illər yaranan bayatıların əsas mövzusunu təşkil edir. Vətənin yağı tapdağında qalması, yurd-yuvanın dağılması ağır, sağalmaz yara kimi hər bir insanı narahat edir, düşündürür:

Mən aşiq budağından,
Budağın yarpağından,
Gedəydim Vətənimə
Öpəydim torpağından.

Aşıq, çağırım səni,
Qəmdən yoğurum səni.
Yurdum, yuvam dağılıb
Hara çağırım səni [7, s. 37]

Göründüyü kimi, bayatıda böyük bir ağrı yaşamaqdadır. Aşıq həmişə el-obadan deyər, gülər, söz açar, dastan söyləyər. Ancaq lirik qəhrəmanın ürəyi o qədər dərd-qəmlə yüklənib ki, o aşığı çağırmağa yer tapmır. Çünki Vətəndən didərgin düşən, qaçqına, köçkünə dönən "hara çağırım səni", - deyərək ah-nalə çəkir.

Bəzən bayatılarımızda dərdin, qəmin tüğyan etməsinə səbəb olan amillər qabarıq verilir. Bayatını yaradan insanlar konkret bir ünvanın adını çəkməklə öz dərdinin də ünvanın göstərir:

Ay mənim, Şuşam mənim,
Taxtımdan düşən mənim.
Qoy ellerim qayıtsın
Səcdənə düşəm sənin [7, s. 32]

Vətənə, doğma od-ocağa uzaqdan qaçqın, köçkün kimi baxmaq sağalmaz, çəkilməz dərddir. Səni ev-eşiyindən didərgin salalar, taxtında əyləşələr, bu sənin ürəyini göynətməzmi? Səni yandırmazmı?

Əzizim xan oturub,
Xan düşüb, xan oturub
İndi gözəl Şuşada
Yağı düşmən oturub [7, s. 30]

İnsan sanki dünyaya əzab çəkmək üçün gəlib. Eli-obası dağılan insan bəzən quşa da həsəd aparır. Özünü bir quş qədər bəxtiyar hesab edə bilməyəndə onun könül dünyası dağılır, viran qalır:

Laçının ab - havası,
Laçın qartal yuvası
Dağıtdılar yuvamı
Qartalın var yuvası [7, s. 32].

Qaçqın, köçkün taleyi yaşayan insan bir də ona görə özünə qayıda bilmir ki, onun təkcə evini, könül dünyasını deyil, bağlandığı, könül verdiyi hər bir şeyini əlindən alıblar. Ona görə də qoyub gəldiyi gül-çiçəkli dərələri, dağları yadına düşən şair qəlbi köçkünün, qaçqının dilindən qopan hər bir bayatıda qəm, nisgil, dərd, ələm yaşayır:

Mən aşiq gül-çiçəyim,
Qalxmasın mil çiçəyim.
Ellərin əsir olub
Sən də sol gül-çiçəyim [7, s. 90]

Ancaq insan nə qədər ağrı - acı ilə üzləşsə də inamını, sabaha olan ümidini itirmir. İnanir ki, yenə də öz evinə - eşiyinə, doğma ocağına, Vətəninə qayıdacaq:

Aşıq, vəfalım Şuşam,
Xan tək vəfalı Şuşam.
Qoynunda bir gəzəydim,
Yanı səfalı Şuşam [7, s. 92]

İnsan üçün ən ağır dərd Vətənin əsir düşməsidir. Vətən yağı tapdağında qalanda, onun övladları qaçqına, köçkünə, əsirə çevriləndə bu dərd daha dözülməz, daha çəkilməz olur:

Əzizim kəsir oldu,
Qəm qəmdən kəsir oldu.
Düşdü ayaqlar altda
Vətənim əsir oldu [11, s.105]

Bölünən, parçalanan Vətənin hər bir əzabı onun hər bir vətəndaşının könül ahı, könül yarasıdır:

Günəşimin sarısı,
Yox vətənin yarısı. Millətim qaçqın olub,
Çəkir Vətən ağrısı [11, s.105]

Erməni vəhşiliyi, insanlığa yaraşmayan hərəkətlər, körpələrə, qocalara belə zülm eləyənlər insanlıq simasını itirəndə hər bir cinayətə qol qoyurlar.

Erməni qan eylədi, Necə fəğan eylədi. Girdi güllü bağımı
Necə viran eylədi [11, s.105] Aşıq balam ağlaram,
Solub qalam ağlaram. Yurdum,yuvam dağılıb,
Ölüb balam ağlaram.

"Azərbaycan folkloru antologiyası" silsiləsində yenicə nəşr olunan "Naxçıvan folkloru" kitabında yazılan "Naxçıvanın söz xəzinəsi" adlı ön sözdə deyildiyi kimi: "Ulu türk yurdu, qədim intibah mərkəzlərindən olan Naxçıvan zaman-zaman tarixin yaddaşına möhtəşəm bir Naxçıvannamə yazıb. Burada yurdun söz xəzinəsi, öz xəzinəsi yaranıb: kəlməsi, cümləsi, ilməsi, cilvəsi sehrdi, möcüzədi…" [8. s.15].

Hər bir dərdin, əzabın başlanğıc nöqtəsi var. Azərbaycanda qaçqın, köçkün taleyi yaşayan insanların dərdinin kökündə ermənilərin əsrlər boyu xalqımıza qarşı yeritdikləri məkrli siyasət dayanıb. Eldə gözəl bir məsəl var: Arxalı köpək qurd basar. Ermənilər də böyük dövlətlərin məkrli siyasətindən güc alaraq xalqımızın başına müsibətlər gətiriblər:

Ezizim arxasızdı,
Su axıb arxa sızdı.
Neyləsin bu yazıq el
Əzəldən arxasızdır [10, s.94]

Bilmirəm nə dəmdəyəm,
Talesiz bir bəndəyəm.
Yuvasız bayquş kimi
Gündə bir vətəndəyəm [8, s.319]

Naxçıvanda yaranan bayatıların bir qismində də Arazın o tayında yaşayan qardaş- bacılarımızdan aralı düşməyin ağrısı, nisgili var:

Yaralı bir quşam men,
Çətin daha uçam men. Qonmuşam Araz üstə
Qəm sarıdan başam mən [8, s.372]
Görünən Savalandı,
Sultandı, sav alandı
Nə dərdimə dərman var,
Nə yaram sağalandı [95, s.281]

Əsrlərdən bəri bölüm-bölüm bölünən Vətənimizin o qədər ağrıları, nisgilləri var ki, "meşələr qələm, dəryalar mürəkkəb" olsa belə, yenə də yazdıqca tükənən, qurtaran deyil:

Çalıdı,
Nə tikan, nə çalıdı. Qürbətdə qalan elin
Biri də Borçalıdı [5, s.162]

Və yaxud:

Göyçədi,
Köksü göyçə - göyçədi.
Viran qalan elimin
Birisi de Göyçədi [50, s.166]

Yad əlinde haray çəkən torpaqlarımız, ağı, bayatı deyən dillərimiz var. Bir Kərkük xoyratında deyildiyi kimi:

Yad əlində
Qalmasın yad əlində.
Bir ölkə viran olub
Qalmasın yad əlində [6, s.194]

Biz də bir həqiqətə inanırıq ki, bizim torpaqlarımız da yad əlində qalmayacaq.

Qaçqın və köçkünlərimiz öz ev-eşiklərinə, doğma yurdlarına qayıdacaq. Onda nisgil dolu bayatılarımız, şeirlərimiz də tarixin arxivlərində bu günlərimizin canlı şahidləri kimi yaşayacaq. Bu sözləri dediyim anda belə yenə də gözlərim yol çəkir. Xəyalım uzaq-uzaq elləri, obaları dolaşır. Ulu Şəhriyar demişkən:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı? [4, s.97]

Biz də bir ümidin işığında yaşamaqla, işıqlı bir sabaha yol gedirik. Bu yolumuzun sonu işıqlı olsun. Qaçqınsız, köçkünsüz, bütöv bir el görək, məmləkət görək.

Material və metodika. Mövzuya aid ədəbiyyat, folklor materialları toplanılmış və işin metodikası hazırlanmışdır. Mövzu işlənərkən tarixin ayrı-ayrı inkişaf mərhələlərində, o cümlədən Azərbaycan və Naxçıvan MR-də ədəbiyyat və folklor tədqiqatları aparan alimlərin monoqrafiya, metodik vəsait, folklor materialları və müasir tələblərə cavab verən iş təcrübələrindən istifadə olunmuşdur [1, s.82; 3, s.56-72; 4, s.150-165].

Təhlil və müzakirə

Beləliklə, Qərbi Azərbaycan bölgəsinin adət-ənənələri, mərasimləri zəngin etnoregional spesifikaya malikdir. Bu özünəməxsusluq avtoxton həyatla müəyyənləşir. Başqa sözlə, Qərbi Azərbaycan mərasimləri

bütün struktur elementləri ilə bölgəyə bağlıdır: bölgənin təbiəti, relyef spesifikası, havası, suyu bu mərasimlərin quruluşunu, tərkib elementlərini, regional koloritini şərtləndirmişdir. Bu da öz növbəsində Qərbi Azərbaycan folklor mühitində mərasimləri etnoregional özünüifadə və davranışın fonnulları kimi səciyyələndirməyə imkan verir.

Nəticə

Məqalədə qaçqın həyatı yaşamaq, köçəri məsələlər, vətənə baxışlar xüsusi təsvir edilmiş, Azərbaycan folkloru Azərbaycan türk taleyinin poetik tərcüməçisi olmuşdur. Təqdim olunan məqalədə bu kimi məsələlər təhlil edilmiş və maraqlı nəticələr araşdırılmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası (Tərtib edən: Abdulla Bəhlul), Bakı: Çaşıoğlu, 2004.
2. Azərbaycanın aşıq və şair qadınları. Bakı: Gənclik, 1991.
3. Heyət Cavad. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı: Azərnəşr, 1993.
4. Hüseynəliyeva, L. Kişilər ağlayanda. Bakı: Yurd, 2000.
5. İraq - Kərkük bayatıları. Bakı: Yazıçı, 1984.
6. Kərimli, X. Mənə elə gəlir ki... Bakı: Nurlan, 2008.
7. Quliyev, E. "Heydərbabaya salam" necə varsa. Bakı: Elm, 2001.
8. Naxçıvan folkloru, I cild. Bakı: Sabah, 1994.
9. Naxçıvan folkloru, I cild. Naxçıvan: 2010.
10. Naxçıvan folkloru. Bakı: Nurlan, 2007.
11. Nemətova, S. Poetik yaddaşımızda ağılar. Naxçıvan: Qızıl dağ, 2007.
12. Nemətova, S. Ağı janrı: funksiya və poetik imkanlar. Naxçıvan: Əcəmi, 2019.

ABSTRACT

Sadagat NEMATOVA

THE HEARTBREAKING HOMELAND LONGING OF WEST AZERBAIJANIS IN OUR FOLKLORE

The hardships suffered by those who migrated from Western Azerbaijan find their effective expression in the verses of lyrical poetry. These poetic compositions serve as a means of conveying the deep emotional and experiential aspects of the migrants' struggles, reflecting the essence of their journeys, displacements, and the difficulties they face in adapting to new circumstances. The difficulties faced by those who migrated from Western Azerbaijan found an effective and effective expression through lyric poetry, bayati and lament verses. The emotional and experiential dimensions of the migrants' hardships are vividly reflected in these verses, creating a powerful story that resonates with readers on a deep level. Moreover, lyric poetry provides a cathartic outlet for migrants to express their inner feelings and move through the emotional terrain of displacement. Through carefully chosen words and evocative images, poets convey the longing for familiarity, the pain of separation, and the resilience in the face of difficulties. These verses become a collective voice that articulates the shared experiences of a profoundly transformed society. Essentially, the lines of lyric poetry serve as a powerful and enduring testament to the hardships of migrants from West Azerbaijan, immortalizing their experiences and contributing to the larger tapestry of human stories. Living life as a refugee, nomadic issues, views of the motherland are specially described in the article, Azerbaijani folklore has become a poetic translator of Azerbaijani Turkish destiny.

Keywords: *Western Azerbaijan, Goyche, refugee, displacement, homeland, village*

GÖYÇƏ AŞIQ MÜHİTİNİN HAQQ OZANI AŞIQ ƏLƏSGƏR ŞEİRLƏRİNDƏ AFORİZMLƏŞMİŞ İFADƏLƏR

Çinarə RZAYEVA
cinarerzayeva@yahoo.com.tr
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Qərbi Azərbaycan elinin görkəmli aşığı Aşıq Ələsgər yaradıcılığı zənginliyi ilə seçilir. Məqalədə ustadlar ustadı Aşıq Ələsgərin zəngin yaradıcılığı tədqiqata cəlb edilmiş, aforizmlər seçilmiş, bir sıra təhlillər edilmişdir. Aşığın yaradıcılığında həm xalq hikmətləri, həm də özünəməxsus aforizmlər geniş yer alır. Məqalədə Aşıq Ələsgərin şeirlərində işlənən atalar sözləri, xalq deyimləri seçilmiş, müqayisəli şəkildə təhlil süzgəcindən keçirilmişdir. Təhlillər zamanı məlum olmuşdur ki, görkəmli ustad tərəfindən bu janrların bir qismi olduğu kimi, bir qismi isə məzmunu saxlanılaraq, müəyyən dəyişikliklər edilərək işlədilmişdir. Bütün bu deyilənlər məqalədə nümunələr göstərməklə əsaslandırılmışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Aşıq Ələsgər, atalar sözləri, aforizmlər, şifahi xalq ədəbiyyatı*

Göyçə mahalının yetirməsi olan Aşıq Ələsgərin zəngin yaradıcılığı o qədər mükəmməldir ki, sonrakı dövr aşıqlarına da ilham mənbəyi olmuşdur. Elə buna görə də Aşıq Ələsgərin ustadlığını digər aşıqların yaradıcılığında açıq-aydın şəkildə görmək olur. Görkəmli aşığın zəngin yaradıcılığı mövzu dairəsi baxımından da çox geniş və hərtərəflidir. Bu zənginlikdə atalar sözlərinin də xüsusi rolu var. Xalq dilini sevən aşıq xalq yaradıcılığına müraciət etməklə xalqının, oxucusunun sevgisini qazanmış, əsərlərinin axıcılığı ilə onların ürəyinə, zehninə daha tez həkk olmuşdur.

İnsanlara düzgün yön verən atalar sözlərinin tarixi çox qədimdir. Bu janrın özünəməxsus bir çox xüsusiyyətləri var. Əsasən atalar sözlərində hökmlük, nəsihət, təcrübə özünü göstərir. Ə.Mirəhmədovun təbirincə desək: "Atalar sözü - şifahi xalq ədəbiyyatının ən çox yayılmış formalarından biri; həyatın bütün sahələrini müşahidə etmək və sınaqdan keçirmək sayəsində yaradılan, şifahi nitqdə və yazılı ədəbiyyatda çox işlədilən, bir və ya bir neçə cümlədən ibarət hikmətli sözlər"dir [9, s. 19]. Həmçinin "atalar sözlərində atalarımızın keçib gəldiyi yol, yaşadıqları həyat, sevincləri və çəkdikləri əziyyətlər, məna dolu nəsihətləri, keçmişdə yaşamış əcdadlarımızın adət və ənənələri əks olunmaqdadır" [8, s. 5]. Bütün bu deyilən xüsusiyyətləri özündə daşıdığına görə bu janr dəyərli və qiymətlidir. Buna görə də dərin mənası olan hikmətli sözlər bir çox şair və yazıçıların ilham mənbəyi olmuşdur. Eləcə də aşıqların. Ustadlar ustadı olan Aşıq Ələsgər yaradıcılığı da bu hikmətli sözlər baxımından zəngindir. Aşıq Ələsgərin yaradıcılığında atalar sözləri və məsəllər istər birbaşa, istərsə də dolayı yolla öz əksini tapır. Bəzi hikmətli sözləri olduğu kimi şeirlərində işlətmiş, bəzilərini isə biraz dəyişərək, ya şeirinin qafiyəsinə uyğunlaşdırmış, ya da özünün təfəkküründə görə əlaqələndirmişdir. Aşığın əsərlərində işlətdiyi hikmətli sözlər forma olaraq bir qədər dəyişsə də, mahiyyət və məna olaraq eyni atalar sözlərini ifadə edir.

Dövrünün aşıqlarına ustad dərsi verən, ustadlar-ustadı Aşıq Ələsgərin yaradıcılığını təhlil etdikdə görürük ki, hətta özü belə xeyli sayda hikmətli sözlər, aforizmlər yaratmışdır. Görkəmli aşığın şeirlərində rast gəldiyimiz atalar sözlərinin bir qismina nəzər yetirək:

Nütfəsində əyri olan
Tez göstərər isbatın;
Hər ağac kökündən bitər,
Hər meyvə gözlər zatın.
Hərcayı hədyana sayar,
Naşı bilməz qiymatin;
Əhli-irfan məclisində
Gövhərmisaldı yüküm [2, s.121].

Göstərilən nümunədə "Ağac kökü üstə bitər", "Ot öz kökü üstə bitər" [4, s.194], "Ağac kökündən su içər" [4, s.242] və s. bu qəbildən olan atalar sözlərinin mahiyyətini özündə daşıyan "Hər ağac kökündən bitər" ifadəsi kimi işlətmişdir. Böyük bir mənanı özündə əks etdirən bu atalar sözü bu gün də xalq dilində çox işləkdir. Əgər bir insan yaxşı ailədə doğulub böyüyürsə, onun pis olma ehtimalı çox azdır. Nəyəsə görə pis olsa da,

sonra etdiklərini dərk edib, yenidən öz kökünə qayıdacaq. Çünkü kökü salamatdır. Ya da bunun əksi, əgər bir övlad pis ailədə böyüyübsə, o yaxşı, keyfiyyətli insan kimi görünsə də, nə vaxtsa o özünün əslini büruzə verər. Bu zaman qarşıdakı -nə gözləyirdiz bəs? atalar deməyib ki, "ağac kökü üstə bitər" ifadəsini işlədər. Ehtimal ki, bu atalar sözü də bunun nəticəsində yaranıb. Deməli, kökü nədirsə, ağac da odur.

Aşığın başqa bir şeirində qələmə aldığı atalar sözünə nəzər salaq:

Qəza tutdu, qədər məni budadı,
Ağlatdı dostları, güldürdü yadı,
Zəhrimara döndü ağzımın dadı,
Əlimdə şərbətim ağı kəsildi [2, s.57].

Göstərilən nümunədə "Dost ağlar, düşmən gülər" [3, s.139] atalar sözü. "Ağlatdı dostları, güldürdü yadı" misrası ilə əvəzlənmişdir. Eyni mənanı ifadə edən bu misra, həqiqətən də, çox dəyərli fikirdi. Aşıq burada çox gözəl yanaşmış və yaxşı bir misra ilə böyük fikri ifadə etmişdir. Həqiqətən də, həyatda dostunu ağladan düşmənini, yadı sevindirər, onu güldürər. Axı qədim zamanlardan dostun dəyərli varlıq olduğunu hamı yaxşı bilir. Çünki "dostluq sözlərə sığmayan bir münasibətdir" [7, s.93]. Bu münasibət əsasən uşaqlıqdan başlayır. Buna görə də dostu ağlatmamaq, üzməmək lazımdır. Əksinə düşməni üzmək, ağlatmaq üçün dost sevinməlidir. Atalar yaxşı deyib: "Dost sevinər, düşmənin gözü çıxar" [3, s.140].

Ustad Aşıq Ələsgərin yaradıcılığı zəngin olduğu üçün maraqlı və dəyərli fikirlərlə tez-tez rastlaşırıq:

Könlüm yasdan çıxmır, qəlbim qaradan,
Bu dərdü möhnətdən, bu macəradan.
Dövlət getdi, hörmət qalxdı aradan,
Qapımızdan dost ayağı kəsildi [2, s. 57].

Bəli, vaxtı ilə atalarımız yaxşı deyib: "Bağda ərik var idi, salam əleyk var idi, bağda ərik qutardı, salam əleyk qutardı" [3, s.65]. Bu atalar sözünün məzmunu aşığın yaradıcılığından verdiyimiz nümunədə "Dövlət getdi, hörmət qalxdı aradan" misrası ilə əvəzlənmişdir. Formacan bir-birinin əksi kimi görünən bu dəyərli fikir məna baxımdan atalar sözü ilə eynidir. Bəzi keyfiyyətsiz, statusa önəm verənlər üçün dövlət, mal-mülk getdisə, deməli, həmin adam üçün hörmət itdi. Hörmət itmək hər şeyin itməsi deməkdir. Atalar sözündə qeyd edildiyi kimi, Allahın salamı belə itir. Sonuncu misrada aşıq da yerində qeyd edir ki, dövlət getdi, dost bildikləri insanların ayağı kəsildi. Deməli, dost bildiklərimiz o insanlar həqiqi dost deyilmiş. Hər şeyi varda, dövlətdə görən insandan uzaq durmaq lazımdır. Aşıq Ələsgərin başqa bir şeirində dostla bağlı yenə gileyini görürük:

On bir aydı, mənim üzüm gülmədi,
Qəza qəhri məndən heç üzülmədi,
Yaxşı dostlar yaman gündə gəlmədi,
Dost sarıdan çox mükəddər olmuşam [2, s.72].

Nümunədən görünür ki, aşığın yaşadığı pis günlərdə dostları onu görməyə gəlməmiş. Ehtimal edirik ki, "Yaxşı dost yaman gündə məlum olar" [3, s.409] atalar sözündən yola çıxaraq "Yaxşı dost yaman gündə gəlmədi" misrasını qələmə almışdır. Çünki aşıq da bilir ki, atalarımız "Əsil dost yaman günün dostudu" deyib" [3, s.178]. Nümunədən görünür ki, Aşıq Ələsgər dərdli günlərində gözü yaxşı bildiyi dostlarını axtarıb, xalq dili ilə desək, "gözü qapıda qalıb", onlar da gəlməyincə ürəyini qələmə tökərək "Olmuşam" qoşmasında gileyini, narazıçılığını bildirmişdir.

Aşıq Ələsgərin cığalı təcnisində də dostla bağlı atalar sözünə rast gəlirik. Həmin nümunədən oxuyuruq:

Mərifət bəhrində qəvvasam deyən,
Gir dərin dəryaya, çalxan, üz ha üz.
Mən aşığam, üz ha üz,
Sonam, göldə üz ha üz.
Bivəfadan yar olmaz,
Ömür üzsən, üz, ha üz.
Qarı düşman bir də gəlib dost olmaz,
Əlin tutub yalvarasan üz ha üz [2, s.107].

İstedadlı aşığın qələmə aldığı bu bəndin üçüncü misrasında qeyd etdiyi fikir "Qarı düşman dost olmaz" [4, s.252], "Əski düşman dost olmaz, eski dost düşman olmaz" [4, s.109], "Əgri düşmən dost olmaz" [3, s.167] atalar sözlərini əks etdirir:

Demək olar ki, göstərdiyimiz nümunələrin hamısı eyni mənanı ifadə edir. Aşıq Ələsgərin qələmə aldığı

misra "qarı düşmən dost olmaz" hikmətli sözünə "bir də gəlib" ifadəsini əlavə edərək misrasını tamamlamışdır. Bu da onun fikrə yanaşma tərzini göstərir. Belə dəyərli hikmətli sözlərin istər aşıq yaradıcılığında, istərsə digər yazıçı və şairlərin yaradıcılığında işlənməsi ilə həmin əsərlərin sanbalını bir az daha artırmış olurlar. Həmçinin hikmətli sözlərə ustad aşıq tərəfindən fərqli baxış açısından yanaşmanı da görürük.

Bildiyimiz kimi, insan üçün söz önəmlidir. İstər kişi, istərsə qadın verdikləri sözlərindən dönməməli, bir söz deyildisə, onun üstündə durmalı, dediyi sözü yerinə yetirməlidir. Hələ ta qədim zamanlardan dədələrimiz, babalarımız, atalarımız demişdir ki, "kişinin sözü bir olar" [4, s.149]. Bu dəyərli fikir də aşığın yaradıcılığında önəmli yer tutur. "Yaxşıdır" adlı qoşmasında bu atalar sözünün mənasını ifadə edən fikri qələmə almışdır:

Arif olan, gəlin sizə söyləyim,
İyid sözü mərd-mərdana yaxşıdı.
Kişi gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı [2, s.82].

Bu bəndin üçüncü misrasında "kişi gərək dediyindən dönməyə" fikri atalar sözlərindən alınmış və məzmun baxımından "Kişi öz sözünün ağası olar" [4, s.149], "Kişinin sözü ilə işi bir olar" [3, s.257] hikmətli sözlərini əhatə edir.

Xalq hikmətinin işləndiyi başqa bir təcnisindən oxuyuruq:

Ələsgər də eşq içində qaladı,
Şirin canın ataşına qaladı.
Ər iyidin canı getsə, qala adı,
Nakəslərin dəhr içində nə də adı! [2, s. 103]

Bu şeir parçasının üçüncü misrasını "Ər iyidin canı getsə, qala adı" oxuyanda, "İgid ölər adı qalar", "İgid ölər, adı qalar, müxənnətin nəyi qalar" bu kimi atalar sözünü yada salırıq. Təbii ki, igidlik burda ümumi mənada götürülmüşdür. Bura bir çox peşə sahibləri də daxildir. Gərək istənilən peşə sahibi-sənətkar, yazıçı, şair, aşıq, alim və bu kimi digər peşə sahibləri öz işlərinə sevgi ilə yanaşıb, bilik, bacarıq, igidlik, mərdlik, cəsarət göstərsin ki, özü olmayanda, yəni dünyasını dəyişəndə adı qala. Aşıq Ələsgərin də bu şeirində deyildiyi kimi "ər iyidin canı getsə, qala adı". Ustad aşığın yaradıcılığında "Yaman at" adlı qoşması diqqətimizi çox çəkdi. Aşıq bu qoşmada bir bənddə bir neçə xalq hikmətini məharətlə işlətmişdir. Həmin qoşmadan oxuyuruq:

Bu dünyada üç şey başa bəladı;
Yaman oğul, yaman arvad, yaman at.
İstəyirsən qurtarasan əlindən,
Birin boşla, birin boşa, birin sat [1, s.105].

Bu bənddə işlənən həmin atalar sözlərini xatırlayaq: Arvadın pisdi, boşa [3, s.47], Qonşun pisdi, köç qurtar, dişin ağrıyır, çək qurtar, arvadın pisdi, boşa qurtar, halın pisdi, öl qurtar [3, s.297], "Atın yaman sat, qardaşın yaman qaç, arvadın yaman at" [5, s.18]. Arvadla, atla bağlı verilən atalar sözləri yuxarıdakı şeir parçasında ifadə olunmuşdur. Nümunələrdən də görünür ki, pis olan nə varsa ondan uzaqlaşmaq olur, bir övladdan başqa. Övladı atmaq olmadığına görə də ustad aşıq burada onu boşlamaq ifadəsini qələmə alaraq bir daha oxucusuna çatdırır ki, övladı atmaq olmaz. Yaxşı deyiblər: "Evlad dəniz suyudur, nə içilir, nə vaz keçilir".

Xalq hikməti ilə yanaşı, xalq deyimlərinin də izlərini aşığın yaradıcılığında görürük. Çünki xalq deyimləri ta qədim zamandan bu günə kimi xalqımızın dillər əzbəri olmuşdur. Buna görə də bir çox yazılı əsərlərdə bunu açıq şəkildə görürük. Aşıq Ələsgər yaradıcılığında xalq deyimlərini işlətməklə əsərlərinin emosionallığını artırmış, məna çalarını genişlətmişdir. Ustad sənətkarın yaradıcılığında işlənən həmin məsəllərdən bir neçəsini tədqiqata cəlb etməyimiz yerinə düşər:

Gəldi yaz ayları, həsrət çəkər xak,
Deyər: – Neysan gələ a yağa-yağa.
"Lənət şeytana!" – de, şər işdən əl çək,
Şeytan səni salar ayaq-ayağa [2, s. 101].

Göstərilən bənddə qələmə alınan "Lənət şeytana!" ifadəsi "Lənət kor şeytana", "Lənət şeytana" və s. kimi variantları ilə xalq deyimlərində yer almışdır. Bu deyimlərdən insanı "pis fikirdən daşındırmaq" [6, s.325] üçün istifadə olunur. Elə aşıq özü də həmin deyimdən sonra mənasını da qeyd edir ki, şərdən uzaq ol, əl çək, yoxsa şeytan səni ayaq altına salar. Görünür ki, bu xalq deyimi də istedadlı aşığın diqqətini çəkmiş və şeirlərində qələmə alaraq oxucusuna çatdırmışdır.

İstedadlı aşıq təkcə atalar sözləri və məsəlləri yaradıcılığında əks etməklə kifayətlənməmişdir. O, həmçinin özünə məxsus dərin mənalı aforizmlər də yaratmışdır.

Aşıq Ələsgərin işlətdiyi hikmətli sözlər nəsihət xarakterlidir. Bu hikmətli sözlərin təsiri çox böyükdür. Hətta bu dəyərli sözləri eşidən hər bir kəs fikrində yaxşı mənada dəyişikliklər edib, düzgün qərarlar verə bilər. Aşıq Ələsgərin qələmə aldığı bir neçə aforizmlərə nəzər yetirək:

Ahən gəzər, səngə verər mər dana,
Mərd oğulun qəhrin çəkər mərd ana.
Mərd iyid meydanda durar mərdana,
Müxənnət yapışar ayağa, Qarqar [2, s. 89].

Və yaxud:

Bir mərd ilə ülfət qılan
Axır bir gün mərd olu,
Namərd ilə ülfət qılan
Çöl-biyaban dərd olu [2, s. 236].

Aşıq burda nə gözəl ifadə edir. Mərd ilə oturub duran bir gün mərd olar. Namərdlə oturub duran isə namərd olar. Atalar boşuna deməyib ki, "Dostunu mənə de, deyim sən kimsən". Bu bənddə aşıq bütün gənclərə düzgün və gözəl yol göstərir. Hər kəs gərək münasibət qurduğu adama fikir verə, özünə yaxşı yoldaş seçə. "Çünki dost evini dost yıxar", "Mərd ilə gəzən mərd olar, namərd ilə gəzən biyaban-gərd".

Aparılan araşdırmalar göstərdi ki, istedadlı aşığın yaradıcılığı bir-birindən təsirli, rəngarəng folklor nümunələri, xüsusən də atalar sözləri və xalq deyimləri ilə zəngindir. Ustad aşıq əsərlərində atalar sözləri və xalq deyimlərindən özünəməxsus ustalıqla elə yerli-yerində istifadə etmişdir ki, uzun illər keçməyinə baxmayaraq, öz dəyərini itirməmiş, əksinə daha da sevilən və dəyərli olmuşdur. Yaradıcılığında müraciət etdiyi hikmətli sözlər, istərsə də özünün yaratdığı dəyərli fikirlər özündə böyük tərbiyəvi əhəmiyyət daşıyır. Bu da onu göstərir ki, ustad aşıq hərkəs üçün önəmli olan deyimlərə, fikirlərə daha çox üstünlük verərək onları qələmə almışdır.

Aşıq Ələsgər əsərlərinin təhlili göstərdi ki, onun zəngin yaradıcılığı istər Qərbi Azərbaycan folklorunun araşdırılmasında, istər digər bölgələrin folklor nümunələrinin öyrənilməsində istinad ediləcək mükəmməl mənbələrdən biridir.

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər. (Bütün əsərləri). Bakı: "Ol" MMC, 2014, 504 s.
2. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Atalar sözləri. Bakı: Nurlan, 2013, 476 s .
4. Atalar sözləri. Bakı: Öndər, 2004, 264 s.
5. Atalar sözü, elin sözü. Təbriz: 2005, 173 s.
6. Bəhruz Həqqi. Türk deyimləri. Bakı: Nurlan, 2005, 535 s.
7. Rzayeva, Ç. Folklor mətnlərinin uşaqların formalaşmasında rolu. Naxçıvan: Əcəmi, 2021, 136 s.
8. İbrahim Yoldaşev, Mühittin Gümüş. Türkçe açıklamalı özbek ata sözleri. Ankara: 1995, 191 s.
9. Mirəhmədov, Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: Azərbaycan ensiklopediyası, 1998.

ABSTRACT

Chinara RZAYEVA

APHORISTIC PHRASES IN POEMS BY ASHIQ ALASGAR, THE POET OF GOYCHA ASHIG ENVIRONMENT

Ashiq Alasgar, a prominent lover of West Azerbaijan, stands out for his richness of creativity. In the article, the rich creativity of Ashiq Alasgar, the master of masters, was involved in the research, and a number of analyzes were made of selected aphorisms. Both folk wisdoms and unique aphorisms take a large place in Ashik's work. In the article, proverbs and folk idioms used in Ashıg Alasgar's poems were selected and analyzed in a comparative manner. During the analysis, it became clear that some of these genres were used by the outstanding master as they were, and some of them were used with their content and certain changes. All this is justified by showing examples in the article.

***Keywords**: Western Azerbaijan, Ashiq Alasgar, proverbs, aphorisms, oral folk literature*

İBTİDAİ SİNİFLƏRDƏ QƏRBİ AZƏRBAYCAN FOLKLOR MATERİALLARININ TƏDRİSİ VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN AŞILANMASI

Sahilə ABBASOVA
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə ibtidai siniflərin Azərbaycan dili dərslərində folklor materiallarının tədrisi prosesində milli-mənəvi dəyərlərin aşılanması məsələləri araşdırılır. Folklor nümunələrinin şagirdlərdə milli kimlik, vətənpərvərlik hissi və tarixi yaddaşın formalaşmasına təsiri təhlil olunur. Eyni zamanda Azərbaycan dili dərsliklərində yer alan folklor mətnlərinin məzmun xüsusiyyətləri, onların tədrisi metodikası və müasir texnoloji yanaşmalar əsasında öyrədilməsi imkanları şərh edilir. Məqalədə Qərbi Azərbaycan folklor mühitindən qaynaqlanan nümunələrin milli yaddaşın qorunmasında rolu xüsusi vurğulanır.

Açar sözlər: *folklor materialları, ibtidai təhsil, Azərbaycan dili təlimi, milli-mənəvi dəyərlər, Qərbi Azərbaycan, metodika*

Giriş

Azərbaycan folkloru xalqın milli-mənəvi dünyasını, adət-ənənələrini və tarixi yaddaşını yaşadan mühüm mənəvi sərvətdir. Xalq yaradıcılığı nümunələri uşaqlarda milli kimlik şüurunun formalaşdırılmasında, vətənpərvərlik hisslərinin gücləndirilməsində və mənəvi keyfiyyətlərin inkişafında mühüm rol oynayır. Bu baxımdan ibtidai siniflərdə Azərbaycan dili dərslərində folklor materiallarının tədrisi xüsusi əhəmiyyət daşıyır.

Uşaqlar elmin və incəsənətin bütün başqa növlərindən qabaq bədii ədəbiyyatla, söz sənəti ilə tanış olurlar. Uşaq hələ başqa elmlərlə tanış olmadığı zamanda belə nağıl, tapmaca, atalar sözlərini bilir, nağıl və şeirləri böyük həvəslə dinləyir və öyrənirlər [3, s.17]. Bu maraq və meylin əsasında bədii ədəbiyyatın ilkin mənbəyi olan şifahi xalq yaradıcılığı dayanır. Laylalar, bayatılar, oxşamalar, əzizləmələr kimi ibtidai nümunələr körpənin ilk eşitdiyi bədii ifadələrdir. Azərbaycan folklorunun ayrılmaz tərkib hissəsi olan Qərbi Azərbaycan folklor mühitinə aid nümunələr isə uşaqlarda doğma yurda bağlılıq, milli yaddaş və tarixi köklərə hörmət hisslərinin formalaşdırılmasında mühüm rol oynayır [4].

Eyni zamanda qeyd edilməlidir ki, "Qərbi Azərbaycan folkloru" anlayışı müəyyən mənada şərti xarakter daşıyır [4, s.7]. Belə ki, Qərbi azərbaycanlılar tarixi-etnik məkanlarından ayrı düşdüyündən həmin folkloru yaradan və yaşadan ənənəvi etnoqrafik mühit zamanla parçalanmışdır. Bununla belə, bu folklor nümunələri xalqın milli yaddaşında qorunaraq nəsildən-nəslə ötürülmüş və Azərbaycan folklorunun ayrılmaz tərkib hissəsi kimi yaşamaqda davam etmişdir.

Xüsusilə bayatı, layla, aşıq yaradıcılığı və yurd motivli folklor nümunələri xalqın doğma torpağa bağlılığını, mənəvi dünyasını və tarixi yaddaşını əks etdirir. Bu baxımdan Qərbi Azərbaycan folklor mühitinə aid nümunələrin ibtidai siniflərdə tədrisi şagirdlərdə milli-mənəvi bağlılığın, vətənpərvərlik hissinin və tarixi yaddaşın formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

İbtidai siniflərin Azərbaycan dili dərsliklərində təqdim olunan folklor materialları əsasən şagirdlərin yaş və psixoloji xüsusiyyətlərinə uyğun seçilmişdir. Bu materiallar:

– şagirdlərin nitq inkişafını təmin edir;
– estetik zövq formalaşdırır;
– milli-mənəvi dəyərləri aşılayır;
– yaradıcı təfəkkürü inkişaf etdirir.

Dərsliklərdə "Vətən", "Ana dili", "Bayatılar", "Nağıllar", "Novruz bayramı", "Aşıq sənəti"

kimi mövzular folklor materiallarının öyrədilməsi üçün geniş imkanlar yaradır. Bu mövzular vasitəsilə şagirdlərdə milli-mənəvi dəyərlərə hörmət, doğma yurda bağlılıq, ana dilinə sevgi və milli birlik hissi formalaşdırılır. Xalq yaradıcılığı nümunələri emosional təsir gücü ilə seçildiyindən onların təlim prosesində istifadəsi şagirdlərin həm dünyagörüşünün, həm də mənəvi keyfiyyətlərinin inkişafına müsbət təsir göstərir [5].

Folklor nümunələrinin tədris prosesinə məqsədyönlü şəkildə daxil edilməsi Azərbaycan maarifçilik ənənəsində də mühüm yer tutmuşdur. Maarifçi-pedaqoqlar xalq yaradıcılığını uşaqların tərbiyəsində, milli düşüncəsinin formalaşdırılmasında və dil bacarıqlarının inkişafında təsirli vasitə kimi qiymətləndirmişlər. Bu baxımdan folklor materiallarının seçilməsi və yaş xüsusiyyətlərinə uyğun təqdim olunması xüsusi pedaqoji əhəmiyyət daşıyır.

Bu istiqamətdə aparılan tədqiqatlarda Azərbaycan maarifçilik tarixində mühüm xidmətləri olan Firidun bəy Köçərlinin uşaqlar üçün tərtib etdiyi "Balalara hədiyyə" əsəri xüsusi əhəmiyyət daşıyır. Məktəbəqədər və ibtidai təhsil pilləsi üçün hazırlanmış bu müntəxəbatın əsas hissəsini folklor nümunələri təşkil edir. Kitabda yer alan nağıl, bayatı, tapmaca və digər şifahi xalq ədəbiyyatı nümunələri pedaqoji və psixoloji xüsusiyyətlər nəzərə alınaraq seçilmişdir. Bu isə folklorun təlim prosesində məqsədyönlü və səmərəli istifadəsinin uğurlu nümunəsi kimi qiymətləndirilir [2]. "Balalara hədiyyə" əsəri Azərbaycan dili dərsliklərinin məzmun və struktur baxımından formalaşmasında nümunəvi mənbə kimi çıxış edir. F.Köçərli qeyd edir ki, tarixini, dilini, Vətənini və milli kimliyini sevən xalq öz folklorunu "kəmali zövq və diqqətlə cəm edib ziqiymət sərmayə kimi saxlayır" [2, s.5] və uşaqların ilkin təlim-tərbiyəsinə məhz folklor vasitəsilə başlanılır.

Kitabda xalq nağılları, tapmacalar, laylalar, sayaçı sözləri və digər folklor janrlarına aid nümunələr yer almışdır. "Göyçək Fatmanın nağılı", "Pıspısa xanım və siçan bəy", "Xoruz və padşah", "Şəngülüm, Şüngülüm, Məngülüm" kimi nümunələr milli təhsilin ilkin mərhələsi üçün dəyərli didaktik materiallardır [2].

Bu yanaşma müasir ibtidai təhsil konsepsiyası ilə uyğunluq təşkil edir və Azərbaycan dili təlimində folklorun əsas tərbiyəvi vasitə kimi istifadəsinin elmi-metodik əsaslarını gücləndirir.

Eyni zamanda bu ideya folklorun yalnız ümumazərbaycan kontekstində deyil, onun regional zənginliyi baxımından da əhəmiyyətini göstərir. Xüsusilə Qərbi Azərbaycan folklor mühiti – bayatılar, laylalar, aşıq yaradıcılığı və yurd motivləri ilə zəngin ənənə – "Balalara hədiyyə"də ifadə olunan milli tərbiyə prinsipinin davamı kimi qiymətləndirilə bilər. Bu baxımdan folklor nümunələrinin tədrisi şagirdlərdə həm ümummilli, həm də regional-mədəni yaddaşın formalaşmasına xidmət edir.

Qərbi Azərbaycan folklor mühitindən qaynaqlanan bayatı və laylalarda doğma yurda sevgi, ayrılıq hissi və milli bağlılıq motivləri aydın şəkildə ifadə olunur. Bu nümunələr şagirdlərin emosional tərbiyəsində mühüm rol oynayır.

Bundan başqa folklor materiallarının tədrisi zamanı müəllim yalnız mətnin məzmununun öyrədilməsi ilə kifayətlənməməli, həm də onun tərbiyəvi potensialını üzə çıxarmalıdır [4]. Müasir təlim metodları bu istiqamətdə geniş imkanlar yaradır.

Məsələn, "Vətən" mövzusunun tədrisi zamanı Qərbi Azərbaycanla bağlı folklor nümunələrindən istifadə şagirdlərdə yurd sevgisi, milli yaddaş və doğma torpağa bağlılıq hissinin formalaşmasına mühüm təsir göstərə bilər. Folklor materiallarının emosional və tərbiyəvi təsir imkanlarını daha da artırmaq üçün onların müxtəlif interaktiv üsullarla təqdim olunması məqsədəuyğun hesab edilir. Bu baxımdan səhnələşdirmə və rollu oyunlar xüsusi əhəmiyyət daşıyır.

Nağıl və əfsanələrin səhnələşdirilməsi ibtidai sinif şagirdlərinin yaradıcılıq imkanlarını inkişaf etdirən mühüm metodlardan biridir. Bu üsul şagirdlərin nitq bacarıqlarını inkişaf etdirir, kollektiv fəaliyyət vərdişləri formalaşdırır və dərsə marağı artırır. Eyni zamanda folklor obrazlarının canlandırılması uşaqlarda milli-mədəni dəyərlərə marağı gücləndirir. Şagirdlər dərsin sadəcə dinləyicisi deyil, aktiv iştirakçısı olduqda, tədris materialına daha böyük maraq göstərirlər ki, bu da öz növbəsində biliklərin daha yaxşı mənimsənilməsinə kömək edir [1, s.79].

Folklor materialları şagirdlərdə vətənpərvərlik hissinin, milli kimlik şüurunun, ana dilinə

sevginin və tarixi yaddaşın formalaşdırılmasına mühüm təsir göstərir [5].

Yurd mövzulu folklor nümunələri uşaqlarda doğma torpağa bağlılıq hissi yaradır. Qərbi Azərbaycan folklor mühitinə aid nümunələr xalqın mənəvi dünyasını, tarixi yaddaşını və milli dəyərlərini əks etdirir [1].

Bu baxımdan folklor materiallarının tədrisi yalnız dil bacarıqlarının deyil, həm də şəxsiyyətin formalaşmasının mühüm vasitəsidir.

Nəticə

Araşdırma göstərir ki, ibtidai siniflərin Azərbaycan dili dərslərində folklor materiallarının məqsədyönlü şəkildə tədrisi şagirdlərin milli-mənəvi tərbiyəsində mühüm rol oynayır. Folklor nümunələri uşaqlarda milli kimlik, vətənpərvərlik və tarixi yaddaş hisslərinin formalaşmasına müsbət təsir göstərir.

Azərbaycan dili dərsliklərində folklor materiallarının müasir metodik yanaşmalar və yeni texnoloji vasitələr əsasında tədrisi təlimin səmərəliliyini artırır. Eyni zamanda Qərbi Azərbaycan folklor mühitindən qaynaqlanan nümunələrin tədrisə inteqrasiyası milli yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Gülnarə Qədirova. İbtidai məktəbdə interaktiv təlim metodları: şagird motivasiyasına və onların idrak qabiliyyətlərinin inkişafına təsiri // Azərbaycan Dövlət Pedaqoji Universiteti Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. 2026 / Cild: 6, Sayı: 4 / 78-82
2. Köçərli F. Balalara hədiyyə. Bakı, "Şərq-Qərb", – 2013, 172 s.
3. Qarabağlı, Ə. Məktəbdə şifahi xalq ədəbiyyatının tədrisi / Ə.Qarabağlı. – Bakı: –Maarif, –1968. – 179 s.
4. Qərbi Azərbaycan folkloru. III kitab. – Bakı: Elm, – 2024, 416 s.
5. Xuraman Kərimova. Milli təhsil və Azərbaycan folkloru // 525-ci qəzet. – 2019, 15 iyul.

ABSTRACT

Sahila ABBASOVA

TEACHING WESTERN AZERBAIJAN FOLKLORE MATERIALS IN PRIMARY GRADES AND INSTILLING NATIONAL AND MORAL VALUES

This article examines the issues of instilling national and moral values through the teaching of folklore materials in Azerbaijani language classes in primary grades. The impact of folklore examples on the formation of students' national identity, patriotism, and historical memory is analyzed. At the same time, the content characteristics of folklore texts included in Azerbaijani language textbooks, their teaching methodology, and the possibilities of teaching them through modern technological approaches are discussed. The article particularly emphasizes the role of examples originating from the folklore environment of Western Azerbaijan in preserving national memory.

Keywords: *folklore materials, primary education, Azerbaijani language teaching, national and moral values, Western Azerbaijan, methodology.*

XANLIQLAR DÖVRÜ VƏ XIX ƏSR İRƏVAN-AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİ

Tahirə MƏMMƏD
tahire.mammed@yahoo.com
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

XÜLASƏ

Əlyazmalar və kitablar göstərir ki, İrəvanda fəaliyyət göstərən şair və yazıçıların yaradıcılığı möhkəm ənənələr üzərində qurulmuş, həm ədəbi, həm də tarixi əhəmiyyətə malik olmuşdur. Rus işğalından sonra ədəbi irs ciddi şəkildə məhv edilmiş və talan edilmiş, repressiya illərində əlyazmalar kütləvi şəkildə itirilmişdir.

Xanlıqlar dövründə klassik poeziya üstünlük qazanmış, Mirzə Məhəmməd Müslim (təxəllüsü Qüdsi) və Bahar kimi şairlər bu dövrün əsas nümayəndələri olmuşdur. Yazılı ədəbiyyat, həmçinin məktəb və maarif sahəsində fəaliyyət göstərən ədəbi məclislərlə əlaqəli olaraq inkişaf etmişdir. XIX əsr İrəvan ədəbi mühitində aşıq şeiri nümunələri olsa da, klassik divan poeziyası ənənəsi daha dominant olmuşdur. Bölgədə Azərbaycan dilində kitab və qəzet nəşri XIX əsrin sonlarına qədər mümkün olmamış, müəlliflər əsərlərini əsasən Təbrizdə çap etdirmişlər. Buna baxmayaraq, İrəvan ədəbi mühiti zəngin divanlar, məsnəvilər, lirik və satirik şeirlər yaratmış, farsca və ərəbcə yazı nümunələri də mövcud olmuşdur.

XIX əsrdə İrəvanda maarifçilik fəaliyyəti ilə tanınan Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli və Məmmədqulu bəy Kəngərli kimi ziyalılar ədəbi mühitin formalaşmasına töhfə vermiş, məktəb və mətbuat vasitəsilə Azərbaycan ədəbiyyatının inkişafına xidmət etmişlər.

İrəvan ədəbi mühitinin xüsusiyyətlərindən biri də azərbaycanlıların əzəli sakin kimi mədəni və ədəbi ənənələri qoruması, eyni zamanda ermənilərin burada mövcud Azərbaycan mədəniyyəti və ədəbiyyatından təsirlənməsi olmuşdur. Xülasə olaraq, XIX əsr İrəvan-Azərbaycan ədəbi mühiti milli ədəbiyyatın inkişafında mühüm rol oynayıb və gələcəkdə Qərbi Azərbaycana qayıdışla bu zəngin ənənələr yenidən bərpa olunacaqdır.

***Açar sözlər**: İrəvan ədəbi mühiti, əlyazmalar, klassik poeziya, divan poeziyası, maarifçilik, Azərbaycan ədəbiyyatı, xanlıqlar dövrü, ədəbi məclislər.*

İrəvan ədəbi mühitinin təşəkkül mərhələsi orta əsrlərdən başlasa da, onun tam formalaşması xanlıqlar dövrü və XIX əsrə təsadüf edir. Əldə olan mətnlər sübut edir ki, bu məkanda yaşayıb-yaradan şair və yazıçıların yaradıcılığı çox güclü və davamlı ənənələr üzərində qurulmuşdur. İrəvanın keşməkeşli taleyi ədəbi mühitin nailiyyəti və mirası olan kitablardan, əlyazmalardan da yan keçməmişdir. Rus işğalından sonra ədəbi abidələrin, əlyazmaların çoxu məhv və talan edilmiş, mənimsənilmiş, mümkün qədər həmin irsin sahiblərindən uzaq tutulmuşdur. Repressiya illərində əlyazmalar kütləvi surətdə sıradan çıxarılmışdır. Ona görə də əldə olan və haqqında məlumat verilən mətnlərin İrəvan ədəbi mühitinin mənzərəsini tam əks etdirdiyini söyləmək olmaz. Darmadağın edilmiş qaynaqlar içərisində bizə çatan ilk ədəbi nümunələrdən biri Məhəmməd Hüseyn İrəvaniyə aiddir. "O, 1657-ci ildə Sədi Şirazinin "Gülüstan" əsərini Azərbaycan dilinə tərcümə etmişdir" [6, s.131].

Xanlıq dövründən əvvəl aşıq yaradıcılığının daha yayğın olduğu İrəvan ərazisində XVIII əsrdən başlayaraq klassik poeziya istiqaməti üstünlük qazanır. İrəvan xanlığının ən məşhur şairlərindən biri xanlığın münşisi, üç dildə yazıb- yaradan Mirzə Məhəmməd Müslim (təxəllüsü-Qüdsi) idi. Tarix elmləri doktoru Eynulla Mədətli cənublu soydaşımız Səməd Sərdarianın "İrəvan müsəlman yurdu olmuşdur" kitabından bəhs edərkən Qüdsi haqda yazılanlar üzərində xüsusilə dayanmış və onun İranda saxlanan divanı, divana daxil edilən 300 beytlik "Tousife-İrəvan" ("İrəvanın vəsfi") məsnəvisi haqda elmi məlumat vermişdir [8, s.196-199]. Həmin məsnəvidə İrəvan məhəllələri vəsf olunduğundan o, təkcə ədəbi yox, həm də tarixi məxəz dəyəri qazanır. Səməd Sərdarian İrəvani nisbəsi ilə tanınmış 12 şair haqqında məlumat vermişdir.

Xanlıqlar dövrünün digər bir şairi Bahardır. Türkiyədə yaşayan həmyerlimiz, Kastomonu Universitetinin professoru Vüsalə Musalı XVIII əsrin sonu - XIX əsrin əvvəlləri İrəvan şairlərindən Bahar haqqında yazır: "Əsil adı Əli olan Bahar təxəllüslü şair haqqında yeganə məlumatı Arif Hikmətin təzkirəsindən alırıq. Bahar Azərbaycanın tarixi torpaqlarından olan İrəvan mahalında doğulmuş, daha sonra Osmanlı ölkəsinə köçmüşdür. Bir müddət Üsküdarda qazılıq etmişdir. Çox savadlı bir insan olan Bahar türk və fars dillərində şeirlər yazmış, kimya elminə maraq göstərmişdir. O, 1813-cü ildə vəfat etmişdir" [12, s.114].

Xanlıqlar dövrü, eləcə də bütövlükdə XIX əsr İrəvan ədəbi mühitində yazılı poeziyada aşıq şeiri tərzində yazılan nümunələr olsa da, klassik şeir ənənələrinin davamı özünü daha aydın göstərir. XIX əsr şairlərinin fəaliyyətində o dövr üçün bütün Azərbaycan ədəbiyyatına xas olan bir cəhət də mövcuddur. Onlar da digər bölgələrimizdə olduğu kimi, məktəbə, maarifə önəm verir və dərsliklər yazır, klassiklərdən tərcümələr edirdilər. Bu cür fəaliyyət XIX əsrdə Azərbaycanda mövcud olan ədəbi məclislərin təmsilçiləri tərəfindən yerinə yetirilirdi; məktəbdarlıq onların əsas missiyalarından biri idi. Ədəbi məclislərin fəaliyyətinə nəzər saldıqda onların məğlub olmuş xanlıqların varisləri və regionun imkanlı şəxsləri tərəfindən himayə olunmasının şahidi oluruq. Vaxtilə xan sarayında toplanıb bir araya gələn sənətkarlar sonralar da məclislər təşkil edir, fikir mübadiləsi aparırdılar. Klassik ənənənin qorunub yaşaması, maarifçiliyin təşəkkülü, satiranın inkişafı, yeni ədəbi-intellektual nəslin yetişməsində ədəbi məclislərin böyük rolu olmuşdur. XIX əsr İrəvan ədəbi məclisinə Bəzmi təxəllüsü ilə tanınan Məşədi İsmayıl Hacı Kazımzadə rəhbərlik etmişdir. Azərbaycanın əksər XIX əsr şairləri kimi Bəzmi də klassik şeir ənənələrinə daha yaxın olmuş, divan poeziya janrlarında yazıb, yaratmış, eyni zamanda həcv və satirik şeirlər müəllifi kimi də tanınmışdır. Bəzmi ticarətlə məşğul olub, İrəvanın ən zəngin şəxslərindən biri kimi tanınmışdır.

İşğaldan sonra Qafqazın əsas əhalisi olan azərbaycanlıları sıxışdırmaq və vətənlərini kiçiltmək məqsədilə çar Rusiyası tərəfindən, mümkün qədər, Azərbaycan mədəniyyətinin inkişafına maneələr törədilməyə çalışılırdı. Belə bir fakta diqqət yönəltmək vacibdir ki, XIX əsr Azərbaycan müəllifləri çar Rusiyasının tərkibində olan vətənlərindən bəhs edərkən onu daha çox Qafqaz adlandırmışlar. Həmin şairlər Azərbaycanı yox, bütün Qafqazı öz vətənləri hesab edirdilər. İşğalçı güclərin təzyiqi və kənardan köçürülən qeyri-türklərin hesabına yavaş-yavaş Qafqazın əsil sahiblərinin, türklərin-azərbaycanlıların vətəni olması anlayışı pozulmağa başladı.

Azərbaycanlı ziyalıların öz kitablarını çap etdirmək üçün İrəvanda mətbəələri yox idi. İrəvan tarixi, mədəniyyəti ilə bağlı qiymətli tədqiqatlar müəllifi olan İsrafil Məmmədov yazır: "90-cı illərədək (XIX əsr –T.M.) İrəvanda Azərbaycan dilində kitab, qəzet və məcmuə çap edə bilən mətbəə yox idi. Yerli müəlliflər istər-istəməz öz əsərlərini başqa-başqa yerlərdə nəşr etdirməli olurdular" [10, s.543]. Bunun üçün daha çox Təbrizə üz tuturdular. "İrəvanlı şairlər arasında ilk dəfə Molla Hüseyn İrəvaninin kitabı ana dilində çap olunmuşdur. Onun 201 səhifəlik rəsmli "Müseyibnamə" kitabı 1888-ci ildə Təbrizdə nəşr edilmişdir. Bir il sonra isə Təbrizdə Mirzə Ağa Əli Həkimi İrəvaninin divanı çap olundu. 239 səhifəlik bu divan Azərbaycan və fars dillərində çap edildi" [13, s.160]. Kitabların kənarda çap olunması indi bir çox İrəvanlı şairin, əgər o, İrəvani nisbəsini daşımırsa, mənsub olduğu yeri müəyyənləşdirməkdə çətinlik törədir.

İrəvanda Azərbaycan dilində kitab və jurnalların dərc olunması üçün mətbəələr XX əsrin əvvəllərində meydana gəldi. XIX əsr İrəvan ədəbi mühitinə aid mətnlər göstərir ki, o dövrə aid çoxlu divanlar, məsnəvi və mənzumələr, lirik, satirik şeirlər olmuşdur. Ədəbiyyat əsasən ana dilimizdə yaranmış, farsca şeirlər, məsnəvilər də yazılmış, ərəbcə yazmaq ənənəsi isə cüzi miqdarda özünü göstərmişdir.

İrəvanın gerçək və aboregen sakinlərinin azərbaycanlılar olmasını onun ənənələr üzərində qurulan ədəbi mühiti də sübut edir. Ermənilər gəlmə olduqları üçün Azərbaycan ədəbiyyatı və mədəniyyəti, dili əsasında özlərini bir xalq kimi yenidən yaradırdılar. XIX əsrdə bütün Qafqazda, təbii olaraq, Azərbaycan dili və mədəniyyəti aparıcı mövqeyə malik idi. Azərbaycan ədəbiyyatı həm divan, həm də xalq ədəbiyyatı istiqamətlərində sahib olduğu zəngin ənənələri ilə ermənilərı də öz nüfuz dairəsinə almışdı. Dilimizin musiqililiyi, ahəngdarlığı, şeir kimi axıcılığı erməni müəlliflərində həsəd doğururdu. Azərbaycan bayatılarının tərcüməsi haqda X.Abovyanın qeydləri onların təsirlənmə, öyrənmə yollarından birini göstərir: "Tərcümələrini də elə etmişəm ki, xalqımızın ürəyincə olsun. Bayatıları yazmaqda məqsədim budur: bəzən məclisdə, süfrə başında ermənilər belə türksayağı şeirlər deyirlər. Yaxşı olar ki, bunları erməni ermənisayağı desin ki, yavaş-yavaş dil də şirinləşsin. Çünki mahnılardan başqa heç bir şey dili bu qədər şirinləşdirməmişdir" [14, s.152]. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin təsiredici gücündən faydalanmağın rolunu arayan X.Abovyan yazırdı: "...özünün poetikliyi, səslənməsi və axıcılığına görə tatar dili [Azərbaycan dili-T.M.] qrammatik baxımdan bütün dillər arasında yeganə dildir" [1, s.10]. Eyni münasibəti – Azərbaycan dili, mədəniyyəti, ədəbiyyatından bəhrələnməyin faydalılığını XIX əsrin başqa tanınmış erməni müəllifi, rusiyalı, Avropa və Asiyanın bir çox ölkələrində səyahətdə olub onların mədəniyyətilə tanış olan Nalbandyan da ifadə etmişdir. Araşdırma və müşahidələri nəticəsində belə qənaətə gəlmişdir ki, "Qədim nəğmə və mahnıların havaların əksəriyyəti türklərdən götürülüb. Mən, ermənilərin yaşadıqları çox yerləri dolaşmışam, həmişə də çalışmışam ki, sırf ermənicə deyilmiş bir söz eşidəm. Lakin həmin sözü dinləmək indiyə kimi nəsibim olmayıb" [1, s.15]. Erməni müəlliflərin dilindən səslənən bu cür fikirlərin sayı-hesabı yoxdur. Onların özlərinə istinadən belə qənaətə gələ bilərik ki, İrəvana, eləcə də ətraf ərazilərə köçürülən ermənilər burada təkcə torpaq yox, həm də bizim, yerli xalqın mədəniyyətini qazanırdılar. Əgər bu məkanın

əzəli vətəndaşları onlar olsa idi, əksinə proses yaşanardı. Biz onlardan faydalanardıq. Ancaq özlərinin də etiraf etdiyi kimi, İrəvanın və onun ətraf ərazilərinin davamlı ədəbiyyat ənənəsi və yaradıcı gücü məhz azərbaycanlılara aid idi.

Ermənilər Azərbaycan ədəbiyyatına aid mətnləri, onların müəllifliyini də mənimsəyirdilər. XIX əsr İrəvanının mötəbər şəxslərindən biri olan Fazil xan İrəvaninin "Qızılgül və bülbül" əsəri bu taleyi yaşamışdır. "...Fazil İrəvaninin "Qızılgül və bülbül" adlı əsəri 1812-ci ildə Sankt-Peterburqda erməni və rus dillərində, 1826-cı ildə Parisdə erməni dilində, 1832-1833-cü illərdə iki dəfə dalbadal fransız dilində, 1892-ci ildə alman dilində çap olunaraq İrəvanlı Xocens Markar Geğamyanın orijinal əsəri kimi erməni, rus, fransız, alman oxucularına təqdim edilmişdir. Əsəri fransız dilinə Vayye de Floribal, alman dilinə Yozefon Hammer tərcümə etmişlər. Fransalı tədqiqatçı 1892-ci ildə məsələyə aydınlıq gətirərək bildirmişdir ki, "Qızılgül və bülbül" türk müəllifi Fazil İrəvaninin əsəridir" [10, s.544].

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın Rusiyada və Qərb ölkələrində tanınmış digər bir yazıçısının da müəllifliyini ermənilər mənimsəmişdir. O, İran dramaturgiyasının banisi Mirzə ağa Təbrizidir. Mirzə Ağanın dram əsərləri (əsərlər farsca yazılmışdır) Berlində səhvən Mirzə Melkümün adı ilə çap olunmuş və bununla da, Mirzə Melküm bir çox qaynaqlarda İran dramaturgiyasının banisi kimi tanınmışdır [11, s.176-177]. Üzeyir Hacıbəylinin əsərlərini özlərininki kimi təqdim etmək, Amerikada, Avropada səhnələşdirib erməni müəlliflərin adı ilə tanıtmaq dərəcəsində yalan cürətlisidirlər. Bu cür faktlar həddindən artıq çoxdur. Qərbi Azərbaycandan kənarda doğulub böyüyənlərin əsərlərini özlərininki kimi tanıdırlarsa, indi Ermənistan adlanan coğrafiyada, tarixi vətənimizdə yaranan mədəniyyəti dünyaya daha çox erməni hadisəsi kimi təqdim etmələri daha asandır.

İrəvandakı gimnaziya və seminariyada, İrəvan quberniyası mərkəzi idarəetmə orqanlarında Azərbaycan ziyalılarının fəaliyyəti bu məkanın Azərbaycanın mədəni mərkəzlərindən biri olmasından xəbər verir. Çarizmin işğalından sonra azərbaycanlılara qarşı yürüdülən soyqırımı və deportasiya siyasəti soydaşlarımızın sayını azaltsa da, yenə əhali və ziyalı üstünlüyü özünü qoruyub saxlayırdı. Ona görə də təkcə İrəvan şəhərindən yox, ətraf bölgələrdən də olan ziyalılar işləmək üçün bu şəhərə üz tuturdular. Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli kimi ziyalıların İrəvandakı maarifçilik fəaliyyəti İrəvan ədəbi mühitinin Azərbaycanın digər bölgələri ilə bütövlüyünün göstəricisidir.

Eynəli bəy Sultanov siyasi-mədəni, xüsusən publisistik fəaliyyəti ilə İrəvan ədəbi mühitinin inkişafına öz töhfələrini vermişdir. Əslən Naxçıvandan olan Eynəli bəyin yeniyetmə yaşlarından təhsillə əlaqədar İrəvanda yaşaması, əmək fəaliyyətinin əhəmiyyətli bir dövrünü orada keçirməsi onu İrəvan ziyalı mühitinin əsas simalarından birinə çevirmişdi. Eynəli bəyin təhsili, İrəvan quberniyası Dairə məhkəməsində fəaliyyətinə arxiv sənədləri ilə aydınlıq gətirən akademik İsa Həbibbəyli yazır: "Ermənistan Dövlət Tarix arxivindəki "İrəvan kişi gimnaziyası" adlı fonddan əldə etdiyimiz sənədlər Eynəli Sultanovun 1880-1886-cı illərdə bu təhsil ocağında oxuduğunu qəti şəkildə sübuta çatdırır" [2, s.321]. İsa müəllimin üzə çıxardığı sənədlərdən bəlli olur ki, Eynəli bəy Dairə məhkəməsində "...birinci dərəcəli dəftərxana xidmətçisi (18 may 1892-ci ildən), İrəvan Dairə məhkəməsində tərcüməçi (10 oktyabar 1893-cü il tarixdən), məhkəmə katibinin köməkçisi (1 yanvar 1894-cü ildən) vəzifələrində işləmiş, hətta Dairə Məhkəməsində üçüncü stolun rəisi olmuşdur. Hüquq idarələrində təcrübə qazanan Eynəli bəy Sultanov prokurorluq orqanlarına işə keçirilmiş, 1897-1903-cü illərdə Dairə Məhkəməsi prokurorunun köməkçisi vəzifəsini daşımışdır " [2, s.324]. İsa müəllim 1905-1908-ci illərdə Eynəli bəyin "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə müxbiri olması, 1906-cı ildən İrəvan Dairə Məhkəməsi prokurorunun Naxçıvan mahalı üzrə köməkçisi vəzifəsini daşıması, 1907-ci ildən Dövlət Dumasına deputat seçilməsi haqda da sənədlərə əsaslanan məlumat verir.

Dövlət məmuru kimi mühüm vəzifələr daşıyan E.Sultanov hər şeydən öncə millətini sevən maarifçi idi və İrəvan ziyalıları arasında da maarifçilik fəaliyyəti ilə seçilirdi; mətbuatda fəal iştirak edir, hekayələr yazır, tərcüməçiliklə məşğul olur, qadın azadlığına aid yazdığı dram əsəri – "Tatarka" İrəvanda çap edilib yayılır. "Görkəmli ədib folklor toplayıcısı kimi də fəaliyyət göstərmiş, 1886-1890-cı illərdə - 4 il müddətində İrəvan quberniyasını və Naxçıvanı dolaşaraq 3 mindən çox atalar sözü, bir neçə aşığın yaradıcılığından nümunələr toplamışdır" [16, s.6].

XIX əsrin sonu - XX əsrin əvvəlləri İrəvan ziyalı mühitinin formalaşmasında Cəlil Məmməd-quluzadənin də xidmətləri olmuşdur. 1887-ci il bir neçə ay İrəvan Quberniyası Uluxanlı məktəbində müəllim işləmiş, daha sonra İrəvandakı məmurluğu illərində maarifçilik fəaliyyəti ilə də məşğul olmuşdur. "İrəvan qəza polis idarəsində üçüncü dərəcəli dəftərxana xidmətçisi, İrəvan ədliyyə orqanlarında dava vəkili vəzifələrində çalışmışdır" [3, s.119].

Dövlət məmuru və maarifçi-yazıçı kimi İrəvanda fəaliyyət göstərib, oradakı azərbaycanlıların mövqeyini möhkəmlətməyə çalışan ziyalılardan biri də erməni terrorunun qurbanı olmuş Məmmədqulu bəy

Kəngərlidir. İrəvanda uzun müddət vəkil işləmiş, maarifçilik fəaliyyəti ilə məşğul olmuş, oğlanlar və qızlar üçün məktəblər açmışdır.

İrəvan ədəbi mühitinin fəal təmsilçilərindən biri də, yuxarıda qeyd etdiyimiz kimi, Firidun bəy Köçərlidir. 1881-ci ildə İrəvanda açılan kişi gimnaziyası və müəllimlər seminariyasının o dövrün ziyalılarını bir araya gətirməsi, yeni ziyalılar nəslinin yetişdirilməsinə görə Azərbaycan tarixində mühüm rol oynamışdır. Eynəli bəy Sultanov, Əziz Şərif, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Heydər Hüseynov, Əhməd Rəcəbli, Səid Rüstəmov, onlarla digər məşhur elm, mədəniyyət xadimləri İrəvan Kişi Gimnaziyasını bitirmişlər. "Firidun bəy Köçərli 10 il (1885-1895-T.M.) burada tatar dili (Azərbaycan dili) və hazırlıq sinfində hüsnxət müəllimi kimi fəaliyyət göstərmişdir" [4]. Görkəmli maarifçi, ədəbiyyatşünas paralel olaraq İrəvan Müəllimlər Seminariyasında da işləmişdir. "İrəvan Müəllimlər Seminariyasının ilk müəllimlərindən biri Firidun Bəy Köçərli olmuşdur ki, o burada 10 il dərs demiş və geniş mədəni-maarif işləri aparmışdır" [4].

Firidun bəy Köçərlinin İrəvanda işləməsini ədəbi taleyimizin gətirməsi kimi də səciyyələndirmək olar. Məhz onun fəaliyyəti nəticəsində İrəvanda yazıb yaradan bir çox şairlərimiz haqda məlumat əldə edə bilirik. "Azərbaycan ədəbiyyatı" kitabının ikinci cildində [7] Firidun bəy Köçərli XIX əsr İrəvan şairlərindən Məşədi İsmayıl Hacı Kazımzadə "Bəzmi", Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov "Müttəle", Hacı Seyid Rza Əmirzadə "Sabir", əslən İrəvandan olub Təbrizdə, Tiflisdə yaşayan Mirzə Əlixan Şəmsül-hükəma "Ləli"dən bəhs edir və onların yaradıcılığından nümunələr verir.

İrəvan şairləri haqda məlumat əldə etdiyimiz qaynaqlardan biri də Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" əsəridir [15]. Bu təzkirədə müəlliflər haqda məlumatlar qısa şəkldə təqdim olunmuşdur. Çox az müəllifə geniş yer ayrılıb. Təzkirədə Aşub İrəvani, Aşüftə, Daniş Mirzə Rzaxan, Dəlil İrəvani, Ləli, Hacı Mirzə Əbdülkərim İrəvani, Müttəle, Sabir Hacı Rza Dilmani, Hərif, Höccət haqqında qısa informasiyalar var. Tərbiyət şairləri təqdim edərkən, heç də onların hamısının haradan olduğunu göstərməmişdir. Bu mənada, məkanı göstərilməyən müəlliflər içərisində də irəvanlılar ola bilər. Qeyd etmək lazımdır ki, Məhəmmədəli Tərbiyət, Firidun bəy Köçərli, Səməd Sərdarianın haqqında məlumat verdiyi şairlər, demək olar ki, XIX əsrə aiddir.

XIX əsrin irəvanlı şairlərdən olan Hüseyn Kami haqqında məlumata isə Türkiyə qaynaqlarında rast gəldik. Mahmud Kamal İnal ondan qafqazlı şair kimi söz açır. "Aşinalarından bir şəxsin verdiyi məlumata görə vaxtilə İstanbulda Validə səmtində yaşayan rus təbəəsindən Rəvanlı mətbəəçi Hacı Abbasın oğludur... Təqribən 1878-ci (h.1295) ildə doğulmuşdur" [5, s.785]. Kaminin özünün və ailəsinin İrəvandan köç etmə səbəbi və vaxtı bilinmir. Atasının mətbəəsinin olması və hacı titulunu daşıması, Kaminin Mədreseyi-ədəbiyyəni bitirib Babi-alidə mətbuat idarəsində məmur kimi çalışması, XX əsrin əvvəllərində cəmiyyətdə öz mövqeyi ilə seçilən biri olması onu göstərir ki, ailəsi İrəvanın zəngin və nüfuzlu dairələrinə mənsubmuş. Çox güman ki, çar Rusiyasının İrəvanda həyata keçirdiyi ermənilşdirmə siyasəti nəticəsində mühacirətə üz tutublar. Mahmud Kemal Hüseyn Kaminin "Divançei-dəhri" adlı şeirlər toplusunun çap edildiyini və onun əsasən satirik şeirlər yazdığını bildirir. Bundan əlavə, "Sabahı-hürriyyət" adlı dram əsərinin teatrda oynanıldığını və buna görə xalqın rəğbətini qazandığını göstərir. "Son əsr türk şairləri" kitabına Hüseyn Kaminin satirik məzmunlu "Su" mənzuməsi də daxil edilmişdir.

Ayrı-ayrı qaynaqlardan, elmi tədqiqat əsərlərindən məlum olur ki, XIX əsr İrəvan ədəbi mühiti Azərbaycan ədəbiyyatının çox zəngin qolunu təşkil edir. Fərqli mənbələrdə 40-dan yuxarı XIX əsr İrəvan-Azərbaycan şairinin adına rast gəlirik. Onların yaradıcılığında klassik divan ədəbiyyatı ənənələri üstünlük təşkil etməklə bərabər, satirik, maarifçi, xalq şeiri tərzində nümunələr də var. "Əkinçi" qəzetinin İrəvanda yayılması, irəvanlı müəlliflərin mətbuatda iştirakı, üsuli-cədid təhsil sisteminə keçid ədəbi mühitdə maarifçiliyin inkişafına yol açırdı.

XIX əsr və XX əsrin ilk onillikləri İrəvan-Azərbaycan ədəbi mühitinin əsas təmsilçiləri haqda Ziyəddin Məhərrəmov "İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit)" monoqrafiyasında ensiklopedik məlumat verir [9, s. 90-119].

Faktlar göstərir ki, İrəvan-Azərbaycan ədəbi mühiti həmin şəhərdəki azərbaycanlıların taleyinə, tarixi mövcudluğuna uyğun şəkildə yaranmış, inkişaf etmiş və deportasiyaya uğramışdır. Qərbi Azərbaycana böyük qayıdış İrəvan və eləcə də tarixi vətənimizin digər bölgələrində etnik çoxluğu təmin etməklə bərabər, Azərbaycan ədəbi mühitinin də doğma ənənələr üzərində inkişafını bərpa edəcəkdir.

ƏDƏBİYYAT

1. Abbaslı, İ. Azərbaycan həqiqətləri (erməni mənbələrində), Bakı: Elm və təhsil, 2015
2. Həbibbəyli, İ. "Yazıçı-publisist Eynəli bəy Sultanov". İsa Həbibbəyli. Şəxsiyyət və Zaman. Bakı: Elm və

təhsil, 2017, s-321-337.
3. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009
4. Hüseynzadə, R. İrəvan pedaqoji mühiti: İrəvan kişi gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, İrəvan qız gimnaziyası. www.aqra.az › irəvan-pedaqoj.
5. İnal, M. Son Asır Türk Şairleri. Cilt 2, İstanbul, Devlet kitapları, Milli Eğitim Basımevi, 1969
6. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. (Elmi redaktor Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, t.e.d., prof. Yaqub Mahmudov). Bakı: Azərbaycan, 2010
7. Köçərli, F. Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1981
8. Mədətli, E. Səməd Sərdarianın "İrəvan müsəlman yurdu olmuşdur" kitabı". "Tarix və onun problemləri" jurnalı, 2002, № 2, s., 196-199
9. Məhərrəmov, Z. İrəvanda məktəbdarlıq və maarifçilik. (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan, 2010
10. Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2002
11. Məmmədzadə, H. Mirzə Fətəli Axundov və Şərq. Bakı: Elm, 1971
12. Musalı, M. Azərbaycan şairləri Osmanlı təzkirələrində. Bakı: Nurlan, 2009
13. Mustafa, N. İrevan şehri (Türk-İslam varlığı nasıl yok edildi). Ankara: Berikan Yayınevi, 2015
14. Seyidov, M. Azərbaycan-erməni mədəni əlaqələri. Bakı: Elm, 1976
15. Tərbiyət, M. Danişməndani – Azərbaycan. Azərbaycanın görkəmli elm və sənət adamları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı
16. Yurdoğlu, (Məmmədov) E. Milli mədəniyyət tariximizdə Eynəli bəy Sultanov imzası: alovlu publisist və fədakar ziyalı kimi. 525-ci qəzet.- 2011.- 5 may.- s.6.

ABSTRACT

Tahirə MƏMMƏD

KHANATE PERİOD AND 19TH CENTURY YEREVAN-AZERBAİJAN LİTERARY ENVİRONMENT

Manuscripts and books demonstrate that the literary works of poets and writers active in Yerevan were based on strong traditions and possessed both literary and historical significance. After the Russian occupation, the literary heritage was seriously destroyed and plundered, and during the years of repression many manuscripts were lost on a massive scale.

During the Khanate period, classical poetry became dominant, and poets such as Mirza Mahammad Muslim (pen-name Qudsi) and Bahar were among the main representatives of this era. Written literature also developed in connection with literary circles engaged in education and enlightenment activities. Although examples of ashiq poetry existed in the nineteenth-century literary environment of Yerevan, the tradition of classical divan poetry remained more dominant. Until the end of the nineteenth century, publishing books and newspapers in the Azerbaijani language was not possible in the region, therefore authors mainly published their works in Tabriz. Nevertheless, the literary environment of Yerevan produced rich divans, masnavis, lyrical and satirical poems, and examples written in Persian and Arabic also existed.

In the nineteenth century, intellectuals such as Eynali bey Sultanov, Jalil Mammadguluzade, Firidun bey Kocharli, and Mammadqulu bey Kangarli, who were known for their enlightenment activities in Yerevan, contributed to the formation of the literary environment and served the development of Azerbaijani literature through schools and the press.

One of the characteristic features of the Yerevan literary environment was that Azerbaijanis, as the indigenous inhabitants, preserved their cultural and literary traditions, while Armenians were also influenced by the existing Azerbaijani culture and literature in the region.

In conclusion, the nineteenth-century Yerevan-Azerbaijani literary environment played an important role in the development of national literature, and with the future return to Western Azerbaijan, these rich traditions will once again be revived.

Keywords: *Yerevan literary environment, manuscripts, classical poetry, divan poetry, enlightenment, Azerbaijani literature, Khanate period, literary circles.*

QƏHRƏMANLIQ DASTANLARINDA QƏRBİ AZƏRBAYCAN

Yusif SƏFƏROV
seferovyusif3@gmail.com
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

Məqalədə göstərilir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra erməni silahlı qüvvələri ərazilərimizin 20 faizini işğal etdi. BMT işğal edilmiş ərazilərimizin qaytarılması barədə dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan ərazilərimizi 30 ilə yaxın işğal altında saxladı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu ərazilərimizi 44 günlük müharibə və 23 saatlıq antiterror əməliyyatı nəticəsində işğaldan azad etməklə ölkəmizin ərazi bütövlüyü təmin edildi. Məqalədə bildirilir ki, indiki Ermənistan ərazisi ən qədim dövrdən Oğuz-türk yurdunun bir bölgəsidir. Bunu təsdiq edən tutarlı tarixi-coğrafi, ədəbi-mədəni qaynaqlardan biri "Kitabi-Dədə Qorqud", "Koroğlu" və "Qaçaq Nəbi" dastanlarıdır. "Dədə Qorqud" boylarında bir çox hadisələr, yer-yurd, qala, yaylaq, dağ, göl adları Qərbi Azərbaycanla bağlıdır. Qara dənizdən Göyçə və Xəzər dənizinə, Dərbənddən Ərzincana, Suriya sərhədlərindən Mil-Muğan düzünə qədər böyük coğrafiya Oğuz elləridir. Oğuzların istirahət yerləri Göyçə, Zəngəzur, Qarabağ yaylaqları idi. "Dədə Qorqud" boylarında bu yaylaqların inikası vardır. Göyçə gölünün cənubunda Çənlibel dağı, bura yaxın Gədəbəy ərazisində "Koroğlu" qalası qərar tutur. "Qaçaq Nəbi" dastanında Qərbi Azərbaycanın Zəngəzur, Şərur-Dərələyəz bölgələri Qaçaq Nəbinin əsas hərəkət xəttini təşkil etmişdir. Dastandakı hadisələr, ondakı epik və lirik lövhələr Zəngəzurla sıx əlaqəlidir. Sanki Nəbinin qəhrəmanlığı dastanda Zəngəzur dağlarının əzəmətilə epik vüsətə çatır. Araşdırmadan görünür ki, adları çəkilən qəhrəmanlıq dastanlarının bəzi boy, qol və epik-lirik hissələri Qərbi Azərbaycan coğrafiyası, onun ədəbi-mədəni mühitilə bağlıdır. Bu ədəbi-mədəni irsin yaranmasında indiki Ermənistan ərazisindən didərgin salınmış soydaşlarımızın, onların ulu babalarının da əməyi vardır.

Açar sözlər: *Qərbi Azərbaycan, dastan, Göyçə, Oğuz elləri*

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra erməni daşnakları əsassız ərazi iddiası ilə rus himayədarlarının köməyilə ərazimizin 20 faizini işğal etdi. Etnik təmizləmə apararaq Ermənistandakı azərbaycanlıları doğma yerlərindən qaçqın saldılar. Qarabağla birlikdə 1 milyon 300 min soydaşımız doğma yer-yurdundan didərgin düşdü. Onlara küllü miqdarda maddi və mənəvi ziyan vuruldu. Ermənistan tutduğu ərazilərimizi 30 ilə yaxın işğal altında saxladı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan ordusu işğal edilmiş əraziləri 44 günlük müharibə və 23 saatlıq antiterror əməliyyatı ilə azad edib, ölkəmizin ərazi bütövlüyünü təmin etdi.

Xatırladaq ki, indiki Ermənistan ən qədim dövrlərdən ulu Oğuz-türk yurdunun bir bölgəsidir. Azərbaycanın bu bölgəsində xalqımız qədim mədəniyyət, zəngin ozan-aşıq poeziyası, qəhrəmanlıq və məhəbbət dastanları yaratmışdır. Bu sırada "Kitabi-Dədə Qorqud", "Koroğlu" və "Qaçaq Nəbi" dastanlarından bir çox vacib məqamları araşdırmağı zəruri hesab edirik.

"Dədə Qorqud" boylarında bir çox ədəbi-bədii, tarixi-coğrafi məlumatlar Qərbi Azərbaycanın Göyçə, Dərələyəz, İrəvan, Zəngəzur ərazilərilə bağlıdır. Qara dənizdən Qafqaz dağları və Xəzər dənizinə, Dəmirqapı Dərbənddən, Ərzincana, cənubda Suriya sərhədlərinə, şərqdə Mil-Muğan düzü də daxil olmaqla böyük bir coğrafiya qədim Oğuz-türk yurdudur. Akad. V.V.Bartold da eposun yaranma yeri ilə bağlı belə nəticəyə gəlmişdi ki, Dədə Qorqudun adı ilə bağlı bu epik silsilə Qafqaz mühitindən kənarda formalaşa bilməzdi [3, s.120]. Dastanın "Qanlı qoca oğlu Qanturalı boyu"na görə, oğuzların Ağqoyunlu boyundan olan Qanturalı Trabzonlu qızı Selcan xatunla ailə qurmuşdu. Ağqoyunluların sonralar mərkəzi Diyarbəkir olan Oğuz dövlətini idarə edən də Bayandurlar sülaləsi idi [10, s.41]. Qərbi Azərbaycanda onlarla kənd və yer-yurd adları bu sülalə və "Dədə Qorqud" boylarındakı adlarla bağlıdır. Bunlar açıq şəkildə Qərbi Azərbaycanın Oğuz-türk yurdunun tarixi bir bölgəsi olduğunu göstərir. "Dədə Qorqud" boylarında oğuzların Azərbaycanda qışlaq yerləri Mil-Muğan düzü, yaylaq yerləri də daha çox Qarabaq, Zəngəzur və Göyçə ətrafı yaylaqlar idi [10, s. 42].

"Dədə Qorqud" boylarında adı "Arqubeli" şəklində işlənən Ağrı dağı və İqdir ətrafı yer-yurd adlarından başqa əsərlərdə də söz açmışıq. Bu barədə türk alimi dosent-doktor Zeynalabdın Makas da məlumat vermişdir. Bu məqalə də Sürməli, Ağrı dağı, İrəvan bölgələrinin Oğuz-türk yurdunun mərkəz ərazilərindən olduğunu təsdiqləyən nəticələrdən biridir [9, s. 189-201].

Qərbi Azərbaycanda "Dədə Qorqud" boylarında Oğuz yurdu kimi adı çəkilən əsas yerlərdən biri də Göyçə mahalıdır. Göyçə cənubda Ağlağan təpəsi, Çənlibel dağları, Şirak yaylası ("Dədə Qorqud"da Şirokuz yaylası), Səlimgədiyi, şimalda Murğuz, Şahdağ silsiləsi ilə əhatə olunub. Göyçənin cənubundakı Çənlibel dağları Koroğlu yurdudur. Gədəbəydə də "Koroğlu" qalası var.

Dastandakı Bütöv Oğuz - İç Oğuzla Dış Oğuzun birliyindən ibarətdir. Ölkədəki siyasi idarəçilik Bayandur xana məxsusdur. Oğuzlardakı iki hakimiyyət qanununa görə, ölkəni xaqanın müavini Qazan xan idarə edirdi. Bütöv Oğuz elində İç Oğuz siyasi mərkəz olmaqla Kürlə-Araz çaylarının arasını və ətrafını tutan Aran, Mil-Muğan, Qarabağ torpaqlarını əhatə edirdi. Dış Oğuz da Dərbənd, Göyçə, Vedibasar, İrəvan, Dərələyəz, Şərur-Naxçıvan, Diyarbəkir, Bayburd və s. bölgələri əhatə edirdi [7, s.263].

Qorqudşünas alim M. Təhmasib yazırdı ki, "Dədə Qorqud" boyları dastan kimi, bitkin bədii əsər olaraq qədim Azərbaycanda yaranmışdır. Görkəmli alim "Şimali Qafqaz dastançıları miladdan əvvəlki XIII-VII əsrlərdə oğuzları yaxşı tanıyırmışlar" qənaətinə gəlməklə Qafqazda oğuzçuluğun çox qədim tarixi olduğunu söyləmişdir [13, s.14).

"Dədə Qorqud" boyları Qafqaz və Ön Asiyada yaşayan türklərin etnik mədəniyyəti və tarixinin öyrənilməsində əvəzsiz bir mənbədir. Ona görə bu eposa tarixçilər də müraciət edir. Tarixçi alim Y. Mahmudov "Dədə Qorqud" boyları ilə bağlı yazır ki, oğuzçuluğun real tarixi bundan ibarətdir ki, Azərbaycan əski dövrlərdən ümumtürk məkanının tərkib hissəsi olub, böyük türk dünyasının şimalını cənubu ilə, şərqini qərbi ilə birləşdirən körpü rolunu oynayıb. Qədim türklərin aramsız oturaq məkanı olan gözəl iqlimli, səfalı Qafqazda ümumtürk mədəniyyəti daha erkən formalaşmış, Azərbaycan türklərinin bir xalq kimi təşəkkülü bu regionda baş vermişdir [8, s.19-20].

Eposda indiki Ermənistanın sərhədinə lap yaxın olan Naxçıvan Muxtar Respublikasının Salvartı, Köksü gözəl, Göygöl yaylaqları və başqa tarixi-coğrafi ərazilər qədim Oğuz elinin bir bölgəsidir. Amma dastanın əsas tarixi-coğrafi arealı Qafqaz və Ön Asiyanın çox hissəsidir [12, s.111]. Köksü gözəl, Salvartı Zəngəzur silsiləsinin Qırxlar dağları yaxınlığında yerləşən səfalı yaylaqlardır. Yeri gəlmişkən onu da deyək ki, M.Ergin Oğuz ölkəsi dedikdə Gürcüstan-Pasinlər-Ağrıdağı üçbucağı içində qalan Araz çayının qolları keçdiyi bölgəni nəzərdə tutur. Alim əvvəl qeyd edir ki, "Dədə Qorqud" kitabında göstərilən hərəkət alanı geniş anlamı ilə Qafqazdan Mərdinə, Trabzon və Bayburddan Araz və Kür çaylarının aşağısına qədər bölgəni içinə alır [5, s.51]. Aparılmış tədqiqatlardan neçə belə misallar göstərmək olar ki, indiki Ermənistan, yəni Qərbi Azərbaycan bölgəsi Oğuz ölkəsinə aiddir.

Qərbi Azərbaycanın Göyçə, Şirokuz, Sürməli, Zəngəzur, Naxçıvanın Dərəşam, Əlincə qalası əraziləri eposun "Uşun Qoca oğlu Səgrək boyu"nda hadisələrin əsas hərəkət yolunu təşkil edir. Adı çəkilən boya görə, Uşun Qocanın Əgrək adlı oğlu Qazan xanın iznilə 300 nəfərlik dəstə ilə Şirokuz kənarından Göyçə dənizədək yürüşə çıxdı. Əgrək Əlincə qalası yanındakı qoruğa düşdükdən sonra qara təkurun altı yüz nəfərlik dəstəsi hücüm edib onları qırdı və Əgrəyi Əlincə qalasında dustaq etdi. Səgrək Qazan xandan izin alıb Əlincə qalasına gedib, qardaşı Əgrəyi dustaqlıqdan xilas edir [7, s.284.292].

Beləliklə, "Uşun Qoca oğlu Səgrər boyu"na görə, Səgrək Göyçə dənizi ətrafından çıxaraq Şirak yaylası, Ağrı və Ala dağların ətəklərindən keçərək Dərəşam məntəqəsində Araz çayını keçib Əlincə qalasına çatır və qardaşı Əgrəyi dustaqlıqdan azad edir. Bu boyda tarixlə səsləşən məqamlar çoxdur. Bunlardan birincisi Səgrəyin səfərə başladığı Göyçədən Əlincə qalasına qədər adları çəkilən yerlər, gol, çay, dağ və yaşayış məntəqələri Oğuz elinindi. Onuncu boydakı Uşun Qoca da tarixi şəxsiyyətdir. O, Uşun tayfasındandır [11, s. 202].

Araşdırmalar göstərir ki, Dədə Qorqud Məhəmməd peyğəmbərlə görüşdükdən sonra oğuzlar islam dinini qəbul etmişlər. "Uşun Qoca oğlu Səgrək boyu"nda Əlincə qalası ilə bağlı hadisə Məhəmməd peyğəmbərdən sonrakı dövrlə səsləşir. Tarixi məlumata görə, Ağqoyunlu dövlətinin banisi Qara Yülük Osman bəyin nəsil şəcərəsinin 14-cü babası Şəktur xan ərəb xəlifəsi Məmunun müasiri olmuş və Əlincə qalasını öz tabeliyinə almışdır. Bundan başqa, Əlincə qalası xəlifə Harun ər-Rəşidin müasiri olmuş Oğuzun nəsil şəcərəsinə daxil olan Qıpçaq xanın da tabeliyində olmuşdur [11, s.196]. Bu məlumatlar göstərir ki, Harun ər-Rəşidin müasiri olmuş Qıpçaq xan Əlincə qalasını aldıqdan sonra bu bölgə xristian qıpçaqların əlində idi. Beləliklə, Əlincə qalası Qıpçaq xanın tabeliyində təxminən Harun ər-Rəşidin hakimiyyətdə olduğu 786-809-cu illər arasında, xəlifə Məmunun müasiri Şəktur xanın öhdəsində isə 833-cü ildən sonra olmuşdur. Deməli, Əgrəyin Əlincə qalasında dustaq olduğu və qardaşı Səgrək tərəfindən azad edildiyi təxminən VII əsrin sonlarına, yaxud VIII əsrin 30-cu illərindən sonraya təsadüf edir. Boyda "kafir" adlandırılanlar isə o vaxt müsəlmançılığı qəbul etməmiş qıpçaq türkləridir.

Qərbi Azərbaycanın Zəngəzur və Dərələyəz bölgələrilə bağlı dastan örnəklərindən biri də "Qaçaq Nəbi"dir. Dastandakı hadisələrin çoxu Zəngəzur, Dərələyəz və Naxçıvan bölgələrində XIX əsrin ikinci yarısında baş vermiş hadisələrlə bağlıdır. Nəbinin Naxçıvan, Dərələyəz və Zəngəzur mahalındakı Çar hakimiyyətinə qarşı

mübarizəsilə bağlı sovet mətbuatında məqalələr çap olunmuşdu**.** Burada da bəzi məsələlərə nəzər salınacaqdır.

1885-ci ildə Naxçıvan qəza rəisliyinin tərtib etdiyi xəritədə Nəbinin dəstəsinin ən çox Zəngəzur, Şərur-Dərələyəz bölgələrində hərəkək etdiyi göstərilirdi. Folklorçu Ə.Tahirovun 1938-ci ildə çap etdirdiyi kitabçanın son illər edilmiş təkrar nəşrində də maraqlı məlumatlar verilib. Bunlardan birində deyilir ki, Qırxlar dağındakı döyüşdən sonra bura yaxın olan Çətəndaşda da döyüş baş verib. Burada Nəbinin dəstəsindən Telli Qara vurulub. Dastanda Həcərin dilindən belə bir şeir deyilir:

Telli Qara Çətəndaşda vuruldu,
Nəbinin dəstəsi onsuz qırıldı,
Çətəndaş üstünə qoşun sürüldü
Hardasan-hardasan ay Qaçaq Nəbi,
Dəstəsi özündən ay qoçaq Nəbi [4, s. 36].

Tarixçi alim, mərhum Əli Əliyevin "Qaçaq Nəbi" adlı məqaləsindən görünür ki, Azərbaycanın çox bölgələrində Çar Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı 1857-ci ildən silahlı kəndli dəstələri yaranmış, onların mübarizəsi 1860-cı ildən 1900-cü ilə kimi Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Vedi, Göyçə və Zəngəzur qəzalarında ciddi xarakter almışdır [6, s.173-175]. Buna görə də Qərbi Azərbaycanın bu ərazilərində Nəbi ilə bağlı yarımtarixi rəvayətlər yaranmışdır. Bunların bir hissəsi tərəfimizdən yazıya alınmışdır. Lakin Qərbi Azərbaycan bölgələrindən türk-müsəlman əhalisinin ermənilər tərəfindən 1988-89-cu illərdə yurdlarından didərgin salındığından belə rəvayətlərin yazıya alınması çətinləşdi. Sonralar əslən Dərələyəzdən olan prof. Həsən Mirzə "Dərələyəz folkloru" kitabını nəşr etdirdi.

"Qaçaq Nəbi" dastanının Qərbi Azərbaycan mühitilə bağlı bəzi hissələrinə nəzər salmazdan əvvəl repressiya qurbanı olmuş Bəhlul Behcətin "Qaçaq Nəbinin tarixi" adlı əsərindən tanınmış folklorşünas, prof. İ.Abbaslı öz əsərində sitat vermişdir. Bu sitatın qısa məzmunundan məlum olur ki, Nəbinin qaçaq düşməsinin səbəbi sosial ədalətsizliyə qarşı barışmazlığı olsa da, onun iki dəfə Çar Rusiyasının yerli hakimləri tərəfindən həbs olunması bu işə xüsusi təkan vermişdir [1, s.14].

Qaçaq Nəbi hərəkatı Zəngəzur, Qarabağ, Naxçıvan və Cənubi Azərbaycanın Araz çayı ilə bağlı bölgələrində baş vermişdi. Amma dastan hadisələri, ondakı epik və lirik lövhələr Qərbi Azərbaycanın Zəngəzur dağları ilə çox əlaqəlidir. Elə bil ki, Nəbinin qəhrəmanlığı dastanda Zəngəzur dağlarının əzəmətilə epik vüsətə çatır.

Bunlar onu göstərir ki, Qərbi Azərbaycanın adı çəkilən bölgələri XIX əsrin ikinci yarısında Qacaq Nəbi və silahdaşlarının rus çarizminin əsarətinə, müstəmləkəçiliyinə qarşı mübarizə meydanına çevrilmişdir. Zəngəzur dağ silsiləsindəki Üçtəpə, Ərikli, Salvartı, Qırxlar dağları Nəbinin alınmaz səngərlərinə çevrilmişdir. Qaçaq Nəbi hərəkatı Çar Rusiyasının ölkəmizin ərazisinin ilhaqına qarşı qəhrəmanlıq mübarizəsi idi. Xalq da Nəbiyə mahnılar qoşub, haqqında rəvayətlər yaratmışdır.

Dastana görə, Naxçıvan naçalniki Slavaçinski Nəbinin bu tərəflərdə olduğunu Səlim bəyə xəbər verir. Səlim bəy böyük bir qüvvə ilə Naxçıvana gəlir. Nəbi isə Salvartı dağına qayıdır. Səlim bəy də Salvartı dağına gəlir. Nəbinin sonra Qırxlar dağında olduğunu eşidən bəylər böyük bir qüvvə ilə ora gəlirlər. Nəbinin dəstəsi mühasirəyə alınır. Atışma zamanı Nəbinin dəstəsindən bir nəfər vurulur [1, s.78]. Bu məlumatda adları çəkilən Salvartı, Qırxlar dağları Naxçıvan Muxtar Respublikası ilə indiki Ermənistan arasında sərhəddir. İndki Ermənistan isə Azərbaycanın qərb bölgəsidir.

"Qaçaq Nəbi" dastanının Ə.Tahirov variantının 2005-ci il çapında B.Behcətin Qaçaq Nəbi ilə bağlı topladığı parçalarda Qərbi Azərbaycanın Dərələyəz, Zəngəzur yer adları var. Dastanın aşağıdakı şeir bəndində adı çəkilən Üçtəpə dağları da Qərbi Azərbaycanın yaylaqlarından biridir.

Üçtəpə dağları üstündə sazaq
Bir yanı Naxçıvan, bir yanı Dizaq,
Nəbinin üstünə gəlibdir kazaq,
Qaçaq Nəbi gəlib bir ad elədi
Ginkur bəyi tutdu bidad elədi [1, s. 36].

Bu şeir Nəbinin Üçtəpə dağında Ginkur bəyi öldürməsilə bağlı söylənmişdir.

"Qaçaq Nəbi" dastanının yaranmasında el aşıqlarının əməyi şübhəsizdir. Folklorşünas Ə.Axundovun yazdığına görə, belə aşıqlardan biri XIX əsrin ikinci yarısında yaşamış Aşıq Əhməd olmuşdur. O da qaçaq həyatı keçirmiş, həbsə alınmış, son nəticədə çar polisləri tərəfindən öldürülmüşdür [2, s.191]. Aşıq Əhmədin qaçaq olması Dərələyəz, o sıradan Sisyan, Qafan bölgələrinə yaxından bələd olmağa imkan vermişdir. Nəticədə Nəbinin vuruşduğu Qərbi Azərbaycanın bu bölgələri, dağları, yaylaqları dastanda aydın əks olunmuşdur.

Araşdırmalar göstərir ki, məqalədə adları çəkilən dastanların bəzi boy, qol və epik-lirik hissələri Qərbi Azərbaycanın tarixi-coğrafi, ədəbi mühitilə bağlıdır. Dastanlardakı hadisələrin bir qismi Qərbi Azərbaycan ərazisində baş verib. Bu hadisələr isə zaman keçdikcə ustad-yaradıcı aşıqlar tərəfindən dastanlaşdırılıb.

ƏDƏBİYYAT

1. Abbaslı, İ. "Ön söz", "Qaçaq Nəbi" dastanı. Bakı: 2005.
2. Axundov, Ə. XIX əsrdə yetişmiş görkəmli aşıqlar haqqında, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I k. Bakı: 1961.
3. Bartold, V.V. Türk eposu və Qafqaz. Dədəm Qorqudun Kitabı. Moskva: 1962 (rus dilində).
4. Behcət, B. Qaçaq Nəbi haqqında xalqın qoşduğu bədii dastan parçaları, "Qaçaq Nəbi", Bakı: 2005.
5. Ergin, M. "Dədə Qorqud"un coğrafiyası. Dədə Qorqud kitabı, 3-cü basqı, Ankara: 1994, s.51-54.
6. Əliyev, Ə. Qaçaq Nəbi. "Azərbaycan" jurn., 1958, № 11, s. 173-175
7. "Kitabi-Dədə Qorqud", Bakı: 1962.
8. Mahmudov, Y. "Dədə Qorqud kitabı"-Xalqın yaratdığı və yaşatdığı tarix. Dədə Qorqud dünyası (məqalələr). Bakı: s.18-35.
9. Makaş, Z. "Dədə Qorqud"da İğdır və Çevrəsi toponimləri, Uluslararası türk kültüründə Ağrı dağı simpoziumu. Ankara: 2009, s.189-201
10. Səfərov, Y. Aşıq yaradıcılığında Qərbi Azərbaycan. Naxçıvan: Əcəmi NPB, 2023.
11. Səfərov, Y. Azərbaycan folklorunda tarixilik. Bakı: 2005.
12. Səfərov, Y. Əsərləri, V cilddə, IV c. Folklorşünaslıq və ədəbiyyatşünaslıq araşdırmaları. Naxçıvan: 2023.
13. Təhmasib, M. Bir tarixi həqiqətin eposdakı izləri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, VI k. Bakı: 1981, s.3-19.

ABSTRACT

Yusif SAFAROV

WESTERN AZERBAIJAN IN HEROIC EPICS

The article shows that after Azerbaijan regained its independence, Armenian armed forces occupied 20 percent of our territories. Despite the fact that the UN adopted four resolutions on the return of our occupied territories, Armenia kept our territories under occupation for nearly 30 years. The territorial integrity of our country was ensured by freeing our territories from occupation as a result of a 44-day war and a 23-hour anti-terrorist operation, under the leadership of Supreme Commander Ilham Aliyev. The article states that the current territory of Armenia has been a region of the Oghuz-Turk homeland since ancient times. One of the reliable historical-geographical, literary and cultural sources that confirm this are the epics "Kitabi-Dade Gorgud", "Koroglu" and "Qaçaq Nabi". In "Dade Gorgud" stories, many events, place-home, castle, meadow, mountain, lake names are related to Western Azerbaijan. From the Black Sea to Goycha and the Caspian Sea, from Darbend to Erzincan, from the borders of Syria to the Mil-Mugan Plain, Oghuz provinces are geographically large. The resting places of the Oguz were Goycha, Zangezur, Karabakh plains. "Dade Gorgud" is the site of these meadows. To the south of Goycha lake, Çanlibel mountain and "Koroğlu" fortress are located in Gadabey area near here. In the saga "The Fugitive Nabi", the Zangezur, Sharur-Daraleyaz regions of Western Azerbaijan formed the main line of movement of the Fugitive Nabi. The events in the saga, the epic and lyrical plates in it are closely related to Zangezur. It is as if Nabi's heroism reaches an epic scale with the magnificence of the Zagezur mountains in the epic. It appears from the research that some length, length and epic-lyrical parts of the mentioned heroic epics are related to the geography of Western Azerbaijan and its literary and cultural environment. Our compatriots who were displaced from the territory of Armenia and their great-grandfathers also contributed to the creation of this literary and cultural heritage.

Keywords: *Western Azerbaijan, epic, Goycha, Oghuz provinces*

ƏLİ VƏLİYEVİN "BUDAĞIN XATİRƏLƏRİ" AVTOBİOQRAFİK ROMANINDA ZƏNGƏZUR

Səba NAMAZOVA
seba8080@mail.ru
ORCID iD: 0000-0002-7986-3073
Gəncə Dövlət Universiteti

XÜLASƏ

Əli Vəliyev ilk təhsilini doğma kəndində almasına rəğmən, erməni vandallarının törətdiyi qanlı qırğınlardan sonra erkən yaşlarından öz yurdundan ayrı düşmüş, onun ömür yolu saysız dolanbaclardan keçmişdir. Həm yetimliyin, həm də yurdsuzluğun əziyyətlərini görmüş Əli Vəliyev qarşılaşdığı çətinliklərə mərdliklə sinə gərmiş, hələ uşaqlıq illərindən etibarən yaşadığı ağrılı günlər onun təxəyyülündə çeşidli mövzuların yaranmasına səbəb olmuşdur. Əli Vəliyev repressiya dönəmində Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul olunmuş, ömrünün sonuna kimi də qələmini yerə qoymayaraq məhsuldar şəkildə yaradıcılığına davam etmişdir. Görkəmli sənətkarın yaradıcılıq bioqrafiyası olduqca zəngindir. Azərbaycan ədəbiyyatına diqqətəlayiq ədəbi töhfələr vermiş Əli Vəliyev "Nənəmin cəhrəsi", "Madarın dastanı", "Qarlı dağlar", "Qəhrəman", "Sovqat", "Gülşən", "Çiçəkli", "Ürək dostları", "Zamanın ulduzları", "Turaclıya gedən yol", "Ana qız", "Bir cüt ulduz", "Samovar tüstülənir", "Durna qatarı", "Qarabağda qalan izlər", "Zəngəzur qartalları", "İşığa doğru" kimi çox sayda əsərlərin müəllifidir. O sırada yazıçının 1957-ci ildə qələmə aldığı və ötən əsrin əvvəllərini, xüsusilə də erməni daşnaklarının Zəngəzurda törətdikləri faciələri özündə ehtiva edən "Budağın xatirələri" adlı avtobioqrafik əsəri bədii imkanları və ideya-məzmun xüsusiyyətləri ilə nəzəri daha çox cəlb edir. Əsərdə cərəyan edən hadisələrin mahiyyətinə vardıqca bizə elə gəlir ki, bu faciələr 1918-1920-ci illərdə deyil, məhz 1988-1990-cı illərdə baş vermişdir. Belə ki, erməni vandalları eyni plan əsasında azərbaycanlıların yaşadıqları kəndlərə hücum edərək onların mülklərini, evlərini talan etmiş, insanlara işgəncələr verərək soydaşlarımızı öz yurdlarından didərgin salmış, xüsusi qəddarlıqla qətlə yetirmişlər. "Budağın xatirələri" əsəri əslində işğala məruz qalmış kəndlərimizin bədiiləşmiş obrazıdır. Yazıçı romanının giriş hissəsində doğma kəndi Vüqarlını belə təsvir edirdi: "Kəndimiz Salvartı dağının ətəyindədir. Kövşənimizdən üç el yolu keçir. Camaatımız bunlara cada deyir. Yazın qırx beşindən payızın ortalarına qədər bu yollar boş qalmır. Əriş-arğac kimi tərəkəmə köçünün ardı-arası kəsilmir. Mahalın ən böyük kəndində biz yaşayırıq. Atasından, qardaşından təzə ayrılıb özünə comalaq tikənləri nəzərə almasaq, buraya "beş yüz evli Vüqarlı" deyirlər [Vüqarlı Ağdü kəndinin romandakı obrazıdır - S.N.]". Qeyd edək ki, əsərdə həm kəndin təsviri verilmiş, həm də ətraf qonşu yaşayış məskənləri haqqında zəngin məlumatlar yer almışdır. Romanda Əli Vəliyev onu da vurğulamışdı ki: "Bizim kövşənlə Gorusun arası dağlı-dərəli, təpəli yerlərdir. Buraların axar-baxarı çox gözəldir. Dərələrdən ətir qalxır. Təpələr yaşıl dona bürünüb. El yolunun altı, üstü çiçəklə bəzənib. Bizim kəndlə Gorus şəhərinin arasında Arpa, Buğda təpələri, Göbək daşı, Yantəpə, Üçtəpə, Soyuqbulaq, Göybulaq, Yeddibulaq kimi yerləri görür, bir çox müsəlman tacirinə rast gəlirdim. Yolum enişli-yoxuşlu, səfərim uzaq idi". Göründüyü kimi, buradakı yer adlarının hamısı türk sözləridir. "Budağın xatirələri"ni oxuduqca xəyalən sanki müəlliflə birgə əzəli yurd yerlərimizi seyr edir, qeyri-adi mənzərələr, misilsiz gözəlliklər göz önündə canlanır. Əsərdə qarşılaşdığımız xeyli sayda toponimlər Ağdü kəndinin, ümumən, Zəngəzur mahalının qədimliyindən və buranın məhz türklərə məxsusluğundan soraq verir. Əli Vəliyev əsərdə onu da qeyd edirdi ki: "Mahalda müsəlman kəndləri içərisində bizim kənd ən böyüyü idi".

Açar sözlər: *Əli Vəliyev, Zəngəzur, roman, müəllif, yaradıcılıq, yurd yeri*

ABSTRACT

Səba NAMAZOVA

ZANGEZUR IN ALI VALIYEV'S AUTOBIOGRAPHICAL NOVEL "MEMORIES OF BUDAĞ"

Although Əli Vəliyev received his early education in his native village, he was separated from his homeland at a young age after the bloody massacres carried out by Armenian vandals, and his life journey passed through countless hardships. Having experienced both orphanhood and homelessness, Əli Vəliyev faced the difficulties he encountered with courage, and the painful days he lived through in his childhood gave rise to a variety of themes in his imagination. During the period of repression, Əli Vəliyev was admitted to the Union of Azerbaijani Writers and continued his creative work productively until the end of his life, never putting down his pen.

The biography of this prominent artist is extremely rich. Contributing significant literary works to Azerbaijani literature, Əli Vəliyev is the author of numerous works, including My Grandmother's Punishment, Madar's Epic, Snowy Mountains, Hero, Sovqat, Gulshan, Chichekli, Heart Friends, Stars of Time, The Road to Turajly, Mother and Daughter, A Pair of Stars, The Samovar Smokes, The Flight of Cranes, Traces Left in Karabakh, Zangezur Eagles, and Towards the Light. Among these, his autobiographical work Memories of Budağ, written in 1957 and depicting the early decades of the past century, particularly the tragedies committed by Armenian Dashnaks in Zangezur, attracts theoretical interest with its artistic possibilities and ideological content.

As one delves into the essence of the events in the work, it feels as though these tragedies did not occur in 1918–1920 but rather in 1988–1990. Armenian vandals, following the same plan, attacked Azerbaijani villages, looted properties and homes, tortured people, displaced our compatriots from their lands, and killed them with particular cruelty. Memories of Budağ is, in fact, an artistic depiction of our villages subjected to occupation. In the introduction to his novel, the writer describes his native village of Vuğarlı as follows:

"Our village is at the foot of Mount Salvart. Three main village roads pass through our area. Our people call them cada. From the 45th day of spring until the middle of autumn, these roads are never empty. Like the arrival of caravans, the migration of nomadic groups never ceases. We live in the largest village in the region. Except for those who recently left their fathers or brothers and built new homes for themselves, it is called 'Vuğarlı with five hundred houses'." [Vuğarlı is the fictional representation of the village Ağdü in the novel – S.N.]

It should be noted that the novel provides not only a depiction of the village but also rich information about neighboring settlements. In the novel, Əli Vəliyev also emphasizes:

"The area between our village and Goris is mountainous and hilly. The streams here are very beautiful. Fragrant scents rise from the valleys. The hills are covered in green grass. The roads are adorned with flowers. Between our village and the city of Goris, one can see Arpa, Buğda Hills, Göbək Stone, Yantəpə, Üçtəpə, Soyuqbulaq, Göybulaq, Yeddibulaq and encounter many Muslim merchants. The road is hilly, and the journey is long."

As seen, all the place names here are of Turkic origin. While reading Memories of Budağ, one can imaginatively explore our ancestral lands alongside the author, experiencing extraordinary landscapes and unparalleled beauty. Many of the toponyms mentioned in the work testify to the ancient heritage of the village of Ağdü and the Zangezur region, as well as their specifically Turkic identity. Əli Vəliyev also notes in the work:"Among the Muslim villages in the region, our village was the largest."

Keywords: *Əli Vəliyev, Zangezur, novel, author, creativity, homeland*

ZAUR VEDİLİ YARADICILIĞINDA YURD HƏSRƏTİNİN POETİK İFADƏSİ

Elxan MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Zaur Vedili, Qərbi Azərbaycanın Vedibasar bölgəsinin Xalisa kəndində anadan olmuş şairdir (indi Ermənistan ərazisindədir) və yaradıcılığı əsasən didərginlik və vətən həsrəti ilə formalaşıb. Gənc yaşında Naxçıvana köçməyə məcbur olan şairin poeziyasında doğma kəndi, Vedibasar bölgəsi və azərbaycanlıların tarixi qarşıdurmalardan doğan çətinlikləri əks etdirən nostalji daim ön plandadır. Vedi Həsrəti *(1998),* Haray *(2000),* Ürəyimdə Yanan İşıq *və* Duz Səpilmiş Yaramız *kitablarında Vedili həm şəxsi kədəri, həm də kollektiv yaddaşı ifadə edərək, didərgin cəmiyyətlərin tarixini və emosional mənzərəsini qoruyur. Onun poeziyası müxtəlif janrları, o cümlədən ənənəvi Azərbaycan aşıq şeiri formalarını əhatə edir, ayrılığın ağrısını çatdırmaqla yanaşı, qayıdış ümidini də özündə daşıyır. Vedilinin əsərləri mədəni yaddaşın şahididir, xalqın itirilmiş vətən ilə davamlı əlaqəsini göstərir və Qərbi Azərbaycan torpaqlarının bərpasına olan ümumi azərbaycanlı arzusuna səs verir.*

Açar sözlər: *Zaur Vedili, vətən həsrəti, Qərbi Azərbaycan, Vedibasar, didərginlik / məcburi köçkünlük , Azərbaycan poeziyası*

Azərbaycanlıların ən qədim dövrlərdən məskunlaşdığı yurd yerlərindən biri də indiki Ermənistan ərazisinə daxil olan Qərbi Azərbaycan torpaqlarıdır. Qərbi Azərbaycanın Vedibasar mahalı da bu mənada istisna təşkil etmir. Həmin mahalın Xalisa kəndində doğulub boya-başa çatan şair Zaur Vedili yeniyetmə yaşlarından öz doğma vətənindən didərgin salınmış, məcburən doğulduğu torpaqlardan köçkün düşmüşdür. O, yaradıcılığa 13 yaşında Qərbi Azərbaycanda başlamış, 14 yaşında isə ailəsi ilə birlikdə məcburi köçkün kimi Naxçıvan şəhərinə pənah gətirmişdir. Sonrakı bədii yaradıcılığına Zaur Vedili imzası ilə davam edən Zaur Cəlilovun mövzuları arasında doğma kəndinə, el-obasına, uşaqlıq illərinin keçdiyi yerlərə həsrət də geniş yer tutmağa başlayır. İstər doğma kəndi Xalisaya həsr olunan şeirlər, istər gözünü açdığı gündən başlayaraq yaddaşına hopmuş yerlərin intizar dolu təsviri, ata-baba yurdunun zəhmətkeş insanları, qayğıkeş sakinləri, bütövlükdə ermənilərin azərbaycanlılara qarşı amansız rəftarı Zaur Vedilinin ən çox müraciət etdiyi mövzular arasında yer tutmuşdur.

Ədəbiyyatın tarixdən daha çox tarixə xidmət edən bir sənət sahəsi olduğunu etiraf etmək lazımdır. Hətta əminliklə söyləmək olar ki, tarix əgər rəsmi və statistik təsvirlərlə bu prosesə xidmət edirsə, ədəbiyyat həm də duyğulara, hisslərə, düşüncələrə, həm də gələcək nəsillərin təfəkküründə təsir edərək yaşanmış keçmişin daha dolğun və təsirli şəkildə yaddaşlara yazılmasına və unudulmamasına xidmət edir. Bu mənada Zaur Vedilinin də bədii yaradıcılığında, eləcə də müxtəlif publisistik əsərlərində Qərbi Azərbaycan probleminin bədii boyalarla təqdimi xüsusi çəkiyə malikdir.

Öz təbiəti etibarı ilə insanlarının saz-söz sənətinə daha çox maraq göstərməsi, bağlı olması da Qərbi Azərbaycanda yaşayan əhali arasında bədii yaradıcılığa meyl edənlərin daha çox olduğunu deməyə əsas verir. Zaur Vedili də məhz belə insanlardan biridir ki, onun əsərlərinə hopmuş yurd həsrəti, vətən dərdi, Vedibasar mahalının havası, suyu, doğma kəndi Xalisanın hər bir cizgisi bir şairin əsərlərinin timsalında böyük bir yurdun, tarixi prosesin, yaşanmış hadisələrin üzə çıxarılmasında böyük rol oynayır. Zaur Vedili yaradıcılığında yurd həsrətinin poetik ifadəsi də bu mənada aktuallıq kəsb edir və biz də dəyərli şair həmkarımızın ortaya qoyduğu bədii nümunələri bu prizmadan tədqiqat süzgəcindən keçirməyə çalışdıq.

Yaradıcılığının ana xəttini vətən həsrəti təşkil edən şairin ilk şeirlər kitabının adı da məhz yurd intizarından doğaraq ortaya çıxıb. 1998-ci ildə nəşr olunan kitabının adını "Vedi həsrəti" qoyması da təsadüfi deyil. Kitabda yer alan şeirlərin əksəriyyəti Zaurun ilkin yaradıcılıq nümunələridir ki, burada da yurd həsrətinin poetik təqdimatı daha qabarıq şəkildə özünü göstərir. Həmin şeirlərə nümunə olaraq "Həsrətin dağ dərdi", "Könlüm gecə-gündüz vətən arzular", "Bizdən inciyər", "Soruşun məni" və digərlərinin adlarını çəkə bilərik. Kitabın adını daşıyan poemada isə Zaur öz vətən yanğısını bu və bu kimi misralarla dilə gətirir:

İndi bürünübdür qara libasa,
Yaralı qoyubdur ovçu maralı.
Ayrılıq içində batıbdır yasa,
Başı min bəlalı Vedi mahalı.
Başının üstünə çən-duman çökən,

Dağların artıbdır qəzəb hiddəti.
Odlu ürəklərə, odlu dağ çəkən,
Vedi həsrətidir, Vedi həsrəti [10, s.48].

Zaurun ikinci kitabı da birbaşa yurd həsrətinin ağrısından doğub. 2000-ci ildə nəşr olunan "Haray" kitabında "Ata qəbri, oğul səbri" və "Haray" poemaları birbaşa Vedibasar mahalının Xalisa kəndndən çıxan insanların ağrı-acılarıyla doludur. Əgər "Ata qəbri, oğul səbri" poemasında müəllimi olmuş dayısı Hidayət Əsəd oğlunun unudulmaz xatirəsi şair təfəkküründə yurd həsrəti ilə paralel təqdim olunursa, "Haray" poemasında yaxın coğrafiyamızda tarix boyu mənfur qonşularımızın başımıza gətirdikləri ağlasığmaz faciələr, həmçinin müxtəlif dövrlərdə torpaqlarımızın əlimizdən alınmasından doğan vətəndaş harayını eşidirik. Zaur Vedili haray çəkərək bunlara bir "dur" deməyimizi istəyir. Təkcə bizim yox, dünyanın da bu cür zülümlərə, haqsızlıqlara biganə qalmaması üçün birlikdə haray çəkməyimizi arzulayır. Poemada yer alan aşağıdakı misralar bu irihəcmli əsərin mahiyyətini, daha çox isə yaşanmış tarixi hadisələrin nəticəsində ortaya çıxan reallığın əsl üzünü göstərərək daha aydın ortaya qoyur:

Son yüz il ərzində bu ermənilər
Bizlə cəngə çıxdı gör neçə dəfə?
Qara libas geydi açılan səhər,
Od-alov ələndi dörd bir tərəfə.

Sübh çağı qalmışıq sanki zülmətdə,
Bahar ömrümüzü boran alıbdır.
Əcdadım iz salan o məmələkətdə
Bir gör namərd necə məskən salıbdı?

Neçə türk mənşəli yer adlarını,
Dəyişib etdilər tariximə qəsd.
Düşmən açan zaman qanadlarını,
Biz niyə buraxdıq onları sərbəst? [6, s.187-188].

Zaur Vedilinin harayında bizlərin hədsiz dərəcədə humansitliyimizin, mərhəmət hissinə sahib olmağımızın, qonaqpərvəliyimizin, səmimiyyətimizin başımıza gətirilən müsibətlərdə az rol oynamadığının təəssüf dolu etirafı var. "Qaniçən düşmənə "dost" deyə-deyə öz gözümüzü öz əlimizlə oymağımız" gerçəyi də şairin misralarında öz əksini tapıb.

"Haray" kitabının ön sözündə müəllifin bu etirafları da onun yaradıcılığında vətən həsrətinin hansı səviyyədə yer aldığını anlamaq baxımından diqqətə layiqdir. Zaur Vedili "Qəlbimin gözü ilə gördüklərim" ön sözündə yazır: "Doğma kəndimizdə vur-tut on dörd bahar yaşadır. 1988-ci ildə yüz minlərlə soydaşımız kimi yurd-yuvamızdan didərgin düşdük. Hərə bir yana üz tutdu. Biz ailəliklə Naxçıvana pənah gətirdik.

Erkən yaşımdan gözlərimin nurunu itirmişəm. Amma qəlbimin gözü ilə görürəm. Dağın-daşın rəngini görürəm, bağın-baxçanın rəngini görürəm, seincin, kədərin rəngini görürəm. Ən əsası isə inamın rəngini görürəm. Bir gün doğma yurd-yuvamıza, el-obamıza qayıdacağımıza inanıram.

Bu inamdır məni yaşadan. İçimdən bir haray qopur. Sən də haray çək, qardaş. Siz də haray çəkin, qardaşlar! Mən, sən, o haray çəksək, əl-ələ verib, çiyin-çiyinə dayansaq, nəinki Vedi, hətta ulu məmləkətimizin paramparça olmuş Qərbi də, Şərqi də, Şimalı da, Cənubu da bütövləşəcək" [6, s.3-4].

Zaur Vedilinin bu inamı və bu inamdan doğan harayı son illərdə dünya miqyasında bütün sahələrdə öz gücünü göstərməyə nail olan dövlətimiz tərəfindən də çəkilməkdədir. Bu inamın səsi kimi çəkilən haray sızıltılı haray deyil, qələbə arzulu, zəfər əminli, irəli əmrli bir haraydır. Dövlətimizin siyasət meydanında çəkdiyi haraya alimlərimiz elmi tribunalardan səs verirlər. Bu səslər arasında isə şair və yazıçılarımızın, publisistlərimizin harayı daha duyğulu, daha ötkəm səslənir və Zaur Vedili harayı da o səslərin ön tezliyindən eşidilir.

"Haray" kitabında yer alan "Bu dərdi kim unudar", "Oxuma, Qədir", "Vedidə", "Vedi mənə, mən Vediyə bağlıyam", "Vedililər, Vedi bizsiz qalıbdır", "Xalisada qalıbdır", "Durnaları dönməz olub yurdumun", "İtirmişəm", "Vətən həsrəti" və bu kimi şeirlərin hər birində Zaurun şair könlünün vətən telləri həsrət nəğmələri üstündə haray çəkir. "Vətən həsrəti" şeirində şair yazır:

Əsən küləklərin şimşək atında,
Uçuram xəyalən vətənə sarı.

Köksümü göynədən həsrət odunda,
Ərimir qəlbimin şaxtası, qarı [6, s.53].

Zaur Vedilinin növbəti kitablarından biri "Ürəyimdə yanan işıq" adlanır ki, həmin şeirlər toplusunda da vətən həsrətinin poetik təqdimatını bir çox şeirlərdə görmək mümkündür. Kitabın "Tarix bağışlamır unutqanlığı" bölməsində toplanmış şeirlərin hər birində bu həsrətin yanğısı köz kimi işarır. "Narahatam mən", "Tarix bağışlamır unutqanlığı", "Yurdumun" kimi şeirlərdə Zaurun vətən həsrətini duymaq çətin deyil.

Maraqlıdır ki, Zaur Vedili nəzmin müxtəlif janrlarında öz vətən həsrətini ifadə etməyə nail olmuşdur. Bir çox poeziya nümunələri ilə yanaşı, onun aşıq şeiri janrlarında qələmə aldığı poetik nümunələrdə də Vedi ayrılığından yaranan hicran göynərtilərini oxuya bilirik. Şairin aşıq şeirinin çox çətin janrlarından biri olan dodaqdəyməz janrında qələmə aldığı "Alışır ağızda dil qadir Allah" adlı dodaqdəyməzində doğma kəndinə olan həsrəti görə bilirik:

Eşitdikcə dağlar çəkən harayı,
Xalisa həsrəti qış edir yayı.
Qaranlıq zindandır hicran sarayı,
Hicranı taledən sil, qadir Allah! [9, s.69].

Bundan əlavə, Zaur Vedilinin aşıq şeirinin digər bir janrı olan deyişmədə də vətən həsrəti misralarda özünə yer tapmışdır. Xalidə Vənəndli ilə deyişməsinin bir neçə bəndində Zaurun vətənə qovuşmaq arzularını oxuyur, narahatlığını hiss edirik. Həmin deyişmənin müxtəlif hissələrindən 3 bəndə diqqət edək:

Dərdlərimi ağ kağıza açıram,
Xəyalımda o yerləri qucuram.
Vətənimin arzusuyla uçuram,
Qucağında yatacammı, nə bilim?

Qorxum odur həsrət odu sönməyə,
Gələn karvan bir də geri dönməyə.
Kaş ki, ümid zirvələrdən enməyə,
Vüsal tamın dadacammı, nə bilim?

Mən Zauram, övladıyam vətənin,
Arzuların gerçək ola kaş sənin.
Görən bir də Xalisanın, Vedinin
Havasını udacammı, nə bilim? [9, s.78].

Yuxarıdakı deyişmədən gətirdiyimiz misralardakı hissləri Zaur Vedilinin şairlərdən Rahilə Elçinlə, Maarif Təmkinlə, Qafar Qəriblə olan deyişmələrində də müşahidə etmək olur.

Şairin "Ürəyimdə yanan işıq" kitabının bir bölməsi "Bayatılar" adlanır. Bu bayatılar, demək olar ki, əksəriyyəti birbaşa vətən həsrətiylə dilə gələn misralardır. İstər Vedi mahalının, istər Xalisa kəndinin adıyla bağlı olan bayatıların hər bir Zaurun içindəki yurd həsrətinin böyüklüyündən xəbər verir. Həmin bayatıların bir neçəsinə baxmaqla ümumi mənzərəni gözlərimiz önündə canlandıra bilərik:

Gözümün yaşı, Vedi,
Yaz eylər qışı Vedi.
Mən ölsəm, qəbrim üstə
Gəl ol başdaşı, Vedi [9, s.87].

Vedinin dağı qaldı,
Bağçası, bağı qaldı,
Doğması qərib oldu,
Qoynunda yağı qaldı [9, s.87].

Bu cür onlarla bayatını təqdim etmək olar ki, hər birində Zaur Vedilinin vətən həsrətini, yurd yanğısını, doğma yerlərə olan darıxma hissinin böyüklüyünü görə biləsən. Bütün bunlara baxmayaraq, Zaurun içində bitməyən bir inam, ölməyən bir ümid var ki, yenidən öz doğma yurduna, qədim türk torpaqlarına geri dönəcəyik. Bu cür hisslərin yer aldığı bayatılarında Zaur fikirlərini bu cür ifadə edir:

Vedinin başı duman,
Qayası, daşı duman.

Dönəcəyəm o yurda,
Ürəyimdə var güman (9, s.87).

Əynimdə donum çıxa,
Ox dəyə, qanım çıxa.
Allahdan arzum budur,
Vətəndə canım çıxa [9, s.89].

Şairin atasının əziz xatirəsinə həsr etdiyi "Ürəyimdə yanan işıq" [9, s.102-126] poemasında da Vediyə qovuşma arzuları, Xalisa kəndinə olan həsrət müxtəlif situasiyalarda poetik dillə təqdim olunmuşdur.

Zaur Vedilinin "Duz səpilmiş yaramız" kitabının adından da göründüyü kimi, o, məcburi köçkünlük dərdinin, vətən həsrətinin, doğma yurd-yuvasından ayrı düşməyin yaraya tökülmüş duz kimi acı verdiyini ifadə etmək istəmişdir. Bu kitaba ön söz yazmış görkəmli ədəbiyyatşünas alim, tənqidiçi professor Hüseyn Həşimli Zaurun yeni bədii nümunələrini oxuduqdan sonra fikirlərini ifadə edərkən yurd həsrətinə də toxunmadan keçə bilmir: "Şair qaçqın və köçkünlərin nisgilini, yurd həsrətini, el-oba yanğısını, Xalisa kəndindən ayrı düşməyin oyatdığı kədəri dilə gətirərək yaşantılarını oxucularla bölüşür" [2, s.6]. Təsadüfi deyil ki, kitabı açan kimi "Xalisadan ayrılanda" adlı şeirlə qarşılaşırsan. Həmin şeirdə Zaur fikirlərini dilə gətirərək doğma kəndinə olan həsrətini bu şəkildə oxucuya təqdim edir:

Bir mizrabsız tar kimiyəm,
Gün altında qar kimiyəm.
Yarsız qalan yar kimiyəm,
Xalisadan ayrılandan.

Nə gecəm var, nə gündüzüm,
O yerlərdə qalıb gözüm.
Yox qəlbimdə daha dözüm,
Xalisadan ayrılandan.

Tutub məni həsrət oxu,
İtirmişəm varı, yoxu.
Gözlərimə getmir yuxu
Xalisadan ayrılandan [5, s.10].

Kitabdakı "Ürəyim", "Darıxırmı görəsən", "Elə bil Xalisa qoxdu o güllər", "Bu köç geri dönəcəkmi", "Yurd itkisi", "Kövrəltmə məni", "Kəndimə getməyim gəlir", "Mən də Vediliyəm, sizin eldənəm", "Bu yurd" və bu kimi onlarla şeirin adını çəkmək olar ki, hər birində Zaur Vedilinin vətən həsrətinin, yurt nisgilinin poetik ifadəsi öz əksini tapıb. Bu şeirlərdə qarşımıza çıxan "Qürbət eldə açan hər gül-çiçəyi Yurdumdakı solmuş gülə dəyişmərəm" [5, s.26], "Vətənsiz ürəyim dərdlidir, dərdli" [5, s.17], "Ondan ağır bəla hanı? Ağır dərddir yurd itkisi" [5, s.14], "Yurd ətri dərmandır ağır naxoşa" [5, s.13], "Yenə ata yurdu düşüb yadıma, Nanə yarpağıtək əsir ürəyim" [5, s.10] və yüzlərlə bu cür misralarda didərgin bir şairin vətən həsrətinin qoxusunu duyursan.

Durnaları gələndə qayıdacağam" adlı şeirlər kitabında da bu yurd həsrətinin poetik ifadəsi eyni şəkildə davam edir. Bu kitaba dəyərli şair, mərhum Vaqif Məmmədov Zaurun poetik təfəkkürünü çox yaxşı təhlil edən bir ön söz yazıb. Həmin ön sözdə də müəllifin bütün yaradıcılığının, demək olar ki, yarıdan çoxunu təşkil edən vətəndən ayrı düşməyin yaratdığı ovqat şərh edilib. Vaqif Məmmədov bu mövzuya işarə edərək yazır: "Zaur Vedilinin, demək olar ki, bütün yaradıcılığına həkk olan, çökən torpaq həsrəti, vətən sevgisi onu digər qələm dostlarından, yaşıdlarından fərqləndirir. Ancaq fərəhli haldır ki, vətənə həsrəti, əldən gedən yurd həsrəti mövzusunda ən kövrək, ən nisgilli şeirlər yazmağı bacaran Zaur Vedili heç vaxt bədbinləşmir, illərdən bəri qaçqınlıq taleyi yaşayıb rahatlığı olmayan, qürbətin bütün ağrı-acılarını görən şair əldən gedən torpaqlarımızın qayıdacağına əminliyini bədii sözün qüdrəti ilə bəyan edir və o torpaqlara qayıdış günü özünü dünyanın ən bəxtəvər insanı olacağını bildirir" [3, s.5]. Vaqif Məmmədovun haqqında bəhs etdiyi həmin poetik nümunəni məhz bu kitabda oxumaq mümkündür. Şair "Qayıdış arzusu gerçəkləşəndə" şeirində deyir:

Yoxdur rahatlığım illərdən bəri,
Qürbətdə çəkirəm hər dərdi-səri.
Olaram dünyanın ən bəxtəvəri,
Qayıdış arzusu gerçəkləşəndə.

Vedili günləri yaşasam təkrar,
Onun qışını da sanaram bahar.
Diz çökər önümdə, həsrət, intizar,
Qayıdış arzusu gerçəkləşəndə [4, s.23].

"Kəndim üçün darıxıram", "Ana yurdun həsrəti", "Bizim dağlara", "Ay qərib kəndim", "Ana yurdun bağrı qandı" kimi şeirlərin hər birinin adı Zaur Vedilinin vətən həsrətinin miqyası barədə məlumat verir.

Şairin digər şeir kitablarından birinin adı da həsrət doludur: "Qərib yurduma salam" şeirlər toplusunda Zaurun bundan əvvəl yazdıqlarını təkrarlamayan bədii nümunələri yer alıb. Buradakı şeirlərdə də yurd həsrətinin poetik ifadəsi qarşımıza çıxır. Bu kitaba ön söz yazmış mərhum yazıçı, folklorşünas alim Rafiq Babayevin müşahidələri daha tutarlı səslənir: "İndi nisgilin, acı ayrılığın bir adı da Vedidir. Elə bilirsən, Vedi sözü şair Zaur Vedilinin adında daha qəmli, daha başı bəlalı görsənir – bu adın dərdi dünyanın özündən böyükdür: şairin misraları bu dərdin atəşində qovrulur, nisgili ovunmur, ağrısı səngimir" [1, s.4]. Rafiq müəllimin dediyi ovunmayan nisgil, səngiməyən ağrı kitabın adını daşıyan poemanı oxuyanda hər misrada adamın üzünü qarsan atəş kimi hiss olunur. Şəhriyarın məşhur "Heydərbabaya salam" poemasının üslubunda yazılmış bu nümunədə Zaurun vətən həsrəti, yurd nisgili oxucu könlündə də qubar ab-havası yaradır:

Qərib yurdum, vallah məni qınama,
Etibarsız deyiləm mən anama.
Əgər bir də qovuşsam sən sonama
Nura dönər bəxtimdəki qaranlıq,
Abadlaşar qəlbimdəki viranlıq [7. s. 126].

Poema başdan sona kimi şairin obraz olaraq müraciət etdiyi "Qərib yurdu" ilə dərdləşməsi şəklində davam edir. Hətta poemada biz Xalisa, Şidli, Dəvəli, Qədli, Yenicə, Kolanlı və Vedibasar mahalının, demək olar ki, bütün kəndləri ilə də tanış oluruq. Çox axıcı və diləyatımlı üslubuyla bu poema bu gün belə Vedibasar mahalının sözlə çəkilmiş xəritəsi kimi təqdim oluna bilər. Oxucunu poetik bir coğrafi gəzintiyə çıxaran Zaur Vedili poema boyu həsrət sacında qovrulan qərib görkəmində nəzərə çarpır.

Zaur Vedlinin istər "Bizi sevgi yaşadacaq", istər "Ay şahiddir sevgimizə" kitablarında da Qərbi Azərbaycan motivli bölmələr özünə yer tapıb. Bu bölmələrdə də şairin yurd həsrəti, vətənlə bağlı arzuları poetik təqdimatla oxucunun ixtiyarına verilib.

Şairin ən son nəşr olunan kitabı "Unudulmaz xatirələr" adlanır. 2023-cü ildə nəşr olunmuş həmin kitab bütövlükdə Qərbi Azərbaycan mövzusuna həsr olunub. Bu kitabdakı şeirlər arasında Zaurun son illərdə qələmə aldığı vətən, yurd intizarı ümid dolu inamla belə dilə gətirilib:

Ey anam Xalisa, gözümün nuru,
Zaur səni sevir, sən də Zauru.
Gec-tez dağıdaraq bu qara toru,
Bilirəm, biz yenə qayıdacağıq [8, s.11].

Zaur Vedili yaradıcılığını bütöv halda tədqiqata cəlb edəndə yurd həsrətinin böyük bir bölmədə ələ alınması zərurəti ortaya çıxır. Tanış olduqca belə bir əminlik yaranır ki, Zaur Vedili yurd həsrətindən qovrularaq şeirlərini qələmə alır. Bütün bunlar isə belə bir nəticəyə gəlməyə əsas verir ki, şairin ana mövzusu Vedi ayrılığının kədəri, Xalisa kəndinin həsrətinin ağrısıdır. Bütün bu mövzuları qələmə alarkən Zaur Vedilinin peotik yeniliklərdən uzaqlaşmaması isə onun ciddi bir qələm sahibi olduğunu göstərir. Öz şair təfəkküründən yeni poeziya nümunələri ərsəyə gətirən Zaur Vedili yaradıcılığındakı yurd həsrətinin poetik ifadəsi ümumilikdə bir xalqın öz doğma el-obalarına olan bağlılığın tərənnümüdür. Bu şeirlərdəki bir gün ata ocaqlarına qayıtmağa olan inam hissi isə son illərdə dövlət səviyyəsində həyata keçirilən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası çərçivəsində Zaur Vedilinin öz arzularına qovuşacağına olan əminliyi də artırır. İnanırıq ki, ömrünün 50-ci ilini yaşayan şairin yaxın gələcəkdə Vedidə, Xalisa kəndində öz ata ocağındakı evində, həyətində qələmə aldığı vüsal həyəcanlı şeirlərini də oxuyacağıq.

ƏDƏBİYYAT

1. Babayev, R. Ömrümün qara telinə yağan qar. "Qərib yurduma salam" kitabına ön söz. Bakı: Şirvannəşr, 2011, 156 s., s.3-6.
2. Həşimli, H. Həqiqətin şeiriyyəti, şeiriyyətin həqiqəti. "Duz səpilmiş yaramız" kitabına ön söz. Bakı: Şirvannəşr, 2006, 200 s., s.5-8.
3. Məmmədov, V. Vedisiz Zaur Vedilinin şeir dünyası, yaxud dərdlə dostluq eyləyən şair. "Durnalar gələndə qayıdacağam" kitabına ön söz. Bakı: Şirvannəşr, 2009, 160 s., s.3-8
4. Vedili, Z. Durnalar gələndə qayıdacağam. Bakı: Şirvannəşr, 2009, 160 s.
5. Vedili, Z. Duz səpilmiş yaramız. Bakı: Şirvannəşr, 2006, 200 s.
6. Vedili, Z. Haray. Naxçıvan: Əcəmi, 2000, 206 s.
7. Vedili, Z. Qərib yurduma salam. Bakı: Şirvannəşr, 2011,156 s.
8. Vedili, Z. Unudulmaz xatirələr. Naxçıvan: Əcəmi, 2023, 160 s.
9. Vedili, Z. Ürəyimdə yanan işıq. Bakı: Şirvannəşr, 2005, 160 s.
10. Vedili, Z. Vedi həsrəti. Bakı: Elm və həyat, 1998, 64 s.

ABSTRACT

Elxan MƏMMƏDOV

THE POETİC EXPRESSİON OF HOMELAND LONGİNG İN THE WORKS OF ZAUR VEDİLİ

Zaur Vedili, born in the village of Xalisa in the Vedibasar region of Western Azerbaijan (now part of Armenia), is a poet whose work is profoundly shaped by exile and longing for his homeland. Forced to move to Nakhchivan at a young age, his poetry consistently reflects nostalgia for his native village, the Vedibasar region, and the hardships faced by Azerbaijani people due to historical conflicts. Through his books, including Vedi Həsrəti (1998), Haray (2000), Ürəyimdə Yanan Işıq, and Duz Səpilmiş Yaramız, Vedili expresses both personal grief and collective memory, preserving the history and emotional landscape of displaced communities. His poetry spans various genres, including traditional Azerbaijani ashik forms, and conveys the pain of separation, yet is infused with hope for return. Vedili's works serve as a testament to cultural memory, portraying the enduring connection between a people and their lost homeland, and resonate with the broader Azerbaijani aspiration for the restoration of Western Azerbaijani territories.

Keywords: *Zaur Vedili, longing for homeland, Western Azerbaijan, Vedibasar, exile / forced migration, Azerbaijani poetry*

"İRƏVANİ" İMZASI İLƏ TANINAN AZƏRBAYCAN ZİYALILARI

Şərəbanı MƏMMƏDOVA
sherebani@gmail.com
ORCID iD: 0000-0002-8425-5080
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə İrəvan şairlərinin fəaliyyətindən, onların yaradıcılığının qiymətləndirilməsi və bu sənətkarların ədəbiyyat tariximizdəki rolundan bəhs olunur. "Mərkəzi-üləma, füzəla və şüəra" şəhəri olan İrəvan böyük alimlər və müctəhidlər yetirmiş, elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi mədəniyyətimizə önəmli töhfələrini vermişdir. Əslən İrəvandan olan, xarici ölkələrdə "İrəvani" soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və mədəniyyət xadimləri haqqında məlumatlar mövcuddur. Dəlil İrəvani, Daniş Mirzə Rzaxan, Əbülqasim İrəvani, Mollabaşı Hacı Mirzə Əbdülkərim İrəvani-Təbrizi, Bəzmi, Ləli, Müttəlle, Sabir Haçi Rza Dilmani, Fəzləli Təbrizi, Hərif, Höccət, Şakir İrəvani, Fəxri İrəvani, Qabil İrəvani, Qüdsi İrəvani, Nazim İrəvani adlı sənətkar və alimlərdən bəhs etmişdir. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin müəllifi olaraq adları çəkilən müəlliflər haqqında daha geniş məlumat vermiş, əsərlərindən nümunələri təhlilə cəlb etmişdir. İrəvani imzası daşıyan, lakin İrəvandan kənarda yaşayan elm və mədəniyyət xadimləri haqqında da məlumat verilmiş, onların tərcümeyi-halı və yaradıcılığı haqqında mübahisəli məsələlərə aydınlıq gətirilmişdir.

Açar sözlər: *Azərbaycan, İrəvani, imza, şair, təxəllüs*

Giriş

Bu gün Ermənistan dövləti kimi təqdim olunan qədim Azərbaycan torpaqlarında İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələri yaşayıb-yaratmış, Şərq elmində, ədəbiyyatında, mədəniyyətində müstəsna rol oynamışlar. Orta əsrlər tarixi mənbələrində adı Rəvan və İrəvan kimi çəkilən şəhərin azərbaycanlılara mənsub olmasını beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədilə elmi araşdırmaların aparılması və nəşr edilməsi vacibdir. Araşdırılan faktlar - Qərbi Azərbaycan, xüsusilə İrəvan ərazisində yaşayıb-yaradan yazarların həyat və fəaliyyəti - bu torpaqların əsas sakinlərinin kimliyini təsdiq etmək baxımından çox əhəmiyyətlidir.

"Mərkəzi-üləma, füzəla və şüəra" şəhəri olan İrəvan böyük alimlər və müctəhidlər yetirmiş, elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini vermişdir. Əslən İrəvandan olan, xarici ölkələrdə "İrəvani" soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və mədəniyyət xadimləri haqqında məlumatlar mövcuddur. Mirzə Məhəmmədəli Tərbiyət "Danişməndani-Azərbaycan" adlı əsərində Dəlil İrəvani, Daniş Mirzə Rzaxan, Əbülqasim İrəvani, Mollabaşı Hacı Mirzə Əbdülkərim İrəvani -Təbrizi, Bəzmi, Ləli, Müttəlle, Sabir Haçi Rza Dilmani, Fəzləli Təbrizi, Hərif, Höccət adlı sənətkar və alimlərdən bəhs etmişdir. 2 cildli "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin müəllifi Firidun bəy Köçərli adları çəkilən müəlliflər haqqında daha geniş məlumat vermiş, əsərlərindən nümunələri təhlilə cəlb etmişdir. 1885-1895-ci illərdə İrəvan gimnaziyasında müəllim işləyən Firidun bəy Köçərli İrəvan ədəbi mühitinin nümayəndələrinin əsərlərini toplamış, İrəvan şairlərinə ayrıca bölmə həsr etmişdir. Onun şəxsi arxivində mövcud olan 36 səhifə həcmində bir dəftər, Lələnin (Mirzə Ağa Əli İrəvani) şeirlərinin əlyazmalarından ibarət 8 səhifə həcmində digər bir dəftər 1937-ci ildə "NKVD" tərəfindən məhv edilmişdir. Bu dəftərlər Bəzminin (Məşədi İsmayıl Hacı Kazımzadə), Mütəllenin (Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov), Sabirin (Hacı Seyid Rza Əmirzadə) şeirlərindən ibarət idi.

2001-ci ildə Tehranda "Zufa" nəşriyyatı tərəfindən çap olunan "İrəvan müsəlman sakinli şəhər olmuşdur" ("İrəvan yek vilayəte muselman neşin bud") kitabında görkəmli Azərbaycan alimi, uzun müddət Təbriz radio-televiziyasında çalışmış Səməd Sərdariniya (1947-2008) Əziz Dövlətabadinin 1991-ci ildə çap olunan "Qafqazda fars dilində yazılan şeirlər" kitabına istinadən "İrəvani" imzası ilə şeirlər yazan 12 şair – Aşüftə İrəvani, Aşub İrəvani, Çeşmə İrəvani, Bidil İrəvani, Höccət İrəvani, Hərif İrəvani, Dəlil İrəvani, Şakir İrəvani, Fəxri İrəvani, Qabil İrəvani, Qüdsi İrəvani, Nazim İrəvani kimi Azərbaycan dilində və farsca yazan şairlər haqqında qısa məlumatlar və onların şeirlərindən nümunələr daxil etmişdir [Səməd Sərdariniya, 2014, s. 197-216]. Azərbaycan torpaqlarında qondarma bir erməni dövləti qurulduğunu, yüzilliklər boyu Azərbaycan

şəhəri olan İrəvanın necə Erivan olmasını uzun illər apardığı araşdırmalarının nəticəsi olan 247 səhifəlik bu kitabda tarixi tarixi-elmi faktlarla əks etdirmişdir.

"Danişməndani-Azərbaycan" əsərinin müəllifi, Fəzləli İrəvani (Təbrizi), Hərif İrəvani, Höccət İrəvani, Daniş Mirzə Rza xan kimi ziyalılar haqqında da məlumat verilmişdir.

Material və metodlar

İrəvani kimi tanınan bir çox alimlər - Ayətullah Şeyx Əbdül-Kərim İrəvani, Şeyxülislam Fazil İrəvani, Hacı Şeyx Nəcəfi İrəvani, azərbaycanlı fəqih Ayətullah Hacı Şeyx Məhəmməd Təqi (təxminən 1915-ci ildə İraqın Nəcəf şəhərində dünyaya gəlib, əslən İrəvandan olub), Həzrət Ayətullah Mirzə Yusif İrəvani kimi alimlər yaşayıb fəaliyyət göstərmişlər.

Əsl adı Kəlbəhüseynbəy olan Aşüftə İrəvani İrəvan əyanları ailəsinə mənsub olmuş, əmisi Hacı Molla Məhəmmədin şəhərin şeyxülislamı olması haqqında məlumat vardır. Mənbələrdə göstərilir ki, Aşuftə Tehranda Zilli Sultan Əlişah yanında qulluq etmiş, şeirləri də söhbəti kimi məlahətli və cazibədar olmuşdur.

Qılıncın altındayam istərəm bir baxasan,
Qiyamətdə qorxuram məndən utanasan
Yalvardım mən dilbərə öpüş verib al canı,
Dedi Məcnun olmusan buna zaminin hanı?(Məhəmmədəli Tərbiyət, 1987, s.35)

Aşub İrəvani Əsl adı Mirzə İsmayıl olmuş, Fətəli şah Qacarın məddahlarından sayılmışdır. O, İrəvan xanı Hüseynqulu xan və qardaşı Həsən xan tərəfindən Müslümün oğlanlarının məzarı üzərində ucaldılmış günbəz binasının inşa edilməsi tarixini nəzmə çəkmişdir. Vaxtilə İrəvanda müsəlman qəbirlərinin üzərində tikilmiş günbəzlər, o cümlədən bu abidə də yerlə-yeksan edilmişdir.

Fətəli şah Qacarın müasirlərindən olan Dəlil İrəvani şahı mədh edən qəsidəsinin axırında İrəvan xanı Hüseynqulu xanın bünövrəsini qoyduğu İrəvan məscidinin binasının tikilməsi tarixinə işarə etmişdir.

Bina tarixini Dəlil rəqəmə saldı
Ondan tarixi bir məscid binası qaldı
(Əz işan məscidi nikust bərpa:
Hicri qəməri 1238/ 1822) ?[Məhəmmədəli Tərbiyət, 1987, s.77]

"Mütəlle" təxəllüslü şair kimi tanınan Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov 1832-ci ildə (hicri qəməri 1248) Bərağuş qəsəbəsində anadan olmuş, gənc yaşlarında Təbriz mahalından İrəvana gəlmiş, ömrü boyu İrəvanda yaşayıb fəaliyyət göstərmiş və 1894 (hicri qəməri 1312) - cü ildə orada vəfat etmişdir. Bəzi mənbələrdə isə şairin vəfat tarixi 1892-ci il (hicri 1310) göstərilmişdir. Mirzə Kazım Mütəlle ərəb əlifbasının islah edlməsi və dəyişdirilməsi haqqında risalə yazmış, xüsusilə "əlif", "vav", "ye" hərflərinin islah edilməsi və təkmilləşdirilməsi fikrini irəli sürmüşdür. Şair Mirzə Fətəli Axundzadə kimi Azərbaycan dilinin fonetik imkanlarını əks etdirmədiyini və geriliyin səbəbini ərəb əlifbasının çətinliyi ilə izah edirdi. "İslam millətinin xətti və kitabəti və yazı aləti o qədər dolaşıq və və çətindir ki, tifl üşün onu öyrənməkdən ağır şey bulunmaz" [F.Köcərli, 2005, s.225]. F.Köçərli bu risalənin "Kəşkül" qəzetinə göndərildiyini, lakin çap olunmadığını, orijinalının onun əlində olmasını da qeyd etmiş, risalədən hissələr də vermişdir. İrəvan ziyalısı Mirzə Kazım kimi Mirzə Abbas Məhəmmədov İrəvanda məktəbdarlıqla məşgul olmuşdur. O, ibtidai məktəb şagirdləri üçün kitab tərtib etmiş, kiçik hekayə, nağıllar və düzgülərdən ibarət həmin kitab uşaqları oxuyub-yazmağa həvəsləndirmək məqsədilə yazılmışdı. Mirzə Abbas Məhəmmədova istinadən Mütəlle bütün şeirlərini farsca yazdığı göstərilir. Buna baxmayaraq, Firidun bəy Köçərli Mirzə Kazımın həm fars, həm də Azərbaycan dillərində yazdığı şeirlərdən nümunələr gətirmişdir.

Ay afərin gül oğlum /Gül oğlum, bülbül oğlum / Dərsi oxu rəvanla/Sonra danış, gül, oğlum/ Oğlum, oğlum, naz oğlum / Dərsindən qalmaz oğlum / Bülbül kimi dərs oxur /İstər çox, ya az oğlum! Dəftəri var tərtəmiz/Kitabı ondan əziz / Kağızları rənbərəng /Oğlum, gətir, yaz görək!

İrəvan şairləri arasında məşhur olan "Bəzmi" təxəllüsü ilə şeirlər yazan Məşədi İsmayıl Hacı Kazımzadə 1846-cı ildə (hicri 1262) İrəvan şəhərində anadan olmuş, XIX əsr Azərbaycan şairi, jurnalisti və maarif xadimi Mirzə Məhəmmədtağı Sidqi Naxçıvaninin məktəbində təlim almış, öz fitri istedadı sayəsində qısa müddətdə fars və türk dilini mükəmməl öyrənmişdir. İsmayıl Kazımzadə İrəvanın sərvət sahibi tacirlərindən olsa da, gözəl təbi, şirin danışığı ilə şəhərin əyanları arasında, xüsusən də şairlər içərisində əziz və hörmətli olmuşdur. Firidun bəy Köçərlinin yazdığına görə, Bəzminin farsca və türkcə bir kitablıq şeirləri olsa da, toplayan olmamışdır. Bəzminin şeirlərinin çoxu qəzəl, rübai və müxəmməs janrında olmuşdur. Bunlarla yanaşı, Bəzminin həcvləri və satirik məzmunlu şeirləri də olmuşdur. Firidun bəy Köçərli Məşədi İsmayıl Kazımzadənin həm də "Əndəlib" ("Bülbül")

təxəllüsü ilə yazıb-yaratdığı nümunələrə yer vermişdir. İsmayıl Kazımzadə, həmçinin ömrünün son 20 ilini maarifə həsr etmiş, İrəvanda məktəb açmışdır. "Bizim məktəblərdə babadan bəri işlənən köhnə qayda ilə dərs keçməyin qüsurunu anlayıb, yeni əlifba tərtib edən ədib gülünc hədəfinə çevrilmişdi. Məhəmmədəli Tərbiyət isə öz təzkirəsində Bəzmi təxəllüslü iki şairin adını çəksə də, onların heç biri İrəvanlı Məşədi İsmayıl Hacı Kazımzadə deyil!".

XIX əsrdə yaşayıb-yaratmış digər irəvanlı şair "Sabir" təxəllüsü ilə şeirlər yazan Hacı Seyid Rza Əmirzadədir. Məhəmmədəli Tərbiyət şairi Sabir Hacı Rza Dilmani adı ilə anmışdır. Seyid Rza 1846-cı ildə Xoy şəhərində anadan olsa da, 27 yaşından ömrünün sonunadək İrəvan şəhərində yaşamışdır. Firidun bəy Köçərli Seyid Rzanı xoşsöhbət, rəvan təbə malik zərif bir şair kimi xarakterizə edir. Firidun bəy şairin mədh, həcv və qəsidə janrındakı yazmasını bəyənmədiyini də ifadə etmişdir. Şairin İrəvana gəlməsi vaxtı Həsən bəy Zərdabinin "Əkinçi" qəzetini çap etdirdiyi vaxta təsadüf etmişdir. Seyid Rza Əmirzadə imzası ilə "Əkinçi" qəzetində şairin nəsrlə və nəzmlə yazılmış yaradıcılıq nümunələri dərc olunmuşdur. XIX əsrin sonlarında Hüseyn Əfəndi Qayıbov "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı topluya Azərbaycan şairinin şeirlərindən nümunələr daxil etmişdir. Hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan həmin "Məcmuə"də Seyid Rza Əmirzadənin müxəmməs, müstəzad, tərkibbənd və tərcibəndlərindən nümunələr də öz əksini tapmışdır. Seyid Rza 1896-cı ildə (hicri 1312) İrəvan şəhərində təqribən 60 yaşında vəfat etmişdir. Firidun bəy isə vəfat tarixini 1322-ci il olaraq qeyd etmişdir. "Zari" təxəllüsü ilə şeirlər yazan Mirzə Abbas Seyid Rza Sabirin doğum və vəfatı tarixini məzar daşı üstünə həkk etmək üçün qitə (iki beytdən ibarət şeir) yazmışdır. Bu qitədə Tərbiyətin dediyi kimi şairin ölüm tarixi şairi-şirinməqal sözləri ilə qeyd edilmişdir.

İrəvanlı şairlərdən biri də "Ləli" təxəllüsü ilə şeirlər yazan Mirzə Ağa Əli İrəvani (Mirzə Əlixan) Hacı Ağa Mirzə İrəvaninin oğludur. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı"nda Ləli Mirzə Ağa Əli İrəvanini Mirzə Əlixan Şəmsül-Hükəma ("Ləli") kimi təqdim edərək [F.Köçərli, 2005, s.232] onun şeirlərindən iki nümunə vermişdir. O, 1845-ci ildə (hicri 1325) Təbrizdə anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almışdır. Kiçik yaşlarından atası Hacı Ağa Mirzə ilə bərabər Təbrizə getmiş, ədviyyat ticarəti ilə məşğul olmuş, sonra isə nüsxəbəndlik *(qədim tibb kitablarına baxıb dərman yazan ara həkimi)* etmişdir. Daha sonra Mirzə Ağa Əli İstanbulda tibb fakültəsini bitirmişdir. Təbrizə qayıtdıqdan sonra həkim kimi şöhrət qazanmış, nəhayət, Tehranda Nəsrəddin şahın saray həkimi olmuşdur. Şərq və Qərb ölkələrini şahla bərabər gəzmiş, fransız dilini bildiyi üçün həm də şahın tərcüməçisi olmuşdur. Şeirlərini fars və Azərbaycan dillərində yazmışdır. Firidun bəy şeirlərinin əksəriyyətinin türkcə olması haqqında məlumat vermişdir [F.Köçərli, 2005, s.232]. Onun şeirləri, hikmətli kəlamları zərbi-məsəl kimi istifadə olunmuşdur. Sadə və aydın, hər cür mürəkkəblikdən uzaq, eyni zamanda dil şirinliyinə və gözəl məzmuna malik qəzəl, qəsidə, mərsiyə, mədhiyyə və həcvlərdən ibarət divanı 1882, 1898 və 1907-ci illərdə kütləvi tirajla çap edilmişdir. Ləli Mirzə Ağa Əli İrəvaninin təkmilləşdirilmiş "Divan"ı 1944-cü ildə iki cilddə Təbrizdə kütləvi tirajla çap edilmişdir. Ləli Mirzə Ağa Əli İrəvani 1907-ci ildə Tiflisdə vəfat etmişdir. Məhəmmədəli Tərbiyət aşağıdakı qəzəlin müəllifi ləlinni hesab edir:

Sənin fərağında mən əl çəkdim varlığımdan
Ölüm mənə yaxşıdır sənin ayrılığından [Məhəmmədəli Tərbiət, 1987, s.190].

Əslən İrəvandan olan Mollabaşı Hacı Mirzə Əbdülkərim İrəvani - Təbrizi 1877-ci ildə (hicri 1294) vəfat etdiyi göstərilir. Onun əruz elmi və fars dilinin qrammatikası haqqında risalə yazması və 1845-ci ildə (hicri 1262) Təbrizdə çap etdirməsi, Qafiyə haqqında əsər yazması, lakin əlyazma şəklində olması haqqında məlumat da vardır [Məhəmmədəli Tərbiət, 1987, s.226].

Daniş Mirzə Rza xan - Daniş Hacı Hüseyn İrəvaninin oğludur. 1853-cü ildə (hicri 1270) Təbrizdə anadan olmuş, Tiflis, Peterburq və İstanbulda İran dövlətinin konsulu və səfiri olmuşdur. Dünyada ümumi sülhün bərpa edilməsi, insan ömrünün uzadılması fars əlifbasının izahı haqqında nəzm və nəsrlə əsərlər yazması haqqında məlumat vardır. Müntəxəbati-Daniş əsəri 1888-ci il (hicri 1306) çap edilmişdir [Məhəmmədəli Tərbiət, 1987, s.74].

Dövrünün görkəmli alimi, fəqihi, müctəhidi Ayətullah əl-Üzma Mirzə Fəzləli Müctəhid İrəvani 1861-ci ildə Təbrizdə anadan olub. Mirzə Fəzləli İrəvani, həmçinin şair olub. Onu tanıyan şairlər ona "Səfa" ləqəbi vermişdilər. "Danişməndani Azərbaycan" təzkirəsində onun Hədaiqul-arifin" (Ariflərin bağları) adlı əsərinin mövcudluğu haqqında məlumat verilir. Alim üç cilddə "Riyazül-Əzhar" və "Səfərnameyi Avropa" əsərlərini yazmışdır. Onun "Divani-Əşar" əsəri ərəb və fars dilində çap edilib. Mirzə Fəzləli Müctəhid İrəvani 1909-cu ildə vəfat edib və Təbrizdə dəfn olunub.

Hərif İrəvani haqqında məlumat verən Tərbiyət onun İrəvandan olması, Abbas Mirzə Naibülsəltənəyə qəsidə yazdığını bildirir və ondan iki misra nümunə verir:

Əcəm Novruzu gəldi, isfənd gülləri getdi
Azər ayı da ötdü, bahar günləri yetdi [Məhəmmədəli Tərbiət, 1987. s.387] .

Höccət İrəvaninin İrəvandan olması, Fətəli xan Səbanın qəsidəsinə cavab olaraq İrəvan sərkərdəsinin dilindən qəsidə yazdığı haqqında məlumata rast gəlirik [Məhəmmədəli Tərbiyət, 1987, s.392].

Əsl adı Əli xan olan şair Nazim İrəvani, şeirlərini "Şakir" təxəllüsü ilə yazan, kor şair Şeyx Musa İrəvani, yüksək şairlik təbinə malik olan, xalq arasında hörmət-izzət qazanan Çeşmə İrəvani, "Şəhab" təxəllüsü ilə yazan Məhəmmməd xan Qacar İrəvaninin digər oğlu, cavanlığında kamil təhsil alan, qəzəl yaradıcılığında xeyli mahir olan Həsən, "Qabil" təxəllüsü ilə yazan Məhəmmməd xan Qacar İrəvaninin üçüncü oğlu Hüseynəli də İrəvani imzasını daşımışlar.

"İrəvani" kimi tanınan Məhəmməd ibn Hüseyn Rəvani Sədi Şirazinin Gülüstan əsərini Azərbaycan dilinə tərcümə etmişdir. 1657-58-ci illərdə tamamladığı 107 vərəqdən ibarət "Tərcümeyi Gülüstan" Təbriz Milli Kitabxanasında saxlanılır. Nəsx xəttilə köçürülmüş bu əlyazma Azərbaycan kitabşünası Hacı Məhəmməd Naxçıvani tərəfindən 1923-cü ildə kitabxanaya hədiyyə edilmişdir.

Mirzə Müslüm Qüdsi İrəvani 1752-1808-ci illər arasında İrəvanda doğulmuş və yaşamışdır. Mirzə Məhəmməd Müslüm İrəvan xanlığının münşisi (katibi) olmuş, Qüdsi təxəllüsü ilə yazıb-yaratmışdır. Elm aləminə məlum olan yeganə "Divan"ı 2814 şifrəsi altında Hacı Məhəmməd Naxçıvani adına Təbriz Milli Kitabxanasında qorunub saxlanılır. "Divan" haqqında ilk məlumatı Eynulla Mədətli əldə etmiş, şərqşünas Şəmsi Pənahlı Təbriz Milli Kitabxanasında Qüdsinin "Divanı"nı tədqiq etmiş. monoqrafiya yazmışdır. Farsca, türkcə və ərəbcə şeirlər yazan Qüdsinin əsərləri içərisində farsca yazılmış "Tousife-İrəvan" ("İrəvanın vəsfi") məsnəvisi xüsusi əhəmiyyət kəsb edir. Bu məsnəvidə Çuxursəd, Qırxbulaq, Xan bazarı, Dərəbağı, Xan məscidi, Göyçə yaylağı kimi İrəvan mahallarının, məhəllələrinin və tarixi yerlərinin bir çoxunun adı çəkilir [Şəmsi Pənahoğlu, 2019. s.100].

XIX əsrdə yaşayan və İrəvani kimi tanınan ziyalılardan biri də Azərbaycan rəssamı Mirzə Qədim İrəvanidir. Onun yaradıcılıq irsinə portretlər, rəsm-trafaretlər, divar rəsmləri, zinət əşyaları və şüşə üzərində rəsmlər daxildir. Mirzə Qədim İrəvaninin əsərləri Azərbaycan, Gürcüstan və Rusiya muzeylərinin kolleksiyalarında saxlanılır. Natalya Miklaşevskaya tərəfindən yazılmış və "Azərbaycan incəsənəti" (Natalya Miklaşevskaya, 1954) toplusunda İrəvaninin 23 əsəri haqqında məlumat verilir. Bu əsərlərin iyirmisi Azərbaycan Milli İncəsənət Muzeyində, ikisi Ermitajda, biri isə Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır. Gürcüstan Dövlət Muzeyində saxlanan XIX əsrin 50-ci illərində İrəvandakı Sərdar sarayı üçün çəkilmiş bir neçə böyük portretdə İrəvaninin imzasının olması göstərilir.

Əldə olunan nəticələr

İrəvan şairlərinin ədəbiyyatımızın tarixində rolu həm əruz vəznində türkcə (Azərbaycan türkcəsi) orijinal bədii əsərlər, gözəl şeirlər yazması, həm də demokratik maarifçilik ideyalarını təbliğ etmək, elmi əsərlər çap etdirmək olmuşdur. İrəvani imzası ilə tanınan bir sıra elm və mədəniyyət xadimləri də vardır ki, onların yalnız doğulduğu yer İrəvan hesab olunur. Bununla belə, həmin sənətkarlar "İrəvani" soyadını daşımış, bu imza ilə yaşayıb fəaliyyət göstərmiş, Şərq elmində, ədəbiyyatında, mədəniyyətində müstəsna rol oynamışlar.

Müzakirə

Orta əsrlər tarixi mənbələrində şəhərin adı Rəvan və İrəvan kimi çəkilən Azərbaycan xanlıqlarından biri, Nadir şah Əfşarın vəfatı və Əfşarlar dövlətinin süqutundan sonra Çuxursəəd bəylərbəyliyinin əsasında yaranmış və 1747-1828-ci illərdə mövcud olmuş İrəvan xanlığı XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı, Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbaycanın elm və mədəniyyət tariximizə "İrəvani" soyadı ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini vermişdir. Əslən İrəvandan olan, xarici ölkələrdə "İrəvani" soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və mədəniyyət xadimlərinin əsərləri və əlyazmalar XIX əsrdə rus işğalı, İrəvan qalası uğrunda gedən döyüşlər, XX əsrdə İrəvanın Emənistana "hədiyyə edilməsi", 1905-1906-cı illər qırğınları, 1918-1920-ci illər soyqırımı və azərbaycanlı əhalinin dəfələrlə öz yer-yurdlarından didərgin düşmələri nəticəsində itib-batmış, məhv edilmişdir. Bununla belə, Azərbaycandakı və qonşu dövlətlərdəki arxivlərdə və kitabxanalarda İrəvan ədəbi mühitinə aid bir çox nümunələrə rast gəlinir. Bu nümunələrin araşdırılması və dünyaya təqdim olunması tarixi ədalətin - Qərbi Azərbaycana qayıdışın bərpasına xidmət edə bilər.

ƏDƏBİYYAT

1. Tərbiyət, M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, 464 s.
2. Köçərli, F. Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild. Bakı: Avrasiya Press, 2005, 464 s.
3. Miklaşevskaya, N. Azərbaycan incəsənəti. Bakı: 1954.
4. Sərdariniya, S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Tərcüməçi İ.Quliyev. Bakı: Zərdabi, 2014, s.197-216.
5. Pənahoğlu, Ş. Mirzə Müslüm Qüdsi İrəvaninin türkcə əsərləri. II nəşr. Bakı: Zərdabi, 2019, 100 s.

ABSTRACT

Sharabani MAMMADOVA

AZERBAIJANI INTELLECTUALS KNOWN BY THE PEN NAME "IRAVANI"

The article talks about the activity of Iravan poets, evaluation of their creativity and the role of these artists in our literary history. Iravan, the city of "the center of ulema, fuzela and shura", produced great scientists and mujtahids. There is information about dozens of scientific and cultural figures who were originally from Iravan, who wrote and wrote under the surname and pseudonym "Iravani" in foreign countries. Dalil Iravani, Danis Mirza Rzakhan, Abulgasim Iravani, Mollabashi Haji Mirza Abdulkarim Iravani - Tabrizi, Bazmi, Lali, Muttallah, Sabir Hachi Rza Dilmani, Fazli Tabrizi, Harif, Hojjat, Shakir Iravani, Fakhri Iravani, Gabil Iravani, Qudsi Iravani, Nazim Iravani He talked about artists and scientists. Firudin Bey Kocherli, the author of the history of the literature of Azerbaijan, gave more extensive information about the mentioned authors and analyzed examples of their works. Information was also given about scientific and cultural figures who bore the Yerevan flag but lived outside of Iravan,, and the controversial issues about their biographies and creativity were clarified.

Keywords: *Azerbaijan, Iravani, signature, poet, pseud*

VƏTƏN-VEDİ-XALİSA DƏRDLİ ZAUR VEDİLİNİN DRAMATURGİYASI

Aygün ORUCOVA
orujovaaygun82@gmail.com
ORCID iD: 0000-0002-2267-6023
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Azərbaycanın müstəqillik illərində Naxçıvan ədəbi mühitinin dramaturgiya sahəsini zənginləşdirən müəlliflərdən biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü, "1988-1990-cı illərdə ermənilərin silahlı hədələri, təzyiqləri nəticəsində doğma yurdu – Qərbi Azərbaycanın Vedi rayonunu tərk edərək qədim Naxçıvana pənah gətirmiş" Zaur Vedilidir. Vətən dərdli şair müxtəlif ədəbi növlərdə mövzu-məzmun və ideya-sənətkarlığı ilə diqqəti cəlb edən əsərlər müəllifidir. Zaur Vedili "Kitabi-Dədə Qorqud" dastanları motivlərini, zəngin şifahi xalq ədəbiyyatımızdan gələn bəşəri mövzuları böyük məharətlə dramaturgiyaya, yazılı ədəbiyyata gətirmişdir. Onun "Məhəbbətin intiqamı" adlı kitabında "Yurd itgisi", "Sədaqət", "Qəmli gözlər", "Arvad qurtaracaq", "Təpəgöz" dramları toplanmışdır. "Yurd itgisi" iki hissəli, dörd pərdəli pyesində bütün yaradıcılığında olduğu kimi, Vətən-Vedi-Xalisa dərdi "duz basılmış yara kimi" onun qəlbini göynədir. Əsər eyniadlı şeirlə başlayır, şeirdə də doğma vətənin itirilməsi "dağa-daşa güc eyləyən ağır dərd" kimi insanlığa qarşı törədilmiş ən böyük qəddarlıq, qəsd adlandırılır. Qarabağda döyüşlər gedən vaxtda toy edib ailə qurmağı, şənlənməyi bacarmayan Nicat vətənin mənafeyini şəxsi səadətindən üstün tutan, vətənin taleyi haqqında daim düşünən vətənpərvər bir Azərbaycan oğludur. Əsərdə xalqımızın başına gətirilmiş bəlaların əsas səbəbi kimi unutqanlığımız bir ictimai bəla olaraq dəyərləndirilir. "Sədaqət" 4 pərdəli pyesində də Qarabağ uğrunda gedən döyüşlərdən bəhs edilir. Bu əsərdə də satqın erməni Muşek obrazı yaradılmış və bu obrazla ermənilərin mənfur xisləti çox gözəl açılıb göstərilmişdir. Zaur Vedilinin dramları vətənpərvərliyi, səmimiliyi, dilinin və üslubunun aydınlığı, ictimai mövzuları, aktuallığı ilə ədəbiyyatımızı, teatr və mədəniyyətimizi xeyli zənginləş-dirmişdir.

Açar sözlər: *dram, vətən həsrəti, komediya, sonet, ictimai məzmun*

Giriş

Naxçıvan ədəbi mühiti tarixin bütün dönəmlərində Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsi olmuş, hətta bir çox hallarda ona yeni istiqamət vermiş, yeni məzmun və yeni formalar, ədəbi məktəb yaratmış məşhur şəxsiyyətlər bəxş etmişdir. Vətənin taleyini öz fərdi taleyindən ayırmamaq, onun bütövlüyünü, müstəqilliyini, şərəfini qorumağı ən ali və müqəddəs vəzifə hesab etmək, yeri gələndə qələmi yerə qoyub silah götürərək döyüş meydanına atılmaq naxçıvanlı şair və yazıçılarımıza xas olan xüsusiyyətlərdir. XIX əsrin sonlarında Naxçıvanda ilk mədəni-maarif tədbirlərinin təşkilatçısı, qadın azadlığının ilk tərəfdarı Eynəli bəy Sultanov, xalqı maarifləndirmək uğrunda ardıcıl mübarizəsi ilə yadda qalan, Cəlil Məmmədquluzadənin "müəllimlər müəllimi, dəryayi-hikmət" hesab etdiyi məşhur pedaqoq, şair Məmmədtağı Səfərov Sidqi, "Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda çalışmaqdır" – fikrində olan Cəlil Məmmədquluzadə, "Qılınc və qələm" romanında qələmlə mübarizənin hələ XII əsrdəki nümunəsini təqdim edən Məmməd Səid Ordubadi, "Molla Nəsrəddin" jurnalında Sabir və Mirzə Cəlildən də kəskin satiraları ilə çıxış edərək tənqid hədəflərinə öldürücü zərbələr endirən, "Molla Nəsrəddin" jurnalının ürəyi hesab edilən Əliqulu Qəmküsar, əsərlərində müharibəyə nifrət aşılayan romantik şair Hüseyn Cavid, bütün Türk dünyasının şairi hesab olunan Məmməd Araz və adlarını çəkmədiyimiz digər şəxsiyyətlər Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində özünəməxsus yer tutmuşlar.

Zaur Vedili yaradıcılığına ümumi baxış. Azərbaycanın müstəqillik illərində Naxçıvan ədəbi mühitinin dramaturgiya sahəsinin nümayəndələri Kəmalə Ağayeva, Asim Yadigar, Həsənəli Eyvazlı, Elman Həbib, Həmid Arzulu, Adil Babayev, Zaur Vedili və digər nümayəndələri vətənpərvərlik və tarixi mövzularda yazılmış əsərləri ilə diqqəti cəlb edirlər. Bu sahəni zənginləşdirən müəlliflərdən biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2017-ci ildə Prezident mükafatına layiq görülmüş şair, dramaturq, "1988-1990-cı illərdə ermənilərin silahlı hədələri, təzyiqləri nəticəsində doğma yurdu – Qərbi Azərbaycanın Vedi rayonunu tərk edərək qədim Naxçıvana pənah gətirmiş" [Vedili, 2008, s. 3] Zaur Vedilidir (Cəlilov Zaur Həsən oğlu). O, 24 avqust 1974-cü ildə Vedibasar mahalının Xalisa kəndində dünyaya göz açmışdır. İlk təhsilini doğma kəndi

Xalisada alan Zaur Vedili Naxçıvan şəhərində məskunlaşdıqdan sonra şəhərdəki on bir saylı orta məktəbdə təhsilini davam etdirmişdir. 1996-2000-ci illərdə isə Naxçıvan şəhərindəki Ü.Hacıbəyli adına Musiqi Kollecinin xanəndəlik sinfində təhsil alır. İlk şeirini 1987-ci ildə yazan Zaur Vedili Naxçıvana köçərkən yazdığı şeirlərini özü ilə gətirə bilməsə də, yenə bədii yaradıcılığını davam etdirmişdir. Müxtəlif yerli və xarici mətbuat səhifələrində ara-sıra oxucularla görüşən Zaur Vedili hal-hazırda "Vedi həsrəti", "Haray", "Aygünlü Səmalı dünyam", "Ayrılıqdan qorxuram", "Ürəyimdə yanan işıq", "Duz səpilmiş yaramız", "Sevgimizin xətrinə", "Durnalar gələndə qayıdacağam" adlı şeirlər və dram əsərlərindən ibarət olan "Məhəbbətin intiqamı" adlı kitabların müəllifidir. Bir neçə əsəri Naxçıvan Dövlət Televiziyasında və Radiosunda, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında səhnələşdirilib tamaşaçı və dinləyicilərin ixtiyarına verilmişdir. Müxtəlif bəstəkarlar, müğənnilər və xanəndələrlə bərabər, aşıqlar da Zaur Vedili yaradıcılığına üz tutur. Naxçıvan Yazıçılar Birliyinin sədri şair Asim Yadigar Zaur Vedilinin "Sevgimizin xətrinə" adlı şeirlər kitabına yazdığı ön sözdə onun yaradıcılığını belə qiymətləndirir: "Zaur Vedili sözün qədir qiymətini bilən və sözünü özündə gəzən söz adamıdır... O nikbindir. Sabaha ümidlə baxır" [Axundov, Vəliyev, 2008].

"Kaş qayıda Xalisalı günlərim!", "Vedisiz göynəyir Zaur Vedili", "Məktub yazmaq istəyirəm Vedimə", "Həsrətəm mən qucağına kəndimin", "Xalisa həsrəti, Vedi həsrəti" şeirlərində doğma el-obasından ayrı salınmış şairin sonsuz ağrı-acısının, nisgilinin şahidi oluruq.

Xalisasız bir qırılmış aynayam,
Qatarından ayrı düşən durnayam.
Qoymur məni sevincimdəm qaynayam,
Vətən dərdi, torpaq dərdi, el dərdi [Vedili, 2012, s.28].

Digər bir şeirində:

Neçə ildir itirmişəm cənnəti,
Çox ağırdı taleyin bu qisməti,
Tanrım poza bəxtimdəki həsrəti,
Kaş qayıda Xalisalı günlərim!

Tam dayana ayrılığın küləyi,
Gedib gəzəm bütün kəndi-kəsəyi.
Sevinc, vüsal quca dərdli ürəyi,
Kaş qayıda Xalisalı günlərim!

Qəlb içimdə hər gün fəryad qoparır,
Bu fəryadım qaya yarır, dağ yarır,
Xəyal məni hər gün ona aparır,
Kaş qayıda Xalisalı günlərim!

Tanrım qurtar bu bəladan Zauru,
Söküb dağıt fələk quran hər toru.
Vətən, torpaq, eldir mənə göz nuru,
Kaş qayıda Xalisalı günlərim! [Vedili, 2012, s. 24]

Yaradıcılığı klassik və müasir, hətta Avropa mənşəli janrlar - qəzəl, rübai, sonet, mövzu rəngarəngliyi, orijinallığı ilə diqqəti cəlb edir. "Sonetlər çələngi" haqqında tanınmış ədəbiyyatşünas alim Hüseyn Həşimli "Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı" monoqrafiyasında çox yüksək fikirlər söyləmiş, müəllifin Naxçıvanda yaşayan şairlərdən sonetlər çələngi yaratmaq sahəsində uğurlu addımlar atanlardan biri olduğunu xüsusi vurğulamışdır: "Zaur Vedilinin çələngindəki sonetlər arasında məna, məzmun bağlılığının güclü olduğunu, hər bir sonetin vahid məcraya yönəldiyini və bu yöndə müvafiq, poetik semantika daşıdığını ayrıca qeyd etməliyik. Başqa sözlə desək, forma naminə məzmun qurban verilməmiş, həmçinin fikrin bədii təqdiminə lazımi diqqət yetirilmişdir. Bütün çələng ülvi bir qayəni canlandırır. Çələngdəki sonetlərin hamısı İtalyan soneti formasındadır" [Həşimli, 2009, s. 248]

Zaur Vedili oxucuları ilə ilk dəfə "Şərq qapısı" qəzetinin 19 iyun 1990-cı il tarixli nömrəsində görüşmüşdür. Qəzetdə "Şöhrət" ordenli şair Elman Həbibin təqdimatı ilə gənc şair barədə yazdığı "Tanış olun" adlı məqalə, həmçinin Zaur Vedilinin "Ata ocağı" və "Bir sonu var həsrətin də" şeirləri oxucuların ixtiyarına verilmişdir. Uzun illər ərzində neçə-neçə aşıqlar, xanəndələr, bəstəkarlar, müğənnilər onun yaradıcılığına

dəfələrlə müraciət ediblər. Sinəmizdə yara kimi köz bağlayan Vətən, torpaq həsrətinə son qoyulmasının – düşmən üzərində qazanılan zəfərin sevinci 2021-ci ildə də Zaur Vedilinin bir sıra əsərlərinə müraciəti zəruri etmişdir. Zəfər ruhlu iki əsəri əsasında kliplər çəkilib musiqisevərlərin ixtiyarına verildi. Yeni kliplər çəkilmiş bu mahnıların birincisi "Zəfər bayramını qeyd edir Vətən!", ikincisi isə "Ey Vətən" adlı mahnılardır. Bu mahnı sevilən Azərbaycan filmi olan "Dədə Qorqud" filmindəki Emin Sabitoğlunun "İncə bellim" adlı mahnısının musiqisi əsasında ifa edilib. Onu da bildirim ki, "Zəfər bayramını qeyd edir Vətən" adlı bu mahnı Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan bəstəkar Polad Vəlinin Zaur Vedili ilə ilk mahnı əməkdaşlığıdır.

Zaur Vedili dramaturgiyasının mövzu-məzmun və ideya-estetik xüsusiyyətləri. Vətən dərdli şair müxtəlif ədəbi növlərdə və həm Avropa mənşəli, həm şifahi xalq ədəbiyyatının lirik janrlarında mövzu-məzmun və ideya-sənətkarlığı ilə diqqəti cəlb edən əsərlər müəllifidir. Naxçıvan ədəbi mühitinin digər bir istedadlı nasiri Rasim Gənzəlinin (1962-2018) "Qismətin rəngi" romanında yazdığı kimi: "Qaranlıq dünyanı qəlbinin işıqlı gözləri ilə görən qəm şairi" Zaur Vedili milli - türklərin müqəddəs abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları motivlərini, zəngin şifahi xalq ədəbiyyatımızdan gələn və eyni zamanda başqa xalqların folklorundan bəşəri əhəmiyyətli mövzuları böyük məharətlə dramaturgiyaya, yazılı ədəbiyyata gətirmişdir. Onun "Məhəbbətin intiqamı" adlı kitabında "Yurd itgisi", "Sədaqət", "Qəmli gözlər", "Arvad qurtaracaq", "Təpəgöz" dramları toplanmışdır. "İlanlar kraliçası Küknar", "Şahzadə Bəndalı", "Çalıb çağıran ağac", "Meşə macəraları" və s. uşaqlar üçün nəzərdə tutulmuş dramları nəşr olunmasa da, müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

"Yurd itgisi" iki hissəli, dörd pərdəli pyesində də bütün yaradıcılığında olduğu kimi, Vətən-Vedi-Xalisa dərdi "duz basılmış yara kimi" onun qəlbini göynədir. Əsər eyniadlı şeirlə başlayır, şeirdə də doğma vətənin itirilməsi "dağa-daşa güc eyləyən ağır dərd" kimi insanlığa qarşı törədilmiş ən böyük qəddarlıq, qəsd adlandırılır. Əsər 1998-2005-ci illərdə yazılmışdır. Əsərdə Nicatla Günayın məhəbbəti departasiya və müharibə hadisələri zəminində işıqlandırılır. Qarabağda döyüşlər gedən vaxtda toy edib ailə qurmağı, şənlənməyi bacarmayan Nicat vətənin mənafeyini şəxsi səadətindən üstün tutan, vətənin taleyi haqqında daim düşünən vətənpərvər bir Azərbaycan oğludur. Doğma yurdunu tərk edən Nicatın atası Ənvər kişinin özüylə bir kisə vətən torpağı götürməsi Nicatın da, atasının da, nişanlısı Tomris, Həcər, Nigar qeyrətli, cəsarətli Günayın da doğma el, obaya dərindən bağlılığının göstəricisidir. Günayın fikrincə, Vətən gülərsə, xalqımız dinc-firavan ömür sürərsə, onda haqqımız olar ki, biz də toy barəsində fikirləşək [Vedili, 2008, s.12]. Ənvər, Nicat və qonşusu Azər və digər elin igid, qəhrəman oğulları üç-üç küçələrin başında və Dəvəli Avşat istiqamətində od qalayıb gecə-gündüz demədən kəndlərinə keşik çəkirlər. Əsərdə xalqımızın başına gətirilmiş bəlaların əsas səbəbi kimi unutqanlığımız bir ictimai bəla olaraq dəyərləndirilir: "Əsas dözülməz dərd odur ki, zaman-zaman torpaqlarımıza sahib çıxıb qanımızı içsələr də, bu əclaflara yenə rəhm eləmişik. Yenə yazıqdı demişik. Ancaq bilməmişik ki, o yazıqlar zəhərli ilandan da betərdilər" [Vedili, 2008, s.19]. Belə "yazıq" ermənilərdən biri olan Krikor əsl xəyanətkar, yalançı, saxtakar erməni xalqının səciyyəvi nümayəndəsidir.

Əsərin sonunda iki gənc ailə həyatı qursalar da, onların ürəklərində vətən həsrətinin qara xal kimi daim yaşayacağını ifadə edən bir el məsəlinə müraciət edilir. Dəvəsini itirmiş bir şəxs sonralar bir karvanda dəvəsini tapanda ona inanmayan karvan sahibinə: " o dəvənin ürəyində qara xal vardır, inanmayırsansa, kəs, bax" - deyir. Həqiqətən də, dəvəni kəsib ürəyinə baxanlar orada doğma elindən aralı düşən bütün insanlarda olduğu kimi, bir qara xal olduğunu görürlər. "Anamın Kitabı" Ədəbi Mükafatanın 2015-ci il qaliblərindən biri bu əsərlə Zaur Vedili olmuşdur (IV yer). Lakin əsərin bədiilik və sənətkarlıq baxımından bəzi nöqsanlarından da bəhs edilmişdir. "Müasir dövrün qəhrəmanlarının əsrin əvvəllərinə xas patetik üslubdan qurtulmaması, mübaliğəli nitq əsərin nöqsanları olaraq dəyərləndirilmiş, problemə daha dərin yanaşma, mürəkkəb psixoloji, sosial mənəvi duruma nüfuz" [Ədəbi proses – 2015, 2016, s. 260] etməyin zəruriliyi vurğulanmışdır: "Eyni zamanda əsərdə mövzuya stereotip yanaşma müşahidə olunur. Qaçqın düşən, müharibə dövrünün insanların problemlərini eyni rakursdan canlandırılması son dövr ədəbiyyatımızda təkrara yol açır, şablon mövzular, situasiyalar yaradılır" [Ədəbi proses – 2015, 2016, s. 260].

"Sədaqət" 4 pərdəli pyesində də Qarabağ uğrunda gedən döyüşlərdən bəhs edilir. Bu əsərdə də satqın erməni Muşek obrazı yaradılmış və "bu obrazla ermənilərin mənfur xisləti çox gözəl açılıb göstərilmişdir" [Vedili, 2008, s. 4] (Həmid Arzulu). "Arvad qurtaracaq" 1 pərdəli, 5 şəkilli musiqili komediyada məktəb direktoru Yusifin həyat yoldaşı Kəmalə xanım 17 yaşı tamam olmuş oğlu Muradı əsgərlikdən qurtarmaq üçün nə qədər çalışsa da (çıxış yolunu Muradı evləndirməkdə tapır), təbii ki, məqsədinə nail ola bilmir. "Təpəgöz" Azərbaycan xalq nağılı əsasında yazılmış 1 hissəli, 2 pərdə və 7 şəkilli mənzum dramdır. İlk dəfə 2007-ci ildə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşaya qoyulmuşdur.

Nəticə

Son olaraq onu qeyd edə bilərik ki, müstəqillik illərində Naxçıvan ədəbi mühitinin dramaturgiya sahəsində müxtəlif janrlara müraciət edən dramaturqlar digər ədəbi növlərlə müqayisədə daha azdır. Bu sahə müəllifdən böyük ustalıq, sənətkarlıq şərtlərinə əməl olunması, əks cəbhələrin hər ikisinin güclü təqdimi və onlar arasında dramatik konfliktin dərinliyi ilə seçilən əsərlər yaratmağı tələb edir. Dramatik əsər müəlliflərinin heç də hamısı bu baxımdan uğurlu ola bilməyir. Saydığımız bu tələblərə tamamilə cavab verməsə də, Zaur Vedilinin dram yaradıcılığı həm janr, həm də ideya-məzmun zənginliyi ilə diqqəti cəlb edir. Onun həm nəsrlə yazılmış, həm də daha çətin sahə olan mənzum dramları, şanlı tariximizi, Qarabağ dərdimizi, kədərimizi, müasir dövrümüzdə Azərbaycanın problemlərini əks etdirən əsərlər kimi mühüm əhəmiyyətə malikdir. Bu əsərlər vətənpərvərliyi, səmimiliyi, dilinin və üslubunun aydınlığı, ictimai mövzuları, aktuallığı ilə ədəbiyyatımızı, teatr və mədəniyyətimizi xeyli zənginləşdirmişdir.

ƏDƏBİYYAT

1. Axundov, A.S., Vəliyev, S. Yeni nəsil və çağdaş dövrün poeziyası haqqında bir neçə söz. Naxçıvan: "Şərq qapısı" qəzeti, 2008, 14 avqust, №157
2. Ədəbi proses – 2015 (AMEA, Nizami adına Ədəbiyyat İnstitutu). Bakı: Hədəf, 2016, 406 s.
3. Həşimli, H. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2009, 444 s.
4. Vedili, Z. Məhəbbətin intiqamı (Dramlar). Bakı: Şirvannəşr, 2008, 279 s.
5. Vedili, Z. Bizi sevgi yaşadacaq. Naxçıvan: Əcəmi, 2012, 160 s.

ABSTRACT

Aygun ORUCOVA

THE DRAMATURGY BY ZAUR VEDILI, WHO IS SUFFERING FROM THE MOTHERLAND-VEDI-KHALISA

One of the authors who enriched the dramatic field of Nakhchivan literary environment during the years of independence of Azerbaijan was Zaur Vedili, a member of the Union of writers of Azerbaijan, who "in 1988-1990, as a result of armed threats and pressure of Armenians, left his native land-Vedi region of western Azerbaijan and took refuge in ancient Nakhchivan". The poet was the author of works that attract attention with their theme-content and Idea-professionalism in various literary types. Zaur Vedili brought the motifs of "Book of Dada Gorgud" epics and human themes from our rich oral folk literature to dramaturgy and written literature with great skill. His book "Love's Revenge" contained the dramas "Lost of Homeland", "Loyalty", "Sad Eyes", "The Wife Will Save", "Tepegoz". In the two-part, four-act play "Lost pf Homeland", as in all his works, the pain of Homeland-Vedi-Khalisa hurts his heart "like a wound added salt". The work begins with the poem of the same name, in which the loss of the native land is called the greatest cruelty and conspiracy committed against humanity, as "a earyhshaking pain". Nijat, who did not manage to get married and cheer during the fighting in Karabakh, was a patriotic Azerbaijani boy who preferred the interests of the motherland to his personal happiness and constantly thought about the fate of the motherland. In the work, our forgetfulness as the main cause of the troubles that have befallen our people is assessed as a social disaster. The 4-act play "Loyalty" also tells about the battles for Karabakh. In this work, the image of the traitorous Armenian Mushek was created, and with this image, the hateful character of the Armenians was revealed very well. The dramas of Zaur Vedili have significantly enriched our literature, theater and culture with their patriotism, sincerity, clarity of language and style, social themes, relevance.

Keywords: *drama, homesickness, comedy, sonnet, public content*

QƏRBİ AZƏRBAYCAN FOLKLORU

Şəlalə MƏMMƏDOVA
mamedova-shalala@mail.ru
ORCID iD: 0009-0006-4456-7254
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın folklorundan, mədəniyyətindən və tarixindən, eləcə də azərbaycanlıların öz torpaqlarından deportasiya edilməsindən bəhs edilir. Ermənilərin vandalizm faktları, onların azərbaycanlıların öz dədə-baba torpaqlarında varlığının izlərini məhv etmək siyasəti də geniş işıqlandırılır. Bu ərazilərdə ermənilərin yaşaması və ümumiyyətlə, hər hansı erməni dövlətinin olması heç bir tarixi mənbə ilə təsdiqlənmir. Ermənilər azərbaycanlıları və onların Qərbi Azərbaycanda məskunlaşma izlərini məhv etmək üçün etnik təmizləməyə başladılar. Bu cür vandalizm nəticəsində minlərlə yerli sakin qətlə yetirildi, Azərbaycan toponimləri qondarma erməni toponimləri ilə əvəz olundu. Xoşbəxtlikdən, Azərbaycan dəfələrlə öz iddiasını sübut etməyə və qorunub saxlanmış yazılı və şifahi folklor mənbələri şəklində sübutlarla dəstəkləməyə nail olmuşdur. Jan Tavernye, Jan Şarden, Kerr-Porter, Ceyms Maurye, Kameron, Lord Linç və başqa Avropa səyyahları da öz əsərlərində Qərbi Azərbaycan folklorundan yazmışlar. Məqalədə Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də bir qrup Qərbi Azərbaycan ziyalısı ilə görüşü çərçivəsində nitqindən fraqmentlər də verilir. Dövlət başçısı Qərbi Azərbaycan İcmasının milli maraqların təbliğində fəaliyyətinin əhəmiyyətini qeyd edir və hesab edir ki, təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də işlər aparılmalıdır. Qərbi Azərbaycan mövzusuna daha çox diqqət yetirilməli, əhali arasında maarifləndirmə işi aparılmalıdır. Azərbaycanlıların qanuni ərazilərindən qovulması faktlarından tutmuş vəhşilik və vandalizm aktlarına kimi ermənilərin törətdikləri bütün cinayətləri ictimaiyyətə çatdırmaq üçün kitablar nəşr etmək, beynəlxalq konfranslar təşkil etmək, bu sahədə getdikcə daha çox araşdırma aparmaq lazımdır.

***Açar sözlər**: Qərbi Azərbaycan folkloru, etnik təmizləmə, vandalizm, tarixi mənbələr, məskunlaşma izləri*

Giriş

Qərbi Azərbaycan Azərbaycanın ən qədim və zəngin ərazilərindən biridir. Hazırda bu torpaqlar Ermənistan ərazisində yerləşir, lakin bu bölgə qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır. Bir neçə əsr əvvəl Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşirdi. Bunu təsdiq etmək üçün bu ərazidə saysız-hesabsız maddi mədəniyyət nümunələrini - qədim yaşayış məskənlərini, kurqanları, qala, saray və istehkam qalıqlarını, karvansaraları, körpüləri, at və qoç heykəllərini, məscidləri, pir və ocaqları göstərmək olar.

Material və metodlar

Tarixi mənbələrə görə, çarizm dövründə ermənilər bura məqsədyönlü və planlaşdırılmış şəkildə kütləvi köçürülmüşdür. Bu siyasət rus çarı I Pyotr dövründə başlayıb, sovet-bolşevik hökuməti dövründə daha ciddi şəkildə davam etdirilmiş və sovet hökumətinin ermənipərəst siyasəti nəticəsində Qərbi Azərbaycan torpaqları qanunsuz olaraq tamamilə ermənilərə verilmişdir, yəni indiki Ermənistan dövlətini sovet hökuməti bu Azərbaycan torpaqlarında yaradıb. Burada ermənilərin olması və ümumiyyətlə, bu ərazidə hər hansı erməni dövlətinin mövcudluğu heç bir tarixi mənbə ilə təsdiqlənmir. Bir sözlə, bütün mənbələr bir faktı təsdiqləyir: Qərbi Azərbaycan torpaqları Azərbaycana məxsusdur.

Lakin ermənilər azərbaycanlıları və onların Qərbi Azərbaycanda məskunlaşma izlərini məhv etmək üçün etnik təmizləməyə başladılar. Bu cür vandalizm nəticəsində minlərlə yerli sakin qətlə yetirilmiş, Azərbaycan toponimləri rəsmi qərarlarla qondarma erməni toponimləri ilə əvəz edilmişdir. 1988-ci ildə Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi başlayandan sonra bu ərazilərdə yaşayan azərbaycanlılar zorla və hərbi güc tətbiqi ilə öz dədə-baba torpaqlarından qovulmuşlar. Əcdadlarımızın min illər öncə yaratdığı milli-mənəvi dəyərlər də vəhşicəsinə dağıdılmış, tamahkarlıqla talan edilmiş, xaincəsinə mənimsənilmişdir. Ermənilər hələ də var gücləri ilə Qərbi Azərbaycan ərazisinin xalqımıza məxsus olması faktını təkzib etməyə çalışırlar, lakin onların cəhdləri uğurla nəticələnmir. Azərbaycanlıların öz dədə-baba yurdlarında min illik varlığının izlərini yer üzündən silməyə cəhd edərək saysız-hesabsız abidələri, yazılı

mənbələri dağıdıblar. Üstəlik, onlar guya bir çox əsrlər əvvəl onların bu ərazidə olmasını təsdiqləyən erməni dilində olan saxta yazılı mənbələri yaratmağa çalışdılar.

Xoşbəxtlikdən, Azərbaycan dəfələrlə öz iddiasını sübut etməyə və qorunub saxlanmış yazılı və şifahi folklor mənbələri şəklində sübutlarla dəstəkləməyə nail olmuşdur.

Əldə olunan nəticələr

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərlinin sözlərinə görə, Qərbi Azərbaycan folklorunun şifahi və yazılı mənbələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qərbi Azərbaycan ərazisində müşahidə olunan epiqrafik abidələr və onlarda əks olunmuş folklor motivləri;
2. Ayrı-ayrı dövrlərdə yaşamış səyyah və tarixçilərin əsərlərində rastlanan və bilavasitə və ya dolayısı ilə Qərbi Azərbaycanın ərazisi ilə bağlı olan əfsanə və rəvayətlər;
3. Hər hansı bir vəsilə ilə yazıya köçürülmüş folklor nümunələrinin yer aldığı yazılı ədəbiyyat nümunələri;
4. Erməni mənbələrində istifadə olunan Azərbaycan folklor obraz, motiv və süjetləri [1].

Qərbi Azərbaycan folklorunun yazılı mənbələri arasında müxtəlif dövrlərdə yaşamış səyyah və tarixçilərin əsərlərində rast gəlinən Qərbi Azərbaycan ərazisi ilə bağlı əfsanə və rəvayətlər də mühüm yer tutur. XI əsr gürcü tarixçisi Leonti Mrovelinin "Kartli çarlarının həyatı" kitabında Həzrət Nuhun oğlu Yafəsin övladlarından biri, gürcü mənbələrində adı Torqom (Torqomos), yəhudi və xristian mənbələrində, o cümlədən erməni və alban mənbələrində Toqarma, müsəlman mənbələrində isə Türk kimi çəkilən şəxsdən söhbət açılır və onun nəslinin ata yurdu kimi Böyük Ağrı dağıyla Kiçik Ağrı dağı arasındakı ərazi göstərilir. Bunu Qərbi Azərbaycandan toplanmış əfsanələr də təsdiq edir [1].

Jan Tavernye, Jan Şarden, Kerr-Porter, Ceyms Maurye, Kameron, Lord Linç və başqa Avropa səyyahları da öz əsərlərində Qərbi Azərbaycan folklorundan yazmışlar. İrəvan bəylərbəyliyini Çuxursəəd bəylərbəyliyi adı ilə təqdim edən Jan Şarden göstərir ki, onun tərkibinə Şərur Sultanlığı və Naxçıvan xanlığı daxildir. O, həmçinin İrəvanda heç bir erməni ailəsinin yaşamadığını bildirir.

Qərbi Azərbaycan folklorunun etno-regional xüsusiyyətlərinə nəzər salındıqda müəyyən edilmişdir ki, Qərbi Azərbaycan yerli əhalisinin zəngin təxəyyülünün məhsulu olan folklor, mif və əfsanələr, nağıllar, poetik nümunələr burada məskunlaşan insanların həm də dünyagörüşünün göstəricisidir. Ənənəvi türk dünyagörüşünü əks etdirən mif və əfsanələrlə yanaşı, bölgədəki hər bir coğrafi adın, müqəddəs yerin tarixini özündə yaşadan hekayətlər də mövcuddur. Ağbabadan Vedibasara, Lorudan Zəngəzura, Göyçədən Zəngibasara qədər ərazidə yaşayan əhali çox qədim tarixi köklərə malik memarlıq və sənətkarlıq nümunələri yaratmışdır [1].

İrəvan şəhəri, Vedibasar, Zəngəzur, Dərələyəz, Ağbaba, Şorəyel, Loru, Pəmbək, Göyçə, Qaraqoyunlu, Şəmşəddin kimi bölgələr Qərbi Azərbaycanın tərkibindədir və digər bölgələrlə sıx əlaqədədir.

İrəvan xanlığında, xüsusən də onun paytaxtı İrəvanda tez-tez baş verən dağıdıcı müharibələrə baxmayaraq, elm və mədəniyyət çox inkişaf edirdi. İrəvan xanlığının ərazisində yüzlərlə maddi mədəniyyət, memarlıq və incəsənət abidələri - məscidlər, məqbərələr, epiqrafik abidələr, qoç heykəlləri, təsviri və dekorativ sənət nümunələri var idi. Hazırda İrəvan Əlyazmalar İnstitutunda - Matenadaranda saxlanılan yüzlərlə əlyazma İrəvan xanlığının fəaliyyəti dövrünə aiddir [6, s. 187].

İlkin mənbələr və müxtəlif tədqiqat işləri İrəvan xanlığı ərazisindəki maddi mədəniyyət abidələri, bu Azərbaycan dövlətinin incəsənəti, təhsil sistemi və ədəbi mühiti haqqında kifayət qədər məlumat əldə etməyə imkan verir. İrəvan xanlığının maddi mədəniyyət və memarlıq abidələri, mədəniyyəti və incəsənəti, eləcə də təhsil sistemi fransız səyyahları Jan Tavernye və Jan Şardenin əsərlərində və xanlığın Rusiya tərəfindən işğalından sonra İ.Şopenin tədqiqatlarında kifayət qədər çox təsvir edilmişdir.

İrəvan bölgəsində hələ xanlığın yaranmasından əvvəl şifahi xalq ədəbiyyatının görkəmli əsərləri yaradılmışdır. İrəvan sərdarlarının sarayında tez-tez musiqi məclisləri keçirilirdi. 1673-cü ildə İrəvanda olmuş fransız səyyahı Jan Şarden sərdar sarayında Qulam şahın şərəfinə musiqi məclisini təsvir etmişdir. Şardenin dediyinə görə, güləşçilərin çıxışı başa çatdıqdan sonra həyətdə çadırlar örtülüb, gözəl xalçalar döşənib, bundan sonra musiqiçi və rəqqasələr qrupu çıxış etmişdir. Avropalı səyyahın sözlərinə görə "...onlar iki saatdan çox səhnədə idilər və heç kəsi darıxdırmırdılar. Hökmdar (yəni İrəvan Sərdarı) bütün bu müddət ərzində onlara baxdı, şahın elçisi, məclisdə iştirak edən digər insanlarla söhbət etdi və mənə Avropa haqqında danışmağımı dedi. Bölgələrin hökmdarlarının şah sarayındakı kimi qulluqçuları var. Musiqiçilər və rəqqasələr də qulluqçu sayılırlar. Şərqdə əylənmək və ya bir-biri ilə yaxşı münasibət əlaməti olaraq rəqs etmək ənənəsi yoxdur. Onlar üçün rəqs həmişə bir sənət kimi mövcud olub və bu mənada Avropadakı teatr sənətinə bənzəyir... Şərqdə musiqiçi və rəqqasələri mim və ya komediyaçı hesab etmək olar, daha doğrusu, göstərdikləri tamaşalar onların

operası sayılır" [2; 3, AKAK, IV, Tiflis, 1870].

Belə ki, hələ XVII əsrdə İrəvanda Sərdar sarayında teatr tamaşaları və operalar qoyulurdu. Məhz bu dövrdə ermənilərin nə dövləti, nə də ədəbi topluları var idi. Ermənilər ancaq içərisində yaşadıqları xalqların folklor və musiqi əsərlərini mənimsəməklə məşğul idilər. Erməni tədqiqatçısı S.Palasanyan ermənilərin başqa xalqların mahnı və melodiyalarından istifadə etmələri haqqında belə yazır: "Bizim mahnılarımızın motivləri müxtəlifdir. Təsiri altına düşdüyümüz xalqlardan motivlər götürmüşük: Türkiyədə – türklərdən, Gürcüstanda – gürcülərdən, İrəvanda, Şuşada, Ağkilsə və İranda – farslardan" [4, s. 65].

Təxminən 150 il əvvəl erməni yazıçısı Mikael Nalbandyan ermənilərin başqa xalqların mahnı və melodiyalarını bütün dünyaya "erməni havaları" kimi təqdim etmələri haqqında yazmışdır. Onun sözlərinə görə erməni motivlərinin çoxu türklərdən (azərbaycanlılardan) götürülüb, Nalbandyan özü isə ermənilərin yaşadığı bir çox yerləri gəzsə də, heç vaxt sırf ermənilərə məxsus olan heç nə eşitməyib [4, s. 65].

Azərbaycan dilində yaradıcılıq sayəsində erməni aşıqları özünə çoxsaylı dinləyici və tamaşaçı topladı. Professor A.Arşaruni də təsdiq edir ki, Azərbaycan dili, erməni aşıqları və erməni xalqı üçün demək olar ki, ana dili olmuşdur. Əks halda onlar (yəni erməni aşıqları) uğur qazana bilməzdilər və dilləri dinləyicilər üçün anlaşılmaz olardı [4, s. 102].

Müzakirə

"Vətən müharibəsi" adlandırılan və Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibədən sonra Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışı qətiyyətlə həyata keçirən Azərbaycan dövlətinin tarixi məqsədi Qərbi azərbaycanlıların tapdalanmış hüquqlarının bərpası və öz dədə-baba yurdlarına qayıtması olub. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycanın bir qrup ziyalısı ilə görüşündə qətiyyətlə vurğulamışdır ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, övladları, nəvələri tarixi torpağımıza, Qərbi Azərbaycana qayıdacaqlar.

Qərbi Azərbaycandan olan insanlar qarşısında çıxış edən Prezident İlham Əliyev ölkəmizin tarixi keçmişinin reallıqlarına əhəmiyyət verib, mövcud faktların təhrif edilməsinin yolverilməzliyini vurğulamışdır. Bu məsələdə Prezident hələ 1918-ci ildə İrəvanın Ermənistana verilməsini pisləyib, azərbaycanlıların deportasiya edilməsi mərhələlərini xatırladıb.

"Əgər kimsə 1918-ci ildə İrəvanı Ermənistana verməklə özümüzü daha böyük bəlalardan sığortalaya bildiyimizi fikirləşirsə, o zaman Zəngəzurun Ermənistana verilməsi bir daha göstərir ki, bu, çox yanlış bir addım idi, əvvəl də dediyim kimi, bu bir xəyanətdir. Heç bir halda səndən daha güclü olanların qarşısında belə baş əymək olmaz. Biz həmişə öz haqlarımızı, xüsusən də doğma torpağımızı müdafiə etməliyik", - deyə Prezident vurğulayıb.

"Qərbi azərbaycanlılar dəfələrlə qeyri-qanuni deportasiyaya məruz qalmış icmadır. Onların hüquqları bərpa olunmalı və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu haqda danışarkən, güman edirəm ki, Ermənistanda yenə narazılıqlar başlayacaq ki, Azərbaycan gəldi, bizi işğal etdi və s. Xeyr. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz öz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik. Bir daha demək istəyirəm ki, bütün konvensiyalar bu hüququ tanıyır. Deməli, buna nail olmaq üçün biz daha fəal olmalıyıq, o cümlədən beynəlxalq platformalarda", - deyə Prezident İlham Əliyev bildirib [5].

Prezident İlham Əliyev, həmçinin Qarabağın və Şərqi Zəngəzurun işğalı amilinə də diqqət yetirib, bunu Azərbaycan xalqının növbəti faciəsi adlandırıb. O, ermənilərin Qərbi Azərbaycanda törətdikləri vəhşiliklər barədə məlumatların dünya ictimaiyyətinin diqqətinə çatdırılmalı olduğunu qeyd edib və bu missiyanı Azərbaycan dövlətinin dəstəyini təmin edərək Qərbi Azərbaycan İcmasına həvalə edib.

Eyni zamanda Prezident İlham Əliyevin fikrincə, milli maraqların təbliği məsələsində Qərbi Azərbaycan İcması nəinki ölkə daxilində, həm də beynəlxalq səviyyədə daha aktiv fəaliyyət göstərməlidir [5].

Yekun olaraq qeyd etmək istərdim ki, Qərbi Azərbaycan mövzusuna daha çox diqqət yetirilməli, eyni zamanda əhali arasında maarifləndirmə işləri aparılmalıdır. Azərbaycanlıların qanuni ərazilərindən qovulması faktından tutmuş vəhşilik və vandalizm aktlarına kimi ermənilərin törətdikləri bütün cinayətləri ictimaiyyətə çatdırmaq üçün kitablar nəşr etmək, beynəlxalq konfranslar təşkil etmək, bu sahədə getdikcə daha çox araşdırma aparmaq lazımdır.

ƏDƏBİYYAT

1. https://westaz.org/ru/details/qerbi-azerbaycan/medeniyyet/qerbi-azerbaycanda-folklor
2. Şardən, İ. Səyahətnamə (fransız dilindən tərcümə edən V. Aslanov). Bakı: Elm, 1994. 96 s.
3. AKAK, IV, Tiflis: 1870.
4. Abbasov, İ. Azərbaycan folkloru XIX əsr erməni mənbələrində. Bakı: Elm, 1977, 154 s.
5. Nəsibova, M. Qərbi Azərbaycan: termindən reallığa. 26 dekabr 2022. https://caliber.az/post/133158/
6. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Çaşıoğlu, 2010, 620 s.

ABSTRACT

Shalala MAMMADOVA

THE FOLKLORE IN WESTERN AZERBAIJAN

The article talks about the folklore, culture and history of Western Azerbaijan, as well as the deportation of Azerbaijanis from their lands. The facts of vandalism by Armenians and their policy of destroying the traces of the presence of Azerbaijanis in their ancestral lands are also widely covered. The existence of Armenians in these territories and the existence of any Armenian state in general is not confirmed by any historical source. Armenians started ethnic cleansing to destroy Azerbaijanis and traces of their settlement in West Azerbaijan. As a result of such vandalism, thousands of local residents were killed, Azerbaijani toponyms were replaced by so-called Armenian toponyms. Fortunately, Azerbaijan has repeatedly managed to prove its claim and support it with evidence in the form of preserved written and oral folklore sources. Jean Tavernier, Jean Chardin, Kerr-Porter, James Maurier, Cameron, Lord Lynch and other European travelers also wrote about Western Azerbaijan folklore in their works. The article also provides fragments of President Ilham Aliyev's speech on December 24, 2022, within the framework of a meeting with a group of West Azerbaijani intellectuals. The head of state noted the importance of the activities of the Western Azerbaijan Community in promoting national interests and believes that work should be done not only within the country, but also at the international level. More attention should be paid to the topic of Western Azerbaijan, and educational work should be carried out among the population. It is necessary to publish books, organize international conferences, and conduct more and more research in this field in order to bring to the public all the crimes committed by Armenians, from the forced expulsion of Azerbaijanis from their legal territories to acts of brutality and vandalism.

***Keywords**: Western Azerbaijani folklore, ethnic cleansing, vandalism, historical sources, settlement traces*

QƏRBİ AZƏRBAYCAN AŞIQLARININ POEZİYASI BƏSTƏKARLARIN YARADICILIĞINDA

İnara MƏHƏRRƏMOVA
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Aşıq sənəti, aşıq poeziyası digər sahələrdə olduğu kimi, bəstəkar yaradıcılığında da hər zaman öz bədii təcəssümünü tapmışdır. Dastanların əsasında yazılan operalar, eyni zamanda aşıq musiqisinin intonasiyaları və onlara xas olan səciyyəvi keyfiyyətlərlə zəngin obrazları əks etdirən müxtəlif janrlı, rəngarəng əsərlər buna parlaq nümunədir. Aşıq poeziyası, onun müxtəlif xarakterli obrazları bəstəkarlarımızın daha çox mahnı janrında yazdıqları əsərlərdə əks olunmuşdur. Bu sahədə bəstəkarlarımız daha çox Qərbi azərbaycanlı aşıqların yaradıcılığına müraciət edərək qoşma, gəraylı, gözəlləmə və digər aşıq sənəti janrları əsasında yazdıqları mahnılarda müxtəlif çalarlı obrazlar yaratmışlar. Qeyd etmək lazımdır ki, bəstəkarların böyük əksəriyyətinin mahnıları Aşıq Ələsgərin şeirləri əsasında yazılmışdır. Məqalədə Hacı Xanməmmədov, Səid Rüstəmov, Ramiz Mirişli, Qəmbər Hüseynli, Şəfiqə Axundova, Cavanşir Quliyev və digər milli müəlliflərimizin Aşıq Ələsgər və Aşıq Alının şeirlərinə bəstələdikləri mahnılar və onların məşhur ifaçıları haqqında məlumatlar verilir. Bu əsərlərdən bəzilərinin strukturu, kompozisiya quruluşu, melodik dili, lad-məqam xüsusiyyətləri, obrazların xarakteristikası, həmçinin janrın bəzi səciyyəvi xüsusiyyətləri nəzərdən keçirilir. Məqalədə, həmçinin qeyd olunur ki, hər bir bölgənin folklorunda xalqın əzəmətli keçmişi mütləq şəkildə öz ifadəsini tapır. Bu mənada, Qərbi Azərbaycan və bu coğrafiyada yaşayan insanların həyat tərzi, əsrlərlə formalaşan mədəni nailiyyətləri də bədii yaradıcılıqda təsvir olunaraq bir millətin maddi-mədəni dəyərləri toplusuna çevrilmişdir. Bəstəkarlarımız Qərbi Azərbaycan folkloruna, xüsusilə də aşıq poeziyasına müraciət edərək fərdi xüsusiyyətlərilə fərqlənən maraqlı, yaddaqalan əsərlər yaratmışlar. Və həmin əsərlər vasitəsilə Qərbi Azərbaycana məxsus, yəni bu coğrafiyada yaranan xalq yaradıcılığı nümunələrini, onların fərdi xüsusiyyətlərini qoruyub saxlamağı bacarmışlar.

Açar sözlər: *Aşıq musiqisi, folklor, poeziya, poetik mətn, janr, Qərbi Azərbaycan*

Azərbaycan folkloru, xalq yaradıcılığının ayrı-ayrı janrları xalqımızın millət kimi formalaşmağa başladığı dövrlərdən bu günə qədər maraqlı inkişaf yolu keçmiş zəngin mədəniyyət irsidir. Bu mədəniyyət Azərbaycanın hər bir bölgəsində yaşayan insanların məişətinin, daxili aləminin fərdi keyfiyyətlərini özündə ehtiva edir. Abşeron, Qarabağ, Şəki, Şirvan, Gəncə, Naxçıvan və ya Şimali, Cənubi, Şərqi, Qərbi Azərbaycan kimi geniş coğrafiyanın mədəni nailiyyətləri xalqın həyatının ayrılmaz hissəsi olmuşdur. Əcdadlarımız əsrlər boyu əldə etdiyi həyat təcrübələrini xalq yaradıcılığının fərqli sahələrində yaradıcı təxəyyüllə ifadə etmiş, meydana gələn maddi-mənəvi dəyərlər toplusu isə bir xalqın tarixi keçmişinin ruhunu yaşatmışdır.

Azərbaycan aşıq sənəti, aşıq poeziyası folklor nümunələri arasında qeyri-adi məzmunu, orijinal mövzuları, rəngarəng obrazları və özünəməxsus janr və forma xüsusiyyətlərilə fərqlənir. Aşıq musiqisi, aşıqların dillərində əzbər səslənən dastanlar, bu sənətin müxtəlif janrlı şeir nümunələri digər incəsənət sahələri üçün də ilham mənbəyi olmuşdur. Ədəbiyyat, rəssamlıq, həmçinin bəstəkarlıq sahəsində tez-tez müraciət olunan aşıq sənəti janrları milli mədəniyyətin inkişafına güclü təsir göstərmişdir. Aşıq musiqisi, onun incə poetikası bəstəkarların yaradıcılığında xüsusi əhəmiyyət daşıyır. Dastanlar əsasında yazılan operalar, həmçinin aşıq musiqisinin intonasiya xüsusiyyətlərilə zəngin poetik obrazlar təcəssüm etdirən müxtəlif janrlı musiqili təfsirlər buna parlaq nümunədir.

Özünün təbiəti, insanlarının mənəvi keyfiyyəti, həyat tərzi, həmçinin folklorun digər sahələri ilə birlikdə zəngin dramaturgiyaya malik aşıq yaradıcılığı, şeiriyyəti ilə tanınan bölgələrimizdən biri Qərbi Azərbaycandır. Təsadüfi deyil ki, Miskin Abdal ləqəbli Seyid Hüseyn, Aşıq Alının ustadı Ağ Aşıq ləqəbi ilə tanınan Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Bəhmən Göyçəli, Aşıq Cahad, Alqayıt, Aşıq Əsəd, Aşıq Fətulla, Aşıq Hacı Göyçəli, Aşıq İdris, Aşıq İmran, Aşıq Bəhmən Ardanışlı, Aşıq Niftalı, Aşıq Nuriddin, Aşıq Oruc kimi sənətkarlar, məhz bu torpaqda yaşayıb-yaratmışlar. Qərbi Azərbaycan aşıqlarının yaradıcılığının əsasını təşkil edən müxtəlif janrlı şeirlər dərin məzmunu ilə milli müəlliflərimiz üçün zəngin mənbə olmuşdur.

Bir çox bəstəkarımız Qərbi Azərbaycan aşıqlarının şeirləri əsasında milli vokal janrının ən gözəl nümunələrini yaratmışdır. Bu aşıqlardan daha çox Aşıq Alı və Aşıq Ələsgərin şeirləri bəstəkar mahnılarının poetik mətninin əsasını təşkil edir. Həmin aşıqların şeirləri əsasında Hacı Xanməmmədov, Səid Rüstəmov,

Süleyman Ələsgərov, Ramiz Mirişli, Şəfiqə Axundova, Qəmbər Hüseynli, Hökumə Nəcəfova, Cavanşir Quliyev və başqaları maraqlı mahnılar bəstələmişlər. Qeyd olunmalıdır ki, bəstəkarlarımız həmin aşıq şeirlərinin ruhunu, sətiraltı mənalarını, ideya məzmununu özünəməxsus fərdi yaradıcılıq üslubu ilə ifadə etməyə nail olmuşlar.

Azərbaycan bəstəkarlarının böyük əksəriyyəti Aşıq Ələsgər poeziyasına müraciət etmişdir. Aşıq Ələsgərin yaradıcılığına olan maraq ustad sənətkarın müxtəlif janrlarda olan şeirlərinin zəngin obrazları ilə bağlıdır. Bu haqda L.Azəri yazır: "Aşıq Ələsgər poeziyasının zəngin obrazlar aləmi, dilinin sadə və axıcılığı, gözəlliyin çoxçeşidli rəng çalarları və onların poetik tərənnümü, eləcə də, aşıq havalarının özünəməxsusluğu, nikbin ovqatı və s. bəstəkarı, sanki musiqi yazmağa özü sövq edib. Bu mahnılar aşıq poeziyası və musiqisinin bulaq tək dupduru milli ruhunu, melodik, ritmik, məqam-intonasiya özəlliklərini özündə daşıyır" [5].

Keçən əsrin 50-60-cı illərində Aşıq Ələsgərin sözlərinə müraciət edərək bir-birindən maraqlı, lirik əhvali-ruhiyyəli mahnılar bəstələmiş bəstəkarlardan biri Qəmbər Hüseynlidir. Bəstəkar Aşıq Ələsgərin sözlərinə yalnız mahnı yazmaqla kifayətlənməmiş, həmçinin onun musiqili təfsirlərini müxtəlif aşıqların ifasında nota yazmışdır ("Dübeyti", "Qəhrəmani", "Göyçə gözəlləməsi" və s.). Bəstəkar Nazim Əliverdibəyov "Dübeyti"ni, Bayram Hüseynli "Göyçə gözəlləməsi" və "Qəhrəmani"ni fortepiano üçün işləmiş, Qəmbər Hüseynli isə onları nota köçürmüşdür.

Q.Hüseynlinin aşıq yaradıcılığına marağı bəstəkarın XX əsrin 40-cı illərində Azərbaycan Dövlət Filarmoniyasının nəzdində "Sazçı qızlar" ansamblını yaratması ilə əlaqədar olmuşdur. O, həmin kollektivin repertuarı üçün təkcə Teymur Hüseynovun ifasında 55 aşıq mahnısını nota yazmışdır. Q.Hüseynlinin Aşıq Ələsgərin sözlərinə yazdığı "Buxağa düşdü", "Söz qanan ola", "Gördüm", "Çərşənbə günündə", "Ceyran" mahnıları bəstəkarın yaradıcılığında xüsusi yer tutur. Bunlardan "Buxağa düşdü" mahnısını nəzərdən keçirən zaman aydın olur ki, əsərin quruluşu olduqca sadədir. Q.Hüseynli digər mahnılarında olduğu kimi, bu mahnıda da mətnin poetik məzmununa özünəməxsus həssaslıqla yanaşır. Şeirin poetik gözəlliyi incə melodiya ilə təqdim olunur. *Allegro moderato* tempində təqdim olunan mahnı instrumental girişlə başlayır. Mahnı nəqəratlı kuplet formasındadır. *6/8* ölçüdə səslənən mahnıda milli musiqi xüsusiyyətləri aşıq intonasiyaları vasitəsilə ifadə olunur. Mahnının əsasını təşkil edən şeir qoşayarpaq qoşmadır. Beş bəndi əhatə edən qoşmanın hər bəndinin ilk üç misrasında altı həmqafiyə söz olur, ilk bənddə birinci, üçüncü və ikinci, dördüncü misralar qafiyələnir. Digər bəndlərdə isə üç misra həmqafiyə olur. Bu da mahnının nəqəratlı kuplet formasını müəyyən edən əsas cəhətlərdən biridir. Bəstəkar ilk və dördüncü bəndləri kuplet, üç misrası həmqafiyə olan ikinci bəndi isə nəqərat olaraq təqdim edir. Mahnıda istifadə olunan forşlaqlar aşıq boğazlarına məxsus zəngulələrin daha parlaq ifasına imkan yaradır. *A dur* tonallığında səslənən mahnının müşayiəti milli ritmik fiqurasiyalarla ifadə olunur və *T-S,T-D* əlaqəsinə əsaslanır.

Qəmbər Hüseynli Aşıq Ələsgərin daha çox qoşma janrında olan şeirlərinə müraciət etmişdir. Onun 1956-cı ildə yazdığı "Söz qanan ola" mahnısının mətni də qoşma janrındadır. Mahnıda sevgilisinin dərdini bir işarədən anlayan aşiq tərənnüm olunur. Mahnı Azərbaycanın görkəmli sənətkarı Şövkət Ələkbərovanın ifasında özünəməxsus tərzdə səslənmişdir. Burada bəstəkar ənənəvi olaraq *6/8* ölçüdən istifadə edir. Mahnı milli vokal janrının klassik nümunələrindən biridir. Yuxarıda nəzərdən keçirilən "Buxağa düşdü" mahnısında olduğu kimi, "Söz qanan ola" mahnısı da (*a moll, Allegretto)* solo fortepianoda təqdim olunan instrumental girişlə başlayır. Hər iki mahnı bəstəkarın 1960-cı ildə "Azərbaycan Dövlət Musiqi nəşriyyatı" tərəfindən nəşr olunan fortepiano və səs üçün "Mahnılar" məcmuəsinə daxil edilmişdir.

Bəstəkarın Aşıq Ələsgərin növbəti şeiri əsasında yazdığı "Gördüm" əsəri isə "Azərnəşr"də çap olunan "Romanslar" məcmuəsinə (1964) daxil olunmuşdur. Bəstəkar bu dəfə klassik musiqi janrına müraciət etmişdir. "Gördüm" romansı həmin janra xas olan lirik məzmunlu, lirik əhvali-ruhiyyəli miniatür vokal əsərdir. Lakin bu lirikada kədərli tonlar üstünlük təşkil edir. Romans *a moll* tonallığında *3/4* ölçü ilə mülayim tempdə təqdim olunur. Mətn qoşma janrında yazılmış və hekayə xüsusiyyətlidir. Romansın həcmi çox kiçikdir. Əsərin tempində müşahidə olunan azalma və əvvəlki tempə qayıdış, həmçinin *f* dinamikası emosional əhvali-ruhiyyə yaradır.

Aşıq Ələsgər poeziyasına, demək olar ki, Azərbaycan bəstəkarlarının böyük qismi mahnı yazmışdır. Bu, ilk növbədə aşığın poetik təsvirlərinin musiqili dili ilə uzlaşması və lirik əhvali-ruhiyyəsi ilə bağlıdır. Bununla yanaşı, Aşıq Ələsgərin simasında Qərbi Azərbaycan sevgisini ifadə etmək istəyi də böyük rol oynayır. Aşıq Ələsgər "Dağlar", "Yaylaq", "Şah dağı" şeirlərində vətənin təbiətinə, onun gözəlliyinə vurğunluğunu ifadə etdiyi kimi bəstəkarlarımız da həmin mətnlərə yazdıqları mahnılarda şeir ilə musiqinin vəhdətindən yaranan gözəlliyi tərənnüm etmişlər. Q.Hüseynlinin bəstələdiyi "Çərşənbə günündə" mahnısı da bu qəbildəndir. Bu mahnı Aşıq Ələsgərin ən məşhur qoşması əsasında yazılmışdır. Bu qoşma 11 hecalı, *6+5, 4+4+3* təqdillidir. Qoşmanın bu forması onun musiqili təfsirində milli xüsusiyyətləri vurğulayır. Görkəmli sənətkar Həqiqət

Rzayevanın səsləndirdiyi mahnının Aşıq Ələsgərin bəstələdiyi variantı Azərbaycan aşıqlarının, həmçinin xanəndələrin repertuarında xüsusi yer tutur. Q.Hüseynlinin mahnısında ritmik fiqurasiyalar səkkizlik, punktir notlara əsaslanaraq milli xüsusiyyətlər daşıyır. Həmin qoşma, eyni zamanda bəstəkar A.Gərayın da diqqətini cəlb etmişdir. Bəstəkarın bu qoşma əsasında yazdığı "Çeşmə başında" (1955) mahnısının mahir ifaçısı T.İsmayılovadır. Aşıqların repertuarında da əhəmiyyətli yer tutan "Çeşmə başında"nı müğənni Gülxar Həsənova "Mahur təsnifi" olaraq ifa etmişdir.

Aşıq Ələsgərin sözlərinə S.Qədimovanın ifasında səslənən "Qadan alım" mahnısını da (1960) Q.Hüseynli bəstələmişdir, "Mahur" muğamına əsaslanan digər versiya isə xanəndə Ə.Məmmədova aiddir.

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri Səid Rüstəmov Azərbaycanın bir çox aşıqlarının sözlərinə mahnılar yazmışdır. Aşıq musiqisinin toplanması və nota yazılması işində fədakarlığı ilə seçilən Səid Rüstəmov bu folklor nümunələrini 1938-ci ildə "Azərbaycan aşıq mahnıları" adı altında nəşr etdirmişdir.

S.Rüstəmovun mahnıları xalq tərəfindən rəğbətlə qarşılanaraq qısa zamanda məşhurlaşmışdır. Bu, ilk növbədə mahnıların xalq musiqisi, folklorla bağlılığından irəli gəlir. Musiqişünas Ş.Həsənova yazır: "S.Rüstəmov mahnılarının xalq musiqisi ilə qırılmaz bağlılığı bunların mühüm məziyyətlərindən biridir. Qeyd etdiyimiz kimi, hələ yaradıcılıq fəaliyyətinin erkən çağından xalq mahnılarını toplayıb nota yazmaqla çox ciddi surətdə, sistematik məşğul olan S.Rüstəmov iş prosesində bu folklor nümunələrinin bütün incəliklərini, qanunauyğunluqarını mənimsəmiş və sonradan öz əsərlərində istifadə etmişdir" [2, s.477]. Bu fikri bəstəkarın aşıq sözlərinə yazdığı vokal əsərlərinə də şamil etmək olar.

S.Rüstəmov el sənətkarlarından bir çoxunun, o cümlədən Aşıq Qurbani, Aşıq Hüseyn Cavan, Aşıq Pənah, Aşıq Mirzə, Aşıq Fətullanın poeziyasına müraciət etmişdir. Qərbi Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi olan Aşıq Ələsgər bu siyahıda özünəməxsus yerlərdən birini tutur. S.Rüstəmov Aşıq Ələsgərin sözlərinə "Ay ceyran" (1952), Ay gözəl" (1958), "Gülənlərdənəm" (1970) kimi maraqlı vokal əsərləri bəstələmişdir. "Ay ceyran" və "Ay gözəl" bəstəkarın 1965 və 1975-ci illərdə nəşr olunan mahnılarından ibarət məcmuələrə daxil edilmişdir.

S.Rüstəmov "Ay ceyran" mahnısını Aşıq Ələsgərin "Güləndam" qoşması əsasında bəstələmiş, lakin mahnıda "Güləndam" rədifi "Ay ceyran"la əvəz olunaraq, qoşmanın bəzi misraları da dəyişdirilmişdir. Mahnıda S.Rüstəmovun vokal yaradıcılığına xas olan bütün xüsusiyyətlər öz əksini tapır. "Ay ceyran" və digər iki mahnı S.Rüstəmovun rəhbərlik etdiyi Azərbaycan Televiziyası və Radiosu xalq çalğı alətləri orkestrinin müşayiəti ilə görkəmli müğənni Gülağa Məmmədovun ifasında səslənmişdir.

"Ay gözəl" mahnısında gənc qızın gözəlliyi vəsf olunur. Şeirin misralarında müəllifin istifadə etdiyi "təşbeh"lər S.Rüstəmovun lirik təfəkkürü ilə vəhdət təşkil edir. Mahnı xalq ruhunda yazılmışdır. Əsərin ritmik fiqurasiyaları, *6/8* ölçüsü buna parlaq nümunədir. Melodiyada səslənən triollar və trellərlə bəzənmiş notlar obrazın simasını daha dolğun çizgilərlə təsvir edir.

Görkəmli bəstəkar Hacı Xanməmmədov öz yaradıcılığında Aşıq Ələsgər poeziyasına ən çox müraciət edən bəstəkardır. Hacı Xanməmmədov "Ceyran", "Keçdi", "Qadan alım", "Niyə döndü", "Sona keçdi", "Telli", "Güllü", "Tərlan", "Yanağı qırmızı", "Sarıköynək" mahnılarını, məhz Aşıq Ələsgərin müxtəlif məzmunlu şeirləri əsasında yazmışdır. Bu mahnılar müxtəlif illərdə nəşr olunmaqla yanaşı, R.Babayevin 2010-cu ildə tərtib etdiyi "Min bir mahnı" məcmuəsinə də daxil edilmişdir. Mahnılar bəstəkarın fərdi yaradıcılıq üslubunu əks etdirir. Ü.Talıbzadə yazır: "Telli", "Güllü", "Ceyran", "Qadan alım", "Niyə döndü", "Sarıköynək" mahnılarında bəstəkar Aşıq Ələsgər poeziyasının milli ruhunu, folklor üslubunu, şən, nikbin əhvali-ruhiyyəsini verə bilmək üçün yeni ifadə vasitələri, yeni çalarlar tapmışdır" [2, s.677].

Qeyd etmək lazımdır ki, Aşıq Ələsgər poeziyası bəstəkarlarımızın böyük marağına səbəb olmuşdur, bəzi hallarda hətta bir neçə müəllif onun eyni şeirinin mətninə mahnı bəstələmişdir. "Qadan alım" da belə uğurlu şeirlərdəndir. H.Xanməmmədov bu şeirin əsasında eyniadlı mahnı (1974) yazmışdır. Mahnının ən yaxşı ifaçısı isə təbii ki, əvəzolunmaz sənətkar Ş.Ələkbərovadır. Ş.Ələkbərova, həmçinin H.Xanməmmədovun Aşıq Ələsgərin sözlərinə Bayatı-Şiraz məqamı üzərində yazdığı "Getmə amandır" (1971) və "Sarıköynək" (1981) mahnılarını da səsləndirmişdir. Aşığın sözlərinə bəstəkarın segah ladı üstündə bəstələdiyi "Güllü" və "Qurban belə gəlinə" mahnıları "Sevil" vokal-instrumental ansamblının, "Sona keçdi", "Telli" mahnısı isə G.Məmmədovun ifasında xalq tərəfindən sevilən mahnılar kimi yadda qalmışdır.

H.Xanməmmədovun "Getmə amandır" mahnısı lirik əhvali-ruhiyyəli olmasına baxmayaraq, burada daha çox kədərli tonlar üstünlük təşkil edir. Mahnıda "gedən" sevgilinin həsrətinə dözülməzlik ifadə olunur. (Bəstəkar Sevda İbrahimova sözləri Aşıq Ələsgərə aid olan həmin şeirə (segah ladında) "İncimərəm" mahnısını bəstələmişdir).

Aşıq Ələsgərin "Niyə döndü?" gəraylısı əsasında H.Xanməmmədovun bəstələdiyi eyniadlı mahnı

Ş.Ələkbərovanın ifasında səmimi, lirik çalarlarla səslənmişdir. "Niyə döndü?" şikayət xarakterli olsa da, mahnının musiqisində nikbin əhvali-ruhiyyə hiss olunur. H.Xanməmmədovun yaradıcılığına xas olan lirika həmin şikayəti parlaq tonlarla təqdim etməyə imkan yaradır. Bu mahnı Gülyaz Məmədova, Gülnisə Bayramova, Nazim Ağayev kimi müğənnilərin də ifasında səslənir. M.Xudubəyli H.Xanməmmədovun Aşıq Ələsgər poeziyasından bəhrələnərək yazdığı mahnılarda daha çox gözəlləmələrə müraciət etdiyini qeyd edir: "Hacı Xanməmmədov əsasən aşığın gözəlləmələrindən seçmələrə mahnı yazıb. Müxtəlif "Gözəlləmə" havalarının üstündə köklənən bu nəğmələrə diqqətlə qulaq asanda məlum olur ki, Hacı Xanməmmədovun aşıq yaradıcılığına vaxtaşırı müraciət etməsi onun klassik saz havalarımıza bələd olması ilə bağlıdır" [4, s.78].

Yaradıcılığında müxtəlif janrlara müraciət edən bəstəkar Ramiz Mustafayev milli xor sənətinin inkişafında aparıcı simalardan olmuş və xor kollektivlərinin repertuarının zənginləşməsində mühüm işlər görmüşdür. Bu fəaliyyətlərdən biri də müxtəlif əsərlərin xor üçün işləmələridir. R.Mustafayev Aşıq Ələsgər yaradıcılığına müraciət edərək yalnız miniatür xarakterli mahnılar deyil, həmçinin aşığın sözlərinə digər bəstəkarların və özünün də yazdığı əsərlərin xor üçün nümunələrini işləmişdir. Bəstəkar aşığın poetik mətnləri əsasında "Cilvələnibdir", "Qaranquşlar", "Gözəllər" mahnılarını bəstələmişdir. Həmin mahnılar İ.Rzayev, S.Əhmədova və digər xanəndə və müğənnilərin ifasında səslənmişdir.

Görkəmli bəstəkarlardan R.Mirişlinin "Güləndam", Ş.Axundovanın "Könül istər", S.Ələsgərovun "Eyləmişləm", C.Quliyevin "Xoş gəldin", H.Nəcəfovanın "Yanıram mən" mahnılarının emosional ifadəliyi onların əsasını təşkil edən Aşıq Ələsgər poeziyasının poetik məzmunu ilə bağlıdır. "Xoş gəldin" qoşması C.Quliyevdən əvvəl Azərbaycanın ilk qadın bəstəkarı Ağabacı Rzayevanın diqqətini cəlb etmişdir. Bəstəkarın bu qoşma əsasında yazdığı eyniadlı mahnı Ə.Dadaşovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının müşayiəti ilə Gülağa Məmmədov tərəfindən səslənmişdir. Əsər xalq mahnılarına, aşıq musiqisinə xas olan keyfiyyətlərə malikdir və təbii ki, xalq çalğı alətlərinin ifası üçün nəzərdə tutulmuşdur. C.Quliyevin həmin qoşmaya bəstələdiyi mahnı isə estrada musiqisi janrındadır. 1978-ci ildə yazılan bu mahnı A.İslamzadənin ifasında dinləyicilərə təqdim edilmişdir. Bəstəkar qoşmanı estrada üslubuna uyğunlaşdırmaq üçün onun bəndlərinin yerini dəyişdirmiş və mahnını nəqəratlı kuplet formasında tərtib etmişdir.

Hökümə Nəcəfovanın Aşıq Ələsgərin sözlərinə yazdığı "Yanıram mən" dillər əzbəri olan vokal əsərdir. Mahnı E.Rəhimova, E.Hüseynəliyev, S.Ərəbli, L.Məmmədova və digər məşhur ifaçıların repertuarını bəzəyir. Şeirin poetik məzmunu ilə bəstəkarın yaradıcılıq üslubunun üzvi vəhdəti mahının həm estrada, həm də xalq mahnı üslubunda ifasının mümkünlüyünə zəmin yaradır. Adətən, bütün mahnılar kimi, instrumental girişlə başlayan bu mahnı da nəqəratlı kuplet formasında olaraq üç bəndi və təkrarlarla keçən üç nəqəratı əhatə edir. Mahnının hər bəndində növbəti zirvəyə yüksələn emosiyalar nəqəratlarda kədərin daha qabarıq şəkildə meydana çıxmasına səbəb olur. Ümumi ahəngdə əzab çəkən aşiqin şikayətləri duyulur. Mahnı *e moll* tonallığında, *4/4* ölçüdə və *Andante* tempində təqdim olunur.

Qərbi Azərbaycanın Yeni Bəyazid qəzasının Qızılvəng kəndində anadan olan Aşıq Alının yaradıcılığı bəstəkarların diqqətini özünəməxsus incəliyi, emosionallığı ilə cəlb edir. Onun sözlərinə H.Xanməmmədov "Gəzərəm səni", Q.Hüseynli "Yar yanında günahkaram", Z.Xanlarova "Nə qaldı?" mahnılarını bəstələmişlər. Aşıq Alı yaradıcılığına bəstəkar marağını onun şeirlərinin yadda qalmağı ilə izah edən M.Xudubəyli, bu mənada "Gəzərəm səni" mahnısını xüsusi vurğulayaraq qeyd edir: "Bəstəkar Hacı Xanməmmədov da vaxtaşırı Aşıq Alı yaradıcılığına müraciət edib, onun sözlərinə mahnılar bəstələyib. Bu sıradan aşığın "Gəzərəm səni" kimi neçə-neçə qoşmasının musiqisi eşidimlidi, yadda qalandır" [4, s.72]. "Gəzərəm səni" Ş.Haşımovanın, İ.Quliyevanın ifasında səslənmişdir. Mahnı maraqlı interpretasiyaları ilə diqqət cəlb edir.

Q.Hüseynlinin "Yar yanında günahkaram" mahnısı çox vaxt "Olan oldu" adı ilə tanınır. Bir çox mənbədə mahnının sözləri Aşıq Ələsgərə aid edilir. Lakin M.Xudubəyli "Mənim sazlı-sözlü dünyam" kitabında həmin gəraylının, məhz Aşıq Alıya aid olduğunu vurğulayır. Bu fikir 1983-cü ildə nəşr olunan "Azərbaycan aşıqları və el şairləri" məcmuəsində də təsdiq olunur. Həmin məcmuədə "Yalan oldu" adı ilə çap olunan gəraylının müəllifinin Aşıq Alı olduğu qeyd olunur [1, s.280]. Şur muğamı üstündə yazılan həmin mahnı N.Məmmədova, S.Qədimova, İ.Rzayev, hətta türk müğənnisi Turqut İmrənin ifasında da səslənmişdir.

Aşıq Alının yaradıcılığında xüsusi yeri olan "Nə qaldı" adlı qoşma olduqca məşhurdur. Bu qoşmanın melodiyası instrumental musiqi kimi də geniş yayılmışdır. M.Xudubəyli yazır: "İlk ötümünü telli sazın pərdələrindən başlayan bu hava ayrı-ayrı çalğı alətlərinin solo ifasında "Nə qaldı" adı ilə səslənməyə başlayıb. Qarmonda Aftandil İsrafilovun, klarnetdə Vəli Qədimovun, kamançada Munis Şərifovun, skripkada Natiq Nuriyevin və sairə..." [4, s.70]. Azərbaycan dinləyicisi bu qoşmanı Xalq artisti Z.Xanlarovanın ifasında mahnı olaraq tanımışdır (Mahnının musiqisi müğənninin özünə aiddir).

Azərbaycan xalqı malik olduğu mənəvi keyfiyyətləri böyük zövqlə mədəni dəyərlərdə əks etdirir. Təsadüfi deyil ki, hər bir bölgəyə aid olan özünəməxsus xalq yaradıcılığında, folklor nümunələrində xalqın

əzəmətli keçmişi mütləq şəkildə öz ifadəsini tapır. Qərbi Azərbaycan və bu coğrafiyada yaşayan insanların həyat tərzi, əsrlərlə formalaşan mədəni nailiyyətlər də bədii yaradıcılıqda təsvir olunaraq bir millətin maddi-mədəni dəyərlər toplusuna çevrilmişdir.

Beləliklə, Qərbi Azərbaycan bəstəkar yaradıcılığında sadəcə poetik gözəlliyi ilə tərənnüm olunan mövzu deyil, həmçinin Azərbaycan xalqının milli iradəsi və birliyinin rəmzidir. Tarixin səhifələrindən məlum olduğu kimi, düşmənlərimizin yer üzündən silməyə çalışdıqları böyük bir coğrafi məkanın mədəni sərvətləri hələ neçə nəsil sənətkarın diqqətini cəlb edəcəkdir, onlar üçün ilham mənbəyi olacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan aşıqları və el şairləri. I cild. Bakı: Elm, 1983, 374 s.
2. Azərbaycan musiqi tarixi. II cild. Bakı: Elm, 2017, 584 s.
3. Azərbaycan musiqi tarixi. III cild. Bakı: Elm, 2018, 752 s.
4. Xudubəyli, M. Mənim sazlı-sözlü dünyam (III kitab). Bakı: Elm və təhsil, 2010, 220s.
5. Azəri, L. Ələsgər sözü musiqi qanadlarında. Bakı: "Mədəniyyət" qəzeti, 11.02.2022
6. https://medeniyyet.az/page/news/61153/Elesger-sozu-musiqi-qanadlarinda.html

ABSTRACT

Inara MAHARRAMOVA

THE POETRY OF ASHUGS OF WEST AZERBAIJAN IN THE WORKS BY THE COMPOSERS

Ashug poetry, ashug music, as in other fields has always found its artistic embodiment in the creativity of composers. Operas written on the basis of epics, as well as the intonations of ashug music and the colorful works of various genres, which reflect rich images with their characteristic qualities, are a bright example of this. Ashug poetry, its various character images are reflected in the works written by our composers mostly in the song genre. In this field, our composers mostly turned to the creativity of Western Azerbaijani ashugs and created various shades of images in the songs they wrote on the basis of koshma, garayli and other ashug art genres. It should also be noted that the songs of most of the composers were written based on the poems of Ashug Alasgar. The article provides information about the songs composed by our composers Haji Khanmammadov, Said Rustamov, Ramiz Mirishli, Gambar Huseynli, Shafiga Akhundova, Sevda Ibrahimova, Javanshir Guliyev and other national authors to the poems of Ashug Alasgar, Ashug Ali and others and their famous performers. The structure of these works, compositional structure, melodic language, lad features, characteristics of images, as well as some characteristic features of the genre are reviewed. It is noted that the glorious past of a nation definitely finds its expression in the unique folk creativity and folklore examples of each region. In this sense, the way of life of West Azerbaijan and its people living in this geography, and the cultural achievements formed over the centuries have been described in artistic creativity and have become a set of material and cultural values of a nation. Our composers turned to Western Azerbaijani folklore, especially ashug poetry, and created interesting and memorable works that differ in their individual characteristics. With that, through those works, they have managed to preserve the examples of folk creativity that belong to Western Azerbaijan, that is, originated in this geography, and their individual characteristics.

Keywords: *Ashug music, folklore, poetry, poetic text, genre, West Azerbaijan*

QƏRBİ AZƏRBAYCANDA TƏHSİLİN VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

Solmaz BAYRAMOVA *slmzbrm@gmail.com*
Salatın HACIYEVA *saltinhaciyeva@gmail.com*
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycan eli haqqında ümumnəzəri baxışlar təqdim edilib. İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğalından sonra İrəvan quberniyasında yaşayan ziyalılarımızın yaratdığı milli-mənəvi dəyərlər, ədəbiyyat, incəsənət və maarifçilik tarixi, İrəvan ədəbi mühiti, Azərbaycan xalqının ata-baba torpaqlarında yaşadıqları və yaratdıqları mənəvi sərvət, dəyər və düşüncələr öz əksini tapmışdır. XIX əsrin əvvəllərində İrəvanda maarifçiliyin yeni inkişaf mərhələsinə qədəm qoyması məsələsinə toxunulmuş, İrəvan ziyalılarının ana dili məktəblərində göstərdikləri pedaqoji fəaliyyətlərinin əhəmiyyəti, 60-70-ci illərdə Heydər Əliyevin Azərbaycan hakimiyyətinə qayıdışından sonra Qərbi Azərbaycan ədəbi-mədəni həyatında özünü göstərən yeniliklər əks olunmuşdur.

Açar sözlər: *İrəvan, təhsil, maarifçilik, mədəniyyət, İrəvan ziyalıları*

Qərbi Azərbaycan təhsilinin və mədəniyyətinin geniş ictimaiyyətə çatdırılması tarixi yaddaşın yenilənməsində, həmçinin dünyada tanıdılmasında mühüm rol oynayır. Qərbi Azərbaycanın böyük tarixi, mədəni irsi var. Bu irs haqqında məlumatları geniş kütləyə çatdırmaq mütləqdir.

Tarixə nəzər saldıqda görürük ki, 1747-1827-ci illərdə İrəvan xanlığı Azərbaycanın mərkəzi şəhərlərindən biri olaraq tanınırdı. 1827-ci ildə İrəvan xanlığı Rusiya imperiyasının işğalı nəticəsində ləğv olundu. 1917-ci ilə qədər İrəvanın Rusiya imperiyasının tərkibində qalması ilə nəticələndi.

İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğalından sonra İrəvanın ziyalılarının bir qismi şəhəri tərk etmək məcburiyyətində qalsalar da, bu insanların mənsub olduğu nəsillərin bir qismi öz doğma şəhərlərində qalaraq onun ictimai, siyasi və mədəni həyatında mühüm və əhəmiyyətli rol oynayıblar.

Məlumdur ki, Azərbaycanın indiki hüquqi və siyasi sərhədlərindən kənarda qalan İrəvanda min illər boyu yaşayan ata-babalarımız zəngin maddi və mədəniyyət nümunələri yaradıblar. İrəvan quberniyasında yaşayan ziyalılarımızın yaratdığı milli-mənəvi dəyərlər, ədəbiyyat, incəsənət və maarifçilik tarixi Azərbaycanın ictimai, mədəni, pedaqoji-psixoloji fikir tarixinin ayrılmaz tərkib hissəsidir. İrəvan şəhəri yarandığı gündən Azərbaycan xalqının mədəniyyət və mənəviyyat mərkəzinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır".

İrəvan şəhərində tarixən elmə və təhsilə büyük diqqət və qayğı göstərilib. Təhsilə əsasən müəyyən təhsil görmüş din xadimləri məşğul olurdular. İrəvan şəhərində müxtəlif məktəblər açılmağa başlamışdı. 1831-ci ildə şəhərdə ilk ikisinifli 4 qəza məktəbi, 1868-ci ildə isə bu məktəb əsasında dördsinifli progimnaziya, 1881-ci il martın 31-də isə progimnaziya əsasında İrəvan gimnaziyası yaradıldı.

XIX yüzilliyin birinci yarısında, 1836-cı ildə İrəvanda ilk qəza məktəbini yaradan Mirzə Molla Tağı Məhəmməd oğlu, 1885-ci ildən 1995-ci ilədək İrəvan oğlan Gimnaziyasının müəllimi Firidun bəy Köçərli, 1881-ci ildən İrəvan Müəllimlər Seminariyasını açan Axund Məhəmmədbağır Qazızadə, habelə İsmayıl bəy Şəfibəyli, Haşım bəy Nərimanbəyov, Rəşid bəy Əfəndiyev kimi görkəmli maarifpərvərlərin sayəsində Qərbi Azərbaycanın bütün rayonlarında maarif və mədəniyyətin inkişafı mümkün olmuşdur [4, s.411].

İrəvan Qafqazda elmin, maarifin, mədəniyyətin ən çox inkişaf etdiyi mərkəzlərdən biri kimi tanınırdı. XIX əsrdə İrəvanda azərbaycanlıların təhsil alması üçün yerli ziyalılar öz hesablarına məktəblər açmışlar. 1881-ci ildə İrəvan Kişi Gimnaziyası, 1884-cü ildə İrəvan Qız Gimnaziyası fəaliyyətə başlamışdır. Bu təhsil müəssisələri Qərbi Azərbaycanda azərbaycanlıların savadlanmasında, yeni tipli məktəblərdə təhsil almasında, mədəniyyətin tərəqqisində, maarifin yayılmasında əhəmiyyətli rol oynamışdır. Eyni zamanda İrəvan Müəllimlər Seminariyası Azərbaycan məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında həlledici rola malik olmuşdur. İrəvan Müəllimlər Gimnaziyasını Əkbər Mehdi oğlu Əkbərov 1907-ci ildə, Əhməd bəy Qazıyev 1891-ci ildə, Cəfərbəy Cəfərbəyov 1900-cu ildə, Fərəməz Mahmudbəyov 1917-ci ildə, Ağabəy Rəhimbəy oğlu Firudinbəyov 1905-ci ildə bitiriblər. Sonrakı illərdə gimnaziyaya daxil olan azərbaycanlıların sayı sürətlə artmağa başladı. Firidun bəy Köçərli İrəvanı alimlər və şairlər şəhəri adlandırırdı. O, 1885-ci ildə

Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra orda müəllim kimi işlədi. Akademiklərdən Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, Əkbər ağa Şeyxülislamov və Nəriman bəy Nərimanbəyov, bəstəkar Səid Rüstəmov, görkəmli dövlət xadimi Həsən Seyidov, Bağır Seyidzadə və neçə-neçə mədəniyyət və elm xadimləri bu gimnaziyanın yetirməsidir.

XIX əsrin əvvəllərində fəaliyyətə başlayan İrəvan progimnaziyası, ikisinifli ibtidai məktəb, İrəvan Kişi Gimnaziyası İrəvanda maarifçiliyin inkişafında yüksək təhsil görmüş Azərbaycan ziyalılarının yetişməsində xüsusi rol oynamışdır. İrəvan Gimnaziyasında Azərbaycan xalqı, incəsənəti və mədəniyyəti üçün tanınmış şəxslər yetişmişdir. Tanınmış dövlət adamlarından Məmmədbəy Qazıyev, Teymur bəy Makinski, Əkbər ağa Şeyxülislamov, generallardan Həbib bəy Səlimov, Qambay Vəzirov İrəvan Gimnaziyasının məzunları olmuşlar.

İrəvanın ipək yolunun üstündə yerləşməsi, mollaxanaların, mədrəsələrin fəaliyyət göstərməsi şəhərin hərtərəfli inkişafına öz müsbət təsirini göstərmişdir. 1875-ci ildə Azərbaycan dilində çap olunan "Əkinçi" qəzetində də İrəvanla bağlı məzmunlu və əhəmiyyətli məlumatlar çap olunmuşdur.

XIX əsrin əvvəllərindən İrəvanda maarifçilik yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. İrəvan üçsinifli qəza məktəbinin, İrəvan Kişi Progimnaziyasının, İrəvan rus-tatar (Azərbaycan) məktəbinin açılması İrəvanda Azərbaycan maarifçilik sahəsində inkişafını təsdiqləyən amillərdəndir. Təhsil və maarifçilik mühitinin inkişafı qızların ibtidai təhsil alması ilə yanaşı, həm də gimnaziya və ali təhsil almasına imkan vermişdi. İrəvan qadın gimnaziyasında 16 nəfər azərbaycanlı qız təhsil alırdı. İrəvan qadın progimnaziyasında isə 4 nəfər azərbaycanlı qızın təhsil alması xüsusilə əhəmiyyətli idi. Bütün bunlar aydın şəkildə göstərir ki, XIX əsrin əvvəllərində İrəvanda dünyəvi təhsilə diqqət artmış, qızlar həmin məktəblərdə təhsil almışlar.

Azərbaycan təhsil sahəsində iz buraxan İrəvan Müəllimlər Seminariyası "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi barədə" Rusiya imperiyası Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qərarına uyğun olaraq yaradılmışdır. Bu seminariyanı 1915-1916-cı tədris ilində 19 nəfər, 1916-1917-ci tədris ilində 22 nəfər, 1917-1918-ci tədris ilində 23 nəfər bitirmişdir [1, s.622-624].

XIX əsrin sonlarına doğru İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdilər.

XIX əsrin sonlarında bir müddət İrəvanda işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firidun bəy Köçərli İrəvanı haqlı olaraq "mərkəzi üləma, füzəla və şüəra" şəhəri – yeni üləmalar, fazilətlər və şairlər şəhəri adlandırmışdır. O, maarifçi demokrat kimi ictimai bəlaların kökünü cəhalətdə, elmisizlikdə görürdü və buna görə də xalqın maariflənməsi yolunda öz zəhmətini əsirgəmirdi. İrəvanda yeni tipli məktəblərin açılmasında, məktəblərin tədris vəsaiti ilə təmin olunmasında Firudin bəyin müstəsna xidmət olmuşdur. Firidun bəy Köçərli 1890-cı ildə "İrəvandan məktub" başlıqlı məqaləsində yazırdı: "Belə ki, iki-üç sənə var ki, şəhərimizdə bir-iki qaydalı və səliqəli məktəb açılıb. Müsəlman balaları da sair millətlərin ətfalı (yəni uşaqları) təki təzə üsul ilə elm və ədəb təhsil edirəm. Əlbətdə bu məktəblərin qüsurları da çoxdur, amma ümid var ki, İrəvan əhli hümmət edib az zamanda məktəblərin hər bir ehtiyacını düzəldirlər".

Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabında İrəvanda mövcud olan bəzi məktəblər haqqında, o cümlədən İrəvanda məktəb açan Məşədi İsmayıl Kazımzadə və Mirzə Kazım Əsgərzadə kimi görkəmli ziyalılar haqqında ətraflı məlumat verilir.

İrəvanda fəaliyyət göstərən özəl məktəblərdən biri də Sofiya Stasyuleviçin 1877-ci ildə açdığı pansion idi. S.Zelinski adı çəkilən "İrəvan şəhəri" məqaləsində şəhərin ilk özəl pansionunun təsisçisinin ona söylədiklərini qələmə almışdır. S.Stasyuleviç Naxçıvanda yaşayarkən Kəlbəli xan Naxçıvanski ilə tanış olmuş və onun iki övladının təlimi ilə fərdi qaydada məşğul olmuşdur. Ondan razı qalan Kəlbəli xan Sofiyaya İrəvana getməyi və müsəlman uşaqlarının tərbiyəsi ilə məşğul olmağı məsləhət görür.

İrəvan Müəllimlər Seminariyasında ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənləri ilə yanaşı, tatar (Azərbaycan dili) dərsləri də keçirilirdi.

Axund Məhəmmədbağır Qazızadə İrəvanda müəllimlər seminariyasında şəriət müəllimi, Ələsgər Kərimov, Rəhim Xəlilov, Rəşid bəy Şaxtaxtinski, Mirzə Cabbar Məmmədov Azərbaycan dili müəllimi işləmişdilər.

Tədqiqatlar göstərir ki, İrəvan xanlığının ərazisindəki təhsil sistemi mahiyyət etibarilə Azərbaycanın digər xanlıqlarındakı təhsil sistemindən fərqli olmamışdı. Oradakı təhsillə din xadimləri məşğul olmuş, hər bir məscidin nəzdində böyük, yaxud kiçik mədrəsə fəaliyyət göstərmişdir. İstər mədrəsələrdə, istərsə də məktəblərdə hüsnxətə xüsusi diqqət yetirilmişdir.

İrəvan ziyalıları ana dili məktəbləri üçün müxtəlif dərs vəsaitləri hazırlayırdılar. Mirzə Hüseyn ağanın Şərq ədəbiyyatından tərcümələri, Haşım bəy Nərimanbəyovun "Ana dili" kitabı, Mirzə Abbas Məmmədzadənin "Güldəstə" adlı dərsliyi və çox sayda başqa dərs vəsaitləri Bakıda, Tiflisdə və İrəvanda çap

olundu.

Həmin illər Bakıda və Tiflisdə çap olunan "Əkinçi", "Kaspi", "Molla Nəsrəddin" və başqa mətbuat orqanlarını İrəvanda təmsilçiliklərinin olmasına baxmayaraq, 1911-ci ildə İrəvan şəhərində Azərbaycan dilində iki mətbu orqan Cabbar Əsgərzadənin təsis etdiyi "Leylək" adlı məcmuə nəşr olunmağa başladı.

1917-ci ildə İrəvanın nüfuzlu ziyalılarından Həsən Mirzəzadə Əliyevin naşirliyi ilə "Burhani həqiqət" adlı yeni bir məcmuə çap olundu. Bu məcmuə öz oxucusunu cəhalət zülmündən xilas etmək, ermənilərin İrəvandakı maddi-mədəniyyət abidələrimizin tarixini saxtalaşdırmaq cəhdlərinin qarşısını almaq missiyasını daşıyırdı.

Qərb mədəniyyətinin mütərəqqi cəhətlərinin ənənəvi təhsil və mədəniyyət sistemi ilə çox tez uzlaşması, XIX əsrin sonu XX əsrin əvvəllərində şəhərdə Azərbaycan mədəniyyətinin yüksəlməsinə təkan verdi.

1873-cü ildə Bakıda ilk Azərbaycan teatrının yaranmasından fərəhlənən yeni ziyalılar İrəvanda Azərbaycan Teatr truppası yaratmaq qərarına gəldilər. Qarşılaşdıqları maneələrə və çətinliklərə baxmayaraq, nəhayət, onlar Vasaq Məmmədovun "Tamahkarlıq düşmən artırar" adlı pyesini Qızlar məktəbinin binasında tamaşaçılara göstərdilər.

1898-1903-cü illərdə İrəvanda yaşayan Cəlil Məmmədquluzadə şəhərdəki teatr həvəskarları ilə yaxından əlaqə saxlayaraq, tamaşaların hazırlanıb göstərilməsində iştirak edirdi.

Millətsevər ziyalılar tərəfindən Qərbi Azərbaycan ərazisində türk əhli, xüsusən də qadınlar arasında savadsızlığın ləğvi istiqamətində də böyük işlər görülürdü.

1929-cu ilin yanvarında "Zəngi" qəzeti "Qızıl şəfəq" adı ilə nəşr olunmağa başladı.

Sovet hakimiyyətinin ilk illərində azərbaycanlı uşaqlar İrəvan şəhərində keçmiş Haşım bəy Nərimanbəyovun məktəbinin nəzdində fəaliyyət göstərən Məşədi Əzizbəyov adına məktəbdə, Mirzə Fətəli Axundovun adını daşıyan məktəbdə və şəhərdəki digər iki beynəlmiləl məktəbdə təhsil aldılar.

1924-cü ildən internat tipli İrəvan Türk Pedaqoji Texnikumu kimi fəaliyyətə başlayan, 1936-cı ildən isə İrəvan Azərbaycan Pedaqoji məktəbi adlanan və müxtəlif vaxtlarda Mehdi Kazımov, Bəhlül Yusifov, Həmid Məmmədzadə kimi tanınmış maarif xadimlərinin rəhbərlik etdiyi bu təhsil ocağı Ermənistandakı azərbaycanlı məktəblər üçün müəllim hazırlayırdı.

Bala Əfəndiyev və Yunis Nuri kimi fədakar ziyalıların hesabına 30-cu illərdə artıq şəhərdə Azərbaycan mədəni mühiti kifayət qədər inkişaf etmişdi. Öz fəaliyətini bərpa etmiş C.Cabbarlı adına İrəvan Azərbaycan Teatrı Qafqazın sayılıb-seçilən teatrlarından birinə çevrilmişdi.

1947-ci ildə xaricdən köçürülən ermənilərin yerləşdirilməsi bəhanəsi ilə yeni bir köçürülmə dalğası başladı. İrəvanın bütöv məhəllələri boşaldı. İrəvan şəhərində onsuz da sayca azlıqda qalan azərbaycanlı əhali nəzərə çarpmayacaq həddə qədər azaldı.

1950-ci ilin ortalarından başlayaraq yenə də fədakar ziyalıların hesabına itkilərin yerini qismən də olsa, doldurmaq mümkün oldu. Erməni millətçilərinin təzyiq edərək təxribat aparmalarına baxmayaraq, Cəfər Vəlibəyov, Rza Vəlibəyov, Sidiqə Qədimova, Dursun Abbasov, Sabir Əsədov, Tapdıq Əmiraslanov, Əkbər İrəvanlı, Əli Məmmədov, Qüdrət Orucov, Yunis Rzayev, Həbib Həsənov, Sabir Rzayev kimi yüzlərlə ziyalı çox böyük səy və cəsarət göstərərək Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın təhsili, mədəniyyəti və hüquqları uğrunda durmadan mübarizə aparırdılar.

1954-cü ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsi çox məhdud ixtisaslarla yenidən bərpa olundu. İnstitutda yalnız "Azərbaycan dili və ədəbiyyat" kafedrası müstəqil fəaliyyət göstərirdi. Kafedraya əvvəlcə tanınmış elm xadimi Əkbər Yeravanlı,onun vəfatından sonra isə Knyaz Mirzəyev rəhbərlik etmişdi. 1961-ci ildə İrəvan Pedaqoji İnstitutunda Fizika-riyyaziyyat və Ədəbiyyat-tarix fakültəsi ləğv edilmiş, əvəzində 25 tələbənin təhsil aldığı İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsi acılmışdı. 1970-ci ildə isə bu fakültə bağlanaraq, əvəzində Tarix-ədəbiyyat fakültəsi açılmışdı.

Azərbaycanlı əhalinin sayının azalması şəhərdə fəaliyyət göstərən uşaq bağçalarındakı uşaqların sayında da özünü göstərdi. Uşaq bağcalarının yalnız birində bir azərbaycanlı qrupu qalmışdı. İrəvanda son günlərə qədər mövcudluğunu qoruyub saxlamış Axundov adına və Əzizbəyov adına məktəblərin müəllimlərinin fəaliyyəti ziyalı fədakarlığının nümunəsi idi.

60-cı illərin sonunda İrəvan Azərbaycan Teatrının kollektivi Bakıdan təyinatla bu şəhərə işləməyə getmiş bir qrup gənc aktyorun hesabına xeyli gücləndirilmişdir. C.Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrı Ermənistanın teatrları arasında ən seçilən kollektivlərdən biri olsalar da, bu teatra doğma şəhərində bina verilməmişdi. Bu cür ayrı-seçkilik və millətçi münasibətlə üzləşən yalnız İrəvan Azərbaycan Teatrı deyildi. Azərbaycan mədəniyyəti ilə bağlı hər bir sahədə bu münasibət açıq-aşkar görünürdü. Respublikada yeganə Azərbaycan dilli mərkəzi mətbuat orqanı olan "Sovet Ermənistanı" qəzeti də sələfləri "Zəngi" və "Qızıl-Şəfəq" qəzetləri kimi daima təzyiqlərlə üzləşirdi.

1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda Hakimiyyətə gəlişindən sonra Qərbi Azərbaycana diqqət daha da artırıldı. 1972-ci ildə Heydər Əliyevin qeyri-adi təşkilatçılıq bacarığı və həm də siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri ən yüksək səviyyədə keçirildi. Ermənistan SSR ərazisində olan Göyçə mahalında - Aşıq Ələsgərin vətəni Ağkilsə kəndində böyük sənətkarın əzəmətli qəbirüstü abidəsi ucaldıldı. Vətəni Göyçə mahalı olan Aşıq Ələsgərin belə bir yubileyinin keçirilməsində məqsəd böyük el sənətkarını Azərbaycan xalqına qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə olduğu, ulu ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları fikrinin yeni nəslə çatdırmaq idi.

1978-ci ilin payızında böyük məhrumiyyətlərə və erməni millətçilərinin təzyiqlərinə baxmayaraq, 1886-cı ildən İrəvanda fəaliyyət göstərən Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrının Bakı qastrolları əsl incəsənət bayramına çevrilmişdi. Teatr kollektivinin bir çox nümayəndələri Azərbaycan hökuməti tərəfindən müxtəlif fəxri adlarla və mükafatlarla təltif olunmuşdular.

Həmin dövrdə Azərbaycanın müxtəlif teatr və musiqi kollektivlərinin, elm və incəsənət xadimlərinin İrəvana və Qərbi Azərbaycanın müxtəlif bölgələrinə səfərləri də müntəzəm şəkildə həyata keçirilirdi. Bakıdan İrəvana tədbirlərə gələn ziyalılar, sənətkarlar, elm və incəsənət xadimləri mütləq qəzetin redaksiyasına gəlir, teatr kollektivlərinin qonağı olurdular.

Bakıdan İrəvana müxtəlif tədbirlərə gəlmiş ziyalıların, sənət adamlarının yerli ziyalılarla, elm və incəsənət xadimləri ilə görüşləri mənəvi dəstək olmaqla yanaşı, eyni zamanda Azərbaycan SSR-də gedən mədəni, elmi proseslərin bir parçasına çevrilməsinə yardım edirdi.

Erməni şovinizminin arasıkəsilməz təzyiqlərinə baxmayaraq, İrəvanda Azərbaycan ədəbi-mədəni həyatı öz məcrasında inkişaf edirdi. Ədəbiyyatımız rəngarəng, yüksək bədii səviyyəli əsərlərlə zənginləşirdi. Çox təəssüf ki, 1988-ci ildə Qərbi Azərbaycandan soydaşlarımızın sonuncu kütləvi deportasiyası bu prosesə son qoydu.

Bu gün aktual olan əsas məsələlərdən biri Qərbi azərbaycanlıların öz tarixi yurdlarına qayıtması məsələsidir ki, bu onların beynəlxalq hüquqla təsbit olunan haqlarıdır. Ermənistan dövləti onların bu hüququnu tanımalı və dinc, təhlükəsiz şəraitdə öz yurdlarına qayıtmalarını təmin etməlidir. Biz inanırıq ki, gec-tez bu proses baş tutacaq və onlar öz yurdlarına qayıdacaqlar.

ƏDƏBİYYAT

1. Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2002, 699 s.
2. Bayramov, İ. Qədim Azərbaycan şəhəri İrəvan. Ankara: İksad, 225 s.
3. Köçərli, T. Azərbaycan ədəbiyyatı. II c, Bakı: Elm, 1981, 460 s.
4. İbrahimov, N. Ermənistandan olan Azərbaycanlı alimləri. Ermənistandan azərbaycanlıların tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 411-446 s.
5. Xəlilov, B. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. Xalq, 25 iyul, 2017.
6. Məhərrəmov, Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illər). Bakı: Nurlan, 2010, 320 s.
7. Cəfərov, C., Allahverdiyev, C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017, 440 s.

ABSTRACT

Solmaz BAYRAMOVA, Salatin HAJIYEVA

DEVELOPMENT OF EDUCATION AND CULTURE IN WESTERN AZERBAIJAN

The article presents general theoretical views on the region of Western Azerbaijan. After the invasion of the Irevan Khanate by the Russian Empire, the cultural and spiritual values, literature, art, and enlightenment created by our intellectuals, as well as the literary environment of Irevan, the spiritual wealth and values of the Azerbaijani people created and experienced on ancestral lands, found their reflection.

The article addresses the issue of a new stage in the development of enlightenment in Irevan at the beginning of the 19th century, and the importance of the pedagogical activities of Irevan intellectuals in national language schools. Innovations that emerged in the literary and cultural life of Western Azerbaijan after H. Aliyev's return to power in Azerbaijan in the 1960s and 70s are also reflected.

Keywords: *Irevan, education, enlightenment, culture, Irevan intellectuals*

İTİRİLMİŞ TARİXİ AZƏRBAYCAN TORPAQLARI: QƏRBİ AZƏRBAYCAN

Nazlı YAQUBOVA
nazliyaqubova92@gmail.com
ORCID iD: 0009-0005-9162-2132
Naxçıvan Dövlət Universiteti

"Ey türk oğuz bəyləri! Türk xalqı, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz. Su təki axıtdığın qanına kimi yığdığın sümüklərinə layiq ol! Ey ölümsüz türk ulusu, özünə dön!".

Bilgə Kağan

XÜLASƏ

Əsrlər boyu Azərbaycan xalqı öz milli kimliyini qorumaq üçün aramsız mübarizələr və müharibələrdə iştirak edib. Müasir dünyanın çətin şərtlərinə baxmayaraq, mövcudiyyətini qoruyub saxlamağa müvəffəq olmuşdur. Azərbaycan xalqının tarixi təkamülü prosesi çox qədim tarixə dayanır. Xalqımız tarixdə elə dövlətlər qurmuşdur ki, dünyaya meydan oxumağı bacarmışdır. Ölkəmizdə milli dövlət quruculuğu prosesi sürətlə davam edir. Bu prosesin özəlliyi onun daimi xarakterli olmasındadır. Qurulduğu gündən inkişafı özünə əsas prioritet olaraq seçən dövlətimiz daim güclənir, elmə, təhsilə xüsusi önəm verilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev İli" elan etməsi dünya azərbaycanlılarını Ümummilli Lideri ətrafında möhkəm birləşdirdi.

Açar sözlər: *Qərbi Azərbaycan, azərbaycanlılar, deportasiya, qaçqın, İkinci Qarabağ müharibəsi*

1813-1828-ci illərə qədər Azərbaycanın sahəsi təxminən 410 min kv.km idi. 1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri, yəni İran əsarəti altındakı Cənubi Azərbaycanın sahəsi təxminən 280 min kv.km, Rusiya əsarəti altındakı Şimali Azərbaycanın sahəsi təxminən 130 min kv.km olmuşdur. 1918-ci ildə Rusiyanın təzyiqi ilə sahəsi 9 min kv.km.-dən ibarət İrəvan xanlığı ermənilərə verilmişdir.

Azərbaycan Demokratik Respublikası 1918-ci il 28 may tarixində elan edilmişdir. Həmin dövrdə dünya çox çətin tarixi dövrdən keçirdi. Dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizə başqa bir fəzaya daxil olmuşdu. Formalaşan yeni dünya düzənində Azərbaycan suveren dövlət olmağı bacararaq özünün müstəqilliyini dünya dövlətlərinə tanıtmışdır. Həmin dövrdə özünü ermənilərin hamisi elan edən ABŞ Prezidenti Vudro Vilson sosyalizm qorxusundan Azərbaycanı de-fakto tanımağa məcbur olmuşdur.

Azərbaycanın geostrateji mövqeyi böyük dövlətlərin maraqlarını bölgəyə cəmləyirdi. Ermənilər isə bundan məharətlə istifadə edirdilər. Cəzasızlıq mühiti onlara məqsədlərini daha yaxın edirdi. Bu mənfur xalqın dövlət yaradacaq torpağı belə olmamışdır. Qərbi Azərbaycan torpaqlarının işğalı elə bu səbəbdən sürətlənmişdir. 1918-ci ildə yaranan Zaqafqaziya komissarlığını mayda Zaqafqaziya seymi əvəz etdi. 1918-ci il mayın 26-da gürcü nümayəndələri seymdən çıxıb Gürcüstan hökumətini qurmaq üçün bəyanat verdilər. 1918-ci il mayın 28-də Ermənistan Respublikasının yaranması rəsmən elan edildi. Beləliklə, tarixdə ilk dəfə olaraq Rusiyanın əli ilə ermənilər öz dövlətlərini yaratdılar. Ermənistan dövlətinin tarixi də 1918-ci ilin mayın 28-dən başlayır. T.Köçərli yazır: "378-ci ildə Ermənistan İranla Bizans arasında bölünəndən sonra əsrlər boyu, ta 1918-ci ilə qədər, yəni 15 əsr ərzində nə müstəqil, nə yarım müstəqil Ermənistan olub" [3, s. 198].

1991-ci ilə qədər Ermənistan SSRİ-nin tərkibində oldu və kommunistlər tərəfindən idarə olundu. İğdiroğlu doğru olaraq yazır: "Kavkaz Ermənistanı m.ö. 521-ci ildən 333-cü ilə qədər Pers vilayətinə, m.ö. 215-ci ilə qədər Makedoniyaya bağlı bir ərazi parçası, m.ö. 190-cı ilə qədər Selefkilərə bağlı bir vilayət, m.ö. 220-ci ilə qədər Roma və Perslər arasında el dəyişdirən bir yer, V əsrə qədər Sasani, VII əsrdə Bizans, X əsrə qədər Ərəb və Bizansın tabeliyində, XI əsrdən XIX əsrin II yarısına qədər (əslində I yarısına qədər -İ.B.) Türkiyənin hakimiyyəti altında və nəhayət, XIX əsrin II yarısından (XIX əsrin I yarısından - İ.B.) günümüzə qədər (1991-ci ilə qədər) çar Rusiyası ilə onun xələfi olan sovet Rusiyasının himayəsi altında olmuşdur. Hanı müstəqil torpaq, harada milli erməni möhürü?". 1991-ci ildə isə SSRİ-nin dağılması ilə bağlı Ermənistan da müstəqilliyini elan etdi [3, s. 87].

Ermənilərin tarix boyu apardıqları siyasətin əsasını "Böyük Ermənistan" xülyası təşkil edir. Ermənilərin "Böyük Ermənistan" dövlətini yaratmaq istəyindən bəhrələnən çar Rusiyası Qafqazda öz mövqelərini möhkəmlətməyi qərara aldı. I Pyotr anlayırdı ki, Qara dəniz və onun boğazlarını, eləcə də Xəzər dənizinin ətrafını tutmaq üçün erməni kartından da istifadə etmək lazımdır.

Qərbi Azərbaycan deyəndə İrəvan və Gümrü şəhərləri, Vedibasar, Zəngibasar, Göyçə, Dərələyəz,

Dərəçiçək, Zəngəzurun Meğri, Gorus, Sisyan, Qafan bölgələri, Ağbaba gözlərimizin önündə canlanır. Azərbaycan türkləri indiki Ermənistan ərazisində e.ə. II əsrdən yaşamağa başlamışlar. Bu faktı əsaslı şəkildə təsdiqləyən amillərdən biri həmin xalqın, tayfanın adını özündə yaşadan toponimlərdir. Qərbi Azərbaycan ərazisində tarixən mövcud olmuş türk mənşəli toponimlərə, IV-VII əsrdən başlayaraq Qafqaz xalqlarının tarixi ilə bağlı yazılmış əsərlərə istinad edib bu qənaətə gəlmək olur ki, Qərbi Azərbaycan ərazisində Azərbaycan türkləri yerli sakinlər olmuşlar və ermənilər buraya ilk yaşayış yerləri olan İraqdan - Fərat və Dəclə çayının sahillərindən gəlmişlər.

İrəvan xanlığının yerinə Erməni vilayəti yaradılanda (12 mart 1828) Qərbi Azərbaycanda 81.749 müsəlman, 25.131 erməni olub. Lakin bu rəqəmlər də tam dolğun təsəvvür yarada bilməz, çünki xanlığın ruslar tərəfindən işğalına başlanan dövrdən müsəlmanların öz ata-baba torpaqlarından qovulması, köçürülməsi, ermənilərin də həmin torpaqlarda yerləşdirilməsi prosesi baş verməkdə idi. Qərbi Azərbaycandan "Qarapapaqlılardan 800 ailə Arazın o tayına, 100 ailə Qarsa, uluxanlı tayfalarından 600 ailə Bayazidə, ayrımlardan 300 ailə Qarsa qaçmışdı. Xanlığın müxtəlif yaşayış məntəqələrindən qaçıb Türkiyəyə pənah gətirən müsəlman 34 ailələrinin sayı 1800-dən artıq idi. Beləliklə, "Erməni vilayəti"nin yaradılması ərəfəsində xanlığın ərazisini 18.000 müsəlman (3.600 ailə, hərəsi 5 nəfərdən) tərk etmişdi. Təkcə bu adi hesablamadan aydın olur ki, İrəvan xanlığında ən son vaxtlarda əhalinin milli tərkibindəki nisbət belə olmuşdur: müsəlmanlar 99749 nəfər (19628 ailə), ermənilər - 25131 nəfər (4428 ailə). V.A.Parsamyan yazır: "Rusiyaya birləşdirilənə qədər Şərqi Ermənistanın (indiki Ermənistan nəzərdə tutulur) 196155 nəfər əhalinin 57305 nəfərini və ya 33,8%-ni ermənilər, 84089 nəfərini və ya 49,7%-ni müsəlmanlar azərbaycanlılar, 26911 nəfərini və ya 16%-ni kürdlər, 850 nəfərini və ya 0,5%-ni başqa millətlər təşkil edirdi [3, s.39].

Əgər 1828-ci ildən sonra İrandan (40.000) və Türkiyədən (84.000)-124.000 ermənin Azərbaycana, indiki Ermənistan ərazisinə köçürülüb məskunlaşdırılmasını və gəlmə ermənilərin ən çoxunu (təqribən 100.000 nəfər) indiki Ermənistan ərazisində yerləşdirilməsini nəzərə alsaq, 1831-ci il siyahıyaalma ilə müqayisədən aydın olar ki, burada 10.000-dən bir qədər çox yerli erməni yaşamışdır və göründüyü kimi, indiki Ermənistanda ermənilər əhalinin ən az hissəsini təşkil etmişdir. İndiki Ermənistan ərazisində 1828-ci ilə qədər bir dənə də olsun erməni dilli toponimə rast gəlinmir. 1828-ci ildən sonra köçürülmə ilə bağlı ərazidə erməni toponimləri də həmin vaxtdan yaranmağa başlamışdır. Bundan sonra belə İrəvanda azərbaycanlılar ermənilərdən iki dəfə çox olmuşdur.

İrəvan qədim Azərbaycan şəhərlərindən biri olmuşdur. Burada tarixən yalnız türklər (azərbaycanlılar) yaşamışlar. Bunu şəhərin adı, şəhərin məhəllə adları (doqquz məhəlləsi olmuşdur: Şiləçi, Sabunçu, Bağçalar, Börkçülər, Boyaqçı, Toxmaq, Şəhər (Şaqar), Təpəbaşı (Dəmirbulaq), şəhərdəki 8 məscid (burada tarixən erməni kilsəsi olmayıb) bir daha əyani şəkildə sübut edir [3, s.145]. Azərbaycan xalqının formalaşmasında mühüm rol oynayan İrəvan mahalı (indiki Ermənistan ərazisi) 1920-ci ilə kimi beş min il fasiləsiz azər-türk boylarının ölkəsi olmuşdur [3, s.98].

Həmin illərdə indi Ermənistan adlanan Qərbi Azərbaycanın köklü sakinləri olan azərbaycanlılar erməni təcavüzünə daha çox məruz qalmışlar. Təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953, 1988-1991) azərbaycanlılar indiki Ermənistan ərazisindən - tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşlar. "Türksüz Ermənistan" uğrunda mübarizə aparan ermənilər və onların ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci ilin avqustun 8-də başa çatdırdılar. Həmin gün Meğri rayonunun ən böyük kəndlərindən biri, Ermənistanda azərbaycanlıların yaşadığı son yaşayış məntəqəsi - Nüvədi kəndi soyqırımına məruz qalaraq kəndin köklü sakinləri-azərbaycanlılar tarıxi-etnik torpaqlarından deportasiya olundu. Beləliklə, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər belə azərbaycanlı qalmamışdır.

Maraqlı məsələlərdən biri də ondan ibarətdir ki, Ümummilli Liderin nitqlərindən və çıxışlarında həm də bu gün aktual olan repatriasiya – Vətənə qayıdış məsələsi əksini tapmışdır. 1998-ci ilin dekabrında "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçıları ilə görüşdə Heydər Əliyev qayıdış prosesinin gələcəkdə reallaşacağına inamını ifadə edərək demişdi: "Mən buna inanıram. İnanıram ki, o yerlərin sahibləri – müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar".

Mübariz Azərbaycan xalqı və Müzəffər Ali Baş Komandanın əvəzolunmaz səyləri nəticəsində bu gün xalqımız zəfər tarixini yaşayır. Biz inanırıq ki, gələcəkdə xalqımız milli bayramlarını öz ata-baba yurdlarında – Qərbi Azərbaycanda da böyük fəxr və coşqu ilə qeyd edəcəklər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Prezident Kitabxanası
2. Ermənistan Qərbi azərbaycanlıların yurdlarına qayıdışını təmin etməlidir // Xalq qəzeti. – 2023, 18 mart. № 60, - s. 9.
3. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. - Bakı: Şərq-Qərb, - 2012.
4. Qərbi Azərbaycan İcması. Qayıdış Konsepsiyası. - Bakı: - 2023.
5. Qərbi Azərbaycana qayıdış siyasəti milli ideya kimi // Respublika. - 2023, 24 dekabr. № 282, - s.5.

ABSTRACT

Nazli YAGUBOVA

LOST HISTORICAL AZERBAIJANI LANDS: WESTERN AZERBAIJAN

For centuries, the Azerbaijani people have participated in continuous struggles and wars in order to preserve their national identity. Despite the difficult conditions of the modern world, they have succeeded in maintaining their existence. The process of the historical evolution of the Azerbaijani people dates back to ancient times. Throughout history, our people established states that were capable of challenging the world. The process of national state-building in our country continues rapidly. The distinctive feature of this process lies in its continuous character. Since the day of its establishment, our state has chosen development as its main priority and continues to grow stronger, while special importance is attached to science and education. The declaration of 2023 as the "Year of Heydar Aliyev" by the President of the Republic of Azerbaijan, Ilham Aliyev, united Azerbaijanis around the world firmly around the National Leader.

Keywords: *Western Azerbaijan, Azerbaijanis, deportation, refugee, Second Karabakh War*

ƏRTOĞROL CAVİD QƏRBİ AZƏRBAYCAN AŞIQLARI HAQQINDA

Gülbəniz BABAXANLI
huseinjavid@gmail.com
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

XÜLASƏ

Məqalədə Ərtoğrol Cavidin Qərbi Azərbaycan aşıq mühiti ilə bağlı topladığı və şərh etdiyi folklor materialları araşdırılır. Müəllif göstərir ki, Qərbi Azərbaycan aşıq məktəbi Azərbaycan milli-mədəni irsinin ayrılmaz hissəsidir və xüsusilə Göyçə aşıq mühiti zəngin poetik ənənələri ilə seçilir. Ərtoğrol Cavid hələ gənc yaşlarında topladığı materiallar vasitəsilə Aşıq Ələsgər və digər Göyçə sənətkarlarının yaradıcılığını yüksək peşəkarlıqla qiymətləndirmiş, onların poetik və musiqi xüsusiyyətlərini təhlil etmişdir. Məqalədə onun folklor nümunələrinin toplanması, variantlarının qorunması və elmi şərhlərlə nəşr edilməsinə verdiyi əhəmiyyət xüsusi vurğulanır. Toplanmış materialların təkcə ədəbiyyat və musiqi tarixinin deyil, həm də Qərbi Azərbaycanın tarixi-mədəni yaddaşının öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunur. Eyni zamanda, Aşıq Ələsgərin yaradıcılığında vətənpərvərlik, qaçqınlıq, doğma yurda bağlılıq və qayıdış ideyalarının öz əksini tapdığı göstərilir. Məqalə Ərtoğrol Cavidin folklorşünaslıq sahəsində xidmətlərini və Qərbi Azərbaycan irsinin qorunmasındakı rolunu ön plana çıxarır.

Açar sözlər: *Ərtoğrol Cavid, Qərbi Azərbaycan, Göyçə aşıq mühiti, Aşıq Ələsgər, folklor, aşıq sənəti.*

Azərbaycan mədəniyyəti tarixində Qərbi Azərbaycan aşıq məktəbinin xüsusi yeri və çəkisi var. Qərbi Azərbaycan ədəbi-mədəni mühitinin Azərbaycan-türk etnosu ilə bilavasitə bağlı olduğunu əyani şəkildə ortaya qoymaq baxımından Azərbaycan aşıq sənətinin mühüm bir parçası olan Göyçə aşıq ədəbiyyatı və aşıq musiqisinin toplanması, bu zəngin irsin tədqiqi və təbliği xüsusi önəm kəsb edir. Hüseyn Cavidin Ev Muzeyinin fondunda Qərbi Azərbaycan aşıq mühitini özündə ehtiva edən Cavidlər nəslinin istedadlı nümayəndələrindən biri Ərtoğrol Cavidin ötən əsrin 40-cı illərində topladığı, şərh edib rəy yazdığı materiallar mühafizə olunur. Həmin materiallar bu gün də alimlər tərəfindən mötəbər istinad mənbəyi kimi qəbul olunmaqdadır. Çünki zamanında bilavasitə Göyçə mahalında həmin mühitin təmsilçilərindən toplanmışdır.

Onu da söyləməliyik ki, Ərtoğrol Cavidin topladığı və şərh etdiyi bu materialların əksəriyyəti təkcə Azərbaycan mədəniyyəti, xüsusən də Qərbi Azərbaycan ədəbi-mədəni mühiti üçün deyil, bütün mütərəqqi bəşəriyyət, başqalarının mədəniyyətinə hörməti özünə hörmətin təsdiqi kimi qəbul edən xalqlar və insanlar üçün də əhəmiyyət daşıyır.

Çox gənc olmasına rəğmən, Azərbaycan aşıq yaradıcılığı haqqında demək olar ki, ətraflı məlumata malik olan Ərtoğrol Cavid hələ 84 il öncə, yəni Azərbaycan aşıq sənəti haqqında görkəmli alimlərin tədqiqatının işıq üzü görməsinə bir neçə on il qalmış heyrətamiz uzaqgörənliklə Göyçə mühiti el sənətkarlarının ən böyüklərini öz lakonik araşdırmalarında kifayət qədər layiqincə qiymətləndirməyə nail olmuşdur.

İncə poetik duyumu, böyük məsuliyyət və vətənpərvərliyi, eyni zamanda tədqiq etdiyi materiala böyük marağı Ərtoğrol Cavidə nəzərdən keçirdiyi poetik örnəkləri yüksək peşəkarlıqla qiymətləndirməyə imkan vermişdir. Ona görə də onun elmi rəyi bu gün də aktuallığını itirməyib.

Qərbi Azərbaycan aşıq mühitinə dair toplayıb şərh etdiyi bədii materiallar həddən artıq rəngarəng olsa da, gənc folklorşünas bu mozaika arasında özünü itirməmiş və aparıcı istiqamətləri dəqiq müəyyən edə bilmişdir. Məhz buna görə də əsas diqqətini Aşıq Ələsgər irsinin tədqiqinə yönəldərək, onun aparıcı istiqamətini və ən başlıcası isə müasirliyini müəyyən etmək yolunda öz erudisiya və istedadını səfərbər etmişdir.

Araşdırdığı folklor materialının Azərbaycan mədəniyyəti və ədəbiyyatı üçün böyük əhəmiyyətini layiqincə anlayan Ərtoğrol Cavid bunların çapını zəruri saymış, ancaq bu zaman elmi aparatura ilə təchizatını da unutmamağı tövsiyə etmişdi. Xüsusən folklor materiallarının variantlarına önəm verən gənc alim, bunları nəşr edərkən lazımi şərh və izahların da faydalı olacağını nəzərə çatdırmışdı.

Hüseyn Cavidin Ev Muzeyi 2011-ci ildə Ərtoğrol Cavidin elmi araşdırmalarını onların həsr edildiyi folklor materialları ilə birgə çap etdirmişdir. Bununla da bütün cavidlərin ruhuna layiqli hədiyyə etməklə bərabər, Qərbi Azərbaycana mənəvi qayıdışımızın təməl daşlarından birini öz yerinə bərkitmişdir.

Ərtoğrol Cavid "Aşıq Musanın söylədiyi şeirlər haqqında" başlıqlı yazısında Göyçə aşıq mühitinin nümayəndələrinin adlarını sadalayır, Göyçə mahalından toplanan materiallar içərisində – Aşıq Musa (Ağkilsəli

– 1830-1912), Aşıq Qurban (Aşıq Ələsgərin sevimli şəyirdi, qardaşı Məşədi Salehin böyük oğlu – 1870-1915), Aşıq Talıb (Aşıq Ələsgərin oğlu – 1877-1079), Aşıq İman (Ağkilsəli Növrəs İman – 1903-?), Aşıq Məhəmməd (Aşıq Ələsgərin qardaşı) və əlbəttə, daha çox Aşıq Ələsgərin şeirlərinin olduğunu qeyd edir. Həmin poetik irsin mövzu etibarilə rəngarəng olduğu kimi, janr baxımından da müxtəlif olduğunu: qoşma, divani, müxəmməs, təcnis, dodaqdəyməz, cığalı təcnis və s. ibarət olduğunu göstərir. Toplanan materiallar içərisində başqa regionlar üçün xarakterik olmayan "nəfəs çəkmə təcnisi", "Göyçə pozuğu (dil tərpənməz)" şeir şəkillərinə rast gəlindiyini müəyyən edir.

Ərtoğrol Cavid Aşıq Ələsgər haqqında olan materiallara toplayıcıların çox yaxşı kommentarilər verildiyini bildirir. O, Aşıq Ələsgərlə bağlı toplanan materialları mövzu baxımından iki qismə ayırır: aşığın bioqrafiyasına aid olan və aşığın özünün yazdığı parçalar. Gənc folklorşünas sənətkar Hümmət Əlizadə tərəfindən toplanaraq 1937-ci ildə Bakıda çap olunan "Aşıq Ələsgər" kitabında onun tərcümeyi-halı ilə bağlı bir çox şeirin olmadığını müəyyən edir. Çap edilən və yeni toplanan nümunələrdən bəzilərinin eyni əsərin fərqli variantları olduğunu göstərir. Qeyd edək ki, bu materialların söyləyicisi Aşıq Musa Göyçəli, toplayıcısı – yazıya alanı isə Hüseyn İskəndərov olmuş, folklor örnəkləri 1040-cı ildə Qərbi Azərbaycanda, əsasən də Ağkilsədə toplanmışdır. Bu materialların toplanma tarixinin 1948-ci ildə başlanan azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasına qədərki illərə aid olduğunu nəzərə alsaq, onların folklorşünaslıq elmimiz üçün nə qədər önəmli olduğunu söyləməyə ehtiyac belə yoxdur.

Bu səbəbdəndir ki, Ərtoğrol Cavid öz yekun rəyində: *"Toplanmış bütün materiallardan Ələsgərə aid parçaları ayırmaq, oxunduğu havaları ilə mükəmməl çapa hazırlamaq",* – qərarını verir [1, s. 9].

Gənc folklorşünas tərəfindən toplanan materialların bədii ədəbiyyat nümunəsi kimi dəyərli olmaqla yanaşı, ədəbiyyat tariximizin, həmçinin musiqi tariximizin də öyrənilməsi baxımından əhəmiyyətli olduğunu nəzərə çatdırır. Ərtoğrol Cavid Aşıq Ələsgərin "Tellərin" gəraylısının "Orta sarı tel" havasında, "Qoca baxtım" qoşmasının "Qaytarma" havasında, "Şirindi" qoşmasının "Göyçə gölü" havasında, "Səhər ertə" qoşmasının "Ovşarı" havasında, "Bax, bax" gəraylısının "Göyçə pozuğu" havasında oxunduğunu yazır.

Toplanan materiallar içində Ələsgərin igidlikdən, mərdlikdən, vətənpərvərlikdən bəhs edən şeirləri də diqqət çəkir. Məsələn, "Qarqar" təcnisindən bir bəndə baxaq:

Ahən gəzər, səngə verər mər dana,
Mərd oğulun qəhrin çəkər mərd ana.
Mərd igid meydanda durar mərdana,
Müxənnət yapışar ayağa, Qarqar [1, s. 34].

Ərtoğrolun rəy verdiyi Göyçə aşıq mühitinə dair materiallar sırasında diqqəti cəlb edənlər sırasında Aşıq Ələsgərin qardaşı Aşıq Məhəmmədin şeirlərinin öz yeri var. Məsələn, "Aşıx Məhəmmədin Qars şəhərində dağıstanlı Səlvi xanımla deyişməsi" böyük maraq doğurur. Deyişməyə verilən şərhdən öyrənirik ki, Aşıq Məhəmməd Göyçə mahalından Qarsa dəmiryolu salmaq işinə biyara gedərkən orada bir aşıq qızın oxumasına tamaşa edir. Bu zaman "mərəkə"ni idarə edən Alı Murad adlı birisindən onunla deyişmək üçün icazə alır. "Aşıq Hüseyni", "Koroğlu" havaları üstündə qızla deyişir. Maraqlıdır ki, Səlvi xanım Aşıq Məhəmmədə "Əcəm oğlu" deyə müraciət edir. Aşıq Məhəmməd isə doğma Göyçə mahalını tərif edərək, öz el-obasının uca dağlarını, səfalı bağlarını belə tanıdır:

Cəmi dağdan uca bizim dağ idi.
Dəstə gözəllidi, xud yanağıdı.
Görsən deyərsən ki, behişt bağıdı
Hər nə gönlün istər var bizim yerdə [1, s. 40].

Ərtoğrol Cavidin şərh etdiyi materiallar sırasında Aşıq Məhəmmədin aşıq Ələsgər haqda söylədiyi "Aşıq Ələsgərin Həcər ilə deyişməsi" və "Aşıq Ələsgərin dağlarda şeir deməyi" görkəmli sənətkar haqqında mükəmməl dastanın olduğundan xəbər verir. Ərtoğrol bu iki parçanı "hekayə" adlandırır və həcminin kiçik, məzmununun sadə və ənənəvi olmasına rəğmən, dinləyənlərin böyük marağına səbəb olmasını *"ifadənin təmiz və səmimiliyi" ilə izah edir.*

Ərtoğrola görə, ikinci parça qısa olmasına baxmayaraq, tarixiliyi baxımından xüsusi önəm daşıyır: *"İkinci parça daha kiçiksə, daha məzmunludur. Erməni-müsəlman qırğınında yaylaqların birinə gedən Ələsgər hər yanı boş görüb, çobandan soruşarkən, o belə deyir: "- Bu andıra qalmış millətlər qırğın nəticəsində el köçə bilməyib"* [1, s. 40].

Göründüyü kimi, Aşıq Məhəmmədin Aşıq Ələsgər haqda söylədiyi bu iki parçaya münasibət bildirəndə də Ərtoğrol Cavid təkcə poetik mətnin deyil, eləcə də həmin poetik strukturun imkan verdiyi məzmun

çərçivəsində meydana gələn rəvayətlərin də yüksək bədii dəyər daşıdığını, gənclərin tərbiyəsində gərəkli olduğunu qeyd etmişdir. Bu baxımdan Aşıq Ələsgərin Həcərlə deyişməsi haqda dastan parçası da gənc tədqiqatçı tərəfindən gərəyincə qiymətləndirilmişdir. Onu da qeyd etməyi vacib bilirik ki, Aşıq Ələsgərlə deyişən Həcər əslən Göyçə mahalının Qızıl Vənk kəndindən olmuşdur.

Toplanan parçaların süjetindəki hadisələrə çox məsuliyyətlə yanaşan folklorçu, hər bir epizodun daşıdığı didaktik mənanı bir cümlə ilə oxucusuna çatdırmaqla, ümumilikdə Azərbaycan qadınının müdrikliyini və praktik ağlını qiymətləndirmək və vurğulamaq məqsədini güdmüşdür. Ailə qurmaq istəyən gənc qadın ona təklif olunan şan-şöhrəti, var-dövləti rədd edərək, sadə və səmimi bir insanla ömür-gün yoldaşı olmağa üstünlük verir və bu həm əhvalatı söyləyən aşığın, həm bu hadisələrin iştirakçısı olan el ağsaqqalı Aşıq Ələsgərin, həm də dastançının tədqiqatçısı Ərtoğrol Cavidin ürəyincə olur. Bu da təsadüfi deyil, çünki sonda xalqın ürəyincə olan haqq-ədalət qalib gəlir.

Ələsgərin məşhur "Dağlar" qoşmasının poetik süjetinə, daha doğrusu, onun iki misrasına leytmotiv olan qaçqınlıq və qayıdış hadisəsi zamanımızda daha kəskin səslənir, Qərbi Azərbaycana qayıdış əhvali-ruhiyyəsini ifadə edir. 1918-ci ilin mart qırğınından sonra yaylağa çıxmış aşıq, ellərin orada olmadığını görüncə, bədahətən: *"Arsız aşıq elsiz niyə yaşadı; Ölsün Ələsgərtək qulların, dağlar!"* – deyə haray çəkir [1, s. 115].

I Cahan savaşı nəzərdə tutulur

Təssüf ki, Aşıq Ələsgər fəryadının sədası hələ də əks-səda verir. Lakin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi və qalib ordumuzun dəmir yumruğu sayəsində regionda yaranmış yeni geosiyasi durum aşığın harayının dağlara çatacağı günü artıq yaxınlaşdırıb. O gün gələcək ki, yenə də Göyçə mahalında Aşıq Ələsgərin qoşmaları oxunacaq, "Qaytarma" havası səslənəcək.

ƏDƏBİYYAT

1. Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid. On iki cilddə. X cild. Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrol Cavid. Bakı: Çağıoğlu, 2011, - 304 s.

ABSTRACT

Gulbaniz BABAKHANLI

ERTOGROL JAVID ON THE ASHUGS OF WESTERN AZERBAIJAN

The article examines the folklore materials collected and interpreted by Ertogrol Javid concerning the ashug cultural environment of Western Azerbaijan. The author points out that the ashug school of Western Azerbaijan is an integral part of the Azerbaijani national and cultural heritage, and that the Goycha ashug environment is especially distinguished by its rich poetic traditions. Through the materials he collected at a young age, Ertogrol Javid highly professionally evaluated the мəopчecмəo of Ashig Alasgar and other Goycha masters, analyzing their poetic and musical characteristics. The article particularly emphasizes the importance he attached to collecting folklore samples, preserving their variants, and publishing them with scholarly commentary. It is noted that the collected materials are significant not only for the study of literary and musical history, but also for preserving the historical and cultural memory of Western Azerbaijan. At the same time, the article demonstrates that the themes of patriotism, displacement, attachment to the homeland, and return are reflected in the works of Ashig Alasgar. The study highlights Ertogrol Javid's contributions to folklore studies and his role in preserving the heritage of Western Azerbaijan.

Keywords: *Ertogrol Javid, Western Azerbaijan, Goycha ashug environment, Ashig Alasgar, folklore, ashug art.*

QƏRBİ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ: AĞBABA MAHALININ MUSİQİ FOLKLORU

Telman QƏNİYEV *qeniyev.telman@gmail.com* *ORCID iD: 0009-0006-7034-3166*
Afaq QƏNİYEVA *afaqgeniyeva79@gmail.com* *ORCID iD: 0000-0002-0489-7420*
Sumqayıt Dövlət Universiteti

XÜLASƏ

Təqdim olunan araşdırma bütöv Azərbaycanın ən qədim, iqliminə görə ən zəngin bölgələrindən biri olan Qərbi Azərbaycanın Ağbaba mahalının musiqi folkloruna həsr edilib. Hər bir xalqın folklor yaradıcılığı onu yaradan xalqın məhsuludur. Qərbi Azərbaycanın Ağbaba mahalının folklor nümunələri uzunmüddətli tarixi inkişaf nəticəsində formalaşmışdır və bu nümunələrin öyrənilməsi ilə ərazidəki etnik xüsusiyyətlərin müəyyənləşdirilməsində vacib bir mərhələ təşkil edir. Məqalədə Ağbaba mahalının nanay, halay və yallıları təhlil olunmuşdur. Bu tədqiqatda Ağbaba mahalının halay və yallı nümunələri ilk dəfə olaraq tədqiqatçılar tərəfindən nota alınmış və tədqiqata cəlb edilmişdir. Tədqiqata cəlb olunan yallılar arasında 2024-cü ildə Şuşada keçirilmiş "Xarı bülbül" festivalında Azərbaycan Dövlət Rəqs ansamblının ifasından nota alınmış "Ağbaba yallısı", 2014-cü ildə Amasiyalıların toy mərasimində ifa olunmuş "Ağbaba yallısı"nın adlarını qeyd edə bilərik. Adları qeyd olunan yallılar tədqiqatçılar tərəfindən nota alınmışdır və bu məqalədə həmin yallılar lad-intonasiya, forma quruluşu, ölçü müxtəlifliyi və ifa variantları baxımında araşdırılmışdır. Burada əsasən 6\8, 2\4, 5\8 və ölçülərə rast gəlinir. Maraqlı hallardan biri də odur ki, buradakı oyun havaları və nanaylar sözlü və instrumental, yallılar isə yalnız instrumental şəkildədir. Onu da qeyd edək ki, halay və yallılarda əsasən həyat-məişət hadisələri, tarixi hadisələr ilə bağlı mövzular özünü büruzə verir.

Açar sözlər: *Qərbi Azərbaycan, Ağbaba, halay, yallı, variantlılıq*

Giriş

Şanlı Azərbaycan tarixinin ağrılı bir parçası olan Qərbi Azərbaycan igidlərə ad vermiş Dədə Qorqudun, qarı düşmənə qan uddurmuş Koroğlunun yurdu olmuşdur. Eyni zamanda Qərbi Azərbaycan torpağı Azərbaycan elminə görkəmli şəxslər - ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü olan şəxslər bəxş etmişdir [Bayramov, 2017, s.4].

Qərbi Azərbaycan torpaqlarının coğrafi ərazisinə nəzər saldıqda onun Zaqafqaziyanın cənub hissəsində yerləşdiyini, şimaldan Gürcüstan Respublikası, şərq və cənub şərqdən bu günkü Şimali Azərbaycanla, qərbdən Türkiyə Cümhuriyyəti, cənubdan isə İranla həmsərhəd olduğunu görə bilərik. Əsasən, türk-oğuz tayfalarının məskunlaşdığı Qərbi Azərbaycan ərazisi 16 böyük mahalı özündə birləşdirir – Ağbaba, Şörəyil, Lori, Pəmlək, Dərələyəz, Zəngibasar, Gərnibasar, Vedibasar, Talin, Zərdarabad, Karbibasar, Dərəçiçək, Ataran, Zəngəzur, Qaraqoyunlu və Göyçə.



Şəkil 1. Qərbi Azərbaycan mahalları (Web 1)

Tarixə nəzə salsaq, görərik ki, Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olmuşdur. Məhz bunun nəticəsidir ki, 1991-ci ilə kimi ərazinin toponimlərindən 90%-dən çoxunu türk mənşəli toponimlər təşkil edirdi [Bayramov, 2017, s.5]. Lakin bugünkü dövrümüzdə Qərbi Azərbaycanda 1 nəfər də olsa, azərbaycanlının yaşamadığını nəzərə alsaq, bölgədən olan yaşlı insanların yaddaşındakı folklor nümunələrinin nə qədər zəngin mənbə olmasını dərk edə bilərik.

Azərbaycan mədəniyyətinin bir qolu olan Qərbi Azərbaycanın maddi-mədəniyyətinin tarixi kökləri bütün azərbaycanlıların əcdadları ilə bağlıdır. Onun folkloru xalqın bütün təbəqələrinin yaradıcılıq sahəsi kimi toplanaraq müəyyən qayda-qanunlar əsasında formalaşır və milli xarakterli məzmun almışdır. O, bədii təfəkkürə və təfəkkürün mifoloji mənbələrinə əsaslanır.

Musiqi folkloru. Dünya xalqlarının folklor nümunələri arasında Azərbaycan folkloru öz zənginliyi və özünəməxsusluğu ilə fərqlənir. Burada əsasən Azərbaycan ədəbiyyatının əsasında ən çox kosmoqonik və mövsümi, eləcə də etnoqonik miflərə əsaslanan Azərbaycan folkloru və ta qədimdən xalqın yaratdığı əmək, epik, lirik mahnılar, həmçinin aşıq, xanəndə, xalq müğənniləri və sazəndələrin yaradıcılığı əsasında formalaşan Azərbaycan musiqi folklorunu qeyd edə bilərik.

Ə.İsazadə xanəndələrin Azərbaycan musiqi folklorunun inkişafında mühüm rol oynadığını xüsusi qeyd edir: "Onların Azərbaycan xalq mahnı yaradıcılığının - mərasim, əmək, məişət, lirik, qəhrəmanlıq, yumoristik, satirik və s. müxtəlif nümunələrinin qorunub saxlanılmasında və kütlələr içərisində yayılmasında böyük xidmətləri olmuşdur. Xalq müğənnilərinin bir çoxu el mahnılarını ifa etmək və onları ideya-bədii baxımdan zənginləşdirməklə yanaşı, məişətdə, zavod və fabriklərdə, əkinçilikdə və pambıqçılıqda kommunist əməyinə həsr edilən yeni gözəl mahnılar da yaratdılar. Bütün bu mahnılar, hər şeydən əvvəl, öz ideya-emosional məzmununa və obrazlılığına, şən əhvali-ruhiyyəsinə və gələcəyə nikbin baxışlarına görə fərqlənir. Burada kütlələrin müasir hadisələrə canlı münasibəti, yüksək yaradıcılıq fəallığı öz ifadəsini tapır" [İsazadə, 1984, s.25].

Amasiya rayonu Ağbaba mahalının folkloruna nəzər saldıqda aydın görünür ki, Ağbaba etnomədəni mühiti Anadolu-Azərbaycan mədəniyyəti kontekstində "körpü" rolunu oynayan, regional səciyyəli musiqi folkloruna malik olan, fərqli ifaçılıq tərzi, musiqi dialekti ilə seçilən mühit idi [Əzizova A, 2022, s.69].

Bu bölgə ilə bağlı bir sıra elmi araşdırmalar aparılmışdır. Buna misal olaraq bu bölgənin ədəbi-mədəni, həmçinin aşıq mühiti ilə bağlı Tacir Qurbanovun "Ağbaba aşıq mühiti", Avtandil Ağbabanın "Ağbaba-Çıldır aşıq mühiti" elmi araşdırmalarını qeyd edə bilərik. Lakin etnomusiqişünaslıq baxımından bu ərazi bir qədər diqqətdən kənarda qalıb desək yanılmarıq. Etnomusiqişünaslıq sahəsində araşdırmalara Gülçin Mirzəyevanın "Tırınqı və nanyların melo-poetik xüsusiyyətləri (Ağbaba materialları əsasında)" adlı elmi araşdırmasını aid etmək olar.

Yallılar. "Yallı"lardan danışdıqda isə, onu qeyd etmək lazımdır ki, Azərbaycanın müxtəlif bölgələrində "Yallı" rəqslərinə rast gəlmək mümkündür. Buna misal olaraq Cənub bölgəsi, Şəki və Naxçıvan bölgələrində bu rəqs növü geniş yayılmışdır. Belə ki, Naxçıvan bölgəsində yüzdən artıq, Şəki bölgəsində isə səksəndən artıq "Yallı" mövcuddur. "Yallı"lar əsasən öz adları, həmçinin əhali arasında yayılmasına görə müxtəlif həyat və məişət hadisələrinə həsr olunur. Bu xüsusiyyətlərə ən çox əmək, oyun, məzhəkəli və s. məzmunda rast gəlinir.

Azərbaycanın, onda görərik ki, bu rəqslərin tədqiqi ayrı bir araşdırma mövzusudur.

Xoreoqrafik məzmunlarına görə "Yallı"lar iki qrupa bölünür:

1. Oyun "Yallı"ları
2. Rəqs "Yallı"ları

Oyun yallılarına "Köçəri", "Qaz-qazı", "Çöp-çöpü", rəqs yallılarına isə "Dönə yallı", "Siyaqutu", "Tənzərə", "Ürfanı" və s. aiddir.

"Yallı"lar musiqi müşayiətinə görə də iki yerə bölünür:

1. Mahnı müşayiəti ilə ifa olunan "Yallı"lar
2. Musiqi müşayiəti ilə ifa olunan "Yallı"lar [Fərziyeva, 2014, s.137].

Material və metodlar

Qərbi Azərbaycanın Ağbaba mahalında folklor nümunəsi kimi yallıların konkret sayını göstərmək mümkün deyil. Bu yallıların əksəriyyəti bugünkü günümüzdə həm yaşlı nəsil, həm də gənc ağbabalılar tərəfindən yaddaşlarda yaşayır. Müəlliflər tərəfindən nota alınan yallıların ifa xüsusiyyətləri, lad-intonasiya və forma quruluşu baxımından araşdırma aparılmışdır. Məqalədə əldə olunana video lentlərdən nota alınan yallılar araşdırılmışdır.

Əldə olunan nəticələr

Bu məqalənin əvvəldən qeyd edildiyi kimi, Ağbaba mahalı musiqi folkloru və xüsusən də bu bölgəyə aid olan və bölgənin həm yaşlı, həm də gənc sakinləri arasında böyük həvəslə ifa edilən yallılar haqqında məlumat verilir Bütün bu faktları nəzərə alaraq, Ağbaba mahalının musiqi folklorunu ana xəttini təşkil edən yallı rəqslərinə onların nota alınmış variantının təhlili əsasında araşdırmaya yaxından nəzər salaq. Onu da qeyd edək ki, Ağbaba yallıları lad-intonasiya baxımından Segah və Şur intonasiyalarına əsaslanır. Bu yallıların əksəriyyəti 2\4, 6\8 ölçüdədir.

Müzakirə

Qərbi Azərbaycanın Ağbaba mahalının yallılarının müxtəlif variantları mövcuddur və bu yallılar həmin mahalın bir sıra kənd və bölgələrində keçirilən el şənlikləri, bayram mərasimlərində formalaşmış, müxtəlif variant və variasiyalara uğrayaraq özünəməxsus melodiyaların yaranmasına səbəb olmuşdur. Bəzən həmin melodiyalar yaranan bir çox yallıların motiv və submotivlərinin genişlənməsi, müxtəlif aşıqların, xüsusən zurna ifaçılarının yaradıcılığında yeni yallıların yaranmasına gətirib çıxarmışdır.



Ağbaba yallılarının böyük əksəriyyəti instrumental şəkildə səslənməsinə baxmayaraq, həm də sözlü yallılara rast gəlinir. Bu sözlü yallılar çox zaman instrumental şəkildə ifa edilən yallıların uzun zaman müddətdə rəqs edilməsindən irəli gəlir. Belə ki, uzun zaman müddətində rəqs edilən yallı rəqs edənlərdən birinin və ya şənlikdə iştirak edən xanəndənin cuşa gələrək sözlü şəkildə ifasına gətirib çıxarır. Bu prinsip türk dilli xalqların sözlü və instrumental yallıları ilə tam uzlaşaraq, özündə böyük bir mədəniyyət izlərini qoruyub saxlamışdır. Ümumiyyətlə, yallı, halay ifası türk dilli xalqların böyük əksəriyyətinin həyat, məişət, qəhrəmanlıq mövzularından yaranmışdır.


Ağbaba yallılarının ifası zamanı simmetrik və asimmetrik periodları öz ifasına daxil edərək hər dəfə silsiləli yeni bir period yaratmağa çalışır. Bu periodlar bir-birinin variantı, variasiyası şəklində ifaçı aşığın (zurnaçı) ustalığını, ifa bacarığını, melodiya bəstələmək qabiliyyətini və həmin melodiyaların məclisi şənləndirməsi məqsədini özündə cəmləşdirir.

2024-cü ildə Şuşada keçirilmiş "Xarı bülbül" festivalında Azərbaycan Dövlət Rəqs ansamblının ifasından nota alınmış "Ağbaba yallısı" [Web 2] 2 hissəlidir. Yallının 1-ci hissəsi sadə 2 hissəli formada, a+b+a1+b1 quruluşdadır. Allegro tempində, 2\4 ölçüdə səslənən yallıda a periodu segah intonasiyalar üzərindədir və re segah məqamına uyğunluq təşkil edir. İfaçı yallının daha da şən səslənməsi üçün ifada motiv və submotivlərin variasiyalı səslənmələrinə geniş yer verir. Bu baxımdandır ki, b bölümünün sual və cavab cümləsi birlikdə genişlənmiş şəkildə özünü büruzə verir.

Burada sual cümləsi 14, cavab cümləsi 12 xanədən ibarətdir. Sual cümləsi şikəsteyi-fars intonasiyalarına əsaslanır və re segahın fa şikəsteyi-fars pərdəsi ilə başlayır. Periodun sual cümləsinin sonunda şur intonasiyasına keçid baş verir. Cavab cümlə şur intonasiyası üzərindədir və do şur məqamına uyğunluq təşkil edir. Bundan sonra a və b periodları təkrara səslənir. Burada a periodu olduğu kimi, b periodu isə kəsik repriza şəklində səslənir.

Yallının 2-ci hissəsi Presto tempində, 6\8 ölçüdədir. Yallı sadə 2 hissəli formadadır və burada 2 perioddan istifadə edilmişdir. Periodlar genişlənmiş və asimmetrik şəkildədir. Burada 1-ci periodun sual və cavab cümlələri 2 dəfə variantlı şəkildə təkrar edilir. Yallının 1-ci periodunun səslənmələri segah intonasiyasına əsaslanır və re segah məqamına uyğun olur. Cavab cümlədə şikəsteyi-fars intonasiyaları özünü büruzə verir.

Ağbaba yallısı
II hissə



Burada 2-ci periodun sual və cavab cümlələrinin variantlı təkrarı səslənir. 2-ci periodun sual cümləsi periodun variantlı təkrarlanması zamanı segaha məxsus əraq pərdəsində kulminasiya səslənir. Sual cümlənin sonu re segaha məxsus üst aparıcı tona istinad edir. Periodun cavab cümləsinin səslənmələri şur intonasiyasına əsaslanır. Burada cavab cümlə variantlı təkrarla birlikdə 13 xanə təşkil edir və do şur məqamına uyğun olur.

2014-cü ildə Amasiyalıların toy mərasimində ifa olunmuş "Ağbaba yallısı" [Web 3] əvvəldə təhlil

olunmuş əvvəlki yallıdan bəzi xüsusiyyətlərinə görə fərqlənir. Əvvəlki yallıdan fərqli olaraq, bu yallı 11 xanəlik bir period şəklində instrumental giriş ilə başlayır. Bu giriş xanələri Andante tempində, 2\4 ölçüdə təqdim olunur. Buradakı səslənmələr şur intonasiyası üzərindədir və sol sur məqamına uyğun olur. Bu yallı giriş+a+bağlayıcı xanə+b+a_1+a_2 (sözlü) quruluşdadır.

Giriş səslənmələrindən sonra Presto tempində, 6\8 ölçüdə yallının davamı səslənir. Giriş hissədə 1 period 2 dəfə təkrar olunur. Bu hissə şikəsteyi-fars (segah) intonasiyası üzərindədir və mi segah məqamına uyğunluq təşkil edir. Girişdən sonra səslənən a bölümündə sual cümləsi 9 dəfə təkrar edilir. Burada sual və cavab cümlələrin genişlənmiş və variantlı şəkildə təkrarına rast gəlinir. Bu hissədə xüsusən 1 və 2-ci frazaların təkrarlanması sual cümlənin variantlı şəkillərinin yaranmasına və genişlənməsinə səbəb olur. a bölümünün sual cümləsində səslənmələr segah intonasiya üzərindədir və mi segah məqamının sol şikəsteyi-fars pərdəsinə uyğunluq təşkil edir. Cavab cümlədə 1-ci ibarə mi segaha məxsus şikəsteyi-fars pərdəsində. 2-ci ibarə isə mi segahın mayə pərdəsində sona çatır. Bağlayıcı xanələrin (3 dəfə) səslənmələnir. Bu hissədən sonra b bölümünün sual və cavab cümlələri 2 dəfə təkrar edilir. Bu bölümdən sonra a_1 bölümü səslənir. Burada bu bölümün sual və cavab cümlələri intonasiya cəhətdən fərqli şəkildə özünü büruzə verir. Burada sual cümlələri mi segah məqamına məxsus sol şikəsteyi-fars pərdəsində, cavab cümlə isə şur intonasiyaları üzərində olub, re şur məqamına uyğun olur. Bundan sonra a bölümünü variantlı səslənmələri sözlü ifaya əsaslanır. Daha sonra zurna aləti vokal ifanı instrumental şəkildə təkrar edir və yallı sona çatır.





ƏDƏBİYYAT

1. Ağbaba, 2012, s.372
2. Bayramov, 2017, s.4
3. Əzizova, A. 2022, s.69
4. Fərziyeva, 2014, s.137
5. İsazadə, 1984, s.25
6. Mirzəyeva, 2013. s.135
7. Qurbanov, 2014. s.196
8. Web 1 https://sia.az/az/news/politics/1011570.html
9. Web 2 https://www.youtube.com/watch?v=5ug0GCJvqIw
10. Web 3 https://www.youtube.com/watch?v=6Kpx_y6_ekQ

ABSTRACT

Telman GANİYEV, Afag GANİYEVA

THE CULTURE OF WESTERN AZERBAIJAN: THE MUSICAL FOLKLORE OF THE AGHBABA REGION

The presented study is dedicated to the musical folklore of Agbaba district of Western Azerbaijan, which is one of the oldest and richest regions of the entire Azerbaijan due to its climate. The folklore creation of each nation is the product of the nation that created it. The folklore samples of Agbaba district of Western Azerbaijan were formed as a result of long-term historical development, and the study of these samples constitutes an important stage in the determination of ethnic characteristics in the area. İn the article were analyzed the nanai, halay and yalli of Agbaba district . In this study, the halay and yalli samples of Agbaba district were noted by the researchers for the first time and included in the study. Among the yallis included in the research are "Agbaba yalli" recorded by the Azerbaijan State Dance Ensemble at the "Khari Bulbul" festival which held in Shusha in 2024. We can mention the names of "Agbaba yallı" performed at the wedding ceremony of Amasians in 2019. The yallis which notation belongs to the researchers, and in this article those yallis were examined in terms of key-intonation, form structure, size variety and performance options. The main sizes found here are 6\8, 2\4, 5\8 and others. One of the interesting cases is that the game here is airy and nanays are verbal and instrumental, while yalys are only instrumental. It should also be noted that halay and yalli are mainly about life events and historical events.

Keywords: *Western Azerbaijan, Agbaba, halay, yalli, variation*

QAFQAZIN ŞEYXÜLİSLAMI - FAZİL İRƏVANİ

Rübabə ŞİRİNOVA
rubabagoychali@rambler.ru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

XÜLASƏ

Məqalədə Qafqazın ikinci şeyxülislamı olmuş Fazil Iravaninin həyatı, elmi fəaliyyəti və zəngin yaradıcılığı araşdırılır. İrəvan şəhərində anadan olan Fazil İrəvani ilk təhsilini burada aldıqdan sonra Qahirədəki "Əl-Əzhər" Universitetində və sonralar Kərbəla və Nəcəfdə dini təhsilini davam etdirmişdir. O, yüksək dini biliyi, mənəvi keyfiyyətləri və elmi nüfuzu sayəsində İslam aləmində böyük hörmət qazanmış, Nəcəfdə müctəhid kimi fəaliyyət göstərmişdir. Məqalədə onun 1846-cı ildə Qafqazın şeyxülislamı seçilməsi, dini-maarifçilik sahəsində gördüyü işlər və yetişdirdiyi din xadimləri haqqında məlumat verilir. Eyni zamanda Fazil İrəvaninin elmi və ədəbi irsi, xüsusilə "Qızılgül və bülbül haqqında əxlaqi roman" əsərinin müxtəlif dillərdə nəşri və müəlliflik məsələsi diqqətə çatdırılır. Müəllif qeyd edir ki, Fazil İrəvaninin həyatı və yaradıcılığı Azərbaycan dini-mədəni tarixinin mühüm tərkib hissəsidir və onun irsinin dərindən araşdırılması böyük əhəmiyyət daşıyır.

Açar sözlər: *Fazil İrəvani, Qafqaz şeyxülislamı, İrəvan, dini irs, Azərbaycan alimləri, Əl-Əzhər Universiteti, Nəcəf, "Qızılgül və bülbül".*

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Tədqiqatçı alim Adil Mövlayev "Qafqazda elm dünyasının ulduzları" kitabında Bakı, Astara, Lənkəranlı, Ordubadlı, Şamaxılı, Gəncə, Naxçıvan və İrəvandan olan 100 nəfər din xadimi haqqında məlumat verir. Bunların içində İrəvandan olan 6 nəfər din xadimi: Əli Mühəqqiq İrəvani (1, s.67), Məhəmməd Cavad İrəvani (Mövla Məhəmməd Fazil İrəvaninin oğludur) (1, s.147), Seyid Əbdülhöccət İrəvani (1, s.177), Yusif İrəvani (1, s.205), Seyid Əbdülməcid İrəvani (1, s.207), Məhəmməd Təqi İrəvani (1, s.213) haqqında qısa da olsa, məlumat vermişdir. Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş din xadimlərindən biri də Fazil İrəvani ləqəbi ilə şöhrət tapmış, Ayətullah – uzma Molla Məhəmməd ibn Məhəmməd Baqirdir. O, 1782-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Alimin tam adını Məhəmməd Əli Tərbiyyət "Reyhanətul-ədəb" kitabında, Molla bin Məhəmməd Baqir İrəvani əl-Əsl Nəcəfi kimi verir (2, s.180). İlk təhsilini vətənində aldıqdan sonra, iyirmi yaşında ikən ali-ruhani təhsil dalınca Qahirənin "Əl-Əzhər" Universitetinə yollanmışdır. Qırx beş yaşında İrana qayıdıb, uzun müddət İsfahan və Təbriz şəhərlərində axundluq etmişdir. Mənbələrin verdiyi məlumata görə, Nəcəf şəhərindəki "Şeyx Tusi" məscidində camaat namazına imamlıq etdiyi zaman həddən artıq qələbəlik olur. Ayətullah Xiyabani özünün " Üləmayi-müasirin" kitabında yazır ki: "Dostlarımdan biri deyirdi: "Nəcəfi-Əşrəfə getmişdim. Axşam üstü şəhərə daxil oldum və Fazil İrəvaninin pişnamaz olduğu camaat namazında iştirak etdim. Ziyarətə gələnlər namazı qılıb qurtardıqdan sonra onun dövrəsinə yığışıb müxtəlif şəriət məsələləri soruşmağa başladılar. Ağa da əlindəki təsbehlə zikr edə-edə onların suallarına qulaq asır və təmkinlə cavab verirdi" (3, s.137-141). Dərin dini biliyə malik olan bu şəxsiyyət yüksək əxlaqa, mənəviyyata, iman və təqva baxımından çox yüksək səviyyəyə malik idi.

Vətən həsrəti çəkən Fazil İrəvani doğma şəhərinə qayıdaraq Göy məscidin baş axundu kimi fəaliyyətə başlayır. Yaşadığı dövr Rusiya-İran müharibələrinin gərgin illərinə təsadüf edir [4, s.153].

Fazil İrəvani sonra İraqa gedir və bir müddət burada təhsilini davam etdirir. O, təhsilini təkmilləşdirmək üçün Kərbəlada 4 il qalır. Burada onun müəllimi "Zəvabitul-usul" kitabının müəllifi Seyyid İbrahim Musəvi Qəzvini olmuşdur. Təhsilini başa vurduqdan sonra o, Cəfəri məzhəbinin elm paytaxtı sayılan Nəcəfi-Əşrəfə köçür və burada Şeyx Məhəmməd Həsən İsfahani Nəcəfi və Mürtəza Ənsaridən dərs alır. Tarixçilərin yazdığına görə, Fazil İrəvani təhsilinin son mərhələsində yalnız Şeyx Ənsarinin dərslərində iştirak etmişdir. Təhsilini tamamladıqdan sonra müəllimlərindən ictihad icazəsi alan Fazil İrəvani, özünü müctəhid kimi sübuta yetirərək, elm mərkəzi sayılan Nəcəf şəhərində dərs deməyə başlayır. Şimali və Cənubi Azərbaycandan dini təhsil almaq məqsədi ilə Nəcəfə gələn tələbələrin çoxu Fazil İrəvaninin dərslərində iştirak edirdi. 1881-ci ildə Nəcəfin alimlərindən olan Ayətullahul-uzma Seyyid Hüseyin Kuhkəməri vəfat edir və həmin vaxtdan etibarən Fazil İrəvani mərcəi-təqlid kimi daha da məşhurlaşır.



1843-cü ildə Fazil İrəvani Qafqaz Müsəlmanları Şeyxülislamının müavini vəzifəsinə dəvət olunur. 1846-cı ildə isə Fazil İrəvani Qafqazın Şeyxülislamı seçilir [4, s.155].

Şeyxülislam Fazil İrəvani özünün ən böyük uğuru kimi yerinə Molla Əhməd Hüseynzadəni hazırlamış və istefa verib İrəvana qayıdacağı təqdirdə, onun şeyxülislam təyin ediləcəyinə tam əmin olandan sonra 1862-ci ildə istefa verib doğma İrəvana köçür. Ömrünün axırına kimi doğulduğu şəhərdə qalır. Qafqazın II şeyxülislamı olmuş axund Fazil İrəvani 1885-ci ildə 103 yaşında İrəvanda dünyasını dəyişir. Şeyxülislam Fazil İrəvani ölümündən sonra İrəvandakı "Şeyxülislam məhəlləsi" və Karvansaray uzun illər onun adını daşımışdır.

Fazil İrəvaninin Sankt-Peterburqda eyni vaxtda 2 kitabı çap olunmuşdur. "Qızılgül və bülbül haqqında əxlaqi roman"ı adlı kitabı daha sonralar rus, fransız dilində nəşr olunaraq geniş oxucu kütləsinə təqdim olmuşdur. Onun bu əsəri 1812-ci ildə Sankt-Peterburqda erməni və rus dillərində, 1826-cı ildə Parisdə erməni dilində, 1832-1833-cü illərdə iki dəfə dalbadal fransız dilində, 1892-ci ildə alman dilində çap olunaraq, İrəvanlı Xocens Markar Geğamyanın "orijinal əsəri" kimi erməni, rus, fransız, alman oxucularına təqdim edilmişdir. Əsəri fransız dilinə Vayye de Floribal, alman dilinə Yoze fon Hammer tərcümə etmişlər. Fransalı tədqiqatçı 1892-ci ildə məsələyə aydınlıq gətirərək bildirmişdir ki, " Qızılgül və bülbül" türk müəllifi Fazil İrəvaninin əsəridir. Xocens Markar sadəcə olaraq onu erməni və rus dilinə tərcümə edəndən sonra "öz əsəri" kimi çap etdirmiş, dünya oxucularını çaşdırmışdır. Kitabın əsl müəllifi bəlli olduqdan sonra belə ermənilər " Qızılgül və bülbül" ü 1950-ci ildə yenə də erməni müəllifinin əsəri kimi Freznoda (ABŞ) çap etdirmişlər (5, s.203). Ağa Bozorqi Tehraninin "Reyhanətul-ədəb" kitabında (6, s.179-180) onun 15-ə yaxın kitabının adı çəkilir. Həmin əsərlər bunlardır: "Haşiyə təfsir əl-Beyzavi", "Haşiyə əla qəvaidil Əllamə", "Haşiyə əla Rəsaili Şeyx Ənsari", "Haşiyə alə Qəvaidi Şəhid Əvvəl", "Haşiyə əla Məkasibi Şeyx Ənsari", "Əl-Məkasibul-Mühərrəmə", "Hociyyətul-məzənnə", "Üsulul-fiqh"(7, s.630), "Kitabul-əcza" və s.



Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış din xadimlərindən biri olan Fazil İrəvaninin həyatı, yaradıcılığı və elmi irsi geniş şəkildə öyrənilib tədqiqata cəlb olunmalıdır ki, haylar onu da öz adlarına çıxarıb öz alimləri elan etməsinlər.

ƏDƏBİYYAT

1. Mövlayi, A. Qafqazda elm dünyasının ulduzları. Bakı: 2013.
2. Tərbiyət, M. Reyhanətul-ədəb.
3. Abbasov, Y. İslam alimləri. Bakı: 2007.
4. Nəcəfov, A., Mövlayi, A. Şeyxülislamlığın tarixi. Bakı: Elm və təhsil, 2016.
5. İrəvan xanlığı. Bakı: Azərbaycan, 2009.
6. Ağa Bozorqi. Tehrani Zəriyyə I, 209
7. عمر رضا كحاله، معجم المولفين ١ ٤، بيروت، الجزء الثالث،

ABSTRACT

Rubaba SHIRINOVA

SHEIKHULISLAM OF THE CAUCASUS – FAZIL IRAVANI

The article examines the life, scholarly activity, and rich literary heritage of Fazil Iravani, who served as the second Sheikhulislam of the Caucasus. Born in the city of Iravan, Fazil Iravani received his initial education there and later continued his religious studies at the "Al-Azhar" University in Cairo, as well as in Karbala and Najaf. Owing to his profound religious knowledge, moral qualities, and scholarly authority, he gained great respect in the Islamic world and worked as a mujtahid in Najaf. The article provides information about his election as Sheikhulislam of the Caucasus in 1846, his activities in the field of religious enlightenment, and the religious figures he educated. At the same time, attention is drawn to Fazil Iravani's scholarly and literary legacy, especially the publication of his work "The Moral Novel about the Rose and the Nightingale" in various languages and the issue of its authorship. The author notes that the life and work of Fazil Iravani constitute an important part of Azerbaijan's religious and cultural history, and that comprehensive research on his heritage is of great significance.

Keywords: *Fazil Iravani, Sheikhulislam of the Caucasus, Iravan, religious heritage, Azerbaijani scholars, Al-Azhar University, Najaf, "The Rose and the Nightingale".*

İRƏVAN QƏZA MƏKTƏBİNİN AZƏRBAYCANLI MÜƏLLİMLƏRİ

Fərrux RÜSTƏMOV
farrukhrustamov@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Məqalədə İrəvan qəza məktəbinin yaranma tarixi və burada fəaliyyət göstərmiş azərbaycanlı müəllimlərin maarifçilik sahəsində xidmətləri araşdırılır. Müəllif göstərir ki, 1829-cu il Cənubi Qafqaz məktəbləri nizamnaməsi regionda dünyəvi təhsilin əsasını qoymuş, 1832-ci ildə isə İrəvan qəza məktəbi fəaliyyətə başlamışdır. Məqalədə xüsusilə Molla Tağı Mahmud oğlu və Mirzə Ələkbər Elxanovun pedaqoji fəaliyyəti geniş təhlil edilir. Molla Tağı Mahmud oğlunun Azərbaycan dili və şəriət müəllimi kimi məktəbdə milli maarifin inkişafına verdiyi töhfələr, azərbaycanlı şagirdlərin təhsilə cəlb edilməsində rolu vurğulanır. Mirzə Ələkbər Elxanovun isə dünyəvi təhsil ideyalarını mənimsəyən qabaqcıl müəllim, ana dilində tədrisin tərəfdarı və ilk azərbaycanlı peşəkar müəllimlərdən biri olduğu qeyd edilir. Onun hazırladığı "Tatar (Azərbaycan) dili" dərsliyinin Azərbaycan pedaqoji fikir tarixində mühüm əhəmiyyəti əsaslandırılır. Məqalədə həmçinin İrəvan məktəb mühitində Azərbaycan dili tədrisinin inkişaf mərhələləri və bu ənənələrin sonrakı maarifçilər tərəfindən davam etdirilməsi işıqlandırılır.

Açar sözlər: *İrəvan, maarifçilik, Mirzə Ələkbər Elxanov, şəriət, müəllim, dərslik, ana dili, təhsil.*

2 avqust 1829-cu ildə *Cənubi Qafqaz məktəblərinin nizamnaməsi* (№3060) ilə [1] Cənubi Qafqazda Avropa tipli dünyəvi təhsilin əsası qoyuldu. Nizamnaməyə görə, qəza məktəbinə hər cür azad təbəqəyə mənsub ailənin uşaqları daxil ola bilərdi. 11 yanvar 1831-ci ildə İrəvan şəhərində qəza məktəbinin açılması nəzərdə tutulsa da, bu mümkün olmadı. İrəvan qəza məktəbinin açılması ilə bağlı təşkilatçılıq işləri Cənubi Qafqaz məktəbləri direktoru E.Qruber tərəfindən Moskva İmperator Universitetinin məzunu ***Feodor Zboevə*** həvalə edildi. ***İrəvan ikisinifli qəza məktəbini 14 yanvar 1832-ci ildə 71 şagirdlə açmaq mümkün oldu.*** Qəza məktəbi əvvəlcə ikisinifli, sonra isə üçsinifli məktəb kimi fəaliyyət göstərdi. 1869-cu ildə progimnaziyaya, progimnaziya isə 1881-ci ildə gimnaziyaya çevrildi.

1836-cı ildə ***Molla Tağı Mahmud oğlu*** İrəvan qəza məktəbinə Azərbaycan dili və şəriət müəllimi təyin edildi. O, 1836-1856-cı illərdə azərbaycanlıların qəza məktəbinə cəlb edilməsində, onların ana dilini və şəriəti mənimsəmələrində əhəmiyyətli rol oynadı. 20 ildən artıq bir müddətdə İrəvan qəza məktəbində Azərbaycan dili və şəriət müəllimi işləyən Molla Tağı ilk vaxtlar qəza məktəbinin ciddi nizam-intizam qaydalarına alışmaqda, pedaqoji prosesdə uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqda çətinlik çəksə də, İrəvanda dövlət məktəbində Azərbaycan dili və şəriət fənlərini tədris edən ilk azərbaycanlı müəllim kimi böyük hörmət və nüfuza sahib olmuşdur.

Mirzə Molla Tağı Mahmud oğlu (1801-1856) ruhani ailəsində anadan olub. İlk təhsilini molla yanında alıb. Yüksək dini təhsil alıb-almaması haqqında məlumat yoxdur. Ehtimal ki, İrəvan mədrəsələrinin birində təhsil alıb. Müsəlman Ruhani Şəriətinin üzvləri sırasında adı çəkilməsə də, İrəvan qəza məktəbinin 21 oktyabr 1843-cü ildən 14 yanvar 1844-cü ilə aid hesabatında onun haqqında qısa olsa da, məlumat verilir: *"Tatar dili müəllimi - Molla Mirzə Tağı Mahmud oğlu, 43 yaşı var, şiədir, 25 may 1836-cı ildən İrəvan qəza məktəbində şəriət müəllimi işləyir* [2]. İrəvan qəza məktəbinin nəzarətçisinin 1851-ci ilə aid hesabatında onun haqqında aşağıdakı məlumatlar verilir: *"Fars və tatar (Azərbaycan -R.F.) dili müəllimi Molla Mirzə Tağı Mahmud oğlu - 49 yaşı var (1850-ci il), 25 may 1836-cı ildən İrəvan qəza məktəbində müəllim işləyir*" [3]. Onun haqqında digər etibarlı mənbə İrəvan gimnaziyasının inspektoru P.Tverdının "Историческая записка об Эриванской гимназии" [4] kitabıdır. P.Tverdının yazdıqlarından aydın olur ki, 20 ildən artıq bir müddətdə İrəvan qəza məktəbində Azərbaycan dili və şəriət müəllimi işləyən Molla Tağı ilk vaxtlar qəza məktəbinin ciddi nizam-intizam qaydalarına alışmaqda, pedaqoji prosesdə uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqda çətinlik çəksə də, məktəbdə böyük hörmət və nüfuza sahib olub. 1850-ci ildə İrəvan qəza məktəbində Vəliəhd II Aleksandrı qarşılayanlardan biri də Molla Mirzə Tağı olub. Molla Tağı Mahmud oğlu 1856-cı ildə vəfat edib. Həmin ilin noyabrında onun yerinə Mirzə Molla Ələkbər oğlu Elxanov Azərbaycan dili və şəriət müəllimi təyin edilib.

Mirzə Ələkbər Elxanov ***(1828-1885)*** (bəzi mənbələrdə Elxani də yazılır) 1828-ci ildə İrəvan şəhəri yaxınlığındakı Uluxanlı kəndində anadan olub. İrəvan şəhərindəki baş məscid nəzdindəki ruhani məktəbini bitirib, mükəmməl dini təhsil alıb. Ərəb və fars dillərini, Şərq ədəbiyyatını, Quranı, hədis elmini və şəriəti

dərindən bilib. Rus dilini sərbəst öyrənib. 1856-cı ildə I Tiflis gimnaziyasında imtahan verərək tatar (Azərbaycan -R.F.) dili müəllimi adını alıb. Akademik Hüseyn Əhmədovun yazdığına görə, ***Mirzə Ələkbər Elxanov imtahan yolu ilə rəsmi müəllimlik hüququ alan ilk azərbaycanlıdır***. Onun İrəvanda maarifçilik mühitinin inkişafında əhəmiyyətli rolu var. 1856-cı ilin 7 aprelində İrəvan qəza məktəbinə tatar (Azərbaycan-R.F) dili və şəriət müəllimi təyin edilən Mirzə Ələkbər Elxanov öz şəxsiyyəti, müəllimlik qabiliyyəti, dünyəvi elmlərə sevgisi, şagirdlərinə münasibəti ilə həmkarlarının hüsn-rəğbətini qazanıb. O, 1868-ci ilə kimi İrəvan qəza məktəbində, 1868-1881-ci illərdə progimnaziyada, 1881-1885-ci illərdə gimnaziyada Azərbaycan dili və şəriət müəllimi (həm də hazırlıq sinfi müəlliminin köməkçisi) vəzifələrində işləyib. Gimnaziyanın inspektoru P.İ.Tverdı İrəvan qəza məktəbinin Azərbaycan dili və şəriət müəllimi Molla Tağı Məhəmməd oğlunu yalnız din xadimi kimi təqdim etdiyi halda, Mirzə Ələkbər Elxanovu həm yüksək mənəviyyata malik ruhani, həm də müasir metodlarla dərs keçən bacarıqlı müəllim kimi səciyyələndirib. O, K.D.Uşinskinin təlimin ana dilində aparılması və xəlqilik ideyasını dərindən mənimsəyən, əməli pedaqoji fəaliyyətində ona istinad edən ilk azərbaycanlı müəllimdir. İkisinifli Uluxanlı kənd məktəbinin açılışında xüsusi xidmətləri olub. Mirzə Ələkbər Elxanov "Tatar (Azərbaycan dili -R.F.) dilinin əlifbası" (1880) kitabının müəllifidir.

Mirzə Ələkbər Elxanov 1881-1885-ci illərdə İrəvan kişi gimnaziyasında Azərbaycan dili və şəriət fənlərini tədris etmiş, hazırlıq sinfində müəllim köməkçisi vəzifəsində işləmişdir. Onun ən böyük xidmətlərindən biri K.D.Uşinskinin "Vətən dili" kitabının nümunəsində "Tatar (Azərbaycan-R.F.) dili" dərsliyini tərtib etməsidir. Bu dərslik haqqında pedaqoji ictimaiyyətə ilk məlumatı akademik Hüseyn Əhmədov vermişdir. Onun verdiyi məlumata görə, M.Ə.Elxanov həmin dərsliyi İrəvan kişi progimnaziyasında Azərbaycan dili müəllimi işləyərkən yazmışdır. 1856-cı ildən əvvəlcə qəza məktəbində, sonra isə progimnaziyada Azərbaycan dili və şəriət müəllimi işləyən M.Ə.Elxanov bu sahədə xeyli təcrübə topladıqdan sonra "Tatar (Azərbaycan-R.F.) dili" dərsliyini yazmışdır. Həmin dövrdə N.Dementyevin "Əlifba", L.Budaqovun "Türk-tatar əlifbası" (1844) Azərbaycan dilinin tədrisinə olan tələbatı ödəyə bilmirdi.

Cənubi Qafqazdakı dünyəvi məktəblərin əksəriyyətində Azərbaycan dili bir fənn kimi tədris edilsə də, Rusiya Maarif Nazirliyi tərəfindən təsdiq edilmiş dərslik yox idi. Akademik Hüseyn Əhmədovun araşdırmalarına görə, həmin dərsliyin əlyazması 1880-ci il noyabrın 28-də 455 saylı rəsmi məktubla İrəvan progimnaziyasının inspektoru tərəfindən Qafqaz Tədris Dairəsinin popeçtelinə göndərilmiş, əgər bəyənilərsə, QTD tabeliyində olan və tatar (Azərbaycan -R.F.) dili öyrədilən məktəblərdə ondan istifadə edilməsinə sərəncam verməsi xahiş edilmişdi. Qafqaz Tədris Dairəsinin popeçiteli K.Yanovski əlyazmanı rəy üçün Qori Müəllimlər Seminariyasının inspektoru A.O.Çernyayevskiyə göndərmişdir. A.O.Çernyayevski dərslik haqqında 12 səhifəlik müsbət rəy yazmışdır. Həmin rəyə istinadən akademik Hüseyn Əhmədov dərsliyin 130 mətndən ibarət olması, sadədən mürəkkəbə, asandan-çətinə qaydaları əsasında tərtib edilməsi qənaətinə gəlmişdir.

A.O.Çernyayevskinin əlyazması ilə bağlı tənqidi qeydlərini düzəltmək üçün dərslik müəllifə qaytarılmışdır. Dərsliyin yenidən işlənilmiş variantı İrəvan gimnaziyasının direktoru V.İ.Brajnikovun 25 iyul 1882-ci il tarixli məktubu ilə Sankt-Peterburqa − Rusiya Xalq Maarif Nazirliyinə göndərilmişdir. Nazirlik isə dərsliyi Sankt-Peterburq Universitetinin Şərq fakültəsinin dosenti V.Simirnova rəyə göndərmişdir. 2 may 1883-cü ildə dərsliyin əlyazması Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir. 1885-ci ildə M.Ə.Elxanovun vəfatı səbəbindən dərslik işıq üzü görməmişdir.

Akademik Hüseyn Əhmədov Sankt-Peterburq Universitetinin Şərq fakültəsinin dosenti V.Simirnovun dərsliklə bağlı Rusiya MDTA-da saxlanılan rəyinin bütöv mətninin surətini əldə edərək K.D.Uşinskinin "Vətən dili" dərsliyi ilə müqayisəli şəkildə təhlil etmişdir. Şərqin mütərəqqi məktəb təcrübəsi ənənələri və K.D.Uşinskinin "Vətən dili" dərsliyinin strukturu əsasında tərtib edilən dərslik iki hissədən ibarət olmuşdur.

M.Ə.Elxanovun "Tatar (Azərbaycan -R.F.) dili" dərsliyi nəşr edilməsə də, yeni nəsil ana dili dərsliklərinin tərtibində əhəmiyyətli rol oynamışdır. Əlyazmasının məziyyətlərini yüksək dəyərləndirən akademik Hüseyn Əhmədov onu "*elmi-pedaqoji prinsiplər əsasında tərtib edilmiş"* ilk dərslik və metodik rəhbərlik adlandırmışdır. Kitabın nəşrinə Rusiya Xalq Maarif Nazirliyi tərəfindən icazə verilsə də, müəllifin vəfatı səbəbindən dərslik çap edilməmişdir. M.Ə.Elxanov 1885-ci ildə İrəvan şəhərində vəfat etmişdir. Vəfatından sonra onun ideyaları gimnaziyada ***Firidun bəy Köçərli*** və ***İsmayıl bəy Məmməd bəy oğlu Şəfibəyov*** tərəfindən davam etdirilmişdir.

ƏDƏBİYYAT

1. Полное собрание законов Российской Империи. Том IV. (1825 - 1881). Санкт-Петербург. 1829 г. – С-Пб.: 1830, с.571
2. Ermənistan Milli Dövlət Arxivi. F. 1. siyahı 1, iş 592, vərəq 10
3. Ermənistan Milli Dövlət Arxivi. F.1, siyahı 1, iş 613, vərəq 5
4. Историческая записка об Эриванской гимназии (составитель В.Романовский, П.Твердый). Тифлис: 1890, с.112

ABSTRACT

Farrukh RUSTAMOV

AZERBAIJANI TEACHERS OF THE IRAVAN DISTRICT SCHOOL

The article examines the history of the establishment of the Iravan District School and the educational contributions of Azerbaijani teachers who worked there. The author points out that the Regulation on the Schools of the South Caucasus adopted in 1829 laid the foundation for secular education in the region, and the Iravan District School began operating in 1832. The article particularly analyzes the pedagogical activities of Molla Tagi Mahmud oghlu and Mirza Alakbar Elkhanov. It emphasizes Molla Tagi Mahmud oghlu's contributions to the development of national education at the school as a teacher of the Azerbaijani language and Sharia, as well as his role in attracting Azerbaijani students to education. Mirza Alakbar Elkhanov is described as a progressive educator who embraced the ideas of secular education, supported instruction in the native language, and became one of the first professional Azerbaijani teachers. The significance of his textbook "Tatar (Azerbaijani) Language" in the history of Azerbaijani pedagogical thought is substantiated. The article also highlights the stages of development of Azerbaijani language instruction within the Iravan school environment and the continuation of these traditions by later enlighteners.

Keywords: *Iravan, enlightenment, Mirza Alakbar Elkhanov, Sharia, teacher, textbook, native language, education.*

1920-1930-CU İLLƏRDƏ QƏRBİ AZƏRBAYCANDA MAARİF İŞİNİN TƏŞKİLİ

Qadir ƏKBƏROV
ekberovqadir4@gmail.com
ORCID iD: 0009-0005-8693-9338
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Təqdim olunan məqalədə Rusiyanın işğalından sonra iki hissəyə ayrılmış Azərbaycanın qərb torpaqlarının işğaldan sonrakı taleyi ilə bağlı məqamlara nəzər salınır. İndiki Ermənistan Respublikasının ərazisinə daxil olan Qərbi Azərbaycanın XX əsrin 20-30-cu illərinin təhsil tarixi ilə bağlı məsələlər diqqətə çatdırılır. Məqalədə, həmçinin Qərbi Azərbaycanın Zəngəzur mahalında, İrəvan bölgəsində və digər şəhər və kəndlərdə yaradılmış təhsil ocaqları haqqında məlumatlar verilir. Qərbi Azərbaycanda yerləşən məktəblərə müəllim kadrlarının hazırlanması işi ilə məşğul olan seminariyalar, institutlar və bu müəssisələrdə çalışan müəllimlər barədə ətraflı məlumatlar verilir. Erməni şovinistlərinin anti-Azərbaycan mövqeyi, azərbaycanlıların təhsilinə yaradılmış süni maneələr barədə məlumatlar verilir. 1922-1930-cu illərdə Gığı, Şəhərcik, Qızıl Şəfəq (İşıqlar), Vağüdü, Ərəfsə və Aldərə kəndlərində fəaliyyət göstərmiş azərbaycanlı məktəblərin Qərbi Azərbaycanın bu bölgələrinin yerli sakinlərinin maariflənməsindəki rolu işıqlandırılır.

Açar sözlər: *təhsil, Qərbi Azərbaycan, Zəngəzur, maarif, ziyalı, deportasiya*

Azərbaycanın Rusiya tərəfindən işğalı digər sahələrdə olduğu kimi, təhsil və elm sahəsində də özünü göstərmiş, ayrı-seçkilik siyasəti işğal faktorunda özünü daha qabarıq şəkildə təsdiqini tapmışdı. Lakin Rusiya imperiyasının bütün bölgələrində tətbiq edilən yeni üsullu təhsilə keçid siyasəti Qərbi Azərbaycana da təsirsiz ötüşməmişdi. Xalqın maariflənməsində xidməti böyük olan 1883-cü ildə açılmış İmanşalı, 1884-cü ildə açılmış Zod, 1889-cu ildə açılmış Böyük Vedi, 1895-1896-cı illərdə fəaliyyətə başlamış Uluxanlı və digər bölgələrdə fəaliyyətə başlamış məktəblər azərbaycanlıların təhsilə cəlb edilməsində böyük rol oynamışdır.

XIX əsrin 80-ci illərindən fəaliyyətə başlamış İrəvan Müəllimlər Seminariyası da Qərbi Azərbaycanda əhalinin maariflənməsi sahəsində əhəmiyyətli işlər görmüşdür. Seminariyanı bitirən azərbaycanlılar Qərbi Azərbaycanın müxtəlif bölgələrində müəllim kimi fəaliyyətlərini davam etdirmişdirlər. Cənubi Qafqaz ərazisində Sovet hakimiyyəti bərqərar edildikdən (1920-ci il) sonra yaradılmış Ermənistan SSR rəhbərliyi son iki ildə (1918-1920-ci illər) olduğu kimi, azərbaycanlılara qarşı yenə repressiv siyasətlərini davam etdirmişdir. Onların azərbaycanlılara qarşı antitürk siyasəti Azərbaycan məktəblərinin bağlanmasına gətirib çıxarmışdı.

Bir cəhət də var idi ki, erməni millətçiləri sovet hakimiyyəti illərində onlar üçün yaranmış fürsətdən istifadə edərək Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların sayı, maarifi, məktəbi, mədəni abidələri, tarixi şəxsiyyətləri haqqında məlumatları gizlətmiş, nəşrlərdə bu haqda yazıların getməsini əngəlləmişdilər. Tədqiqatçılar tərəfindən aparılan araşdırmalardan birinə nəzər saldıqda görürük ki, 1980-ci illərdə Moskvada "Sovetskaya ensiklopediya" nəşriyyatında çap edilmiş iri həcmli "Sovetskiy ensiklopediçeskiy slovar"da, 1993-cü ildə yenə də Moskvada "Bolşaya Rossiyskaya ensiklopediya" nəşriyyatında çap edilmiş "Rossiyskaya Pedaqoqiçeskaya Ensiklopediya"da (I cild) Ermənistan ərazisində 1922-1923-cü tədris ilində yalnız 36 azərbaycanlı məktəbinin (1500 şagirdi) olması qeyd olunur [Məhərrəmov Z, 2010]. Bu kimi faktlar onu göstərir ki, ermənilər tarixi Azərbaycan torpaqlarında yaşamaları ilə bərabər, azərbaycanlılara qarşı həm də mədəni terror aksiyası törətmişdilər.

Bolşeviklər qurduqları sovet hakimiyyətini yerlərdə imzaladıqları dekretlərlə möhkəmləndirir, qəbul edilmiş sənədlərə əsasən yerli şəraitə, yerli kommunistlərə uyğunlaşdırılmış bir sistem yaradırdılar. Təbii ki, bolşevizm ideologiyası sözdə "sosializm" ideyasından öndə həyata keçirilirdi. Rusiyada və Azərbaycanda həyata keçirdikləri siyasəti Ermənistan SSR-də reallığa çevirməyə çalışan kommunistlər bütün sahələrdə sovetləşməyə xidmət edirdilər. Bu siyasət təhsil və elm sahəsini də əhatə etmişdi. Ermənistan İnqilab Komitəsinin 6 dekabr 1920-ci ildə imzaladığı respublika ərazisində yerləşən bütün məktəblərin dövlət ixtiyarına keçməsi haqqında dekreti maarif müəssisələrinin dövlət nəzarətinə keçməsini rəsmiləşdirilmişdi. Ermənistan Xalq Maarif Komissarlığının 17 dekabr 1921-ci il tarixli verdiyi əmrə əsasən məzmunca yeni tipli sovet məktəblərinin təşkilinə, köhnə tipli məktəblərin ləğvinə start verilmişdi. Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq 1921-ci il aprel ayının 23-də Ermənistan Xalq Maarif Komissarlığının verdiyi əmrdə

göstərilmişdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dilində təhsil almalıdırlar [Cəfərov C, 2017].

Yuxarıda qeyd edildiyi kimi, 1922-1923-cü dərs ilində Qərbi Azərbaycanda 36 Azərbaycan məktəbi fəaliyyət göstərmişdi ki, bu məktəblərdə də 1521 şagird təhsil almışdı. Azərbaycanlı şagirdlərin təhsili ilə 40 nəfər azərbaycanlı müəllim məşğul olmuşdu. Bu müddətdə Zəngəzurun Azərbaycan kəndlərində, o cümlədən Gığı, Şəhərcik, Qızıl Şəfəq (İşıqlar), Vağüdü, Ərəfsə və Aldərə kəndlərində yeni qaydada ibtidai məktəblər fəaliyyət göstərirdi [Adıgözəlov Ə, 2017]. 1930-cu ildə Qərbi Azərbaycanın Zəngəzur mahalında otuz məktəb fəaliyyət göstərmişdir ki, onlardan da 28-i dördsinifli, yəni birinci dərəcəli, ikisi isə yeddisinifli, yəni ikinci dərəcəli məktəblər olmuşdu. Bu məktəblərin sayı 1941-ci ildə 42-ə çatmışdı [Musa Urud, 2024].

Qərbi Azərbaycanda pedaqoji kadrlara olan ehtiyacı ödəmək üçün XX əsrin 20-ci illərindən (1923-cü ildən) başlayaraq İrəvanda hazırlıq kursları təşkil olunmuşdur. 1923-cü ildə təşkil olunmuş bu kurslarda 1926-cı ilin sonlarına qədər 143 müəllim hazırlanmışdı. İrəvanda hazırlıq kurslarının təşkilində Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və digərlərinin xidmətləri böyük olmuşdur. Təhsil müəssisəsinin direktoru Mehdi Kazımov, ictimaiyyət müəllimi Bala Əfəndiyev, ana dili müəllimi Əsgər Əsgərzadə, təbiət müəllimi Cəmil Əliyev olmuşdur" [Hüseynzadə R, 2018].

Qeyd olunan hazırlıq kursları İrəvanla yanaşı, Uluxanlıda, Vedidə, Basarkeçərdə, Zəngəzurda, Ağbabada və azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə də təşkil edilmişdi.

Ermənistan SSR-in təşkilindən sonra erməni millətçiləri azərbaycanlıların maariflənməsi işinə əngəl törətməkdə davam edirdilər. Lakin azərbaycanlıların təhsili ilə bağlı bilavasitə Azərbaycan SSR-dən göndərilmiş müəllimlər məşğul olmuş, erməni şovinizmi ilə mübarizə şəraitində öz vəzifələrini layiqincə yerinə yetirmişdilər. Azərbaycanlılara məxsus məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olmuş kadrlar Qərbi Azərbaycanın əksər bölgələrində, o cümlədən İrəvanda, Vedidə, Qəmərlidə, Basarkeçərdə və s. bölgələrdə müəllim kimi fəaliyyət göstərmiş, həm də mədəni-maarif quruculuğu sahəsində də yaxından iştirak etmişdilər. Lakin əsl erməni xisləti azərbaycanlı məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdığı üçün onlar da maddi və mənəvi sıxıntılara dözə bilməyib Ermənistanı tərk etməyə məcbur olurdular.

Sovetləşmədən sonrakı ilk illərdə azərbaycanlıların elm və təhsilə yiyələnməsi istiqamətində atılan mühüm adımlardan biri də 1924-cü ilin oktyabr ayının 15-də açılmış İrəvan Türk Pedaqoji texnikumu olmuşdu [Mərdanov M, 2011].

1922-ci ildə Ermənistan Xalq Maarif Komissarlığının nəzdində təşkil edilən "Azlıqda qalan millətlər" şöbəsinin rəhbəri vəzifəsində çalışmış Mehdi Kazımovun şəxsi təşəbbüsü ilə yaradılmış İrəvan Türk Pedaqoji Texnikumuna 1925-ci ildə Nəriman Nərimanovun adı verilmişdi [Nəcəfov N, 2022]. Qeyd edək ki, Mehdi Kazımov İrəvanda azərbaycanlı ziyalıların təşəbbüsü ilə yaradılan ilk təhsil ocaqlarında dərs deyən müəllimlərdən biri olmuşdu. Bu təhsil müəssisəsi də azərbaycanlı ziyalıların yetişməsində mühüm rol oynamışdı. 1928-1930-cu illərdə məşhur elm xadimi Yusif Məmmədəliyev, tanınmış pedaqoq Lətif Hüseynzadə bu texnikumda müəllim işləmişdir. Məlum olduğu kimi, 1948-1953-cü illərdə azərbaycanlılara qarşı məqsədli deportasiya siyasəti həyata keçirilmiş, bu məqsədli köçürmə ilə əlaqədar həmin texnikum da Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülmüşdü. Texnikum 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdi [Cəbrayılov İ, 2022].

Qərbi Azərbaycanda maarif sistemin əsasını təşkil edən təhsil müəssisələrindən biri də 1934-cü ildə İrəvan Dövlət Universitetinin pedaqoji fakültəsinin bazasında təşkil edilmiş, erməni məktəbləri üçün ali təhsilli müəllim kadrları hazırlayan İrəvan Dövlət Pedaqoji İnstitutu olmuşdur. Haqqında araşdırma aparılan dövrdə erməni millətçilərinin yaratdığı bütün süni maneələrə baxmayaraq, azərbaycanlı ziyalılar milli məfkurəyə xidmət edən, azərbaycançılığı itirilmək təhlükəsi altında olan tarixi Azərbaycan torpaqlarında milli və siyasi iradə göstərərək anadilli məktəblərimiz üçün ali təhsilli pedaqoji kadrlar hazırlanması istiqamətində bir sıra uğurlu addımlar atmışdılar. Bu baxımdan 1935-ci ildə Gümrüdə və Dilicanda təşkil edilmiş ikiillik Müəllimlər İnstitutu azərbaycanlı məktəbləri üçün ali təhsilli pedaqoji kadrların hazırlanmasında böyük uğurlar qazana bilməsə də, müəyyən qədər rol oynamışdır.

1930-cu ildən dövlətin təhsil siyasətində qarşıya qoyduğu yeddiillik təhsil sisteminin tətbiqi və məktəblərin müəllim kadrları ilə təminatı məsələsi özünü doğrultmurdu. Çünki pedaqoji institutlar və universitetlərin pedaqoji fakültələri müəllim kadrlarının hazırlanması tələbatını ödəyə bilmirdilər.

Ona görə də sovetlər ittifaqının müxtəlif şəhərlərində, o cümlədən Qərbi Azərbaycanda İkiillik Müəllimlər İnstitutun təsis edilməsi məsələsi maarif siyasətində əsas hədəflərdən olmuş, 1937-ci ildə isə müəllim kadrlarının yetişdirilməsi üçün İrəvanda ikiillik Müəllimlər İnstitutu yaradılaraq fəaliyyətə başlamışdı. Yarandığı ildə bu təhsil müəssisəsinin nəzdində 40 nəfərlik azərbaycanlı şöbəsi açılmışdır. Azərbaycanlıların oxuyacağı şöbəyə qəbul olmaq üçün ilk ildə 83 ərizə daxil olmuş, onlardan 34 nəfər tələbə adını qazana bilmişdir. Tələbə adını qazanan azərbaycanlı gənclərdən 18 nəfəri əyani, 16 nəfəri isə gündüzlər müəllimlik etməklə axşam növbəsində

təhsil almışdılar. Təhsil alanlardan 5 nəfəri qadın olmuşdu. Bu təhsil ocağında Azərbaycandan dəvət edilmiş müəllimlər dərs deyirdilər. Lakin erməni şovinist dairələri tərəfindən məkrli şəkildə fəaliyyəti dayandırılan müəssisə milli pedaqoji kadrların hazırlanması sahəsində uğur qazana bilməmişdi.

Qərbi Azərbaycanda fəaliyyət göstərən milli məktəblərimizin müəllim kadrlara olan ehtiyacının ödənilməsində 1936-cı il yanvar ayının 27-də İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsinin açılması da mühüm rol oynamışdı. Yeni yaradılan şöbə qeyd olunduğu kimi, müəyyən irəliləyiş yaratmışdır [Allahverdiyev C., 2023].

Nəticə

Tədqiqata cəlb edilmiş faktlar 1920-1930-cu illərdə Qərbi Azərbaycanın təhsil sahəsi ilə bağlı müəyyən nəticələr əldə etməyə imkan verir. Bu sahənin ümumi vəziyyəti barədə aparılan işləri sistemli və ardıcıl şəkildə izlədikdə Rusiyanın Azərbaycan torpaqlarının işğalı və həyata keçirdiyi milli müstəmləkəçilik siyasətinin maarif sahəsində də özünü göstərməsini detallı şəkildə görürük. İşğal faktoru, yeni üsullu məktəblərin yaradılması, süni şəkildə yaradılmış millətlərarası münasibətlərdə düşmənçilik siyasəti də Rusiya imperiyasının işğalçı yanaşmasının məhsulu idi.

XIX əsrin 80-ci illərində yaradılmış yeni üsullu məktəblər yeni ehtiyaclar, yeni çətinliklər yaratmışdı. Məktəblərdə tələbləri ödəyə biləcək dərsliklər, fənn proqramları, dərs vəsaitləri və ən əsası isə bu məktəblərdə tədrisi həyata keçirəcək müəllimlər ya yox idi, ya da ki, çatışmırdı. Təhsil sahəsindəki bu problemləri həll etmək, xalqın maariflənməsi işinə kömək etmək əvəzinə çar Rusiyasının hakim dairələri məqsədli şəkildə Qafqaz müsəlmanlarını əsarət və cəhalətdə saxlamaq, onların milli və siyasi cəhətdən oyanmasının qarşısını almaq siyasətini həyata keçirmişdilər.

Yeni tipli məktəblərin təşkil edilməsi Qərbi Azərbaycanda azərbaycanlılar yaşayan bütün bölgələrdə Azərbaycan dilində təhsil ocaqları şəbəkəsinin genişlənməsinə və bu təhsil müəssisələrində oxuyan şagirdlərin sayının sürətlə artmasına təkan vermişdi. Qərbi Azərbaycanda 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 azərbaycanlı məktəbi fəaliyyət göstərmişdi. Azərbaycanlılara məxsus bu məktəblərin və şagirdlərin sayının artmasına səbəb 1918-1920-ci illərdə, həmçinin ondan əvvəlki illərdə erməni qəsbkarlarının azərbaycanlı əhaliyə qarşı törətdiyi qətliamlardan canlarını qurtarmaq üçün yurdlarını tərk etmiş azərbaycanlıların bir qisminin geri qayıtması ilə bağlı olmuşdu.

ƏDƏBİYYAT

1. Adıgözəlov, Ə, Adıgözəlova, Ş. Qərbi Azərbaycanın milli məktəb tarixindən // Azərbaycan məktəbi, 2017, № 1, s.45-48
2. Allahverdiyev, C. İrəvanda ali təhsilli milli pedaqoji kadr hazırlığı (1920-1988). Yeni Azərbaycan qəz. 2023-cü il 6 dekabr
3. Cəbrayılov, İ. (2022). İrəvan Müəllimlər Seminariyası və onun Azərbaycan təhsilinə verdiyi töhfələr. // "Məktəbəqədər və ibtidai təhsil", Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 Bakı: 2022. s. 165-176 https://ppe-journal.edu.az/frontend/uploads/files
4. Cəfərov, C, Allahverdiyev, C. Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi. Orxan NPM, BAKI-2017, 464 s.
5. Hüseynzadə, R. İrəvan maarifçiliyi // Azərbaycan məktəbi. Bakı: 2018, s. s.61-68
6. Məhərrəmov, A., Allahverdiyev C. Qərbi Azərbaycanda milli maarifçilik mühiti. Respublika qəz. 2023-cü il 14 dekabr
7. Məhərrəmov, Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit), Bakı: Nurlan, 2010, - 320 s.
8. Mərdanov, M. Azərbaycanın təhsil tarixi (1920-1991-ci illər). II cild. Bakı: Təhsil, 2011, 704 s.
9. Musa Urud. Zəngəzurun təhsil tarixi // Bakı: "Ulduz" jurnalı, 2024, №05 (655), s. 14-16
10. Nəcəfov, N. İrəvan Pedaqoji Texnikumunun acı taleyi. "Azərbaycan müəllimi" qəz. 2012-ci il 21 sentyabr

ABSTRACT

Gadir AKBAROV

ORGANIZATION OF EDUCATIONAL WORK IN WESTERN AZERBAIJAN IN THE 1920s-1930s

The presented article looks at the fate of the western lands of Azerbaijan, which were divided into two parts after the occupation of Russia, after the occupation. Issues related to the educational history of the 20s-30s of the 20th century of Western Azerbaijan, which is included in the territory of the present Republic of Armenia, are brought to attention. The article also provides information about educational institutions established in Zangezur district, Yerevan region and other cities and villages of Western Azerbaijan. Schools located in Western Azerbaijan are provided with detailed information about seminaries, institutes and teachers working in these institutions. Information is provided about the anti-Azerbaijani position of Armenian chauvinists and the artificial obstacles created for the education of Azerbaijanis. In 1922-1930, the role of Azerbaijani schools that operated in the villages of Gigi, Shahercik, Gizil Shafaq (Lights), Vagudu, Arafsa and Aldara in the education of the local residents of these regions of Western Azerbaijan is highlighted.

Keywords: *education, West Azerbaijan, Zangezur, education, intellectual, deportation*

DÜNYA ELMİNƏ BÖYÜK TÖHFƏ VERƏN QƏRBİ AZƏRBAYCANLI GÖRKƏMLİ ALİM

Nailə QARDAŞBƏYOVA
naileqardashbeyova@gmail.com
ORCID iD: 0000-0002-0191-9428
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycanın qədim yurdlarından biri olan Qaraqoyunlu dərəsinin Çaykənd bölgəsi özünün əsrarəngiz təbiəti, mərd və qüvvətli insanları ilə yanaşı, dünya elminə və mədəniyyətinə böyük töhfələr vermiş, Azərbaycan elminə bir çox tanınmış alimlər bəxş etmişdir. Belə görkəmli şəxsiyyətlərdən biri də Süleyman İfxan oğlu Allahverdiyevdir. O, fitri tədqiqatçılıq qabiliyyəti, dərin riyazi təfəkkürü və yüksək elmi potensialı ilə müasir dövrün görkəmli alimlərindən biri hesab olunur. Süleyman müəllim fotosintez, fiziologiya, biofizika, biokimya və molekulyar biologiya sahələrində dünya miqyasında tanınmış mütəxəssisdir. Görkəmli alim nanobiotexnologiyanın yeni istiqamətlərindən biri olan təbii zülal strukturu əsasında süni fotosintez sistemlərinin yaradılması istiqamətində mühüm elmi tədqiqatlar aparmışdır. Bu tədqiqatlar alternativ enerji mənbəyi kimi molekulyar hidrogenin əldə olunmasına da imkan yaradır.

Açar sözlər: *Qərbi Azərbaycan, Çaykənd, Süleyman Allahverdiyev, fotosintez, biofizika, biokimya, molekulyar biologiya, nanobiotexnologiya, süni fotosintez, alternativ enerji.*

Əzəli Azərbaycan torpaqlarından olan Qərbi Azərbaycanın Çaykənd mahalı əsrarəngiz təbiəti, mərd, vüqarlı insanları ilə yanaşı, dünya elm və mədəniyyətinə böyük töhfələr vermiş, elmimizə bir çox tanınmış elm adamları bəxş etmişdir. Belə görkəmli şəxsiyyətlərdən biri də Süleyman İfxan oğlu Allahverdiyevdir. O, müasir dövrümüzün fitri tədqiqatçı istedadına, dərin riyazi təfəkkürə və qabiliyyətə malik görkəmli elmi simalarından biridir.

Süleyman müəllim fotosintez, fiziologiya, biofizika, biokimya və molekulyar biologiya sahələrində elm aləmində tanınmış mütəxəssisdir. Görkəmli alim nanobiotexnologiyanın yeni istiqamətlərindən biri olan təbii zülal strukturu əsasında süni fotosintez sistemlərinin yaradılmasını fəal inkişaf etdirmişdir. Bu, eyni zamanda alternativ enerji mənbəyi kimi molekulyar hidrogenin əldə edilməsinə imkan yaradır.

Elm adamlarından yazmaq, elm adamlarından söhbət açmaq həm məsuliyyətli, həm də şərəflidir. Ona görə ki, bu təbəqənin insanları başqa duyumlu, başqa xarakterli olurlar. Qəlbləri həssas, şəffaf, bir qədər də narahat və daim düşüncəli. Böyük filosoflardan birinin fikrincə desək, "Əsil elm adamları zamanın yazılmış əvəzsiz romanlarıdır". Bu qiymətli kəlam elm adamlarının nəyə qadir olduğunu, hansı bir şərəfli missiyanın daşıyıcıları olduğunu göstərir.

İlahi tərəfindən bəxş edilmiş qeyri-adi əməksevərliyi, istedadı, ürək genişliyi, insanlara qarşı səmimi hiss və duyğuları onu elmin və insanlığın zirvəsinə yüksəltmişdir. Süleyman müəllimin ömür kitabının hər səhifəsi zəhmətlə, əziyyətlə, lakin ləyaqət və şərəflə yazılıb. Alimin ömür kitabını vərəqlədikcə gözlərimiz qarşısına öncə Azərbaycanın hüquqi sərhədlərindən kənarda qalan qədim oğuz yurdu - Qərbi Azərbaycanın Qaraqoyunlu dərəsinin Çaykənd mahalı gəlir. Xəstə üçün zirvəsində qar olan, hər cür çiçək açan, laləzar olan, indi yadlara - yağılara qalan yurd yerlərimiz yada düşür. O yerlər ki, 1950-ci ildə Süleyman müəllim orada dünyaya göz açıb, İfxan kişinin ailəsinə sevinc bəxş edib.

Süleyman müəllimin böyüyüb, boya-başa çatdığı mahal dağlar qoynunda yerləşir. Deyirlər təbiət öz duruluğundan, saflığından, paklıq və gözəlliyindən insanın mənəviyyatına və ruhuna müəyyən pay verir. Təbiət Süleyman müəllimə qarşı da belə səxavət göstərmişdir. Məhz bunun təsiridir ki, o, qəlbi, ruhu dağ çeşmələri kimi dupduru, kökünə, elinə, obasına qırılmaz tellərlə bağlı vətənpərvər, nəcib şəxsiyyət kimi formalaşmışdır.



Allahverdiyev Süleyman İfxan oğlu 1950-ci il avqustun 1-də Qərbi Azərbaycanın Qaraqoyunlu mahalının Çaykənd kəndində anadan olub. 1973-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) fizika fakültəsini bitirib. 1973-1977-ci illərdə Çaykənd orta məktəbində fizika müəllimi vəzifəsində işləyib. 1977-ci ildə SSRİ Elmlər Akademiyasının Fotosintez İnstitutunun (indiki REA-nın Biologiyanın Fundamental Problemləri İnstitutu) aspiranturasına daxil olub. 1984-cü ildə SSRİ EA-nın Biofizika İnstitutunda (Puşşino) biofizika ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edib və fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. Namizədlik dissertasiyasının müdafiəsindən sonra Süleyman müəllim SSRİ EA-nın Fotosintez İnstitutunda işləməyə başlayıb. 2002-ci ildə o, Rusiya EA-nın Bitkilərin Fiziologiyası İnstitutunda "Bitkilərin fiziologiyası və biokimyası" ixtisası üzrə biologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini uğurla müdafiə edib.

Onun elmi rəhbərləri akademik Aleksandr Krasnovski və biologiya elmləri doktoru Vyaçeslav Klimov olub. Süleyman İfxan oğlu uzun illər (1990-2007) Yaponiyanın Okazaki şəhərində Milli Fundamental Biologiya İnstitutunda (prof. Norio Murata ilə birlikdə) və Kvebek Universitetinin Kimya və biologiya fakültəsində prof. Robert Carpentier ilə birlikdə elmi işçi kimi çalışmışdır. Bundan əlavə, görkəmli alim 35-dən çox ölkədə (qısa müddətlər (1-3 ay), o cümlədən İspaniya (bir il)) dəvətlə işləmişdir.

İ.Allahverdiyev dünya səviyyəli tədqiqatçılarla uğurla əməkdaşlıq edib və əməkdaşlıq edir (Norio Murata, Nejat T. Veziroglu, R. Karpentier, A.Hoff, G. Renger, Govindjee, H.Van Gorkom, R. Picorel, S. Ramakrishna, H.Nishihara, C. Eaton-Rye, M. Brestic, T.Tomo, J.- R.Şen, J-S.Çanq, H.Hou, M.Nəcəfpur və s.). O, bir çox beynəlxalq jurnalların redaktor müavini (Journal of Hydrogen Energy (Elsevier), Photosynthesis Research (Springer), Photosynthetica (Springer), Functional Plant Biology (CSIRO-Avstraliya), Heliyon (Cell Press)); Cells (MDPI) jurnalında bitki bölməsinin baş redaktoru və daha 15-dən çox beynəlxalq jurnalın, o cümlədən BBA Bioenergetics (Elsevier), Journal of Photochemistry and Photobiology və s.-nin redaksiya şuralarının üzvüdür.

Süleyman müəllim fotosintez, fiziologiya, biofizika, biokimya və molekulyar biologiya sahələrində elm aləmində tanınmış mütəxəssisdir. Onun tədqiq etdiyi 2-ci fotosistemin (FS-2) elektron-nəqliyyat zəncirində fəaliyyətin əsasını təşkil edən ilkin mexanizmlərin, fotosintez zamanı elektronların təklif olunan energetik və kinetik yerdəyişmə sxemi bütün dünyada qəbul olunmuşdur. S.Allahverdiyevin əsas elmi işlərindən birisi, fotosistem 2-nin reaksiya mərkəzində elektronların ötürülməsində "feofitin" molekulunun iştirakının kəşfi olub və həm də bu molekulun elektron zəncirində yerini müəyyən etmiş, onun əsas xarakteristikalarını öyrənmişdir.

Daha sonra onun tədqiqatları göstərdi ki, fotosintez zamanı suyun oksidləşməsi və oksigenin ayrılması 4 manqan (4 Mn) atomunun iştirakı ilə baş verir. O, fotosistem 2-də "feofitinin" və 4 atom Mn iştirakı ilə gedən elektron ötürülməsi prosesinin enerji və kinetik sxemlərini təklif və sübut etmişdir. Onun bu nəticələri dünya biologiya elminə dəyərli töhfə oldu və fotosintez sahəsində bir çox dərsliklərə daxil edildi.

Sonradan görkəmli alimin əldə etdiyi məlumatların məcmusu əsasında FS-2 bitki və sianobakteriyaların fəaliyyəti, eləcə də inaktivasiya mexanizmləri və stressli şəraitlərdə onun sonrakı reparasiyası haqqında yeni təsəvvürlər sistemi yaradılıb, bitkilərin fotosintez aparatının əlverişsiz ətraf mühit-şəraitinə uyğunlaşdırmanın molekulyar mexanizmləri tədqiq edilib.

Görkəmli alimin nanobiotexnologiyanın yeni istiqamətlərindən biri olan təbii zülal strukturu əsasında süni fotosintez sistemlərinin yaradılmasını fəal inkişaf etdirmişdir. Bu, eyni zamanda alternativ enerji mənbəyi kimi molekulyar hidrogenin əldə edilməsinə imkan yaradır.

Öz elmi araşdırmalarının nəticələrini Süleyman müəllim müntəzəm olaraq "Chemical Reviwers", "Proceedings of National Academy of Science USA", "The EMBO Journal", "J Photochem. Photobiol", "Photosynthesis Research", "FEBS Letters" və s. nüfuzlu jurnallarda dərc etdirir. Bundan başqa, görkəmli alim bu və digər jurnallarda bir sıra icmal məqalələrin, habelə Rusiyada və xaricdə nəşr edilən elmi kitablarda 41 fəslin müəllifidir. Bütün bunlar görkəmli alimin elmi nailiyyətlərinin beynəlxalq miqyasda tanınmasının təsdiqidir. Alim, həmçinin dəfələrlə bir sıra beynəlxalq jurnalların xüsusi buraxılışlarına redaktor kimi dəvət

edilib.

O həm də doktorluq dissertasiyalarının müdafiəsi üzrə iki ixtisaslaşmış şuraya üzv seçilmişdir. Onun rəhbərliyi altında bir çox elmlər doktoru və elmlər namizədi hal-hazırda Azərbaycan elminə xidmət göstərir.

Görkəmli alim 450-dən çox məqalənin, 7 ixtiranın və 13 kitabın müəllifidir. Onun elmi işlərinə dünyada 30000-ə yaxın istinad edilib və onun H indeksi 82-dir.

Süleyman müəllim 25-dən çox ölkədə (Avstraliya, Fransa, Hollandiya, Almaniya, Sinqapur, İsveç, Çexiya, Macarıstan, Türkiyə, Hindistan və s.) dəvətli professor kimi çalışıb. O, Rusiya və digər ölkələrdə keçirilən 80-dən çox konfransda çıxış edib, dünyanın 40-dan çox ölkəsində, o cümlədən Avstraliya, Macarıstan, Yaponiya, Almaniya, İspaniya, Kanada, Hollandiya, Sinqapur, Fransa, İsveç, Türkiyə və s. dövlətlərdə dəvətlə mühazirələr oxuyub.

Görkəmli alim Yaponiya, Kanada, Hindistan, Macarıstan, Almaniya, Sinqapur, ABŞ, İsveç və s. dövlətlərin elmi-tədqiqat təşkilatlarının beynəlxalq layihələrində rəhbər və iştirakçıdır. O, böyük uğurla keçən "Postgenom dövrdə fotosintez: biofizikadan molekulyar biologiyaya qədər" (Kanada, 2004), "Fotosistemlərin struktur və funksiyası" (Puşşino, 2006; 2014, 2016), "Davamlı inkişaf üçün fotosintez tədqiqatları" (2011, 2013, Baku, Azerbaijan); (2015, Krit, Yunanıstan), "Davamlı inkişaf üçün fotosintez ve hidrogen enerji tədqiqatları" (2017, Heydarabad, Hindistan; 2019, Sankt-Peterburq; 2023, Istanbul) beynəlxalq simpozium və konfransların təşkilatçısı olub.

Allahverdiyev 2016-cı ildə Thomson Reuters (Clarivate Analytics) tərəfindən dünyada biologiya sahəsində ən çox istinad edilən rus tədqiqatçısı kimi tanınıb. 2018-ci ildə o, Rusiyada ən çox istinad edilən alimlərin reytinqində birinci olub və Həyat Elmləri kateqoriyasında "Scopus Awards Russia-2018" mükafatına layiq görülüb. 2018-ci ildə Azərbaycan Respublikasında elmin inkişafına verdiyi töhfə və köməyə görə "Web of Science Awards-2018" ilə təltif edilib. 2018-2023-cü illərdə o, dünyanın ən nüfuzlu alimlərinin siyahısına (Web of Science bazası əsasında) daxil edilib ki, bu da dünya elmi ictimaiyyətinin ən çox istinad edilən nümayəndələrinin cəmi 1%-ni əhatə edir. 2019-cu ildə Rusiya Elmlər Akademiyasının K.A.Timiryazev mükafatı; 2021-ci ildə isə o, alternativ enerjinin inkişafına, xüsusilə süni fotosintez sisteminin inkişafına verdiyi görkəmli töhfəyə və bir sıra elmi işlərə görə "Qeyri-ənənəvi enerji" nominasiyası üzrə beynəlxalq "Qlobal Enerji" mükafatının laureatı olub. 2022-ci ildə Allahverdiyev S.İ. bitki biologiyasının inkişafında və fotosintezin fundamental prinsiplərinin öyrənilməsində müstəsna xidmətlərinə görə Rusiya Federasiyasının əməkdar elm xadimi adına layiq görülmüşdür. 2022-ci ildə Əl-Farabi adına Qazax Milli Universitetinin "Elm qarşısında xidmətlərinə görə" qızıl medalı ilə təltif edilib. 2022-ci ildə Süleyman İfxan oğlu Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilib. 2022-ci ildə "Research.com" - Leading Academic Research Portal-ın tədqiqatçılar üçün beynəlxalq akademik platformasının reytinqində rus alimləri arasında "Biologiya və biokimya" sahəsində 4-cü yeri tutmuşdur.

2022-ci ildə Allahverdiyev S.İ. "Fiztex-in (MFTI) 75 illiyi" yubiley medalı ilə təltif edilmişdir. O, dünya alimlərinin ən yaxşı 2%-i sırasındadır (Stenford siyahısı üzrə, 2020–2023). 2023 və 2024-cü illərdə S.İ.Allahverdiyev "Research.com" - Leading Academic Research Portal beynəlxalq akademik platformasının "Bitkişünaslıq və aqronomiya" reytinqində Rusiyada birinci və dünyada 373-cü yeri tutaraq, ən çox istinad edilən alimlər siyahısına başçılıq edib [2].

2024-cü ildə Allahverdiyev S.İ. Rusiya Elmlər Akademiyasının 300 illik yubileyi ilə əlaqədar dünya elmin inkişafında, elmi kadrların hazırlanmasında böyük xidmətlərinə, uzun illər səmərəli elmi-tədqiqat və təşkilati fəaliyyətinə görə "Rusiya Elmlər Akademiyasının 300 illiyi" yubiley medalı ilə təltif edilmişdir. 2024-cü ildə hidrogen enerjisi tədqiqatlarında beynəlxalq səviyyədə tanınan töhfələrinə görə "Nejat Veziroğlu Xüsusi Mükafatı"na layiq görülüb.

Onun sadəliyi və təvazökarlığı, səbirli və təmkinli olması, həmkarlarını, ona müraciət edən hər bir kəsi ehtiramla dinləməyi bacarması, onların hər birinin fikrinə hörmətlə yanaşması, ədalətliliyi, obyektivliyi, xeyirxahlığı, təşkilatçılıq bacarığı, mənəvi və əxlaqi saflığı, yüksək ziyalılığı Süleyman müəllimi onu tanıyanların sevimlisinə çevirmiş, onlar arasında humanist, demokratik və işgüzar əlaqə yaranmışdır. Xoşbəxt o adam deyil ki, böyük var-dövləti var, o adamdır ki, heç bir var-dövlətə ehtiyacı yoxdur. Professor belə insanlardan biridir. O, insanlığı bütün rəsmi titullardan üstün tutur. Onun böyüklüyünün, əzəmətinin, gücü ədalətliliyində, obyektivliyində, prinsipiallığında və sadəliyindədir. Onun yüksək vətəndaşlığı, vətənpərvərliyi, elmi pedaqoji kadrların hazırlanmasına diqqət və qayğısı, milli-mənəvi dəyərlərimizə, Vətənə, torpağa bağlılıqdan qaynaqlanır.

Hər bir xalq ölkədə öz müstəqillik arzusunu, istiqlal duyğusunu həmişə ürəyində yaşadıb, haçansa onun gerçəklənməsi, reallaşması üçün əlverişli məqam gözləyib. Əsrlər boyu xalqımız əzəli arzusu olan istiqlalına can atıb. Nəhayət, azad, suveren müstəqil dövlətdə yaşamaq arzusuna, istəyinə nail olub. Bu arzu, istək bizim

Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın ən böyük arzularından olmuşdur. Artıq bütövləşən torpaqlarımız, azad olunmuş ərazilərimiz bizdə o ümidi yaradır ki, vaxt gələcək görkəmli alimimiz Süleyman müəllimin doğulub böyüdüyü əzəli Azərbaycan torpaqları da bütöv Azərbaycanımızın bir hissəsi olacaq. Görkəmli alim Süleyman Allahverdiyevin müstəqillik arzusu reallaşacaq, torpaq, vətən, yurd həsrətinə son qoyulacaq.

ƏDƏBİYYAT

1. Bağıyeva, M. Xaricdə yaşayan azərbaycanlılar. Qısa bioqrafik məlumat kitabçası (PDF) (az.). Bakı: "Papirus NP", 2016, 500 s.
2. https://research.com.

ABSTRACT

Naila GARDASHBAYOVA

GREAT CONTRIBUTOR TO WORLD SCIENCE PROMINENT SCIENTIST FROM WESTERN AZERBAIJAN

Chaykend district of Garagoyunlu valley of Western Azerbaijan, which is one of the ancient lands of Azerbaijan, along with its mysterious nature, brave and vigorous people, has made great contributions to the world science and culture and has given many well-known scientists to our science. One of such outstanding personalities is Suleyman Ifkhan oglu Allahverdiyev. He is one of the prominent scientific figures of our modern era with innate research talent, deep mathematical thinking and ability. Mr. Suleyman is a well-known specialist in the world of science in the fields of photosynthesis, physiology, biophysics, biochemistry and molecular biology. The distinguished scientist actively developed the creation of artificial photosynthesis systems based on the natural protein structure, which is one of the new directions of nanobiotechnology. This also allows obtaining molecular hydrogen as an alternative energy sourc.

Keywords: *Western Azerbaijan, Chaykend, Suleyman Allahverdiyev, photosynthesis, biophysics, biochemistry, molecular biology, nanobiotechnology, artificial photosynthesis, alternative energy.*

QƏRBİ AZƏRBAYCANIN BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ

Sevinc RZAYEVA **Tofiqə NADİROVA**
sevincrzayeva1969@gmail.com *nadirova.tofiqe@mail.ru*
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə bərpa olunan enerji mənbələri haqqında məlumat verilmişdir. Qərbi Azərbaycan ərazisinin relyefi və iqlim tipləri haqqinda məlumat verilərək bildirilir ki, düz və dağətəyi hissələrin iqlimi quru, orta dağlıq ərazilərin iqlimi mülayim, yüksək dağlıq ərazilərdə isə soyuq iqlim müşahidə edilir.

Qərbi Azərbaycan ərazisinin hidroenerji potensialı araşdırılmışdır. Zəngəzur, Zəngibasar, Dərələyəz, Göyçə, Qafan, Mehri mahallarının çayları, yeralti su hövzələri və bulaqları haqqında məlumat verilmişdir. Qeyd edilmişdir ki, bu ərazilərdən irili xırdalı yüzlərlə çay keçir. Qərbi Azərbaycanın su enerji ehtiyatlarının potensialı 21,8 milyard Kvt·saatdır. İldə 8,6 milyard kilovat·saatından istifadə etmək texniki cəhətdən mümkündür. Həmçının məqalədə Qərbi Azərbaycanın böyük çayları, onların uzunluğu, yerləşdiyi ərazi, hövzəsinin sahəsi və onlar üzərində tikilən su anbarları haqqında məlumat verilmişdir. Bundan başqa məqalədə Qərbi Azərbaycanın günəş enerji potensialı araşdırılaraq qeyd edilmişdir ki, bu ərazilərdə günəş radiasıyasının miqdarı kifayət qədər yüksəkdir və günəşli saatlarin illik miqdarı 2500-2800 saatdır. Bu da onu göstərir ki, Qərbi Azərbaycan ərazisi kifayət qədər günəş enerji potensialı ilə zəngindir. Həmçının bu ərazilərin külək enerji potensialı haqqında məlumat verilərək qeyd edilmişdir ki, bu ərazilərdə yay fəslini çıxmaq şərtilə ilin digər fəsillərində demək olar ki, gün ərzində küləkli hava müşahidə edilir. Həmçinin küləyin orta illik sürəti bu ərazilərdə 5-7 m/s hesab edilir. Bütün bu araşdırmalardan məlum olur ki, Qərbi Azərbaycan ərazisində kifayət qədər bərpa olunan enerji ehtiyatları vardır.

Açar sözlər: *Bərpa olunan enerji mənbələri, Qərbi Azərbaycan, hidroenerji mənbələri, günəş enerjisi, külək enerjisi.*

Bərpa olunan enerji mənbələri dedikdə hidroenerji, külək enerjisi, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi və qabarma- çəkilmə enerjisi başa düşülür.

Günəş enerjisi - Günəş işığından enerji əldə edilməsi texnologiyasıdır.Yer səthinə düşən Günəş enerjisinin miqdarı bütün neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatlarından çoxdur.

Külək enerjisi — küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Bərpa olunan enerji mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər [1].

Hidroenerji dedikdə, çayların, su axınının enerjisi başa düşülür. Hər bir çay müəyyən hidroenerji ehtiyatına malikdir. Hidroenerji ehtiyatları təbiətdə su dövranı ilə əlaqədardır. Su dövranı – Yerdə günəş radiasiyasının və ağırlıq qüvvəsinin təsiri nəticəsində suyun fasiləsiz yerdəyişməsidir [2].

Geotermal enerji yeralti suların, suxurların enerjisidir.

Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın qədim, təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən bu ərazi hazırda qərbdən Türkiyə, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, şimaldan Gürcüstan, cənubdan isə İranla həmsərhəd olmaqla 29,8 min km² sahəni əhatə edir. Bu diyar indi Ermənistan Respublikası kimi tanınsa da, onun ərazisi qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.

Qərbi Azərbaycanın ərazisi subtropik zonada yerləşir, lakin dağlıq relyefinə görə müxtəlif iqlim tipləri ilə seçilir. Qərbi Azərbaycanın iqliminə Qara və Xəzər dənizlərinin, eləcə də quraq İran və Kiçik Asiyanın yüksək dağlıq ərazilərinin yaxınlığı təsir edir. Düz və dağətəyi hissələrin iqlimi quru, yayı isti və qışı mülayim soyuq olan kontinentaldır, iyulda orta temperatur 24 - 26° C, mütləq maksimum temperatur 42° C, yanvarda -5°C; yağıntılar ildə 200 - 400 mm-dir. Orta dağlarda iqlim mülayimdir. İyul, avqust aylarında orta temperatur 18°C, qışı mülayim, qarlı, yanvarda orta temperatur -8° C - dən -2°C-dək olur. Yağıntıların illik miqdarı 600-800 mm olur. Yüksək dağlıq ərazilərdə (2000-3000 m hündürlükdə) isə soyuq iqlim şəraiti müşahidə edilir.

Qərbi Azərbaycan ərazisinin bərpa olunan enerji mənbələrini araşdırarkən məlum olur ki, bu ərazilər yüksək miqdarda hidroenerji potensialına malikdir. Bu ərazilərdən irili xırdalı yüzlərlə çay axır. Onlardan ən böyüyü - Araz (192 km; 1072 km - ümumi uzunluğu) Zaqafqaziyanın ən böyük çayı - Kürün sağ qoludur. Qərbi Azərbaycanın çaylarında gəmiçilik üçün imkanlar yoxdur, ona görə də çay sularından əsasən suvarma

və su elektrik enerjisi mənbəyi kimi istifadə olunur. Qərbi Azərbaycanın su enerji ehtiyatlarının potensialı 21,8 milyard Kvt·saatdır. İldə 8,6 milyard kilovat·saatdan istifadə etmək texniki cəhətdən mümkündür. Qərbi Azərbaycanın mərkəzi və cənub hissələrinin bir çox ərazilərində yeraltı su axını üstünlük təşkil edir. Ən böyük artezian hövzəsi 29 milyard m^3 su ehtiyatı olan İrəvan Çuxuru hövzəsidir. Müəyyən edilmiş bütün yeraltı hövzələrdə su ehtiyatı 50 milyard m^3 olaraq qiymətləndirilir. Vulkanik ərazilərdə yeraltı sular həm şirin, həm də mineral olan çoxsaylı bulaqlar şəklində səthə çıxır. Bu ərazilərdə 8 mindən çox bulaq var [5].

Qərbi Azərbaycanın ərazisindən keçən ən böyük çayları bunlardır : Araz çayı-Türkiyə, Iran, Azarbaycan və Ermənistan ərazilari və sərhədləri ilə axir. Öz mənbəyini Türkiyə ərazisində Ərzurum daglarindan götürür. Araz çayı qarışıq mənbələrdən qidalanır. Axımının 44%-ni yeraltı sular, 38%-ni qar suları, 18%-i isə yağış suları təşkil edir. Çay Sabirabad səhəri yaxinliginda Suqovusan adlanan ərazidə Kür cayi ilə birləsib Xəzər dəniziə axır.

Arpaçay Araz çayinin sol qoludur. Uzunluğu 126 km, hövzəsinin sahəsi 2630 km^2-dir. Başlanğıcını Basarkeçər dağ silsiləsində Cermuk şəhərindən 12 km şimal-şərqdə, 2985 metr hündürlükdə yerləşən zirvədən götürür. Yeraltı sular, qar və qismən yağış suları ilə qidalanır. Suvarmada geniş istifadə edildiyindən yayda suyu Araza çatmır. 1970-ci ildə Arpaçayından Göycə gölünə su axıtmaq məqsədilə 48.6 km uzunluğunda tunel çəkilmişdir. Şərur rayonu ərazisində 1977-ci ildə çayın üzərində su tutumu 150 mln. m^3 olan su anbarı tikilmişdir [8].

Zəngi çayı da Araz çayının sol goludur. Bu çay başlanğıcını Göyçə gölündən götürür. Axta, Gümüş rayonlarından, İrəvan şəhərindən, Zəngibasar rayonunun ərazisindən axıb Araz çayına tökülür. Bu çayın yatağı qədim zəngi tayfalarının sıx məskunlaşdığı ərazilərdə yerləşdiyi üçün çayın adı məhz bu cür adlandırılıb. İlin yaz və payız aylarında vaxtaşırı daşan Zəngi çayı yataqboyu yerləşən düzənlik ərazini basırdı. Ona görə də, bu yerlər - Zəngi çayının daşqın sularının basdığı ərazi "Zəngibasar" adlandırılıb.

Agstafaçay çay Kür çayının sağ qolu olub, uzunlugu 13 km, hövzəsinin sahəsi 2500 km^2-dir. Başlanğıcını Kiçik Qafqazın şımal şərq hissəsində Pəmbək sıra dağlarından götürür.

Gərni çayı da Araz çayının sol qolu olub baslanğıcını Göyçə dag silsiləsindən götürərək Gərnibasar mahalı ərazisində Araza tökülür. Uzunluğu 34 km-dir.

Bazarçay çayının uzunluğü 178 km, hövzəsinin sahəsi 2711 km^2-dir. Zəngəzur ərazisində yerləşən Bazarçay Zəngəzur dağ silsiləsi və Qarabağ yaylası arasında yerləşir. Başlanğıcını Zəngəzur silsiləsinin şimal yamacından 3040 m yüksəklikdə yerləşən Zalxa gölündən götürür.

Tona çayı indiki Ermənistan və Gürcüstan ərazilərindən axan çaydır.

Oxçuçay çayı Azərbaycan və Ermənistan ərazilərindən axan çaydır. Oxçu çayı öz başlanğıcını Zəngəzur silsiləsinin ən uca zirvəsi olan Qapıcıq dağının (3904 m) cənubunda 3502 metr yüksəklikdə olan Yağlı dərə dağlarından götürür. Arazin sol qoludur. Qafan rayonu və Zəngilan rayonu ərazilərindən keçir. Uzunluğu 85 km, hövzəsinin sahəsi 1140 km^2-dir.

Cəlaloğlu çayı da Qərbi Azərbaycanın Loru mahalı ərazisindən keçir.Tona çayının sol qoludur.

Tərsaçay çayı Ağstafa çayının sağ qoludur. Uzunluğu 58 km olub başlanğıcını Göyçə daglarından götürür.

Ələyəz çayı Arpa çayının sağ qoludur. Dərələyəz mahalından keçir və uzunluğu 49 km-dir.

Qaranlıq çayı uzunluğu 42 km olub Göyçə mahalının Qaranlıq rayonu ərazisindən axır.

Qarasu çayı - Arazin sol qolu. Uzunlugu 40 km, hövzəsinin sahəsi 1610 km^2-dir.

Basarkeçər çayı Göyçə mahalının Basarkeçər mahalından keçir. Uzunluğu 28 km-dir.

Gorus çayı Zəngəzur mahalındakı çaydır. Uzunluğu 29 km-dir.

Balıqlı çayı Goyçə golünə şimal - şərq tərəfdən tökülən çaydır.

Bəsitçay Arazin sol qolu olub mənbəyini indiki Ermənistan respublikasından götürür. Çayın uzunluğu 44 km-dir [6].

Əyənzur çayı da Arpa çayının sağ qoludur. Uzunluğu 42 km olan bu çay Dərələyəz mahalından keçir.

Qazangölçay keçmiş Qafan rayonu ərazisində Gığı dərəsi boyunca axan dağ çayıdır. Çay öz mənbəyini 3130 m yüksəklikdə Hərəmli adlı yerdən və Qazangöl gölündən götürür. Hərəmlidən və Qazangöldən gələn kiçik çay qolları Motalqəyə adlı yerdə birləşərək 30 km uzunluqlu Oxçuçayın sol qolu olan Qazangölçayı əmələ gətirir.

Qacaran şəhərində yerləşən Zəngəzur mis - molibden zavodunu elektrik enerjisiylə təmin etmək məqsədiylə 1983-cü ildə Qazangölçay üzərində Gığı Su Elektrik Stansiyası inşa olunmuşdu. Baharlı kəndində tikilən su anbarının daşma və kəndin su altında təhlükəsi səbəbindən Baharlı kənd sakinləri qonşu Zeyvə kəndinə köçmüş və 1988-ci ildə digər azərbaycanlılar kimi Zeyvədən deportasiya olunmuşdular.

1970-ci ildə Gəyən dagının ətəyində 2010 m yüksəklikdə qədim Azərbaycan torpaqları olmuş Qaraqala kəndinin şərqində yagış, qar sularının toplanması nəticəsində Qaraqala su anbarı tikilmişdir. Süni su hövzəsi olan bu hidroqovşaq ətraf rayonlardakı əkin sahələrinin suvarılması üçün istifadə edilirdi. Həmin ildə Göyçə gölünün səviyyəsinin aşağı düşməsinin qarşısının alınması üçün Arpa çayı sahilində Dərələyəz mahalının Qədim Quşçu kəndi yaxınlıgındakı Quşçu su anbarının tikintisinə başlanılmış, Basarkeçər dag silsiləsindən 40 km-lik tunel qazılaraq bu anbardan su nəql edilmişdir. Həmin hövzədə balıqçılıq təsərrüfatı da yaradılmışdır [3]. Quşçu su anbarı 1950 m yüksəklikdə, sahəsi 145 hektar, sahil xətlərinin uzunluğu 8.5 km, dərinliyi 20 metr, su ehtiyatı 23 milyon kub metrdir.

Başlanğıcını Qarabağ yaylasının şimal-qərb yamaclarından alan Həkəri çayının sağ qolu olan və uzunlugu 178 km olan Bazarçayın yuxarı axarlarında, çayın üstündə Qalaçıq kəndindən 2-3 km şimal-qərbə tərəf hidroenerji məqsədilə su anbarı tikilmişdir və Quşçu su anbarı ilə 9-10 km-lik yeraltı su xətti ilə birləşdirilib ki, bu da Bazarçay hövzəsinin Göyçə gölü ilə süni əlaqəsinin yaranmasına səbəb olmuşdur [6].

Göyçə gölü nəinki Qərbi Azərbaycanda, Cənubi Qafqazda, ümumən Qafqazda, eləcə də dünyada tektonik mənşəli yüksək dağ gölləri sırasında təmiz su ehtiyatına görə fərqlənən təbii sututar kimi (1898 m yüksəklikdə olan) qiymətləndirilir və "Qafqazın incisi" hesab edilir.

2012 ci Qərbi Azərbaycanın Zəngəzur mahalının Mehri bölgəsində ümumi gücü 130 MVt olan Mehri Su Elektrik Stansiyası tikilmişdir. Bütün bu araşdirmalardan belə məlum olur ki, QərbiAzərbaycan əraziləri kifayət qədər hidroenerji potensialına malikdir.

Qərbi Azərbaycan ərazisi Günəşdən bol işıq və istilik enerjisi alır. Günəş radiasiyasının miqdarı bu ərazilərdə kifayət qədər yüksəkdir. Həmin ərazilərdə günəşli saatlarin illik miqdarı 2500 - 2800 saat, Günəş radiasiyasının illik miqdarı isə təxminən 170-180 Vt /m^2-dir. Bu da onu göstərir ki, Qərbi Azərbaycan əraziləri böyük miqdarda günəş enerji potensialına malikdir.

Həmin ərazilərdə yay aylarında isti küləklər əsir. Regionda qış aylarında şimal və qərb külәkləri əsir. Demək olar ki bu ərazilərdə yay ayları istisna olmaqla digər aylarda günün bütün vaxtlarında küləkli hava müşahidə edilir [7]. Bu ərazilərdə küləyin sürəti bəzən 15-20 m/s-yə çatır. Küləyin orta illik sürəti isə bu ərazilərdə 7-8 m/s hesab edilir. Hakim küləklərin istiqaməti dağların quzey səmti, vadilərin və dərələrin istiqaməti boyunca davam edir. Bu göstəriciləri nəzərə alaraq qeyd etmək olar ki, bu ərazilərdə külək enerji potensialı da kifayət qədər yüksəkdir.

Nəticə**:** Qərbi Azərbaycan ərazisindəki çayların hidroenerji potensialı araşdırılmışdır və qeyd edilmişdir ki bu çaylar kifayət qədər hidroenerji potensialına malikdir. Həmçinin bu ərazilərin günəş və külək enerji potensialı haqqında məlumat verilmişdir. Nəticə olaraq qeyd edilmişdir ki, bu ərazilərdə kifayət qədər bərpa olunan enerji mənbələri vardır.

ƏDƏBİYYAT

1. "Enerji Ehtiyatları, Elektrik Enerjisi istehsalı və Ətraf Mühit" K.M Abdullayev, Y.İ. Lətifov, G.K Abdullayeva (Bakı 2005)
2. Alternativ və Regenerativ Enerji Sistemləri M.F.Cəlilov Bakı-2009
3. https://www.anl.az/down/meqale/hurriyyet/2021/may/745992.htm
4. http://www.anl.az/down/meqale/hurriyyet/2021/may/743718.htm
5. https://westaz.org/az/qerbi-azerbaycan/erazi
6. https://anl.az/el/emb/Qerbi_Azerbaycan/toponimler/Caylar.pdf
7. Q.Yunisoğlu. Hürriyyət.- 2021.- 22-24 may.- S.14.
   https://az.wikipedia.org/wiki/Arpaçay

ABSTRACT

Sevinc RZAYEVA, Tofiqa NADIROVA

RENEWABLE ENERGY SOURCES OF WESTERN AZERBAIJAN

The article provides information about renewable energy sources. Information about the relief and climate types of the Western Azerbaijan territory is given, and it is reported that the climate of the flat and foothills is dry, the climate of the mid-mountainous areas is mild, and the cold climate is observed in the highlands.

The hydropower potential of the territory of Western Azerbaijan was investigated. Information is given about the rivers, underground water basins and springs of Zangezur, Zangibasar, Darelayaz, Goyche, Gafan, Mehri districts. It is noted that hundreds of large and small rivers pass through these areas. The potential of water energy resources of Western Azerbaijan is 21.8 billion kWh. It is technically possible to use 8.6 billion kilowatt·hours per year. Hemchin's article provides information about the large rivers of Western Azerbaijan, their length, the area of their location, the area of their basin, and the water reservoirs built on them. In addition, the article examines the solar energy potential of Western Azerbaijan and notes that the amount of solar radiation in these areas is quite high and the annual number of sunny hours is 2500-2800 hours. This shows that the territory of Western Azerbaijan is rich in solar energy potential. In addition, information was given about the wind energy potential of these areas, and it was noted that windy weather is observed almost throughout the day in these areas, except for the summer season. Also, the average annual wind speed in these areas is considered to be 7-8 m/s. From all these studies, it is known that there are sufficient renewable energy resources in the territory of Western Azerbaijan.

Keywords: *Renewable energy sources, West Azerbaijan, hydropower sources, solar energy, wind energy.*

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ PRİZMASINDAN "ERMƏNİSTAN DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA" BƏYANNAMƏNİN 4-CÜ MADDƏSİNİN ŞƏRHİ

Siyavuş BAĞIROV
siyavush.bagirov91@mail.ru
ORCID iD: 0000-0002-2347-9443
Bakı Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycana qayıdış 2020-ci il müharibəsindən sonra mövcud aktuallıq dərəcəsini artırmış müzakirə mövzularından hesab edilir. Bu məqalə ölkənin mövcud həyatında və hüquq camiəsində olan ənənəvi yanaşmadan fərqli olaraq, qarşı tərəfin – Ermənistan Respublikasının konstitusion aktının şərhinə həsr edilmişdir. Tezisin məqsədi "Ermənistan Dövlət Müstəqilliyi haqqında" Bəyannamənin 4-cü maddəsində əks edilmiş "Ermənistan Respublikası vətəndaşlığı" institutunun təhlili və onun 1988-1991-ci illərdə öz ata-baba torpaqlarından zorla çıxarılmış, bununla da vətəndaşlıq hüququndan qeyri-qanuni məhrum edilmiş azərbaycanlılarla əlaqələndirilməsidir. Tezisdə Bəyannamə ilə Konstitusiyanın hüquqi qüvvəsinin nisbəti, onun normalarının bugünkü aktuallığı və tezis predmeti üzrə tətbiqinin mümkünlüyünə toxunulmaqla bir neçə elmi nəticəyə gəlinir. Məqalə maksimum dərəcədə obyektiv, qeyri-hüquqi məzmunla yüklü ədəbiyyat və yanaşmadan azad formada tərtib edilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, konstitusiya, dövlət müstəqilliyi haqqında bəyannamə, hüquqi qüvvə, vətəndaşlıq*

1. Giriş və metodologiya

Azərbaycan və Ermənistan dövlətləri arasında sülh danışıqlarının davam etdiyi və Qərbi Azərbaycana geri dönüşün aktuallıq qazandığı bir dövrdə biz mövcud münasibətlər çərçivəsində soydaşlarımızın ata-baba torpaqlarına qayıtmasının hüquqi əsasları üzərində düşünərkən bir nüans diqqətimizi çəkdi. Bəhsi keçən mövzunun tədqiqi istiqamətində yazılmış çoxsaylı elmi və publisistik yazılarda müəlliflər, demək olar ki, beynəlxalq hüquqi sənədlərə fokuslanmaqla məsələnin həmin çərçivədə həllinə köklənir və hüquqi əsası da o yöndən tapmağa çalışırlar [1; 8; 9; 10; 11]. Məqalə müəllifi olaraq biz də dəstəkləyir və inanırıq ki, bu həll praktiki cəhətdən yalnız və yalnız dövlətlərarası razılaşmanın məntiqi nəticəsi ola bilər. Lakin hüquqi əsasların toplanmasını sadəcə beynəlxalq hüquqa bağlamaq, zənnimizcə, düzgün deyil. Buna görə də Ermənistan Respublikasının milli qanunvericiliyinin şərhində fayda olduğunu düşünürük. Tədqiqat əsnasında bizi sevindirən başqa bir məsələ Ermənistan Respublikası Konstitusiyasının 47-ci maddəsinə (vətəndaşlıq hüququ) professor Zahid Cəfərov tərəfindən elmi-publisistik münasibət bildirilməsi oldu. Z.Cəfərov haqlı olaraq göstərir ki, *Ermənistan Respublikası Konstitusiyasının 47-ci maddəsinin 1-ci bəndində "Ermənistan vətəndaşlarından doğulmuş uşaq Ermənistan vətəndaşıdır" anlayışı mövcuddur, onda həmin tələbə müvafiq olaraq qeyd olunan illərdə ölkədən çıxarılan azərbaycanlı vətəndaşların övladlarının da həm vətəndaşlıq, həm də varislik hüquqları təmin edilməlidir* [4].

Hesab edirik ki, Ermənistan Konstitusiyasının şərhindən əvvəl "Ermənistan Dövlət Müstəqilliyi haqqında" 1990-cı il Bəyannaməsi təhlil edilməlidir. Çünki Konstitusiyanın özü bu Bəyannaməyə əsaslanır və iki hüquqi aktın müqayisəsində biri digərinin əsasını təşkil etdiyindən Bəyannamənin mövqeyi öyrənilməlidir.

Tezisin tərtibində ümumelmi metodlardan, həmçinin hüquq elminə və hermenevtikaya xas metodlardan istifadə edilmişdir.

2. Bəyannamə və Konstitusiyanın qüvvəsi nisbəti və tənzimlənən münasibətin xarakteri

2.1. Bəyannamə və Konstitusiyanın nisbəti

XX əsrin 80-ci illərinin sonunda Sovet İttifaqında durğunluğun xaosa çevrilməsinin məntiqi davamı olaraq 1990-cı ildə Ermənistan SSR Ali Soveti "Ermənistan Dövlət Müstəqilliyi haqqında" Bəyannaməni [5] (bundan sonra – Bəyannamə) qəbul etdi. Bəyannamədə ümumi məqsəd Sovet İttifaqından ayrılma, yeni dövlətin beynəlxalq cəmiyyətə tanıdılması və dövlət quruculuğunun ilkin istiqamət və əsaslarının müəyyən edilməsidir.

1991-ci ildə SSRİ-nin tamyekun süqutundan sonra Ermənistan faktiki müstəqillik qazanmış və 1995-ci

ildə yeni Konstitusiya qəbul etmişdir. Burada **açar məsələ** Ermənistan Ali Sovetinin qəbul etdiyi Bəyannamənin Ermənistan SSR (Bəyannamə qəbulundan sonra – Ermənistan Respublikası) ərazisində legitimliyinin müəyyən edilməsidir. Bəyannaməni qəbul edən Ermənistan SSR Ali Soveti, yəni parlamentdir – Ermənistan SSR əhalisi tərəfindən seçilmiş qanunverici orqandır. Qəbul edilmiş hüquqi aktın preambula və bəndlərinin nə dərəcədə doğru olması – bu, başqa bir məqalə və tədqiqatın predmetidir – lakin bizim müəyyən etməli olduğumuz məsələ Bəyannamə qəbulunun hüquqi qüvvəsinin mövcudluğu və Ermənistan SSR ərazisində yaşayan vətəndaşlara təsiridir. Bir sözlə, şübhəsiz, Bəyannamənin maddi tərəfi (Dağlıq Qarabağ iddiaları və s.) kifayət qədər birtərəflidir, fəqət tezisin məqsədinə nail olmaq üçün Bəyannaməyə formal istiqamətdən yanaşmaq lazımdır.

1995-ci ildə qəbul edilmiş Ermənistan Respublikası Konstitusiyasının preambulasında göstərilir ki, "erməni xalqı erməni dövlətçiliyinin fundamental prinsiplərinə və Ermənistanın Müstəqilliyi haqqında Bəyannamədə təsbit olunmuş milli məqsədlərə əsaslanaraq ... Ermənistan Respublikasının Konstitusiyasını qəbul edir" [15].

Buradan aydın olur ki, Konstitusiyanı qəbul edən iradə, yəni xalq belə məsləhət bilmişdir ki, Ali Qanun erməni dövlətçiliyinin fundamental prinsiplərinə və sözügedən Bəyannamədə təsbit edilmiş prinsiplərə əsaslanmalıdır. Bunun əksini iddia etmək – formal və erməni xalqının mövqeyi baxımdan – yanlışdır. Konstitusiya və Bəyannamə arasında mövcud əlaqə belədir ki, Konstitusiya Bəyannamənin əks etdirdiyi prinsiplərə zidd ola bilməz. Deməli, hər nə qədər Konstitusiya milli hüquq sisteminin əsası hesab edilsə də, onun özü də bəhsi keçən prinsiplərdən və məqsədlərdən asılı olmalıdır. Örnək versək, hipotetik olaraq X haqqında Ermənistan Respublikasının Qanunu Ermənistan Konstitusiyasına zidd ola bilməz. Burada əlaqə tərəfləri Qanun və Konstitusiyadır. Konstitusiya Qanundan bir pillə yuxarıda olduğundan ona münasibətdən daha üstün hüquqi qüvvəyə malikdir. Analoji olaraq digər bir əlaqədə tərəflər Bəyannamə və Konstitusiyadır. Burada iki fikir əsasında davam etmək mümkündür:

1. Konstitusiyanın preambulasında həmin tabeçilik aşkar şəkildə göstərilib (**formal əlamət**).
2. Hər bir xalq Konstitusiyanı tərtib edərkən müəyyən prinsip və ideyalara, mövqeyə əsaslanır (**maddi əlamət**).

Bu hal sadəcə Ermənistana xas deyil. Sovet İttifaqının süqutu dövründə 1990-cı ildə Baltika respublikalarının başlatdığı praktika, demək olar ki, bütün ittifaq üzvlərində, hətta bəzi muxtar qurumlarda da tətbiq edilmişdir. Əvvəlcə, müstəqilliyin bəyanını təsdiq edən bir sənəd qəbul edilmiş, ölkə adına və rejiminə təkmilləşmələr aparılmışdır. Bunun ardınca da digər hüquqi sənədlər ortaya çıxmışdır. Məsələn, Azərbaycan SSR ilə Ermənistan SSR-i müqayisə etsək, praktikanın ümumi konturları eyni olsa da, bəzi fərqlər vardır. Ermənistan SSR Ali Sovetinin Bəyannaməsi ilə ölkənin adı dərhal dəyişildiyi halda, Azərbaycan SSR-də ad dəyişikliyi (5 fevral 1991) və müstəqillik haqqında bəyannamə (30 avqust 1991) arasında vaxt fərqi olmuşdur. Əlavə olaraq, Azərbaycan parlamenti dövlət müstəqilliyi institutu üzrə Bəyannamə qəbulu ilə kifayətlənməmiş və ayrı bir ada malik Konstitusiya Aktı qəbul etmişdir (18 oktyabr 1991). Azərbaycan və Ermənistan Konstitusiyalarının əsaslandığı hüquqi aktlar arasında fərq də bundan qaynaqlanır – Azərbaycan Konstitusiyasının preambulası Bəyannaməyə deyil, Konstitusiya Aktına istinad edir [2].

Biz hesab edirik ki, preambulaları **xalqın iradəsindəki məqsəd və onun tərtibatçılarının mövqeyi** nöqteyi-nəzərindən təfsir etsək, ad fərqinə baxmayaraq, Bəyannamə və Konstitusiya Aktının müvafiq konstitusiyalara görə üstün hüquqi qüvvəsi eynidir – hər iki halda Ali Qanun yuxarıda göstərdiyimiz iki (maddi və formal) əlamətə görə özündə istinad edilən hüquqi aktın prinsiplərinə (Ermənistan Konstitusiyası isə həm də milli məqsədlərə) zidd ola bilməz.

Konstitusiya Aktının (və ya analoji aktın) Konstitusiyadan üstün hüquqi qüvvəsi təkcə Azərbaycan və Ermənistan üçün əhəmiyyət kəsb etmir, həm də hazırda yaşanan Ukrayna böhranında Rusiya tərəfinin tərəfsizlik baxımdan Ukraynanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktına istinad etməsi (Rusiya prezidentinin T.Karlsonla müsahibəsində [6]) onun zəruriliyi sübut edir.

Hüquqi qüvvədən söz açmışkən Konstitusiyadan daha üstün hüquqi qüvvəyə malik bir aktın taleyi məsələsinə də qısaca toxunmaq istərdik. Bizim fikrimizcə, Bəyannamə qanunvericilik baxımdan gözdən kənarda saxlanıla bilməz. Düşünülə bilər ki, **Bəyannaməni qəbul edən parlamentdir, lakin Konstitusiyanı qəbul edən xalqdır; buna görə də Bəyannamənin üstün qüvvəsi yoxdur** – fəqət bu fikrin doğruluğunu təkzib edən amil bəhs etdiyimiz **formal** əlamətdir. Burada haqlı sual yaranır: Məgər erməni xalqı iradə nümayiş etdirərək Konstitusiyanı qəbul edərkən preambuladakı Bəyannamə istinadını gözardımı etmişdi? Təbii ki, bunun əleyhinə də səs verilə bilərdi, lakin referendumdan keçmiş bir hüquqi aktda Bəyannamə bu aktın özündən üstün sayılmışsa, bu cəhətdən şərhə yer qalmır. Çünki Konstitusiyadan həmin hissəni çıxara biləcək xalqdan başqa xüsusi bir subyekt yoxdur. Xalqın dəyişmiş iradəsinin təzahürünədək Bəyannamə

Konstitusiyadan üstün olaraq qalacaqdır.

2.2. Bəyannamədə vətəndaşlıq institutuna münasibət

Bəyannamənin 4-cü maddəsinə əsasən,

4. **Ermənistan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlar** üçün Ermənistan Respublikasının vətəndaşlığı yaradılır. **Ermənistan Respublikasından kənarda yaşayan ermənilərin** Ermənistan Respublikasının vətəndaşlığı hüququ vardır. Ermənistan Respublikasının vətəndaşları onun himayəsindədirlər. Ermənistan Respublikası milliyyətindən, irqindən və dinindən asılı olmayaraq, vətəndaşların azad və bərabər inkişafını təmin edir [5].

Bəyannamə qüvvəyə mindiyi moment üçün (1990-cı il) Ermənistan SSR hüdudlarını kriteriya müəyyən etməklə 2 fərqli qrup müəyyənləşdirir:

A. Ermənistan SSR daxilində – SSRİ vətəndaşları – *vətəndaşlıq və ərazi*;

B. Ermənistan SSR-dən kənarda – sadəcə ermənilər – *milliyyət*.

Burada bir sıra mübahisəli məqamlar ortaya çıxır:

A. Ermənistan vətəndaşlığının haçan yaranması mübahisəlidir, çünki ittifaq fərdləri SSRİ vətəndaşı hesab edilir, qeydiyyatdan asılı olmayaraq, müttəfiq dövlətin spesifik vətəndaşlığını qazanmırdılar. SSRİ-nin süqutu ərəfəsində ittifaq üzvlərində bu cür xüsusi qanunlar qəbul edilməyə başlanılmışdı. Məsələn "Azərbaycan SSR vətəndaşlığı haqqında" 1990-cı il tarixli Azərbaycan SSR Qanunu [3] buna nümunədir. Qanun bir sıra müsbət cəhətləri ilə, məsələn, "Azərbaycan SSR vətəndaşlığı" institutu [maddə 1]; hər bir fərdin sovet vətəndaşı olmasına baxmayaraq, müttəfiq respublikaya Azərbaycan SSR vətəndaşının verilməsinin yolverilməzliyi [maddə 8] kimi hallarla seçilsə də, 23 may 1990-cı il tarixli, 1518-I nömrəli "SSRİ vətəndaşlığı haqqında" Sovet İttifaqı qanunu [14] ilə müəyyən edilmiş normaların ziddinə deyildi, faktiki olaraq, onu təkrar edirdi. 1990-cı il Azərbaycan SSR qanununda yenilik ondan ibarət idi ki, əvvəlki Sovet İttifaqı vətəndaşlıq qanunlarından (1938 və 1978) fərqli olaraq, vətəndaşın spesifik ittifaq üzvünə mənsubluğu əks edilirdi. Şübhə etmirik ki, bunda səbəb İttifaq çərçivəsində dəyişiklik idi, çünki 01 dekabr 1978-ci il tarixli, 8497-IX nömrəli Sovet İttifaqı qanununun [13] 1-ci maddəsi 1938-ci il tarixli qanunun ənənəsini davam etdirərək *vahid ittifaq vətəndaşlığı* (*Единое союзное гражданство*) konsepsiyasına əsaslanırdısa, 1990-cı il tarixli ittifaq qanununun 1-ci maddəsi belə adlanmamış, əlavə olaraq, orada göstərilmişdir: "*SSRİ-də ittifaq vətəndaşlığı yaradılmışdır. İttifaq respublikasının hər bir vətəndaşı, eyni zamanda SSRİ vətəndaşıdır. Muxtar respublikanın hər bir vətəndaşı, eyni zamanda muxtar respublikanın daxil olduğu ittifaq respublikasının vətəndaşı və SSRİ vətəndaşıdır*". Deməli, əvvəllər sadəcə SSRİ vətəndaşlığı olduğu halda, 1990-cı ildən etibarən **ikiləşmiş**, hətta **üçləşmiş** (muxtar qurumlar) vətəndaşlıqdan söhbət gedə bilərdi.

Azərbaycandan fərqli olaraq, Ermənistanda vətəndaşlıq haqqında Qanun bu dövrdən çox sonra – 1993-cü ildə qəbul edilmişdi. Buna görə də "Ermənistan Respublikası vətəndaşlığı" institutu sadəcə Bəyannamə ilə tənzimlənirdi, SSRİ qanunu isə *mutatis mutandis* (ziddiyyət təşkil etməyən hallarda) tətbiq edilə bilərdi.

SSRİ 1991-ci ilin dekabrında süqut etdikdə Ermənistan tam müstəqilləşmişdir, halbuki Bəyannamə 1990-cı ilə aiddir və "Ermənistan Respublikası vətəndaşlığı" institutunun yaradılmasını elan edir. Burada isə ikili vətəndaşlıq problemi üzə çıxır, məsələn 1990-cı ildə Ermənistanda yaşayan A. adlı fərd **müstəqil Ermənistan vətəndaşı** sayılmalıdır, yoxsa **sovet vətəndaşı?**;

B. 1990-cı ildə başqa müttəfiq respublikalarda qeydiyyatda olan, lakin an etibarilə Ermənistanda olan fərdlər, mütləq ki, var idi. Bəyannamə mətninə əsasən belə çıxır ki, Ermənistan SSR ərazisindəki fərdlərin hamısı avtomatik vətəndaşlıq əldə edirdi mi?;

C. Ermənistan SSR ərazisində qeydiyyatda olub, həmin an üçün Ermənistandan kənarda olan və milliyyətcə erməni olmayan fərd vətəndaş olmaq hüququndan məhrummu edilir?;

Ç. Ən əsası, 1990-cı ildə hələ də azərbaycanlıların əhəmiyyətli hissəsi Ermənistan SSR ərazisində idi və onların son qrupu təxminən Bəyannamə qəbulundan 1 il sonra – 1991-ci ilin avqustunda çıxarılmışdı. Yəni bu bir il aralığında, faktiki olaraq, Ermənistanın vəzifəli şəxsləri və fiziki şəxsləri erməni xalqının iradəsi əsasında qəbul edilmiş bir Bəyannamənin müddəalarını pozaraq Ermənistan SSR ərazisində olan və olduğu üçün vətəndaşlıq hüququna malik olan azərbaycanlı fərdləri hüdudlardan çıxarmış, nəticədə onların vətəndaşlıq və bundan irəli gələn digər hüquqlarını pozmuşdur.


Ç bəndi 1988-1991-ci, ən pis halda isə 1990-1991-ci illərdə yurdlarından didərgin salınmış azərbaycanlıların hüquqlarının pozulmasının birinci sübutudur. Özü də heç bir beynəlxalq akta istinada gərək belə duymadan, erməni xalqının iradə ifadəsi olan, müəyyən etdiyi prinsipləri Konstitusiyadan daha üstün Bəyannaməyə zidd hərəkətlərin təsdiqidir.

2.3. Tənzimlənən münasibətin xarakteri

Vətəndaşlıq münasibətlərində tərəf qismində bir halda dövlət və vətəndaş (vətəndaşlığın əldə edilməsi və s.), digər halda isə vətəndaş və vətəndaş (vətəndaşların bərabərliyi prinsipi və s.) çıxış edə bilir. Məqalə predmeti olan vətəndaşlıq münasibətləri (dövlət və vətəndaşın tərəf olduğu münasibətlər) xarakter etibarilə ***publik hüquqi münasibət***dir. Bu qənaətə gəlmək səbəbimiz xüsusi və ümumi (publik) hüququn təməllərindəki fərqdən irəli gəlir. Q.Radbruxun haqlı olaraq qeyd etdiyi kimi, *bərabərləşdirici və bölüşdürücü ədalət bərabərlik və ya tabeçilik əsasından asılı olaraq, ümumi və ya xüsusi hüquqa müraciət edir* [12, s. 163].

Dövlət və vətəndaş arasındakı vətəndaşlıq münasibətləri vətəndaşlığın sonradan və ya əvvəldən əldə edilməsindən asılı olmayaraq, zənnimizcə, publikdir, çünki dövlət vətəndaşla bərabər (*equality*) deyil, balanslaşdırılmış ədalət (*equity*) mövqeyində durur.

Tənzimlənən münasibətin müəyyən edilməsi Bəyannamənin zamana görə qüvvəsi prizmasından önəm kəsb edir. Zaman oxuna diqqət yetirək:



Məqalənin əvvəlki abzaslarında da qeyd etdiyimiz kimi, ən pis halda, 1990-cı ilin avqustundan (Bəyannamənin qəbulu) 1991-ci ilin avqustunadək deportasiya edilmiş azərbaycanlıların vətəndaşlıq hüquqları pozulmuşdur. Bunu publik hüquq münasibəti ilə əlaqələndirməyimizin səbəbi Bəyannamənin zamana görə qüvvəsi ilə əlaqədar potensial iddiaya cavab verməkdir. **Qarşı tərəfdən iddia edilməsi ehtimal olunur ki, həmin aralıqda (1988/1990-1991) "Ermənistan Respublikası vətəndaşlığı" institutunu tənzim edən qanunun yoxluğu deportasiyaya bu və ya digər formada haqq qazandırmış olsun.** Publik hüquq münasibətini tənzimləyən qanunların özəlliyi *statutory* tərzinə malik olma (yəni çərçivəyə salınmış, konkret tənzim edilən və qanunda birbaşa göstərilmədiyi və icazə verilmədiyi hallarda kənara çıxıla bilməyən), təfsirin şərtlərindən biri isə "qanunun fərq qoymadığı yerlərdə biz də fərq qoya bilmərik" (*ubi lex non distinguit, nec nos distinguere debemus*) qaydasıdır [7, s. 285-286, 339-340].

Buna görə də vətəndaşlıq münasibətini tənzimləyən Bəyannamədə və ya başqa bir hüquqi aktda həmin şəxslərin deportasiya edilməsinin, vətəndaşlıqdan məhrumedilmənin *statutory* əsası göstərilməli idi. Təfsirin şərtlərindən birinə qayıtsaq ("qanunun fərq qoymadığı yerlərdə biz də fərq qoya bilmərik"), qanun fərq qoymadığından Ermənistan SSR-dən qovulmuş azərbaycanlılara da fərq qoyulmamalı idi. Aşkardır ki, onların vətəndaşlıq hüquqlarından məhrum edilmələri elə həmin Bəyannamənin elan etdiyi prinsiplərə (vətəndaşların milliyyətdən asılı olmayan bərabərliyi) ziddir.

Əlavə olaraq, bu vətəndaşların qanunsuz məhrum edildikləri vətəndaşlıqlarını geri qazanması tələbi, hesab edirik ki, hansısa müddətə (ölüm halı istisna), məsələn iddia müddətinə və s. tabe tutula bilməz. Bunun da səbəbi publik xarakterli olmasıdır.

Nəticə

Apardığımız tədqiqatdan aşağıdakı nəticələrə gəlirik:

1) Soydaşlarımızın Qərbi Azərbaycana geri dönüşü kontekstində beynəlxalq hüquqi aktlarla yanaşı, Ermənistan qanunvericiliyi nəzərə alınmalı və şərh edilməlidir;

2) Qərbi Azərbaycana qayıdışın praktiki cəhətdən yalnız dövlətlərin razılaşması əsasında olsa da, onun hüquqi əsasları heç də belə razılıqla, bir sözlə, beynəlxalq hüquqla məhdudlaşmır;

3) "Ermənistan Dövlət Müstəqilliyi haqqında" Bəyannamə Ermənistan Respublikası qanunvericiliyinin bel sütunudur və hüquqi qüvvəsinə görə Konstitusiyadan daha üstün statusa malikdir;

4) "Ermənistan Respublikası vətəndaşlığı" institutu ilk dəfə Bəyannamədə tənzimlənmişdir. Bu Bəyannamə 1993-cü ildə Qanun qəbul edilənədək həmin institutu tənzimləyən yeganə hüquqi akt (*mutatis mutandis* Sovet qanunvericiliyi istisna) olmuşdur;

5) 1988-1991-ci illərdə soydaşlarımızın vətəndaşlıqdan məhrum edilməklə ata-baba torpaqlarından çıxarılması 1988-1990-cı illər üzrə sovet qanunvericiliyinin, 1990-1991-ci illər üzrə isə həmin Bəyannamənin pozuntusudur;

6) Bəyannamədə tənzim edilən vətəndaşlıq münasibətləri fərd (vətəndaş) və dövlət (Ermənistan Respublikası) arasında olduğundan publik xarakter daşıyır. Bunun məntiqi davamı olaraq, həm publik

münasibətlərin xarakteri, həm publik münasibətləri tənzimləyən qanunvericilik aktlarının *statutory* özəlliyə sahib olması, həm də qədim Romadan məlum olan təfsir şərti ("qanun fərq qoymursa, biz də qoya bilmərik") bir tərəfdən soydaşlarımızın torpaqlarından deportasiyası və vətəndaşlıqdan məhrum edilmələri ilə bağlı əsasın olmadığını ortaya qoyaraq pozuntunu təsdiq edir, digər tərəfdən ölüm halı istisna olmaqla vətəndaşlığın bərpası üçün müraciətə hər hansı zaman məhdudiyyəti tətbiq edilə bilməz.

Müəllif qeydi: Bu Bəyannamənin preambula hissəsində qeyri-qanuni şəkildə Azərbaycan SSR-ə tabe olan Dağlıq Qarabağ Muxtar Oblastı Ermənistana birləşdirilmiş qurum kimi göstərilmişdir. Buna görə də Bəyannamənin şərhi zamanı bu cür separatçı-subyektiv mövqe nəzərə alınmamışdır. Məqalədə də qeyd etdiyimiz kimi, "*...bizim müəyyən etməli olduğumuz məsələ Bəyannamə qəbulunun hüquqi qüvvəsinin mövcudluğu və Ermənistan SSR ərazisində yaşayan vətəndaşlara təsiridir. Bir sözlə, şübhəsiz, Bəyannamənin maddi tərəfi (Dağlıq Qarabağ iddiaları və s.) kifayət qədər birtərəflidir, fəqət tezisin məqsədinə nail olmaq üçün Bəyannaməyə formal istiqamətdən yanaşmaq lazımdır...*"

ƏDƏBİYYAT

1. Abdalov, N. Qərbi Azərbaycana qayıdış haqqımızdır. "Respublika" qəzeti, 15.06.2024. URL:https://respublika-news.az/az/news/1718460898-qerbi-azerbaycana-qayidis-haqqimizdir (son baxış 15.06.2024).
2. Azərbaycan Respublikasının Konstitusiyası (1995, 2024-cü il redaksiyası). URL: https://e-qanun.az/framework/897 (son baxış 15.06.2024).
3. "Azərbaycan SSR vətəndaşlığı haqqında" 1990-cı il tarixli Azərbaycan SSR Qanunu. URL: http://web2.anl.az:81/read/page.php?bibid=vtls000069441 (son baxış 15.06.2024).
4. Cəfərov, Z. Qərbi Azərbaycana qayıdışın beynəlxalq hüquqi əsasları. Xalq Qəzeti, 14.12.2023. URL:https://xalqqazeti.az/az/sosial-heyat/153826-qerbi-azerbaycana-qayidisin-beynelxalq-huquqi (son baxış 15.06.2024).
5. Declaration on Independence of Armenia, 23.08.1990. URL:https://cis-legislation.com/document.fwx?rgn=2902 (son baxış 15.06.2024).
6. Full text transcript of interview of President of Russian Federation, Vladimir Putin with Tucker Carlson. URL:https://www.miragenews.com/full-text-transcript-of-tucker-carlson-putin-1171489/ (son baxış 15.06.2024).
7. Gözler, K. Hukuka giriş. 19. Baskı. Bursa: Ekin yayınları, 2022 – 540 syf.
8. Hüseynova, İ. "Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir". Xalq Qəzeti, 27.04.2024. URL:https://xalqqazeti.az/az/siyaset/176298-qerbi-azerbaycana-qayidis-tarixi-zeruretdir (son baxış 15.06.2024).
9. "Qərbi Azərbaycana qayıdış" konsepsiyası. Axundov adına Milli Kitabxananın elektron məlumat bazası. URL:https://anl.az/el/emb/Qerbi_Azerbaycan/Konsepsiya.htm (son baxış 15.06.2024).
10. Mehdiyev, P. Qərbi Azərbaycana qayıdış və işğal dövrü: Hüquqi aspektlər. AzərTAc. URL:https://azertag.az/xeber/qerbi_azerbaycana_qayidis_ve_isgal_dovru_huquqi_aspektler-2845127 (son baxış 15.06.2024).
11. Nağıyev, R. Qərbi Azərbaycana qayıdış haqq davamızın yeni səhifəsidir. YAP xəbərləri, 28.12.2022. URL: https://www.yeniazerbaycan.com/YAPxeber_e78888_az.html (son baxış 15.06.2024).
12. Radbrux, Q. "Hüquq fəlsəfəsi". Bakı: Qanun, 2016, – 272 s.
13. "SSRİ vətəndaşlığı haqqında" 01 dekabr 1978-ci il tarixli, 8497-IX nömrəli Sovet İttifaqı Qanunu. URL:http://www.kaznachey.com/doc/aRWM0558DCW/ (son baxış 15.06.2024).
14. "SSRİ vətəndaşlığı haqqında" 23 may 1990-cı il tarixli, 1518-I nömrəli Sovet İttifaqı Qanunu. URL:https://base.garant.ru/6335804/ (son baxış 15.06.2024).
15. The Constitution of the Republic of Armenia (1995, revised version 2015). URL:https://www.constituteproject.org/constitution/Armenia_2015 (son baxış 15.06.2024).

ABSTRACT

Sıyavush BAGHİROV

INTERPRETATION OF ARTICLE 4 OF THE DECLARATION ON ARMENIAN STATE INDEPENDENCE FROM THE PERSPECTIVE OF RETURN TO WESTERN AZERBAIJAN

After the war in 2020, the subject of returning to Western Azerbaijan has become more and more significance. This thesis deviates from the conventional interpretation found in the state's contemporary legal community and daily life by focusing on the interpretation of constitutional act of the other party to dispute – the Republic of Armenia. The thesis's goal is to examine the notion of "citizenship of the Republic of Armenia" as it is expressed in Article 4 of the "Declaration of Independence of Armenia" and apply it to the Azerbaijanis who were illegally lost citizenship rights after being forcibly removed from their ancestral lands between 1988 and 1991. The thesis addresses the legal effect ratio between the Declaration and the Constitution, the current relevance of their norms, and the applicability of these norms to the subject of the thesis, arriving at several scientific conclusions. The thesis is formulated objectively, free from literature and approaches laden with non-legal content.

Keywords: *Western Azerbaijan, constitution, declaration of independence, legal effect, citizenship*

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞIN HÜQUQİ ASPEKTLƏRİ: İNSAN HAQLARI VƏ HÜQUQİ TƏMİNATLAR

Yusif MİRZƏZADƏ
yusifmirzezade@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri bu sahədə qəbul edilmiş mühüm beynəlxalq-hüquqi sənədlər və milli qanunvericilik əsasında ətraflı şəkildə təhlil olunur. Bu sahə üzrə dünya praktikası və ölkə qanunvericiliyi sistemli şəkildə tədqiq olunaraq mövcud problemlər və onların həlli istiqaməti, o cümlədən insan hüquqları və hüquqi təminatlar göstərilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, deportasiya, beynəlxalq hüquqi aktlar, insan hüquqları, milli qanunvericilik, hüquqi təminatlar, İnsan hüquqları üzrə Beynəlxalq Bill*

2020-ci il 27 sentyabrda başlayan və 44 gün davam edən Vətən müharibəsi və 24 saatlıq antiterror əməliyyatı ilə Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsilə Azərbaycan Respublikası öz ərazi bütövlüyünün təmin olunması istiqamətində əsaslı addım atdı. Qarabağa və Şərqi Zəngəzura qayıdışın reallaşması ilə vaxtilə öz dədə-baba yurdlarından qovulmuş yüzlərlə insanın pozulmuş hüquqları bərpa edilmiş oldu. Bu gün 30 illik həsrətin ardından Qarabağa və Şərqi Zəngəzura qayıdan yüzlərlə azərbaycanlı kimi 1 əsrdən artıqdır ki, Qərbi Azərbaycandan əsassız və qeyri-qanuni şəkildə qovulan yüzlərlə azərbaycanlı da tarixi ədalətin və hüququn bərpasını həsrətlə gözləyir. Beynəlxalq hüquqi aktlar və milli qanunvericilik çərçivəsində Qərbi Azərbaycandan deportasiyaya məruz qalmış insanların hüquqlarının bərpa olunması bu gün Azərbaycanda hüquq elminin əsas məqsədləri sırasındadır. Bu nöqteyi-nəzərdən Qərbi Azərbaycana qayıdışın hüquqi aspektlərinin işlənilməsi, hadisələrə düzgün hüquqi qiymətin verilməsi məqsədilə vaxtilə baş vermiş tarixi hadisələrə nəzər yetirmək lazımdır.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın şimal xanlıqlarının Çar Rusiyası tərəfindən işğalı və Rus-İran və Rus-Türk müharibələrinin gətirdiyi fəlakətlər Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni həyatına ciddi təsir göstərdi. 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycan torpaqlarının rəsmi olaraq iki hissəyə parçalanması, ilk dəfə olaraq Şimali Azərbaycan və Cənubi Azərbaycan terminlərinin ortaya çıxması, milli dövlətçiliyini və müstəqilliyini itirən Azərbaycanın iki müxtəlif dövlətin tərkibində fərqli inkişafa qədəm qoymasını bu faciələr sırasına aid etmək olar. Region üçün digər bir faciə isə 1828-ci il Türkmənçay müqavilənin nəticəsində 40 000, 1829-cu il Ədirnə müqaviləsilə isə 90 000 ermənin Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisinə köçürülməsi oldu. Cənubi Qafqazda uzunsürən və köklü müstəmləkəçilik sistemi yaratmaq, əhalinin etnik tərkibinin süni yolla dəyişdirmək, Cənubi Qafqazdakı türk-müsəlman amilini zəiflətmək və xalqa milli kimliyini unutdurmaq Çar Rusiyasının gələcəyə hesablanmış, məkrli siyasətinin bariz nümunələri sırasında idi.

Qeyd olunan tarixi hadisələrin baş verməsilə Azərbaycan təqribən 90 il Çar Rusiyasının müstəmləkəçilik siyasətinin qurbanı oldu. Təqdirəlayiq haldır ki, keçən 1 əsrə yaxın bir dövr Azərbaycan xalqına öz milli kimliyini unutdurmadı, əksinə xalqın milli təfəkküründə və məfkurəsində azadlıq və müstəqillik meyilləri gücləndirdi. Nəticədə yaranmış real və münbit şəraitdən və Rusiyada baş verən siyasi böhrandan məharətlə istifadə edən Azərbaycan 1918-ci il 28 mayda öz dövlət müstəqilliklərini elan edərək, Azərbaycan uzun müddətdən sonra öz dövlətçiliyini bərpa etdi və Türk-İslam dünyasında ilk demokratik və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini yaratdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması böyük uğur və siyasi hadisə olmaqla bərabər, özü ilə böyük çətinliklər də gətirmişdi. Belə ki, qarşıda duran yeni hakimiyyət mexanizminin formalaşdırılması, dövlətin tanınması istiqamətində bir sıra danışıqları və diplomatik yazışmaların həyata keçirilməsi, qanunverici bazanın formalaşdırılması, silahlı qüvvələrin və nazirliklərin təşkili kimi prioritet məsələlərin yanınca, ermənilərin təcavüzkar addımları, sərhədyanı bölgələri mütəmadi hücumlar tarixin yeni yaranmış dövlət üzərinə qoyduğu böyük öhdəliklər idi. Məhz buna görə, ermənilərin Qarabağ və Naxçıvana olan iddialarından əl çəkməsi şərtilə Azərbaycan Milli Şurasının qərarına əsasən, 9 000 km^2 ərazini əhatə edən İrəvan şəhəri siyasi mərkəz kimi 1918-ci ilin 29 may tarixində Ermənistana güzəştə gedildi. İrəvanın verilməsilə ermənilərin Azərbaycan torpaqlarına olan iddialara müəyyən dərəcədə əsas yarandı. Beləliklə, hüquqi və qanuni olaraq

113,9 km^2-lik bir əraziyə malik olan Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur, Qaryagin, Şuşa, Cavanşir, Lənkəran, Cavad, Bakı, Şamaxı, Quba, Göyçay, Nuxa, Ərəş, Gəncə və Qazax qəzalarından, Göyçə və Zaqatala dairələrindən ibarət olmaqla, faktiki olaraq 100,6 km^2-lik bir ərazi olaraq müəyyənləşdi. İrəvanın ermənilərə verilməsilə ermənilərin təcavüzkar addımlarının qarşısı alınmadı, əksinə digər tarixi Azərbaycan ərazilərinə iddialarının yaranmasına bəhanə oldu. Bu səbəbdən, İrəvanın ermənilərə verilməsi Azərbaycan tarixində yol verilmiş ən böyük səhvliklərdən biri kimi qiymətləndirilir.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətinin ardından sovetpərəst qüvvələrin xəyanəti ilə 28 aprel 1920-ci ildə Azərbaycanda müstəqil dövlətçiliyə son qoyuldu və Azərbaycanda sovet hakimiyyətinin qurulduğu elan olundu. Bərabərlik, demokratiya və digər sözdə sosializm prinsiplərini özünə rəhbər tutan, Moskva mərkəzli bir quruluş Azərbaycanda heç də müstəqillik meyillərinin və xalqın mənafelərinə xidmət edən dövlətin mövcudluğuna maraqlı deyildi. Bu səbəbdən, hakimiyyət orqanlarındakı ən yüksək vəzifələrə qeyri-azərbaycanlıların ermənilərin, rusların, gürcülərin və yəhudilərin gətirilməsilə hakimiyyət qısa müddətdə ələ alındı.

Belə bir şəraitdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları gücləndi. Qərbi Azərbaycanda qurulan Ermənistan dövləti Sovet Rusiyasının hərtərəfli köməyi ilə yeni torpaqlar ələ keçirmək uğrunda fəallaşdı. Fəallaşmanın əsas səbəblərindən biri İosif Stalinin qoyduğu şərtlə birbaşa bağlı idi. Şərtə əsasən, Zəngəzur ermənilərə o şərtlə veriləcəkdir ki, ermənilər sovetləşməni qəbul etsinlər. Bununla həm Sovet rəhbərliyi Cənubi Qafqazda türk-müsəlman etnik-siyasi amilinə ağır zərbə endirəcək, həm Cənubi Qafqazın etnik tərkibinin dəyişməsinə "töhfə" verəcək, həm də Cənubi Qafqazda öz maraq və mənafelərinə xidmət edən oyuncaq "Ermənistan" dövlətinin sözdə ərazilərini genişləndirəcəkdi. Bu çirkli amal uğrunda 1920-ci il avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında bağlanan müqaviləyə əsasən, Şərur-Dərələyəz bölgəsi Ermənistana verildi, hətta Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsi "mübahisəli ərazi" hesab edildi. Şərur-Dərələyəzin Ermənistana verilməsindən çox keçməmiş Sovet Rusiyasının Qafqaz işlərində əsas rəhbərləri olan İosif Stalin və Q.Orconikidzenin "böyük" xidmətləri və 1920-ci il noyabrın 30-da Azərbaycanın ali partiya rəhbərliyinin qəbul etdiyi qərarda Azərbaycanın və Sovet Ermənistanının arasında heç bir sərhədin olmamasının vurğulanmasilə 1921-ci ilin yayında Yuxarı (Qərbi) Zəngəzur Ermənistana verildi. 1920-ci illərdə Qazax və Cəbrayıl qəzalarının bir sıra torpaqlarının, 1929-1930-cu illərdə Ordubadın və Zəngəzurun bir hissəsinin, Zəngilanın bir sıra kəndlərinin Ermənistana verilməsi və bu ərazidə Mehri rayonunun yaradılmasının nəticəsində Naxçıvanla Azərbaycanın digər torpaqları arasında quru sərhədlərinin bağlanması nəticəsində Qərbi Azərbaycanın ermənilər tərəfindən işğalı tam şəkildə başa çatdırıldı.

Qərbi Azərbaycanın ermənilər tərəfindən zəbt edilməsilə ermənilər və onların havadarları bu prosesin sözdə hüquqi mərhələsini bitirmiş oldular. Amma Ermənistana pay verilən ərazilərdə yaşayan əhalinin say tərkibi güzəştə gedilən torpaqların əsl sahibləri haqda kifayət qədər məlumat verirdi. Məhz bu məqsədlə Qərbi Azərbaycanda yaşayan azərbaycanlı əhaliyə divan tutuldu və mərhələli şəkildə regionun və ölkənin milli tərkibinin dəyişdirilməsi istiqamətində azərbaycanlıların etnik təmizlənməsi və deportasiyası təşkil olundu. XX əsrin ilk rübündə baş vermiş bu hadisələr ilə Qərbi azərbaycanlıların ilk deportasiyası kimi tarixə düşdü.

Qərbi azərbaycanlıların kütləvi deportasiyası II Dünya müharibəsindən sonra - 1948-1953-cü illərdə İ.Stalinin göstərişi ilə həyata keçirildi və SSRİ-nin süqutuna qədər daimi bir tendensiya ilə davam etdirildi. ABŞ, Qərbi Avropa və Yaxın Şərqdə yaşayan ermənilərin "vətən"ə qayıtmaq istəyi adı altında Qərbi Azərbaycanda türk-müsəlman etnik-siyasi amilini zəiflətmək SSRİ və Ermənistan SSR rəhbərliyinin maraq və mənafelərinə uyğun gəlirdi. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 nömrəli qərarı, 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 nömrəli ikinci qərar əsasında 150 minə yaxın azərbaycanlı yaşadıqları yerlərdən didərgin salmaraq öz doğma torpaqlarından köçürüldü [3]. Beləliklə, azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasının II mərhələsi həyata keçirildi.

Azərbaycanlıların sonuncu deportasiyası isə elə bir zamanda baş tutdu ki, bu zamanda ermənilər azərbaycanlı əhalinin deportasiyasını tələb etməklə yanaşı, torpaq iddiaları da irəli sürürdülər. 1988-1991-ci illəri əhatə edən bu deportasiya nəticələrinə, ağırlığına və baş verdiyi tarixi dövr etibarilə digərlərindən fərqləndirilir. Qeyd olunan sonuncu deportasiya Nüvədi kəndindən sonuncu azərbaycanlı ailələrin, ümumilikdə keçən 1 əsrə yaxın bir müddətdə, iki milyona yaxın soydaşımız öz tarixi vətənindən köçürülmüş, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək 500 min insan vəhşicəsinə öldürüldü və 30 minə yaxın ev dağıdıldı, ciran qoyuldu [3].

Qeyd olunan tarixi hadisələr Qərbi Azərbaycana qayıdışın baş verməsi üçün etibarlı əsas yaradır. Hüquqi

aspektlərinin işlənilməsinin əhəmiyyəti bir neçə istiqamət üzrə müəyyən olunmalıdır. Birinci istiqamət hüquqi legitimliyin təmin olunmasıdır. Hüquqi legitimlik əsasında qayıdışa hüquqi qiymətin verilməsi qayıdış prosesinin qanuni çərçivədə həyata keçirilməsi və beynəlxalq hüquqa uyğunluğunu təmin edir. Bu, Qərbi Azərbaycana qayıdacaq şəxslərin hüquqlarının tanınması və qorunması baxımından əhəmiyyətlidir. İkinci istiqamət ədalət və insan hüquqlarının bərpa edilməsidir ki, zorla köçürülmüş və ya qaçqın vəziyyətinə salınmış insanların hüquqlarının tanınması və bərpası istiqamətində addımların atılması prioritet məsələlərdən biridir. Digər bir məsələ hüquqi mühafizənin və təhlükəsizliyin təmin edilməsidir. Beynəlxalq təşkilatlar xətti ilə şəxslərin fiziki və hüquqi təhlükəsizliyinin təminat altına alınması və onların təhlükəsiz və ləyaqətli şəkildə qayıtması üçün zəruri hüquqi tədbirlərin görülməsi beynəlxalq dəstəyin göstərilməsi nöqteyi-nəzərindən qiymətli hesab olunmalıdır. Qeyd olunan istiqamətlər üzrə qayıdışın hüquqi aspektlərinin işlənilməsilə həm tarixi ədalətin bərpa ediləcək, həm insanların pozulmuş hüquqları dinc yolla bərpa olunacaq, həm də qayıdışın hüquqi legitimliyi təmin edilmiş olacaqdır.

Qərbi Azərbaycana qayıdışın hüquqi aspektlərinin müəyyən olunmasını 2 istiqamət - beynəlxalq hüquqi aktlar və milli qanunvericilik üzrə müəyyənləşdirə bilər. Burada əsas məqsəd hüquqi aktlar vasitəsilə insanların pozulmuş hüquqlarının dilə gətirilməsi, hüquqların bərpa edilməsi, tarixi gedişata dəstək verən təqsirli şəxs və ya şəxslərin beynəlxalq tribunalarda məsuliyyətə cəlb olunması və digər məsələlər üzrədir.

Qərbi Azərbaycan qayıdışın hüquqi aspektlərinin müəyyən edilməsində beynəlxalq hüquqi aktların rolu danılmazdır. Belə ki, qayıdışın hüquqi aspektlərinin beynəlxalq hüquqi aktlar müstəvisində müəyyən olunmasının əhəmiyyəti yuxarıda qeyd olunan məsələlərdən əlavə, beynəlxalq standartların tətbiqi, beynəlxalq insan hüquqlarının təminatı, sülh və sabitliyin təmin edilməsi, beynəlxalq birliyin dəstəyi kimi məsələlərdə özünü büruzə verir. Qayıdışa beynəlxalq hüquqi aktlar müstəvisində qiymət verilməsi bir sıra beynəlxalq aktlarla həyat keçirilməlidir. Bunlardan biri və birincisi ***Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları üzrə Beynəlxalq Bill***-idir. Bill ümumilikdə 3 əsas beynəlxalq hüquqi sənəddən ibarətdir ki, bunlar ***Ümumdünya İnsan hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktdır.*** Qərbi Azərbaycanda qayıdışın hüquqi aspektlərinin işlənilməsində, Qərbi azərbaycanlıların pozulmuş hüquqlarınının bərpası və buna beynəlxalq hüququn prinsipləri və normaları çərçivəsində qiymət verilməsi adları qeyd olunan 3 beynəlxalq hüquqi aktın əsasında həyata keçirilməlidir. İlkin olaraq ***Ümumdünya İnsan Hüquqları Bəyannaməsi*** bütün insanların bərabər və ayrılmaz hüquqlara sahib olduğunu bəyan edərək dövlətlərə əsas hüquq və azadlıqların tanınmasını məqsəd qoyur [8]. Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarından qovulması ilə Ermənistan və köhnə SSRİ rəhbərliyi bəyannamədə yer alan əksər insan hüquq və azadlıqlarına qəsd etmişdirlər. Bunlardan bir neçəsinə nəzər yetirək:

Maddə 2.

Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, anadangəlmə mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır [8].

Maddə 3.

Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir [8].

Bəyannamənin II və III maddələrindən bəyan edilənin ziddinə olaraq vaxtilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın milli və dini ayrı-seçkiliyə, anadangəlmə mənsubiyyətə görə qısnamalara və zorakılığa məruz qalaraq deportasiya olunması onların bərabərlik, şəxsi toxunulmazlıq, yaşamaq və azadlıq hüquqlarına qarşı qəsd kimi qiymətləndirilməlidir.

Maddə 13.

13.1. Hər bir insan, hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir [8].

13.2. Hər bir insan, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir [8].

Bəyannamənin 13-cü maddəsində əksini tapan müddəalarda bəyan edildiyi kimi insan şəxsi iradəsi əsasında sərbəst hərəkət etmək və yaşayış yerini seçməkdə sərbəstdir. Amma bunun ziddinə olaraq Qərbi azərbaycanlılar 3 mərhələdə - 1905-1920, 1948-1953, 1988-1991-ci illərdə deportasiyaya məruz qalaraq öz yaşayış yerlərindən zorla didərgin salınmışdır.

Maddə 26.

26.1. Hər bir insan təhsil almaq hüququna malikdir [8].

İnsan hüquqları ilə bağlı olan əksər konvensiyalar və paktlardan yer alan müstəsna hüquqlardan biri kimi təhsil almaq hüququ Bəyannamənin 26-cı maddəsinin I bəndinin ziddinə olaraq kütləvi deportasiya ilə

yüzlərlə azyaşlının təhsil almasına mane olunmuş, onlarla məktəb dağıdılmış və təhsil ocaqları viran qoyulmuşdur.

Qayıdışın hüquqi aspektlərinin müəyyən olunmasında digər bir beynəlxalq hüquqi sənəd 1966-cı ildə Birləşmş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunan ***Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktdır***. Pakta tərəf çıxan hər bir dövlət yaşamaq, təhlükəsizlik, söz azadlığı və digər mülki və siyasi hüquqların təmin edilməsini öz öhdəliyinə götürdüyünü bəyan edir [7]. Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarından qovulması ilə Ermənistan və köhnə SSRİ rəhbərliyi paktda yer alan əksər mülki və siyasi hüquqlara - yaşamaq və sağ qalmaq hüququ [maddə 6], azadlıq və sərbəst hərəkət etmək hüququ [maddə 12], şəxsi həyat və onun qanunla qorunması hüququ [maddə 13], uşaq hüquqları [maddə 24] və digər hüquqlara qəsd etmişdir [7]. Qeyd olunan maddələrdən əlavə, Paktın 24-cü və 25-ci maddələrinə xüsusi diqqət yetirmək lazımdır:

Maddə 24. *Müharibə təbliğatının və ya milli, irqi və ya dini nifrətin təbliğatı* [7].

Paktın bu maddəsinə diqqəti cəlb etməkdə əsas məqsəd azərbaycanlıların təkcə silah gücü və zorla deyil, eyni zamanda müxtəlif təbliğat-təşviqat kampaniyaları ilə azərbaycanlılara qarşı zorakılıq və sıxışdırma tədbirlərinin həyata keçirilməsilə də müşayiət olunmuşdur.

Maddə 25. *Səs vermək, seçmək və seçilmək* [7].

Qərbi Zəngəzurun qeyri-qanuni əsasla 1921-ci ildə Ermənistana verilməsi zamanı ərazidə xalq sorğusu və ya referendumun keçirilməməsi əsas insan hüquqlarından olan seçki hüququnun məhdudlaşdırılmasilə bərabər, bu paktın 25-ci maddəsininin pozulması halı kimi qiymətləndirilməlidir.

Qayıdışın hüquqi aspektlərinin müəyyən olunmasında digər bir beynəlxalq hüquqi sənəd 1984-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunan ***İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiyadır***. Bu Konvensiyanın iştirakçı dövlətləri Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində elan edilmiş prinsiplərə müvafiq surətdə, insana məxsus ləyaqətin və insan birliyinin bütün üzvlərinin bərabər və bölünməz hüquqlarının tanınmasının bütün dünyada azadlığın, ədalətin və sülhün əsası olduğunu hesab edərək, bu hüquqların insana məxsus ləyaqətdən irəli gəldiyini nəzərə alaraq, dövlətlərin Nizamnaməyə müvafiq olaraq, insan hüquqlarına və əsas azadlıqlarına hamılıqla hörmət və riayət edilməsini dövlətlər qarşısında məqsəd qoyur [9]. Dünya miqyasında irili-xırdalı böyük əksəriyyəti əhatə edən dövlətlərin qoşulduğu bu Konvensiya insanlara qarşı bütün zorakılıq, işgəncə, ləyaqətsiz və qeyri-insani davranışları birmənalı şəkildə rədd edir. Qərbi Azərbaycandan deportasiya zamanı bu kimi hallara yol verildiyini nəzərə alsaq, bu konvensiyanı BMT-nın pozulmuş konvensiyaları siyahısına aid edə bilərik. Bu məqamda Konvensiyanın pozulmuş müddəaların birinə nəzər yetirək:

Maddə 2.

2.1. Hər hansı bir iştirakçı dövlət öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncə hərəkətlərinin qarşısını almaq üçün təsirli qanunvericilik, inzibati, məhkəmə və ya digər tədbirləri görür.

2.2. Necə olmasından asılı olmayaraq, heç bir müstəsna hal: müharibə vəziyyəti və ya təhlükəsi, daxili siyasi qeyri-sabitlik, yaxud hər hansı digər fövqəladə şərait - işgəncəyə bəraət qazandıra bilməz.

2.3. Yüksək vəzifəli şəxsin, yaxud dövlət hakimiyyəti orqanının əmri işgəncə verilməsinə bəraət qazandıra bilməz [9].

II maddənin II bəndində qeyd olunanın ziddinə olaraq onlarla öz yurdunu tərk etmək istəməyən azərbaycanlı müxtəlif növ işgəncələrə və qısnamalara məruz qalmışdır. Hətta bu kimi işgəncə, zorakılıq və digər qeyri-insani davranışların tətbiq edilməsi dövrün yüksək vəzifəli şəxslərinin birbaşa əmri ilə həyata keçdiyinə görə maddənin III bəndi də pozulmuşdur.

Bundan başqa, haqqında danışılan Konvensiyanın işgəncə törədən şəxs və ya şəxslərə qarşı heç bir hüquqi tədbir görülmədiyi və cəzalandırılmadığı təqdirdə IV və V maddələri, dövlət tərəfindən işgəncənin, qeyri-insani davranışların, ləyaqəti alçaldan rəftarın və digər halların qarşısı alınmadığına görə isə Konvensiyanın XVI maddəsi qəti şəkildə pozulmuş olur [9]. Nəticə etibarilə, Qərbi azərbaycanlılara qarşı qeyri-insani və ləyaqətsiz addımların atılması ilə orta hesabla Konvensiyanın 7-ə yaxın müddəası kobud şəkildə pozulmuşdur.

Qayıdışın hüquqi aspektlərinin müəyyən olunmasında digər bir beynəlxalq hüquqi sənəd 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunan ***Uşaq Hüquqları Konvensiyasıdır.*** Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan insanların üçdə birindən çoxu azyaşlılar və uşaqlar idilər ki, deportasiya və etnik təmizləməyə məruz qalmaları uşaqların inkişaf, yaşamaq, müdafiə və iştirak hüquqlarına qəsd edilmişdir [5].

Uşaq Hüquqları Konvensiyanın **28-ci maddəsinə** əsasən, "*Uşaq təhsil hüququna malikdir, buna görə də dövlətin vəzifəsi pulsuz və icbari ibtidai təhsili təmin etməkdən, hər bir uşağın ala biləcəyi orta təhsil*

verilməsini həvəsləndirməkdən, bilik əsasında hamının ali təhsil almaq imkanını təmin etməkdən ibarətdir" [5]. Konvensiyanın bu maddəsində ehtiva olunanın ziddinə olaraq Qərbi Azərbaycanda yaşayan azyaşlılar və uşaqlar deportasiya tədbirlərinin qurbanı olaraq, təhsildən tamamilə uzaqlaşmış, bunun yanınca məktəblər dağıdılmış, viran qoyulmuşdur. Ümumilikdə, ermənilər tərəfindən Konvensiyanın 6 maddəsi qəti şəkildə pozulmuşdur ki, bunların beynəlxalq tribunalarda cinayət məsuliyyətinə cəlb olunma üçün kifayət qədər əsas yaradır.

Qayıdışın hüquqi aspektlərinin müəyyən olunmasında digər bir beynəlxalq hüquqi sənəd Avropa Şurası tərəfindən qəbul olunan və Avropada insan hüquqlarını və siyasi azadlıqlarını müdafiə edən beynəlxalq konvensiya olan ***Avropa İnsan Hüquqları Konvensiyasıdır*** *[6]*. Digər beynəlxalq hüquqi aktlarla olduğu kimi, deportasiya və digər qeyri-insani davranışların edilməsilə Qərbi Azərbaycanda vaxtilə yaşayan azərbaycanlıların hüquqları Konvensiyada əksini tapan ümumilikdə 8 müddəanın kobud şəkildə pozulması ilə müşayiət olunaraq tarixi ədalətsizliyin və qeyri-legitimliyin əsasını qoymuşdur [6]:

Maddə 2 – ***Yaşamaq hüququ*** **Maddə 8 –** ***Şəxsi və ailə həyatına hörmət hüququ***
Maddə 3 – ***İşgəncələrin qadağan olunması*** **Maddə 9 –** ***Fikir, vicdan və din azadlığı***
Maddə 5 – ***Azadlıq və toxunulmazlıq hüququ*** **Maddə 10 –** ***İfadə azadlığı***
Maddə 7 - ***Qanunsuz cəzalandırılmamaq*** **Maddə 14 –** ***Ayrı-seçkiliyin qadağan olunması***

Qərbi Azərbaycan qayıdışın hüquqi aspektlərinin müəyyən edilməsində beynəlxalq hüquqi aktlarla yanaşı, milli qanunvericiliyin də rolu xüsusi vurğulanmalıdır. Qanunvericiliyimizin əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyasının ***"Əsas insan və vətəndaş hüquqları və azadlıqları"*** adlı III fəslində təsbit olunmuş insan hüquqları Konstitusiyamızın 26-cı maddəsilə Azərbaycan Respublikası tərəfindən qorunur [1]. Konstitusiyamızın 12-ci maddəsində də təsbit olunduğu kimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir [1]. Bu nöqteyi-nəzərdən vaxtilə Qərbi Azərbaycandan deportasiya olunmuş və etnik təmizləməyə məruz qalmış insanların hüquqlarının bərpa olunması bu gün Azərbaycanda Hüquq elminin qarşısında duran əsas məqsədlərdən biridir. Ali qanunumuz olan Konstitusiyada əksini müddəalar, qanunlar və digər normativ hüquqi aktlar bu istiqamətdə vahid və mərkəzləşmiş bir hüquqi konsepsiyanın işlənib hazırlanmasına kifayət qədər təkmil bir hüquqi bazadır.

Ümumilikdə Qərbi Azərbaycandan həmvətənlilərimizin deportasiyası, etnik təmizləməyə və digər qeyri-insani davranışlara məruz qalması Konstitusiyamızın III fəslində təsbit olunmuş əksər hüquq və azadlıqlara qəsd tərkibi daşıyır. Bir neçə nümunə üzərindən araşdırma aparaq:

Maddə 27. Yaşamaq hüququ [1]

Yaşamaq hüququ insan hüquqlarının müdafiəsi üzrə istənilən sistemdə ən mühüm hüquqdur. Çünki ilkin halda bütün hüquqlar əsasını təbii hüquqlardan götürdüyünə görə konfiqurasiyanın əsası məhz yaşamaq hüququ hesab olunur [2]. O, bütün digər hüquqlar üçün ilkin məntiqi şərtdir və təsadüfi deyil ki, insan hüquqlarının ümumi ifadəsi olan beynəlxalq sənədlərdə yaşamaq hüququ ən öndə gələn insan hüquqlarındandır. Məsələn, İnsan Hüquqları üzrə Universal Bəyannamənin 3-cü, Avropa insan hüquqları və əsas azadlıqları haqqında Konvensiyanın 2-ci, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı, İnsan Hüquqları üzrə Amerikaarası Konvensiyanın 4-cü, İnsan və xalqların hüquqlarına dair Afrika Xartiyasının 4-cü maddəsi yaşamaq hüququnu nəzərdə tutur.

Ümumiyyətlə, yaşamaq hüququ dedikdə, insanın bir sosial varlıq olaraq maddi nemətlərdən və mənəvi dəyərlərdən yararlanması, o cümlədən ona heç bir maneə qoyulmadan fiziki, bioloji və fərdi mövcudiyyətinin olması və qəbul edilməsi başa düşülür. Bu səbəbdən vaxtilə müxtəlif növ zorakılıqlara və etnik təmizlənməyə məruz qalan insanların həyatına hərtərəfli qəsd edilmiş, yaşamaq hüquqları pozulmuşdur.

Qeyd olunduğu kimi, müasir dövrdə dövlətin sosial əsasında insana qayğı dayandığından insanların hüquq və azadlıqlarının təmin olunması, o cümlədən layiqli həyat standartlarının artırılması yaşamaq hüququna əsaslanır. Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində əksini tapmış *"Yaşamaq hüququ"*na dair müddəaya əsasən hər kəsin yaşamaq hüququ vardır və yaşamaq hüququ toxunulmazdır [1]. İstənilən halda insan həyatına qarşı olan hər növ davranış və hərəkət bəzən dolayı, bəzən isə birbaşa yolla yaşamaq hüququna qəsdə gətirib çıxarır. Bu səbəbdən Qərbi Azərbaycandan deportasiyaya məruz qalmış 1,5 milyona yaxın azərbaycanlının öz dədə-baba yurdlarından köçürülməsilə yaşamaq hüquqlarına kobud şəkildə qəsd edilmişdir.

Maddə 29. Mülkiyyət hüququ [1]

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan

onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Maddə 33. Mənzil toxunulmazlığı hüququ [1]

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Maddə 43. Mənzil hüququ [1]

I. Heç kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz.

Konstitusiyanın müddəalarında da qeyd olunduğu kimi, mülkiyyətdən məhrum etmə yalnız qanunda nəzərdə tutulmuş qaydada məhkəmə qərarı ilə həyata keçirilə bilər. Əks təqdirdə bu cinayət məsuliyyətinə səbəb olur. Amma vaxtilə aparılan məkrli siyasət, anti-milli əsaslara söykənən siyasi qərarlar və siyasətin oyuncağına çevrilmiş sözdə hüquq ilə heç bir əsas olmadan hüquqları kobud şəkildə tapdalanaraq yüzlərlə insan yaşadığı yerdən deportasiya olundu. Geridə qalan mülkiyyətləri isə qanunsuz şəkildə ermənilər tərəfindən yağmalandı, qarət olundu.

Maddə 56. Seçki hüququ [1]

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Qərbi Zəngəzurun qeyri-qanuni yolla 1921-ci ildə Ermənistana verilməsi zamanı ərazidə xalq sorğusu və ya referendumun keçirilməməsi konstitusional səviyyədə təsbit olunmuş insan hüquqlarından olan seçki hüququna aşkar formada zidddir. Bir tərəfdən müəyyən bir ərazinin ikinci bir dövlətə verilməsi zamanı referendum institutunun tətbiqi, digər tərəfdən ərazinin ikinci bir dövlətə verilməsi zamanı etnik-milli nisbətin nəzərə alınması təcrübəsi bu məsələnin mexanizmini tənzimləyir. Yeri gəlmişkən, Konstitusiyamızın 3-cü maddəsinə əsasən AR-nın dövlət sərhədlərinin dəyişdirilməsi yalnız referendumla həyata keçirilə bilər [1].

Qərbi Azərbaycana qayıdışın hüquqi müstəvidə araşdırılmasında 1997-ci il dekabrın 18-də ***"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"*** və 1998-ci il martın 26-da "***Azərbaycanlıların soyqırımı haqqında"*** Azərbaycan Respublikası Prezidentinin fərmanları da xüsusi əhəmiyyət kəsb edir [3]. ***"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"*** deyilirdi [4]:

"Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən — min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq ***qərara alıram:***

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin".

Bu gün istər milli qanunvericilik, istərsə də beynəlxalq hüquqi aktlar müstəvisində vaxtilə Qərbi Azərbaycandan deportasiyaya və etnik təmizlənməyə məruz qalan azərbaycanlıların hüquqlarının və hüquqi təminatların bərpası istiqamətində hüquqi müstəvidə tədqiqatların və araşdırmaların aparılması

əhəmiyyətlidir. Milli qanunvericilikdə və beynəlxalq hüquqi sənədlərdə tanınan insan hüquqlarının kobud şəkildə pozulmasına, vaxtilə qəbul olunan həqiqəti əks etdirməyən qərarlar əsasında Azərbaycan Xalq Cümhuriyyətinin 113,9 km^2-lik qanuni sənədlərinin mənimsənilərək digər dövlətlərə güzəştə gedilməsinə görə məsuliyyət nəzərdə tutulmalı, insanların pozulmuş hüquqları bərpa edilməli, Qərbi azərbaycanlılar beynəlxalq ictimaiyyətin dəstəyi və tələbi ilə öz dədə-baba yurdlarına qayıtmalıdırlar.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası Konstitusiyası" 12 noyabr 1995-ci il. Bakı: Hüquq yayın evi, 2021.
2. T.Hobbes. "Leviathan or Matter, Forme&Power of a Common-wealth Ecclesiasticall and Civill". Litera Yayıncılık. İstanbul. 2021. 115s
3. https://e-qanun.az/framework/2822
4. https://e-qanun.az/framework/4099
5. https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child
6. https://www.coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols
7. https://www.coe.int/az/web/compass/the-international-covenant-on-civil-and-political-rights
8. https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version-
9. https://www.migration.gov.az/content/pdf/5acb2446d14f6_%C4%B0%C5%9EG%C6%8FNC%C6%8FL%C6%8FR%C6%8F%20V%C6%8F%20D%C4%B0G%C6%8FR%20Q%C6%8FDDAR,%20QEYR%C4%B0-%C4%B0NSAN%C4%B0,.pdf

ABSTRACT

Yusif MİRZAZADEH

LEGAL ASPECTS OF RETURN TO WESTERN AZERBAIJAN: HUMAN RIGHTS AND LEGAL GUARANTEES

In the article, the legal aspects of the return to Western Azerbaijan are analyzed in detail based on the important international legal documents and national legislation adopted in this field. The world practice and national legislation in this field were systematically studied and the existing problems and the direction of their solution, including human rights and legal guarantees, were indicated.

Keywords: *West Azerbaijan, deportation, international legal acts, human rights, national legislation, legal guarantees, International Bill on Human Rights*

QƏRBİ AZƏRBAYCAN ƏRAZİSİNİN TARİXİ-MƏDƏNİ İRSİNİN TANIDILMASI ZAMANIN TƏLƏBİ KİMİ

Hafiz HÜSEYNOV *h.huseynov@atmu.edu.az*
İmmi HÜSEYNOVA *huseynovaimmi@gmail.com*
Azərbaycan Turizm və Menecment Universiteti Bakı Avrasiya Universiteti

XÜLASƏ

Qərbi Azərbaycan ərazisinin, xüsusilə İrəvanın tarixi-mədəni irsi elmi-nəzəri şəkildə tədqiq edilmişdir. Məqalədə qədim Azərbaycan torpaqlarında həyata keçirilmiş vandalizm siyasəti qeyd olunmuş, adları dəyişdirilmiş yurd yerlərimizin tarixi adları ilə gənc nəsillərə çatdırılması ermənilərin məkrli siyasətinin qarşısını almaq üçün bir istiqamət kimi göstərilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, tarixi-mədəni irs, dini abidələr*

Vaxtilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev mənfur düşmənlərə və onların havadarlarına qətiyyətlə səslənmişdi: "Biz o torpaqlara mütləq qayıdacağıq!". Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və dürüst siyasəti sayəsində 2020-ci ilin noyabrında 44 günlük Vətən müharibəsində və 2023-cü ildə birgünlük müharibədə mənfur düşmən üzərində qətiyyətli qələbə qazandıqdan sonra azad olunmuş ərazilərə Böyük Qayıdış missiyası başlatmışdır. Müzəffər Azərbaycan Ordusu 2020-ci ildə Şuşanı, 2023-cü ildə isə Xankəndini mənfur düşmənlərdən təmizləmək missiyasını uğurla tamamladıqdan sonra artıq azərbaycanlılar böyük qürur hisslərilə öz yurd-yuvalarına qayıdır, düşmənlərin yandırıb-yaxdıqları doğma el-obalarında qurub yaratmaqla məşğuldurlar. Əlbəttə, bu missiyanın növbəti istiqaməti də Azərbaycanın əzəli torpaqları olan Qərbi Azərbaycana doğrudur. Müzəffər Ali Baş Komandanımızın tarixi ədaləti bərpa etmək uğrunda mücadiləsi azərbaycanlıların vaxtilə mənfur düşmənlər tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış yerlərə qayıdışına nail olmasına imkan yaratmışdır.

Fəaliyyətə başlamış Qərbi Azərbaycan İcması da bu sahədə müvəffəqiyyətlə çalışmaqdadır. 2022-ci il dekabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşündən sonra Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi istiqamətində xeyli canlanma başlandı. Məlumdur ki, Qərbi Azərbaycan məsələsi milli siyasətimizin ən mühüm hədəfini təşkil edir. Yeni dövrün reallıqları bu ümummilli mənafedə ölkəmizin qarşıya qoyduğu məqsədlərin həyata keçməsində hər bir azərbaycanlının öhdəsinə yeni-yeni vəzifələr qoyur. Bu gün ötən yüzillikdə dəfələrlə məruz qaldığımız etnik təmizləmə və deportasiya siyasətini ifşa etmək, bu siyasətlə bağlı tarixi faktları üzə çıxarmaq, Qərbi Azərbaycanda ermənilər tərəfindən dağıdılmış milli-mədəni sərvətlərimizə qarşı aparılan soyqırımı, bütövlükdə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə bəyan etmək, Zəngəzur, Göyçə və İrəvan mahallarında ermənilər tərəfindən məqsədyönlü şəkildə dağıdılmış tarixi-mədəni abidələrimizin bərpasını tələb etmək, adları dəyişdirilmiş yurd yerlərimizə verilən üzdəniraq adların əvəzinə qədimi, öz adlarının verilməsini təmin etmək, Qərbi azərbaycanlıların dədə-baba ocaqlarına qayıtmasına el birliyi ilə dəstək olmaq, ermənilərin məkrli siyasətinin qarşısını almaq və s. bütünlükdə azərbaycanlıların vətəndaşlıq borcudur.

Qərbi Azərbaycan ərazisi qədim Türk-Oğuz yurdu olaraq çox qədim tarixə və qədimliyi qədər də geniş bir coğrafiyaya malik türk dünyası ilə birbaşa və qırılmaz tellərlə bağlı olan əzəli yurd yerlərimizdəndir [1, s.14]. Yüz illər boyunca Qərbi Azərbaycan torpaqlarında azərbaycanlılar tərəfindən milli-mədəni xəzinə və zəngin miras formalaşmışdı. 1988-ci ildə bu torpaqlardan azərbaycanlıların sonuncu kütləvi deportasiyasından sonra, tarixi ərazilərimizlə birlikdə mindən artıq azərbaycanlı yaşayış məntəqəsi, yüzlərlə alban-türk tarixi abidələri, karvansaralar, imarətlər, məscidlər, məqbərələr, türk-oğuz qəbiristanlıqları, qəbirüstü abidələr, ziyarətgahlar ermənilər tərəfindən işğal olundu. Apardıqları etnik təmizləmə və tarixi abidələrə qarşı vandallıq aktları nəticəsində monoetik dövlətə çevrilən Ermənistan, azərbaycanlılara məxsus olan tarixi-memarlıq abidələrinin bir qismini yer üzündən sildi, digərlərini isə yazı və elementlər əlavə edərək ermənileşdirməyə çalışmışdı.

Rusiya, Gürcüstan (Çar Rusiyası dövründə Tiflis Cənubi Qafqazın mərkəzi idi. Sənədləşmə və arxivləşdirmə daha çox orada aparılırdı.) və Türkiyə arxivlərindəki müxtəlif tarixi dövrləri əhatə edən sənəd və materiallar XIX əsrin əvvəllərində Rusiya və İran dövlətləri arasında bağlanan Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələrindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçünün başlandığını, ermənilərin Azərbaycan ərazilərinə köçürülməsindən sonra azərbaycanlıların deportasiya və soyqırımına məruz qaldığını təsdiq edir.

Tarixən Azərbaycan xalqının maddi-mədəniyyət nümunələri ermənilər tərəfindən dağıdılıb, talan edilib və bu proses son zamanlara qədər davam edib. 1918-1919-cu illərdə Qərbi Azərbaycanda Vedibasar, Zəngibasar, Amasya, Göyçə, Zəngəzur mahalı və digər qədim Oğuz ellərində ağlasığmaz talanlalar, amansız qətllər törədən daşnaklar tərəfindən, Stepan Şaumyan, Andranik Ozanyan, Dro başda olmaqla erməni terror dəstələrinin və digərlərinin fitvası ilə minlərlə müsəlman ya işgəncələrə məruz qaldı, yaxud da qəddarlıqla məhv edildi. İşğal olunan şəhər, qəsəbə və kəndlərdəki müxtəlif mənşəli tarixi maddi-mədəni Azərbaycan irsi talan edildi. Aparılan tədqiqat nəticəsində, 1918-1920-ci illərdə ermənilərin Azərbaycan xalqına və onun maddi-mədəni irsinə vurduğu ziyanın miqyası və bu mənəvi zərərin ölçüsüzlüyü ortaya qoyulur.

1923-cü il iyulun 7-də isə vaxtilə İrandan və Osmanlı imperiyası ərazisindən Qarabağ xanlığının ərazisinə köçürülən ermənilərə süni surətdə muxtariyyət hüququ verildi. Sovet hakimiyyətinin ilk illərində Zəngəzur qəzasının bir hissəsi Ermənistana verilməklə Naxçıvan torpağı Azərbaycandan, Türkiyə türk dünyasından ayrı salındı. Böyük dövlətlərin dəstəyi ilə əcdadlarımızın Oğuz yurdu Qərbi Azərbaycanı qəsb edən gəlmə ermənilər azərbaycanlılara məxsus ərazilərdə məskunlaşdıqdan sonra, onlara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silməyə çalışdı, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət nümunələrinin "qədim ermənilərə" aid olmaları barədə saxta tarix yazaraq dünya ictimaiyyətini aldatmağa başladı.

Azərbaycanlılar öz tarixi ərazilərində növbəti dəfə 1988-ci ildə soyqırıma, işğəncələrə və təzyiqlərə məruz qalaraq, Qərbi Azərbaycan adlandırılan 28,9 min kvadrat kilometrlik torpaqlarını itirmək məcburiyyətində qaldılar.

Son 200 il ərzində ermənilər tərəfindən zəbt edilən Qərbi Azərbaycanda maddi-mədəni, tarixi miras olan qalalar, alban-türk məbədləri, karvansaralar, körpülər, saraylar, eləcə də pirlər, ziyarətgahlar, məscidlər, qəbirüstü abidələr, məqbərələr, xüsusilə də müsəlman-türk dünyasının məşhur dini abidələri erməni vandallığının qurbanına çevrilib.

Tarixi mənbələrə əsasən XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 310 məscid qeydə alındığı halda, bu gün onlarda yalnız bir məscid - Göy məscid qismən salamat qalıb ki, onu da xarici qonaqlara "fars" məscidi kimi təqdim edirlər. 1918-ci ilə kimi Qərbi Azərbaycanın İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərib. 1915-ci ildə isə İrəvan və Zəngəzur quberniyasının ərazisində məscidlərin sayının artması müşahidə olunub. Burada 382 şiə, 9 sünni məscid fəaliyyət göstərib. Bu məscidlərin demək olar ki, hamısı və qeyd olunmayan və yaxud 1915-ci ildən 1918-ci ilə qədər tikilən məscidlər, məbədlər və minlərlə tarixi abidə 1918-1920-ci illərdə tarixi Azərbaycan torpaqları olan Göyçə, Zəngəzur və Zəngibasar ərazilərində erməni silahlı birləşmələri tərəfindən məhv edilib [2, s.33].

Toponimlər konkret etnosun konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizləndikcə ilk növbədə yer adlarını dəyişdirirlər. Son dövrdə maddi-mədəniyyət abidələri ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv olunub, mənimsənilib, bütün toponimlər ermənləşdirilib. Bu da azərbaycanlıların həmin torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədi güdür.

Tarixi mənbələr göstərir ki, indiki Ermənistan (Hayastan) adlandırılan əraziyə haylar ilk dəfə xristian missionerləri kimi gəlmişlər. Ərəb xilafəti dövründə haylar islam dinini qəbul edən türkmənşəli boyların tərk etdikləri dini məbədlərə sahib çıxmış, həmin məbədləri kilsəyə çevirmiş, elə oradaca saxta tarixi əsərləri quraşdırmışlar [5, s.13].

Qərbi Azərbaycanın əzəli torpaqlarından biri İrəvan şəhəri tariximizin məbədidir. Tarixi İrəvan şəhərində XX əsrin əvvəllərində əhalinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Qədimdən yalnız Azərbaycan türklərinin məskun olduqları bu şəhərin adı orta əsr yazılı mənbələrində Rəvan, İrəvan, İrivan kimi qeyd edilmişdir. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi. Səyyahlar və salnaməçilər öz əsərlərində İrəvanı tipik müsəlman şəhəri kimi təsvir etmişlər. Orta əsrlərdən etibarən İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar va ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadrat şəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. XIX əsrin əvvəllərində İrəvanda 7 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zarrabi xan (Sərrafxana), Avşar, Tahir, Sulu, Susuz, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur.

Şəhərin mərkəzi hissəsində Böyük Meydan adlanan 400x400 m ölçüdə meydan yerləşirdi. Ağır yükləri çəkmək üçün Qantar tərəzisi, yüngül yükləri çəkmək üçün Mizan tərəzisi bu meydanda yerləşirdi. Digər meydanlar Xan bağı, Zal xan, Hüseynəli xan, Fəhlə bazarı meydanı adlanırdı. Panah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək Pənah xan meydanı və yaxud Pənah xan bulvarı adlanırdı.

İrəvanda Şərq memarlıq üslubunda 8 hamam – Şəhər, Zal xan, Şeyxulislam, Mehdi bəy, Hacı Bəyim (sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı), Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. Hazırda İrəvanın mərkəzindəki "Respublika" meydanının yerləşdiyi yerdə vaxtilə mövcud olan Zal xan hamam kompleksində yeraltı çayxana ilə yanaşı, musiqili məclislərin keçirilməsi üçün xüsusi otaqlar

ayrılmışdı. XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan şəhərində adları Azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Naib, Mir Cəfər, Rüstəm xan, Korbulaq, Bəy, Dükanlı və s. Bağlar diyarı İrəvanda va onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, onlardan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbasdərəsi, Abuhəyat, Keşağlı, Qızılqala, Dərə bağı, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kərpicxana bağlarının ad-sanı İrəvandan çox-çox uzaqlara yayılmışdı. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş şəkildə Avropaya ixrac edilirdi [5, s.9].

İrəvanda Azərbaycan memarlığının ən qədim nümunələrindən biri olan Sərdar sarayı aşkar edilmişdir. Təəssüf ki, həmin abidə də yanlış olaraq fars mədəniyyət nümunəsi kimi təqdim edilir. Professor Faiq İsmayılov öz qeydlərində yazır ki, Sərdar sarayı 1913-1918-ci illərdə ermənilər tərəfindən dağıdılmış, portretlər Tbilisiyə aparılmış və hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır [6, s.57].

Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan), Təpabaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi. Sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Cənubi Qafqazın ən böyük məscidi olan Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidinin mədrəsəsi rəssamların sərgi salonuna çevrilmişdi. Yalnız Dəmirbulaq məscidi 1988-ci ilədək öz məqsədinə xidmət edirdi. Hazırda həmin məscid də yer üzündən silinmiş, onun yerində hündürmərtəbəli bina ucaldılmışdır.

XX əsrin əvvəllərinədək İrəvan qalası, onun içərisində yerləşən Xan sarayı, Abbas Mirzə məscidi şəhərin tarixi-memarlıq incilərindən hesab olunurdu. Erməni şovinist-millətçiləri İrəvan qalasını va onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. Azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin məhv edilməsinin nəticəsidir ki, hazırda İrəvan şəhərində xaricdən gələn qonaqlara və tədqiqatçılara yaşı 250 ildən yuxarı bir tarixi-memarlıq abidəsini göstərmək mümkün deyil.

Qədim Azərbaycan torpaqlarının tarixi-mədəni irsinin təbliği yeni dövrün əsas tələbi və tarixi zərurətdir. Tarixi qorumaq, onu gənc nəsillərə düzgün formada çatdırmaq hər zaman üçün aktualdır. Məhz bu baxımdan adları dəyişdirilmiş yurd yerlərinin, məhəllələrin, məscidlərin adlarını işğaldan azad olunmuş Qarabağ torpaqlarında əbədiləşdirmək, dağıdılmış tarixi-abidələrdən ən qədimlərini yenidən Qarabağda yaratmaq tarixi irismizi yaşatmaq üçün bir istiqamət hesab oluna bilər. Sözsüz ki, bir gün Qərbi Azərbaycan torpaqlarında yenidən qayıdışa inam günü-gündən artır, ancaq həmin dövrə kimi bu tarixi məkanları tanıtmaq bizim təbliğ siyasətimizinin bir parçası olacaq.

ƏDƏBİYYAT

1. Cəfərova, A. Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqatlar, xatirələr, faktlar. I kitab. Naxçıvan: 2023.
2. Ələkbərli, Ə. , Vəliyev, Ə. Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz. İndiki Ermənistan Respublikası ərazisində dağıdılmış, adları dəyişdirilmiş, mənimsənilmiş Azərbaycan abidələri. I cild. Bakı: 2021.
3. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri. Bakı: 2007.
4. Əliyev, İ. Qərbi Azərbaycanın tarixi və mədəni irsi. Bakı: 2020.
5. Mustafa, N. İrəvan şəhəri. Bakı: 2020.
6. Mir-Bağırzadə, F. İrəvan xanlığının tarixi abidələri. Elm və həyat, № 1, 2021, s. 53-57.

ABSTRACT

Hafiz HUSEYNOV, Immi HUSEYNOVA

THE RECOGNITION OF THE HISTORICAL-CULTURAL HERITAGE OF WESTERN AZERBAIJAN TERRITORY AS THE DEMAND OF OUR TIME

The historical and cultural heritage of the territory of Western Azerbaijan, especially Iravan, has been studied in a scientific and theoretical way. The article mentions the policy of vandalism carried out in the ancient lands of Azerbaijan, the transfer of knowledge about the historical names of our homelands to the younger generation is indicated as a direction for preventing the insidious policy of the Armenians.

Keywords: *Western Azerbaijan, Iravan, historical and cultural heritage, religious monuments*

QƏRBİ AZƏRBAYCAN FLORASININ RELİKT BİTKİLƏRİ

Hilal QASIMOV *hilal_1964@mail.ru*
Mürsəl SEYİDOV *murselseyidov.51280@gmail.com*

Turan MƏMMƏDLİ
turan12beymemmed1948@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Reliktlərin tədqiqi, onların ərazilərinin və yaranma vaxtının təhlili miqrasiya proseslərini öyrənmək çox vacibdir və buna görə də müəyyən bir ərazinin florasının relikt təbiəti məsələsini mümkün qədər tam öyrənərək, onun formalaşma mərhələlərini izləmək və gələcək inkişaf yollarını əvvəlcədən (hipotetik və ideal şərtlər üçün) müəyyən etmək olar. Məqalədə Havuşçay hövzəsinin relikt növləri haqqında məlumatlar verilmiş, üçüncü (Tersiyer), buzlaşma və kserotermal reliktlər, onların əraziləri və coğrafi əlaqələri səciyyələndirilmişdir. Regionun ən qədim nümayəndələri Üçüncü dövr reliktləridir, yəni bu reliktlər bir o qədər də ciddi təsirə məruz qalmamış və üçüncü dövr elementləri özlərinə ekoloji cəhətdən əlverişli şərait tapdıqlarından Havuşçay hövzəsində müasir dövrə qədər gəlib çata bilmişlər. Tədqiqat nəticəsində ərazidə məskunlaşmış relikt bitkilərin 43 növünün Üçüncü dövr reliktləri olduğu müəyyən edilmişdir. Buzlaşma dövrünün reliktləri Havuşçay hövzəsi üçün xarakterik olan flora qalıqları və bəziləri boreal vilayətin Üst Plioseninin soyuq və nəmli zamanının qalıqlarıdır. Bu dövrə aid olan bitkilər olduqca soyuğadavamlı bitkilər olub, özləri buzlarla örtülməsə də, buzlaqların yaxınlığında yaşamışlar. Buzlaqların çəkilməsindən sonra bu bitkilər eyni yerdə yaşamağa davam etmişlər. Buzlaşma dövrünün reliktlərinə ərazi florasına aid 32 növ daxildir. Kserotermik dövrün reliktləri buzlaşmadan sonrakı isti və quru dövrdə şimala qədər uzanan və son soyumadan sonra bəzi yerlərdə, hətta uzaq şimalda da bu günə qədər sağ qalan cənub, əsasən çöl bitkilərinin qalıqlarıdır. Buz dövrünün reliktlərindən cavandırlar. Kserotermik dövrün reliktləri ərazidə 26 növlə təmsil olunur.

Açar sözlər: *Qərbi Azərbaycan, Üçüncü dövr relikti, buzlaq, kserotermik*

Giriş

Relikt məsələsi müasir botanikada ən mübahisəli məsələlərdən biridir. Bir çox botaniklər bu problemə dəfələrlə müraciət etmiş və relikt növləri araşdırmışlar. "Relikt" terminin ümumi qəbul edilmiş anlayışı yoxdur. Adətən, reliktlərə qalıq bitki və ya heyvan növləri, qədim floranın (və ya faunanın) tərkibində saxlanılmış və bu günə qədər gəlib çatmış qalıq növlər daxil edilir. Relikt növlərin xarakterik əlamətləri, onların taksonomik və topoqrafik baxımdan təcrid olunması və areallarının dizyunksiyasıdır.

Əgər relikt növlərin əhatə dairəsi məhduddursa, o zaman onlar relikt endemik növlərə aiddirlər, onlar neoedemik növlərdən kəskin şəkildə ayrılmalıdır. Tədqiqatçıların fikrincə, növün relikt təbiətinin əsas səbəbləri iqlim, geomorfoloji, edafik və bioloji amillərdən asılıdır. Relikt növlərin əsas xarakterik xüsusiyyəti ondadır ki, bu növlərin öz ekoloji yaşayış sahələrinə yüksək şəkildə adaptasiya olunublar, bunun nəticəsində onlar, adətən, öz ərazilərini genişləndirmirlər və ya genişləndirsələr də belə əhəmiyyətsiz dərəcədə olduğundan bu, çox da nəzərə çarpmır. Reliktlərin konservatizmi, müasir yaşayış şəraiti ilə uyğunsuzluğu, dəyişkənliyin və uyğunlaşmanın itirilməsi (bir çoxlarının fikrincə) onların məhv olmasına şərait yaradır.

Buna görə də keçmiş geoloji dövrlərin florasının azca dəyişilərək müasir dövrə qədər gəlib çatmış, təkamülün yavaş sürəti ilə xarakterizə olunan və daha əvvəllər çoxsaylı sistematik qruplara aid olan, məhdud ərazidə yaşayan, flora qalıqlarını relikt adlandırmaq olar. Bu növlər, spesifik mövcudluq şərtlərinə dar şəkildə uyğunlaşan, məhdud ərazidə (yaxud ərazilərdə) məskunlaşan, nəzərə alınan sistematik vahidlərin formalaşmasından sonra az dəyişmiş növlərdir. Relikt növlər sırf konservativ və nəsli kəsilməkdə olan növlər hesab edilməməlidir.

Bir sıra qədim reliktlərin morfologiyasının tədqiqi, onların vegetativ və reproduktiv orqanlarında əhəmiyyətli polimorfizmin olduğunu göstərir ki, bu da onların bu günə qədər qorunub saxlanmasına kömək edən səbəblərdən biridir. Görünür buzlaqlararası və sonrakı dövrlərin reliktlərindəki dəyişkənlik qabiliyyəti, miqrasiyanın təsiri altında onların qismən formalaşmış müasir areallarının konfiqurasiyasının yaranmasında və dəyişməsində də mühüm rol oynamışdır. Reliktlərin tədqiqi, onların areallarının təhlili və formalaşma vaxtı,

miqrasiya proseslərinin özünü öyrənmək üçün çox vacib məqamdır və buna görə də müəyyən ərazinin relikt florası məsələsini mümkün qədər dolğun şəkildə tədqiq etməklə onların formalaşma mərhələlərini və onun inkişafının gələcək yollarını əvvəlcədən müəyyən etmək mümkündür. Hər hansı bir regionun florasının tarixini öyrənərkən və mənşəyini araşdırarkən relikt bitki növlərini tədqiq etmək paleobotaniki nöqteyi-nəzərdən çox mühümdür.

Relikt növlər uzaq geoloji dövrlərdən bəri ilk böyüdükləri yerlərdə qorunub saxlanılan və o ərazilərdə az-çox dərəcədə çoxala bilən qədim bitkilərdir. Əgər hər hansı floranın tərkibində relikt bitkilər mövcuddursa, deməli, bu flora çox qədimdir və bu ərazinin iqlimi relikt bitkilərin mövcud olduğu bütün dövrlər ərzində nisbətən az dəyişilmişdir. Relikt bitkilərin statusunun müəyyənləşdirilməsi mövcud paleobotanik məlumatlara əsasən həyata keçirilir. Bu zaman müəyyən geoloji təbəqələrdə bitki qalıqlarının tapılması onun yaşını müəyyənləşdirməyə imkan verir və eyni zamanda bu bitkilərin qədim dövrlərdə yer üzündəki yayılma yerlərini müəyyən etməyə köməklik göstərir. Müxtəlif geoloji dövrlərin qalıqları kimi reliktlər bir-birindən yaş səviyyələrinə görə fərqləndirilir. Hər hansı bir florada reliktli bitkilərin olması onun yaşını, mənşəyini, digər flora ilə genetik əlaqələrini və s. müəyyən etməyə imkan verir [Гроссгейм, 1939; Криштофович, 1947].

Regionda relikt bitkilərin kifayət qədər çox olmasının səbəbləri vardır. Birinci səbəb torpaq formalarının həm fərqli və həm də müxtəl olmasıdır. İkinci səbəb geoloji proseslərdə baş verən iqlim dəyişikliklərinin hər yerdə fərqli olmasıdır.

Material və metodika

Tədqiqatlar 2020-2023-cü illər ərzində aparılmışdır. Əsas xarakterik herbari materialları, floristik, fitosenoloji məlumatlar, herbari fondunda saxlanılan tədqiqat materialları, eləcə də ədəbiyyat mənbələri hesab olunur. Tədqiqatlar ümumi qəbul edilmiş floristik və geobotaniki metodlarla aparılmışdır [Ярошенко, 1969; Галушко, 1976;, Баркман, 1993].

Nəticələrin müzakirəsi

Tədqiqat ərazisi əsasən, Qərbi Azərbaycan əhatə edir. Ərazi dağlıq və düzənlik sahədə yerləşdiyindən mürəkkəb relyefə malikdir. Ərazidə Paleogen və Neogen dövrünün suxur nümunələri geniş yayılmışdır. Çaylarının mənbə hissəsinə doğru Pilosen çöküntülərinə rast gəlinir. Mənşəcə ərazi relyefinin formalaşması alt və orta oliqosen dövrlərinə təsadüf edir.

Qərbi Azərbaycan florasında 119 relikt bitki növünə rast gəlinir. Onların 61 növü (51,3%) üçüncü dövr reliktləri, 32 növü Buzlaşma dövrünün reliktləri (26,9%), 26 növü Kserotermik dövrün relikt bitkiləridir (21,8%).

№	Reliktlər	Növlər sayı	%-lə
1	Üçüncü (Tersiyer) dövr reliktləri	61	51,3
2	Buzlaşma dövrünün reliktləri	32	26,9
3	Kserotermik dövrün reliktləri	26	21,8
Cəmi		119	100

A.A.Qrossheym buzlaşma dövrünün və buzlaşmadan sonrakı dövrün relikt bitkilərinin çoxluğunu nəzərə alaraq bu relikt bitkiləri Kulçinskinin relikt bitkiləri sinifləndirmə qaydasına görə iki əsas qrupa bölmüşdür:

1. Üçüncü dörün sonlarında alp qurşağında əmələ gəlmiş üçüncü dövr reliktləri;
2. Buzlaşma dövründə Qafqaza kənardan miqrasiya etmiş boreal reliktlər.

A.A.Qrossheym (1939) qeyd edir ki, boreal bitki formalarının regiona nüfuz etməsi ilk növbədə şimal xətti ilə baş verə bilərdi. Xüsusilə arktik və palearktik elementlərin miqrasiyası güman ki, bu yolla baş vermişdir. Sonralar Avropa elementlərinin Şərqə doğru miqrasiyası nəticəsində Kiçik Asiyadan keçərək regiona daxil olan Avropa elementlərinin regionda məskunlaşması, daha sonra Şərqdən, Mərkəzi Asiyadan əraziyə nüfuz edən elementlərin regiona daxil olması ərazi florasının formalaşmasında xüsusi rol oynamışdır. Naxçıvançay hövzəsinin relikt bitkiləri Naxçıvan kserotermik relikt bitkiləri və Zəngəzur silsiləsi buzlaşma relikt bitkiləri rayonuna daxildir.

A.L.İvanova görə (1998) Qafqazın (Zaqafqaziya da daxil) relikt növləri üç qrupa bölünür: Üçüncü

dövrün (tersiyer) reliktləri, buzlaşma dövrünün reliktləri və kserotermik dövrün reliktləri.

Floranın ən qədim nümayəndələri üçüncü dövr reliktləridir. Kuznetsovun (1909) fikrincə, Qafqazın üçüncü dövr florası Aralıq dənizi regionunun florası ilə tam bir oxşarlıq təşkil edirdi. Çünki meşə florası Üçüncü dövrdə bütün regionda geniş yayılmışdı və xüsusilə də onun pontik tipi bütün Qafqazı əhatə edirdi. Regionun relikt flora növlərini üç qrupa bölmək olar.

1) Üçüncü dövr (Tersiyer) reliktləri. Ən qədim nümayəndələri Üçüncü dövr reliktləridir, yəni bu reliktlər ərazidə (demək olar ki, bütün ərazidə, meşə və çəmənlərdə) geniş yayılan üçüncü dövrün (Miosen-orta pliosen) ikinci yarısından qalmış növlərdir. Buzlaşma dövrünün başlaması ilə üçüncü dövr növlərinin arealı dizyunksiyalara məruz qalmış, sayları nəzərə çarpacaq dərəcədə azalaraq müasir dövrə bu formada gəlib çatmışlar. Dördüncü dövrün əvvəllərində ucalan Qərbi Azərbaycan dağları yerli buzlaşmanın mərkəzi olsa da, olsun ki, cənub yamaclarında əbədi qar və buzun sərhədi daha yüksəkdə yerləşirdi və və buna görə də şimaldan irəliləyən buzlaq tərəfindən yayılan soyuqdan qorunmaq üçün etibarlı bir maneə rolunu oynayırdı. Zaqafqaziyanın təcrid olunmuş bir çox bölgələrində şimalda nəsli kəsilmiş bir çox bitki növləri bu ərazilərdə özlərinə münasib sığınacaq tapmışdı. Güman ki, ərazi florasında mövcud olan üçüncü dövr reliktləri bu növlərdən bəziləri olaraq hazırki zamana qədər saxlana bilmişlər. Ərazinin Üçüncü dövr (Tersiyer) reliktlərinə 43 növ daxildir: *Primula macrocalyx* Bunge, *Asplenium trichomanes* L., *Ornithogalum arcuatum* Stev, *Filipendula vulgaris* Moench, *Agrimonia eupatoria* L., *Poterium polygamum* Waldst. et Kit., *Lotus caucasicus* Kuprian., *Lotus corniculatus* L., *Galega officinalis* L., *Oxytropis cyanea* Bieb., *Securigera varia* (L.) Lassen, *Hedysarum caucasicum* Bieb, *Vicia angustifolia* Reichard, *Amoria repens* (L.) C.Presl., *Filipendula ulmaria* Maxim., *Erodium cicutarium* (L.) L,Her, *Dictamnus caucasicus* Gross., *Fraxinus excelsior* L., *Scrophularia nodosa* L., *Brachypodium sylvaticum* eauv., *Dryopteris filix-mas* Schott, *Stachys macrantha* Stearn, *Scilla caucasica* Miscz, *Ophrys apifera* Huds., *Ferula szowitsiana* DC. və s. Üçüncü dövrün (Tersiyer) reliktlərinin yaşları daha azdır. Bunlar Üçüncü dövrdə Yer üzündə geniş yayılmış, buzlaqların irəliləməsi və bir çox bölgələrdə ümumi bir soyuma ilə nəsli tükənmiş termofil (istisevən) formalardır. Bu bitkilər iqlimin nisbətən az dəyişdiyi yerlərdə sağ qala bilmişlər, belə yerlər refugium adlanır [Seyidov və b., 2014; Talıbov və b., 2021].

2) Buzlaşma dövrünün reliktləri. Bu bitkilər olduqca soyuğadavamlı bitkilər olub, özləri buzlarla örtülməsə də buzlaqların yaxınlığında yaşamışlar. Buzlaqların çəkilməsindən sonra bu bitkilər eyni yerdə yaşamağa davam etmişlər. Buzlaşma dövrünün reliktlərinə ərazi florasına aid 27 növ daxildir: *Juniperus communis subsp. oblonga* (Bieb.) Galushko, *Juniperus excelsa ssp. polycarpos*, *Cotoneaster integrirrimus* Medic., *Ledum palustre* L., *Veronica ceratocarpa* C.A.Mey., *Echinops galaticus* Freyn, *Asperula caucasica* Pobred., *Dianthus raddeanus* Vierh., *Ceterach officinarum* Willd. və s.

Buzlaşma dövrünün reliktləri buz dövründə ərazi üçün xarakterik olan flora qalıqlarıdır. Buzlaq qalıqları, Üçüncü dövrün (Tersiyer) reliktlərindən fərqli olaraq, keçmiş soyuq dövrün şahidləridir. Müasir dövrdə soyuğa davamlı növlər (psixrofitlər və kriofitlər) coğrafi yayılmalarında ya Arktika ilə, ya da yüksək dağlarla əlaqələndirilir. Yüksək dağ kriofitlərinin çöl düzənliklərinə, dağların ətəklərinə qədər yenməsi, yəni meşə qurşağının sərhədlərindən aşağıdakı izolə edilmiş yerləri, buzlanma dövründə əbədi qar xəttinin əvvəlki mövqeyini göstərir [Гулисашвили, 1973].

3) Kserotermik dövrün reliktləri. Buzlaşmadan sonrakı isti və quru dövrdə şimala qədər uzanan və son soyumadan sonra bəzi yerlərdə, hətta uzaq şimalda da bu günə qədər sağ qalan cənub, əsasən çöl bitkilərinin qalıqlarıdır. Buz dövrünün reliktlərindən cavandırlar. Kserotermik dövrün reliktləri ərazidə 21 növlə təmsil olunur: *Koeleria cristata* (L.) Pers, *Astragalus cornutus* Pall., *Helianthemum nummularium* (L.) Mill., *Oxytropis pilosa* (L.) DC.,*Festuca valesiaca* Gaudin, *Quercus macranthera* Fisch. et C.A. Mey. ex Hohen. *Acer hyrcanum* C.A. Mey., *Atropatenia rostrata* (N. Busch.) F.K. Mey., *Juglans regia* L., *Rubus caesisus* L., *Paliurus spina-christi* Mill., *Pyrus communis* L., *Luzula spicata* (L.) DC., *Ulmus qlabra* Huds., *Padus avium* Mill. və s.

Kserotermik reliktlər yalnız bir neçə yerdə (əsasən meşələrdə), mezofit yerli floranın onları sıxışdırıb çıxara bilmədiyi xüsusi torpaq şəraitində, çox quru qumlu, əhəngdaşılı və gipsli ərazilərdə rast gəlinirlər.

Nisbətən daha çox saylı relikt bitkilər 3-cü dövrün relikt bitkiləridir ki, onların yaşı daha azdır. İsti iqlimi ilə fərqlənən üçüncü dövrdə, bu bitkilər bütün dünyada olduğu kimi, regionda da yəqin ki, geniş yayılmışlar. Daha sonra, buzlaşmanın başlanğıcı və iqlimin ümumi soyuması ilə əlaqədar, bir çox ərazidə üçüncü dövr florasının istisevər nümayəndələri məhv olsalar da, bəlkə də onlar üçün xüsusi sığınacaq hesab edilən qoruq ərazisində qalıb xilas ola bilmişlər.

Nəhayət, ən "gənc" reliktlər buzlaşmadan sonrakı və ya kserotermik dövrün reliktləridir. Buzlaşmadan sonrakı bu isti və quru dövrün cənub bitkiləri, xüsusilə də çöl bitkiləri ərazidə yaxşı qala bilmişlər. İqlim

yenidən soyumağa başladıqdan sonra bitkilər kütləvi şəkildə cənuba doğru geri çəkməyə başladıqları halda, olsun ki, ərazinin ekoloji şəraiti bu bitkilərin sağ-salamat qalması üçün əlverişli olduğundan bəzi növlər günümüzə qədər saxlanaraq gəlib çata bilmişlər.

Erməni seperatizmin fəaliyyəti nəticəsində bəzi bitki növləri öz arealları daxilində artıq məhv olma həddinə qədər gəlib çatmışdır. Buna görə də bir çox relikt bitki növləri "Qırmızı kitab"ına daxil edilməli və qorunma altına alınmalıdır. Müasir dövrdə insanın iqtisadi fəaliyyəti genişləndikcə ərazi florasına rəsiri də getdikcə böyüyür. Təbii bitki örtüyünün məhv edildiyi ərazilərin miqdarı ildən-ilə artmaqdadır. Təbii bitki örtüyünün getdikcə azalmasına torpaq sürüşmələri, meşələrin qırılması, xüsusən ərazilərin otarılması, kütləvi turizm, çiçəklərin və dərman bitkilərinin kütləvi surətdə toplanması və s. kimi amillər floranın növ tərkibinin azalmasına böyük təsir göstərir. İnsan fəaliyyətinin bütün bu formaları növlərin sayının azalmasına, onların tamamilə yox olmasına qədər gətirib çıxarır.

ƏDƏBİYYAT

1. Seyidov, M.M., İbadullayeva S.C, Qasımov H.Z., Zülfüyyə Salayeva Z.K. (2014), Şahbuz Dövlət Təbiət Qoruğunun flora və bitkiliyi. Elmi metodiki vəsait. Naxçıvan: 500 s.
2. Talıbov, T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M. (2021), Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Alisporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər) II nəşr. Bakı: Şirvannəşr, 476 s.
3. Баркман, Я. (1993), Новое в изучении гомогенности и минимум-ареала в фитоценологии // Ботанический журнал. Т. 78. - № 4. с. 1-17.134
4. Галушко, А.И. (1976), Анализ флоры западной части Центрального Кавказа // Флора Северного Кавказа и вопросы её истории, вып. 1. Ставрополь, с. 5-130.
5. Гроссгейм, А.А. (1939), Типы реликтов // Изв. АзФАН СССР. с. 74-80.
6. Гулисашвили В.З. (1973), Об убежищах древесной флоры Кавказа в ледниковое время // Бюллетень МОИП. Отд. Биология. Вып. 2. - Т. 78. с. 8288.
7. Криштофович, А.Н. (1947), Географическое распределение растительности СССР в третичном периоде / II сессия геогр. съезда, Тез. докл., секц. Биогеография. Л.: с. 691.
8. Ярошенко, П.Д. (1969), Геоботаника (основные понятия, направления и методы). Л.: Изд-во АН СССР, 200 с.

ABSTRACT

Hilal GASİMOV, Mursel SEYİDOV,
Turan MEMMEDLİ

RELICT FLORA OF WESTERN AZERBAIJAN

The study of relics, analysis of their territories and the time of their formation is very important for the study of migration processes, and therefore, having studied the question of the relict nature of the flora of a certain territory, it is possible to trace the stages of its formation as fully as possible and determine in advance the further paths of development (for hypothetical and ideal conditions). The article provides information about relict species of the flora of Western Azerbaijan, tertiary (Tertiary), glaciation and xerothermal relics, characterizes their territories and geographical connections. The oldest representatives of the region are relics of the Tertiary period, that is, these relics were not seriously damaged, and since the elements of the Tertiary period found environmentally favorable conditions for themselves, they were able to reach the modern period in the territory. Western Azerbaijan. As a result of the research, it was established that 43 species of relict plants settled in the territory are relicts of the Tertiary period. Relics of the Ice Age are the remains of the flora characteristic of Western Azerbaijan, and some remnants of the cold and wet time of the Upper Pliocene of the boreal region. Plants dating back to this period were very cold-resistant, although they were not covered with ice, and lived near glaciers. After the retreat of the glaciers, these plants continued to live in their original place. Ice Age relics include 32 species of local flora. Relics of the xerothermic period are the remains of southern, predominantly steppe vegetation, which spread northward during the hot and dry post-glacial period and survived in some places, even in the far north, to this day after the last cold snap. They are younger than relics of the Ice Age. Relics of the xerothermic period are represented in the territory by 26 species.

Keywords: *Western Azerbaijan, relict of the tertiary period, glacier, xerothermy*

QƏRBİ AZƏRBAYCANIN TORPAQ ÖRTÜYÜ

Sahib HACIYEV **Akim AXUNDOV**
sahib-haciyev@mail.ru *akim.a@ndu.edu.az*
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın torpaq örtüyünün öyrənilməsinin məqsədi, işin metodikası, növ müxtəlifliklər, xüsusilə tip və yarım tipləri, onların formalaşmasına təsir göstərən coğrafi amillər və ictimaiyyətə çatdırılması haqqında məlumatlar verilir. Nəticədə aparılan araşdırmalar əsasında Qərbi Azərbaycanın torpaq örtüyünün öyrənilməsi və onların ictimaiyyətə çatdırmaqla, gələcəkdə bölgədə torpaq mühitinin qorunması istiqamətində tədqiqatlar aparmaqla, artırılması və yüksək keyfiyyətli məhsulların alınması üçün bir neçə tövsiyə və təkliflər verilmişdir.

Açar sözlər: *relyef, coğrafi amillər, eko-coğrafiya, torpaq, şorakət, bataqlıq*

Aktuallıq

Torpaq insan həyatında mühüm əhəmiyyət kəsb edən ən mühüm təbii ehtiyatlardan biridir. Torpaq mühitini nəinki torpaqşünaslar öyrənməli, hətta bütün insanlar onu göz bəbəyi kimi qorumalıdır. Aparılmış torpaq tədqiqatlarının istiqamətindən asılı olmayaraq, bütünlükdə Qərbi Azərbaycanın torpaq örtüyünün öyrənilməsi, münbitliyin artırılması üçün nəticələrin ictimaiyyətə çatdırılması insanların dünyagörüşünün artırılmasına xidmət edir (Şəkil 1).



Şəkil 1. Qərbi Azərbaycan ərazisinin inzibati- ərazi bölgüsü

Şəkil 1-də Qərbi Azərbaycan ərazisinin inzibati-ərazi bölgüsü öz əksini tapıb [6]. Qərbi Azərbaycanın torpaq örtüyünün öyrənilməsi, torpaq mühitinin qorunması, artırılması və yüksək keyfiyyətli məhsulların alınması üçün mədəni-təbii bitkilər altında torpaqlardan səmərəli istifadə olunması üçün seçdiyimiz mövzu bu baxımdan müasir dövrün tam tələblərinə cavab verərək çox aktualdır.

Material və metodika

Mövzuya aid ədəbiyyat, xəritə materialları toplanılmış və işin metodikası hazırlanmışdır. Mövzu işlənərkən tarixin ayrı-ayrı inkişaf mərhələlərində xarici ölkələrdə, o cümlədən Azərbaycan və Naxçıvan MR-də torpaq-bitki tədqiqatları aparan alimlərin monoqrafiya, metodik vəsait, xəritə materialları və müasir tələblərə cavab verən iş təcrübələrindən istifadə olunmuşdur [1, s. 82; 3, s.56-72; 4, s. 150-165].

Məqsəd

Qərbi Azərbaycanda torpaq örtüyünün növmüxtəlifliklərinin, xüsusilə tip və yarım tiplərini və onların

formalaşmasına təsir göstərən coğrafi amilləri öyrənməklə ictimaiyyətə çatdırılmaq və gələcəkdə bölgədə torpaq mühitinin qorunması, artırılması və yüksək keyfiyyətli məhsulların alınması üçün tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Təhlil və müzakirə

Əvvəldə qeyd etdiyimiz alimlərin metodikalarından, apardıqları tədqiqat işlərinin nəticələrindən, xəritə, ədəbiyyat və metodik vəsaitlərindən istifadə edərək, bölgədə torpaqlarının formalaşmasına təsir göstərən fiziki-coğrafi (relyef, geoloji quruluşu, geomorfologiyası, iqlimi, hidroloji və hidrogeoloji şəraiti, bitki və heyvanlar aləmi) amillərin, təbii deqradasiya (eroziya, şorlaşma, şorakətləşmə, bataqlıqlaşma, daşlarla örtülmüş və kol-kos basmış sahələr və s.) və mənfi, müsbət antropogen (əhalinin sıxlığı, otarma, ağac və kolların qırılması, torpaqlardan həddindən artıq istifadə olunması, suvarma, irriqasiya eroziyası və torpaqların mexaniki işlərlə pozulması və dağılması, nəqliyyat, tikinti və faydalı qazıntıların geoloji kəşfiyyatı, hasilatı və nəql olunması, pestisidlərin, radioaktiv maddələrin, gübrələrin və s.) proseslər ətraflı öyrənilərək təhlil olunmuşdur [1, s. 5-35; 3, s.96-122].

Qərbi Azərbaycan ərazimiz də Şərqi Azərbaycan kimi dağlıq relyefə malik olub, burada vulkanik yaylalar, bir neçə sıra dağlar, çökəkliklər, dağarası vadilər və düzənliklər vardır. Sıthi tuf Kaynazoy yaylaları (Qarabağ və s.) qırışıq-qaymalı silsilələr (Zəngəzur və Dərələyəz) silsilələrdən ibarətdir. Çoxlu vulkan dağları (Ağrı 5165 metr, Savalan-4821 metr, Sübhan-4434 metr) vardır [6].

Torpaq əmələgəlmə prosesində ərazinin iqlim, hidroloji və hidrogeoloji şəraitini də yaddan çıxarmaq olmaz. Burada yağıntılar (N_2, CO_2, O_2), su buxarı, günəş enerjisi və digərləri torpağın üzvü maddələrinin əmələgəlməsində yaxından iştirak edir. Tədqiqat obyektinin iqlimi düzənlik hissələrdə subtropik kontinental, dağlıq ərazilərdə mülayimdir. Orta temperatur yanvarda -3^0C dən – 15^0C-yə, iyulda 15-20^0 C, çökəkliklərdə isə 25^0C-yə qədərdir. İllik yağıntı 300-800 mm, çökəkliklərdə isə 15-300 mm-dir. Düzənlik ərazilər bitkilərin həyatında həlledici rol oynayan termik ehtiyatlarla zəngindir.

Tədqiqat obyektinin dağlıq əraziləri düzənliklərdə olduğu kimi, çay şəbəkəsi normal inkişaf etmişdir. Qərbi Azərbaycanın dağ göllərinin əksəriyyəti buzlaq-moren (Əyrivəng, Qarakilsə…) və sönmüş vulkanik-krater (Göygöl, Əjdahadağ, Ərdanış…) mənşəli olmaqla yüksək dağ zirvələrində yerləşir. Onların suyunun temperaturu may-sentyabr aylarında 10-15 dərəcəyə qədər, qalan aylarda isə mənfi dərəcədə olmaqla buz bağlayır, qar-buz örtüyü ilə qapanır. Amma dağ çəmən mənzərəsi, dağqaya landşaftı ilə əhatələnən, ekoturizm əhəmiyyətini il boyu saxlayan bu göllər mürəkkəb coğrafi-geoloji hidrolandşaft strukturuna malik olmaqla yanaşı, tarixi keçmişimizin də bir parçası kimi qiymətlidir.

Bu baxımdan Göyçə gölünün qərb və cənub-qərb hissələrini tutan vulkanik plato bünövrəli Gəyən dağlıq silsiləsinin (uzunluğu 70 km, eni 48 km) ən uca Əjdahadağ zirvəsindəki (3597 m, sönmüş vulkan ocağıdır, Qərbi Azərbaycanda 3-cü uca dağ, Alagöz (4090 m) və Qapıcıq (3906 m) zirvələrindən sonra) sönmüş vulkan çökəkliyində (kraterində) əsrarəngiz mənzərəli, buzlaq, qar sularından törəyən, diametri 200 metrə, dərinliyi 10 metrə çatan Əjdahagöl (mifik-mistik anlamı ifadə edir) sərt yamaclı dağların yaxınlığındadır, ondan şimal-qərbə tərəf 8 km aralıda digər bir sönmüş Göydağ vulkanının kraterində isə yağış-qar suları ilə qidalanan Göygöl (3032 m hündürlükdə, sahəsi 50 hektar, dərinliyi 15 m, su həcmi 2,5 milyon kub m.) yaranmışdır. Yaz-yay aylarında bu yerlərin təbiəti xüsusilə mənzərəli olduğundan təbiət həvəskarlarının səyyar düşərgələrinə dağların ayrı-ayrı yamaclarında və qatlarında, göllərin sahillərində rast gəlinir. Əjdahadağ ətrafındakı dağ yamaclarında (bu silsilə İrəvan şəhəri ilə Göyçə gölü arasında ortalıqdadır) Qobustan qayalarındakı rəsmlərin (insan, heyvan təsvirləri, Günəş, Ay şəkilləri) bənzərinə rast gəlinir, sal qaya sıralarında "daşa dönmüş əjdaha" təsvirləri ilə məşhurdur.

Bu yüksəklikdən Göyçə gölünün maviliyə boyanmış aynası, "göydən enmiş göy örtüyünün dalğalanması" aydın görünür, eləcə də bu qatdan baxanda uzaqlarda qədim Oğuz-Türk yurdunun Ağrı dağ (5137 m), Alagöz dağı, Qapıcıq dağı, Qarabağda Böyük İşıqlıdağ (3552 m), Qırxqız dağının Qızqala zirvəsi (2843 m)…da "başı çalmalı ağ örpəkli, çənli-dumanlı" ucalığı ilə göz oxşayır. Zirvədən şimal-qərbə 5 km-lik məsafədə Uctəpə dağının (3307 m) ətəklərində, subalp və alp çəmənlikləri landşaftında da buzlaq mənşəli (yeraltı sularla qidalanan) xırda göllərə rast gəlinir.

Təsadufi deyil ki, Əjdahadağ-Göydağ-Uctəpə hövzəsi mühafizə edilən Xosrov Dövlət Qoruğunun şimal hissəsindədir.

Əjdahadağın ətəyində (cənub-qərbə və cənuba doğru 35 km aralıda), dağ çölləri qurşağında, Azıx çayının (55 km uzunluqda, su toplayıcı hövzəsinin sahəsi 572 kv. km) sol qolu olan Əyriçay çayının mənbəyindən 10 km şərqə doğru 2620 m yüksəklikdə buzlaq, qar, yağış və yeraltı su laylarından qidalanan tektonik mənşəli Kilsə gölü yaranmışdır, sahəsi 30 hektar, dərinliyi 15 metr olmaqla. Azıx və Kilsə çayları

Qəmərli şəhərindən şimal-qərbə 15-16 km aralıda birləşərək suvarma, enerji istehsalı və balıqçılıq məqsədilə Azıx su anbarı 1976-cı ildə yaradılmışdır.

Ağrı vadisinin, Qəmərli nahiyəsinin 9-10 min hektar kənd təsərrüfatı təyinatlı torpaqların suvarılmasında böyük əhəmiyyətə malik olan bu süni su hövzəsi 1050 metr yüksəklikdədir, sahəsi 285 hektar (2,85 kv.km) və hidrohəcmi 70 milyon kub metrdir.

Digər bir Göygöl Dilican vadisində qədim tarixə malik Qoşakilsə kəndindən 2 km cənub-şərqə, meşədağ ərazisində, bulaq və yağış sularının toplanması nəticəsində yaranmışdır. Dilican Milli parkında, İncədərəsi Denraloji parkında 2-3 km cənub-qərbdə yerləşir.

Sanki Azərbaycanın bütün Göygöllərinin ümumi gözəlliyini özündə cəmləşdirmiş, mavi, lacivərd suları, Günəş şüalarını əks etdirən ayna səthi, cazibədar ətraf yaşıllığı…Dəniz səviyyəsindən 1400 m yüksəklikdə olan bu gölün sahəsi 0,8 hektardır, dərinliyi 8-10 metrə çatır, uzunluğu 100 m, eni 80 m, su ehtiyatı 1500 kub metrdir.

Qərbi Azərbaycanın ən yüksək dağ silsiləsi olan Alagöz dağında (4905 m) buzlaq-moren mənşəli Qaragöl gölü 3250 m yüksəklikdədir, sahəsi 30 hektar, dərinliyi 9-19 metrə çatır, qışda donur, məşhur qızıl balığın yayıldığı su hövzəsidir.

Yüksək dağ çölləri-çəmənləri landşaftında yaranan bu gölün qərb hissəsindən, 1400-1500 m yüksəklikdə, İnəkli kəndi yaxınlığından axan çay 13 km-dən sonra Araz çayına tökülür.

Zəngi-Vedi çayları hövzəsinə aid olan vulkanik-dağ göllərinin mənzərəsi təbii gözəlliyin bir parçasıdır, ekoturizm mənbəyidir, onların yatağından süzülən su laylarının üzə çıxması nəticəsində Gərni çayı (İrəvan şəhəri bu çayın sağ sahilindədir) yaranmışdır (Zəngi çayının sol qolu).

Gəyən dağının ətəyində, 2010 m yüksəklikdəki qədim yurd ocağımız olmuş Qaraqala kəndinin (İrəvan şəhərindən 20 km məsafədə) şərqində (2-3 km aralıda) yağış-qar sularının toplanması nəticəsində Qaraqala su anbarı tikilmişdir, 1970-ci illərdə. Süni su hövzəsi olan bu hidroqovşağ ətraf nahiyələrdəki əkin sahələrinin suvarılması məqsədini daşımışdır.

1970-ci illərdə Göyçə gölünün səviyyəsinin aşağı düşməsinin qarşısını almaq üçün Arpa çayı sahilində, Dərələyəz mahalının İstisu nahiyəsinin qədim Quşçu kəndi yaxınlığında Quşçu su anbarının tikintisinə başlanılmış, Basarkeçər dağ silsiləsindən 40 km-lik tunel qazılaraq bu anbardan su nəql edilmişdir (hövzədə balıqçılıq təsərrüfatı da yaradılıb).

Quşçu su anbarı 1950 m yüksəklikdə, sahəsi 145 hektar, sahil xətlərinin uzunluğu 8,5 km, dərinliyi 20 metr, su ehtiyatı 23 milyon kub metrdir.

Başlanğıcını Qarabağ yaylasının şimal-qərb yamaclarından alan Bazarçayın (Həkəri çayının sağ qolu, uzunluğu 178 km) yuxarı axarlarında, çayın üstündə Qalacıq kəndindən 2-3 km şimal-qərbə tərəf hidroenerji məqsədilə tikilən eyniadlı kaskad su anbarından şimal-qərbdə olan Quşçu su anbarına da 9-10 km-lik yeraltı su xətti birləşdirilib ki, bu da ümumilikdə Bazarçay hövzəsinin Göyçə gölü ilə sünii əlaqəsinin yaranmasına səbəb olmuşdur.

Torpaq əmələgəlmə prosesində üzvü maddələrin yaranması bitki və heyvanlar aləminin xüsusi rolu vardır. Torpaqların münbitliyi üçün böyük əhəmiyyəti olan çöküntülərin toplanması bitki və heyvanlarla əlaqədardır. Bitkilər hər şeydən əvvəl torpaqların üst qatında qida elementlərini toplayır. Bitki qalıqları bitki mikroorqanizmlərinin həyat fəaliyyəti üçün enerji mənbəyidir. Bitkilər bir sıra üzvü turşular ifraz edərək, torpaqda çətin həll olan birləşmələri bitki tərəfindən mənimsənilmiş hala salır.

Arazboyundan şimala hərəkət etdikcə yarımsəhra bitkiliyi, çökəkliklərdə quru çöl, çaylar boyunca çəmən, kol və ağac bitkiləri bitir. Rütubətli dağ yamaçlarında 800-1400 metr yüksəklikdə dağ çölləri, 1000-2300 metr yüksəklikdə palıd və şam meşələri üstünlük təşkil edir.

Çökəkliklərdə quru çöl və dağ yarımsəhra, çaylar boyunca çəmən, kol və ağac bitkiləri bitir. Rütubətli dağ yamaclarında 800-1400 metr yüksəklikdə dağ çölləri, 1000-2300 metr yüksəklikdə palıd və şam meşələri üstünlük təşkil edir. Böyük Ağrı və Sübhan dağlarının başı daimi qarla örtülmüşdür.

Torpaq əmələgəlmə prosesində üzvü qalıqların yaranmasında bitkilərlə bərabər, heyvanlar aləminin də mühüm rolu vardır. Torpaqda üzvü maddələrin yaranmasında onurğasız heyvanların rolunu xüsusi qeyd etmək lazımdır. Onurğasız heyvanlar üzvü qalıqları xırdalayaraq, onları torpağın mineral hissələri ilə birlikdə öz həzm aparatından keçirib fiziki-kimyəvi xassələrini dəyişir.

Torpağın daxilində yaşayan və həyat tərzi keçirən onurğasız heyvanlarla yanaşı, ərazidə yaşayan məməli heyvanlardan adi tülkü, yekəqulaq kirpi, kiçik ərəb dovşanı, canavar, korça, ağdiş, müxtəlif siçan növləri və s. yaşayır. Arazboyu qamışlıqlarda və cəngəlliklərdə qabana və çöl pişiyinə rast gəlmək mümkündür.

Tezisin ikinci bölümündə ərazidə torpaqların formalaşmasına təsir göstərən təbii və antropogen deqradasiya prosesləri haqqında ayrı-ayrılıqda məlumat verilir.

Tədqiqat obyektində torpaq əmələgəlmə prosesində əvvəldə göstərilən faktorlarla bərabər, təbii deqradasiya proseslərini və insan amilini də xüsusi qeyd etmək lazımdır. Antropogen relyef insan fəaliyyəti ilə dəyişdirilmiş və yaradılmış relyefdir.

Təbii deqradasiya proseslərinin və insanların təbiətə sərişləsiz, vəhşicəsinə müdaxiləsi baş vermiş, hətta bölgədə belə neqativ hallara tez-tez rast gəlinir. Bu cür neqativ hallar hal-hazırda da ərazidə davam etməkdədir.

Qeyd olunan təbii deqradasiya prosesləri, antropogen deqradasiya prosesləri torpaqların münbitliyinin azalmasına və əkin dövriyyəsindən çıxmasına nəinki tək-tək, hətta bəzi ərazilərdə kompleks şəkildə təsir göstərirlər.

Apardığımız tədqiqatların və ədəbiyyat materiallarının nəticələrindən aydın olur ki, torpaqların formalaşmasına təsir göstərən amillərdən təbii deqradasiya proseslərini və antropogen təsiri aşağıdakı kimi qruplaşdırmaq olar.

I. Təbii deqradasiya proseslərinə: Eroziya proseslərindən, su və külək, iqlimin dəyişməsinə istiləşmə və quraqlıq, şoranlaşma və şorakətləşmə, daşlıqlar və kol-kos basmış sahələri aid etmək olar.

II. Antropogen təsirə: Ərazidə əhalinin sıxlığı, otarma, ağac və kolların qırılması, torpaqlardan həddindən artıq istifadə olunması (dehumifikasiya prosesi), suvarma, irriqasiya eroziyası və irriqasiya yarğanlarının yaranması, torpaqların mexaniki işlərlə pozulması və dağılması, nəqliyyat, tikinti və faydalı qazıntıların geoloji kəşfiyyatı, hasilatı və nəql olunması, pestisidlərin, radioaktiv maddələrin, gübrələrin və s. göstərmək olar.

I. Təbii deqradasiya prosesləri. Qərbi Azərbaycanda qeyd olunan təbii deqradasiya proseslərindən müxtəlif dərəcələrdə külək və su eroziya baş verir. İqlimin dəyişməsi təbii şəraitin bütün komplekslərinə təsir göstərir. İqlim elementlərindən istiləşmə nəticəsində temperaturun yüksəlməsi ekosistemdə quraqlıqların baş verməsinə, hidrorejimin dəyişməsinə, buxarlanmanın yüksəlməsinə və yağıntıların azalmasına səbəb olur. Quraqlıq isə istiləşmə nəticəsində ərazidə quraqlıq başlayır. Quraqlıq yağıntısı çox olan bölgələrə nisbətən inzibati rayonun ekosisteminə daha çox təsir göstərməklə səhralaşma və torpaq deqradasiyası prosesini gücləndirir. Çünki bu yağıntısı az düşən və quraq ərazilərdən biridir. Regionda ən çox quraqlıq olan sahələrə əsasən Arazboyu düzənliyində rast gəlinir.

Bölgədə torpaq münbitliyinin azalmasına mənfi təsir göstərən qeyd etdiyimiz mənfi təbii amillərlə bərabər, ərazidə baş vermiş güclü sellər nəticəsində müxtəlif ölçülərdə daşlıq və quraqlıqla əlaqədar kol-kos basmış strukturu pozulmuş torpaqlara da rast gəlinir. Daşlarla örtülmüş və kol-kos basmış strukturu pozulmuş belə torpaqlar Zəngəzur və Dərələyəz dağ ətəyində və Araza tökülən bütün çayların yuxarı və orta axarlarının yataqlarında müşahidə olunur.

II. Antropogen təsir. Səhralaşma torpaq deqradasiyasını yaradan səbəblər arasında təbii amillərlə yanaşı, antropogen təsirlər də əsas diqqət çəkən məsələlərdən biridir. Antropogen təsir ətraf mühitə, o cümlədən torpağa təsir göstərən insan fəaliyyətinin müxtəlif formalarını birləşdirir. Müxtəlif formalarda insanların torpaqlara kortəbii münasibəti bir çox hallarda ərazidə eroziya proseslərinin inkişafını sürətləndirir və bataqlıq sahələri yaradır. Məsələn, sahələrdə heyvanların sistemsiz otarılması, ağac və kolların qırılması eroziya proseslərini sürətləndirən əsas amillərdəndir. İnzibati rayonda səhralaşma və torpaq deqradasiyasını yaradan antropogen amillərin müxtəlif formalarından biri olan əhalinin ərazidə məskunlaşmasına diqqət yetirək.

Əhalinin ərazidə məskunlaşmasının torpaqlara təsirinə nəzər saldıqda, burada əhalinin sıxlığı torpaq münbitliyinə təsir göstərən əsas faktorlardan biridir. İnzibat rayonda əhalinin sıx məskunlaşdığı Arazboyunda, çay sahillərində kəndi ətrafı torpaqlardan mədəni və təbii bitkilər altında olduqca səmərəli istifadə olunur. Lakin bəzi təsərrüfatlarda və əhali seyrək və yaxud olmayan ərazilərdə isə torpaqlardan səmərəli istifadə olunmur. Ona görə bu ərazilərin torpaqları öz münbitliyini get-gedə itirərək deqradasiya proseslərinə uğrayaraq əkin dövriyyəsindən çıxır. Belə torpaq sahələri dağlıq hissələrində müşahidə olunur. Ərazidə torpaq münbitliyinin azalmasına təsir göstərən əhali sıxlığı ilə bərabər, qış və yay otlaqlarında heyvanların sistemsiz otarılması, ağac və kolluqların qırılması hallarına rast gəlinir.

Eyni zamanda ərazidə torpaqlardan mədəni və təbii bitkilər altında istifadə olunarkən aqrotexniki qaydalara düzgün riayət etməmək nəticəsində münbitliyi azalaraq məhsuldarlıq ilbəil aşağı düşür. Torpaqlardan uzun müddət istifadə olunması və suvarma sularının nəzarətsiz buraxılması nəticəsində aşağıda qeyd olunan mənfi hallara gətirib çıxarır.

Torpaqlardan fasiləsiz olaraq bəzi təsərrüfatlarda torpaqlardan eyni bitki altında uzun illər fasiləsiz olaraq istifadə olunur. Bu da torpaqların fiziki, kimyəvi xüsusiyyətlərini pisləşdirir və bitkilərin məhsuldarlığının aşağı düşməsinə səbəb olur.

Ərazidə mənfi antropogen amillərindən biri də nəzarətsiz suvarma nəticəsində torpaqlarda baş verən irriqasiya eroziyasıdır. Dağətəyi və aran rayonlarında suvarılan sahələrdə su eroziyasının başqa bir növü olan

irriqasiya eroziyası yayılmışdır. Bu proseslər nəticəsində torpaqların üst münbit hissəsi yuyularaq, dərin şırım və yarğanlar yaranaraq torpaqlar yararsız hala düşür.

Suvarma normadan artıq olduqda suyun bir hissəsi torpağa hopur, qalan hissəsi isə yamac uzunu axaraq torpağın narın münbit qatını yuyub aparır. Yuyulub aparılmış torpaq sahənin aşağı hissəsində çökür, müxtəlif qalınlıqda qaysaq əmələ gəlir. Bu yerlərdə torpağın su-hava rejimi pisləşir.

Əkin sahələrində irriqasiya eroziyasının əmələ gəlməsinə suvarma vaxtı arxın daima bir yerdən açılması da böyük təsir göstərir. Bununla yanaşı, sahələrin çox girintili-çıxıntılı olması qobuların əmələ gəlməsinə şərait yaradır. Suvarmanı ikinci bir tərəfdən nəzarətsiz buraxılan bu sular axmaz yerlərə toplanaraq bataqlıqlar yaradır. İrriqasiya eroziya və bataqlıqlaşma proseslərinə inzibati rayonun təsərrüfat sahələrində müşahidə olunur.

Mənfi antropogen təsirlərdən biri də ərazidə plansız nəqliyyat yolları, tikinti materialları, mədən sənayesinin hasilatıdır. Bu neqativ hallara plansız nəqliyyat yolları, çay yataqlarından və bəzi dağlıq, dağətəyi və düzənlik sahələrdən qum və digər tikinti materiallarının daşınması, həmin ərazilərin yarğan şəkilində buraxılması nəticəsində deqradasiya uğramış torpaqlara da rast gəlinir.

Hətta Arazboyunda tikilən Atom elektrik stansiyasının, Qafan mis əritmə zavodunun və digər sənaye zəhərli suları bir başa Araza axıdılır. Arazboyunda Naxçıvan-İrəvan magistral yolunun alt və üst hissələrində axın istiqaməti olmayan suların yığılması sayəsində bataqlıq sahələr yaranır və yaxud torpaqlar quruyaraq öz münbitliyini itirir. Bundan əlavə, rayon ərazisində ətraf sahələrə lazım olmayan tikinti materialları və məişət tullantıları hesabına çirklənən torpaqlara da rast gəlinir.

Beləliklə, apardığımız tədqiqatların nəticələrinə əsaslanaraq bölgədə torpaqların aşağıda göstərilən əsas boz, tünd-boz, boz-qonur, allüvial-subasar, bataqlıq-çəmən, çəmən-boz, boz-çəmən, dağlıq və dağətəyi ərazilərdə isə qəhvəyi, dağ-qəhvəyi, dağ boz-qəhvəyi, bozqır və bozqırlaşmış dağ-qəhvəyi, dağ-qara, bozqır dağ-çəmən və s. torpaq növ müxtəlifl ikləri yayıldığı müəyyənləşdirilmişdir [4, s.296-422].

Boz torpaqlar. Bölgənin düzənlik sahəsində boz torpaqlar geniş sahə tutur. Boz torpaqlar əmələgəlmə şəraitindən asılı olaraq, narın torpaq qatının qalınlığına, süxurların xarakterinə, yuyulma dərəcəsinə, duzluluğuna görə ayrı-ayrı növ müxtəlifliklərinə ayrılır. Dağətəyi sahələrdə boz torpaqlar az da olsa, eroziya proseslərinə məruz qalmışdır.

Boz torpaqlar yayıldığı sahələr iqlimin daha çox quru və isti olması ilə fərqlənir. Torpaq əmələgəlmə şəraitində kəskin kontinentallıq düzənlik hissədə torpaqda orta aylıq göstəricilər iyul-avqust aylarında (5-20 sm-də) müsbət 28-32^0, yanvarda isə (5-20 sm-də) mənfi 1-3^0-ə təşkil edir. Təbii olaraq bu zonada bitki örtüyü zəif olub, bütövlükdə çim qatı yoxdur. Torpaqlarda bitki qalıqları çox azdır, bunların da əksər hissəsi parçalanaraq quruyur və humusun toplanması üçün şərait yaxşı olmur. Ona görə də bu torpaqlarda humus az toplanır. Torpağın üst qatında əmələ gəlmiş humus çatışmayan atmosfer yağıntıları hesabına dərin qatlara keçə bilmir. Bu baxımdan boz torpaqlar bütün profil boyu boz rəngə çalır.

Boz-qonur torpaqlar. Tərəfimizdən aparılmış tədqiqatlar göstərir ki, boz-qonur torpaqlar regionda əsasən Arazboyu düzənliyi olan ərazilərdə formalaşmış və ayrı-ayrı ləkələr şəklində isə dağətəyi zonada müşahidə olunur.

Açıq-qəhvəyi (şabalıdı) torpaqlar. Bu torpaqlar bölgənin dağətəyi və düzənlik hissələrində qəhvəyi (şabalıdı) torpaqlardan aşağı yayılmışdır. Bunların relyef şəraiti qəhvəyi torpaqlar yayıldığı sahələrə nisbətən az meyillidir. Bitki örtüyü əsasən efemerlərin hesabına formalaşır. Arazboyu maili düzənliyinin bəzi sahələrində açıq-qəhvəyi torpaqlar suvarılma normasının müxtəlifliyi müşahidə olunur.

Burada bitki örtüyünün zəif olması ilə əlaqədar atmosfer suları səth boyu çökək sahələrə axaraq, torpaqlar bir çox yerlərdə yuyulmağa məruz qalır. Bu da torpaq əmələgəlməsi üçün quru şərait yaradır. Ərazidə açıq-qəhvəyi torpaqlar tipik qəhvəyi torpaqlardan profildə rəngin açıqlığına görə fərqlənməsi, genetik horizontun zəif diferensasiyasına görə səthdə karbonatların daha çox olması ilə əlaqədardır. Bu torpaqlar, həmçinin tərkibində humusun az olmasına və digər əlamətlərə görə də fərqlənir. Dərinliyi getdikcə onun rəngi daha da açıq olur, 40-50 sm dərinlikdə açıq-sarı və ya qonur-sarı olur. Strukturasında kələ-kötürlük itir, torpaq əsasən boz olub, ancaq B qatında bir qədər bərkimə müşahidə olunaraq, 30-40 sm dərinlikdə və səthə yaxın karbonat ləkələri müşahidə olunur. Ən çox müxtəliflik Naxçıvan düzənliyinin şimal-şərqində müşahidə edilir. Şumlanmış hissədə torpağın dellüvial çöküntüləri olan hissəsini eroziya təhlükəsi gözləyir.

Qəhvəyi (şabalıdı) torpaqlar. Bölgədə qəhvəyi (şabalıdı) torpaqlar hamar dağətəyi zonada və başlıca olaraq dağarası çökəkliklərdə yayılmışdır. Çox vaxt enli olmayan zolaq dağarası çökəkliklərdən yuxarı dağlıq istiqamətlərə doğru uzanır. Bu torpaqların əlverişli relyef şəraiti ilə əlaqədar qədimdən suvarma əkinçiliyi üçün istifadə olunur. Torpağın bu xüsusiyyəti quru çöl bitkiləri hesabına formalaşır. Bitki örtüyünün yaxşı olması ilə əlaqədar qəhvəyi torpaqların rütubətliyi təmin olunur. Torpağın mexaniki tərkibi tam olaraq atmosfer

yağıntısını udur, toplanmış yamac sularına qarışıb düzənliklərə doğru axır. Bu torpaqlarda dellüvial çöküntülərin olması heç bir şübhə doğurmur. Hansı ki, yaxşı su saxlamaq qabiliyyətini və ilin çox hissəsini bitki rütubətini təmin edir. Ərazidə düzənlik ərazisinin torpaqları humus maddələrinin toplanması üçün əlverişli şəraitə malikdir.

Çəmən tipli torpaqlar. Bu tipli torpaqlar əsasən ərazisinin düzənlik, dağətəyi və dağarası çökəkliklərdə yayılmaqla, nisbətən rütubətlənmə və yeraltı suların səthə yaxın olan sahələrində formalaşmışdır. Bəzi hallarda bu torpaqlara orta dağlıq, yüksək dağlıq və çay sahillərinin hamar və meyilli sahələrində də müşahidə olunur.

Şoran torpaqlar. Bölgədə şoran torpaqlar əsasən Arazboyu sahələrdə, keyfiyyətsiz tikilmiş su obyektlərinin kənarlarında müşahidə olunur. Şoranların əmələgəlməsi şorlanmış qrunt sularının səthə yaxınlığı, buxarlanmanın yağıntılara nisbətən üstünlüyü ilə əlaqədar yaranır. Şoranlar üçün yüksək qələvilik və udma tutumunda maqnezium 50%, natriumun isə 20% olması səciyyəvidir.

Çay subasarlarının torpaqları. Çayların subasarlarında allüvial mənşəli torpaq əmələgəlmə şəraitində allüvial-çəmən və allüvial çəmən-meşə torpaqlar formalaşmışdır. Bu torpaqlar əsasən bölgənin düzənlik və orta dağlıq sahələrində çayların yataqlarına yaxın cavan çöküntülər üzərində inkişaf etmişdir. Ona görə də subasar torpaqlar çayların gətirib çökdürdüyü materialların tərkibindən asılı olaraq, adətən münbit olur. Göstərilən torpaqlar düzən-meşə və tuqay-meşə torpaqları kimi torpaqşünaslıq ədəbiyyatına daxil olmuşdur.

Açıq dağ-qəhvəyi (şabalıdı) torpaqlar. Bu torpaqlar düzənlik zonanın qəhvəyi torpaqlarından şimal hissədə orta yüksəkli dağların cənub və şərq yamaclarında yayılmışdır.

Çox vaxt bitkisiz şəraitdə eroziyaya məruz qalır. Nəticədə torpaq qatı skletli və yuxa olur. Daşlıqlar və daşlı torpaqlar isə geniş sahələri tutur. Dağların şimal yamaclarında yayılmış açıq-qəhvəyi torpaqlarda nəmləmə şəraitinin yüksək olmasından asılı olaraq, humusun miqdarı nisbətən artıq olur. Humusun miqdarı 2-3 faizə qədər olan torpaqlarda dəmyə əkinçiliyini inkişaf etdirmək olar.

Dağ-qəhvəyi torpaqlar. Ərazidə dağ-qəhvəyi torpaqlar orta dağlıq zonasında yayılan açıq-qəhvəyi torpaqlardan yuxarıda yayılmışdır.

Onların əsas tipik hissələri relyefin hamar hissələrində, səthi az meyilli yamaclarda inkişaf etmiş və burada əsasən dənli bitkilər əkilir. Şumlanmış sahələrin müxtəlifliyindən asılı olaraq, kök sistemlərindən məhrum olan ot bitkiləri olan sahələr yuyulmaya məruz qalmışdır. Bu torpaqlar açıq rəngə və yüngül mexaniki tərkibə malikdir. Tipik dağ-qəhvəyi torpaqlar maili yamaclarda tünd boz rəngdə olub, düzən sahələrdə isə yuxarı qatlarda qonur rəngdə olur. Relyefin çökək sahələrində 10-20 sm dən aşağıda rəng tündləşir və aşağıya doğru sarımtıl boz torpaq əmələgətirən süxurların rəngində olur.

Dağ-qara torpaqları. Regionda əksərən dağ-çəmən çöl torpaqları ilə birlikdə və ayrı-ayrı sahələrdə yayılmışdır. Tipik nümunəsi Zəngəzur və Dərələyəz və digər dağarası çökəkliklərində yayılmışdır. Apardığımız tədqiqatlar əsasında müəyyən olmuşdur ki, bu torpaqların rəngi qaramtıl, strukturası dənəvər, humus qatı xeyli qalın, skeletli, mexaniki tərkibi isə ağır gilli və ağır gillicəlidir. Dağ-qara torpaqları üzvü maddələrlə zəngin olub, humusun miqdarı 5-7%-ə çatır.

Dağ meşə-qəhvəyi torpaqlar. Azərbaycanda dağ meşə-qəhvəyi torpaqlarına ilk dəfə "qəhvəyi torpaqlar" adını N.M.Sibirtçev vermiş və öz təsnifatında qəhvəyi-boz gilliçəli torpaqların zəif podzol torpaqlara keçid kimi təsnifləşdirilmişdir. S.A.Zaxarova görə qəhvəyi-meşə torpaqları torpaq əmələgəlmə şəraitində orijinal tip kimi təcəssüm etdirilir və bu torpaq tipi podzol əmələgəlmə şəraitindən fərqlənir ki, bu da qara və qırmızı torpaqlar arasında keçid təşkil edir. Bu torpaqların A qatında humusun miqdarı 7-10%, B qatında 2,2-1,16%, C qatında 1,94-1,16% olduğu göstərilmişdir. Torpaq profilində yuxarıdakı iki qatda bir yarım oksidlər, B qatında isə illüvial çöküntülərin formalaşması müşahidə olunur.

Dağ çəmən-meşə torpaqlar. Onlar əsasən Zəngəzur silsiləsinin şimal və şimal-qərb yamaclarında talalar şəklində və ayrı-ayrı sututar dərələrdə geniş yayılmışdır. Adətən, belə bitkilər dağ-çəmən zonaları ilə meşə massivləri arasında sərhəd zolağını təşkil edir. Müsbət relyef formalarında meşə bitkiləri az-çox dərəcədə örtüldüyü yerlərdə torpaq əmələgəlmə prosesi nisbətən yüksək rütubətli şəraitdə gedir. Dağ çəmən-meşə torpaqlarının genetik qatları dağ-çəmən çöl və hətta dağ çəmən-çimli torpaqlardan çox aydın surətdə seçilir. Dağ çəmən-meşə torpaqları gilli mexaniki tərkibi açıq-qəhvəyi və qırmızımtıl qəhvəyi rəngi ilə xarakterizə olunur. Yarım metr qatdan aşağıda rəng bir az açıqlaşaraq, 75-80 sm-dən başlayaraq genetik qatda isə karbonatların olması ilə əlaqədar qəhvəyi tünd-qonur və qonur rəng alır.

Dağ-çəmən çimli. Yüksək dağlıq zonanın tipik torpaq növüdür. Subalp qurşağın geniş ərazisini əhatə edərək, dəniz səviyyəsindən 2600-3000 m qədər yüksək olan əraziləri əhatə edir.

Rütubətli sahələrdə torpaqlar talalar şəklində subalp tipli çəmənlər və müəyyən sahədə isə torf qabıqları əmələ gətirir. Yaxşı inkişaf etmiş kök sisteminə malik olan zəngin müxtəlif dənli bitkilər, nisbətən yumşaq iqlimin və narın çim qatın inkişafına malikdir. Bu da dağ çəmən-çimli torpaqların morfoloji quruluşunun

xarakterik xüsusiyyətindən biridir. Daşlı-çınqıllı yamaclarda narın torpaqlarda kəklikotlu-gəvən-topal otu geniş sahəni əhatə edir.

Qaramtıl dağ-çəmən torpaqları. Dərələyəz, Zəngəzur və digər dağ silsiləsinin dəniz səviyyəsindən 2600-3000 metr hündürlükdə olan sahələrində yayılmışdır. Qaramtıl dağ-çəmən torpaqlarının yuyulma su rejimində və əhəng daşının aşınma qalığı ellüvisi, qumdaşlı, əhəngdaşı və karbonatlı şirstlər üzərində formalaşır. Bu torpaqlar nisbətən hamar relyef formasında hamarlanmış maili sahələrdə və yaylavari sahələrdə daha çox yayılmışdır. Bitki örtüyü subalp qurşağının hündür ot bitkilərindən təşkil olunmuşdur. Zəngin bitki örtüyünə malik olması bu torpaqlarda qalın çim qatının (A^y) yaranmasna səbəb olur.

Dağ-çəmən torpaqlar. Regionun yüksək dağlıq zonasında 2350-3000 metrədək olan sahədə subalp və alp zonasına rast gəlinir. Alp zonası bitkilərinin isə boyları qısa olur. Çünki onlara nəmli və soyuq yamaclarda rast gəlinir (alp xalıları, alp çəmənləri). Onlar yüksək dağlıq zonanın geniş ərazilərini əhatə edir. Savalan, Qapıcıq, Sübhan zirvələri ətrafında çox nəmli alçaq çökəkliklərdə, nəmli və soyuq yamaclarda rast gəlinir.

Nəticə

Aparılmış araşdırmalar əsasında müəyyən olunmuş torpaq növmüxtəlifliklərinin formalaşmasına təsir göstərən təbii və antropogen faktorlar müəyyənləşdirilmişdir. Eyni zamanda torpaq növmüxtəlifliklərinin formalaşmasına təsir göstərən təbii və antropogen faktorlar müəyyənləşdirilərək potensial imkanları, torpaq münbitliyinin itirilməsinə təsir göstərən mənfi proseslərdən şorlaşmanın, bataqlıqlaşmanın və digər faktorların mənşəyi, yaranma səbəbləri araşdırılaraq təhlil olunmuşdur. Təhlil olunan nəticələr göstərir ki, gələcəkdə regionda mədəni və təbii bitkilər altında torpaqlardan səmərəli istifadə olunması istiqamətində müasir tələblərə cavab verən tədqiqatların aparılması zəruri hesab edilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopedisiyası. IV cild, Bakı: 1980, s.82.
2. Babayev, S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 298 s.
3. Hacıyev, S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: MBM, 2010, 296 s.
4. Məmmədov, Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: Elm, 2007, 664 s.
5. https://t.me/Axaraz/49320
6. http://www.anl.az/down/meqale/hurriyyet/2021/may/745992.htm

ABSTRACT

Sahib HAJIYEV, Akim AKHUNDOV

THE SOIL COVER OF WESTERN AZERBAIJAN

The thesis provides information about the purpose of studying the land cover of Western Azerbaijan, the methodology of the work, species diversity, especially types and semi-types, geographical factors that influence their formation, and their dissemination to the public. On the basis of the research conducted as a result, several recommendations and suggestions were made for studying the land cover of Western Azerbaijan and bringing it to the public, conducting research in the direction of protecting the soil environment in the region in the future, increasing it and purchasing high-quality products.

Keywords: *relief, geographical factors, eco-geography, soil, soil, swamp*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZM POTENSİALININ YARADILMASINA DAİR DÖVLƏT PROQRAMLARININ İCRASI NƏTİCƏLƏRİ

Gülşən KƏNGƏRLİNSKAYA
A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu

XÜLASƏ

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Respublikası rəhbərliyi tərəfindən sosial-iqtisadi inkişafın sürətləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə yeni infrastrukturun formalaşdırılması məqsədi ilə iqtisadi rayonlar üzrə yeni bölgünün yaradılması haqqında qərar qəbul edildi. Qərar işğaldan azad olunmuş ərazilərdə iki iqtisadi rayonun, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasını və bu rayonların respublika iqtisadiyyatına reinteqrasiyasını hədəfləyirdi. İrəli sürülən məsələlərin reallaşdırılması işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi potensialının müəyyənləşdirilməsini, bu ərazilərdə mövcud olan təbii sərvətlər, maddi-mədəniyyət abidələrinin bərpasını və turizmin müxtəlif növlərinin inkişafı perspektivlərini müəyyənləşdirməyi tələb edirdi. Məqalədə yeni yaradılmış iqtisadi rayonların turizm potensialı, müxtəlif səviyyələrdə qəbul edilmiş qərarların icrasının ölkə iqtisadiyyatına təsiri, əhali üçün yaradılmış və nəzərdə tutulan sosial-iqtisadi imkanlar araşdırılır. Tədqiqatın mənbə bazasını respublikada iqtisadiyyatın müxtəlif sahələri, xüsusilə də turizmin inkişafı ilə bağlı qəbul edilən qərarlar, qanun və sərəncamlar, Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, təhlil və tədqiqat mərkəzlərinin statistik hesabatları təşkil edir. Tədqiqat işində kəmiyyət və təsviri-müqayisəli metoddan istifadə olunub.

Açar sözlər: *Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu, müalicə-sağlamlıq turizmi, maddi-mədəniyyət abidələri, Azərbaycanda turizm*

Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsünə əsasən (7 iyul 2021-ci il tarixli fərman) Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması zəngin tarixi irsə, əsrarəngiz təbiətə malik ərazilərdə sürətli bərpa və inkişaf məqsədi daşıyırdı. Qarabağ iqtisadi rayonunun tərkibinə Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər, Şərqi Zəngəzur rayonunun tərkibinə isə Cəbrayıl, Qubadlı, Laçın və Zəngilan daxil edildi [1]. Bu şəhərlər Zəngəzur platosunun şərq hissəsində yerləşərək Laçın və Kəlbəcərdən Naxçıvana qədər geniş ərazidə (Ermənistan Respublikası ilə sərhəddə) Zəngəzur sıra dağları ilə əhatə olunur. Tarixən bu ərazilər eyni rayonda birləşmiş XIX əsrin 60-cı illərində yaradılan Zəngəzur qəzasının bir hissəsi olaraq sosial-iqtisadi, tarixi və mədəni əlaqələrlə bağlı olmuşlar.

İşğaldan azad olunan ərazilər barədə 7 iyul 2021-ci il tarixli fərman sözügedən ərazilərin yüksək sosial-iqtisadi potensialını qeyd edir, bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məsələsini təsdiqləyirdi. Fərmandan irəli gələn məsələlərin həlli məntiqi olaraq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın qəbul edilməsi ilə nəticələndi [2]. Proqramda 30 ilə yaxın təcavüzkar Ermənistan respublikasının işğalı altında qalmış torpaqlara vurulmuş külli miqdarda zərərin aradan qaldırılması, talan edilmiş təbii sərvətlərin rekreasiyası və dağıdılmış infrastrukturun bərpasının vacibliyi vurğulanmış, qarşıda duran problemlərin həlli istiqamətində görüləcək tədbirlərin ölkənin 2022-2026-cı illər üçün nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf strategiyasına uyğunlaşdırılması məqsədəuyğun hesab edilmişdir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin sosial-iqtisadi inkişafının və turizm potensialının təhlil edilərək qiymətləndirilməsi, ölkə iqtisadiyyatı və əhalinin sosial-iqtisadi inkişafında rolunun müəyyən edilməsi bir neçə səbəbdən əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi, xüsusilə də turizm potensialının müəyyənləşdirilməsi ilk növbədə uzun illər işğal altında olmuş ərazilərə vurulan zərərin, məhv edilən təbii sərvətlərin və mövcud olmuş infrastrukturun qiymətləndirilməsi baxımından önəmlidir. Bu ərazilərin turizm imkanlarının qiymətləndirilməsi ölkə iqtisadiyyatına və dövlət büdcəsinə əlavə gəlir mənbələrinin müəyyənləşdirilməsi baxımından da əhəmiyyət kəsb edir. Tədqiqat zamanı əldə edilən nəticələr azad edilmiş ərazilərə köçürüləcək insanların əmək resurslarının düzgün bölüşdürülməsi, sosial inkişafının optimallaşdırılması baxımından da zəruridir.

İşğaldan azad edilmiş torpaqların sosial-iqtisadi, tarixi, maddi-mədəni və aqrar-sənaye cəhətdən təhlili dərin köklərə malikdir. Tədqiqatın xronoloji çərçivəsi müasir dövrü əhatə etdiyindən bu problemlə bağlı son dövrdə həyata keçirilmiş araşdırmalara toxunulacaq. İlk növbədə qeyd edilməlidir ki, tədqiqatçıların diqqətini

cəlb edən mühüm məsələlərdən biri işğal altında olmuş ərazilərə dəymiş maddi-mənəvi zərərin müəyyənləşdirilməsi olmuşdur [9; 12; 19]. İşğaldan azad edilmiş ərazilərə dəymiş iqtisadi zərərin qiymətləndirilməsi, bu ərazilərin bərpası üçün kapital qoyuluşunun, prioritet iqtisadi inkişaf sahələrinin müəyyənləşdirilməsi tədqiqatçıların diqqətini cəlb edən ikinci mühüm problemdir [15; 21; 13]. Bir sıra tədqiqatçıların əsərlərində Qarabağ münaqişəsinin və Zəngəzur bölgəsinin tarixinin müxtəlif aspektlərinə toxunulur [18; 24]. Azərbaycan ərazilərinin Ermənistan təcavüzündən azad edilməsindən sonrakı 2-3 il ərzində isə Qarabağ və Şərqi Zəngəzurun turizm potensialının araşdırılması problemi bir sıra tədqiqatçıların diqqətini cəlb edir [28].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tarixinə dair

XIX əsrin 60-cı illərində Rusiya imperiyası işğal etdiyi Cənubi Qafqazda inzibati-idarə sisteminin islahatına başladı. Qarabağ xanlığının böyük hissəsi paytaxtı Şuşa şəhəri olan Yelizavetpol quberniyasının tərkibinə daxil edildi. 1868-ci ilin fevral ayında yaradılan Zəngəzur qəzası İranla həmsərhəddə (Araz çayı sərhədi) İrəvan (Şərur, Dərələyəz və Naxçıvan) və Yelizavetpol (Cavançi, Şuşa, Cəbrayıl) quberniyalarının əhatəsində idi [20]. Rusiya imperiyasının inzibati-ərazi bölgüsü işğal edilmiş ərazilərin təbii-coğrafi sərhədləri əsasında aparılmışdı, bu ərazilərdə yaşayan əhalinin etnik rəngarəngliyi isə sərhədlərin milli prinsiplərlə müəyyənləşdirilməsinə imkan vermirdi. Məhz bu səbəbdən 1917-ci ildə Rusiya imperiyası dağıldıqdan sonra Cənubi Qafqaz xalqları arasında mübahisəli torpaq məsələsi və qarşılıqlı torpaq iddiaları ciddi problemlər yaratdı, minlərlə insan doğma yurdundan qovuldu, milli zəmində qırğınlar baş verdi [5, siy.4s, iş 43, v.8]. 1918-ci ildə Cənubi Qafqazda üç müstəqil dövlətin yaradılması elan edildikdən sonra isə bu iddialar hərbi toqquşmalara çevrildi və münaqişələr Cənubi Qafqaz respublikalarının federasiyada birləşmək cəhdlərini iflasa uğratdı. 1918-1920-ci illərdə həm Qarabağda, həm də Zəngəzurda Azərbaycan-Ermənistan qarşıdurması böyük insan tələfatına, iqtisadiyyatın dağılmasına səbəb oldu [6, siy.1, iş.69a, v.27].

1920-1921-ci illərdə Cənubi Qafqaz respublikalarının sovetləşməsi ilə bölgənin inzibati-idarə sistemində ciddi dəyişikliklər baş verdi. 1922-ci ildə keçmiş Zəngəzur qəzasının qərb hissəsi sovet Ermənistanına, şərq hissəsi isə sovet Azərbaycanına verildi. Lakin Zəngəzurun cənub-qərb torpaqları da sovet dövründə tədricən Azərbaycandan qopardılaraq Ermənistana verildi [17,s.335]. Sovet hökuməti Qarabağın tamamilə Azərbaycan SSR tərkibində qalması, lakin Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsində mərkəzi Şuşa şəhəri olmaqla Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında qərar qəbul etdi. Sovet imperiyasının dağılmasından sonra Azərbaycandan qopardılan torpaqların geri qaytarılması məsələsi yenidən aktuallaşdı.

1990-cı illərin əvvəllərində siyasi gərginlik fonunda baş vermiş hərbi uğursuzluqlar Azərbaycanın həm keçmiş Dağlıq Qarabağ vilayətinin, həm də vilayətin ətrafındakı yeddi rayonun işğalı ilə nəticələndi. İkinci Qarabağ müharibəsi və 2022-ci ildə keçirilən antiterror əməliyyatları nəticəsində Azərbaycan təcavüzkar Ermənisatandan işğal edilmiş bütün əraziləri geri qaytararaq ərazi bütövlüyünü bərpa etməyə nail oldu.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı

İşğal olunmuş ərazilərin qaytarılmasından öncə də ekspertlər Qarabağ iqtisadi rayonunun resurs və iqtisadi potensialı barədə fikirlər səsləndirdilər. Qeyd olunurdu ki, Azərbaycan Respublikası ərazilərinin Ermənistan qüvvələri tərəfindən işğalı ölkəyə 820 milyard dollara qədər ziyan vurmuş, ətraf mühit, yaşayış evləri və ictimai binalar, eləcə də istehsal infrastrukturları məhv edilmişdir [30]. Qarabağın incisi Şuşa dağlıq hissədə yerləşərək yaşıllıqlar və təmiz bulaqlarla əhatə olunub. Kəlbəcərdəki "İstisu" sanatoriyası, Zəngilanın termal mənbələri, Şuşadakı Turşsu və Şirlan mineral suları 30 il ərzində işğal altında olmuşdur. Bu ərazilərin azad olunması zəngin təbii potensialın, unikal iqlimin turizm məqsədləri üçün istifadəsinə geniş imkanlar açmış oldu. Turizm əhəmiyyəti nöqteyi-nəzərindən təmiz havası, əsrarəngiz təbiəti, bulaqları (İsa bulağı, Turşsu, Soyuq bulaq) ilə tanınan Şuşanı məşhur Davos, Kislovodsk kimi kurort şəhərləri ilə müqayisə edə bilərik. Əsrlər boyu Şuşanın Cıdır düzünün təmiz havası və mineral mənbələri bir sıra xəstəliklərin, o cümlədən qanazlığı və vərəmin müalicəsində əhəmiyyətli olmuşdur. XX əsrin ortalarında burada müasir sanatoriyalar tikilmiş və ərazi SSRİ-nin mühüm kurort mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il qərarına əsasən "Qarabağ Dirçəliş Fondunun" Müşahidə Şurası tərkibi təsdiq edildi ki, bu da Qarabağ iqtisadi bölgəsində dirçəlişlə bağlı kompleks tədbirlərin təşkili və həyata keçirilməsinin intensivləşdirilməsi məqsədinə xidmət edir [11].


Hazırda Qarabağ iqtisadi rayonunda təbii qaz və içməli su sistemləri quraşdırılması davam edir, parklar, beynəlxalq avtomobil yolları, dəmir yolları salınır, enerji ötürülməsi üçün elektrik stansiyalarının, hava limanlarının tikintiləri həyata keçirilir [27, s.27]. 2021-ci ildə Ağdamda 190 hektar sahəni əhatə edən nəhəng industrial parkın bünövrəsi qoyulmuş, parkın inşası üçün İqtisadiyyat Nazirliyi tərəfindən 110 milyon manat

investisiya qoyuluşu nəzərdə tutulmuşdur. Səkkiz ay ərzində tikintisi başa çatdırılan Füzuli havalimanı 2021-ci ilin 22 avqustunda ilk test uçuşunu nümayiş etdirdi. Qarabağ rayonunun iqtisadi potensialının effektivliyinin təmin edilməsi nəticəsində ölkə iqtisadiyyatının 10% artacağını söyləyə bilərik [27].

Beynəlxalq təcrübəyə əsaslanaraq qeyd edə bilərik ki, post konflikt bərpa strategiyalarının mərkəzində, adətən, dövlət strukturları və beynəlxalq təşkilatlar durur. Bu qurumlar təkcə münaqişələr nəticəsində kritik infrastruktura dəyən zərərin və yenidənqurma işlərinə lazım olan maliyyə vəsaitinin müəyyənləşdirilməsi, iqtisadiyyatın prioritet sahələrinin inkişafının dəyərləndirilməsi ilə məşğul olmur, eyni zamanda müxtəlif sosial qrupların bu prosesə aktiv cəlb olunmasına çalışır [14]. Post konflikt dövründə münaqişə zonasının bərpası üçün maliyyə resurslarının səfərbər edilməsi, bərpa və rekonstruksiya işlərinin uğurla həyata keçirilməsi regional və beynəlxalq səviyyədə əməkdaşlığın yeni mərhələsini tələb edir. Bu proses ilk növbədə beynəlxalq hüquq çərçivəsində dəyən zərərin və ödəniləcək təzminatın miqyasının müəyyənləşdirilməsi ilə başlayır. Bundan sonra dövlətlər işğal altında olmuş ərazilərin iqtisadi imkanlarının dəyərləndirilməsinə və prioritet sahələr üzrə xüsusi planların, yol xəritələrinin yaradılmasına start verirlər.

2020-ci ilin noyabrında "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncam imzalandı. Sərəncam işğaldan azad edilmiş ərazilərdə davamlı iqtisadi inkişafın təmin edilməsi, bununla əlaqədar zəruri infrastrukturun yaradılması və ekoloji bərpa işlərinin aparılması ilə bağlı bir sıra fəaliyyətin nizamlanması və əlaqələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. 2021-ci ildən başlayaraq dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərin bərpası üçün maliyyə vəsaiti ayrılmağa başlandı [3]. 2022-ci ildə bu işlərin icrası üçün dövlət büdcəsindən 4.3 milyard manatdan çox maliyyə vəsaiti ayrılmışdır [4].

İşğaldan azad edilmiş ərazilər üçün 2021-2024-cü illərin dövlət büdcəsində nəzərdə tutulan vəsait (milyard manatla).



Şəkil 1.

Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi ilk uğurlu addımlarından biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı kəndlər" yanaşmasının tətbiqi olmuşdur. Bu konsepsiya çərçivəsində həyata keçirilən ilk tədbirlərdən biri 2022-ci ilin iyulunda Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Ağalı ağıllı kənd (smart kənd) pilot layihəsinin təqdimatı oldu. Bunun ardınca Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Tərtər, Xocavənd rayonlarında şəhərsalma və kəndlərin bərpası və yenidən qurulması işlərinin təməli qoyuldu [27, s.29].

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı içərisində turizmin müxtəlif növlərinin inkişafı Azərbaycanın iqtisadi inkişafının prioritet sahəsi kimi qəbul edilir. Bu siyasətin təməl daşı 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiqi ilə qoyulmuşdur [10]. Azərbaycan Respublikası rəhbərliyi tərəfindən son üç ildə qəbul edilən qərar və sərəncamların icrası Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda turizm potensialının dəyərləndirilməsi və mümkün turizm növlərinin inkişafı üçün bərpa işlərinə başlanılmasına imkanlar açdı. Həyata keçirilən tədbirlər işğaldan azad edilmiş ərazilərdə turizmin dünya miqyasında qəbul edilən 18 növündən 12-si üçün əlverişli şərait və geniş imkanların olduğunu müəyyən edir.


İşğaldan azad edilmiş ərazilərdə mövcud olan maddi-mədəniyyət abidələri təbii sərvətlər, təhsil, dərketmə, mədəni, dini-ziyarətgah, kulinariya məqsədi ilə təşkil olunan səyahətlər üçün əlverişli sayılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində mövcud olan təbii müalicəvi bulaqlar, mineral sular, vulkanik yaylalar həm müalicə-sağlamlıq, həm də rekreasiya turizminin inkişafı üçün geniş imkanlar açır. Bundan başqa, işğaldan azad edilmiş ərazilərin füsünkar təbiəti ekoturizm, vəhşi təbiət turizmi, kənd turizmi obyektinə çevrilə bilər.

Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərin turizm potensialının dəyərləndirilərək prioritet sahələrin müəyyənləşdirilməsi və perspektivli layihələrin icrası ilə bağlı atdığı ilk addım 2021-ci ildə Azərbaycanın mədəniyyət mərkəzi sayılan Şuşa şəhərinin Baş planının hazırlanması oldu. Maddi-mədəniyyət abidələri, təbii-müalicəvi bulaqları, gözəl təbiəti ilə seçilən Şuşa turizmin mədəni, tədris, vəhşi təbiət, müalicə-sağlamlıq, biznes, dini, kulinariya, festival, idman olmaqla bir çox növünün inkişafı üçün geniş potensiala malikdir. Şəhərin bərpası paralel olaraq maddi-mədəniyyət abidələrinin, şəhər ekologiyasının, görkəmli dövlət və incəsənət xadimlərinin şəxsi mülklərinin bərpası ilə müşayiət olunmuş, 2022-ci il Şuşa ili elan edilmişdir. Şuşa şəhərinin qısa müddətdə bərpası Azərbaycan, İtaliya, Türkiyə şirkətlərinin daxil olduğu beynəlxalq konsorsiumun maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa-tikinti işləri çərçivəsində 2023-cü ilin sonunda Şuşanın 12 məhəlləsində abadlıq işləri aparılmış, 15 tarixi abidə kompleksi tam bərpa edilmiş, bir neçə otel inşa olunmuşdur [23]. Bu işlər 2023-cü ilin yazından başlayaraq Şuşa şəhərinə həm yerli, həm də xarici turistlərin səfərlərini təşkil etmək imkanı vermişdir. 2023-cü ildə Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı, 2024-cü ildə isə İslam dünyasının mədəniyyət paytaxtı elan edilməsi şəhərlə bağlı bir sıra mədəni tədbirlər planının hazırlanmasına səbəb olmuşdur. Bu tədbirlər içərisində I Türk Dünyası Mədəniyyət Forumu, Xarıbülbül beynəlxalq musiqi festivalı həm təşkilati miqyası, həm də qonaqların sayına görə rəngarəng və xüsusi əhəmiyyətli olmuşdur [22].

Yeni yaradılmış iqtisadi rayonlarda yol infrastrukturunun qurulması və təkmilləşdirilməsi turizmin inkişafını stimullaşdıran amillərdən biridir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan 82 km uzunluğunda Toğanalı-Kəlbəcər-İstisu, 72.5 km uzunluğunda Kəlbəcər-Laçın, 56.4 km uzunluğunuda Xudafərin-Qubadlı-Laçın avto-mobil yollarının və bu yollar üzərində süni qurğular və avtomobil tunellərinin, körpülərin tikintisi davam etdirilir. Yol infrastrukturunun bərpa-tikinti işləri 2021-2023-cü illərdə Qarabağ iqtisadi rayonunda daxili turizmin inkişafına öz töhfələrini vermişdir [25].

2021-2023-cü illərdə Qarabağda daxili turizmin həcmi.



Şəkil 2.

2022-ci ilin mayında Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan şəhərinin Baş planı təsdiqlənmişdir. Planda nəzərdə tutulan bərpa-təmir işləri çərçivəsində son iki il ərzində Zəngilan şəhəri, şəhərdəki tarixi memarlıq və mədəniyyət abidələri bərpa edilmiş, bölgənin ekoloji bərpası istiqamətində ciddi addımlar atılmışdır. Zəngilanda çoxlu sayda şəfalı termal su mənbələrinin mövcudluğu onu müalicə-sağlamlıq turizm mərkəzlərindən birinə çevirir. "Böyük qayıdış" prosesinə məhz Zəngilandan start verilməsi rayonun bölgə üçün xüsusi əhəmiyyət kəsb etdiyini göstərir. Zəngilanda Beynəlxalq hava limanının istismara verilməsi Şərqi Zəngəzur iqtisadi rayonunda həm xarici, həm də daxili turizmin imkanlarını daha da genişləndirir.

Şərqi Zəngəzur iqtisadi rayonu da Qarabağ iqtisadi rayonu kimi Azərbaycanda ekoturizm və müalicə-sağlamlıq turizmi üçün geniş imkanlar yaradan bölgədir. Bölgənin təkcə iki rayonunda, Kəlbəcər və Laçında respublika ərazisində mövcud olan mineral su ehtiyatlarının 33%-i cəmləşib [16]. İşğaldan əvvəl Kəlbəcərdə iki böyük sanatoriya fəaliyyət göstərirdi və burada hər il 50 min adam müalicə olunurdu. Hazırda "Böyük qayıdış" planına uyğun olaraq rayonda İstisu da daxil olmaqla yeddi yaşayış məntəqəsində bərpa-tikinti işləri

aparılır, Kəlbəcərin İstisu müalicə-sağlamlıq mərkəzində bərpa-təmir işləri davam edir.

Qarabağ regionunun işğal olunmuş ərazilərində, xüsusilə Kəlbəcərdə yol infrastrukturunun başa çatmaq üzrə olması qənaətinə gələ bilərik. Toğanalı-Kəlbəcər avtoyolunun tikintisi regionun bir çox yaşayış yerlərinə, həmçinin Kəlbəcər şəhərinə və məşhur "İstisu" məntəqəsinə əlverişli səfərləri təmin edəcək, Kəbəcər-Laçın istiqamətində turizmin inkişafını sürətləndirəcək. Kəlbəcər rayonu qış turizmi üçün də ideal yer hesab oluna bilər. Mütəxəssislərin rəyinə görə, Kəlbəcərin relyefi onun gələcəkdə Qafqazda ən böyük turizm mərkəzi olacağını şərtləndirir.

İkinci Qarabağ müharibəsi dövründə işğaldan azad edilmiş, mühüm strateji əhəmiyyət kəsb edən və təbii sərvətlərlə zəngin Laçın rayonunda artıq üç ildir ki, bərpa-tikinti-təmir işləri aparılır. Əsası 2021-ci ildə qoyulmuş Laçın beynəlxalq hava limanının tikintisi bölgədə turizmin inkişafına təkan verən ciddi infrastruktur rolunu oynayacaq. Laçın rayonunun müalicə-sağlamlıq turizminin inkişafı üçün böyük potensialı mövcuddur. Müalicəvi əhəmiyyətə malik "İlıqsu" mineral mənbəyi, zəngin flora və faunası rayonun turistik imkanlarını genişləndirir. Bu rayonda Həkəri çayı yaxınlığında idman kompleksi və çimərlik-rekreasiyon mərkəzində tikinti işləri başa çatdırılaraq turistlərin istifadəsinə veriləcək. Laçın rayonunda Abdallar adlanan yaşayış məntəqəsində qədim mağaralar isə etnoqrafik və təbii turizmlə maraqlananları cəlb edəcək. Tərtər rayonunun Suqovuşan məntəqəsində və Hadrut rayonunun Tuğ kəndində turizmin inkişaf konsepsiyası artıq hazırlanmışdır. Ağdamda özəl şirkətlər tərəfindən otel tikintisi davam etdirilir [29]. Rayonun ərazisində mövcud olan çoxlu sayda hidrotermal ilıq sular, Narzan tipli soyuq mineral su bulaqları bir çox daxili və nevroloji xəstəliklərin müalicəsi üçün istifadə ediləcək [26, s.188].

İşğaldan azad edilmiş iqtisadi rayonlarda turizmin inkişafının elmi-praktik məsələləri 2023-cü il dekabrın 14-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Ağdamda keçirilmiş "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" adlı I elmi-praktiki konfransda müzakirə olunmuş, turizmin müxtəlif növlərinin mümkün inkişaf yolları ilə bağlı fikir mübadiləsi aparılmışdır [7]. Qarabağ və Şərqi Zəngəzur regionlarında turizmin inkişafı şübhəsiz ki, xarici turistlərin marağına səbəb olacaq. Azərbaycanın turizm bürosu 2020-ci ilin noyabr ayında Dubayda virtual formatda təşkil olunan "Gulf Travel Show" sərgisində Qarabağ iqtisadi rayonunun turistik potensialını nümayiş etdirdi. Yaxın Şərq, Afrika, Asiya, Avropa və Amerika ölkələrindən 1000-dən artıq iştirakçının olduğu sözügedən sərgidə Azərbaycanın turizm agentliyi 35 görüş keçirərək işğaldan azad olunan ərazilərin turizm potensialını diqqətə çatdırmışlar [8].

Nəticə

Azərbaycan Respublikasında turizm sahəsi iqtisadiyyatın mühüm sahələrindən hesab olunur, belə ki, bu mərhələdə dövlət strategiyası qeyri-neft sektorunun ilk növbədə turizm və kənd təsərrüfatının inkişafına istiqamətlənmişdir. Post konflikt bölgələrdə yenidənqurma və bərpa işlərinin təşkilinin beynəlxalq təcrübəsinə əsaslanaraq qeyd etmək olar ki, Azərbaycan hökuməti ərazi bütövlüyünü təmin etdikdən sonra uzun illər işğal altında qalmış torpaqların ölkə iqtisadiyyatına reinteqrasiyası ilə bağlı uğurlu sosial-iqtisadi proqramlar hazırlayaraq mərhələli şəkildə həyata keçirməyə müvəffəq olmuşdur.

Hazırda Türkiyə, Böyük Britaniya, İtaliya, Macarıstanın da daxil olduğu bir çox xarici dövlətlərin iri şirkətləri Azərbaycan hökumətinin müxtəlif dövlət və özəl şirkətləri ilə birgə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma-bərpa işlərində fəal iştirak edirlər. Azərbaycan Respublikası Dövlət rəhbərliyi Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı kimi nüfuzlu təşkilatların tövsiyələrini nəzərə alaraq işğaldan azad edilmiş ərazilərdə turizmin bütün imkanlarının aşkarlanması, inkişaf üçün daha çox potensiala malik bölgələrin, eləcə də turizm sahələrinin dəyərləndirilərək bərpası istiqamətində ciddi addımlar atır. 2026-cı ilə qədər nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf layihələri işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı ilə bağlı bir sıra pilot layihələrin həyata keçirilməsini planlaşdırır. Bu gün Qarabağ regionu üzrə peşəkar turizm bələdçilərinin hazırlanması istiqamətində də işlər aparılır.

Azərbaycan ərazilərinin işğaldan xilası milli iqtisadiyyatın bir sıra sahələrinin inkişafı üçün geniş perspektivlər açır. Eyni zamanda bu ərazilərdə turizmin inkişafı əhalinin məşğulluğunu artıracaq, gəlirinin çoxalmasına səbəb olacaq, ölkənin sosial-iqtisadi inkişafını sürətləndirərək turizm imicini yüksəldəcək.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 7 iyul 2021. https://president.az/az/articles/view/52389. müraciət tarixi 12.02.24.
2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət

Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16 noyabr, 2022. https://president.az/az/articles/view/57883. müraciət tarixi 29 fevral 2024.
3. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunu, https://e-qanun.az/framework/46590 müraciət tarixi 26 fevral 2024.
4. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunu. https://e-qanun.az/framework/48723. müraciət tarixi 23 fevral 2024.
5. Azərbaycan Respublikası Dövlət Arxivi, f.27.
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.29.
7. Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" I elmi-praktik konfransı keçirilib. Azərbaycan Respublikasının Turizm Agentliyi turism.gov.az/news/agdamda-ishgaldan-azad-olunmush-erazilerde-turizmin-berpasi-ve-inkishafi-i-elmi-praktiki-konfransi-kechirilib
8. Beynəlxalq sərgidə Azərbaycan və onun turizm potensialı tanıdılıb. https://azertag.az/xeber/beynelxalq_sergide_qarabag_ve_onun_turizm_potensiali_ tanidilib-1650903. Azərtac, 25.11.2020. müraciət tarixi 23.02.24
9. Cahandarov, B. Ermənilərin ekoloji terror siyasəti. Palitra. 8-9 iyul, 2010.
10. Hümbətov, Y., Kərimov F. Turizm sənayesinin təşkili. Bakı: 2021. Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e- qanun.az/framework/46629 müraciət tarixi 23.02.24
11. Qubadlı, Ç. Qubadlının təbiəti erməni işğalından əvvəl və sonra. Bakı: Nurlan, 2007.
12. Rəşid, L. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. Xalq qəzeti, 9 dekabr, 2020.
13. MacGinty R. International peacebuilding and local resistance: Hybrid forms of peace. Palgrave Macmillan, 2011.
14. Məsimli, Ə. Qarabağın işğalının iqtisadi nəticələri. Qarabağ dünən, bu gün və sabah. 6-cı elmi-əməli konfransın materialları. Bakı: Qanun, 2007.
15. Mineral sular. Azərbaycan Respublikası Ekologiya və Təbii sərvətlər nazirliyi. https://eco.gov.az/az/tebii-servetlerimiz/mineral-sular. müraciət tarixi 23.02.24
16. Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. (1917-1921-ci illər) Bakı: Bakı Dövlət Universitetinin nəşriyyatı, 1998.
17. Musa I. Azərbaycanın Zəngəzur mahalının Ermənistana verilməsi prosesi. 6-cı elmi-əməli konfransın materialları. Bakı: Qanun, 2007.
18. Sarıyeva, İ. Ermənilərin talan etdikləri təbii sərvətlərimiz. Bakı: Xəbər, 17 avqust 2018
19. Nəbibəyli, Z., Zəngilanlı, M. Zəngəzurun qısa tarixi və coğrafiyası. Bakı: 2000
20. Soltanova, H. "Azərbaycan Respublikasında turizm və onun inkişafı". Bakı: AzTU mətbəəsi, 2015.
21. Şuşada I Türk Dünyası Mədəniyyət Forumu başlanır. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. 13 oktyabr 2023. https://culture.gov.az/az/umumi-xeberler/15314. müraciət tarixi 13.02.24
22. Şuşada qədim memarlıq abidələrinin bərpası diqqət mərkəzindədir. "Azərbaycan" qəzeti, 02 mart 2023-cü il
23. Şükürov, K. Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları: "Dağlıq Qarabağ dosyesi" (antitarix və tarix). 6-cı elmi-əməli konfransın materialları. Bakı: Qanun, 2007.
24. Toğanalı-Kəlbəcər-İstisu avtomobil layihəsi üzrə işlər 41% icra edilib. Report, 9 avqust 2023. https://report.az/infrastruktur/toganali-kelbecer-istisu-yolunun-ve-5-tunelin-insasi-davam-edir/ müraciət tarixi 03.03.24
25. Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. 2022.
26. Алиев Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура на основе коцепций устойчивого и инклюзивного развития. The scientific heritage No 82, 2022, с.19-33
27. Аграрный потенциал Карабаха и Восточного Зангезура. https://report.az/ru/analitika/vozvrashenie-agrarnyj-potencial-karabaha-i-vostochnogo-zangezura/ müraciət tarixi 23.02.24
28. Кельбаджар и Лачин вновь станут туристическими достопримечательностями. https://report.az/ru/turizm/kelbadzhar-i-lachin-vnov-stanut-turisticheskimi dostoprimechatelnostyami/ müraciət tarixi 24.02.24
29. Хоштария, Н. Экономический потенциал Карабаха после деоккупации –мнение эксперта.https://moscow baku.ru/opinions/aktualno/ekonomicheskiy_potentsial_karabakha_posle_deokku patsii_mnenie_eksperta/. müraciət tarixi 20.02.24

ABSTRACT

Gulshan KANGARLİNSKAYA

RESULTS OF IMPLEMENTATION OF STATE PROGRAMS ON DEVELOPING TOURISM POTENTIAL IN KARABAKH AND EASTERN ZANGEZUR ECONOMIC REGIONS

After the Second Karabakh War, the leadership of the Republic of Azerbaijan decided to create a new division of economic regions in order to accelerate socio-economic development and form a new infrastructure in the territories liberated from occupation. The resolution was aimed at the creation of two economic regions in the territories liberated from occupation, Karabakh and East Zangezur, and the reintegration of the created regions into the economy of the republic. The decree aims to create two economic regions in the territories that have been liberated from occupation - the Karabakh and East Zangezur regions. The goal is to reintegrate these regions into the economy of the republic. To implement this decree, it's necessary to determine the socio-economic potential of the liberated territories. It's also important to develop internal and external tourism opportunities, utilizing the natural resources, historical and cultural monuments available in these territories. This article explores the potential for tourism in newly formed economic regions, and how decisions made at different levels can contribute to the economic development of the country and provide socio-economic opportunities for its population. The study is based on decisions, laws, and regulations related to tourism, as well as statistical reports from the State Statistics Committee, the Ministry of Economy, and various analytical and research centers. The study used quantitative and descriptive-comparative methods.

Keywords: *Eastern Zangezur economic region, cultural monuments, Karabakh economic region, tourism in Azerbaijan, medical tourism*

QƏRBİ AZƏRBAYCAN: MADDİ-MƏDƏNİ İRSİMİZ

Sədaqət ƏHMƏDOVA
sedaqet.ahmesova@bk.ru
ORCID iD: 0009-0007-9159-3356
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın mədəniyyətindən, tarixindən, maddi-mədəni irsindən, həmçinin azərbaycanlıların öz doğma torpaqlarından deportasiya edilməsindən bəhs olunur. Azərbaycan xalqı tarixi minilliklərə gedib çıxan bir mədəniyyətə sahibdir. Tarixi tədqiqatlar Azərbaycanın ilk bəşər sivilizasiyasının ərazilərində yerləşdiyini təsdiqləyir. Coğrafi mövqeyinə və yaşayış şəraitini təmin edən mühitə görə bu yerlər ilk insan məskənləri kimi tarixə yazılıb. Məhz bu səbəbdən ermənilər Qərbi Azərbaycanda Azərbaycan xalqının izlərini məhv etmək, maddi-mədəniyyət abidələrimizi mənimsəmək kimi çoxdan planlaşdırılmış siyasətə başladılar. Ermənistanın indiki dövlətini sovet hökuməti bu Azərbaycan torpaqlarında yaradıb. Burada ermənilərin məskunlaşması və ümumiyyətlə, bu ərazidə hər hansı erməni dövlətinin mövcudluğu heç bir tarixi mənbə ilə təsdiq olunmur. Məqalədə ermənilərin müxtəlif vandalizm aktlarından, azərbaycanlıların yaşayış məntəqələrinin, çaylarının, göllərinin, təpələrinin adlarının dəyişdirilməsindən, tarixi və mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılmasından da bəhs edilir. Əcdadlarımızın min illər öncə yaratdığı milli-mənəvi dəyərlər də vəhşicəsinə dağıdılmış, tamahkarlıqla talan edilmiş, xaincəsinə mənimsənilmişdir. Ermənilər hələ də var gücləri ilə Qərbi Azərbaycan ərazisinin xalqımıza məxsus olması faktını təkzib etməyə çalışırlar. Xoşbəxtlikdən, Azərbaycan dəfələrlə öz iddiasını sübut etməyə və qorunub saxlanmış yazılı və şifahi folklor mənbələri şəklində sübutlarla dəstəkləməyə nail olmuşdur. İlkin mənbələr və müxtəlif tədqiqat işləri İrəvan xanlığı ərazisindəki maddi mədəniyyət abidələri, bu Azərbaycan dövlətinin incəsənəti, təhsil sistemi və ədəbi mühiti haqqında kifayət qədər məlumat əldə etməyə imkan verir. Məqalədə, həmçinin Qərbi Azərbaycan İcmasının fəaliyyətindən və dövlət başçısı İlham Əliyevin Qərbi Azərbaycanın bir qrup ziyalısı ilə görüşündən də bəhs edilir.

***Açar sözlər**: Qərbi Azərbaycan, maddi-mədəni irs, vandalizm aktları, yazılı mənbələr, milli dəyərlər*

Giriş

Tarixi tədqiqatlar Azərbaycanın ilk bəşər sivilizasiyasının ərazilərində yerləşdiyini təsdiqləyir. Coğrafi mövqeyinə və yaşayış şəraitini təmin edən mühitə görə bu yerlər ilk insan məskənləri kimi tarixə yazılıb. Arxeoloji tədqiqatlar nəticəsində məlum olub ki, burada yaşamış qədim insanların çox qədim və zəngin tarixi var. Əcdadlarımız çox qiymətli maddi-mədəniyyət nümunələri yaratmışlar ki, bunlar respublikamızın ərazisində kifayət qədər yaxşı sənədləşdirilmişdir. Bu abidələr hər bir xalqın və ya dövlətin tarixinin, mədəniyyətinin, bir sözlə, inkişafının əyani sübutudur. Maraqlıdır ki, Azərbaycan ərazisində belə abidələr həddən artıq çox olub və onların yaşı əsrlərlə hesablanır. Odur ki, ölkəmizə səfər edən avropalı səyyahlar Azərbaycanın tarixi mədəniyyət abidələrinə heyran olduqlarını gizlətməyib və bunu öz işlərində dəfələrlə qeyd ediblər.

Material və metodlar

Azərbaycan mədəniyyəti minillik tarixə malik bir mədəniyyətdir. O qədər zəngin, o qədər maraqlı, o qədər cəlbedicidir ki, əsrlər keçməsinə baxmayaraq, öz təravətini və gözəlliyini qoruyub saxlaya bilir. Azərbaycan torpağı tarixən bəşəriyyət üçün maraqlı olub. Onun həm yerüstü sərvətləri, həm də mənəvi sərvətləri həmişə dünya bəşəriyyətinin marağına səbəb olub.

Məhz bu səbəbdən ermənilər Qərbi Azərbaycanda Azərbaycan məskəninin izlərini məhv etmək, maddi-mədəniyyət abidələrimizi mənimsəmək kimi çoxdan planlaşdırılmış siyasətə başladılar. Hazırda bu torpaqlar Ermənistan ərazisində yerləşir, lakin bu bölgə qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.

Türkmənçay və Ədirnə müqavilələri bağlandıqdan sonra yüz minlərlə ermənin Azərbaycan torpaqlarına köçürülməsi prosesi başlanmış və sovet hökumətinin ermənipərəst siyasəti nəticəsində Qərbi Azərbaycan torpaqları qanunsuz olaraq tamamilə ermənilərə verilmişdir. Bir sözlə, Ermənistanın indiki dövlətini sovet hökuməti bu Azərbaycan torpaqlarında yaradıb. Burada ermənilərin məskunlaşması və ümumiyyətlə, bu ərazidə hər hansı erməni dövlətinin mövcudluğu heç bir tarixi mənbə ilə təsdiq olunmur.

Ermənilər azərbaycanlıları və onların Qərbi Azərbaycanda məskunlaşma izlərini məhv etmək üçün etnik

təmizləməyə başladılar. 1988-1989-cu illərdə 250 minə yaxın azərbaycanlı deportasiya edilib, azərbaycanlıların yaşayış məntəqələrinin, çaylarının, göllərinin, təpələrinin adları dəyişdirilib, tarix və mədəniyyət abidələri vəhşicəsinə dağıdılıb. Deportasiya Ermənistanın inzibati və hüquq-mühafizə orqanlarının bilavasitə iştirakı ilə həyata keçirilirdi və onlar öz qanunsuz əməllərinə azərbaycanlıların yaşadıqları torpaqların "tarixən ermənilərə məxsus olması" ilə bəraət qazandırmağa çalışıblar.

Ermənistandan olan azərbaycanlı qaçqınların əsas hissəsini dədə-babalarının əsrlər boyu işlədiyi öz doğma torpaqlarını - otlaqları, tarlaları, bağları, çəmənliklərini tərk etməyə məcbur olmuş kəndlilər təşkil edirdi. Ermənistandan qovulan soydaşlarımızın yalnız kiçik bir faizi kiçik sənaye şəhərlərinin və Yerevanın (İrəvanın) sakinləri idi. Deportasiya başlanandan sonra Ermənistanın müxtəlif rayonlarından azərbaycanlılardan ibarət onlarla nümayəndə heyəti, minlərlə ayrı-ayrı vətəndaş ali hakimiyyət orqanlarına, partiya və hökumət rəhbərlərinə müraciət edərək onlara qarşı zorakılıq aktları barədə təşvişlə məlumat verir, belə qanunsuzluğun qarşısının alınmasını xahiş edirdilər [1].

Alçaldılmış və təhqir olunmuş, əzizlərini və ata yurdlarını itirmiş bu insanlar qisas yox, ədalət gözləyirdilər. Lakin bütün bu siqnallar cavabsız qalır. Azərbaycan SSR Nazirlər Sovetinin 2 dekabr 1988-ci il tarixinə olan məlumatına əsasən, Ermənistandan olan qaçqınların sayı artıq 78 min nəfərdən çox idi [6].

Qaçqınlar müvəqqəti mərkəzlərə yerləşdirilir, oradan da sonrakı yaşayış yerlərinə göndərilirdilər. Azərbaycanlıların Ermənistandan qovulması ilə Ermənistan-Azərbaycan münaqişəsinin miqyası artmışdır.

Ədcadlarımızın min illər öncə yaratdığı milli-mənəvi dəyərlər də vəhşicəsinə dağıdılmış, tamahkarlıqla talan edilmiş, xaincəsinə mənimsənilmişdir. Ermənilər hələ də var gücləri ilə Qərbi Azərbaycan ərazisinin xalqımıza məxsus olması faktını təkzib etməyə çalışırlar, lakin onların cəhdləri uğurla nəticələnmir. Azərbaycanlıların öz dədə-baba yurdlarında min illik varlığının izlərini yer üzündən silməyə cəhd edərək saysız-hesabsız abidələri, yazılı mənbələri dağıdıblar.

Əldə olunan nəticələr

Tarixi Azərbaycan torpağı olan Ermənistan ərazisində mindən çox Azərbaycana aid yaşayış məskəni, yüzlərlə tarixi-memarlıq abidəsi, karvansaraylar, saraylar, məscidlər, məqbərələr, türbələr, qəbiristanlıqlar, qəbirüstü abidələr və s. vardı. 20-ci əsrdə ermənilərin azərbaycanlılara qarşı apardıqları etnik təmizləmə və tarixi abidələrə qarşı həyata keçirilən vandalizm aktları nəticəsində monoetnik Ermənistan dövləti yaradılıb, azərbaycanlıların burada məskunlaşması faktını sübut edən bütün tarixi-memarlıq abidələri yerlə-yeksan edilib, qəbiristanlıqlar dağıdılıb. Əgər 20-ci əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində 310 məscid qeydiyyata alındığı halda, hazırda Ermənistan ərazisində yalnız bir məscid qismən dağıdılmamış olaraq qalır: xarici qonaqlara "Fars" məscidi kimi təqdim olunan Göy məscid [2].

Üstəlik, ermənilər guya bir çox əsrlər əvvəl onların bu ərazidə olmasını təsdiqləyən erməni dilində olan saxta yazılı mənbələri yaratmağa çalışdılar. Bu, erməni vandalizminin, Azərbaycan xalqının irsinə qarşı barbar münasibətin göstəricilərindən biridir.

Xoşbəxtlikdən, Azərbaycan dəfələrlə öz iddiasını sübut etməyə və qorunub saxlanmış yazılı və şifahi folklor mənbələri şəklində sübutlarla dəstəkləməyə nail olmuşdur. İlkin mənbələr və müxtəlif tədqiqat işləri İrəvan xanlığı ərazisindəki maddi mədəniyyət abidələri, bu Azərbaycan dövlətinin incəsənəti, təhsil sistemi və ədəbi mühiti haqqında kifayət qədər məlumat əldə etməyə imkan verir.

İrəvan xanlığında, xüsusən də onun paytaxtı İrəvanda tez-tez baş verən dağıdıcı müharibələrə baxmayaraq, elm və mədəniyyət çox inkişaf edirdi. İrəvan xanlığının ərazisində yüzlərlə maddi mədəniyyət, memarlıq və incəsənət abidələri - məscidlər, məqbərələr, epiqrafik abidələr, qoç heykəlləri, təsviri və dekorativ sənət nümunələri var idi. Hazırda İrəvan Əlyazmalar İnstitutunda - Matenadaranda saxlanılan yüzlərlə əlyazma İrəvan xanlığının fəaliyyəti dövrünə aiddir [3, s. 187]. İrəvan xanlığının maddi mədəniyyət və memarlıq abidələri, mədəniyyəti və incəsənəti, eləcə də təhsil sistemi fransız səyyahları Jan Tavernye və Jan Şardenin əsərlərində və xanlığın Rusiya tərəfindən işğalından sonra İ.Şopenin tədqiqatlarında kifayət qədər çox təsvir edilmişdir.

Azərbaycan dilində yaradıcılıq sayəsində erməni aşıqları özünə çoxsaylı dinləyici və tamaşaçı topladı. Professor A.Arşaruni də təsdiq edir ki, Azərbaycan dili, erməni aşıqları və erməni xalqı üçün demək olar ki, ana dili olmuşdur. Əks halda onlar (yəni erməni aşıqları) uğur qazana bilməzdilər və dilləri dinləyicilər üçün anlaşılmaz olardı [4, s. 102].

Müzakirə

Qərbi Azərbaycan icması. Təşkilat 1989-cu ildən Qərbi Azərbaycandan olan qaçqınların problemi ilə məşğul olan yeganə ictimai qurumdur. Məhz burada 1987-1991-ci illərdə qaçqın düşmüş azərbaycanlılarla bağlı faktlar və sənədlər toplanır və saxlanılır. 1987-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 min

ailədən 20 mininə yaxın dəymiş ziyan hesablanmış və hazırda bu iş davam etdirilir [5].

Qərbi Azərbaycan icması indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur. Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qaytarılması üzrə fəaliyyəti çərçivəsində "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – "Qayıdış konsepsiyası"nı qəbul etmişdir. Konsepsiya indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qaytarılması üçün İcma tərəfindən həyata keçiriləcək məqsədlərin, prinsiplərin, hazırlıq və icra tədbirlərinin ümumi çərçivəsini müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, müvafiq milli qanunvericiliyə, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olmasına xidmət edir [5, elektron mənbə].

2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub, Qərbi Azərbaycanın bir qrup ziyalısı ilə görüşüb. Görüş çərçivəsində dövlət başçısı vurğulamışdır ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, övladları, nəvələri tarixi torpağımıza, Qərbi Azərbaycana qayıdacaqlar. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının milli maraqların təkcə ölkə daxilində deyil, həm də beynəlxalq səviyyədə təbliği istiqamətində fəaliyyətinin əhəmiyyətini qeyd edib.

ƏDƏBİYYAT

1. https://story.karabakh.center/ru/massovaya-deportatsiya-azerbaidzhantsev-s-territorii-sovremennoi-armenii
2. https://armenianvandalism.preslib.az/ru_general.html
3. Azərbaycan Milli Elmlər Akademiyası, A.Ə.Bakıxanov adına Tarix İnstitutu: İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2010. s. 187.
4. Abbasov, İ. Azərbaycan folkloru XIX əsr erməni mənbələrində. Bakı: 1977, s. 65.
5. https://qerbiazerbaycan.com/q%c9%99rbi-az%c9%99rbaycan-icmasi/
6. "Bakinski raboçi" qəzeti, 3 dekabr 1988-ci il

ABSTRACT

Sadagat AHMADOVA

WESTERN AZERBAIJAN: OUR MATERIAL AND CULTURAL HERITAGE

The article describes the culture, history, material and cultural heritage of Western Azerbaijan, as well as the deportation of Azerbaijanis from their native land. Azerbaijani culture is a culture with a thousand-year history. Historical studies confirm that Azerbaijan is located in the territories of the first human civilization. Due to their geographical position and the environment that provides living conditions, these places have been written down in history as the first human settlements. It is for this reason that the Armenians started a long-planned policy of destroying the traces of the Azerbaijani settlement in Western Azerbaijan and appropriating our material and cultural monuments. The current state of Armenia was created by the Soviet government in these Azerbaijani lands. The settlement of Armenians here and in general the existence of any Armenian state in this area is not confirmed by any historical source. The article also mentions various acts of vandalism by Armenians, changing the names of Azerbaijani settlements, rivers, lakes, and hills, and the brutal destruction of historical and cultural monuments. The national and moral values created by our ancestors thousands of years ago were brutally destroyed, looted greedily, and treacherously appropriated. Armenians are still trying with all their might to deny the fact that the territory of Western Azerbaijan belongs to our people. Fortunately, Azerbaijan has repeatedly managed to prove its claim and support it with evidence in the form of preserved written and oral folklore sources. Primary sources and various research works allow to obtain sufficient information about the material cultural monuments in the territory of the Irevan Khanate, the art, educational system and literary environment of this Azerbaijani state. The article also covers the activities of the Western Azerbaijan Community and the meeting of the head of state Ilham Aliyev with a group of intellectuals from Western Azerbaijan

***Keywords**: Western Azerbaijan, material and cultural heritage, acts of vandalism, written sources, national values*

AMASYA VE NAHÇIVAN`DAN ERİVAN`A BATI AZERBAYCAN KÜLTÜRÜNDE DÜĞÜN RİTÜELLERİ

Meleyke MEMMEDOVA
melikememmed@gmail.com
ORCID iD: 0000-0001-7714-4668
Azerbaycan Milli İlimler Akademisi Folklor Enstitüsü

ÖZET

İnsanın kadersel döneminde doğumdan sonra ikinci yeri evlenme tutmaktadır. Doğum kadar evlenme çağı da insanın en mutlu ve sevinçli anlarını kapsamaktadır. Geçiş dönemlerinden olan evlilik iki gencin bir araya gelmesiyle yeni bir ailenin temelinin atılmasını sağlamaktadır. Bu temeli atarken aileler başından bir kaç basamaktan (kız beğenme, kız isteme, nişan, kına vb.) geçmekle hayatının bu büyülü ve mutlu anını düğün töreni ile gerçekleştirmiş olurlar. Evlilik öncesi ve sonrası yapılan düğün gelenekleri kültürümüzde kendine özgü yer edinmekle beraber, içinde bir çok inançları barındıran adetleri, ritüelleri ile tören ve şenlik şeklinde gerçekleştirilmektedir. Hayatımızda önemli yere sahip olan düğün töreni ve adetleri halk edebiyatının çeşitli türlerinde, özellikle masal ve destanlarda da kendi varlığını korumuş, geçmişten bugüne kadar olan değişimi ile yamaşaya devam etmiştir. Günümüzde hala bir çok bölgelerimizde, yörelerimizde yaşatılan milli kültürel mirasımız olan bu geleneklerin, ritüellerin nesillerden nesillere aktarılması için araştırılmasının, toplanıp düzenli şekilde yazıya geçirilmesi, tanıtılması gereklilik arzetmektedir. Bu bakımdan makalede Batı Azerbaycan, özellikle Erivan Çukuru, Nahçıvan ve Amasya (Anadolu) halk kültüründe evliliğin önemi, düğünden önce ve sonra yapılan tören ve şenliklerde gerçekleştirilen gelenekler ve ritüeller bu alanda yazılan kitap, makaleler taranarak, kaynak kişilerden toplanan bilgilere dayanarak karşılıklı şekilde incelenmiştir. Aynı millet olarak aynı genetik kodları taşımamızdan dolayı sadece Nahçıvan, Erivan Çukuru ve Amasya değil, bütün bölgelerimizde, yörelerimizde olan düğün gelenekleri ve ritüellerinin benzerliği saptanmıştır. Farklılıkların olması ise zengin halk kültürüne, folklora, geleneklere sahip olduğumuzun bir kanıtı olarak algılanmalıdır.

Anahtar kelimeler: *Batı Azerbaycan, Erivan, Nahçıvan, Amasya, düğün, gelenek, ritüel.*

Giriş

Türk kültüründe evlenme, temel geleneklerden biri olduğu için bu adetin yerine getirilmesi "düğün" olarak adlandırılan özel bir merasim ve şenliklerle kutlanır. Azerbaycan dilinin açıklamalı sözlüğünde "evlenme merasimi, ayrıca o merasimlerle ilgili olarak düzenlenen şenlik, düğün eğlencesi" olarak verilen "toy" terimi Anadolu Türkleri arasında "düğün" olarak bilinir. "Düğün" kelimesi de eski Türk dilinde "tügün//tüg-mek "bağlamak"//dügün"den türemiş olup evlenmeyle ilişkilendirilen bir şenliktir. Merasim şeklinde gerçekleştirilen bu tür şenliklere ve bu şenliklere özgü adetlere, folklorumuzda ve kültürümüzde her zaman önem verilmiştir. Bildiğimiz gibi, düğün merasimi genellikle çeşitli adetler ve geleneklerle bağlantılı olan "kız beğenme" ile başlar. Azerbaycan'ın ve Anadolu`nun tüm bölgelerinde olduğu gibi Erivan ve Amasya`da el adetlerimize göre, evlenme çağına gelen genç erkekler, akrabalardan, komşulardan, yakınlardan, kısacası çevreden kız ararlar. Eğer bir genç adamın beğendiği biri varsa, düşünür, araştırır ve uygun gördükten sonra herkesten gizli, ses çıkarmadan elçi gönderilir ve "evet" alınır ve "elçilik" yapılır. Her iki tarafın da razı olduğuna bağlı olarak "nişan" yapılır. Kız nişanlı kaldığı süre boyunca gençler, her bayram farklı hediyelerle onu görmeye giderler. Düğün merasimi ise her iki tarafın da razı olduğu belirlenen bir günde başlar. Düğünden önce düğün hazırlıkları yapılır, kına gecesi düzenlenir, düğünden sonra genellikle gelin alma merasimiyle düğün şenlikleri sona erer. Her biri ayrı ayrı merasim şeklinde gerçekleştirilen bu düğün adetlerinin her birinin kendine özgü özellikleri ve her merasimde gerçekleştirilen çeşitli adetler ve ritüeller vardır.

Kız İsteme ve Elçilik. Amasya, Nahçıvan ve Erivan yöresinde ortalama evlenme yaşı yirmili yaş civarındadır. Amasya`da bir delikanlı evlenme isteğini ailesine belirtmek için; babasının ayakkabısının birini ters çevirir, bazen de ayakkabıyı kapı eşiğine çivi ile çakar veya baba yanında iken ayakkabısını sağ sola, sol da sağa olacak şekilde ters giyer. Bu; "beni evlendirin" anlamına gelir [Amasya Evlilik Gelenekleri, 2024:1]. Ordubat`ta ise genç delikanlının kapıyı sert çarparak örtmesini evlenmek isteğine yorumlarlar [KK-17]. Ayrıca oğlan bu isteğini annesine gizlince söyler [KK-16, KK-18]. Hem Amasya`da [Amasya Evlilik Gelenekleri,

2024:1], hem Erivan Çukuru`nda [KK-19], hem de Nahçıvan [KK-6, KK-11] gibi, ister Anadolu`nun, ister de Azerbaycan`ın bir çok bölgelerinde genç kızlar, evlenme isteklerini bazen davranışlarındaki canlılıkla, süslenmekle, ayna karşısında çok vakit geçirmekle, bazen de aile fertleriyle geçimsizlikle, yaptıkları kaprizlerle dışa vururlar.

Evlenecek çağa gelmiş genç delikanlı beğendiği kızı ailesine söyler. Kız ve ailesi hakkında araştırma yaparlar. Anne babanın danışması ve görüşmesinden sonra anlaşılırsa, öncelikle kız evine yakın bir kadın elçi olarak gönderilir ve kız evinin onayının olup olmadığını anlamaya çalışırlar. Nahçıvan ve Erivan`da kızın ailesinin onayını, kızın "evet"ini almak için bu şekilde elçilik yapılır. Erivan Çukuru`nda bu şekilde kızın "evet"ini almağa "birinci elçilik" denir. Kız evinin gönlü olursa, erkek evi büyüklerin önderliği ile kızı istemeye gider, Erivan Çukurun`da buna "ikinci elçilik" denir [KK-5, KK-19; Azerbaycan Folkloru Antologiyası X, 2004:58]. Amasya`da evlenecek delikanlı için amca dayı hanımları bir araya gelerek kızı görmeye evine giderler. Kızdan su istenerek, bardağın ve halıların temizliğine, evin düzenine bakılır. İzlenim olumlu ve geçnler de birbirini beğenmişse kız evine bir aracı yollanır ve "ağızları aranır", kız evinin gönlü varsa, birkaç gün sonra dünür gidilir ve buna "dünür düşme" denir. Ayrıca Amasya`nın Bağlarüstü köyünde kız istemeye giderken yumruk büyüklüğünde bir taş götürülür ve ev sahibi görmeden dış kapının arkasına konulur [Amasya Evlilik Gelenekleri, 2024:1]. Her üç bölgede de kız isteme ve elçilik için erkek tarafının aile büyükleri, genç adamın babası, ailenin saygın kişileri, özellikle yaşlılar ve yakın akrabalarla gider. Öncelikle yaşlılardan biri "Allah'ın emri, peygamberin şeriatıyla sizin kapınızı açtık" diyerek konuşmaya başlar ve bu şekilde konuya girer. Bu sırada Erivan ve Nahçıvan bölgesinde kız evi çay gətirir, amma bunu evlenecek kız adayı yapmaz. Evden birileri misafirlere çay ikram eder. Ancak erkek tarafı çaya dokunmaz ve amaçlarına ulaşmadan çay içmeyeceklerini bildirerek niyetlerini açıklarlar: "El adeti gereği sizinle akraba olmak istiyoruz. Nasıl derler gül sizden, güldan bizden, kol sizden, kolbak (bilerzik) bizden." Niyeti anlayan kız evi kendi büyüğüne söz verir. Yaşlılar bu akrabalığa razı olursa, kız evinin büyüğü şaka ile "şirinik verin, kızın `evet`ini alın" der. Erkek tarafının büyüğü belirli bir miktar para (kıyafetlik) koyar ve kızın "evet"ini alır. "Evet" verildiğinde tatlı çay gelir ve herkes "Allah mutlu etsin!", "mutlu olsunlar!", "akrabalığımız daim olsun" diyerek tatlı çay içerler. "Evet" verildiğinde kızın omuzuna kırmızı eşarp örterler [Azerbaycan Folkloru Antologiyası X, 2004:58; Babayeva, 2016:1]. Amasya`da (Anadolu`da) ise Nahçıvan ve Erivan`dan (Azerbaycan`dan) farklı olarak elçiliğe evlenecek olan erkek ailesiyle beraber çiçek ve çikolata alarak gider. Kızı isterken de yine Nahçıvan ve Erivan`da olduğu gibi geliş sebeplerini bildirir ve "Allah`ın emri, peygamberin kavliyle kızınızı oğlumuza istiyoruz" denir. Kız tarafı "kısmetse olur" [Amasya Evlilik Gelenekleri, 2024:1] söyledikten sonra, Nahçıvan ve Erivan`dan farklı olarak evlenecek kız adayı misafirlere çay değil, Türk kahvesi ikram eder. Ayrıca Anadolu`da Azerbaycan`dan farklı olarak kız sözlüsünün onu ne kadar çok sevdiğini, onun için nelere katlanabileceğini ölçmek adına herkesin kahvesini tatlı yaparken, evleneceği adamın kahvesin tuzlu yapar. Erkek de onu ne kadar çok sevdiğini kanıtlamak için kahveyi içer. Bu şekilde herşey tatlıya bağlanır ve böylece elçilik merasimi sona erer. Ayrıca her iki bölgede de ilk istenişte kız verilmez. Zorla alınan kızın daha makbul olacağına inanılır. Oğan evi birkaç gidişten sonra kız evi kızını vermeye niyetliyse biraz süre ister, bu süre içinde oğlan araştırılıp soruşturulur. Oğlan evine haber gönderilir, gelip söz kesmeleri istenir.

Sözkesme. Kız evinin davetinden sonra, erkek tarafı aile büyükleri, bir araya gelerek kız evine giderler. Bu toplantıda Amasya`da gelin ve damada "söz yüzükleri" takılır. Nahçivan`da ise kızın razılığı tekrar sorulur, getirilen yüzek kızın parmağına takılır, başına da kırmızı nişan için satılan özel dantelli eşarp örtülür. Nişan, düğün tarihleri, kız evinin istekleri konuşulur ve karara bağlanır. Söz kesildikten sonra, Amasya`da gelin ve damat adayı tarafından orada bulunanların elleri öpülür, dualar okunur. Nahçıvan`da ise el öpme geleneği olmadığı için ve söz kesme merasimine damat katılmadığı için sözlenen kızı akrabalar öperek tebrik eder, güzel dileklerde bulunur. Bütün işlerin tatlılıkla gitmesi için Amasya`da şerbet içilir veya lokum yenir, Nahçıvan`da ise tatlılarala zengin çay sofrası ve yemek sofrası açılır [Amasya Evlilik Gelenekleri, 2024:1, KK-2, KK-3]. Erivan Çukuru`nda sözkesmeye "belge" denilmektedir. Belge kelimesi etimolojik açıdan "beli gel" (evet gel) ifadesinden türemiştir. Daha sonra halk söyleyişine uyarlanarak "belge" şeklinde söylenmeye başlanmıştır. Naxçıvan'da kızın "evet" yanıtını aldıktan sonra en geç bir ay içinde, İrevan çukurunda ise kız evi tarafından belirlenen bir zamanda "belge" adı verilen küçük nişan töreni yapılır. Belgede herkes maddi durumuna göre hediye olarak bir şeyler getirir; ancak genellikle oğlan evi, kız evine bir nişan yüzüğü, bir kırmızı örtü ve tatlı tepsisi, noğul, kelle gend (büyük ve sert kesme şeker) götürür. Yüzüğü oğlanın kız kardeşi veya en yakın akrabalarından biri takar, örtüyü omzuna atar ve bir tatlıyı alıp kıza ısırtılır, yarısını ise oğlana götürürler. Aynı gün, nişanın ne zaman olacağı belirlenir [Azerbaycan Folkloru Antologiyası X, 2004:58-59;

Babayeva, 2016:1]. Böylece söz kesme merasimi sona ermiş olur

Nişan ve Nişanlılık. Nişan, halkımızın en güzel adetlerinden biridir. Belgelendikten, yani sözlendikten bir süre sonra büyük nişan merasimi düzenlenir. Bunun için erkek tarafı uzun zamandır hazırlık yapmıştır. Nişanda kız için ayakkabıdan başka her şey alınır. Çünkü onun darlığın bir işareti olduğuna inanılır. Nişana erkek tarafının yakın akrabaları, dostlar gelir, yemekten sonra erkekle kızın parmaklarına yüzükler takılarak nişanlanırlar [Azerbaycan Folkloru Antologiyası X, 2004:59, Babayeva, 2016:1].

Nişan genellikle kız evinde hafta sonları düzenlenir. Davet için, damadın ailesinden bir kişi çıkıp her eve davetiyeleri vererek şekerler dağıtır. Bu kişiye "okuyucu" denir ve dağıttığı hediyelere genellikle "mum" adı verilir (Alan Köyü). Nişandan bir gün önce kız evinde gelinin eline "çufa kınası" yakılır. Bu kına, yumurta sarısı ve bitkisel desenlerle yapılan bir süsleme şeklidir ve gelinin eline yakılırken türküler eşliğinde gelin ağlatılır (Merzifon Akören Köyü). Nişan günü kız evinde, gelen misafirlere yemek ikram edilir ve getirilen hediyeler, sesi gür bir kişi tarafından çevreye duyurulur. Nişan sabahı, gelin adayı kayınvalidesinin evine iki kova su götürür ve kayınvalidesi tarafından bir çeyrek altın takılır. Su dağıtma işlemi yakın akrabalara da yapılır ve sağdıca "gız baccılı" (kız başı) olarak adlandırılır (Alan Köyü). Nişandan bir hafta sonra, kız tarafı oğlan evine çeşitli hediyelerden oluşan bir bohça gönderir. Bu hediyeler arasında pijama, terlik, iç çamaşırı, kayınvalideye elbiselik kumaş ve gömlek bulunabilir. Buna "yüzük gönderme" veya "bohça gönderme" (Kayabaşı Köyü) denir (Amasya evlilik Gelenekleri, 2024:1). Aynı şekilde Nahçıvan`da da nişan genellikle kız evinde düzenlenir, fakat son zamanlar restoranlarda, düğün salonlarında da yapıldığı görülmektedir. Erkek tarafından gelen misafirler için muazzam yemek, çay sofrası açılır. Kıza düğünde takacak takı getirilir, kıyafet, çanta, makyaj malzemeleri, tatlı ve çerezlerden oluşan çeşit çeşit tabaklar (tepsiler) getirilir ve nişana katılanlara gösterilir [KK-7, KK-8].

Nişandan sonra düğüne kadar "nişanlılık" aşaması olur. Nişanlılık genellikle kızla erkeğin birbirlerini tanıyıp bağlanmaları için görüşmelerine fırsat tanımaktır [Azerbaycan Folkloru Antologiyası X, 2004:60]. Kız nişanlı kaldığı süre boyunca önümüzdeki Hıdırellez, Novruz, Kurban, Ramazan bayramlarında kız evine gidilir, hediyeler götürülür. Kurban bayramında genellikle süslenmiş bir koç, kıza hediye ve çeşitli tatlı ve meyveler gönderilir. Novruz'da genellikle baklava, şerekbura, bayram çöçesi (poğaça), tatlılar, meyve ve fındık, badem, ceviz, kuru üzüm vb. kuru meyvelerden oluşan bir bayram sepeti gönderilirdi. Nahçıvan'da nişanlı kızlara yeni çıkan meyveler, kışın ise sepet içinde kızılcık ve çeşitli tatlılar gönderilirdi. Sepet gönderilirken altın armağan etme geleneği de vardı ve miktarı değişirdi [Azizkızı, 2012:16-17, KK-4, KK-9]. Aynı şekilde Amasya`da da dini bayramlarda, özel günlerde kıza hediyeler (kıyafet, çamaşır, ayakkabı vb.), mevsiminde meyve sepetleri gönderilir. Kurban bayramında koç ve altın bilezik götürülür. Bazı yerlerde hıdırellezde gelin ve yakınları Gani Baba Türbesi'ne götürülür ve erkek tarafı komşuları ve akrabaları da davet eder, gelmek isteyenler hediyeler getirirler (Eraslan Beldesi). Geleneksel olarak kiraz mevsiminde oğlan evi meyve sepetleri hazırlar ve eş, dost ve yakın akrabalara haber verilir. Geline hediyeler alınır ve odanın içine bir ip gerilir, herkes getirdiği hediyeyi bu ip üzerine asar (Merzifon Akören Köyü).

Nişan, çiftler arasında anlaşmazlık veya ailevi sorunlar nedeniyle bozulabilir. Eğer nişanı erkek tarafı bozarsa, kız tarafına gönderilen hediyeler genellikle geri verilmez, ancak tam tersi durumda geri iade edilir [Amasya Evlilik Gelenekleri, 2024:1].

Kesemet/Danışık. Batı Azerbaycan`da, özellikle Erivan Çukuru bölgesinde "herc-hörek", "kesbiç" gibi ifadelerle de anılan "kesemet" (sözlük anlamı "şart"), Nahçıvan'da düğünden önceki aşama olan "danışıg"tır. Genel olarak, Nahçıvan ve Erivan Çukuru`ndan Azerbaycan`nın tüm bölgelerine kadar, Amasya`dan Anadolu`nun bütün yörelerine kadar tüm Müslüman dünyasında düğünün geciktirilmesine iyi bakılmaz. Bu nedenle, düğünden önce son kez bir araya gelip düğünün zamanını belirlemek için görüşmeler yapılır. Bu görüşmeler sırasında "başlıg"/"süt pulu" (başlık veya süt parası) gibi maddi meselelerin yanı sıra dini konular da çözüme kavuşturulur [Azerbaycan Folkloru Antologiyas X, 2004:60, Azizkızı, 2012:18].

Düğün Hazırlıkları. Nişan ya da anlaşma yapıldıktan sonra gelin ve damat evlerinde ciddi bir şekilde düğün için hazırlık yapılır. Düğün yapılacak evlerde düğüne az bir süre kala temizlik yapılır, ev eşyaları toplanır, camlar silinir, bahçe ve bacalar temizlenir. Gelin tarafı geleneklere göre gelin için çeyiz hazırlar. Çeyize, iğneden sapına evde gerekecek tüm ev eşyaları konulur. Eski zamanlarda Anadolu`da olsun, Azerbaycan`da olsun, gelinler kendileri için sandık veya kutu hazırlarlardı. El işleri, hazırladıkları çeyizler içine konur ve damat eve gelirken beraberinde getirilirdi. Gelinlerin hazırladığı el işi örtüler daha çok ilgi çeker, herkes özellikle kaynanalar bunları görmeye gelirdi. Erivan'da özellikle Vedi mahallesinde, gelinlerin çeyizlik için hazırladığı "bey çorapları", "düğün çorapları" ünlüydü. Hem Nakhçıvan ve Erivan Çukuru`nda,

hem de Amasya`da komşular ve akrabalar gelin çeyizi gelmeden önce hediye de getirerek gelip çeyizlere bakarlardı. Buna "çeyiz görmesi" denirdi. Düğünden bir gün önce "ev süsleme" adeti yerine getirilir, gelinin çeyizleri getirilip evi süslerlerdi. Ev süsleme zamanında gelinin yükünü düzgün bir şekilde yerleştirir, dağıtmamaya dikkat ederlerdi. Düğünden birkaç gün önce de "düğün ekmeği" pişirilirdi. Düğün ekmeği pişirmeye gelenler de ellerinde hediye getirirlerdi. Düğün hazırlıkları içinde "giysi dikme" ("kıyafet dikme") geleneğinin de özel bir yeri vardır. Bu gelenek tören şeklinde gerçekleşir. Bazı kaynaklara göre Nakhçıvan'da [Azizkızız, 2012:19] bu adet büyük nişan töreni içinde, Şerur'da [Azerbaycan Folkloru Antologiyası XXIII, 2012: 34; Mirzeyeva, 2023:264] ise düğünün ilk günü, Erivan Çukuru`nda [Azerbaycan Folkloru Antologiyası X, 2004:65] ise cumartesi sabahı parça biçme, akşama ise kına töreni yapılır. O gün kız evine getirilen honça ve gelinin alınan hediyeleri çemedanın (bavulun) üzerine yerleştirilir. Geline gelen hediyeleri göstermek isteyen kadın "bavulun açılmadığını" söyleyerek hediyesini aldıktan sonra açıp geline alınanları izleyenlere gösterir. Aynı zamanda gelin evinden bir kadın da geline getirilen parçalardan birini alıp makasın "kesmediğini" belirterek hediyesini alır. Bu merasimde de herkes yiyip içer, eğlenir, tören sonunda herkes gelinin mutlu olması için iyi dileklerde bulunur. Nahçıvan`da yapılan bu adetlerin benzeri Amasya`da Çeyiz asma geleneği]Amasya Evlilik Gelenekleri, 2024:1] olarak gerçekleştirilir. Çeyiz asma genellikle kızın el işleriyle hazırladığı eşyaların, ailenin ekonomik durumuna bağlı olarak çeşitliliğini içerir. Bu çeyizde genellikle gelin yatağı, yorgan ve yastık gibi önemli eşyalar özenle hazırlanır. Gelin yatağı ve yorganı en güvenilen kişilere diktirilir. Kızın yıllarca emek vererek hazırladığı çeyiz, düğünden birkaç gün önce oğlan evine getirilir. Gelin adayı ve yakın arkadaşları, çeyizi oğlan evinde kendileri için ayrılmış odaya sererler. Oğlan evi gelen misafirlere yemek ve çay ikram eder ve düğün süresince çeyiz odası ziyaret edilebilir.

Düğün günü yaklaştıkça, nişan öncesinde olduğu gibi "eksik görme" adeti gerçekleştirilir. Yeni ev için gerekli eşyaların alınması, gelinlik gibi kıyafetlerin tamamlanması için alışveriş merasimi düzenlenir. Bu merasime gelinin annesi, yakın bir kişi ve damat ile damadın ailesinden kayınvalide ve kayınpeder katılır. Gelinin yanında bulunanlara uygun hediyeler alınır ve düğün için yemeklikler temin edilir. Bu malzemeler, Cuma günü düğün başlamadan önce davul zurna eşliğinde kız evine gönderilir. Buna "aşboğaz" ya da "seysana" adı verilir (Taşova, Alpaslan Beldesi). Düğüne gelen misafirlere ikram edilecek yemekler bir gün önceden ya da sabah erkenden hazırlanır. Son yıllarda geleneksel yemeklerin yerini et döner, pilav ve çorba gibi tektip yemekler almıştır [Amasya Düğün Öncesi Hazırlıkları ve Düğün, 2024:1].

Bir taraftan düğün hazırlıkları yapılırken, bir taraftan da eğlenceler, şenlikler düzenlenir ve oyunlar oynanır. Bu oyunlardan biri "Kızbaşı" ve "Oğlanbaşı" oyunlarıdır [Memmedova, 2014b:26; Deveci, 2023:81]. Nahçıvan'da düğün gününden birkaç gün önce, Loru-Pembek'te ise 5-10 gün önce, köyün kızları "Kızbaşı"ya, oğlanlar ise "Oğlanbaşı"na davet edilir. Hem oğlanların hem de kızların arkadaşları, kardeşleri bu şenliklere toplanarak "Kızbaşı" ve "Oğlanbaşı" adı verilen eğlencelere başlarlar. Bu oyunların kına gecesine, hatta düğün gününe kadar devam ettiğini göz önünde bulundurursak, benzer oyunların Doğu ve Güneydoğu Anadolu'da erkekler için "Kısır gecesi", "Oğlan kına gecesi", kızlar için ise "Kızlar gecesi" [Kalafat, 1998:126-127] adlarıyla gerçekleştirildiğini söyleyebiliriz. Hatta Kırım Türklerinin düğünlerinde erkekler ve kızlar tarafından "Subaylığa veda gecesi", "Oğlan gecesi", "Kızlar gecesi" olarak düzenlenen şenliklerin de aynı şekilde, Azerbaycan'da olduğu gibi gece yarısına kadar devam ettiği bilinmektedir. Düğünden birkaç gün önce oynanan bu oyunların adından da anlaşılacağı gibi, düğünde yer alacak olan kız veya oğlan için subaylık yapılacağına dair söz verilerek kızlar gelin olacak kızın başına, oğlanlar ise damat olacak oğlanın başına toplanarak oyunlar ve eğlenceler düzenlerler. Her bir şenlik ayrı ayrılığında düzenlendiği için "Kızbaşı", "Kız Gecesi", "Oğlanbaşı", "Oğlan Gecesi" gibi adlarla anılırlar.

Kına Merasimi. Erivan Çukuru, Nahçıvan ve Amasya bölgelerinde yapılan kına gecesi ve bu gece boyunca gerçekleştirilen gelenekler, oyunlar ve eğlenceler oldukça benzerdir. Her üç bölgede genellikle kına gecesi, kız evinde düzenlenen düğünün ilk günü veya düğünden bir gün önce gerçekleştirilir. Erivan Çukuru, Nahçıvan ve Amasya`da genellikle düğünler hafta sonları cumartesi ve pazar günleri olduğu için kına gecesi de bir gün önce düzenlenir. Ancak eskiden Nahçıvan'da cumartesi günleri gelin alınmazdı, çünkü inanışa göre cumartesi günü kurulan aile çabuk dağılırmış. Ancak zamanla yabancı ülkelerin etkisiyle Müslümanların istirahat günü olan cuma iş gününe dönüştüğü için Azerbaycan'ın ve Anadolu`nun birçok yerinde düğün törenleri genellikle iş olmayan günlerde - hafta sonunda gerçekleştirilir. Haftanın diğer günlerinde de bu törenler yapılır, ancak önceki gibi halk inançlarına o kadar da dikkat edilmez. Ayrıca gece vakti hayır işleri yapılmadığı için kına da konulmaz, kına merasimi gece gerçekleştirilmezdi. Ancak son zamanlarda ve günümüzde kına gecesi teriminin kullanımı, kına töreninin gelin olacak kıza akşam saatlerinde, özellikle de kırsal kesimlerde gece düzenlenmesiyle ilgilidir. Hem Nahçıvan, hem Erivan Çukuru, hem de Amasya

bölgelerinde kına gecesinden önce hazırlıklar yapılır ve erkek tarafı kadınlar ve kızları toplayarak akşam veya gece saatlerinde kız evine kına yakmaya giderler. Kız ve erkek evinden en yakın akrabalar, komşular o gece bir araya gelip çeşitli eğlenceler yapar, halk oyunları oynar ve şarkılar söylerler. Özellikle Nahçıvan bölgesinde kına gecesine çok önem verilir ve bu geceye özgü bazı eğlencelerde erkeklerin de katıldığı bilinir. Nahçıvan'da düzenlenen kına gecesi diğer bölgelerden bazı özellikleriyle farklılık gösterir. Özellikle Nahçıvan'ın köylerinde [KK-12] kına yakılacak gece, kız evi bilerek bekletilerek gece yarısında, hatta bazen sabaha karşı erkeklerle birlikte müzik eşliğinde oynayarak, yüksek sesle şarkılar söyleyerek kız evine giderler ve eğlenceyi orada devam ettirirler. Amasya`da ise cumartesi akşamı kız evinde kına gecesi düzenlenir. Kızın annesi tarafından hazırlanan kına, bir tepsi ortasına konularak etrafına mumlar yerleştirilir. Gelin, orta kısıma oturur ve kına için özel hazırlanmış kıyafet giydirilir. Kına türküleri ve ilahiler eşliğinde gelin ağlatılır ve avucuna altın konularak kına yakılır. Damatla birlikte kız evine kına alınmaya gelinir. Kına, hazır olarak bekletilen bir tepsi içinde bulunan çerez, havlu, mendil gibi eşyalarla birlikte satılır. Satın alan sağdıç daha yüksek bir fiyata damada satar. Kına alındıktan sonra, eğer köyde ise kız evinden bir tavuk da alınarak oynayarak erkek evine dönülür. Damada kına yakılırken, sağdıç parmağını kınaya banarak elini yukarı kaldırır ve bir iki üç diye sayar. Bekar gençler, kınalı parmağa ulaşmaya çalışarak kim önce kınayı alırsa, onun evleneceğine inanılır. Kına gecesinde kalan kına, damadın arkadaşlarına dağıtılır ve bu da "darısı bekarların başına" dileğiyle yapılır. Gelinin ve damadın yanında kalan arkadaşlar, gelinin ayakkabısının altına bekar kızların isimlerini yazarlar. Kimin ismi silinirse, onun evleneceğine inanılır [Amasya`da Düğün Öncesi Hazırlıkları ve Düğün, 2024:2]. Nahçıvan`da (Azerbaycan`da) kına merasiminde kına yakılırken Amasya`daki (Anadolu`daki) gibi geline ve kınayı yakana altın değil para verilir [KK-13, KK-15]. Kız ve kadınlar Nahçıvan'da şarkılar söyler, Şerur'da halk oyunları oynar, gelinin ellerine ve ayaklarına kına yakılır, aynı zamanda merasime katılan herkes kına yakabilir. Ayrıca gelinin avucunun içine damadın isminin baş harfi kına ile yazılır [KK-1, KK-10].

Genellikle Nahçıvan bölgesinde [KK-2, KK-14] kına gecesi sabaha kadar uyumadan gülerek, eğlenerek düğüne hazırlık yapılır. Bir yandan düğünde pişirilecek pilavın princi hazırlanır, dolmalar sarılır, diğer yandan ise şakalar yapılır. Bu gecelerde yorgunluktan dayanamayıp uyuyanları yorgan döşeğe diker, kızların saçlarını birbirine örer, yüzlerini boyayarak neşeli bir hava oluştururlar. Sabah olunca yerlerinden kalkmaya çalışan kızlar herkesin gülmelerine ve eğlenmelerine sebep olur. Benzer şekilde Amasya`da [Amasya Düğün Öncesi Hazırlıkları ve Düğün, 2024:1] da düğünden bir gün önce, "dolma dürme" veya "dolma gecesi" adı verilen bir etkinlik düzenlenir. Bayanlar, belirlenen saatte dolma sarmak için bir araya gelirler ve eli boş gitmezler, genellikle aşlık, bulgur gibi malzemeler getirilir. Bu dolmalar ve diğer yemekler, bayanlara döner ve pilav, erkeklere ise çorba gibi ikramlar olarak hazırlanır. Düğün öncesinde erkek evinde, davul-zurna ekibi çalmaya başlar, bayrak dikilir ve düğün kahyası ile yiğitbaşı belirlenir. Gelin ve damat adayları tarafından sağdıç seçilir ve gelen misafirlere yemek ikram edilir. Buna "danışık yedirme" denir.

Kına gecesi icra edilen en eğlenceli oyunlardan biri değişme şeklinde olan "Hakuşga"dır. Azerbaycan'ın özellikle Nahçıvan ve Erivan Çukuru bölgesi için karakteristik olan "hakuşga", Erivan Çukuru`nda "hahışta" [Gerbi Azerbaycan Folkloru, 2023:362] veya "hakuşka" olarak bilinir. Ayrıca, Nahçıvan'ın Şerur ilçesinin Havış köyünde ve Şerur'un kendisinde hakuşgaya "havışda" denir. Nahçıvan ve Ordubad'da ise pencereye "hakuşga" denildiğini biliyoruz. Elçin Aslanov'un "El-oba oyunu halg temaşası" adlı kitabında hakuşga kelimesinin birkaç varyantına rastlamaktayız; haguşga, haguşka, hağışda, hahışta, yarhışta, halhışta, helguşta, harkuşta [Aslanov, 1984:228-229]. Ayrıca, Anadolu'da da hakuşga kelimesinin farklı telaffuz şekillerine rastlamaktayız. Anadolu'nun Kars bölgesinden Artvin'e doğru "akışta" veya "hakışta" kelimesi değiştirilerek Siirt'te "karakuştani", Bitlis'te ise "halkuşta" gibi kullanılır. Halay şeklinde ileri geri giderek ayakları oynatarak, elleri çırparak özellikle soğukta isinmek için oynanan hem "karakıştani" veya "karakıştan", hem de "akışta" oyunlarının adlarının "kara kış"tan alınmış olma olasılığı da vardır. Oyunda ellerin birbirine vurulması, yani alkışlama şekli de "karakuş" adı verilen kuşun kanat çırpmasına benzer. Asım Efendi'nin sözlüğünde ise "alkışta" veya "arkışta" kelimesinin kökeninin "arguştağ"dan geldiğini ve "arguştagi"nin küçük kızlar tarafından oynanan bir oyun olduğunu gösterilir. Doğu Anadolu bölgesinde, özellikle Bitlis'te halay şeklinde "halkışta" veya "harkuşta" oyunu oynanır [Memmedova, 2014a:145]. Oğlanlar tarafından savaş sahnesindeki gibi sert vuruşlar sergilenen bu oyunun adı olan "harkuşta"nın "vuruş, vurma" anlamına geldiği bilinmektedir. Hem Azerbaycan'da hem de Anadolu'da çeşitli varyantları ve farklı şekilde söylenişleri olan "hakuşga" oyununun sadece değişme şeklinde değil, aynı zamanda halay şeklinde de oynandığını ve oyunda el çırpılarak alkışlar edildiğini göz önünde bulundurursak, o zaman "hakuşga" kelimesinin halk ağzında "ha alkışla" kelimesinin değiştirilmiş bir şekli olabileceğini söyleyebiliriz.

Kına gecesi eğlencelerinden biri olan "Kılık Değişme" [Memmedova, 2017:155-156; Memmedova, 2022:112-114] oyun ve gösterileridir; genellikle kadınların bir veya birkaçının kılık değiştirerek gösteriler

sergileyip komik oyunlar oynamasıyla gerçekleştirilir. Bu gösterilerde genellikle kadınlar erkek kılığına girerek esprili oyunlarla seyircileri güldürür. Nahçıvan'ın Şahbuz, Şerur, Ordubad bölgelerine özgü olan bu gösteri, Anadolu'da da benzer şekilde gerçekleştirilir. Anadolu'nun Tekirdağ bölgesinde, kına yapmadan önce genç kızlar, kadınlar ve yaşlılar çeşitli erkek kılıklarına girip komik oyunlar oynayarak gösteriler sunarlar. Anadolu'da genellikle kına gecesi kılık değiştirilerek sergilenen gösterilerden biri de "İlk Kocam" [Artun, 1983:35-36] gösterisidir. Bu gösteride biri karı, diğeri koca kılığına girerek sergilenir. Kılık değiştirme gösterilerinde kadınların erkek kılığına girmesiyle birlikte, aynı zamanda bazı genç kızlar da "nine" kılığına girerek ninelere özgü geniş etekler giyer ve gözleri açık kalacak şekilde yüzlerini kapatarak nineleri, özellikle de farklı ve komik şekilde düğünlerde dans eden nineleri taklit ederek oynarlar. Bu şekilde oynama izleyenlerin çokça gülerek eğlenmelerine neden olur. Kılık değiştirme gösterilerinde sergilenen oyunun başka bir versiyon ise "yaşlı kadının kılık değiştirmesi"dir. Nahçıvan bölgesinde kına gecesi daha eğlenceli ve neşeli olması için yaşlı kadınlardan biri genç gelin kılığına girerek "Gelin" [Azerbaycan Folkloru Antologiyası, 2010:106] gösterisi yapar. Anadolu'nun Tekirdağ bölgesinde ise yaşlı kadın yaşlı erkek kılığına girerek "Leblebici" [Memmedova, 2014a:147] gösterisi sunar. Benzer şekilde kılık değiştirerek gösterilen oyun ve temaşalara Erivan Çukuru bölgesinde de rastlanmaktadır. Düğün merasimlerinde erkekler tarafından özenle hazırlanıp gösterilen bu komik gösteriler (şebihler) insanların düğünleri daha çok eğlenceli hale getirmesi ve daha çok gülüp eğlenmesi için yapılır [KK-19].

Türk kültüründe önemli yeri olan "kına", Arapça "hınna" kelimesinden gelir ve kına bitkisinin yapraklarından elde edilen bir tozu ifade eder. Bu toz, saç, eller, ayaklar ve sakalları turuncu renge boyamak için kullanılır. Kına yakma geleneği sadece Anadolu ve Azerbaycan Türkleri arasında değil, aynı zamanda Karaim, Türkmen, Bulgar, Gagauz, Karay ve Kırmanc Türkleri arasında da yaygındır. Karaim Türkleri arasında, gelinin ayağı altında bir koç kesilerek kurban edilir. Kuzey Irak Türkmenleri arasında kınayı kısmeti bol olan biri yakar. Karaim Türkleri arasında ise, damat evinde bekarlığa veda gecesi düzenlenir, gece yarısına kadar devam eden bu tören Doğu ve Güney-Doğu Anadolu`da "Kısır Gecesi" veya "Oğlan Kına Gecesi" olarak bilinir [Kalafat, 1984:125-126].

Nahçıvan, Erivan Çukuru, Amasya`da olduğu kadar Azerbaycan ve Anadolu`nun bütün bölgelerinde geleneksel olarak kınaya önem verilmiş ve hala verilmektedir. Düğünlerde olduğu gibi, yaşlı kadınların saçlarına akrabaları tarafından kına yakılması, Nevruz bayramında süslenmek için kına kullanımı gibi gelenekler vardır. Bu geleneğin Peygamber Efendimiz'in kızı Hazret-i Fatıma'dan kaldığı söylenir. Bu nedenle özellikle kırsal kesimlerde gelinler, kızlar ve kadınlar kınayı vazgeçilmez bir süsleme aracı olarak kullanmışlardır. Aynı zamanda kınanın bir şifa kaynağı olduğuna da inanılır. Öyle ki, romatizma hastalığında, ayak ağrılarında, ayak kaşıntısına ve kokusuna karşı da kına kullanıldığı bilinir. Kına gecesi ile ilgili farklı inançlar da vardır. Örneğin; Erzurum'da kına gecesinde ve düğünde mendilin düşürülmesi durumunda bereket olacağına inanılır ve kınayı gelinin avucuna kaynanası sürdüğünde gelinin kısmetli olacağına inanılır. Elazığ'ın bazı bölgelerinde ise kına gecesinde gelinin saçı kesilince başına para serpilir.

Kına, Türk inanç sisteminde ve Türk kültüründe adanmışlığın ve kurban vermenin simgesidir. Bu nedenle kurban edilecek hayvana, evlenecek gençlere, sünnet olan oğlan çocuklarına, Amasya (Anadolu) ve Nahçıvan, Erivan Çukuru'nda (Azerbaycan`da) askere gidecek olanlara, eline silah alacak olanlara kına yakılır.

Düğün Günü. Eski ve zengin geleneklere dayalı düğün merasimi, Azerbaycan`da Anadolu`da olduğu gibi önceleri "düyün" adıyla bilinirken, sonraları "toy-düyün" ve şu anda ise sadece "toy" adıyla anılmaktadır. Bu merasimin temelinde yeni bir ailenin topluma tanıtılması yer alır. Bilindiği gibi, "düğün" bağlamak anlamına gelir. Bu ifadeyle, bir kız ve bir erkeğin birbirine bağlanarak bir aile kurması göz önünde bulundurulmuştur. Antik çağlarda aile ilişkilerinin ilk aşamalarında bu merasim basit bir şekilde gerçekleştirilirken, sonraki evrelerde genişlemiştir. "Toy-düyün" ve "toy" adını alması, bu merasimin kapsamının genişlemesiyle ilgilidir. Eski Türkçe'de "toy" toplu buluşma, kurultay anlamında kullanılırdı [Muradoğlu, 2021:293]. Erivan Çukuru`nda önceleri düğünler 7 gün, 7 gece sürerdi. 1950'lerde bu süre 3 gün, 3 geceye düşürülmüştü. 1970-1980'lerde ise genellikle iki gün, haftanın cumartesi veya pazar günleri yapılırdı [Azerbaycan Folkloru Antologiyası X, 2004:63]. Günümüzde köylerde ve kasabalarda yapılan düğünlerde bu gelenek devam ettirilmeye çalışılsa da, son zamanlarda şehirlerdeki gösterişli, müzikli düğünlerin bir güne indirildiği görülmektedir. Düğünden önce kına gecesi yapılmasına rağmen, merasimin sabahı akşam saatlerinden gece 11-12'ye kadar sürdürüldüğünü görüyoruz.

Düğün günü oynanan oyunlara "Asma Kesme", "Bostan Bostan", "Yüzük Yüzük", "Bey Oynatma", "Bey`in Oğurlanması" ("Bey`in Kaçırılması"), "Şah Getirme", "Yol Kesme", "Cıdır Yarışları" ve benzerleri gösterilebilir [Memmedova, 2014a:149]. Azerbaycan'ın Nahçıvan bölgesinde, özellikle de Elinceçay boyu

köylerinde düğünün son gününde bey kendi sağdış ve soldışlarıyla birlikte taht kurarak, kendine vezirler, vekiller, cellatlar seçerek "Asma Kesme" oyunu düzenler. "Beyin Beylik Gecesi" olarak da bilinen bu oyunda düğünde kimin bir isteği, talebi olursa, beye iletir. Bey de istediğini cezalandırıp cezalandırma yetkisine sahip olduğu için oyunun adı da tüm bu durumlara uygun olarak "Asma Kesme" olarak adlandırılmıştır. Düğün merasiminde oynanan eğlenceli oyunlardan biri de "Bostan Bostan" oyunudur. Bostan ekip biçmekle bağlı hareketlerin gösterildiği, adı da gösterilen sahneye uygun olarak adlandırılan bu oyun genellikle Şahbuz'da, özellikle de Biçenek düğün merasiminde oynanır. Düğün merasiminin eğlenceli oyunlarından biri de Anadolu'da nişan merasiminde oynanan "Yüzük Saklamaca" oyununun benzeri olan Azerbaycan'ın Şeki bölgesinde oynanan "Yüzük Yüzük" oyunudur. Yüzüğü fincanın altında gizleyerek bulunması istenen eğlence karakterli bu oyunun adı da tam olarak nişan ve düğün merasimlerinin simgesi olan ve sembolik olarak iki genci birbirine bağlayan, ayrıca oyunda kullanılan ziynet (süs) eşyası yüzükten gelmiştir. Azerbaycan ve Anadolu'da düğünlerin vazgeçilmezi olan "Şahgetirme" bir oyun, eğlence olarak gerçekleştirilir. Şah getirilirken meşalelerle, çalgıcılarla, dansçılarla getirilir ve önünde güreşilmesi, şahın dallarındaki elmaların silahla nişan alınıp vurulması, şahı getirenlere gülmemenin yasak olması gibi kurallar ve adetler, şahı bir oyun olarak adlandırmamız için yeterlidir. Azerbaycanda oğlan ve kız için şah süslenmesine Anadolu`nun Tekirdağ, Kars, Iğdır, Ağrı bölgelerinde de rastlanmaktadır. Tekirdağ'da "şimşir", "ahret dalı", Kars, Iğdır ve Ağrı'da ise Azerbaycan`da olduğu gibi "şah", "kız şahı" gibi adlarla bilinir [Memmedova, 2014a:150]. Anadolu`da da Azerbaycan`da olduğu gibi şahı kızın sağdıçı hazırlar. Azerbaycan'ın Loru-Pembek bölgesinde ve Gürcüstan'ın Azerbaycanlılar yaşayan bölgelerinde, Anadolu`nun Kars, Iğdır, Ağrı bölgelerinde 5-7 veya 9 dallı bir ağaç parçasını genellikle şekerlerle ve meyvelerle süslerler. Anadolu`nun Tekirdağ bölgesinde ise iğneden ipliğe (iğne, iplik, meyve, oyuncak, tarak vb.) ne varsa çam ağacının dallarına bağlanarak şimşir (şah) hazırlanır. Bey ve gelin için hazırlanan dala "şah", "şimşir", "ahret dalı" adlarının verilmesinin sebebini anlamak için ise bu kelimelerin her birinin anlamını bilmek önemlidir. Anadolu Türkçesinde "şah" olarak bilinen "şah" Farsça kökenli bir kelimedir, anlamı ise dal demektir. Ayrıca Anadolu`da da geyiğin dal dal olan boynuzuna da şah denir [Ayverdi, 2006:2896]. "Şimşir" Farsça "şimşad" kelimesinden gelir ve "şimşirgillerden, geç büyüyen, özlüğünde yetişen veya bahçelerde süs bitkisi olarak ekilen, yaprakları her mevsimde yeşil, koyu sarı renkli sert odunundan kaşıklar, tahtalar vb. yapılan, lifleri sert olduğu için üzerinde oyularak resim çizilen orta büyüklükte ağaç" demektir [Ayverdi, 2006:2956]. "Ahretdalı" ise Azerbaycan Türkçesi`nde "ahiret budağı" anlamındadır. Ağacın veya dalın "ahiret dalı" adlandırmasının sebebi Anadolu`da sağdıç olarak bilinen gelinin ahret (ahiret) kardeşi tarafından hazırlanmasıdır. Anlattığımız kelimelerin her ikisinin, her iki bölgede bey ve gelin için hazırlanan süslenmiş dal anlamına geldiği bilinmektedir. Bildiğimiz gibi, hem Anadolu`da hem de Azerbaycan`da şahın hazırlanmasını düzenleyen ve tüm masraflarını üstlenen beyin veya gelinin sağdıçı olur. Şahın dallarındaki şekerler kına gecesi kızlara, gelinlere, çocuklara dağıtılır. Şahın hazırlanmasında çeşitli inançlar vardır; evlenecek insanların birbirlerine merhametli, tatlı olmaları için dallara şekerler, iyi bir evlat ve varlık sahibi olmaları için elma, bereket elde etmeleri için ise nar, iyi sır tutmaları için yumurta bağlanır [Kalafat, 1998:129]. Düğün merasiminin en ilginç anlarından biri "Bey`i Oynatma" ("Bey`i Oynatma ve Bey Terifi/Övgüsü") ile oğlan şahı geldikten sonra "Bey`in Oğurlanması/Kaçırılması" oyunudur. Oyunların isimlerinden de anlaşılacağı gibi birinde bey oynatılarak övgüler yağdırılır, diğerinde ise beyi koruyan sağdıç ve soldışı oyalayarak bey kaçırılır. Düğünde beyin oynadığı zaman ve oyun formatında icra edilen oyunlardan biri de "Gazı Gazı" veya "Çöpüddü" yallısıdır (Azerbaycan Folkloru Antologiyası III, 2012:74; X, 2004:66,68). Nahçıvan bölgesine ait oyun ve yarışma şeklinde olan bir başka yallı (folklor dansı) ise, eskiden "Köçeri Yallısı" olarak bilinen "Bey Yallısı"dır [Azerbaycan Folkloru Antologiyası I, 2010: 94-95]. "Bey Yallısı" denilmesinin sebebi ise, bu yallıda oyun bitene kadar beyin kendisinin de oynamasıdır. Anadolu`nun bir çok bölgesinde olduğu gibi Amasya yöresinde genellikle düğünlerde, kına gecesinde, özel günlerde, askere giden gençler uğurlanırken oynanan yöresel halk oyunları vardır. Bunlar: Narilli (Narey), Topal Kız (Sırıklı), Noktalı, Karlıdağlar, Kasap Oyunu, Temürağa, Küstahlı, Sarhoş Halayı, Manili, Dallihe, Esen Yel, Semah, Mektepli,Yanlama, Yelleme (Sallama), Burçak Tarlası, Köroğlu Halayı, Tanakul, Çerkez Halayı, Oduncular, Amasya Ağırlaması, Düz Ağırlama, Hoşbilezik, Sarıkız, Tamzara, Candarma. Bu oyunlardan "Yelleme", askere giden gençler arasında yaygın olan bir oyun olup yiğitlik duygusunu yansıtır. "Mahir Çavuş" ise Amasya'nın Göynücek İlçesi'nde yaşayan bir yiğidin sevdiği kıza ithaf edilen bir oyundur ve halen oynanıp sevilen bir geleneğe dönüşmüştür. "Sim Sim" adlı oyun ise ateş etrafında dönülerek, davul-zurna eşliğinde oynanır. Oyuncuların hızlı ve estetik hareketleriyle diğer oyuncuları kovmaya çalışması temel prensiptir. İki oyuncu arasında anlaşma sağlanarak karşılıklı gösteriler de yapılır [Yöresel Halk Oyunları, 2024: 1].

Düğünün son günü hem Azerbaycan'da hem de Anadolu`da oynanan eğlenceli oyunlara örnek olarak "Yolkesme" ve "Cıdır Yarışları" gösterilebilir (Memmedova, 2014a:151). Düğün günü gelin baba evinden

çıkarılıp götürülürken yolda gençler ve çocuklar el ele tutup gelinin önünü keserek bahşiş isterler, ayrıca kabadayı tipli erkekler de gelinin önünü keserek cengi havasında güreşerek çeşitli oyunlar sergilerler. Atlılar ise hem cıdır yarışları düzenler, hem de gelini alıp kaçırmak isterler.

Gelinalma ve Kapıkesti. Gelini almaya geldiklerinde, kızın kardeşi veya evden bir kişi kapının önünü kesip para almadan gelinin götürülmesine izin vermez. Bu adet olduğu için kimse onu kınamaz. Oğlan evi onun halatını (para veya hediye) verdikten sonra gelini ata evinden çıkarırlar [Azerbaycan Folkloru Antologiyası X, 2004: 65]. Kızı alırken oğlan evinin adamlarına kaşık, tencere veya kazan verilir ki, gürültü çıkararak gelini alsınlar. Bazı durumlarda oğlan evinin adamları kendi ellerine ne geçerse kız evinden alıp bu adeti gerçekleştirirler. Aynı zamanda gelinle birlikte süslenmiş tavuk, ayna ve lamba da götürülürdü. Bu adetler Azerbaycan'ın birçok bölgesinde olduğu gibi Erivan Çukuru ve Nahçıvan`da da bulunur. Gelin evine götürülürken yol boyunca çocukların "yol kesme" adetini yerine getirdiğini biliyoruz. Onlar da para almadan yola devam etmezler, gelinin gittiği yolu açmazlar. Sonunda, gelin oğlan evine getirilir, evin yakınında geçerken erkek arkadaşlarıyla gelinin başına şeker, para dökerler. Bahçeye girildiğinde ise maddi durumu iyi olanlar gelinin ayağı altına koyun keser ve odasına götürürler. Gelin eve girmeden de ayağının altına konulan tabağı kırar [Şerur Folklor Örnekleri I, 2018: 153-154].

Azerbaycan`ın bir çok bölgesinde olduğu gibi Nahçıvan ve Erivan Çukuru`nda görülen benzer adetler Anadolu`nun Amasya yöresinde de görülmektedir. Gelin almaya gitme ve kapı kesme adeti, gelin geldikten sonra uygulanan bazı gelenekler Amasya`da da bezer şekilde yapılmaktadır: Pazar günü, gelin arabası süslenerek, akraba, arkadaş, komşu ve ahbaplara ait araçlardan oluşan konvoyla gelin evine hareket edilir. Kız evince gelen araçlara hediyelik takılır ve gelin alıcılardan bahşiş almadan kapıyı açmazlar. Düğün kahyasınca bahşişler verilir, kapılar açılır ve gelin çeyizi taşınır. Gelin çeyizi yüklenirken alınan müjde yastığı damat evine getirilip kaynanadan bahşiş alınır. Gelinin beline, erkek kardeşi kırmızı "Kardeş kuşağı"nı bağlar. Babası tarafından gelin alıcılara teslim edilir ve dualar okunur. Gelin, yakınlarıyla vedalaştıktan sonra damat evine getirilir. Kaynata, bahşiş vermeden gelin arabadan inmez. Gelin eve girmeden önce, damat yüksek bir yerden gelinin üzerine çerez ve bozuk para serper veya kötü huylardan kurtulsun, bolluk olsun diye kaynana içinde bozuk para bulunan bir çömleği kırar, bu uygulama gelinin ayağıyla tahta kaşık kırması olarak da görülür. Gelin kuzu postuna bastırılır, eline verilen yağı kapı eşiğine sürer ve üzerine basması için ayağının altına demir leğen konulur. Gelin içeriye girip kendi çeyiz sandığının üstüne kıbleye doğru oturtulur, kucağına erkek çocuk verilir ve çevredeki kişilere şeker dağıtılır. Çevredekiler gelini görmeğe gelir [Amasya Düğün Öncesi Hazırıkları ve Düğün, 2024:2]

Düğünden Sonraki Adet ve Merasimler. Düğün merasimi düğünden sonra geleneksel adet, ritüel ve merasimlerle sonlandırılır. Düğün gününün sabahında, ilk olarak "Duvakkapma" merasimi yapılır ve sonraki günlerde "Gelingörme", "Elöpme ve Ayakaçtı" gibi adetler yerine getirilir.

Duvakkapma Merasimi. Düğünden sonra gerçekleştirilen ilginç merasimlerden biri "Duvak" [Deveci, 2023:85; Azerbaycan Folkloru Antologiyası X, 2004:66] veya "Duvakkapma"dır [Azerbaycan Folkloru Antologiyası III, 2012:68]. Düğünün sabahı, akrabalar, konu-komşu damat evinin bahçesinde gelinin başına toplanarak Duvakkapma merasimini gerçekleştirirler. Gelinin düğündeki duvağını yüzünden kaldırırlar ve bu sırada gelini karşılayarak hoş geldin dilekleri iletilir. Aynı zamanda "gelin terifi"/ "gelin övgüsü" [Gerbi Azerbaycan Folkloru, 2023:68-69] yapılır. Batı Azerbaycan`da tören zamanı geline övgüler yağdıran kişiye para toplanılıp verildiği de bilinmektedir. Duvakkapma merasimi Erivan Çukuru ve Nahçıvan'ın [Memmedova, 2014a:151-152, KK-10, KK-20] tüm ilçe ve köylerinde gerçekleştirilir. Merasimin şenlikli havası aynı olsa da, geleneksel sözlerde büyük bir çeşitlilik gözlemlenir. Merasimin belirgin özelliklerinden biri, gelinin başına örtülen kırmızı duvağı götürülürken okunan öğüt ve nasihat niteliğindeki şiirlerdir. Duvağın gelinin başından alıp götürülmesi sonucu ortaya çıkan "duvakkapma", Ordubad şehrinde "toy beçe", Anadolu'da ise "gelin paçası" (Anadoluda düğünün sabahı kelle paça - halk arasında kahvaltı verildiği için merasim de "gelin paçası" adını almıştır) gibi adlarla da bilinir. Anadolu'da da, Azerbaycan'ın tüm bölgelerinde olduğu gibi bu merasim sadece kadınlar arasında gerçekleştirilir. Anadolu'da "Duvakkapma" merasiminde çeşitli oyunlar oynanır, maniler ve türküler söylenir ve birlikte eğlenilir. Azerbaycan`da köylerde genellikle gelin başına kırmızı bir örtü takarlar. Merasimi ise bir kadın tarafından yönetilir. Gelinin yüzüne örtülen duvağı Nahçıvan'ın bazı bölgelerinde oklava ile, bazı bölgelerinde ise dut ağacında kesilmiş bir çubukla bir erkek çocuğu alır ve bar veren bir ağacın üzerine atar ki, gelin de kısa zamanda o ağaç gibi bar versin, yani oğullu kızlı olsun. Bu sırada merasim geleneksel sözlerle devam eder. Merasimde gelinin yanı sıra kaynanaya da övgüler ve şiirlerle karşılanır, her övgüden sonra alkışlanır, hatta kaynana koraya eşlik ederek birlikte okunur.

Ayrıca, merasimin ortalarında gelinin başına düyü de dökülerek okunur.

Gelingörme. Gelinin "Üçü günü" olarak da bilinen bu adet, genellikle Karabağ bölgelerinde daha sık görülür. Düğünden en az 3-4 gün sonra gelini ortaya çıkarırlar ve buna da "gelin görme" denir. O gün, damadın akrabaları yeni gelinden çay istemeye gelir. Gelin misafirlere çay ikram eder, misafirler çay içtikten sonra altın yüzük, inci, bilerzik, küpe, kolye, altın para vb. hediyeleri, içtikleri fincana koyarak geline sunarlar [Azerbaycan Folklor Antologiyası X, 2004:66-67]. Bu merasim hala Karabağ bölgelerindeki insanlar tarafından yaşatılmaktadır [KK-21]. Genellikle kadınlar arasında düzenlenen bu merasime kızın sevdikleri - anne, teyze, büyükanne vb. de davet edilir, aynı zamanda sadece çay değil, yemek masası da kurularak akrabalar arasında keyifli bir gün geçirilir, aynı zamanda kızın annesine terbiyeli, akıllı, zarif, ahlaklı bir kız yetiştirdiği için teşekkür edilir. Bu merasimin benzeri Nahçıvan'ın [Şerur Folklor Örnekleri I, 2018:154] tüm bölgelerinde görülmemekle birlikte bazı bölgelerinde "üç günlük" adıyla kutlanır. Gelinin koca evindeki üç günü tamamlandığında, onun akrabaları teyzeler ve amcalarla gelini görür, hatta kızın adamları erkek evine para da verir. Bu merasimden sonra ise "el öpme" adeti yerine getirilir.

Elöpme ve Ayakaçtı. Nahçıvan`da düğünden üç gün sonra [Babayeva, 2016:1], Erivan'da, Karabağ`da, Amasya`da [Deveci, 2021:123] ise düğünden sonraki ilk haftanın belirli bir günü damat ve gelinin babası evine "el öpmeye" gidilir. Babanın eli öpülür, baba da kızına ve damadına hediye verir. Karabağ`ın bazı bölgelerinde buna bazen "ayakaçtı" da denir, çünkü bazı bölgelerde elöpme geleneği yoktur [Azerbaycan Folkloru Antologiyası X, 2004:67]. Nahçıvan`da ise ilk olarak 3 gün sonra damat ve gelin baba evine gidip el öperler, düğünden birkaç ay sonra damat evi misafir çağırırlar, sonra da damat evi gelin evini misafir çağırır ve böylece "ayakaçtı" geleneği yerine getirilerek akrabalar arasında ilişkiler güçlendirilir. Bu adetler Anadolu`nun da bir çok bölgeleri için geçerlidir.

Sonuç

Evlilik, dünya genelinde birçok kültürde önemli bir yer tutar ve evlilikle ilgili ritüeller özellikle dikkate değerdir. Evlilik ritüelleri, bir kişinin yaşamındaki bir aşamadan diğerine geçişini sembolize eder ve kültürel olarak önemli bir geçiş dönemini temsil eder. Bu ritüeller, bireyin sosyal ve kişisel kimliğini yeniden tanımlamasına ve evlilik hayatına geçiş yapmasına olanak sağlar. Ritüeller, bir toplumun kültürel ve tarihsel geçmişine dair önemli ipuçları içerir. Onlar, geçmişin bugüne yansıması gibidir ve toplumun değerlerini, inançlarını ve geleneklerini yansıtır. Günümüzde, birçok ritüel hala yaygın olarak uygulanmaktadır ve insan hayatının her alanında bulunmaktadır. Bu ritüeller, sıradan eylemleri sembolik ifadelere dönüştürür ve her gerçekleştirildiğinde anlamlarını güçlendirir. Örneğin, dini anlamda eğilip diz çökerek dua etmek, Allaha`a bağlılığı ve teselliyi ifade ederken, evlilik için gerçekleştirilen tüm ritüeller, çiftler arasındaki bağı güçlendirmeyi amaçlar. Bu ritüeller, evlilik birliğini onurlandırır, bağlılığı pekiştirir ve toplumsal olarak kabul edilen birlikteliği sembolize eder.

Zengin bir halk folkloru ve kültürüne sahip olan eski diyarlarımızdan Erivan Çukuru, Nahçıvan ve Amasya yöresindeki düğün merasimlerinde gerçekleştirilen gelenekler, oyunlar, şenlikler ve yallılar (folklor dansları) birbirine benzerdir ve belirli zamanlarda düğünü oluşturan çeşitli merasimlerde gerçekleştirilir. Düğüne hazırlıktan başlayarak, düğün gününde ve düğünden sonraki aşamalarda düzenlenen merasimler çeşitli halk adetlerinin, inançlarının izlerini taşıyor. Hem dini hem de kültürel inançlarla, gelenek ve göreneklerimizle ilişkili olan bu merasimlerde eğlence, keyifli vakit geçirme ön planda olsa da, insanlar açıklayamadıkları duygularını, düşüncelerini, hayallerini ve geniş ve tükenmez Türk ufuklarını da oyunlar, türküler, adetler, merasimler ve ritüellerle göstermişlerdir.

KAYNAKLAR

1. Amasya Evlilik gelenekleri. Türkiye Kültür Portalı, Kültür atlası. Erişim Tarihi: 01.04.2024. https://www.kulturportali.gov.tr/turkiye/amasya/kulturatlasi/evlenme- gelenekler
2. Amasya Düğün öncesi hazırlıkları ve Düğün – Amasya. Türkiye Kültür Portalı, Kültür atlası. Erişim Tarihi:10.03.2024.https://www.kulturportali.gov.tr/turkiye/amasya/kulturatlasi/dugun- oncesi-hazirliklar-ve-dugun
3. Amasya Yöresi Söz Nişan Düğün Adetleri. Düğün Dernek, Anadolu`da Söz Nişsn Düğün Adetleri. Erişim Tarihi: 27.04.2024. https://www.dugundernek.org/amasya-yoresi-dugun-gelenekleri/
4. Aslanov, E. (1984). El-Oba Oyunu, Halk Temaşası. Bakü: Işıg.
5. Artun, E. (1983). Tekirdağ Folklorundan Örnekler. Tekirdağ: Taner Matbaası.

6. Ayverdi, İ. (2006). Misalli Büyük Türkçe Sözlük, III.Cilt. İstanbul: Kubbealtı Neşriyatı.
7. Azerbayan folkloru antologiyası. (2004). X.Kitap, İrevan Çukuru Folkloru, Toplayanlar: H. İsmayılova, A. Azizli. Bakü: Seda Neşriyyatı.
8. Azerbaycan Folkloru Antologiyası. (2010). Nahçıvan Folkloru. I.Cilt, Toplayan ve Düzenleyenler: M. Ceferli, R. Babayev. Nahçıvan: Ecemi.
9. Azerbaycan Folkloru Antologiyası. (1994). I.Kitap, Nahçıvan Folkloru, Düzenleyenler: T. Ferzeliyev, M. Gasımlı. Bakü: Sabah.
10. Azerbaycan Folkloru Antologiyası. (2012). Nahçıvan Folkloru, III.Cilt, Düzenleyenler: M. Ceferli, R. Babayev. Nahçıvan: Ecemi.
11. Azerbaycan Folkloru Antologiyası. (2012). XXIII.Kitap, Nahçıvan Örnekleri, II.Cilt, toplayan: A. Ceferova, Düzenleyenler: A. Alekberli, A. Ceferova. Bakü: Elm ve Tehsil.
12. Babayeva, F. (2016). "Düğün Adetlerimiz". Şerg gapısı günlük toplumsal-politik gazete, Nahçıvan:http://85.132.16.133/index.php/humanitar/m-d-niyy-t/10592- dugun-adetleri.html
13. Deveci, R. (2021). Amasya Yöresi Geçiş Dönemi, Takvim ve Bereket Ritüelleri.
14. Doktora Tezi. Ankara: Ankara Yıldırım Beyazit Üniversitesi Sosyal Bilimler Enstitüsü.
15. Deveci, R. (2023). Amasya Yöresi Düğünlerde İcra Edilen Dansların Ritüel İşlevi. Dede Korkut Türk Dili ve Edebiyatı Araştırmaları Dergisi, Sayı 31, Samsun: s.72-101.
16. Ezimkızı, Ç. (2012). Nenemden neveme, Bakü: Elm ve tehsil.
17. Gerbi Azerbaycan Folkloru. (2023). II.cild, Bakü: Elm ve tehsil.
18. Kalafat Y. (1998). Kuzey Azerbaycan - Doğu Anadolu ve Kuzey Irak'ta Eski Türk Dini İzleri – Dini Folklorik Tabakalaşma. Ankara: T.C. Kültür Bakanlığı Yayınları.
19. Memmedova, M. (2014a). *Azerbaycan ve Anadolu Folklorunda Oyun ve Temaşalar.* Bakü: Elm ve eğitim.
20. Memmedova, M. (2014b) "Azerbaycan ve Anadoluda Düğün Merasimi Oyun ve Gösterileri". Gafqaz Üniversitesi Dil ve Edebiyat Dergisi, Cilt 2, Sayı 1. Bakü: s.23-33.
21. Memmedova, M. (2017). "Azerbaycan ve Anadolu Kına Gecesi". Motif Akademi Halkbilim Dergisi, Cilt 10, Sayı 19, s.149-159.
22. Memmedova, M. (2022). "Azerbaycan ve Anadolu Folklorunda Kına gecesi merasimi". Azerbaycan Şifahi Halg Edebiyatına Dair Tedgigler, 1 (58), Bakü: Elm ve eğitim, s.106-118.
23. Mirzeyeva, G. (2023). "Nahçıvanda Düğün Adetleri". Heydar Aliyev ve Azerbaycan halk kültürü. Bakı: Elm ve Eğitim, s.261-268.
24. Muradoğlu (Memmedov), N. (2021). Çağdaş Şiir ve Folklor. Bakü: Elm ve eğitim.
25. Şerur Folklor Örnekleri. (2018). I kitap, Nahçıvan: Ecemi
26. Yöresel Halk Oyunları. Amasya İl Kültür ve Turizm Müdürlüğü. Erişim Tarihi: 26.04.2024.
27. https://amasya.ktb.gov.tr/TR-59498/yoresel-halk-oyunlari.html

KAYNAK KİŞİLER

1. KK-1. Abbasova Naile Paşa kızı, 1982, Nahçivan ili, Şerur ilçesi, lise eğitimli, ev hanımı.
2. KK-2. Ekberova Sevinç Cavad kızı, 1971, Nahçivan ili, Ordubad ilçesi, Yukarı Eylis köyü, lise eğitimli, ev hanımı.
3. KK-3. Ekberova Aynur Cavad kızı, 1975, Nahçivan ili, Ordubat ilçesi, Yukarı Eylis köyü, lise eğitimli, aşçı.
4. KK-4. Esedova Könül Hüsameddin kızı,1983, Nahçivan şehri, lisans eğitimli, Şahbuz ilçesi Kayıt bölmesi başkanı.
5. KK-5. Esedova Hurşut İbrahim kızı, 1962, Nahçivan şehri, Önlisans eğitimli, ev hanımı
6. KK-6. Hüseynli Leyla Azim kızı, 1982, Nahçivan ili, Kengerli ilçesi, Gıvrag köyü, lisans eğitimli, evdar hanım.
7. KK-7. Hüseynova Gözel Adıgözel kızı,1945, Nahçivan ili, Ordubad ilçesi, Yukarı Eylis köyü, lise eğitimli, ev hanımı.
8. KK-8. Hüseynova Şehla, Marks kızı,1961, Nahçivan ili, Ordubad ilçesi, Yukarı Eylis köyü, lise eğitimli, ev hanımı.
9. KK-9. İskenderova Yeter Hüseyn kızı, 1965, Nahçivan ili, Ordubat ilçesi, Tivi köyü, lise eğitimli, ev hanımı.
10. KK-10. İmanova Vefa Gurban kızı, 1986, Nahçivan ili, Ordubat İlçesi, Yukarı Eylis köyü, lise eğitimli, ev hanımı.

11. KK-11. Medetli Sefa Azim kızı, 1981, Nahçivan şehri, lisans eğitimli, ev hanımı.
12. KK-12. Memmed Tahire Geşem kızı, 1960, Naxçıvan şehri, Vaykır köyü, doktora eğitimli, edebiyatçı, profesör.
13. KK-13. Memmedova Tehmine İsmayıl kızı, 1954, Nahçivan ili, Ordubat ilçesi, Y.Eylis Köyü, Önlisans eğitimli, emekli.
14. KK-14. Mehdiyeva Afet Bayram kızı, 1966, Nahçivan ili, Culfa ilçesi,Yaycı köyü, lisans eğitimli, ev hanımı.
15. KK-15. Mirzeyeva Elmira İmran kızı, 1967, Nahçivan ili, Şerur ilçesi, Diyadin köyü, lise eğitimli, ev hanımı.
16. KK-16. Mirzeyeva Lale Yunis, 1963, Nahçivan ili, Şerur ilçesi, lise eğitimli, ev hanımı.
17. KK-17. Necefova Seltenet Yusif kızı, 1961, Nahçivan ili, Ordubad ilçesi, Anabat köyü, lisans eğitimli, hemşire.
18. KK-18. Talıbova Mehseti İbrahim kızı, 1967, Nahçivan şehri, önlisans eğitimli, ev hanımı.
19. KK-19. Hüseynova Sevinc Vagif kızı, 1980, Terter ilçesi, İrevanlı köyü, araştırma görevlisi.
20. KK-20. Mirzeyava Gumral Nizami kızı, 1987, Nahçıvan ili, Ordubad ilçesi, Eylis köyü.
21. KK-21. Celilzade Metanet Reftar kızı, 1960, Füzuli şehri, öğretmen.

ABSTRACT

Meleyke MEMMEDOVA

WEDDING RITUALS IN WESTERN AZERBAIJANI CULTURE FROM AMASYA AND NAKHCHIVAN TO IRAVAN

Wedding is the second important thing that happens in human life after a birth ceremony. Wedding period is as the happiest moment of human life as the birth. A marriage, which is one of the transition periods, provides the foundation of a new family with union of two young people. While providing this foundation, the families make magic and happy moments of their life come true by wedding ceremony that consists of some stages such as "kiz begenme" (to look for a girl for bachelor boy), "kiz isteme" (to ask a family to give their daughter as a bride), "nishan" (engagement ceremony), "khina" (party for a bride that bride and her friends dyed their fingers henna) etc. Ceremonies which performing before and after wedding or marriage take an important place in our culture and at the same being rich in beliefs this customs and rituals performed in a form as a ceremony and celebration. The wedding ceremony and customs, significant in our lives, have maintained their presence in various genres of folk literature, especially in tales and epics, continuing to adapt to changes from the past to the present. Being our national cultural heritage these customs and rituals that today still live in many of our regions need to research, collect, write down and systematically introduce to young generation. In the article the importance of the marriage in the culture of Western Azerbaijan, especially Irevan Plain, Nakhchivan and Amasya (Anatolia), customs, traditions and rituals performed before and after the wedding ceremonies, books and articles that written in this direction, were investigated mutually based on information from various sources. Not only in regions Nakhchivan, Irevan Plain and Amasya, but also in all of our regions the wedding customs and rituals were similar as the same nation and carry the same genetic codes. The existence of differences should be perceived as proof that we have a rich folk culture, folklore and traditions.

Keywords: *Western Azerbaijan, Iravan, Nakhchivan, Amasya, wedding, custom, ritual*

QƏRBİ AZƏRBAYCANIN TOY ADƏT-ƏNƏNƏLƏRİ

Almaz ŞABANOVA
almaz.yaver@gmail.com
Bakı Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın, xüsusilə İrəvan bölgəsi və Zəngibasar mahalının toy adət-ənənələri, mərasimləri və ritual xüsusiyyətləri etnoqrafik və folklor kontekstində araşdırılmışdır. Qeyd olunur ki, Qərbi Azərbaycan qədim türk milli-mədəni dəyərlərinin uzun müddət qorunub saxlandığı zəngin folklor mühitlərindən biridir. Toy mərasimləri bölgə insanının həyat tərzini, dünyagörüşünü, mənəvi dəyərlərini və etnoregional yaddaşını əks etdirən mühüm mədəni hadisə kimi təqdim edilir. Araşdırmada toyun bütün mərhələləri – elçilik, nişan, xınayaxdı, gəlin köçürmə, duvaq mərasimi və toy sonrası ənənələr ətraflı şəkildə təsvir edilmişdir. Toy mərasimlərində ağsaqqal və ağbirçəklərin rolu, musiqi və rəqs ənənələri, xüsusilə yallı rəqsi, aşıq sənəti, zurna və nağara müşayiəti ilə keçirilən mərasimlər geniş şəkildə təhlil olunmuşdur. Eyni zamanda "şax bəzəmə", gəlinin başına alma atılması, lavaş və qənd ritualı, qırmızı kəmər bağlanması kimi qədim inanclar və simvolik məna daşıyan adətlər diqqətə çatdırılmışdır.

Məqalədə toy mərasimlərinin yalnız ailə hadisəsi deyil, bütöv el-obanın iştirak etdiyi sosial-mədəni hadisə olduğu vurğulanır. Qərbi Azərbaycanın müxtəlif bölgələrində toy adətlərində müəyyən fərqlər müşahidə olunsa da, onların ümumi Azərbaycan toy mədəniyyəti ilə ortaq cəhətlər təşkil etdiyi göstərilir. Müəllif qeyd edir ki, bu mərasimlər bölgənin coğrafiyası, həyat tərzi və tarixi yaddaşı ilə sıx bağlıdır və xalqın etnoregional özünüifadə forması kimi mühüm əhəmiyyət daşıyır.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, Zəngibasar, toy, mərasim, adət-ənənə*

İrəvan və çevrəsi qədim türk milli adət-ənənələrinin uzun müddət konservativ şəkildə qorunduğu, kənar təsirlərə az uğramış olması ilə də seçilir. Ümumiyyətlə, Qərbi Azərbaycan, o cümlədən İrəvan bölgəsi mövsüm və məişət mərasimləri ilə çox zəngin folklor regionudur. Bu mərasimlər bölgə insanının minillər boyunca təbiət və zamanla iç-içə yaşam modelləridir. Bu cəhətdən regionun mərasim nəğmələri, əslində, bölgə insanının etnoregional yaddaş salnamələridir.

Qərbi Azərbaycanda toy ənənəsi zəngin bir etnoqrafiyadır. Bu etnoqrafiya nəsillərdən-nəsillərə ötürülürdü. Təəssüflər olsun ki, nağıl kimi keçirilən toylarımız zaman-zaman öz dəyərini itirir. Ancaq bu dəyərlər yaşadılmalı dəyərlərdir.

İrəvanın toy adətləri isə ümumilikdə Qərbi Azərbaycanın digər bölgələrindəki və ümumilikdə Azərbaycanın fərqli bölgələrindəki toy mərasimlərindən az şeylə fərqlənsə də, regiona xas spesifik xüsusiyyətlərdən də xali deyildi. Xüsusilə keçən əsrin 60-cı illərindən 1988-ci il deportasiyasına qədər toy adətlərində xeyli dəyişikliklər olmuşdu. Küçələrdə böyük çadır qurular, toy şənliyi axşamdan gecə yarısına qədər çəkərdi. Məclisdə əvvəllər aşıqlar, sonralar isə daha çox müğənnilər iştirak edərdilər. Toylarda məclisi hörmətli ağsaqqallar idarə edərdilər. Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrində toy adətlərində müəyyən fərqlilik özünü göstərirdi. "Vedidə keçmişdə ən azı yeddi gün-yeddi gecə toy olardı. 1950-ci illərdə bu, üç gün-üç gecəyə qədər qısaldılmışdı. 1970-1980-ci illərdə isə hər toy ancaq iki gün (adətən, həftənin şənbə və bazar günləri) çalınardı. Həm də toyu oğlan evi edərdi, ayrıca qız toyu olmazdı.

Qədim dədə-babalarımızın adət-ənənəsi ilə el-şənliyi kimi keçirirdik toylarımızın başlanması elin şənliyinə səbəb olurdu. Ta ki, yun çırpılıb, yorğan-döşək sıranıb, hazırlanana qədər el ağbirçəklərinin xeyir-duası alınırdı. Toyun əvvəlindən-axırına kimi əməyi keçən hər kəsdən toyun sonunda halallıq alınırdı. Toy onda gözəl olurdu ki, dədə-baba ocağında adət-ənənə ilə edilirdi. Bu gün İrəvan bölgəsində olan toyların yenidən bərpa olması bizim özümüzün-özümüzə qayıtması deməkdir.

Bizim adət-ənənəmizdə elçilikdən öncə bir sınama var idi ki, elçi düşülən qızın ayağının düşərli olub-olmaması üçün el arasında deyirdilər ki, get o adamın qapısından bir qara daş gətir həyətimizə qoy görək, bunun düşərliliyi olacaq ya yox. Əgər işlər 10-15 gün ərzində avand, qaydasında gedirsə, düşünülürdü ki, hər şey yaxşı olacaq.

Toydan əvvəl oğlan evinin ağsaqqalları ilə qız evinin ağsaqqalları oturub, xərc-xörək deyilən bir sövdələşmə edərdilər. Qız atasına çatacaq başlıq (süd pulu), qız evinin toy xərci (kəbin çörəyi üçün) və s. müəyyənləşdirilərdi.

Toylarımızda gəlinin, bəyin, sağdıç və solduçun geyimi xüsusi olardı. Hətta gəlini aparan at belə

bəzənər, boynuna ağ yaylıq bağlanardı. Bizim toylarımızda qadınların geyimi də fərqli olardı. Xanımlarımız həmişə ağız nahiyyələrinə yaşmaq çəkərdilər. Gəlinin üzü həmişə örtülü olardı, duvağı salınardı başına. Heç kəs gəlinin üzünü görə bilməzdi. Elə ki, gəlin evdən çıxarılırdı, həmin vaxt molla gəlib kəbini kəsməli idi. Elə ki, molla evdən çıxdı, artıq toyçular başlayırdı həzin musiqi çalmağa ki, gəlinin anası kövrəlib ağlasın bu da bir adət idi. Bu yaxşı mənada idi ki, ana qızını xoşbəxtliyə doğru yola salır. Gəlini atla aparmaq da qədim adətdən idi. Qız evindən oğlan evinə gedəndə də sürəkçilər olardı at sürərdilər. Burada da bir deyim vardı - atını kim sürüb tez getsə idi ona pul verilirdi. Onda kəndin uşaqları qaçıb dağlara çıxırdı ki, görsün kimin atı daha tez gedib çatacaq. Ən əsası da ki, nişanlı qızlar dağa çıxardı ki, görsün at sürəkçiləri içərisində onun nişanlısı sürüb keçə biləcəkmi?

Gəlin bəy evinə gəldikdən sonra oturması üçün mütləq qayınatası gəlib, deməli idi ki, ay gəlin otur sənə bir inək bağışlayacam. Sonra gəlin oturarmış. Kəndlərimizdə, əsas da Göyçədə toy olacağı günü təyin ediləndən sonra zurnaçılar kəndin başından başlayacaqdı toy mahnılarını çalmağa, qonum-qonşu, qohumu da yığacaqdı qabağına ta ki, kəndin axırına kimi çalıb oynayacaqdılar. Bu zaman toyçulara pay tutular, pul verilərdi. Bütün el-oba şənlənərdi. Toylarımızın gözü idi aşıqların gəlişi. Elə ki, aşıq toya gəldi qız-gəlin, qoca-cavan o toyun ətrafına dövrə vurub baxardılar. Toylarda aşıqların xeyir-dua verməsi, ustadnamələr oxuması vacib idi. Ona görə Qərbi Azərbaycanda toylar aşıqsız ola bilməzdi. Ən maraqlısı da o olurdu ki, aşıqla camaat arasında dastanlar deyilirdi. Elə olurdu bu dastanlar 4-5 gün çəkirdi. Toy sahibi bu dastanın başa vurulması üçün toy məclisini davam etdirirdi. Məclisin sonu yemək süfrəsi açılırdı. Toy məclisində hər kəsin özünəməxsus oyun havası, oyun növü vardı. Demək olar ki, toyumuzun əsasını da yallı rəqsi təşkil edirdi. İlk yallını toyu edən evin ağsaqqalı başladardı, sonra oğul-qız, gəlin, cavan-uşaq qoşulardı bu oyuna. Bizdə yallı qol-boyun olaraq oynanılar. Yallı rəqsini edən hər kəs öz səmimiliyini, sevincini bildirmiş olardı. Toylarımızın bir adəti də bəyin oğurlanması idi. Bu vaxt sağdıç və solduça əsas diqqət düşürdü. Qohumlar çalışırdı ki, hər ikisinin başını qatıb, bəyi oğurlasınlar. Əgər bəy oğurlansaydı, sağdıç və solduçun üzərinə nəmər düşürdü. Sabah bəyi oğurlayanlara quzu kəsib qonaqlıq verməli idi [4].

İndiki toylarda gəlini çırağın başına fırladırlar. Amma Qərbi Azərbaycan toylarında gəlini ya ocağın ya da təndirin başına döndərirdilər. Bu, gəlinin öz evindən, ocağından xeyir-dua alması və köçdüyü ocağa aparması demək idi. Toyun əvvəlindən axırına qədər gəlinin üzü duvaq ilə örtülü olurdu. Heç kim gəlinin üzünü görməzdi. Ata evindən köçərkən gəlin özü ilə çörək, sandıq, eyni zamanda bir qazan halva aparardı. Bu, şirinlik əlaməti idi. İndi bu adət-ənənələr bir qədər dəyişib. Bundan əlavə, qız ata evindən gedəndə onun əlinə pul qoyub dəsmalla bağlayardılar [4]. Yəni qız özü ilə getdiyi ocağa ruzi-bərəkət aparsın. Digər adətimiz də bu idi ki, gəlinin böyük qardaşı gəlini köçürdəndə belinə qırmızı kəmər bağlayar. Gəlin gedəndə zurnaçılar ağlamalı hava çalardılar ki, ana balasından ayrıldığı üçün kövrəlsin. Nə qədər mənəm-mənəm deyən ana da olsa, o havanın təsirindən kövrəlirdi.

Keçmişdə oğlan evi bəzən gəlini uzaq yerdən gətirərdi. Həmin dövrlərdə də at nəqliyyat vasitəsi kimi aparıcı rol oynayırdı. Ona görə də Qərbi Azərbaycanda da gəlini atla gətirərmişlər. Toy günü müjdə yastığı verilirdi at sürənlərə. At sürənlərdən özünə əmin olan gənc yastığı aldığı kimi kimsəyə vermədən qaçırıb çatdırırdı oğlan evinə. Bu o demək idi ki, gəlinin bəy evinə gəlməyinə çox az zaman qalıb. Həmin atı çapan gənc nəmər alırdı. Gəlin bəy evinə yaxınlaşanda atdan yerə düşər ayaqqabısını çıxarar, evə piyada ayaqqabısız gələrdi [5]. Bunun mahiyyəti də o idi ki, ayaqqabını el arasında darlıq əlaməti bilirdilər. Burdan da bu məna çıxırdı ki, gəlin darlıqdan çıxmaq istəyir, ailəyə xoşbəxtlik gətirmək istəyir. Gəldiyi ailənin gün-güzəranını xoş görmək istəyir, pis gün istəmir. Gəlin elə ki, gəlib qapıya çatdı onun qarşısında yerə sərilmiş lavaşlar və qəndlər olurdu. Gəlin bir-bir o lavaşları yerdən yığaraq sol qolunun üstünə qoyur, qəndləri də yığmağa başlayır. Bu da o demək idi ki, gəlin bu evə ruzi-bərəkətlə gəlir. Lavaş bərəkət anlamında, qənd isə şirinlik mənasında qoyulurdu. Bu adəti də xoşbəxtliyin əsası bilirdilər.

"Şax bəzəmə" adəti - bu adət Qərbi Azərbaycan nahiyələrində, Türkiyənin şərq bölgələrində (xüsusilə Qars və Tokat, Amasya, Ağrı, Muş və Ərdahan kimi vilayətlər) və Naxçıvan şəhərində geniş yayılmış adətdir. Kralın devrilməsi kimi də tanınan "şah bəzəyi" ənənəsi 17-ci əsrə gedib çıxır. Toy günü kişinin evində "Şax" hazırlanıb bəzədilir. Üzərinə alma, konfet, şokolad kimi hər cür şey, ağlına gələn quru yemək yerləşdirilir. Şaxın üstündə asılan şeylər ağıza şirin dad, bolluq və şirinlik gətirmək məqsədi ilə edilir. Bəy isə hazırlanmış şax ağacını başının üzərinə qaldıraraq nağara və tütəklərin müşayiəti ilə təqdim edir və sonra bəylə gəlini şadlıq evinə aparırlar. Əvvəllər şaxın üzərinə o qədər şey asırdılar ki, onu daşımaq çox çətin olurdu. Bunu da qeyd edim ki, bu adət hələ də davam edir. Təəssüf ki, indi o qədər çox şirinlik ərzaq qoyulmur. Bəyin gəlinin başına alma atma adəti - burada toy günü gəlin evdən çıxarkən bəy damın üzərinə çıxardı. Sonra isə gəlinin başına alma atardı. Gəlin çox vaxt ziyan zədə gəlməsin deyə başının üstündə sini tutardı [6]. İndi isə gələk bu adətin səbəbinə. Bəyin gəlinin başına alma atmağının səbəbi gəlinin gəldiyi ocağa xeyir və bolluq

gətirməsidir. Beləliklə, gəlinin dünyaya gətirdiyi övladın da xeyirli olacağına inanılırdı. Gəlin evdən çıxarkən arxası ilə konfet atardılar. Bu isə getdiyi ocağa bolluq bərəkət gətirsin deyə idi.

Bunu da qeyd etmək lazımdır ki, Qərbi Azərbaycan toylarının xüsusi yallısı da var. Və bu adət hələ də davam edir. Demək olar ki, yallı rəqsi Qərbi Azərbaycan toylarının bəzəyidir.

Elə ki, toy bitdi bəy gecə solduç və sağdıçın evinə getməli idi. Bu da o demək idi ki, sağdıç və solduç bəy-gəlin üçün şah bəzəməli idi. Nə demək idi "şah"? Deməli, sağdıç və solduç ikisi də şah bəzəyirdi, ağacın budaqlarından hazırlanan şah bəzən bir metr boyunda olurdu. Bu budaqlar şirniyyatla mer-meyvə ilə, şokolad-konfetlə bəzədilirdi. Bu o qədər ağır bəzədilirdi ki, bəlkə də həmin şahda 40-50 kiloqram şirniyyat olurdu. Şahın baş hissəsinə bişmiş xoruzu taxırdılar. Bunun da simvolik mənası vardı. Bu sağdıc və solduc arasında rəqabətə girilirdi. Görəsən, hansı daha yaxşı şah bəzəyəcək. Hətta yaxşı şah bəzəyən nəmər alırdı. Bu şah ən son gəlirdi gəlin və bəyin otağına. Gəlinlə bəy ancaq şahdan şirniyyat götürə bilərdi. Şahı xüsusi qoruyurdular ki, heç kim ordan konfet qoparmasın. Şah evə gətirilən zaman şahın arxası ilə qız evinin adamı olardı, onlar əllərində şam yandıraraq gələrdilər.

Qərbi Azərbaycan mahallarından olan Zəngibasar mahalının elat həyatı ilə bağlı bu məqama ona görə xüsusi diqqət yetirdik ki, folkloru, ilk növbədə, "xalqın adət-ənənələrini əks etdirən incilər xəzinəsidir" [1, 5]. Bu adət-ənənələrin formalaşmasına da xalqın həyat və məişət həyatı birbaşa təsir edir. Bu baxımdan mərasim folkloru xüsusi diqqət çəkir. Mərasim folkloru deyəndə ilk yada düşən toy mərasimi olur. Professor M.Təhmasib demişkən: "İnsan həyatında ən sevincli və unudulmayan hadisə toydur. …onun ta ilk elçiləmə günündən duvaqqapma gününə qədər xüsusi mərasimləri vardır" [2, 100]. Bütöv Azərbaycan ərazisində toy mərasiminin ümumi və müştərək cəhətləri nə qədər çox olsa da, tarixi, etnik və coğrafi əlamətlərə görə hər bölgənin bir sıra özünəməxsus xüsusiyyətləri də Sumqayıt Dövlət Universiteti – "Elmi Xəbərlər"– Sosial və humanitar elmlər bölməsi Cild 13 № 4 2017 48 vardır ki, bütün bunlar bir yerdə ümum-Azərbaycan mədəniyyətinin mənzərəsini təşkil edir. Qərbi Azərbaycanın Zəngibasar mahalında (o cümlədən bütün İrəvan çuxurunda) da toy mərasimlərinin bir sıra özünəməxsus cəhətləri vardır [3, 58-67]. Zəngibasar mahalında toy mərasimləri, adətən, payızda – el yaylaqdan qayıtdıqdan sonra keçirilərdi. Burada toyun bünövrəsi bəzən beşikdə qoyulurdu. Başqa sözlə, göbəkkəsdi adəti geniş yayılmışdı. Yəni qız uşağı dünyaya gələndə onun göbəyini kiməsə kəsirdilər. Qız böyüyəndə ad olunduğu, başqa sözlə, göbəkkəsdisi (və ya göbəkkəsməsi) olan oğlana ərə getməli idi. Şübhəsiz ki, bu məsələdə hökm yox idi. Uşaq vaxtından bir-birinə göbəkkəsdi olanlar heç də həmişə bu adətə əməl etmirdilər. Xatırladırıq ki, bu milli adət "Kitabi-Dədə Qorqud" dastanlarında da qabarıq şəkildə özünə yer almışdır. Göbəkkəsdidən başqa, deyikli adəti də geniş yayılmışdı. Bu, uşaq vaxtından qızı kiməsə ad eləmək adəti idi. Ona görə də göbəkkəsməsi və ya deyiklisi olan qızlara elçi getməyi heç kəs ağlına belə gətirməzdi. Bu, kiminsə nişanlısına elçi düşmək kimi bir iş idi və, təbii ki, ciddi düşmənçiliyə səbəb olardı. Yalnız bu göbəkkəsdi və ya deyikli məsələsinin baş tutmadığı (qızın getmədiyi, oğlanın almadığı, valideynlərin razı olmadığı və s.) təqdirdə başqaları qıza elçi gedərdilər.

İrəvan çuxurundakı bütün toylar kimi, Zəngibasar mahalında da keçmişdə toylar qara zurna, ney və nağara ilə keçirilərdi. Zəngibasar mahalında toy mərasimi, adətən, cüt günlər, bəzən də cümə günləri başlayar və üç gün davam edərdi. Mahalın müxtəlif kəndlərində bu mərasim, onun ayrı-ayrı mərhələləri qismən fərqli şəkildə olsa da, bir-birinə oxşar idi. Məsələn, Uluxanlıda toyun birinci günü xına gecəsi olurdu. Gündüzdən mal kəsilirdi. Oğlan evində bir qədər toy çalınandan sonra kənddə həmin toydan qabaq sonuncu təzə gəlinin qapısına gedir, orada çalıb-oynayır, həmin gəlini toya dəvət edirdilər. Axşam oğlan evindən qız evinə xına xonçası aparılır, burada xınayaxdı mərasimi icra olunur, çalınır, oynanır, sonra həmin xınadan götürüb, oğlan evinə qayıdır, xınayaxdı mərasimini burada da davam etdirir, gecə saat 11-12-yə qədər çalıb-oynayır, yeyib-içirdilər. Sonra başlayırdı bəy tərifi. Bu da çəkirdi gecə saat 2-yə kimi. Mağarı toybaşı idarə edərdi. O, meydanı genişləndirmək üçün əlindəki çubuğu adamların ayaqları ucundan yerə çəkər, hamını geri çəkilib meydanı genişləndirməyə vadar edərdi. Toybaşı gəlinləri, qızları, qonaqları növbə ilə oynadardı. Yallı bu toyların sevimli oyunu idi. Yallının başını əlində dəsmal və ya çubuq tutan şəxs – yallıbaşı çəkərdi. O, əlindəki yaylığı yuxarı qaldırıb dabanını yerə əvvəl ehmalca vurar və qara zurnanın sədası altında yavaş-yavaş sürətini artırar, sonra vəcdə gəlib, ritmə uyğun hərəkətlərlə dəstəni çəkib öz arxasınca aparardı. Yallı geri dönəndə sonuncu şəxs yallıbaşını əvəz etmiş olurdu. Yallıdan başqa, toylarda haxışta, mirzəyi, ləzgiyi, şalaxo, tərəkəmə, süleymani, qazı-qazı və b. havalar da tez-tez oynanardı. Köçəri rəqsi də Yallının bir növü idi. Gəncliyi bu oyunların içində keçmiş professor S.Şükürov toylardakı Köçəri və Bətulla rəqslərini təsvir edərək yazır ki, köçəri oynayanlar iki kiçik addımdan sonra atdıqları üçüncü addımda dizlərini azacıq qatlayar, çökərmişlər. Buna görə də bu rəqsə əvvəllər çökəri demiş, ç və k hərflərinin yerdəyişməsi nəticəsində sonralar o, köçəri şəklinə düşmüşdür. Köçəridən sonra Bətulla rəqsinə keçilərmiş. Bətullada qol-qola tutar, hər addımdan bir dizlərini bükər və irəliyə doğru tullanardılar. Bətulla sürət və çeviklik tələb etdiyindən onu cavanlar

oynayardılar. Ehtimal elmək olar ki, Bətulla ilkin variantında "bərktullan" (yerli dialektdə bərk sözü bərt kimi tələffüz olunur) şəklində olmuşdur. Üçayaq rəqsində isə üç addımdan sonra sağ və sol ayağın əvvəl ucunu, sonra dabanını yerə toxundurur, yenidən irəliyə doğru üç ağır addım atırdılar. Toyçular, yəni toyu aparan musiqiçilər, adətən, şabaşa gedərdilər. Şabaş nə yığılsa, onların olar, razı qalardılar. Keçmişdə tez-tez toya aşıqlar da dəvət olunardı. Toyun ikinci günü səhər tezdən xaş süfrəsi açılar, bura xeyli adam yığılar, yeyib-içərdilər. Xaşdan durandan sonra musiqiçilər bir-iki saat dincələr, sonra muğam saatına başlayardılar. Muğam saatı gəlin gətirməyə gedənə qədər davam edərdi.

Gəlini başı örtülü, piyada (keçmişdə atla) gətirərdilər. Əvvəllər gəlin həyətə daxil olanda bəy başının dəstəsi ilə onu qarşılayar, gəlinin başına meyvə, adətən, alma atardı. Gəlinin başını incitməsin deyə alma əvvəldən dilimlənmiş olar, dəyən kimi paralanıb dağılardı. Deyilənə görə, bu paralanmanın birin çox olmaq, oğullu-uşaqlı olmaq kimi rəmzi mənası da varmış. Bununla belə, gəlinin başına sini də tutardılar ki, atılan alma dəyəndə incitməsin. Son vaxtlar meyvə əvəzinə gəlinin başına şirniyyat, qəpik pul atardılar. Həyətə daxil olan gəlinin ayağının altında mütləq qurban kəsilərdi. Gəlin aparıldığı evdə oturmazdı. Ta ki, qayınata və ya qayınata əvəzi şəxs gəlib ona hədiyyə (inək, düyə, at, qoyun və ya qızıl əşya) boyun olmasaydı. Sonralar da gəlin ər evində uzun illər böyük qayınla, qayınata və bəzən də qayınana ilə danışmağı özünə ar bilərdi. Onlar gəlinin səsini eşitməzdilər. Gəlin yaşmaqla gəzərdi. Gəlini gətirəndən sonra toyun əsas məclisi başlayardı. Bu məclisdə ancaq kişilər oturardı, qadınlar, uşaqlar olmazdı. Məclisdə içənlərlə içməyənlər də ayrı-ayrı əyləşərdilər. Axşam saat 9-10-da məclis qurtarandan sonra meydan açılar, arvad-uşaq yığılar, toy yenidən qızışardı. Yenə də gecə saat 1-2-yə qədər çalıb-oynayardılar. Səhərisi gün duvaq məclisi olardı, ora da ancaq qadınlar yığılardı. Duvaqdan sonra toy bitmiş hesab olunardı. Toy evinə ərki çatan qohum-dost cavanlar toydan sonra da bir həftə gedib-gələr, buna zarafatla "qazandibi" deyər, olub-qalandan yeyib-içərdilər. Zəngibasarın bəzi kəndlərində isə toyun birinci günü çal-çağır məclisi axşam saat 5-dən gecə yarısına qədər çəkər, kəndin sonuncu gəlininin çalğı ilə toya dəvət edilməsi, qız evindən toy xonçasının gətirilməsi, bu xonçanın tərif edilməsi, parça biçimi, xınayaxdı mərasimi toyun ikinci günü həyata keçirilərdi. Üçüncü gün toy qız evinə köçər, gəlini axşam saat 5-6-da gətirərdilər. Bundan sonra oğlan evində yeyib-içmək məclisi başlayar, bu məclisin başa çatması ilə toy da qurtarardı.

Beləliklə, Qərbi Azərbaycan bölgəsinin adət-ənənələri, mərasimləri zəngin etnoregional spesifikaya malikdir. Bu özünəməxsusluq avtoxton həyatla müəyyənləşir. Başqa sözlə, Qərbi Azərbaycan mərasimləri bütün struktur elementləri ilə bölgəyə bağlıdır: bölgənin təbiəti, relyef spesifikası, havası, suyu bu mərasimlərin quruluşunu, tərkib elementlərini, regional koloritini şərtləndirmişdir. Bu da öz növbəsində Qərbi Azərbaycan folklor mühitində mərasimləri etnoregional özünüifadə və davranış fonnulları kimi səciyyələndirməyə imkan verir.

ƏDƏBİYYAT

1. Xürrəmqızı, A. Azərbaycan mərasim folkloru. Bakı: Səda, 2002, 270 s.
2. Təhmasib, M. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı: Mütərcim, 2010, 488 s.
3. Azərbaycan folkloru antologiyası, 10-cu kitab, İrəvan çuxuru folkloru. Bakı: Səda, 2004, 552 s.
4. https://www.manset.az › news › qerbi-azerbaycan-xronikası-Toy adətləri
5. https://ikisahil.az › post › Qerbi-azerbaycanin-toy mərasimləri
6. https://edebiyyatveincesenet.az › gundem ›-Qərbi Azərbaycan toy adətləri

ABSTRACT

Almaz SHABANOVA

WEDDING TRADITIONS OF WESTERN AZERBAIJAN

The article examines the wedding traditions, ceremonies, and ritual characteristics of Western Azerbaijan, particularly the Iravan region and the Zangibasar district, within an ethnographic and folkloric context. It is noted that Western Azerbaijan is one of the rich folklore regions where ancient Turkic national and cultural values have been preserved for a long time. Wedding ceremonies are presented as significant cultural events reflecting the lifestyle, worldview, moral values, and ethno-regional memory of the people of the region.

The study provides a detailed description of all stages of the wedding ceremony, including matchmaking, engagement, henna night, the bride's departure to the groom's house, the veil ceremony, and post-wedding traditions. The roles of elders, musical and dance traditions, especially the yalli dance, ashug art, and ceremonies accompanied by zurna and drum performances are extensively analyzed. In addition, ancient beliefs and symbolically meaningful customs such as the "decorating the shah" tradition, throwing an apple at the bride, rituals involving lavash bread and sugar, and tying a red belt around the bride are highlighted.

The article emphasizes that wedding ceremonies were not merely family events, but important socio-cultural occasions involving the entire community. Although certain differences existed among wedding traditions in various regions of Western Azerbaijan, their common features with the broader Azerbaijani wedding culture are underlined. The author notes that these ceremonies are closely connected with the geography, lifestyle, and historical memory of the region and represent an important form of ethno-regional self-expression of the people.

Keywords: *Western Azerbaijan, Iravan, Zangibasar, wedding ceremonies,*

QƏRBİ AZƏRBAYCANIN TARİXİ ABİDƏLƏRİ VƏ MƏDƏNİ İRSİNİN QORUNMASI MƏSƏLƏLƏRİ

Ruhiyyə RZAYEVA
rzayeva.ruhiyye.001@gmail.com
ORCID iD: 0009-0004-0127-1264
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Azərbaycan müstəqillik əldə etdikdən sonra tariximizin bir çox dövr və mərhələlərinə, əsasən də sovet imperiyasının hakim olduğu illərdə xalqımızdan gizlədilən tariximizin bir sıra sahələrinin öyrənilməsinə maraq artmışdır. Arxivlərə üz tutulmuş, ermənilərə "bəxş olunan" torpaqlar, adları dəyişdirilmiş toponimlər, adları dəyişdirilə bilmədikdə talan edilib dağıdılmış tarixi abidələrimiz barəsində məlumatlar yenidən işlənib xalqın nəzərinə çatdırılmışdır. Azərbaycan mədəni irsinin böyük bir bölümü – çox saylı abidələr Qərbi Azərbaycan - indiki Ermənistan ərazisindədir. Təəssüf ki, bu irs bugünədək hələ də lazımi səviyyədə öyrənilməyib. Qədim Azərbaycanın ayrılmaz hissəsi olan, bu gün "Ermənistan" adlanan Qərbi Azərbaycanın mədəni irsinin, burada ucaldılmış tarixi və mədəniyyət abidələrinin alimlərimiz tərəfindən tədqiq edilməsinə, əsl sahiblərinin kimlərin olmasının aşkar edilməsinə Ermənistan hökuməti heç bir zaman imkan verməmiş, şərait yaratmamışdır. Ona görə də həmin tarixi abidələrin yaranması tarixini, bu abidələrin hansı mədəniyyətə aid olduğunu sübüt etmək illər, əsrlər keçdikcə daha da çətinləşir. Qədim ərazilərimizdə yerləşən abidələrin tədqiq olunaraq geniş oxucu auditoriyasına çatdırılması günümüzün ən aktual məsələlərindən biridir. Mənfur qonşularımız olan ermənilər zaman-zaman ələ keçirdikləri torpaqlarımızda türkmənşəli toponimləri dəyişdirərək ermənileşdirmiş, tariximizi saxtalaşdırmağa, mədəni irsimizi özlərininkiləşdirməyə və dünya ictimaiyyətinə erməni abidələri kimi tanıtmağa çalışmışlar. Cənubi Qafqazda yerləşən Azərbaycan hər zaman diqqət mərkəzində olmuşdur. Dünyanın müxtəlif yerlərindən gələn ticarət karvanlarının, səyyahların və ziyarətçilərinin diqqətini çəkmişdir. Bununla bərabər, tez-tez düşmən hücumlarına məruz qalmış, zaman-zaman ərazilər işğal olunmuşdur. Bu hücumların qarşısını almaq məqsədilə ərazidə bir çox qalalar, istehkamlar, müdafiə sədləri tikilmişdir. XIX əsrin əvvəllərindən başlayaraq kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülən erməni vandalları, sistemli şəkildə memarlıq abidələrimizə qarşı mədəniyyət terroru gerçəkləşdirməyə başlayırlar. Ancaq bu çox ciddi və qorxulu problemə uzun illər heç bir reaksiya verilməyib. Ermənilər Azərbaycan-türk memarlıq irsinə qarşı ən iri terror əməliyyatlarını İrəvan şəhərində aparıblar. İrəvanda 1827-ci il rus işğalından sonar başlanan bu əməliyyatlar indiyədək davam etməkdədir.

Açar sözlər: *Qərbi Azərbaycan, tarixi abidələr, mədəni irs, etnik torpaqlar*

Giriş

SSRİ dağıldıqdan və Cənubi Qafqazda müstəqil dövlətlər yarandıqdan sonra ermənilərin Azərbaycan torpaqlarına iddiası tarix boyu yaşanan işğalların ən yüksək həddinə çatmışdır. İşğal etdikləri ərazilərdə tarixi və mədəni abidələrimizin saxtalaşdırılması, mənimsənilməsi, mənimsənilə bilməyən abidələrin, yaşayış məntəqələrin, dini-tarixi abidələrin dağıdılması nəticəsində xalqımızın tarixinə, mədəni irsinə zərbələr vurulmuş, xalqımızın haqqı tapdalanmışdır. Ta qədimdən bu torpaqların sahibləri olduqlarını və özlərinin burada əbədi yaşamaqlarının təminatı üçün Azərbaycan-türk izlərinin buradan silinməsini yetərli hesab edən ermənilər, tarixi həqiqətlərə məhəl qoymayaraq "Böyük Ermənistan" yaratmaq xəyalını "həqiqətə" çevirməyə çalışmışlar.

Lakin bu torpaqların həmişəlik erməni tapdağı altında qala bilməyəcəyini Azərbaycan xalqı və Ordusu 44 günlük Vətən müharibəsi zamanı qazandığı qələbə ilə sübüt etdi və öz haqqını özünə qaytardı. Bu gün Azərbaycanın maraqları onun haqqı ilə hesablaşdırılır. Ərazilərimizin qaytarılması, ermənilərə, bu gün Qərbi Azərbaycan torpaqlarının da qaytarılmalı olduqları təhlükəni hiss etdirir.

Əfsuslar olsun ki, ermənilərin törətdikləri vəhşiliklərə nə keçmişdə, nə də indi düzgün siyasi qiymət verilməmişdir. Rusiyanın imperiya müstəmləkəçilik siyasəti nəticəsində ermənilərin əli ilə Azərbaycan mədəniyyətinə, mənəviyyatına zərbələr vurulmuş, tarixi və mədəniyyət abidələri saxtalaşdırmalara və dağıntılara məruz qalmışdır. Rusiyanın Azərbaycan əhalisini itaət altında saxlamaq və hökmranlıq etmək, eləcə də ermənilər öz məqsədlərini həyata keçirmək üçün daha artıq səy göstərmiş, yaradılmış əlverişli şəraitdən

istifadə edərək Azərbaycan xalqına qarşı düşmənçilik niyyətlərini reallaşdırmış, onun mənəviyyatına, iqtisadi və siyasi maraqlarına zərbələr vurmuşlar. Azərbaycanın tarixi abidələrinin izlərini tamamilə silmək, onun ictimai-siyasi, mənəvi ənənələrini məhv etmək, özlərini buradakı mədəni irsin varisi kimi qələmə verməklə öz mövcudluqlarını əbədiləşdirmək üçün ən müxtəlif vasitələrdən istifadə etmişlər.

Tarix boyu arasıkəsilməz hərbi yürüşlər, müharibələr nəticəsində çoxsaylı maddi mədəniyyət nümunələrinin bir hissəsi ermənilər tərəfindən məhv edilsə, digər hissəsi isə ermənileşdirilərək mənimsənilsə də, daşlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək onlara heç də həmişə nəsib olmamışdır. E. ə. V-II minilliklərə aid Soyuqbulaq və Qarakilsə qayaüstü təsvirləri ilə Qobustan və Altaydakı qayaüstü təsvirlər arasındakı oxşarlıq, Nüvədi-Qarqadaşı yazıları ilə Orxon-Yenisey kitabələrinin dil və əlifba eyniliyi, qədim qala, saray və məbədlərin müxtəlif tarixi mənbələrdə əbədiləşən adları bu ərazilərin ən qədim dövrlərdən üzü bəri Türk-Oğuz boylarının ana yurdu olduğuna heç bir şübhə yeri qoymur. Erməni "alimləri", "tədqiqatçıları"na ən yaxşı cavabı elə özlərinin dəyişdirdikləri, lakin neçə-neçə salnamələr, kitablar, xəritələrə düşüb qalan toponimlər verir. 1921-ci ilə qədər türklərə məxsus olan, Zəngi, Sak, Massaget tayfalarının yaşadığı Zəngəzur mahalı kimi.

1828-ci ildən Rusiyanın məqsədli şəkildə ermənilərı bu ərazilərə köçürməsinə qədər onların nə Qarabağda, nə də indi "Ermənistan" adlanan ərazidə bir dənə də olsun tarixi izləri yoxdur. 1836-cı ildə Rusiya imperatorunun Alban məbədlərini ermənilərə bəxş etməsindən sonra, ermənilər burada kilsələr inşa etdilər, sonradan yaradılmış və süni şəkildə köhnəldilmiş xaç daşlarını yerləşdirməklə, məbədlərin arxitekturasını məqsədyönlü şəkildə dəyişərək, onları "qədim erməni abidəsi" kimi qələmə verməyə cəhd edirdilər.

Şimali Azərbaycanın Rusiya imperiyasına daxil edilməsi dövründən Azərbaycanın abidələrinin dağıdılması prosesinə başlanmışdı. Ateizmi əsas götürən sovet hakimiyyəti, xristian abidələrinə münasibətdə loyal siyasət yeritdikləri halda məscidləri, türbələri, ziyarətgahları bağlamış, bəzilərini dağıtmış, bir çoxunu təyinatından xaric istifadə olunması üçün insanları məcbur etmişlər. Rusiya imperiyasının siyasətinin davamı olaraq sovet hakimiyyəti dövründə Azərbaycanın xristian dövrünün tarixinin saxtalaşdırılmasına, alban məbədlərini erməni-qriqoryan məbədi kimi dəyişdirmələrinə hər cür şərait yaradılmış, Alban məbədlərinin ermənileşdirilməsi üçün hər cür dəstək göstərilmişdir. Təsadüfi deyildir ki, sovet hakimiyyəti dövründə Azərbaycanın torpaqları hissə-hissə ermənilərə verilmiş, mədəniyyət sahəsində törədilən erməni təxribatlarına göz yumulmuşdur.

Təəssüflər olsun ki, tarixi abidələrin dağıdılmasında təkcə ermənilərin deyil, 2021-ci il iyunun 31-də Amarasda tikinti və təmir işlərinin maliyyələşdirilməsinə söz verən İran nümayəndələrinin də əli var. Bu barədə rəsmi açıqlama İranın Tarixi Kilsələr Mərkəzinin direktoru Şerli Avetyanın adından verilib. Belə bir bəyanat bütün beynəlxalq norma və konvensiyaların pozulmasına sübutdur. Azərbaycan alimlərinin, mütəxəssislərinin vəzifəsi bu həqiqətləri dərindən araşdırmaq, ermənilərin uzun illər boyu uydurduğu əfsanələri ifşa etmək, əsl həqiqəti ölkə vətəndaşlarının, dünya ictimaiyyətinin nəzərinə çatdırmaq, haqqı bərpa etməyə dəstək olmaqdır.

Hazırda Qərbi Azərbaycan mövzusunun aktuallığı tarixi zərurətdən yaranmış məsələdir. Şərəfli Azərbaycan ordusunun, şəhid və qazilərimizin qanı bahasına 44 günlük Vətən müharibəsində qazanılan Zəfərlə, tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışımız üçün mübarizənin aparılması istiqamətində tarixi şərait yaradılıb.

İlk dəfə tarix elmləri doktoru, professor Süleyman Əliyarlı tərəfindən işlədilmiş Qərbi Azərbaycan termini "Dərələyəz", "Əngölöyüd" (Əgələyüz) yer adlarının sonluğu ilə uzlaşır [6, s 15].

Şimali və Cənubi Azərbaycan terminlərinə alışıq olduğumuz halda "Qərbi Azərbaycan" termini, 1988-ci ildə azərbaycanlıların etnik torpaqlarından - indiki Ermənistandan zorla çıxarıldıqdan sonra daha tez-tez işlədilməyə başladı.

Tariximizin bir parçası olan Qərbi Azərbaycan dedikdə İrəvan və Gümrü şəhərləri, Zəngibasar, Vedibasar, Zəngəzurun Meğri, Görus, Sisyan, Qafan bölgələri, Ağbaba, Göyçə, Dərələyəz, Dərəçiçək və s. bölgələri nəzərdə tutulur.

E.ə. II əsrdən başlayaraq Qərbi Azərbaycan ərazisində yaşamağa başlamış türk tayfaları yerli sakinlər olmuşlar və ermənilər buraya ilk yaşayış yerləri olan İraqdan - Fərat və Dəclə çayının sahillərindən gəlmişlər. Buradakı türk mənşəli toponimlərə, IV-VII əsrdən başlayaraq Qafqaz xalqlarının tarixi ilə bağlı yazılmış əsərlərə istinad edib qeyd etmək olur ki, Qərbi Azərbaycan ərazisində Azərbaycan türkləri indiki "Ermənistan" ərazisində tarixən yaşayan qədim türk tayfalarından biri elə məhz ermənidilli mənbələrdə - xaylantürklər adlandırılmış hunlar olmuşdur [5 s.172].

"Ermənistan azərbaycanlıları yaşayan (1988-ci ilə qədər) bir çox yerlərdə, xüsusilə Basarkeçər, Artaşat (Qəmərli), Amasiya (Ağbaba), Eçmiədzin, Krasnı (Qaraqoyunlu mahalı) və s. Rayonlarda sıx-sıx qoyun

heykəllərinə, qəbir daşları üzərində qoyun, qoyun başı qabartmalarına tuş gəlmək olur" [8, s.142].

Beləliklə, yuxarıda deyilənlər sübut edir ki, İrəvan xanlığı ərazisində yaradılan indiki "Ermənistan"da azərbaycanlılar əsl köklü xalq olmuş, burada doğulub böyümüşlər. XIX əsrin axırları, XX əsrin əvvəllərində İrandan, Türkiyədən, o cümlədən XX əsrin 40-60-cı illərindən Suriyadan, Livandan, ABŞ-dan, Misirdən, Fransadan köçürülərək indiki "Ermənistan" ərazisində yerləşdirilən ermənilər bu torpaqlarda möhkəmləndikcə bu torpaqların qədim Türk-Oğuz əhalisini öz yurdlarından sıxışdırıb çıxarmış, öz etnik torpaqlarında soyqırımına məruz qoymuşlar.

XX əsrin əvvəllərində "Böyük Ermənistan" yaratmaq naminə milyonlarla türkü məhv etmək ideyası istər 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və ən nəhayət, 1988-1991-ci illərdə yüz minlərlə dinc əhalinin erməni-rus silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalması, uşaqların, qadınların, qocaların qətlə yetirilməsi ilə nəticələndi. Bununla yanaşı, evlər, bütöv kəndlər yandırılıb külə dönüb, hətta qəbiristanlıqlar darmadağın edilib.

1918-1920-ci illərdə Qafqazda yaranmış vəziyyətdən istifadə edərək yüz minlərlə azərbaycanlını qıraraq öz yerlərindən qovan ermənilər Cənubi Azərbaycanın bir sıra bölgələrində də bu cür vəhşiliklər törətmişlər.

Erməni vandallarının uzun illər boyu hazırda "Ermənistan" adlandırılan Qərbi Azərbaycan və ölkəmizin digər ərazilərində azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi, yaxud özününküləşdirilməsi beynəlxalq humanitar hüququn, əsasəsən də 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyalarının, YUNESKO-nun 1954-cü il və 1970-ci il Konvensiyalarının pozulmasıdır. 1827-ci il rus işğalı ilə başlanan və bugünədək davam edən, Azərbaycan tarixi-memarlığına qarşı ən iri terror əməliyyatlarından biri İrəvan şəhərində aparılıb.

1504-cü ildə Səfəvilər dövləti zamanında tikilən İrəvan qala şəhər kimi yaradılıb. XVI əsrin II yarısında Səfəvi-Osmanlı müharibələrinin gedişində dağıdılan qalanın divarları Osmanlı sərkərdəsi tərəfindən yenidən inşa edilib. Eni 790 m., uzunluğu 850 m. olan qalanın divarları daşdan və çiy kərpicdən hörülmüşdü. Qalanın bayır divarının hündürlüyü 10 m. olmaqla 17 bürc vardı.

XVII əsrin II yarısında fransız səyyahı Jan Şardenin, XIX əsrin 20-ci illərində məşhur fransız səyyahı və etnoqrafı İvan Şopenin məlumatına görə, yalnız azərbaycanlıların yaşadığı bu qalada 8 məscid, 800 yaşayış evi olub. Şopenin məlumatına görə, 1832-ci ildə İrəvanda 12 məscid qeydə alıb. Bunlara "Came", "Şah Abbas", "Zal xan", "Novruzəli bəy", "Sərtib xan", "Hüseynəli xan" ("Göy məscid"), "Hacı İmamverdi bəy", "Hacı Cəfər bəy məscidləri"ni misal göstərmək olar. Xristian əhali şəhərdən kənarda yaşayırdı və qalaya yalnız gündüzlər ticarət etmək üçün gəlirdilər.

İkinci köməkçi qala olan Keçiqala içqaladan 1 km. məsafədə yerləşirdi. Cənubda Təbriz qapısı, Şimalda Meydan qapısı, Körpüqapısı adlı 3 möhkəm qapıya malik olan İrəvan qalasının 50-60 bürcü olmuşdur. 1827-ci ildə İrəvan qalası ruslar təfindən işğal olunur, 1853-cü ildə zəlzələ nəticəsində ciddi zədə alır, 1930-cu ildə qala tamamilə dağıdılır.

İrəvan şəhəri yaxınlığında Qırmızı təpə yüksəkliyində Teyşebaini allahının şərəfinə e.ə. VIII əsrdə möhtəşəm istehkama malik qala salınmışdır. E.ə. VI əsrə qədər mövcud olan qala Sak, qamar tayfalarla müharibə zamanı dağıdılmışdır.

Oxşar qalalardan biridə Göyçə gölünün sahilində, bir təpədə yerləşən, e.ə. VIII əsrin II yarısına aid edilən Kolagirən və ya Teyşeba adlanan möhtəşəm qala abidəsidir. Tarix boyu Türk-Oğuz tayfalarının yaşadığı qalaya ermənilər yalnız 1830-cu ildən sonra köçürülmüşlər.

E.ə. III-II əsrlərdə inşa olunduğu ehtimal edilən Qərbi Azərbaycanın qədim müdafiə xarakterli abidələrindən biri də Gəmibasar mahalının Göy (Ağmanqan) dağın ətəyində, Ellər (indiki Abovyan) rayonunun Baş Gərni kəndi ərazisində qədim türk qalası olan Gərni qalasıdır. Uzunluğu 314 m. olan qala divarları bürclərlə əhatə olunmuşdu. 1827-ci ildə II Rusiya-İran müharibəsinə qədər öz möhtəşəmliyini qoruyub saxlayan qala bu zaman dağıdılmış, ermənilərin buraya köçməsi təmin olunmuşdur.

Erməni mənbələrində "Baqaberd" adı ilə qeydə alınan Oxçu qalası Zəngəzur mahalının Qafan rayonunun, Oxçu və Gığı çaylarının qovuşuğunda, Novruzyurd adlı hündür təpəliyin üstündə yerləşir. VI-VII əsrlərdə inşa olunmuş bu qala Xustub və Gəzbel dağ zirvələrini bir-birindən ayıraraq Zəngəzurdakı beş Babək qalasından biri hesab edilir. Əhəmiyyətli mövqedə yerləşən qalanın iki tərəfi sıldırım dərə, digər iki tərəfi isə ikiqat divarla əhatələnmişdir. Çoxsaylı bürclərindən dövrümüzə qədər 17-si qalmışdır. Keşikçi qalası olduğu güman edilən başqa bir qalanın qalıqları Oxçu qalası ilə üzbəüz durmaqdadır.

Qıpçaq qalası Şörəyel mahalının Artik rayonunun Qıpçaq (Ariç) kəndində yerləşir. 1201-ci ildə tikilən Qıpçaq məbədini nəzərə alsaq, ehtimal etmək olar ki, qala ən azı XII əsrdə, bəlkə daha əvvəllər inşa edilmişdir. Bu qala ilkin orta əsrlərdə Qərbi Azərbaycan ərazisində məskunlaşmış Qıpçaq türklərinə məxsus olmuşdur.

Qarakilsə rayonu (Sisiyan) ərazisində, Bazarçayın sahilində, Darvaztəpə dağının zirvəsində yerləşən

Şəki qalası - Qərbi Azərbaycan ərazisində eramızdan əvvəl VII-V əsrlərdə məskunlaşan Saka (Şaka, Saklar) adlı türk tayfasının adını qoruyub saxlayıb və qalanın da əsasının saklar tərəfindən qoyulması faktını da sübut edir. Qızıl Arslanla Nizami Gəncəvinin görüşdüyü yer kimi tanınan qala həm də Babək Xürrəmidini yaxaladan Qafqaz alban knyazı Səhl ibn Sumbatın əsas iqamətgahı olmuşdur.

Qədimdən türk xalqlarının yaşadığı Cənubi Qafqaz ərazisi din tarixində müxtəlif mərhələlərdən keçərək, son olaraq İslamla bağlı olmuş və bu mərhələdə ərazisində möhtəşəm məscidlərin, minarələrin inşasına şərait yaratmışdır. İslam ölkəsi olaraq Azərbaycan ərazisində maddi və mənəvi irsin saxtalaşması ermənilər tərəfindən mərhələlərlə aparılmış, işğal olunan ərazilərdə əsasən dini tarixi abidələrimizə qarşı xüsusi amansızlıq nümayiş edilmişdir. Tarixi Azərbaycan torpağı olan indiki "Ermənistan" ərazisində çoxlu sayda tarixi-memarlıq abidələri, karvansaralar, imarətlər, məscidlər, qəbiristanlıqlar, məqbərələr, qəbirüstü abidələr və s. mövcud olmuşdur. Bu məscidlərin bəziləri bir sıra alban abidələri ilə birlikdə erməni vandalları tərəfindən tədricən dağıdılıb və ya ermənləşdirilib. Hər dəfə azərbaycanlılar yaşadıqları ərazilərdən qovulandan və ya deportasiya ediləndən sonra onların izlərini silmək üçün yaşayış məntəqələrinin adları dəyişdirilmiş, dini abidələr məhv edilmiş, qalan memarlıq abidələri dəyişdirilərək erməni mədəniyyətinin nümunəsi kimi təqdim edilmişdir. Sonuncu azərbaycanlılar 1991-ci ildə Ermənistandan qovulandan sonra bu əməllər kütləvi hal almışdır. Mütəxəssislərin təxmini hesablamalarına görə 3500-dən çox tarixi və mədəniyyət abidələri, 500-dən artıq qəbiristanlıq, 400-ə yaxın məscid məhv edilmişdir [7, s. 30]. Araşdırmalar göstərir ki, 1912-ci ilə kimi indiki Ermənistan ərazisinin İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərib. 1915-ci ildə isə İrəvan və Zəngəzur quberniyasının ərazisində məscidlərin sayının artması müşahidə olunub.

Farsların ayağına yazdıqları "Fars məscidi" adı ilə dünyaya təqdim etdikləri Göy Məscid ermənilərin ən böyük peşmançılıqlarından biri olaraq qarşımıza çıxır. Zaman-zaman yandırılmasına baxmayaraq, ayaqda duran məscid 1760-1764-cü ildə tikilmiş və bu günədək salamat qalmış yeganə məsciddir. Eni 66 m., uzunluğu 97, 2 m. olan Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyü və İrəvan şəhərinin mərkəzi Came məscidi idi və digər məscidlərə din xadimləri buradan göndərilirdi. Məscid kompleksi ibadət və din xadimləri üçün yaşayış otaqlarından, qış və yay salonlarından, mədrəsədən və s. tikililərdən ibarət idi. Məscidin minarəsi (3-ü dağıdılmış, yalnız 1-i qalmışdır), çarhovuzlu-fəvvarəli geniş həyəti, zəngin kitabxanası olmuşdur. Məscid XX əsrdə ermənilər tərəfindən iki dəfə - 1918-ci ildə və 1955-ci ilin martında yandırılmışdır.

1606-cı ildə Şah Abbas tərəfindən tikdirildiyindən Abbas məscidi olaraq adlanan məscidin memarı məşhur Şeyx Bahəddin idi. Səfəvi-Osmanlı savaşı zamanı 1604-cü ildə İrəvən qalası azad edildikdən sonra Sərdar sarayının şərqində inşa edilmişdir. 1918-1920-ci illərdə erməni terrorçularının türklərə qarşı soyqırımı zamanı məscid dağıdılmışdır. XX əsrin 40-cı illərində Sovet rejiminin siyasətindən istifadə edən ermənilər məscidi tamamilə dağıtmışlar. Xarici quruluşunda dəyişiklik edilərək, xristian məbədi formasına salınmış, rus provaslav kilsəsinə çevrilmiş məscidlərdən biri də Rəcəb Paşa məscididir. 1827-ci ildə rus qoşunlarının işğalından bir gün sonra məscidin günbəzindəki ay-ulduzu çıxarıb, yerində xaç və kilsə zəngi asılmışdır. Bununla da kifayətlənməyib 1930-cu ildə "kilsə" də sökülərək məhv edilmişdir.

Nəticə

Azərbaycanda mədəni irsin qorunması, öyrənilməsi və təbliğ edilməsi artıq bir ənənəyə çevrilib. Hazırda Qərbi Azərbaycan İcması Ermənistandakı Azərbaycan mədəni irsinin qorunması ilə bağlı imkanlarının artırılması, o cümlədən müasir metodologiya əsasında mədəni abidələrin reyestrinin aparılması, onların vəziyyətinin qiymətləndirilməsi və bərpası üçün lazım olan addımların müəyyənləşdirilməsi üçün UNESCO (YUNESKO) ilə praktiki əməkdaşlığı davam etdirir. XIX yüzilliyin əvvəllərində Cənubi Qafqazın Rusiya, Türkiyə və İran dövlətləri arasında aparılan müharibələrin savaş meydanına çevrilməsi və bu savaşlardan sonra bağlanan sülh müqavilələrinin nəticəsi olaraq minlərlə erməni əhalisinin Azərbaycanın müxtəlif ərazilərində məskumlaşmasına səbəb oldu. O dövrdən başlayaraq İran və Türkiyədən onminlərlə ermənin tarixi Azərbaycan torpaqlarına köçürülməsi ilə bölgədə əhalinin etnik tərkibi dəyişdirildi.

Buraya köçürülən ermənilər "qonaq" olduqları ərazilərdə təkcə müsəlman-türk əhalisinə soyqırımlar təşkil etməklə yetinməyib, xalqımıza məxsus maddi-mədəniyyət abidələrini və tarixi irsimizi ardıcıl surətdə məqsədyönlü şəkildə məhv ediblər. Vaxtilə azərbaycanlıların yaşadıqları bölgələrdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilərin əlinə keçib. Azərbaycanlılara məxsus 223 qəbiristanlıq, 49 məscid, 68 tarixi, 7 memarlıq abidəsi tədricən erməni vandalları tərəfindən dağıdılıb. Mütəxəssislərin bildirdiyinə görə, indiki "Ermənistan" ərazisində, yəni Qərbi Azərbaycanda ermənilər 3500 tarix və mədəniyyət abidələrimizi tamamilə yox ediblər.

İrəvan xanlığının ərazisində yaradılan Ermənistan dövləti xanlığın ərazisindəki türk izlərini silmək üçün

ilk öncə azərbaycanlıları dəfələrlə deportasiyaya məcbur etmişlər. 1918-ci il, 1988-1991-ci illərdə Ermənistandan minlərlə soydaşımız deportasiya edilib, azərbaycanlılara məxsus bütün bölgələrdə, əsasən də İrəvan şəhərindəki türk-müsəlman abidələri, tarixi-memarlıq inciləri erməni vandalizminin qurbanına çevrilib. Təbii ki, Azərbaycan dövləti tarixi torpaqlarımızda xalqımızın tarixi-mədəni irsinə qarşı törədilən cinayətlərin Ermənistanın məqsədyönlü dövlət siyasəti olduğunu dünya ictimaiyyətinə hərtərəfli çatdırmaq üçün həyata keçirdiyi sistemli tədbirləri bundan sonra da davam etdirəcək.

ƏDƏBİYYAT

1. Ağasıoğlu, F. Azər xalqı (seçmə yazılar). Bakı: Ağrıdağ, 2000, 436 s.
2. Axundov, A.A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 1983, 183 s.
3. Arzumanlı, V., Mustafa, N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
4. Azərbaycan tarixi üzrə qaynaqlar (prof. S.S.Əliyarov və dos. Y.M.Mahmudovun redaktəsi ilə). Bakı: ADU, 1989, 328 s.
5. Bünyadov, Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s.
6. Əliyarov, S. "Dədəm Qorqud" kitabında "Boriağız", "Şiröküvəz" anlayışları // Türk dilinə dair etimoloji və tarixi-morfoloji tədqiqlər (elmi əsərlərin tematik məcmuəsi). Bakı: 1982, s. 10-23.
7. İbrahim, Ə. Qərbi Azərbaycanın tarixi və mədəni irsi. Bakı: Rafpoliqraf, 2023, s.100.
8. Seyidov, M.Ə. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1983, 326 s.

ABSTRACT

Ruhiyya RZAYEVA

THE PRESERVATION ISSUES OF HISTORICAL MONUMENTS AND CULTURAL HERITAGE OF WESTERN AZERBAIJAN

After Azerbaijan gained independence, interest in studying various periods and phases of our history increased, Particularly in areas that were concealed from our people during the years of Soviet rule. Archives were consulded, Information about donated lands, Renamed toponyms, and historical monuments thats were either renamed or plundered and destroyed was reprocessed and broughtto the attention of the public. A significant portion of Azerbaijans cultural heritage – numerous monuments- is lokated in Western Azerbaijan, prezent-day Armenia. Unfortunately, this heritacehas not yet been studied comprehensively and extensively. The cultural heritage of WesternAzerbaijan, an inteqral part of ancient Azerbaijan, and the historical and cultural monuments erekted on its territory, have not been sufficiently researched by our scholars. Over the years and centuriers, proving which culture these monuments belong to and protecting them under the name of our nation has become increasingly difficult. It is even more challenging for a nation like ours, surrounded by notoriaus and diceitful neighbords. The monuments located in our ancient territories have not been brought to a wide readership. Taking anvantage of this gap, some have changed toponyms, falsified our cultural heritage, presenting it to the worlds as their own. Azerbaijan, located in the South Caucasus, has always been the center of attention. It has frequently faced attacks, invasions, and conguests, along with trade caravans, travelers, and visitors fromall over the conflicts, many castles, Fortifications, and defensive walls have been built in the area. From the 19th century onwards, Armenian wandals, who were massively relocated to Azerbaijani lands, began sistematically perpetrating cultural terror against our architectural monuments. However, no response was given to this very serious and alarming problem for many years. Armenians have carried out the largest terror operations against Azerbaijani-Turkish architectural heritage in the city of Yerevan. These operations, which began after the Russian occupation in 1827, continue to this day.

Keywords: *Western Azerbaijan, historikal monuments, cultural heritage, etnic lands*

QƏRBİ AZƏRBAYCAN - TARİXİ TORPAQLARIMIZ

Fəxriyyə CƏFƏROVA
ceferova.fexriyye@ mail.ru
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

Tarix sübut edir ki, Qərbi Azərbaycan azərbaycanlıların dədə-baba torpağı olmuş, uzun illər bu ərazilərdə yaşamış, özlərinin tarixi irslərini yaratmışlar. Qərbi Azərbaycanın əsl sakinləri Azərbaycan türkləri olmuşdur. Azərbaycan türkləri indiki Ermənistan ərazisində e.ə. II əsrdən yaşamağa başlamışlar. Qərbi Azərbaycan ərazisində Azərbaycan türkləri yerli sakinlər olmuşlar və ermənilər buraya ilk yaşayış yerləri olan İraqdan - Fərat və Dəclə çayının sahillərindən gəlmişlər. Bildiyimiz kimi, 1826-1828-ci illər II Rusiya-İran müharibəsi də rusların qələbəsi ilə başa çatır və 1828-ci il fevralın 10-da Təbrizin 43 kilometrliyində yerləşən Türkmənçay kəndində sülh müqaviləsi imzalanır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülür. Bununla da, azərbaycanlılar zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunurlar. Demək, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır və bu torpaqları da geri alacağıq. Bir faktı qeyd edə bilərik ki, Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır. Bunu sübut edən mənbələrimiz çoxdur. Ancaq ermənilər öz xislətlərinin qurbanı olaraq Qərbi Azərbaycanda bizim tarixi, dini abidələrimizi yerlə-yeksan etmiş, dağıtmış, bizim tarixi irsimizi bu torpaqlardan silmək istəmişlər. Amma onlar unutmuşlar ki, tarixi sənədlər bu torpaqların bizlərə məxsusluğunu təsdiqləyir. Məqalədə bu məsələlər tarixi baxımdan şərh edilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, Azərbaycan xalqı, dədə-baba torpağı, tarixi ədalətsizlik, tarixi irsimiz, müqavilə*

"Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. XX əsrin əvvəllərinə təsadüf edilən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Mənbələr göstərir ki, tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda Ermənistan adlı dövlət yaranmış, yerli əhali deportasiyaya məruz qalmışdır. Ulu Öndərimiz Heydər Əliyev 23 fevral 1994-cü ildə bu məsələyə münasibətini bildirərək öz çıxışında demişdir: "Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik" [4].

Əlbəttə, bizim tarixi torpaqlarımıza yiyələnən, özlərinin dövlətlərini yaradan ermənilər tarix boyu bizim torpaqlarımıza göz dikmiş, zaman-zaman ərazilərimizi ələ keçirməyə cəhd etmişlər. Tarix sübut edir ki, ermənilərin heç nəyi olmayıb, hətta torpaqları belə, amma bizim ərazilərimiz hesabına özlərinin dövlətini yaratmış, bu gün də torpaq iddialarından əl çəkməmişlər.

Mənbələr sübut edir ki, hazırda Ermənistanın sahibləndiyi ərazilər vaxtilə azərbaycanlıların məskunlaşdığı ərazilər olmuş, ermənilər bu ərazilərə sonradan gəlmişlər. Qərbi Azərbaycanın əsl sakinləri Azərbaycan türkləri olmuşdur. Azərbaycan türkləri indiki Ermənistan ərazisində e.ə. II əsrdən yaşamağa başlamışlar. Qərbi Azərbaycan ərazisində Azərbaycan türkləri yerli sakinlər olmuşlar və ermənilər buraya ilk yaşayış yerləri olan İraqdan - Fərat və Dəclə çayının sahillərindən gəlmişlər. Ermənilərin Şərqi Ermənistan adlandırdığı indiki ərazidə qorunub saxlanılan qədim oğuz qəbirləri, qoç, qoyun qəbir daşları, yəhərli-yüyənli at heykəlləri xalqımızın tarixi keçmişi ilə səsləşir. Bunlar bu ərazilərin bizlərə məxsus olduğunun sübutudur.

Bu ərazidə yaşayan ilk qədim türk tayfaları da bu ərazilərin bizlərə məxsusluğunu göstərir. Qərbi

Azərbaycan ərazisində yaşamış türk tayfaları- kimmerlər, saklar, quqarlar, şiraklar, qarqarlar, peçeneqlər, şadılı tayfaları olmuşdur.

İndiki Ermənistan ərazisində tarixən məskunlaşan qədim türk tayfalarından biri kəngərlərdir. Kəngərlər bu əraziyə eramızın IV əsrindən sonra gəlmişlər. Qədim türk tayfalarından olan kəngərlər əsasən Ağrı vadisində, indiki Ermənistanın Gürcüstanla sərhədlərində yaşamışlar.

Qədimdən oğuz tayfalarının indiki Ermənistan ərazisində yaşadığını VII əsrin tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı da aydın şəkildə sübut edir. Əlbəttə, bizim belə sübutlarımız çoxdur.

Ermənilərin Azərbaycana qarşı tarixi düşmənçiliyi və xəyanətləri son iki əsrdə – Rusiya imperiyasının Şimali Azərbaycanı işğal edib ermənіləri müxtəlif bölgələrimizdə məskunlaşdırması ilə başladı.

Bildiyimiz kimi, 1826-1828-ci illər II Rusiya-İran müharbəsi də rusların qələbəsi ilə başa çatır və 1828-ci il fevralın 10-da Təbrizin 43 km-liyində yerləşən Türkmənçay kəndində sülh müqaviləsi imzalanır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülür. Bununla da, azərbaycanlılar zaman-zaman - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunurlar.

Rusiya Cənubi Qafqazda, o cümlədən indi Ermənistan adlanan Qərbi Azərbaycanda dayaqlarını möhkəmlətmək məqsədilə 1828-ci ildən rusları bu əraziyə köçürməyə başlayırlar. 1903-1905-ci illərdə İrəvan quberniyasının ərazisində 5971 nəfər rus yaşamışdır ki, bu da əhalinin 0,7%-ni təşkil edirdi [2, s.35].

Təkcə bir faktı qeyd edək ki, indiki Ermənistan ərazisində 1828-ci il Türkmənçay müqaviləsinə qədər əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etmişdir. Lakin Türkmənçay müqaviləsindən sonra isə mütənasiblik pozulmuş, azərbaycanlılar Rusiya dövlətindən dəstək alan ermənilər tərəfindən sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuş və beləliklə, ilk qaçqınlar Şimali və Cənubi Azərbaycana, Türkiyəyə pənah gətirmişlər.

Qafqazı tutduqdan sonra Rusiya öz ərazisindəki məcburi köçkünləri Azərbaycana göndərir. Eyni zamanda İrandakı rus səfiri A.S.Qriboyedovun (1795-1829) şəxsi təşəbbüsü ilə İrandan minlərlə erməni ailəsi Naxçıvana, Zəngəzura və Qarabağa köçürülür. Qısa müddətdə İran və Türkiyədən Azərbaycan ərazilərinə köçürülən ermənilərin sayı 130 mini ötür.

Mənbələrin məlumatına görə, 1828-1830-cu illərdə Naxçıvan xanlığının ərazisinə 2511 erməni ailəsi (12555 nəfər) köçürülmüş, bundan başqa, Naxçıvan şəhərində 434 erməni ailəsi yerləşdirilmişdi [3, s. 21-22].

1828-ci ilin martında çar I Nikolayın göstərişi ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlanan inzibati vahid yaradılır, 1841-ci ildə Naxçıvan torpaqları Gürcüstan-İmeretiya quberniyasının tərkibinə verilir. 1850-ci ildə isə Naxçıvan, Şərur-Dərələyəz qəzaları və Ordubad dairəsi yeni yaradılan İrəvan quberniyasına birləşdirilir.

Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi: "Tarixi proseslərin gedişi ona gətirib çıxardı ki, 1813-1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü" [5, s. 24].

Bütün bunlar sübut edir ki, İrəvan xanlığı ərazisində yaradılan indiki Ermənistanda azərbaycanlılar əsl köklü xalq olmuş, burada doğulub böyümüşlər. Ermənilər isə əsasən, XIX əsrin axırları, XX əsrin əvvəllərində İrandan, Türkiyədən, o cümlədən XX əsrin 40-60-cı illərindən Suriyadan, Livandan, ABŞ-dan, Misirdən, Fransadan köçürülərək bu ərazilərdə yerləşdirilmişdir. Bu da 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və ən nəhayət, 1988-1989-cu illərdə azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından qovulması üçün ən mühüm şərtlərdən biri idi.

Qərbi Azərbaycan ərazisində Çar Rusiyasının himayəsi və şəxsən I Nikolayın fərmanı ilə yaradılan "Erməni vilayəti" ermənilərin bu ərazilərdə məskunlaşmasına, azərbaycanlıların isə tarixi-etnik torpaqlarından deportasiyasına, Azərbaycan kəndlərinin dağılmasına, viran edilməsinə gətirib çıxartmışdır. Ermənilərin ərazilərimizə köçürülməsi məsələsi sonrakı illərdə də davam etmiş, nəticədə bizim dədə-baba torpaqlarımıza yiyələnmişlər.

Bir faktı qeyd edək ki, 1949-cu ildə Ermənistan SSR ərazisindən-qədim Qərbi Azərbaycan torpaqlarından 15.276 nəfər azərbaycanlı Şimali Azərbaycana deportasiya edilir. Deportasiya olunanlar Şimali Azərbaycanın Saatlı, Mirbəşir (Tərtər), Göyçay, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Bərdə, Gədəbəy rayonlarında yerləşdirilir. Ən çətini, dözülməzi ondan ibarət idi ki, dağlıq və dağətəyi ərazilərdə dünyaya göz açıb, yaşayan bu əhali indi birdən-birə çox isti olan Kür-Araz ovalığına köçürülürdü.

Sonrakı ildə - 1950-ci il martın 14-də və avqustun 25-də daha 14.361 nəfər azərbaycanlının Ermənistan SSR-dən Azərbaycana köçürülməsi haqqında Azərbaycan və Ermənistan respublikalarının hökumətləri birgə qərar qəbul edirlər.

1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan-indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır.

Ümummilli Liderimiz Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə hüquqi-siyasi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.

27 may 1997-ci ildə Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitq söyləyən Ümummilli Liderimiz Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından danışarkən demişdir: "O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistanın çox gözəl iqlimə - yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub - malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər".

Bir faktı qeyd edə bilərik ki, Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır. Bunu sübut edən mənbələrimiz çoxdur. Ancaq ermənilər öz xislətlərinin qurbanı olaraq Qərbi Azərbaycanda bizim tarixi, dini abidələrimizi yerlə-yeksan etmiş, dağıtmış, bizim tarixi irsimizi bu torpaqlardan silmək istəmişlər. Amma onlar unutmuşlar ki, tarixi sənədlər bu torpaqların bizlərə məxsusluğunu təsdiqləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də həmişə bu məsələni diqqətdə saxlamış, Qərbi Azərbaycan torpaqlarının Azərbaycan ərazisi olduğunu qeyd etmişdir. 21 aprel 2011-ci il tarixdə bir qrup gənci və tələbə gənclər təşkilatının nümayəndələrini qəbul edən İlham Əliyev indiki Ermənistan dövlətinin Azərbaycanın tarixi torpaqlarında yarandığı, İrəvan xanlığının Azərbaycan torpağı olması barədə demişdir: "Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Bu tarixi həqiqətdir. Biz bu tarixi yaxşı bilirik. İrəvan xanlığında yaşayanların əksəriyyəti azərbaycanlılar idi, Zəngəzur mahalı Azərbaycandan zorla qopardılıb ki, türk dünyasını parçalasınlar və elə də oldu. Ancaq vaxt gələcək, bu ədalətsizlik aradan qaldırılacaqdır" [6].

Dövlətimizin başçısı onu da qeyd edirdi ki: "Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb" [7].

Prezident İlham Əliyev bu tarixi zorakılığı hətta kəskin ittiham etmişdir: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir" [6].

Xalqımız bu gün Zəngəzura, İrəvana və digər əzəli Azərbaycan torpaqlarına getmək arzusu ilə yaşayır. Bu torpaqlara getmək üçün tarixi hüququmuzu beynəlxalq birlik qarşısında qaldırır. Zorla didərgin salınmış dədə-baba yurdlarına geri qayıtmaq hər bir soydaşımızın haqqıdır. Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Prezident İlham Əliyev onların əzəli torpaqlarına qayıtmalı olduqlarını qətiyyətlə söyləyirdi: "Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır" [6].

44 gün davam edən Vətən müharibəsində ordumuzun qəhrəmanlığı və xalqımızın milli birliyi ilə 30 il düşmən tapdağında olan torpaqlarımız azad olundu. Eyni zamanda Prezidentimiz İlham Əliyev ən mötəbər kürsülərdə İrəvanın, Zəngəzurun və Göyçənin Azərbaycanın tarixi torpaqları olduğunu və Azərbaycan xalqının bu tarixi ədalətsizliklə heç vaxt barışmayacağını da dünyaya bəyan etdi. Bildirdi ki, əsas hədəfimiz Qərbi Azərbaycana qayıtmaqdır.

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı tarixi bir zərurətdir və bu, ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi olacaq. Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq

beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq bu istiqamətdə hərtərəfli işlərə başlanılıb. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın qüdrəti, apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir.

ƏDƏBİYYAT

1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Naxçıvan: "Əcəmi" NPB, 2001, 192 s.
2. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti, Bakı: 2011, 288 s.
3. Bünyadov, Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s.
4. Hacıyev. H. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. "Səs" qəzeti, 27 dekabr 2022
5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir.(2002). X kitab, may, 1997 iyul, 1997, Bakı: Azərnəşr, s.9-11.
6. Hüseynova, İ. Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir. Xalq qəzeti. 27 aprel 2024
7. Məmmədova, L. Qərbi Azərbaycan qədim tarixi yurdumuzdur. "Mədəniyyət" qəzeti, 11 avqust 2011

ABSTRACT

Fakhriya JAFAROVA

WESTERN AZERBAIJAN- OUR HISTORIC LANDS

History proves that the West Azerbaijan of Azerbaijanis It was the land of their grandparents, they lived in these areas for many years, their own date have created their legacy. Western Azerbaijan real residents Azerbaijan Turks was. Azerbaijan Turks present Armenia in the territory of B.C. They started living in the II century. Western Azerbaijan in the area Azerbaijan Turks were local residents and Armenians came here from their first place of residence in Iraq - the Euphrates and From the banks of the Tigris River they came. You know, The Second Russo-Iranian War of 1826-1828 ended with the victory of the Russians, and on February 10, 1828, a peace treaty was signed in the village of Turkmenchay, located 43 km from Tabriz. 1828 Türkmenchay, which was closed in of the contract result as Armenians From Iran, Turkey to these areas is moved. Thus, Azerbaijanis from time to time - 1905-1906, 1918-1920, 1948-1953 and 1988-1991 in years from historical - ethnic lands they are deported. That is, the West Azerbaijan is our history it is our land and we will get these lands back. Note one fact to do we know that the West Azerbaijan is our history it is our land. Which proves it our sources there are many However Armenians of their characteristics victim as Western Our historical and religious monuments in Azerbaijan destroyed our historical heritage from these lands delete they wanted But they forgot that history documents of these lands to us belonging confirms. These issues in the article date point of view comment has been done.

Keywords: *Western Azerbaijan, Azerbaijan people, grandfather's land, history injustice, our historical heritage, contract*

QƏRBİ AZƏRBAYCANIN MİLLİ MƏTBƏXİ

Aytəkin QƏHRƏMANOVA
aytekinqehramanova@nmi.edu.az
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

Azərbaycan Respublikasının bugünkü müasir mətbəxinin əsasını təşkil edən qədim mətbəxlərdən biri də Qərbi Azərbaycan mətbəxidir. Qərbi Azərbaycan mətbəxinin əsasını təndirdə, sacda, ocaqda bişən yeməklər təşkil edir. Qərbi Azərbaycanın hər bölgəsinin özünəməxsus yemək̆ləri var. Ümumilikdə isə Qərbi Azərbaycanın ən məşhur yeməklərindən biri qovurmadır. Keçmişdə soyuducu olmadığından təbii üsullarla yeməyi qışa saxlamaq üçün əti öz yağında qovururdular. Qovrulan əti ən az 6 ay saxlaya bilirdilər. Qovurma Qərbi Azərbaycan mətbəxinin vazkeçilməzidir. Çünki bütün yeməklər demək olar ki, onun əsasında hazırlanır. Qərbi Azərbaycan mətbəxinin çoxçeşidli olması zəngin flora və faunaya sahib olmasından irəli gəlir. Bu mətbəxdə ət yeməkləri ilə yanaşı, müxtəlif dənli bitkilərdən, dağ bitkilərindən istifadə olunub. İrəvan mətbəxinin digər mətbəxlərdən fərqli xüsusiyyəti budur ki, heyvan mənşəli məhsullarla birlikdə bu bitkilərdən də çox istifadə olunur. Xalqımızın ənənəvi yeməklərinin tarixi-etnoqrafik baxımından Qərbi Azərbaycan materialları əsasında öyrənilməsi onu deməyə əsas verir ki, tarixi torpaqlarımızdan biri olan Qərbi Azərbaycan mətbəx, onun kulinariyası çox zəngin olmuş və Naxçıvan mətbəxi ilə oxşarlıq təşkil etməklə Azərbaycan milli mətbəxinin tərkib hissəsini təşkil edir.

Açar sözlər: *Qərbi Azərbaycan, mətbəx mədəniyyəti, qovurma, yarma, süd məhsulları, süfrə mədəniyyəti, təndir*

Azərbaycanın əzəli torpağı olan və əsrarəngiz təbiəti ilə fərqlənən Qərbi Azərbaycan bölgəsi bəşəriyyətin ilkin sivilizasiyalarından biridir. Bəşər cəmiyyəti meydana gəldiyi ilk dövrlərdən insanların, əsas tələbat kimi, qida məhsullarına böyük ehtiyacları olmuş, yaşamaq uğrunda mübarizədə digər vasitələrlə yanaşı, yemək məhsullarının əldə edilməsi də mühüm əhəmiyyət kəsb etmişdir.

Yeməyin, qidanın tarixinə nəzər salarkən aydın olur ki, ümumiyyətlə, qida insanın yaranması ilə meydana gəlmiş, hər bir xalqın maddi mədəniyyətinin mühüm elementlərindən birinə çevrilmişdir. Məlumdur ki, ilk insanlar qidanı əvvəlcə təbiətdən hazır şəkildə əldə etmiş (yığıcılıq), tarixi proseslərin inkişafı prosesində özləri çeşidli yeməklər hazırlamaq vərdişlərinə yiyələnmişlər.

Hələ çox qədim zamanlardan zəngin bitki örtüyü, sulu çaylarla zəngin olan Azərbaycan ərazisində çoxəsirlik qida mədəniyyətinin formalaşması üçün mükəmməl baza, ilkin şərtlər də mövcud olmuşdur. Özünün təbii ehtiyatlarından istifadə edən xalqımız müxtəlif çeşidli yeməklərin hazırlanmasında zəngin bacarığa, biliyə və təcrübəyə malik olmuşlar.

Azərbaycanda, şübhəsiz ki, uzun əsrlərin empirik bilik və vərdişləri hesabına yaranan, ənənəvi olaraq nəsillərdən-nəsillərə ötürülən zəngin qidalanma ənənələri mövcud olmuş, maddi mədəniyyətin bu sahəsində etnosun milli xüsusiyyətləri aydın izlənməkdədir [1, 159]. Belə ki, Azərbaycan mətbəxi dedikdə yalnız xörəklər, onların bişirilmə qaydaları deyil, həm də tarix, fəlsəfə, süfrə psixologiyası, adət-ənənələr, xalqın etika və estetikası və s. bu kimi amilləri ahəngdar surətdə birləşdirən mətbəx mədəniyyəti başa düşülür. AMEA-nın müxbir üzvü H.Q.Qədirzadə mətbəx mədəniyyətini iki yerə ayırır:

1. Xörəklərin, müxtəlif yeməklərin hazırlandığı yer və hazırlanma qaydaları.
2. Süfrə mədəniyyəti [4, s.78].

Məhz bu nöqteyi-nəzərdən Azərbaycanın qədim, əzəli torpağı olan Qərbi Azərbaycan milli mətbəxinə nəzər saldıqda aydın olur ki, bu bölgənin mətbəx mədəniyyəti Azərbaycanın digər bölgələri, xüsusilə Naxçıvanın mətbəx mədəniyyəti ilə tamamilə eynilik təşkil edir.

Mətbəx mədəniyyəti dedikdə ilk növbədə süfrə mədəniyyəti nəzərə gəlir. Azərbaycanın digər bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da yeməyin süfrəyə verilməsində müəyyən qaydalara əməl olunurdu. Məsələn, süfrəyə plov iri məcməyidə verilirdi. Hələ xanlıqlar dövründə İrəvan xanlığında ailələr yemək rejimi müəyyən olunmuş qaydalarda, saray hücrələrində, adətən, masa arxasında deyil, döşəmənin üzərinə süfrə salmaqla həyata keçirirdilər. Bir qayda olaraq, plov və xəngəl kimi yeməklər məcməyi və sinilərdə, duru yeməklər isə kasalarda süfrəyə verilərdi.

Süfrə arxasında ailənin bütün üzvləri oturar, ailənin başçısının "bicmillah" kəlməsindən sonra çörəyi

kəsməsi ilə başlayardı. Adətən, süfrədə çörək əllə kəsilərdi. Qərbi Azərbaycan bölgəsinin demək olar ki, hamısında Naxçıvanda olduğu kimi lavaşdan istifadə edilərdi. Evə qonaq gələndə isə yemək süfrəsinin arxasında qadınlar və uşaqlar oturmazdılar.

Bu gün Qərbi Azərbaycan mətbəxini tədqiq etmək aktual məsələlərdən biridir. Çünki bədnam qonşularımız nəinki Qərbi Azərbaycan yeməklərini, həmçinin bütün Azərbaycan mətbəx terminologiyasındakı yemək-içmək adlarında bəzi hərfi dəyişikliklər etməklə özlərinə saxta "mətbəx mədəniyyəti" yaratmaq iddiasında olublar. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma ermənicə nə deməkdir, onu deyə bilməyəcək...". Artıq beynəlxalq ictimaiyyət erməni yalanlarının üzə çıxmasını diqqətlə izləyərək onların necə aradan qaldırıldığının şahidi olur. 2016-cı ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsi ermənilərin iddiasına rəğmən, lavaşın türk xalqlarının çörəyi, 2017-ci ildə dolmanı Azərbaycana məxsus mətbəx növü kimi Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahıya daxil etməsi buna əyani sübutdur.

Tarixi araşdırmalar zamanı Qərbi Azərbaycanda olan yemək növlərinin geniş çeşidi, hazırlanma qaydaları, təyinatı, bu sahədə qazanılmış böyük əməli vərdişlər xalqımızın qida mədəniyyətinin zənginliyindən xəbər verir. Bu baxımdan Tahir Əmiraslanovun "İrəvan xanlığının bölgə mətbəxi" kitabı diqqəti cəlb edir. Çoxillik tədqiqatların məhsulu olan "İrəvan xanlığının bölgə mətbəxi" kitabı bu gün istər tarixi-etnoqrafik, istərsə də milli-mənəvi baxımdan çox aktual bir mövzuya - İrəvan azərbaycanlılarının, indi "Ermənistan" adlanan dövlətin ərazisinin yerli sakinləri olmuş soydaşlarımızın qədim mətbəx mədəniyyətinin tədqiqinə həsr edilib. Kitabda ümumilikdə Qərbi Azərbaycan mətbəxinə aid olan və həmin bölgənin əhalisinin yaratdığı maddi mədəniyyətin qədimliyini və zənginliyini göstərən çoxsaylı tarixi-etnoqrafik faktlar toplanıb. Kitabda İrəvan mətbəxinə aid çoxsaylı qida məhsullarının, zəngin çeşidli mətbəx ləvazimatlarının, 413 növdə yemək və içki adları və onların hazırlanması qaydaları verilir ki, bu da Qərbi Azərbaycan torpaqlarını əhatə edən İrəvan xanlığı ərazisində azərbaycanlıların yaratdığı mətbəx və süfrə mədəniyyəti haqqında əyani təsəvvür yaradır [7].

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qərbi Azərbaycan yeməkləri də gündəlik və mərasim olmaqla iki yerə ayrılır. Bu ərazi flora və fauna cəhətdən zəngin olduğu üçün bölgədə heyvandarlıq və bitki mənşəli yeməklər üstünlük təşkil edir. Naxçıvan bölgəsində olduğu kimi, Qərbi Azərbaycanda da bitki mənşəli yeməklər içərisində taxıl bitkiləri daha çox olmuşdur. Bunu tarixi mənbələr də sübut edir. Osmanlılar tərəfində yazıya alınan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan sancağının ən böyük ərazi vahidlərindən olan 1727-ci ildə Dərələyəz mahalında 99 kənd və 5 məzrəə qeydə alınmışdır. Araşdırmalar zamanı aydın olur ki, kəndlərin hamısında əsasən, taxıllar fəslinə aid olan arpa, buğda, çəltik, darı və s. əkilib becərilmişdir [5, 289-360].

Etnoqrafik mənbələrə söykənib demək olar ki, Naxçıvan bölgəsində olduğu kimi, Qərbi Azərbaycanda da çörəkbişirmə Eneolit dövründən başlanmışdır. Uzun təkamül yolu keçmiş çörəkbişirmə texnologiyası tədricən zənginləşərək günümüzə qədər mütərəqqi cəhətlərini gətirmişdir. Qədim dövrlərdən etibarən əkinçiliklə məşğul olan Qərbi Azərbaycanın əzəli sakinləri olan soydaşlarımız çörəkbişirmədə sarı buğda, ağ buğda və s. kimi bərk və yumuşaq buğda növlərindən istifadə etmişlər.

Azərbaycanda təndirdə çörəkbişirmə daha geniş yayılmışdır. Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisində 5 min il bundan əvvələ aid çoxlu təndir qalıqları aşkar edilmişdir [3,s.86]. Yazılı mənbələrdə təndirlə yanaşı, təndiri yandırmaq üçün istifadə olunan yanacaq haqqında da məlumatlar var. S.Aşurbəyli "Bakı şəhərinin tarixi" kitabında yazır: "Qazıntı zamanı təndirdə çörək yapmaq üçün üzüm meynələrinin qalıqları tapılmışdır" [2, s.78].

Qərbi Azərbaycan yeməkləri öz rəngarəngliyi, çox çeşidliyi və özünəməxsus xüsusiyyətləri ilə fərqlənsə də, Azərbaycan mətbəxinin tərkib hissəsini təşkil edir. Ərazidə yeməklər, həm də mövsümi səciyyəsi ilə diqqəti cəlb edir. Azərbaycanın başqa bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da ilin isti dövrlərində bitki, tərəvəz məhsullarından alınan yeməklərə, soyuq fəsillərdə isə isti yeməklərə (xəmir, ət xörəklərinə) üstünlük verirdilər.

Bahar fəslində dağlarda bitən yabanı bitkilərdən sayılan şomunu, cacığı, əvəliyi, qazayağını, ələyizi və s. yazda yığıb qurudub, qış aylarına saxlayırlar. Həmçinin həmin bitkilərdən mövsümündə də istifadə olunurdu. Qeyd etmək olar ki, Qərbi Azərbaycanın bütün mahallarında qış üçün tədarük olunanan qida məhsullarından biri yarmadır. Ümumiyyətlə, ərzaq məhsullarının toplanıb saxlanılmasında əsas rolu qadınlar oynayır. Dərələyəz mahalından olan və bu gün Babək rayonunun Çalxanqala kəndində məskunlaşan məlumatçı deyir ki, yarma adətən payızın günəşli günlərində hazırlanır. Yarmanı ən çox pərinc yarmasından

əldə edirlər. İlk növbədə buğda qaynadılır, günəşli bir yerdə süfrə üzərinə sərilir. Buğda quruduqdan sonra onu əldaşında (kirkirə) çəkilir və yarma əldə edilir. Məlumatçı qeyd edir ki, digər buğda növlərindən fərqli olaraq, pərinc buğdasını qaynatmırlar. Yarmanı pərinc buğda növü ilə yanaşı, dəvədişi və ağ buğdadan əldə edirdilər.

Qərbi Azərbaycanda qış ərzaq ehtiyatları içərisində əriştə xüsusi yer tutur. Əriştənin, həmçinin Naxçıvan camaatının qış ərzaq məhsulları içərisində də özünəməxsus yeri var. Payız vaxtı elə ki, təsərrüfat işləri azalır, onda qadınlar əriştə kəsirlər. Əriştənin xəmiri lavaşın xəmirindən fərqli olaraq, bərk və bir az da duzlu olur. Adətən, əriştə unu yazlıq və qırmızı buğdadan olur. Əriştə kəsilən zaman qadınlar bir-birinə kömək edirlər. Qadınların 2-3 nəfəri kündələri vərdənələyir və əriştəni kəsir, 1-2 nəfər kəsilən əriştəni dəstələyir, cavan qız-gəlinlər isə kəsilən əriştəni iplərə sərir. Əriştə iplərdə quruduqdan sonra onu təmiz süfrə içərisinə yığıb, bir gündən sonra ocaqda sacın içərisində qovururlar. Əriştədən əriştə şorbası, əriştə süzməsi, əriştə plovu və s. yeməklər hazırlayırlar. El arasında əriştədən hazırlanan yeməklərə isti yeməklər deyilir. Onu da qeyd edək ki, əriştə şorbasına həm Qərbi Azərbaycanda, həm də Naxçıvanda sulu əriştə (suyuğ əriştə) deyirlər.

Bu bölgədə buğda və un məhsullarından müxtəlif yeməklər hazırlayırlar. Məsələn, tərək, xəşil, horra, xanatlandı və s. Qərbi Azərbaycan mətbəxində paxlalı bitkilərdən də geniş istifadə olunur. Noxud, lobya, mərciməkdən çeşid-çeşid yeməklər hazılayan qadınlar maşş (lobya) şorbasına xüsusi önəm verirlər.

Əhalinin əsas təsərrüfat sahəsi əkinçiliklə yanaşı, maldarlıq da olduğundan Qərbi Azərbaycan mətbəxində maldarlıq məhsulları başlıca yer tutur. Heyvan mənşəli məsullar da mövsümi xarakter daşıyır. Heyvan məhsullarını təzə halda qida məhsulu kimi qəbul etdikləri ilə yanaşı, qış üçün də hazırlayıb saxlayırlar. Qış üçün tədarük olunan ərzaq məhsullarından biri də qovurmadır. Qovurma Azərbaycanın Naxçıvan və Qərbi Azərbaycan bölgəsində ən çox istifadə edilən qida məhsuludur. Qovurma ilin payız fəslində edilir. Qovurmalıq heyvan xırdabuynuzlu heyvanların erkəyindən seçilir. Övəc kəsilib bir gün saxlanılır ki, ətin suyu çəkilsin. Sonra əti doğrayırlar, ətin tikələri nisbətən böyük doğranılır ki, qovuranda sümüklər ovulmasın. Ət pörtlədilən zaman suya duz atırlar və qovurmalıq əti qaynadan zaman səriştəli qadınlar qazana suyu az tökürlər ki, ətinin suyu çıxır. Ət pörtləndikdən sonra onu yağda qızardırlar. Əti qızardarkən, adətən, heyvanın özünün quyruq yağından istifadə edirlər. Quyruq yağında qızartdıqdan sonra, həmin yağı qovurma yığılmış qaba tökürlər. Əgər yağ qovurmanın üzərinə çıxdısa, onda deyirlər ki, ət özünü basdı.

Qərbi Azərbaycan ərazisində sevilən qida məhsulu kimi cızdıq da önəmli yer tutur. Belə ki, quzunun və yaxud erkəyin quruğunu balaca-balaca doğrayıb qızardırlar. Qızardıqdan sonra yağın süzüb götürürlər, cızdıqları isə qışa da saxlamaq olar və həmin müddət istifadə edə bilərlər. Naxçıvanda olduğu kimi, Qərbi Azərbaycanda da cızdığı soyuduqdan sonra ətçəkən maşından çəkib, tərkibinə yumurta, süd və şəkər tozu əlavə edib, qalın (tapı, dəstana) bişirirlər. Qalını, adətən, səhər-səhər şirin çayla yeyirlər.

Qərbi Azərbaycan əhalisinin mətbəxində qida məhsulları içərisində süd-ağartı məhsulları xüsusi yer tutur. Süd məhsullarına sarı yağ, süd, qatıq, pendir, qurut, şor, lor və s. misal göstərmək olar. Yay fəslində demək olar ki, Qərbi Azərbaycan mahallarının hamısında qatıq gündəlik qida məhsulları içərisində mühüm yer tutur. Qatıqdan hazırlanan ayranaşı (dovğa), qatıq aşı, qatıqlama, ayran, ovduq isti günlərdə əhalinin ən sevimli qida məhsulu hesab edilir.

Hələ qədim dövrlərdə etibarən Azərbaycanın bütün bölgələrində demək olar ki, pendir yemək öynələrində süfrəyə verilən ən sevimli təamlardan biridir. Bölgədə üzlü, üzsüz, ovma, döymə, motal, çilğı və s. pendir növləri qeydə alınmışdır.

Qərbi Azərbaycanın mətbəx mədəniyyətindən danışarkən bu ərazidə əkib-becərilən və yabanı şəkildə bitən bitki və tərəvəzlərdən hazırlanan şorabaları da qeyd etmək lazımdır. Bostan-tərəvəz məhsullarından xiyar, pomidor, qarpız, bibər, maaş (lobya), yabanı bitkilərdən çaşır, bolu, sobu, cacıx, çöl kəvəri, quzuqulağı və s. turşuya qoyub qış mövsümünə saxlayırlar. Onu da qeyd edək ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Qərbi Azərbaycan bölgəsində də yeməklər, gündəlik və mərasim yeməklərinə ayrılır. Ərazidə ailə-məişət mərasimlərində hazırlanan yeməklərə xüsusi diqqət yetirilir və mərasim yeməkləri "üz ağardan xeyir-şər yeməkləri" kimi hazırlanma texnologiyası, həcmi və tərkibinin kaloriliyinə görə gündəlik yeməklərdən fərqlənirdi [1, s.232].

Mərasim yeməklərinə toyla bağlı mərasim yeməkləri, doğumla bağlı mərasim yeməkləri, yasla bağlı mərasim yeməkləri, bayramlarla bağlı yeməklər aiddir. Bölgələrimizin hamısında olduğu kimi, Qərbi Azərbaycan bölgəsində də bayram yeməkləri içərisində plov şah yemək sayılır. Bayram yeməkləri içərisində yarpaq və kələm dolması, mövsümlə əlaqədar üç bacı dolması bu bölgənin mətbəx mədəniyyətində xüsusi yer tutur.

Ailələrin bəzi özəl günlərində xüsusi yeməklər var ki, onların içərisində kabablar xüsusi yer tutur. Demək olar ki, kababların çeşidləri Naxçıvanla eynilik təşkil edir. Naxçıvanda olduğu kimi, burada da tikə kabab, lülə kabab, basdırma kabab, tava kabab və saciçi və s. kabab növləri bişirilir [6, s.320].

Qərbi Azərbaycan mətbəxində bişirilən yeməklər içərisində küftəni, xaşlamanı, buğlamanı, bozpörtü

xüsusilə qeyd etmək olar. Daş küftəsi Naxçıvan mətbəxində olduğu kimi, digər bölgələrdən fərqlənir. Belə ki, bu bölgənin hər bir ailəsində daş küftəsini döymək üçün yastı, üzəri hamar daş və əti döymək üçün yerli sənətkarlar tərəfindən düzəldilən toxmaq olurdu. Ət isə ya dana əti, ya da yağlı qoyun ətindən olurdu. Küftə üçün lazım olan bütün ərzaqlar ancaq daşda döyülür. İlk növbədə ət yuyulur, suyu süzülür və hissə-hissə daşın üzərinə qoyularaq döyülür. Ardıcıl olaraq qırmızı baş soğan, sonra isə bişmiş düyü və noxud ləpəsi döyülərək ətə qatışdırılır. Ətlə birlikdə döyülən ərzaqlar ağarana qədər döyülür. Sonra hazır olan məmulata məzrə (ancaq Naxçıvan və Qərbi Azərbaycanda bitən küftə pencəri), şüyüt və s. vurularaq əllə cəhlənir. Sonra hər bir küftənin içinə alça və yaxud zirinc qoyularaq qaynanmış suya salınır və bişirilir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qərbi Azərbaycan mətbəxinin özünəxas fərqli xüsusiyyətləri var. Bölgələr üzrə yeməklərin fərqlənməsi süfrələrimizin zənginliyinə və maddi nemətlərin bolluğuna dəlalət edir. Xalqımızın ənənəvi yeməklərinin tarixi-etnoqrafik baxımdan Qərbi Azərbaycan materialları əsasında öyrənilməsi onu deməyə əsas verir ki, tarixi torpaqlarımızdan biri olan Qərbi Azərbaycanın mətbəxi zəngin kulinariya ənənələrinə malikdir və Naxçıvan mətbəxi ilə oxşarlıq təşkil etməklə Azərbaycan milli mətbəxinin ayrılmaz tərkib hissəsidir.

ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə, II cild. Bakı: Şərq-Qərb, 2007, 384 s.
2. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı: Avrasiya Press, 2006, 416 s.
3. Babayev, T. El ocaq başına yığışar/ tarixi, etnoqrafik etüdlər. Bakı: Azərnəşr, 1989, 365 s.
4. Qədirzadə, H.Q. Milli mətbəx və qonaqpərvərlik. Naxçıvan: Əcəmi, 2012, 112 s.
5. Naxçıvan sancağının müfəssəl dəftəri. Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 374 s.
6. Naxçıvan etnoqrafiyası . İki cilddə, I cild. Bakı: Elm və təhsil, 2023, 476 s.
7. https://azertag.az/xeber/irevan_xanliginin_bolge_metbexi_kitabinda_eksini_tapan_tarixi_heqiqetler-1742007

ABSTRACT

Aytekin GAHRAMANOVA

THE NATIONAL CUISINE OF WESTERN AZERBAIJAN

West Azerbaijan cuisine is one of the ancient cuisines that forms the basis of today's modern cuisine of the Republic of Azerbaijan. The basis of West Azerbaijani cuisine is the dishes cooked in tandir, saj, oven. Every region of Western Azerbaijan has its own dishes. In general, roasting is one of the most famous dishes of Western Azerbaijan. In the past, because there was no refrigerator, they used natural methods to fry meat in its own oil to preserve food in the winter. They could keep roasted meat for at least 6 months. Roasting is an indispensable part of West Azerbaijani cuisine. Because almost all dishes are prepared on its basis. The variety of West Azerbaijani cuisine is due to the fact that it has rich flora and fauna. In addition to meat dishes, various cereals and mountain plants are used in this cuisine. The distinguishing feature of Yerevan cuisine from other cuisines is that along with animal products, these plants are used a lot. The study of the traditional dishes of our people from the historical-ethnographic point of view based on the materials of Western Azerbaijan suggests that the cuisine of West Azerbaijan, which is one of our historical lands, is a part of the national cuisine of Azerbaijan, which is very rich in culinary arts and is similar to the cuisine of Nakhchvan.

Keywords: *Western Azerbaijan, kitchen culture, roasting, yarma, dairy products, table culture, tandoor*

İRƏVAN MƏDƏNİ İRSİ

Nigar RAMAZANOVA
nigarramazanova955@gmail.com
AMEA Memarlıq və İncəsənət İnstitutu

XÜLASƏ

Bir xalqın mədəniyyət tarixini öyrənmək üçün oranın yaşayış ərazisinə nəzər salmaq və toponimlərini araşdırmaq lazımdır. Hər bir xalqın mədəni irsi onun sərvətidir. Tarixi abidələr, ustad memarların tikdiyi binalar, məşhur rəssamların çəkdiyi tablolar, yazıçı və şairlərin yazdığı bədii əsərlər, görkəmli bəstəkarların yaratdığı musiqi əsərləri, xalq sənətkarlığının nümunələri xalqın mədəni irsi sayılır. İstənilən ərazinin adı min illik tarix haqqında məlumat verir. Xalqın milli varlığını əks etdirən hidronimlər, etnonimlər, oronimlər, urbanoimlər xalqın ana dilində formalaşır və onunla yaşayır. Azərbaycan xalqının formalaşmasında fəal iştirak etmiş xürrəmilər, kimmerlər, skiflər, saklar, hunlar və digər çoxsaylı oğuz və qıpçaq türkləri bu bölgədə, xüsusən də Göyçə gölü ətrafındakı torpaqlarda yaşamış, özlərindən sonra dərin mədəni və tarixi iz qoymuşlar. Azərbaycan və bütün türk xalqlarına məxsus olan "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanında təsvir olunan bir çox əlamətdar tarixi hadisələr, proseslər məhz Azərbaycanın bu bölgəsində - İrəvan xanlığı ərazisində baş vermişdir. Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri kimi İrəvanda sənətkarlıq və tətbiqi sənət xüsusilə inkişaf etmişdi. İrəvan xalçaçılıq məktəbi, memarlıq, dekorativ-tətbiqi sənət, miniatür sənəti və s. üzrə sənətkarlıq məktəbləri var idi. İrəvanda yaradılmış və günümüzə qədər gəlib çatmış çoxsaylı tətbiqi sənət nümunələri vardır: bədii ağac və daş üzərində oyma, döymə metal məmulatları, xalçalar, çini qablar, naxışlı tikmələr və s. Təəssüflər olsun ki, hazırda bu sənət növlərinin əksəriyyəti Ermənistanın və xarici ölkələrin muzeylərində ermənilərə məxsus nümunələr kimi nümayiş etdirilir.

Açar sözlər: *İrəvan, xanlıq, mədəniyyət, abidə, qala, saray, xalçaçılıq, tətbiqi-sənət*

Giriş

İrəvan xanlığı (Çuxursəəd) XVIII əsrin ortalarında Nadir şah imperiyasının süqutundan sonra yaranmış Azərbaycan dövlətlərindən - xanlıqlardan biri idi (Şəkil 1). Hazırda Ermənistan Respublikası ərazisində yerləşən bu torpaqlar yaxın keçmişdə - XIX əsrin əvvəllərində Azərbaycan dövlətinə, İrəvan xanlığına məxsus olub [5, s.39]. XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən işğal olunana qədər İrəvan xanlığının əhalisinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. 1441-ci ildə erməni katolikos mərkəzi İrəvan bölgəsinə (Çuxursəəd) köçürülənə qədər bu ərazidə ermənilərə məxsus heç bir kənd və ya torpaq sahəsi mövcud olmayıb. XVIII əsrə qədər xanlığın paytaxtı İrəvanda səkkiz məscid var idi. İkisi qalanın içərisində, qalan altısı isə - Zal xan, Novruzəli xan, Sərtib xan, Hüseynəli xan, Hacı İmamverdi və Hacı Cəfər bəyin məscidləri İrəvanın şəhərətrafı kəndlərində yerləşirdi. Ən əzəmətlisi Hüseynəli xan məscidi və ya Göy məscid idi. Göy məscidin divarları mavinin bütün çalarlarında heyrətamiz dərəcədə gözəl mozaika ilə bəzədilmişdi. Bu məscid Azərbaycan memarlığının ən gözəl incilərindən hesab olunur. Məscidlərdən müəyyən məsafədə, İslam ənənələrinə uyğun olaraq, səkkiz hamam tikilmişdi.

Hamamlar təkcə sakinlərin çimməyə gəldiyi yer deyildi, bura həm də görüşmək, asudə vaxt keçirmək üçün çox uyğun idi. Hər hamam binası şərq üslubunda hündür günbəzlərlə tamamlanırdı. Hamamlara işıq günbəzlərdəki dəliklərdən içəri keçirdi. Memarlığı və gözəlliyi ilə bənzərsiz olan bu hamamlar belə adlanırdı: Şəhri, Şeyxülislam hamamı, Mehdi bəy hamamı, Hacı Bəyim hamamı, Təpəbaşı hamamı, Hacı Əli hamamı, Hacı Fətəli hamamı və Kərim bəy hamamı. İrəvan xanlığı - Azərbaycanın dövlət idarəçiliyi tarixində mühüm rol oynamış Qacar sülaləsindən olan türk xanları tərəfindən idarə olunurdu.



İrəvan xanlığı XVIII əsrin ikinci yarısında
Mənbə: Azərbaycan tarixi atlası. Bakı 2007, s.37

Şəkil 1. İrəvan xanlığı

Xanlığın bütün idarəetmə sistemi, onun ictimai-siyasi, mədəni-iqtisadi həyatı, əhalisinin məişət mədəniyyəti Azərbaycanın minilliklər boyu tarixi inkişafının ümumi sisteminin tərkib hissəsi olmuşdur (Şəkil 1). İnkişaf xüsusiyyətlərinə görə İrəvan xanlığı o dövrdə mövcud olmuş digər Azərbaycan xanlıqlarından heç bir şəkildə fərqlənmirdi. Mövcud olduğu bütün dövr ərzində İrəvan xanlığının ərazisində çoxsaylı Azərbaycan kəndləri və şəhərləri salınmış, minlərlə tarixi abidə - qalalar, məscidlər, minarələr, karvansaraylar, hamamlar tikilmişdir. Bölgədəki bütün yer adları - toponimlər Azərbaycan mənşəli olub. Bu təkzibolunmaz həqiqəti hətta erməni mənbələri də təsdiq edir. Xanlığın ərazisində qədim oğuz türklərinə məxsus saysız-hesabsız qəbiristanlıqlar və çoxlu sayda heyvan (qoyun) heykəlləri və məzar daşları var idi. Bütün bunlar Azərbaycan xalqının mədəniyyətinin möhürüdür. İrəvan şəhərinin yerləşdiyi ərazi müxtəlif dövrlərdə Urartu, Sasanilər, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqlar, Eldəgəzilər, Elxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarilər, Qacarlar kimi əzəmətli dövlətlərin tərkibində olmuşdur. İrəvan şəhərinin bir mərkəz kimi sosial-iqtisadi inkişafı Çuxursəəd bəylərbəyləri və İrəvan xanlığı dövrünə təsadüf edir. Orta əsr tarixi mənbələrində şəhərin adı Rəvan və İrəvan kimi göstərilir. Azərbaycanın indi Ermənistan Respublikası adlanan tarixi ərazisində çoxlu qalalar, qala-şəhərlər, hərbi istehkamlar mövcud idi. Orta əsrlər və rus işğalı dövrlərinə aid ədəbiyyatda indiki Ermənistan ərazisində mövcud olmuş və hərbi-istehkam xarakterli qalalar: İrəvan qalası, Keçi qalası, Sərdarabad, Talın, Gümrü və Şorayel qalaları haqqında məlumat verilir. Bu qalalar arasında ən əzəmətli və hazırda tədqiqatlarda tez-tez adı çəkilən İrəvan qalasıdır. Yuxarıda sadalanan qalaların hamısı İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra tədricən dağıdılaraq yer üzündən silinib.

İrəvan qalası haqqında ilk yazılı məlumat Səfəvilər dövrünə təsadüf edir. 1502-ci ildə Səfəvilər dövlətinin hökmdarı Şah İsmayılın qoşunları Qaraqoyunlu əmirlərini məğlub edərək İrəvan şəhərini işğal edirlər. XVII əsrin 40-cı illərində Cənubi Qafqaza səyahət edən məşhur türk səyyahı və coğrafiyaşünası Övliya Çələbi yazırdı ki, hicri təqvimi üzrə 915-ci ildə (1509-1510) Şah İsmayıl vəziri Rəvanqulu xana qala tikdirməyi əmr edir. O da öz növbəsində bu qalanı tikdirərək onu Rəvan adlandırmışdır. Qalanın tikintisi 7 il davam etmişdir. 1554-cü ildə Sultan Süleymanın Cənubi Azərbaycana yürüşü zamanı İrəvan qalası yenidən türklər tərəfindən işğal olunur.



Şəkil 2. İrəvan qalası

Türk tarixçisi İbrahim Peçevi yazır ki, 1554-cü il iyulun 19-da görə türk qoşunları İrəvan şəhərinə daxil olaraq buradakı xan və sultanların əzəmətli saraylarını, onların park və bağlarını, xüsusən də Bağ-ı Sultaniyyə kimi tanınan möhtəşəm Xan bağını yandıraraq yerlə-yeksan ediblər. Qalanın qərb divarı Zəngiçay çayının strateji cəhətdən əlverişli yerdə yerləşərək sağ sahilində sıldırım qayaya söykənirdi. İrəvan qalası çayın hündür sahili boyunca uzanan qərb divarının tağlı forması istisna olmaqla, demək olar ki, dördbucaqlı formaya malik idi. Divarlar daş və çiy kərpicdən hörülmüşdü. Xarici divar təxminən 12 arşın hündürlüyündə idi. Bəzi mənbələrə görə qalanın 17 qülləsi olub. Xarici divardan 50-60 metr aralı olan daxili divar daha hündür olub, yarımdairəvi formaya malik bir neçə bürcdən ibarət idi. Düşmən xarici divarı aşmaq istəyərkən iki cərgə divar arasında dar boşluğa düşürdülər ki, bu da onların manevr etmələrini çətinləşdirdi. Qalanın üç qapısı var idi: cənub tərəf Təbriz və şimal Şirvan, üçüncü qapı isə körpüyə aparırdı və Körpü adlanırdı. Darvazalar qalın dirəklərdən düzəldilərək dəmir təbəqələrlə üzlənmişdi. Qala qapıları çöl divarda xüsusi otaqlarda yerləşən mühafizəçilər tərəfindən qorunurdu. Hər üç darvazanın yaxınlığında qalanın xarici və daxili divarları ara divarlarla birləşirdi. Qeyd etmək lazımdır ki, İrəvan qalasının divarları çox güclü idi və top mərmilərinin zərbələrinə tab gətirə bilirdi. Qalanın gizli su ehtiyatı var idi ki, bu da döyüşçülərin uzun mühasirəyə tab gətirməsinə imkan verirdi. Növbəti hücumların biri zamanı rus qoşunları su anbarını aşkar edərək onu məhv etmişlər. İrəvan qalasının ətrafında düşmən hücumlarını ciddi şəkildə çətinləşdirən iki gölməçə qazılmışdı. Qalanın şimal qapılarının yaxınlığında Yuxarı gölməçə adlanan göl var idi ki, bura su Qırxbulaq çayından gilli axar vasitəsilə verilirdi. Artıq su digər gil axarla aşağı gölməçəyə axırdı. Yuxarı gölməçə torpağa basdırılmış itiuclu ağac dirəklərlə əhatələnərək hasara alınmışdı. XVII əsrdə fransız səyyahı J.Şarden İrəvan qalasını təsvir edərkən onun divarının uzunluğunun 4000 addım olduğunu, qalada 800 evin olduğunu qeyd etmişdir. Səyyahın dediyinə görə, qalanın əhalisi yalnız azərbaycanlılardan ibarət olub, ermənilər bura yalnız iş məqsədilə gəlirmişər. İrəvan qalası Qalada bir neçə erməni dükanı olub. Ermənilər gündüzlər şəhərdə ticarətlə məşğul olur, axşamlar isə çıxıb gedirmişlər. Qaladakı tikililər şərq şəhərsalma üslubu üçün xarakterik idi: həyət və evlərə baxışı mümkünsüz olan hündür dar divarların kəsişdiyi dar küçələr. Qapılar çox dar və kiçik idi.

SƏRDAR QALASI. İrəvan xanlığında yerləşən digər qala Hüseyn xanın əmri ilə ucaldılmışdı və İran şah ordusunun komandanı Sərdar titulunu daşıyan xanın adını daşıyaraq Sərdarabad (Şəkil 3) adlanırdı. Hər iki qala azərbaycanlı ustalar tərəfindən tikilmişdir.




Şəkil3. Sərdarabad qalası

Sərdarabad qalası Alagöz dağının ətəyindəki geniş düzənlikdə yerləşirdi. Qala dördbucaqlı formaya malik olub, künclərində hündür qüllələri olan iki sıra hündür divarlarla əhatə olunmuşdu. Divarlar geniş darvazalara malik idi. Qalanın təxminən iki minlik qoşunu var idi, divarlarda 14 silah quraşdırılmışdı. Sərdarabad qalası o dövrün alınmaz istehkamlarından biri sayılırdı. Rus ordusunun İrəvan xanlığına qarşı son yürüşündə iştirak etmiş dekabrist E.Laçınovun verdiyi məlumata görə, qalada iki məscid olub. Ən qədim məscid qalanın salınması zamanı - 1510-cu ildə Şah İsmayıl Səfəvinin əmri ilə tikilib. Xan sarayının yaxınlığında I Şah Abbasın dövründə qurulmuş cümə məscidi yerləşirdi. Bu məsciddə kitabxana, mədrəsə və qonaqları qəbul etmək üçün otaqları var idi.

İRƏVAN XANLARININ SARAYI. İrəvan xanlığında çoxlu tikililər, diqqətəlayiq memarlıq kompleksləri var idi. Onların arasında Azərbaycan memarlığının ən böyük əsərlərindən biri olan Xan (Sərdar) sarayı (Şəkil 4) da var idi. Bu tikili 1578-ci ildə Azərbaycan Səfəvilər dövlətinin hökmdarı Toxmaq xan (İrəvan bəylərbəyi) tərəfindən ucaldılmışdır. Xan sarayı İrəvan qalasının içərisində tikilmişdi. Toxmaq xan sarayla üzbəüz Zəngi çayının sağ sahilində böyük bir bağ salmışdı. Onu Xan bağı adlandırırdılar. XVII əsrin (Şəkil 3) ortalarında Qafqaza səfər edən türk səyyahı Övliya Çələbi İrəvan qalası və Toxmaq xanın cənnət kimi sarayı haqqında bir çox qeydlər etmişdir. Fransız səyyahları Jan-Batist Tavernye və Jan-Batist Şarden də müvafiq olaraq 1655 və 1673-cü illərdə İrəvan şəhərində olmuşlar. Onlar İrəvan qalası və onun içərisindəki tikililəri, o cümlədən Xan sarayını təsvir edən qrafik qeydlər aparmışlar. Xan saray kompleksində İslam adət-ənənələrinə uyğun olaraq məscidlər və hamamlar mövcud olub. İrəvan Xan Sarayını və digər memarlıq abidələrinin pəncərələrini rəngli şüşələr bəzəyirdi ki, bunlar da şəhərin özündə hazırlanırdı. İrəvan dülgərləri Asiya pəncərələri hazırlamaq bacarığı ilə məşhur idilər. Bu pəncərələr müxtəlif dizaynda xırda şəbəkələrdən yığılaraq rəngli şüşələrlə doldurulurdu. Hazır şəbəkəli pəncərələr kaleydoskopa bənzəyirdi və möhtəşəm görüntüsü var idi. İrəvanda şüşə yeddi rəngdə istehsal olunurdu - tünd qırmızı, qırmızı, çəhrayı, mavi, açıq mavi, yaşıl və narıncı. Lakin rus qoşunlarının şəhərə hücumu zamanı şüşə zavodu dağıdılır.

İrəvan şəhərinin çiçəklənmə dövrü İrəvan xanlığının hökmdarları Hüseynəli xan Qacarın (1759-1783) və onun oğlu Məhəmməd xanın (1784- 1805) hakimiyyəti illərinə düşür. Hüseynəli xan Xan sarayına daha da əzəmətli görkəm vermək istəyir və o dövrün tanınmış memarı Mirzə Cəfər Xoylunu İrəvana dəvət edir. Mirzə Cəfərin rəhbərliyi ilə Xan sarayında yenidənqurma (rekonstruksiya) işləri aparılır. 1791-ci ildə Məhəmməd xan Qacar Xan Sarayında möhtəşəm Güzgü Zalını tikdirir və Xan Bağında Yay pavilyonu saldırır.



Şəkil 4. Xan sarayı (fraqment)

Beləliklə, əzəmətli tikili, saray kompleksi kimi son memarlıq həllini alır. İrəvan qalasının şimal-qərb hissəsində yerləşən Xan sarayı 1 hektara yaxın ərazini tuturdu. Saray qalanın şimal-qərb hissəsində yerləşmişdi və qaladan saraya qapı açılırmış. Rəsmi tədbirlər üçün nəzərdə tutulmuş ikimərtəbəli saray binası trapesiya formasında (ölçüləri 36x35x31x25 m) olmuşdur. Sarayın Güzgü zalında Xan taxtının qarşısında müalicəvi xüsusiyyətlərə malik əqiq daşlarından ulduz formalı hovuz düzəldilmişdi. Sarayın bir hissəsində mərmərlə döşənmiş xan hərəmi yerləşirdi, burada da geniş hovuz var idi. Maraqlı cəhət orasıdır ki, həm relyefinin seçilməsi baxımından, həm də tikintinin memarlıq həlli baxımından Xoy, İrəvan və Şəki xanlarının sarayları bir-birinin sanki təkrarıdır. Bu, onu deməyə əsas verir ki, hər üç saray dövrünün məşhur memarı Mirzə Cəfər Xoylu memarlıq məktəbinin üslubunda inşa edilmiş və yaxud restavrasiya edilmişdir. 1867-1874-cü illərdə Xan Sarayında bərpa işləri aparılmışdır. Bu iş Azərbaycan dəzgah rəssamlığının banisi Mirzə Qədim İrəvani tərəfindən görülmüşdür. O, Xan Sarayının Güzgü zalında portret və ornamental kompozisiyaların əksəriyyətini bərpa edərək yeni görkəm vermişdir. 1910-cu ildə akademik Nikolay Marr Güzgü Zalının Zəngi çayına baxan hissəsinin, eləcə də sarayın açıq-boz plitələrinin və cilalanmış mərmərdən tikilmiş fontanlı hovuzun vəhşicəsinə dağıdılması faktını təsdiqləyərək bu haqda bəyanat yazır. Akademik Marr yalnız xatirəsi qalan Yay Pavilyonunun vəziyyətini ürəkağrıdıcı bir şəkildə təsvir edir.

İrəvan xanlığında böyük sənətkar təbəqəsi formalaşmışdı. Şəhərdə toxuculuq, dulusçuluq, dəriçilik, ayaqqabı istehsalı və papaqçılıq əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Dərzilik, zərgərlik, dəmirçilik və misgərlik də inkişaf etmiş sənaye sahələri idi. Azərbaycanın bütün inkişaf etmiş sahələrində olduğu kimi, İrəvan sənətkarları da sex təşkilatlarında birləşirdilər. İrəvanda boya sənəti nəzərəçarpacaq dərəcədə irəliləmişdi. İrəvan şəhərinin və onun yerləşdiyi ərazinin zəngin florası təbii boyalar əldə etməyə, çoxrəngli parçalar istehsalına və məhsulların ticarət yolları ilə xarici bazarlara çıxarılmasına imkan verirdi. İrəvanda boyama ilə məşğul olan sənətkarlar məhəlləsi Şiləçi adlanırdı. Tədqiqatçı İ.Şopen yazırdı ki, boya sənətkarları iki növə bölünürdü:

1) Boyaqçı - parçanı göy rəngə boyayır;

2) Şiləçi - parçanı qırmızı və başqa rənglərə boyayır.

Naxış ustaları ağ kağız üzərində at və əjdaha təsvirləri olan müxtəlif naxışlar çəkirdi (süfrə üzərində, adətən, boşqab, qaşıq və çəngəl naxışları olurdu. Rusiya imperiyasının işğalından sonra bir çox azərbaycanlı sənətkarın şəhəri tərk etməsi nəticəsində boyaq məmulatlarının istehsalı kəskin surətdə azaldı. İrəvan xanlığının ərazisində hər ailənin əyirici dəzgahı vardı. Qadınların əyirdiyi saplardan müxtəlif çeşidlərdə pambıq parçalar toxunurdu.

Şəkil 5. Rəqqasə. M.Q. İrəvani



İrəvanda boyaq əldə etmək üçün əsasən koşenildən (qırmızı rəngdə cücü) istifadə olunurdu. Rusiya Elmlər Akademiyasının akademiki Qammel bu boyanı xüsusi olaraq tədqiq etmişdir. O, öz tədqiqatında İrəvan koşenili (Şəkil 5.) M.Q.İrəvani ilə Meksika koşenilini müqayisə edərək boyanın keyfiyyətli olduğunu göstərmişdir. İrəvan xanlığında miniatür janr da özünü göstərə bilmişdi. Rəssamlar sümük üzərində miniatürlər (əsasən ovçuluğu təsvir edən) çəkirdilər. Sümük üzərində yaradılmış miniatürlər bilavasitə İrəvan xanlığının mədəni irsi ilə bağlı idi. Yaradıcılığı Azərbaycan təsviri sənətində mühüm dönüş nöqtəsi olan Azərbaycan dəzgah rəssamlığının banisi XIX əsrin görkəmli ornamental-portret rəssamı Mirzə Qədim İrəvani (1825-1875) İrəvanda doğulmuş və Tiflis gimnaziyasını bitirmişdir. Yaradıcılığının ilk dövründə - gənclik illərində İrəvani divar rəsmləri, ipək və qızıl saplarla tikmələr (güləbətin) üçün çoxlu naxışlar çəkir və trafaretlər düzəldirdi. Bu dövrlərə aid portretlər arasında Xəncərli adam, Atlı, Rəqqasə və Dərviş əsərləri daha çox maraq doğurur. Son iki əsər Bakıda - R.Mustafayev adına İncəsənət Muzeyində saxlanılır. Mirzə Qədim peşəkar rəssamlıq təhsili almasa da, istedadı sayəsində məşhurluq qazana bilmişdi. O, XIX əsrin 50-ci illərinin əvvəllərində şərq memarlığının şah əsərinin - İrəvandakı Sərdar sarayının divar rəsmlərinin bərpasında iştirak edib. Bu sarayda o, dörd böyük həcmdə yağlı boya ilə portret çəkmişdir. Bu portretlərdə şah və sərdarlarını (şah valiləri) tam ölçüdə təsvir etmişdir. Bunlar Fətəli Şah, Abbas Mirzə, Hüseynxan Qacar və Rüstəm Zalın portretləridir. Sənətşünasların fikrincə, onlar Azərbaycan rəssamlığında ilk dəzgah əsərləridir. İrəvanın yaradıcılığında realistik elementlər, Azərbaycan incəsənəti üçün yeni növlər: dəzgah boyakarlığı və qrafika aydın şəkildə özünü göstərirdi. Rəssamın yaradıcılığı Azərbaycan incəsənətində yeni formaların yaranmasından xəbər verirdi. M.Q.İrəvaninin sayəsində Avropa incəsənətinin ənənələri Azərbaycan incəsənətinə nüfuz etmişdir. Ustad xalq yaradıcılığına məhəbbətini itirmədən adət-ənənələrdən, milli kanonlardan kənara çıxmağı bacarıb. Şərq miniatürləri üslubunu, xalq sənəti ilə Avropa rəngkarlıq üslubunu birləşdirən ustadın əsərlərindəki dekorativlik və realizm bir-birini qanunauyğun şəkildə tamamlayır. Beləliklə, İrəvani Azərbaycan təsviri sənətində yeni bir istiqamətin əsasını qoydu. Hazırda M.Q.İrəvaninin 23 əsəri məlumdur. Onun akvarel və karandaşla çəkdiyi 20 əsəri Bakıdakı Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir. İrəvaninin əsərlərinin özəlliklərindən biri də onların bir çoxunda müəllif imzasının olmasıdır. M.Q. İrəvaninin hazırda Sankt-Peterburqda Dövlət Ermitaj Muzeyində saxlanılan bir rəsm əsəri olduqca diqqətəlayiqdir. Bu əsər qovluq şəklində hədiyyədir. Sağdakı qovluğun içərisində güzgü, solda isə naməlum kişinin portreti var idi. Portretin altındakı yazıda General Karvilin üçün yazılmışdı. Bu kitabə onu deməyə əsas verir ki, M.Q.İrəvani bu əsəri o vaxt Qafqazda olan bir rus generalına hədiyyə edib. Qovluğun aşağı və yuxarı hissələrini bəzəyən ornamental naxışlar xalça kompozisiyasını xatırladır. Bu ornamental kompozisiyanın ən gözəl tərəfi onun orta hissəsindəki naxışlar idi. Bu hissədə şəffaf boyalarla bənövşə və qızılgül buketinin üzərində oturmuş bülbül təsvir edilmişdir. Təəssüf ki, İrəvaninin əksər əsərləri bu günümüzə qədər gəlib çatmayıb. Onun İrəvanda qalan irsi erməni vandalları tərəfindən vəhşicəsinə məhv edilmişdir. Bildiyimiz kimi, Azərbaycan ərazisində bir neçə xalçaçılıq məktəbi fəaliyyət göstərir. Hər biri texnologiya, rəng, bəzək formaları ilə fərqlənir. İrəvan xalçaları qrupunun tarixi xüsusilə maraqlıdır. Bu gün İrəvan ölkəmizin bir hissəsi olmasa da, İrəvan xalçaçılıq sənəti itməyib. Bu xalçaları indi də sevgi ilə toxuyan sənətkarlarımız sayəsində yaşamağa davam edir.

Nəticə

Qərbi Azərbaycan çox rəngarəng və zəngin təbiətə malikdir. Qərbi Azərbaycanın bölgələri zəngin meyvə bağları və üzümlükləri, hər cür meyvələri, meşələri ilə məşhur idi. Bu yerlərin belə rəngarəngliyi xalçaları xüsusi çalarlarla zənginləşdirib, özünəməxsus rənglər verib. Rənglərin parlaqlığı bu bölgənin xalçalarının əsas xüsusiyyəti idi. İrəvanda hazırlanmış xalça kompozisiyasının qurulmasında əhalinin müxtəlif ideyaları, mifik baxışları, inancları xüsusi yer tuturdu. Ornamentlərin seçimində mifik quşlar, heyvanlar, eləcə də həndəsi fiqurlar mühüm yer tuturdu. İrəvan xalçaları xovlu (xalça, çallah, ğəbə və s.) və xovsuz (palas, kilim, cecim, sumax, zili və s.) xalçalara bölünür. Bu xalçalar naxışların zərifliyi və zəngin koloriti ilə seçilir. Xalçalarda əksər hallarda buraxılış ili və toxucunun adı əks olunurdu. İrəvanın zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermişdir. Çoxrəngli boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyət idi. Xalçaların naxışlı kompozisiyasının seçilməsində yerli əhalinin ideyaları, mifik inancları

mühüm yer tutmuş və bu, xalçalarda öz əksini tapmışdır. İrəvan xalçaları ornamental və süjetli olmaqla iki qrupa bölünürdü. Ornamental xalçalara xüsusi kolorit zənginliyi, əlvan naxışlar xas idi və ən çox toxunan xalçalar idi. İrəvanda toxunan xalçalarda da böyükölçülü göllər (medalyonlar) üstünlük təşkil edir. Azərbaycan Milli Tarixi Muzeyinin vitrinlərindən birində İrəvan xanlığına aid əşyalar sərgilənir. Bunlardan xalq geyimləri və məişət əşyaları üstünlük təşkil edir. Bundan əlavə, muzeydə İrəvan xanı Əli xana məxsus olan Məlayir xalçası nümayiş etdirilir və xanlığa məxsus bayraqlar muzeyin fondunda saxlanılır. Gürcüstan Milli Qalereyasında İrəvan xanlığına aid, Sərdarlar Sarayından Qacarlar dövrünə aid əşyalar var. Onların arasında məişət əşyaları, rəsmlər, eləcə də saray kompleksinin dekorasiyasının tərkib hissəsi olan mərmər plitələr var. 2019-cu ildə bu əşyalar ilk dəfə olaraq Heydər Əliyev adına Mədəniyyət Mərkəzində bərpa edilərək nümayiş olunub.

ƏDƏBİYYAT

1. Məmmədov, S. İrəvan şəhərində etnik çevrilişlər. "Azərbaycan" jurnalı, 1992, № 1-2 .
2. Muradov, V. Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları. (XVIII əsrin II yarısı-XX əsrin əvvəlləri). Bakı: MHSPoliqraf, 2015, 224 s.
3. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı: 1999.
4. Б.А.Рыбаков, М.Т.Белявский, Г.А.Новицкий, А.М.Сахаров. История СССР с древнейших времѐ н до конца XVIII в.. 2-е изд., перераб. и доп.М. Высшая школа, 1983.
5. İrəvan xanlığı xalq yaşayış evləri (XVIII-XIX əsrlər). Bakı: 234 s.
6. zen.yandex.ru›…irevanskogo-i…irevanskogo-hanstva-…
7. iravan.info›irevan_ziyalilari.html

ABSTRACT

Nigar RAMAZANOVA

THE CULTURAL HERITAGE OF IRAVAN

In order to learn the cultural history of a people, it is necessary to look at the place of residence and study its toponyms. The cultural heritage of every nation is its wealth. Historical monuments, buildings built by master architects, paintings by famous artists, artistic works written by writers and poets, musical works created by prominent composers, examples of folk crafts are considered the cultural heritage of the nation. The name of any area tells about a thousand years of history. Hydronyms, ethnonyms, oronyms, urban names reflecting the national existence of the people are formed in the native language of the people and live with it. Khurramis, Cimmerians, Scythians, Saks, Huns and many other Oghuz and Kipchak Turks who took an active part in the formation of the Azerbaijani people lived in this region, especially in the lands around Lake Goycha, and left a deep cultural and historical mark. Many significant historical events and processes described in the heroic epic "Kitabi-Dada Gorgud" belonging to Azerbaijan and all Turkic peoples took place in this region of Azerbaijan - the territory of the Iravan Khanate. As one of the scientific and cultural centers of Azerbaijan, crafts and applied arts were particularly developed in Irevan. Irevan carpet weaving school, architecture, decorative-applied İrəvan xanliği xalq yaşayiş evləri (XVIII-XIX əsrlər) art, miniature art, etc. there were craft schools. There are numerous examples of applied art that were created in Irevan and have survived to this day: artistic wood and stone carving, forged metal products, carpets, porcelain dishes, patterned embroideries, etc. Unfortunately, most of these types of art are displayed in the museums of Armenia and foreign countries as samples belonging to Armenians.

Keywords: *Irevan, khanate, culture, monument, castle, palace, carpet weaving, applied art*

ZƏNGƏZURUN EPİQRAFİK ABİDƏLƏRİ

Zenfira SEYİDOVA
turalmemmedov521@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Azərbaycanın tarixi və əbədi torpaqları olan Zəngəzurun İslam dövrü epiqrafik abidələrinin bir qismindən bəhs edilir. Türbələr və məzar daşları üzərindəki kitabələrdə İslam dininin böyük şəxsiyyətlərinin adlarının yazılması bu regionun əhəmiyyətini göstərir. İşğaldan azad edilmiş ərazilərdəki salamat qalmış abidələrdə aparılacaq elmi tədqiqatlar Azərbaycan tarixinin öyrənilməsi üçün növbəti bir elmi nəticə olacaqdır.

Açar sözlər: *Zəngəzur, İslam dövrü abidələri, türbə, sənduqə, epiqrafika, qoç abidələr, məzar daşları*

Azərbaycanda daşyonma sənəti əsasən memarlıq tikililərinin monumental-dekorativ tərtibatında, məzarüstü abidələrin və heykəl fiqurların bəzədilməsində geniş yayılmışdır. Yerli ustaların daşların üzərində həkk etdikləri naxış təsvirlərində dövrün dekorativ və təsviri görünüşü əksini tapmışdır. Məzarüstü abidələrin, baş daşı və sənduqələrin zəngin bədii tərtibatı Azərbaycanda vaxtilə çox mahir nəqqaş, xəttat, həkkakların olduğunu göstərir. Müxtəlif dövrlərdə Azərbaycanın ayrı-ayrı bölgələrində yaşamış ustalar özünəməxsus üslubu, orijinallığı ilə seçilirdi. XVII-XX əsrin əvvəllərində ən yaxşı xəttat, həkkak, nəqqaş və digər bədii daşyonma sənəti ustaları məzarüstü abidələrlə yüksək sənətkarlıq nümunələrini təqdim etmişlər [7, s. 12].

Azərbaycanda qəbirüstü abidələri bəzəyən təsvir motivləri xalqımızın maddi-mənəvi mədəniyyətinin xəzinəsinə daxil olan tarixi dövrlərdəndir. Orta əsrlərdə tanınmağa başlamış insanın ölümü ilə, eyni zamanda dini təfəkkürlə bağlı olan qəbirüstü abidələr, baş daşı, sinə daşı, sənduqə, memarlıq tikilisi olan türbələr mərhumun xatirəsini əbədiləşdirmək məqsədi daşıyırdı, bu baxımdan həmin abidələrin bədii tərtibatına xüsusi diqqət yetirmək zəruri etmişdir. Bununla da qəbirüstü abidələrin bədii tərtibatı sahəsindəki, işin özünəməxsus tarixi inkişaf ənənələri meydana çıxır. Bu, xüsusilə ictimai-tarixi dövrün, bədii-estetik ənənələri, sənətkarlıq məsələləri, dini ideologiya ilə sıxlı bağlı olmuşdur. Ona görə də Azərbaycan qəbirüstü abidələrinin bədii tərtibatının inkişaf təmayülü ibtidaidən başlayaraq aliyə doğru dinamik bir proses keçmişdir. Bu proses qəbirüstü abidələr üzərindəki kompozisiya həlli, simmetriya prinsipləri kimi ən mühüm bədii tərtibat cəhətlərində təsviri motivlərin icra texnikasında və s.-də təzahürünü tapır.

Qəbirüstü abidələrin bədii tərtibatına diqqətin güclənməsi bir tərəfdən mərhumun xatirəsi ilə bağlı idisə, digər tərəfdən hələ qədimdən əcdadlarımızın daşa olan müqəddəs inamı məsələsi ilə əlaqədar idi. Məhz bu inamın nəticəsi kimi daşı bəzəmək, ona nəqşlər vurmaq kimi daşişləmə sənətinin xüsusi bir sahəsi – daşoyma, həkkaklıq, nəqqaş və xəttatlıq sənət istiqamətləri meydana gəlir ki, bununla da ən maraq doğuran nümunəsi qəbirüstü abidələr hesab edilir. Qeyd edək ki, məzarların üzərində oyulmuş ornomental kompozisiyalar, təqdim edilmiş həndəsi və nəbati motivlər, müxtəlif tətbiqi sənətlərinin sahələrindən götürülmüşdür. Buna misal olaraq, xalça sənətindən götürülmüş haşiyə, medalyon, kənar, buta, çoxbucaqlı ulduzlar və başqa bu cür naxışlar çıxış edə bilər [4, s. 45]. Bu kompleksin məzarüstü daşlarının relyefləri üzərində dəfn edilən insanların peşəsinə aidiyyəti olan əşyalar da təsvir olunurdu. Dini kitabın, Quranın, möhürün və rəhlin təsvirləri bu mənada çox xarakterikdir. Bu cür təsvirlər din xadimlərinin, axund və şeyxin məzar daşlarının üzərində həkk edilirdi.

Məzar lövhələri mərhumun müxtəlif məşğuliyyətinin lal şahidləridir. Onların üzərində həkk olunmuş müxtəlif səhnələr kişilərin ən sevimli məşğuliyyəti ov səhnələrini təsvir edirdi. Ov səhnələrinin təsviri odlu və soyuq silahların təsvirləri ilə müşayiət edilirdi: tüfəng, tapança, nizə, oxlarla kaman, balta, bıçaq və s. Beləliklə, məlum olur ki, Azərbaycanda inkişaf etmiş orta əsrlərdə inşa edilmiş türbə, mavzoley, sənduqə, qəbirüstü abidələr öz bədii-estetik həlli ilə seçilirdilər. Orta əsrlər dövrü Azərbaycan tarixinin öyrənilməsində epiqrafik abidələrin mühüm yeri vardır. Xalq bir çox tarixi əhvalatları daş lövhələrə yazmaqla, abidələrin üzərində kitabələr həkk etməklə bir sıra ictimai-iqtisadi problemlərə, mədəniyyət tarixinə aid çox zəngin və qiymətli salnamələr qoyub getmişlər. Bütün orta əsrlər boyu şərq dünyasını Avropa ilə birləşdirən karvan ticarət yolları məhz Azərbaycandan keçirdi. O zaman bu yolların üzərində tikilmiş epiqrafik yazılar memarlıq abidələrinin nə vaxt tikildiyini, bu və ya başqa tikinti komplekslərinin ölkənin ictimai-siyasi həyatında nə kimi rola malik olduğunu, karvan ticarət yollarının hansı dövrdə daha da qaynar həyat keçirdiyini araşdırmaqdan ötrü ən dəqiq informasiya verən ilk mənbə hesab edilir [1, s. 113].

Bu sıradan Azərbaycanın ayrılmaz tarixi torpaqları olan Qarabağ və Zəngəzur diyarının epiqrafik abidələri vətən tariximizin öyrənilməsi üçün yüksək əhəmiyyətə malikdir. Qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tarix üzrə elmlər doktoru Ziya Bünyadov Urud kəndində olarkən bu abidələri tədqiq etməyi tövsiyə etmişdir. Alimlər arası birgə epiqrafik ekspedisiya zamanı Azərbaycan SSR alimləri tərəfindən Urud kəndindəki abidələr araşdırılıb, şəkilləri çəkilib və qeydiyyatı aparılmışdır. Urud abidələrinin epiqrafikası və relyef təsvirlər Alban dövlətinə aid olan Sünik ərazisində məskunlaşan Alban qəbilələrin türkləşdirilməsi prosesini nümayiş etdirir. Akademik Z.Bünyadov eləcə də Urud qəbiristanlığındakı qəbir daşlarının dini-milli mənsubiyyəti və tarixi əhəmiyyəti barədə dəyərli fikir söyləmişdir. Həmçinin Urud abidələri M.Nemətin "Azərbaycan memorial abidələri" kitabında öz önəmli yerini tutmuşdur [8, s. 5].

XX əsrin ən böyük araşdırmaçılarından olan epiqrafist, tarixçi və şərqşünas Məşədixanım Nemətin Azərbaycan epiqrafik abidələrinin öyrənilməsində böyük töhfələri vardır. 50 il ərzində Azərbaycanın diyarlarını qarış-qarış gəzərək abidələri bir-bir araşdırıb qeydə alan alim sonrakı illər ərzində zəhmətinin nəticəsi olan "Azərbaycan epiqrafik abidələr toplusu" adı ilə 6 cilddən ibarət kitab nəşr etdirmişdir. Bu kitablar Azərbaycan epiqrafikasının öyrənilməsi sahəsində baza rolunu oynayan kitablardan sayılır.

XVIII – XX əsrin əvvəllərində yaradılmış məzarüstü abidələrin araşdırılması hələ ötən əsrin ortalarından başlamışdır. Memorial abidələri bəzəyən relyeflərin tədqiqi Məşədixanım Nemətova tərəfindən 1950-ci illərdən başlamışdır. M.Nemətova sənətşünaslıq tarixində məlum olmayan bədii daşyonma sənəti məktəblərini, onun əsasını qoymuş ustaları, onların davamçılarınıın fəaliyyətinin xronoloji çərçivələrini və əsərləriniin yayıldığı sahələri müəyyənləşdirmişdir. Alimin məzarüstü abidələrə həsr olunmuş silsilə tədqiqatlarında məzar daşlarının üzərindəki epiqrafik yazıların mənası və əhəmiyyəti araşdırılmış, təsvir olunmuş müxtəlif səpkili təsvirlərin mənşəyi və semantikası açıqlanmışdır.

XX əsrin 60-70-ci illərində M.Nemətovanın Qarabağ və Zəngəzur mahalında apardığı epiqrafik elmi tədqiqatlar, regionunun bir sıra tarixi məsələlərinin həllində müstəsna əhəmiyyətə malik olmuşdur. Alimin Qarabağ diyarında, Cəbrayıl rayonunun Şıxlar kəndindəki el arasında "Şıx Baba piri" adı ilə tanınan ziyarətgahda apardığı epiqrafik elmi araşdırmalarla aydın olmuşdur ki, türbənin içərisində böyük alim, əzəmətli şeyx Şeyx Hüseynin oğlu Şeyx Əbdürrəhman dəfn edilib [3, s. 16]. Bu pir, məhz elə elm adamlarını vaxtilə Avropa ölkərinin yaxın şərq ilə birləşdirən "Böyük İpək Yolu" üzərində mövcud olmaqla intensiv həyat keçirmiş, mədəni-ideoloji, sosial, siyasi-iqtisadi mərkəzlərdən biri olan Xanəgahda xalqımızın müqəddəs yer kimi qoruduğu tarixin izlərində elmin və mədəniyyətin sirlərini açmağa çağırır. Şeyx Babanın məzar daşı üzərində farsca həkk edilmiş kitabədə deyilir: "Bildim ki, mənim taleyim mənim təbiətimdir, o da çox üzü dönükdür" [3, s. 17].

Azərbaycanın epiqrafik abidələrinə, eyni zamanda Azərbaycan torpaqları olan Zəngəzur mahalında da rast gəlinir. Bu mahalın Çuxursədd vilayətindəki Cəfərabad kəndində tədqiq edilmiş 8 bucaqlı türbə və onun kitabəsi maraq doğurur. Məlumatlara əsasən, bu yerdə Çuxursədd vilayətinin əmirlərinə məxsus bir neçə türbə binası tikilmiş, lakin bu türbələrin kitabələri mənfur ermənilər tərəfindən qəsdən dağıdılmışdır. Zamanında burada mövcud olan 1 müsəlman qəbiristanlığındakı tarixi abidələrdən də heç biri bu günümüzə qədər qalmayıb. Cəfərabad türbəsində vilayətin tanınmış 2 əmiri olan Pir Hüseyn və onun atası Əmir Səidin adları həkk edilmişdir [2, s. 40-41].

Zəngəzur mahalının Urud kəndindəki orta əsr qəbiristanlığında qalmış qoç şəkilli sənduqə formalı məzar daşları üzərində professor M.Nemətovanın 1961-1962-ci illərdə apardığı elmi-tədqiqatlar, alimin epiqrafika elmində demək olar ki, 50 illik araşdırmalarının ən mühüm yeniliyi hesab edilir. M.Nemətovanın Urud qəbiristanlığındakı tədqiqatları nəticəsində daşlar üzərində ərəb qrafikasında həkk olunmuş kitabələrin, İslam dini ilə əlaqədar duaların və qədim türkdilli tayfaların dini ayinləri ilə əlaqədar onqonların sirli qalan məqamları üzə çıxarılmışdır. Alimin epiqrafika elmi sahəsindəki Urud kəşfləri xalqımıza qarşı torpaq iddasında olan ermənilərə tutarlı cavab olmaqla Azərbaycanın tarixi ərazi bütövlüyünün müdafiə edilməsi prinsiplərini də əsaslandırmış və beləliklə, Cənubi Qafqazda yeni tarixi konsepsiyasının əsasını qoymuşdur. Zəngəzurun Urud qəbiristanlığındakı kəndxuda Şıx Rzanın oğlu Əmrusəlin sənduqə formalı, miladi 1478-ci il tarixli bir məzar daşında ərəbcə "Allah, Məhəmməd, Əli min evladi uğvan" (ağvan-uğvan Alban deməkdir) sözlərinin həkk edilməsi və bu tip kitabələrin XVII əsr sənduqələrində də təkrarlanması bu abidələrin Azərbaycan tarixşünaslıq elmində mühüm əhəmiyyətə malik olduğunu ortaya çıxarır. Bu sözlər 1578-1579-cu il tarixli Əmirəmin oğlu İftixarın qoçşəkilli xatirə abidəsinin sağ tərəfində də təkrar olunub.

1926-cı ildə A.Ələkbərov tərəfindən aşkar olunan Urud abidələrinin XX əsrin 60-cı illərində geniş tədqiqi ilə sübut olunmuşdur ki, bu məzar daşlarındakı epitafiyalar və təsvirlər vaxtilə Qafqaz Albaniyası ərazisi olan Sünikdə yaşamış Ağvanların müsəlmanlığı qəbul etməsinə dəlalət edir [2, s. 42]. Urud kitabələri üzərindəki epitafiyalar təhlil ediləndən sonra məlum olub ki, alban tayfaları İslam gələndə müsəlmanlığı qəbul edərək bugünkü Azərbaycan xalqının təşəkkül tapmasında iştirak etmişlər [8, s. 18].

Bir dəfə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasında alimlərlə birgə keçirilmiş iclasların birində professor M.Nemətova çıxış edərək Zəngəzurun Urud abidələri və bu qəbiristanlığın ermənilər tərəfindən vəhşicəsinə qəsdən dağıdılması haqqında həqiqətləri ölkə rəhbərinin diqqətinə çatdırmışdır. Alim qeyd etmişdir ki, Urud qəbiristanlığı tarixin böyük bir məsələsinin üstünü açıb. Belə ki, bütün tarixçilər İslamın Qafqaza gəlişinə qədər xaçpərəst olan alban tayfalarının ermənileşməsi və gürcüləşməsi haqqında yazırdılar. Akademik Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" adlı əsərində yazır ki, "...necə oldu ki, Zəngəzur mahalında yaşayan tayfalar Qriqorian xaçını qəbul edib ermənileşdirilən, gürcü xaçını qəbul edib gürcüləşdilər. Bəs bunların türkləşəni, islamı qəbul edəni olmadımı?!" Urud məzarlarının tədqiqi də tarixin bu qaranlıq səhifəsini üzə çıxardı. Məhz burada Oğuz, Türk tayfalarına aid daşlar üzərindəki təsvirlər araşdırılmaqla bu suala cavab tapılmış oldu [5, s. 22].

1990-cı ildə M.Nemətova erməni alimləri Akopyanı, Papazyanı, Arekelyanı, Xaçaturyanı susdurmuş, onların Urud qəbirlərinin ermənilərə aid olması haqqındakı iddialarının saxta olduğunu sübut etmişdir. Erməni alimi Akopyan M.Nemətovaya qarşı iddialarla çıxış etməyə başlamış və demişdir ki, "...xeyr, siz səhv edirsiniz, Əmir Teymur orta asiyadan gələndə bu tayfalara zorla İslamı qəbul etdirib. Burada xəttatın səhvi var, xəttat savadsız olub və Məşədixanım da səhv oxuyub". Daha sonra ermənilər traktorlarla qəbiristanlığı məhv etməyə başlayıblar. M.Nemətova Papazyana cavab məktubu yazaraq deyib ki, "...əgər Urud qəbiristanlığı erməni abidəsi idisə bəs nəyə görə o qəbiristanlığı dağıtdınız, məhv etdiniz, viran qoydunuz?! Əgər siz o məzar daşlarının ermənilərə aid olduğunu sübut edə bilsəydiniz, bu gün də onu şüşənin içinə salıb əldən-ələ bütün dünyanı gəzdirərdiniz ki, baxın bu bizim tariximizdir. Çünki sübut edə bilmədiniz. Xəttat düz yazmışdı. Məşədixanım da düz oxumuşdu".

Bütün bu qeyd olunanlar, əlbəttə ki, Azərbaycanın tarixi, əzəli torpaqlarının epiqrafik abidələri haqqında yazılan az bir qismidir. Qarabağda və onun ətrafında yüzlərlə məzar daşları və onlar üzərindəki epitafiyalar öz varlığını qoruyub saxlamaqdadır. Baxmayaraq ki, işğal dövründə ermənilər tərəfindən çox dağıntılara və tələfata məruz qalan İslam dini abidələri, yəni məscidlər, türbələr və dini inanc yerləri olmuşdur. Şüphəsiz ki, işğal olunmuş ərazilərdə qalan və İslam dövrünə aid olan tarixi abidələrin ermənilər tərəfindən xüsusi amansızlıqla dağıdılmasının əsas səbəbi onların üzərində olan müsəlman epiqrafikasında yazıların olması ilə izah edilə bilər. Çünki bu abidələri ermənileşdirmək və qeyri-Azərabaycan abidələri kimi təqdim etmək mümkün olmadığı üçün onlar bu cür vəhşiliyə əl atıblar [6].

Qüdrətli Azərbaycan dövləti və onun şanlı ordusunun tarixi qələbələri ilə düşmən işğalından azad olunmuş o müqəddəs torpaqlarımızda yaxın gələcəkdə epiqrafik abidələr yenidən qeydə alınacaq və bu abidələrdə genişmiqyaslı elmi-tədqiqatlar aparılacaqdır.

ƏDƏBİYYAT

1. Nemət, M. Azərbaycan epiqrafik abidələri toplusu. I cild, Bakı: 1948
2. Nemətova, M. Əsrlərin daş yaddaşı. Bakı: 1987
3. Nemətova, M. Azərbaycanda pirlər. Bakı: 1992
4. Əfəndi, R. Azərbaycanda dekorativ tətbiqi sənəti. Bakı: 1999
5. ADMİU "Mədəni irsin qorunmasının aktual problemləri" Beynəlxalq elmi praktik konfransın materialları, Bakı: 2022
6. "Azərbaycan" qəzeti, 30 yanvar 2021
7. "Elm və həyat" jurnalı, 1986-cı il,№ 12
8. Bağırova, D. XVII-XX əsrin əvvəli Azərbaycan məzarüstü abidələrinin bədii tərtibatı. Avtoreferat, Bakı: 2018

ABSTRACT

Zenfira SEYIDOVA

EPIGRAPHIC MONUMENTS OF ZANGEZUR

The article discusses some of the epigraphic monuments dating from the Islamic period in Zangezur, which is one of the historical and eternal lands of Azerbaijan. The inscriptions on mausoleums and tombstones bearing the names of prominent figures of Islam demonstrate the significance of this region. Scientific research to be conducted on the surviving monuments in the territories liberated from occupation will provide further scholarly contributions to the study of Azerbaijani history.

Keywords: *Zangezur, monuments of the Islamic period, mausoleum, sarcophagus, epigraphy, ram-shaped monuments, tombstones.*

QƏRBİ AZƏRBAYCANIN MENTAL DƏYƏRLƏRİNİ YAŞADAN FOLKLOR ÖRNƏKLƏRİNİN JANR İMKANLARI

Bilal HÜSEYNOV
bilalalarli58@mail.ru
ORCID iD: 0000-0002-2249-6487
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Folklor xalqın tarixi yaddaşıdır. Xalq bütün zamanlarda yaşantılarını və həyat tərzini folklora köçürməyə çalışmışdır. Əlbəttə, dinc dövrlərdən fərqli olaraq, müharibələr, münaqişələr və təbii fəlakətlər folklorda daha çox yer almışdır. Bu da həmin hadisələrin xalqın həyatında oynadığı potensial dəyişikliklərlə bağlıdır. Belə hadisələrdən biri Azərbaycan xalqının uzun illər boyunca düçar olduğu məhəlli münaqişələrdir, daha konkret desək, ermənilərin vaxtı ilə qucağına sığındığı bu xalqa qarşı olan torpaq iddialarının acı nəticələridir. İllərcə qoşub-düzdüyü həyatını və həyətini olduğu kimi qoyub çıxan qaçqın və köçkün ailələri özləri ilə yalnız bir sərvəti götürə bilirlər. Bu, xalqın yüzillər boyunca formalaşmış, təkmilləşmiş, kamilləşmiş söz yaradıcılığı – folklordur. Folklor tarixi olayların söz yaşantısıdır. Xalqı özünə qaytaran, mənəviyyatına bağlayan, adətinə-ənənəsinə sədaqətli edən folklor həm də şəxsiyyət bəlirtisi, kimlikdir. Folklor örnəklərindəki başlıca amillərdən biri də qaçqınların və köçkünlərin doğma yurd-yuvalarına dönmək inamına köklənir. Nə qədər ağrılı mövzu olsa da, folklor örnəyini yaradanlar ədalətin qələbə çalacağına, Azərbaycan türklərinin doğma diyarlara qayıdacağına, torpaqlarımızın işğaldan azad olunacağına ümidlərini itirmirlər. Böyük psixoloji zərbələr almış, yurdunu-yuvasını itirmiş qaçqın və köçkünə ən yaxşı dəstək onun mənəvi sərvətini özünə qaytarmaqdır. Qərbi Azərbaycandan toplanmış folklor örnəkləri bu məqsədə xidmət edir.

Açar sözlər: *Qərbi Azərbaycan folklorunun janr imkanları, mental dəyərləri yaşadan folklor örnəkləri*

Motiv

Folklor xalqın tarixi yaddaşıdır. Xalq bütün zamanlarda yaşantılarını və həyat tərzini folklora köçürməyə çalışmışdır. Əlbəttə, dinc dövrlərdən fərqli olaraq müharibələr, münaqişələr və təbii fəlakətlər folklorda daha çox yer almışdır. Bu da həmin hadisələrin xalqın həyatında oynadığı potensial dəyişikliklərlə bağlıdır. Belə hadisələrdən biri Azərbaycan xalqının uzun illər boyunca düçar olduğu məhəlli münaqişələrdir, daha konkret desək, ermənilərin vaxtı ilə qucağına sığındığı bu xalqa qarşı olan torpaq iddialarının acı nəticələridir. İllərcə qoşub-düzdüyü həyatını və həyətini olduğu kimi qoyub çıxan qaçqın və köçkün ailələri özləri ilə yalnız bir sərvəti götürə bilirlər. Bu, xalqın yüzillər boyunca formalaşmış, təkmilləşmiş, kamilləşmiş söz yaradıcılığı – folklordur. Folklor tarixi olayların söz yaşantısıdır. Xalqı özünə qaytaran, mənəviyyatına bağlayan, adətinə-ənənəsinə sədaqətli edən folklor həm də şəxsiyyət bəlirtisi, kimlikdir.

Material və metodlar

Araşdırmanın materialını Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Göyçə, Qaraqoyunlu, Zəngəzur və Dərələyəz bölgələrindən toplanmış nümunələr, bu nümunələr əsasında yazılmış elmi məqalələr və konfrans materialları təşkil edir. İlkin istinad mənbəyi kimi "Qərbi Azərbaycan folkloru" iki cildliyindəki [7; 8] toplama materialları əsas götürülür. Toplanmış folklor materiallarının tematik xüsusiyyətləri və janr özəllikləri araşdırılır, həmin nümunələrin milli mental dəyərlərlə əlaqəsinə diqqət yönəldilir. Araşdırma tədqiqat, təsvir və müqayisə metodlarına əsaslanır.

Əldə olunan nəticələr

Qərbi Azərbaycanın folklor örnəklərinin öz "bətnində" yaşatdığı milli mental dəyərlər:

– Folklorun ayrı-ayrı janrları ədəbi ənənələri (növ və janr imkanlarını) gələcək nəsillərə ötürür;
– Folklor örnəkləri dilin söz ehtiyatlarını, dialektal xüsusiyyətlərini qoruyub saxlayır;
– Folklor örnəkləri etnoqrafik mənbədir, onda milli adətlər, davranış mədəniyyəti, əxlaqi prinsiplər, ibrətamiz fikirlər öz əksini tapır;
– Folklor örnəkləri yer-yurd adlarının, coğrafi məkanların mənsubluq kateqoriyasının yaddaşlardan silinməsinin qarşısını alır, toponimik rəvayətlərdə və əfsanələrdə, dastanlarda etnoməkan çərçivəsində qoruyub yaşadır;

– Folklor örnəkləri memuariatik xarakterdədir, xatirə, əhvalat, rəvayət janrlarında tarixi hadisələrə, siyasi münasibətlərə, şəxsiyyət amilinə şifahi söz sərvəti vasitəsi ilə işıq salır;
– Folklor örnəkləri elin-obanın yaradılış, yaşam göstəricilərini (toydan yasadək olan ənənələri nəsillərdən-nəsillərə ötürən janrlar və janrdaxili dəyişmələr çərçivəsində) sənədləşdirir və möhürləyir;
– Folklor örnəkləri xalqın iqtisadi həyatının, idarəetmə prinsiplərinin (el ağsaqqalı obrazlarında) göstəricisidir;
– Folklor örnəkləri patriotizm mənbəyidir, Vətən sevgisini, mübarizlik ənənələrini təbliğ edən ən güclü təsir vasitəsidir;
– Folklor örnəkləri milli kimlik sənədidir, dini mənsubiyyətin daşıyıcısıdır.

Müzakirə

Qərbi Azərbaycan folklor örnəklərinin öyrənilməsi bölgə tarixinin öyrənilməsi deməkdir. Folklor tarixi yaddaşın bərpasına, milli kimliyin təsdiqinə xidmət edir. Münaqişə qurbanlarının ailə üzvlərinə psixoloji-mənəvi dəstək göstərmək məqsədilə onların söz sərvətini itib-batmaqdan xilas etmək vacib şərtdir. Folklor insanların öz yaddaşlarında qoruyub saxladıqları bir mənəvi sərvətdir, vaxtında toplananda bu söz yaşantılarını həyat tərzinə çevirmiş insanlar dünyalarını dəyişdikdə öz sinələrində aparmırlar, gələcək nəsillərə ərməğan qoyub gedirlər.

Ermənilər əzəli Azərbaycan torpaqlarına ayaq açdıqları vaxtlardan türkün söz sənətinə də yiyə durmağa çalışmış, ilkin olaraq folklorunu mənimsəmək istəmişlər. Çoxlu sayda erməni "folklor" nümunələri var ki, əslində bu nümunələr Azərbaycan türklərinin dilindən ermənicəyə tərcümə olunmuş örnəklərdən ibarətdir. Həm torpağı, həm də mənəviyyatı işğal etməyə yönəlmiş bu əməllər Azərbaycan xalqını öz milli söz sənətinə sahib çıxmağa, mənəvi sərvətinə yiyə durmağa səsləyir.

Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Göyçə, Qaraqoyunlu bölgələrindən toplanmış nümunələrin növ və janr təyinatının araşdırılmasına böyük ehtiyac vardır. Bölgədən toplanılan nanaylar, acı-qınılar (acıtmalar), lağamalar (ayamalar), boranlar [1, s.34-37; s.44-46; s.208-213], bəxtaçmalar, papaqaltılar və yaylaqaltılar, tırınqılar, deyimlər [4, s. 35-37; s.261-282], İrəvan folklorunda yallıbaşılar, haxıştalar [5, s.69; s.394-401], Qaraqoyunlu folklorunda yasaqlar, yalvarışlar [3, s.34-38; s.63-65], Göyçə folklorunda sicilləmələr [2, s. 711-716] janr təyinatına görə ətraflı araşdırma tələb edir.

Folklor nümunələrini danışanlar həmin toponimin harada yerləşməsini, ətrafını, təbiətini də təsvir edən hekayətlər danışırlar. Bu yer-yurd adlarının sözaçımları həmin ərazidə yerli əhalinin "etnik bünövrəsinin kimliyini" təsdiq edir [12, s. 30]. Nisgil, həsrət bayatılara, nəğmələrə ayaq açandan el dərdi çəkənlərin qürbətdəki məzarları sayını itirdi:

Mən aşiq, Göyçə dərdi,
Bəxt məndən üz döndərdi.
Yurdsuz-yuvasız oldum,
Qaçqın edib göndərdi.

Eləmi, göy çəməni,
Göy dağı, göy çəməni.
Sabah, ya da başqa gün
Gözləyir Göyçə məni [12, s.163].

Qaçqın və köçkünlərdən əldə edilmiş folklor nümunələrində janr rəngarəngliyi də diqqəti çəkir. Məsələn, Qərbi Azərbaycanda qaçqınlıqla bağlı qoşmalar müsibətnamə adlanır:

Ağbaba köyləri boşaldı bir-bir,
Boş otaq, boş xana, obalar qaldı.
El köçdü, tərpəşdi, düşdü yollara,
Ocaqlar üstündə tavalar qaldı [12, s.153-154].

Dərələyəz folklor nümunələrini toplayan mərhum professor Həsən Mirzəyev Azərbaycan şifahi xalq ədəbiyyatını janr baxımından bir qədər də zənginləşdirmişdir. Onun yazıya aldığı yasaqlar [10, s.54-57], hədə-qorxular [10, s.72-73), yalvarışlar (10, s.73], söyüşlər [10, s.73), lağlar (10, s.73-75], öyüd-nəsihətlər və məsləhətlər [10, s.79], sızlamalar [10, s.116-117] janr baxımından ilk dəfə öyrənilir. Sızlamalar ağının bir növü kimi təzahür edir, vəfat edən şəxs üçün həzin-həzin, astadan xüsusi avazla ifa olunur:

Gözləri ağlar qoydun,
Qolları bağlar qoydun.
Evin yıxılsın, düşmən,
Sinəmi dağlar qoydun.
Bu dağlara çən düşdü,
Yel əsdi duman düşdü.
Balamı öldürdülər,
Canıma talan düşdü [10, s.116]

Həsən Mirzəyevin yazıya aldığı *andlar, hədə-qorxular, yalvarışlar, söyüşlər, lağlar, öyüd-nəsihətlər və məsləhətlər, sızlamalar* janr baxımından ilk dəfə araşdırılır. Lağları və atmacaları bir başlıq altında təqdim edən Həsən Mirzəyev əslində onların eyni mahiyyət daşıdığını bildirir və bir-birindən fərqləndirmir. *Vəsflər, bənzətmələr və deyimləri* ayrıca janr kimi təqdim edən Həsən Mirzəyev frazeoloji birləşmələrə üz tutur, onların folklor çalarını izah edir. Qərbi Azərbaycanda, o cümlədən Dərələyəz bölgəsində lətifə gülməcə janrı kimi tanınır. Təmsillər isə həm nəsr, həm də nəzm şəklindədir. *Ovsunlar* tətbiq olunan folklor janrıdır.

Dialektal xüsusiyyətlərin gözlənilməsi həmin folklor örnəkləri əsasında Dərələyəz bölgəsinin şivəsini öyrənməyə imkan verir. Çillələrlə bağlı çoxsaylı mətnlərdən birində deyilir: Böyük Çiləynən Kiçik Çilə bacıdılar. Kiçik Çilə Böyük Çilədən soruşur ki, getdin neynədin? Böyük çilə deyir ki, getdim camahatın dənnərini üyütdüm, qavırmalarını elədim, qalaxlarını yardım, çörəklərini bişirib gəldim. Kiçik Çilə deyir ki, kül başına. Mən gedijam qocaları təndirdən basıp küflədən çıxarıjam. Hayıf ki, ömrüm azdır [10, s.24-25].

Həsən Mirzəyev toponimlərin leksik-semantik və qrammatik xüsusiyyətlərinin, ermənilər tərəfindən təhrif olunması səbəbini və reallığını göstərir, Azərbaycan türklərinin bu bölgənin avtoxton əhalisi olmasını etimoloji təhlillərlə sübut edir. [10, s.4-9]. O, Qərbi Azərbaycan toponimlərini araşdırarkən elmi mənbələrlə yanaşı, folklor nümunələrinə də müraciət edir, oronim, hidronim və oykonimlərlə bağlı əfsanə və rəvayətləri, xalq yozumlarını da araşdırır [9, s.478-482]. Həsən Mirzəyev etnonim, etnotoponim, antrotoponim, hidrotoponim kimi onomastik vahidlərin xarakterik xüsusiyyətlərini el deyimləri, xalq yozumları ilə qarşılıqlı şəkildə öyrənir. Dərələyəz mahalının şivə sözlərinə diqqət çəkən Həsən Mirzəyev ifadələrin folklor qatına enir və bu əsasda onların lüğətini yaradır [9, s.483-512].

Həsən Mirzəyevin Dərələyəzlə bağlı yazıya aldığı hadisə və əhvalatlar janr baxımından folklorla tarixi birləşdirir. Maraqlısı isə budur ki, hadisə ayrıca janr təsiri bağışlayır və bir hadisədə bir neçə tarixi məqam öz əksini tapır. Hadisə isə toponimik rəvayət xarakterlidir [9, s.609-610]. Hadisə janrının bir qismi aşıq rəvayətini xatırladır, lakin onlarda tarixi əhvalatlara daha çox diqqət yetirilir. Göyçəli Aşıq İmanla Qovuşuqlu Axund Əlinin söhbəti və sazın qələbəsi hadisəsində xatirə nümunələrinə müraciət olunur [9, s.613-615].

Qərbi Azərbaycan folklor nümunələri içərisində janr özəlliyi ilə fərqlənən nanaylar, bağlamalar, müəmma-bağlamalar sonradan yazıya alınsa da, xalqın şifahi təfəkküründün zəngin çalarları kimi özünü göstərir [11, s.146-157].

Zəngəzur bölgəsindən toplanmış folklor örnəkləri içərisində janrdaxili dəyişmələr məruz qalan nümunələr kimi *xatirələri (memuaratları), hekayətləri, deyimləri, dodaqqaçmaları, dini rəvayətləri (hədisləri), dini nağılları, novellavari nağılları, nağıl-hekayətləri, nağıl-dastanları, tapınaqları, acılamaları və diləkləri* göstərmək olar. Xatirələr miflər, əfsanələr və rəvayətlərlə birlikdə təqdim olunur və verilən mətnlərin hansının mif, hansının əfsanə və rəvayət olduğu bilinmir. *Xatirənin janr çalarını müəyyənləşdirmək* üçün mətnin məzmunu və tarixlə bağlılığı əsas götürülə bilər. Məsələn, "Cəbrayıl ata ocağı (Cəbrayıl rayonu)" adlı mətn bir nəslin şəcərəsini verdiyi üçün xatirə sayılır: "Cəbrayıl ata şıx olubdu. Altı oğlu olub: Mahmud, Alı, Maşan, Mirzəcan, Yarəhməd, Hasan. Mahmudlu, Alıkeyxalı, Maşannı, Mirzəcannı, Əhmətdilər, Hasannı kətdəri onun oğlanlarının törəmələridi" [13, s.57]. Elə buradaca təqdim olunan digər oxşar xatirə də əvvəlki mətni tamamlayır: "Cəbrayıl ata, Ağ oğlan, Comatil (Cəbrayıl rayonu) qardaş olublar" [13, s.58]. Göründüyü kimi, xatirə mətnləri əslində ensiplopedik xarakterdədir və şəcərə ilə eyniyyət təşkil edir. Tədqiqatçılar memuaratların bir janr kimi xronikal məlumat və fabulat kimi şəkillərdə özünü göstərdiyini yazırlar [13, s.28].

Xatirələr kimi tarixi hadisələrlə və tarixi şəxsiyyətlərlə, həmçinin müxtəlif türk tayfaları ilə bağlı məlumatları özündə qoruyub saxlayan rəvayətləri də həqiqətləri yaşadan janr saymaq olar. *Dini rəvayətlər* müqəddəslər, övliyalar, seyidlər, pirlər, ocaqlar haqqında olan hədislərdən ibarətdir. Belə rəvayətlər beynəlmiləl və lokal səciyyəlidir. Beynəlmiləl səciyyəli rəvayət mətnləri (hədislər) "ümumilikdə islam dünyagörüşü ilə" bağlıdırsa, lokal (məhəlli) səciyyəli rəvayət mətnləri Zəngəzur bölgəsinin konkret dini şəxsiyyətləri, dərvişləri, övliyaları, həmçinin ziyarətgahları haqqındadır [13, s.4].

Nəticə

Folklor örnəkləri mental münasibətləri sözdə əbədiləşdirir. Qərbi Azərbaycanda, Qarabağın işğal olunmuş ərazilərində *"ənənəvi yaşam tərzinə söykənən baba-nənə, ata-ana, bacı-qardaş, əmi-bibi, xala-dayı, qohum-qonşu, ağsaqqal-ağbirçək kimi ailə münasibətləri"* haqqında poetik məlumatlar əvəzsiz mənbələrdir. Məhəllədə, kənddə milli ailə formaları və onları qoruyan *yasaqlar, tabular* folklor örnəklərində daha möhkəm görünür. Mənəviyyatı yaşayan xalq heç vaxt diz çökmür.

Folklor örnəklərindəki başlıca amillərdən biri də qaçqınların və köçkünlərin doğma yurd-yuvalarına dönmək inamına köklənir. Nə qədər ağrılı mövzu olsa da, folklor örnəyini yaradanlar ədalətin qələbə çalacağına, Azərbaycan türklərinin doğma diyarlara qayıdacağına, torpaqlarımızın işğaldan azad olunacağına ümidlərini itirmirlər. Böyük psixoloji zərbələr almış, yurdunu-yuvasını itirmiş qaçqın və köçkünə ən yaxşı dəstək onun mənəvi sərvətini özünə qaytarmaqdır. Qərbi Azərbaycandan toplanmış folklor örnəkləri bu məqsədə xidmət edir.

ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası, III cild (Ağbaba folkloru). Toplayanı və tərtibçisi: Sürəyya Ağbabalı. – Bakı: Azərnəşr, – 1997. – 256 s.
2. Azərbaycan folkloru antologiyası, III kitab (Göyçə folkloru). Toplayanı, tərtib edəni və ön sözün müəllifi: Hüseyn İsmayılov. – Bakı: Səda, – 2000. – 768 s.
3. Azərbaycan folkloru antologiyası, VII kitab (Qaraqoyunlu folkloru). Toplayıb tərtib edənlər: Hüseyn İsmayılov və Qurban Süleymanov. – Bakı: Səda, – 2002. – 464 s.
4. Azərbaycan folkloru antologiyası, VIII kitab (Ağbaba folkloru). Toplayıb tərtib edənlər: Hüseyn İsmayılov və Tacir Qurbanov. – Bakı: Səda, – 2003. – 476 s.
5. Azərbaycan folkloru antologiyası, X kitab (İrəvan çuxuru folkloru). Toplayıb tərtib edənlər: Hüseyn İsmayılov və Əziz Ələkbərli. – Bakı: Səda, – 2004. – 472 s.
6. Azərbaycan folkloru antologiyası, XII kitab (Zəngəzur folkloru, I cild). Toplayıcılar: Vəli Nəbioğlu, Muxtar Kazımoğlu, Əfzələddin Əsgər. Ön sözün müəllifi Əfzələddin Əsgər. Tərtib edənlər: Əfzələddin Əsgər, Muxtar Kazımoğlu. – Bakı: Səda, –2005. – 464 s.
7. Qərbi Azərbaycan folkloru, I cild. – Bakı: Elm və təhsil, – 2023. – 400 s.
8. Qərbi Azərbaycan folkloru, II cild. – Bakı: Elm və təhsil, – 2023. – 414 s.
9. Mirzəyev, H. Əsərləri, I cild. Qərbi Azərbaycanın Dərələyəz mahalı. – Bakı: Elm, – 2004. – 856 s.
10. Mirzəyev, H. Əsərləri, VIII cild. Dərələyəz folkloru. – Bakı: Elm, –2006. – 768 s.
11. Səmimi T. Gülsehran. – Bakı: AKE NPM, – 2013. – 328 s.
12. Səmimi T., Göyçəli Q. Zərkənd. –Bakı: AKE NPM, – 2013. – 328 s.
13. Zəngəzur folklor örnəkləri. I cild. Tərtibçi İlkin Rüstəmzadə. – Bakı: Elm və təhsil, – 2021. – 356 s.

ABSTRACT

Bilal HUSEYNOV

GENRE POSSIBILITIES OF FOLKLORE EXAMPLES THAT PRESERVE THE MENTAL VALUES OF WESTERN AZERBAIJAN

Folklore is the historical memory of the people. People have always tried to transfer their lives and lifestyle to folklore. Of course, in contrast to peaceful times, wars, conflicts and natural disasters are more prominent in folklore. This is related to the potential changes that those events played in the lives of the people. One of such events is the local conflicts that the people of Azerbaijan have faced for many years, more specifically, the bitter consequences of the land claims against this people, which the Armenians took refuge in. Refugee and displaced families, who leave their homes and their homes as they have been for years, can take only one wealth with them. This is the word creation of the people formed, improved and perfected over the centuries - folklore. Folklore is the oral history of historical events. Folklore, which brings people back to themselves, binds them to their spirituality, and makes them loyal to their traditions, is also a sign of personality and identity. One of the main factors in folklore examples is rooted in the belief of refugees and displaced persons to return to their native lands. No matter how painful the subject, the creators of the folklore example do not lose hope that justice will prevail, that Azerbaijani Turks will return to their native lands, and that our lands will be freed from occupation. The best support for refugees and displaced persons who have suffered great psychological blows and lost their home is to restore their spiritual wealth. Folklore examples collected from Western Azerbaijan serve this purpose.

Keywords: *Genre opportunities of Western Azerbaijani folklore, examples of folklore that keep mental values alive*

QƏRBİ AZƏRBAYCANIN UNUDULMUŞ YEMƏKLƏRİ

Rəsmiyə TAĞIYEVA
resmiye_tagiyeva@yahoo.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycan uzun illər boyu öz zəngin tarixi və mədəni irsi ilə tanınmış bölgələrdən biri olmuşdur. Bu bölgə xüsusilə özünəməxsus yemək mədəniyyəti ilə seçilmişdir. İrəvan mətbəxi minilliklərə gedib çıxan zəngin irsə malik olmuşdur. Xalqımız bu mədəniyyəti qoruya-qoruya gələcək nəsillərə ötürmüşlər. Bu gün də mətbəxə aid unudulmaqda olan yeməklər vardır ki, məqalədə bu yeməklər haqqında geniş söhbət açılmışdır. İrəvan mətbəxində əsasən heyvandarlıq və bitki mənşəli yeməklərə üstünlük verilmişdir. Bitki mənşəli yeməklər içərisində taxıl bitkilərdən hazırlanmış yeməklər daha çox üstrünlük təşkil etmişdir. Bundan əlavə, bitki mənşəli məhsullardan tərəvəz məhsulları da xüsusi yerlərdən birini tutmuşdur. Digər etnoqrafik bölgələrində olduğu kimi, Qərbi Azərbaycan, eləcə də İrəvan bölgəsində də yeməklər iki qrupa bölünür: gündəlik yeməklər və mərasim yeməkləri. Mərasim yemək̆ləri hazırlanma texnologiyası, həcmi, tərkibinin kaloriliyi, çeşidin müxtəlifliyinə görə gündəlik yeməklərdən əsaslı surətdə fərqlənirdi. Yeməklərin hazırlanması fəsillərə görə də dəyişmişdir. Bitki mənşəli yeməklər insan həyatında ilk dövrlərdən mühüm rol oynamışdır. İnsanlar qış fəslini başa vurub yaz fəslinə qədəm qoyduqda, ərzaq məhsullarının tükəndiyi bir vaxtda daha çox bitki (yabanı) mənşəli yeməklərlə qidalanırdılar. Yabanı bitkilərlə qidalanmaq əcdadlarımızın ilkin çağları ilə, əsas məşğuliyyətləri yığıcılıq olduğu bir zamanla səsləşir. Yeməklərin tarixinə nəzər salsaq, görərik ki, qida insanın yaranması ilə meydana gəlmişdir. Onlar əvvəlcə bunu təbiətdən hazır şəkildə almış, sonralar isə zaman dəyişdikcə, insan şüuru təkmilləşdikcə, özləri çeşidli yeməklər hazırlamaq vərdişinə yiyələnmişlər. Bu baxımdan hər bir xalqın mətbəx mədəniyyəti həmin xalqın maddi mədəniyyətinin əsas tərkib hissələrindən birini təşkil edir.

Açar sözlər: *mətbəx, yemək, xörək, bitki, süd, ət*

Giriş

Xalqımız uzun illər boyu öz zəngin tarixi və mədəni irsi ilə tanınmış bölgələrdən biri olmuşdur. Xalqımız bu mədəniyyəti, mədəni irsi qoruya-qoruya bu günə gəlib çıxmışdır.

İrəvan mətbəxində əsasən heyvandarlıq və bitki mənşəli yeməklərə üstünlük verilmişdir. Bitki mənşəli yeməklər içərisində taxıl bitkilərindən hazırlanmış yeməklər daha çox üstünlük təşkil etmişdir. Bundan əlavə, bitki mənşəli məhsullardan tərəvəz məhsulları da xüsusi yerlərdən birini tutmuşdur.

Digər etnoqrafik bölgələrində olduğu kimi, İrəvan bölgəsində də yeməklər iki qrupa bölünür: gündəlik yeməklər və mərasim yemək̆ləri. Mərasim yemək̆ləri hazırlanma texnologiyası, həcmi, tərkibinin kaloriliyi, çeşidin müxtəlifliyinə görə gündəlik yeməklərdən fərqlənirdi.

Yuxarıda qeyd etmişdik ki, yeməklər heyvan və bitki mənşəli olmaqla iki qrupa ayrılır. Qeyd etmək lazımdır ki, yeməklərin hazırlanması fəsillərə görə də dəyişmişdir. Bitki mənşəli yeməklər insan həyatında ilk dövrlərdən mühüm rol oynamışdır. İnsanlar qış fəslini başa vurub yaz fəslinə qədəm qoyduqda, ərzaq məhsullarının tükəndiyi bir vaxtda daha çox bitki (yabanı) mənşəli yeməklərlə qidalanırdılar. Yabanı bitkilərlə qidalanmaq əcdadlarımızın ilkin çağları ilə, əsas məşğuliyyətləri yığıcılıq olduğu bir zamanla səsləşir.

Qərbi Azərbaycan mətbəxi haqqında. Azərbaycan Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov deyir: "Azərbaycan mətbəxi dedikdə yalnız xörəklər, onların bişirilmə qaydaları deyil, həm də tarix, fəlsəfə, süfrə psixologiyası, adət-ənənələr, xalqın etika və estetikası və sair bu kimi amilləri ahəngdar surətdə birləşdirən mətbəx mədəniyyəti başa düşülür" [1, s.59]. Bunu İrəvan mətbəxinə də aid etmək olar.

Yeməklərin tarixinə nəzər salsaq, görərik ki, qida insanın yaranması ilə meydana gəlmişdir. Onlar əvvəlcə bunu təbiətdən hazır şəkildə almış, sonralar isə zaman dəyişdikcə, insan şüuru təkmilləşdikcə, özləri çeşidli yeməklər hazırlamaq vərdişinə yiyələnmişlər.

Qərbi Azərbaycan bölgələrinə xas oan yeməklər öz rəngarəngliyi, çox çeşidliyi ilə diqqəti cəlb etmişdir. Azərbaycanın bütün bölgələrində olduğu kimi, İrəvan mətbəxində də əsasən heyvandarlıq və bitki mənşəli yeməklər üstünlük təşkil etmişdir. Bitki mənşəli yeməklər içərisində taxıl bitkiləri daha çox olmuşdur. Bundan əlavə, bitki mənşəli məhsullardan tərəvəz məhsulları ilə hazırlanmış yeməklər xüsusi yer tutmuşdur. Heyvan mənşəli məhsullar isə ət yemək̆ləri və süd məhsulları olmaqla iki yerə ayırmaq mümükündür. Ancaq onu

demək olmaz ki, Qərbi Azərbaycanda əkinçiliklə məşğul olanlar daha çox əkinçilik məhsulları, heyvandarlıqla məşğul olanlar təkcə heyvandarlıq məhsulları ilə qidalanırlar. Çünki Qərbi Azərbaycan bölgələrində əhali qarışıq təsərrüfat sahələri (əkinçilik və maldarlıq) ilə məşğul olmuşdur. Az bir fərqlə elat tayfaların yeməkləri başqa tayfaların yeməklərindən fərqlənmişdir.

Bir insan yaşaması üçün qidalanmalı, bir şeylər içməlidir. Ancaq bir insanın nə yediyi və necə yediyi onun yaşadığı ərazi ilə, bir sözlə, təbii coğrafi şəraitlə, məşğuliyyət sahəsi və onun mədəniyyəti ilə bağlıdır.

Yeməyin, qidanın tarixinə nəzər salsaq, görərik ki, insanın yaranması ilə meydana gəlmişdir. Onlar əvvəlcə bunu təbiətdən hazır şəkildə almış, sonralar isə ictimai inkişafın gedişi prosesində özləri çeşidli yeməklər hazırlamaq vərdişinə yiyələnmişlər. Bu baxımdan yeməklər xalqın maddi-mədəniyyətinin əsas tərkib hissələrindən birini təşkil edir.

İrəvan mətbəxi Azərbaycan mətbəxinin tacı sayılır. Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Qərbi Azərbaycanın bəzi elmi ədəbiyyatlarda işlədilən "mətbəx mədəniyyəti", "milli mətbəx" ifadələri problemi tam əhatə etmir. Bu problemin bir tərəfidir ki, el arasında "aşbazlıq", "biş-düş" adlanan sahəni əhatə edir. Mətbəx mədəniyyəti deyiləndə yemək növləri ilə yanaşı, yeməyin harda (təndir, ocaq, buxarı, qaz və elektrik cihazları), kim tərəfindən (gəlin, qaynana, evin qızı), hansı yeməyi nə zaman, hansı qabda (qazan, bala qazan, çölmək, badya) bişirilməsi, süfrəyə verilməsi, süfrədən öncə görülən işlər, süfrədən sonra görüləcək işlər və yeyiləcək şiriniyyatlar nəzərdə tutulmalıdır [4, s. 25].

Bu gün yemək tarixini, unudulmuş yeməkləri araşdırmaq olduqca vacib bir məsələdir. Çünki bədnam qonşularımız Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Qərbi Azərbaycan yeməklərini öz adlarına çıxmışlar. Bununla bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar".

İrəvan mətbəxinin fərqliliyi və özünəməxsusluğu daha çox təbii-coğrafi şərait və iqlim amilləri ilə bağlı olub. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" dastanında Azərbaycan mətbəx mədəniyyəti ilə bağlı zəngin məlumatlara rast gəlirik. Dastandan məlum olur ki, əhalinin yemək öynəsində dənli bitkilər, ət-süd və bağ-bostan məhsulları əsas yer tutur. Hələ XV əsrdə ölkəmizdə olan Avropa səyyahları və diplomatları da süfrə mədəniyyətimiz, çeşidli yeməklərimiz haqqında məlumatlar veriblər.

Qərbi Azərbaycan mətbəxində unudulmuş yeməklər. Yuxarıda qeyd etmişdik ki, Qərbi Azərbaycan bölgələrində bitki mənşəli yeməklərdən geniş istifadə edilmişdir ki, bunlardan da maş, ləpə xörəkləri əsas yer tutmuşdur. Gündəlik yemək dənli bitkilərdən bişirilən, sevilən və unudulmaqda olan xörəklərdən biri maş şorbasıdır. Bu xörəyi hazırlamaq üçün ailədəki üzvlərin sayına görə maş yuyulur, suda qaynadılır. Bu vaxt xörəyin həcminə görə alça lavaşı, soğan da əlavə olunur. Ət qovurması, duz, istiot və mərzə (ət otu) əlavə edib bişirilir. Yeməyin süfrəyə verilməsi zamanı təndirdə bişirilmiş, qurudulmuş lavaş çörəkləri boşqablara doğranır. Üstünə şorbanın suyu əlavə olunur və islanmış lavaşla yeyilir.

Düyü də mətbəxdə xüsusi yer tutmuşdur. Düyüdən müxtəlif yeməklər hazırlanmışdır ki, bunlardan biri də südlü düyü çəkməsidir. Düyü süddə bişirilir, duz əlavə edilir, üzərinə yağ əridilib tökülür. Kişmiş əlavə edilib, üzərinə sarıçiçək səpilib dəmə qoyulur.

Qeyd edək ki, ət məhsullarından hazırlanan yeməklər xalqımızın yüksək qida mədəniyyətindən xəbər verir. Məsələn, "İrəvan xan yeməyi" çox məşhurdur. Bu xörəyi hazırlamaq üçün toğlu əti sümükdən ayrılır. Şəhadət barmağı boyda uzunsov doğranaraq qazana tökürlər və ocağa qoyurlar. Ət tovlanıb bişmiş hala gəlir. Bu zaman xeyli soğan uzunsov doğranır və ona əlavə olunur. Soğan qızılı rəng aldıqda duz, istiot, sarıkök, ciyi (qaymaq) əlavə olunur və dəmə qoyulur. Ta o vaxtadək ki, xan yeməyi yağa dönür. Bu ləziz xörək də islanmış lavaşla yeyilir.

İrəvan mətbəxində maldarlıq məhsullarından hazırlanan yeməklərdən biri də "Bağır-beyin" yeməyidir. Bu yeməyi əsasən maldarlıqla məşğul olanlar hazırlayır. Bunun üçün qoyunun qaraciyərini bişirib quyruqla birlikdə döyürlər. O, hazır vəziyyətə gəldikdə qoyunun beyninə duz, istiot əlavə olunur. Sonra xəmir kimi yoğurulur və düz sinilərə yayılır.

Noxuddan hazırlanan xörəklərdən "Noxud-ləpə-hu" da maraq doğurur. Bu xörəyi ətlə və ya ətsiz də bişirmək olur. Ətsiz bişirilən noxud-ləpə-hu şorbası üçün xırda-xırda doğranan, qızardılan soğana tomat əlavə olunur. Ləpə yuyulur və bir buğum qaynadılır. Sonra kartof dörd yerə bölünür və xörəyə əlavə olunur. Hazır olana yaxın duz, istiot, sarıkök və ağ reyhan əlavə olunur. Bu şorba da dənli-sulu vəziyyətdə və ya suyu, dəni ayrı halda dürməklə yeyilir.

Yabanı halda bitən qazayağı, şomu, ələyəz, cacıq, şeb, çobankirmidi, xatınbarmağı, unnuca, salmança, livik və s. göstərmək olar. Bu bitkilər qədim dövrdən başlayaraq günümüzədək erkən yazda həm kənd ailələrinin qida mənbəyinə çevrilib, həm də qış ərzaq ehtiyatı üçün tədarük edilib. A.A.Qrosheym qeyd edirdi

ki, yabanı yeməli bitkilər Qafqaz xalqlarının geniş istifadəsində olduğundan, onların qida öynəsi çox zaman bu bitkilərin üzərində qurulurdu. Onlardan orqanizmə çoxlu miqdarda vitamin daxil olduğuna görə bu öynə daha çox əhəmiyyətlidir. Bunlardan qışda duru yeməklər, plov üçün "üz-göz" hazırlayarkən istifadə edilir. Bununla yanaşı, kəvərdən qış üçün turşu da qoyulur. Onu da qeyd edək ki, bu işlə əsasən qadınlar məşğul olar.

Yabanı bitkilərdən hazırlanan yeməklər də geniş yer tutmuşdur. Qazayağı deyilən yabanı bitkidən "Cılvır" deyilən yemək hazırlanmışdır ki, bu da unudulan yeməklər siyahısındadır. Bu yeməyi hazırlayarkən qazağayı bişirilir, üzərinə düyü və su tökülür. Birlikdə vam odda bişirilir.

Bölgədə həm də tayfa, məhəlli yeməkləri olub ki, onlardan biri də "Qır-qır" küftəsidir. Onu hazırlamaq üçün soğanla çəkilmiş dana əti yarı bişmiş azacıq düyü, suda bişib əzilmiş kartof və yumurta ilə qarışdırılır. Ədviyyat vurulduqdan sonra küftələr hazırlanır. Həcmə görə qaynar duzlu suda pörtlədilir və yağda qızardılır. Üstünə nazik-nazik doğranıb qızardılmış soğan, keşniş və bir az da su əlavə olunur. Mərasimlərdə əsasən un, umac və halva bişirilir. Ancaq mərasimlərdən kənar, məhəlli xarakterli "Çərəz halvası" və "Çörək halvası" da evlərdə tez-tez bişirilir. Qərbi Azərbaycan ekoloji təmiz havası, günəş şüasının bolluğu və digər amillərin təsiri nəticəsində bu torpağın yetirdiyi meyvə, tərəvəz və digər məhsullar öz dadı və keyfiyyəti ilə fərqlənirlər. Bu da öz növbəsində həmin məhsullardan hazırlanmış yeməklərin, şirniyyatların, şərbət və şirələrin dadlı və ləziz olmasına səbəb olur. Şirin içkilərə müxtəlif meyvə və gül ləçəklərindən hazırlanmış kompot və şərbətləri misal göstərmək olar. Bu içkilər arasında xoşab deyilən içki vardır ki, bu da unudulmaqda olan içkilər arasında yer tutmuşdur [4, s.257].

Yuxarıda qeyd etmişdik ki, yeməklər heyvan və bitki mənşəli olmaqla iki qrupa ayrılır. Bitki mənşəli yeməklər insan həyatında ilk dövrlərdən mühüm rol oynamışdır. İnsanlar qış fəslini başa vurub yaz fəslinə qədəm qoyduqda, ərzaq məhsullarının tükəndiyi bir vaxtda daha çox bitki (yabanı) mənşəli yeməklərlə qidalanırdılar. Yabanı bitkilərlə qidalanmaq əcdadlarımızın ilkin çağları ilə, əsas məşğuliyyətləri yığıcılıq olduğu bir zamanla səsləşir. H.Q.Qədirzadə yazır ki, hər şeydən öncə yığıcılıq ailələrin qış ehtiyatlarının hazırlanmasında və gündəlik tələbatlarının ödənilməsində ciddi rol oynayırdı [2, s.65].

Bitki mənşəli ərzaqların içərisində çörək xüsusi yer tutmuşdur. Əcdadlarımız arasında çörək müqəddəs bilinmiş, insanların and yerinə çevrilmişdir. Hər bir azərbaycanlının yeməyinin əsasını çörək təşkil edir. Ümumi olaraq, çörək kimi bilinən bu qidanın xalq arasında müxtəlif növləri vardır. Məsələn: lavaş, dəstəna, fətr, çırpma, qalın, cad və s. Azərbaycanın digər bölgələrində olduğu kimi, bu bölgələrdə də çörək deyərkən daha çox lavaş yada düşür. Araşdırmaçılar çörək ifadəsini çevirmək (sacda bişirilən zaman) sözü ilə bağlılığını qeyd edirlər. Çörəkdən ilin bütün fəsillərində istifadə edilməsinə baxmayaraq, insanlar qış çörəyinə xüsusi fikir vermişlər. Onu da qeyd etmək istərdik ki, keçmişdə hər bir taxıl bitkisinin ununa uyğun aşağıdakı çörək növləri yapılardı. Məsələn: tapı arpa, dəstana buğda və düyü unundan yapılardı. Cad hazırlamaq üçün qarğıdalı unundan istifadə edilərdi. Bunların hər biri xalqımızın uzunmüddətli təcrübəsi sayəsində əldə edilmişdir.

Bitki mənşəli yeməklərdən olan bostan-tərəvəz məhsullarından qarpız, yemiş, xiyar, lobya, paxla, badımcan, soğan, sarımsaq və b. həm əhalinin gündəlik yeməklərindən təzə halda, həm də onların bəzilərindən hazırlanan turşu (tutma, şoraba) halında və qurudularaq istifadə olunurdu. Pomidor, kələm, kartof və b. tərəvəz bitkiləri Qərbi Azərbaycan yemək siyahısına nisbətən gec daxil olmuşdur. Bitki mənşəli yeməklər içərisindən undan hazırlanan ənənəvi yeməklərdən xəşil, umac, tərək, horra, axsan, hərsə və s. qeyd etmək olar. Bitki mənşəli yeməklər içərisində düyü yemək rasionunda buğdadan sonra ikinci yeri tuturdu. Etnoqrafik materiallar Azərbaycan xalqı arasında düyüdən hazırlanan yeməklərin şahının, tacının plov olduğunu təsdiqləyir. Qərbi Azərbaycan bölgələrində plova aş da deyirlər. Plov əsasən mərasim yeməkləri sırasına daxildir. Bəhs olunan yeməklər içərisində əriştəni də qeyd etmək lazımdır. Qış ərzaq ehtiyatları içərisində əriştənin özünəməxsus yeri vardır. Əriştədən sıvıq əriştə (əriştə aşı) bişirilərdi.

Əhalinin aparıcı təsərrüfat sahələrindən biri maldarlıq olduğundan insanların qidaya olan tələbatının bir hissəsi də maldarlıq (ət, süd) məhsulları ilə ödənilir. Buna görə də xalqımızın mətbəxində bu məhsullar ayrıca yer tutmuşdur. Onu da qeyd edək ki, bitki mənşəli qida məhsulları kimi, heyvan mənşəli məhsullar da mövsümə uyğun istifadə edilmişdir. Azərbaycan xalqı mövsümdən asılı olaraq, yazın axırı, yay və payız aylarında daha çox ətdən təzə halda, qış və yazın əvvəllərində isə ətdən qovrulmuş halda istifadə edilmişdir. Əhali ət yeməklərindən yayda az, qışda isə çox istifadə edir. Ət tədarükü qovurma, qaxac, cızdıq etmə və s. üsulla həyata keçirilir. Qışda daha çox işlədilən ət formasına qovurma deyilir. Qədim mənbələrdə göstərilir ki, türklər əti qurudub, qaxac şəklində saxlar və çinlilərə də satardılar. Bişirilən qovurmanın suyuna Qərbi Azərbaycan bölgələrində "təngov", "şorsu", "işgənə", "cıqata" deyilir. Qovurmanın suyundan qohumlara, qonşulara pay qoymaq adəti də mövcuddur.

Süd məhsulları içərisində süfrənin "şahı" adlandırılan qış üçün xüsusi hazırlananlardan biri pendirdir. Bölgədə aşağıdakı pendir növləri üzlü, üzsüz, qaşar, sərmə, axtarma, ovma, döymə, çilğı, baş, motal qeydə

alınmışdır. Bundan əlavə, süd məhsulları içərisində qış üçün tədarük edilənlərdən biri də qurutdur. Qışda qurutdan qurudaşı, kələci (qurut kələcisi) bişirilirdi. Qurutu bişirmək üçün saxsı qablarda (əngənəkdə) əridirlər. Qurut bişiriləndə içərisinə qovurma, soğan, düyü, yarma və s. də vururlar. Keçmişdə qurut kənd yerlərində qış üçün ən sevimli yeməklərdən biri hesab edilirdi. XIX əsrin əvvəllərinə aid olan rus mənbələrində Qərbi Azərbaycanla bağlı yazılır ki, Qərbi Azərbaycan əyalətində ailələr gündə üç dəfə yemək yeyərdilər. Axşam süfrədə çox yemək olur. Onlar axşamlar əsasən süd yeməkləri yeyərlər, süfrədə qaymaq və pendir də olur. Sonra müəllif sözünə davam edərək yazır ki, burada əhali yeməyi tez yeyər və süfrə başında danışmazlar. Mətbəxə təsir edən amillərdən biri də başqa xalqlarla olan təmasdır. Buradan gəlib keçən xalqların, ticarət edən tacirlərin də mətbəxə öz təsiri olub. İlkin müşahidələr, toplanmış ədəbiyyat materialları sübut edir ki, hazırda mətbəx mədəniyyətimiz millilik baxımından ciddi transformasiyaya uğramaqla qədim dövrdə formalaşmış bir sıra xörəklər unudulmuşdur. Gənc qızların çoxu həmin xörəkləri nəinki hazırlamağı bacarmırlar, hətta onların adlarını belə bilmirlər. Bəzi ənənəvi yeməklərin adlarını verməklə bu cür yeməkləri xalqımızın yaddaşına qaytarmaq mümkündür.

Yeməklərin bölgələr üzrə fərqlənməsi süfrələrimizin zənginliyinə və maddi nemətlərin bolluğuna dəlalətdir. Xalqımızın ənənəvi yeməklərinin tarixi-etnoqrafik baxımdan Qərbi Azərbaycan haqqında yazılan materialların əsasında öyrənilməsi belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan mətbəxi zəngin və müxtəlifliyi ilə həmişə diqqət mərkəzində olmuşdur.

Nəticə

Qərbi Azərbaycan unudulmuş yemək mədəniyyəti bölgənin zəngin tarixini və özünəməxsus kimliyini əks etdirən mühüm irsdir. Min illər əvvələ gedib çıxan bu kulinariya ənənəsi bölgənin coğrafi və mədəni müxtəlifliyinin əksidir. Lakin modernləşmə və dəyişən həyat tərzi ilə bəzi ənənəvi Qərbi Azərbaycan yeməkləri unudulmağa başlayıb. Qərbi Azərbaycan unudulmuş yeməklərinin yenidən kəşf edilməsi təkcə ləzzətli ziyafət vermək üçün deyil, həm də bölgənin tarixini və mədəniyyətini qoruyub saxlamaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yeməklər təbii və yerli inqrediyentlərlə hazırlanır və ümumiyyətlə, fəsillərə və coğrafi şəraitə uyğun formalaşdırılır.

Qərbi Azərbaycan bölgələrinin unudulmuş xörəkləri keçmişə pəncərə açır, yerli əhalinin həyat tərzi, inancları və adət-ənənələri haqqında ipucu verir. Ona görə də bu xörəklərin qorunub saxlanılması və dirçəldilməsi xalqımızın mədəni irsinin mühüm tərkib hissəsi hesab edilməlidir. Bu unudulmuş reseptlərin yerli əhali arasında yenidən populyarlaşması üçün müxtəlif səylər göstərilməlidir. Bunlara ənənəvi reseptlərin tərtibi və yayılması, yerli restoranlarda və evlərdə bu yeməklərin təqdim edilməsi və gənc nəsillərin bu mirasın əhəmiyyəti və dəyəri haqqında maarifləndirilməsi kimi addımlar daxil ola bilər.

ƏDƏBİYYAT

1. Əmiraslanov, T., Əmiraslanova, A. Novruz süfrəsi. Bakı: 2000
2. Qədirzadə, H. Q. Milli mətbəx və qonaqpərvərlik. Naxçıvan: Əcəmi, 2012, 112 s.
3. Azərbaycan mətbəxi. Bakı: 2004
4. Əmiraslanov, T. Söz mətbəxi
5. Əmiraslanov, T., Əmiraslanova, A. Qarabağ mətbəxi. Bakı: Nurlan, 2012, 216 s.

ABSTRACT

Rasmiya TAGHİYEVA

THE FORGOTTEN DISHES OF WESTERN AZERBAIJAN

In general, Western Azerbaijan, including the Iravan region, is a very rich folklore region with seasonal and household ceremonies. These ceremonies are the models of living together with nature and time for thousands of years. In this respect, the ceremonial songs of the region are, in fact, ethnoregional memory chronicles of the people of the region. In the article, the lifestyle and culture of Western Azerbaijan were discussed and illuminated in detail. The continuity of customs, traditions and habits of people in different districts and regions of Western Azerbaijan conditioned the emergence of a number of beliefs and trials, seasonal and ceremonial songs, suitable for the rural lifestyle. This situation is typical for all regions of Azerbaijan where the elat culture is widespread.

Keywords: *food, food, plant, milk, meat*

QƏRBİ AZƏRBAYCAN ABİDƏLƏRİNƏ QARŞI TÖRƏDİLMİŞ SOYQIRIM

Nuray MƏMMƏDLİ
nuray.memmedli31@gmail.com
ORCID iD: 0009-0008-0850-5413

Sevda OCAQQULİYEVA
sevdaocagguliyeva@gmail.com
ORCID iD: 0009-0007-6141-9656

Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycan xalqımızın tarixi və mədəniyyət mənbəyi üçün əhəmiyyətli bir bölgədir. Qərbi Azərbaycan bölgəsində yerləşən mədəniyyət abidələri Azərbaycanın tarixini, mədəniyyətini və mədəni iradəsini təmsil edir. Tarixi ərazimiz olan Qərbi Azərbaycanda çoxlu sayda məscidlər, qalalar, körpülər, məqbərələr və qəbiristanlıqlar mövcuddur. Bu bölgədə yerləşən mədəniyyət abidələri, Azərbaycanın mədəni irsini dünya ilə paylaşmağa və tanıtmağa yardım edir. Təəssüflər olsun ki, ermənilərin törətdiyi kütləvi vandallıq aktları Qərbi Azərbaycan abidələrindən də yan keçməmiş, milli mədəni irsimizə, real tariximizə ağır zərbələr vurulmuşdur. Erməni vandallarının uzun illər boyu Qərbi Azərbaycan və ölkəmizin digər ərazilərində gerçəkləşdirdikləri sistemli mədəniyyət terrorundan ən çox memarlıq abidələri zərər çəkib. Nəticədə azərbaycanlıların bu ərazilərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izləri yox etmək üçün məqsədyönlü şəkildə, kütləvi vandallıq aktları törədilmişdir. Xristianlıq dövrünə aid olan abidələrimiz ermənileşdirilmiş, müsəlman abidələrimiz məhv edilmiş, burada azərbaycanlı türklərinin izlərini məhv etmək məqsədilə onların yaşadıqları yer-yurd adları zamanla dəyişdirilərək erməni adları ilə əvəz edilmişdir. Bu vandalizm təkcə mədəniyyət abidələrini məhv etməklə bitmir, onun tarixini dəyişdirmək, bərpa adı altında qədimliyinə zərbə vurmaq da barbarlığın bariz bir nümunəsi idi. Bu vandalizmi ermənilərin Qərbi Azərbaycanın mədəni irsinə qarşı törətdikləri soyqırım faktı kimi də adlandırmaq olar. Bu məqalədə vandalizmə məruz qalmış Qərbi Azərbaycan abidələrinin mövcud vəziyyətindən, mədəni irsimizə qarşı vurulan ağır zərbələrdən, ermənilər tərəfindən dəyişdirilmiş tarixi yer adları və toponimlərdən bəhs olunur.

Açar sözlər: *Qərbi Azərbaycan, mədəni irs, abidə, erməni vandalizmi*

Giriş

Qərbi Azərbaycan qədim tarixi, zəngin mədəniyyəti və oğuz-Türk abidələrinin zənginliyi ilə tanınan bölgələrdən biridir. Qərbi Azərbaycanın abidələri bu bölgənin zəngin tarixini və mədəniyyətini təmsil edir. Coğrafi mövqeyi və iqlimi, bu bölgədə ən azı 5 min il əvvəl insanların yaşadığını göstərir. Bu keçmişə dayanan tarix, Azərbaycanın qədim tarixini və mədəniyyətini inkişaf etdirməsinə səbəb olmuşdur. Bu tarixi əhəmiyyət, bölgənin tarixini digər bölgələrlə müqayisədə daha çox inkişaf etmiş mədəniyyətə malik olduğunu sübut edir. Bu abidələr Qafan, Mehri, Qarakilsə, Gorus rayonları ərazisində daha çoxluq təşkil edir. Qayalar üzərində cızılmış təsvirlər, qəbirlər üzərində qoyulmuş sənduqələr və daş fiqurlar, onların üzərində oyma sənətilə yonulmuş süjet xarakterli təsvirlər buranın türk yurdu olduğunu bir daha təsdiqləyir.

Tarixən Qərbi Azərbaycan ərazisi sayılmış bu coğrafiyada min illər boyu yaşamış soydaşlarımızın etnik mövcudluğuna son qoyulması və onların mədəni irsinin məhv edilməsi son bir əsrdə dövlət siyasəti səviyyəsində gerçəkləşdirilmişdir. Bu terrorun bir qolunun da müsəlman olan türk xalqlarının mədəni irsinə yönəldiyi məlumdur. Erməni vandallarının uzun illər boyu hazırda Ermənistan adlandırılan Qərbi Azərbaycan və ölkəmizin digər ərazilərində gerçəkləşdirdikləri sistemli mədəniyyət terrorundan ən çox memarlıq abidələri zərər çəkib. Ancaq bu çox ciddi və qorxulu problemə uzun illər heç bir reaksiya verilməyib. Nəticədə azərbaycanlıların bu ərazilərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izləri yox etmək üçün məqsədyönlü şəkildə, kütləvi vandallıq aktları törədilmişdir. 1988-ci ildən başlanan sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri də ermənilər tərəfindən qarət edilmiş, mənimsənilmişdir. Bundan başqa, erməni vandalları azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini silməklə yanaşı, onlara məxsus toponimlərə qarşı da soyqırım həyata keçirmişlər.

Azərbaycanın tarixi şəhərlərindən biri olan İrəvan qalası XVI yüzillikdə yaranıb. Türk-İslam şəhərsalma ənənələrinə uyğun inkişaf etmiş İrəvan XVIII yüzillikdə Qala, Şəhər, Təpəbaşı və Dəmirbulaq hissələrindən ibarət olub. Bunların hər biri müəyyən tarixi mərhələdə formalaşmış məhəllələr qrupu olub. Məşhur fransız səyyahı və etnoqrafı İvan Şopen (1798-1870) XIX əsrin 20-ci illərində Rusiyaya gələrək Qafqaz canişinliyində işə düzəldikdən sonra general İ.F.Paskeviçin göstərişi ilə Qafqazda yaşayan xalqların, xüsusilə də İrəvan və Naxçıvan əhalisinin tarixi ilə əlaqədar tədqiqat işləri aparmağa başlayıb. İ.Şopen əsərlərində Qafqaz xalqlarının, o cümlədən azərbaycanlıların tarixi, etnik tərkibi, dili, folkloru, ədəbiyyat və incəsənəti haqqında

geniş məlumatlar toplayıb. O, 1832-ci ildə İrəvanda 12 məscid qeydə alıb. Bunlara "Came", "Şah Abbas", "Zal xan", "Novruzəli bəy", "Sərtib xan", "Hüseynəli xan" ("Göy məscid"), "Hacı İmamverdi bəy", "Hacı Cəfər bəy" məscidlərini misal göstərmək olar. Bu məscidlərin bəziləri bir sıra alban abidələri ilə birlikdə erməni vandalları tərəfindən tədricən dağıdılıb. Araşdırmalar göstərir ki, 1912-ci ilə kimi indiki Ermənistan ərazisinin İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərib. 1915-ci ildə isə İrəvan və Zəngəzur quberniyasının ərazisində məscidlərin sayının artması müşahidə olunub. Burada 382 şiə, 9 sünni məscidi fəaliyyət göstərib. 1918-ci ildən başlayaraq bu məscidlərin hamısı ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir [Azadi, 2023, s.13].

Azərbaycan abidələrinə qarşı törədilən vandalizm keçmiş İrəvan xanlığının ərazisində və tarixi Azərbaycan ərazilərində 1918-ci il mayın 28-də Ermənistan adlı dövlətin yaradılmasından sonra orada yaşayan soydaşlarımız zaman-zaman öz tarixi torpaqlarından deportasiya olunmuş və nəticə də azərbaycanlılara məxsus tikililər, habelə İrəvan şəhərindəki türk-müsəlman abidələri, tarixi-memarlıq inciləri erməni vandalizminin qurbanına çevrilmişdir. 1988-1989-cu illərdə Ermənistandan 250 minə yaxın azərbaycanlı deportasiya edilmiş və bununla da tarixi Azərbaycan torpaqlarında monoetnik erməni dövlətinin əsası qoyulmuşdur. Məhz bundan sonra Ermənistan qanunverici orqanının qərarları ilə azərbaycanlılara məxsus yaşayış məntəqələrinin, eyni zamanda çayların, göllərin, təpələrin adları dəyişdirilmiş, tarixi, maddi-mədəni irs tamamilə silinmiş və monoetnik erməni dövlətində əvvəllər azərbaycanlıların yaşadıqları 703 yaşayış məntəqəsinin adları dəyişdirilərək ermənileşdirilmişdir.

Ermənilərin Qərbi Azərbaycan ərazisinə köçürülməsindən sonra burada azərbaycanlı türklərinin izlərini məhv etmək məqsədilə onların yaşadıqları yer-yurd adları zamanla dəyişdirilərək erməni adları ilə əvəz edilmişdir. Bu proses sovetlər dövrü daha da geniş miqyas almışdı. Türk dilində məna kəsb edən həmin toponimlərin erməni dilində heç bir mənası yoxdur. Basarkeçər (Vardanes), Qaranlıq (Martuni), Hamamlı (Spitak), Cəlaloğlu (Stepanavan), Qarakilsə (Sisyan), Qarakilsə (Vanadzor), Keşişkənd (Yexeqnadzor), Uluxanlı və ya Zəngibasar (Masis), İstibulaq və ya Karvansara (İcevan), Dəvəli (Ararat qəsəbəsi), Gözlü Kəmərli (Metsamor), Üç Müədzin (Eçmiədzin), Alagöz (Araqats), Göyçə (Sevan), Arpaçay (Axuryan) və yüzlərlə başqa keçmiş Azərbaycan toponimləri üçün minlərlə yeni "vararakan"lar icad edilmişdir.

İrəvandakı məscidlərin ən qədimi "Sərdar məscidi" idi. "Köhnə məscid" adlandırılan bu ibadətgah Şah İsmayılın tapşırığı ilə onun vəziri Rəvanqulu xan İrəvan qalasını tikdirdiyi dövrdə inşa edilib. 1589-cu ildə isə Osmanlı dövləti tərəfindən yenidən bərpa edilib. İrəvan qalası içərisində və Sərdar sarayı yaxınlığında yerləşdiyi üçün "Sərdar məscidi" adlandırılıb. 1918-ci ildə ermənilər həmin məscidə müsəlmanları doldurараq od vurub yandırıblar. Məscid insanlarla birlikdə tamamilə yanıb külə dönüb. Hündür minarələri olan İrəvan məscidləri şəhərin möhtəşəm görüntüsünü səciyyələndirən tikililər olub. Belə məscidlərdən 4-ü İrəvan qalasının "Səhər" məhəlləsində yerləşirdi. Bunlar "Novruzəli xan", "Hüseynəli xan" (indiki "Göy məscid"), "Xoca Səfər bəy" və "Məhəmməd Sərtib xan" məscidləri idi. Lakin İrəvan məscidləri arasında sənət dəyəri baxımından "Şah Abbas məscidi"nin əhəmiyyəti çox böyük idi. 1604-cü ildə 1-ci Şah Abbas İrəvan qalasını Osmanlılardan azad etdikdən sonra 1606-cı ildə İrəvan xanına məxsus Sərdar sarayının şərq tərəfində möhtəşəm bir məscid inşa etdirib. Məscidə xalq tərəfindən "Şah Abbas məscidi" adı verilib. Məscidin memarı o zamanın məşhur sənətkarı Şeyx Bahəddin idi. Gəncə məscidinə oxşarlığı olan "Şah Abbas məscidi"nin kompleksinə mədrəsə, kitabxana, mehmanxana və müxtəlif obyektlər daxil idi. İrəvan xanlığı dövründə məscidin aş evində kasıblara gündə 3 pay yemək verilirmiş. Məscid dini məkan olmaqla bərabər, həm də ictimai qurumların toplandığı yer olması ilə də diqqəti cəlb edib. 1918-ci ilə qədər "Şah Abbas məscidi" yarımuçuq vəziyyətdə olsa da, sonralar tamamilə məhv edilib [Azadi, 2023, s.13].

Tarixə yönəlik vəhşilik, vandalizm təkcə mədəniyyət abidələrini məhv etməklə bitmir, onun tarixini dəyişdirmək, restavrasiya adıyla qədimliyinə zərbə vurmaq da barbarlığın bir nümunəsidir. Ümumiyyətlə, İndiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsi, 500 qəbiristanlıq, 391 məscid qəddarlıqla dağıdılmış, bir çoxu isə tamamilə yox edilmişdir. Zəngəzur vilayətinin Qafan, Mehri, Xot, Şinuayr, Əlidərə inzibati yaşayış məntəqələrində Ermənistanın siyasi rəhbərliyinin göstərişi ilə viran qoyulmuş 900-dən çox tarix və mədəniyyət abidəsinin xarabalıqları bu gün də qalmaqdadır. Bu məntəqələrin xaraba mənzərəsini müşahidə edəndə adama elə gəlir ki, sanki burada əsl cəhənnəm yaradılmışdır. Bu kəndlərdə 900-dən çox tarix və mədəniyyət abidəsi – yaşayış evləri, məscidlər, alban dövrü tikililəri, bədii daş nümunələri, qəbir daşları, at-qoç fiqurları ermənilər tərəfindən dağıdılaraq yararsız hala salınmışdır. Tarixi ərazimiz Azərbaycanın mədəni irs nümunələrindən təmizlənərək kütləvi erməni vandalizminə məruz qalmışdır [Xalq qəzeti, 2023, s.1; 6].

Qədim Azərbaycan torpağında - Qərbi Zəngəzur ərazisində yerləşən Əldərə qalası və bu qalanın yerləşdiyi kənddəki bütün abidələr də ermənilər tərəfindən özününküləşdirilmiş və deformasiyaya uğradılmışdır. Qafan rayonunun inzibati yaşayış mərkəzlərindən biri olan, Gorus şəhərindən 23 kilometr məsafədə yerləşən qədim Əldərə kəndində 200-dən çox yaşayış evi, məscid, karvansara və digər tikili

ermənilər tərəfindən dağıdılmış və ümumilikdə kənd xarabalığa çevrilmişdir. Ermənilər qismən salamat qalmış Əldərə qalasını isə özününküləşdirmək niyyəti ilə 2010-cu ildə onun bir hissəsini təmir edərək üstünə zəng qülləsi əlavə edərək qriqorian kilsəsi kimi təqdim etmişlər. Azərbaycan mədəniyyətinə və tarixinə aid olması heç bir halda mübahisə predmeti olmayan bu istehkam qalasını ermənilər özləri də Əldərə qalası adlandırırlar. Ümumi tarixi 1200-1300-cü illəri əhatə edən bu kənddə həm qalaya, həm də digər tarixi abidələrə qarşı vandalizm aktları da UNESCO-ya göndərilmiş, lakin cavab alınmamışdır.

Nəticə

Qeyd etmək lazımdır ki, Azərbaycanın tarixi və mədəniyyət abidələrinə münasibətdə ermənilərin apardığı dağıdıcılıq və saxtalaşdırma işi mərhələlərlə aparılmışdır. Onlar sifarişçilərinin tapşırıqlarına uyğun olaraq məqsədyönlü şəkildə fəaliyyət göstərmişlər. Azərbaycan tarixi və mədəni irsinin məhvinə və saxtalaşdırılmasına yönəlmiş erməni fəaliyyətinin ən fəal dövrü Sovet hakimiyyəti illərinə təsadüf edir. Mövcud ideoloji durumdan istifadə edərək azərbaycanlı əhaliyə qarşı repressiyalarda, tarixi izlərimizin silinməsində və saxtalaşdırılmasında ermənilər xüsusi canfəşanlıq göstərmişlər. Tarixi Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində çoxlu sayda tarixi-memarlıq abidələri, karvansaralar, imarətlər, məscidlər, qəbiristanlıqlar, məqbərələr, qəbirüstü abidələr və s. mövcud olmuşdur. Ümumiyyətlə, həmin ərazilərdə Azərbaycan əhalisi zəngin mədəniyyətə malik olmuşdur. Memarlıq abidələri ilə yanaşı, hər yerin, hər bir dağ, dərə, düzənlik, çay, göl, bulaq, yaşayış məskəni, öz adları ilə xalqımıza məxsusluğuna şahidlik edir. Tarixi Azərbaycan ərazisindəki xan sarayı, qalalar, məscidlər, karvansaralar haqqında səyyahların, salnaməçilərin, tarixçilərin, arxeoloqların, rəssamların əsərlərində geniş məlumatlar verilmişdir. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan dövləti qonşu dövlətlərdəki olan arxiv sənədlərinin araşdırılması, əzəli torpaqlarımız olan İrəvanda, Zəngəzurda və digər ərazilərdə Azərbaycana aid tarixi-mədəniyyət abidələri haqqında tədqiqatın həyata keçirilməsi, tarixi torpaqlarımızda xalqımızın tarixi-mədəni irsinə qarşı törədilən cinayətlərin Ermənistanın məqsədyönlü dövlət siyasəti olduğunu dünya ictimaiyyətinə hərtərəfli çatdırılması istiqamətində vacib addımlar atır və həyata keçirilən sistemli tədbirlər bundan sonra da davam etdiriləcək.

ƏDƏBİYYAT

1. Azadi, S. Qərbi Azərbaycanda mədəni irs soyqırımı, İki sahil, 2023, 15 aprel. № 65, s.13
2. Əliyev, İ. Qərbi Azərbaycanın tarixi və mədəni irsi. Bakı: "Rafpoliqraf" nəşriyyatı, 2023.
3. Qərbi Azərbaycanda mədəni irs soyqırımı. Xalq qəzeti, 2023, s.1; 6
4. Zahid Rza. Qərbi Azərbaycanda tarixi-mədəni irsimizə qarşı soyqırımı. 24 yanvar 2023

ABSTRACT

Nuray MAMMADLİ, Sevda OCAGQULİYEVA

GENOCIDE COMMITTED AGAINST THE MONUMENTS OF WESTERN AZERBAIJAN

Western Azerbaijan is an important region for the source of history and culture of Azerbaijan. The cultural monuments located in the Western Azerbaijan region represent the history, culture and cultural will of Azerbaijan. There are many mosques, fortresses, bridges, mausoleums and cemeteries in Western Azerbaijan, which is our historical territory. The cultural monuments located in this region help to share and promote the cultural heritage of Azerbaijan with the world. Unfortunately, the acts of mass vandalism committed by Armenians did not bypass the monuments of Western Azerbaijan, and our national cultural heritage and real history were severely damaged. Architectural monuments have suffered the most from the systematic cultural terror carried out by Armenian vandals in Western Azerbaijan and other areas of our country for many years. As a result, massive acts of vandalism were purposefully committed to erase the traces that prove that Azerbaijanis are the historical and ancient inhabitants of these areas. Our monuments belonging to the Christian era were Armenianized, our Muslim monuments were destroyed, and in order to destroy the traces of the Azerbaijani Turks, the names of the places where they lived were changed over time and replaced with Armenian names. shooting was also a clear example of barbarism. This vandalism can be called a genocide committed by Armenians against the cultural heritage of Western Azerbaijan. This article talks about the current state of vandalized Western Azerbaijan monuments, heavy blows against our cultural heritage, historical place names and toponyms changed by Armenians.

Keywords: *Western Azerbaijan, cultural heritage, monument, Armenian*

QƏRBİ AZƏRBAYCAN TƏSVİRİ İNCƏSƏNƏTİN BATAL JANRINDA

Həbib ALLAHVERDİYEV
allahverdiyevhabib30@gmail.com
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

XIX əsrin ortalarında Qərbi Azərbaycan mövzusu bir çox rəssamların yaradıcılığında əsas yerlərdən birini tuturdu. Rus rəssamlarının müraciət etdiyi bu mövzu təsviri sənətin batal janrına aid idi. Bu janrda qanlı müharibələr və döyüş səhnələri dəqiq və təsirli şəkildə təsvir edilir, eyni zamanda milli qəhrəmanların və tarixi şəxsiyyətlərin qələbələri sənətin özünəməxsus gücü ilə böyük ustalıqla tərənnüm olunurdu. Batal janrı rəssamdan yalnız müharibə və ya döyüş səhnəsini təsvir etməyi deyil, həm də tarixi faktlara dərindən bələd olmağı, müxtəlif dövrlərin hərbi texnikasını tanımağı, geyim və sursatı düzgün əks etdirmək bacarığını tələb edir. Bu keyfiyyətlərə malik bir çox rus rəssamı batal janrında maraqlı əsərlər yaratmışdır. Bunlara fransız əsilli rus rəssamı Frans Rubonun "İrəvan qalasının alınması", Qriqori Qaqarinin "Sərdarabad qalası ətrafında döyüş", "Qacarların Araz çayını keçməsi", K. Beqqrovun "İrəvan qalasının tutulması", F. Şukayevin "Qafqazda hərbi düşərgə" və digər əsərləri nümunə göstərilə bilər. Batal janrında əsərlər yaradan rəssamlar müharibənin ağrı-acısını dərindən hiss etmiş, döyüşlərə həsr olunmuş əsərlərində milli koloriti və inandırıcılığı ön plana çıxarmışlar. Milli qəhrəmanların və tarixi şəxsiyyətlərin döyüş qələbələri bu tablolar vasitəsilə sənətin bənzərsiz gücü ilə tərənnüm edilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, batal janrı, rəssamlar və tablolar.*

Rəssamlığın ən çətin sahələrindən biri olan batal janrı təsviri sənətdə müharibə və hərbi həyat mövzularına həsr olunur. Bu janrda əsərlər yaradan rəssam batalist adlanır. İbtidai insanlar hələ qayalar üzərində müxtəlif rəsmlər çəkdiyi gündən savaş mövzusuna müraciət ediblər. Qobustan qayalarında cızılan ov və döyüş səhnələri bunu bir daha sübut edir. "Bu janrda qanlı müharibələr, döyüş səhnələri olduğu kimi, dəqiq və kəskinliyi ilə təsvir edilir, eyni zamanda xalq qəhrəmanları, tarixi şəxsiyyətlərin döyüş zəfərləri sənətin bənzərsiz gücüylə rəssamlar tərəfindən böyük bir məharətlə tərənnüm edilir" [1]. Azərbaycanın məşhur rəssamları batal janrında möhtəşəm sənət əsərləri yaradıblar. Bu baxımdan Təbriz miniatür məktəbinin nümayəndələri diqqəti cəlb edir. Belə ki, o dövr rəssamlar öz miniatürlərində dövlətlərarası müharibələri çox böyük ustalıqla öz miniatürlərində təsvir ediblər. Tarixən Azərbaycan ərazisi dəfələrlə yadellilərin basqınlarına, hücumlarına məruz qalıb. "Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Dərələyəzə, Göyçə mahalına zorla yiyələnən ermənilər özlərinə saxta tarix quraşdırmaq üçün, ilk növbədə, o ərazilərdəki qədim toponimlərimizə hücum ediblər. Yer adlarımızı dəyişdirib uydurma erməni adları ilə əvəz ediblər, türk dilində mövcud olan yer adlarını dəyişdiriblər. Bunu Qərbi Azərbaycan torpaqlarında yaşayan dədə-baba ocaqlarından didərgin salınan şahidlər də təstiqləyir"[3]. Digər tərəfdən isə bunları təsdiqləyən sənət əsərləri var idi. O dövr rəssamlar bütün bu tarixi hadisələri batal janrında, kətanlarında əbədiləşdirirdilər. Belə əsərlərdən biri "İrəvan qalasının işğalı" adlı rəsmdir.

Tablonun müəllifi Fransız əsilli rus rəssamı olan Rubodur. O əsasən batal janrında müharibə təsvirləri işləyən bir rəssam kimi tanınmışdır. Rəssam bu tablonu 1893 cü ildə yaratmışdır. Əsərdə rəssam rus qoşunlarının İrəvan xanlığına hücumu nəticəsində qalanın mühasirəyə alınması və təslim olan xan qoşunlarının tərksilah olunmasını əks etdirən bir kompozisiya canlandırıb. "İrəvan xanlığının mərkəzi İrəvan qala-şəhəri idi. Bu qala 1582-1583-cü illərdə Osmanlı sərkərdəsi Fərhad paşa tərəfindən inşa edilmişdi" [5]. Rəssam Frans Rubo bu qala divarlarını kompozisiyanın mərkəz istiqamətində işləməklə maraqlı bir perspektiva yaradıb. Kompozisiyanın arxa fonunda isə əzəmətli Ağrı dağının təsvir olunması rəsmə ikinci bir gözəllik qatıb. Tabloda qalanın mərkəz istiqamətində İrəvanın məşhur məscidlərindən biri olan Göy məscid təsvir olunub.



Şəkil 1. Frans Rubo "İrəvan qalasının işğalı"

"Batal janrı rəssamdan təkcə müharibə və ya döyüşü təsvir etmək bacarığı deyil, eyni zamanda tarixi həqiqətləri, müxtəlif dövrlərə aid hərbi texnikanı bilmək, geyimləri və döyüş sursatlarını təsvir etmək qabiliyyətinə dair ustalıq tələb edir" [2]. Bu cəhətdən Qərbi Azərbaycan mövzusunda çəkilən hər bir əsər qiymətli sənət əsərləridir. Belə əsərlərdən biri də rus rəssamı Qriqori Qaqarinin çəkdiyi "Sərdərabad qalası ətrafında döyüş" adlı əsəridir (Şəkil 2).

Q. Qaqarin "Sərdərabad qalası ətrafında döyüş" Q.Qaqarin "Qacarlar Araz çayını keçirlər"





Şəkil 2. **Şəkil 3.**


"Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı İvan Paskeviç böyük bir orduyla İrəvanı mühasirəyə almağa başlayır. Qala qarnizonuna İrəvan xanı Hüseynqulu xan Qacarın qardaşı Həsən xan Qacar başçılıq edirdi. O, düşmənlə üz-üzə gəlsə də, tezliklə təslim olur. Qalanın dördkünc qülləsi dağıdılır, qala divarları və evlərə böyük ziyan dəyir" [4]. Bu tarixi hadisəni rəssam tablosunda gözə çarpan rənglərlə işləyib. Tabloda atların qaçışı, döyüşçülərin bir-biriləri ilə vuruşmaları dinamikdir. Bu janrda rəsm çəkən hər bir rəssam kompozisiyada olan hər detalın dəqiq işlənməsinə önəm verir. Bu rəsmdə Qaqarin döyüşçülərin simalarında olan gərginliyi xüsusilə göstərməyə çalışıb. Bundan əlavə, tabloda işıq və kölgələr daha çox diqqəti cəlb edir. Belə ki, uzaqdan görünən qalanın divarlarında, atların düzülüşündə, ön planda olan atların yerə düşən kölgələri ustalıqla verilib. Əsərdə maraqlı bir perspektiva da vardır. Uzaqdan görünən başı qarlı dağ solğun rənglərdə və bizə tərəf yönələn uzun qala divarları tünd rəngdə işlənib. Batal janrında çəkilən bu əsər dövrün maraqlı tablolarından idi. Rəssamın çoxlu sayda batal janrında əsərləri var, amma onun bu tablosu

uğurlu əsərlərindən sayılır.

Qaqarinin batal janrında çəkilmiş digər bir tablosu isə "Qacarlar Araz çayını keçirlər" adlı qrafik əsəridir (Şəkil 3). Tamaşaçının gözü əvvəlcə ön planda olan iki personajın diqqətini çəkir. Qoca fikirlərə qərq olur və bir az da ona tərəf əyilmiş gəncə baxmır. Biz isə kifayət qədər böyük bir qacar ordusu görürük. Sağdakı arxa planda kiçik bir nöqtə kimi görünən şəxs bəzi qacarların diqqətini çəkib. Qoşun artıq ona tərəf tələsir. Ağrı dağı qara buludlarla əhatə olunub ki, bu da qarşıda ağır bir döyüşün olacağından xəbər verirdi.

İrəvan xanlığı rus qoşunları tərəfindən hucumlara, talantlara məruz qalsa da, Qacar qoşunu heç vaxt geri çəkilmirdi. Bu tarixi hadisəni kətana köçürən digər bir rus rəssamı isə Beqqrov idi. O "İrəvan qalasının alınması" adlı tablosunda rus qoşunları ilə Həsən xan Qacarın başçılıq etdiyi ordu arasında qarşıdurmanı əks etdirib. Rəssam bu rəsmdə İrəvan qalası ətrafında gedən bu döyüşü çox canlı çəkib. Qrafika üslubunda çəkilən bu tabloda toplardan çıxan atəşi yerə yıxılan döyüşçüləri incə ştrixlərlə təsvir edib (Şəkil 4).





K.Beqqrov "İrəvan qalasının alınması"(Şəkil 4) F. Şukaev "Qafqazda hərbi düşərgə"

Şəkil 5.

Rus rəssamı F.Şukaevin çəkdiyi "Qafqazda hərbi düşərgə" adlı əsərində isə döyüşə hazırlaşan rus əsgərləri və uzaqdan onlara doğru irəliləyən Qacar döyüşçüləri təsvir olunub. Tabloda rus ordusunun komandiri general Pyotr Truzson əli ilə komanda verir. Burada kimi silahını doldurur, kimisi isə döyüş əmrinin verilmə həyəcanını yaşayır. İsti və soyuq rənglərin birgə təzadını gördüyümüz bu tablo batal janrında çəkilən qiymətli sənət əsərlərindəndir (Şəkil 5) .

Bədnam qonşumuz ermənilərin sonrakı illərdə də Azərbaycan torpaqlarına hücumları, azərbaycalılara qarşı vəhşilikləri, etdikləri soyqırımlar rəssamlarımız tərəfindən tablolarda canlandırılmışdır. Yanar ocaqlarından, barlı-bərəkətli torpaqlarından, dolu ev-eşiklərindən olan, düşmən zorakılığı ilə deportasiya olunan Qərbi Azərbaycan sakinləri Azərbaycanın müxtəlif bölgələrinə pənah gətirdilər. Amma 44 günlük Vətən müharibəsində şanlı Zəfərimiz 30 ilin işğalına son qoydu, ərazi bütövlüyümüz bərpa edildi. Bütün bu hadisələr zaman-zaman rəssamlarımızın batal janrında çəkdikləri tablolarda yer aldı. Müasir Azərbaycan rəssamlığında da bu janra müraciət edən çoxlu sayda fırça ustalarımız var. Batal janrında əsərlər yaradan rəssamlarımız müharibənin ağrı-acısını dərindən duyub hiss edərək döyüşə həsr etdiyi əsərləri milli koloriti və inandırıcılığı ilə seçilir. Xalq qəhrəmanları, tarixi şəxsiyyətlərin döyüş zəfərləri tablolarda, sənətin bənzərsiz gücüylə tərənnüm edilir.

Dövlətimizin qətiyyəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, xalqımızın birliyi, həmrəyliyi sayəsində qazandığımız möhtəşəm Zəfərimiz Ermənistana və ona havadarlıq edən dövlətlərə bir daha sübut etdi ki, Azərbaycan xalqı öz tarixi torpaqlarına sahib çıxmaq əzmindədir. Zülmün mütləq bir sonu olur. O son isə artıq yaxınlaşıb. Xalqın tarixi yaddaşı doğma torpaqlara olan sevgini hər zaman qoruyur. Bunun nəticəsi kimi, Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrildi. Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız öz tarixi yurdlarına qayıdacaqlar.

ƏDƏBİYYAT

1. Allahverdiyeva, H. "Rəngkarlığın əsasları" dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2022, 268 s.
2. Həbibov, N. Rəssamlıqdan söhbət. Bakı: 1961, s. 21
3. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002.
4. https://az.wikipedia.org/wiki/İrəvan_qalasının_işğalı
5. https://mod.gov.az/az/irevan-tarixi

ABSTRACT

Habib ALLAHVERDİYEV

WESTERN AZERBAIJAN IN THE BATTLE GENRE OF VISUAL ARTS

In the middle of the XIX th century, the theme of Western Azerbaijan occupied one of the main places in the works of many artists. This topic, addressed by Russian artists, belonged to the batal genre of visual arts. In this genre, bloody wars and battle scenes are described accurately and sharply, and at the same time, the victories of national heroes and historical figures are glorified by artists with great skill with the unique power of art. Batal genre requires from the artist not only the ability to depict a war or a battle, but also mastery of historical facts, knowledge of military equipment of different periods, ability to depict clothing and ammunition. Many Russian artists with such abilities created interesting paintings in the battle genre. Among them are "Occupation of the Yerevan Fortress" by the French-born Russian artist Franz Rubon, "Battle around the Sardarabad Fortress" painted by Grigory Gagarin, "Gajars Cross the Araz River", K. Beggrove "Taking the Yerevan Fortress", F. Shukaev "Military Camp in the Caucasus", etc. tables are an example of this. The artists who created works in the battle genre deeply felt the pain of the war, and their works dedicated to the battle stand out for their national color and believability. Battle victories of national heroes and historical figures are glorified in paintings with the unique power of art.

Keywords: *West Azerbaijan, batal genre, artists and paintings*

BÖYÜK İPƏK YOLUNUN ALTERNATİVİ: ZƏNGƏZUR DƏHLİZİ

Məhsəti ƏSGƏROVA
esgerovamehseti@ndu.edu.az
ORCID iD: 0009-0001-1899-3325
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Azərbaycanın Qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, Böyük İpək Yolunun alternativi olan Zəngəzur dəhlizi geniş şəkildə araşdırılmışdır. Zəngəzur dəhlizi, Azərbaycan və Ermənistan arasında yerləşən strateji əhəmiyyətli bir nəqliyyat dəhlizidir. Bu dəhliz Ermənistanın cənub-qərbində, Zəngilan rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yerləşir. 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli bəyanata əsasən, Zəngəzur dəhlizinin açılması nəzərdə tutulub. Bu dəhliz Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirəcək və regional ticarət və nəqliyyat əlaqələrini gücləndirəcək. Məqalədə, eyni zamanda Zəngəzur dəhlizinin əhəmiyyəti, beynəlxalq ticarət imkanları və s. də araşdırılmışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Zəngəzur dəhlizi, Böyük İpək Yolu, Türk dünyası, beynəlxalq ticarət imkanları, regional ticarət və logistika*

Giriş

Zəngəzur dəhlizi tarixi Zəngəzur ərazisindən keçən və Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən strateji bir yol olaraq nəzərdə tutulur. XX əsrin əvvəllərində bu bölgədə mövcud olan etnik və siyasi münaqişələr nəticəsində dəhliz kəsilmiş və bu, bölgənin iqtisadi inkişafını ləngitmişdir.

Zəngəzur dəhlizi, tarixən Azərbaycan və digər Türk dünyası ölkələri arasında mühüm bir keçid nöqtəsi olmuşdur. Zəngəzur dəhlizinin yenidən açılması, Türk Dünyası ölkələri arasında tarixi əlaqələrin bərpası və gücləndirilməsi üçün mühüm bir addımdır.

Zəngəzur dəhlizi Azərbaycan və Ermənistan arasında yerləşən strateji əhəmiyyətli bir nəqliyyat dəhlizidir. Bu dəhliz Ermənistanın cənub-qərbində, Zəngilan rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yerləşir. 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli bəyanata əsasən, Zəngəzur dəhlizinin açılması nəzərdə tutulub. Bu dəhliz Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirəcək və regional ticarət və nəqliyyat əlaqələrini gücləndirəcək.

Zəngəzur dəhlizinin əhəmiyyəti

1. Regional əlaqələrin gücləndirilməsi: Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan Naxçıvanla birbaşa əlaqə quracaq və Türkiyə ilə olan ticarət və nəqliyyat əlaqələri daha da genişlənəcək. Bu dəhliz Azərbaycan, Türkiyə, Ermənistan və İran arasında yeni iqtisadi əlaqələr yarada bilər.

2. Strateji nəqliyyat marşrutu: Zəngəzur dəhlizi Qafqaz regionunda əsas tranzit marşrutlardan biri kimi xidmət edə bilər. Bu dəhliz regionun nəqliyyat infrastrukturu şəbəkəsinə əlavə edilərək, Böyük İpək Yolunun alternativ marşrutu kimi də nəzərdən keçirilir.

3. İqtisadi inkişaf və investisiyalar: Dəhlizin açılması regionun iqtisadi inkişafına təkan verəcək. İnfrastrukturun inkişafı, yeni iş yerlərinin yaranması və investisiyaların cəlb edilməsi mümkün olacaq.

4. Geopolitik əhəmiyyət: Zəngəzur dəhlizi regional geopolitik tarazlığı dəyişdirə bilər. Rusiya, Türkiyə, İran və Avropa İttifaqı kimi böyük güclər dəhlizin açılması ilə maraqlanır və bu, regionda siyasi vəziyyətə təsir göstərə bilər

Beynəlxalq ticarət imkanları. Zəngəzur dəhlizi, beynəlxalq ticarət baxımından da böyük əhəmiyyətə malikdir. Bu dəhliz, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşir və bir sıra beynəlxalq ticarət imkanları yaradır:

1. Qlobal ticarət marşrutları: Dəhliz, Avropa və Asiya arasında yük daşımalarının sürətini artıracaq və ticarət həcmini genişləndirəcək. Bu, xüsusilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində mühüm rol oynayacaq.

2. İqtisadi inteqrasiya: Dəhliz, region ölkələrinin beynəlxalq ticarət sisteminə daha sıx inteqrasiya olunmasına kömək edəcək. Yeni ticarət əlaqələri qurulacaq və mövcud ticarət həcmi artırılacaq.

3. Tranzit ölkəsi rolu: Azərbaycan və Ermənistan Zəngəzur dəhlizi vasitəsilə tranzit ölkələrə çevriləcək. Bu, hər iki ölkənin iqtisadiyyatına əlavə gəlirlər gətirəcək və beynəlxalq ticarət şəbəkəsində mövqelərini gücləndirəcək.

Türk dünyası ilə əməkdaşlıq perspektivləri. Zəngəzur dəhlizinin açılması, Türk dünyası ölkələri arasında əməkdaşlığın inkişafına aşağıdakı aspektlərdə mühüm təsir göstərəcək:

1. Nəqliyyat və kommunikasiya: Dəhliz, Azərbaycan, Türkiyə, Qazaxıstan, Türkmənistan və digər Türk dünyası ölkələri arasında birbaşa nəqliyyat əlaqələrini təmin edəcək. Bu, yük və sərnişin daşımalarının həcmini artıracaq və logistika xərclərini azaldacaq.

2. Ticarət imkanları: Zəngəzur dəhlizi, Türk dünyası ölkələri arasında ticarət həcminin artmasına səbəb olacaq. Xüsusilə kənd təsərrüfatı, sənaye və enerji sektorlarında ticarət əlaqələri genişlənəcək.

3. Mədəni və humanitar əlaqələr: Dəhlizin açılması, Türk dünyası ölkələri arasında mədəni və humanitar əlaqələrin güclənməsinə də təkan verəcək. Təhsil, turizm və mədəniyyət sahələrində əməkdaşlıq genişlənəcək və xalqlar arasında qarşılıqlı anlaşma artırılacaq.

4. Enerji təhlükəsizliyi: Zəngəzur dəhlizi, Türk dünyası ölkələri arasında enerji resurslarının daşınması üçün yeni marşrutlar yaradacaq. Bu, regional enerji təhlükəsizliyini təmin edəcək və enerji ticarətini asanlaşdıracaq [5].

İnteqrasiya perspektivləri. Zəngəzur dəhlizi, Türk dünyası ölkələri arasında inteqrasiya perspektivləri baxımından bir sıra imkanlar yaradır:

1. İqtisadi inteqrasiya: Dəhliz Türk dünyası ölkələrinin iqtisadiyyatlarını bir-birinə daha sıx inteqrasiya etməyə imkan verəcək. Bu, sərmayə axınlarını artıracaq və regional iqtisadi əməkdaşlığı gücləndirəcək.

2. Strateji əməkdaşlıq: Türk dünyası ölkələri arasında strateji əməkdaşlıq, xüsusilə müdafiə və təhlükəsizlik sahələrində genişlənəcək. Zəngəzur dəhlizi, bu sahələrdə qarşılıqlı fəaliyyət imkanlarını artıracaq.

3. Regional stabillik: Zəngəzur dəhlizinin açılması, Cənubi Qafqaz regionunda siyasi sabitliyin bərqərar olunmasına və uzunmüddətli sülhün təmin edilməsinə kömək edəcək. Bu, Türk dünyası ölkələrinin maraqlarına uyğun olaraq, regional sabitliyi gücləndirəcək.

4. İnnovasiya və texnologiya transferi: Dəhliz Türk dünyası ölkələri arasında innovasiya və texnologiya transferini asanlaşdıracaq. Bu, regional iqtisadi inkişafı sürətləndirəcək və yeni texnoloji həllərin yayılmasına şərait yaradacaq [4].

Böyük İpək Yolu ilə müqayisə. Böyük İpək Yolu tarixi baxımdan Asiya ilə Avropa arasında ticarət və mədəni əlaqələrin əsas marşrutu olub. Müasir dövrdə də bu yol Çin tərəfindən təklif edilən "Bir kəmər, bir yol" təşəbbüsünün əsas komponentlərindən biridir. [7]. Zəngəzur dəhlizi isə Qafqaz regionunda yeni bir marşrut olaraq, Böyük İpək Yolunun bir qolu və ya alternativi kimi çıxış edə bilər.

– Marşrutun müasirliyi: Böyük İpək Yolunun bəzi hissələri tarixi marşrutlardan ibarət olsa da, Zəngəzur dəhlizi tamamilə yeni və müasir bir nəqliyyat dəhlizidir.

– Geosiyasi əhəmiyyət: Hər iki marşrut regional və qlobal geosiyasi münasibətlərdə əhəmiyyətli rol oynayır. Zəngəzur dəhlizinin açılması Qafqaz regionunda yeni geosiyasi reallıqlar yarada bilər.

– İqtisadi imkanlar: Hər iki marşrut regionun iqtisadi inkişafına böyük töhfələr verə bilər.

– Zəngəzur dəhlizi, xüsusilə Cənubi Qafqazda iqtisadi aktivliyi artırmaq potensialına malikdir. Zəngəzur dəhlizinin Böyük İpək Yolunun alternativi kimi çıxış etməsi üçün onun tam funksional hala gətirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsi, həmçinin beynəlxalq və regional əməkdaşlığın gücləndirilməsi vacibdir.

– Zəngəzur dəhlizi, Qafqaz regionunda yeni bir nəqliyyat marşrutu olaraq böyük əhəmiyyətə malikdir. Bu dəhliz Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirərək, Türkiyə, İran və digər ölkələrlə olan əlaqələri gücləndirir. Bu marşrutun yaradılması, Qafqazın nəqliyyat və ticarət şəbəkəsində strateji rol oynamaqla yanaşı, Böyük İpək Yolunun müasir alternativi kimi çıxış edir.

– Zəngəzur dəhlizinin Böyük İpək Yolunun alternativi kimi potensialı. Zəngəzur dəhlizinin Böyük İpək Yolunun alternativi kimi çıxış etməsi üçün onun tam funksional hala gətirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsi, həmçinin beynəlxalq və regional əməkdaşlığın gücləndirilməsi vacibdir. Bu dəhliz regionun nəqliyyat və logistika sisteminə yeni nəfəs gətirə bilər və ticarət marşrutlarının diversifikasiyası baxımından əhəmiyyətli rol oynaya bilər.

1. Nəqliyyat və logistika infrastrukturu: Zəngəzur dəhlizinin müasir standartlara uyğun olaraq inşa edilməsi və onun üzərində effektiv nəqliyyat və logistika infrastrukturu yaradılması lazımdır. Bu, yük daşımalarının sürətini və səmərəliliyini artıracaq. [1].

2. Beynəlxalq əməkdaşlıq: Dəhlizin effektiv fəaliyyəti üçün region ölkələri arasında əməkdaşlığın gücləndirilməsi vacibdir. Həmçinin beynəlxalq təşkilatların və investorların dəstəyi də mühüm rol oynaya bilər.

3. Təhlükəsizlik və sabitlik: Zəngəzur dəhlizinin tam təhlükəsiz və sabit olması üçün regional sülhün və sabitliyin təmin edilməsi vacibdir. Bu dəhlizin uğurla fəaliyyət göstərə bilməsi üçün bölgədəki siyasi və hərbi risklərin minimuma endirilməsi zəruridir.

Zəngəzur dəhlizi Böyük İpək Yolunun alternativi kimi böyük potensiala malikdir. Bu dəhliz regionun iqtisadi və geosiyasi xəritəsini dəyişdirə bilər və Qafqazda yeni ticarət və əməkdaşlıq imkanları yarada bilər. Zəngəzur dəhlizi həm də Türkiyə ilə Mərkəzi Asiya arasında birbaşa əlaqəni təmin edir və bu marşrutun iqtisadi potensialını artırır [1].

Zəngəzur dəhlizinin iqtisadi perspektivləri. Zəngəzur dəhlizi, regionun iqtisadi inkişafına böyük töhfə verə bilər. Bu dəhlizin açılması, nəqliyyat və logistika infrastrukturunun inkişafına səbəb olacaq və yeni iş yerlərinin yaranmasına təkan verəcək. Eyni zamanda bu dəhliz vasitəsilə regional ticarət və investisiyaların artması gözlənilir.

1. İnfrastruktur inkişafı: Zəngəzur dəhlizi vasitəsilə yeni yollar, dəmir yolları və digər nəqliyyat infrastrukturu inşa ediləcək. Bu, yük daşımalarının sürətini və səmərəliliyini artıracaq.

2. Ticarət və investisiyalar: Zəngəzur dəhlizi regionda yeni ticarət marşrutları açacaq və beynəlxalq ticarətin həcmini artıracaq. Bu dəhliz vasitəsilə Azərbaycan, Türkiyə, Ermənistan və digər ölkələr arasında ticarət əlaqələri güclənəcək və investisiyalar artacaq.

3. Regional əməkdaşlıq: Zəngəzur dəhlizi, Qafqaz regionunda ölkələr arasında əməkdaşlığı gücləndirəcək. Bu dəhliz vasitəsilə yeni iqtisadi əlaqələr qurulacaq və regional sabitlik və sülh təmin ediləcək [3].

Zəngəzur dəhlizinin strateji rolu. 2020-ci ildə, İkinci Qarabağ müharibəsinin ardından Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli bəyanatın nəticəsində Zəngəzur dəhlizinin açılması nəzərdə tutulmuşdur. Bu dəhliz vasitəsilə Azərbaycan və Türkiyə arasında birbaşa əlaqə qurulur və eyni zamanda Ermənistanın regional iqtisadi inteqrasiyasında iştirakını artırır. Böyük İpək Yolu, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yenidən canlandırılmağa çalışılır. Bu təşəbbüs, Asiya, Avropa və Afrika arasında ticarət əlaqələrini gücləndirmək və infrastruktur inkişafını təşviq etmək məqsədi daşıyır. Zəngəzur dəhlizi isə Böyük İpək Yolunun müasir alternativi kimi çıxış edə bilər. Bu dəhliz vasitəsilə Qafqaz regionunda yeni bir tranzit marşrutu yaradılır və ticarət əlaqələri genişlənir. Zəngəzur dəhlizi həm də Türkiyə ilə Mərkəzi Asiya arasında birbaşa əlaqəni təmin edir və bu marşrutun iqtisadi potensialını artırır. [4].

Zəngəzur dəhlizinin açılması, regionun iqtisadi inkişafına böyük töhfə verə bilər. Bu dəhlizin açılması, nəqliyyat və logistika infrastrukturunun inkişafına səbəb olacaq və yeni iş yerlərinin yaranmasına təkan verəcək. Eyni zamanda bu dəhliz vasitəsilə regional ticarət və investisiyaların artması gözlənilir [2].

Nəticə

Zəngəzur dəhlizi, Qafqaz regionunda yeni bir nəqliyyat marşrutu olaraq böyük potensiala malikdir. Bu dəhliz, Böyük İpək Yolunun müasir alternativi kimi çıxış edərək, regionun iqtisadi və geosiyasi xəritəsini dəyişdirə bilər. Zəngəzur dəhlizinin açılması ilə Qafqazda yeni ticarət və əməkdaşlıq imkanları yaranacaq və regional sabitlik və inkişaf təmin ediləcək. Böyük İpək Yolu əsrlər boyu Asiya və Avropa arasında ticarət və mədəniyyət əlaqələrinin əsas marşrutu olub. Tarixi İpək Yolu boyunca tacirlər, alimlər və səyyahlar bir çox fərqli mədəniyyəti birləşdirərək iqtisadi və mədəni inteqrasiyaya töhfə veriblər. Müasir dövrdə, Böyük İpək Yolunun yenidən canlandırılması və infrastruktur layihələrinin həyata keçirilməsi, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində önə çıxır. Bu təşəbbüsün bir hissəsi kimi, Zəngəzur dəhlizi də strateji əhəmiyyətə malikdir və Qafqaz regionunda yeni ticarət marşrutu olaraq nəzərdən keçirilir.

Zəngəzur dəhlizi Qafqaz regionunda əməkdaşlığı və sabitliyi gücləndirəcək. Bu dəhliz vasitəsilə Ermənistanın da regional iqtisadi inteqrasiyasında iştirakı artacaq və regional sabitliyə töhfə verəcək. Eyni zamanda bu dəhliz regional nəqliyyat şəbəkəsinin inkişafına və əməkdaşlığın gücləndirilməsinə səbəb olacaq. Zəngəzur dəhlizinin açılması, Qafqaz regionunda yeni geopolitik reallıqlar yarada bilər. Türkiyə, Rusiya, İran və Avropa İttifaqı kimi böyük güclər dəhlizin açılması ilə maraqlanır və bu, regionda siyasi vəziyyətə təsir göstərə bilər. Bu dəhliz, həmçinin Azərbaycanın strateji rolunu gücləndirir və onun regional liderliyini möhkəmləndirir.

ƏDƏBİYYAT

1. Asker, Ali, Zeynəp Gizem Özpınar. Azerbaycanı Zaferə götürən Büyük Taarruz: 44 günlük Savaşın Anatomisi', Avrasiya İncelemeler Dergisi, No 10. 1 (2021).
2. Böyük regional və beynəlxalq əhəmiyyətli layihə - Zəngəzur dəhlizi. "Səs" qəzeti, 31 avqust 2023-cü il. No 156.
3. Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazı dünyanın mühüm logistik mərkəzinə çevirəcək. "Respublika" qəzeti 24 avqust 2023-cü il. No 180.
4. Zəngəzur dəhlizi: böyük regional və beynəlxalq əhəmiyyətli layihə. "İki sahil" qəzeti, 24 avqust 2023-cü il. No 151.
5. Orta Dəhliz: Şərqlə Qərbi birləşdirən körpü: Avropa ilə Asiya arasında ən qısa və rahat marşrut Zəngəzur dəhlizinin açılması ilə daha səmərəli olacaq. "Respublika" qəzeti, 22 sentyabr 2023-cü il. No 205.
6. https://azertag.az/xeber/milli_meclisde_qerbi_azerbaycana_tehlukesiz_ve_leyaqetli_qayidis_movzusunda_ictimai_dinleme_kechirilib-3312940?utm
7. https://teleqraf.az/news/siyaset/370105.html?utm_

ABSTRACT

Mahsati ASGAROVA

THE ALTERNATIVE TO THE GREAT SILK ROAD: THE ZANGEZUR CORRIDOR

In the article, the Zangezur corridor, which is an alternative to the Great Silk Road, which connects the Western regions of Azerbaijan with the Nakhchivan Autonomous Republic, has been extensively investigated. Zangezur Corridor is a strategically important transport corridor between Azerbaijan and Armenia. This corridor is located in the southwest of Armenia, between Zangilan region and Nakhchivan Autonomous Republic. According to the tripartite declaration signed between Azerbaijan, Armenia and Russia after the 44-day Second Karabakh War, the Zangezur Corridor is planned to be opened. This corridor will connect the main territory of Azerbaijan with Nakhchivan and strengthen regional trade and transport relations. The article also mentions the importance of the Zangezur corridor, international trade opportunities, etc. was also investigated.

Keywords: *Western Azerbaijan, Zangezur Corridor, Great Silk Road, Turkic World, International trade opportunities, Regional trade and logistics*

QƏRBİ AZƏRBAYCANIN KARVANSARALARI

Ülkər HƏSƏNZADƏ
ulkerhasanzade@ndu.edu.az
ORCID iD: 0009-0006-7869-1106
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Azərbaycanın qədim karvan yolları üzərində yerləşməsi, əlverişli coğrafi mövqeyi və iqlimi ərazidə ticarətin geniş səviyyədə təşəkkülünə təkan vermişdir. Böyük İpək Yolunun magistralı boyunca Azərbaycanın ticarət əhəmiyyətli şəhərlərində və karvan yolları üzərində karvanasaralar mövcud olmuşdur. İqtisadi əlaqələrin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edən karvan yolları üzərində tacirlərin rahatlığı üçün hamamlar, kəhrizlər, məscidlərlə yanaşı, karvansaralar da inşa olunurdu. Qərbi Azərbaycan karvansaraları, həmçinin müxtəlif ticarət əməliyyatlarının keçirilməsi üçün ən sərfəli obyektlər idi. Ona görə də karvansaralar bir qayda olaraq, şəhərin qızğın ticarət gedən "qaynar nöqtələrində" tikilirdi.

Açar sözlər: *Qərbi Azərbaycan, karvansara, İrəvan, Dərələyəz, ticarət*

Giriş

Azərbaycan hələ qədim zamanlardan coğrafi mövqeyinə görə Qərblə-Şərqi birləşdirən karvan və ticarət yollarının kəsişdiyi yer olub. Həmin ərazilərdə çox sayda karvansaranın tikilməsinin səbəbi də bu olub. Karvansaralar əsasən ticarət yollarının kənarlarında və şəhərətrafı ərazilərdə də inşa edilirdi.

Tarixən Azərbaycan ərazilərində karvansaraların prototipləri V-VI əsrlərdən mövcud olsa da, bu tikililər XII-XIII əsrlərdə xüsusi populyarlıq qazanmışdı. Karvansaralar müxtəlif materiallardan əhəng məhlulu ilə tikilirdi. Onların inşası üçün məkan seçilərkən yaxınlıqda içməli suyun olması, eləcə də ərazinin küləkdən və qar fırtınalarından qorunması nəzərə alınırdı. Karvansara komplekslərində həm insanların, həm də yük heyvanlarının qalması üçün yerlər inşa edilirdi. Məhz buna görə də karvansaraların memarlıq və tikinti üslubu orijinallığı ilə seçilirdi. Azərbaycanın demək olar bütün karvansaraları oxşar memarlıq kompozisiyasına malik idi. Onlar yalnız ölçü və üslub xüsusiyyətlərinə, yəni böyük və ya kiçik olmalarına görə bir-birindən fərqlənirdi. Plan baxımından düzbucaqlı, təknefli və üçnefli karvansaralar uzunsov zal tipli tikililərdir. Karvansaralarda zalın uzunluğu bəzən 30 metrə çatırdı. Dəhliz boyunca tağlı damın dayandığı paralel qoşa dirəklər və plastırlarla tamamlanırdı. Karvansaraların dəhlizlərinin damı daş plitələrlə örtülürdü. Giriş qapısı eninə, yan divardan fasada açılırdı. Karvansaranın zalı binanın damında açılan dar dəliklərlə işıqlandırılırdı. Bəzi karvansaralar isə qalalar, saraylar kimi, binanın divarları və küncləri vasitəsilə işıqlandırılır və havalandırılırdı.

Qərbi Azərbaycan karvansaralarının quruluşu və Azərbaycanın digər bölgələrində olan karvansaralarla oxşar xüsusiyyətləri

Məlum olduğu kimi, İrəvan ticarət əhəmiyyətli beynəlxalq yolların kəsişdiyi yerdə yerləşib. Ona görə də burada çoxsaylı karvansaralar fəaliyyət göstərib. Bu karvansaraların tikilmə dövrü müxtəlif olsa da, plan və konstruksiya baxımından oxşar olublar. Adətən, möhkəm divarla əhatə olunmuş karvansaraların mərkəzində su hovuzları, yan tərəflərində ambarlar və heyvanların saxlanması üçün zallar yerləşirdi. Zalların və otaqların tavanı tağbənd və günbəzlə örtülürdü. İkinci mərtəbəsində müsafirlər üçün otaqlar və digər istirahət guşələri yerləşirdi. Bu cəhəti ilə onlar Naxçıvan, Təbriz və Aran memarlıq məktəbinin özəlliyini saxlayırdı.

XIX əsrin əvvəllərinə qədər İrəvanın mərkəzində eni və boyu 400x400 m olan meydan olub. Bundan başqa, şəhərin müxtəlif yerlərində Hüseynəli xan, Zal xan, Pənah xan, Xan bağı və Fəhlə bazarı adlı nisbətən kiçik meydanlar da fəaliyyət göstərib. Zənabı xan (Sənafxana), Ovşar, Culfa, Gürcü, Tahir, Sulu, Susuz və Hacı Əli karvansaraları məhz belə meydanlann yaxınlığında yerləşirdi [4]. Tarixi mənbələrdə bu karvansaralardan bir çoxunun yalnız adı çəkilsə də, bəziləri haqqında, qısa da olsa, məlumatlar var. Ovşar karvansarası məhz belələrindəndir.

XVI əsrin yadigarı olan Ovşar karvansarası bütovlükdə bişmiş kərpiclə İrəvanın Bazar meydanında inşa edilib. Karvansaranın arxa tərəfi bağlı, qarşı tərəfi açıq eyvanlı olub. Eyvana düzülmüş daş sütunlar yuxarıdan yarımdairə şəkilli tağlarla tamamlanırdı. Tağların kənarı ilə dövrələnən relyefli haşiyə onun estetik görünüşünü

daha da artırırdı. Yağış sularının eyvana daxil olmaması üçün karvansaranın döşəməsi həyət səviyyəsindən 25 sm hündür olub. Tağbəndlərin zəlzələyə qarşı davamlı olması üçün aşırım aralığı metal boru ilə birləşdirilib. Karvansaranın dam örtüyü yastı, tavanları günbəz şəklində hörülmüşdü. Tarixi mənbələrdə onun XVIII əsrdə bərpa olunduğu qeyd olunur. Karvansaradan sonralar müxtəlif məqsədlər üçün istifadə edilmişdir.

XVI əsrin yadigarı Gürcü karvansarası da Ovşar karvansarası kimi İrəvanın Bazar meydanında yerləşirdi. Zamanında 78 dükanı olan Gürcü karvansarası örtülü bazar kimi də fəaliyyət göstərmişdi. Karvansaranın ümumi forması Ovşar karvansarası kimi daxili eyvan və mərkəzi həyət şəklində olsa da, onun tağbəndləri yarımdairə deyil, oxvari şəkildə olub. Tağbəndlər arasında olan pilyastrlar ümumi bina divarlarına monumentallıq gətirirdi. Bu karvansaranın da tavanı günbəzşəkilli olub, dam örtüyü yastı, maili formada tamamlanmışdı. Təbii suları damdan kənar etmək üçün xarici divar boyunca 50 sm enə malik olan karnizaltı daş novlar düzülmüşdü. XVII əsrdə karvansarada yenidənqurma və bərpa işləri aparılmışdı [1, s.121].

XIV əsrdə Qərbi Azərbaycanda inşa olunan maraqlı karvansaraların bir neçəsi Dərələyəz mahalının Ağkənd obasında yerləşir. Onlardan biri də Səlim karvansarasıdır. Səlim karvansarası Ağkənd obasından təqribən 1 km. yuxarıdakı dağın Səlim adlı aşırımında yerləşir. Bu aşırım özünün füsunkar landşaftı ilə yanaşı, həm də karvansaraları ilə məşhurdur. Karvansara Şah Abbasın zamanında onun adını daşıyıb. Görünür, Şah Abbas dövründə karvansarada təmir və bərpa işləri aparılıb.

Səlim karvansarası iki böyük zaldan ibarətdir. Zalın biri digərinə perpendikulyardır.

Karvansara girişi olan zal (15x7 m) şimal-şərq istiqamətində olub. İkinci zal isə (45x21 m) bundan nisbətən həm uzun, həm də enlidir. Hər iki zalın tavanı dairəvi tağbəndlə örtülüb. Tağbəndin dayanıqlığını artırmaq məqsədi ilə daxili divarda pilyastrlar qaldırılıb. Pilyastrlar tağbəndə həmahəng bağlanaraq tavanın mərkəzində tamamlanır. Zalların birindən digərinə keçmək üçün tağbənd örtüklü qapılar qoyulub. İnteryerdə qurulmuş çox da hündür olmayan dördbucaqlı daş sütunlar yuxarıdan kiçik relyefli kapitellə tamamlanır. Elə tavanın tağbəndləri də bu sütunların kapitelləri üzərinə oturdulub. Karvansara zalları daxildən tağbəndşəkilli olsa da, onun dam örtüyü ikiaşırımlı formadadır. Maraqlıdır ki, karvansara bütövlükdə yerli daş materialından inşa olunduğu kimi, onun damı da daş lövhələrlə örtülüb. Karvansaranın portalı xüsusi zövqlə işlənib. Burada memarın yüksək peşəkarlığı bütün aydınlığı ilə görünür.

Çatma tağbəndşəkilli portalın daxili səthi zəngin stalaktitli ornamentlərlə bəzədilib. Binanın məhz karvansara olmasına işarə olaraq memar portalın yan tərəflərində relyefli heyvan fıquru işləmişdi. Heyvan fıqurları qala mazğalına bənzər çıxıntılar üzərindədir. Bu həm də güc və qüdrət rəmzidir. Karvansaranın diqqəti çəkən detallarından biri də onun girişi üzərindəki yeganə daş kitabəsidir. Yuxarısı yarımdairə, aşağısı isə düz olan həmin kitabə üç yarpaqşəkilli ornamentlərlə haşiyələnib. Həmin daş kitabəni epiqrafçı alim Məşədixanım Nemət tədqiq etmişdir.

Alimin yazılarından məlum olur ki, Səlim karvansarası miladi tarixinin 1328-29-cu illərində Əbu Səid Xan Bahadur tərəfindən tikdirilmişdi. Təəssüf ki, kitabədə memarın adı qeyd olunmur. Çox güman ki, karvansara sahibi buna icazə verməyib. Ancaq onun memarlıq üslubu, işlədiyi ornamentlər həmin dövrün digər abidələrində görünür. Belə abidələrdən biri Zəngilan rayonunun Məmmədbəyli kəndindəki Xacə Yəhya türbəsidir ki, kitabəsində memar Əli Məcidəddinin adı qeyd olunur. Memar Əli Məcidəddin XIII əsrin axırlarında Qarabağda yaşayıb-yaratmış və böyük memarlıq məktəbinə rəhbərlik etmişdi. Məktəbin üslub özəlliyi Səlim karvansarasından başqa Ağkənd və Sınıq adlı karvansarada, eləcə də Cəfərabad kəndi yaxınlığındakı Pir Hüseyn türbəsi (XV əsr), Qubadlının Dəmirçilər və Gürcülər kəndindəki Səkkizüzlü türbələr (XII əsr), Cəbrayılın Şıxlar kəndindəki Şıxbaba piri (XIV əsr), Xudayarlı kəndindəki səkkizüzlü və dairəvi türbələr (XIV əsr), Füzulinin Babı kəndindəki Şeyx Babı Yaqub (1273-1274), Əhmədalılar kəndindəki Arqalı (XIII əsr) və Veysəlli kəndindəki Mirəli türbəsi (XIV əsr) üzərində izlənir.

Yuxarıda qeyd edildiyi kimi, Səlim karvansarası Dərələyəzin Ağcakənd inzibati ərazisində yerləşir. Buna və daş kitabəsində əsgi əlifba ilə yazılmış tarixi məlumatlara baxmayaraq, erməni "ustalar" heç nədən çəkinmədən, karvansara divarına erməni dilində yazılmış kitabə yerləşdiriblər. Ancaq həqiqi tarixi fakt budur ki, 1923-cü ildə bura cəmi 172 nəfər erməni gəlib. Bütün bu tarixi həqiqətlərə göz yuman "tədqiqatçılar" Azərbaycana məxsus olan digər abidələr kimi Səlim karvansarasını da erməni abidəsi adı altında əcnəbi dillərdə çap etdirərək bütün dünyaya bəyan edirlər [2, s.78].

Səlim karvansarasından təqribən 3 km aşağıda eyni ilə digər bir karvansara da mövcuddur. El arasında Ağkənd karvansarası kimi tanınan bu karvansaranın Səlim karvansarasından əsas fərqi ondadır ki, o tamamilə yerin altında inşa edilib. Beləliklə, karvansaranın bir növü müdafiə qabiliyyəti artırılıb. Karvansara daxildən yonulmuş bazalt daşlarla, xaric hissəsi isə torpağın altda qaldığı üçün adi daşlarla inşa edilmişdir. Sağ və sol tərəflərdə hər cərgədə 9 dayaq olmaqla cəmi 18 dayaq yonulmuş daşlarla bir-biri ilə möhkəm birləşdirilmişdir.

Yeganə zaldan ibarət olan karvansara interyeri iki cərgə sütunla üç nefə ayrılır. Hər cərgədə 9 sütun

olmaqla interyerdə cəmi 18 daş sütun var. Səlim karvansarasında olduğu kimi, burada da zalın tavanı yarımdairə şəkilli tağbəndlə örtülüb. Tağbəndin möhkəmliyini artırmaq məqsədilə divarlarda pilyastrlar quraşdırılıb. Ümumi ölçüləri 12,2x25,1 m olan zalın baş tərəfindəki divarlar şaquli şəkildə hörülüb. Bu hissəsindəki divar daşları təbii formadadır. Lakin bundan fərqli olaraq, giriş tərəfindəki divar daşları çox səliqə ilə yonulub. Belə daşlarla karvansaranın həm tağbəndi və həm də pilyastrları hörülüb. Onun yalnız bir tərəfdən giriş-çıxışı var. Karvansaranın yer altında olması onun müdafiə qabiliyyətini artırmaqla yanaşı, həm də burada münasib mikroiqlim yaranmışdır. Belə ki, karvansara zalı yayda sərin, qışda isə isti olur. Bu karvansara ilə Səlim karvansarasının eyni quruluşa malik olduğunu və eyni dövrdə tikildiyini əsas götürərək, onların hər ikisi Əbu Səid xan Bahadurun göstərişi ilə memar Əli Məcidəddin tərəfindən inşa etdirildiyini güman etmək olar.

Karvansaranın yaxınlığında yerləşən Ağkənd kəndində 1918-ci ilə qədər ancaq Azərbaycan türkləri yaşamışlar. Kəndə ilk ermənilər 1923-1925-ci illərdə köçürülüb gətirilmişlər.

Səlim və Ağkənd karvansarasınm konstruksiya və memarlıq oxşarı, Gorus rayonundan keçən qədim Urud yolunun üstündə, Yayıcı kəndinin qonşuluğunda yerləşən Sınıq karvansaradır. Karvansaranın girişi üzərindəki kitabədən onun tikilmə tarixi hicri tarixi ilə 698-ci il göstərilib. Bu da miladi tarixi ilə 1319-cu ilə uyğundur. Bu tarix ilə Səlim karvansarasınm tikilmə tarixinin müqayisəli təhlili göstərir ki, Sınıq karvansara 9 il əvvəl tikilib. Həmin tarix Əbu Səid Bahadur xanın dövrünə düşdüyü üçün o, Əbu Səid karvansarası adlanmışdı. Qədim İpək Yolunun üstündə tikilmiş türk-müsəlman abidəsidir. Sonralar karvansara ciddi dağıntılara məruz qaldığı üçün Sınıq karvansa adlandırılıb. Karvansaranın planı Səlim karvansarasında olduğu kimi bucaqşəkillidir. Karvansaranın divarı çaylaq daşından, əhəng və qum qarışıqlı məhlulla hörülmüşdür. Tağlar və sütunlar isə yonulmuş bazalt daşdan tikilmişdir. Karvansaranın ətrafında çox qədim qəbiristanlıq qalıqları mövcuddur.

Tağlarında işlənmiş daşlar da Səlim və Ağkənd karvansaralardakı kimi səliqə ilə yonulub. Onların sütunları da qarşılıqlı oxşarlıq təşkil edir. Bütün bunlar göstərir ki, bu karvansaranın da memarı Əli Məcidəddindir.

Zəngəzur mahalı qədimdən Türk-Oğuz boylarının anayurdu olmuş, bura ermənilərin ilk kütləvi axını XIX yüzilliyin əvvəllərində bölgənin Rusiya imperiyası tərəfindən işğalından sonra başlanmışdır.

İrəvan şəhərində tarixi karvansaralardan biri olan Zərrab xan (Zalxana, Sərrafxana) karvansarası Göy məscid kompleksinin bir hissəsi olmuşdur. 8 girişi olan almaz formalı qapalı həyəti olan kompleks XVII əsrin ikinci yarısında tikilmiş, təxminən 1675–1680-ci illərdə tamamlanmışdır. Abidə əvvəlcə zərbxana kimi istifadə edilmiş, lakin sonradan tacirlərin istifadəsinə verilmişdir. Karvansarada 38 dükan olmuşdur. Zərrab xan karvansarası 1920-ci illərdə dağıdılmışdır [6].

Belə möhtəşəm karvansaralardan biri olan Araqatson karvansarası da ermənilər tərəfindən dağıdılaraq xarabalığa çevrilib. Araqatson əyalətinin Talin, Aruç və Araya karvansaraları da eyni taleni yaşadılar. XII-XIII əsrlərdə inşa edilən Talın karvansarası şəhərin cənubunda, yolun sol tərəfində yerləşir. Bu, Qərbi Azərbaycan ərazisində xarabalıqları qalan ən böyük karvansaradır. Həyətli karvansaralar tipinə aid Talin iki üçnefli zaldan və həyətdən ibarətdir. Şərq tərəfdə üçnefli zal, zalın qarşısında dördkünc həyət və qərb zalı tikilib. Həyət və ona şərqdən və qərbdən bitişik olan dəhlizlər boş divarlarla ayrılır. Bu karvansara kompleksinin cənub tərəfdən yalnız bir giriş qapısı olub. Həyətin daxili perimetri boyunca alqı-satqı, ticarət fəaliyyəti üçün nəzərdə tutulmuş tağlı otaqları olan qalereya var idi. Şərq və qərb divarları bürclərlə möhkəmləndirilmişdi. 1990-cı illərdə karvansaraya ermənilər tərəfindən ciddi ziyan vurulmuşdur. Belə ki, ərazidə məskunlaşdırılan erməni əhali əsrlərin şahidi olan bu binanın daşlarını sökərək öz ehtiyacları üçün istifadə ediblər.

Ermənilər tərəfindən dağıdılan daha bir karvansara (XIII əsrə aid) Aruç kəndindən bir kilometr şimal-qərbdə, İrəvan-Gümrü avtomobil yolunun sol tərəfində yerləşir. O, təkzallı, üçnefli karvansaralar tipinə aiddir və nəfis, təmiz işlənmiş hörgüsü ilə seçilirdi. Üçnefli strukturun uzununa zalında tağlı damın əsas ağırlığını daşıyan altı cüt dirək quraşdırılmışdı. Yeganə giriş qapısı cənub fasadına açılırdı, binanın divarları və küncləri qüllələrlə möhkəmləndirilmişdi. Abidə 2008-ci ildə ermənilər tərəfindən dağıdılaraq bərbad vəziyyətə salınıb. Binanın yalnız şimal-şərq hissəsi qalıb [5].

Ermənilər tərəfindən vandalizmə uğradılan karvansaralardan biri Aparan rayonunun Arai kəndindən bir kilometr cənubda yerləşir. Karvansara 1213-cü ildə tikilib. Talın karvansarası kimi, bu abidə də erməni millətçiləri tərəfindən dağıdılıb. Binanın daşları sökülərək naməlum istiqamətə aparılıb. Karvansaranın yalnız kiçik bir divarı qorunub saxlanılıb ki, bu da abidə haqqında tam təsəvvür əldə etməyə imkan vermir.

Nəticə

Azərbaycan hələ orta əsrlərdə ticarət mərkəzi kimi tanınır və Şərqlə Qərbi birləşdirirdi. Müxtəlif ölkələrlə ticarət aparan Azərbaycandan neft, duz, ipək, yun, mis qablar və xalçalar müxtəlif ölkələrə ixrac

olunurdu. Həmin dövrlərdə ölkəyə gələn tacirlər karvanlarının təhlükəsizliyini təmin etmək üçün, onların ölkədə qala bilmələri üçün müxtəlif bölgələrdə karvansaralar tikilirdi. Əsrlər boyu böyük şəhərlərdə, o cümlədən də Böyük İpək Yolu üzərindəki karvansaralar bugünkü mehmanxana funksiyasını daşıyıb. O dövrdə karvansaralar 2 qrupa bölünürdü — şəhər və yolüstü karvansaralar. Yolüstü karvansaralar daha çox istehkamı, qalanı xatırladırdı. Qalın divarları olan həmin karvansaraların bir qapısı vardı və gecələr bağlanırdı. Şəhər karvansaralarının isə əsasən iki qapısı olub və daha yaxın məsafələrdə yerləşirdi.

Karvansaralarda karvanların dayanacaq yeri, mehmanxana tipli istirahət otaqları, minik və yük heyvanları üçün ayrıca yer (tövlə) və axurlar, ticarət mallarının saxlanması üçün anbarlar, müxtəlif dükanlar, yeməkxana və s. yerləşirdi.

İki məfhumu - karvan və sarayı özündə birləşdirən bu ifadə günümüzdə qonaq evi kimi də qəbul edilir, yəni ilkinliyini qoruyub saxlayır. Memarlıqda dəyərli hesab olunan karvansaralar, əslində, ticarət yolları üzərində tikilmiş qonaq evləri funksiyasını daşıyan tikili, saraylardır. Mənfəət əldə etmək istəyən imkanlılar tərəfindən tikdirilən həmin binalarda karvanlar saxlanar, insanlar dincələr və yollarına davam edərdilər. Karvansaraların sonralar xanlar və bəylər tərəfindən də salındığı bildirilir. İslamiyyətin daha geniş ərazilərə yayıldığı dövrlərdə (Qafqazda VI əsr) hərbi və sərhədlərin müdafiəsi məqsədilə tikilmiş, sonralar daha çox ticarət əhəmiyyəti daşıyan binalar karvansara adlandırılmışdır.

Kənardan alınmaz qala kimi görünən, karvan sahiblərinin bütün ehtiyaclarını ödəyən (rahat istirahət etmək, dincəlmək məqsədilə) bu binalar (karvansaralar) Səlcuq sultanları və yüksək dövlət məmurları tərəfindən böyük ticarət yolları üzərində (30-40 kilometr məsafədə olmaqla) tikilmişdir.

Göründüyü kimi, yuxarıda qeyd olunan karvansaraların adı və hətta mənsub olduğu memarlıq məktəbi belə azərbaycanlılara məxsusdur. Çox təəssüf ki, bu karvansaraların çoxu bu günə qədər gəlib çatmamış və ermənilər tərəfindən zaman-zaman dağıdılmışdı. Onların bəzilərinin rəsmi xeyirxah insanlar tərəfindən çəkilib. Əks halda, erməni vandalları tərəfindən dağıntılara məruz qalan minlərlə Azərbaycan memarlığının inciləri kimi bu abidələrin də əyani görünüşü günümüzə gəlib çatmazdı.

ƏDƏBİYYAT

1. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə
1. siyasəti, Bakı: 2012
2. Mirzəyev, H. İ. Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı: 2004
3. Hacıəli, Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: 2007
4. https://anl.az/el/emb/Qerbi_Azerbaycan/memarliq.htm
5. https://azertag.az/xeber/ermenistanda_vandalizme_meruz_qalan_azerbaycan_karvansaralari ___arasdirma-2901649
6. https://qerbiazerbaycan.com/z%c9%99rrab-xan-karvansarasi/

ABSTRACT

Ulkar HASANZADEH

THE CARVANSERAIS OF WESTERN AZERBAIJAN

Along the highway of the Great Silk Road, there were caravanserais in the important commercial cities of Azerbaijan and on the caravan routes. Caravansaras were built for the convenience of merchants along with baths, kahriz, mosques, which were important in the regulation of economic relations. Western Azerbaijan caravansaries were also the most profitable facilities for carrying out various trade transactions. That's why caravanserais were built, as a rule, in the "hot spots" of the city where there was a lively trade.

Keywords: *Western Azerbaijan, caravansary, Yerevan, Deraleaz, trade*

KƏNGƏRLƏR CƏNUBİ QAFQAZDA

İlqar KƏNGƏRLİ
kengerliilqar@ndu.edu.az
ORCID iD: 0009-0008-8169-5276
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Cənubi Qafqazda baş verən etno-siyasi proseslərdə iştirak etmiş etnoslardan biri də türk mənşəli Kəngərlərdir. Eramızın ilk əsrlərində Mərkəzi Asiyadan Şərqi Avropaya, oradan isə Cənubi Qafqaza yeni türk tayfalarının köçü başlayır. Bu köç hunlarla bağlı idi. Hunlarla gəlmiş böyük ellərdən biri də Kəngər adlanırdı. Kəngər elinin adı Orta Asiyada e. ə. III əsrdən eramızın ilk əsrlərinə qədər mövcud olmuş qədim türk dövlət qurumlarından biri olmuş Kanq dövlətinin adı ilə əlaqədardır. Tədqiqatın obyekti olan və erkən orta əsrlərdə Cənubi Qafqazda yaşamış Kəngərlər də Orta Asiya mənşəli türk etnosuna mənsubdurlar. Siyasi müstəqilliyini itirdikdən sonra Kəngərlər erkən orta əsrlərdə Cənub-Şərqi Avropada və Cənubi Qafqazda baş verən etno-siyasi proseslərdə fəal iştirak etmiş, öz varlıqlarını qoruyub saxlamışlar. Cənubi Qafqazda Kəngərlərin adı hələ 193-213-cü illərə aid hadisələrlə əlaqədar olaraq çəkilmişdir. II əsr yunan müəllifi Klavdi Ptolomey Albaniyada şəhərlərin birinin Qanqar (əsli Kanqar) adlandığını yazmışdır. Deməli, Kəngərlər artıq II əsrdə Albaniya ərazisində məskun idilər və onlar burada oturaq həyat tərzi keçirirdilər. Mənbələrin məlumatına görə, Kəngər-peçeneqlər Cənubi Qafqazda əsasən Kürdən cənubdakı Qarabağ-Qazax-Ağstafa və indiki Ermənistan ərazisində məskunlaşmışdılar. XIX əsrin əvvəllərinə aid mənbələrdə qeyd olunur ki, Qazax və Naxçıvan bölgəsində yaşayan Kəngərlərin bir qolu Qaracallı adlanırdı. Kəngərlərin bu eli Qərbi Azərbaycan ərazisində bir neçə Qaracallı adlı məntəqənin əsasını qoymuşdur. Qərbi Azərbaycanın indi Qukasyan (keçmiş Qızıl Qoç) adlanan rayonunda Kəngər dağları vardır. Artıq bu təsdiqini tapmış bir faktdır ki, 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanmasından sonra ermənilərin Cənubi Qafqaza, əzəli Azərbaycan torpaqlarına kütləvi köçürülməsi prosesi başlayır. Nəticədə bolşevik Rusiyasının köməyi ilə 1918-ci ildə İrəvan xanlığının ərazisində ermənilər özlərinə dövlət yaratmağa nail oldular. Həmin vaxtdan Qərbi Azərbaycan torpaqlarından yerli aborogen əhalinin qaçqın düşməsi və köçürülməsi prosesi başlayır. Bu deyilənlər bir daha göstərir ki, 1918-ci ildə Rusiyanın köməyi ilə Qərbi Azərbaycan ərazisində ermənilərin yaratdığı dövlət əzəli Azərbaycan torpaqlarıdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Cənubi Qafqaz, Kəngər, Türk, İrəvan, Peçeneq, Qarabağ*

Türk xalqlarının bəşər tarixində roluna tarixşünaslıqda obyektiv qiymət verilməmiş və ya çox az yazılmışdır. Təəssüflə qeyd etmək lazımdır ki, eyni vəziyyət Azərbaycanla yanaşı, qədim türk mənşəli etnosların ana yurduna daxil olmuş Orta Asiya və Qazaxıstan tarixşünaslığında da hökm sürmüşdür. Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlərdə də xalqımızın mənşəyində türk etnoslarının rolunu kiçiltmək və heçə endirmək tendensiyaları var idi. Yalnız SSRİ dağıldıqdan sonra tarixi həqiqətlər üzə çıxarılmağa başlanmış və müəyyən edilmişdir ki, Azərbaycan ərazisində türk mənşəli etnoslar e. ə. I minilliyin əvvəllərindən mövcud olmuş Manna, Atropatena və Alban dövlətləri yerli türk mənşəli etnosların qurumları idilər. Eramızın I minilliyinin əvvəllərində Hun, Bolqar, Avar, Suvar, Qıpçaq, Xəzər, Peçeneq və Kəngərlər də Azərbaycan ərazilərinə gəlmişlər və Cənubi Qafqazda baş verən etno-siyasi proseslərdə iştirak etmişdilər. Bu araşdırmada eramızın əvvəllərində Azərbaycan ərazilərinə gəlib məskunlaşmış türk mənşəli Kəngərlər haqqında məlumat verilir.

Azərbaycanın bir sıra ərazilərində, o cümlədən Naxçıvanda hələ e. ə. VII əsrdə qədim türk mənşəli sakların müəyyən hissəsinin məskunlaşdığı artıq sübut olunmuşdur [1, s.189].

Eramızın ilk əsrlərində Mərkəzi Asiyadan Şərqi Avropaya yeni türk tayfalarının köçü başlayır. Bu köç hunlarla bağlı idi. Hunlarla gəlmiş böyük ellərdən biri Kəngər adlanırdı. Kəngər elinin adı Orta Asiyada e. ə. III əsrdən eramızın ilk əsrlərinə qədər mövcud olmuş qədim türk dövlət qurumlarından biri olmuş Kanq dövlətinin adı ilə əlaqədardır. Kəngər (əsli kanqar) etnonimi "Kanq ərləri"- qədim türk dillərində ar, ər, "igid", "döyüşçü", "uca" mənasındadır. Türk xalqlarının tarixi üzrə tədqiqatçı L. N. Qumilyova görə "kanqar" sözü Kanq ölkəsində yaşayanların etnik özünüadlandırmaları olmuşdur. Başqa mənbələrə görə, Kanqarlar Kanq əyalətində məskunlaşmış Basine (peçeneq) tayfasının bir hissəsinin adıdır [7, s. 54].

Erkən orta əsrlərdə Cənubi Qafqazda yaşamış Kəngərlər də Orta Asiya mənşəli türk etnosuna

mənsubdurlar. E.ə. II əsrə aid Çin mənbələrində Orta Asiyada Usun və Kanq adlı dövlətlər haqqında məlumatlar vardır [8, s. 61]. Tarixi mənbələr göstərir ki, Kanq dövləti Sır-Dərya çayının orta axarı ilə Amu-Dərya çayı arasındakı ərazilərdə e. ə. V əsrin sonundan eramızın əvvəllərinədək mövcud olmuş Kanq qalasının adı ilə adlanmışdır. Kanqlı tayfasına mənsub yaşayış məntəqə adları bu gün də Orta Asiyada qalmaqdadır [2, s. 183].

Siyasi müstəqilliyini itirdikdən sonra da Kəngərlər erkən orta əsrlərdə Cənub-Şərqi Avropada və Cənubi Qafqazda baş verən etno-siyasi proseslərdə fəal iştirak etmiş, öz varlıqlarını qoruyub saxlamışlar. Cənubi Qafqaza yürüş edən Kəngərlərin tərkibində peçeneqlərin də olması fikri vardır. Tarixçi alim Q.Qeybullayev antik dövrə aid mənbələrə istinad edərək bu istiqamətdə dəyərli tədqiqatlar aparmışdır. Q.Qeybullayev e.ə. VII əsrdə Cənubi Qafqaza yürüş edən saklardan bəhs etmiş, onların içərisində "pasian" adlı türkdilli tayfanın indiki Ermənistanın Türkiyə ilə həmsərhəd bölgələrində və Qarabağda məskunlaşdığını göstərmişdir [3, s. 125].

Q.Qeybullayevin tədqiqatlarına əsasən bu qənaətə gəlmək olar ki, peçeneqlər hələ miladdan əvvəl sakların tərkibində Cənub-Şərqi Avropa çöllərinə, oradan isə Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazilərinə gəlmişlər. Əgər biz Kəngər-Peçeneq bağlılığından danışırıqsa, onda bu tayfaların bir hissəsinin hunlarla birlikdə Qafqaza gəlişini ikinci axın, X əsrdən sonra oğuzlarla gəlişini isə üçüncü axın kimi dəyərləndirməliyik [6, s. 179].

Cənubi Qafqazda Kəngərlərin adı hələ 193-213-cü illərə aid hadisələrdə çəkilmişdir. II əsr yunan müəllifi Klavdi Ptolomey Albaniyada şəhərlərdən birinin Qanqar adlandığını yazmışdır. Deməli, Kəngərlər artıq II əsrdə Albaniya ərazisində məskun idilər və onlar burada oturaq həyat tərzi keçirirdilər [5, s. 85]. Kəngər-peçeneqlər əsasən Azərbaycanın Kürdən cənubdakı ərazilərində – Qarabağ və Qazax-Ağstafa bölgələrində məskunlaşmışdılar. Diqqəti cəlb edən odur ki, e. ə. VII əsrdə Orta Asiyadan Şimali Qafqaz çöllərinə, oradan Cənubi Qafqaza gəlmiş saklar da əsasən Kürdən cənubdakı ərazidə və indiki Ermənistan ərazisində məskunlaşmış, Gəncə bölgəsi mərkəz olmaqla Sak çarlığı yaratmışdılar. "Dağlıq Qarabağ"ın qədim adı olan "Artsak" toponimi də məhz qədim türk dillərindəki art "aşırım", "yüksəklik" sözündən və sak etnonimindən ibarətdir [2, s. 244]. Sisakan (sonrakı Zəngəzur) əyalət adı da Sak etnonimi ilə bağlıdır və Alban ərazisi olmuşdur.

XIX əsrin əvvəllərinə aid mənbələrdə qeyd olunur ki, qazaxların 33 tayfasından biri Kəngərli adlanır. Qazax bölgəsində və Naxçıvan bölgəsində yaşayan Kəngərlərin bir qolu Qaracallı adlanırdı. Kəngərlərin bu eli Qərbi Azərbaycan ərazisində bir neçə Qaracallı adlı məntəqənin əsasını qoymuşdur. Qərbi Azərbaycanın Qukasyan rayonunda (indiki Qızıl Qoç) indi də Kəngər dağları (ermənicə Kanqaras pern) vardır [4, s. 64].

Q.Qeybullayev mənbələrdə 1284-cü ildən adı çəkilən Qarabağ adının Kəngər-peçeneqlərin "Qarabağ" tayfasının adını əks etdirdiyi fikrini irəli sürmüş və onu əsaslandırmışdır. Qarabay tayfası Kəngərlərin ən iri qolunu təşkil edirdi [3, s. 53].

Artıq bu təsdiqini tapmış bir faktdır ki, 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanmasından sonra ermənilərin Cənubi Qafqaza, əzəli Azərbaycan torpaqlarına kütləvi köçürülməsi prosesi başlayır. Nəticədə bolşevik Rusiyasının köməyi ilə 1918-ci ildə İrəvan xanlığının ərazisində ermənilər özlərinə dövlət yaratmağa nail oldular. Həmin vaxtdan Qərbi Azərbaycan torpaqlarından yerli aborogen əhalinin qaçqın düşməsi və köçürülməsi prosesi başlayır.

Yada saldığımız bu hadisələr Vətənimizin bir parçası olan Qərbi Azərbaycanımızın tarixidir. Lakin tarix davam edir. 27 sentyabr 2020-ci ildə başlamış və 44 gün davam etmiş ikinci Qarabağ müharibəsi Vətən tariximizin yeni səhifəsidir. Bu tarix qərbli-cənublu Bütöv Müstəqil Azərbaycanın yeni tarixinin başlanğıcıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. I cild, Bakı: Elm, 1998
2. İstoriya Uzbekskoy SSR. Tom 1, kniqa pervaya. Taşkent: 1955
3. Qeybullayev, Q. Azərbaycanlıların etnik tarixinə dair. Bakı: 1994
4. Muxtarova, Ə. Türk xalqlarının tarixi. Bakı: 1999
5. Seyidbəyli, E. Kəngərli elinin mənşəyi haqqında tarixi-etnoqrafik məlumat. "Əlyazmalar xəzinəsində", VII cild, Bakı: 1985
6. Kəngərli, İ. Kəngər elinin soy kitabı. Bakı: 2005
7. Qumilyov, L. N. Drevnie tyurki, M.: 1967
8. Borovkova, L. A. Zanaq Çentralnoy Azii vo II v. Do n. E.-VVb. N. E. İstoriko-qeoqrafiçeskoy obzor po drevnekitayskim istoçnikom), M.: 1989

ABSTRACT

Ilgar KANGARLİ

KANGARS IN THE SOUTH CAUCASUS

One of the ethnos that participated in the ethno-political processes in the South Caucasus is the Kangars of Turkish origin. In the first centuries of our era, the migration of new Turkic tribes from Central Asia to Eastern Europe and from there to the South Caucasus begins. This migration was related to the Huns. One of the big rivers that came with the Huns was called Kangar. The name of the country of Kangar in Central Asia e. a. It is related to the name of the Kang state, which was one of the ancient Turkic state institutions that existed from the 3rd century to the first centuries of our era. The Kangars, who are the object of the study and lived in the South Caucasus in the early Middle Ages, also belong to the Turkic ethnic group of Central Asian origin. After losing their political independence, the Kangars took an active part in the ethno-political processes that took place in South-Eastern Europe and the South Caucasus in the early Middle Ages and preserved their existence. In the South Caucasus, the name of the Kangars was mentioned in connection with the events of 193-213 years. The second century Greek author Claudius Ptolemy wrote that one of the cities in Albania was called Gangar (actually Kangar). So, the Kangars already inhabited the territory of Albania in the II century, and they led a sedentary lifestyle here. According to the sources, the Kangar-Pechenes settled in the South Caucasus, mainly in Karabakh-Kazakh-Aghstafa south of Kura and in the territory of present-day Armenia. It is mentioned in the sources of the beginning of the 19th century that a branch of the Kangars living in the region of Gazakh and Nakhchivan was called Garacalli. This group of Kangars founded several settlements called Garacalli in the territory of Western Azerbaijan. There are Kangar mountains in the district of Western Azerbaijan, which is now called Gukasyan (formerly Gizil Goch). It is a confirmed fact that after the conclusion of the Treaty of Turkmenchay in 1828, the process of mass resettlement of Armenians to the South Caucasus, to the ancestral lands of Azerbaijan, began. As a result, with the help of Bolshevik Russia, in 1918, Armenians managed to create a state for themselves in the territory of the Iravan Khanate. From that time, the process of refugees and resettlement of the local aboriginal population from the lands of Western Azerbaijan began. This once again shows that the state established by Armenians in the territory of Western Azerbaijan in 1918 with the help of Russia is the ancient lands of Azerbaijan.

Keywords: *West Azerbaijan, South Caucasus, Kangar, Turkish, Yerevan, Pecheneg, Karabakh*

QƏRBİ AZƏRBAYCAN: ZƏNGƏZUR XƏYANƏTİ

Ələkbər CABBARLI
elekbercabbarli@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Azərbaycan xalqının tarixi yaddaşında yaşayan, yaddaşlardan heç vaxt silinməyən Qərbi Azərbaycan torpaqları bizim əzəli və əbədi ata-baba torpaqlarımızdır. Bu torpaqlarda vaxtilə azərbaycanlılar yaşamış, tarixin amansız sınaqları ilə azərbaycanlılar bu torpaqlardan didərgin düşmüş, ermənilər bu ərazilərdə məskunlaşmağa başlamışlar. Tarixin dərin qatlarına getdikcə bu torpaqlarda türk tayfalarının yaşadığının şahidi oluruq. Qərbi Azərbaycanın köklü sakinləri də məhz azərbaycanlılar olmuş, sonradan ermənilər bu ərazilərə köçürülmüşlər. Bu ərazilər arasında Zəngəzur da var idi. Sovet Rusiyası da işğalçı planlarını həyata keçirmək üçün ermənilərі dəstəkləmiş, öz niyyətinin reallaşdırılmasında onlara fəal yardım etmişdir. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarını dəstəkləyən rəsmi Moskva Azərbaycan rəhbərliyinə təzyiqlər edirdi. Moskvanın təzyiqlərinə davam gətirə bilməyən Azərbaycan rəhbərliyi 1920-ci il noyabrın 30-da Zəngəzurun Ermənistana verilməsi haqqında bəyanatla çıxış etdi. Lakin həmin dövrdə Zəngəzurun Ermənistana verilməsinə qarşı çıxışlar da olmuşdu. Çox təəssüf ki, bu məsələ ilə bağlı aparılan müzakirələr heç bir nəticə vermədi və nəticədə Zəngəzur mahalı iki hissəyə bölünərək onun 4505 km^2-lik ərazisi Ermənistana verildi. Bu gün Zəngəzur məsələsi Ali Baş Komandanımız İlham Əliyevin diqqət mərkəzində olan əsas məsələlərdən biri kimi diqqət çəkir.

Açar sözlər: *Qərbi Azərbaycan, Zəngəzur, Zəngəzur dəhlizi, türk tayfaları, Azərbaycan torpağı*

Azərbaycan xalqının tarixi yaddaşında yaşayan, yaddaşlardan heç vaxt silinməyən Qərbi Azərbaycan torpaqları bizim əzəli və əbədi ata-baba torpaqlarımızdır. Bu torpaqlarda vaxtilə azərbaycanlılar yaşamış, tarixin amansız sınaqları ilə azərbaycanlılar bu torpaqlardan didərgin düşmüş, ermənilər bu ərazilərdə məskunlaşmağa başlamışlar. Tarixin dərin qatlarına getdikcə bu torpaqlarda türk tayfalarının yaşadığının şahidi oluruq. Qərbi Azərbaycanın köklü sakinləri də məhz azərbaycanlılar olmuş, sonradan ermənilər bu ərazilərə köçürülmüşlər.

Ermənilərin işğalçılıq planlarında Naxçıvan və Zəngəzur həmişə birinci yerdə dayanmış, bizim torpaqlar hesabına öz dövlətlərini yaratmağa çalışmışlar. Tarix göstərir ki, ermənilər son iki əsrdə "Böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycana qarşı ərazi iddialarında olmuşlar. Belə ki, 1828-ci il martın 21-də rus çarı I Nikolayın fərmanı ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlanan inzibati əyalət yaradılmışdı. Fərmanda deyilirdi: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə olunması qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır" [7, s.362]. Vilayət idarəsinin rəisi vəzifəsinə A.Çavçavadze təyin edildi. İdarənin üzvlüyünə iki rus hərbçisi, erməni və azərbaycanlılardan ibarət imtiyazlı təbəqənin nümayəndələri daxil idi.

Naxçıvan Rusiyaya birləşdirildikdən sonra onun əhalisinin tərkibində həm sayca, həm də etnik cəhətdən əsaslı dəyişiklik baş verdi. Əvvəllər butun bunlar çarizmin işğal etdiyi Azərbaycan ərazilərini xristianlaş-dırmaq, daha dəqiq desək, ermənileşdirmək siyasətinin nəticəsi idi. Ermənilərin Azərbaycana axını çoxpilləli proses olub, əsrlər boyu davam etmişdir. Nəticədə Naxçıvana xeyli erməni köçürülmüşdür. Çarizm bütövlükdə Şimali Azərbaycana, o cümlədən Naxçıvana köçürülən ermənilərə böyük imtiyazlar verir, onların etnodemoqrafik mövqelərinin möhkəmləndirilməsinə şərait yaradırdı.

1918-1920-ci illərdə Naxçıvanı zorla Ermənistana birləşdirmək cəhdləri bölgədə olduqca gərgin hərbi-siyasi vəziyyət yaratmışdı. 1918-1921-ci illərdə xarici dövlətlərin köməyindən istifadə edən Ermənistan hakimiyyəti Naxçıvana iddia edirdi. Lakin Naxçıvanın qeyrətli sakinləri bu iddianı rədd etdi. Bundan sonra ermənilər zor gücünə, hərbi yolla Naxçıvanı ələ keçirməyə cəhd göstərdilər. Onların bu planları nəticəsiz qalsa da, ermənilər Azərbaycana qarşı olan ərazi iddialarından əl çəkmək istəmirdilər. Ermənilərin işğalçılıq planında Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və Şərur-Dərələyəz əraziləri daim ön planda olmuşdur.

Sovet Rusiyası da işğalçı planlarını həyata keçirmək üçün ermənilərі dəstəkləmiş, öz niyyətinin reallaşdırılmasında onlara fəal yardım etmişdir. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarını dəstəkləyən rəsmi Moskva Azərbaycan rəhbərliyinə təzyiqlər edirdi. Moskvanın təzyiqlərinə davam gətirə bilməyən Azərbaycan rəhbərliyi 1920-ci il noyabrın 30-da Zəngəzurun Ermənistana verilməsi haqqında bəyanatla çıxış

etdi. Lakin həmin dövrdə Zəngəzurun Ermənistana verilməsinə qarşı çıxışlar da olmuşdu. Çox təəssüf ki, bu məsələ ilə bağlı aparılan müzakirələr heç bir nəticə vermədi və nəticədə Zəngəzur mahalı iki hissəyə bölünərək onun 4505 km^2-lik ərazisi Ermənistana verildi. Nəticədə ermənilərin "torpaq iddiaları bolşevik işğalından sonra daha da güclənmiş, bu dəfə Azərbaycan Zəngəzur mahalını itirməli olmuşdu". Heydər Əliyev Zəngəzurun ermənilərə verilməsinin taleyüklü bir hadisə olduğuna işarə edərək bildirirdi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" [2].

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək bərədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin guya kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölündü.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında "Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili" haqqında qərar qəbul edildi. 1921-ci ilin 3 iyununda RK[b]P MK Qafqaz Bürosu Stalinin iştirakı ilə iclas keçirib məxfi qrifli Zəngəzur məsələsini müzakirə etdi, Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərar çıxarıldı. Bu iclasda bir nəfər də olsa, azərbaycanlı, müsəlman yox idi. Əsas məqsəd də Azərbaycanla Osmanlını bir-birindən ayırmaq, Ermənistan ərazisini genişləndirmək idi. Zəngəzurun Azərbaycandan zorla qoparılaraq Ermənistan SSR-ə verilmiş hissəsində Qafan, Gorus, Sisian və Mehri rayonları yaradıldı. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı [4, s. 135].

Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-in tərkibində qalmış, 3.637 kv.verstlik hissəsi - 4505 kvadrat kilometr ərazisi Ermənistana verilmişdi.

Beləliklə, 29 noyabr 1920-ci ildə Sovet Rusiyasının dəstəyi ilə indiki Ermənistan ərazisində Azərbaycan torpaqlarının hesabına Ermənistan adlı dövlət yaradıldı. İrəvan şəhəri, Göyçə mahalı, Zəngəzur mahalı indiki Ermənistana verildi.

Doğrudan da, Zəngəzurun ermənilərə verilməsi Naxçıvanı Azərbaycandan ayrı saldı və bunun nəticəsində Naxçıvan taleyüklü məsələlərlə qarşı-qarşıya qaldı. Bütün bunlar isə Zəngəzurun Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu göstərdi.

Tarixi mənbələrdə Zəngəzurun tarixi belə qeyd edilir. Zəngəzurun ərazisi e.ə. IV əsrdən b.ə. VII əsrə qədər Qafqaz Albaniyasının, VII-IX əsrlərdə ərəblərin, IX-XI əsrlərdə Azərbaycanda fəaliyyət göstərmiş Sacilər, Salarilər və Rəvvadilər dövlətlərinin, XII-XIII əsrin əvvəllərində Azərbaycan Atabəylər dövlətinin, XIII-XIV əsrlərdə Hülakülər dövlətinin, XIV əsrin sonu-XV əsrin əvvəllərində Cəlairilər dövlətinin və Teymurilər imperiyasının, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. 1590-1612 və 1724-1735-ci illərdə Osmanlı idarəçiliyinin, xanlıqlar dövründə Zəngəzurun ərazisi Qarabağ xanlığının idarəçiliyinə tabe olmuşdur. Rusiya işğalı ərəfəsində Zəngəzurun əhatə etdiyi ərazilər xanlığın banisi Pənah xan tərəfindən Qarabağ xanlığının tərkibinə daxil edilmişdir.

XIX əsrin 20-ci illərində Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra inzibati ərazi vahidlərinin adları dəyişdirilmiş, Zəngəzur ərazisi Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasına daxil edilmişdir.

Qərbi Zəngəzurun elə bir bölgəsi olmamışdır ki, ermənilər 1918-1919-cu illərdə azərbaycanlıları qılıncdan keçirməsinlər. Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmışdır. Həmin kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 425 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir [3, s.317].

Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzurda - Qafanda, Gorusda, Qarakilsədə və Meğridə də 1930-cu ildən sonra azərbaycanlılar planlı şəkildə ata-baba torpaqlarından qovulmuş, hər zaman dövlət səviyyəsində ermənilərin təcavüzünə məruz qalmışlar. Ermənistan dövlətinin azərbaycanlılara qarşı yeritdiyi milli ayrı-seçkilik siyasəti nəticəsində öz ata-baba yurdlarından didərgin düşürdülər.

Bununla iş bitmiş hesab edilmədi. Bunun davamı kimi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 7 may tarixli qərarı ilə Mehri kəndlərinin Ermənistana verilməsi rəsmən təsdiqlənmişdi. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 km2 -ə çatdırıldı. 1923-cü ilin iyununda Şuşa, Cəbrayıl, Qubadlının 169 kəndi, sonralar daha 31 kəndi DQMV-ə verildi, bu kəndlərin əksəriyyətində ermənilər yaşamırdılar. Əhalisnin 90 faizi azərbaycanlılardan ibarət olan Göyçə mahalı Ermənistana verildi.

Ermənistan dövlətinin əsas siyasətlərindən biri də indiki Ermənistan ərazisində bir nəfər də azərbaycanlı

yaşamamalıdır siyasəti idi. Bunun nəticəsi olaraq 1988-ci ildə baş verən hadisələr Qərbi Zəngəzurdan da yan keçmədi. Azərbaycanlıların yaşadığı kəndlər odlara qalandı, azərbaycanlılar qırğınlarla, faciəvi bir şəkildə tarixi etnik torpaqlarından vəhşicəsinə qovuldu və dünyanın "demokratik dövlətləri" və "demokratları" bu faciəyə göz yumdu.

Bir sözlə, 1918-1920-ci illərdə qərbi Zəngəzurun Azərbaycan qoparılıb Ermənistana birləşdirilməsinə gətirib çıxaran faciəli proseslər 1992-1993-cü illərdə Azərbaycan Respublikasında təkrar olundu. Zəngəzurun tək bir ermənisinin də yaşamadığı Laçın, Qubadlı, Zəngilan rayonları Dağlıq Qarabağ və ətraf rayonlarla birlikdə Azərbaycandan qoparıldı. Rusiya Federasiyası ordusunun fəal hərbi dəstəyi, birbaşa iştirakı ilə, ABŞ, Fransa, Böyük Britaniya və digər aparıcı dövlətlərin siyasi yardımı ilə Ermənistan silahlı qüvvələrinin 1993-cü il oktyabrın 29-da Zəngilan rayonunu işğal etməsi ilə tarixi Zəngəzur torpaqlarının azərbaycanlı əhalidən təmizlənməsi və Ermənistan Respublikasının nəzarətinə keçməsi prosesi tamamlanmış oldu.

Beləcə, zaman-zaman ata-baba torpqalarımız bizdən qoparılmış, həmin ərazilərimizdə ermənilər məskunlaşdırılmışdır. Məskunlaşan ermənilər isə bir müddətdən sonra baş qaldırmış, bu torpaqlar bizimdir iddiası ilə çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyində iştirak və çıxış edən dövlət başçısının çox böyük diqqət çəkən fikirlərindən biri də Azərbaycanın əzəli torpağı olan Zəngəzurun tarixi ilə bağlı söylədiyi fikirlər idi. Prezident İlham Əliyev Naxçıvanın tarixi haqqında danışarkən çox gözəl qeyd edib ki: "Naxçıvanın qədim dövlətçilik tarixi vardır. "Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi.

Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi. Ancaq bununla bərabər, o vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər".

Əlbəttə, İlham Əliyev bunu böyük ədalətsizlik hesab edir və vurğulayırdı ki: "Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. "Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə, bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü" [1].

Tarix yenidən təkrar edilir. 1988-1991-ci illərdə isə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən 300 minə yaxın azərbaycanlını ata-baba torpaqlarından deportasiya edir. Ümumiyyətlə, XX əsrdə 3 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırıma, deportasiyaya məruz qalır.

Bu məsələləri diqətdə saxlayan Ümummilli Liderimiz Heydər Əliyev 26 mart 1998-ci il tarixdə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayır. Fərmanda deyilir: "Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri siyasihüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrində soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəz olunma prosesi baş verir"

Məhz bu səbəbdəndir ki, bu gün Zəngəzur məsələsi dövlətimizin və Ali Baş Komandanımız İlham Əliyevin diqqət mərkəzində olan əsas məsələləırdən biri və birincisidir.

Ölkəmizin Prezidenti İlham Əliyev 2011-ci ilin aprelin 26-da Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında haqlı olaraq deyirdi: "Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir [5].

Prezidentimiz İlham Əliyev 2020-ci il 3 iyun tarixində (Tərtər Olimpiya İdman Kompleksinin açılışında bir qrup idmançı ilə görüşündə) bu barədə danışarkən bildirmişdi: "Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti nə üçün qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz..." [6].

Artıq Zəngəzura qayıdışla bağlı xalqın içindəki ümid işartıları görünməkdədir. İlham Əliyevin dediyi kimi: "Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə

çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq".

Qərbi Azərbaycan - Zəngəzur xalqımız üçün əzəli, əbədi yurd yeri, Vətəndir. Və biz bu torpaqlara tezliklə qayıdacağıq.

ƏDƏBİYYAT

1. Şahinoğlu, A. Zəngəzur tarixi Azərbaycan torpağıdır. Yeni Azərbaycan. 10 aprel 2014
2. "Azərbaycan" qəzeti. 17 yanvar 1998
3. Bayramov, İ. Tarixi Azərbaycan torpağı - Qərbi Zəngəzur, Ankara: 2023, - 373 s.
4. Nərimanoğlu, H. Zəngəzur: 100 sual, 100 cavab. Bakı: 2019
5. "Xalq qəzeti", 27 aprel 2011
6. "Mədəniyyət" qəzeti, 8 noyabr 2023
7. Süleymanov, M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, -398 s.

ABSTRACT

Alekbar JABBARLİ

WEST AZERBAIJAN: THE BETRAYAL OF ZANGEZUR

The lands of Western Azerbaijan, which live in the historical memory of the Azerbaijani people and have never been erased from memory, are our ancient and literary ancestral lands. Azerbaijanis used to live in these lands, Azerbaijanis were displaced from these lands by the merciless trials of history, and Armenians began to settle in these territories. As we go deeper into history, we witness the presence of Turkish tribes in these lands. The established residents of Western Azerbaijan were Azerbaijanis, and later Armenians moved to these areas. Zangezur was among these areas. Soviet Russia also supported the Armenians to implement their invasion plans and actively helped them to realize their intentions. Official Moscow, which supports the territorial claims of Armenians against Azerbaijan, put pressure on the leadership of Azerbaijan. On November 30, 1920, the leadership of Azerbaijan, unable to withstand Moscow's pressure, issued a statement on the transfer of Zangezur to Armenia. However, during that period, there were also speeches against the transfer of Zangezur to Armenia. It is a pity that the discussions on this issue did not yield any results, and as a result, Zangezur district was divided into two parts and its territory of 4505 km ^{2} was given to Armenia was . Today, the Zangezur issue stands out as one of the main issues in the focus of our Commander-in-Chief Ilham Aliyev.

Keywords: *Western Azerbaijan, Zangezur, Zangezur corridor, Turkic tribes, Azerbaijan the land*

ДРЕВНИЙ ГОРОД ИРЕВАН – ЖЕМЧУЖИНА ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

Самира АБДУЛЛАЕВА
memar_s@mail.ru
ORCID iD: 0000-0001-9442-4645
НАНА Институт Архитектуры и Искусства

РЕЗЮМЕ

Среди древних городов Азербайджана особое место занимает город Иреван, столица Иреванского ханства. Многократно подвергавшийся войнам и разрушениям город раз за разом восстанавливался и продолжал свое развитие как один из живописнейших городов своей эпохи. Таким его описывали многочисленные путешественники средневековья. При всей кажущейся хаотичности, присущей структуре городов того времени, линии главных улиц составляли четкую планировочную основу города. Ханский дворец, мечети, жилые кварталы утопали в роскошной зелени подобно «райским садам». До первой половины XIX века, город Иреван сохранял свою красоту.

Ключевые слова: *Иреван, древнийгород, ханство, структура, мусульманские сады, наследие, история*

Исторические процессы, на территории Азербайджана В первой половине XVIII, были тесно связаны с событиями, происходящими на Южном Кавказе, в Иране, Турции и России. В этот период, в связи с полным упадком Сефевидского государства, вновь обострился ирано-турецкий конфликт за приобретение территорий Южного Кавказа. Одним из важных факторов, повлиявших на ход исторических событий, стал рост политического и экономического интереса России к этому региону. Азербайджан фактически стал местом, где столкнулись интересы 3-х стран - Ирана, Турции и России. Территория страны регулярно делилась на сферы влияния между этими государствами, и, конечно же, такая ситуация оказала значительное влияние на историческую и политическую географию Азербайджана.

К концу правления Сефевидов территория Азербайджана была разделена на4 бейлербейства. В 1736 году эта система была упразднена и 4 бейлербейства были объединены в единую Азербайджанскую провинцию.

К 40-м годам XVIII века на территории Азербайджана сформировались самостоятельные и полузависимые государственные образования – ханства: Шекинсое, Карабагское, Губинское, Ленкораньское (Талышское), Бакинское, Гянджинское, Дербендское, Шамахинское, Нахичеваньское, Иреванское, карадагское, Тебризское, Мараганское, Ардебильское, Урмийское, Хойское, Сарабское. Одни из них образовалисьв результате борьбы с Ираном в период правления Надиршаха, другие –после падения государства Надиршаха.Некоторые из них действовали длительное время (даже до 1922 г.), а некоторые недолго (более 30 лет).

Среди выше перечисленных ханств Иреванское ханство имеет, я бы сказала, трагическую историю (рис.1).

Известный турецкий путешественник-географ Эвлия Челеби в своих заметках отмечает дату возникновения Иревана как населенного пункта к началу XV века. По его словам, в 810 году по хиджре (1407-1408 гг.) один из любимцев эмира Тимура, купец Ходжа-хан Лехичани ступил на землю Иревана. Он увидел плодородный край и поселился там вместе со всеми своими домочадцами. День ото дня он богател на выращивании риса. В результате землетрясения 1679 года крепость полностью была разрушена [4].

> Некоторые исследователи соглашаются с историей основания города Иреван и Иреванской крепости, написанной Эвлией Челеби, иные считают, что история города более древняя.




Рисунок 1. Карта Иреванского ханств

После смерти Надиршаха местный феодал Мир Мехди-хан, поднявший восстание против иранского владычества, объявил себя ханом и основал независимое Иреванское ханство на базе Чухурдсадского бейлербейства. К середине XVIII в. (1828 г.) Иреванское ханство охватывало Араратскую равнину, южный и восточный берега озера Гойка, запад от реки Араз. Она граничила с Гянджой, Карабахом, Нахчыванским, Макинским ханствами, Казахским султанатом, Османской империей и Грузией. Центром ханства стал город Иреван.


Столица ханства, по своему устройству не отличался от других азербайджанских городов.Он граничил с районами Кирхбулаг на севере, Зангибасаром на западе и юге и каменистыми ступенями горы Окчуберд, отделяющими его от района Гарни (Горпубасар) на востоке. Город занимал большую территорию утопающую в зелени садов. Его площадь равнялась 28 верстам [4, с. 24]. Как самостоятельный административный центр Древний город был разделен на две части - внутренний город (замок) и внешний город.Внутренний город в основном состоял из Иреванской крепости и Иреванского замка. Крепость, построенная визирем Ревангулу ханом поприказу Шах Исмаила в честь победы над эмирами Гара-гоюнлу и захвата города Иреванв 915 г. по хиджре (1509-1510 г.г.), была возведена на холме левом берегу реки Занги [8]. Она имелапрямоугольную форму, 5 башен и была обнесена защитной крепкой стеной. Впоследствии крепость неоднократно разрушалась и восстанавливалась, а в конце 18 века была достаточно укреплена и выдерживала множество тяжелых осад. Замок имел двое ворот: знаменитые Ширванские ворота на севере и Тебризские ворота на юге. Из замка также имелся выход к реке Занги для использования воды во время осады [6, с. 16]. Гаспар Друвиль, побывавший здесь в 1813 году, писал: «Иреванская крепость окружена двумя стенами и находится на расстоянии полу пушечного огня от города. Замок долгое время вызывал спор между Турцией и Ираном, и, наконец, оказался под властью Ирана вперио̆д правления Сефевидов » [7]. (рис.2)

Внутри Иреванской крепости находились дворец Сардара, дома военных чиновников, лавки и две мечети - мечети Мухаммед-хана и Аббас-мирзы. Вода вгород подавалась по подземным каналам из 2-х мест - из реки Занги и с юго-восточной стороны - из реки Кырхбулаг. До российской оккупации в Иреванской крепости было 800 домов. Однако после оккупации большая часть этих домов была разрушена [9].

Между крепостью и другими кварталами находился Базар Мейдан (базарная площадь) (рис.3). Основные улицы внутреннего города соединяли Ширванские, Тебризские ворота с базарной площадью и с мечетью. От них отходили лучевые улицы. При всей кажущейся хаотичности, присущей структуре городов того времени, с учетом рельефа линии главных улиц составляли четкую планировочную основу Иревана, вдоль которых были сформированы живописные кварталы [8].

Внешний город занимал большую территорию и состоял из трех больших кварталов - Район Шахри (Старый город), Квартал Тепебаши, Район Демирбулаг.





План города Иревань.1827 **Тарговый центьр Иревана.**

Район Шахри (Старый город) – окружал северо-восточную часть города и простирался вдоль правого берега реки Кирхбулаг до Иреванского замка. В этой части располагались центральный рынок города и все его площади, множество караван-сараев [8]. Квартал Тепебаши - располагался на холме между рекой Занги и кварталом Шахри. Этот район охватывал западную часть города. Квартал Тепабаши был отделен от квартала

Шахри многочисленными садами известных людей Иревана. Здесь же находился знаменитый Ханбаги, принадлежавший Гусейнгулу-хану [3, с. 42].

Район Демирбулаг - располагался юго-восточнее квартала Шахри, восточнее Иреванской крепости. Здесь располагались мечеть и баня Гаджи Джафар бека, мечеть Гаджи Насрулла бека, баня Гасанали и караван-сарай Сузуз. Американский историк Дж. Борнутян армянского происхождения не может скрыть того факта, что жители вышеуказанных кварталов являются тюрками-азербайджанцами.

Не смотря на войны и стихийные бедствия в результате которых город не раз разрушался он как птица, феникс воскрешал из пепелища становясь все красивее. В периоды затишья город процветал, развивалось ремесленничество, торговля. Благоустраивались кварталы, улицы, разбивались сады.

Во дворе дворца Сардара, находящегося внутри Иреванской крепости, был создан «удивительной красоты сад как рукотворный оазис — такой же пышный, но при этом имеющий строгое оформление» [1]. Дворцовый комплекс состоял из нескольких построек – ханский дворец, гарем, баня, мечеть, купальня. К дворцу примыкал замкнутый внутренний двор с садом, оформленный в традиционном исламском стиле «Чахар-Бах», что означает «Четыре Сада». Территория сада была разделена на четыре участка. Строгая геометрия планировки подчеркивалась с помощью мощеных дорожек, растений и канальцев с водой. В центрах квадратов были установлены небольшие бассейны, облицованные разноцветными керамическими плитками, которые являлись главным украшением всего сада. Вода – источник жизни, она питает жизнь и дает очищение. В мусульманском мире вода у символизирует Рай, и без нее немыслим райский сад. Изобилие раскидистых деревьев создавали живительную тень подкоторыми можно было отдохнуть. А журчание воды и запахи ароматных трав создавали прекрасное место размышлений и напоминание о рае.

К сожалению, не осталось графических изображений дворцового сада, только по персидским миниатюрам и письменным источникам можем предполагать, что сад мог бы выглядеть таким образом (рис.4,5). Согласно источнику, составленному Леккобытовым в 1836 году, вокруг Иреванской крепости - во внешнем городе было 1736 домов, 5 площадей, 8 мечетей, 5 церквей, 6 караван-сараев, 1670 лавок, 9 общественных бань, 1470 виноградников и садов, 40 мельниц. В отличие от Леккобытова, И. Шопен пишет, что в городе Ереване 1730 домов. 792 из этих домов находились в Шахри (Старый город), 622 в Тепебаши и 322 в районе Демирбулаг [5]. Среди мечетей своей красотой и величием выделялась мечеть Гаджи Гусейнали хана, известная как Гёй (Голубая) мечеть. Такое название она получила благодаря покрытию купола и минарета синей плиткой. Построенная в 1760-1768 гг. иреванским ханом Гаджи Гусейнали ханом Каджаром (1759-1783 гг.), эта мечеть отличалась наличием во дворе каменной площади с фонтаном и густо затененными деревьями вокруг нее [2].




Рисунок 4. План редневекового мусульманского сада. (Эпоха Теймуридов)






Рисунок 5. Средневековые миниатюры с изображением дворцовых садов.

Прихожане могли совершить омовение и охладиться перед намазом, а затем отдохнуть на уютных площадках под тенью деревьев.



Рисунок 6. Двор Гёй (Голубой) мечети.
Фото Ф. Сарра. 1897 г.

Несмотря на оккупацию Россией в первой половине XIX века, город Иреван сохранял свою красоту и принадлежность азербайджанским тюркам. О нем пишет Б. Еличовская: «Иреван — совершенно татарский (азербайджанский — ред.) город с виду, он очень красив издалека. Равнина, на которой расположен город, выглядит как огромная цветочная корзина. Белые дома, башни, развалины замков, покрытые разноцветной черепицей мечети и великолепные минареты: все это, затерялось в садах, окруженных аллеями пирамидальных кипарисов, все увито виноградниками, коврами плюща, все украшено розами и гранатовыми кустами. Река Занги водопадом льется с высокой горы на равнину и открывает глубокое русло в скалах, направляется к городу и исчезает в непроходимых дебрях всевозможной зелени» [4, с. 36].

ЛИТЕРАТУРА

1. Mustafa, N. İrəvan şəhəri. Bakı: 2013.
2. Гусейнов, Р. Н «Азерб. Демокр. Республика и трагическая судьба азербайджанского города Иревана. Ист, политика, культура. Сборник статей 2018.
3. «Крепость Эривань со стороны Занги», Утверждение русского владычества на Кавказе, Тифлис: Типография Я. И Либермана, 1901, Том IV С. 164.
4. Наджафлы, Г., Азербайджан в XVIII – XIX веках. Бишкек, «Бийиктик», 2010.
5. Шопен, И.И. Исторический памятник состояния армянской области в эпоху ее соединения к Российской империи. СПБ.: 1852.

6. Bournoutian, G.A.The khanat of Erevan under Qajar rule1795-1828, Mazda Publishers in association whith Bibliotheca Persica, CostaMesa California and New York, 1992 41
7. Lych H.F.B., Armenia, Travels and Studies, 2 vol.1901
8. https://www.virtualkarabakh.az/ru/post-item/3/27/istoriya-irevana.html
9. https://1news.az/news/20150207091644230-Istorik-Nazim-Mustafa-V-1905-1906-godakh-armyane-unichtozhili-bolee-10-tys-azerbaidzhantsev/

XÜLASƏ

Samirə ABDULLAYEVA

QƏDİM İRƏVAN ŞƏHƏRİ – QƏRBİ AZƏRBAYCANIN İNCİSİ

Azərbaycanın qədim şəhərləri arasında İrəvan xanlığının paytaxtı İrəvan şəhəri xüsusi yer tutur. Dəfələrlə müharibələrə və dağıntılara məruz qalan şəhər yenidən bərpa olunaraq dövrünün ən mənzərəli şəhərlərindən biri kimi inkişafını davam etdirmişdir. Qədim şəhər orta əsrlərin çoxsaylı səyyahları tərəfindən belə təsvir edilmişdir. O dövrün şəhərlərinə xas olan görünən xaotik quruluş, əsas küçələrin xətləri şəhərin aydın planlaşdırma əsasını təşkil edirdi. Xan sarayı, məscidlər, yaşayış massivləri "Cənnət bağları" kimi dəbdəbəli yaşıllıqlar içində yerləşirdi. XIX əsrin birinci yarısına qədər İrəvan şəhəri öz gözəlliyini qoruyub saxlamışdır.

Açar sözlər: *İrəvan, qədim şəhər, xanlıq, struktur, müsəlman bağları, irs, tarix*

ABSTRACT

Samira ABDULLAYEVA

THE ANCIENT CITY OF IREVAN – THE PEARL OF WESTERN AZERBAIJAN

Among the ancient cities of Azerbaijan, the city of Irevan, the capital of the Irevan Khanate, occupies a special place. Repeatedly subjected to wars and destruction, the city was restored over and over again and continued its development as one of the most picturesque cities of its era. This is how it was described by numerous travelers of the Middle Ages. For all the seeming chaos inherent in the structure of cities of that time, the lines of the main streets formed a clear planning basis for the city. The Khan's palace, mosques, residential areas were buried in luxurious greenery like "Gardens of Eden". Until the first half of the 19th century, the city of Irevan retained its beauty.

Keywords: *Iravan, the ancient city, khanate, structure, Muslim gardens, heritage, history*

ZƏNGƏZUR SOYQIRIMI XOCALIDA DAVAM EDİB


Əli QURBANOV **Nigar BABABƏYLİ**
eli.qurbanov57@ mail.ru *oğuzturan82@ mail.ru*
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə əsrlər boyu Azərbaycan ərazisində yerləşdirilmiş ermənilərin azərbaycanlılara qarşı düşünülmüş və məqsədyönlü işlətdikləri soyqırım və etnik təmizləmə siyasətlərindən bəhs edilir. Tarixi faktlar və sənədlər əsasında sübut olunmuş bu hadisələr uzun illər boyu azərbaycanlılarla ermənilər arasında düşmənçiliyin davam etməsinə səbəb olmuşdur. 1900-1920-ci illərdən başlayaraq Naxçıvanda, Zəngəzurda və sonralar 1988-2020-ci illərdə Qarabağda, Xocalıda törədilmiş soyqırım hadisələrin eyni ssenari üzrə eyni məqsəd daşıdığı sübut olunmuşdur. Bu illərdə həmin ərazilərdən azərbaycanlı əhali yaşayan kəndlərin necə talan olunduğu və əhalini necə vəhşiliklə qırdıqları məqalədə öz əksini tapmışdır. Məqaləni gələcək nəsillərə bir terrorun və soyqırımın tarixi xronikası kimi təqdim edilməsi məqsədəuyğundur.

Açar sözlər: *Zəngəzur uyezdi, soyqırım, erməni terroru, dağıdılmış kəndlər, Qərbi Azərbaycan, məcburi köçkünlər*

Zəngəzur Azərbaycanın Qubadlı, Laçın, Zəngilan rayonlarını, indi Ermənistan adlandırılan Qərbi Azərbaycanın Qafan, Gorus, Sisyan, Meğri rayonlarından ibarət olmaqla 7.892 kv.km ərazini əhatə edir. Qədim dövrdə bu ərazi Sünik adı ilə ifadə olunmuşdur. Bu tarixi məlumata qədim Azərbaycan mənbəyi olan M.Kalankatuklunun "Albaniya tarixi" əsərində rast gəlirik. Zəngəzur qəzası ayrıca inzibati ərazi vahidi kimi 1861-ci ildə yaradılıb. 1867-ci ilin dekabrında Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda Zəngəzur qəzası (mərkəzi Gorus) onun tərkibinə daxil edilmişdir. Cavanşir, Şuşa, Naxçıvan qəzaları, cənubdan Araz çayı boyunca İranla əhatə olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) Qarabağ general-qubernatorluğunun 4 qəzasından biri olmuş Zəngəzurun sahəsi 7.824 kv. km idi.



1903-cü il Zəngəzur uyezdinin xəritəsi

Zəngəzur coğrafi anlayışdan bütöv bir zonanı əhatə edən inzibati-ərazi bölgüsünün adı kimi XIX əsrin ortalarında işlənsə də, Zəngəzur coğrafi məfhumuna hələ XVI əsrdə rast gəlinir. Zəngəzur inzibati-ərazi vahidi ilk dəfə 1593-cü ildə Osmanlı məmurları tərəfindən tərtib edilən "Urud və İsgəndər qalası livalarının müfəssəl dəftəri"ndə sənəddə "Zəngəzur nahiyəsi" adında ayrıca olaraq göstərilmişdir [3, s. 6].

1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Burada yaşayan

azərbaycanlılar isə zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar [2, s. 5]. Lakin tarixi vəsiqələrkən bu hadisənin törədilməsinin ilkin olmadığı və keçən yüz illiklər dövründə bir neçə dəfə təkrarlandığı aydın olur. "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" əsərini vərəqlərkən ermənilərin Zəngəzur qəzasında törətdikləri vəhşiliklər insanı dəhşətə gətirir.

Alınmış statistik məlumatlara görə, Zəngəzurda azərbaycanlıların sayı ermənilərdən xeyli çox olmuşdur. 1886-cı il Gəncə (Yelizavetapol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi, 91-i kürd kəndi və yalnız 81 erməni kəndi olmuşdur.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-nin tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistan SSR-ə verilmişdir.

Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasına daxil olan Gorus, Qafan, Meğri və Sisyan rayonları ilə bağlı tarixi mənbələrinin statistik rəqəmlərindən aydın olur ki, Rusiya imperiyası tərəfindən İrandan və Türkiyədən köçürülən ermənilər həm də bu ərazilərdə yerləşdirilmiş və bölgədə demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişdirilmişdir. Digər tərəfdən əsrin əvvəllərində bu bölgədə yaşayan əhalinin 70%-ni, əsrin ortalarında 50%-ni azərbaycanlılar təşkil edirdisə, əsrin sonunda bölgədə ermənilər çoxluq təşkil etmişdir. Bu da azərbaycanlıların Rusiya siyasətinin nəticəsi olaraq ermənilər tərəfindən öz ata-baba torpaqlarından deportasiya olunması ilə bağlıdır. Doğrudur, 1920-ci ilə kimi bölgələr (Gorus, Qafan, Meğri və Sisyan) Gəncə quberniyasının Zəngəzur qəzasının tərkibinə daxil olmaqla Azərbaycan torpaqlarının bir hissəsini təşkil edirdi. Lakin bir həqiqəti unutmayaq ki, bütövlükdə Cənubi Qafqaz, o cümlədən də Azərbaycan Rusiyanın 46 təsir dairəsində olmaqla onun müstəmləkəsi idi. Bu ərazilərdə də ermənilərin yerləşdirilməsi, elə azərbaycanlıların qovulması da Rusiyanın əli ilə həyata keçirilmişdir.

Bütün tarix boyu hər zaman biz erməni daşnaklarının və millətçilərinin insanlığa sığmayan hərəkətlərinin şahidi olmuşuq. Onlar bizim torpaqlarımıza yerləşdikdən və keçmiş rəhbərliklərin təsiri nəticəsində özlərinə dövlət yatdıqları gündən bu günə qədər daima yerli azərbaycanlılara qarşı terror və soyqırım həyata keçirmişlər. Zaman-zaman bu soyqırım halları kütləvi xarakter almaqla dövrünün ən çirkin halları olaraq tarixə yazılmışdır. Yerli azərbaycanlılar təhqir olunmuş, öldürülmüş və dədə-baba yurdlarından didərgin salınmışdır. İstər Qarabağda və istərsə də Zəngəzurda ermənilər yerləşdikdən sonra yerli əhaliyə hər zaman zülmlər etmiş özlərini bu torpağın sahibi etmişlər. Lakin Qarabağ hadisələri bu səbrin son damlası oldu. 1990-cı illərin əvvəllərində iddiaya görə Qarabağ əhalisinin əksəriyyəti erməni əsilli olduğuna görə özlərinə müstəqil dövlət qurmaq iddiası irəli sürərək silahlı münaqişə yaratdılar və yerli əhalini insanlıqdan kənar bir şəkildə təhdid etdilər və əsil terrorizm cinayətləri işlədərək qışın sərt vaxtında əhalini kütləvi surətdə Qarabağdan çıməğa məcbur etdilər. Eyni zamanda XXI-ci əsrin ən böyük vəhşiliyi olan Xocalı soyqırımını həyata keçirdilər. Həmçinin bununla yanaşı, Ermənistan ərazisində özlərinin əzəli torpaqlarında yaşayan azərbaycanlıları da köçməyə məcbur etdilər. Belə bir tarixi hadisə bu millətin keçmişində Zəngəzurda olmuş və bu gün də təkrarlanır.

1916-cı il yanvarın 1-nə olan məlumata görə, Zəngəzur qəzasında əhalinin etnik tərkibində azərbaycanlıların sayı ermənilərdən çox olmuşdur. Yəni 119.5 min azərbaycanlı olmuşdur. Bu say artımını azaltmaq və ya onları öz torpaqlarından qovmaq üçün erməni millətçiləri azərbaycanlıları öz doğma torpaqlarından çıxarmaq, onları qırmaq, var dövlətlərini talan etmək etmək məqsədilə evlərini yandırmağa başladılar [1, s. 29].

1906-cı ilin iyul ayının 29 da Qafan (Qatar) rayonunun Mədən bazarını dağıtdıqdan sonra ermənilər Karxana kəndinə hücum etdilər, beş min silahlı ilə kəndi atəşə tutaraq azərbaycanlıların doğma kəndlərini tərk etməsinə nail oldular. Onlar qaçmaq istəyən kənd əhalisini ya əsir alır, ya da öldürürdülər. Hətta qaçıb sığınacaqda toplanmış 30-a yaxın qadını vəhşicəsinə öldürmüşlər. Elə həmin gün ermənilər Xələc, Saldamla, İncəvar, Daşnov kəndlərini dağıdıb viran qoymuş, əhaliyə divan tutmuşlar. Bəziləri Qatar kəndinə sığınmışlar. Ermənilər Qatar kəndini də mühasirəyə alaraq kəndə daxil olmağa cəsarət etmədilər, çünki onların qüvvələrindən xəbərləri yox idi [1, s. 31].

Bu zaman yenə rus xain diplomtiyası işə düşərək pristav Saxarovun razılığı ilə 50 nəfər kazak kəndə göndərilir. Kazaklar kəndə girərkən onların əksəriyyətinin silahlı olduğunu görür və onlara ermənilərin açdıqları atəşə cavab verməməyi tapşıraraq söz verirlər ki, hökumət özü onları cəzalandıracaq deyərək onları aldadırlar. Əslində bu rusların növbəti tələsi idi.

Qatar kəndi hər tərəfdən erməni kəndləri ilə əhatələndiyi üçün heç bir yerdən kömək gözləmirdilər. Ermənilər səkkiz min silahlı dəstə ilə 9 gün şiddətli vuruşmadan sonra kəndi ala bildilər.

Kitabda deyildiyinə görə, Məlik Azaryantsın mis mədənlərində işləyən bir qrup iranlı fəhlələrin xəyanəti nəticəsində kənddə çox evlər yandırılmış, dinamitlə partladılmışdır. Qatar kəndi yandırılıb dağılsa da, camaat kənddən çıxıb qaçmamışdır. Burada yaşamağın mümkün olmadığını görən əhali axşam ermənilər gedəndən sonra 10 km şimalda yerləşən Girətağ kəndinə qaçmışlar. Ermənilər 750 evdən, 2500 nəfərdən ibarət olan Qatar kəndini dağıtdıqdan sonra Oxçu çayı sahilində yerləşən azərbaycanlı kəndlərini viran edib, Zəngəzur qəzasının açarı olan Oxçu-Şabadin, Aralıq, Purdavdan, Atqız kəndlərini qarət etməyi qarşılarına məqsəd qoymuşlar [1, s. 31].

Yerli daşnaklar Ermənistandan əlavə qüvvələr almaqla avqustun 9-da Qxçu dərəsindəki beş azərbaycanlı kəndlərinə hücum edib yerlə-yeksan etdilər. Əhalinin xeyli hissəsi qırıldı, qaçanlar isə Pirdavdan kəndinin yaxınlığındakı Saqqarsu çayının sahillərindəki daşlara və kolluqlara sığındılar. Qaçmaq imkanı olmayan qoca, əlsiz-ayaqsızlar ertəsi gün qətlə yetirilmişdir. Saqqarsuda sığınacaq tapmış əhali səhər tezdən "ya Əli, ya Əli" deyə-deyə gələn adamları görüb, onları müsəlman qonşu olduğunu zənn edərək çıxıb onlara tərəf getdikdə ermənilər atəşə tutaraq sığınanların tamamını bütün qadın, uşaq və qocaları öldürdülər. Ölümdən xilas olanlar dağdan aşıb Ordubada getdilər, vəziyyəti Ordubad camaatına bildirdilər. Ordubadlılar qaçqınlara hər cür şərait yaradıb müalicə etdilər. 1906-cı il avqustun 16-da ordubadlılar hər cür hazırlıqla dağlara, qırğın yerinə silahlı dəstələr göndərdilər. Avqustun 17-də dəstə qırğın yerinə gəlib ermənilərin qırıb bir daşın arxasına tökdükləri 62 nəfər qadın və uşağın meyidini tapdılar. Digər ərazilərdən də meyidləri toplayıb dəfn etmək üçün torpaq tapılmadığı üçün ağac yarpaqları ilə üzərlərini örtdülər.

1905-1906-cı illərdə erməni millətçilərinin törətdikləri misli görünməmiş vəhşiliklər 1918-1920-ci illərdə yenidən təkrar edildi. Ümumiyyətlə, 1918-20-ci illərdə azərbaycanlıların soyqırım dövründə Ermənistanın indiki ərazisində yaşayan 575000 azərbaycanlının 565000 qırılmış və ya qovulmuşdur. 1922-ci ildə 60000 qaçqın qayıtdıqdan sonra burada azərbaycanlıların sayı 72596 nəfər olmuşdur [1, s.35]. 1918-ci ilin oktyabr ayında erməni ordusu Nijdeh və Dronun rəhbərliyi altında Qafan rayonunun azərbaycanlı kəndlərini dağıdaraq əhalinin bir hissəsini Zəngilan, Qubadlı rayonuna, böyük bir hissəsini isə Qapıcıq, Qazangöl və Eşşək meydanı ərazisindən Ordubada və Culfaya qovduqdan sonra evlərini talan edib yandırdılar, mal-qaranı isə özlərinə götürdülər.

1919-cu ilin yayında qaçqınlar dağdan aşıb kəndlərinə gəldilər, payızda əkdikləri taxılı yığdılar, evlərini təmir edib yaşamağa başladılar. Bundan xəbər tutan ermənilər yenidən kəndlərə hücum edib taxıllarını əllərindən alıb, evlərini yandırıb, var-dövlətlərini talan etdilər. Canlarını götürüb qaçan Gərd kənd camaatının qarşısını ermənilər kəsərək onları vəhşicəsinə qətl etdilər.

Bütün bu hadisələrin canlı şahidləri olan Gərd sakinlərindən Misri Məmmədqulu qızı, Qaytaran Mahmud oğlu hadisələri təfərrüatı ilə anlatmışlar.

Bu kütləvi soyqırım hadisələrindən sonra ermənilər tez-tez terror hadisələri törətməklə Zəngəzurun Azərbaycan əsilli vətəndaşlarını sıxışdırıb kəndləri boşaltdılar. Sonra isə oranın əhalisinin əksəriyyətini ermənilər təşkil etdiyini iddia edərək bu əraziyə Ermənistanın idarə etməsinə nail oldular. Sonrakı illərdə bir çox əsassız faktlar irəli sürərək Azərbaycan əsilli əhalinin oradan köçürülməsinə nail oldular. Bu ərazilərin Ermənistana verilməyinin heç bir hüquqi əsası yoxdur və həmçinin Kars və Moskva müqavilələrinin kobud şəkildə pozulmasına yol verilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı, 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarlarına əsasən 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından - Ermənistandan deportasiya edilmişdir. 1988-1991-ci illərdə isə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır [2, s. 5].

Əvvəllər çirkin niyyətlərinə Rusiya imperiyasının köməyi ilə nail olan ermənilər oxşar bir hadisəni Qarabağda da həyata keçirdilər. Ermənistanın ərazisində kompak şəraitdə yaşayan azərbaycanlıları 1988-ci ildən başlayaraq Ermənistandan qovdular. Eyni vaxtda Qarabağa Ermənistan ordu yeridərək 1905-1906-cı və 1918-1920-ci illərdə Zəngəzurda azərbaycanlıların başlarına gətirdikləri kütləvi soyqırım hadisəsini Xocalıda və Qarabağın digər ətraf rayonlarında təkrarladılar. Xocalı soyqırımı bütün dünyanın gözü qarşısında baş verdi. Demək olar ki, tarix təkrar edilir və ermənilər öz qəddar vəhşi hərəkətlərindən əl çəkmirlər. Zəngəzur soyqırımı Xocalıda da davam edib.

Azərbaycanda ilk olaraq 2020-ci ildə Azərbaycanın yeritdiyi düzgün və düşünülmüş siyasəti nəticəsində sülh yolu ilə qaytarılması mümkün olmayan Azərbaycan torpaqları şərəfli və cəsur Azərbaycan ordusunun 44

günlük müharibə yolu ilə qaytarıldı və Azərbaycan ərazisinin tam bütovlüyü təmin olundu. Hazırda Azərbaycan dövləti bu torpaqların, yəni Zəngəzurun Azərbaycana qaytarılmasını tələb edir.

ƏDƏBİYYAT

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: 1995
2. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2012
3. Kalankatuklu, M. Zəngəzurun tarixinə nəzər. Albaniya tarixi. Bakı: 1993, s.33
4. M.Urud. Zəngəzur. Bakı: 2005, s.404.
5. Əhmədli, N. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: 2021, s.17.

ABSTRACT

Ali GURBANOV, Nigar BABABEYLİ

THE ZANGEZUR GENOCIDE CONTINUED IN KHOJALY

The article deals with the deliberate and purposeful policy of genocide and ethnic cleansing of Armenians placed in the territory of Azerbaijan during prisoners of war against Azerbaijanis. These events, proven on the basis of historical facts and documents, have led to the continuation of hostilities between Azerbaijanis and Armenians for many years. It has been proved that the events committed in Nakhchivan, Zangezur since 1900-1920 and later in Karabakh and Khojaly in 1988-2020 had the same purpose according to the same scenario. The article reflects how the villages inhabited by the Azerbaijani population were plundered in these years and how the population was brutally massacred. It is appropriate to present the article to future generations as a historical chronicle of the Armenian terror and genocide.

Keywords: *Zangezur county, genocide, armenian tetor, destroyed villages, West Azerbaijan, internally displaced persons*

VEDİLİ HƏRBÇİ ABBASQULU BƏY ŞADLİNSKİ ŞƏRURDA

Zaman ABBASLI
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

XÜLASƏ

Bütöv Azərbaycan xalqının qəhrəmanı olan Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 24 fevral 1886-cı ildə İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur. Azərbaycanda elə qəhrəman şəxsiyyətlər var ki, onların adları qoca tarixin özünə işıq tutur, əsrlərin uzun yollarını aydınlandırır, hardasa unudulmuş, təhrifə uğramış, ən incə təfərrüatla, yaxası polemikanın əlinə verilmiş, mübahisəyə düşmüş bu işıqda özünü tapır. Azərbaycanda elə görkəmli şəxsiyyətlər var ki, onların adlarına bir xalqın, bütöv bəşərin tarixi güvənir. Bu tarixi torpaqlarda elə şəxsiyyətlər var ki, biz onları babalarımızın, atalarımızın, övladlarımızın, mənəvi yaşıdı kimi tanıyır, sevirik. Elə şəxsiyyətlər də var ki, biz onların qarşısında ovsunlaşır, qəhrəmanlarımızın, azadlıq alovu yandıranların ünvanı kimi bu adları ehtiramla yad edirik. Qəhrəman xalq mübarizəyə qalxıb üsyan qaldırır. Vedibasarda Abbasqulu bəy Şadlinski üsyanın rəhbəri kimi tanınır. İllər keçəcək, Naxçıvandan Abbasqulu bəy Şadlinski Dərələyəzi, Vedibasarı, Zəngəzuru, Şəruru, Naxçıvanı yenidən qəhrəmanlıq mübarizəsinə qovuşduracaq, insanları ayıq olmağa, birlik olmağa, tarixdən ibrət götürməyə çalışacaq.

Rusiyada 1905-1907, İranda 1905-1911-ci illər inqilabları Şadlinskinin ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. Fevral inqilabından (1907) sonra Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir. Daşnak hökumətinin başçısı Ov.Kaçaznuni 1917-ci il fevral inqilabından sonra yaranmış vəziyyətlə bağlı yazırdı: "1917-ci ilin fevralında rus inqilabı baş verdi. Tamamilə gözlənilmədən qarşımızda yeni perspektivlər açıldı". Daşnakların bütün cəhdləri Osmanlı Türkiyəsində boşa çıxdıqdan sonra bütün diqqətlərini Cənubi Qafqaza yönəldirlər. Erməni silahlı dəstələrinin bu ərazidə göstərdikləri vəhşiliklər, özbaşınalıqları görünməmiş miqyas alır. Bunula əlaqədar olaraq, Vedibasarda, Şərurda, Naxçıvanda, Ordubadda və digər bölgələrdə silahlı dəstələr yaradılırdı [4, s. 219].

1828-ci il Türkmənçay müqaviləsindən sonra İrandan və Türkiyədən Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülüb, xüsusilə İrəvan, Naxçıvan və Qarabağ xanlıqları torpaqlarına yerləşdirilən ermənilər tədricən bölgədə mövqelərini möhkəmlədib, milli ayrı-seçkilik, separatçılıq fəaliyyəti ilə məşğul olurlar. Tarixi şəraitin doğurduğu ilk fürsətdə – 1905-ci ildə isə Azərbaycan torpağında məskunlaşıb, çörəyindən yedikləri azərbaycanlılara qarşı soyqırımı həyata keçirirlər. Bu soyqırımı 1917-1921-ci illərdə özünün kulminasiya nöqtəsinə qalxır, bütün Cənubi Qafqazı, Şərqi Türkiyəni və Cənubi Azərbaycanı öz ağuşuna alır. Belə bir ağır vəziyyətdə əhali öz təhlükəsizliyini təmin etmək, özünümüdafiə dəstələri yaratmaq barədə düşünməli olur. İrəvan quberniyasının İrəvan qəzasının Vedi nahiyəsinin rəisi, 32 yaşlı Abbasqulu bəy Şadlinski də elə həmin vaxtlar Böyük Vedinin və ətraf kəndlərin igidlərindən silahlı dəstə yaratmağa başlayır. Xalq arasında böyük nüfuz sahibi olan Abbasqulu bəy az vaxtda bu işin öhdəsindən uğurla gəlir və həmin dəstə tezliklə "Mübariz dəstə" adı ilə məşhurlaşır.

Bu, həmin Abbasqulu bəydir ki, hələ sağlığında qəhrəmanlığına aşıqlar, şeirlər qoşub, özünün və silahdaşlarının şəxsiyyəti və qəhrəmanlığı haqqında el arasında çoxlu rəvayətlər söylənilib.

Vedinin dağları batıbdı yasa,
Düşmənlər istəyir oranı basa.
Bir namə yazmışam o xan Abbasa.
Durmayıbsan gəlsin bizə imdada. –

Abbasqulu bəyin şəxsiyyəti və qəhrəmanlığı böyük bir ərazidə təsadüfən şöhrət tapmamışdı [2, s. 14].

1918-ci ilin ilk ayında İrəvan vilayətində erməni daşnaklarının daha da fəallaşması Vedibasar mahalında da sabitliyi pozur. 1918-ci il 4 iyun tarixində Batum anlaşmasına əsasən Qars, Ardahan və Batum vilayətləri Türkiyəyə verilməli idi. Andranik bu sazişi pozmaq üçün gecə Naxçıvana, Yaycıya basqın etdi. Andraniklə Şaumyan əlbir olaraq azərbaycanlılara tələ qurdular [7]. Silahlı daşnakların vilayətin müsəlman kəndlərinə basqınları artıq sistemli şəkil alır. Ermənilər kəndlərə qəfildən hücum edir, dinc əhaliyə vəhşicəsinə divan tutur, qoca, uşaq demədən onları qılıncdan keçirir, var-dövlətlərini talayıb aparır, mülklərinə, evlərinə od vurub yandırırdılar. Bölgədə tarixi vəziyyət belə idi. Lakin belə bir tarixi vəziyyətdə bölgədə erməni faşizminin qarşısını kəsə bilən möhtəşəm bir qüvvə meydana atılmışdı – Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yaradılmış bu hərəkat, xalq onun ordusunu və bu ordunun komandanını yekdilliklə qəbul etmiş, bütün mahalın

əli silah tutanları bu orduya yazılmış, öz istəyi ilə Abbasqulu bəyin əmrinə keçmişdilər. Artıq xalq arasında Şadlinski haqqında rəvayətlər dolaşmaqda idi, hamı onun gülləbatmaz olduğuna inanırdı. Hamı onun ədalətinə, qəhrəmanlığına güvənir və sığınırdı. Abbasqulu bəy bu etibarı orduda yaratdığı hərbi intizam və qayda-qanun ilə də qazanmışdı. Bütün qərarlar kollegiadan sürətlə keçir, qəbul olunmuş qərar hamı üçün qanun olurdu. Bu qərarların icrasına o özü məsuliyyət daşıyardı, heç kəs qəbul olunmuş qərara qarşı çıxmağa, onun bir sözünü iki etməyə cəsarət etməzdi, cəsarət edənlər müharibə dövrünün qanunlarına uyğun olaraq yerindəcə cəzalanardı.

Qırmızı Tabor; Hər bir xalqın yaşaması, vahid olması, inkişaf etməsi və tanınması onun qüdrətli və qeyrətli övladlarının hesabına mümkün olur. Belə övladlar əsasən Vətənin, xalqın dar günlərində parlayıb üzə çıxır. Naxçıvandakı Qızıl Ordu hissələrinin tezliklə daşnaklara qarşı çıxışı mümkün deyildi. Avqustun sonlarında Azərbaycan İnqilab Komitəsi, Bahadır Vəlibəyovu 300 atlı ilə Naxçıvana fövqəladə komissar göndərir. Ermənistanda daşnak hökumətini yıxmaq üçün Nəriman Nərimanovun tövsiyəsi ilə fövqəladə komissar və Qızıl Ordu qərargahı məsləhət görürlər ki, Mərənd şəhərinə nümayəndə göndərib Şadlinskinin taborunu və bütün mühacirləri Naxçıvana dəvət etsinlər və ona daşnaklara qarşı mübarizədə hər cür şərait yaradılsın. Belə də olur. 1920-ci ilin sentyabrında bolşevik Əli Eyvazov, Seyfulla Süleymanov və demokrat Məmməd Rəhimov Arazın o tayına Abbasqulu bəyin düşərgəsinə göndərilir. Onlar A.Şadlinskiyə məktub çatdırırlar. Məktubda yazılır ki, siz bolşevik təşkilatının tapşırığı və fövqəladə komissar Bahadır Vəlibəyovun xahişi ilə Naxçıvana dəvət olursunuz. Xalq düşmənlərinə qarşı mərd, mübariz, Vətənin müdafiəsini hər şeydən üstün tutan A.Şadlinski dərhal nümayəndələrin təklifini qəbul edib 200 nəfərlik silahlı dəstə və mühacir kütləsi ilə sentyabr ayının 17-də Naxçıvana qayıdır [3, s.90]. A.Şadlinskinin taboru Culfada hərbi nümayəndəlik tərəfindən hərarətlə qarşılanır. Təntənə ilə hərbi qaydada Naxçıvana daxil olan Abbasqulu bəy Şadlinski orada fəaliyyət göstərən qırmızı qvardiya dəstələri ilə birləşərək "Qırmızı tabor"un komandiri olur. Daşnaklara qarşı yeni vüsətlə mübarizə başlayır. Naxçıvan sərhədlərinin qorunması A.Şadlinskinin taboruna tapşırılır. 1920-ci ilin noyabrın 29-da Ermənistan İnqilab komitəsinin bəyannaməsi ilə Ermənistan Sovet Sosialist Respublikası elan olunur. Noyabrın soyuq günləri Naxçıvan İnqilab komitəsinin iradəsi ilə hərbi hissələr Şərura hərəkət edir. Abbasqulu bəyin taboru dağ cığırları, əhalidən toplanan xalq dəstələri şosse yolu, Qızıl Ordu hissələri isə dəmir yolu ilə hərəkət edir. Əznəbürd, Qarabağlar, Xok və Şaxtaxtı daşnaklardan azad edilir. Bu döyüşlər nəticəsində 1200 əsgər və zabit əsir alınır [5, s. 658]. Abbasqulu bəy Şadlinskinin komandanlığı altında "Qırmızı Tabor" və əhalidən ibarət olan dəstələr daşnakların hücumlarını dalbadal dəf edirdi. "Qırmızı Taborun" 4-cü rota komandiri İbrahim Fərzəliyev öz xatirələrində belə yazırdı: "Taborun hissələri Zeynə qəbiristanlığından hücuma keçib, Şəhriyar dəmir yol körpüsünü ələ keçirdəndən sonra irəliləyərək, Sədərək kəndinə çatdıqda daşnak qoşunları Qaratəpədən və Bağırsaq dərəsindən çıxıb Dərələyəzə qaçdılar. Abbasqulu bəy dedi ki, gərək düşməni təqib edib başını təmam əzək. Onun cəsarətli planları, şəxsi qəhrəmanlıq nümunəsi bu ağır döyüşlərdə dadımıza çatdı.

Haskelin məqsədi əvvəlcə Qərbi Azərbaycanda A.Şadlinskinin başçılığı ilə rəşadətlə mudafiə olunan Vedini boşaltmaq, bitərəf zona yaratmaq adı altında sonradan Naxçıvan və Şərurun da ermənilərin işğalı altına verilməsi planını həyata keçirmək idi. Lakin Azərbaycan hökumətinin başçısı N.Yusifbəyli amerikalıların əsl məqsədini başa düşdü və məsələni parlamentin müzakirəsinə verməyi vəd edərək bir sıra prinsipial şərtlər irəli sürdü: neytral zonada Azərbaycan pulu işlədilməli, zona Ermənistanın bütün təsirlərindən kənarda olmalı, erməni silahlı qüvvələri zonaya buraxılmamalı və s. [1, s. 280]. Bütün bunlardan sonra Haskelin təklif etdiyi şərtlərin həyata keçirilməsinin qarşısı alınması istiqamətində fəal tədbirlərin görülməsinə başlanıldı. Vedi əhalisini ingilis-amerikanların Şərur-Naxçıvanda neytral zona yaratması bərk qəzəbləndirir. İngilis-amerikan nümayəndəliyi ilə danışıq aparmaq üçün Naxçıvandan Əli Səbri Qasımov və Ordubaddan M.Ələsgərov general Haskelin yanına gedərək, ona on maddədən ibarət tələbnamə verir və qeyd edirlər ki, bizim xalqımız nə müttəfiqlərə, nə də daşnak Ermənistanına tabe olmayacaqdır [1, s. 57-58]. Naxçıvanlılar öz müqəddəratlarını silahla qoruyacaqlardır. Məhz belə də olur. İngilis-amerikan-daşnak hərbi hissələrinin yerləşdiyi Baş Noraşendə, Yaycı, Şaxtaxtı, Nehrəm, Naxçıvanda üsyanlar qalxır. "Qırmızı Tabor"un Şərur komandiri Tağı İsmayılov idi. Həmin Tağı İsmayılov ki, 1920-ci il iyulun 28-də Dərələyəz dərəsindən Şərur mahalına hücum edən daşnak quldur dəstəsinə qarşı döyüşlərdə xüsusilə fərqlənmiş və bu döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərmişdi. Şərurda hərbi hissə əhali tərəfindən dağıdılır və cəbbəxana ələ keçirilir. Bundan sonra Şərur və Naxçıvanda özünümüdafiə qüvvələri xeyli möhkəmlənir. 1918-1920-ci illərdə Zəngibasarda 48, Vedibasarda 118, Dərələyəzdə 74, Şərurda 76 kənd dağıdılıb yandırılmışdı. Azərbaycan kəndlərində yarım milyondan çox əhali dərbədər düşmüşdü.

Ermənistan daşnak hökumətinin başçısı Kaçaznuni etiraf etmişdi ki, biz Ağbaba kimi maldarlıq rayonunu, Şərur kimi taxıl mənbəyini, Vedibasar kimi bağlı-bostanlı meyvəli kəndləri darmadağın etdik.

Bundan sonra Vedi əhalisinin didərginlik dövrü başlayır [6].

1920-ci ilin əvvəlləri vəziyyət gərginləşir. Vedibasar təcrid vəziyyətə düşür. Nizami daşnak qoşunları Naxçıvana dağıdıcı hücumlar təşkil edirlər. Böyük qüvvə qarşısında duruş ağır itkilər deməkdir. Gavurqala işğal olunduqdan sonra Abbasqulu bəy əmr verir ki, Böyük Vedide qalan əhali və yaralılar keçərkən kəndi tərk edib Sədərək kəndinə tərəf irəliləsinlər, özü isə onların tələfatına yol verməmək üçün igidləri ilə son döyüşə atılır və daşnak generallarının mühasirəsini yarıb döyüşə-döyüşə Sədərək kəndinə daxil olur. Bir qədər sonra isə Maku sərdarının torpağı olan Ərəblər kəndinə doğru hərəkət edir və bu ərazidə Şərur, Vedibasar camaatından olan böyük qaçqın ordusu ilə rastlaşır. Görürlər ki, Şərur əhalisi kəndlərini, öz yurdlarını tərk edib Şaxtaxtıya tərəf çəkilib. Şaxtaxtında Kalbalı xan Naxçıvanski qərargah düzəldib daşnakların qabağına çıxmağa çalışırdı. Yurdçu, Qabıllı, Qıvraq və Şaxtaxtı təpələrində mövqe tutmuşdu. Lakin cəbhə pozulmuş, əhali axın-axın Naxçıvana tərəf gedir və İrana keçirdi. Bolşeviklər Naxçıvana girərkən Abbasqulu bəy Vedi və Şərur əhalisini Şaxtaxtından İrana keçirdir. 28 iyul 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti elan olunduqdan sonra Hərbi İnqilab Komitəsinin və Nəriman Nərimanovun dəvətini qəbul edərək, sentyabrın 17-də 200 nəfərlik "Qırmızı tabor" dəstəsi ilə Naxçıvana gəlmişdi; buradakı qırmızı qvardiya döyüşçüləri də onun dəstəsi ilə birləşmişdi. Şadlinski ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zəngəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmişdir. Onlar cəllad Dronun daşnak qüvvələrini darmadağın edərək, Naxçıvanda Sovet Hakimiyyətini qurmuş, burada ingilis-daşnak işğalına son qoymuşdur. O, bu xidmətləri müqabilində Nəriman Nərimanov tərəfindən "Qızıl Ulduz" medalı ilə təltif edilmişdir [3, s. 95].

1921-ci ilin yayında Şadlinskinin döyüşçüləri Dərələyəz və Zəngəzurda daşnak quldurlarının darmadağın edilməsində qəhrəmanlıq göstərmişdilər. Zəngəzurda daşnak fitnəkarlıqlarına son qoyulduqdan sonra, Naxçıvanda olan hərbi hissələr başqa yerlərə çəkilir. Tabora gəldikdə isə o, Naxçıvanda saxlanılır, sərhədlərin mühafizəsi onlara tapşırılır. Abbasqulu Şadlinski 1922-ci ilin sonlarına kimi Naxçıvanda sərhəd mühafizəsi vəzifəsini aparır. Sərhəd mühafizəsi ixtisaslaşmış qoşun hissələrinə verildikdən sonra A.Şadlinski Naxçıvandan öz doğma kəndi Vediyə qayıdır. Beləliklə, Ordubaddan başlamış Sədərəyədək bütün Naxçıvan ərazisi daşnaklardan təmizləndi.

Nəticə

Naxçıvan igidlərinin də bu döyüşlərdə iştirakı qiymətləndirilməlidi. Bütün bu ağır məğlubiyyətlər erməni daşnak hökumətinin süqutunu yaxınlaşdırırdı və bunu bu hökumətin başçısı Kaçaznuni dəfələrlə etiraf etmişdir: "Vedibasar, Şərur, Naxçıvan kimi vacib məntəqələrdə isə hakimiyyətimizi silah gücünə belə qura bilmədik, məğlub olduq və geri çəkildik". Qırx dörd il ömür sürmüş Abbasqulu bəy Şadlinski 1922-ci ilin sonuna qədər Abbasqulu bəy Naxçıvan sərhəd mühafizə dəstəsinin rəisi vəzifəsində taborçuları ilə birlikdə bölgənin siyasi sabitliyini və sərhədlərinin təhlükəsizliyini qorumuşdur. Abbasqulu bəy Şadlinskinin Azərbaycanın milli tarixinə yazdığı o şanlı səhifədən bir əsrə yaxın zaman keçməsinə baxmayaraq, onun və silahdaşlarının şəxsiyyət mübarizəsi nəinki unudulmur, həm də bu xalqın yaddaşında yaşayır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın müstəqilliyi və azadlığı uğrunda mübarizlərdən biri olan Abbasqulu bəy Şadlinskinin həyat və fəaliyyətinin öyrənilməsi mənəvi borcumuzdur.

ƏDƏBİYYAT

1. Cəfərli, E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.
2. Ələkbərli, Ə. Araşdırmaçı Xalq Cəbhəsi.- 2015.- 24 oktyabr.- s14.
3. İsmayılova, N. Abbasqulu Bəy Şadlinski, tarixi-mənzum roman. Bakı: Ərgünəş, Nəşriyyat-Poliqrafiya Müəssisəsi, 2011, 184 s.
4. Ocaqquliyev, H. Yadda qalan xatirələr, Bakı: Elm və təhsil, 2016, 503 s.
5. Vedibasar, müstəqil qəzeti, IV cild, 2006-cı il, (68-91-ci sayılar) Bakı: Araz, 2009-cu il, şəkilli, 710 s. 658.
6. URL 1: https://ovqat.com/logoxeber/41159-abbasqulu-by-adlinski-andranik-v-qareqin-njdey-dflrl-qan-udduran-qhrman.html
7. URL 2: https://www.adalet.az/az/posts/detail/-milli-iftixarimiz-160601

ABSTRACT

Zaman ABBASLI

VEDI-ORIGIN MARTIAL ABBASGULU BEY SHADLINSKI IS IN SHARUR

Abbasgulu bey Khanbaba bey oglu Shadlinski, the hero of the entire Azerbaijani people, was born on February 24, 1886 in the village of Beyuk Vedi, Iravan province. There are such heroic personalities in Azerbaijan, whose names shed light on the old history itself, clarify the long paths of the centuries, find themselves in this light, forgotten, distorted, in the finest detail, handed over to polemics, in this light. There are such outstanding personalities in Azerbaijan that the history of a nation and the entire humanity relies on their names. In these historical lands, there are such personalities that we know and love as our grandfathers, fathers, children, spiritual peers. There are also personalities that we are enchanted by, and we remember these names with respect as the address of our heroes, those who ignited the flame of freedom. The people rise up to fight and revolt. In Vedibasar, Abbasgulu Bey Shadlinski is known as the leader of the rebellion. Years will pass, Abbasgulu Bey Shadlinski from Nakhchivan will bring Deraleazi, Vedibasar, Zangezur, Sharur, Nakhchivan back to the heroic struggle, he will try to make people alert, unite, and learn from history.

QƏRBİ AZƏRBAYCAN TORPAQLARINDAN AZƏRBAYCANLILARIN MƏCBURİ VƏ ZORLA KÖÇÜRÜLMƏSİ GERÇƏKLİYİ

Nuray HACIYEVA
haciyevanurka92@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı aparılmış məqsədyönlü şəkildə etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indiki Ermənistan adlandırılan ərazidə - min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarında didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə dağıdılıb viran edilmişdir. Azərbaycanlılara qarşı yönəldilmiş bu ədalətsizlik nəticəsində 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistandan kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdu. Ermənistan deyəndə o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərlə yaşadıqları doğma diyar olubdu. Onlar öz dədə-baba yurtlarından tədricən çıxarılıblar. Azərbaycanlıların köçürülməsinə səbəb ABŞ, Avropa, Yaxın Şərq ölkələrində yaşayan ermənilərin guya Vətənə köçmək istəyi idi. Azərbaycanlı əhalinin Ermənistandan köçürülməsi xarici ölkələrdən köçürülən ermənilərin qəbul edilməsi və yerləşdirilməsi şərtlərini xeyli yüngülləşdirirdi. Buna görə də qərara əsasən, azərbaycanlı əhalinin köçürülməsi nəticəsində azad edilən tikililər və yaşayış evləri gələn erməni əhalinin məskunlaşması üçün istifadə olunurdu. Bu köçürmə azərbaycanlılara yönəldilmiş deportasiya aktı və soyqırımı kimi qiymətləndirilməlidir. Çünki uyğun olmayan iqlim və məişət şəraiti minlərlə insanın, xüsusilə uşaq və qocaların ölümünə səbəb oldu. Deportasiya zamanı azərbaycanlıların köçürülməsi ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil, klub-kitabxana və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı da aparılırdı. 1989-cu ildə SSRİ hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümummilli Lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün zəmin yaratmışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, azərbaycanlılar, deportasiya, ərazi, erməni, köçürmə*

Azərbaycan xalqı 70 il sovet sosialist sistemi şəraitində yaşamışdır. Bu, XX əsrdə xalqımızın həyatının böyük bir hissəsidir. Bu dövrün Azərbaycan xalqı üçün böyük itkiləri, ziyanları, ağrılı-acılı dönəmləri olmuşdur. Belə ki, 20-30-cu illərdə kommunist, bolşevik hakimiyyətinin qurulması, möhkəmlənməsi ilə əlaqədar on minlərlə insan ədalətsiz olaraq repressiyalara uğramış, yerindən-yurdundan uzaq ellərə sürgün edilmiş, öz var-mülklərindən məhrum olmuş, böyük əzab-əziyyətlərə məruz qalmışlar. 1937-1938-ci illərin repressiyaları Azərbaycan xalqına, onun mədəniyyətinə, mənəviyyatına böyük zərbələr vurmuşdur. Lakin sovet rəhbərliyinin xalqımıza qarşı yönələn ədalətsizliyi bununla da bitməmişdir. Bu dövrdə Azərbaycan xalqına vurulan zərbələrdən biri də 1948-1953-cü illərdə Azərbaycan xalqına qarşı həyata keçirilmiş deportasiya aktı olmuşdur.

Cənubi Qafqazın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-nin ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazidəki azərbaycanlıların deportasiyasını daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar.

Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycanın SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına [Bayramov, 2015, s. 226] və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-illərdə soyqırım və 1930-1938-ci illərdə kütləvi repressiya və sürgün aksiyaları həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran sərhədləri, eləcə də Azərbaycan və Gürcüstan sərhədləri boyunca yenə də əsasən azərbaycanlılar yaşayırdılar. İrəvan şəhərinin ətraf rayonları ən münbit torpaqlar hesab edilirdi və həmin rayonlarda da azərbaycanlılar əksəriyyət

təşkil edirdilər. Ermənistan rəhbərlərinin qarşısında duran başlıca vəzifə İrəvan ətrafında və Türkiyə ilə sərhəd boyu münbit torpaqlarda yaşayan azərbaycanlıları həmin ərazilərdən köçürməyə nail olmaqdan ibarət idi. Bunun üçün isə ilk növbədə Moskvanın razılığı alınmalı idi. Xaricdə yaşayan ermənilərin Ermənistanda yaşamaq arzusunda olduqlarını, lakin onları yerləşdirmək üçün ərazilərin azlıq təşkil etdiyini Stalinin nəzərinə çatdırmaq lazım gəlirdi. Çıxış yolunu isə türklərin Azərbaycanın aran rayonlarına köçürülməsində görürdülər.

Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün məsələ qaldırmaq fürsətini onlar ilk dəfə 1943-cü ildə Tehran konfransı zamanı əldə etmişdilər. Konfransın gedişində zirək erməni diasporunun nümayəndələri SSRİ xarici işlər naziri Molotovla əlaqə yaratmış, onların Ermənistana köçürülməsi üçün Sovet rəhbərliyinin razılıq verməsini xahiş etmişdilər. Molotov İ.Stalinlə danışıqdan sonra onların köçürülməsinə razı olduqlarını bildirmişdi [Azərbaycan tarixi. 7 cilddə, 2008, s. 135].

1945-ci ildə Ermənistan KP MK-nın birinci katibi Q.Harutyunov yenidən Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırır. O, məsələ müsbət həll olunarsa, onda Qarabağın keçmiş mərkəzi və 1920-ci ildə dağıdılmış Şuşanın bərpası haqqında təkliflər hazırlayaraq mərkəzi hökumətə təqdim edəcəyini bildirir. Stalin həmin məktubu G.Malenkova, o da M.Bağırova göndərir. M.Bağırov həmin məktuba cavab olaraq 1945-ci il dekabrın 10-da MK-a yazdığı məktubda bildirmişdi ki, Azərbaycan Dağlıq Qarabağı Şuşa istisna olmaqla Ermənistana bu şərtlə güzəşt gedə bilər ki, müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş (Zəngəzur, Dərələyəz, Vedibasar, Sürməli, Göyçə, Dilcan, Borçalı, Qara çöp, Dərbənd və s.) ərazilər Azərbaycan SSR-ə qaytarılsın. Beləliklə, məsələnin arzuolunmaz istiqamət alacağını hiss edən Moskva onun üstündən keçməli olur. Bundan sonra Ermənistan rəhbərləri öz taktikasını dəyişir. Xaricdən gətiriləcək ermənilər yerləşdirmək bəhanəsi ilə oradan azərbaycanlıların deportasiya edilməsinə nail olmağa çalışır [Ermənistan Azərbaycanlılarının tarixi coğrafiyası, 1995, s. 51].

1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsadətini əsas götürərək SSRİ hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verir. Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə xüsusi komitə yaradılır və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərir. Artıq 1946-cı ilin əvvəlində 130 min erməni Ermənistana köçmək arzusunda olduğunu bildirir. "Hınçak" və "Ramkavar" partiyaları Ümumerməni Xeyriyyə İttifaqı köçürülmənin təşkili üçün 1 milyon dollar xərcləyir. Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35,4 min nəfər erməni qəbul edilib, Ermənistanda - Qərbi Azərbaycanda yerləşdirilmişdi. 1948-ci il yanvarın 9-da "Sovet Ermənistanı" qəzeti baş məqaləsində yazırdı: "Bolşeviklər Partiyası, Sovet hökuməti və şəxsən Stalin yoldaşın qayğısı sayəsində öz doğma yurdundan uzun illər boyu didərgin düşərək yad ellərdə səfilliklə həyat keçirən 90 minə qədər erməni öz doğma vətəninə - Sovet Ermənistanına qayıtmaq imkanı tapmışdır... Vətənə qayıdan ermənilər böyük şadlıq və misli görünməmiş ruh yüksəkliyi ilə onlar üçün yeni olan həyata qoşulurlar. Sovet hökuməti vətənə qayıdan ermənilərə aclıq və dilənçiliyin girdabından xilas etmiş, onlara yeni həyat şəraiti yaratmışdır". Göründüyü kimi, "millətlər atası" Stalinin sayəsində ermənilərə "yeni həyat", azərbaycanlılara isə sürgünlər, didərginlik və deportasiya qismət olurdu [Bayramov, 2015, s. 221-222].

Ermənistan hökuməti köçürüləcək yaşayış məntəqələrinin siyahısını əvvəlcədən hazırlamışdı. Bu siyahıya ilk növbədə İrəvan şəhəri və onun yaxınlığında olan Əştərək, Zəngibasar, Eçmiədzin, Hoktemberyan, Artaşat (Qəmərli) Qarabağlar, Vedi, Yeğeqnadzor, Hrazdan (Axta), Əzizbəyov və s. rayonlar daxil edilmişdi [Azərbaycan tarixi. 7 cild, 2008, s. 220]. Ermənistan rəhbərləri Stalini başa salmışdılar ki, köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Muğan-Mil düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir. Çünki 1945-ci ildə SSRİ Nazirlər Soveti Kür-Araz ovalığının yenidən qurulması haqda qərar qəbul etmişdi.

Qərbi Azərbaycandan azərbaycanlıların zorla Azərbaycana köçürülməsinə razılıq verən, isti iqlim şəraiti və baxımsızlıq nəticəsində on minlərlə adamın tələf olmasında müqəssir hesab edilən Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırovun məhkəməsi zamanı o, həmin prosesi belə şərh etmişdi ki, 1947-ci ilin sonunda İ.Stalinin köməkçisi Poskrebışev ona zəng edib Stalinin onu çağırdığını söyləyir. O, Moskvaya gedir və Stalinin qəbul otağında Q.Harutyunovla rastlaşır. Birlikdə Stalinin kabinetinə daxil olurlar. Stalin müqəddiməsiz filansız deyir: - Bağırov, bilirsən də ermənilər xaricdən Ermənistana gəlirlər. Harutyunovun da torpağı yoxdur. Sən öz azərbaycanlılarını oradan götür, onları Muğanda, Mildə yerləşdirərsən. M.C.Bağırov deyir ki, yoldaş Stalin, bu asan məsələ deyil. İcazə verin qayıdım, Bakıda yoldaşlarla da məsləhətləşim. Məsələni yoluna qoymağı götür-qoy edək. Stalin onun bu cavabından əsəbiləşir və deyir: - Deyildi, əməl et! Qurtardı! M.C.Bağırovun Bakıya qayıtmasından bir qədər sonra, yəni dekabrın 27-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi

haqqında" 4083 №-li qərar qəbul edir [Arzumanlı, 1998, s. 115]. Bu qərar Ermənistanda yaşayan Azərbaycan türkləri üçün qəfil və gözlənilməz olur. Dekabrın 23-də qəbul edilən qərarın özü də tələsik hazırlandığından giriş və izahat verilməmişdi. Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də müvafiq qərar qəbul edir [Bayramov, 2007, s. 4]. SSRİ Nazirlər Soveti 10 mart 1948-ci ildə 4083 №-li qərara əlavə olaraq "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında 754 №-li qərar qəbul edir. Bundan sonra Azərbaycanda Köçürmə İdarəsi, Ermənistanda isə köçürmə komissiyası təşkil edilir. Ermənistan rəhbərliyinə də elə bu lazım idi. 1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumıniyadan cəmisi 10 minə yaxın erməni köçürülür. Beləliklə, xaricdən ermənilərin Ermənistana köçürülməsi dayandırılır. Ümumiyyətlə, 1946-1948-ci illərdə xaricdən Ermənistana təqribən 100 min erməni köçürülür. 1947-ci il 23 dekabr tarixi qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün [Qəniyev, 2019, s. 416]. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilər yerləşdirmək üçün istifadə etsinlər [Məmmədov, 1992, s. 49].

1951-ci ildə Qərbi Azərbaycandan 1500 ailənin Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Onlardan 400 ailə İrəvan şəhərinin sakinləri nəzərdə tutulurdu. 1952-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə planı haqqında qəbul etdiyi qərarda 1200 təsərrüfatın köçürülməsi nəzərdə tutulur və ilin axırında bu plan 124,6 faiz yerinə yetirilir. Həmin illərdə, eyni zamanda qeyri-rəsmi surətdə Ermənistandan Azərbaycana mindən çox ailə köçüb gəlmişdi. 1948-1953-cü illərdə Ermənistandan 144 654 nəfər doğma ev-eşiyindən zorla köçürülür. 1953-cü ildə İ.Stalinin ölümündən sonra köçürmə dayandırılır və əhalinin geriyə qayıtma prosesi sürətlənir [Arzumanlı, 1998, s. 118].

Bu köçürmə azərbaycanlılara yönəldilmiş deportasiya aktı və soyqırımı kimi qiymətləndirilməlidir. Çünki uyğun olmayan iqlim və məişət şəraiti minlərlə insanın, xüsusilə uşaq və qocaların ölümünə səbəb oldu. Aran rayonuna köçürülən elə bir ailə olmadı ki, onun heç olmasa bir uşağı qızdırmadan vəfat etməsin. Elə bir ailə olmadı ki, onun qocayaşlı atası və ya da anası tələf olmasın.

Qərbi Azərbaycandan əhalinin deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılırdı. Təkcə 1947-1953-cü illərdə 60-dan artıq yaşayış məntəqələrinin adları dəyişdirilmişdir.

Əgər 1948-1953-cü illərdə Ermənistandan 150 minə yaxın əhali deportasiya edilərək Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı, mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı, azərbaycanlı əhalinin təbii artımı nəticəsində 80-cı illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına yaxınlaşacaqdı. Bu təhlükəni Ermənistan rəhbərləri əvvəlcədən hiss edir və vaxtında tədbir görürdülər.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası son 200 ildə soydaşlarımızın başlarına gətirilən faciələr silsiləsinin bir həlqəsidir. Deportasiya və yaxud əhalinin zorakılıqla miqrasiyası sovet hakimiyyəti illərində müxtəlif üsullarla həyata keçirilən siyasi repressiyanın xüsusi forması idi. Etnik təmizləmə məqsədini güdən bu aksiya həm administrativ xarakter daşıdığı üçün, həm də Ermənistanda yaşayan xalqlardan yalnız birinə – azərbaycanlılara şamil edildiyi üçün siyasi repressiya kimi xarakterizə edilməlidir. Min illər ərzində müəyyən arealda formalaşmış toplumun gözlənilməz bir qərarla tarixi köklərindən qoparılaraq yurdsuzlaşdırılması isə bu aksiyanın qeyr-insani, antihumanist xarakterinə dəlalət edirdi.

Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisləri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza qarşı edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistanın Azərbaycana yeni təcavüzləri başlamış və nəticə etibarilə Qərbi Azərbaycandan 300 mindən çox adam deportasiya olunub. Bununla bərabər, XX əsr ərzində Ermənistanın Qərbi Azərbaycan və bu bölgədən olan soydaşlarımıza təzyiqləri davam edib. Qərbi azərbaycanlıların deportasiyası rəsmi olaraq 4 dəfə həyata keçirilib və təəssüf ki, bu ağlasığmaz şovinist özbaşınalığına münasibətdə beynəlxalq ictimaiyyət hələ də susur. Bu gün tam haqlı olaraq "Qərbi Azərbaycan" mövzusu artıq beynəlxalq arenaya çıxarılıb. Xüsusi işçi qrupu yaradılıb və vahid konsepsiya üzərində işlər başlanıb. Əminik ki, dövlətimiz heç bir güc tətbiq etmədən soydaşlarımızın Qərbi Azərbaycana qayıdışını reallaşdıracaq və tarixi ədalət bərpa olunacaq.

ƏDƏBİYYAT

1. Arzumanlı, V., Mustafa, N. Tarixin qara səhifələri. Bakı: 1998, 280 s.
2. Azərbaycan tarixi, 7 cilddə, VII cild (1941-2002-ci illər) Bakı: 2008, 608 s.
3. Bayramov, A, Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırımı. Bakı: 2015, 416 s.
4. Bayramov, A.Ə. Söz ürəkdən gələndə. Bakı: 2007, 384 s.
5. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: 1995, 461 s.
6. Qəniyev, H. Q. Azərbaycan tarixi (Ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı: 2019, "Elm və Təhsil" nəşriyyatı, 499 s.
7. Məmmədov, İ., Əsədov, S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: 1992, 72 s.

ABSTRACT

Nuray HAJİYEVA

THE REALITY OF THE FORCED AND COERCED RELOCATION OF AZERBAIJANIS FROM THE LANDS OF WESTERN AZERBAIJAN

As a result of the purposeful policy of ethnic cleansing and genocide against Azerbaijanis in the Caucasus in the last two centuries, our people have suffered severe deprivations, national tragedies and hardships. As a result of this step-by-step inhumane policy, Azerbaijanis were displaced and subjected to mass murders and massacres in the territory called Armenia, where they lived for thousands of years, and thousands of historical cultural monuments belonging to our people were destroyed and destroyed. As a result of this injustice directed against the Azerbaijanis, more than 150 thousand Azerbaijanis were forcibly deported from Armenia in 1948-1953. When we say Armenia, it is known to whom that territory belonged in the past. Most of that area was the homeland where Azerbaijanis lived for centuries. They were gradually removed from their ancestral homes. The reason for the resettlement of Azerbaijanis was the alleged desire of Armenians living in the USA, Europe, and the Middle East to move to their homeland. The resettlement of the Azerbaijani population from Armenia greatly eased the conditions for accepting and settling Armenians resettled from foreign countries. Therefore, according to the decision, the buildings and residential houses released as a result of the resettlement of the Azerbaijani population were used for the settlement of the incoming Armenian population. This transfer should be regarded as an act of deportation and genocide aimed at Azerbaijanis. Because the unsuitable climate and living conditions caused the death of thousands of people, especially children and the elderly. During the deportation, along with the resettlement of Azerbaijanis, the name change of residential areas, closure of educational, club-library and cultural centers, unification of regions were also carried out. In 1989, the USSR government adopted a decision to restore the rights of the peoples deported in the 1940s, but the Azerbaijanis deported from West Azerbaijan were not included in the list of those peoples. National leader Heydar Aliyev's decree dated December 18, 1997 "On the mass deportation of Azerbaijanis from their historical and ethnic lands in the territory of the Armenian SSR in the years 1948-1953" legal-political assessment of the historical crime committed against our people in those years, bringing it to the attention of the international community has created a foundation for its delivery.

Keywords: *West Azerbaijan, Azerbaijanis, deportation, territory, Armenian, resettlement*

QƏRBİ AZƏRBAYCANIN TARİXİ KEÇMİŞİ, TOPONİMLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ AKADEMİK BUDAQ BUDAQOVUN TƏDQİQATLARININ ƏHƏMİYYƏTİ

Çinarə İSMAYILOVA
chinare12@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Görkəmli coğrafiyaşünas və alim Budag Budagov respublikanın elmi ictimaiyyəti tərəfindən Qərbi Azərbaycanın yer adları və tarixi keçmişinin tanınmış tədqiqatçısı kimi qəbul edilir. Məqalədə deportasiyaya məruz qalmış Budag Budagovun elmi araşdırmalarından və onun Qərbi Azərbaycanla bağlı tədqiqatlarından bəhs olunur. Onun "Elim, obam mənim", "Türk xalqlarının yaddaşı", "Çobankərə eli", "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kimi dəyərli tədqiqat əsərləri bu gün də Qərbi Azərbaycan üzrə elmi araşdırmalar üçün etibarlı, nüfuzlu və qiymətli mənbə hesab olunur.

Açar sözlər: *Qərbi Azərbaycan, Budaq Budaqov, Çobankərə, toponimlər*

Azərbaycanın tarixi torpaqlarında ermənilərin məskunlaşdırılması, azərbaycanlıların soyqırımı, deportasiya siyasətinin acı nəticələri özünü bir sıra sahələrdə büruzə vermişdir. Ermənilər zaman-zaman ərazinin köklü sakinləri olan azərbaycanlıları öz dədə-baba yurdlarından qovmağa başladıqdan sonra türk mənşəli toponimlər də xəritədən silinmişdir. Və bununla da böyük bir tarixi irs məhvə məhkum edilmişdir.

Ermənilərin öz adlarına çıxdıqları məsələlər sırasında tarixi toponimlər öndə gəlməkdədir. "Eyni zamanda onlar qədim Oğuz yurdu olan Azərbaycanın tarixi torpaqlarını - indiki Ermənistan ərazisini zorla Azərbaycandan parça-parça qopararaq qondarma erməni respublikası yaratdılar və bu gün xalqımız üçün əlçatmaz, ünyetməz bir torpağa çevirdilər. Bu ərazilərdə tarixən mövcud olmuş türk tayfa və qəbilə adları, eləcə də bilavasitə Azərbaycan dili ilə bağlı olan toponimik adlar dəyişdirilərək erməni mənşəli adlarla əvəz edilmiş, onların izlərini tarixdən silməyə çalışmışlar. Bu baxımdan indi Ermənistan adlanan ərazinin tarixən mövcud olmuş türk mənşəli toponimlərinin öyrənilməsi öz aktuallığı ilə diqqəti xüsusilə cəlb edir". "Halbuki bu ərazinin tarixi toponimləri ermənişünasların cəfəng fikrini alt-üst edir. Ermənilərin bu ərazidə köklü xalq olduğunun əsassızlığını göstərən əsas faktlardan biri məhz toponimlərdir. Tarixi faktlardan aydın olur ki, indi Ermənistan adlanan ərazidə XIX əsrin əvvəllərinə kimi qeydə alınmış toponimlərin əksəriyyəti türk mənşəli olmuşdur" [1, s.4].

Torpaqlarımıza, milli mədəniyyətimizə, mətbəximizə, tariximizə, etnoqrafiyamıza, toponimikamıza, bir sözlə, milli kimliyimizin var olduğu bütün sahələrə, dəyərlərimizə "qonan" ermənilərin yalanlarının ifşası, onların elmi əsaslarla susdurulması istiqamətində atılan ən böyük addımlardan biri də məhz tədqiqatçıların bu sahədə apardıqları tutarlı, dəyərli araşdırmalar, dünya miqyaslı elmi sübutlardır. İrəvan və Gümrü şəhərləri, Vedibasar, Zəngibasar, Göyçə, Dərələyəz, Dərəçiçək, Zəngəzurun Meğri, Gorus, Sisyan, Qafan bölgələri, Ağbaba mahalının aid olduğu doğma yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarının tarixi keçmişi, toponimləri haqqında aparılan araşdırmalara 90-cı illərdən başlanılmış və bu araşdırmalar 2000-ci illərdən etibarən daha da genişlənmişdir.

Demək olar ki, tədqiqatların böyük əksəriyyəti məhz toponimlər, yer adları ilə bağlıdır. Əlbəttə ki, bu da səbəbsiz deyildir. Akademik Budaq Budaqovun "Toponimin tarixi, onun kökü, məkanı, coğrafiyası öyrənilməzsə, o yersizdir, dil mənşəyi öyrənilməzsə, o, laldır" - elmi tezisi demək olar ki, alimin elmi fəaliyyətinin hərəkətverici qüvvəsi hesab olunmaqla yanaşı, digər eyni məqsədli tədqiqatların da əsası hesab oluna bilər.

Əməkdar elm xadimi, "Şöhrət" ordenli, görkəmli coğrafiyaçı alim Budaq Budaqov respublika elmi ictimaiyyəti tərəfindən Qərbi Azərbaycanın yer-yurd adlarının, tarixi keçmişinin tanınmış tədqiqatçısı kimi qəbul edilir. Özü də Qərbi Azərbaycandan olan, dədə-baba yurdundan ermənilər tərəfindən deportasiyaya məruz qalan Budaq Budaqov 1928-ci il fevralın 23-də Qərbi Azərbaycanın Zəngibasar (indiki Masis) rayonunun Çobankərə kəndində anadan olub. Alim tədqiqatlarını, elmi araşdırmalarını hər zaman Vətən nisgilini, doğma yurd həsrətini dilə gətirərək yaradırdı. Onun "Elim, obam mənim", "Türk uluslarının yer yaddaşı", "Çobankərə eli", "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kimi dəyərli tədqiqat əsərləri bu gün də Qərbi Azərbaycanla bağlı elmi tədqiqatlar üçün etibarlı, nüfuzlu və dəyərli mənbə hesab olunur.

Görkəmli coğrafiyaçı alim, türk toponimlərinin öyrənilməsi sahəsində misilsiz xidmətləri olan akademik Budaq Budaqov və tanınmış tarixçi alim Qiyasəddin Qeybullayevin birgə ərsəyə gətirdikləri "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" adlı kitabı doğma yurd yerlərimizin tarixi, etnoqrafiyası, toponimikasının öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Kitabda biz Qərbi Azərbaycan torpaqlarının təbii-coğrafi şəraiti, Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti ilə də tanış ola bilərik. Müəlliflərin 172 ədəbiyyata istinad edərək ərsəyə gətirdikləri bu tədqiqat işi vasitəsilə Qərbi Azərbaycanla bağlı geniş elmi bilik əldə etmək mümkündür.

Budaq Budaqov tədqiqatlarının xarakterik xüsusiyyətləri toponimləri geniş şəkildə araşdırması olmuşdur. Belə ki, alim Qərbi Azərbaycanla bağlı olan makrotoponim, mikrotoponim, antrotoponim, drinonim, hidronim, oykonim, oronimlər haqqında təfsilati məlumatlar vermişdir. Biz müəllifin əsərlərində bu toponimlərin struktur-semantik xüsusiyyətləri, türk mənşəli olmağı haqqındakı elmi sübutlara rast gələ bilərik. Müəllif yeri gəldikcə, tarixi yer adlarının sonradan dəyişdirilib ermənicə hansı formada adlandırılması məsələlərinə də toxunur.

Lüğətdən də aydın olur ki, Qərbi azərbaycanlıların etnogenezində müxtəlif türk tayfaları iştirak etmişdir. Bu tayfalardan e.ə VIII əsrdə gəlmiş, antik mənbələrdə kimmer kimi yazılan kəmər (qəmər) (Kəmərli, Qəmərli kənd adları), eranın əvvəllərindən başlayaraq Cənubi Qafqaza hunların tərkibində və erkən orta əsrlərdə bir sıra türk tayfaları gəlib məskunlaşmışlar: Hun (Hünüt), goros (Gorus), peçeneq (Biçənək), kəngər (Kəngərli), abdal (Abdallar), quşçu (Quşçu) adlarını qeyd edə bilərik. Toponimlərdə bulqarların kazan (Qazançı) və kul (Qullar), peçeneqlərin qarabağ, güyərçi, kapan, çuban, çor (Qarabağ, Güyərçili, Qafan, Çobankərə, Çorlu), xəzərlərin kabar və tərnə (Kəvər, Tərnəqut), qıpçaqların eti, çiban, qarabork (İtqıran, Çivanlı, Qarabərk) və s. tayfalarının adları əks olunmuşdur.

Budaq müəllim doğma eli Qərbi Azərbaycan diyarı haqqında olan "Çobankərə eli" kitabında kəndin tarixi keçmişindən, onun mənəvi dünyasından, görkəmli şəxsiyyətlərindən, erməni vandallarının müxtəlif illərdə Azərbaycan xalqına, o cümlədən çobankərəlilərə qarşı soyqırımı və deportasiyasından tarixi, real, həqiqətləri əks etdirən faktlara əsaslanaraq bəhs etmişdir.

Müəllif Çobankərə kəndinin aid olduğu Zəngibasar rayonu haqqında danışarkən bu rayonun yerləşdiyi coğrafi amillər haqqında geniş şəkildə izah vermişdir. "Orta dağlıq ərazinin düzənliklə qovuşduğu hissədən cənub-qərbə, Araz çayının sol sahilinə qədər uzanan düzənlikdə Zəngibasar mahalı yerləşir. İlin yaz və payız aylarında vaxtaşırı daşan Zəngiçayı yataqboyu yerləşən düzənlik ərazini basırdı. Ona görə də bu yerlər – Zəngi çayının daşqın sularının basdığı ərazi Zəngibasar adlandırılmışdır. "Zəngi" coğrafi adı isə türk tayfalarının birinin adından götürülmüşdür" [2, s.7]. Kitabda Zəngibasar inzibati rayonu ərazisinə daxil olmuş 37 kəndin siyahısı ilə də tanış olmaq mümkündür.

Tədqiqatçı alim Budaq Budaqovun doğma eli - Qərbi Azərbaycanın qədim yurd yerlərindən olan Çobankərə yaşayış məntəqəsinin adının mənşəyi haqqında araşdırmalarında oxuyuruq: "Çobankərə - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adıdır. 1918-ci ildə əhalisi qovulmuşdur... Kənd qazaxların 159 ailədən ibarət Çobankərə tayfasının məskunlaşması nəticəsində yaranmışdı... Çobankərə tayfası qədim türk mənşəli Kəngər-peçeneqlərin Çupan tayfasından ibarətdir" [3, s.425].

Alimin araşdırmaları tarixi yenidən vərəqləməyə, keçmişə qayıtmağa imkan verir: "Kəndimizin tarixi haqqında müəyyən mülahizə söyləmək üçün bir əsaslı dəlil var: kənddə olan iki qəbiristanlıqdan biri "Qaradolaq qəbiristanlığı" adlanırdı. İkinci qəbiristanlıq isə təzə idi... Orada üç-dörd qəbir üstündə ... iri qoç heykəlləri var idi... Tədqiqatçılar qoç daşlarını əsasən Qaraqoyunlu və Ağqoyunlu tayfaları ilə bağlayırlar" [2, s.30].

Budaq müəllimin tədqiqatlarında maraqlı cəhətlərdən biri də onun məsələyə birtərəfli deyil, geniş aspektli yanaşmasıdır. Belə ki, o, toponimlərin mənşəyi haqqındakı mülahizələrində yalnız onların yaranma tarixini araşdırmaqla kifayətlənməyərək, eyni zamanda həmin toponimlərin digər hansı toponim növləri ilə mənşəcə eyniliyi haqqında ətraflı informasiya vernişdir. Belə ki, biz müəllifin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabında Şadılı toponimi haqqında araşdırmalarda oxuyuruq: "Şadılı – 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adıdır. Naxçıvanda Şada kəndi, Şada çay hidronimi (Şahbuz rayonu) ilə mənşəcə eynidir" [3, s.435]. Eyni zamanda digər bir nümunə ilə tanış olaq: "Vərməziyar – İrəvan xanlığının Zəngibasar mahalında kənd adıdır. XIX əsrin ortalarında ermənilər yerləşərək Azərbaycan türklərini sıxışdırmışlar... Naxçıvanda Vərməziyar kənd adı ilə mənşəcə eynidir" [3, s.171].

Budaq Budaqovun Qərbi Azərbaycanla bağlı tədqiqatlarını şərtləndirən əsas amillər sırasında onun toponimlərin hər birini xalqımızın tarixi, dili, təfəkkürü, adət-ənənəsi, məişəti, etnoqrafiyası ilə bağlılığını əldə əsas götürərək təhlil etməsidir. Bu dərin araşdırmalar, geniş tədqiqatlar bizə bölgənin toponimləri, tarixi keçmişi haqqında ətraflı informasiya verməkdədir. Beləliklə, bütün bu tədqiqatlar erməni yalan və

uydurmalarını, saxtakalıqlarını tamamilə alt-üst edərək həqiqətin dünya ictimaiyyətinə çatdırılmasına dəyərli töhfələr verir.

Biz əminliklə deyə bilərik ki, vaxt gələcək Azərbaycan torpaqlarının yaddaşı olan, pasportuna çevrilən qədim yurd yerlərimizin adları yenidən vətəndaşlıq hüququ qazanacaqdır. Və eyni zamanda inanırıq ki, tezliklə doğma yurd yerlərimizə, Qərbi Azərbaycan torpaqlarına qayıdışımız arzu olmaqdan reallığa çevriləcəkdir!

ƏDƏBİYYAT

1. Bayramov, İ. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2005, 462 s.
2. Budaqov, B. Çobankərə eli. Bakı: Elm, 1996, 200 s.
3. Budaqov, B., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.

ABSTRACT

Chinara ISMAYİLOVA

THE IMPORTANCE OF RESEARCH BY ACADEMICIAN BUDAG BUDAGOV IN STUDYING THE HISTORICAL PAST AND TOPONYMS OF WESTERN AZERBAIJAN

Budag Budagov, a prominent geographer and scientist, is recognized by the scientific community of the republic as a well-known researcher of place names and historical past of Western Azerbaijan. The article talks about the scientific research of Budag Budagov, who was deported, and his research on Western Azerbaijan. His valuable research works such as "Elim, obam mein", "The memory of the Turkic nations", "Chobankara eli", "Explanatory dictionary of toponyms of Azerbaijani origin in Armenia" are still considered a reliable, authoritative and valuable source for scientific research on Western Azerbaijan.

Keywords: *Western Azerbaijan, Budag Budagov, Chobankare, toponyms*

XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ QƏRBİ AZƏRBAYCANDAN NAXÇIVANA KÖÇLƏR

Münəvvər SÜLEYMANOVA
munevversuleymanova@ndu.edu.az
ORCID iD: 0009-0002-4128-4090
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycan tarixinin öyrənilməsində mühüm istiqamətlərdən biri etnodemoqrafik tərkibin dəyişdirilməsi və azərbaycanlı əhalinin tarixi yurd yerlərindən köçürülməsi problemidir. Araşdırmalar göstərir ki, XIX əsrdə - ermənilərin kütləvi şəkildə gətirilərək Qərbi Azərbaycan ərazisində yerləşdirilməsi ilə paralel həm də aborigen əhalinin sıxışdırılması prosesi başlamışdır. XX əsrin 20-30-cu illəri Qərbi Azərbaycan ərazisinin azərbaycanlılardan təmizlənməsi prosesində xüsusi bir mərhələni təşkil edir. Məqalədə XX əsrin 20-30-cu illərində Qərbi Azərbaycanın digər bölgələrindən Naxçıvan ərazisinə köçlər tədqiq edilmişdir. Bu prosesin başvermə səbəbləri, köçün əsas istiqamətlərini müəyyənləşdirmək üçün müqayisəli təhlillər aparılmış, müxtəlif mənbələrin verdiyi məlumatlar öyrənilmişdir. Belə bir qənaətə gəlinmişdir ki, Cənubi Qafqazın bolşeviklər tərəfindən işğalından və sovet respublikalarının təşkilindən sonra da bu proses səngiməmiş, daha məkrli formada davam etmişdir. Qərbi Azərbaycanın müxtəlif ərazilərindən Naxçıvan şəhəri və ətraf kəndlərə, Ordubad, Culfa, Şərur, Şahbuz və Şahtaxtı ərazilərinə köçlər baş vermişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, Naxçıvan, köç, əhali, bolşevik, Ermənistan*

XX əsrin 20-30-cu illəri Cənubi Qafqazın tarixi taleyində keşməkeşli hadisələrlə yaddaqalan olmuşdur. Həmin dövrdə regionun bolşevik Rusiyası tərəfindən işğalı, Azərbaycanda, Gürcüstanda, eləcə də tarixi Qərbi Azərbaycan əraziləri hesabına yaradılmış Ermənistanda sovet respublikalarının qurulması bölgədə yeni şərait yaratmışdı. Bolşevik Rusiyanın regionu faktiki olaraq nəzarət altına alması prosesi həm də tarixi Azərbaycan torpaqlarının daha böyük bir hissəsinin qoparılaraq Ermənistana verilməsi ilə paralel gedirdi. Heç də təsadüfi deyildir ki, Qərbi Zəngəzur bölgəsinin hüquqi olaraq qondarma Ermənistanın ərazisi kimi tanınması məhz sovetləşmədən sonra baş vermişdir. Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi ilə Azərbaycanın ərazi bütövlüyünə böyük zərbə vuruldu [Hacıyev, 2018, s. 173]. 1921-ci ilin martında Moskva, oktyabrında Qars müqavilələrinin imzalanmasına, faktiki olaraq Naxçıvanın muxtariyyətinin əhatə edəcəyi ərazilərin sərhədlərinin müəyyənləşdirilməsinə baxmayaraq, sonrakı illərdə də ərazilərin hissə-hissə qoparılaraq Ermənistana verilməsi prosesi davam etmişdir. Hələ 1918-ci ildə Qərbi Azərbaycan əraziləri hesabına daşnak Ermənistanının qurulmasından sonra bu respublikanın ərazisində əhali müxtəlif vasitələrlə digər ərazilərə köçməyə məcbur edilmişdi. Sovetləşmədən sonra da bu proses davam etmişdir. Məsələn, aparılan hesablamalara görə 1897-ci ildə Zəngəzurda yaşayan 138 min nəfərə yaxın insanın 73 min nəfərdən artığını – 53 faizini Azərbaycan türkləri təşkil etdikləri halda, 1921-ci ildə həmin bölgədəki Azərbaycan türklərinin sayı 6.5 min nəfərə qədər azalmışdı. Ermənilərin sayı isə əksinə artmışdı [В.К.Гарданов, 1969, s. 254]. Xarici ölkə müəlliflərinin də tədqiqatlarından aydın olur ki, həmin dövrdə erməni terror dəstələrinin başçıları, xüsusən Qaregin Njdenin 1921-ci ildə Zəngəzuru ələ keçirməsindən sonra bölgədə yaşayan Azərbaycan türklərinin bir qismi qırılmış, qalanları isə digər bölgələrə üz tutmuşdular [Baal, 2005].

Qərbi Azərbaycan əhalisinin öz doğma dədə-baba yurdlarını tərk edərək üz tutduqları əsas istiqamətlərdən biri də məhz Naxçıvan olmuşdur. Həmin dövrdə Naxçıvana üz tutan ailələr Naxçıvan şəhərində, ətraf kəndlərdə, Şahbuzun dağ kəndlərində (Ayrınc, Zırnel), Culfa, Ordubadda məskunlaşmışdılar. Həmin dövrdə Qərbi Azərbaycanın müxtəlif bölgələrindən əhalinin məhz Naxçıvana pənah gətirməsi təsadüfi deyildi. Əhalinin məhz buraya üz tutmasının bir neçə səbəbi var idi. İlk növbədə aydındır ki, Naxçıvanda azərbaycanlı əhali həm say baxımından, həm özünümüdafiə qüvvələri baxımından daha üstün idi. İkincisi, Qərbi Azərbaycanın müxtəlif bölgələrinin əhalisi ilə Naxçıvanın əhalisi arasında həm etno-mədəni oxşarlıqlar, həm məişət və təsərrüfat bənzərlikləri daha çox idi. Eyni zamanda bu regionların əhalisi arasında sıx qohumluq əlaqələri var idi. Zəngəzur, Dərələyəz, Vedi və digər bölgələrdən Naxçıvana əhalinin üz tutması həm də tarixi amillərlə bağlı idi. Tarixən Naxçıvan xanlığına tabe olmuş bu bölgələrdə əhalinin yaddaşında Naxçıvan məhz xanlığın mərkəzi, pənah yeri kimi həkk olunmuşdu. Əhalinin bu əraziyə üz tutmasını təmin edən ən mühüm

faktorlardan biri isə bölgədə əvvəlcə türk ordu hissələrinin mövcudluğu, sonrakı dövrdə isə Naxçıvan üzərində Türkiyənin beynəlxalq müqavilələrlə təsbit edilmiş hüquqi təminatının olması idi.

Naxçıvan əhalisinin özünün də maddi və iqtisadi vəziyyətinin ağır olmasında baxmayaraq, Qərbi Azərbaycandan gələn qaçqınlara da yardım edilirdi. Bununla belə, dövrün mənbələrinin öyrənilməsi aydın şəkildə göstərir ki, bölgədə əhali aclıq və səfalət içində yaşayırdı. Bolşeviklərin məqsədi isə hər zaman olduğu kimi məkrli idi. Onlar başa düşürdülər ki, Naxçıvanda aclığın hökm sürməsi Qərbi Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş qaçqınların yenidən geriyə – doğma yurdlarına qayıtmasını sürətləndirə bilər. Bunun qarşısını almaq üçün Naxçıvana müəyyən yardımlar edilir, qaçqınların burada qalmasına çalışılırdı. 1920-ci il sentyabrın 20-də Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin Naxçıvana 100 min pud buğda, 1 vaqon tibbi ləvazimat göndərilməsi ilə bağlı qərarı heç də təsadüfi deyildi. Bu hadisədən 5 gün sonra – 1920-ci il sentyabrın 25-də Naxçıvanda qaçqınlara yardım üzrə Fövqəladə Komissiya yaradılmış, qaçqınların və yoxsulların bütün vergilərdən azad edilməsi barədə qərar qəbul edilmişdi.

Qərbi Azərbaycanın müxtəlif bölgələrindən XX əsrin 20-ci illərində Naxçıvana üz tutan qaçqınların sayı ilə bağlı rəqəmlər müxtəlifdir. Bu xüsusi tədqiqat mövzusu olmalıdır və rəqəmlər dəqiqləşdirməlidir. Lakin bununla bağlı müxtəlif mənbələrdə dəhşətli məlumatlar əksini tapmışdır. Məsələn, 1920-ci il sentyabrınında bölgədəki hərbi birləşmələrdən birinin rəisinin Qızıl Ordu Komandanlığına göndərdiyi teleqramda Naxçıvana pənah gətirmiş qaçqınların sayının hətta milyon nəfərə çatdığı, onların çox pis şərtlər altında, Araz çayı sahilində aclıq və səfalət içində yaşadıqları göstərilmişdi [Məmmədov və Əsədov, 1992, s.33-34].

Vəziyyətin ağırlığı bəzi hallarda həm Naxçıvana gələn qaçqınların, həm də yerli əhalinin özünün də miqrasiyasına səbəb olurdu. Dövrün mənbələrində Şərurdan, Şahtaxtıdan, Dərələyəzdən əhalinin bir qisminin Arazın cənub sahilinə Güney Azərbaycan ərazilərinə üz tutmasına dair məlumatlar da əksini tapmışdır.

Ermənistan SSR gedən digər ərazilərə, o cümlədən Naxçıvana gedən qaçqınların vəziyyəti sabitləşdikdən sonra yenidən öz doğma yurdlarına qayıtmasının qarşısını almağa çalışırdı. Məqsəd aydın idi, çeşidli bəhanələrlə azərbaycanlı əhalinin yenidən geri qayıtmasını əngəlləmək, türksüz Ermənistan yaratmaq kimi xəstə ideologiyanı gerçəkləşdirmək, gələcəkdə yerdə qalan azərbaycanlı əhalinin də deportasiya edilməsi üçün şərait yaratmaq. Öz doğma yurdlarına qayıtmaq istəyən qaçqınların kütləvi dönüşünün epidemik xəstəliklərin sayının artmasına səbəb ola biləcəyini bəhanə gətirərək Ermənistan SSR rəhbərliyi hay-küy salırdı. Məsələn, Ermənistanın Xalq Xarici İşlər Komissarının müavini olmuşu Karinyan 1920-ci ilin iyulunda Naxçıvanın komissarına göndərdiyi məktubda Naxçıvanda olan qaçqınların Zəngibasar, Qəmərli və digər regionlara üz tutmasını xəstəliklərin yayılma səbəbi kimi göstərmiş, azərbaycanlı qaçqınların Ermənistana hərəkətinin müvəqqəti dayandırılmasını tələb etmişdi. Karinyanın bu cür tələbləri təkcə Naxçıvana yönəlməmişdi. 1920-ci ilin sentyabrında o eyni məzmunlu məktubla Azərbaycan SSR-in Xalq Xarici İşlər Komissarı Mirzə Davud Hüseynova da müraciət etmişdi [Mustafayev, 2013, s. 107-108].

Qərbi Azərbaycandan Naxçıvana və Cənubi Azərbaycana getmiş azərbaycanlı əhalinin evlərində ciddi-cəhdlə ermənilər yerləşdirməyə çalışan Ermənistan SSR rəhbərliyi müxtəlif qərarlar qəbul edirdi. Həmin illərdə Ermənistan İnqilab Komitəsi tərəfindən qəbul edilmiş "Qaçqınlar haqqında qərar" Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışın əngəlləyən ən mənfur sənədlərdən biri olmuşdur.

Ermənilərin məkrli məqsədləri bolşevik Rusiyası tərəfindən tam dəstəklənirdi. Qərbi Azərbaycandan Naxçıvana üz tutmuş qaçqınların burada qalmasını təmin etmək üçün Moskvanın təzyiqi ilə sərt qərarlar qəbul edilirdi. 1922-ci ilin iyulun 9-da Zaqafqaziya Sovet Federativ Sosialist Respublikalarının İttifaq Soveti qaçqınların Ermənistan SSR-dən Naxçıvana, Naxçıvandan isə Ermənistan SSR-ə yerdəyişməsini qadağan edən qərar qəbul etmişdi. Həmin qərar faktiki olaraq Ermənistandan Naxçıvana gəlmiş və qərarın qəbul edilməsinə qədər öz yurdlarına dönə bilməmiş təqribən 28 min nəfərə qədər qaçqının öz yurdlarına dönəməsinin qarşısını aldı [Mustafayev, 2013, s. 112].

XX əsrin 20-ci illərinin ortalarından etibarən qaçqınların Naxçıvandakı müxtəlif yaşayış məntəqələrində daimi yerləşdirilməsi işi təşkil edilməyə başlanılmışdı. Zəngəzurdan gələn qaçqınların böyük bir qismi Culfa ərazisində iqlimi əlverişli olmayan ərazilərdə yerləşdirilirdi. Zəngibasarın Kərimarxı, Çobankərə, Milli Dərəsi, Qulubəyli və s. kəndlərindən gələn qaçqınlar Naxçıvan şəhərinin yaxınlığındakı Əliabad kəndində məskunlaşdırılmışdı [Mustafayev, 2013, s. 114].

Naxçıvan MSSR-in təşkilindən sonra hissə-hissə qoparılaraq Ermənistan SSR-ə verilən sərhədboyu kəndlərin müsəlman-türk əhalisi də Naxçıvana köçürülürdü. 1924-cü ildə Dərələyəzin Qızılca kəndinin əhalisi Şərurun Ulya Noraşen məntəqəsinə, Zəngəzurdan olan qaçqınların bir qismi Nehrəm və Güznütdə, Milli Dərəsindən olan qaçqınlar Əliabadda yerləşdirilmişdilər.

Maraqlı məsələlərdən biri, XX əsrin 30-cu illərində tarixi Qərbi Azərbaycan torpaqlarından Naxçıvan MSSR ərazisinə köçlərin olub-olmaması ilə bağlıdır. Araşdırmalarımız göstərir ki, XX əsrin 20-ci illərində,

1948-1953-cü illərdə Azərbaycanlı əhalinin tarixi Qərbi Azərbaycandan deportasiyası məsələsinə tarixşünaslığımızda diqqət yetirilsə də, 30-cu illərdəki vəziyyət diqqətdən kənarda qalmışdır. Həm Naxçıvanda, həm də ölkənin digər bölgələrində yaşayan Qərbi Azərbaycandan olan sakinlərlə aparılan söhbətlər aydın şəkildə göstərir ki, 30-cu illərdə də əhali yerdəyişmələri baş vermiş, Qərbi Azərbaycanın bəzi kəndlərində yaşayan azərbaycanlı əhalinin sıxışdırılması onların digər ərazilərə, o cümlədən Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarına üz tutmalarına səbəb olmuşdu. SSRİ-nin təşkilindən sonra dövlət sərhədlərinin faktiki olaraq inzibati xətlərə çevrilməsi əhalinin hərəkətini asanlaşdırmışdı. Ermənistan SSR rəhbərliyi isə həm 30-cu illərin repressiyalarından, həm də erməni əhalisinin azərbaycanlılara qarşı aqressiyasından istifadə edərək qorxu mühiti yaradır, Qərbi Azərbaycan əhalisini sıxışdırırdı. Milliyətçilik zəminində damğalanacaqlarını görən bir çox insanlar səssizcə yurd yerlərini tərk edir, onların bəziləri yenə də məhz Naxçıvana köçürdülər. Təbii ki, həmin dövrün hadisə və proseslərini sadəcə bir məqalə çərçivəsində aydınlaşdırmaq mümkün deyildir. Bu baxımdan gələcək tədqiqatlarımızı həm də məhz bu istiqamədə yönəltmək, dövrün hadisə və proseslərini arxiv sənədləri və ilkin mənbələr əsasında aydınlaşdırmaq niyyətindəyik.

Nəticədə qeyd edə bilərik ki, XX əsrin 20-30-cu illərində Qərbi Azərbaycandan olan azərbaycanlı əhalinin əsas miqrasiya istiqamətlərindən birini də Naxçıvan ərazisi təşkil etmişdir. Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarından sıxışdırılmasında, onların öz yurd yerlərini tərk etmələrində daşnaklar qədər, onları əvəzləyən bolşeviklər də maraqlı olmuşlar. Qərbi Azərbaycandan olan qaçqınlara Naxçıvanın yerli sakinləri böyük köməkliklər göstərmiş, onların müvəqqəti məskunlaşması üçün əllərindən gələni etmişlər. Sovetlər isə maksimum şəkildə həmin əhalinin bir daha öz doğma yurdlarına qayıtmaması üçün bəhanələr uydurmağa çalışmışdır. Eyni zamanda bu prosesin həyata keçirilməsində inzibati resurslardan istifadə etmişdir.

ƏDƏBİYYAT

1. Hacıyev, İ.M. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində / İ.M.Hacıyev -Bakı: Elm, -2018.
2. Məmmədov, İ., Əsədov, S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk) / İ.Məmmədov, S.Əsədov. –Bakı: Azərnəşr, -1992.
3. Mustafayev, A.N. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan /A.N.Mustafayev. - Bakı: ADPU-nun nəşriyyatı, -2013.
4. Ваал, Т. Глава 9. Противоречия. Сюжет двадцатого века [Электронный ресурс] / BBC,-2005.http://news.bbc.co.uk/hi/russian/in_depth/newsid_ 4670000/4670433.stm
5. Гарданов, В.К. Кавказский этнографический сборник. -М.: Наука, -1969. Вып. 4.

ABSTRACT

Munavvar SULEYMANOVA

PEOPLE TOOK REFUGE FROM WESTERN AZERBAIJAN TO NAKHCHIVAN IN THE 1920s AND 1930s

One of the crucial areas in studying the history of Western Azerbaijan is the alteration of the ethnodemographic composition and the displacement of the Azerbaijani population from their historical homelands. Research indicates that in the 19th century, alongside the mass settlement of Armenians in Western Azerbaijan, the process of displacing the indigenous population began. The 1920s and 1930s mark a significant phase in the cleansing of Azerbaijanis from Western Azerbaijan. The article investigates the migrations from various regions of Western Azerbaijan to the Nakhchivan area during these decades. Comparative analyses have been conducted to determine the causes of this migration and its main directions, utilizing information from various sources. It is concluded that this process did not abate after the Bolshevik occupation of the South Caucasus and the establishment of Soviet republics but continued in a more insidious form. Migrations occurred from different areas of Western Azerbaijan to the city of Nakhchivan and its surrounding villages, as well as to the regions of Ordubad, Julfa, Sharur, Shahbuz, and Shahtakhti.

Keywords: *Western Azerbaijan, Nakhchivan, migration, population, Bolshevik, Armenia*

İLHAM ƏLİYEV VƏ BÖYÜK QAYIDIŞ KONSEPSİYASI

Reyhan YUNİSOVA
baku_2007@mail.ru
ORCID iD: 009-0003-6846-7598
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Məqalə Böyük Qayıdış Konsepsiyasına həsr edilmişdir, xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konsepsiya istiqamətində fəaliyyəti işıqlandırılmışdır. Ulu Öndər Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı çağırışları bu gün Prezident İlham Əliyevin birbaşa tapşırığı ilə hazırlanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında öz təzahürünü tapmışdır. Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə keçirdiyi görüşdə dövlətimizin başçısı istər daxili auditoriyaya, istərsə də beynəlxalq aləmə çox ciddi mesajlar vermiş və Qərbi Azərbaycan İcmasının fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. Prezident İlham Əliyev tarixə müraciət edərək bu gün Ermənistan Respublikası adlanan dövlətin tarixi Azərbaycan torpaqlarında mövcud olduğunu, bunu təsdiqləyən sənədlərin və xəritələrin əlimizin altında olduğunu və dünya ictimaiyyətinin bütün bunları bilməli olduğunu bildirmişdir.

Tətbiqi əhəmiyyəti: *material ali və orta məktəblərdə istifadə oluna bilər, tarix, siyasətlə maraqlananlar üçün faydalıdır.*

Açar sözlər: *Qərbi Azərbaycan, Qayıdış konsepsiyası, İlham Əliyev, köçürülmə*

Giriş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ili Heydər Əliyev ili elan etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son dövr fəaliyyəti, xüsusən onun 44 günlük Vətən müharibəsindən sonrakı çıxışları, xarici və yerli mətbuata müsahibələri zamanı Qərbi Azərbaycan torpaqlarının azərbaycanlıların qədim və tarixi yurd yeri olması və onların mütləq öz tarixi vətənlərinə qayıdacağı barədə bəyanatları bu gün o qədər də dərindən öyrənilməmiş bir məsələni də aktuallaşdırır. Bu, Heydər Əliyevin azərbaycanlıların öz tarixi vətənlərindən deportasiyası haqqında olan ideyaları, çıxışları, müraciətləri və onların məntiqi nəticəsi olan 1997-ci il dekabr ayının 19-da imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanıdır.

Ulu Öndərin Qərbi Azərbaycanla bağlı çağırışları bu gün Prezident İlham Əliyevin birbaşa tapşırığı ilə hazırlanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında öz təzahürünü tapmışdır.

Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə keçirdiyi görüşdə dövlətimizin başçısı istər daxili auditoriyaya, istərsə də beynəlxalq aləmə çox ciddi mesajlar verdi və Qərbi Azərbaycan İcmasının fəaliyyət istiqamətlərini müəyyənləşdirdi.

Prezident İlham Əliyev tarixə müraciət edərək bu gün Ermənistan Respublikası adlanan dövlətin tarixi Azərbaycan torpaqlarında mövcud olduğunu, bunu təsdiqləyən sənədlərin və xəritələrin əlimizin altında olduğunu və dünya ictimaiyyətinin bütün bunları bilməli olduğunu bildirdi.

Dövlətimizin başçısı öz çıxışında demişdir: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq" [2, s.217-218].

Prezident İlham Əliyev də ata vəsiyyətinə sadiqliyini ifadə edərək Qərbi Azərbaycana Böyük Qayıdışın baş tutacağına inamını ifadə edir. İrəvan ana babamın, Zəngəzur isə ata babamın yurdudur deyən, doğum gününü Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə birgə qeyd edən dövlətimizin başçısı xüsusilə vurğuladı ki, Qərbi azərbaycanlılar da heç vaxt inamlarını itirməməli, eyni zamanda addımlar atmalı, fəal olmalıdırlar. Nəyi, necə və nə zaman edəcəyini dəqiq bilən Prezident İlham Əliyev görüşün sonunda dedi: "Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq" [1, s.242].

Prezident İlham Əliyev Qarabağ münaqişəsi həll olunandan sonra qarşıda duran əsas məsələnin Qərbi

Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması məsələsinin olduğunu, bu konsepsiyanın sülhsevər konsepsiya olacağını, bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaların əsasında öz hüququmuzu tələb etməli olduğumuzu, bu işə beynəlxalq hüquqşünasları cəlb edilməli olduğunu bildirdi. Artıq bu istiqamətdə İcma tərəfindən konkret addımlar atılıb. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası təsdiq edilib. Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən deportasiya edilən azərbaycanlı əhalinin dinc şəraitdə tarixi-etnik torpaqlarına qayıtmaları üçün BMT-yə və digər beynəlxalq təşkilatlara və Ermənistan Respublikasına müraciətlər etmişdir.

16 iyun 2022-ci ildə keçirilən IX Qlobal Bakı Forumunda Prezident İlham Əliyev dünyanın müxtəlif ölkələrindən gəlmiş dövlət və ictimai xadimlərin qarşısında çıxış edərək dedi: "Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsin? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub. Bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq və hesab edirəm ki, Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir" [1, s.103].

16 mart 2023-cü ildə Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə Prezident İlham Əliyev bəyan etdi: "Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən, indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir. Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılılıq prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir" [2].

Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Öz ədalətli tələblərini qəbul etdirmək gücündədir. Qərbi Azərbaycan İcması Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla, indiki Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin olunmasına çalışır. Qərbi Azərbaycan İcması tərəfindən 26 yanvar 2023-cü ildə Qayıdış Konsepsiyası qəbul edilmişdir [2]. Bu məqsədlə həm Ermənistan hökumətinə, həm də beynəlxalq təşkilatlara müraciətlər qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının katibliyi Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yaymışdır.

Bir halda ki, multikultural Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisi kompakt ərazidə yaşayır və Azərbaycan dövləti öz vətəndaşları kimi, onların da hüquqlarının qorunmasına və sosial-mədəni inkişafına təminat verir, onda Ermənistan dövləti də öz tarixi-etnik torpaqlarından deportasiya edilmiş azərbaycanlıların da kompakt şəkildə öz yer-yurdlarına qayıtmalarına və təhlükəsiz şəkildə yaşamalarına təminat verməlidir. Bu zaman tarix ədalətsizlik aradan qaldırıla, Beynəlxalq humanitar hüquq öz təsdiqini tapa bilər.

ƏDƏBİYYAT

1. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2011, 288 s.
2. Qərbi Azərbaycan: tarixi-siyasi aspketlər. Bakı: Elm və təhsil, 2023

ABSTRACT

Reyhan YUNİSOVA

ILHAM ALIYEV AND THE CONCEPT OF THE GREAT RETURN

The article is dedicated to the Great Return concept. In particular, the activities of the President of the Republic of Azerbaijan Ilham Aliyev in the direction of the concept were highlighted. The great leader Heydar Aliyev's calls regarding West Azerbaijan have found their manifestation today in the concept of Return to West Azerbaijan prepared by the direct order of President Ilham Aliyev. In the meeting held by President Ilham Aliyev with a group of intellectuals in the administrative building of the West Azerbaijan Community on December 24, 2022, the head of our state would like gave very serious messages to the domestic audience as well as the international world and determined the directions of activity of the West Azerbaijan Community. Addressing history, President Ilham Aliyev stated that today the state called the Republic of Armenia exists in the historical lands of Azerbaijan, documents and maps confirming this are at hand, and the world community should know all this. ***Application importance:*** *the material can be used in higher and secondary schools, it is useful for those interested in history and politics.*

Keywords: *West Azerbaijan, Return concept, Ilham Aliyev, resettlement*

QƏRBİ AZƏRBAYCAN QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR

Şəbnəm ƏLİYEVA
sebnemeliyeva@ndu.edu.az
ORCID iD: 0009-0005-2978-7884
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Hələ XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar. 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. Tarixin təkrarlanan dönəmlərində xalqımız bir çox əziyyətlərin, deportasiyaların şahidi olub. Yaxın keçmişimizdən bəllidir ki, 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Məqalədə məhz bu məsələlər şərh edilmişdir.

***Açar sözlər**: Qərbi Azərbaycan, müstəqil Azərbaycan, müasir inkişaf, tarixi qərarlar*

"Keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İğdırın qarşısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İğdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər 10 nəfərdən 4-5-i deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandandır. İğdırın Azərbaycana daha əziz olması və sevilməsi, bax bu tarixi köklərə əsaslanır. Siz gəncsiniz, kitablar oxuyursunuz, mən də bunların bir hissəsini kitablardan bilirəm. Amma bir hissəsini şəxsi həyatımdan bilirəm".

Heydər Əliyev
Azərbaycan xalqının Ümummilli Lideri

"Torpaq insanı öz doğma yurduna, el-obasına çəkir". Bu sözləri hər zaman ata-babalarımızdan eşitmişik. Dünyanın harasında qərar tutub yaşamasından asılı olmayaraq, el-oba bağlılığı ilahi yaşantı kimi hər bir şəxsin ruhunu təzələyir, ona dinclik verir. Ancaq bu yaşantının nisgilə çevrildiyi, məhrumiyyət acısına kökləndiyi reallıq da var. Eynən Qərbi Azərbaycanın aqibəti kimi.

O Qərbi Azərbaycan ki İndiki Ermənistan ərazisində yerləşsə də, tarix boyu azərbaycanlılara məxsus olub. Azərbaycanlıların sıx yaşadığı coğrafi məkan kimi tanınıb. O Qərbi Azərbaycan ki hər daşında, torpağında, hər tikilisində izimiz var. Dədə-babamız tikib, yaradıb. O Qərbi Azərbaycan ki adı gələndə ürəyimiz titrəyir, gözümüz həmin diyardan bir şəkil, video görüntü axtarır.

Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasəti tarixi əsrləri əhatə edir və hadisələri ardıcılıqla izləsək, görərik ki, hadisələr eyni ssenari əsasında baş verib. deportasiya 3 mərhələdə davam edib. I mərhələ - 1905-1920, II mərhələ 1948-1953, son köç – 1988-1993-cü illər. Bir neçə dəfə köç edib qayıdan ailələr üçün Qərbi Azərbaycandan son köç (1988-ci ilin köçü) ən dəhşətlisi olaraq yadda qaldı. Çünki ot tayaları, evlər yandırılır, əhali üçün öz evlərində yaşamaq əzaba

çevrilirdi. O şaxtalı noyabr günündən sonra insanlar illərdir yaşadığı, böyüdüyü, əkib-becərdiyi torpaqlarından didərgin düşdü. Onlara qalan isə xatirələr, bir də kənddən, evlərindən yadigar əşyalar, şəkillər oldu.

Lakin müstəqilliyimizi təkrar əldə etdikdən, dahi siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıtdığı dövrdən etibarən ermənilərin məkrli niyyətlərinin qarşısı alınıb, bütün sahələrdə vacib işlər həyata keçirilib, tarixi faktlar ortaya qoyulub, daşnaklar və onların havadarlarının mənfur addımları lokallaşdırılıb, dayandırılıb. 1997-ci il mayın 27-də Azərbaycanın Milli Bayramı - Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitq söyləyən Ümummilli Lider Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından bəhs edərkən deyib: "O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistanın çox gözəl iqlimə - yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub - malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Nə qədər əzab-əziyyət, çətinliklər çəkdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir... O vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq açıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa bir müddətdə Ermənistandan zorla çıxarıldılar..."[1].

"Bu torpaqlarda Dədə Qorqud qopuz çalıb, söz qoşub, igidlərə ad verib, Koroğlu yağı düşmənə daş atıb, Aşıq Ələsgər dağlarımızı, buz-bulaqlarımızı, güllü-çiçəkli torpağımızı vəsf edib, oxşayıb, tərənnüm edib. Qərbi Azərbaycan torpağı Azərbaycan elminə görkəmli şəxslər-ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü olan şəxslər bəxş etmişdir" [Bayramov, 2012, s.6].

Xalqın tarixini, dilini və mədəniyyətini öyrənmək üçün onun yaşadığı əraziyə nəzər salmaq və toponimlərini araşdırmaq lazımdır. Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olub, ermənilər isə xaricdən bu ərazilərə köçürülüb. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərindən 90 faizindən çoxunu türk mənşəli toponimlər təşkil edib. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək ermənileşdirilib və ya ruslaşdırılıb. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapıb.

"Xalqımız əldən getmiş torpaqların nisgilini indi də çəkir. İndi də Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır. Amma, eyni zamanda Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edərkən beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədləri çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik" [2].

Bu uğurlu siyasət müasir tariximizin sonrakı illərində - İlham Əliyevin prezidentliyi dövründə də davam etdirilib. Onun "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir" [3], - deməsi, Prezident İlham Əliyevin bu məsələdə nə qədər qərarlı və inamlı olmasının göstəricisidir.

44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk edib. Belə bir Zəfər qazandığımız dövrdə, əlbəttə ki, Qərbi Azərbaycan həqiqətlərinin öyrənilməsi, dünya ictimaiyyətinə çatdırılması, erməni saxtakarlıqlarının, erməni yalanlarının sona qədər ifşası və son 200 ildə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların, onların varislərinin hüquqlarının beynəlxalq müstəviyə çıxarılması və digər məsələlər üçün geniş imkanlar yaradır"

Deportasiya insanların dədə - baba torpaqlarındakı firavan həyatlarına son qoydu. Yaşayış məntəqələrinin əvvəlki vəziyyətindən də əsər əlamət qalmadı. Buna baxmayaraq, Qərbi Azərbaycandan olan ailələr isə o şəhərlərə, kəndlərə tezliklə yeni həyatın qayıdacağına inanırlar.

Bu gün Xocalı və 20 Yanvar hadisələrinin şahidlərinin səsləri bütün dünyaya yayılıb, onları hər kəs böyük ürək yanğısıyla dinləmişdir. Təəssüf ki, Qərbi Azərbaycandan deportasiya olan soydaşlarımızın həmin deportasiya zamanı yaşadıqları, onların sonrakı taleyi haqqında məlumat azdır və çox az dinlənilib. 87 yaşlı Yevlaxda yaşayan Allahverən Əliyev deyir ki, "Hərə bir yerə köçmüşdü. Hadisələr elə qarışmışdı ki, asfalt yuxarı - aşağı ermənilər maşınla, musiqi ilə elə bil bizi qovalayırdılar. Hərkəsin arzusu var ki, o doğma yerlərin daşına da, ağacına da yenidən toxunsun. Kaş ölüb orada - çinarımızın dibində qalaydım. Ürəyimizin başı ordadır, o yerlərdə biz körpəliyimizi, cavanlığımızı yaşamışıq. Nə cür unuda bilərik oranı? Orada bizim ocağımız var. Əgər getsəm, mən orda dizin-dizin sürünərəm".

68 yaşlı Göyçə mahalında ziyalı ailədə anadan olan Abbasova Minayə Oruc qızı danışır: "Bizim

kəndimiz dağın ətəyində yerləşmiş bir kənd idi. Kəndimizin 2 yerindən gözəl çay axırdı. 1988-ci illərin əvvəlləri idi. Elə bil ordan – burdan nəsə eşidirdik ki, ermənilər dinc durmur. 1988-ci ilin dekabrın 4-ü idi. Həmin gün xəyalımdan silinməz, heç unutmaram. Göyçədə xeyli qar var idi. Gecə 12 radələrində xalamda bizdəydi, oğlumla yoldaşım yatmışdı, mən əlimdə nəsə toxuyurdum. Həmin gecə oğlum Aşıq Ələsgərin "Sarı köynəyini" oxuyurdu. Oxuyandan sonra deyirdi "Məni yada salmayın". Oğluma niyə elə dediyini soruşanda təzə söz öyrənirəm deyirdi. Həmin gecə gördüm ki, evə nəsə atıldı. Bircə dəfə qışqırdım ki, uşaqları götürün. Uşaq qucağımda hiss elədim ki, nəsə açıldı. Açılanda baxdım ki, artıq uşaq qucağımda deyil. Anam, qızım yaralandı. Üzümdə yaralar, yoldaşımın bədənində qəlpələr qaldı. O günlər getsin gəlməsin. Göyçədə evimizi tərk edəndə kömür sobası yanılı qaldı".

Gül əkdim həşəm oldu
Dərmədim həkər oldu
Elimdən, günümdən ayrı düşdüm
Ağlamaq peşəm oldu.

Həyatda arzum heç olmasa gedəm, kəndimizi uzaqdan görəm. Orda cavan qardaşımın, atamın, oğlumun qəbri qalıb.

Nazirə Dəmirçiyeva danışır ki, "1988-ci ilin dekabrın 16-sı kəndi tərk eləmişəm. Oktybrda vəfat edən anamın məzarını orda qoyub çıxmışıq. Heç anamın məzar daşı belə qoyulmayıb. Bizim kənddə anbar varıydı. Ermənilər anbarın işığını kəsib, ordakı azərbaycanlıları aparmışdı. Vətən həsrəti mənim üçün ağır dərddir. Qarabağ qayıdıbsa, Qərbi Azərbaycanda qayıdacaq".

Qəzənfər Məmmədov danışır: "1938-ci ildə Qərbi Azərbaycanda anadan olmuşam. Anadan olduğum torpaq Göyçədir.

Uca dağlar aralığı kəsibdir
Sənlə görüşmək mana nəsibdir.
Bir şair inciyib səndən küsübdür.
Bəhman deyir, mənim özümsən Göyçə

Atam əsgər gedib gəlməyib, anam tək yekəldib məni. Göyçədə anamı dəfn edib gəlmişəm. Qəbrinin üstündə 8 kümbəz tikmişdik, hamısını qırıb dağıtmışdılar. Orda 1141-ci ildən qalmış bir daş vardı, körpü kimi idi. Hansı uşaq yerimiyəndə altından keçirdirdilər. Biz gedən kimi o daşı götürüb aparıblar. Əvvəllər orda ancaq azərbaycanlılar olub, ermənileri sonradan gətirib, kəndlərə yerləşdirdilər. Kəndimizdə müşavirə idi. Qabaqcadan bizə forma gəlirdi bütün azərbaycanlılar orada olurdu. Sonra o formaları ermənicə göndərməyə başladılar. Bizdə oxuya bilmirdik. Ayağa durub iclasda dedim ki, niyə belə edirsiniz? Mənə dağın arxasını göstərdi. Sizin ta yeriniz o dağın arxasıdır. Get orda öyrən. Bütün vəzifələrdən hamını çıxardırdılar. İdarələrə gedəndə işlərimizi rüşvət almamış düzətmirdilər. İdarələrdə Qarbaçov və Heydər Əliyevin şəkli idi. Bu qaça-qaç başlayanda Heydər Əliyevin şəklini düşürtmüşdülər. hay haray saldım ki, bu dəqiqə teleqram vururam. Tez düzəldirdilər bilirdilər ki, Heydər Əliyev qoymaz, o bizim ümidgahımız idi. Heçnə götürmədən çıxmışıq ordan. Babamgil 16 nəfər olub, tək mənəm ordan sağ qalan. Gör bizim başımıza nə oyunlar açdılar. İndi ürəyim gedir Göyçə üçün. Elə gecə olmaz ki, yuxumda evimizi görmüyəm. Vətəndir, axı orada anadan olmuşam. O yurdlar bizi gözləyir. ayaqyalın gedərəm. Allah bizim şəhidlərimizə rəhmət eləsin. İlham Əliyevə cansağlığı versin. İndiki cavanların köməkliyi ilə özlərini oda vurub torpaqlarımızı aldılar. Bu böyük şərəfdir".

İrəvanda müəllim işləmiş Xasay Həsənov hələ deportasiyadan əvvəl ermənilərin yaratdığı milli ayrı-seçkilik və azərbaycanlılara qarşı təzyiqləri yaxşı xatırlayır: "Xəstəxanaya gedirdin, yaşlı adamlar bizə türküyav deyirdilər - türkdülər deyirdilər. Mən 9-cu sinifdə xəstələnmişdim erməni mənlə eyni palatada qalmağı istəmirdi. Mən bu türklə qalmaram söylədi".

Əslən Göyçə mahalının Basarkeçər rayonunun Qaraqoyunlu kəndindən olan Tapdıq Fərhadoğlu deyir ki, atası, atasının atası, babaları, ən azı ailəsinin 30 nəsil nümayəndələri Qaraqoyunlu kəndində yaşayıblar: "Ermənilər tez-tez kəndimizə hücum edirdi, ona görə kənddə fövqəladə vəziyyət elan edilmişdi. Ermənilər rahatlıqla kəndlərə soxulur, kənd əhalisini təhdid edirdilər. Kəndlilər isə sadəcə ov tüfəngləri ilə özlərini, ailələrini, kəndlərini qorumağa çalışırdılar. Kəndimizdə bir yer var idi, həmin yeri "sümük tökülən" dərəsi adlandırırdılar. Həmin dərədə o qədər adam həlak olmuşdu ki, torpağı bir qarış, təxminən 20 santimetr qazanda insan skeletləri üzə çıxırdı. Buradan kənddə baş verən qırğınların miqyasını təsəvvür etmək mümkündür". Valideynlərim - atam Fərhad Quliyev, anam Kubra Quliyeva bu dünyadan kəndimizin, öz dədə-baba yurdlarının həsrəti ilə köçdü və ölənədək bu nisgil onların geridə qalan bütün həyatına, yaşayışına öz təsirini göstərdi". T.Fərhadoğlu deyib ki, hərdən "Google Map"də öz kəndinə baxır, evlərinin yerini axtarır: "Evimizin

yerini tapsam da, özü yer üzündən bir dəfəlik silinib".

Qərbi Azərbaycandan deportasiya edilmiş, Pəmbək mahalının Hamamlı (indiki Spitak) rayonunun Saral kənd sakini Şəmsiyyə Mustafayeva uşaqlıq və gənclik illərinin həmin kənddə keçdiyini bildirib, yaddaşında qalan epizodlar, sevindirici və kədərli hallardan danışarkən deyir: "Atam həmişə bizə oxumağı öyrədirdi, oxumağa meyilliyi təbliğ edirdi və həmişə sözarası deyirdi ki, siz hələ bu ermənilərin iç üzünü görməmisiniz. Ona görə siz mütləq oxumalısınız və oxuyandan sonra siz onların bizə qarşı olan hislərini duya bilərsiniz. İllər keçdikcə mən böyüdüm, Azərbaycan Dövlət Universitetini bitirdim, orada, öz kəndimizdə kitabxanada müdir işləyirdim və ermənilərlə əlaqəm olurdu. Bu zaman doğrudan da onların həmişə bizi aşağılamağını və ikili yanaşmalarının şahidi olurdum".

Ş.Mustafayeva özünün başına gələn hadisələrdən, ermənilərin azərbaycanlılara qarşı nifrətindən bəhs edib: "Avtobuslarda həmişə bizə qarşı ikrah hissi nümayiş etdirirdilər. Ermənilər əyləşəndən sonra axırda bizə yer verirdilər. Dükanlarda, mağazalarda çətin tapılan malları ermənilər almayanadək bizə heç nə vermirdilər. Türkləri orada 2-ci, 3-cü dərəcəli adam kimi sayırdılar. 1988-ci ildə orada işləyirdim. Hadisələr baş verəndə zəlzələ oldu. Mən kişi paltarı geyinirdim ki, ermənin əlinə keçəndə qadın kimi öldürməsinlər. Mən kişi kimi ölüm".

Bu deyilənlər sadəcə bir neçə ailənin timsalında bütöv bir mahalın ürək sözü, həsrəti, qayıdış arzusu idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Gün gələcək, soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdıb, orada yaşayacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır" [3].

ƏDƏBİYYAT

1. Milli bayram – Respublika günü münasibətilə təntənəli yığıncaqda nitqi, 27.05.1997.
2. Milli bayram – Respublika günü münasibətilə təntənəli yığıncaqda nitqi, 26.05.1996.
3. Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə nitqi, 27.12.2022.
4. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2012, 287 s.

ABSTRACT

Shabnam ALIYEVA

WESTERN AZERBAIJAN IS THE LAND OF ANCIENT AZERBAIJAN

Back in the 19th century, the process of repressing Azerbaijanis in their historical lands was started with the mass transfer of Armenians from the Ottoman and Iranian territories to the South Caucasus by Tsarist Russia. At the beginning of the 20th century, as a result of the purposeful ethnic cleansing and genocide policy against Azerbaijanis, our people faced severe deprivations and tragedies. In 1918-1920, hundreds of thousands of Azerbaijanis were killed, forced to leave their homelands and became refugees, and hundreds of Azerbaijani villages were wiped out. After the fall of the Azerbaijan Democratic Republic in the last century, the Armenians, who used the Sovietization of the Transcaucasia for their own dirty purposes, managed to include Zangezur and a number of other lands of Azerbaijan in the territory of the Armenian SSR with the help of the Soviet authorities in 1920. In 1948-1953, our people were deported again. Our nation has witnessed many hardships and deportations in repeated periods of history. It is clear from our recent past that in 1988-1989 another deportation of Azerbaijanis from their historical-ethnic land - Armenia took place, as a result of which 250 thousand Azerbaijanis became refugees. Unfortunately, the fact of the deportation of Azerbaijanis from the territory of the Armenian SSR in 1948-1953 has not been properly investigated in the past 50 years, and these events have not been given a legal and political assessment. After the Republic of Azerbaijan gained independence, it was possible to create an objective picture of the historical past of our people. The truths that were kept secret and banned for many years are revealed, and the distorted events get their true value. These issues are explained in the article.

Keywords: *Western Azerbaijan, independent Azerbaijan, modern development, historical decisions*

QƏRBİ AZƏRBAYCANDAN OLAN ALİMLƏRİN BOTANİKA ELMİNİN İNKİŞAFINDA ROLU

Afaq ƏLİYEVA
afagaliyeva100@gmail.com
ORCID iD: 0009-0009-8075-9490
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycandan olan və biologiya elmi sahəsində yaradıcılığı yeniliklərlə səciyyələnən iki alimin fəaliyyətindən bəhs edilir. Bu baxımdan, Azərbaycan Respublikasında botanikanın inkişafında mühüm rolları olan professorlar – Elşad Qurbanov və Elman İsgəndərin tədqiqatları və elmə gətirdiyi yeniliklər ön plana çəkilir. Onlar Azərbaycan florasını dərindən və hərtərəfli araşdıraraq əldə etdiyi nəzəri və praktik bilgilər əsasında botanika elmi üçün dəyərli kitablar nəşr etdirmişlər. Bu ədəbiyyatlarda botanikaya dair nəzəri, praktik biliklərlə yanaşı, həmçinin bitki növlərinə aid fotoşəkillər də verilmişdir. Elşad Qurbanov "Ali bitkilərin sistematikası", "Bitki ekologiyası", "Dərman bitkiləri", "Geobotanika", "Bitki morfologiyası", "Azərbaycan Respublikasının Qırmızı Kitabı" və s., Elman İsgəndər "Azərbaycan dendroflorası" (2 cilddə), "Azərbaycanın nadir ağac və kol bitkiləri", "Azərbaycanın nadir oduncaqlı bitkilərinin bioekologiyası, çoxaldılması və mühafizəsi", "Qaziantepin geofit (soğanaqlı) bitkiləri " və s. kimi fotoşəkillərlə zəngin elmi ədəbiyyatlar dərc etdirməklə Azərbaycanda botanikanın inkişafında gərgin əmək sərf etmişlər. Görkəmli professor Elman İsgəndər Azərbaycan florası ilə yanaşı, Türkiyə florasında da (Qaziantep florası) tədqiqatlar aparmışdır. Azərbaycanın biologiya sahəsindəki professorları – Elşad Qurbanov və Elman İsgəndərin elmi yaradıcılığındakı bu nəzəri və praktik biliklər və fotoşəkillər onların araşdırma istiqamətinin əsas göstəricisidir. Alimlərin zəhmətli araşdırmalarının nəticəsi olan ədəbiyyatları həm tədris üçün vacib material, həm də tədqiqatçılar üçün dəyərli elmi mənbədir. Məqalədə sözügedən alimlərin Azərbaycan florası mövzusundakı araşdırmalarının əhəmiyyətli cəhətləri faktlarla əsaslandırılmışdır.

Açar sözlər: *botanika, alim, tədqiqat, flora, bitki*

Giriş

Qərbi Azərbaycan – indiki Ermənistan Respublikasının əhatə etdiyi, tarixən azərbaycanlıların sıx şəkildə yaşadığı coğrafi məkandır (Şurnuxu, Gorus və Qafan kimi bir çox kəndlər həmin əraziyə daxildir) [8]. Tarixi ata-baba yurdumuz olan bu qədim məkandan olan ziyalılar Azərbaycan elminə dəyərli töhfələr vermişlər. Bu mənada, botanika elminın inkişafında professor Elşad Qurbanovun özünəxas rolu olmuşdur. Elşad Qurbanov 1951-ci ildə Zəngəzur mahalının Qarakilsə (Sisyan) rayonunun Urud kəndində anadan olub. O, 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinin botanika ixtisasını bitirib. 1984-cü ildə "Naxçıvançay hövzəsinin florası, bitkiliyi və onun fitomeliorativ əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi, 2004-cü ildə isə "Atropatan əyalətinin flora və bitkiliyi (Azərbaycan Respublikası ərazisində)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək biologiya elmləri doktoru elmi adını almışdır. AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimidir.

Material və metodlar

Görkəmli professorlar Elşad Qurbanov və Elman İsgəndərin elmi fəaliyyətlərindən bəhs edən məlumatlar toplanılmışdır. Həmçinin onların kitab, monoqrafiya, məqalələr və biblioqrafik məlumatlarından istifadə olunmuşdur.

Əldə olunan nəticələr

Professor E.Qurbanovun bioloji tədqiqatları çoxşaxəlidir. O, flora, bitkilik, geobotanika, bitki ekologiyası, aqrobiologiya sahələrini əhatə edir. Alim, əsasən, Azərbaycanın flora biomüxtəlifliyi və bitki örtüyünün öyrənilməsi istiqamətində araşdırmalar aparmışdır. Tədqiqatlarında Azərbaycan ərazisi üçün ilk dəfə olaraq "Psevdomakki" və "Səhra" bitkilik tiplərini, onların fitosenoloji xüsusiyyətlərini və bir çox bitki növlərinin yeni yayılma areallarını müəyyən etməklə Azərbaycan botanika elmini daha da zənginləşdirmişdir. Gərgin əməyi ilə seçilən E.Qurbanov Atropatan florasına aid olan 2595 bitkinin Azərbaycan və latın dillərində adlarını qeyd etmiş, 6 mindən çox herbari nümunəsi toplamışdır. Alim 446 (18 kitab, 438 məqalə) elmi əsər,

60-dan artıq tədris proqramı və metodik göstəriş, 13 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir. O, Azərbaycanın "Qırmızı kitabı"nın (II cildlik) ikinci və üçüncü nəşrinin (2013; 2023) redaksiya heyətinin üzvü olmuşdur. Hazırda Bakı Dövlət Universitetinin professoru olan E.Qurbanov Azərbaycan florasına aid əsərləri ilə botanika elminin zənginləşməsində fəallıq göstərmişdir. Onun "Dərman bitkiləri" adlı əsəri diqqəti çəkən elmi mənbələrdən biridir. Həmin əsərdə aşağıdakı məsələlər işıqlandırılmışdır: 1. Dərman bitkilərinin toplanma, qurudulma, saxlanma qaydaları. 2. Farmokoloji aktiv maddələr. 3. Xəstəliklərin müalicəsində istifadə olunan bitkilər.

Professor E.Qurbanovun "Ali bitkilərin sistematikası" əsəri də qiymətli elmi qaynaq kimi dəyərləndirilməyə layiqdir. Burada bitki sistematikasının tarixi, ali bitkilərin ümumi xarakteristikası, sistematik kateqoriyaları, nomenklaturası, təyini, Mamırkimilər *(Bryophyta)* şöbəsi, Riniofitkimilər və ya Qıjıyabənzərlər *(Rhyniophyta və ya Proteridophyta)* şöbəsi, Psilotumkimilər *(Psylotophyta)* şöbəsi, *Plaunkimilər* (*Lycopodiophyta* və ya *Lycophyta*) *şöbəsi*, Buğumlular və ya Qatırquyruğukimilər *(Sphenophyta* və ya *Equisetophyta)* şöbəsi, Qıjıkimilər *(Pteridophyta* və ya *Polypodophyta*) *şöbəsi,* Çılpaqtoxumlular *(Pinophyta* və ya *Gymnospermae*) *şöbəsi,* Örtülütoxumlu və ya çiçəkli bitkilər *(Angiospermae, Anthophyta və ya Magnoliophyta*) *şöbəsi,* örtülütoxumlu bitkilərin xarakteristikası, mənşəyi, sistematikada qəbul olunmuş müasir baxışlar sistemi, birləpəlilər sinfi, ikiləpəlilər sinfinə aid olan sıralar, fəsilələr haqqında əhatəli məlumatlar və bir sıra növlərin fotoşəkilləri verilmişdir [Qurbanov, 2009, 420 s.].

E.Qurbanov Naxçıvançay hövzəsinin bitki aləmi, bitki ekologiyası, bitki morfologiyası, geobotanika üzrə tədqiqatlar aparmış və toplanılmış məlumatları kitab şəklində nəşr etdirmişdir.

Qərbi Azərbaycandan olan alimlərdən biri də professor Elman İsgəndərdir. O 1955-ci il aprel ayının 5-də Ermənistan SSR Amasiya rayonunun Balıqlı kəndində anadan olmuşdur. 1973-cü ildə Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universiteti) kimya-biologiya fakültəsinə daxil olmuş və 1978-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1989-cu ildə "Qafqaz florasına aid nadir və nəsli kəsilməkdə olan ağac-kol bitkilərinin Abşeronda bioekoloji xüsusiyyətlərinin öyrənilməsi" mövzusunda dissertasiya işini müdafiə etmiş və biologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 2012-ci ildə "Azərbaycanın nadir və nəsli kəsilməkdə olan oduncaqlı bitkilərinin in situ və ex situ şəraitində bioekoloji xüsusiyyətlərinin, reproduksiyasının və repatriasiyasının elmi əsasları" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş və biologiya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Görkəmli alim beynəlxalq təcrübələrin iştirakçısı olmuş və bir sıra beynəlxalq layihələrə imza atmışdır [6].

Azərbaycan florasına aid nadir və nəsli kəsilməkdə olan ağac və kol bitkilərinin bioekoloji xüsusiyyətləri, introduksiyası, morfogenezi, reproduksiya və reintroduksiyası in situ və ex situ şəraitində müqayisəli şəkildə tədqiq etmiş, həmin bitkilərin areallarının kiçilmə səbəblərini aşkar edərək onların təhlükə kateqoriyalarını müəyyənləşdirmis və mühafizə olunmaları üçün təkliflər vermişdir. E.İsgəndər yaşıllaşdırma üçün perspektivli növləri aşkar edərək, istifadəsi üçün təkliflər hazırlamışdır. İlk dəfə Abşeron şəraitində ağac və kol bitkilərinin introduksiyasının perspektivliyinin qiymətləndirilməsi üçün şkala hazırlanmışdır.

E.İsgəndər çox sayda elmi əsərin (7 kitab, 62-si xaricdə, 10-u beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda və s. əsərlər) müəllifidir. Alim Azərbaycan florası ilə yanaşı, həm də Türkiyənin Qaziantep bölgəsinin florasında tədqiqatlar aparmışdır. Elman İsgəndər Qaziantepin bitkiləri, xüsusən geofitlərini də araşdırmışdır [İsgəndər, 2010, 178 s.]. Alimin tədqiqatları botanikanın dendrologiya bölməsini də əhatə edir. O, Azərbaycanın dendroflorasını tədqiq edərək, əldə etdiyi məlumatlar əsasında iki cildlik kitab hazırlamışdır. Həmçinin Azərbaycanın nadir oduncaqlı bitkiləri, onların bioekologiyası, çoxaldılması və mühafizəsi istiqamətində araşdırmalar aparmış və kitab nəşr etdirmişdir.

Müzakirə

Qərbi Azərbaycandan olan Elşad Qurbanov və Elman İsgəndər kimi görkəmli alimlərin elmi yaradıcılığı Azərbaycan elminə xeyli dərəcədə fayda vermişdir. Hazırda onların elmi araşdırmaları əhəmiyyətini qoruyub saxlayır bu sahədə çalışanlar - təhsil alan tələbələr, doktorantlar, müəllimlər üçün gərəkli məlumat mənbəyidir.

ƏDƏBİYYAT

1. İsgəndər, E. Azərbaycanın nadir ağac və kol bitkiləri, Bakı: Elm, 2014 373 s.
2. İsgəndər, E. Azərbaycanın nadir oduncaqlı bitkilərinin bioekologiyası, çoxaldılması və mühafizəsi, Bakı: Elm, 2014, 256 s.
3. İsgəndər, E. Gaziantepin Geofit (Soğanaqlı) bitkiləri, Gaziantep, Şehitkamil Bələdiyyəsi, Kültür yayınları, 2010, 178 s.

4. Qurbanov, E.M., Ali bitkilərin sistematikası, Bakı: "Bakı universiteti" 2009, 420 s.
5. Qurbanov, E.M. Dərman bitkiləri. Bakı: "Bakı universiteti", 2009, 356 s.
6. https://bakubotanicalgarden.az/page/18
7. https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/1288
8. https://az.wikipedia.org/wiki/Q%C9%99rbi_Az%C9%99rbaycan

ABSTRACT

Afag ALİYEVA

THE ROLE OF SCIENTISTS FROM WEST AZERBAIJAN IN THE DEVELOPMENT OF BOTANICAL SCIENCE

The article talks about the activities of two scientists from Western Azerbaijan whose creativity in the field of biological science is characterized by innovations. In this regard, the researches and innovations brought to science by professors Elshad Gurbanov and Elman Iskandar, who played important roles in the development of botany in the Republic of Azerbaijan, are brought to the fore. They have published valuable books for botanical science based on the theoretical and practical knowledge obtained by deeply and comprehensively researching the flora of Azerbaijan. In addition to theoretical and practical knowledge of botany, photographs of plant species are also provided in these literatures. Elshad Gurbanov "Systematics of Higher Plants", "Plant Ecology", "Medicinal Plants", "Geobotany", "Plant Morphology", "Red Book of the Republic of Azerbaijan", etc., Elman Iskander "Dendroflora of Azerbaijan" (in 2 volumes), "Azerbaijan's rare tree and shrub plants", "Bioecology, propagation and protection of rare woody plants of Azerbaijan", "Geophyte (bulb) plants of Gaziantep" etc. by publishing scientific literature rich in photographs such as Prominent professor Elman Iskander conducted research on the flora of Azerbaijan as well as the flora of Turkey (the flora of Gaziantep). These theoretical and practical knowledge and photos of the scientific creativity of Azerbaijan's professors in the field of biology - Elshad Gurbanov and Elman Iskander - are the main indicator of their research direction. The literature, which is the result of painstaking research of scientists, is both an important material for teaching and a valuable scientific resource for researchers. In the article, the important aspects of the research of the mentioned scientists on the flora of Azerbaijan are substantiated by facts.

Keywords: *botany, scientist, research, flora, plant*

QƏRBİ AZƏRBAYCANIN TÜRK MƏNŞƏLİ TOPONİMİKASINDA ÇƏMBƏRƏK VƏ ƏMİRXEYİRİN YERİ

Vəfa İSGƏNDƏROVA
vafa1.aslan@gmail.com
ORCID iD: 0000-0002-4167-7531
Bakı Dövlət Universiteti

XÜLASƏ

Toponimika interdisiplinar bir sahə kimi özündə tarix, coğrafiya, dilçilik, etnoqrafiya kimi müxtəlif sahələri birləşdirir və hər bir xalqın tarixi keçmişini, mədəniyyətini öyrənmək üçün əvəzsiz rol oynayır. Araşdırmalara görə, Azərbaycanda 25-30 milyondan çox toponim vardır. Onlardan bir çoxu məhz Qərbi Azərbaycanın ərazisinə düşür. Qərbi Azərbaycanın türk mənşəli toponimləri həmin torpaqların Azərbaycanın tərkib hissəsi olmasının, həmin ərazilərdə türklərin yaşamasının bariz göstəricisidir. Təqdim edilən məqalədə Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin ikisindən, Çəmbərək rayonundan və ona daxil olan Əmirxeyir kəndindən və onların etimologiyalarından söhbət açılır.

Açar sözlər: *toponimika, oykonimika, fauna, türk-oğuz yurdu, orooykonimika*

Giriş

Toponimika bir sıra elmlərin, coğrafiyanın, tarixin və dilçiliyin qovuşmasında yaranan müstəqil bir elm sahəsidir. Əhalinin bu və ya digər ərazilərdə məskunlaşması haqqında təsəvvür yaradır və landşaftın müxtəlif komponentləri ilə bağlı lakonik məlumat verir.

Azərbaycan ərazisindəki toponimlərin tədqiqindən məlum olur ki, bəzi coğrafi adlar xalq, etnik qrup, qəbilə, tayfa, nəsil adlarını, bir qismi baş vermiş hansısa tarixi hadisələri əks etdirməsinə görə, bəziləri kənd, şəhər, qala, mədəniyyət mərkəzlərinin, bir hissəsi dərə, təpə, dağ, çay, göl adını daşımasına, bir qrupu görkəmli dövlət xadimlərinin, alimlərin, yazıçıların, şairlərin, xalq qəhrəmanlarının xatirəsini əbədiləşdirmək məqsədilə yaranmışdır [N.G.Məmmədov: 2007, 5].

Təxmini aparılmış toponimik hesablamalara görə, Azərbaycandakı toponimlərin sayı makro, mezo va mikro coğrafi adlar olmaqla, 25-30 milyondur [N.G.Məmmədov: 2007, 4].

Dünya toponimikasının ən nadir, eyni zamanda ən spesifik səhifələrindən biri Ermənistandakı Azərbaycan toponimləri və onların taleyi ilə bağlıdır. Ermənistanda Azərbaycan toponimlərinə qarşı siyasi kampaniya ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilmiş və hazırda Ermənistanda Azərbaycan toponimlərinin kökü kəsilmişdir. Azərbaycanın tarixi İrəvan bölgəsində 1918-ci ildə Ermənistan dövləti yaradıldıqda buradakı toponimlərin böyük əksəriyyəti Azərbaycan mənşəli olub. 1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra, Sovet Rusiyasının dəstəyilə onun ərazisi Azərbaycan torpaqları hesabına genişləndirilmiş, nəticədə orada Azərbaycan mənşəli toponimlərin sayı yenidən artmışdır. Ermənistanda həyata keçirilən ermənləşdirmə siyasəti daxilində Azərbaycan mənşəli yer adlarının dəyişdirilməsi məqsədyönlü dövlət siyasətinə çevrilmişdir.

Ədəbiyyat xülasəsi

Toponimika sahəsini dünyada və ölkəmizdə araşdıran mütəxəssislərin sayı çoxdur. Müasir Ermənistan ərazisindəki Azərbaycan toponimləri barədə qədim Roma-yunan, sasani, ərəb və digər mənbələrdə məlumatlar vardır. Müəyyən dərəcədə bütün yaşayış məskənlərini qeydə alan daha mükəmməl mənbələrə isə əsasən XVI əsrin sonlarından təsadüf edilir. İndiki Ermənistan ərazisindəki türk mənşəli toponimlərin izahına Avropa tədqiqatçıları da diqqət yetirmişlər.

Təxminən yüz il sonra İrəvan ərazisindəki toponimik vəziyyəti sənədləşdirən yeni bir mənbə də olmuşdur. Bu İ.Şopenin 1829-cu il aprel-1832-ci ilin mayında tərtib etdiyi İrəvan əyalətinin kameral təsviridir. Burada əsasən Rusiya işğalından sonra Azərbaycanın tarixi İrəvan xanlığının idarə sistemi haqqında məsələlər yer tapmışıdır [İ.Şopen: 1852, 386]. Ümumən, indiki Ermənistan ərazisindəki toponimlərin tədqiqi sistemli şəkildə XIX əsrdən başlayır. Ərazinin türk mənşəli toponimlərinin ilk izahına İ.Şopenin yuxarıda göstərilən əsərində rast gəlirik. Bu əsərdə əksini tapan indiki Ermənistanın ərazisindəki toponimlərin, demək olar ki, hamısı türk mənşəlidir. O, bu toponimlərin semantikası ilə bağlı etimoloji təhlil aparmamış, həmin toponimləri

rus dilinə tərcümə edərək izah etmişdir. İ.Şopen Qərbi Azərbaycanın toponimlərinin izahında xalq etimologiyasına, təsviri izahlara üstünlük vermiş, elmi faktlara istinad etməmişdir. Bu baxımdan ərazidəki Qanlı Allahverdi, Gümüşlü, Kömürlü dağ, Qarasu, Axuryan çayı, Erivan//Эриван, Oxçaberd, Baş Abaran, Bicni və s. toponimləri düzgün izah etməmişdir [Bayramov: 2002, 7].

P.Woodman tomonimika və kimlik arasında daxili əlaqə haqqında araşdırma aparmışdır (16). D Light, I Nicolae, B Suditu və GeoJournal toponimikanın vacibliyindən yazmışdır. Tjeerd Tichelaar toponimika və dil haqqında araşdırma aparmışdır [17]. Rusiya toponimistlərindən isə akademik N.İ.Nadejdin, professor V.A.Hiçkevich, E.M.Murzayev, professor N.A.Nikonov, professor B.A.Serebrennikov, professor O.F.Molganova, professor A.K.Matveyev, V.A.Lutchkeviç məşhur olmuşlar.

Bəzi mütəxəssislər qeyd edirlər ki, H.M.Mamayevin hazırladığı vəsaitlər Azərbaycanda yer adlarının tədqiqinə dair ilk nümunələrdəndir. O, yaşayış məntəqələrinin adlandırılması, toponimlərin dəqiqləşdirilməsi, yer adlarının dəyişdirilməsinin hüquqi əsasları, adların transkripsiyası və sairə məsələlərə toxunmuşdur.

XX əsrin 50-ci illərinin ortalarından başlayaraq, Azərbaycanın tarixçi-alimlərindən Z.M.Bünyadov, S.B.Aşurbəyli, K.H.Əliyev, Y.B.Yusifov, S.K.Kərimov, S.Əliyarlı və başqaları öz araşdırmalarında Azərbaycanın çoxsaylı toponimlərinin mənşəyi vəinkişafı barədə dəyərli fikirlər irəli sürmüşlər.

Sözügedən sahəni ümumən araşdıran yerli mütəxəssislərdən akademik Budaq Budaqov, M.H.Baharlı, Məmmədov H, AMEA-nın müxbir üzvü professor Afad Qurbanov professor Səyyarə Mollazadə, Lalə Quliyeva, professor Tofiq Əhmədov, professor Məsud Məmmədov, Qiyasəddin Qeybullayev, Sitara Mirmahmudovanın adlarını xüsusi vurğulamaq gərəkdir. Y.Cəfərli "Azərbaycan dilinin onomastikası müstəqillik dövründə" monoqrafiyasında bəzi coğrafi adların, toponimlərin izahını vermişdir. İbrahim Bayramov, Əziz Ələkbərli, Könül Səmədova isə əsasən Qərbi Azərbaycanın türk mənşəli toponimlərini araşdırmışlar.

Son illərdə Ermənistan ərazisindəki türk mənşəli tam onomastikonun bərpası və yaradılması istiqamətində prof. Həsən Mirzəyevin tədqiqatları qiymətlidir. Bu tədqiqatlarda kənd və daha kiçik yaşayış məntəqələri daxilindəki onimlər qruplaşdırılır, onların böyük hissəsi qeydə alınır.

Toponimika və onun spesifik sahələri

Toponimlər 1) şəxs adları; 2) tayfa, nəsil adları; 3) coğrafi obyektin relyefi; 4) su obyektlərinin adı; 5) ərazinin flora və faunası; 6) ərazidə yaşayan heyvan adları; 7) yaşayış məntəqəsinin əlaməti və təbii şəraiti əsasında yaranır.

Oykonimlər toponimlərin əsas növlərindən biri olmaqla, xüsusi lay təşkil edir, həm də geniş və əhatəliliyi ilə diqqəti daha çox çəkir. Onların növlərindən biri də etnonimlər əsasında yaranan etnooykonimlərdir. Yəni hər bir etnos (tayfa, qəbilə, xalq) hansı əraziyə qədəm qoyursa, orada yaşayırsa, həmin yerə öz adını verir. Digər növü isə orooykonimlərdir. Oros (dağ), onim (ad) sözlərindən əmələ gəlib.

A.Juçkeviç isə bu fikirdədir ki, toponimlər morfoloji cəhətdən sadə, düzəltmə və mürəkkəb adlara bölünməlidir [Cəfərli: 2014, 86-88]. Quruluşca düzəltmə olan toponimlər sadəyə nisbətən çoxluq təşkil edir. İstər düzəltmə etnotoponimlərin, istərsə də etnotoponim olmayan düzəltmə toponimlərin düzəlməsində oxşar ünsürlər iştirak edir [Səmədova: 2008, 103].

Əmirxeyir və Çəmbərək toponimləri

Azərbaycan toponimlər sistemində xüsusi yer tutan Qərbi Azərbaycanın türk mənşəli toponimləri uzun tarixi inkişaf yolu keçmişdir. Bu toponimlərin formalaşması tarixən bu ərazidə yaşayan şəxslərin, türk tayfalarının adını, coğrafi obyektini, flora və faunasını özündə əks etdirir.

Qərbi Azərbaycanın yer adlarından biri olan Əmirxeyir də məhz orooykonim kimi səciyyələndirilir. XVIII əsrin 30-cu illərinə kimi Gəncə xanlığına, XX əsrin 20-ci illərinə kimi Gəncə quberniyasının Qaza qəzasına, hazırda isə Çəmbərək (Krasnoselo) rayonuna daxildir. Kənd 1831-1919-cu illərdə Gəncə quberniyasının Qaza qəzasının Gölkənd kəndinin inzibati ərazisinə daxil idi. 31 dekabr 1937-ci ilə kimi Dilican rayonunun tərkibində olmuşdur. Kəndin adı 1991-ci ildə Ermənistan prezidentinin fərmanı ilə dəyişdirilib Kalavan qoyulmuşdur. Kənddə 1897-ci ildə 161 nəfər, 70-ci illərdə 720 nəfər, 1987-ci ildə 500 nəfər azərbaycanlı yaşamışdır. 1919-cu ilin martında kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuş, sovet hökuməti qurulandan sonra isə geri qayıtmışdır [Bayramov: 2002, 146].

B.Budaqov və Q.Qeybullayev Əmirxeyir kəndini Göyçə mahalına aid edərək yazmışlar ki, bu kəndlə XIX əsrin II yarısında Qafqazın 5 verstlik xəritəsində qeyd edilən Amirxeyir kənd adı ilə eynidir, sadəcə rus dilində olan yazılış formasıdır. Qeyd etdiyimiz kimi, Əmirxeyir toponimi Əmir şəxs adı ilə türk dilində "dimdik qaya", "yalçın qaya" mənasında işlənən kayır, kair, xayr sözünün əsasında formalaşmışdır. Kair

sözünə Buxaranın ətrafında yerləşən Besikair toponimində rast gəlmək olur. Toponimin ikinci komponenti olan xeyir kayır, kair, xayr sözünün fonetik variantıdır. Kəndin adı ilə yerləşdiyi relyef bir-birini tamamlayır (Budaqov: 2005, 187). XIX əsrin ikinci yarısında Qaza qəzasında da Əmirxeyir adlı kənd olmuşdur. Toponim-lərdəki *"bəy","xan" ("əmir")* sözləri həmin ərazilər və konkret şəxslər, idarəçilər arasında tarixi sahiblik və mənsubluq münasibətlərini ifadə edir.

Əməkdar elm xadimi Budaq Budaqovun yazdığına görə, Çəmbərək Gəncə quberniyasının Qazax qəzasında kənd adıdır. 1937-ci ildə XI Qızıl Ordunun şərəfinə Krasnoselo adlandırılmışdır. Azərbaycan dilində çəmbərək "dağ döşündə böyük hamar yer" deməkdir. Eyni zamanda B.Budaqov eyni adda Vedibasar mahalında kənd adının olduğunu da təqdim edərək söyləmişdir ki, Kiçik Qafqaz sıra dağlarında Çəmbərək aşırımı olmuşdur və keçmişdə ora maldar ellərin yaylaq yeri olmuşdur [Budaqov; Qeybullayev: 1998, 421]. Budaq Budaqovun tədqiqatlarında Əmirxeyir Göyçə mahalında kənd kimi göstərilmişdir. Etimologiyası "əmir" – şəxs adı və kair türk dillərində vadinin suvarılan hissəsi sözlərindən ibarətdir. Əmirxeyir Gəncə quberniyasının Qazax qəzasının Çəmbərək rayonunda kənd adıdır. Rayon mərkəzindən 20 km. Şimal-Qərbdə dağlıq, meşəlik ərazidə yerləşir. Erməni mənbələrində də kəndin adı Əmirxer, Əmirxeyir, Əmirxir formalarında işlənir. Erməni mənbələrində Yuxarı Çambarək formasında qeyd edilir [Budaqov; Qeybullayev: 1998, 253]. Azərbaycan toponimlərinin ensiklopedik lüğətində də Çəmbərək sözünün etimologiyasına yer verilmişdir. Bir sözlə, etnotoponimin fərqləndirici əlamət bildirən yuxarı sözündən Azərbaycan dilində şam ağacının adını bildirən çam sözü ilə baraq türk etnonimindən əmələ gəlmişdir.

Əziz Ələkbərli Ermənistanda türk mənşəli toponimlərin müxtəlif prinsiplər əsasında dəyişdirilməsini faktlar əsasında şərh etməyə çalışmışdır. Onun fikrincə, Ə.Ələkbərlinin təklif etdiyi prinsipləri belə qruplaşdırmaq mümkündür: 1) siyasi motivləşdirmə yolu ilə toponimin dəyişdirilməsi; 2) yeni tarixə və mədəniyyətə istinadla toponimin dəyiş- dirilməsi; 3) tərcümə yolu ilə dəyişdirmə; 4) fonetik uyğunlaşdırma yolu ilə dəyişdirmə; 5) qədim adın izini itirmək məqsədilə dəyişdirmə [Ələkbərli: 2020, 15]. Ümumiyyətlə, araşdırıcının "Qədim türk-oğuz yurdu – Ermənistan" əsərində yazdığına görə, türk mənşəli toponimlərin dəyişdirilməsinin səkkiz prinsip vardır [Ələkbərli: 1994, 16].

Azərbaycanlılar ta qədimdən XX əsrin 80-cı illərinin sonu, 90-cı illərin əvvəllərinə qədər indiki Ermənistan ərazisində yaşamışlar. Bu torpaq Azərbaycan türklərinin ata-baba yurdlarıdır. Onlar zaman-zaman erməni təcavüzünə məruz qalaraq deportasiyaya olunmuşlar. Təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953, 1988-1991) azərbaycanlılar indiki Ermənistan ərazisindən – tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş, soyqırımına məruz qalmışlar. Kərim Şükürovun fikrincə, müasir Ermənistanda mövcud olmuş Azərbaycan toponimləri ilə Azərbaycan ərazisindəki toponimlər vahid sistem təşkil edir [19].

Nəticə

Dünya toponimikasının ən nadir, eyni zamanda ən spesifik səhifələrindən biri Ermənistandakı Azərbaycan toponimləri və onların taleyi ilə bağlıdır. Həm adları çəkilən, eyni zamanda digər türkmənşəli toponimlərdən də görünür ki, indiki Ermənistan Respublikasının ərazisi qədim Oğuz yurdunun tarixi torpaqları olmuşdur. Bu torpaqlar Azərbaycandan mərhələ-mərhələ qoparılaraq qondarma erməni respublikası yaradılmış və bu gün xalqımız üçün yad, əlçatmaz, ün yetməz bir yerə çevrilmişdir. Həmin vaxtdan da ermənilər təkzibedilməz yer adlarımızı dəyişdirərək erməni mənşəli adlarla əvəz etmiş, Azərbaycan türklərinin bu ərazidəki izlərini tarixdən silməyə çalışmışlar.

ƏDƏBİYYAT

1. Abbasova, M.Ə., Bəndəliyev, N.S., Məmmədov, X.H. Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası. Bakı: Elm, 1993, 196 s.
2. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı: Elm, 2002, 346 s.
3. Budaqov, B. Türk uluslarının yer yaddaşı. – Bakı: Elm, 1994, 272 s.
4. Budaqov, B., Qeybullayev, Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.
5. Budaqov, B. Qərbi Azərbaycan toponimlər sistemi. Bakı: 2005, 436 s.
6. Cəfərli, Y. Azərbaycan dilinin onomastikası müstəqillik dövründə. Bakı: Elm və təhsil. 2014, 386 s.
7. Ələkbərli, Ə. Qədim türk-oğuz yurdu- Ermənistan. Bakı: Sabah, 1994, 208 s.
8. Ələkbərli, Ə. Qərbi Azərbaycanda soyqırıma məruz qalmış toponimlərimiz, Bakı: Elm və təhsil, 2020
9. Qeybullaev Q. Toponomiya Azerbaydjana (istoriko-etnoqrafiçeskoye issledovaniye), Baku: Elm, 1986

10. Mirzəyev, H.İ. Aşıq poeziyasında işlənən etnonimlərə dair//Azərbaycan onomastikası problemləri. – Bakı: ADPU nəşri, 198, Bakı: Nurlan, 2008
11. Məmmədov, N.G. Toponimika, Bakı Universiteti Nəşriyyatı, 2007, 408 s.
12. Səmədova, K. Qərbi Azərbaycan etnotoponimlərinin arealları, Bakı: Nurlan, 2008, 152 s.
13. Mirmaxmudova, S. Azerbaydjanskiye oykonimı v Armenii i politika ix armenizaçii, İzdatelskiy dom TEAS Pres, Baku: 2015
14. Şopen, İ. İstoriçeskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epoxu yeya prisoyedineniya k Rossiyskoy imperii, İmperatorskaya Akademiya Nauk, Sankt-Peterburq: 1852
15. Şyukurov, K., Azerbaydjan v sisteme mejdunarodnıx otnoşeniy. Dokumentı i materialı 1648- 1991, Baku: Elm, 2020
16. https://scholar.archive.org/work/4hh224qrorcaxo3bcqycxfgdp4/access/wayback/https:/geografie.uvt.ro/wp-content/uploads/2015/06/06_ARTICOL_WOODMAN.pdf
17. https://mdgs.un.org/UNSD/geoinfo/UNGEGN/docs/Training/2002-Netherlands/03_TICHELAAR_Toponymy%20and%20language.pdf
18. https://journals.openedition.org/echogeo/20760
19. https://dergipark.org.tr/en/download/article-file/1977580

ABSTRACT

Vafa ISKANDAROVA

THE LOCATION OF CHAMBARAK AND AMIRKHEIR IN THE TURKIC- ORIGIN TOPONYMIC OF WESTERN AZERBAIJAN

As an interdisciplinary field, toponymy combines various fields such as history, geography, linguistics, ethnography, and plays an indispensable role in studying the history and culture of each nation. According to research, there are more than 25-30 million toponyms in Azerbaijan. Many of them fall on the territory of Western Azerbaijan. Toponyms of Turkish origin in Western Azerbaijan are a clear indication that those lands are part of Azerbaijan and that Turks live in those areas. The presented article talks about two toponyms of Turkic origin of Western Azerbaijan, Chambarak and Amirkheir, which is part of it, and their etymologies.

Keywords: *toponymy, oykonymy, fauna, Turkic-Oghuz land, oroyykonymy*

QƏRBİ AZƏRBAYCAN SOYDAŞLARIMIZDA HƏRBİ VƏTƏNPƏRVƏRLİK RUHU

Pərviz ALLAHVERDİYEV
pervizallahverdiyev06@gmail.com
ORCID iD: 0009-0000-1962-8824
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Azərbaycanın bütün diyarları kimi, Qərbi Azərbaycan torpaqları da vətənpərvər oğullar yetişdirmişdir. Baxmayaraq ki, bütöv Azərbaycandan ayrı düşmüş, öz ağrı-acısı ilə hər zaman bizləri səsləyən əzəli torpaqlarımız hal-hazırda düşmən taptağında olsa da, Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi, uzaq siyasəti ordumuzun və xalqımızın birliyi nəticəsində Göyçə mahalını da, Zəngəzur mahalını da azad edəcəyik. Ulu Öndər Heydər Əliyevin Azərbaycandakı hakimiyyət illərində isə yüksək mövqe tutan ordumuz Qarabağ torpaqlarını azad edib böyük qayıdış etdiyi kimi, Qərbi Azərbaycan torpaqlarını da düşməndən azad edib böyük qayıdış edəcəyik. Buna bizim yetişən gənc vətənpərvərlərin, ürəyi, qəlbi hər zaman vətən eşqi ilə döyünən, bir yumruq kimi birləşən xalqımızın möhkəm iradəsi sayəsində nail olacağıq.

Açar sözlər: *Qərbi Azərbaycan, Göyçə mahalı, Zəngəzur mahalı, İrəvan xanlığı, vətənpərvərlik*

Qərbi Azərbaycan əzəli Azərbaycan torpaqlarıdır.

Azərbaycan xalqının tarixi yaddaşında və milli mənəvi şüurunda tarixi yurd-yuvamız olan Qərbi Azərbaycan torpaqlarının xatirəsi hər zaman yaşayır. Bu torpaqlarda yaşayan azərbaycanlılar hər zaman öz vətəninə, elinə və obasına bağlı olublar. İndi Ermənistanın əlində olan Göyçə mahalı, Zəngəzur mahalı, İrəvan xanlığı da Azərbaycan torpaqları olubdur. Biz yaxşı bilirik ki, vaxtı ilə çar Rusiyası tərəfindən bizim torpaqlarda ölüm-dirim savaşı çıxaran, üsyanlar və soyqırımlar törədərək Qərbi azərbaycanlıları öz dədə-baba torpaqlarından didərgin salan erməni daşnakları bu gün də öz çirkin niyyətlərindən əl çəkmirlər. Bu gün Ermənistan Respublikasının yerləşdiyi ərazi 180 il bundan əvvəl Azərbaycan torpaqlarında yaranıb. Üstündən on illiklər, əsrlər keçməsinə baxmayaraq, qəlbi hər zaman öz ana vətəni ilə döyünən Qərbi azərbaycanlı soydaşlarımız daima nə vaxtsa ata-baba yurdlarına böyük qayıdış edəcəklərinə ümid bəsləyirlər. Ali Baş Komandanımızın xarici və daxili siyasəti sayəsində biz vətənpərvər Qərbi azərbaycanlılar ilə birlikdə mənfur düşmənin söküb apardığı, dağıdıb yıxdığı Zəngəzuru, Göyçə mahalını Laçın kimi, Şuşa kimi dirçəldəcəyik.

Bu torpaqlarda yetişən vətənpərvər vətəndaşlar torpaqlarından didərgin düşməməsi üçün nə qədər çaba göstərsələr də, xarici havadarlarının hesabına üstün gələn mənfur düşmən erməni daşnaklarının öhdəsindən gələ bilmədilər. Əsrlər boyu ətək-ətək çörəyimizi yeyən, ocağımızın başında qızışan erməni terrorçuları zaman-zaman özlərinə yer edərək bizə qənim kəsildilər.

"Azərbaycanın maddi mədəniyyət nümunələrinin bir hissəsi bu gün Qərbi Azərbaycan adlandırdığımız indiki Ermənistan ərazisindədir. Lakin təəssüf ki, bu abidələr tədqiqatçılarımız tərəfindən vaxtında öyrənilməmiş və bundan istifadə edən həmin əraziyə gəlmə ermənilər o abidələrin bir hissəsini məhv etmiş, bir hissəsini isə ermənileşdirməyə çalışmışlar. Lakin daşlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək yadellilərə heç də həmişə nəsib olmamışdır. Dünya bilməlidir ki, "qədim erməni mədəniyyəti" deyilən bir anlayış kökündən uydurmadır və Qərbi Azərbaycan ərazisindən tapılıb dünya ictimaiyyətinə sırınan bütün yeraltı və yerüstü maddi mədəniyyət nümunələri əslində Azərbaycan xalqına məxsusdur" [6, s.124].

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişi ilə Azərbaycanda vətənpərvərlik və hərbi vətənpərvərlik hisslərinin yüksəldilməsi üçün layiqli addımlar atmışdır. Heydər Əliyev hələ o zamanlar SSRİ-nin dağılacağını qabaqcadan görürdü və buna görə də bu böyük dövlətin tükənməz sərvətindən istifadə edərək öz Vətənini - doğma Azərbaycanı daha da inkişaf etdirməyə çalışırdı. Bunun üçün hər şeydən öncə, güclü və müasir kadr ordusu yaratmaq lazım idi. Vətənin zabit kadr sarıdan geriliklərini hamıdan yaxşı görən Heydər Əliyev bu sahəyə xüsusi diqqət yetirir, gənc mütəxəssislər hazırlanması işini öz şəxsi nəzarəti altında saxlayırdı. Hər il SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə, özü də nadir ixtisaslara, bir ali məktəbin qəbulu qədər tələbə göndərməyə, bununla da XXI əsrin Azərbaycanı üçün güclü zabit kadr potensialı yaratdı. Hələ o zaman Azərbaycana başçılıq edən Heydər Əliyev hərbi təhsilə xususi diqqət yetirirdi. N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində orta təhsil müəssisələri üçün hərbi rəhbərlər hazırlayan "İbtidai hərbi və fiziki təlim müəllimi" ixtisası üzrə xüsusi fakültə və hərbi kafedra, C.Naxçıvanski

adına hərbi təmayüllü məktəbin açılmasına nail oldu. SSRİ-nin ali hərbi məktəblərinə yüzlərlə azərbaycanlı göndərtdirdi, təyyarəçilər hazırlanmasını diqqət mərkəzində saxlayırdı, hətta kosmonavtlar dəstəsinə azərbaycanlıların daxil edilməsinə çalışırdı. Bakı Ali Birləşmiş Ümumqoşun Komandirləri məktəbinə hər il qəbul olunan kursantlardan azərbaycanlıların nə qədər olduğu ilə xüsusilə maraqlanır, azərbaycanlı gənclərin bu hərbi məktəbə qəbulunun miqdarının artması üçün daim iş aparırdı [2, s.252-253].

Ulu Öndər Heydər Əliyev zabit kadr ehtiyatlarının yaradılması ilə Birinci Qarabağ müharibəsi illərində, Zəngəzur mahalında və digər Qərbi Azərbaycan torpaqlarında gedən qanlı döyüşlər zamanı öz sinəsini qabağa verərək vətənpərvərlik göstərmiş, son damla qanına qədər vuruşaraq şəhidliyə ucalmış vətənpərvər vətəndaşların sayı da az deyildi. Azərbaycan yağı düşmənlərini bütün yuxarıda göstərilənlərdən daha çox narahat edən budur ki, belə ağır problemləri olan Azərbaycan xalqının başında qüdrətli bir siyasətçi, düşmənlərinin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onları aramsız olaraq dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə on illəri, yüz illəri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovucunun içi kimi görən Heydər Əliyev durur.

Müxtəlif tarixi dövrlərdə Azərbaycan müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi.

Azərbaycanda hakimiyyətə ikinci dəfə qayıdan Ulu Öndər Heydər Əliyevin qarşısına qoyduğu yeganə məqsəd Qarabağ torpaqlarını, Qərbi Azərbaycan torpaqlarını işğaldan azad etməkdən ibarət idi. Bu siyasəti həyata keçirməyə ömür çatmasa da, Ulu Öndərin təşəbbüsü, diqqət və qayğısı sayəsində ele bir güclü ordu formalaşdırıldı ki, biz bu gün Qarabağ torpaqlarının azad olunması ilə bərabər, Qərbi Azərbaycan torpaqlarımıza - Zəngəzur mahalına, İrəvan xanlığına, Göyçə mahalına və s. yerlərə böyük qayıdış edərək dədə-baba torpaqlarımızda yaşayıb yenidən yaradacayıq. Qərbi Azərbaycan torpaqlarına qayıdışın əsasında Azərbaycan vətənpərvərliyi durur. Əsası Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuq işləri sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev tərəfindən inkişaf etdirilərək yüksək nöqtəyə çatdırılması həyata keçirilmişdir.

Qəlbləri daim Qərbi Azərbaycan ilə döyünən bu diyarın, bu elin sənət adamları, qəhrəmanları öz yazı, əsər, mahnı, çıxış və nitqlərində bir gün böyük köç şəklində Qərbi Azərbaycan elinə qayıtmaları onların nə qədər vətənpərvər, nə qədər öz yurd yuvasından yana darıxdıqlarını göstərmiş olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycandakı hakimiyyəti illərinə diqqət etdikdə görərik ki, hansı sahədə olursa-olsun, orada görülən işlərin əsas hissəsini xalqın, dövlətin, insanlığın, vətənin naminə həyata keçirildiyinin şahidi olmuş olarıq.

Ulu Öndərin həyata keçirdiyi ordu siyasətinin əsasını hərbi vətənpərvərlik tərbiyəsi təşkil edirdi. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Milli ordu sıralarında fərariliyin aradan qaldırılması;
- Orta ümumtəhsil müəssisələrində ibtidai hərbi hazırlıq dərslərinin layiqincə tədrisinə geniş imkan yaradılması;
- Hərbi hissələr ilə məktəbin birgə işinin təşkili;
- Hərbi komissarlıqlar ilə məktəbin işinin təşkili;
- Bir çox hərbi məktəblərin açılması.

Bu işlərin həyata keçirilməsi ilə bu gün Azərbaycan məktəblisi və əsgəri böyük vətənpərvərlik hissləri altında düşmənə layiqli cavabı vermişdir və verəcəkdir.

Mənfur düşmən Azərbaycan torpaqlarında zamanında törətdiyi soyqırımlar, üsyanlar nəticəsində bizim gənc nəsil bərkidi və bərkidiyi kimi də bir gün döyüş meydanında qisas alacağıq deyə səbr etdi. Mənfur düşmən unudur sanki, Azərbaycan 90-cı illərdəki 20 Yanvar faciəsi, Xocalı soyqırımı zamanı başsız qalan bir orduya malikdir. Xeyr, Azərbaycan artıq XXI əsrin ən öndə gedən qabaqcıl dövlətlərindəndir.

Yüz ildən çox yaşı olan və tarixi sərkərdələrin simalarını özündə əks etdirən Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri müstəqil Azərbaycan Dövlətinin qurucusu, memarı, müasir Silahlı Qüvvələrimizin banisi kimi tanıdığımız ulu sərkərdə Heydər Əliyev tərəfindən qoyularaq dünyanın əlli inkişaf etmiş ölkələri içərisində və Qafqazın ən böyük, ən güclü ordusuna çevrilmişdir. Hər zaman öz çıxış və nitqlərində Azərbaycan Ordusu haqqında, Silahlı Qüvvələrin əzmkarlığı haqqında müsbət fikirlər söyləməklə yeni və gənc nəslə öz tövsiyələrini çatdırmış olur. Azərbaycanda əsası Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qoyulmuş bir neçə ali hərbi məktəb və bu məktəblərin yetişdirdikləri zabitlər ordumuzun əsas dayağını təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu ilə xalq birliyi, ordu ilə lider birliyi artıq öz bəhrəsini verməkdədir. Ürək yanğısı ilə xatırladığımız otuz ilə yaxın torpaqlarımızın işğal altında, düşmən tapdağı altında qalmasına son qoyan Müzəffər Ali Baş Komandanımızın dəmir yumruğu və ordu siyasəti nəticəsində

öz həllini tapdı. Müzəffər Ali Baş Komandanımız İlham Əliyev çıxışlarında dəfələrlə mənfur düşmənə sülh bağlanmasını təklif etsə də, öz çirkin niyyətindən dönməyən erməni xalqı, silahlı birləşmələri 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin giziri Mübariz İbrahimovun tək başına 60 nəfərdən çox erməni terrorçularını məhv etməsi onları hələ də yuxudan oyatmadı. Azərbaycan Ordusunun, Silahlı Qüvvələrinin nə qədər ağıla, biliyə, gücə sahib olduqlarını dərk etmədilər. Cənab İlham Əliyevin böyük dövlətlər ilə dostluğu, əməkdaşlığı, ordu siyasəti günümüzün ən öndə gedən aktual məsələlərindəndir. Müzəffər Ali Baş Komandanımız çıxşlarının birində deyirdi: "Biz yeni nəsil yetişdiririk" yetişən gənc nəsil bir gün də Azərbaycanın üç rəngli bayrağını Xankəndində, Göyçə mahalında dalğalandıracaq. Necə ki, Müzəffər Ali Baş Komandanımızın başçılığı və siyasəti altında rəhbərlik etdiyi Silahlı Qüvvələrimizin döyüş bacarığı, döyüş qabiliyyəti, müasir tələblərə cavab verən peşəkar ordu, silah, sursat, texnikası ilə üç rəngli bayrağımızı 44 günlük Vətən müharibəsində Qarabağ torpaqlarında dalğalandırdı [3, s.167].

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi, bizim yumruğumuz bizim birliyimizdir. Biz dəmir yumruğumuz sayəsində, ordumuzun, xalqımızın birliyi, iradəsi sayəsində 44 günlük Vətən müharibəsində döyüş meydanında erməni silahlı qüvvələrini, erməni terrorçu birləşmələrinin canlı qüvvəsini, eləcə də silah, sursat texnikasını darmadağın etdik, eyni zamanda tarixi və beynəlxalq ədaləti bərpa etdik, eyni zamanda Azərbaycan xalqının və onun bəşəriyyətinin başına müxtəlif tarixlərdə açılan Mart soyqırımının, 20 Yanvar soyqırımının, Xocalı faciəsinin, Birinci Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş igidlərimizin qisasını aldıq. Eyni zamanda 2016-cı il Aprel döyüşləri qəhrəmanlarının, 2020-ci il iyul ayında Tovuz istiqamətində gedən şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhid düşən Milli Qəhrəmanımız General-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin qisasını döyüş meydanında aldıq və düşmən üzərində tarixi zəfər qazandıq.

Nəticə

Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyev hər çıxışında Qərbi Azərbaycan torpaqlarının vətənpərvər vətəndaşlar yetişdirdiyini, onların nə qədər əzm göstərdiyini, öz torpaqlarına qayıtmaları üçün canlarından bele keçəcəyi qədər çox sevdiklərini bildirmişdir. O gün çox uzaqda deyil, biz yaxın zamanda Göyçə mahalına, Zəngəzura da qayıdacayıq. Qayıtmaqla bərabər, bu torpaqlar uğrunda şəhid olmuş vətənpərvər vətənpərvərlərin qisasını almış olacağıq. Gözü yaşlı qalan Qərbi Azərbaycan əsilli ana və bacılarımızın göz yaşı quruyacaq və öz ata-baba torpaqlarına, yurd-yuvalarına qovuşmuş olacaqlar.

ƏDƏBİYYAT

1. Allahverdiyev, C. İravan ədəbi mühiti. Bakı: Elm, 2010
2. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 ciliddə] H.Əliyev. Bakı: Azərnəşr, c.22. 2007, 528 s
3. Əliyev, İ. İnkşaf məqsədimizdir.124-cü kitab. Bakı: Azərnəşr, 2022, s.225
4. Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: 2002.
5. Musa Urud. Zəngəzur uzaq keçmişdən müasir dövrə qədər. Bakı: Nurlar, 2016.
6. Qərbi Azərbaycan: tarixi-siyasi aspektlər. Məqalələr toplusu. Bakı: Elm və təhsil, 2023, s. 321.
7. Qarabağ Azərbaycandır! Bakı: Poli Art, 2021.

ABSTRACT

Parviz ALLAHVERDİYEV

THE SPIRIT OF MILITARY PATRIOTISM AMONG OUR FELLOW COUNTRYMEN OF WESTERN AZERBAIJANIS

Like all the lands of Azerbaijan, the lands of Western Azerbaijan have raised patriotic sons. Although our ancient lands, separated from the whole of Azerbaijan, which always call us with their pain, are currently in the hands of the enemy, we will liberate them in Goycha district and Zangezur district as a result of the leadership of the victorious Supreme Commander-in-Chief of the Republic of Azerbaijan, Ilham Aliyev, and the far-reaching policy of the unity of our army and people. Just as our army, which held a high position during the reign of great leader Heydar Aliyev in Azerbaijan, liberated the lands of Karabakh and made a great comeback, we will also liberate the lands of Western Azerbaijan from the enemy and make a great comeback. We will achieve this thanks to the strong will of our growing young patriots, our people, whose heart and soul are always united like a fist that beats with love for the country.


Keywords: *West, Azerbaijan, Goycha district, Zangezur district, Iravan khanate, patriotism*

İRƏVAN GİMNAZİYASININ MƏZUNU OLAN TÜRKİYƏ PARLAMENTİNİN ÜZVÜ RZA YALÇIN (İSMİXANOV)

Dilqəm ƏHMƏD
İstanbul Universiteti

XÜLASƏ

1832-ci ilin yanvar ayının 14-də tarixi Azərbaycan şəhəri İrəvanda ilk qəza məktəbi açılıb. 15 mart 1868-ci ildə Qafqaz Təhsil Dairəsi İrəvan qəza məktəbinin 3 sinifli progimnaziya kimi fəaliyyət göstərməsi ilə bağlı qərar verib. Progimnaziya 31 mart 1881-ci ildən 5 sinifli gimnaziyaya çevrilib. Bu gimnaziyada təhsil alan Azərbaycan türkləri arasında sonralar önəmli mövqelərə yüksəlmiş şəxsiyyətlər olub. Azərbaycan Cümhuriyyəti qurucularından Əkbər ağa Şeyxülislamzadədən akademik Mustafa bəy Topçubaşova qədər bir çox görkəmli şəxsiyyət bu gimnaziyanın məzunu olub. Bu şəxsiyyətlər arasında Türkiyə Cümhuriyyətinin Qars millət vəkili olmuş Rza İsmixanov da vardır. İğdırın Qaraqoyunlu kəndində doğulan Rza bəy İğdırda su idarəsində işləyib, daha sonra İğdır bələdiyyə sədri, İğdır Xalq Evinin sədri olub. Su idarəsində işlədiyi dövrdə Nafiə vəkalətinə müraciət edərək vaxtilə İrəvanda gimnaziyada təhsil aldığını, 1920-ci ildə məzun olaraq 312 nömrəli şəhadətnamə aldığını, lakin qarışıqlıq dönəmində sənədini itirdiyini bildirib. Azərbaycan türkü olan Rza İsmixanov Türkiyədə 1934-cü il soyad qanunundan sonra Yalçın soyadını qəbul edib. O, 1954-1957 və 1961-1965-ci illərdə Türkiyə Böyük Millət Məclisində Qarsın deputatı olub. Rza Yalçın 1967-ci ildə vəfat edib. Araşdırmada İrəvan Gimnaziyasının məzunu Rza Yalçının həyat və fəaliyyəti təhlil edilib.



T. C.
NAFİA VEKÂLETİ
Zat İşleri Müdürlüğü
Sayı
11520

Hariciye Vekâletine

Ek .

Öz:
Hesap memuru Rıza Yalçın'ın Erivan da Gimnaziye deki tahsiline ait kayıt suretinin celbine delalet buyurulması Hakkında:

Iğdır'da bulunan Su işleri 10 uncu şube Hesap memuru Rıza Yalçın 23/10/939 tarihli arzuhalinde:

Erivan'da Gimnaziye namile maruf olan lisede 1920 yılı sonunda tahsilini ikmâl ederek 312 numaralı lise şehadetnamesi aldığını ve bilahara istilâlar sebebile vesikasını zayi ettiğini ve muhacir olarak İran vesair mahallere iltica ettiğini;Erivan Gimnaziyesinde iken adresinin (Iğdır'ın Karakoyunlu köyünden Hayda oğlu Rıza İsmihanof)olduğunu;Gimnaziye'ye devam ederken İran Konsolosluğu yanında bulunan Fars Abbas oğlu Mirza Cebbar Mamedof Pansiyonunda sekiz yıl kaldığını beyan ve zayi olan vesikasının bir suretinin getirtilmesini talebetmektedir.

3656 numaralı kanun mucibince yapılacak derece intibakına esas ittihaz edilmek üzere,mumaileyhin Gimnaziye deki tahsiline ait kayıt suretinin celbine delalet buyurulmasını saygılarımla rica ederim.

Nafia Vekili

D. H.
Kayıd No. 679-2419
Tarihi 16.11.38

16/XI/1939

177

Hangi tarih ve sayılı yazıya karşılık olduğunun yazılması

15.03.2021 tarih ve 32363030 sayılı Karar ile gizlilikten kaldırılmıştır.

QƏRBİ AZƏRBAYCAN MAHALI - GORUS

İsmayıl ZEYNALOV
ismayılzeynalov10@gmail.com
ORCID iD: /0009-0001-0812-6682
Naxçıvan Dövlət Universiteti

Bəsrət ZEYNALOV
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycan ərazisinin Zəngəzur qəzasındakı, hazırda isə 1930-cu ildən ayrıca rayon kimi fəaliyyət göstərən Gorus mahalının tarixinin bəzi məsələləri öz əksini tapır. Həmçinin məqalədə Gorusun inzibati-ərazi bölgüsündən, Gorus toponiminin meydana gəlməsindən, Gorus toponiminin Azərbaycanın digər ərazilərində eyni mənşəli yer adlarının olduğundan, burada Oğuz-türk tayfalarının məskunlaşmasından danışılır, eləcə də burada yaşayan etnik qrupların ləhçələri, Gorus haqqında tədqiqatçıların fikirləri kimi mühüm məsələlər açıqlanır. Həmçinin çar Rusiyası və sovet hökuməti dövrlərində ermənilərin buraya köçürülməsi və yerləşdirilməsi, ermənilərin Qərbi Azərbaycanın digər ərazilərində olduğu kimi, Gorus mahalında əhaliyə və milli-mənəvi dəyərlərimiz olan abidələrə qarşı törətdikləri soyqırımdan bəhs olunur. Qərbi Azərbaycan ümumi Azərbaycan etno-mədəni sistemin tərkib hissəsi kimi nə qədər regional və məhəlli xüsusiyyətlərə malik olsa da, XX əsr qədər heç vaxt bütöv Azərbaycanın etno-mədəni sistemindən kənarda qalmamış, gedən proseslərin tərkib hissəsi olmuşdur. Belə inzibati ərazilərdən 36 rayondan ibarət olan Qərbi Azərbaycan ərazisinin Zəngəzur qəzasındakı mahallardan Qarakilsə (Sisyan), Qafan, Meğri və Çoruş mahalının adlarını çəkə bilərik.

Açar sözlər: *Qərbi Azərbaycan, Vedion, Çorus, Qədim Oğuz yurdu, Zəngəzur qəzası, mahal*

Zəngəzur ərazisi Araz çayı böyük Mehridən (Meqri) başlamış Akaraya qədər, Şimala doğru isə Zəngəzurun ən yüksək zirvəsi olan (hündürlüyü 3204 metr) Qapıcıq və (hündürlüyü 3202 metr olan) Xusdub dağlarına, həmçinin Zəngəzur sıra dağlarından başlayaraq bərgüşat dağlarına qədər olan əraziləri əhatə edir.

Zəngəzur Gəncə quberniyasının qəzası kimi Azərbaycanın qədim ərazisi olmuşdur. Azərbaycan torpağı olan Gəncə quberniyasının Zəngəzur qəzasında təkcə Qafan, Süsyan (Qarakilsə), Mehri, Gorus deyil, həmçinin Azərbaycanın Zəngilan, Qubadlı və Laçın rayonları da daxil olmuşdur.

Azərbaycan torpaqları 1828-ci ildə Rusiya tərəfindən işğal olunduqdan sonra, rusların himayədarlığı ilə İrəvandan və Türkiyədən gələn ermənіləri bu ərazilərdə yerləşdirməklə, Azərbaycan torpaqları hesabına "erməni dövləti" yaratmaq ideyasını həyata keçirməkdən ibarət olmuuşdur [4, s. 25].

Məhz bu məqsəd üçün də Qərbi Azərbaycanın bütün ərazilərinə də 1829-1831-ci illərdə İran və Türkiyədən çoxlu sayda erməni köçürüldü.

Bu zaman Gorusda 119 ailə azərbaycanlı yaşayır. Amma bu köçrülmüş ermənilər hesabına əhali çoxalmış oldu.

XV-XVII əsrlərdə Qızılbaşların tərkbində Səfəvilərin hakimiyyətə gəlməsində mühüm rol oynamış və çox güman ki, XVI əsrin əvvəllərində Şah İsmayıl Xətainin Zəngəzura yürüşü zamanı bu ərazilərə gələrək yeni yurdda məskunlaşmışlar.

XX əsrin əvvəllərində Azərbaycana köçürülmüş ermənilər, digər bölgələrdə olduğu kimi, Azərbaycanlılara qarşı Gorusda da öz kobudluqları və qəddarlıqları ilə seçilməyə başlamışlar.

Fikrimizcə, bunun əsas səbəbləri, əsasən, Gorusda güclü dayaqlar malik olan Daşnaküstü partiyasının antitürk təbliğatı həm də Rusiyanın ermənilərə dəstək olması ilə bağlı olmuşdur. Ona görə də 1905-1918-ci il Zəngəzurda erməni-müsəlman davaları zamanı, Gorus ermənіləri xüsusi qəddarlıq göstərmişlər. Onlar nəinki əhaliyə qarşı qırğınlar törədir, həm də milli-mənəvi dəyərlərlərimiz olan abidələrimizi saxtalaşdırır və onları məhv edirdilər. Hətta belə 1868-ci ildən Gəncə quberniyasının Zəngəzur qəzasının mərkəzi olan Gorus 1930-cu il sentyabrın 9-da Ermənistan SSR-in tərkibində ərazisi 752 kvadrat kilometr olan Gorus rayonu yaradıldı.

Ermənilər Azərbaycanlılara qarşı törətdikləri kobudçuluğun əsas məqsədi isə etik təmizləmə işinə rəvac verməkdən ibarət idi [2, s. 12].

Bu işdə 1915-ci ildə Türkiyədə məğlubiyyətə uğrayan daçnakstun partiyasının ordu genralları Andranik ozanyanın başçılığı ilə, 1918-ci ildə İrandan qoşunla keçib gələn hərbi nazir Dro, ordu rəhbəri NİDE, Azərbaycanın Naxçıvan və onun digər bölgələrində qırğınlar btörətməklə yanaşı, Zəngəzur qəzasında və onun mərkəzinə olan Gorusda da qırğınlar törətmiş oldu.

Gorusda əhaliyə qarşı həyata qarşı həyata keçirilən soyqırımla yanaşı, 200-dən artıq kənd dağıdılmış, 120 mindən çox qaçqın düşmüş və xalqımızın milli-mənəvi dəyərləri məhv edilmişdir [5, s. 54].

Andranik Ozanyanın əsas məqsədi və onun Zəngəzur mahalından mərkəzi hesab olunan Gorusdan bütün azərbaycanlıları qovmaq, ancaq ermənіləri orada saxlamaqla onu Ararat respublikasına birləşdirməklə Gorus şəhərini özünün baş qərargahı seçməkdən ibarət olmuşdur.

Andranik Ozanyan elə bu məqsədlə də erməni milli şurası yaradılacaq Gorusu ayrıca dövlət elan etdi. Gorus beləliklə, onun ayrıca dövləti oldu. Oradan didərgin düşən 40 min nədfər qaçqınlar isə Qarabağın Cəbrayıl, Şuşa, Cavanşir qəzalarına səpələnmiş oldular.

Sovet hökuməti qurulduqdan sonra belə, iki ilə yaxın bir zamanda Gorus ərazisində "Sunik Respublikası" deyilən oyuncaq qurum fəaliyyyət göstərmiş və antitürk təbliğatlar davam etdirilmişdir. 1988-ci ildə Dağlıq Qarabağ "problemi" adı altında bütün Ermənistana daxil olan Azərbaycan ərazisində olduğu kimi, yenidən Zəngəzurdan da azərbaycanlıların çıxarılmasına başlanıldı və soyqırıma məruz qaldılar. 1992-ci ildə soyqırımlar nəticəsində bir nəfər də olsun Ermənistanın Azərbayxcan ərazilərində azərbaycanlılar qalmadı. 1 milyondan çox qaçqın düşdü. O, zamankı Azərbaycan rəhbərliyi isə bu işə biganə qalmış və heç bir tədbir görməmişlər.

Bununla da inzibati ərazi bölgümüz pozularaq Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal olunmuş oldu. Amma 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişi ilə, Azərbaycanın parçalanmasını qorudu, onun müstəqilliyini bərpa etdi. Həm də 1994-cü ilin may ayında atəşkəsə nail oldu.

Bununla yanaşı, gələcəkdə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün bütün lazım olan tədbirləri həyata keçirərək, məsələni dinc yolla, yəni danışıqlar yolu ilə həll etmək üçün ciddi səy göstərdi, ancaq 2003-cü il dekabr ayının 12-də vəfat etməsi, bu planın həyata keçirməsinə imkan vermədi. Lakin onun ideyasına sadiq, vətəninə, xalqına bağlı olan, 2003-cü idə Prezident seçilən, güclü siyasi dünyagörüşə malik Müzəffər Ali Baş Komandan İlham Əliyev Dağlıq Qarabağ "probleminin" sülh yolu ilə həll olunmasına Ermənistan rəhbərliyinin və onun havadarlarının marağı olmadığından, həmçinin təxribatlar törətdiyindən, Müzəffər Ali Baş Komandan, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün 2020-ci ildə sentyabr ayının 27-də Vətən müharibəsinə başlamaq əmrini verməyi lazım bildikdə 44 gün ərzinə Ermənistanı məğlub edib diz çökdürdü, Qarabağ məsələsi həll olunaraq ərazi bütövlüyümüz təmin olundu və 30 illik həsrətə son qoyuldu.

İndi isə məqsədimiz Qərbi Azərbaycana qayıdışdır!

ƏDƏBİYYAT

1. Qərbi Azərbaycanda (İndiki Ermənistanda) məhv edilən, ermənіləşdirilən və ya başqa xalqlara aid edilən abidələr Bakı: – 2023
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f.897, f. 970
3. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. – Bakı: Elm, – 2002. – 346 s. 6. Didərginlər. – Bakı: Gənclik, – 1990. – 384 s. 7.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Tərtib edən. Əsədov S. – Bakı: Gənclik, – 1995. – 464 s.
5. Əliyev, Ə. Qırmızı tabor. – Bakı: Gənclik, – 1990. – 45 s. 9. Əliyev Ə. Əlincə yaddaşı. Naxçıvan 1914-1922. – Bakı: Gənclik, – 1997. – 304 s.
6. Əliyev, M. B. Qanlı günlərimiz (1918-1920 Naxçıvan). Azərbaycan Dövlət Nəşriyyatı, – Bakı: – 1993. – 162 s.

ABSTRACT

Ismayil ZEYNALOV, Basrat ZEYNALOV

THE WESTERN AZERBAIJAN DISTRICT-GORUSH

The article reflects some issues of the history of Gorus district in Zangezur district of West Azerbaijan territory, which is the historical land of Azerbaijan, and which has been operating as a separate district since 1930. The article also explains important issues such as the administrative territorial division of Gorus, the formation of the Gorus toponym, the fact that the Gorus toponym has place names of the same origin in other areas of Azerbaijan, the settlement of the Oghuz-Turkic tribes here, as well as the dialects of the ethnic groups living here, the opinions of researchers about Gorus. At the same time, the relocation and resettlement of Armenians during the Tsarist Russia and the Soviet government, the genocide committed by Armenians against the population and monuments of our national and spiritual values in Gorus district, as in other areas of Western Azerbaijan, are mentioned. Western Azerbaijan, as a part of the general Azerbaijani ethno-cultural system, no matter how many regional and local features it has, was never left out of the entire ethno-cultural system of Azerbaijan until the 20th century. was not left out of the ongoing processes in their territories and was a part of these ongoing processes. Among such administrative areas, we can mention the names of Garakilsa (Sisyan), Gafan, Megri and Chorush districts in Zangezur district of West Azerbaijan territory, which consists of 36 districts.

Keywords: *Western Azerbaijan, Vedion, Chorus, Ancient Oguz homeland, Zangezur district, district*

İRƏVAN SƏRDARI SARAYININ MEMARLIĞI VƏ BƏDİİ TƏRTİBATI

Ərtegin SALAMZADƏ
Azərbaycan Milli Elmlər Akademiyası

Qərbi Azərbaycan tam şəkildə Türk dünyası mədəniyyətinə məxsus olan memarlıq və bədii irsin zənginliyi ilə seçilir. Lakin məlum dramatik kolliziyalar nəticəsində bu irsə aid çoxlu sayda sənət abidəsi itirilmişdir. İrəvan sərdarının sarayı da memarlıq və incəsənətin qaytarılması mümkün olmayan, həmin itirilmiş inciləri sırasına daxildir. Rəvayətə görə, saray təxminən 1600-cü ildə Ərus adlı cəngavər tərəfindən, Ermənistanda Razdan adlandırılan Zəngi çayının sol sahilində tikilmişdir. 1850-ci illərdə saray bərpa olunub. 1914-cü ildə saray tamamilə dağıdılıb. Bu gün biz sarayın memarlığı və bədii tərtibatı barədə yazılı mənbələr və XIX-XX əsrlərin ayrıcında çəkilmiş sayca çox olmayan fotoşəkillər əsasında mühakimə yürüdə bilərik. İnteryerin memarlığı, daxili məkanın zəngin tərtibatı saray otaqlarının detallarının incə bədii həlli – bütün bunlar hökmdarın rəsmi iqamətgahı obrazını təcəssüm etdirir. Bütövlükdə, İrəvan sərdarı sarayının bədii tərtibatı üç hissədən – memarlıq dekorundan, divar rəsmləri və dəzgah rəngkarlığından, həmçinin şəbəkə kompozisiyalarından ibarətdir. Əsas məkan tavanı və arakəsmə divarları amalqamlı şüşə fraqmentləri ilə bəzədilmiş güzgülü zal adlanan salondan ibarət idi. Sarayın əsas zalının ikinci təbəqəsindəki iri ölçülü taxçalarda görkəmli Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin (1825-1875) çəkdiyi dörd bayram portreti yerləşirdi. Bu portretlərdə Fətəli şah, onun varisi Abbas Mirzə, Hüseynqulu Sərdar və onun qardaşı təsvir edilmişdilər. Sarayın bədii tərtibatının üçüncü hissəsi şəbəkə kompozisiyalarından ibarət olmuşdur. Sərdar sarayının vitrajlı pəncərəsi üst hissədə tağlı quruluşa malik idi və bu üst hissədə şəbəkə sənəti üçün ənənəvi olan naxışlarla örtülmüşdü. Lakin hündürlüyünə görə divar üzərindəki karnizədək uzanan aşağı hissə, tamamilə Şuşadakı Zöhrabbəyovların evindəki kompozisiya ilə müqayisə edilə bilər. Burada müstəvi eyni şəkildə şaquli istiqamətdə bordür və mürəkkəb olmayan ornamentlə haşiyələnmiş üç düzbucaqlıya ayrılmışdır. Eyni ilə Şuşada olduğu kimi, düzbucaqlıların fonu rəngsiz şüşə ilə örtülmüşdür, onların hər birinin tam mərkəzində isə bir xaçşəkilli element yerləşir. Bütün bunlar tarixi Azərbaycan ərazilərində bədii ənənələrin birliyindən xəbər verir.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan sərdarının sarayı, memarlıq irsi, bədii tərtibat, Azərbaycan incəsənəti, şəbəkə sənəti, divar rəsmləri, Mirza Gadim Iravani, saray memarlığı, Azərbaycan mədəniyyəti, dekorativ sənət, tarixi abidələr, Şuşa memarlığı, Zöhrabbəyovların evi, güzgülü zal, ornamental kompozisiya.*

SABİR İRSİ CƏFƏR XƏNDAN YARADICILIĞINDA

Afət RƏFİYEVA
Sumqayıt Dövlət Universiteti

XÜLASƏ

Azərbaycan ədəbiyyatşünaslığının ən önəmli imzalarından biri Hacıyev Cəfər Zeynal oğlunun – Cəfər Xəndanın dərin və məzmunlu yaradıcılıq irsi hər zaman ədəbiyyat insanının diqqət mərkəzində olmuşdur. Görkəmli ədəbiyyatşünas alim klassik ədəbi irsin araşdırılması və nəşri ilə yanaşı, müasir ədəbi prosesi də öyrənmiş, hər yeniliyə münasibət bildirməkdə gecikməmiş, bir şair kimi mətbuatda dərc olunmuş və həm də gənc nəslin təlim-tərbiyəsində bir müəllim kimi öz töfhəsini vermişdir. Alimin ən çox araşdırdığı ədib isə Mirzə Ələkbər Sabir olmuşdur. Tənqidi realizmin yaranmasında və inkişafında əvəzsiz xidmətləri olan Sabirin yaradıcılığı istər Cəfər Xəndanın dövründə, istərsə də bu gün yaradıcıların diqqətini cəlb edir. Sabir xalqın cəhalətdən qurtulması üçün əlindən gələni edəndə, bəlkə də, inanmırdı ki, bir gün elm onun yaradıcılığını sətir-sətir öyrənəcək və ona dərin minnət hissi duyacaq. Cəfər Xəndan M.Ə.Sabirə həsr etdiyi "Sabir", "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", "Şairin həyatı" və s. monoqrafiyalarında, onlarla məqaləsində Sabirin ədəbiyyat tariximizdəki mövqeyini ortaya çıxarmağa çalışmışdır. Sabir irsinə dərin hörmətlə yanaşan alim onun yaradıcılığının mühüm tərəflərinə işıq tutmuş, ədəbiyyat tariximizdəki roluna diqqət çəkmişdir. Sabir ədəbiyyatımızda yenilik idi. Özü də elə yenilik ki, onun əks-sədası hələ minilliklərlə davam edəcək. Yüzilliklərlə Şərq ədəbiyyatında dominant olan Füzuli ənənələrinə son qoyan bu şairin üzləşdiyi çətinliklərin, keçməkeşli həyatının müxtəlif məqamları tənqidçinin iti nəzərindən yayınmamış və layiqli qiymətini almışdır. Təqdim olunan məqalədə ədəbiyyatşünasın yaradıcılığında Sabir ədəbi irsinin əhəmiyyətindən, onun Sabir irsinə olan münasibətindən söhbət açılır, alimin şairin yaradıcılığına olan marağının səbəbləri araşdırılır. Qeyd olunur ki, Sabir ədəbi irsinin ən gözəl tədqiqatçılarından biri Cəfər Xəndan olmuşdur. Belə ki, onun tədqiqatları bu gün də Sabirin həyat və yaradıcılığına üz tutan gənc tədqiqatçılar üçün ən önəmli məxəzlərdən biridir. Sabir yaradıcılığı öz aktuallığını itirmədiyi kimi, alimin onun haqqında araşdırmaları heç vaxt köhnəlmir, fikirləri və mülahizələri hər dövr üçün öz yeniliyini saxlayır. Bu Cəfər Xəndan qələminin və istedadının gücü və önəmindən irəli gələn məqamdır. Ən az Sabir qədər keşməkeşli və ağır həyat yaşayan alimin onun irsini bu qədər həssas bir şəkildə araşdırması təəccüb doğurmamalıdır, əksinə bəlkə də onun qədər kimsə şairin irsinə həssas yanaşa bilməzdi.

Açar sözlər: *Sovet ədəbiyyatı, ədəbi tənqid, ədəbiyyatşünaslıq, Sabir ədəbi irsi, sosializm realizmi*

Cəfər Xəndan ədəbi aləmə ədəbiyyatın ən çətin dövründə - 1930-1950-ci illərdə gəlmişdi. Yeni bərqərar olmuş Sovetlər biriliyinin sərt qayda-qanunları, bitib-tükənmək bilməyən qadağalar, hələ də tam aydınlaşmamış yaradıcılıq metodları, yerli xalqlara münasibətdə yol verilən ədalətsizliklər və s. məsələlər yaradıcı insanın öz yolunu müəyyənləşdirməsində çətinliklərlə üzləşdirirdi. Buna baxmayaraq, hələ əsrin əvvəllərində bir elm kimi formalaşmağa üz tutan ədəbi tənqid öz meyarlarını sabitləşdirməyə çalışırdı. Min illərlə yaşı olan ədəbiyyatımız on illiklər ərzində sistemə salınmağa çalışılırdı. Ədəbiyyat dərslikləri yaradılır, orta məktəb sisteminə ədəbiyyat müstəqil fənn kimi daxil edilirdi. Bütün bunlar ciddi senzura nəzarətində baş verirdi. Ədəbiyyat tariximiz sosializm realizminin tələbərinə uyğun "saxtalaşdırılır", bu məqsədə xidmət etməyən ədəbiyyat nümayəndələrinə aid məqamlar ciddi-cəhdlə gizlədilirdi.

1943-1944-cü illərdə nəşrə hazırlanmış ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" ilk sistemli ədəbiyyat tariximiz olmasına baxmayaraq, hökumət tərəfindən bəyənilməmiş, dövriyyədən yığışdırılması əmri verilmişdir. Səbəblər isə çox bəsit idi. Burada mərsiyyə ədəbiyyatından, dini ədəbiyyatdan danışılmışdı. Bu məqamlar "burjuaziya" və "mürtəce" ədəbiyyatı kimi qiymətləndirilmişdir. Bunu deyənlər sadə həqiqəti anlamırdılar ki, bir zamanlar xalqın yaşayışının, adət-ənənəsinin bir parçası olan belə məqamları ədəbiyyatdan uzaqlaşdırmaqla heç nə əldə etmək olmaz.

Bu dövrdə folklorun, klassik irsin toplanılması və nəşri ilə yanaşı, yeni meyarlara uyğun yaranan və inkişaf edən şeirə, nəsrə və dramaturgiyaya da münasibət bildirmək lazım gəlirdi. Bu baxımdan ədəbiyyatşünasların - ədəbiyyat tənqidçilərinin qarşısında ciddi vəzifələr dururdu.

Belə bir mürəkkəb tarixi şəraitdə yaradıcılıq prosesinə başlayan Cəfər Xəndanın da yaradıcılıq yolu heç də asan olmamışdır. Cəfər Xəndan yaradıcılığa başlayanda elmin nəhəngləri – Məmməd Arif, Mikayıl Rəfili, Əli Nazim, Həmid Araslı, Feyzulla Qasımzadə, Məmməd Cəfər, Mir Cəlal və b. imzaları elmi mətbuatda artıq

tanınırdı. Onların sırasında yer almaq, hörmət görmək çətin iş idi. Lakin Cəfər Xəndan iti zəkası, orijinal yanaşma üsulu və maraqlı təhlilləri ilə qısa zamanda bunu bacardı. "C.Xəndan müasir ədəbi prosesi diqqətlə izlədiyi kimi, eyni zamanda klassik irsi də mükəmməl öyrənir və mətbuatda ardıcıl çıxışlar edirdi. Həm klassiklərin, həm də müasirlərinin ədəbi-nəzəri fikrinə yiyələndiyi və qarşılıqlı izlədiyi üçün məktəblərimizdə də ədəbiyyat nəzəriyyəsi dərsliyini məhz Cəfər Xəndan yazmışdır" [Namazov, 2010, s. 5].

Onlarca orta və ali məktəb dərsliklərinin müəllifi kimi C.Xəndan ədəbi prosesin mahiyyətini anlayır, xalqın tarixində iz qoymuş sənətkarların yaradıcılığının obyektiv araşdırılmasının əhəmiyyətini dərk edirdi. Orta məktəb üçün yazılmış dərsliklərin müəllifi kimi, müəyyən qədər, yəni quruluşun yol verdiyi qədər təhriflərdən qaçır, ədəbiyyatın öyrədilməsinin mühüm məqamlarını anlayırdı. İstər klassiklərin, istərsə də müasirlərin ədəbi irsini araşdıranda şəxsi düşüncəni deyil, obyektiv münasibəti ortaya qoyurdu.

Alim Nizami Gəncəvidən üzübəri bir çox klassikin yaradıcılığını dərindən öyrənmişdir. Onlardan Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Cəfər Cabbarlı və başqalarının adını çəkə bilərik. Adını çəkdiyimiz sənətkarların əksəriyyəti yaradıcılıq üslubu kimi realizm metodunu seçmişdilər. Bəlkə də məhz bu cəhətə görə onların yaradıcılığı Cəfər Xəndanın diqqətini cəlb etmişdir. Sabir təxminən üç yüz il sonra Azərbaycan ədəbiyyatının təsirindən çıxa bilmədiyi Füzuli ənənələrini darmadağın etdi. Onun yaradıcılığı Azərbaycan və bütövlükdə Şərq ədəbiyyatında yeni hadisə, novatorluq, ənənədən qopub irəliyə doğru mühüm addım atmaq idi.

Cəfər Xəndan Mirzə Ələkbər Sabirin yaradıcılığını elə tədqiq etdi, elə öyrəndi ki, müasir tədqiqatçılar bu gün də Sabirlə bağlı ən səhih məlumatları elə məhz Cəfər Xəndanın kitablarında axtarırlar. Alim Sabir realizminin, həqiqətinin sehrinə elə düşdü ki, bəlkə də həyatını elə ən çox onu öyrənməyə həsr etdi.

O, Sabirə onlarca məqalə və onun həyat və yaradıcılığının bütün detallarını özündə əks etdirən bir neçə monoqrafiya həsr etmişdir: "Sabir", "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", "Şairin həyatı" və s. Alim araşdırmalarında Sabirin dövrü üçün və hətta yüzilliklər ötsə belə Azərbaycan ədəbiyyatı üçün əhəmiyyətini dönə-dönə vurğulayırdı.

Sabir ənənələri öz sağlığından başlayaraq zəmanəmizə qədər yaşayır və hələ uzun müddət də yaşayacaqdır. Bu çox təbiidir, çünki o, digər klassiklər kimi ədəbi məktəb yaratmağa nail oldu və hətta bunu onun qələm yoldaşları da qəbul etdi. "Molla Nəsrəddin" jurnalının ətrafında sıx birləşmiş və dövrünün novatorları hesab olunan bu sənətkarlar bu jurnalın fəaliyyətini Sabirsiz təsəvvür etmirdilər. Sabirin qələmi cəhaləti parçalayan qılınca, süngüyə çevrildi. Onun qələminin izindən gedənlər bu həqiqəti qəbul etdi. C.Xəndan da onun həyat və yaradıcılığını diqqətlə tədqiq edəndə bunu dərk edirdi. "C.Xəndan Sabir irsi ilə uzun illər məşğul olmuş və onun haqqında yazdığı monoqrafiyada şairin poetikası, yaradıcılığında tendensiya və ifşa üsulları, ümumiyyətlə, şeir və şair haqqında, şairin romantikası, Sabir yaradıcılığında folklordan və canlı xalq ifadələrindən istifadə yolları adlı fəsillərdə geniş və ətraflı bəhs etmişdir.

Qeyd edək ki, C.Xəndanın vəfatından sonra çap olunan bu monoqrafiyaya qədər də şairin haqqında xeyli dəyərli məqalə və monoqrafiyalar yazılmışdır. Ancaq Cəfər Xəndanın bu dəyərli monoqrafiyası öz həcmi və mükəmməlliyi ilə seçilir" [Namazov, 2010, s. 5].

Alimin "Şairin həyatı" monoqrafiyası Sabir ədəbi irsini öyrənmək baxımından çox əhəmiyyətli mənbədir. Monoqrafiyaya bir-birindən maraqlı başlıqlar seçilmişdir: "Mollaxanda", "Seyid Əzim Şirvaninin məktəbində", "Gənclik illəri. Şairin qələm təcrübələri", "Səyahət", "Ailə başçısı", "Sabun tiyanı dibindən şikayətlər", "Yaxın dostların məsləhəti", "Beynəlmiləl", "Lampa işığında "Molla Nəsrəddin", "Yeni şeirlər", "Oyanan Şərqin inqilabçı şairi", "Ölüm qorxusu", "Dostlar və düşmənlər", "Odlu şeirlər", "Başladı şişməyə indi üzü qarə ciyərim", "Ayrılıq", "Axan səmalar", "Kədərli məktublar", "Açılmayan portmanet", "Son günlər", "Dayanan ürək", "Ölməz sənətkar". Tədqiqatçı hər başlığa uyğun xeyli sayda mənbəni araşdırmış, sənədlərə müraciət etmiş, kitabın önünüdə qeyd etdiyi kimi öz şəxsi mövqeyini bbildirməkdən də çəkinməmişdir.

Əslində Sabirin üsyanı hələ o, balaca yaşlarında olanda başlamışdır. Atasının onu mollaxanada yüngül təhsil aldırıb sonra da öz dükanında işlətmək sevdası, mollanın kobud hərəktələri, səriştəsizliyi, din ehkamları adı altında təbliğ etdiyi təhsil balaca Sabiri razı salmamış, dəfələrlə evdən qaçmış, nəhayət, atası onu həmişəlik itirəcəyindən qorxaraq o vaxt dövrünün ən görkəmli ziyalısı kimi tanınan və Şamaxıda "üsuli-cədid" tipli məktəb açan Seyid Əzim Şirvaninin məktəbinə qoymuşdur.

Bu məktəbdə oxumaq, S.Ə.Şirvani ilə tanışlıq şairin bütün gəlcək taleyində ciddi dönüş yaratdı. Məktəbdə oxuyanda balaca şagirdinin istedadının fərqinə varan Seyid Əzim də onu həvəsləndirir, ilk qələm təcrübələrini oxuyub düzəliş edir, tərcümələr tapşıraraq yoxlayırdı. C.Xəndan tarixi sənədlərə, xatirələrə müraciət edərək hər iki sənətkarın bir-birinə olan təsirini araşdırır və haqlı olaraq belə qənatə gəlirdi ki, S.Ə.Şirvani qədər Sabir də öz ustadına təsir edə bilmiş, şagirdinin istedadı müəllimini tam razı salmışdır.

Keşməkeşli uşaqlıq həyatı özünü daha qayğılı gənclik və ahıllıq illərinə dəyişərkən şairin yaradıcı kimi

yetişməsində də mühüm rol oynayırdı. Çoxdandan ona bəlli olan M.F.Axundov realizmi sənətkarı dərindən düşündürürdü. Dövrü mətbuatda Sabir "üsyanı" başlayırdı. Sabirin mövzu dairəsi çox geniş idi. Adi həyatda gördüyü hər hansı bir hadisə şairi yazmağa çağırır və o, kiçik bir hadisənin təsvirində böyük məsələlərə toxunurdu. C.Xəndan yazırdı: "Sabirin həyati mövzulara həsr olunmuş şeirlərində böyük ümumiləşdirmə qabiliyyəti hiss olunurdu. O, gördüyü bir hadisəni o qədər ümumiləşmiş bir şəkildə təsvir edirdi ki, oxucu onun qələmindəki qüvvətə heyran qalırdı. Sabir saatlarla düşünüb mövzu axtarmırdı, həyati hadisələrin hər biri onun üçün hazır mövzu idi" [Xəndan, 1977, s. 29]. Məsələn, küçədə iki qonşunun söhbəti, mağazadan nəsə alarkən satıcıyla arasındakı dialoq, təsadüfən yanından ötdüyü bir yas məclisi və s. hamısı Sabir şeirinin ilham və mövzu qaynağı idi. Tədqiqatçı monoqrafiyanın digər qismlərində də tarixi və sənədli faktlara əsaslanaraq, eləcə də şəxsi mülahizələri ilə şairin "Molla Nəsrəddin" jurnalına gəlişi, imzasının tanınması, təqiblərə məruz qalması, ağır xəstəliyin pəncəsində olarkən belə bir dəqiqə həqiqəti deməkdən yayınmaması, kədərli ölümü haqqında ətraflı məlumat verilir. Qeyd edək ki, monoqrafiya sənədli roman xarakteri daşıyır, tədqiqatçı bədii təsvirlərdən, şairi düşüncə və təxəyyülündən də yeri gəldikcə istifadə edir.

Alimin şairin yaradıcılığına həsr etdiyi ən irihəcmli monoqrafiyası "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" adlanır. Monoqrafiya "Sabirin poetikası", "Sabir yaradıcılığında tendensiya və ifşa üsulları", "Şeir və şair haqqında", "Sabirin romantikası", "Sabir yaradıcılığında folklordan və canlı xalq ifadələrindən istifadə yolları" adlanan beş fəsildən ibarətdir. "Alimin vəfatından sonra nəşr edilən "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" adlı sanballı elmi monoqrafiyası fikrimizcə, son əlli-əlli beş ildə sabirşünaslığın əldə etdiyi ən böyük nailiyyətlərdən biri kimi qiymətləndirilməlidir. Bu kitan ona görə əvəzsiz sayılır ki, burada elmi praktika nəzəri müddəalarla üzvi şəkildə sintezdədir. Kitabda təkcə Sabir poetikası deyil, klassik və müasir Azərbaycan poeziyası fonunda poetika məsələləri işıqlandırılıb. Alimin öz sözləri ilə desək, poetika şairin yalnız ədəbi yaradıcılıq qaydalarına necə əməl edib-etməməsi ilə qalmır, eyni zamanda onun bədii zövqü, dünyagörüşünü və sənətkarlıq xüsusiyyətlərini qiymətləndirmək işində də müəyyən rol oynayır [Yusifli, 2015, s. 10].

Elə yaradıcı insanlar var ki, onlar ənənəyə sadiq qalmaqla, yeni bədii kəşflər edir, ədəbiyyatı zənginləşdirir. Sabir belə sənətkarlardan biri kimi ədəbiyyat tariximizdə önəmli iz qoymuşdur. Bir ədəbiyyat tarixçisi kimi Cəfər Xəndan onun ədəbiyyatımıza nə kimi yeniliklər gətirməyi, müasirləri arasında nə kimi təsir oyatmağı və bir şair kimi əzəməti klassik ədəbiyyatla müqayisədə müəyyənləşir.

Monoqrafiyada alim qeyd edir ki, Sabir yaradıcılığının ən önəmli xususiyyətlərindən biri, bəlkə də birincisi şairin heç vaxt heç kimi və eləcə də özünü təkrar etməməsidir. Sabir yaşadığı dövrdə "sənət sənət üçündür" nəzəriyyəsinin tərəfdarlarından fərqli olaraq, sənətin həyatla sıx əlaqəsi olduğunu, bədii əsərin qaynağının həyatdan götürüldüyünü bir daha təsdiq etdi. Təkcə forma gözəlliyi olan əsər oxucunun duyğularını riqqətə gətirə bilməz, onun düşüncələrinə və ümumi dünyagörüşünə təsir edə bilməz. Şeirdə sənət əsərində forma və məzmun vəhdət təşkil etməlidir. Bunun öhdəsindən layiqincə gələn sənətkarlardan biri də məhz elə M.Ə.Sabir idi.

Əslinə baxanda Sabir ədəbi irsi cəmi bir kitabdan – "Hophopnamə"dən ibarətdir. Lakin fikrimizcə, bu kitab özü elə ədəbiyyatımıza bir kitab dolusu da yenilik gətirmişdi. Onun irsini tədqiq edən ədəbiyyat tarixçiləri, tənqidçilər də əslində çox bəsit görünən, lakin alt qatlarında böyük əziyyət, iztirab, məhrumiyyətlər yatan bu həqiqətin fərqində idilər. Yəqin ki, Sabiri xalqımıza sevdirən ən önəmli xüsusiyyətlərdən biri onun dilinin, yazılarının, toxunduğu həqiqətlərin kifayət qədər sadə, aydın və anlaşıqlı olması idi.

Tədqiqatçı monoqrafiya boyu şairin irsinin müxtəlif aspektlərini oxucunun gözü önünə gətirir. Onun yaradıcılığında yer alan tipi öz dili ilə danışdırmaq, süjet qurmaq və s. kimi sənətkarlıq məsələlərinin göründüyü qədər sadə və bəlkə də bəziləri üçün "göydəndüşmə" olması fikrini nə qədər yanlış olduğunu sübut etməyə çalışır. Şairin seçdiyi üsulların əvvəlcədən və diqqətlə düşünülmüş priyomlar kimi ədəbiyyatımızda yenilik olmaqla yanaşı, həm də tutarlı sənət əsəri üçün vacib amil olduğunu sübut etməyə çalışan alim yazırdı: "Sabirin bədii zövqü, poetik görüşləri, eləcə də əsərlərinin şəkli quruluşu haqqındakı prinsipləri dəyişməz deyildir. Əksinə, dövr, hadisə, mövzu və sairədən asılı olaraq, bunlar tez-tez dəyişir, təkmilləşir və yeniləşir. Şairin özünü təkrardan əsasən qaçması, rəngarəng qafiyələr işlətməsi, müxtəlif şeir ölçülərində yazması və s. bu xüsusiyyətin təzahür forması kimi qiymətləndirilə bilər" [Xəndan, 1962, s. 8-90].

Sabir xalqımızın əvəzsiz sənətkarıdır. Onun irsini öyrənmək, tədqiq etmək tədqiqatçıdan böyük məsuliyyət, istedad tələb edir. İstər klassik dövrün, istərsə də müasirlərinin yaradıcılığını öyrənərkən Cəfər Xəndan hər bir sətrə, hər bir yazıya yüksək həssaslıqla yanaşırdı. Xüsusilə də, Mirzə Ələkbər Sabir yaradıcılığını tədqiq edərkən, onun hər məsələyə nə qədər həssas və dərin yanaşdığını görmək olar. Qeyd etdiyimiz kimi, onun Sabirlə bağlı apardığı tədqiqatlar bu gün və gələcəkdə də bu sahə araşdırmaçıları üçün zəngin məxəz rolunu oynayacaqdır.

ƏDƏBİYYAT

1. Xəndan, C. Şairin həyatı. Bakı: Gənclik, 1977, 90 s.
2. Xəndan, C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı: Azərnəşr, 1962, 434 s.
3. Namazov, Q. Cəfər Xəndan klassiklərimiz haqqında. // Ədəbiyyat qəzeti, 2010, 14 may, s. 5
4. Yusifli, V. Ədəbiyyat fədaisi (Cəfər Xəndan – 105) // "Azərbaycan" qəzeti, 2015, 17 may, s. 10

ABSTRACT

Afat RAFİYEVA

THE LITERARY HERITAGE OF SABIR IN THE WORKS BY JAFAR KHANDAN

One of the most important signatures of Azerbaijani literary studies, Hajiyev Jafar Zeynal - Jafar Khandan's deep and meaningful creative legacy has always been the center of attention of literary people. In addition to researching and publishing the classical literary heritage, the outstanding literary scholar studied the modern literary process, was quick to respond to every innovation, was published in the press as a poet, and also contributed to the education of the younger generation as a teacher. Mirza Alakbar Sabir was the writer whom the scientist studied the most and published countless scientific studies. Sabir's work, which has invaluable services in the creation and development of critical realism, attracts the attention of creators both during Jafar Khandan's time and today. When Sabir did his best to free the people from ignorance, perhaps he did not believe that one day science would study his work line by line and feel deep gratitude to him. Jafar Khandan dedicated to M.A. Sabir "Sabir", "Artistic features of Sabir's work", "The life of the poet", etc. In his monographs and dozens of articles, he tried to reveal Sabir's position in our literary history. The scientist who deeply respects Sabir's heritage shed light on the important aspects of his work and drew attention to his role in our literary history. Sabir was a novelty in our literature. It is such an innovation that its reverberations will continue for millennia. The difficulties faced by this poet, who put an end to the Fuzuli traditions that were dominant in the Eastern literature for hundreds of years, and the various moments of his life without escape, did not escape the sharp attention of the critic and received the deserved appreciation. The presented article talks about the importance of Sabir's literary heritage in the literary critic's work, his attitude towards Sabir's heritage, and the reasons for the scholar's interest in the poet's work are investigated. It is noted that Jafar Khandan was one of the best researchers of Sabir's literary heritage. So, his researches are one of the most important sources for young researchers who turn to Sabir's life and work even today. Just as Sabir's work does not lose its relevance, the scientist's research about him never gets old, his ideas and opinions keep their novelty for every era. This is the point that comes from the power and importance of Jafar Khandan's pen and talent. It should not be surprising that a scholar who lived at least as tumultuous and difficult a life as Sabir should examine his legacy in such a sensitive way, but perhaps no one could be as sensitive to the poet's legacy as he is.

Keywords: *Soviet literature, literary criticism, literary studies, Sabir's literary heritage, socialist realism*

MÜSTƏQİLLİK DÖVRÜ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ CƏNUBİ AZƏRBAYCAN VƏ TÜRKİYƏ MÖVZUSU

Nurlana ƏLİYEVA
n.aliyeva@nu.edu.az
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə naxçıvanlı şairlərin yaradıcılığında Cənubi Azərbaycan və Türkiyə mövzusunda yazılan əsərlərdən bəhs edilir. Göstərilir ki, Cənubi Azərbaycan həsrəti və qardaş Türkiyə niskili həmişə Azərbaycan ədəbiyyatında, o cümlədən Naxçıvan ədəbi mühitində olduqca mühüm yer tutub. Şair və yazıçılar daim bu mövzuya müraciət etmiş, poetik olaraq ədəbi yaddaş əmələ gətirmişlər. Naxçıvanlı şairlərdən H.Razi, Kəmalə, A.Yadigar, V.Məmmədov, X.Kərimli, M.Qasımzadə, V.Qaraxan və başqalarının yaradıcılığında həm Cənubi Azərbaycan, həm də Türkiyə mövzusunda yazılan əsərlər yer almış, qardaş həsrəti və niskili əks etdirilmişdir.

Açar sözlər: *Naxçıvan ədəbi mühiti, Cənubi Azərbaycan, Türkiyə, Dərələyəz, qardaş həsrəti*

Ədəbiyyatşünaslıqda çox haqlı deyilmişdir ki, realizm üçün mövzu real tarixi şəraitdən alınır, mövzu sifarişi yalnız ictimai formada – ictimai sifarişlə həyata keçirilir. Naxçıvan ədəbi mühitində də müstəqillik dövrü ciddi ədəbiyyatın meydana gəldiyi bir mərhələ kimi səciyyələnir. Görkəmli elm xadimi alademik İsa Həbibbəyli müstəqillik dövrü Azərbaycan ədəbiyyatına nəzər yetirərkən bu məsələyə diqqət verərək yazmışdır: "Müstəqillik dövrünün Azərbaycan ədəbiyyatı müstəqil dövlət quran xalqın ədəbiyyatıdır və bütün dəyərləri, keşməkeşli həyat yolu, mübarizə və uğurları ilə bu həqiqətləri əks etdirir" [2, s.4]. Görkəmli elm adamının vurğuladığı kimi, "müstəqillik illəri ədəbiyyatının formalaşmasında bir sıra ictimai-siyasi və tarixi-mədəni faktorların mühüm rolu" [2, s. 4] olmuşdur və əlbəttə, məhz bu faktorlar müstəqillik dövrü ədəbiyyatının formalaşması, təşəkkülü və inkişafını müəyyən etmiş, yaranmasını şərtləndirmiş, ona forma və başlıca olaraq məzmun vermişdir. "1991-ci ildən sonra ölkəmizdə yaranan ədəbiyyat müstəqillik dövrü ədəbiyyatıdır. Amma bu da qəti bir fikirdir ki, Naxçıvanda müstəqilliyin tarixini 1990-cı ildən – Ulu Öndər Heydər Əliyevin məhvərində uğurla dönən zaman çərçivəsindən hesablamaq daha doğru olar. Bu mənada,1990-cı illərdən başlayaraq Naxçıvanda yaranan ədəbiyyat müstəqillik dövrü ədəbiyyatı idi. Müstəqillik dövrü ədəbiyyatı istər keyfiyyətcə, mövzu və formaca, istərsə də məzmun və problemcə, istərsə də ideya və ideoloji konsepsiya cəhətindən fərqli və özünəməxsus idi" [1]. Diqqətəşayan haldır ki, Naxçıvan ədəbi mühitində yazıb-yaradan ədəbi şəxsiyyətlər mərkəzində Ulu Öndər Heydər Əliyevin dayandığı muxtar respublika və ümumən Azərbaycanın taleyi timsalında həyata keçirilən inkişafyönümlü tədbirlər əhatəsində öz sözləri, rəyləri ilə bu proseslərə münasibətlərini ifadə etmiş, ölkənin varlığı, inkişafı və əbədiliyi üçün atılan addımları əsərlərində yüksək qiymətləndirmiş, ictimai rəy timsalında alqışlamış, həyata keçirilən mühüm tədbirləri, əldə olunan uğurlu nəticələri və qurucu şəxsiyyəti tərənnüm və vəsf etmiş, ədəbi cəhətdən əks etdirmişlər.

1990-cı illərdə Ulu Öndər Heydər Əliyevin başçılığı altında Naxçıvandan başlanan milli dövlətçilik yolu Naxçıvanda həyata keçirilən Azərbaycan və İran arasındakı sərhəd çəpərlərinin sökülməsi, Naxçıvan və Türkiyə Cümhuriyyəti arasında "Ümid" körpüsünün tikintisi ilə müşayiət olunan hadisələr və başlanan iqtisadi-mədəni əməkdaşlıqlar ədəbiyyatımıza ardıcıl olaraq Cənubi Azərbaycan və Türkiyə mövzusunu da gətirmiş oldu. Sərhəd çəpərlərinin sökülməsi, dünya azərbaycanlılarının birliyi ideyası və bu sahədə görülən ardıcıl tədbirlər ədəbiyyat adamlarında bu mövzuya olan müraciəti daha da sıxlaşdırdı və davamlı bir şəkil aldı.

Məlumdur ki, Azərbaycanın parçalanaraq biri-birindən ayrıdüşən iki vətən torpağına çevrilməsi qəlblərdə ağır kədər və yaraya səbəb olmuşdur. Bədii ədəbiyyatda da bu mövzu həmişə yeri sızlayan və qanı axan bir yara kimi təsvir edilmiş, başlıca bir mövzu təşkil etmişdir. İki qardaş elin birlik, gediş-gəliş həsrəti həmişə başlıca yeri tutmuşdur. Buna görədir ki, Naxçıvandan Cənubi Azərbaycana, Cənubi Azərbaycandan Naxçıvana gedib-gələn ədəbiyyat adamları çox böyük inamla bu mövzunu diqqətdə saxlamışlar. Bu mövzuda naxçıvanlı şairlərdən H.Razinin, Kəmalənin, A.Yadigarın, X.Kərimlinin, İ.Yusifoğlunun, V.Məmmədovun, M.Qasımzadənin, H.Eyvazlının, İ.Yusifoğlunun, V.Qaraxanın, M.Qaraçuğlunun, Q.Qəribin və başqalarının yazdıqları əsərlər mühüm ideya və çağırışlar ifadə etmişdir.

Qətiyyətlə demək olar ki, ictimai şərait ədəbi inkişafın məhvəridir. Mövzu sifarişləri ictimai mühitdən ədəbiyyata daxil olaraq dövrün salnaməsini tərtib etmişdir. Hüseyn Razinin vətəndaşlıq lirikasının tərkibində

vətənin bütövlüyü və qardaş həsrəti duyğularının ifadəsi də xüsusilə yer almışdır. Onun vətən mötivli duyğuların ifadəsində həm də qardaş ölkə və xalqlara olan qovuşmaq məhəbbəti də üstünlük təşkil edirdi. Xüsusilə, qardaş Türkiyə və Cənubi Azərbaycan mövzusu da bu dövrdə yenidən alovlanır, bədii ədəbiyyatın aparıcı mövzu xətlərindən birinə çevrilir. Şair Hüseyn Razinin də yaradıcılığında bu mövzu üstünlük təşkil edir və bütöv vətən, bütöv xalq ideyasını ehtiva edir. Hüseyn Razi 1990-cı ildə yazdığı "Ağrı Dağı" şeirində qardaş həsrətini və ona qovuşmaq duyğularını Ağrı dağının əzəməti timsalında ümumiləşdirərək ifadə etmişdir:

Taleyimiz, tariximiz yanaşı,
Qoşa dağlar vüqarında dayanmış.
Nənələrin, babaların yaddaşı
Güzgüsündə şölələnib daranmış.
Dədə Qorqud boylarının özülü,
Yunis İmrə şeiri kimi düzülü.
Zirvələri butalanmış dağ gülü,
Sevgimizin alovunda boyanmış.
Çıxıb göyün qübbəsindən bax bəri,
O Atatürk qeyrətinin ləngəri.
Milyon-milyon mərd igidin səngəri,
Neçə-neçə döyüşlərdə sınanmış [11, s.42].

Şair türk mənəviyyatı, vətənpərvərliyini bütün əzəmətilə poetik sözün vüsəti və ecazkarlığı ilə ifadə edərək şeirin sonunda birlik, qovuşma ümidlərini də dilə gətirirdi. Çünki məhz həmin illər Ulu Öndər Heydər Əliyev Naxçıvana gələrək Naxçıvanın blokada vəziyyətindən çıxması naminə qardaş Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə danışıqlar aparırdı və Türkiyə Respublikası ilə danışıqların nəticəsi olaraq Sədərək rayonu ərazisində Dilucu sərhəd-keçid körpüsünün inşası da həmin illərdə həyata keçirilirdi. Bu səbəblə də şair sonuncu bənddə fikirlərini dilə gətirərək yazırdı:

Göz dikməsin qamətinə hər yetən,
O vətəndir, əcdadıma bir vətən.
Sürünsə də dövrəsində duman, çən,
Od ürəkli bir xalq üçün yaranmış [11, s.42].

Xalqın qardaş həsrətini, bütövlük duyğuları və nisgilini şair Hüseyn Razi də əsərlərində başlıca yerə qoymuşdur. Şairin "Culfadan Təbrizə", "Sahil düşüncələri" şeirləri, "Sahil həsrəti" poeması bu cəhətdən diqqətəlayiqdir. "Culfadan Təbrizə" adlı şeirin yazıldığı illər Naxçıvanda sərhəd hərəkatının baş tutub Cənubi Azərbaycanla sərhəd çəpərlərinin söküldüyü və əlaqələrin təmin olunduğu illərdir. Şair Təbrizə səfər çərçivəsində şeiri qələmə alıb. Şeirdə təmtəraqlı sevinc təzahürü əvəzinə gələcəkdə görünən ümid işartıları - Azərbaycanın birliyi və bütövlüyü idealı yer alıb. Gələcəklə bağlı daha böyük hadisələrin baş tutacağına ümid bəsləmək şeirdə ön planda görünməkdədir. Şeirdəki:

Səngərlər görünür mənə dərində,
Ümidlər imtahan qarşısındadır.
Elə bil dağların gədiklərində
Ovxarlı qılınclar hələ qındadır [11, s.151] –

misralar da hələ iki qardaş torpağın birləşməsi üçün əsaslı bir mücadilənin həyata keçirilməsi ideyasını təzahür etdirir.

Şairə Kəmalənin yaradıcılığında qardaş diyarlar arasında həsrət duyğuları əsas mövzulardan birini təşkil etmişdir. Şairə həmçinin "Dərələyəz həsrəti" şeirilə də öz dədə-baba yurd yerlərindən düşən azərbayfcanlılarının qəlbinin qubar yeri olan Qərbi Azərbaycan – dərələyəz həsrətini də poetik kədərlə əks etdirmişdir:

Dərələyəz, yallıların sındımı?
Güllü-güllü dərələrin yandımı:
Yağı səni özününkü sandımı?
Elin hanı, gülün hanı, a yurdum! [5, s.74]

Sərhədlərin açılması ilə qardaş sevincini özündə ifadə edən şairənin yaradıcılığında müxtəlif səfərlərin

nəticəsində meydana gələn "Axtarıram Şəhriyarı", "Şəhriyarım", "Ümid körpüsü", "Yunus İmrəyə", "Sevdim Türkiyəni", "Türk qardaşıma" və bu silsilədən müxtəlif şeirlər əsaslı yer tutmuşdur. Şairə "Axtarıram Şəhriyarı" şeirində ustad Şəhriyarın timsalında Cənubi azərbaycanlı qardaşları yada salaraq onlara olan həsrət və niskil duyğularını dilə gətirmişdir:

İllərdir ki, yol gəlirəm,
Nə yatıb, nə dincəlirəm.
Bu dərdi özüm bilirəm,
Aman Allah, köməyim ol!

Şəhriyarım – könül yarım,
Azərbaycan – qəm diyarım!
Orda yarım, burda yarım,
Aman Allah, köməyim ol! [4, s.69]

Şairə "Ümid körpüsü" şeirində isə naxçıvanla qardaş türkiyə arasındakı sərhədin ortadan qalxması və iki qardaşın on illərin ayrılığından sonra böyük təntənə və şadyanalıqla qucaqlaşmasını yüksək poetik əhval-ruhiyyə və ustalıqla dilə gətirir, sevinc hissilə qələmə alırdı:

Bitdi həsrət körpüsü,
Güldü mehrin hörgüsü.
Ya rəbb, ömürlü olsun,
Bu məhəbbət körpüsü.

Burdan nəsillər keçər,
Neçə əsrlər keçər.
Bu vüsal körpüsündən,
Həsrətli ellər keçər.

Xan Arazım, coş indi,
Həsrətlilər sevindi.
Sahillərin qovuşur,
Gülsün torpaq, daş indi [4, s.28]

Asim Yadigarın da əsərlərinin çoxunda dövrün ictimai ruhu və inkişafına uyğun olaraq fəlsəfi motivlər başlıca yer alır və bu üzdən fəlsəfi qayəli əsərləri çoxluq təşkil edir. Haqla nahaqqın yerdəyişimi, zülmün ədalətə güc göstərisi, ümidsizlik və başqa məsələlər bu əsərlərin başlıca ruhunu, məzmununu təşkil edir. Şair Asim Yadigarın "Bu yol Təbriz yoludur", "Üzü Təbrizə, Təbrizə", "Ay Paşazadə" əsərləri Cənubi Azərbaycanla açılan yollar və bu mövzu əhatəsində yazılan şeirlərdirlər.

Şair Asim Yadigarın "Bu yol Təbriz yoludur" şeiri Hüseyn Razinin "Culfa-Təbriz yolu" şeiri ilə, eyni zamanda oxşar məzmunda yazılmışdır. Yəni 1990-cı illərdə sərhəd hərəkatından sonra İran-Naxçıvan yolunun açılması münasibətilə Təbrizə ilk gedənlər sırasında olan ziyalılardan biri kimi Asim Yadigar da öz duyğularını dilə gətirmiş, Cənubi Azərbaycan həsrətilə bağlı fikrilərini ümid dolu notlara bükərək poetik həssaslıqla ifadə etmişdir. Şairin "Üzü Təbrizə, Təbrizə", "Ay Paşazadə" şeiri də həmin illərdə oxşar məzmunda yazılmış əsərlərdəndirlər.

Şairin "Culfadan Təbrizə" adlı şeiri də daha maraq doğuran əsərlərdəndir. Əlbəttə, şeirin yazıldığı illər Naxçıvanda sərhəd hərəkatının baş tutub Cənubi Azərbaycanla sərhəd çəpərlərinin söküldüyü və əlaqələrin təmin olunduğu illərdir. Şair Təbrizə səfər çərçivəsində şeiri qələmə alıb. Şeirdə təmtəraqlı sevinc təzahürü əvəzinə gələcəkdə görünən ümid işartıları- Azərbaycanın birliyi və bütövlüyü idealı yer alıb. Gələcəklə bağlı daha böyük hadisələrin baş tutacağına ümid bəsləmək şeirdə ön planda görünməkdədir. Şeirdəki:

Səngərlər görünür mənə dərində,
Ümidlər imtahan qarşısındadır.
Elə bil dağların gədiklərində
Ovxarlı qılınclar hələ qındadır [12, s.151] –

misralar da hələ iki qardaş torpağın birləşməsi üçün əsaslı bir mücadilənin həyata keçirilməsi ideyasını təzahür etdirir.

Ümumiyyətlə, ədəbi dövrün xüsusilə Cənub mövzusu ilə bağlı ideal və ideyalarını əks etdirmək baxımından Xanəli Kərimlinin yaradıcılığı daha xarakterik və səciyyəvidir. Azərbaycanın birliyi ideyası və Cənubi Azərbaycan həsrəti məsələsi Xanəli Kərimli yaradıcılığının məhvərinə çevrilir və onun yaradıcılığının başlıca səciyyəsi, ana mahiyyəti kimi ümumiləşmişdir. Təsadüfi deyil ki, X.Kərimlinin yaradıcılığından bəhs edərkən bu məsələni nəzər diqqətə çatdıran R.Qasımov onun ədəbi irsini Azərbaycan ədəbiyyatında Cənubi Azərbaycan-Araz mövzusundakı əsərlərilə öndərlik qazanmış Xalq şairi Məmməd Arazın davamı kimi qiymətləndirmişdir [7].

Müxtəlif mövzularda qiymətli əsərlər yazan müəllifin Cənub mövzulu əsərləri daha çox yaddaqalandır və Naxçıvan ədəbi mühitində bu mövzunu Xalq şairi Məmməd Arazdan sonra daha ardıcıl, sıx və fəal şəkildə davam etdirən məhz Xanəli Kərimlidir. Ümumiyyətlə, isə, "Xanəli Kərimlinin şeir yaradıcılığında həssaslıq və vətəndaşlıq mövqeyi ön sırada dayanır" [3, s. 755]. Şairin usta qələmindən çıxan "Özgə millətə", "Şair haqqın yolçusudur", "Məsəl", "Nəticələrim üçün", "Toğluqayanın Məmməd Araza məktubu", "Nənəm nağıl deyərdi", "Saxla qəlbini buztək" kimi şeirlər özündə şairin vətən bütövlüyü, vətən qeyrəti ehtiva edən şeirləri olaraq ədəbiyyatımızın zənginləşməsinə xidmət göstərmişdir. Ümumiyyətlə, şair Xanəli Kərimli yaradıcılığı üçün ilk növbədə ana vətənin bütövlüyü məsələsi aparıcıdır və səciyyəvidir. Şairin "Nəticələrim üçün" adlı şeirində deyilən kimi:

Vətəni bütöv olanın
Ürəyi də bütövdür,
Çörəyi də,
Yumruğu da...
Mənimsə
Ürəyim də,
Çörəym də,
Yumruğum da paradır.
Onunçün də
Yüzillərdir
Qoymadılar görəm ki,
Qibləm haradır,
Yolum haradır [6, s. 67]

Vaqif Məmmədovun bədii irsində də Cənubi Azərbaycan və qardaş Türkiyə həsrəti çox uğurla əks olunmuşdur. Hətta şairin bir kitabı "Arazdan keçə bildim" (Bakı, Şirvannəşr, 2004) adlanaraq başlıca mövzunu təşkil etmişdir. məhz Şairin bu dövrkü əsərlərində ictimai ruh, ictimai mövzular digər mövzu və məsələlərdən daha qüvvətli və qabarıq, daha sıx və fəal əks olunub. "Şair Vaqif Məmmədovun yaradıcılığı öz mövzu əhatəsinə görə olduqca genişdir. Ancaq vətən mövzusu, vətənə sevgi, yurda bağlılıq, vətəninin hər qarışına məhəbbət başlıca mövqe tutur" [14]. "Şəhriyar gəlmədi", "Müjdə verin Nəriman Həsənzadəyə", "Səni səslərəm, səslərəm", "Ağlama, Təbrizli bacım", "Ustad Şəhriyarın yüz illiyinə", "Beyləqandan qonaq gəlib Təbrizə" kimi poetik nümunələrində Cənubi azərbaycan həsrəti və nisgilini dilə gətirmiş, özünü duyğu və düşüncələrini ifadə etmişdir.

Şair V.Məmmədovun "Müjdə verin Nəriman Həsənzadəyə" şeiri N.Həsənzadəyə və onun "İçmək olmur Arazdan, Keçmək olmur Arazdan" misralarına cavab olaraq yazılıb. Şair burada Araz çayını keçərək Təbrizə - Cənubi Azərbaycana səfərini böyük təntənə və yüksək pafosla dilə gətirmişdir:

Müjdə verin Nəriman Həsənzadəyə,
Təşnə kimi içdim Araz çayından.
Müjdə verin Nəriman Həsənzadəyə,
Bu xoş gündə keçdim Araz çayını [9, s.69].

Şair bu torpağı "müqəddəs torpaq" adlandıraraq bütün Azərbaycan xalqının Cənub həsrəti və nisgilini ifadə etmiş, ağrını, kədəri yaşatmağa çalışmışdır:

Hər arışı müqəddəsmiş bu yurdun,
Həsrət-həsrət baxdım Xoya, Mərəndə.
Ayrılığın acısını duyurdum
Başı qarlı Savalanı görəndə [9, s.69].

Şairin "Səni səslərəm, səslərəm", "Ağlama təbrizli bacım" və başqa şeirlərində də qardaş həsrətinin

dəruni kəıdəri poetik həssaslıqla ifadə edilmişdir. Şairin "Ağlama, təbrizli bacım" bu şeirlərin arasında daha kədərli, daha nisgilli olduğu kimi, forma, janr baxımından da özünəməxsusluq qazanaraq bayatı janrının formasında yazıya alınmışdır:

Təbriz yanı düzən olar,
Qəm insanı üzən olar.
Dərdli dərdə dözən olar,
Ağlama, təbrizli bacım [10, s.47].

Şair həm də qardaş Türkiyə Cümhuriyyəti ilə sərhədlərin açılmasından doğan böyük bir sevinc və bayram duyğularını konkret şeirlərində ifadə etmişdir. "Türkiyə bayatıları", "Salam, İstanbul", "Yunus İmrə", "Xoş gəldin, türküm, xoş gəldin", "Türk qardaşım Habil Özmənə", "Özünə tək demə" şeirlərində iki türk qardaşın qovuşması və bundan doğan sevinc duyğuları, qardaş evinə səyahət və qardaşlarla birgəliyin qürüru bədii ifadəsini tapmışdır. "Xoş gəldin, türküm" şeirində Araz çayının aşılar olduğu və hətta Türkiyəyə qovuşmağa da yol verdiyini böyük sevinc duyğyları ilə dilə gətirmişdir:

Bulanıq sular duruldu,
Daha həsrətim yoruldu.
Arazda körpü quruldu,
Xoş gəldin, türküm, xoş gəldin [10, s.51].

XX yüzilliyin sonları XXI yüzilliyin astanasına doğru tarixin verdiyi şans, türkün qazandığı zəfər olaraq Azıərbaycan və Türkiyənin qüovuşmasından doğan sevinc duyğularını birlik və arxa-hayanlıq duyğuları ilə qovuşuq olaraq ifadə edən şair "Özünə tək demə" şeirində belə ifadə etmişdir:

Üstündə mən nanə kimi əsərəm,
Simurq quştək başın üstün kəsərəm.
Təkəm desən inciyərəm, küsərəm,
Habil özmən, sən özünə tək demə [10, s.54].

Bu ədəbi mərhələnin istedadlı nümayəndələrindən olan Muxtar Qasımzadənin də poetik vüsətlə əks etdirdiyi mövzulardan biri Cənubi Azərbaycan-Təbriz həsrəti idi. İlk səfərin Təbrizə gerçəkləşməsi ilə şairlər qələmlərinə sarılaraq uzun ilərin həsrətinə son duyğularını yüksək poetik həssaslıqla dilə gətirdilər. "Oxuyum" adlı şeirində Muxtar Qasımzadə:

Gedim, durnalara qoşulum gedim,
Gedim, Şah gölündə bir az oxuyum.
Təbriz öz içinə çəkib səsini,
Coşum, var könüldən bir az oxuyum [8, s. 116], -

deyə ümumxalq sevincini ifadə edirdi. Halbuki on il ondan əvvəl, 1981-ci ildə şair "Araz boyu, qatar yolu" adlı şeirində illərlə kök salan qardaş həsrətini ifadə edərək dilə gətirmiş, bu sərhədlərin nə vaxt ortadan qaldırılacağı nisgil və həsrətini ifadə etmişdi.

Beləliklə, Naxçıvan ədəbi mühitinin nümayəndələri də öz yaradıcılıqlarında qardaş həsrətini bədii şəkildə əks etdirmiş, Cənubi Azərbaycan və Türkiyə mövzusunda bir sıra əsərlər yazmışlar.

ƏDƏBİYYAT

1. Əliyeva N. Müstəqillik dövründə Naxçıvanda bədii ədəbiyyatın inkişafı məsələləri. s. 127-130. // Naxçıvan: dayanıqlı inkişaf, uğurlar, perspektivlər [1995-2020] mövzusunda AMEA Naxçıvan bölməsində keçirilmiş beynəlxalq elmi konfransın materialları, Naxçıvan: Əcəmi, 276 s.
2. Həbibbəyli, İ. Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı. s. 3-36. // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2016, 800 s.
3. Həbibbəyli, İ. Xanəli Kərimli şeirinin özəllikləri. // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2016, 800 s.
4. Kəmalə. Tanrıya heyranam mən. Bakı: Elm və həyat, 1997, 160 s.
5. Kəmalə. Vətənə sevdalıyam. Bakı: Nurlan, 2004, 132 s.
6. Kərimli, X. Anamdan məktub. Bakı: Adiloğlu, 2001, 174 s.
7. Qasımov, R. Bölünmüş Vətənin bütöv dərdi: şair qəlbində Cənub ağrısı. "525-ci qəzet", 2011-ci il, 2

aprel.
8. Qasımzadə, M. Seçilmiş əsərləri. Naxçıvan: Əcəmi, 2020, 336 s.
9. Məmmədov, V. Seçilmiş əsərləri. Dörd cilddə, I c. Bakı: Şirvannəşr, 2008, 288 s.
10. Məmmədov, V. Seçilmiş əsərləri. Dörd cilddə, II c. Bakı: Şirvannəşr, 2008, 260 s.
11. Razi, H. Ömür keçdi. Bakı: Elm və təhsil, 2011, 304 s.
12. Yadigar, A. O mənim ürəyim deyil...Naxçıvan: Əcəmi, 2020, 464 s.
13. Həbibbəyli, İ. Vətəndaşlıq mövqeyi, plyus lirizm. // https://525.az/news/64281-vetendasliq-movqeyi-plyus-lirizm.
14. Qasımov, R. Yaradıcılığı Vətən deyən şair. // http://etmtv.news/yaradiciligi-vətən-deyən-sair/

ABSTRACT

Nurlana ALIYEVA

THE TOPIC OF SOUTHERN AZERBAIJAN AND TURKEY IN THE LITERARY ENVIRONMENT OF NAKHCHIVAN IN THE INDEPENDENCE PERIOD

The works written on the subject of South Azerbaijan and Turkey in the creativity of Nakhchivan poets are discussed in the in the article. The author shows that the longing of South Azerbaijan and hankering with brother Turkey have always taken very important place in Azerbaijani literature as well as in Nakhchivan literary environment. Poets and writers have constantly addressed this topic and poetically created a literary memory. The creativity of Nakhchivan poets H.Razi, Kamala, A.Yadigar, V.Mammadov, X.Karimli, M.Gasimzadeh, V.Garakhan and others held the works written on the topic of both South Azerbaijan and Turkey, reflects brotherhood longing and hankering.

Keywords: *Nakhchivan literary environment, South Azerbaijan, Turkey, Darelaez, brotherly longing*

QƏRBİ AZƏRBAYCANIN (İNDİKİ ERMƏNİSTANIN) TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏRİNİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Könül SƏMƏDOVA
samedovakonul74@mail.ru
ORCID iD: 0000-0003-4061-9775
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Qərbi Azərbaycana (indiki Ermənistana) aid olan etnotoponimlərin struktur, fonetik, leksik-semantik və qrammatik xüsusiyyətlərinin ayrıca araşdırılması onların bu xüsusiyyətlərinin digər toponimlərlə müqayisəli təhlili üçün geniş materiallar verir. Bunu nəzərə alaraq etnotoponimlərin toponimlərlə qarşılıqlı şəkildə müqayisə edilərək öyrənilməsi daha faydalıdır. Bu zaman etnotoponimlərin leksik-semantik xüsusiyyətlərini daha aydın müəyyənləşdirmək olacaqdır.

Açar sözlər: *etnotoponimlər, müqayisəli metod, onomastika, appelyativlər*

İndiyə qədər dilçiliyimizdə leksik və semantik yolla yeni sözlər yaranmasının sərhəddi dəqiq müəyyənləşdirilməmiş, leksik yolla söz yaratmanın mahiyyəti tam aydınlaşdırılmamışdır. Dildəki xüsusi adların böyük bir qismi appelyativlərin köməyi ilə yaranır. Bu hadisə özünü toponimiyada da geniş şəkildə göstərir. Ona görə də onomastik vahidlərin leksik xüsusiyyətlərini öyrənərkən bu məsələyə fikir verilməlidir.

Təbii ki, dildə olan bütün appelyativlər onomastik vahidlərin yaranmasında eyni səviyyədə iştirak etmir. Appelyativlərin müəyyən bir qismi bu prosesdə kifayət qədər fəal və məhsuldardır. Digər bir qismi isə bu prosesdə passiv iştirak edir. Bu mühüm dil hadisəsi onomastik leksikadakı bütün xüsusi adlar qrupunu əhatə edir (1). Məsələn,

Ümumi söz	Xüsusi ad
Abad	Abad (k)
Ağ+bənd	Ağbənd (q)
Ağ+bulaq	Ağbulaq (p)
Ağ+qaya	Ağqay a
Balıq-çı	Balıqçı (q)
Boz+binə	Bozbinə (k)
Qala+ça	Qalaça (k)
Qamış-lı	Qamışlı (k)
Qara+bağ-lar	Qarabağlar (k)

Başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də leksik yolla söz yaratma prosesi ən qədim derivatoloji hadisədir. Bu prosesdə heç bir qrammatik vasitə olmadan sözlər dəyişir, ümumilik bildirməklə yanaşı, xüsusi obyekt adlarını da ifadə edir. Dilimizin onamastik leksikasında bu hadisə geniş yayılmışdır.

Xüsusi adların bir qismi semantik üsulla konversiya yolu ilə yaranır. Belə ki, müxtəlif nitq hissələrinə mənsub olan bir sıra ümumi sözlər substantivləşir və sırf xüsusi ad əmələ gətirir.

Onomastik vahidlərin semantik üsulla əmələ gəlməsində başlıca əlamət bu prosesdə müəyyən bir nitq hissəsinə məxsus sözlərin başqa nitq hissəsinə keçməsi hadisəsidir. Bu cəhətdən onomastik vahidlərin aşağıdakı əmələgəlmə tiplərini göstərmək olar.

Sifətin ismə keçməsi əsasında: Bu prosesdə sifətlər substantivləşir və ismin suallarına cavab verir. Hər biri özünəməxsus məna daşıyır. Hər bir adın da daşıdığı məna çox qədimlərə gedib çıxır. Dilimizin onomastik leksikasında sifət+isim modeli aşağıdakı şəkildə mövcuddur. Ağ kənd–Ağkənd; qara qoyun-qaraqoyunlu; ağ-xaç-ağxaç;

Göründüyü kimi, sifət əsasında yaranmış toponimlərin mənasında həmin sifətlərin bildirdiyi əlamət, keyfiyyət anlayışı olduğu kimi qalmır, zəifləyir. Felin ismə keçməsi əsasında: Faktlar göstərir ki, felin təsriflənməyən formalarından feili sifət və felin əmr, xəbər formalarından olan bəzi sözlər substantivləşərək ismin sualına cavab verir. Məs: Basar+keçər-Basarkeçər.

Ermənistan ərazisindəki türk mənşəli toponimlərin tərkibində heyvan adlarının müəyyən tezliklə

işlənməsi müşahidə edilir. Bu hadisə ümumiyyətlə, türk onomastikası, o cümlədən də Azərbaycan onomastikası üçün yayılmış hadisələrdəndir. Hələ "Kitabi-Dədə Qorqud" dastanlarında bir sıra heyvan adlarının antroponimlərin tərkibində işlənməsinə aid çoxlu faktlar üzə çıxır. Eyni sözləri Orxon-Yenisey abidələri haqqında da demək olar.

"Basat Dəpəgözü öldürdigi boyı"nda Dəpəgöz // Təpəgöz Basatdan kimliyini soruşanda onun

Anam adın sorar olsan - Qaba Ağac

Atam adım deyirsən - Qaqan Aslan cavabı heç də təsadüfü deyildir. Bununla o, ağac heyvan kultu ilə bağlılığını göstərmişdir.

Qurd protooğuzların ilkin soykökü sayıldığından bir növ totemlər totemi hesab olunur. Ümumiyyətlə, qurd əksər türkdilli xalqlarda güc, qüvvət, məğrurluq, qorxmazlıq rəmzi olmuşdur.

"Aldədə" əfsanəsində Aldədənin oğlunun Qurd qayasında Bozqurddan süd əmməsi də buna işarədir. Ermənistan ərazisindəki türk mənşəli toponimlər sırasında da tərkibində qurd sözü olanlar vardır: Qurdqulaq, Qurdqulu və s.

Etnonimlər əsasında toponimlərin yaranması geniş yayılmış haldır. Burada leksik sistemin xüsusi onimlərinin toponim tərkibində yer alması özünü göstərir. Belə vahidlərin tapılıb aşkara çıxarılması mənbələrindən biri də aşıq poeziyası və digər yazılı mənbələrdir. Prof. H.Mirzəyev Aşıq poeziyasında işlənən etnonimlərə ayrıca yazı həsr etmişdir. Müəllif leksik qatın tərkibində məhz etnonimlərlə bağlı olan vahidləri aşıq yaradıcılığı nümunələrindən toplaya bilmişdir [3, s. 55].

H.Mirzəyev göstərir ki, "Vers" Dərələyaz və Göyçənin sərhəddində yerləşən, ən uca dağdır. Bu ətrafda Versdən uca dağ yoxdur (3522 m.) Vers dağının Dərələyəzə baxan üzündə əvvəllər Qovuşq və Güldüz kəndlərinə məxsus Soğanlı yaylağı və burada Göytəpə, Qaçaqqayısı, Bərkdərə adlanan yerləri arasında türk tayfalarının birinci adını daşıyan "Xalaclar" yurdu adlı yer də vardır. Türk qəbilələrindən birinin adını daşıyan Arpa çayının bir qolu ilk mənbəyini Vers dağının ətəyindən alır.

Ərazi və kənd adlarında: …*Göyçə qar əlindən zara gəlibdir, Muğan həsrət çəkər a yağa qar qar*. (Aşıq Ələsgər) *Qanlıda qonaq qalanda Canıma sataşdı birə.* (Aşıq Ələsgər) *Savab bilməz Təhlə ,Qozlu, Qaradolax, Muğanlı, Mulğaduz, Kələntər, Dizax, Kari, Baharlı, Alpavut, Qaytax…* (Məlikballı Qurban); *Ədəb bilməz Sadıqbəyli, Əyricə, Qaraman, Ternavod, Ağdam, Güllücə, Cəbəlli, Kəngərli, Cinli Yarımca, Bərgüşad, Çələblər, Mərcanlı dəryab…* (Məlikballı Qurban) 4 *Göftügusi nab, Üçqovat, Padar, Hazır mayəhtacı, içində bazar…* (Məlikballı Qurban)

Göründüyü kimi, Qarqar, Arpa, Muğan, Təhlə, Qaradolax, Kələntər, Alpavut, Qaytax, Əyricə, Kəngərli, Mərcanlı, Padar və s. kimi tayfa və qəbilə adları aşıq poeziyasında və xalq şairlərinin əsərlərində çox yaxşı mühafizə olunub saxlanılmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: Azərbaycan ensiklopediyası, 1999, 588 s.
2. Əhmədov, T. Azərbaycan toponimikasının əsasları. Bakı: BDU nəşri, 1991. 317 s.
3. Mirzəyev, H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı: ADPU nəşri, 1997. 352 s.
4. Qurbanov, A. Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988, 536 s.

ABSTRACT

Könül SƏMƏDOVA

LEXICAL-SEMANTIC FEATURES OF TURKIC-ORIGIN ETHNOTOPONYMS OF WESTERN AZERBAIJAN (PRESENT-DAY ARMENIA)

A separate study of the structural, phonetic, lexical-semantic, and grammatical features of ethnotoponyms belonging to Western Azerbaijan (present-day Armenia) provides extensive material for a comparative analysis of these features with other toponyms. Considering this, it is more beneficial to study ethnotoponyms through their mutual comparison with toponyms. In this way, it becomes possible to determine the lexical-semantic features of ethnotoponyms more clearly.

Keywords: *ethnotoponyms, comparative method, onomastics, appellatives.*

GÖYÇƏ AŞIQ MÜHİTİ TARİXİ POVESTLƏRDƏ

(Gülhüseyn Hüseynoğlunun "Yana-yana" povesti əsasında)

Əli HƏŞİMOV
ali.hesimov@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Azərbaycan tarixi povestinin yaranması, inkişaf yoluna müxtəsər nəzər salınmış, tarixi povestlərdə ədəbi şəxsiyyət probleminə yanaşma sərgilənmişdir. Ustad aşıq-Dədə Ələsgər obrazı yaradılan, eyni zamanda Göyçə aşıq mühitinin tarixi inkişaf yolunun bəlli məqamlarının xarakterizə olunduğu Gülhüseyn Hüseynoğlunun "Yana-yana" tarixi povestinin ideya-bədii məziyyətləri, sənətkarlıq həlli, dil-üslub xüsusiyyətləri, tarixi reallıqların bədii təqdimi məqamları məqalədə tədqiqat obyektinə çevrilmişdir.

***Açar sözlər**: Gülhüseyn Hüseynoğlu, "Yana-yana", tarixi povest, Göyçə aşıq mühiti, tarixi reallıq, ədəbi şərtilik*

Müstəqillik illərinin tədqiqatlarında povest janrı ilə bağlı fərqli mülahizələr zamanla müzakirələrə səbəb olmuşdur. Mirzə İbrahimovun, Süleyman Rəhimovun, Əzizə Cəfərzadənin, Zaman Qarayevin və s. yazıçıların tarixi povestləri ədəbi tənqid tərəfindən dəyərləndirildikdə də, uzun müddət Azərbaycan oxucusu tərəfindən oxunanda da povestin janr kimi mövcudiyyəti problemi ədəbiyyatşünaslığı məşğul etmirdi. Müstəqillik illərinin gətirdiyi meyillərdən biri də janrlararası sərhədlərin kövrəkləşməsidir. Romana povest, povestə hekayə deyildiyini ədəbi mətbuatdan müşahidə etmək heç də çətin deyil. Doğrudur, povest ad olaraq postsovet məkanında işlənən termindir. Dünya ədəbi təcrübəsində "Uzun hekayə" kimi xarakterizə edilir povest. Povestin janr olaraq necə adlandırılmasından asılı olmayaraq, janr Azərbaycan ədəbiyyatının gerçəkliyidir.

Povest janrının inkişaf yolunda əhəmiyyətli istiqaməti tarixi povestlər təşkil edir. Ədəbi şəxsiyyət obrazı yaradılan tarixi povestlər içərisində Gülhüseyn Hüseynoğlunun Aşıq Ələsgər obrazını yaratdığı "Yana-yana" tarixi povesti nəinki ustad aşığın, eləcə də Göyçə aşıq mühitinin bədii planda öyrənilməsi üçün maraqlı hadisədir.

Gülhüseyn Hüseynoğlunun "Yana-yana" tarixi povesti aşıq poeziyamızın nəhəng simalarından olan Aşıq Ələsgərin həyatı və mühitini, dövrün bir sıra siyasi və sosial-mədəni proseslərini, yaradıcılıq axtarışlarını əsasən tarixi reallıqlara uyaraq bədii planda əks etdirməklə geniş oxucu kütləsinə Aşıq Ələsgər şəxsiyyətini, sənətkarın yaşadığı reallıqları çatdıra bilmişdir. "Yana-yana" povestindən bəhs edən professor Vaqif Yusili qeyd edir ki, "Yana-yana" povesti böyük el sənətkarı Aşıq Ələsgərin gənclik illərindən söz açır. Lirik hissləri, insan qəlbinin, insan sevgisinin ən zərif, kövrək məqamlarını əks etdirən bu povest ilk cümləsindən başlamış oxucunu öz ardınca çəkir, gənc Ələsgərin keçirdiyi hisslər, onun varlı evində nökərçilik etməsi, burada Səhnəbanuya aşiq olması, onun eşqiylə gözəl qoşmalar söyləməsi və nəhayət, bu eşqin qarşısına çıxan maniələr...bütün bunlar Aşıq Ələsgərin tərcümeyi-halı ilə uyğundur. Lakin təbii ki, tərcümeyi-halla bədii əsər arasında eynilik ola bilməz. Çünki bədii əsərdə qəhrəmanın keçirdiyi hisslər, onun sevgisi, əhatə olunduğu mühit və qarşılaşdığı çətinliklər müəllifin bədii təxəyyülünün məhsuludur və Gülhüseyn Hüseynoğlu professional bir yazıçı kimi bunları ustalıqla təsvir edə bilmişdir" [8].

"Aşıq sənəti öz mahiyyətində milli kimlik mücadiləsini, müstəqil dövlətçilik düşüncəsini, ana dilinə mehr-məhəbbəti, ana yurda vurğunluğu, qəhrəmanlıq, mərdlik və halallığı cəmləşdirir" [7, s.7]. Görkəmli tədqiqatçıların fikirlərindən çıxış edərək vurğulamaq yerinə düşər ki, Gülhüseyn Hüseynoğlu da məhz aşıq yaradıcılığını, Aşıq Ələsgər obrazını bədii ədəbiyyata gətirməklə milli yaddaşa xidmətin uğurlu nümunəsini göstərdi. Əsər aşığın atası Alməmməd kişi ilə balaca Ələsgərin səfərinin təsviri ilə başlayır. Hadisələrin axarından məlum olur ki, bu yol Aşıq Ələsgəri həm çətin həyat məktəbinə, ağır sınaqlara, fiziki istismara, mənəvi sıxıntılara, çörək davasına, həm də ilk məhəbbətinə götürür. Yazıçı özünəməxsus biçimdə hadisələrin axarında bir sıra mətləblərə aydınlıq gətirdiyi kimi Çar Rusiyasının yerlərdə, xüsusilə də Azərbaycanda yerli əhaliyə münasibətini, istismarçı siyasətinin mahiyyətini açmağa çalışır. Aşıq Ələsgərin ailəsi isə bu zaman dövrün bir sıra gerçəklərini yaşamışdı, hər cür məhrumiyyətlərini görmüşdü, aclıq, səfalət çəkmişdi, o həddə çatmışdı ki, atası Alməmməd kişi böyük ailəni dolandıra bilmədiyi üçün ürəyindən qan-yaş axa-axa oğlu Ələsgəri "boğazına" mehtərliyə verirdi Kərbalayı Qurbanın yanına. Yazıçı dövrün məhrumiyyətlərinin iç üzünü bu ailənin timsalında açmağa çalışır. Əsərin adı "Yana-yana"da Alməmmədlə Pərzadın çəkdiyi əzabların ifadəsi baxımın təsirlidir və

kifayət qədər emosional effekt yaradır. Bədii şərtilikdən yaradıcı şəkildə istifadə edən G.Hüseynoğlunun təqdim etdiyi bu məqam tədqiqatlarda bu şəkildə öz real əksini tapır: "Kərbəlayı Qurban adlı birisi Almənmədin yanına gəlib, onu dilə tutmuş, köməksiz olduğundan şikayətlənmiş, bir neçə il Ələsgərin onlara kömək etməsini xahiş eləmişdi. Ələsgər Kərbəlayı Qurbanm evində dörd il işləmiş, bu müddətdə özünün işgüzarlığı, mərifət-qanacağı ilə hörmət qazanmışdı. Kərbəlayı Qurban onu oğul gözündə görürdü. Axır vaxtlar Kərbəlayı Qurbanın yegane qızı Səhnəbanı ilə Ələsgərin arasında səmimi bir məhəbbət də yaranmışdı. Kərbəlayı Qurban bu işdən xəbər tutanda çox şad olmuş və Ələsgəri yanında həmişəlik saxlamaq üçün gəncləri evləndirmək fikrinə düşmüşdü. Lakin Kərbəlayı Qurbanın qardaşı Pullu Məhərrəm bu məsələni eşidəndə, Ələsgəri qovdurmuş və Səhnəbanını öz oğlu Mustafaya almışdı" [2, s. 4].

Bütün bu ciddi sosial-siyasi proseslərin fonunda yazıçı ön plana Aşıq Ələsgərin məhəbbətini çıxarmaqla uğurlu ədəbi cəhd edir. Bu ülvü məhəbbətin ucalığı, saflığı, aliliyinin qarşısında bir də dözülməz həyati reallıqlar var idi. Məhz bu reallıqların fonunda Ələsgərin şəxsiyyət kimi təkamülü izlənilir, onun mənəvi dünyası, yaddaşında dərin izlər qoyan nakamlıq sindromu onun gələcək həyatının da müəyyən cizgilərinə təsirsiz ötüşmür. Bunu povestdə, bədii planda görməklə yanaşı, el sənətkarının həyatı ilə bağlı ədəbi-tarixi mənbələrdə də müşahidə edə bilirik. Bu detallar isə əsərin tarixiliyini şərtləndirir, povestdə tarixi kolorit doğurur, tarixi reallıq-bədii əsər-müasir dövr-yazıçı mövqeyini vəhdətdə görməyimizə, dəyərləndirməyimizə imkan verir. Klassik poeziyamızdan üzü bəri aşiq məşuqun sevgi macərasında qovuşmama, sınaqlardan keçmə, buta verilmə, çətinliklərlə mübarizə aparma və sevdiyinə qovuşma motivləri əsərdə o qədər də Aşıq Ələsgərin timsalında görünməsə də, Ələsgər şəxsiyyətinin, dövrə, dövrün ədalətsizliklərinə münasibətinin, sosial ədalətsizliklərin pozulduğu, hətta pik həddə çatdığı mühitdə aşığın mənəvi kamillik mərhələsinə gedən yolu daha dərin planda əks etdirilməsə də, bu kimi detallar povestdə yarımçıqlıq sindromu yaratmır. Belə ki, aşıq öz məhəbbəti yolunda mübariz xarakter kimi əsərdə ön plana çıxarılmır, amma bununla yanaşı, onun mühitin sərt qanunları qarşısında acizliyi, çarəsizliyi, hələ yetkinləşməmiş vücudu, düşüncələri, mənəvi təkamül mərhələlərindəki çatışmamazlıqları, daha dəqiqi tarixi şəxsiyyətlə müqayisə məqamındakı uyuşmamazlıqlar dövrün sosial problemləri fonunda o qədər də diqqəti cəlb etmir. Hətta onların görüşlərinin yasaqlandığı dövrdə məşuqun bütün məhrumiyyətlərə sinə gərərək yalnız bir amal üçün susması- Aşıq Ələsgərin gələcəkdəki aşıq kimi karyerası naminə ona-qəhrəmana ürək-dirək verməsi, özü üçün məqsəd müəyyənləşdirdiyi məhəbbətini qurban vermə düşüncəsindəki sabitliyi, əminliyi onun Ələsgərə olan məhəbbətindən də ali tutduğu aşığın sənətdə keçəcək gələcəyi naminə ali duyğularını qurban verməyə hazır olması Səhnəbanunu "ucaltdığı" qədər məhz bu səhnədə Aşıq Ələsgərin sabit olmayan düşüncələri oxucunu narahat etmir. Ələsgər məhəbbətində çarəsizlik, maddi məhrumiyyətlər, həyati sıxıntılar, sosial kimliyi və statusu ciddi mənada əngəldir. Ələsgərin dilindən bu kimi gerçəkləri ifadə etməyən, onun susması ilə situasiyanı daha da dərinləşdirən yazıçı müqabildə Səhnəbanunun öz məhəbbəti naminə Ələsgərin gələcəyinin müəyyənləşməsini üstün tutması, bunu gözə ala bilməsi Azərbaycan qadını kimi Səhnəbanunu ucaldır. Düzdür, Səhnəbanu dünyagörüşü etibarilə o qədər ucalıqda deyil ki, məhz Ələsgərin gələcəkdə haqq aşiqliyi mərtəbəsinə gedən yolunun sütunu kimi bu məhəbbətin nakamlığının hardasa şərt olduğunu dərk etsin. Bununla yanaşı, mövcud situasiyada öz şəxsi səadətini deyil sevdiyi insanın gələcəyini düşünə bilməsi, bu mənəvi mərhələyə ucalması XIX əsrin məşuq obrazını daha da ucaldır. Qəhrəmanımız isə tam mənada özünüaxtarış mərhələsini keçir. Belə ki, Səhnəbanu eşqi ilə haqdan gələn səsi dinləyən Ələsgər ilk qoşmalarını deyir, həm də coşğun təblə deyir. Artıq Aşiq həqiqət yolunun yolçusu olduğu gerçəyini dərk etməyə başladıqca keçirdiyi mənəvi təbəddülatlar, ruhi sarsıntılar nəticəsində müxtəlif "hal"lar keçirir. İlk baxışdan əsərin dil xətası kimi də dəyərləndirə biləcəyimiz aşağıdakı cümlələr aşığın sarsıntılarının ifadəsi kimi maraq doğurur. Əsərdə oxuyuruq: "Ay Ələsgər, ay Ələsgər vur-tut ikicə qoşma demisən, əmmə çox basıb bağlayırsan. Bir az aşağı en, bala, aşağı en, nökərçiliyini eləginən, görək axırı nə olur..." [3, s. 235]. Haqdan gələn sədayla üfüqlərdə gəzən Ələsgər xəyalı ilə reallıqlar arasındakı məsafənin görünməsi baxımından bu detal xüsusi əhəmiyyət kəsb edir. Bir tərəfdən onun ruhi-mənəvi sarsıntılarını, bir tərəfdən ülvü məhəbbəti yolundakı əngəlləri, bir tərəfdən də sırf realist planda görülməsi gərəkən gerçəkləri ifadə edən sözlər Aşıq Ələsgər şəxsiyyətinə gedən yolu tam mənası ilə gözlərimiz önündə canlandırır.

Bəllidir ki, söz sənəti şifahi şəkildə yaranaraq dildən-dilə yayılmış, yaşamışdır. Tarixin sonrakı mərhələlərində yazıya alınan şifahi xalq ədəbiyyatı nümunələrinin tədqiqi istiqamətində müəyyən işlər görülsə də profesional müstəvidə şifahi və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələri, bu əlaqələrin spesifik xüsusiyyətləri dolğunluqla araşdırılmamış, şifahi ədəbiyyatın yazılı nümunələrə təsiri, eləcə də əks əlaqə məqamları tam aydınlaşdırılmamışdır. Bu məqamı diqqət mərkəzinə çəkən N.Xəlilov vurğulayır ki, "Azərbaycan ədəbiyyat-şünaslığında yazılı ədəbiyyatla folklorun qarşılıqlı əlaqələrinə dair məsələlərdən bir çox tədqiqatlar bəhs etsə də bu problem kifayət qədər araşdırılmayıb. Bu barədə yazılmış tədqiqatların çoxunda bir sıra çatışmamazlıqlar

da nəzərə çarpır. Bu, ilk növbədə təsvirçilikdə, folklora mənsub süjet, obraz və bədii ifadə vasitələrinin şairlər tərəfindən istifadəsinə dair faktların sadəcə sadalanmasında, folklorla yazılı ədəbiyyatın qarşılıqlı təsirini şərtləndirən səbəblərin nəzəri və tarixi baxımdan açıqlanmamasında özünü göstərir" [6, s. 54].

Əsərdə tarixiliyi şərtləndirən məqamların başında aşığın şəxsi bioqrafiyası ilə səsləşən məqamlarla yanaşı, Ələsgər yaradıcılığından seçilmiş qoşmaların mətn daxilində istifadəsi də maraq doğurur. Belə ki, Ələsgərin ilk qoşması bu mənada əlamətdardır:

Dərdim çoxdu, dindirməyin, həzərat!
Məni bir alagöz ceyran öldürür.
Qılıncsız, tüfəngsiz alır canımı,
Bilən yoxdur, pünhan-pünhan öldürür. [3, s. 228]

Aşiqin çəkdiyi iztirabların ifadəsi baxımında yerində seçilmiş şeir parçası müvafiq məqama emosional ovqat qatmaqla yanaşı, janrın tələbinin də qorunduğunu göstərir. Yaxud yazıçı ustalıqla mövcud səhnəyə uyğun olaraq seçilmiş folklor nümunələrindən istifadə edir. Ələsgər və Səhnəbanunun məhəbbətinin cövlan etdiyi günlərdə məşuqun gülüşünü ifadə edən

Əzizim, gül üşüdü
Şeh düşdü,gül üşüdü.
Güldün əqlim apardın,
Bu necə gülüş idi?

Bayatının aşığın dilindən səslənməsi nə qədər xoş ovqat yaradırsa bu məhəbbətin sədlərə dayanması ilə mənəvi təbəddülat keçirən Ələsgərin dilindən verilən

Eləmi bağrı qara,
Bir quş var, bağrı qara.
Lalə kimi gül olmaz,
Onun da bağrı qara [3, s. 247]

misralar da eyni dərəcədə onun sarsıntılarının ifadəsi baxımından əhəmiyyət daşıyır, yazıçının seçimi kimi də, folklordan bəhrələnmə məqamı kimi də razılıq doğurur.

Kərbalayı Qurbanın xəbəri olduqdan sonra Ələsgərə elə bir söz yarası vurulur ki, ömür boyu yaddan çıxmayan, yaddaşını didən bu sözlərlə qalınmır. Ələsgər öz evlərinə qayıdır. Amma bu evdən gedən insan deyil o. İndi o artıq haqdan içdiyi badənin sərməstliyini yaşayır. Qarışıq duyğular, anlaşılmaz düşüncələr, mənəvi sarsıntılar, çarəsizlik, ədalətsizliklər qarşısında acizlik, ruhi sarsıntılar bir tərəfdən Ələsgəri üzürsə digər tərəfdən də haqdan gələn səs onu mənəvi kamillik yoluna səsləyir. Bu səslər, nidalar onun ruhi rahatlığını pozursa da anlaşılmaz bir ümid də, istək də aşılayır. Mətndə oxuyuruq ki, Ələsgərin gözünə Qeys görünür. "Bilirəm ki, özündən söz deyirsən. Mən də deyirdim. Çöllərə düşməsəm əməlli-başlı şair idim. Sən söz de Ələsgər, bizim hamımızın əvəzindən sən söz deginən. Kərəmin də, Qəribin də, Şeyx Sənanın da əvəzindən sən söz deginən, Ələsgər!" [3, s. 246]. Düzdür, əsərdə cümlələr nə qədər bəsit planda, dayaz şəkildə verilsə də, Ələsgər, onun düşdüyü məhəbbət çıxılmazlığı, haqdan gələn nidalar, mənəvi yetkinliyə doğru yolun sarsıntıları bu cümlələrdəki seçimsizliyi görünməz edir. Ənənəyə söykənən, Kərəmin, Şeyx Sənanın, Qeysin taleyini göz önünə gətirən yazıçı Ələsgərin haqq yollunda şəxsi səadətini gözardı edə bilməsini, Məcnun kimi çöllərə düşməməsini onun bəlkə də mənəvi qələbəsi kimi dəyərləndirir. Sələflərinin əvəzindən də söz demək missiyasını üzərinə götürən Ələsgərin mənəvi mərtəbəsi, ruhani dünyası tarixi şəxsiyyət kimi Aşıq Ələsgəri göz önünə gətirdiyimiz zaman onu yazıçının idealizə etməsinə haqq qazandırır. Bəlli yolda seçim qarşısında qoyduğu haqq aşiqinin "Uca söz"ü seçməsində Ələsgərin şəxsiyyət kimi kamilliyinin ifadəsini diqqət mərkəzinə çəkən yazıçı uğurlu ədəbi-fəlsəfi cəhd edir. Amma unutmaq olmaz ki, qəhrəmanın yaşadığı dövr XIX əsrdir. Orta əsrlərin ehkamçı təsəvvürləri zəifləyibdir, sələflərinin yaşadığı dövrlərin sosial-siyasi gerçəklikləri, şəxsiyyət konsepsiyası fərqli prizmadan dəyərləndirilir. Bir sözlə, Ələsgərin seçimində mövcud reallığın payını da vurğulamaq gərəklidir. Çünki Ələsgər Məcnun, Kərəm, Sənan olmadığı kimi, onun sosial statusu da onlarınkı ilə daban-dabana ziddir.

Əsərdə diqqət çəkiləsi məqamlardan biri də Ələsgər obrazının irfani düşüncədə dərki məsələsidir. Bəllidir ki, aşıq haqqındakı tədqiqatlarda onun təsəvvüf ideyalarına bağlılığı, irfani düşüncəni yaşaması və əsərlərində irfan fəlsəfəsindən çıxış etməsini təsdiqləyən bir sıra fikirlər vardır. Tarixi şəxsiyyət kimi Aşıq Ələsgər əsərlərində dövrün irfan fəlsəfəsinə agah şəxsiyyət kimi çıxış edir və şeirlərində təsəvvüf ideyaları duyulur. Aşığın dünyagörüşündəki bu məqamı işıqlandıran tədqiqatda qeyd olunur ki, "Aşıq Ələsgərin sufi

aşıq olması məsələsinə gəldikdə isə mənim fikrim belədir: Aşıq Ələsgər bütün sufi terminlərinə bələddir. O, həmin terminləri konkret obrazların, gözəllərin təsviri üçün məharətlə işlədir və sufizmin bütün prinsiplərini dərindən bilir, onlardan böyük sənətkarlıqla istifadə edir, amma mənim fikrimcə, o, sufizmin necə deyərlər kanonlaşmış mərhələlərini keçməmiş, mürid-mürşüd münasibətləri ilə bağlı şərtləri məktəb səviyyəsində keçməmişdir" [5, s. 22]. Fikirlə razı olmaqla yanaşı, onu da diqqətə çatdıraq ki, aşığın yaşadı XIX əsr mühitində təsəvvüf ideyaları zəifləməyə başlamışdı və klassik ədəbiyyatımıza hakim kəsilən irfan fəlsəfəsi XIX əsrin əvvəllərindən etibarən poeziyanın arxa planına keçirdi. Yazıçı Gülhüseyn Hüseynoğlu da bu məqama həssaslıqla yanaşaraq aşığın obrazını fərqli planda işləmişdir.

Gülhüseyn Hüseynoğlunun yaradıcılığında özünəməxsus ədəbi-nəzəri dəyərə sahib olan "Yana-yana" tarixi povesti Azərbaycan tarixi nəsrinin maraqlı nümunəsidir, Aşıq Ələsgərə ucaldılmış söz abidəsidir. Əsər ədəbi fikrimizin zənginləşməsinə xidmət etməklə yanaşı, yaratdığı tarixi aura baxımından da diqqətəlayiqdir.

Ötən əsrdən etibarən Azərbaycan tarixi nəsrində sənədli roman, sənədli povest ənənəsi formalaşaraq yeni nümunələrin timsalında tariximizin müxtəlif dövlərini sənədlərin diliylə, bədii planda ədəbi müstəviyə gətirmişdir. Belə əsərlərin bir çoxunda XX əsrin əvvəllərindəki hadisə, dövr və şəxsiyyətlərdən bəhs edilmişdir. Bu mənada diqqəti cəlb edən, yazıldığı dövrün abı-havasını özündə əks etdirən maraqlı povestlərdən biri də Gülhüseyn Hüseynoğlunun "Xəzərin qoynunda" əsəridir. Olsun ki, bu gün əsər mövzusu, ideyası etibarilə yazıldığı dövrdəki aktuallığını saxlamamışdır. Amma bütün hallarda ötən yetmiş illik sovet hakimiyyəti dövrü də tariximizin mühüm tərkib hissəsi idi və quruluşun yeni yarandığı dövrlərdə kommunizm quruculuğu ideyaları, ictimai mühitdə formalaşan dəyərlər, dürüst, idarəçilik əxlaqına malik olan sovet vətəndaşlarının yetişdirilməsi məsələləri bu dövrdə Azərbaycan sovet ədəbiyyatının da maraq dairəsində idi. Belə deyirlər ki, dünən bu gün üçün tarixdir. Bu prizmadan yanaşaraq sosializm quruculuğu prosesində müxtəlif sahələrdə çalışan əmək insanlarının vicdanlı, əlitəmiz, dürüst, dövlət malına göz dikməyən sovet vətəndaşı kimi yetişməsində ədəbiyyat mənəvi tərbiyə vasitəsi olaraq rol oynayırdı. Qəhrəmanımız universiteti yenicə bitirib Gürgan nextçıxarma briqadasına işə göndərilmişdir. O, ilk günlərdən işinə məsuliyyətli yanaşması ilə diqqəti cəlb edən dürüst bir insan kimi xarakterizə edilə bilər. Yetişdiyi ailə, aldığı tərbiyə, düşdüyü mühit onun möhkəm əqidəsini üzə çıxarır. Yazıçı neft emalı sahəsində görülən işlər, qarşıya çıxan çətinlikləri o dövrün canlı şahidlərinin, buruqçuların yanında olaraq öyrənmiş, povestin sənədlilik-tarixilik bazasını təmin etmişdir. Məsələn əsərin sənədliliyini təmin edən məqamlar kimi məşhur neftçi Minirə Məmmədbəylinin adının çəkilməsi, yaxud Xoşbəxt Yusifzadədən bəhs olunması, eyni zamanda o dövrün buruq ustaları olan Mixail Kaveroçkin, naxçıvanlı Qurban Abbasov, Yusif Kərimov kimi simalardan söz açılması maraq doğurur. Neft buruqlarında sıradan bir işdən başlayaraq yüksələn qəhrəmanımız Aslanın əzmi, iradəsi, dürüstlüyü, vicdani əməklə yaşaması onun yüksəlişini təmin edir, ideyasını yazıçı ön plana çıxararaq sosializm cəmiyyətində zəhmətkeşliyə verilən dəyəri ifadə etmiş olur. Yazıçı həssas müşahidələri, neftçilərin həyatı və iş prosesi ilə bağlı hər bir incə detalı mənimsəməsi nəticəsində peşə leksikasına məxsus olan – "İstehsalat ikinci məktəbdir" tezisini qabardır. Ümumilikdə sosializm quruculuğu, kommunizmə gedən yolda qəhrəmanımızın timsalında mənəvi tərbiyə problemlərindən, zəhmətkeşlərə göstərilən qayğıdan çıxış edən yazıçı öz missiyasını yerinə yetirərək bir sıra uğurlu cəhdlərə də imza atmışdır. Bu mənada Azərbaycan dramaturgiyasının görkəmli siması Cəfər Cabbarlının "Qız qalası" əsərindən nümunələrin gətirilməsi [4, s. 124] də, mətnə uyğun olaraq folklor nümunələrindən bəhrələnmə də povestin oxunaqlılığına hesablanmışdır. Mətndə verilən bayatı da qəhrəmanın sevgi hisləri ilə yaşadığı anların psixoloji nüanslarını duymaq baxımından maraqlı alınmışdır.

Əzizim dalda yeri,
Meh vurar dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri. [4, s. 116]

Ümumilikdə götürdükdə Gülhüseyn Hüseynoğlunun "Xəzərin qoynunda" sənədli povesti sovet dövrü Azərbaycan nəsrinin maraqlı nümunələrindən biridir. Xatırlayaq ki, sovet dövründə sosializm əxlaqını aşılayan S.Rəhimovun "Mehman" povesti hansı səviyyədə qarşılanırdı, nə qədər böyük auditoriyanın diqqət mərkəzində idi. O zaman "Xəzərin qoynunda" povestinin də sovet cəmiyyətində necə qarşılandığını duya bilərik.

Nəticə olaraq deyək ki, yüz ilə yaxın tarixi olan Azərbaycan tarixi nəsrinin uğur payında tarixi mövzulu povestlərin də rolu vardır. Eləcə də tarixi, sənədli, sənədli-xroniki povestlərin müəllifi kimi Gülhüseyn Hüseynoğlunun da qələminə məxsus olan "Yana-yana", "Xəzərin qoynunda" kimi povestlər tarixi-sənədli bədii nəsrimizin yaddaqalan nümunələridir.

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər – 190: biblioqrafiya. (M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, tərt. ed.: S.Əsədova, G.Misirova; ixt. red. və burax. məsul K.Tahirov; red. M.Vəliyeva). Bakı: Elm və təhsil, 2011, 149 s.
2. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Hüseynoğlu, G. Yana-yana. Bakı: Bakı: Yazıçı, 1986, 424 s.
4. Hüseynoğlu, G. Çətin yol. Bakı: Gənclik, 1987, 184 s.
5. Hüseynov, M. Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil, 2017, 313 s.
6. Xəlilov, N. Aşıq yaradıcılığı və yazılı poeziya. Bakı: Elm, 2012, 325 s.
7. Qasımlı, M, Allahmanlı M. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı: Elm və təhsil, 2018, 220 s.
8. Yusifli, V. Mənsur şeir ustasi: Gülhüseyn Hüseynoğlu ("Ədəbiyyatımızın cəfakeşləri" silsiləsindən). "Ədalət" qəzeti, 21 iyun, 2014. s.14.
9. http://www.kitabxana.net/?oper=readNews&id=997

ABSTRACT

Ali HASHIMOV

HE GÖYÇƏ ASHUG ENVIRONMENT IN HISTORICAL NOVELLAS
(Based on "Yana-yana" by Gulhuseyn Huseynoglu)

The article briefly reviews the emergence and development of the Azerbaijani historical novella and demonstrates approaches to the problem of literary personality in historical novellas. The ideological and artistic features, artistic craftsmanship, language and stylistic characteristics, and the artistic presentation of historical realities in Yana-yana by Gulhuseyn Huseynoglu — in which the image of the master ashug Ashig Alasgar is created and certain stages of the historical development of the Göyçə ashug environment are characterized — have become the object of research in the article.

Keywords: *Gulhuseyn Huseynoglu, "Yana-yana", historical novella, Göyçə ashug environment, historical reality, literary convention.*

NAXÇIVANDA MƏSKUNLAŞAN QƏRBİ AZƏRBAYCANLILARIN VƏTƏN HƏSRƏTİ VƏ QAYIDIŞ ÜMİDLƏRİNİN POETİK İFADƏSİ

Ramiz QASIMOV
ramizqasimli44@gmail.com
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Məqalədə Naxçıvanda məskunlaşan Qərbi azərbaycanlılardan olan şair və ədiblərin yaradıcılığında bədii əksini tapan vətən, el-oba həsrəti və qayıdış ümidlərindən bəhs edilmişdir. Qeyd edilmişdir ki, tarixin müxtəlif mərhələlərində – iki yüz il ərzində erməni zülmü nəticəsində Azərbaycan xalqı öz ata-baba, doğma, qədim yurd yerlərindən didərgin salınaraq müxtəlif yerlərdə məskunlaşmaq məcburiyyətində qalmışlar. Müxtəlif dövrlərdə baş verən soyqırımı və deportasiya hadisələri nəticəsində didərgin düşmüş zərərdidələrdən Naxçıvana da üz tutub gələnlər və burada məskunlaşanlar olmuşdur. El şairi Aşıq Kamil Teymuroğlu, Allahverdi Kalbalıyev, Səttarxan İmaməli, Ramiz Babayev, Zaur Vedili və başqaları elin kədər və dərdinin poetik tərcümanına çevrilmiş, el dərdini bədii ədəbiyyatın dililə söyləmişlər. Şairlər öz yaradıcılıqlarında ermənilərin zülmlərlə yaratdığı faciələri təsvir və təqdim etmiş, elin üzləşdiyi faciələri kədərli notlarla qeyd etmişlər. Onlar həm də didərgin düşdükləri doğma yerlərin həsrətini, xatirələrini bədii yaradıcılıqlarında yaşatmış, yer-yurd adlarının xatırlanması ilə bədii formalı tarix və xəritə formalaşdırmışlar. Allahverdi Kalbalıyev "Göyçə, Zəngəzur qaçqınlarına", "Nə xəbərin var?", "Ağlasın", "And yerim", "Qalıb ocağım", "Vətən ağlayır", "Yurd harayı", Səttarxan İmaməli "Qalıbdır", "Məhəmməd", "Qafan dağları", "Xatırladıram", "Gəlir", Ramiz Babayev "Nənəmə bir ovuc torpaq borcluyam", "Məni o yerlərə qaytar, ay Allah", "Dağlar", "Öldürəcək məni", Zaur Vedili "Kaş qayıda Xalisalı günlərim", "Vedisiz göynəyir Zaur Vedili", "Xalisa həsrəti, Vedi həsrəti", "Həsrətəm mən qucağına kəndimin", "Vətən dərdi, torpaq dərdi, el dərdi", Aşıq Kamil Teymuroğlu "Kim gəlibdir təzə, dağlar", "Az qalırdı yaza, dağlar", "Bağlayıblar yolu, dağlar", "Dağlar", "Mənimlə qan ağlar sazım dağlara" və b. şeir nümunələrində Qərbi Azərbaycandan ayrılmanın kədər və həsrətini, o yerlərə qayıtmaq ümid və inamını ifadə etmişlər.

***Açar sözlər**: Qərbi Azərbaycan, vətən həsrəti, Dərələyəz mahalı, Qərbi Azərbaycana Böyük Qayıdış*

"Alagöz"dən bu yana,
"Ağbaba"dan o yana.
Hey dayana-dayana
Gəzintiyə çıxan Kür! [3, s. 234-235]

"Ə.Cavadın həsrət dolu ifadə etdiyi coğrafi adlar mühaciərt ədəbiyyatımızın görkəmli nümayəndəsi Almas İldırımın da lirikasında bol-bol işlənmiş, Azərbaycanın tarixi bütövlüyü və Turan ellərinin nisgili öz əksini tapmışdır" [4]. Həsrət və kədər şairlərindən olan mübariz istiqlalçı çair Almas İldırım da "Əsir Azərbaycanım" adlı şeirində Əhməd Cavad kimi Alagözü vətən bütövlüyünün simvolu kimi görərək ona Ağrı dağdan salam ötürmək istəyini dilə gətirmişdi: "Salam desəm, rüzgar alıb götürsə, Ağrı dağdan Alagözə ötürsə" [7, s.115]. Ə.Cavadın və A.İldırımın Kür çayının axışı istiqamətində adlarını məxsusi olaraq nəzərə çarpdırdıqları Alagöz, Ağbaba Qərbi Azərbaycanımızda mövcud olan dağ adlarıdır. Alagöz Kiçik Qafqaz sıra dağlarının Qərbi Azərbaycanımızı əhatə edən hissəsində olan ən hündür zirvəsidir. Ağbaba isə oradakı həm dağın, həm də mahalın adıdır. Görünür, şair ""Arazı" götür birbaş Get Xəzərdə yıkan Kür" deməklə Kürü bütün qolları ilə Azərbaycanı bağrını basaraq birləşdirmək fikrini ehtiva etmişdir" [4]. Qərbi Azərbaycanın xalqımızdan qoparılıb qəlbinə dağ basılmasından sonra qəlbində yaraya dönərək şeirlərində, bədii dilində yaşadılmışdır. Bu baxımdan öz doğma, ata-baba torpaqlarından didərgin düşən vətən övladlarımızın Qərbi Azərbaycan həsrəti və yurda qayıtmaq ümidləri bədii ədəbiyyatımızda duyğularda, düşüncələrdə yaşamış, bu günün reallıqlarına qədər daşınmışdır.

Qeyd edək ki, Naxçıvanda məskunlaşan Qərbi azərbaycanlıların folklorunda da erməni zülmünə nifrət, doğma torpağından ayrılmanın kədəri yer almışdır:

Naçaram, ay naçaram,
Baş götürüb qaçaram.
Harda bir qərib görsəm,
Orda dərdimi açaram.

Vətənimdə talan var,
Zülfün üzə salan var.
Ermənіyə heç inanma,
Onlarda çox yalan var.

Dağlar, üzün gülmədi,
Çiçəyin üzülmədi.
Yağı yolun bağladı,
Elim sizə gəlmədi.

Qərbi Azərbaycandan erməni zülmü nəticəsində elindən-obasından didərgin düşüb Naxçıvanda məskunlaşan bir çox eloğlunun yaradıcılığında yurd həsrəti və məhəbbəti yer almış, bədii yaddaş olaraq yaşadılmışdır. Çalxanqala kəndində məskunlaşan Aşıq Kamil Teymuroğlu (Həsənov), Şıxmahmud kəndində məskunlaşan şair Ramiz Babayevin, Əlincə kəndində yaşamış Allahverdi Kalbalıyevin, Kurud kəndində yaşayan Səttarxan İmaməlinin, Naxçıvan şəhərində məskunlaşmış Zaur Vedilinin (hazırda Bakı şəhərində yaşayır – müəl.) əsərlərində Qərbi Azərbaycana, onun yurd yerlərinə bəslənilən həsrət və məhəbbət duyğuları özünün poetik ifadəsini tapmışdır.

Mənim orta məktəbdən, hətta ibtidai sinifdən əziz müəllimim olmuş, mənə qələm tutmağı, yazmağı və öyrənməyi mənimsətmiş Allahverdi İsa oğlu Kalbalıyev də Qərbi Azərbaycandan – Qafan elindən didərgin salınan və Əlincə kəndində məskunlaşan qiymətli ziyalı və söz adamlarından biri olmuşdur. Vətəndən didərgin düşmənin nisgil və ağrısı onu da şairliyə sövq etmiş, kədərini sözə yükləməyi və hayqırmağı rəva bilmişdir. Allahverdi Kalbalıyevin sağlığında nəşr olunan "Ömrümün yadigarı" şeirlər külliyyatında onun vətən və el dərdini ümumiləşdirən dərin duyğulu lirik şeirləri toplanmışdır. "Göyçə, Zəngəzur qaçqınlarına", "Telli saz məskəni", "Nə xəbərin var?", "Ağlasın", "And yerim", "Qalıb ocağım", "Vətən ağlayır", "Yurd harayı", "Qurban olum", "Həkərim", "Ürəyimdə bir arzum var" kimi şeirləri və müəllifli bayatılarında qoparılmış Vətən torpağının ağrısı yer almışdır. Bu şeirlərin hər birində bütöv Vətənin qoparılmış hissəsinə yanıqlı bir ağı yer almışdır. Dərdli şair "Nə xəbərin var?" şeirində ellərinin həsrətini dilə gətirərək içindəki kədəri, nisgili basdırmaq üçün eloğlundan ümidverici bir xəbər almaq istəyirdi:

Ay el oğlu, qurban olum dilinə.
O doğma ellərdən nə xəbərin var?!
Həsrət qaldıq çiçəyinə, gülünə.
Solmuş çəmənlərdən nə xəbərin var?!

Öz ətri var hər dərənin, hər dağın,
Hər çəmənin, hər çiçəyin, yarpağın.
Sönük qoyduq ana yurdun ocağın.
Saralmış güllərdən nə xəbərin var? [6, s.46].

Vətənə bağlılığın, doğma ellərə bəslənilən qırılmaz məhəbbətin nişanəsidir ki, Azərbaycan insanı təkcə güllü-gülüstanlı, bağ-başçalı torpaqları deyil. onun saralıb-solmuş. Viran qlmış hər qarışına nisgil duyur və onun üçün üəyi qubardan paralanır, yara bağlayır. Şair bu və bu kimi şeirlərində də dağılsa da. Viranı qalsa da, talanıb al-əlvanlığından məhrum qalsa da. Öz elinin xatirələrinə bürünərək yaşayır və onun bozarmış, qaralmış torpağına belə məhəbbətini dilə gətirmişdir. Şair xatirələrə bürünərək o doğma ellərdə qoyduğu doğma yer-yurd adlarını çəkir, onları xatırlayır və niskilini dilə gətirir. "Gığı dərəsi", "Xusdub", "Cidalı" [6, s.46], "Şuşa, Xocalı, Kəlbəcər, Laçın, İstisu, İsabulağı, Göyçə, Almalı, Mehri, Qarakilsə" [6, s.55] kimi yer adları ilə xatirələr düzümünə üz tutaraq didərgin qalan ellərini və didərginliyə salınmış eloğullarını kədərlə xatırlamış, "Ağlar" rədifli şeirində dilə gətirmişdir:

Elə bil xalqıma yazılıb qismət.
Doğma od-ocaqdan didərgin düşmək.
O bizə həsrətdir, biz ona həsrət,
Zəngəzur ünvanlı mahalım ağlar.
Pənahabad – Şuşam tarix sorağım,
Kəlbəcər, Laçınım ömür varağım.
Gözləyir İstisu, İsabulağım,
Ah-nalə içində Xocalım ağlar!

Bu nisgillər qiyamətə silinməz,
Məğrur yurdun əqidəsi yenilməz!
Ocaqların od-alovu kəsilməz,
Gözü yolda Göyçəm, Almalım ağlar.

Allahverdi, haqq nazilər, üzülməz,
Bu dərd elə dərddir, heç vaxt dözülməz.
Özü kömək olsun Gözəgörünməz,
Mehrim, Qarakilsəm, Qatarım ağlar [6, s.55].

Şairin "Yurd harayı" şeiri onunla xarakterikdir ki, burada bötüöv bir bədən, can olan Vətənin paralndıqca adbaad ağrısı, kədəri, yanğısı göstərilmiş, ümumi mənzərəsi yaradılmışdır.

Qafan elindən olan, hazırda Kurud kəndində yaşayan Səttarxan İmaməlinin şeirlərində kədərlə mübarizə, niskillə ümid bir arada yer alaraq əksini tapmış, gah kədər, gah ümid ön plana çıxaraq Vətən idealını bütün duyğuları ilə ehtiva etmişdir. "O taylı, bu taylı bütöv bir canam. Beşdən biri qalmış Azərbaycanam!" [11] deyən bütövlük, birlik ideallı şair başqa misralarında ayrı düşmüş, yad ellərdə qalmış vətən torpaqlarına olan həsrət və nisgil duyğularını əks etdirmişdir:

O üzdə ulumun "ruhlar dünyası"
O üzdə babamın damı qalıbdır.
Dağların kimi var, kimi qalıbdır [11].

Şair bu jəsrət duyöularını bir gün ortadan qaldırıb Vətən torpaqlarını bir-birinə qovuşduracaq mərd, cəsur Azərbaycan övladlarının mübarizə aparacığına da ümid bəsləmiş və inam ifadə etmişdir:

Bu üzlərin igidi var, mərdi var.
Hər igidi keçilməz sədd, nər divar.
O üzlərin fil daşımaz dərdi var.
Məni bükən "o üz" dərdi, Məhəmməd! [11]

Ümumiyyətlə, şair S.İmaməlinin "Qalıbdır", "Məhəmməd", "Qafan dağları", "Xatırladıram", "Gəlir" və b. şeirlərində elindən ayrı düşmüş vətən övladının dərdi, kədəri, həsrət və nisgili yer almışdır. Şair doğulub-böyüdüyü o doğma yerləri xatırlayır, qanında, canında yaşayan doğma ellərin xatirələri ilə ağrıyır, ayrı düşdüyü ellərin həsrətindən dilə gələn duyğularını misralara tökür, yanıb-yaxılır, oxucularını da bu odla dağlayır. Çünki hər bir azərbaycanlı üçün adı nə olursa olsun, elin hər tərəfi vətəndir, doğma yurddur. Şair "Qafan dağları" adlı iki şeirində o yerlərin həsrətini xalqın bədii düşüncəsində Ulu Ata obrazı olaraq yer almış dağlara – Qafan dağlarına müraciətlə deyir, bütün el oğlanlarının dərdindən xəbər verir:

Siz doğan Günəşdən salam göndərin
Mən əsən küləkdən, Qafan dağları.
Siz görüş gününə inam göndərin
Göz qurtulsun şehdən, Qafan dağları.

Yəni bu həsrətin gəlməzmi sonu?
Bir gör ağlar qoymuş neçə milyonu.
Bu yaz da, yəqin ki, geyib al donu
Al güldən, çiçəkdən, Qafan dağları.

Ulu Zəngəzurum, qoca Qafanım,
Sənə çatmayınca yatmaz tufanım.
Qalsam seyrangahım, ölsəm kəfənim
Qismətsə fələkdən, Qafan dağları.
O sənsən - həsrəti burnumda tutan.
O sənsən-əlimdən alınmış Vətən.
Biz qayıdacayıq, bu sənə vədəm.
Türk dönərmi əhddən, Qafan dağları?! [11]

Vətən, yurd həsrətindən doğan yanqılı kədər şairin dayısı Məhəmmədə müraciətlə yazdığı

"Məhəmməd" rədifli şeirndə də yer almışdır. Şair Səttarxan İmaməli yazırdı ki, "Söhbət Zəngəzurdan, Qafanımızdan gedir. 1996-cı ildə dayım Məhəmməd və atam İmamxan hərəsi qorunmaq üçün bir xəncər götürüb pirimiz Cidalını ziyarətə getdilər. Üç gün intizarla gözlədik. Allah qorudu, ziyarətlərini yerinə yetirib, sağ-salamat qayıtdılar" [11]. Adıgedən "Məhəmməd" rədifli şeirində sanki kədərdən od tutub yanır şair, ürəyində vətən, el-oba həsrəti qubar edir, yaraları qan-qan olur:

Dağ başında tala bulud mordu mu?
Ordan baxsam görərmiydim yurdumu?
Səndən başqa kimə deyim dərdimi,
Dərdi bilsin, dərd eləsin, Məhəmməd?!

…Yaralıyam, Qafan adlı yaram var.
Aralıyam, Vətən ilə aram var.
Nə yaxşı ki, dost-tanışdan soran var,
Nə yaxşı ki, gəlir səsin, Məhəmməd! [11]

Lakin şair Səttarxan İmaməli ümidlidir, Vətənin ayrı düşən yurd yerlərinin qovuşacağına, bu torpaqları bir-birinə birləşəcəyinə inanır, inam bəsləyir. Şair inanırdı ki, bir qeyrətli, uzaqgörən vətən oğlu xalqın bu kədərinə son qoyub, onun qeyrətli övladlarının gücünü birləşdirərək bu ayrı düşən ərazilərimizi də birləşdirəcək, Vətənə qaytaracaq:

İnşallah, dönəcəyəm yurduma.
İnamım var rəhbərimə, orduma!
Siz dostlarım şərik çıxın dərdimə,
Harda düşdü, deyiz dərdi, Məhəmməd!!! [11]

Və yaxud:

Bir savaş istərəm, müqəddəs savaş.
Lap istər qalmasın daş üstündə daş!
Torpaq udsa məni, etmərəm tələş
Ağlıma anamın ağuşu gəlir.

Başlayıb qiyamət, çalınıb ta sur.
Qalx, ey şəhid ruhum, cənnət üçün , dur!
İnşaAllah, birləşir bölük Zəngəzur.
Gözləsin batısın doğusu, gəlir! [11]

Şair Ulu Öndər varisinə, Azərbaycanın yeni liderinə tam qəlbi ilə inanırdı və inamında da haqlı çıxdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən qərarları və Azərbaycan Milli Ordusunun əzmi ilə 44 günlük Vətən müharibəsi nəticəsində Suqovuşandan, Zəngilandan başlayaraq Şuşaya, Qarabağa qədər Zəfər əldə edərək xalqımızın başına açılmış 200 illik tarixi problemi ortadan qaldırdı və Vətən torpaqlarının birliyinə, bütövlüyünə nail oldu. Azərbaycan Ordusunun bu tarixi qələbəsindən, müqəddəs Şuşa və Xankəndi şəhərlərinə girişindən sevinən şair bir gün Qafan elinə, İrəvana da dönüş olacağına inamını əminliklə dilə gətirirdi:

Bu gün Xankəndimdə yanan tonqalım
İrəvanımda da yanar, İnşaAllah!
Qəsdim olmayıb ki, qəsbkar olum.
Xalqım öz yurduna dönər , İnşaAllah!

Zəngəzurumuzdan yol gələr, keçər.
Bu yolunan ağır el gələr, keçər.
Bu birlik həsrəti kölgələr, keçər.
Qalxar Turan adlı çinar, İnşaAllah! [11]

Naxçıvan ədəbi mühitində tanınıb-seçilən şair Ramiz Babayev də Şıxmahmud qəsəbəsində məskinlaşan Dərələyəzli el ziyalılarından biridir. "Torpağa bağlılıq, yurd məhəbbəti onun əsərlərinin əsas qayəsini, başlıca xüsusiyyətlərini kəsb edir. "Nənəmə bir ovuc torpaq borcluyam", "Məni o yerlərə qaytar, ay Allah", "Dağlar", "Qədrini bilsən", "Öldürəcək məni" kimi şeirlərində məhz bu motivlər ön planda dayanır.

"Ramiz Babayevin şeirləri içərisində məzmununda yurd həsrəti, el-oba məhəbbəti olan əsərlər də az deyil. Torpağa bağlılıq, yurd məhəbbəti onun əsərlərinin əsas qayəsini, başlıca xüsusiyyətlərini kəsb edir. "Nənəmə bir ovuc torpaq borcluyam", "Məni o yerlərə qaytar, ay Allah", "Dağlar", "Qədrini bilsən", "Öldürəcək məni" kimi şeirlərində məhz bu motivlər ön planda dayanıb. "Nənəmə bir ovuc torpaq borcluyam" şeirində yurd həsrəti və bağlılığı özünün daha poetik sanballa göstərir" [5, s.15]:

Nənəmə bir ovuc torpaq borcluyam,
Tez-tez yuxularda istəyir onu.
Öləndə gözləri üzümdə qaldı,
Nakam arzusunun yetişdi sonu.

...Nənəmə bir ovuc torpaq borcluyam,
Bulaqlar kəndindən gətirəm gərək.
Babamın qəbrindən, ayaq tərəfdən,
Nənəm deyən yerdən gətirəm gərək.

...Nənəmə bir ovuc torpaq borcluyam,
İllər illər üstə qalanıb gedir.
Nənəmə bir ovuc torpaq borcluyam,
Dözüb gözləməkdən əyilib qəbir [1, s.71-72].

Və yaxud "Məni o yerlərə qaytar, ay Allah" şeirində doğma yerlərə həsrət özünün ən mükəmməl poetik ümumiləşməsini tapıb:

Çuxur, bağ yolunda itib izlərim,
Dik daşın üstündə qalıb gözlərim.
Talanıb, dağılıb kəndim, şəhərim,
Məni o yerlərə qaytar, ay Allah.

Ağdaban, Bazarçay yaylağım hanı?
Ver mənə Damcını, o Əhlimanı.
Neynirəm onlarsız mən bu dünyanı?
Məni o yerlərə qaytar, ay Allah [1, s.75-76].

Elə "Dağlar" adlı şeirdə də bu həsrət və nigaranlığı duymaq, yaşamaq mümkündür:

İgidin atı yüyənsiz,
Dağların dumansız, çənsiz.
Necə yaşayırsan mənsiz?
Sən, ay dağlar, sən, ay dağlar.

...Zirvələrin zirvəsi qar,
Tənha qalıb, itib yollar.
Məni keçmişimə qaytar,
Sən, ay dağlar, sən, ay dağlar [1, s.77-78].

Şair Zaur Vedilinin "O yallar", "Bizim dağlara", "Sədərəkdən Vedi qoxusu gəlir", "Kaş qayıda Xalisalı günlərim", "Vedisiz göynəyir Zaur Vedili", "Xalisa həsrəti, Vedi həsrəti", "Məktub yazmaq istəyirəm Vedimə", "Həsrətəm mən qucağına kəndimin", "Vətən dərdi, torpaq dərdi, el dərdi" kimi lirik şeirlərində, "Vüqarlı Azərbaycan" lirik poemasında Vətənin çalın-çarpaz dərdləri, həsrət və kədər notları, faciəli taleləri və qayıdış ümidləri poetik şəkildə əks olunmuşdur. "Vedisiz göynəyir Zaur Vedili" şeirində şair didərgin salındığı Vedinin – Qərbi Azərbaycan həsrətinin dərin kədərini dilə gətirmiş, bitməyən ağrı və dərdini qələmə almışdır:

Yoxdur nə gündüzüm. Nə də ki, gecəm,
Hicran dünyasında elə bil heçəm.
Kaş Həcər bulağın gözündən içəm,
Ola dərdlərimə məlhəm mərd əli,
Vedisiz göynəyir Zaur Vedili!

Xalisa nisgili qəddimi əydi,
Sanki ürəyimə bir güllə dəydi.

Bütün el mən geyən libası geydi,
Tanrım, bu bəladan sən qurtar eli,

Vedisiz göynəyir Zaur Vedili! [9, s.25]

Z.Vedili "O yollar" şeirində onu uşaqlığının şirin çağlarını qayğısız-qayğısız ata-analı, doğma el-obalı keçirdiyi zamanda didərgin salan mənfur, qansız düşmən fitnəsini lənətləyərək ayrılıq və köçkünlük dərdini sətirlərə çevirmişdir:

Məni doğma el-obamdan ayırıb,
Uşaq vaxtı qərib etdi o yollar.
Yol abadlıq. Yol xoşbəxtlik olsa da,
Ürəyimdə dərdtək bitdi o yollar.

Qoca, cavan yandı əcəl oduna,
Həsrət qaldıq Vedibasar yoluna.
And olsun o Vətənimin adına,
Məni yağtək tam əritdi o yollar [9, s.22]

Şair həm də inanır və tam əminliklə ümid bəsləyirdi ki, o doğma ellərə mütləq qayıdacaqlar. Çünki haqq nazilər, üzülməz deyiblər. Ona görə də şeirinin son bəndini qayıdış ümidi və inamı ilə tamamlamışdır:

Tanrım, eşit, hər duamı, sözümü.
Bir də görüm Xalisada özümü.
Gün olsun ki, mənim ağlar gözümü
Zaur, görək tam kiritdi o yollar [9, s.22].

Şairin aşıq şeiri tərzində gəraylı formasında yazdığı "Bizim dağlara" şeirində də vətən, el-ob həsrəti dağların obrazında ümumiləşdirilmişdir. Məlumdur ki, ədəbiyyatımızda dağ obrazı bir çox məna-məzmun xüsusiyyəti qazanaraq işlənmişdir. Dərdin ağır obrazı kimi də xüsusi yer almış, kədər, dərd, həsrət, nisgil kimi mənaları ifadə etmişdir. Bu baxımdan "Bizim dağlara" şeirində gəraylı şeir şəklinin səkkiz hecalı deyim ritminin 4/4 melodik biçimindəki təqtilərini məhz kədər və həsrət duyğularının ifadəsi baxımından istifadə etmişdir:

Yolum düşə, kaş ki gedəm.
Bizim dağlara, dağlara.
Neçə ildir mən həsrətəm
Bizim dağlara, dağlara.

Hicran qəlbi elə sıxır,
Alovunda külüm çıxır.
Ay taleyim, məni çağır
Bizim dağlara, dağlara [9, s.23].

Qərib şair (əlbəttə, elin o başı, bu başı olmaz, olmadığı kimi də, Vətən oğlu üçün vətənin hər yeri doğma və əzizdir. Lakin öz elindən didərginlik yaşamasına işarə olaraq şairə "qərib" həsrət epitetini işlətmişik – R.Q.) öz poeziyasında çox tez-tez Vedi, Vedibasar və Xalisa yer-yurd adlarını istifadə etmişdir. Məlum olduğu kimi, Vedi-Vedibasar Qərbi Azərbaycanda bir mahal olmuşdur ki, azərbaycanlıların ən qədim dövrlərdən kompakt məskunlaşaraq yaşadıqları vətən torpağının bir hissəsidir. Xalisa da bu mahalda, Vedi rayonunda bir kənd adıdır, şair Zaur Vedili də məhz bu kənddən didərgin salınan dərdli, dərdindən ürəyi sazlı-sözlü el şairlərindən biridir. Bunu da qeyd edək ki, erməni zalımlarının xalqımza qan uddurduğu, qan çanağına, faciə məkanına çevirdikləri yerlərdən biri də Xalisa olmuşdur ki, şair Zaur Vedili də bu faciənin qurbanlarından, o zülmün didərgin saldığı vətən övladlarından biridir.

Qərbi Azərbaycanın Dərələyəz mahalından, Gomur kəndindən didərgin düşüb Naxçıvanın Çalxanqala kəndində məskunlaşan gözəl el sənətkarı aşıq Kamil öz yaradıclığında elin, obanın dərdini bütün həssaslığı ilə əks etdirmişdir. Barlı-bəhərli Dərələyəz elindən didərgin salınan bu insanların hal-əhvalları onun da şeirlərində həsrəti, nisgili, ümid və inam parıltıları ilə birgə təqdim edilibdir. El şairinin "Dərələyəzdə", "Gomurum",

"Vətən torpağının daşı gözəldir", "Bizim yerlərin", "Ağlasın", "Ağlayır", "Vətəndə", "Düşmüşəm", "Ağlaram" kimi şeirlərdə el şairi elinin, obasının həm dərdini, həm ümidlərini ifadə etmişdir. Aşıq Kamilin də şeirlərində dağlara müraciətlə yazılan çoxluq təşkil edir. Çünki Dağ Ulu Atadır, mərd və cəsarət ünvanıdır, əbədidir, heç zaman əyilməyən, həmişə susqun və etibarlı dərd və kədər ortağıdır. "Hanı Pənah xan, ay dağlar", "Kim gəlibdir təzə, dağlar", "Az qalırdı yaza, dağlar", "Bağlayıblar yolu, dağlar", "Dağlar", "Mənimlə qan ağlar sazım dağlara" və bu kimi nümunələrində məhz dağlara deyilən ağır bir elin dərd və kədər yanğısı var. Şair "Yoxdurlar adların siləndən bəri" şeirində erməni zülmünı və faşist işğalına üsyan qaldırır, dünyadan ədalət tələb edir, elinin dərdini dilə gətirir. Şair ermənilər saxtakarlığını da bu şeirdə birbəbir göstərərək quzu donuna girib necə vəhşi bir xislətə malik olduqlarını ortaya qoyur, Azərbaycan yer adlarını saxtalaşdıraraq necə ermənileşdirməyə çalışdıqlarını faktlara çevirərk dünyanın gözünə soxur:

Qəmərli Artaşan oldu soldu,
Dəvəlisə, Ararat erməni doldu.
Azəri elinə xəyanət oldu
Xankəndi Stepanakert olandan bəri.

Xnzorut qoyuldu Almalı adı,
Bazakeçər vardı, Vardenis nədir?
Paşalı kəndinin qopdu fəryadı
Zaritap adını alandan bəri.

Cul adı silindi, Artavan oldu,
Terpin də ləqəbi Saravan qaldı.
Barciruna döndü Sultanbəy kəndi
Dığa Karen katib gələndən bəri [8, s.57].

"Kamil müəllimin şeirlərində Dərələyəz, Zəngəzur, Göyçə, Vedi, Gomur, Axta, Gabut, Cul, Zeytə, Daylaqlı, Daşaltı, Kotanlı, Əmağu, Qovuşuq, Qabaxlı, Gülüdüzü, ələyəz, Gədikvəng, Xatun yaylağı, Qələndər çalası, Noyu dağı, Şahmirzə dağı, Göyçə gölü, İstisu, Meşə bulağı, Soyuq bulaq, Pünhan bulağı, Arpa çayı və s. adı keçən mahal, kənd, dağ, oba, göl, çay, bulaq adlarıdır" [2, s.6]. Bu cəhətdən Aşıq Kamilin yer-yurd adları ilə əzngin olan yaradıclığı bir tərədfədn də Qərbi Azərbaycanımızın – Dərələyəz elinin tarixi-coğrafi söz xəritəsidir.

"Ruha can verir Dərələyəz mehi, Tapılmaz əvəzi bizim yerlərin" [8, s.59], - deyə həsrət və nisgil çəkdiyini dilə gətirən, "Kamil də tərk etdi yurdu, yuvanı, Yönü düşüb ayrı yana, ağlayır" [8, s.59], - deyə qan-yaş tökən şair "Ağlayır" rədifli şeirində ürəyinin həsrətdən necə qan ağladığını, göz yaşı və dərddən, qabar dolu yaralı ürəyinin təqdim etmişdir:

Sağaltmaq çətindir vətən yarasın,
Düşmıənlır spkdükcə bina ağlayır.

Təbiblər, loğmanlar tapmır çarəsin,
Balasın itirən ana ağlayır.

Tutulub bərəsi, kəsilib yolu,
Solubdur vətənin çiçəyi, gülü.
Sonasız qalıbdır dağların gölü,
Gölündən ayrılan sona ağlayır [8, s.59].

"Mənimlə qan ağlar sazım dağlara" şeirində də şair doğma yurd yerlərinə olan həsrət duyğularını ifadə etmişdir:

Çəmən yaşıllaşır, gül çiçəklənir,
Uzaqdan yol çəkir gözüm dağlara.
Ürəyim istəyir, könlüm diləyir,
Qoymurlar getməyə bizim dağlara.

...Kamil xatırlayır dağı-dərəni,
Yamacda sürünü, zirvədə çəni.
Yaş ötdü, qocaldım, bu son vədəni,
Nə ola gedəydim özüm dağlara [8, s.84].

Şair "Ağlasın" rədifli şeirində eldən-obadan didərgin düşənlərin dərdini bir az da ictimailəşdirir, bütün ağırlığını və ağrılığını sözün ağlar gözü ilə təqdim edib, göstərir:

Ayrılmaq çətindir vətəndən, eldən,
Bülbül ayrı düşüb çəməndən, güldən.
Gomurdan, Köçbəkdən. səfalı Culdan
Didərgin düşənlər gəlib ağlasın [8, s.84].

Beləliklə, Vətnindən – doğma Qərbi Azərbaycan elindən didərgin düşənlərin qələmindən süzlüb gələn el şairlərinin yaradıclığında bir vətən ağlayıb, bir el göz yaşı töküb, bir obanın dərdi, kədəri, faciəsi təqdim tapıb, bir bədii tarix yaranıb. Naxçıvanda məskunlaşaraq yaşayan ürəyi dolu insanlar öz el-obalarına olan məhəbbəti, ordan ayrılmanın həsrət və nisgilini, bir də o doğma yerlərə qayıtmağın ümid və inamını əks etdiriblər. Bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən qərarları ilə Müzəffər Ordumuz düşmən üzrəində qəti qələbə çalaraq doğma Qarabağımızı işğaldan azad elədi. İndi isə Qərbi Azərbaycana Qayıdış işləri həyata keçirilməkdədir. Xalqımız da, qərib ellərdə qalan o yurd yerlərimiz də əmindirlər ki, qovuşacağımız gün uzaqda deyil və biz mütləq qayıdacağıq. "Biz mütləq torpaqlarımıza qayıdacağıq!" qətiyyəti ilə çıxış edən Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşündə də dediyi kimi: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar!" [10].

ƏDƏBİYYAT

1. Babayev, R. Salam. Şuşa (şeirlər kitabı). Naxçıvan: Əcəmi, 2021, 96 s.
2. Bağırlı, A. Vətənə baxıram həsrət gözüylə // A.K.Teymuroğlu. Vətənə baxıram həsrət gözüylə. Ön söz. Bakı: 2015, s.3-7.
3. Cavad, Ə. Seçilmiş əsərləri (Tərtib edəni Ə.Saləddin). Bakı: Şərq-Qərb, 2005, 296 s.
4. Qasımov, R. Əhməd Cavad lirikasında Kür: türk dünyasının simvolik obrazı. "Olaylar" qəz., 2023, 20-26 yanvar, s.18.
5. Qasımov, R. Qələbə duyğulu, yurd nisgilli misralar / R.Babayev. Salam, Şuşa. Naxçıvan: Əcəmi, 2021, s.3-16.
6. Kalbalıyev, A. Ömrümün yadigarı. Bakı: Qanun, 2009, 256 s.
7. İldırım, A. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004, 160 s.
8. Teymuroğlu, A.K. Vətənə baxıram həsrət gözüylə. Bakı: 2015, 128 s.
9. Vedili, Z. Bizi sevgi yaşadacaq. Naxçıvan: Əcəmi, 2012, 160 s.
10. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi [Elektron resurs] // URL: https://president.az/az/articles/view/58470.
11. İmaməli, S. [Elektron resurs] // URL: https://www.facebook.com/search/top/?q=Səttarxan%20İmaməli.

ABSTRACT

Ramiz GASİMOV

THE POETIC EXPRESSION OF HOMELONGING AND HOPES OF RETURN OF WESTERN AZERBAIJANS TOOK REFUGE IN NAKHCHIVAN

The article talks about the longing for the homeland, the homeland, and hopes for return, which are reflected artistically in the works of poets and writers from Western Azerbaijanis who settled in Nakhchivan. It was noted that at different stages of history - during two hundred years, as a result of Armenian oppression, the people of Azerbaijan were displaced from their ancestral, native, ancient homeland and had to settle in different places. As a result of the genocide and deportation events that took place at different times, some of the victims who were displaced came to Nakhchivan and settled here. El poet Ashiq Kamil Teymuroglu, Allahverdi Kalbaliyev, Sattarkhan Imamali, Ramiz Babayev, Zaur Vedili and others became poetic interpreters of the grief and pain of the hand, and expressed the pain of the hand in the language of fiction. In their works, poets described and presented the tragedies caused by Armenian oppression, and recorded the tragedies faced by the people with sad notes. They also kept the longing and memories of their displaced native places alive in their artistic creations, and created an artistic history and map by remembering the names of places and countries. Allahverdi Kalbaliyev "To the refugees of Goycha, Zangezur", "What do you know?", "Let her cry", "I swear", "My heart is victorious", "The motherland is crying", "Where is the country", Sattarkhan Imamali "Victory", "Mohammed", "Gafan mountains", "I remember", "Comes", Ramiz Babayev "I owe my grandmother a handful of land", "Take me to those places bring me back, oh God", "Mountains", "He will kill me", Zaur Vedili "I wish my Khalisa days would come back", "Zaur Vedili is crying without Vedi", "Khalisa longing, Vedi longing", "I miss my village in your arms", "The pain of the homeland, the land is in trouble, the hands are in trouble", Ashık Kamil Teymuroglu "Who has just arrived, mountains", "It was not long for spring, mountains", "They have closed the road, mountains", "Mountains", "Blood cries with me to the mountains", etc. in their poetry samples, they expressed the sadness and longing of leaving West Azerbaijan, the hope and confidence to return to those places.

***Keywords**: Western Azerbaijan, homesickness, Deraleaz district, Great Return to Western Azerbaijan*

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONTEKSTİNDƏ QAÇQINLARIN REPATRİASİYASI VƏ REİNTEQRASİYASININ BEYNƏLXALQ-HÜQUQİ TƏNZİMLƏNMƏSİ

İsmayıl QƏRİBLİ
ismayilgaribli@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

İkinci Qarabağ müharibəsinin nəticəsində cənab İlham Əliyevin rəhbərliyi ilə bütün ölkə üzrə Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edilmiş və suverenliyi təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmiş və Proqram çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yeni salınan və bərpa olunan yaşayış məntəqələrinə minlərlə məcburi köçkünün qayıdışı təmin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasət Ermənistandan deportasiya olunmuş soydaşlarımızın da öz tarixi torpaqlarına – Qərbi Azərbaycana qayıdışını gündəlikdə duran ən zəruri məsələlərdən biri kimi aktuallaşdırır. Buna görə də, Qərbi Azərbaycan İcması Qayıdış Konsepsiyasını hazırlamış və beynəlxalq hüquq normalarına uyğun olaraq, geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən deportasiya olunmuş azərbaycanlıların öz tarixi vətənlərinə qayıtmalarına imkan yaradılmasını və bundan sonra həmin şəxslərin hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi müəyyən etmişdir. Bu məqalədə beynəlxalq hüquq normalarına uyğun olaraq qaçqınların repatriasiyası və reinteqrasiyasının hüquqi əsaslarından bəhs olunur.

Açar sözlər: *Qərbi Azərbaycan, qaçqın, qayıdış, repatriasiya, reinteqrasiya*

Giriş

Müasir dünyada qaçqınların repatriasiyası və reinteqrasiyasının əhəmiyyətini qiymətləndirməmək olmaz, çünki o, mühüm humanitar, sosial, iqtisadi və siyasi problemlərin həllinə yönəlmişdir.

Repatriasiya qaçqınların hüquqlarının, ləyaqətinin və təhlükəsizliyinin bərpasını təmin edərək onların öz mənşə ölkələrinə və əvvəllər yaşadıqları yerlərə qayıtmasına imkan verir. Bu, insan hüquqlarına riayət etmək və münaqişələr, təqiblər və ya təbii fəlakətlər nəticəsində didərgin düşmüş şəxslərə humanitar yardım göstərmək üçün vacibdir.

Qaçqınların geri qaytarılmasını təşviq etmək, münaqişədən sonrakı dövrdə cəmiyyəti sabitləşdirərək sülh quruculuğu səylərinə töhfə verir, sosial birliyi bərpa etməyə, icmaları yenidən qurmağa və müxtəlif qruplar arasında barışığa kömək edir. Qaçqınların öz icmalarına reinteqrasiyası onların bacarıqlarından, biliklərindən və yerli iqtisadiyyatlara potensial töhfələrindən istifadə etməklə davamlı inkişafı dəstəkləyir.

Qaçqın böhranlarının həlli beynəlxalq əməkdaşlıq və həmrəylik tələb edir. Repatriasiya və reinteqrasiya səyləri həssas əhalinin qorunması, qlobal sülh və təhlükəsizliyin təmin olunması üçün kollektiv məsuliyyəti təşviq edir.

Deportasiyaya məruz qalmış şəxslərin geri qaytarılmasının beynəlxalq-hüquqi əsasları

Deportasiya məsələsi kifayət qədər önəmli məsələ olduğundan, dövlətlər bunu nəinki milli qanunvericilik aktları ilə, hətta beynəlxalq müstəvidə qəbul edilən aktlarla da tənzimləməyə çalışırlar. Qovulmuş şəxslərin öz doğma yurdlarına qayıtmaq hüququ müxtəlif mötəbər beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Beynəlxalq hüquq qaçqın və köçkünlərlə bağlı məsələlərin hüquqi əsaslarını çoxsaylı rəsmi sazişlər, konvensiyalar və digər təcrübələrlə müəyyən edir. Belə ki:

-İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 13-cü maddəsinin 2-ci bəndinə görə "hər bir insan öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir".

- BMT-nin Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli Qətnaməsi ilə qəbul edilmiş Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinin 4-cü bəndinə əsasən, "heç kim öz ölkəsinə gəlmək hüququndan özbaşınalıqla məhrum edilə bilməz".

-Dördüncü Cenevrə Konvensiyası çıxarılmış şəxslərin sözügedən ərazidə hərbi əməliyyatlar dayandırıldıqdan sonra öz evlərinə qaytarılmasını nəzərdə tutur.

Ümumilikdə, könüllü qayıdış hüququ bəzi digər müqavilələrdə, məsələn, Panmuncom Sülh Müqaviləsi və Afrikada qaçqın problemlərini tənzimləyən Konvensiyada da tanınır.

Regional insan hüquqları müqavilələrində də oxşar müddəalar nəzərdə tutulur. Məsələn, Avropa insan hüquqları Konvensiyasına 4-cü Protokolun 3-cü maddəsində, İnsan hüquqları üzrə Amerika Konvensiyasının 22-ci maddəsinin 5-ci bəndində, İnsan və xalqların hüquqları üzrə Afrika Xartiyasının 12-ci maddəsinin 2-ci bəndində hər bir şəxsin öz ölkəsinə qayıtmaq hüququ nəzərdə tutulur.

Qaçqınların və köçkünlərin geri qayıtmaq hüququ, həmçinin Abxaziya (Gürcüstan), Bosniya və Herseqovina, Filippin və Tacikistan kimi beynəlxalq olmayan silahlı münaqişələrə aid olan çoxsaylı rəsmi bəyanatlarla dəstəklənir. Bu hüquq, məsələn, Abxaziya (Gürcüstan), Əfqanıstan, Bosniya və Herseqovina, Xorvatiya, Koreya, Liberiya, Sudan və Tacikistandakı münaqişələrlə əlaqədar qaçqın və köçkünlərlə bağlı bir sıra sülh sazişləri və razılaşmalarla da tanınır.

BMT-nin Təhlükəsizlik Şurası, BMT-nin Baş Məclisi və BMT-nin İnsan Hüquqları Şurası dəfələrlə qaçqın və köçkünlərin təhlükəsiz şəraitdə öz evlərinə sərbəst qayıtmaq hüququnu xatırladıb. Onların könüllü və təhlükəsiz qayıdışı və reinteqrasiyasını asanlaşdırmaq üçün tədbirlər görmək vəzifəsi Afrikada qaçqın problemlərini tənzimləyən Konvensiyada və Daxili köçkünlük üzrə Rəhbər Prinsiplərdə nəzərdə tutulmuşdur. Xüsusilə BMT-nin Təhlükəsizlik Şurası və BMT-nin Baş Məclisi çoxsaylı hallarda həm beynəlxalq, həm də beynəlxalq olmayan silahlı münaqişələrin tərəflərini məcburi köçkünlərin könüllü və təhlükəsiz qayıdışına və reinteqrasiyasına kömək etməyə çağırmışdır. BMT-nin Baş Katibi və onun Məcburi Köçkünlər üzrə Xüsusi Nümayəndəsi köçkünlərin könüllü və təhlükəsiz qayıdışına və reinteqrasiyasına kömək etmək öhdəliyinə əməl etmək üçün bir sıra münaqişələr kontekstində görülmüş və ya görüləcək tədbirlər haqqında məlumat vermişlər [1, s. 497].

Qaçqınların repatriasiyası

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn ən qədim bölmələrindən biridir və könüllü repatriasiya normalarını ehtiva edir. Bu normalar 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyasında öz əksini tapmışdır və hazırda 192 dövlət tərəfindən təsdiqlənmişdir. Könüllü repatriasiya anlayışı, humanitar hüquq norması olaraq, müdafiə olunan şəxslərin iki kateqoriyası, yəni hərbi əsirlər və mülki şəxslərlə əlaqəli olaraq xüsusi olaraq qeyd edilir [6, s.3].

"Repatriasiya" tərifi baxımından nisbətən aydındır, "könüllü" sifəti isə daha problemlidir. Webster Lüğətində könüllülük "öz azad iradəsi ilə... yerinə yetirilən", "öhdəlik olmadan" və "seçim" kimi tərif edilir. "BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Könüllü Repatriasiya haqqında Kitabçası" repatriasiyanı mənfi, "qaçqını sövq edən tədbirlərin olmaması" kimi tərif edir. Bu müzakirənin məqsədləri üçün könüllü repatriasiya qaçqının şərtlərin imkan verdiyi zaman geri qayıtmaq istəməsini nəzərdə tutur. Beləliklə, könüllü repatriasiya o zaman baş verir ki, mənşə ölkəsindən onu qaçqın edən şəraitdə qaçan fərd azad iradə və məcburiyyət olmadan öz mənşə ölkəsinə qayıtmaq yolunu seçir [7, s.139].

Bu prinsip Afrika Birliyi Təşkilatının 1969-cu il tarixli Qaçqınlar Konvensiyasının 5-ci maddəsi ilə daha da gücləndirilmişdir ki, "repatriasiyanın mahiyyətcə könüllü xarakterinə bütün hallarda hörmət edilməlidir və heç bir qaçqın onun iradəsinə zidd olaraq repatriasiya edilə bilməz". ABT-nin Konvensiyası həmçinin qaçqınların repatriasiyasının hüquqi və normativ bazasına "təhlükəsizlik" anlayışını təqdim edir və qeyd edir ki, "sığınacaq ölkəsi mənşə ölkəsi ilə əməkdaşlıq edərək repatriasiyanı tələb edən qaçqınların təhlükəsiz qayıtması üçün adekvat tədbirlər görməlidir.". Bu prinsiplər sonrakı illərdə daha da işlənib hazırlanmışdır. Məsələn, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsi 1985-ci ildə könüllü repatriasiyanın "mütləq təhlükəsizlik şəraitində həyata keçirilməsi" zərurətini təsdiq edən Qərar verdi (UNHCR 1980). 1992-ci il BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Könüllü Repatriasiyanın Müdafiəsi Aspektləri üzrə Müzakirə Notu qaçqınların öz mənşə ölkələrinə qayıtmasının "təhlükəsizlik və ləyaqətli şəraitdə həyata keçirilməli" olduğunu təkid etməklə diskursa başqa bir konsepsiya əlavə etdi (UNHCR 1992). 1996-cı ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Könüllü Repatriasiya haqqında Kitabçanı nəşr etdi və bu kitabda könüllülük "qaçqını repatriasiyaya sövq edən hər hansı fiziki, psixoloji və ya maddi təzyiqin olmaması" kimi müəyyən edilmişdir (UNHCR 1996) [4, s.142].

1970-ci illərə qədər BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının qaçqınlar üçün həll yolları arasında aydın bir iyerarxiya yox idi. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının II Dünya müharibəsindən sonra qaçqınların geri qaytarılmasının məqsədəuyğun olmadığına əsaslanaraq köçürmə və inteqrasiya məsələləri ilə məşğul idi. Ancaq 1970-ci illərdə ortaya çıxan və şübhəsiz ki, 1980-ci illərin ortalarından etibarən könüllü repatriasiya qaçqınlar üçün üstünlük verilən və əsas həll yolu oldu. Şübhəsiz ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının mövqeyi belədir:

"Könüllü repatriasiya, yerli inteqrasiya və məskunlaşma, yəni qaçqınlar üçün ənənəvi həll yolları, hətta könüllü repatriasiya ən vacib həll yolu olsa belə, qaçqın vəziyyətlərinə cavab vermək üçün əlverişli və vacib

tədbirlər olaraq qalır".

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı həmçinin könüllü repatriasiyanın "ən yaxşı həll yolu" olduğuna inanır. 1983-cü ildə Ali Komissarlığın ofisi "könüllü repatriasiyanın qaçqınların və köçkünlərin problemlərinin ən arzuolunan və davamlı həll yolu olduğunu vurğulayır.... Joan Fitzpatrick, Vaşinqton Universitetinin Hüquq Məktəbinin qaçqın hüququ üzrə eksperti, hesab edir ki, "münaqişənin dayandırılması zamanı könüllü repatriasiya, hadisələrin Ruandada və ya Bosniya-Herseqovinada baş verməsindən asılı olmayaraq, münaqişənin həllinin nə qədər uzağa getməsindən asılı olmayaraq, silahlı münaqişə qurbanlarının kütləvi axını üçün ideal həll yolu kimi görünür". BMT-nin altmış qətnaməsi, bəyannaməsi və hesabatı qaçqın problemlərinin həlli kimi könüllü repatriasiyaya çağırır [7, s.140].

Könüllü repatriasiya humanitar hüquq, qaçqın hüququ və insan hüquqları hüququnun bir-birinə qarışmasının ən yaxşı nümunələrindən biridir. Beynəlxalq hüququn norması olaraq, könüllü repatriasiyanın dəqiq hüquqi məzmunu hüququn bir sahəsindən digərinə dəyişə bilər. Onun tətbiqi humanitar hüquq çərçivəsində qorunan şəxslərin iki xüsusi kateqoriyasına (yəni hərbi əsirlərə və mülki şəxslərə) şamil edilsə də, insan hüquqları hüququnda bu daha geniş məna daşıyır. Qaçqın hüququnun əsas prinsiplərini müəyyən etməklə yanaşı, könüllü repatriasiya 28 iyul 1951-ci il tarixli Cenevrə Konvensiyasında açıq şəkildə qeyd olunmamışdır. Bu hüquqi konteksti nəzərə alaraq, insan hüquqları hüququ BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən dünyanın müxtəlif regionlarında həyata keçirilən könüllü repatriasiya əməliyyatları üçün daha möhkəm hüquqi baza təmin edir. Könüllü repatriasiya konsepsiyasını tənzimləyən müxtəlif beynəlxalq qaydaların bu qısa icmalı bizim gümanımızı təsdiq edir ki, humanitar hüquqda olduğu kimi, qaçqınlar hüququ da insan hüquqları hüququnun daha geniş cinsinin bir növü kimi qəbul edilə bilər. Buna görə də, qaçqınlar haqqında hüququ təmsil edən *lex specialis* insan hüquqları hüququ ilə tamamlana bilər. Beynəlxalq normaların bu iki orqanı həm bir-birini tamamlayır, həm də bir-birindən asılıdır. İnsan hüquqları hüququ könüllü repatriasiya üçün ümumi çərçivəni təşkil etsə də, qaçqınların xüsusi vəziyyətinə diqqət yetirilməlidir. Könüllü repatriasiya özlüyündə səbəb deyil. Onun son məqsədi mənşə ölkəsinə göndərilməklə itirilən əsas hüquqları bərpa etməkdir. Bu nöqteyi-nəzərdən, könüllülük repatriasiya üçün əsas şərt olaraq qalmasına baxmayaraq, mənşə ölkədə hökm sürən insan hüquqlarının vəziyyətinin ümumi yaxşılaşmasını nəzərdə tutur. Mövcud könüllü repatriasiya standartları ilə Qaçqınlar Konvensiyasının dayandırma müddəaları arasında əlaqə problemli olaraq qalır, çünki Cenevrə Konvensiyasına əsasən beynəlxalq müdafiə formal olaraq artıq lazım deyildir. Buna baxmayaraq, beynəlxalq ictimaiyyət ardıcıl olaraq hesab edir ki, belə şəraitdə könüllü repatriasiya ən çox üstünlük verilən fəaliyyət kursu olaraq qalır. Həm könüllü repatriasiyanın nəzəri çərçivəsi, həm də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının bu sahədə təcrübəsi göstərir ki, hüquqi parametrlər siyasi mülahizələrlə sıx əlaqədə olan mürəkkəb anlayışdır [6, s.31]

Qaçqınların reintegrasiyası

Geniş mənada reinteqrasiya davamlı qayıdışın əldə edilməsi ilə eyniləşdirilir. Başqa sözlə, reinteqrasiya geri qayıdan qaçqınların həyatı, dolanışıq və ləyaqətini qorumaq üçün lazım olan siyasi, iqtisadi, hüquqi və sosial şəraiti təmin etmək qabiliyyətidir.

Qaçqınların öz vətənlərinə könüllü qayıtması təhlükəsizliyin və öz həyatına nəzarətin bərpa oluna biləcəyinə işarədir, lakin repatriasiya yalnız başlanğıcdır, bu, vətəndaşla dövlət arasında inam və sədaqət bağının bərpa olunması demək deyil. Fiziki olaraq evdə olan, lakin öz ölkəsinin iqtisadi və siyasi həyatında iştirak etməyən insanlar hələ də kökündən qoparılmış insanlardır. Bir çox hallarda onlar öz vətənlərinə qayıda, lakin öz icmalarından uzaqda ola bilərlər. Təhlükə ondan ibarətdir ki, repatriasiya təkcə qaçqınları məcburi köçkünlərə çevirən yerdəyişməyə çevrilə bilər. Geri qayıdan qaçqınların reinteqrasiyası mürəkkəb siyasi, iqtisadi, sosial və mədəni prosesdir və qaçqınların öz icmalarına adi fiziki şəkildə yenidən yerləşdirilməsindən kənara çıxır. Zorakılıq, münaqişə və zamanın keçməsi fərdlərə və cəmiyyətlərə təsir edir. Qaçqınlar böyük mədəni və sosial dəyişikliklərə məruz qala bilər, münaqişə və siyasət isə vətəni dəyişdirir. Geridə qalanların çoxu münaqişənin digər tərəfində ola bilərlər. Qalan digərlərinin isə repatriantların paylaşmadığı iztirabları və təcrübələri vardır [3, s.8].

Reinteqrasiya geri dönənlər və onların həmvətənləri arasında qanuni hüquq və vəzifələrdəki fərqlərin aradan qalxması və qayıdanların xidmətlərə, məhsuldar aktivlərə və imkanlara bərabər çıxışı ilə nəticələnməli olan prosesdir. Belə bir proses qaçqınların az-çox stabil olan cəmiyyətlərə qayıtmasını nəzərdə tutur. Belə olmadıqda, geri qayıdanlar və geri qayıdan ərazilərdəki icmalar məhsuldar aktivlərə və sosial xidmətlərə çıxışın yaxşılaşdırılmasından bərabər şəkildə faydalanmalıdırlar.

Qeyd etmək lazımdır ki, qayıdış ərazilərindəki icmalar geri qayıdanlardan çox faydalana bilər, çünki onlar köçkünlük və sürgün zamanı əldə etdikləri yeni bacarıqlar, resurslar, daha yüksək təhsil standartları,

sağlamlıq və gender bərabərliyi gətirə bilərlər. Həqiqətən də, reinteqrasiya ilə bağlı problemlərdən biri qaçqınlar daha ənənəvi sosial strukturlara qayıtdıqda, sürgündə əldə edilən qazancları qorumaqdır. Bu mənada reinteqrasiya sosial transformasiya prosesi ola bilər.

Reinteqrasiyanın "son vəziyyəti" tam siyasi, mülki, iqtisadi, sosial və mədəni hüquqlardan universal istifadədir. Beləliklə, reinteqrasiya hökumətin rəhbərliyi altında kollektiv məsuliyyətdir; bəzi aktyorlar (məsələn, BMT QAK və digər humanitar agentliklər) əvvəlki mərhələlərdə aparıcı rol oynayır, digər aktyorlar (məsələn, inkişaf agentlikləri) reinteqrasiya prosesində daha böyük rol oynayır.

Yuxarıdakı tərifləri nəzərə alaraq, reinteqrasiya aspektləri aşağıdakılardır:

1. Hüquqi: Hüquqi proseslərə giriş; əmlak, torpaq və mənzil mülkiyyətinə hüquqi dəstək;

2. Siyasi: Sabit hökumət; siyasi proseslərdə tam iştirak; siyasi həyatın bütün aspektlərində gender bərabərliyi; fikir və ifadə azadlığı; təqiblərdən müdafiə;

3. İqtisadi: Məhsuldar resurslara çıxış (məsələn, torpaq, kənd təsərrüfatı məhsulları və heyvandarlıq); və

4. Sosial: Xidmətlərə çıxış; təhlükəsizlik; ayrı-seçkiliyin olmaması; icma səviyyəsində mübahisələrin həlli və s. [2, s.5].

Təcrübə göstərir ki, qayıdış və reinteqrasiya yerdəyişmənin sadə şəkildə geri qaytarılması deyil, əksər hallarda uzun müddət ərzində qaçqınlıq təcrübəsi nəticəsində dəyişmiş fərdlərin, ev təsərrüfatlarının və icmaların iştirak etdiyi dinamik prosesdir. Məsələn, bir və ya bir neçə nəsil sürgündə doğulub böyümüş ola bilər. Geri qayıdanlar yerli dildə danışa bilməzlər və icmaları qəbul edərək "yad" hesab edilən bir sıra mədəni təsirləri mənimsəmiş ola bilərlər. Reinteqrasiya anlayışı həm hüquqi, həm də sosial-iqtisadi statusları baxımından geri qayıdanları öz icmasının digər üzvlərindən fərqləndirən hər hansı fərqlərin aradan qaldırılmasını (və son nəticədə yox olmasını) nəzərdə tutur. Daha geniş mənada reinteqrasiya barışıq və sülhməramlılıq prosesinin mühüm tərkib hissəsidir və beləliklə, siyasi və sosial zorakılığın tədricən azaldılması, həmçinin effektiv və ədalətli məhkəmə prosedurlarının və qanunun aliliyinin yaradılması ilə sıx bağlıdır. Bu şəraitdə milli və beynəlxalq aktorların öz fəaliyyətlərini əlaqələndirmələri və reinteqrasiya prosesinin ardıcıl və hərtərəfli şəkildə həll olunmasını təmin etmək vacibdir. Tək və ya məhdud sayda sektorlarda təcrid olunmuş müdaxilələr istənilən təsir və nəticəni verməyəcək [5, s.4].

Geri qayıdanların könüllü və təhlükəsiz qayıtması və reinteqrasiyasını asanlaşdırmaq üçün tədbirlər həyata keçirilməlidir. Qaçqınların geri qayıtması və ya köçürülməsi üçün fiziki yardım çoxlarının yalnız ilk addımıdır. Qaçqınların qayıdış mühiti onların qalması və həyatlarını yenidən qurması üçün kifayət qədər rahat olmalıdır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının reinteqrasiya siyasəti aşağıda təqdim olunan əsas prinsip və təcrübələrə əsaslanır:

A. Milli məsuliyyət və iştirak: BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının reinteqrasiya siyasəti geri qayıdanların, istər keçmiş qaçqınlar, istərsə də məcburi köçkünlərin, yaşadıqları dövlətin vətəndaşları olması və bu dövlətin milli və yerli hakimiyyət orqanlarının onların rifahı üçün əsas məsuliyyət daşıması prinsipinə əsaslanır. Vətəndaşlarının hüquq və mənafelərini qorumaq üçün milli potensialın bərpası reinteqrasiya prosesi üçün çox vacibdir. Eyni zamanda BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı reinteqrasiya prosesində digər milli və yerli aktorların, o cümlədən QHT-lər, icma əsaslı təşkilatlar və vətəndaş cəmiyyəti institutlarının oynaya biləcəyi mühüm rolu qəbul edir.

B. Hüquqlar, ədalət və barışıq. Məcburi köçkünlərin və qaçqınların qayıtması və reinteqrasiyası daha geniş sülh quruculuğu prosesi ilə mühüm əlaqələrə malikdir. Məcburi köçkünlük silahlı münaqişələrin və insan hüquqlarının pozulmasının ən bariz təzahürlərindən biridir. Sülh sazişləri reinteqrasiya üçün zəmin yaradır. Könüllülük əsasında və insan hüquqlarına tam hörmətlə öz evlərinə qayıdan qaçqınlar və məcburi köçkünlər çox güman ki, reinteqrasiya və sülh quruculuğu proseslərinə müsbət təsir göstərəcəklər.

C. Geniş iştirak və icma əsaslı yanaşmalar. Qaçqınlar, məcburi köçkünlər və yerli icmalar reinteqrasiya prosesinin əsas iştirakçılarıdır. Qayıdan qaçqınlara və məcburi köçkünlərə reinteqrasiya prosesini təşviq etmək səyləri çərçivəsində ədalətli münasibət təmin edilməlidir.

D. Vəziyyətin təhlili: Reinteqrasiya prosesinə "bir ölçü hamıya uyğundur" yanaşması mümkün deyil. Müəyyən bir kontekstdə bunu formalaşdıran müxtəlif amillər aşağıdakıları əhatə edə bilər:

- yerdəyişmənin müddəti və şərtləri;
- yerdəyişmə ilə nəticələnən münaqişənin xarakteri;
- qayıdış bölgəsində dağıntıların dərəcəsi;
- milli və yerli hakimiyyət orqanlarının potensialı;
- humanitar təşkilatların və ya inkişaf aktorlarının mövcudluğu və ya olmaması;
- sülhməramlı qüvvələrin mövcudluğu və ya olmaması.

Milli və yerli hökumətlər öz vətəndaşlarının reinteqrasiyası üçün əsas məsuliyyət daşıdıqlarına görə, belə məlumatların toplanması və təhlili və ondan planlaşdırma, proqramlaşdırma və resursların səfərbər edilməsi üçün əsas kimi istifadə edilməsini asanlaşdırmaq üçün səlahiyyətli orqanlara dəstək göstərilməlidir.

E. Erkən hazırlıq və planlaşdırma. Hökumətlər və digər tərəfdaşlarla birlikdə qayıdış və reinteqrasiya üçün erkən hazırlıq və planlaşdırma çox vacibdir. Qaçqınların köçürülməsinin fövqəladə mərhələsində belə, qeydiyyat vasitələri artıq icma mənbələri və mənşə yerləri haqqında həyati vacib məlumatları toplamaq üçün istifadə edilə bilər. Hər hansı bir reinteqrasiya ssenarisinin xüsusiyyətlərini nəzərə alaraq, istər milli, istərsə də yerli hakimiyyət orqanları, inkişaf agentlikləri, humanitar tərəfdaşlar və ya digər aktyorlar tərəfindən sürətli bərpa, inkişaf, insan hüquqlarının qorunması və barışıq üçün mövcud və ya planlaşdırılan təşəbbüsləri müəyyənləşdirmək üçün qayıdış bölgələrindəki mövcud vəziyyətin diqqətlə təhlili lazımdır.

F. Praqmatizm və çeviklik. İstənilən reinteqrasiya əməliyyatında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı əvvəldən ən uyğun olduğu, əlavə dəyər gətirə biləcəyi və əsas məsuliyyəti üzərinə götürəcəyi müdaxilələri aydın şəkildə təsvir etməyə çalışacaq. Təsiri maksimuma çatdırmaqla yanaşı, bu yanaşma BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının fəaliyyətinin proqnozlaşdırılmasını artıracaq və fəaliyyətin vaxtında və məsuliyyətlə dayandırılması strategiyalarının həyata keçirilməsini asanlaşdıracaqdır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının reinteqrasiyasının planlaşdırılması və proqramlaşdırılmasına müəyyən dərəcədə çeviklik daxil ediləcək ki, idarəetmə gözlənilməz hadisələrə və yerdəki dəyişən reallıqlara, o cümlədən başqalarının öhdəliklərini səmərəli və vaxtında yerinə yetirə bilməməsinə cavab verə bilsin.

G. Bərpa proqramları və maliyyələşdirmə. Geri dönənlərin yaşadıqları ərazilərin yerli və ərazi əsaslı bərpa proqramlarına, eləcə də milli inkişaf planlarına və proqramlarına daxil edilməsinin təmin edilməsi mühüm məqsəddir. Qayıdış, reinteqrasiya, erkən bərpa, inkişaf və sülhməramlı fəaliyyətlərin səmərəli şəkildə sinxronlaşdırılmasını təmin etmək üçün humanitar agentliklər və inkişaf tərəfdaşları, regional banklar, regional təşkilatlar, ikitərəfli donorlar və digər müvafiq aktorlar arasında uzunmüddətli strateji tərəfdaşlıq əlaqələrinin qurulması və möhkəmləndirilməsi zəruridir. Münaqişədən sonrakı keçid və bərpa problemlərini həll etmək üçün yaradılmış müxtəlif çoxtərəfli maliyyələşdirmə alətləri, o cümlədən birləşdirilmiş maliyyələşdirmə tədbirləri təşkilatlara maliyyə mənbələrini diversifikasiya etmək üçün yeni imkanlar təqdim edir. Bu cür vəsaitlər donorlar və maliyyə institutları tərəfindən konkret reinteqrasiya vəziyyətində tələb olunan mühüm müdaxilələrin təmin edilməsi üçün yönəldilə bilər [5, s.8-12].

Nəticə

Beynəlxalq humanitar və qaçqın hüquqları qaçqınların şərtlər icazə verdikdə könüllü olaraq öz ölkələrinə qayıtmaq hüquqlarını müdafiə edir. Repatriasiyanın asanlaşdırılması və reinteqrasiyaya dəstək verilməsi bu hüquqi çərçivələrə və mənəvi öhdəliklərə uyğundur.

Qaçqınların öz icmalarına reinteqrasiyası onların bacarıqlarından, biliklərindən və yerli iqtisadiyyata gələcək töhfələrindən istifadə edilməsi nəticəsində mənşə ölkələrinin davamlı inkişafına təkan verir. Reinteqrasiya geri qayıdışdan təsirlənən bölgələrdə iqtisadi inkişafı və dayanıqlılığı artırır.

Qaçqınlıqla bağlı davamlı həllər onlara öz mənşə ölkələrində həyatlarını bərpa etmək imkanı verməyi əhatə edir. Effektiv repatriasiya və reinteqrasiya humanitar yardımdan uzunmüddətli asılılığı azaldır və onların özlərini təmin etmələrinə kömək edir.

Yekun olaraq qeyd edək ki, əslən Qərbi Azərbaycandan olan soydaşlarımızın repatriasiyası və reinteqrasiyası humanitar böhranların həllində, sabitliyin təşviqində, davamlı inkişafın dəstəklənməsində, beynəlxalq hüquq normalarının qorunmasında və qlobal həmrəyliyin nümayişində mühüm əhəmiyyət kəsb edəcək. Bu səylər təkcə onlara fayda verməyəcək, həm də regionda sülh quruculuğu və inkişaf sahəsində daha geniş hədəflərə çatmağa kömək edəcək.

ƏDƏBİYYAT

1. Soydaşlarımızın Qərbi Azərbaycana qayıdışının beynəlxalq-hüquqi əsasları, İ. Qəribli, "1-ci Qərbi Azərbaycana Qayıdış" konfransının materialları, Naxçıvan: 2024, 593 s.
2. Handbook for Repatriation and Reintegration Activities, United Nations High Commissioner for Refugees, Geneva, May: 2004, 264 pages
3. Refugee Repatriation, Return, and Refoulement During Conflict. Barry N. Stein, Michigan State University, USAID Conference Promoting Democracy, Human Rights, and Reintegration in Post-conflict Societies, Pages 1–15, October 30-31, 1997
4. Safe and Voluntary Refugee Repatriation: From Principle to Practice. Jeff Crisp, Katy Long. Journal on

Migration and Human Security, Volume 4 Number 3 (2016): 141-147
5. UNHCR's Role in Support of the Return and Reintegration of Displaced Populations. Policy Framework and Implementation Strategy. August 2008, 15 pages
6. Voluntary Repatriation in Public International Law: Concepts and Contents, Chetail, Vincent. Refugee Survey Quarterly, Volume 23, Issue 3, October 2004, Pages 1–32, Oxford University Press
7. Voluntary Repatriation of Refugees and Customary International Law, Vic Ullom, Denver Journal of International Law & Policy, Volume 29, Number 2, January 2001, p 116-149

ABSTRACT

Ismayil GARİBLİ

INTERNATIONAL - LEGAL REGULATION OF REPATRIATION AND REINTEGRATION OF REFUGEES IN THE CONTEXT OF RETURN TO WESTERN AZERBAIJAN

As a result of the Second Karabakh War, under the leadership of Mr. Ilham Aliyev, the territorial integrity of the Republic of Azerbaijan was restored throughout the country and its sovereignty was ensured. By the Decree of the President of the Republic of Azerbaijan dated November 16, 2022, the "I State Program on the Great Return to the Territories Liberated from Occupation of the Republic of Azerbaijan" was approved and the return of thousands of IDPs to newly constructed and restored settlements in the territories liberated from occupation within the framework of the Program was ensured. The successful policy carried out by the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, makes the return of our compatriots deported from Armenia to their historical lands - Western Azerbaijan - one of the most important issues on the agenda. Therefore, the Western Azerbaijan Community has developed the Concept of Return and, in accordance with the norms of international law, has determined as its main goal to enable Azerbaijanis deported from the territory of Armenia to return to their historical homeland based on the right to return, and then to ensure the rights of those persons. This article discusses the legal basis of repatriation and reintegration of refugees in accordance with international law.

Keywords: *Western Azerbaijan, refugee, return, repatriation, reintegration*

QƏRBİ AZƏRBAYCANIN HİDRONİMLƏRİ

Elnarə SEYİDOVA **Nailə ƏLİYEVA**
eli.seyid.77@mail.ru **Məhəmməd QULİYEV**
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycan ərazisində yerləşən bir sıra hidronimlərin Azərbaycan dilində izahı verilməklə onların fiziki coğrafi xüsusiyyətləri təsnif edilmişdir. Əsrlərdir müəyyən dərəcədə dəyişikliyə məruz qalsa da, öz mənasını itirməyən hidronimlər ərazidə türk mənşəli xalqların məskunlaşdığını və həmin torpaqların türklərə məxsus olduğunu bir daha sübut edir. Toponimlər bir sıra tarixi coğrafi həqiqətləri özündə saxlayan "tarixi şahidlər"dir. Bu baxımdan məqalədə tədqiq edilmiş hidronimlər mühüm aktuallıq kəsb edir.

Açar sözlər: *Hidronim, toponim, Qərbi Azərbaycan, çaylar, göllər*

Giriş

Qərbi Azərbaycan Cənubi Qafqaz regionunun ərazisində yerləşir. Onun ərazisi müəyyən dərəcədə inkişaf etmiş, lakin dağlıq ölkələr üçün xarakterik olan qeyri-bərabər paylanmış hidroloji şəbəkəsi ilə fərqlənir. Ərazidə irili-xırdalı 9480 kiçik və orta uzunluqlu çay var. Çay şəbəkəsinin ümumi uzunluğu 23.000 km-dir. Onlardan 379-nun uzunluğu 10 kilometr və daha çoxdur. Ərazidə çay şəbəkəsinin sıxlığı geniş diapazonda 0-2.5km/km² arasında dəyişir. Sahə üzrə ümumi orta illik axın nəzərə alınmaqla 7191 milyon m³ təşkil edir.

Ən mühüm çaylarından olan Araz və Qərbi Arpaçay transsərhəd çaylardır. Ermənistan Respublikası bu çaylardan müxtəlif məqsədlər üçün ildə 940 milyon m³ çox su istifadə edir.

Qərbi Azərbaycandan yüzdən çox irili-xırdalı göl vardır ki, onlardan bəzilərinin suyu ilin quraq mövsümündə xeyli azalır və ya quruyur. Ölçüsünə və təsərrüfatda istifadəsinə görə Qərbi Azərbaycan ərazisində Göyçə və Arpa göllərinin böyük əhəmiyyəti var. Göyçə və Arpa göllərindən, həmçinin Zəngi və Qərbi Arpaçay başlanır.

İllik hesablamalara görə yeraltı sular 4,017 milyon m³-dir, onun 1,595 milyon m³-i bulaqlar şəklində səthə çıxır və 1,434 milyon m³-i isə çay və göllərə axır. Ümumi səthi su axını isə 1,068 milyon m³ təşkil edir.

Ərazidə yerləşən bir sıra hidronimlərin izahına nəzər saldıqda onların qədim türk mənşəli olduğu açıq aydın nəzərə çarpır. Hidronimlərin izahı ilə yanaşı, fiziki coğrafi xüsusiyyətlərini də təsnif etməyin faydalı olacağını düşünürük.

Qərbi Arpaçay (Axuryan) Qərbi Azərbaycanda yüksək dağlıqdan axan Arazın sol qoludur. Yuxarı axında Qərbi Azərbaycan ərazisindən aşağı axında isə Türkiyə ilə sərhəd boyunca axır. Başlanğıcını 2023 m yüksəklikdən götürüb, Ərpiliş su anbarına daxil olaraq oradan cənuba doğru istiqamət götürür. Çay Baqaran kəndi yaxınlığında Araza tökülür. Çayı ermənilər Axuryan adlandırırlar. Bu toponim eramızdan əvvəl VIII əsrə aid Urartu yazılarında Axuriani şəhərinin adı ilə uyğun gəlir.

Çay bir sıra coğrafi xüsusiyyətləri ilə diqqət çəkir. Orta axında o rütubətli vadidən axır. Bu hissədə Keçid silsiləsindən çoxlu sayda kiçik qollar qəbul etdiyindən sahilləri bataqlıqlaşmışdır və çayın axını nisbətən zəifləyir. Təqribən 15 km sonra cənuba istiqamətlənir. Burada çay dərəsini xeyli dərinləşdirir. Onların dərinliyi təqribən 400 metrə çatır.

Ermənilər son dövrlərdə Aqin dəmir yol stansiyasından bir qədər aşağıda çayın qarşısını bəndlə kəsmişlər. Ərazidə onların Axuryan adlandırdığı su anbarı yerləşir. Qərbi Arpa çayına tökülən nisbətən iri çay onun sağ qolu olan Qars çayıdır. Çayın hidroloji rejimi, hövzəsi, qolları və axdığı ərazilərin geomorfologiyası bir sıra erməni tədqiqatçılar tərəfindən öyrənilsə də, məlum səbəblərə görə azərbaycanlı alimlər tərəfindən ətraflı tədqiq edilməmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi ermənilərin Baqaran adlandırdığı kəndin yaxınlığında Qərbi Arpaçay Araza tökülür. Çayın uzunluğu 186 km-dir ki, bunun da yarıdan çoxu Türkiyə-Ermənistan sərhəddindən keçir. Çay üzərində mühüm təsərrüfat əhəmiyyətli bir sıra su anbarları inşa edilmişdir. Suyu əsasən əkinçilikdə istifadə edilir. Hövzəsinin sahəsi 2630 km²-dir. Qərbi Arpaçayın əsas qolları sağdan — Qaraxan, Qars, Çaryun, Alacan və Tekor, soldan — Karanqum-dur.

Zəngi (Razdan) çayı başlanğıcını Göyçə gölündən götürür. Başlanğıcını göldən götürən yeganə çaydır. Zəngi çayı Göyçə, Zəngibasar həmçinin İrəvan ərazisindən keçərək Araz çayına tökülür. Çayın uzunluğu 141 km, hövzəsinin sahəsi 7310 km2-dir. Qərbi Azərbaycan üçün çox mühüm rol oynayır. Çayın axını dağ dərəsi

boyunca cənub hissəyə doğru dolanır. İrəvanla sərhəddə, Sürməli düzü ilə axır və Araz çayına tökülür.

Çayın adı qıpçaqların zəngi tayfasının adından götürülmüşdür [3, s. 123,257; 4, s.26]. Zaman-zaman çay öz məcrasından daşaraq ətraf əraziləri su basmış və Zəngibasar toponimi burdan əmələ gəlmişdir. Çayın adı ermənilər tərəfindən dəyişdirilərək Razdan qoyulmuşdur.

Çayın mühüm qollarından biri Gedərçaydır. İrəvan şəhərindən axan bu çay mənbəyini Hədis dağlarından götürür.

Qərbi Azərbaycanda Gedərçay hidronimi ilə bağlı bir neçə çay adına rast gəlinir. Bunlardan biri Şərur-Dərələyəz qəzasında -Paşalı ərazisində (Vayk) çaydır. Uzunluğu təqribən 15 km-dir.

Digəri isə qismən dəyişdirilmiş Gərd çayıdır. Bu çay Zəngəzur mahalında indiki Qafan rayonu ərazisindən axır.

Gərgər isə Borçalı qəzasında indiki Stepanavan rayonu ərazisində çaydır. İstər Gərd və istərsə də Gərgər çayı qədim türk tayfalarından olan qarqar etnonimi ilə əlaqəlidir [5, s. 479].

Qərbi Azərbaycanda ən uzun çaylarından biri Zəngəzurdadır. Bu uzunluğu 179 km olan Bərgüşad çayıdır. Qərbi Azərbaycan ərazisində onun uzunluğu 119 km -dir. Çayın su sərfi 700 milyon kubmetrə yaxındır. Keçdiyi ərazilərdə dərin kanyondan axan dağ çayıdır. Mövcud olduğu müddətdə çayın bir neçə dəfə adı dəyişdirilib. Hazırda Ermənistanda çay Varaton adlandırılır.

Ərazidə yerləşən ən mühüm çaylardan biri də Gərniçaydır. Gərnibasar mahalından axır və mahalın adı da bu çayın adından götürülmüşdür. Sonralar mahal ərazisində İrəvan qəzası təşkil olunmuşdur. Çay öz başlanğıcını Göğdağ (Ağmanqan) dağ silsiləsinin hündür zirvələrindən götürür. Yuxarı axında iki əsas qol qəbul edir və dağ çayı kimi xarakterizə edilir. Cənnətli kəndindən başlayaraq düzənliyə çıxır. Bəzən yay aylarında çayda su o qədər azalır ki, Araza gedib çatmır.

Oxçuçay-Zəngəzur mahalında indiki Qafan Rayonu ərazisindən axır. Uzunluğu 82 km, hövzəsinin sahəsi 1140 km²-dir [1]. Bu çay öz mənbəyini Zəngəzur dağlarından götürür Zəngilan rayonundan keçərək Araz çayına tökülür. Hidronimin "Kitabi Dədə Qorqud" dastanında adı çəkilən Oxçu adlı qəhrəmanın adından yarandığı güman edilir. Bu da çayın müəyyən bir ərazidə sürətli axması ilə əlaqədardır. Ermənilər çayı hazırda Voxçi adlandırır.

İrəvan quberniyasında indiki Ermənistanın Quqark rayonu ərazisində uzunluğu 86 km olan Pəmbək çayı axır. Pəmbək toponiminə bir çox yerlərdə oronim, oykonim, həmçinin hidronim kimi rast gəlinir. Hidronimin mənası türk dilində "dar çay vadisində hündür bənd" deməkdir [6, s.66].

Qərbi Azərbaycanda bir sıra mühüm təsərrüfat əhəmiyyətli göllər də vardır. Onlardan Qərbi Azərbaycanın az qala simvoluna çevrilmiş Göyçə gölüdür. Relikt göldür. Dünyanın ən yüksək dağ göllərindən biridir. Təqribən 1900 m hündürlükdə dağ silsilələri ilə əhatələnmişdir. Gölün maksimum dərinliyi 95 m, uzunluğu 70 km, eni 30-35 km-dir. Göl 28 çayla qidalanır göldən ancaq bir çay Zəngi çayı axır. Xüsusilə Arpaçay gölün əsas qida mənbəyi sayılır. Hidronim qədim türk mənşəlidir. "Kitabi Dədə Qorqud" dastanında Gökcə dəngizi (Göyçə gölü) kimi adı keçən coğrafi məkan fikrimizi təsdiq edən faktlardandır [2, s.115].

Zəngəzur qəzasında, Zəngibasar mahalında, İrəvan qəzasında, Ağgöl ilə bilinən göl adlarına rast gəlinir. Hər üç gölə də bu ad suyunun təmizliyinə görə verilmişdir.

Qazangölü - Zəngəzur mahalında, indiki Qafan rayonu ərazisində yerləşir. Göl, həmçinin Kığı çayının mənbəyindədir. Üç göldən ibarətdir. Sahəsi 0,18 km2, dərinliyi 10 metrdir. Bu toponimə də bağlı bir çox dağ, göl, aşırım və yer adları mövcuddur. Toponim "Kitabi Dədə Qorqud" dastanındakı Qazan xanın adı ilə bağlıdır [2, s. 94]. Qazangöl quruluşca mürəkkəb hidronimdir.

Göygöl - Zəngəzur mahalında, indiki Qafan rayonunda göldür. Suyu təmiz, şəffaf olduğuna və suyun rəngi göy rənginə çatdığına görə Göygöl adlandırılmışdır. Adı dəyişdirilib Kapuyt liç (Göygöl) qoyulmuşdur. Bir sıra tədqiqatçılar göy sözü ilə başlanan toponimlərin qədimdən burada məskunlaşmış göytürklərə aid olduğunu bildirirlər.

Nəticə

Qərbi Azərbaycan ərazisində yüzlərlə türk mənşəli hidronim mövcuddur. Düzdür, biz bu məqalədə istəsək də, onların hamısına aydınlıq gətirə bilmərik. Ümumiyyətlə, istər fiziki coğrafi, istərsə də toponimlərə aid tədqiqatlara nəzər saldıqda açıq-aydın görünür ki, onların hamısı Azərbaycanın siyasi və etnik tarixi ilə əlaqəli olub, coğrafi adların yaranma tarixi arasında əlaqəni araşdırmaqdan ibarətdir.

Bu sahədə toponim araşdırmaları bir daha sübut edir ki, Qərbi Azərbaycan bölgəsindəki toponimlərin hamısı türk mənşəlidir. Bu təbiidir, çünki çox qədim dövrlərdən bu ərazilərdə türk mənşəli etnoslar yaşamışlar. Erməni tarixçiləri Qərbi Azərbaycan bölgəsi haqqında cəfəng fikirlər, uydurma və yalanlar

söyləyərək bu qədim və ulu torpağın ermənilərə məxsus olduğunu yazsalar da, çox qiymətli və qədim məxəzlər bu bədnam mülahizələri rədd edir, ermənilərin heç vaxt bu ərazidə aparıcı rol oynamadıqlarını bildirirlər.

ƏDƏBİYYAT

1. Müəlliflər toplusu. Azərbaycan Respublikasının coğrafiyası. I cild. Bakı: Avropa, 2014, 529 s.
2. Babayev, S. Naxçıvanda "Kitabi Dədə Qorqud" toponimləri. Bakı: Yeni nəşr evi, 1999, 209 s.
3. Sümər Faruq. Oğuzlar. Bakı: Yazıçı: 1992, 432 s.
4. Zeynalov, F. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981, 347 s.
5. Страбон. География, В 17ти кн. Л.:, 1964, 943 с.
6. Мурзаев, Э.М. Словарь народных географических терминов. М.: Мысль, 1984, 653 с.

ABSTRACT

Elnara SEYİDOVA, Naila ALİYEVA,
Mohammad GULİYEV

HYDRONYMS OF WESTERN AZERBAIJAN

The article provides explanations in Azerbaijani for a number of hydronyms located in Western Azerbaijan, categorizing their physical geographical characteristics. Despite undergoing changes over centuries, hydronyms that retain their meanings provide further evidence of the settlement of Turkic-origin peoples in the area and the belonging of those lands to Turks. Toponyms serve as "historical witnesses," preserving a range of historical geographical facts within themselves. Therefore, the hydronyms investigated in the article hold significant relevance in this regard.

Keywords: *Hydronym, toponym, Western Azerbaijan, rivers, lakes*

QƏDİM OSMANLI QAYNAQLARINDAKI BƏZİ QƏRBİ AZƏRBAYCAN ETNOTOPONİMLƏRİ HAQQINDA

Arzu ABBASOVA
arzu088@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qədim Osmanlı qaynaqlarında qeyd olunan toponimlərin maraqlı bir qismini etnonimlərdən törənmiş toponimlər təşkil edir. Tədqiqatlar göstərir ki, bu ərazidə ilkin məskunlaşan qədim türk tayfalarının adları tarixi proseslər nəticəsində bir çox coğrafi obyektlərin ünvanına çevrilmişdir. Osmanlı qaynaqlarını araşdırdıqda etnonimlərlə bağlı belə toponimlərin daha çox üstünlüyə malik olduğunu görürük. Bu etnonimlərin böyük bir qrupu sonradan tarixi proseslərin nəticəsi olaraq toponimlərin yaranmasında da iştirak etmişlər. Qədim qaynaqlarında rast gəlinən və çağdaş Azərbaycan toponimikasındakı mövcud Qaraqoyunlu, Dəllər, Quşçu, Muğan, Türkəş // Tırkeş, Kolani, Əskəmor və s. bu kimi toponimlərin mənşəyi araşdırıldıqda Azərbaycan xalqının soy – kökündə duran qəbilə birləşmələrinin tarixən keçib gəldiyi yol aydınlaşır. Osmanlı qaynaqları üzrə araşdırmaya cəlb edilmiş bir sıra etnotoponimlərin tədqiqilə Azərbaycan xalqının etnogenizi probleminin açıqlanmasına, eləcə də qədim tariximizin bəzi mübahisəli məsələlərinə aydınlıq gətirilməyə çalışılmışdır. Bu qaynaqlar üzrə onomastik vahidlərin növlərindən olan etnotoponimlərin elmi tədqiqi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan və Qərbi Azərbaycanın tarixi ərazi bütövlüyünü, milli mənsubiyyətini, eyni zamanda bu əraziyə müxtəlif millətlərin miqrasiyalarının müəyyənləşməsinə təminat verir. Məqalədə Qərbi Azərbaycan etnotoponimlərinin qədim və orta əsr məxəzlərində əks edilməsi, müasir dövrdə tədqiqi kimi məsələlər işıqlandırılıb. Eyni zamanda ən qədim zamanlardan dövrümüzədək Qədim Osmanlı qaynaqlarında və ümumilikdə, Azərbaycan toponimiyasına aid elmi müşahidələr də təhlil edilir, tədqiq metoduna və növünə görə təsnif olunur, bir sıra elmi nəzəri mülahizələr irəli sürülür. Bu onomastik vahidlər tədqiq edilərkən tarixi-müqayisəli və qarşılaşdırma metodlarından istifadə edilərək fonetik və morfoloji dəyişikliyə uğrayan bəzi adlar tarixi – linqvistik təhlil ilə bərpa olunmuşdur.

Açar sözlər: *toponim, etnotoponim, etnos, Qərbi Azərbaycan, Kolanı, Qaraqoyunlu, Qədim Osmanlı*

Material və metod

Qədim Osmanlı qaynaqlarında qeydə alınmış Muğ tayfalarının adını yaşadan belə etnotoponimlərdən Muğanlı (İrəvan əyalətinin Xınzrək nahiyəsində), Muğan (Naxçıvanın Dərəşahbuz nahiyəsində) coğrafi adları Azərbaycanlıların etnogenezində rol oynamış bu etnosların tarixini öyrənməyə imkan yaradır. Tarixdə qədim Muğ tayfalarının mənşəyi haqqında mübahisəli fikirlərin mövcud olmasına baxmayaraq, bir çox tarixi faktlar bu tayfanın qədim türk boylarından biri olduğunu təsdiq edir. Qərbi Avropanın bir çox tədqiqatçıları Muğ//maq//ların türk olması faktını qeyd etsələr də, təəssüflə qeyd etmək lazımdır ki, bəzi rus və Azərbaycan tarixçiləri bu faktı inkar edərək bu etnosu farsdilli hesab etməyə çalışmışlar. Lakin toponimik araşdırmalar muğ//maq// mağ// komponenti və –an şəkilçisilə yaranmış toponimlərin daha çox türk xalqlarının məskunlaşdığı ərazilərdə mövcud olduğunu təsdiqləyir. Bununla yanaşı, bir çox tədqiqatçıların – Q.Qeybullayevin, A.Rəhimovun, Q.Məşədiyevin, R.Rəisniyanın, S.Nəfisinin tədqiqatlarında istənilən qədər elmi tarixi faktlar mövcuddur. Q.Məşədiyevin araşdırmalarında Şimali Azərbaycan ərazisində muğ etnotoponiminin adını daşıyan Muğanlı adlı 13 kəndin qeydə alındığı göstərilir. Müəllifin fikrincə maq//muğ sözü zərdüştiliyin yaranması və yayılması, Midiya ilə sıx bağlıdır. Beləliklə, zərdüştlər – midiyalılar tam VI – VIII əsrlərə qədər sözsüz "maqam"lar adlanırdılar. Zərdüştlərin kahinləri mağlar sözünün ilan mənası verdiyini bildikdən və yaxud başa düşdükdən sonra öz əvvəlki adlarını (yəni mağları) dəyişdirərək artavan adını (atar od, van yer) qəbul etdilər. Artvan – paytaxtdır, yer adıdır.

Tar – sözünün semantik funksiyası (tərifləmək, şöhrətləndirmək) öz dinlərinə uyğunlaşır, ta sözünün fonetik variantları tor, tir-dir.

Mir – Muğan adoniminin əsası ola bilər. Vaxtilə, həm də geniş Muğan zərdüştiliyin paytaxtı idi. Lakin Azərbaycanda qədimdən iki eyni adlı toponimlər mövcud idi [Məşədiyev Q.İ, 1990, s. 61-62].

A.Bağırov da muğan onomastik vahidini Zərdüştilik dini ilə bağlı olduğunu açıqlayan müəlliflərin fikrinin həqiqətə uyğun oldugunu söyləyir. Bu dinin ruhanilərinin məhz həmin mug qəbiləsindən olduğunu,onların muğlar adi ilə xatırlandıqlarını və bu qəbilənin adının muğan şəklində indi də Azərbaycanda

yaşadığını yazır. Muğan sözünün mağ//muğ söz kökü və -an şəkilçisindən ibarət olduğunu,burada muğ sözünün tayfa adı, -an şəkilçisininsə həm cəmlik,həm də yurd,məkan mənası bildirdiyini qeyd edir [Bağırov A, 2002, s.85-86].

İ.Bayramov isə Muğancıq toponiminin muganlı türk etnonimi əsasında formalaşdığını və Muganlıların Muğan düzündə yaşamış türk dilli Azərbaycan tayfalarının ümumi adı olduğunu yazır [Bayramov, İ, 2002, s.469].

Qədim Osmanlı qaynaqlarında Naxçıvan və onun ətraf bölgələrində qeydə alınmış muğların adını daşıyan toponimlərin müasir dövrdə də həmin ərazilərdə mövcud olması faktı da mövcuddur: Mığrı (Qərbi Azərbaycanın indiki Ermənistanın Zəngəzur rayonunda), Muğancıq (Ermənistanın Gorus rayonunda), Muğanlar (Kastamonunun Iğdır bölgəsində) Muğancıq - Müslüm – Muğancıq (Naxçıvanın Şərur rayonunda), Moğan, Moğlu (Cənubi Azərbaycanın Şərqi Azərbaycan ostanında). Bu toponimlərin mənşəyi araşdırıldıqda aydın olur ki, vaxtı ilə maq//muğ etnoslarının adının sonradan coğrafi adlara keçid alması heç də təsadüfi deyil.

Qədim və müasir Azərbaycan ərazisində etnonimlərdən yaranaraq sabitləşmiş çox sayda toponimlərin sırasında əski Uz tayfalarının da adını xüsusi qeyd etmək lazımdır. Azərbaycanlıların etnogenezində fəal rol oynamış qədim oğuz boylarından biri olan uz etnosunun adını yaşadan coğrafi adlar türk xalqlarının yaşadığı müxtəlif bölgələrdə olduğu kimi, Naxçıvan ərazisində də qeydə alınmışdır.

XVI – XVIII əsrlər Osmanlı qaynaqlarında uzların Sisyan nahiyəsindəki Uz, Naxçıvanın Azadciran nahiyəsində Üstüpü toponimlərində mühafizə olunmuşdur. Qədim qaynaqlarda olduğu kimi, müasir tədqiqatlarda da, indiki Ermənistanın Sisyan rayonunda Uz adlanan kəndin xaraba qaldığı göstərilir [Qurbanov A, 1998, s.96].

Müəllifin qeyd etdiyinə görə uz sözü oğuz etnoniminin variantlarından biridir.

V.V.Bartoldun qeyd etdiyinə görə müasir türkmənlərin çoxu indi də öz əcdadlarının Uz xan, yəni Oğuz xan olduğunu deyirlər. Tarixən də digər türk tayfaları içərisində əsas yer tutan oğuzların adının Sisian ərazisindəki toponimlərdə geniş yayılması faktı da fikrimizi təsdiq edir. M.H.Vəlili yazır: "Quşanlar tərəfindən hunların adını Ziya bəy Alp qədim türklərin 5 müqəddəs heyvanının birinin yəni "quş" sözünü ifadə edən "quşan" adından olduğunu deyir. "an" sonluğunu o, fars dilində cəm halda hər bir sözün sonluğu hesab edir, çünki quşlar (quşanlar) "yuşa" və "yuta"nın lap qədim "tusun"ların nəsilləri ilk əvvəllər Türküstanda, Iranla sərhəddə yaşayarkən öz adlarını farslardan bu cür dəyişilmiş şəkildə almışlar.

Digər tərəfdən güman etmək olar ki, "quşan" Quşkar ərazisinin adıdır, çünki bu sözü aydınlaşdırarkən görürük ki, o, iki hissədən "quş" və "an"dan ibarətdir. Birinci hissə "quş", ikinci hissə isə "ölkə" deməkdir, yəni "quşan" sözünün "quşların ölkəsi" mənasında tərcümə etmək olar. Azərbaycan ərazisində bir çox toponimlərdə quşanlar öz izlərini qoymuşlar" [Vəlili M.H, 1993, s.35].

Tarixən türklərin məskunlaşdığı ərazilərdə quş və quşçu kimi adlar çox yayın bir şəkildə işlənməkdədir. Istər müasir, istərsə də qədim tarixi qaynaqlarda quş, quşçu kimi yüzlərlə toponim qeydə alınmışdır. XVI – XVIII əsrlər Osmanlı qaynaqlarında da Naxçıvan və onun ətraf bölgələrində quş və quşçu adı ilə bağlı onlarla etnotoponimlər yad edilməkdədir: Quşçu (İrəvan əyalətinin Karbi nahiyəsində), Böyük quşçu (İrəvan ərazisinin Maku nahiyəsində), Quşçu (Şərur nahiyəsində), Qaraquş (Mulki Arslan nahiyəsində).

N.Çetinkaya tədqiqatlarında kuşan adının hunlara farslar tərəfindən verilmiş ad olduğu göstərilir [Cetinkaya N, 1996, s.230]. Kuşanların Azərbaycan və Anadolu yörəsində məskunlaşdığını göstərən tarixi toponimlər bu faktı bir daha təsdiq etmiş olur. Azərbaycanın Tovuz, Gəncə bölgəsində Quşçu adlı iki kənd, Qubada Köhnə Quşçu, Yuxarı və Aşağı Quşçu, Laçında və Şamaxıda Quşçu kəndləri, Zərdabda Dəli Quşçu, Ağdaş və Cəbrayılda Quşlar, Zəngəzurda Quşçu, Quşçu Bilək və Quşçu Təzəkənd, Şuşada Quşlar, Aşağı Quşçular və Quşçu oba, Dəvəçidə Çöl – Quşçu adlı kəndlər mövcuddur [Qeybullayev Q.Ə, 1992, s.39].

Cənubi Azərbaycanın Zəncan bölgəsində də əhalisi tamamən türklərdən ibarət Quşçu adlı bir kənd vardır. Quş, Quşçu adıyla yüzdən çox kənd Türkiyənin Anadolu bölgəsində qeydə alınmışdır [T.C.İçişləri Bakanlığı Yayını,1946, s.762 – 765]. Osmanlı dövründə də quş adıyla bağlı bir çox yer adları qeydə alınmışdır [T.C.İçişləri Bakanlığı Yayını, s.555 – 556].

Tarixi toponimik tədqiqatlardan aydın olur ki, quş adı yalnız Azərbaycan və Anadoluda deyil, XV-XVIII əsrlərdən Özbək, Türkmən, Qırğız türklərinin də etnogenezində mühüm rol oynamaqla toponimiyasında da öz izlərini buraxmışdır. Q.Qeybullayevin tədqiqatlarından aydın olur ki, XIX əsrdə Qafqazda quş, quşlar, quşçu komponentlərilə 38 toponim qeydə alınmışdır. Quşçu etnonimi əsasında yaranmış toponimlərin (qazaxlarda – quşsi, başkırdlarda - quşçi, kaşsı, türkmənlərdə – kutçi, noqaylarda - kuşsi, qırğızlarda – quşçu) arealı Şimali Qafqaz, Orta Asiya, Iran və Türkiyəni əhatə etməkdədir [Григорев В.Г, 1833, s.65].

I.Bayramov da Quğçu toponiminin qədim quşçu türk etnonimi əsasında yarandığını və İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində və İrəvan quberniyasının Şərur-

Dərələyəz qəzasında, indiki Pasalı (Əzizbəyov, Vayk) rayonunda Quşçu adlı kəndin olduğunu tədqiqatlarında qeyd edir [Bayramov İ, s.252-253].

XVI-XVIII əsrlər Osmanlı qaynaqlarında qeydə alınan qədim türkmənşəli etnotoponimlərdən biri də Naxçıvanın Dərəşahbuz nahiyəsində qeydə alınan Tirkəşidir. Müasir dövrdə Şahbuz rayonunda qeydə alınmış Tırkeş, Kəlbəcərdə Tirkeşbənd, Ermənistanın Vartaşen rayonunda Terkeş oykonimlərinin mənşəyi araşdırıldıqda aydın olur ki, bu oykonimlər qədim Türkeş tayfalarının adı ilə sıx bağlıdır.

Müasir türk xalqlarının bir çoxunda başqırd və tatarlarda Turqeş, özbəklərdə Tırkiş, tuva və altaylarda Türkeş etnonimlərinin izləri coğrafi adlarda yaşamaqdadır [Гриторев В.Г, 1833, s.38].

Qradzinin verdiyi bilgilərə görə isə tırkeşlər iki tirəyə ayrılmışlar. Onlardan biri tuxsilər, digərləri isə azlardır. Q.Qeybullayev tədqiqatlarında Tirkeş etnotoponiminin mənşəyini türkeş xaqanliğinin adı ilə əlaqələndirir və başqırd, tatar, tuva, altay dillərində də bu tayfa adının qeyd olunduğunu göstərir [Qeybullayev, 1992, s.37-38].

A.Bağırov isə öz araşdırmalarında Tirkeş etnotoponimi haqqında yazır: " Bizə belə gəlir ki, Tirkeş oykonimi eyniadlı tayfa adı ilə adlandırılsa da, birbaşa bu adla bağlı deyil. Çünki tarixi mənbələr türkeş tayfalarının Naxçıvana gəlişi haqda heş nə demir və ərazidə bu tayfa adı ilə bağlı digər iz görünmür. Fikrimizcə, Tirkeş Kəngərlilərə məxsus tayfa adıdır,cünki kəngərlilərin kəlfirli tirəsi tarixən bu kənddə yaşayıb və XIX əsrdə kəndin bütün əhalisi bu tayfaya məxsus olub. Çox güman ki, tirkeşlər vaxtilə Naxçıvana Kəngərli tayfaları ilə qaynayı-qarışmış şıkildə gəlib və Kəlfirli tayfası ilə qarışıq bir tirə yaranıb. Ona görə də Tirkeş adını kəngərlilərə məxsus tayfa(tirə) qolu kimi açıqlamaq daha inandırıcıdır" [Bağırov A,2002, s.49].

Bizim fikrimizcə, Adil Bağırovun fikirləri həqiqətə daha yaxındır. XVI – XVIII əsrlər Osmanlı qaynaqlarında adı daha çox keçən qədim türk tayfalarından biri də qaraqoyunluların adını daşıyan toponimlərin Naxçıvanın ətraf bölgələrində qeydə alınmasıdır. Tarixi araşdırmalar göstərir ki, bu ərazilər qaraqoyunluların önəmli qışlaq yerləri olmuşdur. N.Çetinqayanın tədqiqatlarında qaraqoyunluların tarixi haqqında ətraflı məlumatlar vardır. Miladdan sonra III əsrin ortalarına Doğru Türküstanda qaraqoyunlular, XIV əsrin ikinci yarısında Erciş məntəqəsində öz bəyliklərini qurmuşlar [Cetinkaya N, s.211].

Elxanilər islamı qəbul etdikdən sonra qədim oğuzlardan gələn türkmanlar milli adət ənənlərini yaşadaraq Daş Oğuz (Qaraqoyunlu) və İç Oğuz (Ağqoyunlu) qollarına ayrılaraq müsəlmanlığı qəbul etdilər. 1468-ci ildən sonra Ağqoyunlu tayfaları ilə qaynayıb qarışaraq Qaraqoyunlu tayfaları əsasən Azərbaycan və indiki Ermənistan ərazisində məskunlaşmışlar. XIX əsrdə Zaqafqaziyada, əsasən, Azərbaycanda Qaraqoyunlu adlı 16 toponim qeydə alınmışdır [Velidi T.Z, s.57].

1591-ci il dəftərində Ağcaqala nahiyəsində Qaraqoyunlu kəndi, Iğdır – Aralıq nahiyəsində Yuxarı və Aşağı Qaraqoyunlu kəndləri, müasir Tuzluca mərkəz nahiyəsində Qaraqoyunlu, Iğdırın mərkəz və Cəngətabad nahiyələrində Qaraqoyunlu adlı kəndlər qeydə alınmaqdadır.

Toponimik tədqiqatlardan aydın olur ki, qaraqoyunlar sadəcə Naxçıvan və onun ətraf bölgələrində deyil, tarixən daha geniş əraziələrə yayılaraq öz adlarını coğrafi adlarda qorumağa nail olmuşlar. Tarixi qaynaqlarda verilən məlumatlara görə qaraqoyunlular XIV – XV əsrlərdə Türkiyənin Antalya bölgəsinin Qarahisar yaxınlığına köç edərək burada da yerləşmiş və qaraqoyunlu adını məskunlaşdıqları yerlərə vermişlər [Hasan M, s.141].

Osmanlı qaynaqlarında Qaraqoyunlu tayfası, Qarahisar və Qızılqaya qəzaları, Teke sancağı, Canik Sancağı, Musul, Malatya, Hama, Hums, Maraş, Bozox, Nicdə, Qayseriyə, Kırşəhr, Ankara, Karaman, Şam sancakları, İzmir qəzası, Cuşaabad nahiyəsi, Diyarbəkir əyalətinin əhalisi kimi qeyd olunur [T.C.İçişleri Bakanlığı Yayını, 1946, s.478].

Müasir dövrdə Türkiyənin Anadolu yörəsində Qaraqoyunlu adı ilə xeyli toponim qeydə alınıb. Qaraqoyun kəndi (Muğla, Milas, Sinop – Kirzə, Urfa – Siberek), Qaraqoyunlu kəndi (Antalya – Almalı, Antalya – Serik, Qayseri – Pınarbaşı, Ordu – Fatsa), Qaraqoyunlu məhəlləsi (Çankırı – Çerkeş – Pürçükörən kəndi, Qaziantəp – Kilis – Dölək kəndi, Adana – Osmaniyə) [T.C.İçişleri Bakanlığı Yayını, 1946, s. 615].

Şimali Azərbaycanın Göyçay, Zəngəzur, Nuxa, Quba, Naftalan və Ağsu bölgələrində də Qaraqoyunlu adlı kəndlər qeydə alınıb.

Cənubi Azərbaycanın Maku və Xoy yörəsində Qaraqoyunlu və Ağqoyunlu topluluqları bərabər yaşamaqdadır. Cənubi Azərbaycanda qaraqoyunluların ana icması əsasən Qaradağ ilə Araz çayı ətrafında Arasbaranda yaşamaqdadır. Cənubi Azərbaycanın Maku və Urmiyə yörəsində Qaraqoyunlu adlı kəndlər vardır. Ermənistanın Vardanis şəhərinə bağlı Qaraqoyun adlı türk kəndi 1935-ci ildə erməni dövlətinin qərarı ilə Əzizli olaraq dəyişdirilmişdir [Makaz Z, s.230].

Azərbaycanın tarixi qaynaqlarından bəlli olur ki, Oğuz boyuna mənsub qəbilələrdən biri Kolanlı qəbiləsidir. Osmanlı qaynaqlarında İrəvan əyalətinin Göyçə nahiyəsində (Kolanı kəndi), eyni zamanda Türkiyənin Rakka əyaləti və Nevşəhrdə Kolanlı türkmən tayfası və Əmirdağ qəzasında Kolanşam adlı türkmən

tayfası qeydə alınmışdır.

Tarixi qaynaqlardan aydınlaşır ki, qədim Türk boylarından olan kolanlıların əsas ana qolu əsasən Azərbaycanda yaşamaqdadır. Mirzə Adıgözəl Qarabağdakı Umacıq kəndindən Göygöl sahillərinə qədər və Tərtər çayı boyunca kolanlıların məskunlaşdığı yerlər olduğunu göstərir. Mirzə Camal Cavanşir də kolanlıları Qarabağın böyük qəbilələrindən olaraq xanlıqlar dövründə "dövlət, əzəmət güc və mülk sahibi" olaraq müstəqill olduqlarını göstərir [Karabağlı M.C,1990, s.35].

Tarixi qaynaqların bir çoxunda XIV əsrin ikinci yarısında Cavad qəzasında 282 ailədən ibarət bir kolanlı topluluğunun yerləşdiyi qeyd edilir.

İ.Bayramov da tədqiqatlarında İrəvan quberniyasının Eçmiədzin qəzasında,indiki Zəngibasar (Masis) rayonu ərazisində Kolanli adlı kəndin olduğunu gostərir və 1937-ci ilə kimi Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində qaldığını qeyd edir. Toponimin kolanlı türk etnoniminə mənsubluq bildirən -lı şəkilçisi artırmaqla əmələ gəldiyini "kolanlı tayfasına məxsus yer" mənasını bildirdiyini deyir [Bayramov İ, s.401].

A.Bağırov araşdırmalarında yazır: "Kolanı və kolanlıların coğrafiyası, mənşəyi və tirələri haqqında maraqlı məqalə ilə çıxış edən N.Bəndəliyev belə qənaət gəlir ki, Kolanı qarışıq tayfa yox, çox qədimdən Şirvan, Naxçıvan, Vedibasar sahələrində və Iran ərazisində məskunlaşmış türk-oğuz qrupuna mənsub tayfalardan biridir. Şübhəsiz ki, geniş areala malik olan türk-oğuz tayfalarına məxsus Kolanı tayfasının bir qolu da tarixən Naxçıvanda məskunlaşmış və eyniadlı kəndin əsasını qoymuşlar" [Bayramov İ, s.80].

Müasir Şimali Azərbaycan toponimiyasında Dəvəçi, Sabirabad, Salyan, Şahbuz bölgələrində kolanlı adlı kəndlər mövcuddur. Abşeron və Goranboyda Kolandağ adlı iki dağ, Goranboyun Tap Qaraqoyunlu bölgəsində Kolanı dərəsi, Şahbuz rayonun Aşağı Qışlaq kəndində Kolanı kahası, Kolanı kəndi, Tərtərin Dəmirçilər kəndində, Ağdərənin Umudlu kəndlərində Kolanı yamacı adlı yerlər mövcuddur.

Daşburundakı Kolanlı qəbiləsinin adı Vedibasarda Çığın dərəsi boyunca yerləşən kəndlərdən olan Kolanlıdan gəldikləri üçün bu adı almışdır. Tarixi məlumatlardan aydın olur ki, 1827-ci ildə kolanlıların bir qismi Qarabağa köçərək Xaçın çayı kənarında yerləşmişlər. Müasir dövrdə Türkiyə toponimiyasında Kolanlı adlı on bir kənd qeydə alınmışdır [T.C.İçişləri Bakanlığı, s.720].

XVI – XVIII əsr Osmanlı qaynaqlarında qeydə alınmış mənşəyi maraq doğuran etnonimlərdən biri də dəllər etnonimi əsasında yaranmış toponimlərdir. Qaradəli, Delican, Dəliqardaş (Göyçə nahiyəsində), Dəllər kəndi (Karni nahiyəsində), Dəlilər kəndi (Qırxbulaq nahiyəsində) 522-ci ildə böyük Türk xaqanlığı yaradan dəllər Çindən başlayaraq bütün Şərqə, o cümlədən Iranın sərhədlərinə, eləcə də Bizans imperiyasının cənub-qərbinə qədər çox böyük əraziləri əhatə etmişlər [Cələbi E, s.82].

I.Bayramovun verdiyi məlumatlardan aydın olur ki, bu etnonim erməni mənbələrində Dəlilər etnonimi kimi qeyd olunmuşdur. İrəvan quberniyasının İrəvan qəzasında Qəmərli (Artaşat) rayonundan 2 km. Şimal-Şərqdə Gərni çayından axan arxın yanında yerləşən bu etnonimin adını daşıyan Böyük Dəlilər kəndinin adı Ermənistan SSR AS. RH-nin 3.I.1935-ci il fərmanı ilə adı dəyişdirilib ermənicənin fonetik sisteminə uyğunlaşdırılılaraq Dalar formasına salınmışdır [Bayramov İ, s.149]

VI əsrin 70-ci illərindən öz sərhədlərini genişləndirən dəllər Şimali Qafqazın qərb sərhədlərinə qədər öz ərazilərini bir qədər də genişləndirmişlər. Tarixi proseslərdə müəyyən fonetik deformasiyalarla müşahidə olunan bu etnonim tele // dele // deli Azərbaycan toponimiyasında dəli və dəlilər formasında müşahidə olunmaqdadır. Q.Qeybullayev bu etnosun Azərbaycan dilində düzgün fonetik variantının dəlilər olduğunu və XIX əsrdə Azərbaycanda bu etnosun adını daşıyan 9 toponimin qeydə alındığını göstərmişdir [Григорем.В.Г, 1833, s.37].

Dəli // tele sözünün semantik mənasını "sumaşedşiy" – "güclü, böyük, xarüqüladə", "udalıy" – "qoçaq, cəsur" şəklində açıqlayan Q.Qeybullayev bu etnonimin müxtəlif fonetik variantlarının digər türk xalqlarının da dilində mövcud olduğunu göstərir. Etnonim tele // deli karakalpaklarda teli, qazaxlarda – tilev, özbək və başqırdlarda – tileu, qırğızlarda – telev, noqaylarda – tele şəklində mövcuddur. Araşdırmalar göstərir ki, müasir altayların adları teleut, telenqut və teles tele // deli etnonimindən törəmişdir. L.I.Potapov tele etnoniminin izlərinin Tele – Monqolustanda, Dele – Altayda və Qazaxıstanda – Tele – kol hidronimlərinin adında daşlaşıb qaldığını göstərir [Рашид-ад-Дин, 1952, s.157].

Qədim Osmanlı qaynaqlarında qədim türk etnoslarının adından yaranmış kifayət qədər etnotoponimlər sadalanır ki, bu etnotoponimlərin tarixi mənşəyi açıqlanmaqla Naxçıvana və işğal olunmuş ətraf bölgələrə qarşı saxta torpaq iddialarına qarşı tutarlı cavabdır.

Nəticə

Nəticə olaraq onu deyə bilərik ki, Qədim Osmanlı onomastikasında dilimizin lüğət tərkibində özünə möhkəm yer tutmuş qədim sözlərin, eləcə də onomastik vahidlərin həm qədim türk abidələri, həm də qohum türk dilləri materialları əsasında araşdırılması, onların tarixi – tipoloji təhlili Azərbaycanın, əsasən də, Qərbi

Azərbaycan və Naxçıvanın ilkin sakinləri olan qədim türk tayfalarının bu ərazilərin ilkin sakinləri olduğunu təsdiq edir. Tədqiqat göstərir ki, Qədim Osmanlı qaynaqlarındakı etnosların adını əks etdirən coğrafi adların bir çoxunun hələ e.ə. bu ərazilərdə yaşadığı elmi faktlarla təsdiq olunur və ərazi toponimlərinin bir hissəsi tayfa və tayfa birlikləri əsasında formalaşanlardır. Bunlar əzəldən xalqın etnogenezində iştirak etmişlər.

Qərbi Azərbaycan toponimlərin böyük bir qisminin etnonimlərdən ibarət olması faktı bu ərazinin ilkin sakinlərinin türklər olduğunu sübuta yetirir.

ƏDƏBİYYAT

1. Bağırov, A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 288 s.
2. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 696 s.
3. Çələbi, E. Səyahətnamə., Bakı: Azərnəşr, 1997, 92 s.
4. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996.
5. Qeybullayev, Q.Ə. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
6. Qurbanov, A. Müasir Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988, 596 s.
7. Məmmədov, H. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Elm, 2001, 376 s.
8. Məşədiyev, Q.İ. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 1990, 148 s.
9. Vəlili (Baharlı) M.H. Azərbaycan: fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk. Bakı: Azərbaycan, 1993, 208 s.
10. Çetinkaya, N. Iğdır tarihi. TDAV, İstanbul, 1996, 420 s.
11. Hasan, M. Antalya'nın Fethi ve Türk Mühürünün Vuruluşun // Türk Dünyası Araştırmalar Dergisi, 1993, Aralık, № 87.
12. Karabağlı, M.C. Karabağ Tarihi Gök Yayınları. Ankara: 1990.
13. Makas, Z. Ermenistan'da Adları Değiştirilen Bazı Türk Yerleri Üzerine // Türk Dünyası Araştırmaları Dergisi. 1993, Nisan, № 83, s.
14. Türkiyede Meskun Yerler Klavuzu. T.C. Içişleri Bakanlığı Yayını. 2 cilt Ankara: Başbakanlık Devlet Matbaası, 1946
15. Velidi, T.Z. Azerbaycan Etnoqrafiyasına dair // Azerbaycan Yurt bilgisi, 1933, c.I.
16. Григорев, В.Г. Статическое описание Нахичеванской Провинцию Санкт – Петербург: 1833, 165 с.
17. Рашид–ад–Дин. Сборник. Т.1. Книга первая, Москва: Ленинград, 1952

ABSTRACT

Arzu ABBASOVA

SOME OF THE ANCIENT OTTOMAN SOURCES ABOUT WESTERN AZERBAIJAN ETHNOTOPONYMS

Toponyms derived from ethnonyms form an interesting part of toponyms mentioned in ancient Ottoman sources. Research shows that the names of the ancient Turkic tribes that originally settled in this area became the addresses of many geographical objects as a result of historical processes. When we examine the Ottoman sources, we see that such toponyms have more advantages in relation to ethnonyms. A large group of these ethnonyms later took part in the creation of toponyms as a result of historical processes. Garagoyunlu, Dallar, Guschu, Mughan, Türkesh // Tırkesh, Kolani, Eskəmor, etc. found in ancient sources and present in modern Azerbaijani toponymy. When the origin of such toponyms is investigated, the historical path of the tribal associations of the Azerbaijani people becomes clear. Through the study of a number of ethnotoponyms involved in the study of Ottoman sources, an attempt was made to clarify the problem of the ethnogenesis of the Azerbaijani people, as well as clarify some controversial issues of our ancient history. The scientific study of ethnotoponyms from the types of onomastic units based on these sources ensures the historical territorial integrity and nationality of Nakhchivan and Western Azerbaijan, which are an integral part of Azerbaijan, as well as the identification of migrations of different nationalities to this area. In the article, issues such as the reflection of ethnotoponyms of Western Azerbaijan in ancient and medieval sources, as well as their study in modern times, are highlighted. At the same time, the scientific observations related to the toponymy of Azerbaijan in the ancient Ottoman sources from the earliest times to the present day and in general are analyzed, classified according to the research method and type, and a number of scientific theoretical considerations are put forward. While researching these onomastic units, some names that underwent phonetic and morphological changes were recovered by historical-linguistic analysis using historical-comparative and contrasting methods.

Keywords: *toponym, ethnotoponym, ethnos, Western Azerbaijan, Kolani, Karagoyunlu, Ancient Ottoman*

QƏRBİ AZƏRBAYCAN VƏ İPƏK YOLU TİCARƏTİ

Mehriban İMANOVA
mehriban.i@ndu.edu.az
ORCID iD: 0000-0003-2210-724x
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

XIX əsrin əvvəllərində sovet hakimiyyətinin köməyi ilə Azərbaycanın bir sıra torpaqlarının, eləcə də Zəngəzurun Ermənistan SSR-in ərazisinə daxil edilməsi nəticəsində Naxçıvan Azərbaycandan ayrı düşdü. Azərbaycan xalqının bir neçə dəfə deportasiyaya məruz qalması ilə minlərlə azərbaycanlı köç etdi, azərbaycanlıların yaşadığı kəndlərin sayı getdikcə azaldı. Uzun bir aradan sonra İkinci Qarabağ Müharibəsi və 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər Zəngəzur dəhlizi və onun yerli iqtisadi inkişafın təşviqində oynadığı rolu gündəmə gətirdi. Məqalədə şərq və qərb cəmiyyətlərinin iqtisadi və mədəni həyatını zənginləşdirən İpək Yolunun tarixi araşdırılıb, onun dirçəldilməsi üçün Türkiyənin başlatdığı Orta Dəhliz Layihəsinin əhəmiyyəti və faydalı tərəfləri haqqında məlumat verilib, İpək Yolunun bərpa olunmasının məqsədi və Qərbi Zəngəzurun sosial-iqtisadi inkişafına təsiri qiymətləndirilib, ticarət əlaqələrinin gücləndirilməsinə təkan verən amillər müəyyən edilib.

Açar sözlər: *Qərbi Azərbaycan, Zəngəzur dəhlizi, İpək Yolu, ticarət əlaqələri, yükdaşımalar*

XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarından sıxışdırılıb çıxarılması prosesinə başlanılıb, məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail oldular. Eni 40-45 kilometr olan, Azərbaycanla Naxçıvanı ayıran, strateji mövqeyə malik Zəngəzur rayonunda yaşayan 224 min 197 nəfər əhalinin 70 faizini azərbaycanlılar təşkil edirdi. Lakin ruslar ermənіləri bu bölgəyə yerləşdirərək coğrafiyanın demoqrafik strukturunu dəyişdilər. Bu bölgədə azərbaycanlıların yaşadığı kəndlərin sayı 1931-ci ildə 87-yə, 1986-cı ildə isə 40-a enmişdir. Z.Korkodyanın İrəvan şəhərində 1932-ci ildə erməni mənbələrinə əsaslanaraq yazdığı "Sovet Ermənistanın əhalisi" kitabında qeydə alınan 2 min 310 yaşayış məntəqəsinin 2 mininin azərbaycanlılara aid olduğu göstərilir. Onlar özləri etiraf edirlər ki, bu regiona, əsasən, iki mərhələdə-1828-1830, 1915-1918-ci və sonrakı illərdə Türkiyədən minlərlə erməni köçürülmüşdür [3, 20].

Tarixin təkrarlanan dönəmlərində xalqımız bir çox əziyyətlərin, deportasiyaların şahidi olub. 1948-1953-cü illərdə xalqımızın deportasiyaya məruz qalmasından sonra 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından-Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. Nəhayət, 1991-ci ilin avqustunda bu rayonun sonuncu azərbaycanlı kəndi olan Nüvədi kəndinin camaatı tarixi vətənlərini tərk etdilər. Bundan sonra torpaqları daim işğal altında olan Azərbaycan üçün Zəngəzur ancaq Naxçıvanla Azərbaycan arasında "xəncər" kimi yadda qaldı.

2020-ci ildə İkinci Qarabağ müharibəsinin ən parlaq nəticələrindən biri olan Zəngəzur dəhlizi və onun yerli iqtisadi inkişafın təşviqində oynadığı rol xüsusi əhəmiyyət daşıyır. Dəhliz Azərbaycanı uzun müddət işğal altında olan Qərbi Azərbaycanla birləşdirməklə, daha etibarlı və daha qısa ticarət yolu olduğu üçün qitələrarası əhəmiyyət kəsb edir. Beləcə, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk etdi.

Azərbaycan strateji mövqeyə malik olduğuna görə tarix boyu mühüm ticarət yollarının kəsişməsində olmuşdur. Lakin Sovet İttifaqının dağılması ilə əlaqədar yaşanan iqtisadi, sosial və siyasi problemlər Azərbaycanın logistika sektoruna da təsirsiz ötüşmədi. Həmçinin Azərbaycan və Ermənistan arasında müharibə region dövlətlərinin logistika sektoruna ciddi mənfi təsirlər göstərdi. Qərbi Zəngəzurun Ermənistanın tərkibinə daxil olması nəticəsində Azərbaycanın Naxçıvan bölgəsi ilə quru əlaqəsinin itirilməsi, Naxçıvanın Azərbaycana bağlı olmasına baxmayaraq, quru əlaqəsinin olmaması müxtəlif çətinliklərə səbəb olub. Bu mənada Zəngəzur dəhlizi qitələrarası əhəmiyyətli yeni ticarət şəbəkəsi yaratmaq potensialına, həmçinin müxtəlif istiqamətlərdə

alternativlər təklif etdiyi üçün regional səviyyədə mühüm təsirlərə malikdir. İkinci Qarabağ müharibəsi nəticəsində atəşkəs sazişinin, eyni zamanda Azərbaycan və Türkiyə arasında Şuşa Bəyannaməsinin, daha sonra 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında Üçtərəfli Bəyannamənin imzalanması Bakı ilə Naxçıvan arasında birbaşa əlaqələrin yenidən qurulmasına şərait yaradır. Bu tənzimləmə həm də Naxçıvan Muxtar Respublikasının nəqliyyat blokadasından azad olması deməkdir. Nəticədə region ölkələri Zəngəzur dəhlizi sayəsində yeni əməkdaşlıq imkanlarına malik olacaq, ticarət əlaqələri üçün əhəmiyyətli potensial yaranacaqdır.

İkinci Qarabağ müharibəsi nəticəsində qazandığımız Zəfər İpək yolunun bərpa edilməsi ilə bütöv Azərbaycanın timsalında Qərbi Zəngəzur üçün də geniş ticarət imkanları yaradır. Alman coğrafiyaşünası Ferdinand von Richthofen "İpək Yolu" terminini ilk dəfə 1877-ci ildə şərq və qərb tərəfindən istifadə edilən ticarət yolu üçün işlədib [5, 97]. Azərbaycanın dünya birliyində inteqrasiyasında İpək Yolu mədəniyyəti mühüm rol oynayır.

Tarixən İpək Yolu üçün şiddətli mübarizələr aparılıb və uzun müddət bu yola nəzarəti və onun təhlükəsizliyini türklər təmin edib. Şərqdə Çindən başlayaraq, bugünkü Şərqi və Qərbi Türküstandan, Əfqanıstandan, İrandan və Anadoludan keçən Anadolunu Avropaya bağlayan dünyanın ən uzun və ən qədim ticarət yolu 18-ci əsrin ortalarına qədər şərq və qərb cəmiyyətlərinin iqtisadi və mədəni həyatını zənginləşdirmişdir. Uzaq Şərqin ipək, toxuculuq və qiymətli metalları, Hindistanın ədviyyatları bu yoldan qərbə çatdığından, yol üzərində qurulan sivilizasiyalar qarşılıqlı ticarət sayəsində sərvətlərini artırmışlar. Tarixi İpək Yolu dəniz yolu açılana qədər dünyanın ən böyük ticarət yolu olmuşdur. Belə ki, İpək Yolu dünyada öz təsirini itirdikdən təxminən iki əsr yarım sonra ticarət, qloballaşma ilə birlikdə inkişaf etməkdə olan ölkələr alternativ olaraq dəniz yollarına üz tutdular, qurudan yeni ticarət yolları açmaq üçün işlərə başladılar və tarixi İpək Yolunun canlanması ön plana çıxdı [2, 23].

Türkiyə İpək Yolunun dirçəldilməsi üçün başlatdığı Mərkəzi Dəhliz Layihəsi ilə Orta Asiya türk respublikaları ilə əlaqələrini gücləndirməyi və Asiya bazarına daha sürətli və daha ucuz yollarla çıxmağı hədəfləyir. Orta dəhlizdə dəniz nəqliyyatı üçün Xəzər dənizi vasitəsilə Azərbaycanın Bakı, Türkmənistanın Türkmənbaşı və Qazaxıstanın Aktau limanlarından istifadə edilməsi, daha sonra isə bura Azərbaycanın Ələt limanının və Qazaxıstanın Kurık limanının əlavə edilməsi nəzərdə tutulur. Beləliklə, Orta Dəhliz Rusiyadan keçən Şimal dəhlizindən və İrandan keçən Cənub Dəhlizindən ibarətdir ki, bu da vaxt və xərc baxımından daha əhəmiyyətli hesab olunur. Ekspertlərin fikrincə, Orta Dəhlizdən istifadə olunduqda məsafə 7000 km qısalacaq. Çindən yola düşən yük gəmisi təyinat yerinə təqribən 40 günə çatdığı halda, Orta Dəhlizin tətbiqi ilə Çindən qatarla gələn yük təxminən iki həftəyə təyinat yerinə çatacaq. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin davamı olan Orta Dəhliz Layihəsi Asiya ilə Avropa arasında marşrutun bütün sahələrinə yönəlib. Azərbaycan Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit məntəqəsidir və mövcud potensialın inkişaf dinamikası gələcək perspektivdə ölkəmizin geosiyasi və iqtisadi çəkisini daha da artıracaq.

Qlobal miqyasda Orta Dəhlizə marağın artmasında, heç şübhəsiz ki, Azərbaycan müstəsna rola malikdir. Respublikamız trans-Xəzər marşrutu üzrə ən önəmli halqalardan biridir. Xüsusi vurğulamaq lazımdır ki, Mərkəzi Asiyadan Xəzər dənizi vasitəsilə gələn yüklər Ələt limanında qəbul edilərək ölkəmizin ərazisində müasir infrastrukturla Orta Dəhlizə inteqrasiya edilmiş marşrutlara yönəldilir. Hazırda tələbatın artması ilə əlaqədar olaraq Azərbaycan Ələtdəki dəniz limanının ötürücülük imkanlarının genişləndirilməsi layihəsinin icrasını da uğurla davam etdirir. Azərbaycanı Mərkəzi Asiya türk dövlətlərindən nəqliyyat sahəsində fərqləndirən əsas cəhət ölkəmizin bütün nəqliyyat arteriyalarının kəsişdiyi nöqtə olmasıdır. Dövlət başçımızın vurğuladığı kimi, Azərbaycan yaxın gələcəkdə yenidən işə düşməsinə dövlətimiz tərəfindən ciddi səy göstərilən Zəngəzur dəhlizi, Orta Dəhliz boyunca istehsal sahələrinin, sənaye zolaqlarının, biznes imkanlarının yaradılmasını hədəfləyir. Cənubi Qafqaz ölkələri ilə əlaqələrini daha da möhkəmləndirən, regionun hərtərəfli tərəqqisinə mühüm töhfələr verən Azərbaycan nəqliyyat sektorunun inkişafı məqsədilə xarici investorları da bu sahədə əməkdaşlığa cəlb edir.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti Orta Dəhlizlə yükdaşımaların qiymətini aşağı salmaqla yanaşı, yüklərin çatdırılma müddətini də xeyli azaldır. Orta Dəhlizin rəqabət imkanlarının güclənməsi və bu layihənin gerçəkləşməsi xeyli dərəcədə Azərbaycanın transmilli enerji və nəqliyyat layihələri ilə şərtlənir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi yalnız Azərbaycan, Gürcüstan və Türkiyə arasında deyil, bütövlükdə Avrasiya regionunda əməkdaşlığın və ticarətin inkişafına töhfə verir, Avropa ilə Asiya arasında yükdaşımaların həcminin artmasına şərait yaradır ki, bu da vaxt və xərc baxımından daha sərfəli olacaq. Bu baxımdan, Orta Dəhliz Layihəsi Asiya ilə Avropa arasında marşrutun bütün sahələrinə yönəlib [1, 57].

Azərbaycanla bağlı qeyd edilməli olan digər mühüm məqam ondan ibarətdir ki, Azərbaycan yeni iştirakçıların bu layihəyə daxil edilməsi prosesində mühüm və sabit geosiyasi, siyasi, mədəni və nəqliyyat sahəsidir.

Bu dəhliz sayəsində region ölkələri arasında ticarət həcmi artacaq, turizm sektoru canlanacaq. Bundan əlavə, Naxçıvanla Bakı arasında avtomobil və dəmir yolu əlaqələrinin təmin edilməsi regionda nəqliyyat şəbəkəsinin daha da inkişaf etdirilməsinə imkan verəcək. Azərbaycan yerləşdiyi yerdən asılı olaraq hava, dəniz, avtomobil və dəmir yolu nəqliyyatının bütün növlərindən istifadə edə biləcək.

Beləliklə, tarixi İpək Yolunun bərpa edilməsinin əsas məqsədi ticarət əlaqələrini inkişaf etdirməklə aşağıdakı maddələri əhatə edir:

– bölgədə yerləşən ölkələrin ticarət-iqtisadi əlaqələrin inkişaf etməsi;
– nəqliyyat əlaqələrin inkişaf etməsi-yük və sərnişinlərin beynəlxalq daşınması;
– tranzit daşınmalar üçün əlverişli şəraitin yaradılması;
– yük daşınmaların müddətinin qısaldılması;
– nəqliyyat siyasətinin uyğun olaraq aparılması;
– daşınma tarifləri və vergilərə xüsusi güzəştlər;
– müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsi;
– yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasət;
– daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanması.

Deyilənləri ümumiləşdirsək belə nəticəyə gəlmək olar ki, tarixi İpək Yolunun bərpası üzrə aparılan işlər Azərbaycan Respublikasının dünya birliyi ölkələri ilə inteqrasiyasının daha da güclənməsinə xidmət etməklə nəqliyyat dəhlizində yerləşən Qərbi Zəngəzurun da sosial-iqtisadi inkişafına təkan verəcək, onun təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialından səmərəli istifadə olunması, ticarətin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradacaq. Tarixi İpək Yolunun bərpası regionun logistika mərkəzi kimi Azərbaycanın mövqeyini möhkəmləndirəcək və Asiya ilə Avropa arasında ticarəti asanlaşdıracaq.

ƏDƏBİYYAT

1. Aliyev Ş.Y. Türkiye-Nahçivan ilişkilerinde ulaşım sektörünün rolü Belgü, 2019, s. 8-15.
2. Bilgehan Pamuk İpek Yolu ticareti ve Erzurum.Tarih incelemeleri dergisi, cild XXII, sayı 2, 2017, 125-243
3. Vilayət Əliyev. Zəngəzurda qalan izimiz. Bakı: 2004, 295 s.
4. Cabbarova K., İsgəndərov A., (2022). Azərbaycanın regional əhəmiyyətli ticarət və logistika mərkəzlərinə çevrilməsində Zəngəzur dəhlizinin rolu, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının sektoral qiymətləndirilməsi.
5. Mehmet Tezcan, "İpek Yolu ve XIV. Yüzyıla Kadar İpek Yolu Ticaretinde Trabzon'un Yeri", Trabzon ve Çevresi Uluslararası Tarih–Dil–Edebiyat Sempozyumu (3–5 Mayıs 2007) I, 71–90.
6. Sakar Z. Türkiye-Azerbaycan Ekonomik İlişkileri Çerçevesinde; Nahçıvan Ekonomisinin Türkiye İçin Stratejik Önemi. Uluslararası Araştırmalar Dergisi, 11(59). 2018, 211 s.
7. Şahin A.Y., Şahin M.F. Azerbaycan Ekslavı Nahçıvan Özerk Cumhuriyeti'nin Karabağ'ın İşgalden Kurtarılması Sonrası Türkiye İle Azerbaycan Ticari İlişkilerindeki Önemi International Social Sciences Studies Journal, (e- ISSN:2587-1587) Vol:7, Issue:80; 2021, s.1226-1232.

ABSTRACT

Mehriban IMANOVA

WESTERN AZERBAIJAN AND THE SILK ROAD TRADE

Nakhchivan was separated from Azerbaijan as a result of the inclusion of a number of lands of Azerbaijan, as well as Zangezur into the territory of the Armenian SSR, at the beginning of the 19th century, with the help of the Soviet authorities. Thousands of Azerbaijanis immigrated as the Azerbaijani people were deported several times, the number of villages inhabited by Azerbaijanis decreased. After a long time, the victory of Azerbaijan in the Second Karabakh War and the 44-day Patriotic War brought up the Zangezur Corridor and its role in promoting local economic development. The article examines the history of the Silk Road, which enriched the economic and cultural life of eastern and western societies, informs the importance and beneficial aspects of the Middle Corridor Project initiated by Turkiye for its revival, evaluates the purpose of restoring the Silk Road and its impact on the socio-economic development of Western Zangezur, identifies dirving factors to the strengthening of trade relations.

Keywords: *Western Azerbaijan, Zangezur Corridor, Silk Road, trade relations, cargo transportation*

QƏRBİ AZƏRBAYCAN MÖVZUSU BƏDİİ ƏDƏBİYYATDA

Aypara BEHBUDOVA
ayparabehbudova555@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Bu məqalədə Qərbi Azərbaycan hadisələrini özündə daha canlı və obrazlı şəkildə əks etdirən şair və yazıçılarımızın ədəbi nümunələri tədqiqata cəlb olunmuşdur. Bildiyimiz kimi, tarixin müəyyən dövrlərində şovinist qüvvələrin erməni əli ilə Azərbaycana qarşı apardığı məkrli siyasət nəticəsində Azərbaycan xalqı öz tarixi, dədə-baba yurdlarından qovulub, didərgin salınıb, deportasiyalara məruz qalmışdır. Azərbaycanın tarixi qərb torpaqlarında indiki Ermənistan adlı qondarma dövlət qurulmasına baxmayaraq, erməni vandallarının bu çirkin, saxtakar niyyətləri müasir dövrümüzə qədər davam etmiş və erməni zorakılığı nəticəsində azərbaycanlılar öz ata-baba, tarixi torpaqlarını tərk etmək məcburiyyətində qalmışdır. Erməni vandalları zaman-zaman maddi-mədəni, mənəvi dəyərlərimizi amansızcasına məhv edib, tariximizi saxtalaşdırmaqla guya həmin ərazilərin əsl sakinləri olduqlarını sübut etməyə çalışıblar. Lakin tarixi faktlar, tutarlı sənədlər o torpaqların Azərbaycan türklərinə, azərbaycanlılara aid olduğunu təkcə arxiv sənədlərində, xatirələrdə deyil, yazılı mənbələrdə, bədii əsərlərdə də sözün ecazkar dili ilə təsdiqləyiblər.

Məqalədə Azərbaycan ədiblərindən Bəxiyar Vahabzadənin, Zəlimxan Yaqubun, Xəlil Rza Ulutürkün, Vahid Əzizin, Həsən Mirzəyevin, Hidayət Orucovun, Mahirə Nağıqızının, Fərman Kərimzadənin, Əyyub Abasovun, Mövlud Süleymanlının, Azər Abdullanın, Tacir Qurbanovun, Məcnun Göyçəlinin, Əli Əkbər Dərələyəzlinin, Aşıq Cəlilin, Əli Vəkilinin və başqalarının bu mövzuda qələmə aldığı ədəbi nümunələr araşdırılaraq təhlil olunur, torpaqlarımızın işğalı nəticəsində doğma yurd-yuvasından didərgin düşən insanların acı taleyi diqqət mərkəzinə çəkilir.

***Açar sözlər**: ədəbiyyat, Qərbi Azərbaycan, əsirlikdə qalan yurdlarımız, deportasiya, ədəbi nümunələr, tarixi şəxsiyyətlər*

Tarixin bütün dövrlərində Qərbi Azərbaycan ədəbiyyatı Azərbaycan ədəbiyyatının əsas tərkib hissəsi olmuşdur. Azərbaycanın istiqlalı fonunda meydana çıxan Qərbi Azərbaycan mövzusu bədii ədəbiyyatın, o cümlədən poeziyanın ən çox müraciət etdiyi mövzulardan biridir. Daha çox son dövrlər tariximizdə, ədəbiyyatımızda Qərbi Azərbaycan mövzusu polemikalara səbəb olan prioritet bir mövzu kimi xüsusi maraq doğuraraq, bu mövzuda tarixi əsərlərlə bərabər, bədii əsərlər də yazılıb çap olunmuşdur. Bu missiyanı üzərinə götürən ədiblərin – Fərman Kərimzadənin "Vedinin yanı dağlar", "Qarlı aşırım", Əyyub Abasovun "Zəngəzur", Həsən Mirzəyevin "Hanı o səndki el, Dərələyəz", Hidayət Orucun "Burdan min atlı keçdi", "Didərginlər", Səyyad Aranın "İrəvana gedən yollar", xalq şairi Vahid Əzizin "Dərələyəz" poeması, Mahirə Nağıqızının "Ruhuna beşiksə, tanı, Vətəndir", Salman Qazinin "İtirdiyim yerlər", Araz Yaquboğlunun "Sazın-sözün sorağında", Məlahət İsmayılqızının "Məndən Göyçəyə yetirin salam", Tacir Qurbanovun "Ağbaba aşıq mühiti", Şair Əli Vəkilin "Ədəbi İrəvan" almanaxı və başqalarının yaradıcılığında Qərbi Azərbaycanın didərginlik dərdi, vətəndən uzaq salınmanın nisgili və ağır faciəsi poetik dillə əks olunub. Bu əsərlərin işıq üzü görməsi günahsız xalqın başına gətrilən deportasiyalara ədəbi-bədii yanaşma, dəyərləndirmə baxımından çox qiymətlidir.

Azərbaycan ədəbiyyatında Qərbi Azərbaycan mövzusuna öz yaradıcılığında ən çox yer verən şairlərdən biri xalq şairi Zəlimxan Yaqubdur. Zəlimxan Yaqubun poeziyası bu acınacaqlı hadisələri özündə daha canlı və obrazlı şəkildə əks etdirən ədəbi nümunələrdəndir. "Bu gün qarşımızda acı bir həqiqət dayanıb. Əgər tezliklə millətin Qarabağ dərdinə, Şuşa və Laçın ağrısına, Göyçə, Zəngəzur, Dərələyiz göynəyinə dərman tapa bilməsək, sözün gücü, qələmin qüdrətiylə xalqı ayağa qaldırmasaq, intiqam hissiylə alışıb "qana-qan" deməsək, min belə kitab yazsaq da, xalqın və zamanın qarşısında gözükölgəli qalacağıq. Yazılan hər əsər, nəşr olunan hər kitab bizə dostumuzu və düşmənimizi aydın və sərrast tanıtmalıdır. Haqqımızı almaq, istiqlalımızı qorumaq üçün qolumuzdan tutulmalı, bizə düzgün istiqamət, aydın yol göstərilməlidir. Zəngəzurda, Göyçədə, Təbrizdə, Dərbənddə, Borçalıda başımıza gələnlər bizə böyük dərd olmaqla yanaşı, həm də ciddi ibrət dərsi olmalıdır" [9. S.122]. Şairə görə, Qarabağ, Qərbi Azərbaycan probleminin mənbəyini hamımız bilməliyik. İşğalda olan torpaqlarımızdan ötrü yalvarış , təvəkkül fəlsəfəsindən əl çəkib, bütöv, qalib bir Azərbaycan olmalıyıq:

Sən mənimçün canda nəfəs,
nəfəsdə can olmalısan,

Təbrizin də, Dərbəndin də,
Borçalının, Göyçənin də,
Qaynadığı, qovuşduğu,
Xatalardan, balalardan,
zərbələrdən sovuşduğu,
Bütöv, məğrur, qalib, cəsur,
Azərbaycan olmalısan! [17, s. 37]

Şair Zəlimxan Yaqub poemalarının birini "Sizi qınamıram" adlandırır. Əslində qınaq, etiraf, tövbə və töhmət hisslərinin ifadəsindən yoğrulan bu poemanın əsas qayəsını milli birliyə çağırış, oyanış təşkil edir. Poemanın poetik qəhrəmanı demək olar ki, daha çox tarixə üz tutur. Göyçənin, Zəngəzurun, Qafanın, Ağbabanın, Çəmbərkin, Mehrinin, Şuşada Vaqifin məqbərəsinin zalım düşmənin tapdağına çevrildiyinə yanıb-yaxıldığını bədi sözün dili ilə etiraf edir. Tarixi abidələr, tarixi şəxsiyyətlər, milli-mənəvi sərvətlərimiz müəllifin təhkiyəsində Qərbi Azərbaycan torpaqlarının simvolu və müqəddəslik rəmzi kimi canlanır:

Gözünü yumanda Göyçə mahalı,
Gözünü açanda Zəngəzur gedir!
Ağbaba talanıb, Çəmbərək yanıb,
Qafanımız gedib, Mehrimiz gedib.
Nəcəfin belində qaynar samavar,
Sənətimiz gedib, sehrimiz gedib! [17, s.211].

Şair ürək ağrısı ilə yazdığı bu şeirlərində daha çox oxucuya Vətənin düşdüyü ağır və acınacaqlı vəziyyəti xatırladır, onun tarixini, itrilmiş yurd yerlərini poetik dillə bir-bir vərəqləyir, xalqının övladlarını düşməndən qisas almağa çağırır.

Həqiqətən də, "Göyçə dərdi" dastanı ədəbiyyatımızda bizdən sonra gələn nəsillərə xalqımızın başına gətirilənləri xatırlamaq, unutmamaq üçün bir yaddaş möhürüdür" [5, s. 317].

Ədəbiyyatımızda istiqlal şairi kimi tanınan Bəxtiyar Vahabzadənin şeirlərinin mühüm bir qismini Dağlıq Qarabağ, Qərbi Azərbaycan mövzusunda yazılmış poetik nümunələr təşkil edir. Bəxtiyar Vahabzadənin yaradıcılığında düşmən tapdağı altında inləyən yurd yerləri, torpağımıza göz dikən erməni təcavüzkarlarının işğalçılıq siyasəti, qaçqınlıq, didərginlik və s. kimi mövzular əsas yerlərdən birini tutur. Onun "Bəlkə ayıldım", "Utanıram", "Yurd yad əlində", "Didərgin", "Vətən məcnunluğu", "Bizə dərs olmadı", "Parçalandıq, bu məlumdur hər kəsə" və sair şeirlərində Dağlıq Qarabağ müharibəsi zamanı xalqın başına gətrilən faciələr öz bədii ifadəsini tapmışdır. Adı çəkilən şeirlərində şair Azərbaycan xalqının başına gətirilən dəhşətli faciələrin səbəblərini açmağa, yol verilən səhvlərdən ibrət götürməyi oxucusuna tövsiyə edir:

Gözləri yollarda, sinəsi dağ-dağ,
Bizdən imdad umdu o dərdli torpaq.
Naləsi, fəryadı aləmi sardı,
Torpaq dilə gəldi, fəryad qopardı: -
Kömək əlinizi uzadın mənə,
Həddini bildirin zalım düşmənə! [15, s.134]

Şair "Həddini bildirin zalım düşmənə" deyərək torpaqlarımızın işğalı nəticəsində doğma yurd-yuvasından ayrı düşən insanların acı taleyini diqqət mərkəzinə çəkərək onların faciəsinə biganə qalmamağa çağırır.

Professor, şair, el ağsaqqalı Həsən Mirzəyev də torpaq həsrəti və nisgilini, vətən dərdini dilə gətirmiş, poetik yaddaşa çevirmişdir. Həsən Mirzənin "Dərələyəz", "Dağlar" rədifli şeirlərində, "Dərdimi" qoşmasında, Aşıq Mehdi ilə olan deyişmələrində doğma ata-baba yurdundan uzaq düşmənin ağrılı, acılı əhvalını görür, ədəbi dilin üsyankarlığı ilə vətəndaş yanğısının şahidi oluruq. "Dərələyəz" rədifli şeirində şair el hayqırtısını, xalqın üsyanını ümumiləşdirərək şeir dili ilə belə ifadə edir:

Ey ana torpağım, ey can diyarım,
Hanı o səndəki el, Dərələyəz?
Ey cənnət məkanım, ey dağ vüqarım,
Pərən-pərən olub el, Dərələyəz! [6, s.42]

"Yaram göz-göz olub bil, Dərələyəz!" - deyə şair vətəndən, doğma ata-baba yurdlarından didərgin

düşənlərin kədərli halını ifadə etmişdir.Sinəsi dərdli olsalar da, söz sahibi olan şairlərimiz həmişə gələcəyə ümidlə, inamla yaşayıblar. Onlar hər zaman inanıblar ki, öz doğma ata-baba yurdlarından zorla didərgin düşən xalqımız mütləq öz elinə, obasına dönəcək, mənfur düşməndən yurdunu təmizləyəcək. Buna görə də şairlər poeziyalarında da ümid dolu inamlarını dilə gətirmişlər. Dərələyəz mahalının el ağsaqqalı, qəlbi vətən eşqi ilə alışıb yanan şair Həsən Mirzənin dediyi kimi:

Mütləq gələcəyəm, bil, Dərələyəz,
Çox ötüb keçsə də il, Dərələyəz!
Həsən sənindədir, bil, Dərələyəz! [6, s. 53]

Dərələyəz mahalının folkloru, dialektologiyası və toponimiyasının ən yaxşı tədqiqatçısı olan filologiya elmləri doktoru, professor Mahirə Nağıqızının yaradıcılığında Qərbi Azərbaycan mövzusu mühüm yer tutur:

Buradan boylanıb nə cürə baxam,
Qaçaq qayasına qəsd var, qərəz var?
Gündüzlər getməyə gücüm yox catam,
Yuxuda gördüyüm Dərələyəz var. [7, s.34]

Qərbi Azərbaycan mövzusu şair Mahirə Nağıqızının şeirlərində təkcə məzmun baxımından deyil, həmçinin dilçilik nöqteyi-nəzərindən, dialektoloji baxımdan da xüsusi olaraq diqqəti cəlb edir:

Dərələz şenniyi, Göyçə, Ağbaba
O ağır ellərin boşaldı bir-bir.
Yetiş hayımıza Xan Heydər baba,
Sənsən loğmanımız, dərman səndədir. [7, s.76]

"Aradan neçə illər keçməsinə baxmayaraq, o yurd yerlərinə dönmək, sönmüş ocaqları yandırmaq, qurumuş bulaqların gözündən öpə-öpə onları yenidən cana gətirmək tək bir şair qəlbinin yox, bütün yurd həsrətlilərinin ən böyük arzusudur. Çünki o yerlərin hər daşı, qayası, gülü, çiçəyi ilahi sehrlə, ilahi harmoniya ilə köklənmiş, doğulandan ta ölənədək əbədi sığınacaq yeri olmuşdur. Mahirə Nağıqızı da o yurda qayıdışı, o yurda dönüşü və elə o yurdlarda da haqqa qovuşmağı Allahdan arzulayır"[**8**]**.**

Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri şair, publisist, dramaturq Hidayət Orucun rəngarəng mövzulu bədii yaradıcılığı həmişə Qərbi Azərbaycanla sıx bağlı olmuşdur. O, ictimai fəaliyyəti ilə yanaşı, bədii yaradıcılığında, xüsusilə "Burdan min atlı keçdi", "İrəvanda xal qalmadı", "Ömrümün çəhlimləri", "Zəngəzurda doğuldum" və s. bədii əsərləri müasir Azərbaycan ədəbiyyatının Qərbi Azərbaycan mövzusunda yazılmış ən dəyərli nümunələridir. Onun yazdığı bu əsərlərin hər sətrində belə Qərbi Azərbaycanın min illik tarixinin kitablarda vərəq-vərəq əks olunduğunun bir daha şahidi oluruq:

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər
nəğməyə dönəcəyəm. [12, s.81]

Xalq şairi Sabir Rüstəmxanlı Hidayətin bədii yaradıcılığında əsas mövzu olan yurd sevgisi, yurd həsrətini belə ifadə etmişdir: "Azərbaycanın görkəmli qələm ustalarından biri, şair, dramaturq, nasir, publisist, ictimai-siyasi xadim kimi yaxşı tanınan və sevilən gənclik dostum Hidayət yetmişi haqlayıb. Həyatın çox sınaqlarından keçib, sevinc də görüb, dərd də; ancaq ilk tanışlığımızda gözlərinin dərinliyində və sözündə gördüyüm kədər heç vaxt silinib getməyib. Hidayət bütöv Vətənin nəğməkarıdır, lakin Zəngəzur öz acı taleyi ilə həmişə onun oxuduğu nəğmələrin şah bəndidir"[13].

Ürəkağrısı ilə "Oğulluq etmədim sənə, bağışla, Vətən, günahımdan keç, keçə bilsən" deyən dərələyəzli şair Vahid Əziz də:

Gör nələr əkmişdim, nələr göyərdi?
Gör kimlər ömrümün barını dərdi?
Hər yanda boy atıb tikan cücərdi,
İndi bu "zəmini" biç, biçə bilsən. [3]

- deyə özünün vətəndaşlıq duyğularını, giley və kədərini poetik dillə ifadə edib.

Şair Məcnun Göyçəlinin "Göyçə təbəssümləri", "Köçkün nəğmələri", "Göyçənamə", "Dərələyiz harayı" və sair şeirlər kitabı Qərbi Azərbaycan hadisələrini əks etdirən ədəbi nümunələrdəndir. Bu mənada o, şair İntiqam Ocaqlının eyniadlı şeirinə nəzirə yazdığı "Hardasan, hardasan, ay ev yiyəsi" şeiri xüsusilə diqqəti cəlb edir, oxucunu daha çox düşündürür. "Bu şeir təkcə yurdunu itirən Ermənistan azərbaycanlılarının, qarabağlıların deyil, bütün 50 milyonluq Azərbaycan türkünün dərdi, faciəsidir. Şair bu şeirdə İrəvanda, Göyçədə, Ağbabada, Dərələyəzdə, Vedidə və digər qədim yurd yerlərimizdə ocaqları sönən, təndiri qalanmayan, qapısını-bacasını tikan basmış soydaşlarını haraylayır" [1, s.231]

Bir soraq varmı gör Turan elindən,
Yollar qəm bağladı durna telindən!
Gül bülbüldən küsüb, çəmən gülündən
Zirvədə təklənib qıy vuran qartal,
Daşlara çırpılır ünü, hikkəsi,
Hardasan, hardasan, ay ev yiyəsi? [4, s.36)

Yalnız qələmin gücünə söykənib dərdi yazmağa çatan şairin "Bir soraq varmı gör Turan elindən"- deyə böyük türk xalqına harayı, oğuz birliyinin yenidən birləşib, bir olub yüksəlməsinə olan inamı şeirin sonuncu bəndində doğma el-obasına dönmək arzusu ilə səsləşərək bədii sözün təsir dairəsini daha da artırır:

Səsinə bir mahal yığılan kəsin,
Yanında bir nəfər həyanı yoxdur [4, s.133] - misralarında şairin daxilən çəkdiyi vicdan əzabı, "biz ki, bir zaman belə deyildik" fikri şeirin bütünlüklə qayəsini təşkil edir.

Ustad aşıqların ləyaqətli davamçısı olan Aşıq Cəlil bütün keşməkeşli həyatı, taleyi və əsərlərinin ruhu ilə Qərbi azərbaycanlıların başına gətirilən ağrı- acının təqdimatçısına çevrilmişdir. Dərələyəz mahalının Sallı kəndində doğulan, "Cəlili" və "Naxçıvani" havalarının müəllifi olan Aşıq Cəlil 1918-ci il erməni zülmü nəticəsində doğma yurdundan didərgin düşərək Şərur rayonuna gəlmiş, burada vətən həsrətilə yaşamış, torpaq həsrəti ilə dünyasını dəyişmişdi. Aşıq Cəlil "Hardasan" rədifli şeirində doğma vətənindən didərgin düşməyinin acı kədərini belə ifadə etmişdir:

Üzülübdür doğma yurddan ayağım,
Gecələr zülmətdir, sönüb çırağım.
Alınmaz səngərim, arxam-dayağım.
Dilim, ağzım, söhbət-sözüm, hardasan? [16, s.96]

Aşıq Mehdinin "Dığa", "Düşdü" kimi şeirlərində, yanıqlı bayatılarında insanlıqdan uzaq, vəhşi ermənilərin etdiyi zülmlər, zorla tərk edilərək boş qalan vətən torpaqları və yurd həsrəti öz poetik əksini tapıb. Şair sinəsinin nisgil və ağrısını əks etdirdiyi kövrək bayatılarında da böyük vətən dərdini "Dərələyəzin güvəndiyim torpağıma zəhər düşdü" deyən şair qorxaq və mənfur erməni dığalarının cavablarının veriləcəyini çox inamla ifadə edir:

Doğma yerlərindən perik düşənlər
Vətənə qayıdın, Göyçə sizindir! - deyə sanki hayqırır, çağırış edirdi.

Dərələyəzli şairlərdən Əli Əkbər Dərələyəzli də "Vətən hey" şeirində vətən həsrətini, ürəyinin vətən nisgilini yanğı ilə qələmə alıb:

Nə vaxtdır ki, görəmmirəm üzünü,
Gəzəmmirəm yaylaqların düzünü.
Söndürən yox ürəyimin közünü,
Mən qalmışam yana-yana, Vətən hey! [16, s.211]

Azərbaycan ədəbiyyatında Qərbi Azərbaycan mövzusuna təkcə poeziyada deyil, nəsr sahəsində də dəyərli əsərlər həsr olunmuşdur. Tarixi romanlar müəllifi, yazıçı, kinorejissor, ssenarist, Vedibasarda doğulan 60-70-ci illər ədəbiyyatımızın tanınmış nümayəndəsi Fərman Kərimzadənin bu mövzuda yazdığı əsərləri xatırlatmaq yerinə düşərdi. Azərbaycan nəsrinə "Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu", "Qoca qartalın ölümü" kimi qiymətli romanlar bəxş edən, uşaqlıq və gəncliyi Vedidə keçən, sonra dədə-baba yurdundan zorən köçürülən yazıçı "Vedinin yanı dağlar", "Qarlı aşırım" kimi ölməz əsərlərində xalqın başına gətrilən müsibəti ürəkaqrısıyla qələmə almışdır.

Professor Təyyar Salamoğlu Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan Mövlud Süleymanlının "Köç" əsərinə həsr etdiyi "Azərbaycan-erməni münasibətləri tarixi müstəvisində" adlı məqaləsində əsəri təhlil edərək xronologiyanı elə gözəl təsvir edir ki, insan əsərin bədii gücünün təsirinə düşür. "Köç" əsərindəki təsvirlərdən məlum olur ki, müəllif Azərbaycan xalqının son 200 illik tarixinin bədii səciyyəsini əsas götürmüş və Azərbaycan xalqının öz milli varlığını, tarixi torpaqlarını qorumaq üçün əsrlər boyu yadellilərə qarşı mübarizə apardığını, saysız qurbanlar verdiyini, erməni-Azərbaycan probleminin bu gün üzdə görünən keyfiyyətləri ilə bitmədiyini, onun köklərinin dərinlərə getdiyini əsrlərdən keçib, bu günkü vəziyyətə gəlib çıxdığını aydın şəkildə açıb göstərib" [14].

İstedadlı yazıçı şair, dramaturq Əyyub Abasov Azərbaycan türklərinin məskəni, oğuzların yurd yeri olan qədim Zəngəzur qəzasının Şəki kəndində dünyaya göz açmışdır. Əyyub Abasov Zəngəzurda mənfur ermənilərin törətdiyi qanlı qırğınları gözlərilə görən, ağır müsibətlər yaşayan ailəsini, el obasının əksər hissəsini bu qətliamlarda itirmiş ədiblərimizdəndir. Bu facilərin canlı şahidi olan Əyyub Abasov "Zəngəzur" romanında yaşadıqlarını , xalqın başına gətrilən müsibətləri qələmə almışdır. Bu roman hər şeydən əvvəl XX əsrin əvvəllərində Zəngəzur mahalının , onun sakinlərinin bir növ yaşam mənzərəsidir.Burada daha cox acı lövhələr-kasıbşılıq, aclıq, səfalət, yoxsulluq içində üzülən hakimiyyət, var -dövlət sahiblərinin azğınlığı, ərşə dayanan zülmü , heç bir əxlaqi ölçüyə sığmayan qudurğanlığı, acgözlüyü , hərisliyi .. Və bir də gecə-gündüz acından ölməmək üçün çalışan zəhmətkeş insanların mənəvi dünyası, əxlaqi təmizliyi, duz- çörəyə sədaqəti, ailə dəyərlərini qorumaq bu insanları birləşdirən səciyyəvi cəhətlərdir. Nacı Nərimanoğlunun dili ilə desək "Bu əsər Zəngəzur kəndlilərinin əxlaq, mənəvi dəyərlər tolusudur" [11, s.74].

"Çat, Üç Əbülfəz, Allaha qayıdış" romanı Azər Abdullanın son illərdə qələmə aldığı ən irihəcmli əsərlərdəndir. Janr baxımından ədibin yaradıcılığında yeni mərhələ olan bu romanda da müəllifin dədə-baba yurdu Zəngəzurla bağlı acılı şirinli xatirələri geniş lövhələrlə əks olunub. Müxtəlif vaxtlarda, fərqli məkanlarda baş vermiş hadisələri bir araya gətirib əsas dramaturji xəttə bağladığı bu əsərdə əsasən Qarabağ müharibəsi, yazıçının doğulub, boya başa çatdığı Zəngəzur mahalı və Bakı mühiti təsvir olunmuşdur.

Azər Abdullanın "Qəmərlidən keçən qatar" hekayəsində təsvir olunan hadisə Yerevan-Qafan qatarında baş verir. Ailəsi ilə birgə Qafan stansiyasından Zəngəzurun Mehri kəndinə gedən gənc bir müəllim erməni şovinist təbliğatı ilə beyinləri doldurulmuş gənc erməni xuliqanların cinayətkar və təhqiramiz hərəkətləri ilə qarşılaşır. "Bu hekayə bədii, dramaturji məziyyətləri ilə bərabər, həm də bircə sözlə ifadə etsək, ermənilik haqqında, vaxtilə o torpaqlarda doğulub yaşamış, erməni şovinizminin və onun zəhər-zəmbərəyini dadmış canlı bir şahid qələmindən çıxdığı, ağrını imitasiya etməklə deyil, ağrını, fəlakəti öz canında duymaqla ərsəyə gəldiyi üçün qiymətlidir" [2, s.84].

Əsirlikdə qalan yurdlarımızda əhalinin üzləşdiyi fəlakətlərin real və səmimi ifadəsi Vedibasarlı yazıçı Məmməd Orucun yaradıcılığında da açıq-aydın hiss olunur. 1948-51-ci illərdə camaat Vedibasardan köçrülən zamanı beş yaşında uşaq olan, ailəsiylə birgə aran bölgəsində məskunlaşan yazıçının yaddaşında qalan o dəhşətlər çox sonralar "Köçürülmə" povestində öz əksini tapmışdır. Ümumiyyətlə, vətən, yurd həsrəti, etnik-siyasi məqsədlərə söykənən köç hadisələri yazıçı Məmməd Orucun yaradıcılığında həmişə aparıcı mövzulardan olmuşdur. ""Köçürülmə" mənim uşaqlığımın tarixçəsidir", – deyən yazıçı avtobioqrafik səciyyəli bu əsərdən sonra mövzunu genişləndirərək "Qara güzgü"romanında ötən əsrin iyirminci illərinə, "Qısa qapanma" romanında isə müasir dövrümüzə nəzər salmaqla uzun bir tarixə malik Ermənistan-Azərbaycan münaqişələrinin səbəb və nəticə kontekstində bədii həllini verməklə, həmin bu üç romanı trilogiya kimi "Üç roman" adlı bir kitabda oxucuların ixtiyarına vermişdir" [10, s.173].

Nəticə

Əlbəttə, bir məqalədə bu mövzuda yazılan bütün bədii əsərlərin hamısını əhatə edə bilməsək də, deyə bilərik ki, Azərbaycan ədəbi mühitinin nümayəndələri bu dəhşətli faciənin səbəblərini düzgün müəyyənləşdirmiş, istər poeziya, istərsə də nəsr dili ilə erməni vəhşiliyini, Qərbi azərbaycanlıların başına gətrilən müsibətləri tutarlı faktlarla öz əsərlərində əks etdirmişlər.

Əminik ki, cənnət Qarabağa, vəhşi erməni işğalından təmizlənən digər doğma yurd yerlərimizə qayıtdığımız kimi, tezliklə əsirlikdə qalan Qərbi Azərbaycan elimizə də möhtəşəm qayıdış olacaq! Lakin yaxın keçmişin dərslərini unutmamaq, tariximizin qanlı səhifələrini yaddaşımıza yazmaq və bu gün qazanılan Zəfərin böyüklüyünü gələcək nəsillərə çatdırmaq üçün bu sahədə daha sanballı, aktual tədqiqatlar aparmaq, Qərbi Azərbaycan mövzusu ilə bağlı zəngin ədəbi mədəniyyət xəzinəmizi araşdırıb, sistemləşdirmək, təhlil və nəşr etdirmək qarşımızda duran ən mühüm və vacib məsələlərdəndir.

Müzakirə

Bildiyimiz kimi, Böyük Turan ideyasının mədəni xəyaldan siyasi gerçəkliyə çevrildiyi müasir dövrümüzdə həyatımızın mühüm bir mərhələsi yaşanır. Bu, Qərbi Azərbaycan mərhələsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycan İcmasında bir qrup ziyalı ilə görüşündən sonra onun çıxışı əsasında Qayıdış Konsepsiyası hazırlanmışdır. Bu konsepsiyada Qərbi Azərbaycan ədəbiyyatının təbliği, bugünkü gündə dünya ictimaiyyətinə, o cümlədən milli ədəbi mühitimizdə tanıdılması və inkişafı öz əksini tapır. Buna görə də Qərbi Azərbaycan mövzusunda yazılan bədii əsərlərin poeziya və nəsr nümunələrinin tədqiqata cəlb olunması, bu ədəbi xəzinənin araşdırılması müasir dövrümüz üçün olduqca böyük əhəmiyyətə malikdir və bu gün daha çox ehtiyac duyulan, aktuallıq qazanan vacib məsələlərdəndir.

ƏDƏBİYYAT

1. Babaoğlu, H. Milli, tarixi yaddaşımızın böyük bir hissəsi Qərbi Azərbaycanla bağlıdır. "Azərbaycan" jur., №3, 2022
2. Cəfərov, N. Unudulmaz və fədakar yazıçımız. "Ədəbiyyat" qəzeti, 24 aprel , 2021
3. Əziz, V. Dərələyəz. "Ədəbiyyat" qəzeti , 23 aprel 2023
4. Göyçəli, M. Dərələyiz harayı. Bakı: "YYSQ", 2014, 154 s.
5. Həbibbəyli, İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 394 s.
6. Mirzəyev, H. Hanı o səndəki el, Dərələyəz?! Bakı: Qismət, 2022, 192 s.
7. Nağıqızı, M. Ruhuna beşiksə, tanı, Vətəndir. Bakı: Afpoliqraf, 2017, 210 s.
8. Nağısoy, M. Daşlaşan həqiqətin poeziyası. Azərbaycan müəllimi, 3 iyul, 2020
9. Nəbioğlu, M. Əbədi Prometey. Bakı: Elm və təhsil, 2016, 233 s.
10. Nəcəfova, M. Poeziya və Qarabağ problemi. "Ədəbiyyat" qəzeti, 6 oktyabr, 2021
11. Nərmanoqlu, H. Əyyub Abbasov - Zəngəzur faciəsini yaşayan və yaşadan ədib. "Azərbaycan"jur, № 7, 2015
12. Orucov, H. "Burdan min atlı keçdi. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2004, 464 s.
13. Rüstəmxanlı, S. Var olmanın tək yolu sonsuz savaşımdadır. Xalq qəzeti, 23 aprel, 2024
14. Süleymanlı, M. Azərbaycan-erməni münasibətləri tarixi müstəvisində. "Azərbaycan"jurnalı, № 4, 2021
15. Vahabzadə, B. Seçilmiş əsərləri. V cild. Bakı: Çaşıoğlu, 2002, 504 s.
16. Vəkil, Ə. Ədəbi İrəvan. Bakı: Nurlan, 2018, 464 s.
17. Yaqubov, Z. Seçilmiş əsərləri. 13 cild. Bakı: Şərq-Qərb, 288 s.

ABSTRACT

Aypara BEHBUDOVA

THE THEME OF WESTERN AZERBAIJAN IN FICTION LITERATURE

In this article, the literary examples of our poets and writers, who reflect the events of Western Azerbaijan in a more vivid and figurative way, are involved in the research. As we know, in certain periods of history, as a result of the insidious policy carried out by chauvinist forces against Azerbaijan with the help of Armenians, the people of Azerbaijan were expelled from their historical ancestral homes, displaced, and subjected to deportations. Despite the establishment of a so-called state called Armenia in the historical western lands of Azerbaijan, these ugly, fraudulent intentions of Armenian vandals continued until our modern times, and as a result of Armenian violence, Azerbaijanis were forced to leave their ancestral, historical lands. Armenian vandals mercilessly destroyed our material, cultural and spiritual values from time to time and tried to prove that they are the real inhabitants of those territories by falsifying our history. However, historical facts and solid documents confirmed that those lands belong to Azerbaijani Turks and Azerbaijanis not only in archival documents and memories, but also in written sources and artistic works. In the article, among the writers of Azerbaijan - Bakhiyar Vahabzade, Zalimkhan Yaqub, Khalil Reza Ulutürk, Vahid Aziz, Hasan Mirzayev, Hidayat Orujov, Mahira Nagigizi, Farman Karimzade, Ayyub Abasov, Mavlud Suleymanli, Azer Abdulla, Tajir Gurbanov, Majnun Goycheli, Ashiq Jalil, Ali Vakili and the literary examples written by others on this subject are examined and analyzed, the bitter fate of people displaced from their native land as a result of the occupation of our lands is brought into the center of attention.

Keywords: *literature, West Azerbaijan, our lands left in captivity, deportation, literary examples, historical figures*

QƏRBİ AZƏRBAYCANIN ETNO-MƏDƏNİ MÜHİTİ XATİRƏ VƏ FAKTLARDA

Aytən CƏFƏROVA
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Ermənistanın işğalçılıq siyasəti ucbatından öz doğma yurd-yuvalarından məcburi qaçqın düşmüş insanların – Qərbi azərbaycanlıların doğma yurd-yuva həsrəti heç vaxt sönməyib. Hətta illər ötdükcə bu həsrət onları daha da ağrıdıb, incidib. Baxmayaraq ki, onlara dövlət qayğısı və himayəsi hər zaman yüksək səviyyədə olmuşdur, lakin bu insanların qəlbini yandırıb-yaxan dədə-baba yurdlarına qayıtmaq olub. Bu böyük həqiqətdir ki, erməni barbarlığı nəticəsində öz doğma yurdlarından köçkün düşmüş Qərbi azərbaycanlıların sosial rifah vəziyyətlərinin yaxşılaşdırılması istiqamətindəki ilk siyasət məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin sayəsində məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları ərazilərdə onların məişət və ictimai həyatlarının asanlaşdırılması, problemlərinin həll olunması ilə bağlı qanunlar qəbul olundu, sərəncamlar imzalandı. Onların rahat yaşaması, sosial rifahının yaxşılaşdırılması istiqamətində ölçüyəgəlməz dərəcədə böyük işlər görüldü. Bununla yanaşı, qaçqınların işlə təmin olunması, gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, hətta istedadlı gənclərin xaricdə müvafiq ali təhsil ocaqlarında təhsil alması, təhsillərinin davam etdirilməsi və s. kimi uğurlu işlərin həyata keçirilməsi Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın sosial rifahının yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, onların ictimai inkişafdan geri qalmaması üçün atılan addımlar olaraq daha böyük önəm daşıyırdı. Bəli, bu gün də öz doğma yurd-yuvalarından qaçqın düşmüş o insanların sığındıqları yerlər artıq onların doğma məkanlarına çevrilib. Lakin buna baxmayaraq, qəlblərindəki vətən nisgili, xiffəti başdan bəri alovludur, sönməzdir. Onların ən böyük arzusu doğma yurda dönmək, həyatlarının sonrakı hissəsini məhz o müqəddəs yerlərdə davam etdirməkdir. Məhz bu arzu onların simasında da özünə elə bir dərin iz salıb ki, bunu hər kəs onların simasında görə bilər. Və bu istəyi, arzunu onlarla söhbət zamanı daha aydın şəkildə müşahidə etmək mümkündür. Məqalədə Qərbi Azərbaycandan qaçqın düşüb Naxçıvan Muxtar Respublikasının müxtəlif guşələrində məskunlaşmış soydaşlarımızın dilindən yazıya aldığımız faktların bəzilərini təqdim edəcəyik.

Açar sözlər: *Qərbi Azərbaycan, faktlar, xatirələr, qaçqın, işğalçı dövlət*

Azərbaycanımızın, demək, mümkündür ki, bir çox guşəsində məskunlaşmış bu insanlar vətən həsrətli, yurd nisgillidirlər. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Ordubad şəhərində məskunlaşmış Mirzəyev Valeh Mirzə oğlu da qəlbində yurd sevgisi, vətən göynərtisi ilə yaşayır. Ordubadı doğma məkanı olaraq sevir və burada məskunlaşıb: amma qəlbi, ürəyi oralarda – doğma kəndindədir – Qərbi Azərbaycanın Qafan rayonunun Baharlı kəndində.

Mirzəyev Valeh Mirzə oğlu 1955-ci ildə Qafan rayonu Baharlı kəndində dünyaya gəlib. Orta təhsilini öz doğma kəndində – Baharlıda səkkizillik məktəbdə alıb. Orta təhsilinin növbəti iki ilini isə qonşu Gığı məktəbində davam etdirib. 1972-ci ildə orta məktəbi bitirdikdən sonra ali təhsil almaq məqsədilə Bakı şəhərinə gəlir. Burada Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə daxil olur. Burada mühəndis-geoloq ixtisasına yiyələnir. Və doğma el-obasına dönərək Zəngilanda Vejnəli qızıl yatağında əmək fəaliyyətinə başlayır. Bir müddət sonra doğma kəndi Baharlıya qayıdır. Çünki Valeh müəllimi də digər həmyerliləri kimi doğma yurd havası daim özünə çəkir. Lakin o burada vəziyyətin gərginləşdiyini görür. Azərbaycanlılar məskunlaşan kəndlərin bəzilərində ermənilər su anbarları tikilməsi planı ilə həmin kəndlərdən əhalinin köçürülməsi prosesinə başlamışdılar. Kənd camaatının isə yararsız bir qəsəbədə doqquz mərtəbəli binaya köçürülməsi qərara alınmışdı. Burada mənfurların çox diqqətli və hiyləgər olduqları bir daha aşkarlanır. Onlar yaxşı bilirdilər ki, doğma el-obasına bağlı, təsərrüfat və məişətinə canı-dildən yanaşan, həyatını öz zəhməti hesabına qazanan azərbaycanlı əhali bina evlərində yaşaya bilməzdi, belə olduqda isə məcburən buradan da köçməyi düşünəcəkdi. O zaman bir çox ailələr, o cümlədən Mirzəyevlər ailəsi yaxın ərazilərdə olan Azərbaycan kəndlərinə üz tutmağa qərara alır. Beləliklə, Mirzəyevlər ailəsi 1982-ci ildə Ordubad rayonuna

köçür. Doğrudur, burada Mirzəyevlərin həyatı qənaətbəxş səviyyədə qurulub, Tanrı Mirzəyevlərin qarşısına yalnız uğur çıxarıb, Valeh müəllim, o cümlədən qohum-əqrəbasından işləmək, əmək fəaliyyəti arzusunda olanlar müvafiq işlərlə təmin olunub, ev-eşik, ailə, övlad-uşaq sahibi olublar. Lakin nə fayda ki, doğma yurd-yuva, Vətən həsrəti bu insanların qəlblərinin ən ağır nisgilinə çevrilib. Məhz indi olduğu kimi, Valeh müəllim hər dəfə öz doğma yurdundan söhbət açakən oraların əsrarəngiz təbiətindən elə yanıqlı söhbət edir ki... Meyvə-tərəvəzinin dadı az qala dünyada məşhur olan Ordubad torpağının yetirdiyi məhsullarla öz yurdunun məhsullarını belə müqayisə edir: – Oranın mer-meyvəsi, tərəvəzinin dadı başqa idi, dadı damaqdan getməzdi il boyu. Düzdür, burada da meyvə-tərəvəz var və gözəldir, amma o deyil! O meyvə-tərəvəzin dadı, gözəlliyi əvəzolunmazdır!

Valeh müəllim həmin yerləri belə xatırlayır: Orada erməni yaşamayıb, o kəndlər başdan-başa Azərbaycan kəndləridir. Biz ermənilərlə bir yerdə yaşamamış, dərin ünsiyyətdə olmamışıq. Yalnız mövsüm və məişət mərasimlərimizi keçirəndə ermənilərlə üz-üzə gələrdik. Onlar bizim mərasimlərimizə çox həssaslıqla yanaşırdılar. Qonşuluqdakı erməni kəndlərindən axışıb gələrdilər, məhz bu mərasimlərə tamaşa etmək, hətta onlarda iştirak etmək üçün. Bizdə Xıdır Nəbi mərasimi çox geniş icra olunardı. Əsasən, bu mərasimi fevral ayının sonlarında qeyd edərdik. Qapılara düşüb torba, papaq atan uşaqların sırasında erməni uşaqları da olardı. Sonrakı mərhələdə də Novruz mərasimini qeyd edərdik. Ən böyük coşqu isə İlaxır çərşənbədə olardı. İlaxır çərşənbələrin yalnız sonuncusunu keçirərdik, adı da eyni idi: "İlaxır çərşənbə". Ermənilər bu mərasimimizə də çox diqqət edər və onlarda iştirak edərdilər. Bizim kənddən – Baharlıdan bir balaca aralıda uca bir yer var idi, ona Çiləxana piri deyərdilər. Həmin Çiləxana pirində ağ qəndillər var idi. Qarşısında böyük göllər yerləşirdi. Ora qədim yaşayış məskəni təsiri bağışlayırdı. Novruzun bəzi rituallarını həmin gölün ətrafında da qeyd edərdik.

Valeh müəllim xatirələrə dalır... Bir də o günlərə və o yerlərə qayıdacağına olan qəlbində ümidin heç zaman sönmədiyini təkcə sözlə deyil, baxışlarındakı həsrətlə də ifadə edir. O əlavə edir: – Mənim bildiyim, kəndimizdən əlavə on dörd kənd var idi ki, hamısı sırf azərbaycanlıların yaşadığı kəndlər idi. Oralarda ermənilər yalnız mərasimlərin icrası zamanı peyda olardılar. Toy və yas mərasimlərimizə də çox həssaslıqla yanaşırdılar.

Valeh müəllim söhbət əsnasında dəfələrlə vurğulayır ki, mən o kəndlərdə mərasimlərin icra olunduğu vaxtlar istisna olmaq şərtilə digər vaxtlarda erməni görməmişdim. Əlavə olaraq, onu da deyim ki, öz mərasimləri zamanı da azərbaycanlıların yaşadığı kəndlərdə onları görmək mümkün idi: onlar bunu, əsasən, aprel ayında icra edərdilər. Özlərinin qondarma soyqırım yaratdığı xülyalarının məhz aprel ayında baş verməsi haqda yalan mülahizələrini dramatikləşdirmək və qisas almaq üçün azərbaycanlılara hücum edirdilər. Bu zaman əməllicə davalar baş verərdi, ölənlər və yaralananlar çox olardı. Ümumiyyətlə, bu ərəfələrdə bizim kəndlərdə xəbər yayılardı ki, ermənilər silahlanırlar, nə zamansa hücum edəcəklər. Lakin bir azdan söz-söhbət yatardı. İnsanlarımız öz həyatlarına davam edərdilər. Təəssüf ki, bu sakitlik uzun sürməzdi. Ermənin məkrli xisləti mütləq özünü göstərirdi. Növbəti mərasimlərimiz zamanı onların bəziləri bizim gənclərə atmaca atar, söyüş söyərdilər. Çalışardırlar, bizim gənclərlə tək-tək qarşılaşsınlar, onları qıcıqlandırıb davaya cəlb etsinlər. Belə davalar, çox zaman ölümlə və ya ağır yaralanmalarla nəticələnərdi. Odur ki, gənclər bu ərəfələrdə toplu şəkildə küçə-bacalara çıxardılar. Bu baxımdan xalq arasında belə bir deyim yaranmışdı: "İki erməni sənə quldu, üç olsa, vay halına, təkliyəcəklər, səni incidəcəklər".

Valeh müəllim ermənilərlə münasibətlərin daha da gərginləşdiyini, konfliktlərin sürətləndiyi və çoxaldığını, buraların, əsasən Livan və Suriyadan gələn ermənilərin axınlarından sonra baş verdiyini deyir. Münaqişələrin isə daha çox baş verdiyi məkanlardan biri Qarabaş dərəsi deyilən yer idi. Qarabaş kəndi də var idi. Buradakı əhali köklərinin qədim olduqlarını, qədim türk tayfası olan qarabaşlardan, qarapapaqlardan olduqlarını çox yaxşı bilirdilər. Və buranın əhalisi öz mübarizliyi və döyüşkənliyi ilə diqqət çəkirdi.

Valeh müəllim Baharlı və qonşu kəndlərin əhalisinin yüksək mədəni səviyyəyə malik olduğunu söyləyir. Kəndlərin əhalisinin ən çox önəm və diqqət etdiyi mədəni dəyərlərdən biri də aşıq yaradıcılığı idi. Ümumiyyətlə, biz Azərbaycan aşıq mühitləri içərisində Qərbi Azərbaycan aşıq mühitinin ən özəl yeri olduğunu çox yaxşı bilirik. Lakin bu kəndlərdə isə saz ifaçıları ilə bərabər, zurnaçalanlar, nağara ifaçıları, dəm tutanlar da çox məşhur idilər. Belə ki, qonşu kəndlərdən də onları sifarişlə toy məclislərinə, yığıncaqlara dəvət edərdilər. Onlardan Qəzənfər (zurnaçalan), Xanlar-Cəlil qardaşları (nağaraçalanlar), İslam (dəmtutan) dəstəsi çox məşhur idilər. Hətta Gürcüstandan da buralara aşıqlardan ibarət qruppalar gələrdilər. Kluba yığışardıq. Dastan başlayardılar, deyişirdilər, bağlayırdılar, gedərdilər. Onlar gedəndən sonra isə aylarla o ifaları, o cümlədən qonşu eldən gələn Aşıq Hüseyn Cavanın gözəl ifalarını unutmaq mümkün deyildi. "Şah İsmayıl" dastanını, Aşıq Ələsgərin səfərlərindən ibarət parçaları, "Abbas və Gülgəz", "Əsli-Kərəm" dastanlarını uşaqdan-böyüyə hər kəs əzbər bilərdi. Günlərimiz olduqca xoş keçərdi...

Valeh müəllim Qafanın əsrarəngiz təbiətindən sinə dolusu danışır: Meşələr palıdla dolu idi. Buradakı (Ordubaddakı) cəviz ağaclarından da böyük, uca ağaclar idi. Balıddan, əsasən, yanacaq kimi istifadə edərdik. Meyvələrimizi də meşələr verərdi. Çay kənarlarında zoğal, moruq, böyürtkən o qədər çox olardı ki...Yazda dağlara gedərdik, gül-çiçəklərin bəzədiyi dağlara sanki qırmızı, rəngarəng xalılar sərilərdi. Hər tərəf də dərman əhəmiyyətli bitkilərlə dolu idi: çayotu, kəklikotu, qantəpər, baldırğan çiçəyi bizim içdiyimiz çayların qaynağı idi. Qara çayı elə də sevməzdik...Yayda yaylaqlara üz tutardıq. O yaylaqlarda buz bulaqlar bizi səsləyirdi. İşgəsu bulağının suyu diş dondurardı. Günlərimiz bu məkanlarda keçərdi – Vana, Novruzyurdu, Oğlannıca piri... Tarixi yer kimi ziyarətgahımıza çevrilən "Şəhidlər qəbiristanlığı"nda keçmiş müharibələrdə həlak olmuş türk igidləri yatırdılar. Qazangöl isə Ordubadın Göygölü kimi dörd fəsli ifadə edən əsrarəngiz məkan idi. Yaylağa gedən yolumuz üstdə Göyçə baba piri, Qırxlar piri var idi. Mütləq oraları ziyarət etməli idik. Qonşu kənd – Pürülü kəndi üç yerə bölünürdü: Kənd Pürülü, Xış Pürülü, Daş başı. Buranın əhalisi də azərbaycanlılar idi və qədim adət-ənənələrə sahib əhali olaraq diqqət cəlb edərdilər.

Hər bir fikrinin əvvəlində doğma el-obasının həsrətini dilləndirən Valeh müəllim o böyük şüarı da fərəhlə ifadə edirdi: "Biz qayıdacağıq!".

Dərələyəz adlı ünvanım vətəndir... Bütöv Azərbaycan amalı ilə vuruşan sərkərdələrimizin, bu istiqamətdə bütün ömrünü həsr edən vətənpərvər ruhlu şəxsiyyətlərin arzusu, məqsədi Azərbaycanı həm də yadellilərdən qorumaq idi. Bu yolda icra etdikləri işlərin özü də əsl fədakarlıq nümunələri idi. Belə insanların bütün varlığı da vətənpərvərlik və vətənə bağlılıq hisslərindən yoğrulmuşdu. Məhz Ümummilli Lider Heydər Əliyevin bizə ərməğan qoyub getdiyi Bütöv Azərbaycan ideyası onun layiqli varisi cənab İlham Əliyev tərəfindən davam etdirilir. Məhz bu uzagörən siyasətin nəticəsi idi ki, II Qarabağ müharibəsinin qələbəsi əldə olundu. Növbəti qələbəmizi isə Qərbi Azərbaycandan qovulmuş həmyerlilərimizin doğma el-obalarına dönmələri ilə əldə edəcəyimizə bütün varlığımızla inanırıq!

Azərbaycana qarşı ermənilərin qondarma torpaq iddialarının nəticələri olaraq milyonlarla yurddaşlarımız öz doğma torpaqlarından qovularaq qaçqınlıq, köçkünlük həyatına məhkum oldular. Onların qəlblərini göynədən təkcə yer-yurd həsrəti deyil, o cümlədən doğma elin adət-ənənələri, bu adət-ənənələrə bütün varlığı ilə bağlılıqdır. Düzdür, onlar məskunlaşdıqları məkanlarda da öz adətlərinin icra etməkdədirlər. Lakin doğma yurdun qucağında o yurda məxsus adətin icrasını nə əvəz edə bilər ki?! Eləcə də bu insanlar öz vətənlərinin suyu, havası üçün darıxırlar, vətən həsrəti ilə qəlbləri sızlayır...

Qərbi Azərbaycandan qaçqın düşmüş insanlarımızın vətən həsrəti o gündən bu günə nəinki sönməyib, hətta daha da alovlanıb. Odur ki, onların ən çox qəlb yandıran və ümid hayqıran ifadələrindən biri də budur: "Biz öz doğma torpaqlarımıza qayıdacağıq!"

Biz də bu arzulara qoşularaq soydaşlarımızın Vətən həsrətinə son qoyacaq zamanın tezliklə yetişəcəyinə inanırıq. İnanırıq, ona görə ki, 30 il düşmən tapdağında qalmış torpaqlarımız geri qayıtdı: əsası, özülü Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və sonrakı mərhələdə isə Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində 30 ildən sonra torpaqlarımız öz doğma nəfəsinə – ab-havasına qovuşdu.

Və bu gün isə prioritet məsələlərdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın öz el-obalarına yenidən qayıtmaqları məsələsidir. Bu yöndə aparılan uzunmüddətli siyasət nəticəsində keçən il Qərbi Azərbaycan İcmasının təsis olunması və fəaliyyəti barəsində Prezidentimiz tərəfindən verilən sərəncamların və bu sərəncamların işığında aparılan uğurlu islahatların icrası, ümidvarıq ki, II Qarabağ qələbimiz kimi müvəffəqiyyətli olacaqdır.

Bu gün Qərbi azərbaycanlılar Azərbaycanımızın müxtəlif guşələrində məskunlaşıblar. Düzdür, onların qaçqın düşərək bizlərə tərəf üz tutduqları dövrlər olduqca ağır idi. Belə ki, mənfur qonşularımızın bizlərə qarşı qaldırdıqları qondarma torpaq iddiaları zamanları idi ki, bu zamanlarda da qaçqınlar ağır şəraitlə üzləşdilər. Onların məskunlaşdıqları yerlərdə yaşayış səviyyələri çox aşağı vəziyyətdə idi. Lakin bu, çox uzun sürmədi. Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra qaçqın və məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılması üçün müvafiq sərəncamlar verdi, bu istiqamətdə təqdirəlayiq işlər həyata keçirildi ki, bütün bu işlərin nəticəsi olaraq qaçqın və məcburi köçkünlərimizin həyat şəraitləri maksimum səviyyəyə qaldırıldı. Lakin belə rifah halında yaşamaqlarına baxmayaraq, qaçqınların qəlblərində doğma yurd ağrı-acısı gün-gündən artırdı. Onlar bu ağrını heç cür ovuda bilmirdilər. Və qeyd etdiyimiz kimi, Qərbi azərbaycanlıların bu gün məskunlaşdıqları məkanlarda onların yaşayış səviyyələrinin yaxşılaşdırılmasına dövlətimizin diqqəti və qayğısı vardır. O cümlədən Naxçıvan Muxtar Respublikasının ərazilərində də Qərbi azərbaycanlıların məskunlaşdıqları məkanlarda onların yaşayış səviyyəsi dövlətimiz tərəfindən təmin olunur.

Qərbi azərbaycanlıların doğma el-obalarına qayıtmasını həyata keçirmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə Qərbi Azərbaycan İcması təsis olunduqdan sonra icmanın təşəbbüsü ilə qaçqın düşmüş

soydaşlarımızla görüşlər keçirilir. Bu görüşlər mütəmadi olaraq həyata keçirilir. Biz də AMEA Naxçıvan Bölməsi əməkdaşları olaraq kollektiv şəkildə muxtar respublikanın ərazilərinə ekspedisiyalara yollanır, burada məskunlaşmış soydaşlarımızla görüşlər həyata keçiririk. Görülən işlər kontekstində Ordubad rayonunda məskunlaşmış Qərbi azərbaycanlılarla da keçirdiyimiz görüşlərdə maraqlı və diqqətimizi cəlb edən məsələlərlə qarşılaşırıq. Belə ki, Ordubad rayonunda Qərbi azərbaycanlıların məskunlaşdığı, çoxluq təşkil etdiyi ərazi Parağa kəndidir. Buradakı insanlar, əsasən, Qərbi Azərbaycanın Dərələyəz mahalından qaçqın düşmüş soydaşlarımızdırlar. Onlarla söhbət zamanı yurd həsrətindən qovrulan qəlblərinin göynərtisini simalarından, gözlərində donub qalmış yaşdan duyduq. Doğma yurdlarından qaçqın düşərkən öz canlarını güclə götürüb qaçmağa məcbur olan bu insanların vətəndən yadigar qalan xatirələri var. O xatirələr ki, heç zaman onları tərk etmir...

Parağa kənd sakini, əslən Qərbi Azərbaycanın Dərələyəz mahalının Əzizbəyov, keçmiş Söylan rayonunun Paşalı qəzasının Gomur kənd sakini Allahverdiyev Şahlar öz xatirələrini misralara köçürərək, doğma yurd həsrətini poetik dillə ifadə edir. O, Parağa kəndində yaşayış şəraitindən razı qalsa da, doğma vətən, el-oba həsrəti ilə qovrulur. Ağrısını, yurd həsrətini nə qədər mükəmməliklə misralara köçürürsə, yurda qayıtmaq arzusunu da bir o qədər mükəmməlliklə ifadə edir:

Vətən dedi: sevincim də, fərəhim də
Ömür boyu bir şələdir kürəyimdə.
Qaçqın düşən el-obanın ürəyində,
Sönməyən ocaqdı, qordu Dərələyəz.

Yenə geri gələr o ötən çağlar,
Can dərmanı, loğman təbli bulaqlar
Yurd yerləri boş qalıb, içim qan ağlar,
Dədəmin, babamın yurdu Dərələyəz ...[1, s. 64].

Şahlar müəllim doğma yurduna qayıtmaq üçün Tanrıdan dualarını əsirgəmir. Və bununla yanaşı, dövlətimizin bu yöndə apardığı islahatlara sidq ürəklə inanır və güvənir:

Qərib, qürbət əhliyəm atəşimdən, közümdən
Sual verməsinlər, cavabı özümdən.
Başsız qalan yurd yerləri getməyir gözümdən,
Yəqin ki, qayıdarıq gümanım Vətəndir.

Can demişəm torpağına, daşına,
Yetsə əlim, dolanardım başına.
Mən öləndə yazsınlar baş daşıma
Dərələyəz adlı ünvanım Vətəndir... ...[1, s. 64].

Doğma yurddan qaçqın düşərkən dop-dolu mülkündən əliboş çıxmağa məcbur olan Şahlar Allahverdiyev yalnız, atası, 1932-ci il təvəllüdlü Allahverdiyev Mərdan Qəmənd oğlundan yadigar qalmış bıçağı özü ilə gətirib və indi də onu ən əziz əşya kimi qoruyur. Bıçağın dəstəyi kəl buynuzundan hazırlanıb. Həm atasından, həm də doğma vətənindən yadigar qalan bu əşya Şahlar müəllim üçün həddən artıq dəyərlidir

1952-ci il təvəllüdlü Məmmədova Lala Sevindik qızı Gomurdakı həyatını unuda bilmir. Yuxularında daim doğma kəndlərindəki qayğısız günlərini görür. Uşaq vaxtlarının şən, qayğısız keçdiyindən söhbət açaraq kədərlənir... Lakin birdən o qayğısız günlərə qayıdır, uşaq ikən oynadıqları oyunları xatırlayır: "Çəkuzatma", "Mollamindi", "Əlləməqaya", "Qayışagirmə" və bu kimi maraqlı oyunlarla xoş günlər yaşayan, indi isə bu günləri xatırlayaraq gözləri dolan Lala xala doğma yurdlarından qaçqın düşərkən özləri ilə bir neçə xalı-xalça, cecim və bəzi xırda-para əşya götürə bildiklərini söyləyir, əşyaları bizə göstərərək onları evinin ən əziz yadigarı kimi qoruyur. Lala xala doğma yurdlarında icra etdikləri xalq mərasimlərimizi, o cümlədən Novruz bayramında keçirilən ritualların böyük coşquyla icrasını belə xatırlayır: İlin axırında qədir tutardıq, bir evə yığışardıq, Novruzun gəlişini elliklə keçirərdik, yallı gedərdik, əsasən də İl yallısı. Şar atardılar, güllə atardılar. Hamı sevinclə Novruzu qarşılayardı...[1, s. 58].

Lala Məmmədovanın oğlu Bəylər Məmmədov 1970-ci il təvəllüdlüdür. Bəylər müəllim Qərbi Azərbaycanın əsil ziyalılarındandır. Cavan yaşda olmasına, oralardan, demək olar ki, çox gənc yaşda qaçqın düşməsinə baxmayaraq, o günləri unutmur. O gündən etibarən doğma yurdlarıına qayıtmağı arzulayır. Qeyd edək ki, Bəylər müəllim əsl vətənpərvər ziyalı olaraq Qərbi Azərbaycanla bağlı həqiqətləri üzə çıxarmaq

yolunda yorulmaz fəaliyyətdədir. Və bu fəaliyyətindən doğan arzularını misralara köçürür, yanğısını poetik dillə, olduqca mükəmməl şəkildə ifadə edir. 1944-cü il təvəllüdlü Xudayeva Ölkə Sevindik qızı da 45 yaşı olanda doğma el-obasından qovulub. Bu gün vətən həsrətli qəlbi göynəyir. O da digər kövrək qəlbli həmyerliləri kimi doğma el-obasını yuxularında görməklə qəlbini ovundurur. Vətəndən qaçqın düşərkən itkin düşən, həlak olan həmyerlilərini də xatırlayır. Ölkə nənənin qəlbinin sızıltısı gözlərindən axan yaşlarla qarışaraq ürək dağlayan bayatılara çevrilir:

Sizi necə ağlayım,
Gündüz yox, gecə ağlayım.
Ananız yanınızda yox,
Bacınız yanınızda yox,
Yalqız necə ağlayım.

Könlüm bir ana istər,
Lap yana-yana istər.
Bir anayla bir bala,
Bir xəlvətxana istər.

Əzizinəm, dilan gəz,
Süsən, sünbül dil an gəz.
Qıraq yerdə xan olsan,
Vətənində dilən gəz.

Aşıq vətənə sarı
Köynək kətana sarı.
Qərib eldə ölsəm də
Üzüm vətənə sarı ...[1, s. 55]

Bəli, öz yurdundan qovularaq qaçqınlıq həyatına düçar edilmiş bu insanların dərdinə şərik olsaq da, onların vətən həsrətli kövrək qəlblərinin sızıltısını yalnız Uca Tanrı və yalnız bu dərddə olanlar anlaya bilər. Baxmayaraq ki, fikirlərinin əvvəli və axırı Vətən olan bu insanlara dövlət qayğısı yüksək səviyyədədir, amma Vətən adlı dərdlərinə yalnız Vətən çarədir. Ümidvarıq ki, qədim mədəniyyət daşıyıcıları olan Qərbi azərbaycanlılar tezliklə öz doğma yurdlarına geri dönəcəklər...

ƏDƏBİYYAT

1. Cəfərova, A. Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar. Naxçıvan: Əcəmi, 223, 176 s.
2. İsmayılov, H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı: Səda, 2006, 336 s.
3. Zəngəzur folklor örnəkləri. I c., Bakı: Elm və təhsil, 2021, 356 s.

ABSTRACT

Aytan JAFAROVA

THE ETHNO-CULTURAL ENVIRONMENT OF WESTERN AZERBAIJAN IN MEMORIES AND FACTS

The longing for their homeland of the people - the Western Azerbaijanis, who were forced to flee their homelands due to the occupation policy of the neighboring state of Armenia - has never faded. In fact, as the years passed, this longing has hurt and offended them even more. Although, the state care and protection for them has always been at a high level, the pain that burned the hearts of these people was to return to their homeland, hearth, and ancestral lands. It is a great truth that the first policy aimed at improving the social welfare of the Western Azerbaijanis, who were displaced from their ancestral lands as a result of Armenian barbarism, is associated with the name of the Great Leader Heydar Aliyev. It was thanks to the Great Leader that laws were adopted and decrees were signed to facilitate the daily and social lives of internally displaced persons in the areas where they temporarily settled, to solve their problems. Immeasurable great work was done to ensure their comfortable living and improve their social well-being. At the same time, the implementation of successful works such as providing refugees with jobs, improving the educational level of young people, even allowing talented young people to study at relevant higher educational institutions abroad, continuing their education, etc., not only served to improve the social well-being of our compatriots who fled from Western Azerbaijan, but also served as steps taken to ensure that they did not lag behind in social development. Yes, even today, the places where those people who fled from their native lands took refuge have already become their native places. However, despite this, the love for the homeland in their hearts is fierce and unquenchable from the very beginning. Their greatest desire is to return to their native land and continue the rest of their lives in those sacred places. This desire has left such a deep mark on their faces that everyone can see it on their faces. And it is possible to observe this desire and desire more clearly when talking to them. In the article, we will present some of the facts we have recorded from the words of our compatriots who have become refugees from Western Azerbaijan and settled in various corners of the Nakhchivan Autonomous Republic.

Keywords: *Western Azerbaijan, facts, memories, refugee, occupying state*

ZƏNGƏZUR DƏHLİZİNİN DÜNYA İQTİSADİYYATI ÜÇÜN ƏHƏMİYYƏTİ

Bulqeyis NOVRUZOVA
bulqeyis@yahoo.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Zəngəzur dəhlizinin bütövlükdə dünya iqtisadiyyatı üçün siyasi və iqtisadi mühüm əhəmiyyətinin olması danılmazdır. Onun region ölkələrinə daha ucuz alternativ çıxış imkanları yaratdığını nəzərə alsaq deyə bilərik bu dəhliz Cənubi Qafqaz regionu üçün xüsusilə önəmlidir. "Zəngəzur dəhlizi" təkcə Naxçıvanla Azərbaycanın qalan bölgələri arasında nəqliyyat imkanlarının açılmasına deyil, həm də bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə imkan verəcəkdir. Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaqdır. Bu nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşruta çevriləcəkdir. Zəngəzur dəhlizi region ölkələri arasında iqtisadi və ticari münasibətlərə müsbət təsir göstərməklə yanaşı, yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi diqqət mərkəzində olacaqdır. Məqalədə Zəngəzur dəhlizinin yaradılması ilə formalaşan yeni iqtisadi konyukturanın Asiya və Avropanın nəqliyyat infrastrukturunda xüsusi yeri olacağı əsaslandırılır, bu nəqliyyat dəhlizinin açılmasının yaradacağı imkanlar region ölkələrində dayanıqlı iqtisadi inkişafa, nəqliyyat şəbəkələrinin genişlənməsinə şərait yaradacağı, region ölkələri arasında qarşılıqlı iqtisadi münasibətləri stimullaşdıracağı göstərilir.

Açar sözlər: *Zəngəzur dəhlizi, Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti, region və dünya ölkələri arasında iqtisadi-ticarət əlaqələrinin şaxələnməsi, Zəngəzur dəhlizində dünya ölkələrinin iqtisadi maraqları*

Asiya ilə Avropa arasındakı əlaqələndirici imkanların təşəkkülündə mühüm rol oynayacaq Zəngəzur dəhlizi bəşəri layihədir. Zəngəzurdan keçməklə Asiyanı Avropa ilə birləşdirəcək bu dəhliz kifayət qədər böyük iqtisadi əhəmiyyətə malik olmaqla region dövlətləri, eyni zamanda dünya ölkələri arasında iqtisadi-ticarət əlaqələrinin şaxələnməsinə təminat yaradacaqdır.

Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti ilk növbədə regional inkişafla bağlıdır. Zəngəzur dəhlizi, həmçinin xarici iqtisadi əlaqələr baxımından perspektivli layihədir. Belə ki, bu dəhlizin açılması ilə Azərbaycan beynəlxalq yükdaşımalar üçün öz ərazisindən bir deyil, iki marşrut təklif edə biləcəkdir. Qeyd edək ki, xarici tərəfdaşlar, beynəlxalq güclər bölgənin tam iqtisadi inteqrasiyasına imkan verəcək layihələri dəstəkləyirlər. Bu baxımdan, Azərbaycanın regional iqtisadi layihənin təşəbbüskarı kimi çıxış etməsi uğurlu bir siyasətdir. Fikrimizcə, dünyada və regionda formalaşan yeni iqtisadi reallıqlar çərçivəsində regional inteqrasiya olduqca böyük önəm daşıdığından bu dəhliz tədricən xarici iqtisadi siyasət nöqteyi-nəzərindən bütövlükdə bölgə dövlətlərinin prioritetinə çevriləcəkdir.

Ümumiyyətlə, bu dəhlizdə iqtisadi maraqları təmin olunacaq güclər çoxdur. Belə ki, "Zəngəzur dəhlizi" təkcə Naxçıvanla Azərbaycanın qalan bölgələri arasında nəqliyyat imkanlarının açılmasına deyil, həm də bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə imkan verəcəkdir.

Regionda geo-strateji və geo-iqtisadi əhəmiyyəti daha da artmaqda olan Azərbaycan Şərq-Qərb xəttinin üzərində Bakı-Tiflis-Qars və Zəngəzur nəqliyyat damarları ilə şaxələnməni həyata keçirməklə böyük Avrasiya coğrafiyasının "çeşidləmə mərkəzi"nə çevrilir. Məlumdur ki, hazırda Suveyş kanalında Çin və Avropa arasında quru nəqliyyatının əhəmiyyəti artmaqdadır. Çindən Avropaya gedən nəqliyyat vasitələrinin sayı artdıqca, əks istiqamətdə də nəqliyyat vasitələrinin işləməsinə ehtiyac yaranır ki, xərclər aşağı düşsün. Bununla yanaşı, "Zəngəzur dəhlizi"nə marağı artıran daha bir amil, Avrasiyada şimal quru yolu üzrə Polşa-Belarus sərhədində yaranan texniki və idarəetmə məhdudiyyətləri ilə bağlıdır. Azərbaycanın irəli sürdüyü "Zəngəzur dəhlizi" bu baxımdan Şərq-Qərb üzrə gündəlik milyardlarla dollar daşıma həyata keçirən kommersiya qurumlarına və onların maraqlarını müdafiə edən başda Çin və Avropa olmaqla dövlətlərə sərfəlidir.

Eyni zamanda illik ticarət dövriyyəsi 560 milyard avroya çatan Avropa İttifaqı və Çin "Zəngəzur

dəhlizi" kimi alternativ marşrutlarda maraqlıdır, həmçinin ticarət dövriyyəsi 6 milyard dollara çatan Türkiyə və Mərkəzi Asiya, o cümlədən 21 milyard dollarlıq ticarət dövriyyəsinə malik olan Çin və Türkiyənin perspektiv iqtisadi əlaqələri üçün bu dəhliz çox əhəmiyyətlidir [4]. Hətta "Zəngəzur dəhlizi" Türkiyə-Rusiya iqtisadi əlaqələrinin də güclənməsinə imkanlar açа bilər. Okeanlarda Kamçatkadan Malay yarımadasına qədər "birinci ada zənciri" ilə üzləşən, eyni zamanda coğrafiyasının qərb dərinliklərində daxili regionlarını inkişaf etdirmək istəyən Çin Orta dəhlizin üzərində yerləşən və diversifikasiya imkanı yaradan Zəngəzur marşrutunu dəstəkləyir.

Bakı dəniz limanını "yaşıl liman" olaraq qəbul edən Avropanın da "Zəngəzur dəhlizi"ndə iqtisadi maraqları vardır. 2022-ci il ərzində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yük dövriyyəsi 13,6% artaraq 6 milyon 314 min ton təşkil etmişdir. 2021-ci ildə isə Bakı Limanından aşırılmış yüklərin 53%-i Türkmənistan limanları hesabına olub və ümumi həcmi 3 milyon 359 min ton təşkil etmişdir, Qazaxıstan limanları ilə dövriyyəmiz isə 2 milyon 382 min 956 ton olmuşdur ki, bu da ümumi dövriyyənin 38%-ni təşkil etmişdir. Digər limanlarla yük dövriyyəsi 571 min ton təşkil etmişdir. Bakı Limanın aşırdığı yüklərin 90%-i tranzit yüklərdir. Bütün bu təchizat zəncirinin halqaları və potensiallar bir birinə uyğunlaşdırılmalıdır. Belə ki, təkcə Azərbaycanda deyil, qonşu ölkələrdə də bu potensialların bir-birinə uyğunlaşdırılması Orta Dəhlizin imkanlarının genişlənməsinə imkan verər [13].

Ölkəmizin möhtəşəm qələbəsinin Avrasiyanın geoiqtisadi xəritəsində yaratdığı yeni imkanlar beynəlxalq nəqliyyat sisteminin bütövlükdə yenidən formalaşdırılması reallığını ortaya qoymuşdur. Artıq bir çox Asiya ölkəsi, xüsusilə Mərkəzi Asiya ölkələri bu yeni imkanlardan istifadə etməklə yeni bazarlara çıxmaq üçün Zəngəzur dəhlizinin böyük iqtisadi səmərəsinin olacağını etitaf edirlər. Dünya iqtisadiyyatının əsas lokomotivlərindən sayılan Çindən gələn yüklərin Mərkəzi Asiya marşrutu ilə daşınması potensialı, eləcə də Süveyş kanalından keçən dəniz yoluna alternativ nəqliyyat dəhlizinin formalaşdırılması Azərbaycanın, həmçinin Zəngəzur dəhlizinin vacib nəqliyyat arteriyasına çevrilməsinə şərait yaradır.

Süveyş kanalında Evergreen gəmisinin qəzaya uğramasına gün ərzində qərbə daşınan yüklər üzrə 5,1 milyard və şərqə daşınan yüklər üzrə 4,5 milyard olmaqla ümumilikdə 9,6 milyard dollar zərərə səbəb olduğunu və ümumilikdə dünya ticarətinin təqribən 12 faizinin bu kanal vasitəsilə həyata keçirildiyini nəzərə alsaq, alternativ nəqliyyat arteriyalarının, o cümlədən Zəngəzur dəhlizinin Avrasiya nəqliyyat infrastrukturunda necə böyün iqtisadi əhəmiyyətə malik olduğunu görə bilərik [1].

Məlumdur ki, Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında imzalanmış "Aşqabad müqaviləsi" tərəfdaş ölkələrin Avropaya reinteqrasiyası üçün yeni perspektivlər yaratmışdır. Fikrimizcə, bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizindən Avrasiya bazarlarına çatdırılması regionun iqtisadi potensialının artmasında xüsusi rol oynaya bilər [1].

Onu da qeyd edək ki, Zəngəzur dəhlizinin tərkib hissəsi kimi həm dəmir, həm də avtomobil yollarının inşası regionun, o cümlədən Azərbaycanın nəqliyyat dəhlizlərinə çıxışını çoxşaxəli etməklə buradan keçəcək xətlərin əhəmiyyətini daha da artırar, Azərbaycan, Ermənistan, Gürcüstan, Türkiyə, Rusiya və İranın "3+3" formatında geosiyasi əməkdaşlığı nəticəsində kommunikasiya xətlərinin yenidən bərpa edilməsi beynəlxalq tranzit daşımalarda yeni iqtisadi ağırlıq mərkəzi yarada bilər. Bu əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizi siyasi və iqtisadi əhəmiyyət kəsb etməklə yanaşı, region ölkələrinə daha ucuz alternativ çıxış imkanları yaradacaq, bu dəhlizin yaradılması ilə formalaşan yeni iqtisadi konyuktura Asiya və Avropanın nəqliyyat infrastrukturunda xüsusi önəmə malik olacaqdır.

Zəngəzur dəhlizinin böyük regional və beynəlxalq əhəmiyyəti vardır, çünki bu layihə Şimal ilə Cənub, Qərb ilə Şərq nəqliyyat dəhlizlərini birləşdirən önəmli arteriyadır. "Zəngəzur dəhlizi" yeni nəqliyyat imkanları açdığına görə Ermənistandan İrana 3,5 milyard ABŞ dollarına başa gələcək bahalı dəmiryol xəttinin çəkilməsində marağı olmayan rəsmi Tehran üçün də iqtisadi baxımdan faydalıdır.

Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaqdır. Bu nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşruta çevriləcəkdir. Zəngəzur dəhlizi region ölkələri arasında iqtisadi və ticari münasibətlərə müsbət təsir göstərməklə yanaşı, yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi diqqət mərkəzində olacaqdır.

Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativlik baxımından Zəngəzur dəhlizinin əhəmiyyəti böyükdür. Belə ki, bu alternativlik Çindən gələn malların Türkiyənin şərq vilayətlərinə,

oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir. Bu həm də Türkiyənin, Çinin nəqliyyat yollarının diversifikasiya edilməsi strategiyasına uyğundur. Zəngəzur dəhlizinin region ölkələrinə təqdim etdiyi bütün imkanlar dayanıqlı iqtisadi inkişafa, nəqliyyat şəbəkələrinin genişlənməsinə şərait yaradacaq, region ölkələri arasında qarşılıqlı iqtisadi münasibətləri stimullaşdıracaqdır.

Zəngəzur dəhlizi gündən-günə güclənən, daha da bütünləşən türk dünyasına böyük töhfədir. Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir "damarı" açılacaq və bu, ölkələr arasında iqtisadi-ticarət əlaqələrinə müsbət təsir göstərəcək, digər tərəfdən isə, Zəngəzur dəhlizi həm Türkiyə, həm də türk dünyası üçün bir ticarət qapısı rolunu oynayacaq ki, bu da ölkələrin Avropa və digər qitələr ilə iqtisadi əlaqələrinin gücləndirilməsinə imkan verəcəkdir.

Zəngəzur dəhlizinin hüquqi müstəvidə də region üçün bir çox üstünlükləri vardır. Bu, həm Qafqaz, həm də Asiya bölgəsində olan ölkələr üçün böyük bir imkan olmaqla hüquqi və iqtisadi məsələlərin həllində mühüm rol oynaya bilər. Zəngəzur dəhlizinin aşağıda regional perspektivlərini qeyd etmək olar:

– beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsini aktuallaşdırar;
– regional inteqrasiya əlaqələrinə zəmin yaradar;
– regiona yeni dividendlər və investisiyalar axınını stimullaşdırar;
– yeni geostrateji mövqelər yaradar;
– bölgədə çoxşaxəli əməkdaşlıqlara imkan yaradar;
– regionda suveren əməkdaşlıq yeni bir aspektdə daha da genişlənər [2].

Zəngəzur dəhlizinin region ölkələrinə təqdim etdiyi bütün imkanlar dayanıqlı iqtisadi inkişafa, nəqliyyat şəbəkələrinin genişlənməsinə şərait yaradacaq, region ölkələri arasında qarşılıqlı iqtisadi münasibətləri stimullaşdıracaqdır. Belə ki, bu yol açıldıqdan sonra Cənubi Qafqazın iqtisadi mənzərəsinin və geosiyasi konfiqurasiyanın dəyişməsi nəticəsində istər Avrasiyanın, istərsə də regionda marağı olan Qərb və ərəb ölkələrinin, həmçinin Çinin bu yol ilə əldə edəcəyi dividendlər Azərbaycan iqtisadiyyatına da müsbət təsir göstərəcəkdir. 1,1 trilyon dollardan çox ümumi daxili məhsulu olan Mərkəzi Asiya ölkələrini strateji və iqtisadi baxımdan birləşdirəcək Zəngəzur dəhlizi coğrafi mövqe etibarilə əvəzsiz ticarət yolu hesab olunur. Bu isə o deməkdir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcəkdir.

Sonda qeyd edək ki, Zəngəzur dəhlizinin Naxçıvan Muxtar Respublikası üçün ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, o, muxtar respublika ilə ölkəmizin digər iqtisadi rayonları arasında birbaşa əlaqəni təmin edəcək və bununla da Naxçıvan Muxtar Respublikasının iqtisadi-tranzit əhəmiyyəti daha da artacaq, yeni inkişaf istiqamətləri müəyyənləşdiriləcəkdir.

ƏDƏBİYYAT

1. İmanquliyev, B. Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti Avropa və Asiya ölkələri üçün də böyükdür. https://www.azerbaijan-news.az/posts/detail/zengezur-dehlizinin-iqtisadi-ehemiyyeti-avropa-ve-asiya-olkeleri-ucun-de-boyukdur-1630444295
2. Həsənli, G., Həsənova, N., Yusubov, T. Zəngəzur dəhlizinin perspektivləri. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İctimai siyasət is 221. https://www.injuria.az/news/zengezur-dehlizinin-perspektivleri
3. Abdalov, N. "Respublika"qəzeti. Zəngəzur dəhlizi dünya iqtisadiyyatının inkişafında əsas rol oynayacaq. https://respublika-news.az/news/zengezur-dehlizi-dunya-iqtisadiyyatinin-inkisafinda-esas-rol-oynayacaq
4. Zəngəzur dəhlizinin iqtisadi faydaları - ekspertlərdən maraqlı açıqlamalar. https://musavat.com/news/zengezur-dehlizinin-iqtisadi-faydalari-ekspertlerden-maraqli-aciqlamalar_813351.html?d=1
5. Bayramov, V. Zəngəzur dəhlizi bəşəri layihədir. "Xalq qəzeti". https://xalqqazeti.az/az/iqtisadiyyat/125532-zengezur-dehlizi-beseri-layihedir
6. Satıcı, A. Zəngəzur dəhlizinin böyük regional və beynəlxalq əhəmiyyəti var. Bakı: 27 sentyabr AZƏRTAC. https://azertag.az/xeber/ayhan_satici_zengezur_dehlizinin_boyuk_regional_ve_beynelxalq_ehemiyyeti_var-2764471
7. Şərqi Zəngəzur-Naxçıvan dəhlizi: Azərbaycan və İran nə qazanır, Ermənistan və Rusiya nə itirir?

https://www.bbc.com/azeri/azerbaijan-60770645

8. Həmzəyev,N. Zəngəzur dəhlizi region ölkələri arasında qarşılıqlı iqtisadi münasibətləri stimullaşdıracaq. https://www.yeniazerbaycan.com/xeberlenti_e63327_az.html
9. Quliyev, M. Zəngəzur dəhlizinin açılması bölgədə sülhün iqtisadi zəmanəti olacaq. https://turkic.world/az/articles/other/111732
10. Cəfərov, M. Zəngəzur dəhlizinin çox böyük regional və beynəlxalq əhəmiyyəti var https://editor.az/zengezur-dehlizinin-cox-boyuk-regional-ve-beynelxalq-ehemiyyeti-var-millet-vekilinden-serh
11. Quliyev, R. Zəngəzur dəhlizinin dünya üçün mühüm əhəmiyyəti üzə çıxdı. https://www.baki-xeber.com/iqtisadiyyat/123453.html
12. Yadigarov, T. Zəngəzur dəhlizi: regional blokadaya açılan qapı. "Xalq qəzeti". http://economics.com.az/index.php/kitabxana/bizim-s-rl-r/meqaleler/item/2797-zaenzhaezur-daehlizi-rezhional-blokadaya-adzh-lan-zhap.html
13. https://report.az/infrastruktur/baki-limaninin-yuk-dovriyyesinin-hecmi-aciqlanib/

ABSTRACT

Bulgeyis NOVRUZOVA

THE SIGNIFICANCE OF THE ZANGEZUR CORRIDOR FOR THE WORLD ECONOMY

It cannot be denied that the Zangezur corridor has political and economic significance for the world economy as a whole. This corridor is especially important for the South Caucasus region considering that it creates cheaper alternative access to countries in the region, the "Zangezur Corridor" will not only open up transport opportunities between Nakhichivan and the rest of Azerbaijan, but also connect the Caspian and Mediterranean basins as a whole, and in a broader sense, Southeast and Central Asia and Europe. The opening of the Zangezur corridor will further revive the activity of the system of routes passing through the South Caucasus, and other transit transport corridors proposed by our country will change the transport map of the world. By gaining international status, this transport infrastructure will become a route that can be used by countries in the Asia-Pacific region. Besides positive impact on economic and trade relations between the countries of the region, soon the Zangezur corridor will come into the spotlight as an important trade route between the continents of Europe and Asia within integration into the East-West transport corridor. The article substantiates that the new economic environment formed by the creation of the Zangezur corridor will occupy a special place in the transport infrastructure of Asia and Europe; it is shown that the opportunities created by the opening of this transport corridor will create conditions for sustainable economic development of the countries of the region, expansion of transport networks and stimulation mutual economic relations between the countries of the region.

Keywords: *Zangezur Corridor, the economic importance of the Zangezur Corridor, the diversification of economic and trade relations between the region and the countries of the world, the economic interests of the countries of the world in the Zangezur Corridor*

XX YÜZİLLİKDƏ QƏRBİ AZƏRBAYCANDA, NAXÇIVAN BÖLGƏLƏRİNDƏ VƏ ZƏNGƏZUR QƏZASINDA ERMƏNİ VƏHŞİLİKLƏRİ: SƏNƏDLƏRİN DİLİ İLƏ

Fəxrəddin CƏFƏROV

Nadir HÜSEYNBƏYLİ
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımından bəhs olunur. Bu məsələlər hələ də Azərbaycan tarixinin öyrənilməmiş səhifələrindən biri kimi hal-hazırda ciddi maraq doğurur və geniş tədqiq olunmağa möhtacdır. Araşdırılan sənədlərdən məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq 90-cı ilin əvvəllərinə kimi ermənilərin Azərbaycanın bir çox bölgələri ilə yanaşı, İrəvan quberniyasında, Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında törətdikləri etnik təmizləmə, soyqırımın və təcavüzlərin şahidi oluruq. Xüsusilə 1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda, Zəngəzur, Şərur-Dərələyəz və Ordubad bölgələrində törətdikləri ağır cinayətləri daha dəhşətli olmuşdur.

Açar sözlər: *Azərbaycan, Heydər Əliyev, xalq, müsəlman, soyqırım, təcavüz*

Ümummilli Liderimiz Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi deportasiya haqqında" 18 dekabr 1997-ci il tarixli və "XX əsrdə ermənilərin azərbaycanlılara qarşı soyqırım haqqında" 26 mart 1998-ci il tarixli fərmanlarından sonra Azərbaycan Respublikasının, eləcə də Naxçıvan MR Dövlət Arxivlərində ermənilərin XX yüzillikdə soyqırım və deportasiya siyasəti ilə bağlı sənədlər artıq geniş araşdırılır.

Araşdırılan sənədlər XX əsrin əvvəllərindən başlayaraq 90-cı ilin əvvəllərinə kimi ermənilərin Azərbaycanın bir çox bölgələri ilə yanaşı, İrəvan quberniyasında, Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında törətdikləri etnik təmizləmə, soyqırımı və təcavüzləri bir daha təsdiqləməkdədir.

Ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı Azərbaycan tarixinin öyrənilməmiş səhifələrindən biri kimi hazırda ciddi maraq doğurur və geniş tədqiq olunmağa möhtacdır. Məhz bu baxımdan xalqımızın bütün təbəqələri Ulu Öndərimiz Heydər Əliyevin imzaladığı fərmanları çox böyük tarixi-siyasi əhəmiyyəti olan sənəd kimi qiymətləndirilir. Bu sənəd yurdumuzun tarixinə, xalqımızın tarixinə sonsuz dərəcədə bağlılığına bir daha sübutdur.

XX yüzillikdə, daha doğrusu 1905-1907, 1918-1920, 1948-1953 və nəhayət, 1988-1993-cü illərdə ermənilər tərəfindən nəinki Naxçıvan bölgəsində, həmçinin Qərbi Azərbaycanda, Zəngəzur qəzasında, Qarabağda törətdikləri soyqırım daha dəhşətli olmuşdur.

Arxiv sənədlərindən məlum olur ki, 1905-1907-ci illərdə Naxçıvan, Şərur və Ordubad bölgələrində rus imperiyası və Tiflis daşnak şurasının rəhbərləri başda olmaqla yerli erməni daşnakları erməni və müsəlman arasında dəfələrlə nifaq salaraq böyük qırğınlar törətmişlər.

Həmin dövrün arxiv sənədlərindən biri 18 iyul 1905-ci il tarixdə Naxçıvanda yerləşən Qafqaz atıcı batalyonunun komandirinin baş ştaba göndərdiyi raportdur. Raportda komandir yazır: "17 iyun 1905-ci il tarixdə Naxçıvan qəzasının Zeynəddin kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişənin aradan qaldırılmasında vətəndaş hakimiyyətinə kömək etmək məqsədi ilə, mənə həvalə edilmiş Naxçıvan şəhərində yerləşən batalyon 17 iyun tarixdə axşam 8-də silah işlətməyə məcbur olub, nəticədə Zeynəddin kəndinin 20-dən çox müsəlman sakini öldürülmüşdür [1, s. 10].

Həmçinin başqa bir sənəddə göstərilir ki, 5 iyul 1905-ci il tarixdə Norsu kəndində ermənilər tərəfindən 4 nəfər azərbaycanlı öldürülmüş, bundan başqa, Ordubadda, Cəhridə, Şıxmahmudda, Çeşməbasarda, Tividə və s. kəndlərdə ermənilər azərbaycanlılara qarşı böyük qırğınlar törətmişlər.

Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tunbul və onlarla başqa yaşayış yerlərini də əhatə etdi. 1905-ci ilin noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman binalarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur [2, v.78-84].

Sənədlərdən məlum olur ki, 1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələri də rus imperiyası və Tiflis daşnak şurası rəhbərlərinin himayəsi ilə yerli erməni daşnakları tərəfindən böyük qırğınlar törədilmişdir.

Xüsusilə 1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda, Zəngəzur, Şərur-Dərələyəz və Ordubad bölgələrində törətdikləri ağır cinayətləri daha dəhşətli olmuşdur.

Sənədlərdən aydın olur ki, 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyul ayına kimi başda erməni daşnakları olan Andranik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və başqalarının başçılıq etdiyi erməni daşnaklarının quldur dəstələri tərəfindən qeyd olunan bu bölgələrdə 300-dən çox müsəlman kəndlərinə basqınlar edilmiş, yandırılmış, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşdür [3, v.103-105].

1918-ci ilin yanvar ayının 17-də Naxçıvan qəzasının Əznəbürd kənd ermənіləri tərəfindən həmin kənddə yaşayan 22 nəfər müsəlman qadın və kişi qətlə yetirmişlər (3, v.753). Ümumiyyətlə, 1918-ci ilin əvvəllərindən başlayaraq Tiflis daşnak şurasından Naxçıvana göndərilmiş Y.Xarazyan başda olmaqla yerli daşnak ermənіləri həm şəhərdə, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhalisinə basqınlar etmiş, neçə-neçə günahsız insanları qətlə yetirmişlər.

1918-ci ilin mart ayının 18-dən 21əkimi ermənilər Əlincəçay boyunca müsəlman kəndləri olan: Bənəniyar, Qızılca, Saltax, Noraşen, Xoşkeşin, Qazança və s. kəndlərə hücum edərək, kəndləri yandırmış, qarət etmiş, əhalisini vəhşiliklə qətlə yetirmişdir.

Naxçıvan qəzasının Qaraxanbəyli kənd ermənіləri 31 mart 1918-ci ildə azərbaycanlılara atəş açmağa başlayırlar. Bu vuruşmada müsəlmanlar 25 nəfər tələfat verir və döyüş meydanından meyidləri çıxara bilmirlər.

Aprelin 3-də (1918) müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovu erməni Milli Komitəsinə müraciət edərək meyidlərin verilməsini tələb edir və 6 meyid ermənilərdən alınır. Gətirilən meyidlər ermənilər tərəfindən tanınmaz hala salınmış, yandırılmış, hətta Məşədi Rəhim Babayevin başını kəsmişlər. Şəhid olanlar Hacı Məhəmməd Quluzadə, İbrahim Xəlil Hacızadə, Kərbalai Əli Sənəm oğlu, Muxtar Hacı Bəyzadə və başqaları idi [4, s.33, 1, s.12].

Xüsusilə 1918-ci ilin iyun ayında Naxçıvan qəzasına soxulan erməni daşnakı Andranik Ozanyanın başçılıq etdiyi erməni qoşunları Naxçıvan qəzasının Yaycı kəndini və Aşağı Aza kəndinin əhalisini qırdıqdan sonra Naxçıvan şəhərinə hərəkət edərək qoşunlarını Camaldın kəndinin ərazisində yerləşdirərək Nehrəm kəndini mühasirəyə almışdır. Andranik Naxçıvanda XIX əsrdə köçürmə ilə məskunlaşan erməni və müsəlman Təzəkənd adlanan kəndin ermənіləri ilə birləşmək ümidində olduğu üçün Nehrəm kəndinə hücum edir. Lakin bir neçə gün vuruşmadan sonra böyük tələfatla geri çəkilərək Naxçıvan şəhərinin şimalında hərbi düşərgə qurur.

Andranikin Yaycı təcavüzü haqqında 17 avqust 1918-ci il tarixdə "Borba" qəzeti yazırdı: "...Yaycı kəndi darmadağın edilib, əhalisi qılıncdan keçirilmişdir" [4, 17 avqust 1918].

Naxçıvan şəhərini mühasirədə saxlayan Andranik şəhər əhalisinin təslim olması barədə ultimatum verir. Lakin şəhər əhalisi bu ultimatumunu qəbul etmir və son nəfərə qədər ölənədək vuruşacaqlarını bildirirlər.

Bu cavaba görə Andranik qoşunlarına 7 iyul 1918-ci il tarixdə əmr verir ki, Naxçıvan şəhəri alınsın. Lakin Naxçıvan şəhərini müdafiə edən hərbi komandan Kəlbalı xan Cəfərqulu xan oğlu Naxçıvanskinin rəhbərlik etdiyi könüllü müsəlman hərbi döyüşçüləri bir gün müddətində ermənіləri şəhərə buraxmamış və onlara qarşı mərdliklə vuruşmuşdular.

5 iyul 1918-ci il tarixdə Andranik qoşunlarını izləyən Türk hərbi ekspedisiyasının IX-XI alayı Naxçıvanın Şahtaxtı körpüsündən keşərək duzdağ təpələrindən Andranikin düşərgə saldığı əraziya top atəşi ilə hücum etmiş, Andranik türklərin Naxçıvana gəldiyini bu top atəşi ilə bildiyindən, əmr verir ki, bütün kazarmalar yandırılaraq Naxçıvanı tərk etsinlər.

Andranik qoşunları Naxçıvandan qaçarkən Sirab, Qahab və Kərimquludizə əhalisini qırmış və həmin kəndləri dağıdaraq yandırmışdır.

Naxçıvan bölgəsindən qaçan Andranik qoşunlarının Zəngəzurda azərbaycanlılara qarşı törətdikləri soyqırımı daha dəhşətli olmuşdur.

Arxiv sənədlərinə əsasən Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmış, 115 kəndi üzrə 3257 kişi, 9276 qadın və 2196 uşaq öldürülmüşdür.

Bütün qəza üzrə 10068 nəfər azərbaycanlı öldürülmüş və şikəst edilmişdir. 1918-ci illərdə Zəngəzurda, Naxçıvanda, Ordubadda və İrəvan quberniyasının azərbaycanlılar yaşayan kəndlərində etdikləri vəhşilikdən usanmayan Andranik öz quldur dəstələri ilə Qarabağda: Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında da azərbaycanlılara qarşı qırğınlarını davam etmişlər. Ermənilərin Naxçıvanda, Qərbi Azərbaycanda törətdikləri vəhşiliklər haqqında qəzalardan, bölgələrdən, kəndlərdən, ayrı-ayrı adamlardan, dərdlə, məşəqqətlə, dolu göz yaşları ilə yazılmış məktublar, ərizələr, vurulmuş teleqramlar Azərbaycan Parlamentinə, Azərbaycan Xarici İşlər Nazirliyinə gəlməkdə davam edirdi.

Gəlin həmin ürək ağrıdıcı sənədlərdən bir neçəsi ilə tanış olaq. Həmin sənədlərdən biri 29 yanvar 1919-cu il tarixdə İrəvan quberniyasının Vedibasar və Məlistan müsəlmanlarının müvəkkili Məhərrəm Əliyevin

Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə göndərdiyi məktubdur. M.Əliyev məktubda yazırdı: "...yanvar ayının 26-27-də (1919-cu il F. C.) polkovnik Doluxanovun başçılığı ilə ermənilərin "Vanslar" və "Sosunlar" adlandırdıqları silahlı dəstələri Vendibasar rayonunun Qaraxaç, Qadılı, Seyid Kətanlu, Yuxarı Qarabağ, Ağasıbəyli, Dəhnəz və Şahablı kəndlərinə hücum edərək zəbt etdilər. Ermənilər bu kəndlərdə müsəlmanları qırmamışdan qabaq bir neçə yüz ərli qadınları və qızları əsir alırlar.

Bu adamların azad olması üçün müsəlmanlar İrəvana nümayəndə göndərirlər ki, qadınları azad etsinlər. Ermənistan hökuməti bu qadınları azad edib öz yerlərinə qaytarmağı söz versələr də, sözlərinə əməl etmirlər.

Məhərrəm Əliyev məktubunun axırında Azərbaycan hökumətindən qadınların azad olunması və müsəlman kəndlərinə dəyən ziyanın ödənilməsi üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırılmasını xahiş etmişdir.

Qeyd etdiyimiz kimi, Naxçıvan bölgəsində Zəngəzur qəzasına qaçan Andranik öz quldur dəstəsi ilə Ordubad qəzasının bir çox bölgələrin: Tivi, Bist, Mürgüd, Nəsirvaz, Düylün, Əylis, Gənzə və s. kəndlərinə hücum edərək yandırmış, qarət edib, əhalinin çox hissəsini qırmışdır.

Ermənilərin bu təcavüzü ilə bağlı Azərbaycanın DP-nın Naxçıvandakı müvəkkili Səməd bəy Cəmilinsiki 20 mart 1919-cu il tarixdə Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda yazırdı: "...Martın 19-da ermənilərin nizami qoşunları bizim üzərimizə üç tərəfdən çox güclü hücuma başlamışlar. Birincisi böyük Vedi, ikincisi Tivi kəndinə, üçüncüsü Ordubad tərəfdən. Xahiş edirəm bu barədə vəziyyəti bizim hökumətimizə çatdırasınız".

1919-cu ilin axırlarından başlayaraq 1920-ci ilin iyul ayına kimi ermənilər Qərbi Azərbaycanın, Zəngəzur qəzasının, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrinin demək olar ki, əksər kəndlərinə təcavüz kimi hücum etmiş, yandırmış, Azərbaycan əhalisinin xeyli hissəsini qıraraq məhv etmiş, əhalinin bir qismi isə öz yurdlarını, ocaqlarını tərk etməli olmuşdur.

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı güc işlətmək siyasəti hər an da olsun belə kəsilmir, hərdən səngisə də sonra daha yeni qəddarlıqla təkrar olunurdu.

Azərbaycan Dövlət Tarix Arxivində və Naxçıvan MR Dövlət Arxivində mühafizə olunan işlərdəki məktublar, teleqramlar, məlumatlar və komissiyanın istintaq protokollarında bunlar öz əksini tapıb.

Həmin sənədlərdən biri olan 3 dekabr 1919-cu il tarixli teleqramda yazılır: "Bakı. Parlamentə. Axundzadə Mirzə Sadıxa. Zəngəzurdakı qanlı hadisələr təkrarən başladı. Ermənilər tərəfindən Çaylı və Oxçu kəndlərində 900 müsəlman qətlə yetirildi. İçində şagirdlərlə birlikdə məscid bombardman nəticəsində dağıdılmışdır. Ölənlərdən 400 qadın və uşaq tikə-tikə edilmişdir. Bu dəqiqə Zəngəzur qanlı hadisələr meydanıdır. Qazı Behcat".

1919-cu ilin iki ayı müddətində ermənilərin Qərbi Azərbaycanda dağıtdığı kəndlərin siyahısına da nəzər yetirək:

"Eçmiədzin qəzasında: Hacılar, Molla Dursun, Tors, Qurakomlu, Aca-Qala, Kirannı, Kərəmli, Yarlı, Patrınca, Ucan, Kövş, Avan, Qaracalar, Maqda, Diyən, Talış Əkərək, Baxçacıq, Karvansara, Yaşıl, Yuxarı Ağcaqala, Aşağı Ağcaqala, Yuxari Qaraqonmaz, Aşağı Qaraqonmaz, Eşnək, Mehriban, Çıxadcı, Ərind, Talın, Pir Maqək, Pir Tikan, Aralıx, Aqançı, Quludərviş, Quytul, Yerqov, Qoşa Bulaq, Kotanlı, Persi, Ənirsək, Uşu, Kiçik kənd, Naçravan, Təkiyə, Parna, Zeynal bulağı, Zeyvə, Qulu bəy, Qulu bəy-2, Aca arx, Kərim arx, Canfidə, İqdəli, Urmudlu, Molla Bədəl, Quzuvənd, Türkmənli, Kolanlı, Səfiabad, Qəmərli, Qarğabazar, Yuxarı Qorxun, Aşağı Korxun. Sürməli qəzasında: Ədci, Oba, Küllük, Əhməmməd, Qasımca, Ərəpkirli, Quz ovudan, Sarı Çoban, Ağavər, Sürməli, Qaçanlı, Nəcəfli, Amarat, Mələkli, İğdır Mava, Sultanabad, Ər Hacı-1, Ər Hacı-2, Ər Hacı-3, Qaragünlü, Zülfiqar, Hüseyin kəndi, Səfər Qulu, Şiräçi, Qeycəli, Xaraba Əlican, Bayat, Hacılar, Cənnətabad, Aşağı Diçə, Yuxarı Diçə, Həsən xan, Qırış bağ, Öküzlü, Qızıl Zakir, Qurbaklı, Dara kəndi, Parpı, Təpə başı. İrəvan qəzasında: Zəngibasardan başqa hamısı məhv edilib" [3, v 42-46].

Bu sənəd Ordubad qəza rəisi Tahirovun Naxçıvan general qubernatoruna 6 yanvar 1920-ci il tarixli teleqramıdır. Tahirov göndərdiyi teleqramında yazırdı: "Üç gün bundan əvvəl Karçivan kəndində ermənilər 100 nəfərdən çox müsəlmanı bir yerə yığıb, qadın və uşaqları vəhşicəsinə qətlə yetirmişlər" [3, v.16].

Bu sənəd isə 7 yanvar 1920-ci il tarixdə Böyük Vedidən Naxçıvan hərbi müdafiə komandiri Kəlbalı xan Naxçıvanskiyə vurulan teleqramdır. Həmin teleqramda Vedi mahalının bəylərindən olan Vedi qırmızı taborunun komandiri olmuş Abasqulu Şadliniski yazırdı: "Toxmaqlı kənd sakinləri erməni müqaviləsinə inanaraq öz yurdlarına köçdülər. Ancaq ermənilərin orda yerləşən nizami qoşun hissələri tərəfindən onlar kəsilib doğrandılar. Məlumat üçün bu vəziyyəti sizə çatdırıram".

Bu teleqram isə 22 yanvar 1920-ci il tarixdə Cəbrayıldan Bakıya, Parlamentə vurulan teleqramdır.

Həmin teleqramda yazılır: "19 yanvar, səhər Zəngəzur kəndinin erməni hissələri bütün cəbhə boyunca Mchaqandan Qaladərəsinə kimi top və pulemyotlarla müsəlmanlara atəş açıb 6 kənd məhv ediblər, 9-u yanır. Ermənilər qadın uşaq demədən müsəlmanları amansızcasına qətlə yetirir. Müsəlmanların onlara qarşı çıxmağa qüvvələri yoxdur və ancaq mülklərini ermənilərə qoyub qaçmaqla canlarını qurtarırlar. Bu hadisə haqqında hökumət qəti tədbir görməlidir. Cəbrayıl kənd məktəbinin direktoru Axundov".

23 yanvar 1920-ci il tarixdə Azərbaycan Parlamentinin üzvü Cəlil Sultanovun ermənilərin Azərbaycanlılara qarşı soyqırımla əlaqədar vurduğu teleqramda isə yazırdı: "Bu gecə qəza rəisi ilə birlikdə Cəbrayıla gəlmişəm. Zəngəzurdan gəlmiş, açıq havada on minlərlə qadın və uşaq, qaçqın gördüm. Zəngəzur qəzası İrəvandan gəlmiş, özü ilə 10 top gətirmiş nizami qoşunlar tərəfindən məhv edilib. Vuruşan ermənilərin sayı 10 mindən artıqdır. Erməni meyidlərinin içərisində ingilis əsgərlərinin meyidləri tapılıb. Top və pulemyotlarını Xocaqan və Zabux arasındakı bütün təpələrdə yerləşdirib. Axara çayının sağ tərəfindəki bütün üçüncü sahəsinin məhv ediblər. Bu gün isə Zəngəzur rayonunun 4-cü sahəsini mühasirəyə alaraq, onları məhv edirlər. Hökumət yoxdur, müqavimət göstərmək və döyüşmək üçün vəsait yoxdur. Əhali artıq hökumətdən ümidini kəsərək, kömək üçün bütün Azərbaycan xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Cəbrayıla Zəngəzur tərəfdən hücum başlayacaq. Məqsəd Qarabağ erməniləri ilə birləşib Naxçıvanı ayırmaq və Naxçıvanla Qarabağı məhv etməkdir. Qarabağın dağlıq bölgəsində üsyan hazırlanır. Hakimiyyətin hərəkətsizliyi Qarabağın və Zəngəzurun məhv olmasına səbəb oldu. Kağız üzərindəki etirazlara, xain Xatisovun əməllərinə, Azərbaycan vətəndaşı olan 200 mindən artıq müsəlmanı qətlə yetirən ermənilərin əməllərinə son qoyulmalıdır.

Heç olmasa Şuşa, Qarabağ, Cəbrayıl qəzalarını qurtarmaq üçün qəti tədbirlər görməyinizi xahiş edirəm. Hər dəqiqə qiymətlidir. Yavaş hərəkət etmək cinayətdir və xalq qarşısında xəyanətdir. Hərbi nazirin olması vacibdir.

Parlamentin üzvü Cəlil Sultanov.

23 yanvar 1920-ci il tarixdə Cəbrayıl qəzasının əhalisi adından müəllim Axund Hüseynzadə Parlamentin ünvanına göndərdiyi teleqramda isə belə yazırdı: "Qətlə yetirilmiş Zəngəzur müsəlmanlarının ah-nalələri dağlar, dərələr, arasında qaldı, heç yerə çatmadı. Onların köməyinə heç kəs gəlmədi. Uşaqların başları kəsilmiş və qanlı bədənləri yerdə qalmışdır. Zəngəzur kəndində müqavimət göstərmək üçün çox az kişi var, kənardan da kömək gəlməsinə heç bir ümid yoxdur. Erməni qüvvələrinin sayı 10 mindən çoxdur və daim Ararat tərəfdən yeni qüvvələr gəlir. Onların ondan çoxu və 60-a yaxın pulemyotu var. Topların səsi Cəbrayıla kimi gəlib çatıb. On minlərlə qaçqın Cəbrayıl qəzasında məskunlaşıb. Dördüncü gündür ki, hökumətdən heç bir kömək gəlmir. Müsəlmançılıq bundadırmı: Azərbaycandakı bütün müsəlmanlara müraciət edirik və vəhşicəsinə öldürülmüş uşaqlara dərindən kədərləndiyimizi bildiririk. Onların ruhları rahatlıq tapsa da sizə müraciət edərək: "Kömək edin, kömək edin" deyirlər. Ermənilər Zəngəzuru dağıtdıqdan sonra öz qüvvələrini Cəbrayıla, Şuşaya, Cavanşirə doğru yönəltməyi planlaşdırırlar. Beləliklə, onlar bu qəzaların ermənilərı ilə birləşərək bizi Naxçıvandan ayıracaqlar. Əgər hökumət qəti tədbirlər görməsə müsəlmanların işi bitdi".

Ermənilərin Zəngəzur qəzasında törətdikləri vəhşilikləri haqda Azərbaycan Respublikası Xarici işlər Naziri F.X. Xoyski Ermənistanın Xarici İşlər Nazirinə 26 fevral 1920-ci il tarixdə göndərdiyi məktubda yazırdı: "Sizin 1029 saylı məktubunuza cavab olaraq bildirirəm ki, hökumətimiz 23 noyabr razılaşmasına tamamilə riayət edir və heç bir hücum əməliyyatı həyata keçirmək fikrində deyil. Mən sizə bildirmişdim ki, 23 müqaviləsi imzalandıqdan sonra Ermənistan qoşunları tərəfindən Zəngəzur qəzasında 40-a yaxın müsəlman kəndi dağıdılmışdır. 19 yanvarda isə Ermənistan hökumətinin ordusu silahlı quldur dəstələri ilə birlikdə Şuşa qəzası istiqamətində hücuma keçərək qarşılarına çıxan bütün müsəlman kəndlərini dağıdıblar. Kəndlərin dağıdılmasının qarşısını almaq, on minlərlə insanın həyatını və əmlakını xilas etmək, 23 noyabr sazişinə riayət olunmasını təmin etmək məqsədi ilə hökumətimiz azsaylı dəstəni göndərib və erməni qoşunlarının planlarının həyata keçirilməsinin qarşısını alıb. No 1258.

Xarici İşlər Naziri (imza) Xoyski.

1920-ci ilin mart ayının 21-də 10 min nəfərdən ibarət olan erməni daşnakları Ordubad qəzasının Düyülün, Vənənd, Vələvər, Xanağa, Beksar, Ağrı, Dizə, Unus, Əylis, Kilit, Anabad, Gənzə və s. Kəndlərinə hücum edərək yandırmış, qarət edib əhalinin çox hissəsini qırmış və Ordubad şəhərini mühasirə etmişlər. Ordubad ətrafında gedən döyüşlərdə ermənilər tərəfindən çox itkilər olmuşdur, lakin ermənilər şəhərə giri bilməmişdir. Arxiv sənədlərdən məlum olur ki, ermənilərin XX yüzillikdə İrəvan quberniyasında yaşayan müsəlman kəndlərinə, Naxçıvan, Çərur-Dərələyəz, Ordubad, Zəngəzur qəzalarına təcavüzü müdafiəsiz dinc əhalini qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır.

1918-1920-ci illərdə erməni daşnakları Şərurda 76, Vendibasarda 118, Zəngəzurda 115, Dərələyəzdə 74, Əlincəçay və Simançay boyunca 50-dən artıq kəndi yerlə yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar.

Onu da qeyd etmək istəyirəm ki, əldə olan məlumata görə, 1918-1920-ci illərdə təkcə Naxçıvan bölgəsində 73727 nəfər azərbaycanlı erməni daşnakları tərəfindən ən vəhşi formada öldürülmüşdür [6, s.41].

XX yüzillikdə erməni daşnakları tərəfindən qanı axıdılan minlərlə dinc insanın, uşağın, qadının, qocaların ruhları intiqam gününü gözləyir. Sizləri əmin edirik ki, o gün hökmən gələcək.

ƏDƏBİYYAT

1. Cəfərov, F. Erməni vəhşiliyi. Bakı: Nurlan, 2009. 186 s.
2. Nax. MRDA. F.26 m.siy 1. iş, 24
3. Nax. MRDA. F.314 m.siy 5 a. iş, 73,74
4. "Borba" qəzeti 17 avqust 1918-ci il
5. Əliyev, M.B. Qanlı günlərimiz. Azərnəşr, 1993. 142 s.
6. Nax. MRDA. F.582. Siy 1, iş, 48
7. "Naxçıvan" jurnalı. №5, 2001

ABSTRACT

Fakhraddin JAFAROV, Nadir HUSEYNBAYLI

ARMENIAN ATROCITIES IN WESTERN AZERBAIJAN, THE NAKHCHIVAN REGIONS, AND THE ZANGEZUR DISTRICT IN THE 20TH CENTURY: THROUGH THE LANGUAGE OF DOCUMENTS

The article discusses the deportation and genocide committed by Armenians against Azerbaijanis. These issues continue to attract serious interest as one of the insufficiently studied pages of Azerbaijani history and require extensive research. The examined documents show that, from the beginning of the 20th century until the early 1990s, Armenians carried out ethnic cleansing, genocide, and acts of aggression not only in many regions of Azerbaijan, but also in the Iravan Governorate and the districts of Zangezur, Nakhchivan, Sharur-Daralayaz, and Ordubad. In particular, the grave crimes committed by Armenians in Western Azerbaijan, Zangezur, Sharur-Daralayaz, and Ordubad during 1918–1920 were especially horrific.

Keywords: *Azerbaijan, Heydar Aliyev, people, Muslim, genocide, aggression*

XX ƏSRİN BAŞLANĞICINDA İRƏVAN BÖLGƏSİNDƏ MÖVCUD DURUM VƏ DƏYİŞİKLİKLƏR

Zamin ƏLİYEV
zaminalisoy@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları daha da güclənmişdi. Ermənilər Qərbi Azərbaycan əraziləri hesabına Cənubi Qafqazda erməni dövləti yaratmaq istəyirdilər. İrəvan bölgəsi ermənilərin əsas hədəflərindən biri idi. Bu şəhər Azərbaycanın üçüncü ən böyük şəhəri hesab olunurdu. Birinci Dünya müharibəsi dövründə Osmanlı dövlətinə qarşı Rusiya imperiyasını dəstəkləyən və onun tərəfində vuruşan ermənilər bu fəaliyyətlərdə fəal iştirak edirdilər. Onlar Rusiya imperiyasının dəstəyi ilə İrəvan bölgəsinin yerli əhalisini etnik təmizləmə yolu ilə məhv edərək burada erməni dövləti qurmağa çalışırdılar. Brest-Litovsk müqaviləsindən sonra Rusiya imperiyası bölgədən geri çəkildikdə, ermənilər rus ordusu ilə birlikdə Azərbaycana gələrək burada soyqırımı törətmişdilər.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, deportasiya, ərazi iddiaları, terrorizm*

XIX əsrin I yarısından etibarən çar Rusiyasının ermənipərəst siyasət yürütməsinə baxmayaraq, quberniya mərkəzi olan İrəvan şəhərində azərbaycanlılar üstünlük təşkil edirdi. Bütün qeyri-azərbaycanlı (erməni və digər xristianlar nəzərdə tutulur) etnik qrupların ümumi sayı azərbaycanlıların sayından az idi. Lakin ermənilərin bu bölgəyə gətirilməsi hesabına bir neçə il sonra əhalinin sayındakı nisbət dəyişdi. Qeyri-azərbaycanlı əhalinin sayı az da olsa, artdı. Bununla belə, xristianlar yenə də azərbaycanlılarla müqayisədə sayca üstünlük təşkil edə bilmədilər.

Ermənilər bütün Qərbi Azərbaycan ərazilərində, xüsusən İrəvan quberniyasında yerli azərbaycanlıları genosidə, terrora uğradaraq burada dövlət təsis etmək istəyirdilər. Məhz bu səbəbdən də XX yüzilliyin ilk on ilində baş vermiş soyqırımların əsas səbəbkarı (Bu soyqırımlarda rusların ermənilərə verdiyi dəstək gözardı edilməməlidir) ermənilər olmuşdur.

M.S.Ordubadi bu vəhşiliklərin ən əsas səbəbi kimi ermənilərin Azərbaycan ərazilərini ələ keçirərək burada dövlət yaratmaq həvəsində olduqlarını göstərmişdi. Görkəmli yazıçı onların Osmanlı Türkiyəsində İngiltərə və Fransanın dəstəyi ilə dövlət quramağın qeyri-mümkün olduğunu gördükdən sonra, Qərbi Azərbaycan ərazilərinə yönəldiklərini, "Ermənistanı diriltmək istədiklərini", buna nail olmaq üçün soyqırıma və terrora əl atdıqlarını sübut edir. Mənfur ermənilər bölgənin yerli əhalisini minillərlə yaşadıqları torpaqlardan, vətənlərindən qovub yerlərində səltənət qurmaq, öz istəklərinə çatmaq, terror törədərək muxtariyyət əldə etmək xəyalları"nı reallaşdırmaq istəyirdilər.

M.S.Ordubadi "Qanlı illər" kitabında 1905-1906-cı illərdə "İrəvan hadisələri" başlıqlı yazıda mənfur düşmənlərimizin torpaq iddialarını gerçəkləşdirmək üçün bölgədə yaşayan avtoxton azərbaycanlılara qarşı terrora, qətliyamlara əl atdıqlarını faktlarla ortaya qoymuşdur. Ordubadi bölgədə ermənilərin toqquşma üçün səylə hazırlaşdıqlarını, bütün bunlara baxmayaraq, azərbaycanlıların milli hisslərinin oyanmadığını, ermənilərin böyükdən kiçiyə hər kəsi qətlə yetirdikləri halda azərbaycanlıların ermənilər öz dükanlarında sadəlövhcəsinə qoruduqlarını, göstərirdi. Buradan məlum olur ki, sivil camaatı qıran xüsusi mərkəzlərdən idarə olunan erməni terror dəstələri İrəvan bölgəsinin yerli əhalisini etnik təmizləmə vasitəsilə məhv edərək buranı ələ keçirib dövlət yaratmaq istəyirdilər.

Bununla da, Qərbi Azərbaycan ərazilərində siyasi təsisat əldə etmək üçün başlanan qırğınlar ermənilər məqsədlərinə bir addım da yaxınlaşdırdı. Ermənilərin əsas hədəfi ilk mərhələdə İrəvan şəhərini və onun ətraf bölgələrini azərbaycanlılardan qoparmaq,sonraki mərhələdə isə Naxçıvana istiqamətinə gedən yolda müsəlmanların yaşadıqları kəndləri viran etmək, sonra isə Zəngəzur bölgəsində yerli əhalini qıraraq buranı ələ keçirmək idi [1, s.96].

İrəvanda etnik təmizləmə mayın 23-də başlanmışdı. Bu qırğınlar bir neçə gün sonra dayandırılsa da, onlar ətraf Azərbaycan yaşayış yerlərinə yeni hücumlar üçün hazırlaşırdılar.

Alqimantas Lekis əsaslı olaraq erməni dövlətinin varlığının şübhə doğurduğunu bildirmiş və vurğulayır ki, bu dövlət haqqında mənbələrdə yalnız, miflər mövcuddur. Ermənilər "Böyük Ermənistan"a

təkcə Qafqazı deyil, Türkiyə və İranın böyük mərkəzi ərazilərini də daxil edirlər. O qeyd edir ki, XX əsrin əvvəllərindən bu toplum "öz" ərazilərinə iddiya ilə çıxış etməyə və burada erməni dövlətinin yarandığını ciddi cəhtlə əsaslandırmağa çalışırlar. Bütün bu proseslər yerli-azərbaycanlıları, gürcüləri və digər xalqları ciddi şəkildə narahat etməyə başlamışdı [3, s.81]. Tədqiqatçı alim doğru olaraq vurğulayır ki, yerli əhalinin ata babaları Çar Rusiyasının onları Osmanlı Türkiyəsi və Qacarlar imperiyalarının ərazilərindən köçürdüklərinin onların yurdlarında məskunlaşdırdıqlarınına şahidlik etmişdilər. Bu dövrdə Çar Rusiyasının məmurları bu "əzilmiş", "yazıq" insanlara "müvəqqəti" kömək edilməsini bölgənin yerli əhalisinə izah edirdi.

Tədqiqatçılarımız (N. Mustafa) arxiv materialları və erməni müəlliflərin özlərinin qələmə aldığı yazılara istinad edərək İrəvan bölgəsində ermənilərin dörd mərhələdə qırğınlar həyata keçirdiklərini təsdiq edir. Erməni ideoloqları, din xadimləri və siyasi partiyaların mənsubları Böyük Ermənistan"ın ilk təməlini qədim Azərbaycan ərazisi olan İrəvan xanlığında qoymağa başladılar. Osmanlı ərazilərindən Cənubi Qafqaza gətirilən köçkün ermənilər (əksəriyyəti silahlı quldurlar) azərbaycanlıları öz dədə-baba torpaqlarından qovmağa, kütləvi qətliamlar törətməyə, "təmizlənmiş" ərazilərə ermənilər köçürməyə başlamışdılar.

İrəvan ərazisindəki qətliamlar Gəncədə "Difai partiyası" yaradılmasından sonra dayandırıldı. "İrəvan şəhərində XX əsrin ilk başlarında azərbaycanlıların sayı erməni əhalisinin sayı ilə eyni idi (12,5 min nəfər). Lakin ermənilər tərəfindən təşkil edilən kütləvi qırğından sonra əhalinin etnik tərkibi ermənilərin xeyrinə dəyişdi. İrəvandan imkanlı azərbaycanlıların köçməsi, bölgədə azərbaycanlıların mövqeyini zəiflətdi" [4].

Tədqiqatlar zamanı məlum oldu ki, 1905-1906-cı illərdə 10 min nəfərdən artıq heyyəti olan erməni hərbi qüvvələri başqa ərazilərdə olduğu kimi, İrəvanda da saysız-hesabsız yaşayış yerlərini dağıtdılar, yerli əhalini isə kütləvi şəkildə qətlə yetirdilər. Sağ qalan əhalinin xeyli hissəsi öz el-obalarınından didərgin düşdülər.

Azərbaycanlıların mənfur düşmənə qarşı müqaviməti artır. Onlar milli birlik sayəsində düşmənə sarsıdıcı zərbələr vururdular. Ermənilər bütün dünyada dezinformasiya ilə məşğul olub, belə bir fikir formalaşdırırdılar ki, guya Azərbaycan ərazilərində müsəlmanlar ermənilərı qırır, bir sözlə, ermənilə özlərini bütün hadisələrin bir başa təşkilatçısı kimi deyil, qurbanları kimi təqdim edirdilər. Svyataxovski Cənubi Qafqazda o dövrdə baş verənlərlə əlaqədar yazır ki, ermənilərin səssizcə boyununu qəssaba uzadan zərərsiz quzular olduqları mənbələrlə təsdiq edilmir. Ermənilər iddia edir ki, baş vermiş hadisələrdən ən çox onlar ziyan çəkmişdir, lakin tarixi mənbələr bu iddianı təkzib edir [5, s.70]. Tədqiqatlardan məlum olur ki, onlar daha çox İrəvan quberniyasında qətliam edərək öz çirkin məqsədlərinə nail olmaq yolunda bir qədər irəliləmiş oldular.

Q.Marxuliya qeyd edir ki, ermənilərin "etnik və toponimik islahatları" tarixi gərçəklikləri ört-bastır etmək iqtidarında deyildir. Ermənilər əzəli Azərbaycan və gürcü ərazilərində yer adlarını təhrif edərək ermənilərinki kimi göstərməyə cəhd etmişlər. Tədqiqatçı Azərbaycanın qədim torpağı olani İrəvanı ermənileşdirilmə tarixindən bəhs edərək, şəhərin XVI əsrdə Səfəvi hökmdarı Şah İsmayıl Xətayi dövründə qala kimi yarandığını, İrəvan adının türk mənşəli söz olduğunu bildirmişdir. O qeyd edir ki: *"XIX əsrin sonlarında azərbaycanlı əhalinin sayına görə Bakı və Yelizavetpol (Gəncə) quberniyasından sonra Qafqazda üçüncü yer tuturdu. XX əsrin əvvəllərindəki hadisələr göstərdi ki, bu şərait Azərbaycan xalqının faciəsinin davam etməsinin əsas səbəblərindən birinə çevrildi"* [9].

XIX əsrin I yarısında olduğu kimi, həmin əsrin ikinci yarısı və XX əsrin əvvəlllərində də Rus Çarlığı ermənilərı bu ərazilərə köçürməklə İrəvan bölgəsinin etnodemoqrafik mənzərəsini özlərinin xeyrinə dəyişdirmişdilər. Bölgədə xidmət edən rus hökumət nümayəndələri yenə də mərkəzə verdikləri məlumatlarda erməni mənşəlli insanların sayını olduğundan daha artıq göstərməyə çalışırdılar. Göründüyü kimi, 1829-1916-cı illərdə İrəvan bölgəsində türk mənşəlli əhali 4,5 dəfə artdığı halda, rusların köçürmə siyasəti sayəsində gəlmə ermənilərin sayı 8 dəfə artmışdır. Erməni mənşəlli əhalinin artması ilə türk mənşəlli əhalinin sayı azalmışdır. Abqar İoniyan qeyd edir ki, İrəvan şəhərinin dörddə bir hissəsinin ermənilər, daha çox hissəsini azərbaycanlılar təşkil edirdi" [6, s.23]. Buradan aydın olduğu kimi, erməni mənşəlli əhalinin sayı ilə bağlı onların öz tədqiqatçılarının əsərlərində də ziddiyyətli məlumatlar mövcuddur.

Erməni müəlliflərin nəşr etdirdikləri 1865-ci ilə aid İrəvan şəhərinin demoqrafiyasına dair bəzi statistik göstəricilər də yuxarıda qeyd edilmiş rəqəmlərin həqiqəti əks etdirmədiyini və onların süni şəkildə Azərbaycan türklərinin sayını az göstərmək istəmələri ilə bağlı olmuşdur. Ermənilərin Cənubi Qafqazda siyasi təsisat əldə etmək cəhtləri hər nəqədər XIX əsrdən başlasada bu proses 1920-ci il 28 may tarixinə qədər davam etmişdir. Bu baxımdan 1917-ci il fevral inqilabından sonra Cənubi Qafqazda gedən proseslərə diqqət yetirməkdə yarar var.

Birinci Dünya müharibəsi dövründə Rusiyada baş vermiş inqilab nəticəsində Çar hakimiyyəti devrilmiş oldu. Çarlığın çöküşü imperiyanın ucqarlarında böyük sevinclə qarşılandı. Müstəmləkə əsarəti altında yaşayan xalqlar öz müqəddəratını təyin etmək üçün hərəkətə keçdilər. Cənubi Qafqaza zamanında ruslar tərəfindən köçürülən ermənilər də bu hərəkətə qoşulmuş oldular. 1917-ci il Fevral hadisələrindən sonra Rusiyada

hakimiyyətə gələn Müvəqqəti hökumət 1917-ci il martın 3-də Cənubi Qafqazda hakimiyyəti yeni orqana Xüsusi Zaqafqaziya Komitəsinə (XZK) verdi. Bu hökumət Cənubi Qafqaz xalqları arasında nüfuz qazana bilmədi. Eyni zamanda siyasi partiyalar arasında fikir ayrılığının mövcud olması Zaqafqaziya Komitəsinin süqutunu daha da sürətləndirdi. 25 oktyabr 1917-ci ildə Petroqradda bolşeviklərin silahlı üsyanı nəticəsində Müvəqqəti hökumət devrildi. 25 oktyabr 1917-ci ildə keçirilən II Sovetlər qurultayında Leninin başçılığı ilə Sovet hakimiyyətinin əsası qoyuldu. Bu dövrdə Cənubi Qafqaz xalqları Rusiya Sovet Federativ Sosialist Respublikasına tabe olmaqdan imtina edərək Zaqafqaziya Komissarlığı yaratdılar. Komisarlıq da öz növbəsində 1918-ci il 23 fevralda qanunverici orqan olan Zaqafqaziya Seymini toplayır. Daha sonra 26 mart 1918-ci ildə seym Zaqafqaziya komissarlığını qəbul edib Müvəqqəti Zaqafqaziya hökumətini yaratdı və 27 gün sonra isə Seym Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratdı. Bu hökumət də, fraksiyalar arasında yaranan fikir ayrılıqları səbəbindən uzun sürmədi və parçalandı. Cənubi Qafqazda üç əsas etnik qrup olan azərbaycanlılar, gürcülər və ermənilər ayrılaraq respublika quruluşlu dövlət yaratdılar.

Göründüyü kimi, XIX əsrdə Çar Rusiyası tərəfindən Qərbi Azərbaycan ərazilərini göçürülən, gətirilən Ermənilər azərbaycanlıları etnik təmizləmə və terrola bu ərazilərdən çıxararaq Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq erməni dövlətini yaratmış və bölgənin üçüncü əsas etnik qruplarından birinə çevrilmişdir. Ermənilər dövlət təsisatı yarada bilsələr də siyasi mərkəz rolunu oynaya biləcək şəhərləri yox idi. Və onlar Osmanlıdan Gümrünü ala bilməyəcəklərini anladıqları üçün Azərbaycan Xalq Cümhuriyyətindən mərkəz olaraq üçüncü ən böyük şəhərimiz olan İrəvan şəhərini tələb etdilər. Bu şəhərin ermənilərə verilməsi hər nə qədər dövrün konyokturasından asılı olsa da, danılmaz tarixi səhv idi.

Nəticə etibarı ilə, istər tərəfsiz mənbələr olsun, istərsə də erməni mənbələrinin ziddiyətli göstəriciləri olsun bir daha sübut edir ki, qədim və əzəli türk yurdu olan İrəvan regionu (sonralar xanlıq, qəza, quberniya inzibati vahidi kimi) azərbaycanlıların yaşadığı ərazi olmuşdur. Buna baxmayaraq, dövrün ictimai siyasi şəraitindən və rusların xristianlıq təsübkeşliyi amilindən istifadə edən ermənilər, Osmanlı -Türkiyəsində muxtariyyəti ideyasının puç olmasından sonra Azərbaycanın qədim əraziləri olan İrəvan bölgəsində öz ərazi iddialarının və məkrli dövlətləşmək fikirlərini gərçəkləşdirməyə başlamışlar. Bu idea üçün ermənilər Rusiya Çarlığının Xristianpərəst-ermənipərəst dövlət məmurları və erməni elitasının köməyi ilə dövlətçilik layihəsini gündəmə gətirmiş, qədim Azərbaycan ərazilərində "Erməni vilayəti"nin yaranmasına nail olmuş, ermənilərin Şərqi Anadoludan və Qacar imperiyasının daxili ərazilərindən Qərbi Azərbaycan ərazilərinə, ən əsası da İrəvan bölgəsinə köçürülməsilə bölgənin etnik mənzərəsini özlərinin xeyirlərinə dəyişdirmiş, terror, soyqırımı, etnik təmizləmə siyasəti ilə İrəvan bölgəsindən aborigen azərbaycanlıları sürgün etmiş və bu əraziləri ermənləşdirməyə və xristianlaşdırmağa çalışmışdılar. XX əsrin əvvəllərində ermənilər artıq bəhs olunan ərazidə say etibarı ilə üstünlüyü ələ keçirmiş və öz ərazi iddialarını və dövlətçilik ideyalarını gerçəkləşdirmək üçün fürsət axtarmışlar.

ƏDƏBİYYAT

1. Ordubadi, M.S. Qanlı illər / M.S.Ordubadi. – Bakı: Qafqaz, – 2007. – 184 s.
2. Arzumanlı, V.M. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq / V.Arzumanlı, N.Mustafa. – Bakı: Qartal, – 1998. – 280 s.
3. Лекис, П. Переселение народов на Кавказе XX в./ П.Лекис. – Баку: Элм, – 1990. – 230 с.
4. Мустафа, Н. Армянские преступления: геноцид, депортация, террор: Резня в Иреване: [Электронный ресурс] // URL: https:genosid.peslib.az ruf1-6 html.
5. Svyetochoeski, T. Müslüman cemattin ulusal kimlige rus Azerbaycanı; 1905-1920 / T.Svyetochoeski. – İstanbul Bağlam Yayıncılık, – 1988. – 295 s.
6. Иоаннисян, А.Г. Армяно-русские отношения в первой трети XVIII века / – Ереван: Издательство АН Армянской ССР, – 1964. – Том 2. Часть I. – 230 с.
7. Гасымлы, М. Анатолия и Южный Кавказ в 1724-1920-е гг.: в поисках исторической истины / М.Гасымлы. – Москва: Инсан, – 2014. – 528 с.
8. Гаджиев, И. Армянская область – мина замедленного действия // İRS –Наследие. – 2011. – №6 (54), – с.38-42.
9. Мархулия, Г. Столица Армении-Азербайджанский город Иреван: [Электронный ресурс] // URL: https: www//1905az/ru
10. https://science.gov.az
11. https://zengezur.com

ABSTRACT

Zamin ALİYEV

THE EXITING SITUATION AND CHANGES IN THE IREVAN REGION AT THE BEGINNING OF THE 20TH CENTURY

At the beginning of the 20th century, the claims of Armenians to the territories of Azerbaijan intensified. Armenians wanted to create an Armenian state in the South Caucasus at the expense of the territories of Western Azerbaijan. The Irevan region was one of the main targets of the Armenians. This city was the third largest city in Azerbaijan. Armenians who fought and supported the Russian Empire against the Ottomans during the First World War were active in this work. With the support of the Russian Empire, they wanted to destroy the local population of the Yerevan region through ethnic cleansing and create an Armenian state here. When the Russian Empire withdrew after signing the Treaty of Brest Litovsk, Armenians came to Azerbaijan together with the Russian army and committed genocide there.

Keywords: *West Azerbaijan, Iravan, deportation, territorial claims, terrorism*

QƏRBİ AZƏRBAYCAN İCMASI VƏ ONUN QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASININ REALLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

Mehriban SULTAN
mehribansultanova@ndu.edu.az
ORCID iD: 0009-0003-9739-7891
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın qədim türk yurdu olduğu, burada yaşayan azərbaycanlıların müxtəlif dövrlərdə deportasiya və soyqırımına məruz qaldığı qeyd olunur. Bildirilir ki, 2022-ci il avqustun 3-də yaradılan Qərbi Azərbaycan İcması deportasiya olunmuş azərbaycanlıların hüquqlarının bərpası və onların tarixi torpaqlarına qayıdışının təmin olunması istiqamətində fəaliyyət göstərir. Məqalədə İcmanın beynəlxalq səviyyədə apardığı işlərdən, "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nın hazırlanmasından və bu sənədin beynəlxalq hüquqa əsaslanmasından bəhs edilir. Həmçinin vurğulanır ki, İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər Qərbi azərbaycanlıların geri qayıdışına zəmin yaratmışdır. Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin də bu istiqamətdə mühüm əhəmiyyət daşıdığı qeyd edilir.

Açar sözlər: *Qərbi Azərbaycan, Qərbi Azərbaycan İcması, deportasiya, qayıdış konsepsiyası, beynəlxalq hüquq, tarixi ədalət.*

Giriş

Tarixi faktlar onu deməyə əsas verir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları, buranın əzəli sakinləri isə Azərbaycan türkləri olub, ermənilər isə xaricdən bu ərazilərə köçürülüb. Burada yaşayan azərbaycanlılar zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə mənfur və nankor ermənilər tərəfindən deportasiya olunublar. 1988-1991-ci illərdə Ermənistan dövləti keçmiş SSRİ hökumətinin havadarlığı ilə Qərbi Azərbaycandan 250 mindən artıq azərbaycanlını öz tarixi-etnik torpaqlarından qovub. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırıma məruz qalıb.

Qeyd edək ki, xalqımıza qarşı törədilmiş etnik təmizləmə və deportasiya siyasətinə ilk dəfə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilib, 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalanıb. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, dahi şəxsiyyət ölkə daxilində dövlət siyasətini birbaşa Qərbi Azərbaycan həqiqətlərinin tədqiqi və təbliğinə yönəltməklə yanaşı, həm də erməni vandalizmini hər fürsətində dünya miqyasında ifşa etməyə çalışmış, 1994-cü ildə Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutundakı, 2000-ci ildə Cons Hopkins Vaşinqton Universitetindəki tarixi nitqləri, 2000-ci ildə Türkiyənin dövlət naziri Abdulhaluk Mehmet Çayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı və digər tədbirlərdə mənfur ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı və deportasiya siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır. "Qərbi Azərbaycan" ifadəsini də ilk dəfə məhz Ulu Öndər 1998-ci ildə "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdəki çıxışında işlətmişdir.

Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti və uğurlu diplomatiyası sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyəti tərəfindən qəbul edilməsi sahəsində böyük uğurlar qazanılıb, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Bu bir reallıqdır ki, Prezident cənab İlham Əliyev Qərbi azərbaycanlılar məsələsində daim prinsipial mövqe, siyasi iradə nümayiş etdirmiş, onların hüquqlarının bərpasına, öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstəyini ortaya qoymuşdur. İstanbulda Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə toplantısı (2010), Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyası (2014), Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammiti (2015), Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu (2015), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü (2019), Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə Görüşü (2023) kimi mühüm beynəlxalq

tədbirlərdə bunun şahidi olmuşuq.

Ölkə başçımızın siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız cəmi 44 gündə düşməndən azad edildi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz birliyini və iradəsini, Ordumuzun gücünü dünyaya sübut edən möhtəşəm Qələbə Qarabağ problemini kökündən həll etməklə xalqımızın birmənalı hüququ olan Qərbi Azərbaycana möhtəşəm Qayıdışı üçün də yeni üfüqlər açdı.

Tarixi ədalətin bərpası naminə mübarizə aparan təşkilat və onun konseptual xarakterli çərçivə sənədi – Qərbi Azərbaycana Qayıdış Konsepsiyası.

2022-ci il avqustun 3-də yaradılan Qərbi Azərbaycan İcması (QAİ) 1989-cu il dekabrın 28-də təsis edilmiş "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisi olmaqla tarixi bir missiyaya xidmət etmək məramı ilə fəaliyyətə başlamışdır. İcmanın məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə indiki Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla onların hüquqlarının beynəlxalq müstəvidə bərpası, xalqımızın indiki Ermənistan ərazisində yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınmasıdır. Həmçinin vaxtilə indiki Ermənistan ərazisindəki tarixi ata-baba ocaqlarından zorla deportasiya edilmiş, qovulmuş insanların öz yurdlarına qayıtmaq hüququnun təmin edilməsidir. Bu istiqamətlər, ümumilikdə icmanın strateji yol xəritəsini təşkil edir. İcmanın əslən Qərbi Azərbaycandan olan, tanınmış ictimai-siyasi xadimlər, elm və mədəniyyət adamlarından ibarət rəhbər heyəti bu mühüm hədəflərə çatmaq istiqamətində planlı fəaliyyət göstərir.

İcma qısa müddətdə Qərbi Azərbaycandan qovulmuş əhalinin adlı siyahısını tərtib etmiş və həmin siyahılar elektron daşıyıcılara köçürülmüşdür. QAİ-nin müraciəti əsasında Azərbaycan Baş Prokurorluğunda Ermənistandan qovularkən ermənilər tərəfindən soydaşlarımıza qarşı törədilən cinayət faktları barədə istintaq işi başlanmışdır. Qərbi Azərbaycan tarixinin, zəngin mədəni irsinin ölkə daxilində öyrənilməsi və təbliği məqsədilə Qərbi Azərbaycan İcmasının Gəncə, Sumqayıt və Goranboy-Naftalan nümayəndəlikləri, Gənclər Təşkilatı yaradılmışdır.

Bu bir reallıqdır ki, tarixi gerçəkliklər xüsusilə də beynəlxalq hüquq müstəvisində fundamental tədqiqatlara söykənən elmi faktlar əsasında öz təsdiqini tapır. Məhz bu prinsip əsas götürülərək Qərbi Azərbaycan həqiqətlərinin sistemli şəkildə tədqiqi, nəşri və təbliği məqsədilə 2023-cü ildə İcmanın tərkibində Elm Komissiyası yaradılıb. QAİ-nin ən əhəmiyyətli fəaliyyət istiqaməti isə Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəviyə çıxarılması, soydaşlarımızın pozulmuş hüquqlarının beynəlxalq hüququn predmetinə çevrilməsi təşkil edir və bu istiqaətdə işlər uğurla davam etdirilir. Belə ki, Avropada yaşayan bütün Qərbi azərbaycanlıları birləşdirmək məqsədi ilə 2022-ci ilin aprel ayında Haaqa şəhərində Qərbi Azərbaycan İcmasının Niderland nümayəndəliyi yaradılmış və qərara alınmışdır ki, bu, bütün Avropada açılacaq nümayəndəliklərin mərkəzi olacaq. Bundan başqa dünyanın müxtəlif ölkələrində icmanın ofisləri yaradılmaqda və ölkə xaricində yaşayan Qərbi azərbaycanlılar ofislərə cəlb edilməkdədir.

2020-ci ildə, II Qarabağ müharibəsi nəticəsində 30 illik işğala son qoyularaq Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlətimizin suverenliyinin tam təmin olunması ilə yeni siyasi reallıq yaranıb. Bu reallıq tarixən öz halal torpaqlarında yaşamış, sonradan zorla deportasiya edilmiş həmvətənlərimizin öz yurd-yuvalarına qayıtmaq istəyinin beynəlxalq hüquq prinsipləri çərçivəsində, sülh yolu ilə reallaşmasını gündəmə gətirib. Azərbaycan dövlətinin günbəgün artan beynəlxalq nüfuzu, siyasi-iqtisadi qüdrəti, müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağa, Şərqi Zəngəzura tarixi qayıdış Qərbi Azərbaycana qayıdış hərakatını da artıq dövlət səviyyəsində başlıca milli strategiyaya çevirib. Bu, Qərbi Azərbaycandan olan soydaşlarımızın qəlbindəki ümid qığılcımlarını daha da alovlandırıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu məsələdə daim nümayiş etdirdiyi prinsipial mövqe, xüsusilə 24 dekabr 2022-ci ildə İcmanın inzibati binasına gəlişi, burada proqram xarakterli çıxış etməsi, Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunmasına və onların öz doğma torpaqlarına qayıtmasına əminlik ifadə etməsi, siyasi hədəflərə uğurla çatmaq üçün İcmanın, ümumilikdə Qərbi azərbaycanlıların qarşısında prioritet vəzifələr qoyması Qərbi Azərbaycan İcmasının fəaliyyətinə yeni təkan vermişdir. Dövlət başçımız, dünyada tanınmış siyasi lider İlham Əliyevin özünün ad gününü ənənəvi olaraq mühüm siyasi prioritet məsələlərin həllini gündəmə gətirməklə qeyd etdiyini nəzərə alsaq bu görüşün siyasi, rəmzi əhəmiyyətinin nə qədər böyük olduğunu aydın görərik.

Görüşdə Möhtərəm Prezident tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha bəyan etdi: *"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir...*

Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır" [9]. Dövlətimizin başçısı yenə də öz sülhsevər siyasətinə sadiqlik nümayiş etdirərək qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpası ilə bağlı dedi: *"Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır" [9].*

Xalqımızın tarixində yeni bir eranın başlandığını xəbər verən tarixi görüşdə gələcək fəaliyyətlə bağlı fikirlərini bölüşən Prezident vurğuladı ki, icma Azərbaycan dövlətinin də dəstəyi ilə bu işlərə böyük önəm verməli, fəaliyyətini daha da gücləndirməlidir: *"... Hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik... Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır" [9].*

Onu da mütləq qeyd etməliyik ki, Azərbaycanın tarixi torpaqlarına yenidən sahib çıxa bilməsi, ölkənin ərazi bütövlüyünün tam və həmişəlik təmin edilməsinə nail olmaq məqsədilə fundamental əsaslara, siyasi-hüquqi təsir gücünə malik bir konsepsiya hazırlanması ideyası ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən, özü də hələ torpaqlarımızın 20 faizdən çoxunun erməni işğalı altında olduğu, mənfur qonşularımızla qatı siyasi-hərbi münaqişə dövründə irəli sürülmüşdür *"...Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaq üçün çox güclü bir konsepsiya, əsas yaratmalıyıq. Elə bir əsas yaratmalıyıq ki, heç bir qüvvə heç bir zaman bundan sonra Azərbaycan torpaqlarının hansısa bir hissəsini ələ keçirə bilməsin"* [3].

QAİ-nin fəaliyyətinin konseptual xarakterli çərçivə sənədi olacaq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası icma tərəfindən qısa müddətdə – təxminən bir ay ərzində hazırlanaraq təsdiqləndi [14]. Bu mühüm tarixi sənəd mütəxəssislərin iştirakı ilə, silsilə müzakirələrin nəticəsi olaraq, bir sıra təkliflər İşçi Qrupunda sistemləşdirilib ümumiləşdirilməklə qəbul edilib. Konsepsiya dövlətdaxili və beynəlxalq hüquqa, tarixi faktlara əsaslanır, ədaləti və sülhü bərqərar etmə məramına xidmət edir. Sənədin əsas məqamlarına diqqət yetirsək, bunu bir daha aydın görmüş olarıq [14; 15]:

– Sənəddə indiki Ermənistandan qovulmuş bütün azərbaycanlıların və onların nəsil davamçılarının öz yurdlarına qayıtmaq hüququ təkzibolunmaz fakt kimi bir daha diqqətə çatdırılır və bu qayıdış prosesinin müvafiq zəmanətləri və verifikasiya mexanizmləri olan beynəlxalq hüquqi təminat çərçivəsində həyata keçirilməsi tələbi irəli sürülür;

– Bəhs etdiyimiz sənəddə həmvətənlərimizin ata-baba yurdlarına qayıtmaq hüququnun ləyaqətli və təhlükəsiz şəkildə reallaşmasına şərait yaradılmasının, onların gələcəkdə burada fərdi və kollektiv hüquqlarının təmin olunmasının vacibliyi qeyd olunub.

– Sənəddə qayıdacaq insanların təhlükəsizliyini təmin etmək üçün qayıdış olacaq ərazilərə müvafiq mandatla beynəlxalq sülh missiyasının yeridilməsi, həmin missiyanın İcmanın etibar etdiyi ölkələrin qüvvələrindən ibarət olması zərurəti də əksinin tapıb;

– İcma tərəfindən işlənib hazırlanan bu konsepsiyada belə bir prinsipial mövqe qoyulmuşdur ki, qayıdış prosesində qovulmadan əvvəlki məskunlaşma coğrafiyası bərpa olunmalı, geri qayıdanları pərakəndə səpələmək insan hüquqlarına zidd cəhd kimi rədd edilməlidir;

– Sənəddə Ermənistan qayıdacaq azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təminatı üzrə beynəlxalq nəzarət və monitorinq mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlamaq təklifi ilə də çıxış edilir;

– Qayıdacaq azərbaycanlıların vahid vətənləri – Azərbaycan Respublikası ilə maneəsiz əlaqəsinə şərait

yaradılması zərurəti də ortaya qoyulur;

– Sənəddə Ermənistan hökuməti qarşısında qayıdacaq azərbaycanlıların mülkiyyət hüquqlarını bərpa etməsi, onların evlərini, icma torpaqlarını qaytarması tələbi qoyulur;

– Konsepsiyada o da bəyan edilir ki, Qərbi azərbaycanlılar erməni xalqı ilə barışığa, dinc və yanaşı yaşamağa hazırdır. Ermənistan hökuməti barışığı təşviq etmək üçün səylər göstərməli, dağıdılmış Azərbaycan mədəni irsini bərpa etməli, qorumalı, həyata keçirdiyi yer adları dəyişikliklərini ləğv etməli və azərbaycanlılara qarşı ayrı-seçkilik siyasətinə son verməlidir;– Bəhs olunan sənəddə belə bir mühüm və haqlı tələb də qoyulur ki, İcma Qərbi azərbaycanlıların legitim nümayəndəsi və maraqlı tərəf kimi qayıdış prosesi və sonrakı dövrdə bütün müvafiq proseslərdə iştirak etməlidir.

Təsadüfi deyil ki, bu tarixi sənəd, akademik İsa Həbibbəylinin də dediyi kimi, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramından sonra ölkəmizdə ikinci Böyük Qayıdış Proqramı dəyərindədir.

Konsepsiyanın qəbul edilməsi Qərbi Azərbaycan İcmasının fəaliyyətində yeni bir mərhələnin başlanmasına rəvac verdi. İcma sonrakı fəaliyyətini məhz bu tarixi sənədin icrası istiqamətində qurdu. 2023-cü ilin mart ayında TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının nümayəndə heyəti ilə icmada keçirilən görüş keçirilib, görüş zamanı TÜRKPA-nın təsis edilməsi barədə 2008-ci il İstanbul Sazişinin məqsədlərinə uyğun olaraq, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların hüquqları və onların mədəni irsi məsələsinin Assambleyanın gündəliyinə gətirilməsinin əhəmiyyətliliyi vurğulanıb. 2023-cü ilin oktyabr ayında QAİ-nin nümayəndəsi Cenevrədə keçirilən BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsində Ermənistanın dövri hesabatının təqdimatı sessiyasında iştirak edib və İcmanın alternativ hesabatını təqdim edib. İcmanın hesabatı Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparmasından və geri qayıtmaq hüququ da daxil olmaqla onların İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt ilə qorunan hüquqlarının sistematik şəkildə pozulması halları barədə məlumatı əks etdirmək baxımından əhəmiyyətli siasi-hüquqi sənəddir. Səfər zamanı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) İcraiyyə Komitəsinin, BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının və "Cenevrə Geostrateji Observatoriyası" təşkilatının məsul şəxsləri ilə görüşlər də keçirilib. Görüşü BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığını Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları ilə yaxından məşğul olmağa çağırış baxımından əhəmiyyətli hesab etmək olar. İcma tərəfindən BMT-yə üzv olan dövlətlərdən və digər aidiyyəti beynəlxalq təşkilatlardan indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə beynəlxalq proses çərçivəsində təhlükəsiz və ləyaqətli şəkildə qayıtması ilə bağlı müraciət edilib. Bu müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur. Məsələnin BMT-nin ən mötəbər orqanlarının gündəliyinin qeyd edilən bəndləri ilə əlaqələndirilməsi azərbaycanlıların öz evlərinə qayıtmasının təməl insan hüquqlarının qorunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması üçün zəruri olmasının beynəlxalq müstəvidə təsdiqidir. Həmçinin Qərbi Azərbaycan İcması Avropa Şurası Parlament Assambleyasını Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtması hüququ üzrə monitorinqə başlamağa çağırıb. Çünki Ermənistanın azərbaycanlıları öz ərazisindən qovması və onların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına şərait yaratmaması bu ölkənin insan hüquqları sahəsində götürdüyü öhdəliklərlə ziddiyət təşkil edir. QAİ belə bir təşəbbüs də qaldırmışdır ki, Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları AŞPA-nın Ermənistanda öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi üzrə monitorinq prosedurunun predmeti ola bilər.

QAİ-nin səkkiz sənədinin BMT-nin rəsmi sənədi kimi, BMT-nin bütün rəsmi dillərində BMT üzvü olan bütün dünya dövlətləri arasında yayılması Qərbi Azərbaycan həqiqətlərinin BMT tribunasından ilk dəfə bəyan edilməsi, məsələnin beynəlxalq müstəviyə gətirilməsi baxımından tarixi uğurdur. Bu sənədlər sırasında Qərbi Azərbaycana Qayıdış Konsepsiyası, beynəlxalq ictimaiyyətə müraciət, UNESCO-nun Baş katibinə müraciət kimi əhəmiyyətli sənədlər də vardır. Qərbi Azərbaycan İcmasının bir neçə ay ərzində dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarına, dövlət başçılarına, siyasətçilərə 130-dan artıq müraciət, bəyanat, məktub ünvanlamış və onların bəzilərindən rəsmi cavab almışdır. Bu cavablar sırasında Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin, UNESCO Baş katibinin cavabları da vardır.

Xaricdə yaşayan Qərbi azərbaycanlıların təşkilatlanması və onlar arasında koordinasiyanın gücləndirilməsi baxımından 5 dekabr 2023-cü il tarixdə "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda 30 xarici ölkədən nümayəndələrin iştirakı ilə baş tutmuş beynəlxalq konfransın da əhəmiyyətini qeyd etmək yerinə düşər.

2023-cü ilin oktyabr ayında Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Dunya Miyatoviçlə Qərbi

Azərbaycan İcmasında keçirilən görüş zamanı ona azərbaycanlıların Ermənistandan zorla qovulmasının insan hüquqlarına zidd olması faktlarla bildirilib, Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmasına dəstək verməyə, o cümlədən baş vermiş pozuntularla bağlı qərəzsiz araşdırma aparmağa, Ermənistana tematik səfərlər təşkil etməyə və bu dövlətə təzyiq göstərməyə çağırış edilib. 2023-cü ilin dekabr ayında Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərlinin Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) sədr müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Zəfər Sırakaya ilə görüşü də ikitərəfli əlaqələrin inkişafı baxımından səmərəli olub.

Təəssüflə bildirilməlidir ki, beynəlxalq ictimaiyyət Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi, öz doğma torpaqlarına qayıtmaq haqqının gerçəkləşməsi üçün heç bir addım atmadığı kimi dünya mədəni irsinin müdafiəsini öz ali məqsədi elan etmiş YUNESCO da hazırkı Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəniyyət abidələri, dini məbədlərin dağıdılması, məhv edilməsinə qarşı heç bir tədbir görməyib. Bu baxımdan Qərbi Azərbaycan İcması tarixi torpaqlarımızda xalqımıza məxsus dəyərlərin məhv edilib sıradan çıxarılmasına qarşı da xalqımızın barışmaz mövqeyini fəal şəkildə ortaya qoymağa çalışıb.

Ölkə başçısının Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüş zamanı proqram xarakterli nitqindən irəli gələn vəzifələri həyata keçirmək istiqamətində İcmanın Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış elmi-tədqiqat şöbələri ilə əlaqəli şəkildə fəaliyyəti də təqdirəlayiqdir. Xatırladaq ki, AMEA Rəyasət Heyəti tərəfindən də bir sıra qərarlar qəbul olunmuşdur. Belə ki, həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü əsasında AMEA Rəyasət Heyətinin 16 yanvar 2023-cü il tarixli qərarı ilə Qərbi Azərbaycan tədqiqatları üzrə Əlaqələndirmə şurası yaradılıb. Bundan əlavə, AMEA Rəyasət Heyətinin "AMEA-nın Qərbi Azərbaycanın tədqiqi və təbliği ilə bağlı Tədbirlər planı"nın təsdiq edilməsi haqqında" qərarında "Qərbi Azərbaycan Ensiklopediyası"nın hazırlanması öz əksini tapıb və bu sahədə ardıcıl işlər görülür. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda Qərbi Azərbaycan tarixi şöbəsi, Folklor İnstitutunda Qərbi Azərbaycan folkloru şöbəsi və Nəsimi adına Dilçilik İnstitutunda Toponimika şöbəsi yaradılıb və AMEA-da Qərbi Azərbaycanla əlaqədar çoxsahəli tədqiqatlar aparılmaqdadır. Nəsimi adına Dilçilik İnstitutunda Qərbi Azərbaycan Dialektoloji Atlası və digər kitablar nəşrə hazırlanır.

Naxçıvan Dövlət Universitetindən bir ilk - Qərbi Azərbaycana qayıdış strategiyasının reallaşdırılması istiqamətində mühüm tarixi addım.

23-24 noyabr 2023-cü il tarixlərdə Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə Naxçıvan şəhərində Azərbaycanda ilk dəfə "Qərbi Azərbaycana qayıdış" adlı festival və "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres keçirilməsi də Qərbi Azərbaycana qayıdış strategiyasının reallaşdırılması istiqamətində mühüm tarixi addım idi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı, Türkiyədən olan 20-dən çox qurumun tərəfdaşlığı ilə keçirilən festival-konqres mühüm tarixi məqamları ilə yadda qaldı [16].

Xatırladaq ki, 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı giriş nitqində sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməsi ilə də bağlı tapşırıq vermişdir. Zəngin dövlətçilik ənənələrinə və qətiyyətli siyasi mövqeyə malik, kifayət qədər beynəxalq nüfuz qazanmış, bir sıra mühüm elmi-tarixi əhəmiyyətə malik beynəlxalq konfrans, konqres və simoziumların ideya təşəbbüskarı və novator təşkilatçısı kimi fərqlənən Naxçıvan Dövlət Universiteti bu çağırışa ilk cavab verərək möhtəşəm bir tədbirə ev sahibliyi etdi. Bununla, eyni zamanda Qərbi Azərbaycanla bağlı yeni elmi-tədqiqat mərhələsinin rəmzi təməli qoyuldu, bu festival-konqresin ənənəvi olaraq keçirilməsi qərara alındı. Festival-konqres üç prinsipə - tarixi faktlara, beynəlxalq hüquqa və sülhə əsaslan Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası istiqamətində mühüm addım kimi də tarixi əhəmiyyət kəsb edir.

Konqres 5 istiqamət üzrə keçirildi, 17 bölmə iclasında 173 alimin 157 məruzəsi dinlənildi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, QAİ İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və digərləri rəsmi açılış mərasimində çıxış etdilər (16). Konqresdəki məruzələrdə ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsi kimi aktual məsələlər ortaya qoyuldu. Azərbaycanın elm, təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi-tarixi nəzəri əsərlərin yaradılması zərurəti qeyd edildi. Vurğulandı ki, Qərbi Azərbaycanla bağlı ən müxtəlif sahələr üzrə tədqiqatların aparılması ziyalıların, elm adamlarının qarşısında duran mühüm vəzifələrdir. Bəyan edildi ki, soydaşlarımızın Qərbi Azərbaycan

torpaqlarından zorla çıxarılması və etnik təmizləmə siyasətini yerinə yetirənlər beynəlxalq müstəvidə cinayət məsuliyyətinə cəlb olunmalıdır. Konqres beynəlxalq təşkilatlara Azərbaycana qarşı ədalətli mövqe göstərməyə, Qərbi azərbaycanlıların ləyaqətli və tam təhlükəsiz qayıdışına səssiz qalmamağa çağırış etməklə də siyasi əhəmiyyət daşıdı. Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən irəli sürülmüş "Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlıların pozulmuş hüquqları haqqında Kompleks Beynəlxalq Hesabat"ın hazırlanması təklifi irəli sürüldü, Azərbaycan hüquq cəmiyyətinə müraciət edilərək bu layihəyə dəstək verilməsi zəruri hesab edildi. Festival-konqres çərçivəsində keçirilən kitab təqdimatları, ustad dərsləri, film nümayişləri, xalq oyunları, kompozisiyalar, konsert proqramları, kulinariya, rəsm əsərləri, milli geyim, məişət avadanlıqlarının sərgiləri, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, tanınmış modelyer-rəssam Fəxriyyə Xələfovanın ilk dəfədir ki, Naxçıvanda təşkil olunan "Milli ornamentlərin harmoniyası" adlı kolleksiyası və yeni elmi-tarixi faktlarla zəngin məruzələr bu qədim və əzəli yurd yeri ilə bağlı tarixə baxış, həqiqətin sarsılmazlığı, doğma yurda qayıdış inam və əzmkarlığı baxımından ictimaiyyətdə böyük maraq və rəğbət yaratdı. Bu tədbirlərdə universitet tələbələrinin böyük əksəriyyətinin müəllimlərlə yanaşı, fəal, yaradıcı iştirakı da mühüm bir faktdır. Təkcə NDU-nun İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən 100-dən çox rəngkarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət nümunələrinin nümayiş olunması ilə bağlı fakt həm də ali təhsil ocağında əzəli yurdumuzun tarixinin, maddi-mədəni irsinin, folklor və etnoqrafiyasının gənc nəslə aşılanması, sevdirilməsi istiqamətində çoxcəhətli gərgin və fədakar əməyin bəhrəsi kimi nümunəvi və sevindirici idi.

Festival-konqres çərçivəsində qonaqlar Ordubad rayonunun Parağa, Kəngərli rayonunun Çalxanqala kəndlərində yaşayan Qərbi azərbaycanlılarla görüşdülər. Bu, deportasiyaya məruz qalmış müxtəlif nəslin nümayəndələri olan soydaşlarımızla, əslən Qərbi Azərbaycandan olan bugünkü nəslin bölgələrdə bəlkə də ilk belə tarixi kütləvi görüşü idi ki, festival-konqres nəsillərarası əlaqəni daha da möhkəmləndirmək, milli yaddaşı təzələmək, düşüncələrdə yurda dönüşə birgə güclü inam yaratmaq baxımından da çox mühüm əhəmiyyət kəsb etdi.

Konqres-festivalın təşəbbüskarı və bu mühüm tədbirə möhtəşəm şəkildə ev sahibliyi etməyi bacarmış NDU-nun rektoru, dosent Elbrus İsayev festival-konqresin əhəmiyyətini aşağıdakı kimi xarakterizə etmişdir: "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi: *"Bizi Qərbi Azərbaycana böyük qayıdış gözləyir"* hədəfi istiqamətində festival-konqresin bütün iştirakçıları tərəfindən birlik və əminlik ifadə edilmişdir; Qərbi Azərbaycanda ermənilərin və onlara havadarlıq edənlərin xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti, milli faciə və vandalizm faktlarının geniş şəkildə ictimaiyyətə çatdırılması təmin edilmişdir; Ermənilərin doğma torpaqlarımızda yerləşdirilmələri, azərbaycanlıların planlı surətdə doğma yurdlarından qovulması ilə bağlı tarixi faktlara söykənilmiş, yeni, dolğun məlumatlar təqdim olunmuşdur; Qərbi Azərbaycana məxsus maddi mədəniyyət nümunələri təqdim olunmuşdur; Qərbi Azərbaycandan olan, muxtar respublikada yaşayan sakinlər ilk dəfə olaraq bir araya gəlmiş və onlarla görüşlər keçirilmişdir; Ermənistan Respublikasının dövlət səviyyəsində həyata keçirdiyi etnomədəni siyasətin qurbanı olmuş yer adlarımızın – toponimlərin, oykonimlərin, hidronimlərin dəyişikliyə məruz qalmasının tarixi faktlara söykənərək elmi əsaslarla təsdiqinə və dünya elmi ictimaiyyətinə çatdırılmasına çalışılmışdır; Ölkəmizin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gəlmiş, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yeniliklər dinlənilmiş və fikir mübadiləsi aparılmışdır" [10].Festival-konqres iştirakçıların mətbuata verdikləri müsahibələrdən də aydın görünür ki, bu möhtəşəm tədbir ideya əhəmiyyətliliyi və yüksək təşkilatçılığına görə böyük məmnuniyyət və rəğbət hissi ilə qarşılanmışdır. Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti, professor Aygün Attar müsahibəsində festival-konqresi çox yüksək qiymətləndirmişdir: "...bu möhtəşəm tədbirin keçirilməsində əməyi olan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Qərbi Azərbaycan mədəniyyətini ən gözəl şəkildə təmsil edən, hər kəsi duyğulandıran, elmin belə deyə bilmədiyini, İrəvanın, Göyçənin, Zəngəzurun gözəlliklərini, özəlliklərini dilə gətirən şeirlərin, mahnıların yer aldığı proqram hər kəsi duyğulandırdı. Festival-konqres olduqca möhtəşəm təşkil olunmuşdur" [6]. AMEA-nın müxbir üzvü, Qərbi Azərbaycan İcmasının Müşahidə şurasının sədri Misir Mərdanov isə festival-konqresin məhz Naxçıvanda keçirilməsinin tarixi rəmzi mənasından danışmışdır: "Bu formatda ilk tədbirin məhz Naxçıvanda keçirilməsi təsadüfi deyil. Ulu Öndərimiz Heydər Əliyev başda olmaqla Azərbaycana böyük şəxsiyyətlər bəxş edən Naxçıvan həm də həmin çətin günlərdə Qərbi azərbaycanlı soydaşlarımıza qucaq açıb. Təsadüfi deyil ki, deportasiyaya uğrayan Qərbi azərbaycanlıların böyük əksəriyyəti Naxçıvanda məskunlaşıb" [6]. Qərbi Azərbaycan İcmasının Ağsaqqallar şurasının üzvü Abel Məhərrəmov da təşkilatçılığı yüksək qiymətləndirmişdir: "Universitetlər həmişə çox maraqlı konfranslar keçirir. Ancaq mən ilk dəfədir ki, festival-konqres vəhdətində keçirilən belə bir məhsuldar tədbirin şahidi oluram. Qərbi

Azərbaycana Qayıdış Konsepsiyası yol xəritəsi üzrə artıq neçə vaxtdır fəaliyyətdədir. Ancaq mən hesab edirəm ki, bu festival-konqres ən vaciblərindən biri oldu" [6].

Festival-konqresin tarixi-siyasi əhəmiyyətini təkcə bu fakt sübut edir ki, tədbir haqqında məlumat 20-dən çox xarici ölkə mediasında yer almış və Ermənistan mediasından da göründüyü kimi, Ermənistanda dərin narahatlıq və təşvişə səbəb olmuşdur.2024-cü il iyunun 21-22-də Şahbuz rayonunun Batabat yaylağında keçirilməsi nəzərdə tutulan ikinci "Qərbi Azərbaycana qayıdış" festival-konqres üçün aparılan ciddi hazırlıq işləri, nəzərdə tutulan zəngin proqram bu festival-konqresin də Qərbi Azərbaycanda xalqımızın uzun illər ərzində yaratdığı mədəni irsin, tarixi keçmişimizin təbliği, həmçinin doğma torpaqlara qayıdış hüququnun beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından çox böyük əhəmiyyətə malik olacağından xəbər verir. Builki festival-konqresin Azərbaycanın dilbər guşələrindən biri olan Batabat yaylağında təşkil olunması isə xüsusi rəmzi məna daşıyır. Mənfur düşmənlərimizin işğal arzusunu əbədilik gözündə qoyan qədim Naxçıvan diyarının füsunkar məkanında – vaxtilə həmvətənlərimizin yaşadıqları Qərbi Azərbaycan kəndlərindən cəmi bir neçə kilometr məsafədə yerləşən ərazidə keçirilməsi ermənilərə gözgörəsi ibrət dərsi verməkdir. Bu, "Həm ruhən, həm də coğrafi baxımdan Qərbi Azərbaycana addım-addım yaxınlaşırıq!" deməklə öz mənəvi haqqımıza qovuşmamıza, tarixi ədalətin bərpasına çox az qaldığını bəyan etməkdir. Qərbi Azərbaycandan olan iki gəncin toyunun keçirilməsi məhz yaxın gələcəkdə bizi gözləyən qələbə sevincinin ilk sədalarıdır.

Nəticə

44 günlük Vətən müharibəsindəki tarixi Zəfərdən, düşmən tapdağından azad edilmiş torpaqlarımızda məskunlaşmadan sonra qarşımızda duran ən mühüm məsələlərdən biri gecikmiş ədaləti bərpa etmək, əzəli və əbədi yurd yerimiz Qərbi Azərbaycan torpaqlarına qovuşmaqdır. Qeyd etdiyimiz kimi, qüdrətli Azərbaycan dövləti bu məsələdə də dünyada sülhsevərlik, humanizm örnəyi olmaqla bunu dinc yolla həll edəcəyinə əmindir: *"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"* [9].

Heç şübhəsiz ki, bu qaydışa ilk olaraq siyasi şüur və təfəkkürdə nail olmalı, bu hüququ beynəlxalq prizmada, fundamental əsaslandırılmış şəkildə təsdiq etdirməliyik. Məhz bu mənada Qərbi Azərbaycan İcmasının təsis etdiyi Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etmək məramına xidmət edən, bu sahədə əsas fəaliyyət istiqamətlərini müəyyən edən mühüm tarixi sənəddir. Bu strateji hədəfə çatmaqda isə xalq-lider həmrəyliyi, dövlətimizin siyasi iradəsi, hərbi-iqtisadi qüdrəti zəmin rolu oynayacaq.

ƏDƏBİYYAT

1. Abdalov, N. Qərbi Azərbaycana qayıdış haqqımızdır. Respublika. - 2024.- 25 iyun. - № 130. - s. 7.
2. Abdullayev, A. Qərbi Azərbaycana qayıdış: konseptual yanaşma. "Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları. 23-24 noyabr 2023-cü il. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 657 s,. s. 66-7
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında nitqi. https://lib.aliyev-heritage.org/az/5091911.html
4. Ələkbərli, Ə. Qərbi Azərbaycan İcması - tarixi ədalətin bərpası uğrunda mübarizə aparan təşkilat. "Yeni fikir" qəzeti, 9 aprel 2024-cü il, №: 2 (58)
5. Ələkbərli, Ə. Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatının çıxışı. "Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları. 23-24 noyabr 2023-cü il. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 657 s., s. 33-35.
6. Festival-konqres iştirakçıları: "Qərbi Azərbaycana qayıdış tarixi ədalətin bərpası deməkdir". "Yeni fikir" qəzeti, 9 aprel 2024-cü il, №: 2 (58)
7. Hacıyev, İ. Tarixi Azərbaycan: Qərbi Azərbaycana qayıdış missiyası. "Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları. 23-24 noyabr 2023-cü il. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 657 s., s. 56-65
8. Hüseynova, M. O ənənələri yaşatmaq üçün qayıtmalıyıq. "Yeni fikir" qəzeti, 9 aprel 2024-cü il, №: 2 (58)
9. İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub. https://president.az/az/articles/view/58330
10. İsayev, E. Ön söz. Naxçıvanda keçirilən festival-konqres Qərbi Azərbaycana Qayıdış Kosepsiyasına

mühüm töhfədir. "Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları. 23-24 noyabr 2023-cü il. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 657 s.
11. İsayev, E. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası sülh və ədalət konsepsiyası kimi. "Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları. 23-24 noyabr 2023-cü il. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 657 s., s 29-32
12. Naxçıvan Muxtar Respublikasının yubileyləri. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 212 s.
13. Tarixçi-alim Elman Cəfərli: "Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması düşməndə təlaş, ruh düşkünlüyü yaradıb. "Yeni fikir" qəzeti, 9 aprel 2024-cü il, №: 2 (58)
14. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının tam mətni açıqlanıb https://report.az/daxili-siyaset/qerbi-azerbaycana-qayidis-konsepsiyasinin-tam-metni/
15. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas məqamları açıqlanıb. https://report.az/daxili-siyaset/qerbi-azerbaycana-qayidis-konsepsiyasinin-esas-meqamlari-aciqlanib/
16. Vəliyev, Ə. Qərbi Azərbaycan tarixi və maddi-mədəni irsi. "Yeni fikir" qəzeti, 9 aprel 2024-cü il, №: 2 (58)

ABSTRACT

Mehriban SULTAN

WEST AZERBAIJAN COMMUNITY AND ITS ACTIVITY TOWARDS THE REALIZATION OF THE CONCEPT OF RETURN TO WESTERN AZERBAIJAN

The article states that Western Azerbaijan is an ancient Turkic homeland and that Azerbaijanis living there were subjected to deportation and genocide during different periods. It is noted that the Western Azerbaijan Community, established on August 3, 2022, operates to restore the rights of deported Azerbaijanis and to ensure their return to their historical lands. The article discusses the Community's activities at the international level, the preparation of the "Concept of Return to Western Azerbaijan," and the fact that this document is based on international law. It is also emphasized that the historic Victory achieved in the Second Karabakh War created the conditions for the return of Western Azerbaijanis. In addition, the article highlights the importance of the "Return to Western Azerbaijan" festival-congress organized at the initiative of Nakhchivan State University in supporting this process.

Keywords: *Western Azerbaijan, Western Azerbaijan Community, deportation, return concept, international law, historical justice.*

AĞBABA-ŞÖRƏYELİN QARAÇANTASI: TARİXİ, MƏDƏNİ-İRSİ, ADƏT-ƏNƏNƏLƏRİ

Pərvanə İBRAHİMOVA *pervanei@mail.ru*
Könül NİFTƏLİYEVA *kenul.nifteliyeva@gmail.com*
Bakı Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Qərbi Azərbaycanın Amasiya rayonunun Ağbaba-Şərəyel mahalından və onun 21 azərbaycanlı kəndindən biri olan Qaraçanta (Əzizbəyov) kəndindən, onun tarixi, mədəni-irsi, adət-ənənələrindən bəhs olunur. Məqalədə, habelə Qaraçantada təhsil, kəndin tayfaları, sakinlərinin məşğuliyyəti, 1930-40-ci illərin repressiyası, Birinci və İkinci Qarabağ müharibəsində torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan qaraçantalı igidlər barədə məlumat verilir, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına, Amasiya rayon icmasının fəaliyyətinə nəzər salınır.

Açar sözlər: *Qərbi Azərbaycan, Amasiya, Ağbaba-Şörəyel, Qaraçanta, deportasiya, yallı*

Qərbi Azərbaycanın Ağbaba-Şərəyel mahalı Cənub-Qərbi Qafqazda Ələyəz (Alagöz) dağının ətəklərindən tutmuş Arpaçay boyunca uzanan və Arpa gölünün ətrafını əhatə edən ərazidə yerləşir. Qeyd edilən ərazinin dağlıq hissəsi Ağbaba, aran hissəsi isə Şörəyel adlanır. İndiki Ermənistanın ərazisində qalan, sonralar Amasiya rayonu adlandırılan Ağbaba qərbdən Çıldır, şimaldan Axılkələk və şərqdən Qızılqoç (Qukasyan) rayonu ilə əhatə olunmuş dağlıq ərazidir. Arpaçay Şörəyeli iki hissəyə ayırır. Qars vilayəti ərazisində qalan hissə Qərbi Şörəyel, indiki Ermənistan ərazisində qalan ərazi isə Şərqi Şörəyel adlanır. Şörəyel nahiyəsi dəniz səviyyəsindən 1500-1800 metr, Ağbaba nahiyəsi isə 1800-2200 metr yüksəklikdə yerləşir. Coğrafi rayonlaşmaya görə Ağbaba və Şörəyel ərazisi Şirək yarımrayonu sayılır [5]. 1918-ci ilədək 39 kəndi özündə birləşdirən və Qars vilayətinin tərkibində olan Ağbaba nahiyəsinin ərazisinin böyük bir qismi əvvəlcə Gümrü (1920), sonra isə Moskva və Qars (1921) müqavilələrinə əsasən, Ermənistanın tərkibinə qatılıb. Ümumiyyətlə, hazırda Ermənistan ərazisində qalan Ağbaba, Şörəyel və Qızılqoç nahiyələrinin birgə ərazisi 2680 kv.km təşkil edir ki, vaxtilə bu ərazilərdə 200-dən artıq türk kəndləri mövcud olmuşdur [5].

1930-cu il sentyabrın 30-da Ağbaba nahiyəsinin əsasında Amasiya rayonu təşkil edilmişdi. 1924-1989-cu illərdə Ağbaba nahiyəsində və Amasiya rayonunda Partiya Komitəsinin 14 birinci katibindən 10 nəfərinin, İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyənlərin isə 8 nəfərinin azərbaycanlı olması və nəticə etibarilə 70-ci illərdə əhalinin 84 faizinin azərbaycanlılar, 15 faizinin ermənilər, yalnız 1 faizini digər millətlərin nümayəndələrinin təşkil etməsi ermənilərin ciddi narahatlığına səbəb olmuşdu [6].

Tədqiqatçı Nazim Mustafanın yazdığına görə, Ermənistanın Rusiyaya birləşdirilməsinin 150 illiyi ərəfəsində – 1978-ci ildə "Ocaq" kitabını yazmaq üçün materiallar toplamaq məqsədilə Amasiya rayonuna gələn Zori Balayan rayonun ərazisini gəzdikdən sonra İlli kəndi klubunda ermənilərin sayının azlığından narahat olaraq deyir: "Fikirləşib, ciddi tədbir görmək lazımdır". Tədbir isə bir neçə illər idi ki, görülürdü. İlk növbədə, azərbaycanlı kadrları sıxışdırıb çıxarmaq, müxtəlif yerlərdə ali təhsil almış gəncləri sərhəd zonasında pasport rejimi qaydalarını bəhanə edilərək qeydiyyata götürməməklə rayona qayıtmalarının qarşısını almaq, təzə ailə qurmuş gənclərə ev tikmək üçün torpaq sahəsi ayırmamaqla onları rayonu tərk etməyə məcbur etmək və bu kimi səbəblərə görə 80-ci illərdə yüzlərlə gənc Azərbaycan ailəsi məcburiyyət qarşısında qalıb Şimali Qafqaza və Qazaxıstana köç etmişdilər [5].

Ağbaba-şörəyellilərin əsas məşğuliyyətini kənd təsərrüfatı, əkinçilik və heyvandarlıq təşkil etmişdir. Əhali yazda əkinlə, yayda ot və taxıl biçini ilə məşğul olub, ərzaq istehsal edib, mal-qara üçün ot, saman tədarük edib, bir sözlə, payızın ilk ayından qışa qədər hazırlıq görüb. İstehsal etdikləri taxıldan yarmalıq, əriştəlik, bulğurdan 30-dək növdə xörək hazırlayıblar. Bölgəyə xas olan çeçil pendiri və "Əriştə plovu" bu gün də mahalın insanları üçün ən ləziz nemətlərdəndir [1].

1987-ci ilin əvvəllərində Amasiya rayonunun 21 min nəfərlik əhalisindən təqribən 18 min nəfərini azərbaycanlılar təşkil edib. Belə ki, 27 kənddən 21-də sırf azərbaycanlılar, 5 kənddə ermənilər, rayon mərkəzində isə qarışıq yaşayıblar. Amasiyanın ən böyük kəndlərindən biri də Qaraçanta kəndi olmuşdur. Öncə Qaraçalma, Qaraçəntey, sonralar isə Qaraçanta adlandırılan bu kəndin adının haradan götürüldüyü haqda dəqiq məlumat yoxdur. Qaraçanta adı ətrafında bəzi fikirlər səslənsə də, bunlar heç bir qaynağa əsaslanmır. Kəndin ziyalısı Baxşəli Əskərovun və digər tədqiqatçıların araşdırmalarına görə, şübhəsizdir ki, kəndin adında olan "qara" sözü rəng mənası bildirmir. Bu söz, eramızdan əvvəl VII yüzillikdə yaradılmış qədim türk

dastanlarından olan "Yaradılış" dastanının baş qəhrəmanı Qara xan, yaşı 1500 ildən çox olan "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanlarından Qaraca Çoban, nağıl qəhrəmanı Qara Pəhləvan və bir sıra digər adlarla həmahəng olub, igid, cəsur, mərd, məğlubedilməz mənasını verir. Qaraçanta kəndi sonacan adını qoruyub saxlaya bilməyib və 1939-cu il may ayının 4-də inqilabçı bolşevik Məşədi Əzizbəyovun şərəfinə Əzizbəyov adlandırılıb [8].

Qaraçanta kəndi Şörəyel mahalının Güllübulaq, Çaxmaq, Mağaracıq, Cələb kəndləri, eyni zamanda Qars vilayəti ilə sərhəddir, Gümrü şəhərindən 15 km şimal-qərbdə, Gümrü-Amasiya yolunun üstündə, rayon ərazisinin cənub-şərqində, Qartallı dağının ətəyində yerləşir. Dəniz səviyyəsindən təqribən 2500 metr yüksəklikdədir. Yayla xarakteri daşıyır, qışı soyuq, yayı mülayim kontinentaldır. 600 ev, 314 ailə, 1750 nəfərdən ibarət olan kəndin təsərrüfatının sayı 320, növü kolxoz, sonradan sovxoz olmuşdur [2].

Qartallı dağının ətəyində yerləşən Qaraçanta kəndinin qarşısında əkin-biçin üçün xeyli yararlı torpaq olub, mal-heyvan otarmaq üçün isə dağın yamacından otlaq kimi istifadə edilib. Bu gün heç bir qaraçantalının unutmadığı "Duz dağ"ının hər iki tərəfi dərə ilə əhatə olunmuşdu. Kənd əhalisi uzunluğu 5-6 metr olan sal daşlara duz tökərək mal-heyvanı duz yeməyə çıxarırmış. Filoloq-jurnalist İmran Namazovun araşdırmasına görə, mənbələrdə bu daşların qədim türk tayfaları olan peçeneqlərə məxsus olduğu göstərilir: "Qaraçantanın qədimliyinə dəlalət edən çoxsaylı tarixi abidələr olub. Onlardan biri də "Qapılı zağa" adlanan mağara olub. Kazım dərəsinin Arpa çayına qovuşduğu yerdə yerləşən abidənin nə vaxt, kimlər tərəfindən yaradıldığı məlum deyildi. Üç mərtəbəli mağaranın 2 mərtəbəsinin daş qapısı olub və o, çox asanlıqla açılıb-örtülə bilib. Mağarada daxili yol olub və bu, düşməndən qorunmaq məqsədi daşıyıb. Eyvan rolunu oynayan 3-cü mərtəbəsində isə sal daşlardan axurlar, at saxlamaq üçün xüsusi yerlər düzəldilib [4].

Araşdırmalara görə XVIII əsrdə Qaraçanta kəndində şair Şirəkli Həsən adlı bir nəfər yaşayıb. O, Qaraçantada doğulub və Sarıqamışda vəfat edb. Mollaxana və mədrəsədə təhsil almış şair Həsən ərəb, fars, türk, gürcü dillərini bilib. Hacı Səlim Razi "Şirəkli Həsən Əşari" adlanan kitabında şairin 13 gəraylısı, bir qoşması, bir müxəmməsi və 19 bayatısı haqqında məlumat verib. Əksəriyyəti məhəbbət mövzusunda olan şeirlərində o, həm də haqsızlığı, yalançı ruhaniliyi, xəsisliyi kəskin tənqid edib [3].

Qaraçanta ildən-ilə böyüyüb, genişlənib, iri tayfalardan yeni tayfalar yaranıb. Kəndin irili-xırdalı 20-dən çox tayfası olub: Süleymanlılar, Almənmədlilər, Seydilər, Əliflər, Şahvələdlər, Nəsiblər, Kosalar, Haqverdiuşağı, Aydınlar, Qırdılar, Vedilər, Bəhrəmlər, Qəçeylər və s. kəndin evləri arxitektura baxımından zəngin quruluşa malik olub. Bütün yaşayış evlərinin böyük həyətyanı sahəsi olub. Torpağa meyilli insanlar ondan səmərəli şəkildə faydalanıblar. Əsasən birmərtəbəli olan kənd evləri son dövrlər ikimərtəbəli evlə əvəzlənib. Dağın üstündə yerləşən evlər isə kəndə xüsusi yaraşıq verib. Şərti olaraq "Qaş", "Daşdərə", "Təzə məhlə" və "Köhnə məhlə"yə bölünən kəndin görünüşünə səliqə ilə düzülən evlər xüsusi gözəllik qatıb. Qaraçanta mədəni cəhətdən inkişaf edən kəndlər sırasında olub. Kənddə ikimərtəbəli mədəniyyət evi və kənd sovetliyinin binası, klub, kitabxana, poçt və ATS binası, həkim məntəqəsi, futbol, voleybol, basketbol oynamaq üçün meydançalar olub. Kənd camaatının mədəni əyləncə yeri hesab olunan klub Böyük Vətən Müharibəsindən sonra inşa edilib. Klubun 400 nəfərlik zalında gənclərin maraq dairəsində olan ekran əsərləri, "Azərbaycanfilm"in istehsalı olan filmlər və hind filmləri nümayiş etdirilib. Bir faktı da qeyd edək ki, kənd elektrik enerjisi ilə 1934-cü ildə təmin edilib. Rayon mərkəzinə çəkilmiş yüksək gərginlikli elektrik xəttləri Qaraçantanın mərkəzində tikilib, on metr yüksəklikdə olan daş budkadan keçib rayona getdiyindən ilk elektrik işığı alan kənd məhz Qaraçanta olub və kənd həmin ildən etibarən radiolaşdırılıb. Kənd sakini Rza Mövlayevin evində rayonda fəaliyyət göstərən Xalçaçılıq Fabrikinin filialı olub və bu sahəyə marağı olan kənd sakinlərinə üç aylıq kurslar çərçivəsində xalçaçılığın sirləri öyrədilib [8].

Kənddə dünyəvi dərslərin əsası 1927-ci ildə qoyulub. Ona qədər kəndin ali ruhani təhsili almış sakinləri Hacı Əmrah (Hacı Əmrah 37-ci ilin qurbanlarından olub – P.İ, K.N) və Molla Sadıq kənd uşaqlarının dərslərinə nəzarət edib, təhsil almalarına yardımçı olublar. Dünyəvi dərslərə başlananda din xadimləri buna qarşı olsalar da, 1938-ci ildə kənddə 7 illik məktəb açılıb, 1962-ci ildən isə orta məktəbə çevrilib. Kənddə 650 şagird üçün üçmərtəbəli məktəb də fəaliyyət göstərib. 61 ildə məktəbin natamam və orta təhsilli minlərlə məzunu olub. Onlardan müəllim, həkim, mühəndis, jurnalist, kənd təsərrüfatı mütəxəssisləri, pilot və s. yetişib. Kənd fəlsəfə və elmlər doktorlarının sayına görə də öncül yerlərdədir. Yarandığı gündən 1988-ci ilə qədər olan dövrdə şagirdlərin yüksək mütəxəssis kimi yetişməsində məktəbə rəhbərlik edən direktorların - Məmmədrəhim müəllimin, Ələkbər müəllimin, Kərim Yusifovun, Ələkbər müəllimin, Əsəd müəllimin, Bəşir Məmmədovun, Kərim Əsgərovun, Məsim Bayramovun, Şahbəndər Əliyevin, direktor müavinlərindən Sədi Yusifov, Elbəyi Hüseynov müstəsna xidmətləri olub. Amasiyanın müxtəlif kəndlərində dərs deyən müəllimlərdən Şəfiqə Məhərrəmova, Ceyran Zeynalova, Cəfər Mustafayev və Səttar Hacıyevə yetirmələrinin yüksək göstəricilər əldə etməsinə görə "Əməkdar müəllim" fəxri adı verilib [3].

Ağbaba-Şörəyel mahalında, o cümlədən Qaraçantada əhali dindar olub. Qaraçanta haqqında yazılmış kitablarda qeyd olunur ki, 1914-cü ilə qədər 40 ailədən ibarət olan kənddən 10 nəfər Məkkəyə, 9 nəfər Kərbəlaya, 15 nəfər isə Məşhədə gedib ki, bu sırada Hacı Əmrah, Hacı Rəhim, Hacı Molla Əli, Kərbəlayi Qəhrəman, Məşədi Ələkbər, Abdulla, Əli, Namaz, Mövla və Fərzəli və s. adlarını çəkmək olar [1].

Məhərrəm ayının ilk on günündə kənd camaatı evlərə toplaşıb, mərsiyə oxuyublar. Kənddə məscid olduğundan Aşura günü bütün əhali məscidin önünə yığışar, şərbət paylayarlarmış. Qaraçanta məscidi müəyyən bəhanələrlə cəza alaraq Sibirə sürgün edilən və orada qızıl mədənində işləyən Haqverdi və Elləzin maddi yardımı hesabına tikilib. Kənd sakinlərinin bildirdiyinə görə, Haqverdi ermənilər tərəfindən öldürülüb və təxminən 1870-1880-ci illərdə baş verən bu hadisədən sonra Elləz məktub yazaraq Haqverdinin oğlu Qurbanı və öz oğlu Səmədi Sibirə çağırtdıraraq onlara kənddə məscid tikdirmək üçün vəsait verib. Bacıoğlulu usta tərəfindən inşa edilən məscidin tamamlama işləri 1900-cü illərdə başa çatan vaxt Elləz kişi həbs cəzasını başa vuraraq kəndə qayıdıb. Məscidin yanında dəstəmaz almaq üçün bulaq da tikilib.

Kənddə inam yerlərindən biri də Nəcəf Qurbanov və Fatma Qurbanovanın evində olan ocaqlıq olub. Sonradan ocaqlıq İkinci Dünya Müharibəsində itkin düşən oğlu Musa, onun yadigarı Yəhya Qurbanov və ailəsi tərəfindən qorunub. Kənd camaatının ziyarət etdiyi müqəddəs yerlərdən biri də Seyid Məhəmmədin ocağı olub. Seyid Məhəmməddən sonra onun yurdunda Seyid Bayram, Seyid Heydər olub. Ocaqlıq hazırda Gəncədə yaşayan Seyid Ümidin evində qərarlaşıb.

Kənddə kolxoz 1929-cu ildə qurulub və ilk sədri Mustafa Məmmədov təyin edilib. İsaq Aydınov sovet sədri, Cəfər Xəlilov isə katib olub. Kolxoza, eyni zamanda Allahverdi Qurbanov, Səməd Seyidov, Əmiryusif Məmməov, Məcid Əliyev, Əbdüləzim müəllim, Qasım Əliyev, Cahangir Ramazanov, Vəli müəllim, Ələkbər müəllim, Məhəmməd Məmmədov, Müzəffər Xıdırov, Ələsgər Həmzəyev, Adil Qəfərov, Mehralı Xəlilov, Nadir Namazov, Abbasəli Əsgərov və Telman Mövlayev sədrlik ediblər. İsaq Aydınovdan sonra Gülbəs Haqverdiyeva, Elbəyi Hüseynov, Abbasəli Əsgərov və Nadir Namazov kənd sovet sədrləri olublar [8].

Kənd ərazisinə düşən dağ, dərə, bulaq, yer, qaya, o cümlədən pencər, giləmeyvə, yemək, qab-qacaq, yanacaq, yağıntı, əşya adlarının bəziləri bu gün qaraçantalıların işlək sözləri kimi istifadə olunur. Siyahı uzun olsa da, onlardan bəzilərini qeyd edək. Dağ və təpələrdən: Hülley dağı, Yastı dağ, Orta təpə, Duz dağ, Üçgözlər, Baldırğanlı, Qartallı dağ, Tülkü təpəsi, Köhnə yayla, dərələrdən: Məmmədağa, Daş dərə, Ömər dərəsi, Kazım dərəsi, Şamırlı, Arpa çayı dərəsi, bulaqlardan: Göy bulaq, Alməmmədlilərin bulağı, Seyidlərin bulağı, Ömər dərəsinin bulaqları, Məşədi Namazın bulaqları, Daharın bulağı, Məscid bulağı, yerlərdən: Qəmərə, Qara kahının üstü, Qapılı zağa, Dəyirman yolu, Arxaclar, qayalardan: Top qaya, Qatar qaya, Şiş qaya, sahibinin adı ilə: Nəcəfin, Cabbarın, Abbasqulunun, Məhəmmədin, İsoyun yeri, Həsənin çayırı. Baldırğan, lilpar, toppuz, əvəlik, yarpız, qazayağı, yemlik, quşəppəyi, bağa yarpağı, qımı quzuqulağı, laladibi, dambıl, unnuca pencər və giləmeyvə kimi istifadə edilib. Ərişdə plovu, xaşıl, çəkməcə, əppəyişi, şil aşı, cızdax, döyməmc, yaxmac, lavaş, çeçil pendir kənd əhalisinin sevimli yeməklərindən olub. Kənd əhalisi tava, qıp, tabax, parç, quyruxlu, tənəkə, quley qabı, sini, yaba, rəfətə, peşkir, kikrə, cəhrə, mindar, qantar, qəməlti kimi qab-qacaq və əşya adlarını bu gün də unutmayıblar [7].

Amasiyanın bütün kəndlərində, o cümlədən Qaraçantada toy, sünnət, kirvəlik tam olaraq milli adət-ənənəyə uyğun keçirilib, bütün bayramlara çox dəqiqliklə əməl edilib. Orucluq və Qurban bayramları ən əziz bayramlardan hesab olunub, Novruza xüsusi hazırlıq görülüb. Novruz bayramına üç ay qalmış çillə girib, bir ay qalanda başa çatıb. Həmin dövrün ilk 40 günü böyük çillə, son 20 günü isə kiçik çillə adlanıb. Kiçik çillədə daha çox gənc qızlar "çillə" çıxardıb, bir evə yığışaraq "lal" suya başına pambıq dolanmış iki iynə və üzük salaraq fala baxıblar. Novruz bayramına tam 40 gün qalanda Xıdır Nəbi (buna daha çox Xıdır Elləz deyiblər) bayramı keçirilib. Bu bayramın qarşılanması ilə əlaqədar onun şərəfinə qovut düzəldilib, "duzlu gilik" bişirilib. Fal növü olan "Duzlu gilik"in xəmirinə üç qat duz qatılıb, əsasən subaylar yeyib. Yuxusunda ona su verən gənc həmin şəxsin gələcək həyat yoldaşı kimi yozulub. Ağbaba-Şörəyel mahalında İlaxır çərşənbə də böyük təmtəraqla keçirilib. Həmin gün süfrə 7 ləvinlə bəzədilib, martın 21 və 22-də əsl şadyanlıq olub: tonqaldan atlanma, qapı pusma, sulaşma və s. Sulaşma günü kim kimin qarşısına əlində su dolu vedrə, qab çıxıbsa, həmin suyu onun başına töküb. Mahalın ən əziz bayramlarından hesab olunan Orucluq və Qurban bayramlarında nişanlı qızlara oğlan evindən bayram payı, xələt aparılıb. Əgər qız təzə gəlin köçübsə, bu bayramlarda hökmən ata evindən ona qurbanlıq aparılıb. Paylar xonçada olmaqla bir neçə şəxs tərəfindən həyata keçirilib. Gəlinə, bəyə, evin bütün sakinlərinə, hətta oğlanın nənə, baba, əmi və dayılarına xələt aparılıb [8].

Mahalın toy mərasimlərinin özünəməxsus xüsusiyyətləri olub. Evləndirmək məsələsi tərəflər arasında qeyri-rəsmi qaydada razılaşdırıldıqdan sonra "hə" cavabı, adətən, ikinci görüşdə həll edilib, razılıq şirnisindən sonra "bəlgə" olub. Toy oğlan evində iki, qız evində isə bir gün çalınıb. Qız alan tərəf bütün xərcləri ödəyib və el arasında buna "toy" kəsimi deyilib. Gəlin gətirilən vaxt toy evinə 3-5 kilometr qalmış əvvəlcədən

hazırlanmış atlılar yarışa durub və kimin atı toy evinə tez çatıbsa, nəmərlə mükafatlandırılıb. Atın boyuna dərhal bir qırmızı kələğayı, yaxud ipək parça bağlanıb. Ailə quran qıza yaxınlarından bacı tutulub və onlar oğlanın qardaşlıqları ilə "şah" bəzəyiblər. Yolkaya bənzəyən "şah"ın üstü şokalad və konfetlə dolu olub. Gəlin, adətən, piyada aparılıb. Ən maraqlı məqam isə çalğıçıların "Güləşəngi" havasını çalmaları, bəyin ata-anasının bu havaya güləş tutmaları olub. İştirakçılar qadının tərəfini saxlayıb, kişinin ayağından tutaraq yıxıblar. Bu həm də yeni evlənənlərə güclərini göstərmək anlamına gəlib. Gəlinin qarşısında heyvan kəsilməsi, onun boşqab sındırması da ənənədən olub. Daha bir maraqlı məqam bəyin evin başına çıxaraq əlində tutduğu almanı gəlinin başına vurması olub. Deyilənə görə, almanın vurulması dözümlü olmaq anlamı verib. Almadan sonra gəlinin başına konfet və pul tökülüb. Evə keçən gəlinin qarşısına düzdükləri çörək və lavaşları sağ əliylə sol çiyninə, qəndi isə ağzına qoyurdu. Bu da gəlinin ayağının bərəkətli olması ilə izah edilib. Bundan sonra iki qadın zurnaçıların müşayiəti ilə "Gəlin tərifi" oxuyublar. Qaraçanta toylarını Vlademir, Yunis Əliyev qardaşları və Bəysafa Əliyev aparırdı [8].

Qeyd etdiyimiz kimi, bu mahalda əhali dindar olub və son mənzilə yola salınan şəxs üçün bütün dini ayinlərə əməl edilib. Mərhumun son nəfəsində "Yasin" surəsi oxunur, kənd məscidinin qarşısında meyit namazı qılınır, "mərhumun haqqını halal edin", - deyilirdi. Mərhumun qırxı çıxmamış xeyir iş edilmirdi, edilsəydi belə mərhumun evinə gedilər və icazə alınardı. Ağbaba-Şörəyel mahalının Aşıq Nəsib, Aşıq Şenlik, Aşıq İsgəndər, Aşıq Faxur, o cümlədən qaraçantalı Aşıq Musa kimi adlı-sanlı aşıqları çox olub. Aşıq Musa Nəcəf və Fatmanın yeganə övladı olmayıb. Onun Xeyrulla adlı qardaşı və Laləzar adlı bacısı olub. Aşıq Musa 32, Xeyrulla Qurbanov isə 19 yaşında Böyük Vətən müharibəsi iştirakçısı olub və heç biri geri dönməyib. Laləzar isə Ellərkəndli Molla Sait ilə ailə qurub. Molla Sait Heydər və Əkbər adlı oğlanları ilə Qarsa köçüblər. Aşıq Musa güclü səsə, zəngin söz ehtiyatına malik şəxs olub. O, Gümrüdən Qaraçantaya adəti üzrə sazı qoynunda çala-çala gələr və sazın səsi ətrafı bürüyərmiş. Aşıq Musa gözəl məclis aparar, "Şah İsmayıl", "Abbas və Gülgəz", "Əsli-Kərəm", "Leyli və Məcnun"dan danışarmış [3].

1930-40-cı illər Qaraçantanın qara günləri kimi tarixə düşüb. Onlarla insan repressiyaya məruz qalıb, həbsə atılıb, sürgün edilib, bəziləri isə Türkiyədə sığınacaq tapıblar. Böyük Vətən müharibəsi Ağbaba-Şörəyel mahalına böyük zərbə vurub. Müharibə dövründə minlərlə adam səfərbər olub. 1941-ci ilin 23 iyunundan 1945-ci ilin aprel ayına qədər 750 nəfər sakini olan Qaraçantadan 150 nəfər, hətta bir ailənin 4-5 üzvü eyni vaxtda müharibəyə çağırılıb və yarıdan çoxu geri qayıtmayıb [8].

Birinci və İkinci Qarabağ müharibəsində qaraçantalı igidlər torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıblar. Milli qəhrəman Səxavət Məhərrəmov, "Azərbaycan bayrağı" ordenli, mayor Məhərrəm Seyidov, baş leytenant Daşqın Səmədov, leytenant Tələt Əliyev, Arslan Bayramov, Mehman Məhərrəmov, Əli Rəfiyev, Şair Rzayev və Elvin Həsənovun əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Qərbi Azərbaycandan son deportasiyadan 36 il keçir. Bu gün Qərbi Azərbaycan İcması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəllifi olduğu Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına uyğun olaraq, sıx şəkildə işləyir, onun strateji məsələ kimi ölkənin gündəmində olduğunu nəzərə alaraq, bütün rayon icmaları kimi Amasiya rayon icması da koordinasiyalı şəkildə fəaliyyət göstərir.

Qərbi azərbaycanlıların prosesə ümumi yanaşmasından da aydın olur ki, onların ötən 36 ildə doğma torpaqlarına qayıdacaqlarına inamları heç vaxt tükənməyib, ümidləri itməyib. Ağbaba-Şörəyel mahalının 27 kəndindən biri olan Qaraçanta sakinləri ona dönəcəyinə inanır. Birlik, bərabərlik, qardaşlıq rəmzi olan "Yallı"nı qoynunda ifa edəcəklərinə, ata-baba torpaqlarına, doğma yurd-yuvalarına, evlərinə, məktəblərinə, kitabxanalarına, dükan-bazarlarına, bulaqlarına, yollarına, dağlarına, dərələrinə çox ehtiyacları var.

ƏDƏBİYYAT

1. Əskərov, B. Ağbabada qalan izlər. Sumqayıt: 2000, 194 s.
2. Qaraçantada qalan çantam, Almaz, Solmaz və mən. Modern.az, 2021, 22 sentyabr. https://modern.az/edebiyyat/308612/qaracantada-qalan-cantam-almaz-solmaz-ve-men/
3. Qaraçanta, Hülley dağı və ya ümidlərin közərdiyi yazı. Bizimmedia.az 2023, 09 iyun. https://bizim.media/az/cemiyyet/140617/
4. Qaraçanta-Əzizbəyov məlumat kitabı. Bakı: 2004, 96 s
5. Mustafa, N., Qoca, Ş., Səmimi, T. İki elin bir yaddaşı. Bakı: Nurlan, 2010, 228 s.
6. Murtaza Qaraçanta kimdir? Musavat.com, 2014, 03 aprel, https://musavat.com/news/son-xeber/Murtaza-Qaracanta-kimdir_189413.html
7. Səmimi, T. Qaraçanta. Bakı: "SkyG", 2023, 445 s.
8. Yəhyaqızı, P. Dumanda itən vətən. Bakı: Adiloğlu, 2004, 370 s.

ABSTRACT

Parvana IBRAHİMOVA, Konul NİFTALİYEVA

AGBABA-SHORAYEL'S GARACHANTA: HISTORY, CULTURAL HERITAGE, TRADITIONS

The article discusses Ağbaba-Şörəyel, located in the Amasya district of Western Azerbaijan, specifically focusing on the village of Qaraçanta (Azizbeyov), one of the 21 Azerbaijani villages in the area. It covers the history, cultural heritage, and traditions of the village. Additionally, it provides information about education in Qaraçanta, the village's clans, the occupations of its inhabitants, the repressions of the 1930s-40s, and the heroic Qaraçanta villagers who fought valiantly for the territorial integrity of Azerbaijan in the First and Second Karabakh wars and became martyrs. The article also addresses the Concept of Return to Western Azerbaijan and the activities of the Amasya district community.

Keywords: *Western Azerbaijan, Amasya, Ağbaba-Şörəyel, Qaraçanta, deportation, yalli (traditional dance)*

QƏRBİ AZƏRBAYCANIN ADƏT-ƏNƏNƏLƏRİ

Əpoş VƏLİYEV
elyarvelisoy@mail.ru
AMEA Folklor İnstitutu

XÜLASƏ

Qərbi Azərbaycan — indiki Ermənistan Respublikasının əhatə etdiyi, tarixən azərbaycanlıların yaşadığı məkandır. XX əsrdə Azərbaycanlıların Ermənistandan deportasiyası və köçürülməsi nəticəsində hazırda Ermənistan Respublikasında azərbaycanlılara məxsus heç bir yaşayış məntəqəsi qalmamışdır. Qərbi Azərbaycan mövsüm və məişət mərasimləri ilə çox zəngin bir bölgədir. Qərbi Azərbaycanın hər mahalında, hər kəndində Xıdır Nəbi adlanan bayram qeyd olunurdu. Milli bayramımız olan Novruz bayramı da Qərbi Azərbaycanda təmtəraqla keçirilirdi. Keçmişdə Qərbi Azərbaycan toyları adət-ənənələrlə zəngin idi. Həmin adət-ənənələr günümüzədək qorunub saxlanılmışdır. Qurban bayramı da Qərbi Azərbaycanda yüksək səviyyədə qeyd olunurdu.

Açar sözlər: *Qərbi Azərbaycan, Novruz, Xıdır Nəbi, Qurban bayramı, adət-ənənə*

XIX əsrin 30-cu illərindən etibarən kütləvi şəkildə köçürülərək qədim türk-oğuz yurdu olan tarixi Azərbaycan torpaqlarında özləri üçün dövlət quran ermənilər tədricən bu ərazidə möhkəmlənmiş və daha sonra xarici havadarlarının köməyi ilə müxtəlif zamanlarda azərbaycanlılara qarşı bir neçə dəfə soyqırımlar törətmiş, onları doğma ata-baba yurdlarından sıxışdırıb çıxararaq etnik təmizləmə aparmışdır. Ermənilərin vəhşiliyinin və vandallığının nəticəsində Qərbi azərbaycanlılar ölkəmizin bir çox şəhər və kəndlərinə, hətta Orta Asiyaya və digər yerlərə qədər səpələnmişlər. XX əsrin əvvəllərində - 1905, 1918-20, 1940-50-ci illərdə, daha sonra 1988-ci ildən başlayaraq ermənilərin həyata keçirdikləri soyqırımlar nəticəsində Qərbi azərbaycanlılar öz doğma torpaqlarında özlərini təhlükədə hiss edərək təzyiq və təhqirlərə məruz qalmış, didərgin düşərək onların bir hissəsi Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə də Naxçıvan Muxtar Respublikasında yaşamağa başlamışlar (1). Bu hadisələrdən uzun illər əvvəl ermənilər tarixi türk toponimlərini ya erməni dilinə tərcümə edir, ya da elə özləri istədikləri ermənicə adlar verərək gələcəkdə bu torpaqlarda azərbaycanlıların yaşadığının sübutlarını təmizləyirdilər. Hələ Qərbi azərbaycanlılar köçməmişdən xeyli əvvəl ermənilər kəndlərin, tarixi yerlərin, abidələrin adlarını ermənləşdirərək oradan azərbaycanlıların izlərini silməyə çalışırdı. Qərbi Azərbaycanın yurd yerlərinə nəzər saldıqda həmin ərazilərdə heç bir erməni adına rast gəlinmir. Ermənilər təcili surətdə yer adlarını dəyişməklə, xalqımıza məxsus əbədi və əzəli yaşayış məskənlərini erməni adları ilə adlandırmaqla bu yerlərin onlara məxsus olması iddiasını irəli sürürdü. Onlar bu iyrənc və vandal əməllərini Qarabağ və işğal etdikləri digər rayonlarda da həyata keçirmişdilər. Azərbaycanlıların yaşadığı kəndlərə Suriya, Livan və Fransadan erməni ailələr köçürülərək soydaşlarımızın evləri həmin ermənilərə verilirdi. Şahidlərin dediyinə görə xaricdən köçürülən ermənilər həddindən artıq millətpərəst olduqları üçün azərbaycanlılara qarşı daha aqressiv münasibət göstərirdilər (2).

Ümummilli lider Heydər Əliyev Qərbi Azərbaycan siyasi düşüncəsini hər zaman diqqət mərkəzində saxlamaqla onu konseptual tezislər şəklində öz çıxışlarında irəli sürürdü. 1998-ci il 9-11 dekabr tarixində Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumunda Heydər Əliyev beynəlxalq auditoriyaya müraciət edərək Qərbi Azərbaycanla bağlı tarixi gerçəkliklərə toxunur. O, deyir: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda İslam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır" (5).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki çıxışı ilə Qərbi azərbaycanlılarda ata-baba yurdlarına tezliklə qayıdacaqlarına böyük inam yaratdı. Ali Baş Komandan çıxışının bir hissəsində deyir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu

göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar" (5).

Qərbi Azərbaycan ərazisi ermənilərin əlinə keçdikdən sonra təkcə torpaqlarımız, abidələrimiz yox, həm də sanki həmin ərazilərdə uzun illərdən bəri yaşadılan, icra edilən adət-ənənələrimiz, mərasimlərimiz, folklorumuz da ayaqlar altında qaldı. Ermənilər azərbaycanlılara məxsus olan hər şeyi bacardıqca ən tez bir zamanda məhv etməyə çalışırdılar. Qərbi azərbaycanlılar öz ata-baba yurdlarında heç vaxt ermənilərin qadağalarına məhəl qoymamış, xalqımıza məxsus bütün adət-ənənələr qorunub saxlanılmışdır. İstər dini mərasimlər, istərsə də milli bayramlarımız soydaşlarımız öz doğma yurdlarından didərgin düşən günə qədər keçirilmişdir.

Qərbi Azərbaycan, o cümlədən İrəvan bölgəsi mövsüm və məişət mərasimləri ilə çox zəngin bir folklor regionudur. Bu mərasimləri bölgə insanları minillər boyunca yaşatmışdır. Uzun illər əvvəl didərgin düşərək Azərbaycanın müxtəlif bölgələrində yaşayan Qərbi azərbaycanlılar öz adət-ənənələrini mərasimlərini unutmamış, nəsildən-nəslə ötürərək bugün də yaşadırlar. Novruz bayramı, Qurban bayramı, Çillələr, Xıdır Nəbi bayramı, eləcə də toy mərasimləri soydaşlarımız öz ata-baba yurdlarından məcburi qovulan zamana qədər yaşadıqları ərazilərdə təmtəraqla qeyd edilmişdir.

Tarixi torpaqlarımız olan Qərbi Azərbaycanın hər mahalında, hər kəndində Xıdır İlyas, Xıdır Elləz və ya Xıdır Nəbi adlanan bayram da qeyd olunurdu. "Suyun, külək və havanın" himayəçisi" kimi təqdim edilən Xıdır Nəbinin şərəfinə keçirilən bu bayram üçün sacda buğda qovrulur, qovut hazırlanırdı. Qovrulmuş buğdanın yanına qarğıdalı, şabalıd, badam, noxud, küncüt, günəbaxan toxumu və s. də qovrularaq qarışdırılır. Qovutu hazırlamaq üçün kirkirədə çəkilmiş qovurğanın narın hissəsindən bir qaba tökülür, üstünə doşab əlavə edilərək qarışdırılır. Ovucda sıxılaraq bərkidilir və sinilərə yığılaraq süfrəyə qoyulur. Xıdır Nəbi bayramında uşaqlar eynilə Novruz bayramındakı kimi qapı-qapı gəzərək bayram payı alırlar (3).

Qərbi Azərbaycanda Novruz bayramına hazırlıq işləri çillələrin qurtarmasından dərhal sonra başlayardı. Professor M.Təhmasibin "hər biri yeddi gündən ibarət olan dörd balaca çillə" dediyi və kiçik çillədən Novruza qədərki bir ayı əhatə edən həmin "üçüncü çillə" Qərbi Azərbaycanda boz ay, "dörd balaca çillə" isə "cəmlə"adlanırdı. Kiçik çillənin son gecəsi "cəmlə torpağa düşür"— deyərdilər. Yəni yer nəfəs almağa başlayır. Bundan sonra cəmlə suya, oda, havaya düşərdi. Bu müddətdə, yəni bayrama qədər həyət-baca təmizlənər, ev-eşik səliqə-sahmana salınardı. Bayramqabağı bütün evlərdə "evtökmə" və ya "paltartökmə" mərasimi icra olunardı. Yəni bütün ailələr evin paltar-palazını, yorğan-döşəyini günə atar, ev-eşiyi, qapı-pəncərələri yuyar, təmizləyər, bir sözlə, bunu bayramı qarşılamağın ilk şərti hesab edərdilər (4).

Bayramqabağı dörd çərşənbə axşamının hər birində isə küçələrdə böyük tonqallar yandırılardı. Bayramdan bir neçə gün öncə bütün evlərdə yumurta boyayardılar. Yumurtanı boyamaq üçün böyük bir qazana çoxlu soğan qabıqları tökər, sonra yumurtaları onun içərisinə atardılar. Su qaynayan zaman yumurtalar qıp-qırmızı olardı. Boyanmış yumurtalardan qapıya gələn uşaqlara da pay verilərdi. Sonra uşaqlar bir yerə yığışaraq yumurta döyüşdürərdi. Qərbi Azərbaycanda Novruz bayramının ən gözəl adət-ənənələrindən biri də bayramlaşmaq idi. Hər kəs özünə borc bilərək ağsaqqal və ağbirçəyinin bayramını təbrik edər, küsülüləri yığışıb barışdırardılar. Nişanlı qızlara oğlan evi xonça tutar, pay gətirərdilər. Nişanlı oğlana isə qız tərəfi pay göndərər, payın içində də mütləq qırmızı yumurtalar olardı (3).

Qərbi Azərbaycanda Novruz bayramı şənlikləri zamanı xoruz və kəl də döyüşdürərdilər. Bundan başqa həm də həmin şənliklərdə pəhləvanlar da iştirak edər, güləşər, ağır çəkili daşlarla müxtəlif hərəkətlər göstərərdilər. Bəzən bir kəndin qalib pəhləvanı başqa kəndlərdəki pəhləvanlarla güləşməyə də gedərdi (3).

Novruz bayramı ilə bağlı insanlar arasında zaman-zaman çoxlu inanclar, inamlar və sınamalar da yaranmışdır. Qaraqoyunlu mahalında İlaxır çərşənbə ilə bağlı aşağıdakı inamlar qeydə alınmışdır:

– "İlin axır çərşənbəsində ürəyində niyyət tutaraq hava qaralandan sonra xəlvətcə gedərsən qonum-qonşunun qapısına. Qapı dalında durub, ayağının altına açar atıb içəriyə qulaq asırsan: eşitdiyin ilk kəlmə niyyətinin yerinə yetib-yetmədiyinə nişan verir. İlk kəlmə xoş mətləbə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyətin baş tutacaq. Əgər içəridən pis söz, narazılıq, nigarançılıq bildirən bir kəlmə eşidirsənsə, onda istəyinə çatmaq çətin olacaq".

– "Axır çərşənbə gecəsinin səhəri sübh tezdən durub axar su üstünə getmək, suya salam verib üstündən üç dəfə atdanmaq, sonra da həmin sudan bir qab gətirib həyət-bacaya, evin dörd bucağına səpmək lazımdır. Deyirlər ki, belə edəndə ilin xoş gələr, ağrı-acı görməzsən ".

– "Axır çərşənbə gecəsində un çuvalının ağzını açıq qoyarlar ki, bərəkət paylananda bağlı qalmasın".

– "İlin axır çərşənbəsində axar suyun qabağını kəsmək olmaz, onda sənə sədəmə toxunar, işlərin dolaşar".

– "Axır çərşənbə axşamında yandırılan tonqalın üstündən adamlar atdanıb qurtarandan sonra mal-qaranı, qoyun-quzunu da adladırlar ki, çillədə qalmasınlar. Çillə köhnə ilin ağrı-acısı, qada-balasıdı, ocaqdan adlayanda hamısı tökülüb odla yanır".

– "Axır çərşənbə axşamında ov tüfənginə giliz qoyub boşuna atarlar ki, çillədən çıxsın. Əgər həmin məqamda tüfəngi doldurub atmasan, çilləyə düşüb il boyu hədəfi düz vurmaz, ovdan, quşdan yayınarsan" (4).

Qərbi Azərbaycanın toy adətləri ümumilikdə Azərbaycanın digər bölgələrindəki toy mərasimlərindən elə də çox fərqlənmirdi. Keçmişdə demək olar ki, Azərbaycanın bütün bölgələrində toy adətləri oxşar idi. Amma Qərbi Azərbaycan toylarında regiona xas spesifik xüsusiyyətlər də var idi. Toy zamanı görülən bütün işlərdə ağsaqqal və ağbirçəklərin rolu böyük olar, onların xeyir-duası mütləq alınardı. Bu adət-ənənə Kitabi-Dədə Qorquddan günümüzədək yaşadılan ən gözəl adətlərimizdəndir. Keçmişdəki evlilikər zamanı valideynlər, tayfa böyükləri gənclərin kiminlə ailə qurmasına qərar verər, gənclərsə "atam, ağssaqqalım kimi məsləhət bilibsə razıyam" deyərdi. Uzun illər öncə Qərbi Azərbaycan toyları adətən yeddi gün-yeddi gecə keçirilirdi. Böyük çadırlar qurular, toy şənliyi axşamdan başlayıb gecə yarısına kimi davam edərdi. Məclisdə açıqlar da olardı. Toyu həmin kəndin, mahalın hörmətli ağsaqqalları idarə edərdi. Adətən toylar payız vaxtı baş tutardı. Bu zaman elat dağdan arana enər, meyvə-tərəvəz, ərzaqlar da bol olardı. Bu zaman biçin də bitmiş olar, arpa-buğda anbara yığılardı. Toydan qabaq oğlan evinin ağsaqqalları və qız evinin ağsaqqalları bir araya gələr, "xərci-xörək" deyilən bir sövdələşmə edərdilər. Oğlan evi qız evinə "başlıq" deyilən hansısa miqdarda pul verər, qız evi isə cehizlik hazırlayardı. Keçmişdə gəlinin başına qırmızı yaylıq və ya kəlayağı atar, atla oğlan evinə aparardılar. Toyun birinci günü oğlan evinın adamları çalğıçılarla birlikdə qız evinə gedər, burada "paltar biçdi", "parça biçdi" deyə bir adət yerinə yetirilərdi. Bu məclisdə ancaq qadınlar iştirak edirdi. Həmin gün gecə isə qız tərəfinin adamları (gəlin getməzdi) bəy üçün xına aparar, "nəmər" alardı (3).

Ağbaba bölgəsində xınayaxdıda ən xarakterik mərasimlərdən biri nanayların oxunması idi. İndiki toylarda gəlini çırağın başına fırladırlar. Amma Qərbi Azərbaycan toylarında gəlini ya ocağın, ya da təndirin başına döndərirdilər. Bu, gəlinin öz evindən, ocağından xeyir-dua alması və köçdüyü ocağa aparması demək idi. Toyun əvvəlindən axırına qədər gəlinin üzü duvaq ilə örtülü olurdu. Heç kim gəlinin üzünü görməzdi. Ata evindən köçərkən gəlin özü ilə çörək, sandıq, eyni zamanda bir qazan halva aparardı. Bu, şirinlik əlaməti idi. İndi bu adət-ənənələr bir qədər dəyişib. Bundan əlavə, qız ata evindən gedəndə onun əlinə pul qoyub bağlayardılar. Yəni, qız özü ilə getdiyi ocağa ruzi-bərəkət aparsın (6).

Qərbi Azərbaycanda Qurban bayramı da yüksək səviyyədə keçirilirdi. Qurbanlıq cöngə, dana və qoçlar əvvəlcədən seçilir, bəslənir, bayram günü gün çıxmamışdan kəsilirdi. Kəsilən qurbanın əti qohum-əqrabaya, qonşulara və imkansız şəxslərə paylanırdı. Adətə görə Qurban bayramında nişanlı qızlara oğlan evi tərəfindən qurbanlıq qoç və pay da göndərilirdi.

Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın ən qədim, təbiətinə görə isə ən zəngin bölgələrindən biridir. Qərbi Azərbaycan adət-ənənələrinin qorunaraq nəsildən-nəslə ötürmək üçün yaşadılması olduqca vacib məsələdir. Bu adət-ənənələr xalqımızın zəngin mədəniyyətini, tarixini, eləcə də mənəvi dəyərlərini özündə birləşdirir.

ƏDƏBİYYAT

1. Qərbi Azərbaycan folkloru, I cild. Bakı, "Elm və təhsil", 2023, 400 s.
2. Qərbi Azərbaycan folkloru, II cild. Bakı, "Elm və təhsil", 2023, 414 s.
3. Əpoş Vəliyevin Qərbi azərbaycanlılardan topladığı folklor nümunələrindən.
4. https://anl.az/el/emb/Qerbi_Azerbaycan/merasim.htm
5. https://president.az/az/articles/view/58330

ABSTRACT

Apoş VALİYEV

TRADITIONS OF WESTERN AZERBAIJAN

Western Azerbaijan is a place surrounded by the present Republic of Armenia, historically inhabited by Azerbaijanis. As a result of the deportation and resettlement of Azerbaijanis from Armenia in the 20th century, there are no settlements belonging to Azerbaijanis left in the Republic of Armenia. Western Azerbaijan is a very rich region with seasonal and household ceremonies. A holiday called Khidir Nabi was celebrated in every district and village of Western Azerbaijan. Nowruz, our national holiday, was also celebrated in West Azerbaijan with pomp. In the past, West Azerbaijan weddings were rich in traditions. Those traditions have been preserved to this day. The "Kurban bayrami" was also celebrated at a high level in Western Azerbaijan.

Key words: *Western Azerbaijan, Nowruz, Khidir Nabi, Kurban bayrami, tradition*

Foto qalereya
































KORG




















KORG


KORG


KORG
KORG












QIRXBULAQ
KORRUBASAR














DİLİCAN MAHALINA XOŞ GƏLMİSİNİZ!








TOYUNU
MUBARƏK






"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL/KONQRES


"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL/KONQRES
21-22 iyun 2024








"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL/KONQRES
21-22 iyun 2024
Naxçıvan












İŞTİRAKETMƏ VƏRƏQƏSİ


İŞTİRAKETMƏ VƏRƏQƏSİ




MATERİALLARI


NDU


NDU


NDU


NDU




NDU


ERIVAN




NDU


NDU


Qərbi Azərbaycana qayıdış:
tarixi torpaqlarda
maddi-mədəni irsimiz
II CİLD
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ
Tarixi Azərbaycan torpaqlarında
maddi-mədəni irsimiz
I CİLD



Nəşriyyat direktoru:	Məhəmmədəli Məmmədli
Nəşriyyat baş redaktoru:	Zəhra Rəhimova
Nəşriyyat redaktoru:	Zərri Məmmədova
Aparıcı korrektor:	Sitarə Əlizadə
Korrektor:	Meyxanım Məmmədova
Mətbəə müdiri:	Vidadi Kazımov
Qrafik-dizayner:	Sahilə Abbasova

Çapa imzalanmışdır: 22.12.2025
Formatı: 60x90, 16/1, həcmi: 154.5 ç/v.
Tiraj 97, sifariş № 004

NDU NƏŞRİYYAT

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ